NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ

İSSN 2224-0829

# ELMİ ƏSƏRLƏR
İCTİMAİ ELMLƏR SERİYASI

# SCIENTIFIC WORKS
SERIES OF SOCIAL SCIENCES

# НАУЧНЫЕ ТРУДЫ
СЕРИЯ СОЦИАЛЬНЫХ НАУК

№ 2(83)

NAXÇIVAN, NDU, "QEYRƏT" - 2017

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2017, № 2 (83)**

NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2017, № 2 (83)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2017, № 2 (83)**

# TARİX

**İSMAYIL HACIYEV**
*AMEA Naxçıvan Bölməsi*

**UOT: 94 (479.242)**

## NAXÇIVAN AZƏRBAYCANDA DÖVLƏTİN BƏRPASI UĞRUNDA MÜBARİZƏ DÖVRÜNDƏ (1917, fevral-1918, may)

***Açar sözlər:*** *Xüsusi Zaqafqaziya Komitəsi, ikihakimiyyətlilik, Zaqafqaziya Komissarlığı, Zaqafqaziya Seymi, Naxçıvan Milli Komitəsi, Batum müqaviləsi*

***Key words****: Special Transcaucasian Committee, dual authority, Transcaucasian Commissariat, Transcaucasian Seym, Nakhchivan National Committee*

***Ключевые слова:*** *Особый Закавказский Комитет, двоевластие, Закавказский Комиссариат, Закавказский Сейм, Нахчыванский национальный Комитет, Батумский договор*

1917-ci il fevralın 27-də Rusiyada çarizm devrildikdən sonra rus imperiyasının hər yerində olduğu kimi, Naxçıvan diyarında da ikihakimiyyətlilik yaranmışdı. Bir tərəfdən diyarda qəza komissiyalarının və ictimai təşkilatların kənd icraiyyə komitələrinin timsalında Müvəqqəti hökumətin hakimiyyəti yaranmış, digər tərəfdən isə Naxçıvanda əlahiddə fəhlə və əsgər deputatları sovetləri, Culfa şəhərində, habelə Şahtaxtı dəmir yolu stansiyasında əsgər sovetləri təşkil edilmişdi. Mütləqiyyətin devrilməsi Cənubi Qafqazda siyasi prosesləri sürətləndirdi və sonrakı dövrdə hadisələrin inkişafına ciddi təkan verdi. Müvəqqəti hökumətin ilk addımlarından biri Cənubi Qafqazın idarə edilməsi ilə bağlı xüsusi qurum yaratmaqdan ibarət oldu. Bu məqsədlə mart ayının 9-da Cənubi Qafqazı idarə etmək üçün Xüsusi Zaqafqaziya Komitəsi (OZAKOM) yaradıldı. Xüsusi Zaqafqaziya Komitəsi elə həmin aydan başlayaraq, bütün Cənubi Qafqazda, o cümlədən Azərbaycan qəzalarında Müvəqqəti hökumətin hakimiyyət orqanları olan ictimai təşkilatların icraiyyə komitələrini və komissarlıqları yaratmağa başladı (5, s.36-37). Naxçıvan və Şərur qəzalarında isə Xüsusi Zaqafqaziya Komitəsinin vəkalətli komissarları 1917-ci il aprel ayının axırlarında təyin edildi. Yalnız 1917-ci ilin mayında Xüsusi Zaqafqaziya Komitəsinin müvəkkilləri Naxçıvanda yerli hakimiyyət orqanları - qəza və kənd ictimai təşkilatları icraiyyə komitələrinin təşkilinə başlamışdılar. Sonrakı aylarda kənd ictimai təşkilatlarının icraiyyə və ərzaq komitələrinə seçkilər keçirilmiş, 1917-ci ilin yayında isə Naxçıvan diyarında müvəqqəti hökumətin yerli hakimiyyət orqanlarının yaradılması prosesi başa çatdırılmışdı (4, s.14-15).

Müvəqqəti hökumətə tabe olan Xüsusi Zaqafqaziya Komitəsi Cənubi Qafqazda mülki işləri idarə etmək üçün təsis edilmişdi, qanunvericilik hüququna malik deyildi. Cənubi Qafqaz kimi mürəkkəb və çətin regionda sabitliyi təmin etmək üçün əsaslı addımlar atmaqda acizlik göstərən Xüsusi Komitə və onun yerli orqanları əslində hadisələrin gərginliyi fonunda batıb qalırdı. Bu da öz növbəsində, bir çox bölgələrdə ikihakimiyyətliyin yaranmasına gətirib çıxarırdı (3, s.68).

Rusiyada Fevral inqilabının qələbəsi və mütləqiyyətin devrilməsi əsarət altına alınmış müstəmləkə xalqları arasında azadlıq əldə etmək ümidlərini artırdı və milli azadlıq hərəkatının genişlənməsinə səbəb oldu. Azərbaycan xalqı Fevral inqilabı xəbərini böyük sevinclə və ruh yüksəkliyi ilə qarşıladı. Fevral hadisələrindən sonra "Müsavat" partiyası açıq fəaliyyətə başladı. Gəncədə "Federalistlər" partiyası, İrəvanda "İrşad" milli partiyası təsis edildi. Fevral inqilabından sonra Naxçıvan, Culfa və Ordubad şəhərlərində əhalinin milli tərkibinə uyğun olaraq "qarışıq milli komitələr" yarandı (5, s.37). Milli komitələr milli hərəkatın qarşısında duran vəzifələri müəyyən edən tələblər hazırlamaqla yanaşı, şəhər dumaları və digər təşkilatlarla birgə Naxçıvan diyarında yerli hakimiyyət orqanlarının möhkəmləndirilməsinə də kömək edirdilər. Eyni zamanda, milli komitələrin silahlı qüvvələrinin yaradılmasına başlandı. Milli komitələrdə təmsil olunan başlıca partiyalar - müsavatçılar və daşnaklar öz qüvvələrinin sayını artırmaq məqsədilə yerlərə təşkilatçılarını göndərdilər. Əlbəttə, ilk vaxtlar belə tədbirlər, daha çox demokratik vasitələrə riayət etməklə həyata keçirilmişdi. Belə bir cəhəti qeyd etməliyik ki, Naxçıvan diyarında azərbaycanlıların əhalinin böyük əksəriyyətini təşkil etməsi onların qarışıq milli komitələrdə də təmsil olunmasında özünü gostərirdi. Belə vəziyyət daşnakların xeyrinə olmadığından onlar müxtəlif fitnəkar tədbirlərə əl atır, milli düşmənçiliyi qızışdırırdılar. Bu isə, təbii olaraq müsavatçıların və daşnakların qarışıq milli komitələrdə birgə fəaliyyət göstərməsini getdikcə çətinləşdirirdi. Milli komitələrin "milli hissələr" bayrağı altında öz silahlı qüvvələrini yaratması erməni fitnəkarlarının təhlükəli mövqe tutmasına imkan verirdi. Lakin Naxçıvan Milli Komitəsində müsavatçıların mövqeyinin güclənməsi, onların başçılığı ilə silahlı qüvvələrin yaradılması dinc əhalinin daşnakların fitnəkar hərəkətlərindən qorunmasında böyük rol oynadı. Hadisələrin sonrakı inkişafı bunu bir

daha təsdiqlədi. Naxçıvanda fəaliyyət göstərən sovetlərin işi ilə bağlı qeyd etmək lazımdır ki, onlar daha çox rus ordu hissələrinə arxalanırdılar. Məsələn, 1917-ci il martın 9-da Naxçıvanda ştabs-kapitan Prokopoviçin təşəbbüsü ilə yaradılan qarnizon komitəsi fəaliyyətinin ilk günlərində qarnizon rəisi Qrippenberqi vəzifəsindən kənar etmiş, Tiflis qarnizonu Sovetinin İcraiyyə Komitəsi ilə əlaqə yaratmağa çalışmışdı. Martın ortalarında Şahtaxtı Soveti 6-cı Qafqaz fəhlə batalyonunun polkovniki Vişkonu həbs etmişdi. İlk vaxtlar Sovetlərin fəaliyyətində yerli əhali demək olar ki, iştirak etməmişdi. Bu hal təsadüfi deyildi. Çünki rus qoşun hissələri Naxçıvandan çəkildikdən sonra Sovetlərin fəaliyyəti xeyli zəifləmiş və onlar Naxçıvan milli komitəsi tərəfindən dağıdılmışdı.

1918-ci ilin əvvəllərində Naxçıvan ciddi təhlükəyə məruz qaldı. Türklərə qarşı mübarizə aparmaq pərdəsi altında daşnakların silahlı dəstələri Naxçıvanın bir çox kəndlərini yerlə yeksan etmiş, çoxlu dinc əhalini qırmışdılar (5, s.39). Təqribən bir il ərzində erməni cəlladları İrəvan quberniyasında 197 kəndi talan etmişdilər (1, v.7). 1918-ci ilin fevralında Zaqafqaziya Komissarlığını Zaqafqaziya Seyminin əvəz etməsi və Zaqafqaziyanı müstəqil dövlətlərə parçalamaq uğrunda fəaliyyətin güclənməsi Naxçıvan Milli Komitəsindəki ziddiyyətləri daha da dərinləşdirdi və nəticədə müsavatçılarla daşnakların birgə fəaliyyət imkanları təbii olaraq aradan qalxdı. Naxçıvanın növbəti daşnak hücumlarından etibarlı müdafiəsi yalnız güclü hərbi qüvvəyə arxalanmaqla təmin oluna bilərdi. Bakının daşnakların və eserlərin əlində olduğu bir şəraitdə Naxçıvan Milli Komitəsi real köməyi yalnız türklərdən ala bilərdi. Buna görə 1918-ci ilin yazında Naxçıvan Milli Komitəsinin başçısı Cəfərqulu xan Naxçıvanski o zaman türklərin tabeliyində olan Maku xanlığına getmiş, burada Maku xanının vasitəsilə türk komandanlığı ilə əlaqə yaratmış və Naxçıvana türk hərbi dəstələri yeridilməsi barədə danışıqlar aparmışdı. Naxçıvan əhalisinin təhlükəsizliyinə heç bir təminat vermək iqtidarında olmayan Zaqafqaziya Seymi Cəfərqulu xanın belə hərəkətlərindən narazı qalmış və bunu Naxçıvan xanlarının Zaqafqaziya Seymini və Rusiyanı tanımaq istəməməsi kimi qiymətləndirmişdi (7, s.15).

Daşnakların mənfur niyyətlərinə yaxşı bələd olan türk komandanlığı hələ 1918-ci ilin fevralında Naxçıvanın təhlükəsizliyi naminə bir sıra tədbirlər görmüş və öz qoşunlarını şərq istiqamətində xeyli irəli çəkmişdi. Bu əməliyyatın vacibliyi həm də bundan irəli gəlirdi ki, o zaman Şimali İrandakı ingilis ordusu Türkiyə sərhədlərinə xeyli yaxınlaşaraq onun həyati mənafeyi üçün real təhlükə yaratmışdı. Türk komandanlığı Zaqafqaziya Komissarlığı nümayəndələri ilə danışıqlarda ingilislərə qarşı fəal döyüş əməliyyatları keçirmək məqsədilə, həmçinin, Naxçıvan və Şərur-Dərələyəz qəzalarının, eləcə də Culfa-Aleksandropol dəmir yolu xəttinin onların nəzarəti altına keçməsinin zəruriliyini qeyd etdilər. Belə olan təqdirdə, Naxçıvan diyarının da daşnakların yeni basqınlarından qorunması üçün real təminat əldə olunardı.

Zaqafqaziya Komissarlığı hələ 1917-ci il dekabrın 18-də 3-cü türk ordusunun komandanı Mehmet Vehib paşa ilə barışıq bağlasa da, türklərin yuxarıda qeyd etdiyimiz tələblərini qəbul etmədi. Bununla belə, türklərin Zaqafqaziya Komissarlığı ilə müstəqil sürətdə danışıqlara başlamaq təklifi qəbul olunmuşdu. Bu təklif mahiyyət etibarı ilə Zaqafqaziyanı Rusiyadan ayırmaq yolunda ciddi addım sayıla bilərdi.

Dördlər İttifaqı ölkələri ilə Sovet Rusiyası arasında 1917-ci ilin dekabrından başlanan Brest-Litovsk sülh danışıqları 1918-ci il martın 3-də eyni adlı müqavilənin imzalanması ilə nəticələndi. Brest-Litovsk müqaviləsinin Qafqazla bağlı IV maddəsinə görə, Sovet Rusiyası rus qoşunlarının işğalı altında olan Şərqi Anadolu vilayətlərinin boşaldılmasını və Osmanlı dövlətinə müntəzəm bir şəkildə geri verilməsi üçün əlindən gələn hər bir şeyi etməyi və 1877-1878-ci il Rusiya-Osmanlı müharibəsinin nəticəsində Osmanlı dövlətinin ödəyə bilmədiyi təzminatın əvəzi olaraq Rusiyaya verməyə məcbur olduğu Qars, Ərdəhan və Batum vilayətlərini türklərə geri qaytarmağı öz üzərinə götürdü. Bununla bağlı adı çəkilən müqavilənin VI maddəsində deyilirdi: "... Ərdəhan, Qars və Batum vilayətləri Rusiya orduları tərəfindən dərhal boşaldılacaq. Rusiya dövləti bu ərazilərin yeni idarə formasına və hüquqi durumlarına qarışmayacaq. Bu bölgələrin gələcək idarə forması qonşu dövlətlər və xüsusilə Osmanlı dövləti ilə razılaşacaq yerli əhali tərəfindən müəyyən ediləcəkdir" (3, s.111; 10, s.121; 13, s.464).

Lakin, 1917-ci ilin Oktyar çevrişindən sonra Cənubi Qafqazda yaranan Zaqafqaziya Komissarlığının, daha sonra, 1918-ci il fevralın 23-də yaranan Zaqafqaziya Seyminin Sovet Rusiyasını tanımaqdan imtina etməsi Brest-Litovsk müqaviləsinin Cənubi Qafqazla bağlı maddələrinin yerinə yetirilməsi yolunda ciddi problemlərə yol açdı. Belə ki, Zaqafqaziya Seymi bəyan etdi ki, o bolşevik hökumətini tanımır və bu səbəbdən Zaqafqaziya Seyminin iştirakı olmadan Sovet Rusiyasının imzaladığı Brest-Litvsk müqaviləsinin Qafqazla bağlı müddəalarını yerinə yetirməyəcəkdir. Bu səbəbdən Türkiyə hökuməti Cənubi Qafqazda yaranan yeni siyasi vəziyyəti nəzərə alaraq, Cənubi Qafqazla bağlı Brest-Litovskda Sovet Rusiyasına qəbul etdirdiyi müqavilə əsaslarını Zaqafqaziya Seyminə də qəbul etdirmək məcburiyyətində qaldı. Türkiyə tərəfi ilə Seym arasında aparılan bir sıra məsləhətləşmələrdən sonra Brest-Litovsk müqaviləsinin şərtlərinin yerinə yeridilməsi və sərhədlərin müəyyən edilməsi ilə bağlı tərəflər arasında Trabzonda konfrans keçirilməsi qərarlaşdırıldı. Türkiyə ilə Seym arasında Trabzon danışıqları 1918-ci il martın 14-də açıldı və aprelin 13-dək davam etdi və nəticəsiz başa çatdı. Brest sülhünü qəbul edib, Qars, Ərdəhan və Batum vilayətlərinin Türkiyəyə keçdiyini təsdiq etməklə bağlı Trabzondakı Zaqafqaziya nümayəndələri arasında, həmçinin Seymdəki fraksiyalar arasında birlik yox idi. Erməni və gürcülər

Türkiyənin tələblərini rədd edib, onunla müharibə aparmağa çalışırdılarsa, Azərbaycan fraksiyası qarşılıqlı güzəştlər əsasında Osmanlı imperiyası ilə razılığa gəlməyi təklif edirdi. Ərazi məsələlərinin müzakirəsi son anda ona gətirib çıxartdı ki, gürcülər Batumu əldə saxlamaqla Qars və Ərdəhanın güzəştə gedilməsinə razı idilərsə, ermənilər Batum və Acariyanın güzəştə gedilməsinə tərəfdar olub, Qarsın Türkiyəyə verilməsinə razı deyildilər. Azərbaycan fraksiyası isə bu fikirdə idi ki, Qars və Ərdəhanın əhalisinin əksəriyyəti türklər olduğu üçün Brest-Litovsk müqaviləsinin bu iki vilayət haqqındakı maddələri yerinə yetirilməlidir. Onların fikrincə, Acariya Zaqafqaziyanın tərkibində ayrıca müsəlman respublikasına çevrilməlidir, əgər bu mümkün olmazsa, onda o, Türkiyəyə birləşdirilməlidir. Batum isə xaricə mühüm çıxış yolu kimi Zaqafqaziyanın tərkibində qalmalıdır (3, s.132; 15, v.6). Aprelin 13-də danışıqlar kəsildi və Seym hökuməti Türkiyənin Brest-Litovsk sülhünün şərtlərinin yerinə yetirilməsi ilə bağlı tələblərinin qarşısına silahla çıxmaq haqqında qərar qəbul etdi. Nəticədə, səkkiz gün davam edən müharibə nəticəsində Osmanlı dövləti Brest-Litovsk sülhü ilə ona verilmiş ərazilərə silah gücünə yiyələndi. Bu da öz növbəsində, Batum konfransında türklərin mövqeyinin sərtləşməsinə gətirib çıxardı.

1918-ci il aprelin 22-də Zaqafqaziya Seymi Türkiyənin tələblərini qəbul etdiyini bildirdi və sülh danışıqların davam etdirilməsini xahiş etdi (8, s.92). Elə həmin gün Seym Zaqafqaziyanı müstəqil demokratik, federativ respublika elan etdi və bununla da, Zaqafqaziyanın Rusiyadan ayrılması rəsmi qaydada təsbit edildi.

Osmanlı dövləti ilə Zaqafqaziya Respublikası arasında Batum konfransı 1918-ci il may ayının 11-də açıldı və fasilələrlə iyunun 4-nə qədər davam etdi. Batum konfransının 1918-ci il mayın 11-də keçirilən ilk və son ümumi iclasında Osmanlı nümayəndə heyətinin rəhbəri Xəlil bəy Menteşə Türkiyənin tələblərini şərh edərək bildirdi ki, əgər iki dövlət arasında Brest-Litovsk müqaviləsindən sonra qan axıdılmışsa həmin müqavilənin şərtləri indiki danışıqlar üçün əsas ola bilməz (11, s.313-314). Daha sonra on iki maddə və üç əlavədən ibarət olan "Osmanlı imperiyası ilə Zaqafqaziya Konfederasyon Respublikası arasında sülh və dostluq haqqında" müqavilə layihəsi müzakirə üçün Zaqafqaziya nümayəndələrinə təqdim edildi. Bu layihədə artıq Türkiyə hərbi əməliyyatlar meydanında verdiyi qurbanların əvəzi olaraq bir sıra yeni ərazilər və imtiyazlar tələb edirdi (3, s.147-148; 6, s.38). Bu tələblərə Tiflis quberniyasının Axıska və Axalkələk qəzaları, İrəvan quberniyasının Aleksandropol (Gümrü) və Sürməli qəzaları, Eçmiədzin qəzasının Sərdarabad hissəsi, İrəvan qəzasının cənub və cənub-qərb hissəsini təşkil edən Kəmərli (Gərnibasar), Uluxanlı (Zəngibasar) və Vedibasar bölgələri, Şərur-Dərələyəz qəzasının Şərur hissəsi və Ordubad istisna olmaqla Naxçıvan qəzası, habelə Qars-Aleksandropol-Culfa dəmir yolu daxil idi. Bundan əlavə, İngiltərəyə qarşı müharibə davam etdiyi müddətdə Türkiyəyə Zaqafqaziyanın bütün dəmir yol şəbəkəsindən istifadə etmək hüququ verilməli idi (3, s.157-158). Zaqafqaziya nümayəndə heyəti isə, Brest-Litovsk müqaviləsi əsasında sülh bağlamaq üçün Batuma gəlmişdi (16, s.7). Türk tələbləri ilə bağlı nota Zaqafqaziya nümayəndə heyətinə təqdim edildikdən sonra nümayəndəlikdə gərgin bir vəziyyət yarandı və Zaqafqaziya heyətində, həmçinin Seymdə onsuz da mövcud olan fikir ayrılıqları və ziddiyyətlər daha da dərinləşməyə başladı. Batum danışıqlarında meydana çıxan ziddiyyətlər Azərbaycan nümayəndələrinin Türkiyəyə, gürcü və erməni nümayəndələrinin isə Almaniyaya sığınmasına gətirib çıxartdı ki, belə şərtlər daxilində Zaqafqaziya Federasiyasının mövcudluğu sual altında qaldı.

1918-ci il may ayının 26-da Zaqafqaziya Seyminin sonuncu iclası keçirildi və burada Gürcüstanın Federasiyadan çıxmaq haqqında bəyanatı dinlənildikdən sonra Zaqafqaziya Seymi özünü buraxmaq haqqında qərar qəbul etdi. Elə həmin gün Gürcü Milli Şurası tərəfindən Gürcüstanın müstəqilliyi elan edildi (11, s.336-338). Seymin buraxılması ilə yaranmış böhranlı siyasi vəziyyətlə əlaqədar Seymdəki Azərbaycan nümayəndələri mayın 27-də toplaşaraq Azərbaycanın idarə olunması vəzifəsini öz üzərinə götürdülər və özlərini Azərbaycanın Müvəqqəti Milli Şurası elan etdilər (2, v.46-47). Azərbaycan Milli Şurası mayın 28-də keçirdiyi ilk iclasında Azərbaycanın istiqlaliyyətinin elan olunması haqqında qərar qəbul etdi və altı bənddən ibarət "İstiqlal Bəyannaməsi"ni elan etdi (2, v.49-50). Beləliklə, Türkiyənin haqlı tələblərinə münasibətdə vahid bir fikrə gələ bilməyən Zaqafqaziya Seymi süqut edərək Azərbaycan, Gürcüstan və Ermənistan respublikalarına parçalandı.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikası Dövlət Arxivi (ARDA), f. 28, siy. l, iş 185
2. ARDA, f. 970, siy. 1, iş 1.
3. Qafarov V.Türkiyə-Rusiya münasibətlərində Azərbaycan məsələsi (1917-1922), Bakı, 2011, 474 s.
4. Mədətov Q. Naxçıvanda Sovet hakimiyyətinin qələbəsi və Naxçıvan MSSR-in təşkili. Bakı, 1958, 162 s.
5. Musayev İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər), Bakı, 1996, 328 s.
6. Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti, Bakı, 1990, s. 38
7. Sadıqov S. Naxçıvan Muxtar Respublikası tarixindən, Bakı, 1995, 144 s.
8. Svyatoxovski T. Rusiya və Azərbaycan sərhədyanı bölgə keçid dövründə, Bakı, 2000, 373 s.

9. Авалов З. Независимость Грузии в международной политике, 1918-1921 гг, Париж, 1924, с. 42.
10. Документы внешней политики СССР. Т. 1, с. 121.
11. Документы и материалы по внешней политике Закавказья и Грузии, с. 313-314.
12. Каземзаде Ф. Борьба за Закафказье (1917-1921). Баку, 2010, 328 с.
13. Edited by Anita L.P.Burdett, Richmond, Archive Editions, 1996, p. 464.
14. Caucasian Boundaries, Documents and Maps, 1802-1946.
15. BOA, HR, SYS, D, 2371, G. 6, v. 6.
16. BOA, HR, SYS, D, 2398, G. 7.

## ABSTRACT

**Ismayil Hacjiyev**

**Nakhchivan in the period of fighting for restoration of the State in Azerbaijan (1917, february-1918, may)**

In the article in the period of fighting for restoration of the state in Azerbaijan the dual authority created in Nakhchivan, authorized commissioners of Special Transcaucasian Committee, clients, “Mixed national committees” and their activities had been investigated. It is known that Transcaucasian Commissariat and the Transcaucasian Seym which has been substituted it helped the development of the conflicts in Nakhchivan National Committee result the together activity opportunity between musavat and dashnak parties had been eliminated. After destruction of Transcaucasian Seym the creation of three republics in these territories had been asserted in the article.

## РЕЗЮМЕ

**Исмаил Гаджиев**

**Нахчыван в период борьбы за восстановление Государства в Азербайджане (февраль 1917 – май 1918)**

В статье исследованы органы двоевластия, созданные в период борьбы за восстановление государственности в Азербайджане (февраль 1917 – май 1918), полномочные комиссары Особого Закавказского Комитета, «Смешанные национальные комитеты», их деятельность. Становится ясно, что Закавказский Комитет, сменивший его Закавказский Сейм, еще больше углубил противоречия в Нахчыванском национальном комитете, в результате совместная работа мусаватистов и дашнаков стала невозможной. Здесь также обосновано возникновение трёх Закавказских Республик после распада Закавказского Сейма.

NDU-nun Elmi Şurasının 30 mart 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 07).

**ZƏHMƏT ŞAHVERDİYEV**
*Naxçıvan Dövlət Universiteti*

**UOT: 94 (479.242)**

# NAXÇIVANDA HEYDƏR ƏLİYEV XƏTTİNİN DAVAM ETDİRİLMƏSİ

***Açar sözlər:*** *Naxçıvan, milli azadlıq hərəkatı, imperiya, sosial-iqtisadi inkişaf, Milli Məclis, Ali Sovet, mübarizə, sabitlik, müstəqillik*

***Key words:*** *Nakhchivan, national liberation movement, empire, social-economical development, the National Assembly, the Supreme Soviet, struggle, stability, independence*

***Ключевые слова:*** *Нахчыван, национально-освободительное движение, империя, социально-экономическое развитие, Верховный Меджлис, Верховный Совет, борьба, стабильность, независимость*

Naxçıvanda hakimiyyət dəyişiklyi Muxtar Respublikanın sosial-iqtisadi inkişafının üçüncü mərhələsinin başlanmasının əsasını qoymuş oldu. Bu dövrün özü ilk növbədə böyük çətinliklərlə, o cümlədən 1993-1995-ci illər dağıdıcılıq psixologiyası ilə qarşılansa da, qısa bir zamanda donmuş buz sındırılmış oldu və yeni-yeni nailiyyətlər əldə olunmağa başlanıldı. Doğrudan da bu dünyada insan daha çox xeyirxah əməlləri, insani keyfiyyətləri və qurub-yaratmaq əzmi ilə xatırlanır, bu işdə isə rəhbər əsas simadır. Bu mənada qısa müddətdə xalqın rəğbətini qazanan və onları öz ətrafında birləşdirən Ali Məclisin Sədri Vasif Talıbov Naxçıvanda quruculuq işlərinin miqyasının genişlənməsinə nail olmağa başlamışdır. Naxçıvanın blokada şəraitində olmasına baxmayaraq rəhbərlə yanaşı, naxçıvanlıların fədakarlığı hesabına Naxçıvan inkişaf etməyə başlamışdır. Bununla yanaşı, xalqın vəziyyətini yaxşılaşdırmaq üçün əsası Heydər Əliyev tərəfindən qoyulmuş aqrar islahat çox prinsipiallıqla, həm də qısa bir zamanda həyata keçirildi, torpaq kəndlilərin mülkiyyətinə paylanıldı. Bu hal isə kənd təsərrüfatının inkişafına geniş şərait yaratmaqla əhalinin maddi rifah halının yaxşılaşmasına səbəb oldu. Heydər Əliyevin quruculuq ideyasına söykənən Ali Məclisin sədri Vasif Talıbov ilk növbədə 1982-ci ildən tikintiləri dayandırılmış və dağılmaq təhlükəsində qalan obyektlərin bərpası qayğısına qalmışdır. Bu cür bərpa obyektlərindən Naxçıvan şəhərindəki Ticarət-Tədris Mərkəzinin, Naxçıvan Dövlət Universiteti üçün 1600 yerlik tədris korpusunun, Naxçıvan Hava Limanının, Şərur rayonundakı Sərxanlı kənd məktəbinin, Babək rayonundakı Nehrəm, Cəhri və Sirab kənd məktəblərinin, Ordubad rayonundakı Əylis kənd mədəniyyət evinin tikintilərini misal göstərmək olar. Bu cür obyektlər Ali Məclisin sədri V. Talıbovun rəhbərliyi sahəsində qısa bir müddətdə yüksək keyfiyyətlə bərpa edilərək xalqın istifadəsinə verildi.

Beləliklə, möhtərəm Heydər Əliyevin siyasətinin ana xəttini təşkil edən quruculuq missiyası ölkəmizin digər regionlarında olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da 1996-cı ildən etibarən müvəffəqiyyətlə yerinə yetirilməyə başlandı. Naxçıvan Muxtar Respublikasında son ildəki iqtisadi, siyasi, elm, təhsil, sosial mədəni, hərbi, abadlaşdırma və s. kimi sahələrdə aparılan quruculuq işləri dediklərimizə sübutdur. Blokada şəraitində olan muxtar respublikada 1991-1992-ci illərdə energetika çatışmazlığı və qışın sərt keçməsi ilə əlaqədar ağaclar kəsilib yandırılmış, yaşıllığa ciddi zərbə vurulmuşdur. Məhz yaşıllığa vurulan bu zərbəni aradan qaldırmaq üçün Heydər Əliyev hələ Azərbaycana ikinci dəfə hakimiyyətə qayıtmamışdan əvvəl, hakimiyyətinin Naxçıvan dövründə, yəni 1992-ci ilin yazından etibarən yaşıllaşdırma ayının keçirilməsi barədə qərar vermişdi. Bu qərarın yerinə yetirilməsində Ali məclisin sədri Vasif Talıbovun rəhbərliyi və təşəbbüsü ilə qəbul olunmuş muxtar respublika Ali Məclisinin 9 fevral 1996-cı il, 4 mart 1997-ci il, 9 mart 1998-ci il, 23 mart 1999-cu il müşavirələrinin qərarları, 17 fevral 2000-ci il və 15 mart 2001-ci il tarixli sərəncamları ilə yaz və payız mövsümlərində muxtar respublikada yaşıllaşdırma və abadlıq aylığı keçirilməsi işi bir ənənə halına çevrilmişdir.

Görülmüş işlərin hesabına yaşıllıq zolaqlarının əhatə dairəsi genişlənmiş və parklar salınmışdır. İftixar hissi ilə demək olar ki, blokada şəraitində olan Naxçıvanda yanacaq çatışmamazlığı üzündən meşələr doğranıb sıradan çıxsa da, 1995-2000-ci illər ərzində muxtar respublikada da meşələrin sahəsi bərpa edilib, 4126 hektara çatdırılmış, magistral yollarında, çayların sahillərinə yüz minlərlə bəzək ağacları əkilmişdir. Naxçıvanda aparılan tikinti, abadlıq, mədəni quruculuq və yaşıllaşdırma işlərinin miqyası xüsusən 1998-99-cu illərdə ölçüyəgəlməz dərəcədə artmış və qədim diyar yaşıllıqlar aləminə çevrilmişdir. Ölkə prezidenti Heydər Əliyev Azərbaycanın ayrılmaz bir hissəsi olan, öz doğma torpağı Naxçıvanda 1996 və 1999-cu illərdə səfərdə olan zaman burada keçirilən ümumdövlət əhəmiyyətli tədbirlərdən olan dahi Azərbaycan şairi Hüseyn Cavidin monumental abidəsinin açılışı və muxtar respublikanın 75 illik yubileyində etdiyi nitq və çıxışlarında son illərdə aparılan abadlıq və quruculuq işlərindən məmnun olduğunu bildirmişdir. Ölkə prezidenti muxtar respublika rəhbərliyinin bu sahədəki fəaliyyətini yüksək qiymətləndirərək böyük qürur hissi ilə demişdir: «Əgər Naxçıvanda belə bir ağır vəziyyətdə məktəb binası tikilə bilirsə, buraya daş gətirmək mümkün deyil, burada kərpic zavodu, mişar daşı və

başqa şeylər yoxdur, əgər xəstəxana, universitet binaları tikilirsə, bəs başqa yerdə niyə tikilmir? Demək, bu, təşəbbüsdən, fədakarlıqdan asılıdır. Şübhəsiz, Naxçıvanlıların öz fədakarlığı, işgüzarlığı hesabına Naxçıvan yaşayır, inkişaf edir və Naxçıvanda bütün sahələrdə quruculuq prosesi gedir». Həmçinin ölkə prezidenti 1998-1999-cu illərin buraxılış obyektləri olan akademik Zərifə xanım Əliyeva adına Naxçıvan şəhər poliklinikasının, Naxçıvan Dövlət Universitetinin yeni tədris korpusunun, Cəmşid Naxçıvanski adına Hərbi məktəbin Naxçıvan filialının, Cəlil Məmmədquluzadənin ev muzeyinin, Naxçıvan şəhərində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzdində Ticarət-Tədris Mərkəzinin və digər obyektlərin açılışı zamanı söylədiyi fikirlər, etdiyi tövsiyələr muxtar respublikanın gələcək inkişafının strategiyasını müəyyənləşdirmişdir. Naxçıvan Muxtar Respublikası 1988-ci ildən etibarən tam blokada şəraitindədir. Azərbaycanın bu bölgəsi ölkənin digər əraziləri ilə yalnız hava nəqliyyatı vasitəsi ilə birbaşa əlaqə saxlayır və aparılmış danışıqlar əsasında muxtar respublikaya İran İslam Respublikası və Türkiyə dövlət ərazisindən şose yolları vasitəsi ilə yük daşınmasına nail olunur. Eləcə də enerji çatışmazlığı da bu dövlətlərin hesabına qismən nizama salınır. Amma bütün bunlara baxmayaraq, bu regionda Heydər Əliyev məktəbindən bəhrələnən və onun quruculuq ideyasına söykənən Ali Məclisin sədri Vasif Talıbov 1995-2001-ci illərdə muxtar respublikada sosial-iqtisadi həyatda, ictimai mühitdə, elm və təhsilin inkişafında, ordu quruculuğunda gərgin iş aparmaqla, böyük nəticələrə nail olunmuşdur. Ona görə son bu beş il sadəcə desək, muxtar respublikanın yenidən və tamamilə Heydər Əliyev quruculuq xəttinə qayıdış dövrü kimi tarixə daxil olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2000-ci il fevral ayının 10-da keçirilən birinci çağırış yeddinci sessiyasında 1995-ci ildən ötən beş il ərzində əldə olunmuş nailiyyətlərdən danışarkən Ali Məclisin sədri Vasif Talıbov qeyd etmişdi ki, «Biz bu nailiyyətlərə birincisi, ölkə rəhbəri, möhtərəm Heydər Əliyevin 1969-cu ildən başladığı quruculuq və inkişaf konsepsiyasını davam etdirməyimizlə, ikincisi, 1990-1993-cü illərdə siyasi fəaliyyətinin Naxçıvan Dövründə işləyib hazırladığı muxtar respublikanın uzun müddətə hesablanmış inkişaf proqramına əməl etməyimizlə, onun icrasını həyata keçirməyimizlə nail olmuşuq».

Göründüyü kimi, bu quruculuq missiyasını prinsipiallıqla həyata keçirilməsi ilə muxtar respublikada bütün sahələr üzrə, o cümlədən sənaye, kənd təsərrüfatı, elm, təhsil, səhiyyə, mədəniyyət, idman, nəqliyyat, tikinti, abadlıq və s. kimi sahələrdə inkişaf yüksək səviyyəyə qaldırılmışdır. Ona görə də böyük fərəh hissi ilə deyə bilərik ki, son beş il muxtar respublikanm tarixində elə bir mərhələdir ki, bu dövrün tarixi təcrübəsinə söykənmədən gələcək inkişaf meyllərini proqnozlaşdırmaq çox çətin olar.

Həm də bu dövrü mülkiyyət formalarının və iqtisadi idarəetmə metodlarının dəyişildiyi, tarixi inkişafın bir mərhələsindən digərinə keçid dövrü kimi də səciyyələndiyini söyləmək olar.

Beləliklə, yuxanda apardığımız tədqiqatlardan məlum olur ki, hörmətli Ali Məclisin sədri Vasif Talıbovun rəhbərliyi ilə 1995-2001-ci illərdə görülən tədbirlərlə əlaqədar muxtar respublikada xalq təsərrüfatının inkişafına nail olunmuş və quruculuq yüksəlişi özünü ayrı-ayrı sahələrdə də ciddi şəkildə göstərmişdir.

Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışı əslində Azərbaycanın özünə qayıdışı oldu. Onun hakimiyyətə qayıdışı ilə Azərbaycanda mövcud olan gərginlik və müşkül məsələlər öz axarına düşdü. Azərbaycan xalqı azad, demokratik, hüquqi dövlət quruculuğu yolu ilə irəliləyərək, bütün ölkələr və xalqlar ilə sülh, dostluq və əməkdaşlıq şəraitində yaşamağa başladı. Müharibə şəraitinə, ağır iqtisadi vəziyyətə, 1993-1995-ci illərdə olan təxribatlara baxmayaraq, Azərbaycan yenidən bütün sahələrdə, o cümlədən dövlətçilik, ordu, mədəni, iqtisadi, siyasi sahələrdə quruculuq yoluna qədəm qoydu. Heydər Əliyev 1993-cü ilin oktyabr ayında xalq tərəfindən yekdilliklə prezident seçildikdən sonra, onun Naxçıvan Muxtar Respublikasında işləyib hazırladığı və həyata keçirdiyi sosial-iqtisadi inkişaf proqramının birinci mərhələsi başa çatdı.

## ƏDƏBİYYAT


1. "Şərq qapısı" qəzetinin: 1990-1995-ci illərdəki sayları
2. Şahverdiyev. Z., Naxçıvan Muxtar Respublikası 1991-2001 ci illərdə, Bakı, Qismət, 2002-ci il.


## ABSTRACT


**Zahmat Shahverdiyev**



**The chronologicalanalysisof historicaleventsin Nakhchivan at the end of XX century**

In the article the main goal was the exploring of this issues from historiography point of view and considering the need of events analysis took place in NAR at the end of XX century.

Azerbaijan`s integral part, Nakhchivan land passed the complex development path and lived the rich history heroically.At all stages of history, as a result of its children` efforts, the area of the region was protected from enemy attacks and developed. At the end of the 80s, the situation and difficulties

Autonomous Republic faced, was eliminated with the skill of fearless and brave children.Especially, in the summer of the 90s, the world-wide political figure HeydarAliyev`s return to Nakhchivan, his joint with the local people saved this land from future disasters, gave power and potency to the confidence and fighting of people.Indeed, in the early of the 90s, the attacks of Armenians to Nakhchivan was created complex and dangerous situation in the region.

The honorable HeydarAliyev`s election as the chairman of Supreme Assembly of NAR and the policy based on reality of the political figure saved the people and region from expected disasters. The elimination of foreign dangerous, the development and internal stability was based on those years. The direction of historical events on those years was deal with the name of the statesman HeydarAliyev.

The continue of honorable HeydarAliyev`s policy in NAR, and the events, works held in 1995-2001 dealing with this, gave special attention to the chronological analysis of historical events with the skill of VasifTalibov, the chairman of Supreme Assembly of NAR.

Thus, the chairman of Supreme Assembly of NAR VasifTalibov implemented HeydarAliyev`s policy with motherlandlove and principle, it was efforted to the exploring of achieved success scientifically.


## РЕЗЮМЕ

**Захмат Шахвердиев**

**Хронологический анализ исторических событий в Нахчыване в конце XX века**

Учитывая научную потребность в хронологическом анализе происходивших в конце XX века в Нахчыванской Автономной Республике событий, в статье поставлена цель рассмотреть эти вопросы с точки зрения краеведения.

Обосновывается мысль, что Нахчыванский край, являющийся неотъемлемой частью Азербайджана, проходя очень сложный, тернистый путь развития, одновременно пережил богатую героизмами историю. Во всех этапах истории в последствии усилий своих сынов территория региона защитилась от нашествий и развивалась. Трудная и сложная обстановка, с которой приходилось встречаться автономной республики в конце 80-х годов прошлого столетия, также была ликвидирована благодаря умению бесстрашных и мужественных сынов. Особенно приезд в Нахчыван политического деятеля мирового масштаба Гейдара Алиева летом 1990 года, его пребывание вместе с местным населением, спас этот край от будущих бедствий, придал силу и уверенность борьбе населения, когда действительно, в начале 1990-х годов нашествия армян в Нахчыван создали крайне сложную и опасную ситуацию в Нахчыване.

Избиране уважаемого Гейдара Алиева Председателем Верховного Меджлиса Нахчыванской Автономной Республики, проводимая этим видным политическим деятелем дальневидная и обоснованная на реальность политика спасла этот регион и его население от ожидаемых несчастий. Ликвидация внешней опасности, основа внутренней стабильности и развития были заложены именно в эти годы. Направление исторических событий тех лет на верное русло связано с именем всемирно известного государственного деятеля Гейдара Алиева.

В работе основное место также отведено мероприятиям, выполненным работам, осуществленным в 1995-2001 годах как продолжение политики великого Гейдара Алиева, особое внимание уделено хронологическому анализу достижений деятельности Председателя Верховного Меджлиса Нахчыванской Автономной Республики Васифа Талыбова, ставших возможным благодаря его инициаторской, организаторской и управленческой способностям.

Таким образом, сделана попытка в научном аспекте рассмотреть очень принципиальное, отличающееся любовью к родине проведение в жизнь линии Гейдара Алиева Председателем Верховного Меджлиса Нахчыванской Автономной Республики Васифом Талыбовым и оценить приобретенные ими достижения.



NDU-nun Elmi Şurasının 30 mart 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 07).

**ŞAMXAL MƏMMƏDOV**
*Naxçıvan Dövlət Universiteti*

**UOT: 327.2; 94(479.24)**

# BÖYÜK PYOTRUN “XƏZƏR” YÜRÜŞÜNDƏN QRAF PASKEVİÇİN İRƏVAN SƏFƏRİNƏ QƏDƏR ERMƏNİ XƏYANƏTLƏRİ

***Açar sözlər:*** *Erməni xəyanəti, erməni kilsəsi, erməni casusluğu, keşiş Nerses*
***Key words:*** *Armenian betrayal, Armenian Church, Armenian espionage, priest Nerses*
***Ключевые слова:*** *армянское предательство, армянская церковь,армянский шпионаж, священник Нерсес*

Cənubi Qafqaza gəlmə bir toplum olan ermənilərin xəyanətkarlığı, içərisində yaşadıqları xalqlara, himayəsinə sığındığı dövlətlərə qarşı nankorluğu yeni bir məsələ deyildir. Erməni xəyanətkarlığı zaman-zaman siyasətçilərin, səyyahların, alimlərin və ictimai xadimlərin diqqətini çəkmişdir. Bu barədə qədim Roma tarixçisi Tatsit, orta əsr Bizans imperatoru Mavrikios, yeni dövrdə rus tədqiqatçısı Veliçko, ən yeni dövrdə Avstriya alimi Fayql və onlarla digərləri kifayət qədər yazmışlar.

Orta əsrlərin son mərhələsində Osmanlı və Səfəvi dövlətlərinin təbəəliyində olan ermənilər Avstriya alimi Erix Fayqlın çox haqlı olaraq göstərdiyi kimi, özlərinin qızıl əsrini yaşayırdılar. Səfəvi hökmdarı I Şah Abbas, Osmanlı sultanı Süleyman Qanuni ermənilərə heç zaman malik olmadıqları imtiyazları vermişdilər. Onlar yaşadıqları dövlətlərin iqtisadi-maliyyə həyatında mühüm yer tutur, saraylarda yüksək vəzifələr daşıyırdılar. Kilsə və monastrlar vergilərdən azad edilmişdilər.

Osmanlı imperiyasında “hətta dövlətdə pul kəsilməsi işi ermənilərə etibar edilmişdi. İstanbuldakı imperiya xəzinəsində mühasibatlıq işləri erməni dilində aparılırdı. Sultan Mehmet Fateh tərəfindən İstanbulun fəthi və erməni pravoslav arxiyepiskopunun Bursadan İstanbul patriarxlığına köçürülməsi ilə Osmanlı imperiyasındakı ermənilərin sözün əsl mənasında “qızıl əsri” başlandı”(14, s.31).

Həmin “qızıl əsr”i tam əsasla Səfəvilər imperiyasındakı ermənilərə də aid etmək olardı. Səfəvilər dövlətində I Şah Abbasın Qərbi Avropa ilə diplomatik və ticari əlaqələrini həyata keçirən ermənilərin İsfahan, Nor-Cuğa şəhərlərində və digər yerlərdə çoxsaylı kilsələri, ticarət evləri, karvansaraları vardı. İpək istehsalı və ticarətini öz monopoliyasına alan Şah, onu müəyyən məbləğə erməni tacirlərinə vermişdi. Culfalılar bu ticarətdən özlərinə böyük fayda əldə edirdilər” (15, s.VI). Xəzər dənizi ilə həyata keçirilən ticarət əlaqələrinin əsas hissəsi də onların payına düşürdü. Hakim xalqdan fərqli olaraq, ermənilər orduya alınmır, hərbi əməliyyatlar nəticəsində itki vermir, əksinə xüsusi olaraq mühafizə olunur və müharibələrdən varlanır, qayğısız və tox yaşayır, gündəlik ticarətləri və ibadətləri ilə məşğul olurdular. Bunu ermənilər bəzləri də etiraf edirdilər: “Şah bizə yardımcıdır. Biz gömrüksüz ticarət edirik” (2, s.174).

Erməni siyasi elitası (kilsə xadimləri, hər cür siyasətbazlar, tacirlər, xırda feodallar) varlandıqca harınlaşır, himayəsində yaşadıqları Səfəvilər dövlətinə və Osmanlı Türkiyəsinə qarşı açıq olmasa da, nəzərəçarpacaq separatizm və xəyanətkarlıq yolu tuturdu. Ermənilər yaxın-uzaq xristian dövlətlərdən birinin himayəsi ilə onlara aid olmayan torpaqlarda yarımmüstəqil erməni dövləti qurmaq istəyirdilər. Həmin elitanın çirkin əməlləri, hələ bu dövlətlərin tənəzzülə doğru getdiyi XVII əsrin II yarısından özünü göstərməkdə idi.

XVIII əsrin əvvəllərində Səfəvi imperiyasının tamamilə çökməsi, onunla həmsərhəd olan xristian Rusiyasının isə I Pyotrun zamanında olduqca möhkəmlənməsi ilə erməni ideoloqları hərəkətə keçdilər. 1701-ci ildə Moskvaya gələn erməni siyasi avantüristi İsrael Ori və onun köməkçisi keşiş Minas Vardapet Qarabağın erməniləşmiş xristian məliklərinin imzaladığı müraciətnaməni, habelə özünün I Pyotra ünvanladığı məktublarını çarın birinci naziri hesab olunan boyar F.A.Qolovinə təqdim etdi. Müraciətnamədə rus çarına itaət və sədaqət ifadə olunur və ondan ermənilərin imdadına yetmək xahiş olunurdu.

Müraciətnamədə məliklər xahiş edirdilər ki, çar erməni xalqının iztirablarını dərindən anlasın və onu Türkiyə-İran zülmündən azad etsin: “Bizim özgə ümidimiz yoxdur. Biz yalnız Allaha və sənin ölkənə ümid bəsləyirik” (9, s.166).

İsrael Ori Qolovinə ünvanlanan çoxsaylı məktublarından, onunla baş tutan xeyli görüşlərindən, təkid və yalvarışlarından sonra nəhayət imperatorun özü ilə də görüşə bilmişdi. XIX əsr erməni tarixçisi Ezov göstərir ki, “Pyotrla İsrael Orinin görüşü 1701-ci il 28 oktyabrla 8 noyabr arasında baş vermişdi” (15, s.XXXI).

Həmin müraciətnamə və məktubların, habelə görüşlərin ifadə olunduğu sənədlərin mətnindən məlum olurdu ki, ermənilər artıq həmin dövrlərdən etibarən təbəəsi olduqları dövlətlərə və içərisində yaşadıqları xalqlara xəyanət edərək rusları Cənubi Qafqaza hərbi müdaxiləyə çağırır, işğala təhrik edirdilər.

Müraciətnamədə xüsusi olaraq vurğulanırdı ki, biz və bizim bütün xalqımız, böyükdən kiçiyə hamı rus çarının hakimiyyəti altına düşməyə, son nəfəsə qədər hə-yatımızı və sərvətlərimizi çarın xidmətinə verməyə hazırıq. Sənəddə vəd olunurdu ki, rus ordusu bölgəyə müdaxilə edəcəyi anda ermənilər də silahlanıb rus ordusuna qoşulacaq, yerli hakimyyət orqanlarına qarşı vuruşacaqlar.

Orinin imperatora ünvanlanmış və boyar F.A.Qolovinin adına yazılmış 25 iyul 1701-ci il tarixli məktubda Qafqazın Rusiya tərəfindən işğal edilməsi üçün ermənilər 18 bəndlik proqram təqdim etmişdilər. Əslində bu 18 bəndlik proqram Azərbaycan torpaqlarının rus qoşunları tərəfindən zəbt edilməsini nəzərdə tutan bir işğal planı idi. Çar hökumətini birbaşa işğala çağıran "İ.Ori başda olmaqla digər erməni siyasətçiləri rus qoşunlarının Qafqaza yürüşünün demək olar ki, bütün marşrutunu, hərəkət xəritəsini qabaqcadan düşünmüş, hətta konkret planını belə tərtib etmişdilər" (3, s.27).

Ori öz proqramının 12-ci bəndində rusları birbaşa işğala təhrik edərək hökmdara xatırladırdı ki, "Stenka Razin özünün 3000 nəfərlik kazak dəstəsi ilə Qızılbaş dövlətinin Gilan şəhərini tutub bir neçə il saxlamışdı. İran şahı ona qarşı heç nə edə bilməmiş və o yalnız öz istəyi ilə geri qayıtmışdı. İndidə böyük hökmdar istəsə kazaklar bu müharibəyə həvəslə gedərlər" (15, s.89).

Ori məktublarında çarı və onun ətrafındakı əyanları şirnikləndirmək üçün yazırdı ki, "Qafqaz zəngin sərvətlər mənbəyidir. Burada sizin əyanlar da var-dövlət sahibi olacaq, dövlət üçün xeyli varidat yığılacaq, qoşunun ərzaq ehtiyacı tam ödəniləcəkdir" (15, s.82)

Ori I Pyotrun diqqətini çəkmək və onu dərhal hərbi avantüraya çəkmək üçün Qafqazdakı ermənilərin sayını və hərbi imkanlarını on dəfələrlə şişirdir, rus qoşunlarına onların güman edilən sayından 5-6 dəfə çox olacaq erməni hərbi qüvvələrinin köməyini vəd edirdi: "Rus qoşunu kafirlərin torpağına daxil olarsa, on gün ərzində 100 min nəfərdən çox erməni silahlısı onun hakimiyyəti altına keçəcək və ümumi düşmənə qarşı birgə vuruşacaqlar" (3, s.28).

Ori və onu külli miqdarda kəşfiyyat materialları, casus məlumatları ilə təchiz edən erməni başbilənləri həm də rus çarını İrəvan, Təbriz, Ordubad, Gəncə və başqa şəhərlərin əhalisi, yolları, buradakı silahlı qüvvələrin sayı, silahlanma səviy-yəsi haqqında ətraflı sürətdə məlumatlandırırdılar. Məsələn, Ori göstərirdi ki, "Gəncəni asanlıqla almaq olar. Belə ki, burada xanın bir neçə yüz adamı var, bütün qalan əhali isə ermənilərdir" (15, s.87). Buna bənzər məlumatlar, Naxçıvan, Ordubad, İrəvan şəhərləri, habelə Səfəvi qoşunu haqqında da verilirdi. Ori göstərirdi ki, erməni icması rusların gəlişini səbirsizliklə gözləyir: "Qafqaz rus qoşunları tərəfindən işğal olunduqdan və hərbi yürüş başa çatdıqdan sonra əlahəzrət və onun qoşu-nu məhz rusların köməyi sayəsində yaradılacaq erməni krallığında qışlaya bilərlər" (15, s.82).

Məktublarda Ori də özünün çoxsaylı sələfləri kimi din amilini qabardır, Qafqazın xristian xalqları olan ermənilərin və gürcülərin müsəlmanlar tərəfindən zülmə məruz qalmasını göstərirdi.

XVIII əsrin əvvəlində rus imperatorunun qapısını döyən tək Ori deyildi. Rusları Qafqaza dəvət edən, onlara bələdçilik etməyə, yardım etməyə, Azərbaycan xalqına qarşı xəyanətə hazır olduğunu bildirən, Rusiya himayəsini xahiş edən digərləri də vardı. Məsələn, həmin dövrdə "Qarabağ ermənisi keşiş Antoni və Qafan ermənisi keşiş Pyotr Rusiya imperatorunun sarayına gələrək, ermənilərin rus təbəəliyinə qəbul olunması barədə xahiş etmişdilər" (4, s.93).

Orinin 1711-ci ildə ölümündən sonra, onun köməkçisi Minas Vardapet xəyanətkar missiyanı davam etdirməkdə idi.

İsveçlə aparılan qalibiyyətli müharibə bitdikdən sonra Xəzər dənizi və Cənubi Qafqaz istiqamətində nəzərdə tutulan hərbi yürüş gündəmə gəldi. "Pyotrun Xəzər yürüşü" kimi məlum olan bu hərbi avantüranın tarixdə analoqu yox idi. Bütün zamanlarda hərbi yürüşlər və müharibələr iqtisadi-siyasi motivlərdən qaynaqlanır, ərazi iddiaları ilə şərtlənirdi. Hətta dini bayraqlar altında gedən, dini şüarlarla müşayiət olunan məşhur "Xaçlı yürüşləri" də öz mahiyyəti və istiqamətləri baxımından daha az dini səciyyə daşıyırdı. "Xaçlı yürüşləri"ndə dini motiv yalnız bir tərəfdən-işğalçılar tərəfindən qabardılırdı. "İsanın qəbri olan müqəddəs torpaqları müsəlmanların hakimiyyəti altından xilas etmək" yürüşün məqsədi kimi göstərilirdi. "Xəzər yürüşü"ndə isə dini motiv həm işğalçı tərəfindən, həm işğala məruz qalan torpaqların azsaylı erməni əhalisi tərəfindən qabardılırdı. Ruslar yürüşün məqsədinin "bədbəxt ermənilərə və gürcülərə zalım müsəlmanlara qarşı mübarizədə yardım göstərmək" olduğunu dedikləri kimi, ermənilər də "rusların onları vəhşi müsəlmanların zülmündən qurtarmaq üçün gəldiklərini" iddia edirdilər.

"Xəzər yürüşü"ndən xeyli əvvəl çar İvan Qroznı müsəlman dövlətləri olan Kazan, Həştərxan və Sibir xanlıqlarını, habelə Başqırdstanı tutmuşdu. XVIII əsrin II yarısında Rusiya yenə də müsəlmanlara məxsus Şimali Qafqazı və Krım xanlığını, XIX əsrin II yarısında isə qədim dövlətçiliyi olan Orta Asiyanın müsəlman dövlətlərini işğal etmişdi. Lakin bu işğalların heç birində din amili qabardılmamışdı. Yalnız erməni xəyanətkarlarının ucbatından Azərbaycan torpaqlarının işğalı əsl xaçlı yürüşlərini xatırladırdı.

XVIII əsrin 60-70-ci illərindən etibarən I Pyotrun təcavüzkarlıq və işğalçılıq siyasətini davam etdirən çariça II Yekaterinanın Cənubi Qafqaz siyasətində də erməni ideoloqları eyni məkrli, xəyanətkar missiyanı

yerinə yetirirdilər. Moskva və Peterburqda məskunlaşmış Lazarev, Manuçarov, Şarafov kimi varlı erməni iş adamları tədricən Rusiya imperiyasının ictimai-siyasi və iqtisadi-maliyyə həyatında nəzərəçarpacaq mövqelərə yiyələnir, imperiyanın xarici siyasət məsələlərinə qarışmağa cəhd edir, Rusiyanın görkəmli dövlət xadimləri və hərbi-siyasi elitası ilə əlaqələr yaradırdılar.

Məsələn, "Şarafov hələ 1764-cü ildə digər varlı ermənilərin razılığı ilə Rusiya Xarici İşlər Kollegiyasına "Ermənistanın azad olunmasını" və Rusiyanın himayəsi altında erməni dövlətinin yaradılmasını nəzərdə tutan təklif vermişdi" (10, s.19). Həmin dövrlərdə qeyri-qanuni maliyyə əməliyyatları yolu ilə ölkənin ən varlı adamlarından birinə çevrilən tacir və manufaktura sahibi "İvan Lazarevin tərtib etdiyi layihədə Azərbaycan xanlıqlarının əraziləri hesabına Rusiyanın qəyyumluğu altında erməni dövləti yaradılması planı inkişaf etdirilərək ən xırda detalları ilə rus hökumətinə təqdim edilmişdi" (6, s.25).

II Yekaterinanın sarayında kök salan digər erməni varlıları da oxşar fəaliyyət göstərirdilər. Sonrakı dövr erməni tarixçilərinin özlərinin də etiraf etdikləri kimi, onlar "Eçmiədzin katalikosu və Qarabağın xristian məlikləri ilə Rusiya hakimiyyət dairələri arasında vasitəçi rolunu oynayırdılar. Rus diplomatiyası Cənubi Qafqazda siyasi məqsədlərə çatmaq üçün onlardan öz agentləri kimi istifadə edirdi" (10, s.19).

Həmin dövrdə baş verən hadisələrin təhlili göstərir ki, "Qarabağ məlikləri ilə mərkəzi xan hakimiyyəti arasında mübarizə dini əsasda deyil, torpaq və hakimiyyət uğrunda gedirdi" (1, s.407). Qarabağda və ona bitişik Zəngəzur ərazilərində xeyli torpaq mülklərinə və öz dindaşları üzərində inzibati hakimiyyətə malik olan kiçik feodallar-məliklər, hər dəfə mərkəzi hakimiyyət zəiflədikdə onlar separatçılıq mövqelərində dayanır və xəyanətə əl atırdılar. XVIII əsrin 40-cı illərində "Nadir şahın yürüşlərinin fəal iştirakçısı olan və onun ordusunu ərzaqla təmin edən beş Qarabağ məliyinin müəyyən imtiyazları vardı" (1, s.407). Bu imtiyazları itirməmək üçün onlar nəinki Rusiya imperatoruna, eləcə də müsəlman hakimləri olan Şəkili Hacı Çələbi xana da, Ağa Məhəmməd xan Qacara da, hətta bəzi məqamlarda İbrahim xanın özünə də casusluq edir, qulluq göstərirdilər.

Eçmiədzin katalikosunun tapşırığı ilə Rusiyadakı erməni kilsəsinin arxiyepiskopu İosif Arqutinski rus siyasi-hərbi xadimləri ilə fəal əlaqələr saxlayırdı. "O, 1775-ci ildə Rusiyadakı erməni yeparxiyasının rəisi təyin edildikdən sonra öz fəaliyyətini daha da intensivləşdirdi" (10, s.19-21). Arxiyepiskop Qarabağ məliklərinin separatçı fəaliyyətinə istiqamət verir, hər kiçicik imkandan istifadə edərək rus dövlət xadimləri görüşüb, onlara təsir göstərməyə çalışırdı. Məsələn,1780-ci il yanvarın əvvəllərində "knyaz Q.Potyomkinlə görüşən Lazarev və Arqutinski söhbət əsnasında təkidlə mərkəzi İrəvan şəhəri olmaqla erməni dövlətinin yaradılmasını xahiş etdilər" (10, s.22).

II Yekaterinanın sarayında söz sahibi olan A.Suvorov və Q.Patyomkin tez-tez erməni liderləri ilə görüşərək onlardan yeni kəşfiyyat materialları istəyir, rusların yürüşü üçün bəhanə olsun deyə, Qarabağ məliklərinin şəxsində adlı-sanlı ermənilərin, habelə Eçmiədzin katalikosunun müvafiq vəsadətlə müraciətini lazım bilirdilər.

XVIII əsrin başlanğıcında İsrael Ori kimi, həmin əsrin 80-ci illərində də İvan Lazarev rus dövlətindən acizanə sürətdə hərbi yardım istəməklə bərabər, Suvorova cənub Qafqaz və ona bitişik ərazilərə aid strateji kəşfiyyat materialları və ermənilərin imkanlarından qat-qat artıq vədlər də verirdi: "…gələcəkdə Ermənistan öz sərhədlərini genişləndirdikdən sonra öz gəlirləri hesabına 15-25 minlik qoşun saxlaya bilər, türklərə və başqa birisinə qarşı müharibə təqdirində isə 60 minlikdən çox ordu çıxara bilər, Türkiyəyə bu dəyişikliklərin böyük mənəvi və maddi zərəri dəyəcək. İranla ticarət isə elə vüsət alacaq ki, Rusiyaya milyonlarla gəlir gətirəcək" (10, s.23-24).

Qarabağ erməniləri də boş dayanmamışdılar. Onlar rus qoşunlarının gəlişinə hazırlaşır, Suvorova çoxsaylı casusluq materialları göndərirdilər. Suvorovun erməni casusları və yaxın köməkçilərindən biri olan Sarkis Adamcan Qarabağ məlikləri ilə əlaqə yaratmışdı və onlarla məktublaşırdı. Məliklərin məktublarını həmin dövrdə Həştərxanda olan Suvorova David Ter-Osipov adlı bir erməni gətirmişdi.

Ermənilərin xəyanətindən, rusları Qafqaza gətirmək niyyətindən xəbər tutan İbrahimxəlil xan Vərəndə məliyi Şahnəzərin çuğulluğu ilə Dizağ məliyi İsayı öldürmüş, digər itaət etməyən məlikləri Şuşa qalasında zindana salmışdı. Lakin oradan qaçmağı bacaran məliklər Tiflisə getmiş, 1781-ci ilin 2 sentyabrında II Yekaterina, Potyomkin və Suvorova üç müraciət və məktub yazmışdılar.

Məliklər II Yekaterinaya göndərdikləri müraciətdə öz kübar nəsillərini xatırladır və bütün təbəələri ilə birlikdə diz üstə düşərək imperatriçəyə yalvarırdılar ki, yardım göstərib onları düşməndən xilas etsin.

Knyaz Potyomkinə göndərilən məktubda da imperatriçaya göndərilən müraciətdəki kimi, Qarabağın təbii sərvətləri sadalanır, rusları şirnikləndirmək məqsədi güdülürdü. "Məliklər rus qoşunlarının səfəri təqdirdə özlərinin müsəlmanlara qarşı silahlı mübarizəyə qalxacaqlarını vəd edir, Qarabağa 10 min nəfərə qədər piyada göndərilməsini xahiş edərək bildirirdilər ki, əgər bu qoşunlara komandanlıq Suvorova tapşırılsa, məmnun olarlar" (6, s.137).

Suvorova göndərilən məktubda deyilirdi ki, "Musa israillilәri fironun əlindən xilas etdiyi kimi, o da erməniləri müsəlmanların əlindən xilas etməlidir" (10, s.34). Suvorov həmçinin Arxiyepiskop İosif Arqutinski və katalikos Simeondan da oxşar məzmunlu məktublar alırdı.

"Knyaz Potyomkinə göndərilən 2 sentyabr 1781-ci il tarixli məktubda məlik Adam, məlik Bəylər, mülkədar Stefan, rəislər Sarkis, Qriqori, Babay və Daniil xahiş edirdilər ki, hərbi yardımı məhz Suvorov vasitəsilə həyata keçirsin" (12, s.59).

Qarabağ ermənilərinin nümayəndəsi Daniil Abamsov P.S. Potyomkini əmin etməyə çalışırdı ki, rusların gəlişi haqqında ilk xəbər alınan kimi, eməni məlikləri 5 mindən az olmayan ən cəsur döyüşçülərdən ibarət piyada və atlı qoşunla İbrahim xanın devrilməsinə çalışacaqlar.

Abamsovun sözlərinə görə, ruslar nə qədər qoşun göndərirlər göndərsinlər. lakin əmin olsunlar ki, həmin qoşun qeyri-məhdud vaxt üçün kifayət qədər bol ərzaqla təmin olunacaqlar. Belə ki, erməni sakinlər xüsusi olaraq rus qoşunlarının gəlişi üçün gizli yeraltı anbarlarda çoxlu taxıl və xeyli miqdar balıq tədarük etmişlər.

Nəhayət, 1796-cı ilin yazında erməni millətçilərinin çoxdan arzuladıqları, uzun illər ərzində hər vasitə ilə Rusiya imperiyasının hakim dairələrini təhrik etdikləri Qafqaz yürüşü başladıqda, erməni liderləri özlərinin xain xislətlərini tam açıqlığı ilə ortaya qoydular. Yürüşə komandanlıq edən qraf Valerian Zubovun baş məsləhətçisi olmuş İosif Arqutinski hər vasitə ilə çalışırdı ki, yerli əhali ilə amansız rəftar edilsin, müsəlmanların gözü qorxudulsun. Bu məqsədlə o rus generallarına, ilk növbədə isə Zubova təsir etməyə çalışır, yalan söyləyir, olanları saxtalaşdırırdı. Keşiş bir tərəfdən Dərbəndin işğal edilməsi planını hazırlayıb Zubova verir, digər tərəfdən bu şəhərdə yaşayan ermənilərə müraciət edirdi ki, onlar rus ordusunun sıralarına daxil olsunlar. Arqutinskinin göstərişi ilə erməni din xadimləri "Cənubi Qafqazda yaşayan ermənilərə Rusiyanın onları şah zülmündən azad etmək üçün gəldiyini bildiridilər" (3, s.74).

İosif Arqutinski Dərbənddəki erməni əhalisinə müraciətində demişdi: "Nəhayət, Allah üzünü Qafqazda yaşayan xristianlara çevirmişdir. Birləşməliyik, elə etməliyik ki, ali baş komandan hərəkətlərimizdən razı qalsın. Ali baş komandanı Allah göndərmişdir" (3, s.74).

Arxiyepiskopun şəxsində erməni ruhanilərinin qızışdırdığı ermənilər hücum edən rus qoşunlarının xeyrinə casusluqla məşğul olurdular. Amerikan tədqiqatçıları C. Makkarti və K. Makkarti bu münasibətlə yazırdılar: "Ermənilər ruslara Dərbəndin su təchizatı planını verməklə şəhərin süqutunu mümkün etdilər" (11, s.33).

Dərbənd şəhəri 1796-cı ilin yayında ruslar tərəfindən alındıqdan sonra arxiyepiskop yenə də dinc dayanmır, təhrikçi müraciətnamələr hazırlayır, xanlığın idarəçiliyinə qarışır, əhalini özünə qarşı qaldırırdı. Bütün bunlarla kifayətlənməyən arxiyepiskop "Eçmiədzin kilsəsinin başçısı ilə əlaqəyə girərək və heç bir icazə istəmədən onunla birlikdə "Qarabağda və Zaqafqaziyanın başqa yerlərində yaşayan ermənilərə kollektiv müraciətnamə" yazmışdı. Bu müraciətnamədə deyilirdi ki, rus qoşunları İrana "erməniləri müsəlmanların əsarətindən qurtarmaq və onlara müstəqillik vermək" fikri ilə girmişlər" (5, s.59).

1804-cü ildə Cənubi Qafqazın işğalı uğrunda I Rusiya-İran müharibəsinin başlanması və Rus ordularının Cənubi Qafqaz hüdudlarına daxil olması ilə erməni xəyanətkarlığı yenidən gündəmə gəldi. Ermənilər rusların sürətlə irəliləməsi və işğalçılıq planlarının həyata keçirilməsi üçün hər şeyi edirdilər: kiçik dəstələr halında rusların cərgələrində vuruşur, casusluq və bələdçilik edir, ərzaq və yem gətirir, digər yardımlar edirdilər. Bunu erməni tarixçilərinin özləri də gizlətmirlər. Onların yazdıqlarına görə, 1804-1805-ci illərdə rusların Cənubi Qafqazda hərbi əməliyyatları zamanı "İrəvan ermənisi Stepan Tetrusov, Gəncə ermənisi Simeon Xalatov, Təbriz ermənisi Arutyun Qasparov, Qarabağ erməniləri Avanes və Akop Atabəyov qardaşları rusları kəşfiyyat materilları ilə təchiz etmiş, onlara bələdçilik etmişdilər" (8, s.95).

XX əsr erməni tarixçisi Z.T.Qriqoryan, Eçmidzin katalikosluğunun Matenedaran arxivinə istinadən, erməni ruhanilərinin yalnız 1804-cü il ərzində işğalçılara etdiyi ərzaq yardımından bəhs edir: "Erivan yürüşü zamanı 1804-cü ilin avqustuna qədər monastr ehtiyatlarından rus qoşunlarına 4330 kot (1 kot-1 puddan bir az artıq -Ş.M.) buğda, 1620 kot un, 600 kot düyü, bütün 1804-cü il ərzində isə Eçmiədzin monastrından rus qoşunlarına 2175 somar (1 somar-16 pud - Ş.M.) buğda, 1000 somar un, 300 somar yarma verilmişdi. Erməni sakinlər rusları habelə quru meyvə, şərab və digər ərzaqlarla da təchiz edirdilər" (8, s.97).

"1804-cü il iyulunda rusların İrəvan qalasına birinci yürüşü zamanı ermənilər yenə də xəyanətlərindən qalmırdılar. Qala mühasirədə olan zaman erməni casusları Sisianova xəbər göndərmişdilər ki, qalanın şərq tərəfdən müdafiəsi zəifdir və ilk növbədə həmin istiqamətdən hücuma keçsinlər" (16).

İrəvan qalasının mühasirəsinin gərgin günlərində, Tiflisdən göndərilən mərmi və döyüş sursatlarından ibarət yüklər gəlib çıxmadıqda, qalanı mühasirə etmiş rus qoşunlarını çətin vəziyyətdən yenə ermənilər çıxardı. "Bolnisi məliyi Abovun oğlu Rüstam bəy özünün 60 nəfərlik atlı dəstəsi ilə iki dəfəyə Pəmbək-Abaran yolu ilə Sisianovun qoşunlarına böyük miqdarda silah-sursat daşımışdı" (8, s.97).

Sıravi ermənilərdən daha artıq, erməni məlikləri, ruhaniləri xəyanət edirdilər. Təsadüfi deyildi ki, "1808-ci ildə çar I Aleksandr (1801-1825) ruslara kömək məqsədi ilə apardığı casusluq fəaliyyətinə görə erməni kilsəsinin katalikosu Daniili birinci dərəcəli Müqəddəs Anna ordeni ilə təltif etmişdi" (17).

1827-ci ilin aprelində Xüsusi Qafqaz Korpusunun komandanı qraf Paskeviçin İrəvan xanlığı üzərinə üçüncü yürüşü başlandı. Yürüşdə qoşunun ön dəstələrinə başçılıq edən general-adyutant Konstantin Benkendorfu arxiyepiskop Nerses Aştarakesi müşayiət edirdi. Regionun relyefini bilən ermənilər rus hərbçilərinə bələdçilik edir, qalanın zəif müdafiə olunan yerlərini onlara nişan verir, casusluq fəaliyyəti göstərirdilər. Tiflisdə təşkil olunmuş erməni könüllü dəstələri rus qoşunlarının tərkibində İrəvan xanının qoşunlarına qarşı vuruşurdular. Erməni tarixçisi V. Parsamyan yazırdı: “Qalada olan ermənilər rus qoşunlarına hər cür kömək edir, qalanın müdafiəsini pozmağa çalışırdılar” (13, s.44). Digər bir erməni tarixçisi Z.Qriqoryan isə göstərirdi ki, “1827-ci il mayın 8-11 arasında Erivan qalasından 150 erməni qaçaraq ruslar tərəfə keçdilər” (8, s.130).

Abbas Mirzənin ordusunda olan ermənilər də xəyanət edirdilər. Erməni vilayətinin rəisi A.Çavçavadze 1828-ci il mayın 21-də Paskeviçə yazırdı: “İrəvan əyalətinin Nurnus kənd sakini erməni Hakan Harutyunov Abbas Mirzənin ordusunda topçu kimi xidmət edərkən, avqustun 17-də döyüş zamanı top atəşini rus qoşunlarına deyil, əks istiqamətə İrəvan xanının qoşunlarına tərəf yönəltdiyi diqqəti cəlb etmişdir. Harutyunov onun hərəkətinin diqqəti cəlb etdiyini duyan kimi döyüş meydanından qaçmışdır. Ancaq bədbəxtlikdən Eçmiədzin monastrının yaxınlığında tutulmuşdur” (7, s.492). Qalanın təslim edilməsinə çalışan Astvasataryan soyadlı bir ermənini etdiyi xəyanətinə görə, “sərdarın əmri ilə topun lüləsinə bağlayaraq atəş açmışdılar” (13, s.44). Hovanes Aslanyan adlı digər bir erməni işğalçılara bələdçilik etdiyinə görə yaxalanmış və xain kimi cəzalandırılmışdı.

Hər üç xaini lazımınca “qiymətləndirən” qraf Paskeviç Erməni Vilayətinin İdarəsinə 1828-ci il mayın 4-də göndərdiyi məktubda yazırdı: “general Benkendorfun dəstəsinə bələdçilik etdiyinə görə Hovhannes Əsliyanın gözlərini çıxarmış, burnunu və dilini kəsmişdilər. Onlar barədə arxiyepiskop Nersesin təqdimatına əsasən Erməni İdarəsinə təklif edirəm ki, ilə hər ailəyə birdəfəlik 10 çervon buraxılsın və İrəvanın gəlirlərindən ildə 30 manat verilsin” (7, s.491). Bundan başqa Aslanyana, “Paskeviçin təqdimatı ilə qızıl medal verilmişdi” (13, s.39).

Erməni tarixçilərinin zaman-zaman öz torpağına, dövlətinə xəyanət edərək rus işğalçıları ilə bir səngərdə yer alan, milli qəhrəman kimi təqdim etdikləri xainlər İrəvan qalasının süqutunda mühüm rol onadılar. Həmin sıradan olan “Martiros Vekilyan və Qriqor Kalantaryan general Paskeviç tərəfindən təltifə təqdim olunmuş, Pode Esanov Georgi xaçına layiq görülmüşdü” (8, s.132).

Matenadaran arxivlərində saxlanan sənədlərdə İrəvanın süqutunda əli olan digər casusluq və bələdçilik edən xainlər-Arutyun Manukyan, Mıkırtıç Kostandyan, Amazasp Esayan və b. haqqında da məlumatlar vardır (8, s.131).

“İrəvan qalasının ələ keçirilməsinin ləngidiyini görən arxiyepiskop Nerses Aştarakesi sentyabrın 27-də və 28-də Eçmiədzin, Oşakan, Aştarak və digər ərazilərdə yaşayan kəndlilərə xüsusi müraciət etmiş, rus ordusuna dərhal köməklik göstərməyi tələb etmişdi” (13, s.44).

İşğalçı rus ordusunun və xəyanətkar erməni toplumunun birgə səyləri nəticəsində dörd aylıq qəhrəmancasına müqavimətdən sonra 1828-ci il oktyabrın 1-də Şimali Azərbaycanda son istinadgah olan İrəvan qalası süqut etdi.

Erməni xəyanəti nəticəsində digər azərbaycan torpaqları kimi İrəvan xanlığı da işğal edildi. Cənubi Qafqazın böyük bir qismini Rusiya imperiyası, nəticə etibarilə isə ermənilər üçün işğal edən general Paskeviç “Qraf Erivanski” titulunu, arxiyepiskop Nerses “Aleksandr Nevski” ordenini, xəyanətkar erməni toplumu isə heç zaman onların olmayan İrəvan, Zəngəzur və başqa Azərbaycan torpaqlarını aldılar.

Arxiv sənədləri göstərir ki, ermənilər bütün zamanlarda olduğu kimi, həmin dövrdə də nəinki türklərə, azərbaycanlılara və ruslara, hətta özləri-özlərinə xəyanətdən də qalmırdılar. Məsələn, general Paskeviçin patriarx Yefremə ünvanladığı 31 may 1828-ci il tarixli məktubdan məlum olur ki, ermənilərin Qafqaza köçürülməsinə İran hökuməti deyil, “Məhz Eçmiədzin patriarxı-katalikosunun təyin etdiyi yepiskop İsrael mane olurmuş” (18, s.13).

Məktubda deyilirdi: “Arxiyepiskop Nerses bu ilin 17 mart tarixli məktubu ilə məni xəbərdar etmişdi ki, Eçmiədzin ruhaniləri tərəfindən Salmasın Varfolomey monastrına təyin edilmiş yepiskop İsrael xristianlıq borcunu unudaraq gizli hiyləgərlik və aşkar hədələri ilə ermənilərin bizim əyalətlərə köçürülməsinə maneçilik etmiş və digər ədəbsiz əməllər törətmişdir” (19, s.166).

Məktubda daha sonra keşişin hərəkətlərindən narahatlıq ifadə edilirdi: “İndi mən general-mayor Pankratyevdən 5 may tarixli 176 saylı raport aldım ki, bu günlərdə arxierey İsrael tərəfindən Salmas mahalının idarəedəni Mustafa bəyə ünvanlanmış məktub farslara ötürülərkən ələ keçmişdir. Bu məktubda o, dilə tutur ki, rusların tərəfinə keçməsinlər və ermənilərin köçürülməsinə maneçilik törətsinlər” (19, s.168). Bu erməni keşişinin öz kilsəsinə və Qafqaza dəvət etdikləri ruslara qarşı çoxsaylı xəyanətlərindən biri idi. Qarşıda çarizmi daha 90 il himayə edəcəyi ermənilərdən növbəti xəyanətlər gözləyirdi.

## ƏDƏBİYYAT


1. Azərbaycan tarixi, 7 cilddə, 3-cü cild, (XIII-XVIII əsrlər) Bakı, Elm,1999, 584 s.
2. Mehman Süleymanov, Erməni millətçiliyi və təcavüzkarlığı tarixindən.Bakı, Hərbi 2008, 398 s.
3. Kərimova S. Azərbaycanın işğalında və müstəmləkəçilik siyasətində erməni siyasətbazlarının rolu. Bakı, 1995.
4. XVIII-XIX əsrin əvvəllərində azərbaycanlıların deportasiyası // Dirçəliş-XXI əsr jurnalı, №40, 2001, s.92-96.
5. Veliçko V. Qafqaz (Rus işi və tayfalararası məsələlər), Bakı, Azərnəşr, 1995, 192 s.
6. Tofiq Mustafazadə. "Erməni məsələsi"ndən erməni terrorizminə, Bakı, Turxan NPB, 2016, 140 s.
7. АКАК, Том VII, Тифлис, 1878, док. 523, с. 581-584.
8. Григорян З.Т. Присоединение восточной Армении к Росси, Москва, Изд. Соц-еко. лит.,1959. 186 с.
9. История армянского народа, С дрвнейших времен до наших дней/ Г.Х.Саркисян, Т.Х.Акопян, А.Г.Абрамян и др. Ереван, Изд-во Ереванского унта, 1980, 460 с.
10. Иоаннисян А.Р. Россия и армянское освободительное движение в 80-х годах ХВЫЫЫ столетия. Изд-во АН Арм ССР. Ереван, 1947, 195 с.
11. Маккарти Дж, Маккарти К. Тюрки и армяне. (Руководство по армянскому вопросу). Баку, Азернешр, 1996, 159 с.
12. Нерсисян М.Г. Из истории русско-армянских отношений. Кн. 1, Ереван, Изд. АН Арм.ССР, 1956 г.
13. Парсамян В.А. История армянского народа 1801-1900 гг. Книга первая, Изд-во "Айастан", Ереван, 1972, 398 с.
14. Файгл Э. Правда о терроре, Армянский терроризм-истоки и причины. Баку, Азернешр, 2000, 176 с.
15. Эзов Г.А. Сношения Петра Великого с армянским народом.СПб. 1898, 512 с.
16. http://www.iravan.info/xanligin_suqutu.html
17. http://sia.az/az/news/interesting/564670-ermeni-kilsesi-terrorun-maddi-ve-menevi-dayaği kimi.
18. "Армянский вопрос" на Кавказе, По материалам российских архивов и изданий, 1724-1914, в 3 т, Том 1, 1724-1904, С-П, Изд-во, АИК 2011, 713 с.
19. РИГА, ф.880, оп.5, д.387.



**ABSTRACT**

**Shamkhal Mammadov**

**The Armenian betrayals from the Great Peter's "Khazar" march toEarl Paskevich's Irevan visit**

The treacherous face of the Armenian community has been known since ancient times. During the whole Middle Ages period the Armenians betrayed the states of which they were the citizens, they stood by the enemies. The new historical period is not an exception in this respect. The Armenian leaders under the auspices of Russian Empire which wanted to establish semi-independent Armenian state in the territory of South Caucasus betrayed countless along with all kinds of crimes against the Azerbaijani people starting from the Great Peter's "Caspian march" .

As a result, by the hand of tsarist Russia, a terrorist and outpost Armenian state in the historical territory of Azerbaijan was established, endless bloody wars and ethnic conflicts in the region were founded.



**РЕЗЮМЕ**

**Шамхал Мамедов**

**Армянские предательства со времен Каспийских (персидских) походов Петра Великого до осады графом Паскевичем Иревана**

Предательская суть армянской общины известна издревле. На протяжении средневековья армяне, являясь подданными различных государств, не раз предавали их, переходя на вражескую сторону. Новая историческая эра также не является исключением в этом плане. Под покровительством Русской империи, армянские лидеры, хотели создать на южно-кавказских землях полузависимое армянское государство, вследствие чего со времен Каспийских походов были совершены множественные предательства и преступления по отношению к азербайджанскому народу.

В итоге на исторических азербайджанских землях рукой царской России было создано террористическое и форпостское армянское государство и заложена основа кровавых войн и нескончаемых этнических конфликтов в регионе.



NDU-nun Elmi Şurasının 30 mart 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 07).

**MƏMMƏD ƏLİYEV**
*Naxçıvan Dövlət Universiteti*
*mamed@mail.ru*

**UOT: 069**

# NAXÇIVAN "AÇIQ SƏMA ALTINDA MUZEYLƏR"

***Açar sözlər:*** *muzey, qala, türbə, sandugə, qoç heykəl, daş kitabə, qayaüstü təsvirlər*
***Key words:*** *museum, fortress, mousoleum, tomb, ram statue, epitaph, rock drawings*
***Ключевые слова:*** *музей, башня, гробница, сандуга, памятник быку, каменная книга, наскальные изображения*

Milli tarix və mədəniyyətin, incəsənətin öyrənilməsinə maraqların artması muzeylərin yaradılması ilə yanaşı açıq səma altında da muzeylərin yaranmasına səbəb olmuşdur. Araşdırmalardan məlum olmuşdur ki, belə muzeylərin ilk yaradıcısı İsveç filoloqu və etnoqrafi Artur Xaselius (1833-1901) olmuşdur.

1870-ci ildə A.Xaselius İsveçin bir sıra rayonlarında geyimlər və interyerlərlə bağlı sərgilər təşkil etmişdir. Şimali Avropanın bir sıra ölkələrində-Danimarkada, Norveçdə, Almaniyada, Xaselius nümunəsində açıq səma altında sərgilər təşkil edilirdi. (1, s.1)

Bu gün Vətənimizin tarixini öyrənmək və təbliğ etmək üçün muzeylərimizdə qorunub saxlanılan maddi-mədəniyyət nümunələrinin çox böyük əhəmiyyəti vardır. Bunların qorunub saxlanılması, təbliği isə dövlətimizin daim diqqətindədir. Bu mənada Açıq Səma Altında Muzeylər də dövlət qayğısından kənarda qalmayıb.

Əcəmi Seyrəngahı Mədəniyyət və İstirahət Kompleksinin ərazisində yaradılan muzeyin tutduğu ərazi böyük bir sahəni əhatə edir. Ən başlıcası isə onun açıq səma altında olmasıdır və bu da tamaşaçıların daha çox diqqətini cəlb edərək böyük marağa səbəb olur. Əcəminin XII əsrdə inşa etdiyi Möminə xatun türbəsi, XVII əsr abidəsi olan Baba Yaqub piri burada yerləşir. Ucaldılan məqbərələr, inşa olunan abidələr, toplanılan eksponatlar isə tamaşaçılara qədim və şərəfli tariximizin ayrı-ayrı dövrlərindən soraq verir.

Açıq Səma Altında Muzey Kompleksi 2002-ci il 11 iyuldan yaradılmışdır. Muzey mifoloji və dini baxışlarla əlaqəli olan qoç heykəllər, daş kitabələr, qəbirüstü abidələrin və digər mədəniyyət nümunələrimizin mühafizəsi, öyrənilməsi və təbliğ edilməsi məqsədilə yaradılan mədəniyyət müəssisələri siyahısına daxil olub.

Açıq Səma Altında muzeydə nümayiş etdirilən eksponatların hamısını bir cəhət birləşdirir. Müxtəlif növdə və rəngli daşlardan hazırlanmış, yonulmuş sənət nümunələri. (2, s.12)

Muzeyin ən qədim eksponatı, 185№li eksponat qara rəngli daşdandır. Bu eksponat Gəmiqayadan gətirilmişdi.

Muzeyin əsas eksponatlarını daşdan yonulmuş qoç fiqurları təşkil edir.

Qədim türk xalqlarının inamları və dəfn adətləri ilə bağlı olan daş qoç və qoyun heykəlləri ilk öncə qəbirlərə, dəfn olunanın yanına qoyulmuş heykəllərdən ibarət olmuş, zaman keçdikcə bu adət tədricən qəbirlərin üstünə qoyulan heykəllərlə əvəz edilmişdir.

İslamın intibahı dövründə bu adət müvəqqəti unudulmuş, XIV əsrdən başlayaraq tədricən, XV əsrdə Qaraqoyunlu və Ağqoyunlu tayfalarının Azərbaycanda hakimiyyəti zamanı yenidən dirçəlmişdir. Bu zamanlardan başlayaraq Azərbaycanda, o cümlədən onun ayrılmaz tərkib hissəsi olan Naxçıvanda da qəbirlərin üstünə daş qoç və qoyun heykəlləri qoyulmağa başlayır. Naxçıvan ərazisində bu günədək qalan, bəzilərinin üstündə kitabə olan bu heykəllərin bir hissəsi XIV-XV əsrlərə aid olsa da, əksəriyyəti XVI-XVIII yüzilliklərə aiddir.

Bu fiqurların böyük bir hissəsi sadə qoç və qoyun formasında hazırlansa da (tək-tək hallarda bədəni sənduqə şəklində, bir tərəfi isə qoç başı kimi hazırlanmış abidələrə də təsadüf olunur), bir qisminin üzərində türk xalqlarının məişətinə, məşğuliyyətinə, incəsənətinə aid müxtəlif təsvirlər də həkk olunmuşdur.

Əksər qoç fiqurları üzərində qılınc təsvir edilmişdir. Bu da onu göstərir ki, xalqımız döyüşkən və qəhrəman olmuşdur. Qılınc işarəsi orta əsrlərdə ölən şəxsin hərb sənəti ilə məşğul olduğundan xəbər verir. Muzeydə iki qoç abidənin üzərində 6 güşəli ulduz təsvir edilib.

Ulduz ta qədimdən əbədilik simvolu hesab edilmiş, sonralar isə yüksəkliyə can atmaq, ucalıq sinvolu olmuşdur.

Muzeydə qorunub saxlanılan daş qoç fiqurları və daş alətlər həm də zəngin bədii tərtibatı ilə tamaşaçıların diqqətini cəlb edir. Daş qoç fiqurunun üzərindəki sujet xarakterli kompozisiya diqqəti cəlb edir. Bu qoç fiqurunun üzərindəki şah öz taxtında oturub əlində badə, digər bir insan isə ona su təqdim edir. Fiqurlar oyma üsulu ilə insan, quş təsviri və naxışlarla bəzədilmişdir.

Naxçıvanda bu günə qədər qalmış yerüstü maddi-mədəniyyət abidələrinin üzərində həkk olunmuş bədii, həndəsi naxışlar və bitki, heyvan təsvirləri daş yonma ustaların mahir istedadlalarından və orta əsrlər dövründə Naxçıvanda incəsənət və bədii təsvirin inkişafından xəbər verir. Muzeydə çoxlu sənduqələr, qəbir daşları qərunub saxlanır.

Qəbir daşları üzərində mərhumun peşə və sənətini əks etdirən bir sıra məişət və təsərrüfat əşyaları, güzgü, qayçı, xəncər və s. təsvirinə rast gəlirik. Bir qayda olaraq kitabə və naxışlar baş daşının ön tərəfinə, mərhumun peşə mənsubiyyətini bildirən rəmzi rəsmlər isə yanlarına və kitabənin kənarındakı baş sahələrə həkk olunurdu. (3, s.111)

Muzeydə qorunub saxlanılan qəbirüstü abidələr, sənduqələr də çox maraqlıdır. Qəbirüstü abidələr orta əsrlərdə Naxçıvanda daşişləmə sənətinin intibahı dövrü keçirdiyini sübut edir.

Sənduqələr-sinə daşları kiçik formalı memarlıq əsərləridir. Sənduqələrin üzəri Qurani-Kərimdən götürülmüş ayələrdən ibarət kitabələrlə bəzədilib. Bir yerdə müqəddəs kitabımız olan Qurandan Ayətəl-Kürsü surəsi yazılmışdır.

Açıq Səma Altında olan Muzeylərimizdən biri də 3907 m yüksəklikdə yerləşən Gəmiqaya muzeyidir. Tunc dövrünə aid bu yaşayış yerində Nəbiyurdu, Camışölən və Qaranquş yaylası adlanan yer adlarına rast gəlinir ki, bunların da hər birinin tarixi və mifaloji mənası vardır. Qaya təsvirlərinin toplandığı başlıca bölgə Qaranquş yaylağıdır. Boz və qara rəngli qaya parçaları üzərinə çəkilən təsvirlər başlıca olaraq çəhrayı görünüşdədir. Kiçik həcmli, sxematik və siluet olaraq təsvir olunan rəsmlər qazma və döymə texnikası ilə icra edilmişdir.

Qaya təsvirlərinin yaranması yalnız yarımköçəri maldarlıqla deyil, insanların inancları ilə bağlı olmuşdur. Gəmiqaya təsvirlərinin repertuarı da bu fikri təsdiq edir. Belə ki, burada təsvir olunan yırtıcı heyvanların, balıq, ilan və həşarat təsvirlərinin maldarlıqla bilavastə əlaqəsi yoxdur. Bunlar yalnız insanların inancları ilə bağlıdır.

Dünyanın bir çox yerlərində yayılan qayaüstü təsvirlər piktoqrafik yazı nümunələridir. Piktoqrafik yazı əsl mənada yazı olmayıb, məzmunu işarələr və rəsmlərlə verilmişdir. Odur ki, qayaüstü təsvirlərdəki hər bir rəsmin konkret məzmun daşıdığı şübhəsizdir.

Gəmiqaya rəsmlərinin əksəriyyəti Tunc dövrünə aid edilmişdir.

Gəmiqayada heyvan təsvirləri arasında keçi rəsmləri üstünlük təşkil edir. Keçi rəsmləri tək, cüt və qrup halında təsvir edilmişdir. Keçi rəsmlərinin üstünlük təşkil etməsi insanların inancları ilə bərabər onların həyat tərzi ilə də bağlı olmuşdur. (4, s.170)

Maraqlı cəhət ondadır ki, Gəmiqayada ki, rəsmlər təkcə heyvan rəsmləri və nəbati naxışlardan ibarət deyildir. Buradakı, rəsmlər həm də səma cisimlərini əks etdirir. Bu da orada yaşayan insanların daha irəli getdiyindən xəbər verir.

Açıq Səma Altında olan Muzeylər içərisində "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksi özünəməxsus yer tutur.

Naxçıvanqala Naxçıvan şəhərinin cənub-şərqində yerləşən arxeoloji abidədir. Elmi ədəbiyyatda və xalq arasında Naxçıvanqala, Köhnəqala adları ilə tanınır. Qalanın inşa tarixi 632-652-ci illərə aid olunur.

1957-1959-cu illərdə qalanın ərazisində aparılan tədqiqatlar zamanı zəngin arxeoloji materiallar aşkar edilmişdir. Arxeoloji materiallar, xüsusilə, saxsı qab fraqmentləri, daş gürzlər, müxtəlif əmək alətlərindən ibarət olmuşdur. Türk səyyahı Övliya Çələbinin verdiyi məlumata görə monqol işğalçıları qalanı dağıtmışlar.

Qala XIX əsrədək fəaliyyətdə olmuşdur. 1827-ci il planında bu qala sxematik qeyd olunmuşdur. Plana əsasən qala iki hissədən – kiçik qala-Narınqala və Böyük qaladan ibarətdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov cənabları tərəfindən 2013-cü il 05 iyun tarixli 135-04/S nömrəli tarixi Sərəncamla "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksinin bərpasına başlandı. Qalanın bərpası təkcə Tarix-memarlıq baxımından önəmli deyil. Eyni zamanda onun gələcək nəsillərin tərbiyəsində, tariximizin təbliğində, ölkə vətəndaşlarına və xaricdən gələn turistlərə tariximizin öyrədilməsində mühüm yeri vardır. Açıq səma altında olan bu Muzey Qala Kompleksi həm öz möhtəşəmliyi ilə, həm də onun içərisində olan eksponatların tarixi zənginliyi və sənətkarlıq baxımından tamaşaçıları heyran edir.

Qalanın içərisində nümayiş etdirilən orta əsr döyüşçüləri və onların üzərindəki döyüş geyimləri silah növləri, ayrı-ayrı əmək alətləri, yük arabalar, o dövürlə bağlı məişət əşyaları insanı bir anlığa olsada öz keçmiş tarixinə qaytarır.

Belə tarixi əhəmiyyət daşıyan Muzeylərimizdən biri də min illiyin tarixi səlnaməsini özündə yaşadan qəhrəmanlıq abidəsi "Əlincəqala" Tarixi-Mədəniyyət Muzeyidir. "Culfa rayonundakı "Əlincəqala" tarixi abidəsinin bərpa edilməsi haqqında" Əliyev Heydər siyasi məktəbinin layiqli davamçısı Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədri Vasif Talıbovun 2014-cü il 11 fevral tarixli 189-04/S nömrəli Sərəncamı ilə bərpa edilmişdir.

Əlincəqala Naxçıvan memarlıq məktəbinin ən gözəl incilərindən biridir. Əlincəqala Azərbaycan xalqının mübarizliyini, qəhrəmanlığını özünün daş yaddaşında daşlaşdıran bir tarixi memarlıq abidəsidir. Onun yenidən bərpa edilərək insanların mənəvi zövqünün təzələnməsində, tarixi yaddaşının özünə qaytarılmasında çox böyük əhəmiyyəti vardır.

Bu Tarixi-Mədəniyyət Muzeyi Naxçıvan tarixinin simvollarından biridir.

Qala hər şeydən əvvəl özünün qeyri-adi görünüşü ilə insanı heyrətə gətirir. Əlincəqalanın divarları Əlincə dağının ətəklərindən başlayaraq pillələr şəklində yuxarıya doğru ucalır və onun zirvəsini tamamilə əhatə edir. Qala divarlarının inşası üçün daşdan bəzən isə bişmiş kərpicdən istifadə olunmuşdur. (5, s.39)

Qalanın kiçik şəhərciyi xatırladan mərkəzi hissəsində bişmiş kərpic və daşdan tikilmiş çoxlu yaşayış və ictimai binaları bərpa edilmişdir. Təmir-bərpa işləri zamanı binaların bəzisində axur qalıqlarının aşkar olunması, binalardan bir qisminin heyvanların saxlanması məqsədilə istifadə olunduğunu göstərir. Binalarda təndir qalıqları, əl dəyirmanları da aşkar olunmuşdur.

Bütün bu sadaladığımız faktlar nəinki bura gələn yerli və eləcədə xarici turistlər üçün böyük maraq yaradır, eyni zamanda tariximizi öyrənən şagirdlər və tələbələr üçün əyaniliyin əsil timsalıdır. Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan tarixinin öyrənilməsində və araşdırılmasında təkzib edilməz faktlarla zəngin olan bir xəzinədir.

Orta əsr Naxçıvan memarlarının yaratdıqları daş sənət incilərindən biri və ya birincisi olan Culfa rayonunun Gülüstan kəndi yaxınlığında yerləşən on ikinci əsr Azərbaycan xatirə memarlığının ən dəyərli nümunələrindən biri də Gülüstan türbəsidir.

Yüz illiklərin sınağından çıxan bu mədəniyyət abidəsi çox təəssüflər olsun ki, zaman keçdikcə bir hissəsi təbii qüvvələrin (külək, yağış, qar, soyuq, isti) təsirindən tədricən aşınaraq məhv olmuş və sıradan çıxmağa başlamışdır.

Muxtar respublikada tarix və mədəniyyət abidələrinə dövlət səviyyəsində göstərilən qayğı bu abidənidə məhv olmaq təhlükəsindən qurtardı. Naxçıvan Muxtar Respublikası Ali Məclis Sədrinin "Gülüstan türbəsinin bərpası və tədqiq edilməsi haqqında" 7 oktyabr 2015-ci il tarixli Sərəncamı ilə sanki Gülüstan türbəsinə yenidən həyat verildi.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Gülüstan türbəsinin açılışındakı çıxışında demişdir: "Gülüstan türbəsinin bərpa edilməsi xalqımızın çoxəsrlik tarixi-mədəni irsinin gələcək nəsillərə çatdırılması və tanıdılması baxımından mühüm əhəmiyyətə malikdir. Gülüstan türbəsi ölkəmizin tarixi abidələri içərisində memarlıq həllinə və həndəsi ornamentlərinə görə seçilir. Buna görə də türbənin bərpası zamanı hər bir detala xüsusi diqqət yetirilmiş, abidənin orjinallığı qorunub saxlanmışdır. Beləliklə, Gülüstan türbəsinə ikinci həyat verilmişdir". (6, s.4)

Beləliklə Gülüstan türbəsinin bərpa edilərək yenidən xalqımızın ixtiyarına verilməsi Açıq səma altında olan muzeylərimizin sırasını artırdı.

Tarixi abidələrə baxış ən gözəl məşğuliyyətdir. Bu heç də təsadüfi deyildir ki, Abidələr açıq səma altında muzey kimi həqiqətən hədsiz qiymətli, tarixi və estetik təsir gücünə malikdirlər.

Azərbaycan memarlığının , o cümlədən onun əsas qollarından biri olan, dünya mədəniyyət xəzinəsinə nadir incilər bəxş etmiş Naxçıvan memarlıq məktəbinin möhtəşəm nümunələrindən biri də "Gülüstan türbəsi"dir. Gülüstan türbəsi iki hissədən-sərdabə və türbədən ibarətdir. Türbənin daş üzərində oyulmuş ornamentləri zənginliyi, incəliyi, zərifliyi və mürəkkəbliyi ilə seçilir və demək olar ki, bu cəhətdən digər abidələri geridə qoyur. Abidənin ornamentləri elə ustalıqla yerləşdirilmişdir ki, onu seyr edən yerli tamaşaçılarda qürur xarici turistlərdə isə bir heyrət yaradır.

Gülüstan Türbəsi Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvanın mədəniyyəti və tarixinin öyrənilməsi və təbliğ olunmasında önəmli tarixi abidələrdən biridir.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikası Təhsil Nazirliyi Bakı Biznes Universiteti, Sabir Əmirxanov, Muzeyşünaslıq, Bakı-2012.
2. Naxçıvan Abidələri Ensiklopediyası, Naxçıvan, 2008
3. Azərbaycan SSR Elmlər Akademiyası Memarlıq və İncəsənət İnstitutu "Azərbaycan Memarlığının Naxçıvan Məktəbi-Abidələri", Bakı, Elm, 1985.
4. Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsi, Vəli Baxşəliyev, "Azərbaycan Arxeologiyası", Bakı, Elm, 2007.
5. Azərbaycan Respublikası Naxçıvan Muxtar Respublikası, Əlincəqala, Naxçıvan, 2016.
6. Azərbaycan Respublikası Naxçıvan Muxtar Respublikası, Gülüstan Türbəsi, Naxçıvan, 2016.

**ABSTRACT**

**Mammad Aliyev**

**Nakhchivan “Open air museums”**

Tere have been increased interests to study national history, culture and art and also created the number of open air museums.

To study and poularize the history of the country the artifacts preserved in the museums have great importance. From this point of view the open air museums have great importance. These museums are not out of state care. They are the followings: The Open Air Museum created in the Ajami cultural and outing complex, Gemigaya Open Air Museum on the altitude 3907m. above sea level, Nakhchivangala Historical Architectural Museum Complex and Gulistan Tomb Architectural Museum.

Creation of each open air museum has been realized according to the NAR Supreme Melis Chairman’s decision and it is the example of the state care on the museums.

**РЕЗЮМЕ**

**Маммед Алийев**

**Нахчиван «Музеи под открытым небом»**

Развитие интереса к изучения национальной истории, культуры и искусства, наравне с созданием музеев стало причиной открытие музеев под открытым небом.

Селодыл для изучения и пропаганды истории нашей Родины большое значение имеют сохранивишня материально-культурные образцы. В этосмысле Музеи под открытым небом имеют своеобразыую роль. Эти музеи макже не остались вне вьилмания государства.

Это в основном нижеперечисленные музеи: «Алеея Аджеми», созданная на территории комплеска культуры и отдижа.

«Музей Гемикая», располженный под открытым небом на высоте 3907 м.

«Нахчывангала» историко-зодчекский комплекс музеев занимой своеобразное место.

«Гюлюстан турбе»- музей памятников зодчесйва.

Указ Председателе Верховного Меджлиса Нахчыванской Автонамной Республики о вымеуказанных музеях, созданных под открытым небом нагеядный пример заботы государства о музеях.

NDU-nun Elmi Şurasının 30 mart 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 07).

Məqaləni çapa təqdim etdi: AMEA-nın müxbir üzvü Z.Şahverdiyev

**İSMAYIL ZEYNALOV**
*Naxçıvan Dövlət Universiteti*

**UOT: 94 (479.242)**

# XXI ƏSRİN BİRİNCİ ONİLLİYİNDƏ "NAXÇIVANDA TƏHSİLİN İNKİŞAFI"

Mən müəllim sənətini, müəllim işini yüksək qiymətləndirirəm. Hesab edirəm ki, cəmiyyət harada olursa-olsun, kəsib təhsilə xərcləməli, gənc nəslin təhsilinə, müəllimə kömək etməlidir.

**Açar sözlər:** *Dövlət, Naxçıvan, məktəb, elm, təhsil, xalq maarifi*
**Ключевы слева:** *Государство, Нахчыван, школа, наука, образование, народное образование*
**Key Words:** *State, Nakhchivan, school, science, education, public education*

Müasir müstəqil Azərbaycanın bütün regionları kimi, Naxçıvan Muxtar Respublikası da inkişafın yeni mırhələsini yaşayır. Bu inkişafın təməlində ulu öndər Heydər Əliyevin əsasını qoymuş Azərbaycan prezidenti İlham Əliyevin davam etdirdiyi uğurlu siyasət dayanır.

İqtisadi yüksəliş, sosial tərəqqi, mədəni intibah son illər Naxçıvan Muxtar Respublikasının tarixi reallıqlarıdır. Naxçıvanlılar bu realıqlara dövlətimizin başçısı İlham Əliyevin yüksək diqqət və qayğısı sayəsində nail olurlar.

Muxtar Respublikada maarifə təhsilə göstərilən dövlət qayğısı və himayəsi ümumilli liderin milli təhsilimizin islahatları konsepsiyasına tam uyğun düşünülmüş, plan və proqramlar əsasında aparılmışdır. Həmin islahatların tərkib hissəsi kimi təhsil sisteminin maddi-texniki bazasının genişləndirilməsi, o cümlədən yeni məktəb binalarının inşası təhsil sisteminin inkişafına öz müsbət təsirini göstərmişdir.

Dövlət büdcəsindən elmin inkiçafına sərf olunan xərclər, XXI əsrin hələ ilk illərindən 10 dəfə artmışdır. Təhsilə yönələn xərclər 5, 1 dəfə artmış, 27284 şagird yerlik 84 ümumtəhsil məktəbi, 226 yerlik isə 11 məktəbəqədər təhsil müəssisəsi tikilmiş və həmin məktəblər 100% kompyuter və digər İKT avadanlıqları ilə təmin olunmuşdur. Ölkəmizin gələcəyi təhsildən və elmdən əhəmiyyətli dərəcədə asılı olduğundan, zaman bu sahənin inkişafını daha da sürətləndirməyi, işlərin səmərəsini artırmağı tələb edir. O ölkələr və xalqlar irəli gedir ki, orada elm və təhsil daim inkişafdadır. Dövlətimizin bununla bağlı siyasəti də məhz gələcək hədəflərə istiqamətlənmişdir.

Naxçıvan Muxtar Respublikasında 2000-ci ildən Naxçıvan şəhər 10 saylı orta məktəb, 11 saylı orta məktəb, Babək rayon Qaraçuq kənd orta məktəbi, Şərur rayon Aralıq kənd orta məktəbi, Sədərək rayon 1 saylı orta məktəb, 2001-ci ildə isə Babək rayon Nəcəfalı Dizə kənd məktəbi, Babək rayon Qahab kənd orta məktəbi, Sədərək rayon Heydərabad qəsəbə orta məktəbi, Azəraycan Müəllimlər İnstitutunun Naxçıvan filialı, Heyran xanım adına Naxçıvan Tibb Texnikumu və Naxçıvan şəhər 8 saylı orta məktəbi əsaslı təmin edilmiş və yenidən qurulmuşdur.

2000-ci ildə Şərur rayon Yurtçulu kənd orta məktəbi, 2001-ci ildə Şərur rayon Dərvişlər kənd orta məktəbi və Şərur şəhər 2 saylı orta məktəbi, 2002-ci ildə Şərur rayonu Kürçülü kənd orta məktəbi, 2003-cü ildə Çərur rayonu Şəhriyar kənd orta məktəbi, 2004-cü ildə Şərur rayonu Verməziyar kənd orta məktəbi, Şərur rayonu Alışar kənd orta məktəbi, Təzəkənd orta məktəbi, 2005-ci ildə Gümüşlü kənd orta məktəbi, Yuxarı Yaycı kənd orta məktəbi, Qarahəsənli kənd orta məktəbi, 2006-cı ildə Cəlilkənd orta məktəbi, Tənənəm kənd orta məktəbi, 2007-ci ildə Mahmudkənd orta məktəbi, 2008-ci ildən Aşağı Yaycı kənd orta məktəbi, 2009-cu ildən Aşağı Daşarx kənd orta məktəbi, 2010-cu ildə Şərur rayon Təhsil şöbəsinin inzibati binası istifadəyə verilmişdir.

Culfa rayonunda 2000-ci ildə Saltaq kənd orta məktəbi, Şurut kənd orta məktəbi, 2001-ci ildə Ərəfsə kənd orta məktəbi, 2002-ci ildə Culfa rayonunun Yaycı kənd 2 saylı orta məktəbi, 2003-cü ildə Əlincə kənd orta məktəbi, Bəyəhməd kənd orta məktəb, 2004-cü ildə Xanəgah kənd orta məktəb, 2005-ci ildə Xoşkeşin kənd orta məktəb, Milax kənd orta məktəb, 2008-ci ildə Əbrəqunus kənd orta məktəbi, 2010-cu ildə Culfa şəhər 3 saylı orta məktəbi istifadəyə verilmişdir.

Ordubad rayonunda 2000-ci ildə Aza kənd orta məktəbi, 2001-ci ildə Ordubad şəhər 3saylı, 2002-ci ildə Nürgüt kənd orta məktəbi, 2003-cü ildə Kələki kənd orta məktəbi, Çənnab kənd orta məktəbi, 2004-cü ildə Xanağa kənd orta məktəbi, Tivi kənd orta məktəbi, 2005-ci ildə Kotam kənd orta məktəbi, 2006-cı ildə Biləv kənd orta məktəbi, Bist kənd orta məktəbi 2007-ci ildə Düylün kənd orta məktəbi, 2009-cu ildə Ordubad şəhər Uşaq Musiqi məktəbi tikilərək istifadəyə verilmişdir.

Şahbuz rayonunda 2000-ci ildə Biçənək kənd orta məktəbi, 2001-ci ildə Keçili kənd orta məktəb, 2003-cü ildə Külüs kənd orta məktəbi, 2004-cü ildə Badamlı qəsəbə orta məktəbi, Güney Qışlaq kənd orta məktəbi, Şahbuz rayonu Gənclər Yaradıcılıq Mərkəzi, 2005-ci ildə Ayrınc kənd orta məktəbi, Gömür kənd orta məktəbi,

Yuxarı Qışlaq kənd orta məktəbi, 2006-cı ildə Mahmudoba kənd orta məktəbi Şahbuz rayon Təhsil Şöbəsinin binası, Şahbuz şəhəri Uşaq Bağçası, 2007-ci ildə Şahbuz şəhəri orta məktəbi tikilmiş və istifadəyə verilmişdir.

Yeni məktəblərin tikintisi, mövcud məktəblərin əsaslı təmiri və müasir tədris avadanlıqları ilə təmin olunması da Muxtar Respublika rəhbərliyinin diqqətində daimi olaraq əsas yer tutur.

Azərbaycan Respublikasının Ümumilli lideri Heydər Əliyevin "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin maddi-texniki bazasının möhkəmləndirilməsi haqqında" 4 oktyabr 2002-ci il tarixli sərəncamı, eləcə də "Azərbaycan Respublikası yeni ümumtəhsil məktəblərinin tikintisi, mövcud məktəblərin əsaslı təmiri və müasir tədris avadanlıqları ilə təmin olunmasına dair Proqramının təsdiq edilməsi haqqında" 17 fevral 2003-cü il tarixli sərəncamından irəli gələn vəzifələr Naxçıvan Muxtar Respublikasında dönmədən həyata keçirilmişdir. Bu sənədlər Heydər Əliyevin Azərbaycan təhsilinin inkişafına və tərəqqisinə atalıq qayğısının, dövlət təminatının ən bariz nümunəsi idi. Həmin proqrama əsasən 2003-2007-ci illərdə ölkə üzrə 149 yeni məktəb binası, 175 məktəbdə əlavə sinif otaqlarının tikintisi, əsaslı təmir işlərinin aparılması nəzərdə tutulmuşdu və iş uğurlu həyata keçirilib başa çatdırılmışdır.

2003-2004-cü illərdə muxtar respublikada tikintisi həyata keçirilən sosial təyinatlı obyektlərin əksəriyyətini məktəb binası təşkil etmişdir. Həmin illərdə muxtar respublikada 9060 şagird yerlik 29 ümumtəhsil məktəbi, 40 çarpayılıq Naxçıvan Dövlət Universitetinin tibb tədris korpusunun xəstəxanası tikilmiş, daxili imkanlar hesabına yalnız 2003-cü ildə 2348 şagird yerlik 10 məktəb binası tikilmişdir. Məktəblərdə yaradılan bu cür şəraitlə əlaqədar olaraq muxtar respublikada ali məktəb tələbələrinin sayı 2003-cü ildə 1990-cı ilə nisbətən 2 dəfə, 1995-ci ilə nisbətən 1. 9 dəfə artaraq 4390 nəfərə bərabər olmuşdur. 2003-cü ildə fəaliyyət göstərən 2 dövlət ali məktəbində 3630 tələbə, bir qeyri-dövlət ali məktəbində 760 tələbə təhsil almışdır. 2003-cü ildə muxtar respublikada məktəblərin sayı 1990-cı ilə nisbətən 6,9 %, 1995-ci ilə nisbətən isə 2,2 % artmışdır. Bu ildə muxtar respublikada fəaliyyət göstərən 232 gündüz ümumtəhsil məktəblərindən 10 ibtidai, 19 əsas, 202-si orta təhsil məktəbi idi. Muxtar respublikada təhsilə dövlət qayğısı və diqqət birinci növbədə bu sistemin maddi-texniki bazasının daha da möhkəmləndirilməsi və müasir tələblər səviyyəsində yeniləşdirilməsi daimi nəzərdə saxlanılır.

Naxçıvan Muxtar Respublikasının rəhbərliyinin səyləri nəticəsində burada 140-dan çox dünya standartlarına tam cavab verən məktəb binası inşa olunmuş və bu iş bu gün də çox uğurla davam etdirilir. Məhz bu mənada 2003-cü il Şərur rayonunu Şəhriyar kəndində 432 yerlik, Babək rayonunu Araz kəndində 62 yerilk, Aşağı Uzunoba kəndində 324 yerlik, Şahbuz rayonunun Külüs kəndində 318 yerlik, Ordubad rayonunnun Dırnıs kəndində 176 yerlik, Naxçıvan şəhərində gözdən əlil uşaqlar üçün 60 yerlik xüsusi ibtidai məktəb-cəmi 2390 yerlik 10 məktəb binası tikilmişdir. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin qayğısı və himayəsi ilə Naxçıvan şəhərinin Babək məhəlləsində 1206 yerlik, Şərur rayonundakı Təzəkənddə isə 110 yerlik yeni məktəb binasının tikintisi, Naxçıvan şəhərində hərbi hissənin nəzdində 720 şagird yerlik məktəbin tikintisi davam etdirilmişdir.

2003-2004-cü dərs ilimdə Muxtar Respublikanın ümumtəhsil məktəblərinin 1-5-ci sinifləri üçün 45 adda 13 min ədəd pulsuz dərslik verilmiş, ölkə rəhbəri möhtərəm Heydər Əliyevin hədiyyəsi olaraq birinci sinif şagirdlərinə 7200 çanta və dərs ləvazimatı paylanmışdır. 2003-cü ildə Muxtar Respublikanın ümumtəhsil məktəblərinə 114 ədəd yeni kompyuter dəstləri verilmişdir.

2002-2003-cü tədris ilində Muxtar Respublikanın orta ümumtəhsil məktəblərini 5872 nəfər bitirmişdir. Əgər 2002-ci ildə qəbul imtahanlarında iştirak etmək üçün 1609 nəfər ərizə vermişdirsə, 2003-cü ildə bu göstərici 2478 nəfər olmuşdur.

Əgər 2002-ci ildə Muxtar Respublik abituriyentlərinin 39 nəfəri 500-dən yuxarı bal toplamışdırsa, 2003-cü ildə bu rəqəm 41 nəfər təşkil etmişdir. 600-dən çox bal toplayanlar isə 9 nəfər olmuşdur. Naxçıvan və Culfa şəhərləri kimya fənni üzrə, Şahbuz rayonu abituriyentləri isə tarix fənni üzrə göstəriciləri Azərbaycan üzrə orta göstəricidən yuxarı olmuşdur.

XXI əsrin ilk onilliyi dövründə Naxçıvan Dövlət Universitetində, sosial idarəetmə hüquq və iqtisad, memarlıq və mühəndislik, beynəlxalq münasibətlər və xarici dillər, təbiətsünaslıq və kənt təsərrüfatı və pedaqoji fakültə üçün yeni korpus tikilmiş, mövcud binalar əsaslı təmir olunmuş, açıq idman zalı və müasir tipli Olimpiya idman mərkəzi, tələbə evi və sosial xidmət mərkəzi yaradılmışdır. Naxçıvan Dövlət Universitetində tədrisin keyfiyyətini yüksəltmək istiqamıtində həyata keçirilən islahatlar çərçivəsində mükəmməl elektron kitabxana yaradılmışdır. Kitabxana üçün müasir bina tikilmiş, informasiya-komunikasiya texnologiyalarının son nailiyyətlərini əks etdirən avadanlıqlar quraşdırılmışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2004-cü il mayın 12-də elektron kitabxanannın yeni binasının açılışında içtirak etmişdir. Kitabxana 2013-cü ildən əsaslı sürətdə yenidən qurulmuş, 3 dildə yeni internet saytı istifadəyə verilmişdir.

2000-2005-ci illərdə tikilən məktəblərin sayı 59, şagird yerlərinin sayı 17770 nəfər olmuşdur. Məktəb tikintisi sonrakı illərdədə davam etdirilmişdir. 2003-2013-cü illərdə Muxtar Respublikada 84 ümumtəhsil

məktəbi, 226 yerlik 11 məktəbəqədər təhsil müəssisəsi tikilmişdir. 2005-ci ildən başlayaraq hər il Muxtar Respublikada təhsil yarmarkaları keçirilmişdir. 2007-ci ildə təhsil yarmarkasına178 ixtisaslı mütəxəssis müraciət etmiş, bunlardan 144-ü kənd məktəblərində işlə təmin edilmişdir.

Azərbaycan Respublikasının Prezidentinin “”Naxçıvan Dövlət Universitetinin 40 illik yubileyinin qeyd olunması haqqında”2007-ci ilin 31 mart tarixli Sərəncamına əsasən universitetin konservatoriyasi üçün yeni bina tikilmişdir. Prezident İlham Əliyev 2007-ci il oktyabrın 17-də 4 mərtəbəli binanın açılışını etmişdir. Binada 400 nəfər tələbənin təhsil alması üçün yüksək şərait yaradılmışdır. Burada 240 yerlik tamaşa salonu ayrı-ayrı ixtisaslar üzrə sinif otaqları vardır.

Zəngin maarifçilik ənənələri ilə bütün dövrlərdə fərqlənən Naxçıvanda fəaliyyət göstərən Dövlət Universiteti yüksək ixtisaslı kadrlar yetişdirilməsində, elmi mühitin formalaşdırılmasında mühüm rol oynayır. Universitetimizdə hər gün 400-ə yaxın müəllim çalışır, 5000-dən çox tələbə təhsil alır. Bu ali təhsil ocağının məzunları ölkəmizin siyasi-iqtisadi, elmi və mədəni potensialinin gücləndirilməsinə layiqli töhvələr verirlər. Bütün bunlar XXI əsrin ilk onilliyindən həyata keçirilən uğurlu siyasətin və bunun nəticəsi olan inkişafın tərkib hissəsidir. Bilikli intelektli gənc nəsil yetişdirilmədən xalqın gələcəyini təmin etmək mümkün deyildir. Dövlətimiz məhz bunu nəzərə alaraq, ölkənin sabahını düçünərək təhsilis himayə edir, onu prioritet məsələ kimi diqqət mərkəzində saxlayır.

Naxçıvan Tibb Kollecinin4 mərtəbəli binası əsaslı sürətdə yenidən qurularaq 2008-ci iliyunun 3 –də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə açılmışdır. Binada 8 mühazirə otağı, 7 kabinet, 3 laboratoriya, kitabxana, akt zalı, kompyuter mərkəzi və idman salonu vardır. Hazırda kollecdə 500-ə yaxın tələbə təhsil alır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2004-cü il sentyabrın 2-də Naxçıvan şəhərində Heydər Əliyev adına tam orta məktəbin, 2005-ci il dekabrın 19-da Şahbuz rayonunun Ayrınc kəndində tam orta məktəbin, 2006-ci il dekabrın 20-də Naxçıvan şəhər 7 nömrəli tam orta məktəbin, bir gün sonra isə Ordubad şəhər internat məktəb kompleksinin, 2007-ci il oktyabrın 17-də Naxçıvan şəhər 14 saylı tam orta məkəbin, Kəngərli rayonunun Şahtaxtı kəndində akademik Zərifə Əliyeva adına tam orta məktəbin, 2010-cu il oktyabrın 5-də Şərur rayonunun Yengicə, Maxta knd tam orta məktəblərinin və Sədərəkdəki 2 nömrəli tam orta məktəbin yeni və əsaslı təmir olunmuş binalarının açılış mərasimlərində iştirak etmişdir. 2001-2010-cu illərdə Muxtar Respublikanın təhsil müəssisələri üçün 200-dən çox yeni bina tikilmiş və ya əsaslı şəkildə yenidən qurulmuşdur. Ümumtəhsil məktəblərinə 1611753 nüsxə dərslik və latın qrafikası ilə çap olunmuş və 620117 nüsxə bədii ədəbiyyat verilmişdir. “Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin informasiya və kominikasiya texnologiyaları ilə təminatı Proqramı (2005-2007-ci illər)” və həmin proqramın davamı olan “2008-2012-ci illərdə Azərbaycan Respublikasında təhsil sisteminin informasiyalaşdırılması üzrə Dövlət Proqramı”Muxtar Respublikada təhsil sisteminin müasirləşdirilməsinə yol açılmışdır. Həmin proqramın nəticəsi olaraq məktəblərə 3183 dəst kopyuter verilmiş, onların 83%-i internet şəbəkəsinə qoşulmuşdur. Bununla yanaşı, ümumtəhsil müəssisələrində 500 elektron lövhə quraşdırılmışdır.

İstedadlı tələbə və gənclərin müəyyənləşdirilməsi və onlarla aparılan işin səviyyəsinin yüksəldilməsi məqsədi ilə təhsil müəssisələrində “istedad bankı”yaradılmış, tələbələrimiz beynəlxalq və respublika əhəmiyyətli fənn olimpiadalarında layiqincə təmsil olunmuşdur. Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 9 iyul tarixli Sərəncamı ilə təsdiq olunmuş “2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsil üzrə Dövlət Proqramı”çərçivəsində yüzlərlə naxçıvanlı gənc xarici ölkələrin qabaqcıl ali məktəblərində təhsil almaq hüququ qazanmışdır.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2012-ci il may ayının 30-da açılışını etdiyi Culfa Uşaq Musiqi Məktəbi də ölkəmizdə gənc nəslin mənəvi tərbiyəsi istiqamətində mühüm işlər görüldüyünü təsdiq edən faktlardan biridir. Culfa musiqi məktəbinin 4 mərtəbəli yeni binasında 52 sinif otağı vardır. Burada şagirdlərə 9 ixtisas –tar, kamança, nağara, fortepiano, skripka, qarmon, klarnet, balaban, xanəndəlik üzrə dərslər keçirilir.

Təhsilin inkişafında özünəməxsus xüsusi rolu olan Naxçıvan Muxtar Respublikası Kitabxanası da əsaslı surətdə yenidən qurulmuşdur. Fondunda 150 min nüsxəyə yaxın kitab olan bu elmi-metodiki mərkəzdə 4 bölmə və 10 şöbə fəaliyyət göstərir. Kitabxananın bazasında yeni elektron kitabxana yaradılmış, elektron kataloq sistemi və internet saytı fəaliyyətə başlamışdır. 3 dildə hazırlanan internet saytı isə dünyanın istənilən kitabxanası ilə informasiya mübadiləsi aparmağa imkan verir.

Naxçıvan Müəllimlər İnstitutu 13 iyun 2001-ci ildə Naxçıvan Politexnik Texnikumunun bazasında yaradılmışdır. 2000-2003-cü illərdə Azərbaycan Nazirlər Kabinetinin qərarı ilə müstəqil instituta çevrilmişdir. İbtidai sinif müəllimliyi, məktəbəqədər təlim-tərbiyə, təhsildə sosial psixoloji xidmət, riyaziyyat və informatika müəllimliyi, təsviri incəsənət müəllimliyi ixtisasları üzrə mütəxəssislər hazırlayan institunun 2 fakültə və 6 kafedrası var. İnstitutda 2004-cü ildən ali təhsilin magistratura pilləsinin pedaqogika

nəzəriyyəsi və tarixi, 2006-cı ildən isə ibtidai təhsilin pedaqojikası və metodikası ixtisasları üzrə kadr hazırlığı aparılır. 2001-ci ildən institutun nəzdində "Heydər Əliyev lektoriyası" fəaliyyət göstərir.

Bu ali təhsil ocağında pedaqoji kadrların ixtisasının artırılması və təkmiləşdirilməsi məqsədilə Əlavə Təhsil Mərkəzi fəaliyyət göstərir. Kurikulum və internet mərkəzlərinin də fəaliyyət göstərdiyi institutda 78 nəfər müəllim çalışır. Onlardan 5 nəfəri elmlər doktoru, 35 nəfəri isə fəlsəfə doktoru-dosentdir.

Naxçıvan Universitetinin isə 14 ixtisas üzrə mütəxəssis hazırlayan 4 fakültəsi (iqtisadiyyat, idarəetmə, mühasibat uçotu və xarici dillər), əyani və qiyabi şöbələri, 9 kafedrası, laboratoriya və kabinələri, İKT şöbəsi, nəşriyyat, əsaslı kitabxanası vardır. Ali məktəbdə 81 nəfər professor-müəllim heyəti çalışır.

2001-ci ildə C. Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialının ilk buraxılışı olmuşdur. BU buraxılışın 50 məzunundan 49-u ali hərbi məktəblərə qəbul olmuşdur. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin "Heydər Əliyev adına Hərbi Liseyin yaradılması haqqında" 27 fevral 2004-cü il tarixli Sərəncamı ilə C. Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan Filialının bazasında müstəqil Hərbi Lisey yaradıldı.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Naxçıvanda elmi qurumların statusunun artması, Naxçıvanın hərtərəfli öyrənilməsi üçün yeni elmi müəssisənin yaradılması ilə bağlı ölkə prezidentinə müraciət etmişdir. Müraciət və təklif təqdir olunmuş və Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 7 avqust 2002-ci il tarixli Sərəncamı ilə AMEA-nın Naxçıvan bölməsi yaradıldı. Bu bölmənin yaradılması strateji məqsədlərə hesablanmış və Muxtar Respublikada elmin daha da inkişaf etməsinə geniş imkanlar açılmışdır.

2009-cu ildə alim və tədqiqatçılar tərəfindən 90 kitab, monoqrafiya, dərslik və dərs vəsaiti, 1300-dən çox elmi məqalə və tezis hazırlanaraq çap edilmişdir. Ali təhsil və elm mərkəzlərində 3 beynəlxalq, 50 respublika və ali məktəb əhəmiyyətli konfrans və simpozium keçirilmişdir.
2009-cu ildə Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi üçün inzibati bina, Naxçıvan şəhərində 2, 4, 8 saylı, Şərur şəhərində 1 sayli, Tumaslı, Aşağı Daşarx, Havuş, Culfa rayonunda Ərəzin kənd məktəbi, Kəngərli rayonunun Qarabağlar kənd 2 saylı, Şahbuz rayonunun Badamlı kənd, Babək rayon Zeynəddin kənd orta məktəbi, Naxçıvan şəhəri peşə liseyinin binaları tikilərək istifadəyə verilmişdir.

Qeyd etmək lazımdır ki, respublika rəhbərliyinin orta məktəblərə göstərdiyi bu yüksək diqqət və qayğının nəticəsidir ki, muxtar respublikada fəaliyyət göstərən ali təhsil müəssisələrinə, xüsusən də Naxçıvan Dövlət Universitetinə yüksək ballarla daxil olanların sayı artmaqdadır. 2007-ci ildə 69 nəfər məzun 500-700 arası bal toplayaraq NDU-ya daxil olmuş, 2008-ci ildə onların sayı 121 nəfər olmuşdur ki, bunların da 100 nəfəri muxtar respublika ümumtəhsil mərkəzlərinin məzunları olmuşlar.

Bu gün MR-də analoqu olmayan təhsil ocaqları həm ali məktəblər, həəm də orta ümumtəhsil məktəbləri ulu öndərimiz Heydər Əliyevin "Təhsil millətin gələcəyidir" fikrini əlində rəhbər tutan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Naxçıvan təhsilinin inkişafı üçün mühüm addımlar atır və artmaqdadır.

Bu gün Muxtra Respublika orta məktəblərinə nəzər saldıqda görürük ki, işıqlı sinif otaqları, elektron lövhəli kompyuter otaqları, zəngin kitabxanalar, laboratoriyalar müəllim və şagirdlərin istifadəsinə verilmişdir. Göründüyü kimi muxtar respublikada bütün sahələrdə olduğu kimi, təhsil sahəsində də sözün əsl mənasında çiçəklənmə dövrü başlamışdır. Məhz elə görülən bu işlərin nəticəsidir ki, əvvəlki illərdən fərqli olaraq, artıq 2000-ci ildən məzunlarımız arasında yüksək bal toplamaqla bərabər Prezident təqaüdünə layiq görülənlərin də sayı artmışdır. 2005-ci ildə 2, 2006-cı ildə 2, 2007-ci ildə 3, 2008-ci ildə 5, 2009-cu ildə də həmçinin 9 məzun yüksək bal toplayaraq Prezident təqaüdünə layiq görülmüşlər.

Göründüyü kimi müvəffəqiyyətlər göz qabağındadır. Bütün bunlar isə ümumilli liderimiz Heydər Əliyevin, onun uğurlu davamçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, həmçinin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun təhsilə diqqət və qayğısı nəticəsində mümkün olmuşdur.

Son illər Naxçıvan Muxtar Respublikasında təhsilin inkişafında əldə olunan nəaliyyətlər Muxtar Respublikanın qazandığı cahanşümül uğurların tərkib hissəsidir. Lakin Muxtar Respublikanın təhsil işçiləri bu nəaliyyətlərlə məhdudlaşmır. Muxtar Respublika təhsilini daha da inkişaf etdirmək, müasir dövrün tələblərinə uyğunlaşdırılmasına, dünya təhsil sisteminə sürətli uğurlu inteqrasiyasına səy göstərirlər.

Yekun olaraq, böyük iftixar hissi ilə demək olar ki, ölkəmizin başqa bölgələrində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da təhsilin inkişafına yönəldilmiş dövlət siyasəti və həyata keçirilən geniş miqyaslı tədbirlər gələcək uğurlara etibarlı zəmin yaradır. Təhsil işçiləri onlara göstərilən diqqət və qayğıya cavab olaraq, təhsilin müasir standartlar səviyyəsinə çatdırılması istiqamətində bundan sonra da öz bilik və bacarıqlarını əsirgəməyəcəkdir.

## ƏDƏBİYYAT

1. Talıbov V. Y.: Heydər Əliyev Cənablarının Siyasi fəaliyətinin Naxçıvan dövrünün elm və maarifçilik məsələləri. NDU-nun "Elmi əsərləri və 1997 N1"
2. Talıbov V. Y.: Naxçıvan Muxtar Respublikasında mədəni proseslər və müasir dövr NDU-nun elmi əsərləri, 1999, N4, səh. 14-19
3. Hacıyev İ. M.: Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi həyatı, sosial-iqtisadisadi və mədəni inkişafı (1991-2011-ci illər). Naxçıvan, Əcəmi, 2011, səh. 272
4. Şahverdiyev Z., Zeynalov İ.: Naxçıvan Muxtar Respublikası 1991-2001-ci illərdə. Qismət, 2001, səh. 284
5. Şahverdiyev Z., Zeynalov İ.: Naxçıvan Muxtar Respublikasında sosial-iqtisadi və mədəni inkişafı (2001-2012-ci illər). Dərs Vəsaiti, Əcəmi, 2014, səh. 248.


## ABSTRACT


**Ismayil Zeynalov**


**Development of education in the first decade of the XXI centry**


In the first decade of the XXI century great accomplishments have been gained in all fields of the Autonomous Respublic, the field of education. All these were possible thanks to the attention and care given to the education by the national leader Heidar Aliyev, his worthy follwer, President of the Azerbaijan Republic Ilham Aliyev, as well as the Chairman of the supreme Majhs of the Nakhchivan Autonomous Republic Vasif Talibov.

The successes gained in the development of education are the componentd of the great successes gained in the Autonomous Respublic. But the educators of the Republic are not satisfied with these accomplishments . They try to further develop education in the Autonomous Respublic, to bring it to conformity with the standards of the time and its fast and successful integration to the word education system.


## РЕЗЮМЕ


**Исмаил Зейналов**


**Положение образования в Нахчыванской Автономной Республике в период первого десятилетия XXI века**


В период первого десятилетия XXI века приобретенные достижения во всех сферах в Нахчыванской Автономной Республике провяляют себя и в области образования. Все это стало возможным в результате проявленной заботы об образовании общенационального лидера Гейдара Алиева, его умелого продолжателя, Президента Азербайджанской Республики Ильхама Алиева, а также Председателя Верховного Меджлиса Нахчыванской Автономной Республике Васифа Талыбова.

Приобретенные достижения в развитии образования в Нахчыванской Автономной Республике составляют основу общечеловечских успехов автономной республики. Однако работники образования автономной республики не ограничиваются достигнутыми, они стремятся и дальше развивать здесь процессы образования, соотнести его требованиям современности, интегрировать системе мирового образования.



NDU-nun Elmi Şurasının 30 mart 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 07).

Məqaləni çapa təqdim etdi: AMEA-nın müxbir üzvü Z.Şahverdiyev

**ALLAHVERDİ HÜSEYNOV**
*Naxçıvan Dövlət Universiteti*

**UOT: 94 (479.242)**

# NAXÇIVAN MSSR-DƏ ƏHALİNİN MADDİ RİFAHI HALININ YAXŞILAŞMASI (1946-1960-Cİ İLLƏR)

Azərbaycan müstəqilliyinin bərpa olunması, inkişafı və möhkəmləndirilməsi tarixşünaslıq elmi qarşısında çox böyük vəzifələr qoyulmuşdur. Təsadüfi deyil ki, görkəmli diplomat, dövlət xadimi, vətənpərvər, müdrik el ağsaqqalı, ümummilli liderimiz Heydər Əliyev 1997-ci il yanvarın 31-də Azərbaycan Respublikası Elmlər Akademiyasının əməkdaşları ilə görüşündə demişdir: «...İndi vəzifə ondan ibarətdir ki, Azərbaycan tarixi yazılmalıdır» (1, 01 fevral 1997). Bu nöqteyi-nəzərdən Azərbaycanın ayrılmaz, tərkib hissəsi, zəngin tarixə və mədəniyyətə malik olan Naxçıvan diyarının tarixini, mədəniyyətini, muxtar respublika əhalisinin maddi rifahı halının yaxşılaşdırılması və sair sahələrin inkişafı tarixinin araşdırılması, elmi dövriyyəyə daxil edilməsi zəruri problemlərdən biridir.

Naxçıvan diyarı çox mürəkkəb və çətin inkişaf yolu keçmişdir. Tarixin bütün mərhələlərində öz övladlarının səyi nəticəsində diyar düşmən basqınlarından qorunmuş, təsərrüfatı və mədəniyyəti inkişaf etdirmişdir. Bu gün keçmiş tariximizi öyrənməsək, araşdırmasaq, gələcək nəsillərə çatdırmasaq, onda cəmiyyət bizi bağışlamaz. Məhz bu mənada 1946-1960-cı illərdə Naxçıvan Muxtar Sovet Sosialist Respublikasında əhalinin maddi rifahı halının yaxşılaşması probleminin tədqiqi də xüsusi əhəmiyyət kəsb edir.

Naxçıvanın XX əsr tarixində 50-60-cı illər mühüm bir dövrü təşkil edir. Bu dövrdə muxtar respublikada idarəçiliyin güclənməsi, dövlət və plan intizamının möhkəmləndirilməsi, kadrlara qarşı tələbkarlığın artması və s. amillər nəticəsində sosial-iqtisadi sahədə mühüm iqtisadi və mənəvi irəliləyişlər əldə edilmişdir.

1950-ci illərin əvvəllərində Naxçıvan MSSR-in sosial-iqtisadi həyatında yeni yüksək inkişaf mərhələsinin əsası qoyulmuşdu. 50-60-cı illərdə Naxçıvanın xalq təsərrüfatını inkişaf etdirmək üçün (kolxozlardan başqa) 33532 min manat (müqayisə edilən qiymətlərlə) əsaslı vəsait müəyyən edilmişdir ki, bu da əvvəlki illərdə müqayisədə xeyli çox idi (2, s.76).

Məlum olduğu kimi, ölkənin iqtisadi bazasının yaradılması, güclənməsi, əhalinin həyat səviyyəsinin yüksəldilməsi və onun gündən-günə artan tələbatının ödənilməsi xalq təsərrüfatının yüksək inkişafından və müvəffəqiyyətlərindən çox asılıdır.

50-60-cı illərdə muxtar respublikada bir sıra yeni sənaye müəssisələri yaranmış, yenidən qurularaq istifadəyə verilmişdi. Bu sənaye müəssisələrindən: baramaaçan, tikiş, mebel, quşçuluq fabrikləri, Badamlı və Sirab mineral su dolduran zavodlar, konserv, şərab, tütün-fermentasiya, mexanikləşdirilmiş çörək, ət-süd, dəyirman və tikinti kombinatları, alminium və şüşə qablar, elektro-texnika, asfalt-beton, pambıqtəmizləmə zavodları, duz və filiz mədənləri və sairləri göstərmək olar (3, s.135).

1950-ci illərdə Naxçıvan Muxtar Respublikasında yeni sənaye müəssisələrinin yaradılması və yenidən qurulmasında xeyli irəliləyişlər baş verdi. Nəticədə sənaye məhsulu istehsalı 1951-1955-ci illərdə daha sürətlə (Azərbaycanda 45%, Naxçıvan MR-də 87%) artdı (4, s.24).

Naxçıvan MSSR-nin coğrafi mövqeyi, torpaq örtüyü, iqlim şəraiti, relyefi, su mənbələri burada kənd təsərrüfatını inkişaf etdirmək imkanı verir. 50-60-cı illərdə muxtar respublikada taxılçılıq, pambıqçılıq, tütünçülük, üzümçülük, meyvəçilik, baramaçılıq, tərəvəzçilik və ictimai heyvandarlığın inkişafına diqqət artırılmışdır.

Naxçıvan MSSR-də kənd təsərrüfatını inkişaf etdirmək üçün 1946-1950-ci illərdə dövlət tərəfindən 21 milyon manat sərmayə qoyulmuşdursa, 1951-1955-ci illərdə bu rəqəm 4920.0 min manata, 1956-1960-cı illərdə isə 35050,0 min manata çatdırılmışdı (2, s.76). Bu vəsait muxtar respublikada kənd təsərrüfatının inkişafında və maddi-texniki bazasının yüksəkdilməsində mühüm əhəmiyyət kəsb etmişdir.

Naxçıvan MSSR-də xalq təsərrüfatının inkişafına dair beşillik planların yerinə yetirilməsi muxtar respublikada əhalinin sosial şəraitinin yüksəldilməsinə səbəb olmuşdu. Zəhmətkeşlərin real gəlirləri artmış, mənzil tikintisi genişləndirilmiş, ictimai və mədəni xidmət sahələri yaxşılaşmış, xalq maarifi və səhiyyə sahələri müvəffəqiyyət qazanmış, mədəni-maarif ocaqlarının geniş şəbəkələri yaranmışdır.

İkinci dünya müharibəsindən sonra muxtar respublikada əhalinin güzaranının yaxşılaşması və pul gəlirinin çoxalması ilə əlaqədar olaraq əhalinin əmanət kassalarına qoyduğu pulun miqdarı da artmışdı. 1951-ci ildə əmanətlərin sayı 4493, əmanət kassalarında əmanətlərin qalığı 257 min manat, əmanətlərin orta məbləği 57 manat olduğu halda, 1960-cı ildə əmanətlərin sayı 12186, əmanət kassalarında əmanətlərin qaldığı 1407 min manat, əmanətlərin orta məbləği 115 manata çatmışdı.

Muxtar respublikada əmanət kassalarının şəbəkəsi də xeyli çoxalmışdı. Belə ki, 1951-ci ildə muxtar respublikada 13 əmanət kassası olduğu halda, 1960-cı ildə bu rəqəm 26-ya çatmışdır (2, s.81). Muxtar

respublikada əmanət kassalarında əmanətlərin miqdarının çoxalması və əmanət kassalarının şəbəkəsinin artması, əhalinin maddi-rifah halının yaxşılaşması sosial-iqtisadi inkişafla bağlı idi.

1950-60-cı illərdə xalq istehsal mallarının və çeşidlərin çoxalması, əhalinin sosial-iqtisadi səviyyəsinin yüksəldilməsi nəticəsində onların şəxsi istehlakının quruluşunda ciddi keyfiyyət və kəmiyyət dəyişiklikləri əmələ gəlmişdi. Belə ki, pərakəndə ticarət və ictimai iaşə müəssisələrinin sayı 1950-ci ildə 460 olduğu halda, bu rəqəm 1960-cı ildə 500 olmuşdu (5, s.108). Pərakəndə mal dövriyyəsi (müvafiq illərdəki qiymətlərlə) 1950-ci ildə 13430 min manat olduğu halda, 1960-cı ildə 23588 min manata çatmışdı (5, s.107).

1950-60-cı illərdə əhalinin mənzilə olan tələbatının ödənilməsi, kommunikasiya xidmətlərinin yaxşılaşdırılması yerli hakimiyyət orqanlarının əməli fəaliyyətində mühüm yer tutmuşdur. Muxtar respublikada 1955-ci ildə dövlət və kooperativ müəssisələri şəhər əhalisi tərəfindən tikilib, istifadəyə verilmiş mənzil fondu16,8 min kv metr olduğu halda, bu rəqəm 1960-cı ildə artaraq 33,3 min kv metrə çatmışdı (5, s.90). Dövlət, kooperativ və şəhər əhalisindən fərqli olaraq, kolxozçular və kənd ziyalıları tərəfindən istifadəyə verilmiş mənzil fondu çox idi. 1955-ci ildə kolxozçular və kənd ziyalıları tərəfindən tikilib istifadəyə verilmiş mənzil fondu 1100 kv. metr olduğu halda, 1960-cı ildə 1272 min kv metr olmuşdu (5, s.91).

Ümumiyyətlə, 1956-1960-cı illərdə 348,8 min kv metr yaşayış evləri istifadəyə verilsə də əhalinin artan tələbatı ödənilməmişdi (6, s.92).

Muxtar respublikada müharibədən sonrakı illərdə yeri büdcə üzrə əhalinin sağlamlığına qoyulan vəsait də ildən-ilə artmışdır. Belə ki, səhiyyə və bədən tərbiyəsinə 1950-ci ildə 1303,1 min manat, 1960-cı ildə isə 2320,2 min manat xərclənmişdi (5, s.138; 6, s.124).

Müharibədən sonrakı illərdə Naxçıvan MSSR-də tibb müəssisələrinin şəbəkəsi xeyli genişləndirilmiş, xəstəxanaların mərkəzləşdirilmiş sahəsində çox iş görülmüşdü. Muxtar respublikada 1950-ci ildə 27 xəstəxana, 100 feldşer-mama məntəqəsi, 139 həkim, 471 orta tibb işçisi (hərbi qulluqçulardan başqa) fəaliyyət göstərdiyi halda, bu rəqəm 1960-cı ildə xeyli artmışdır. Belə ki, 1960-cı ildə əhaliyə 41 xəstəxana, 129 feldşer-mama məntəqəsi, 173 həkim, 968 orta tibb işçisi xidmət göstərmişdir (5, s.127, 131, 132). Bu rəqəmlər sonrakı illərdə daha da artmışdı. Lakin ümumilikdə muxtar respublikada yerləşən xəstəxanalar, ambulatoriyalar, laboratoriyalar və apteklər əhaliyə lazımi xidmət göstərməkdən xeyli geri qalır.

Müharibə illərindən sonra digər sahələr kimi təhsil sahəsində də bərpa və inkişaf istiqamətində bir sıra işlər görülmüşdü ki, bunun nəticələri də 50-ci illərin əvvəllərindən başlayaraq özünü göstərdi. İlk növbədə təhsilin inkişafına dövlət qayğısının və nəzarətin artırılması, bu məqsədlə büdcədən ayrılan vəsaitin həcminin yüksəlməsi 50-ci illərin əvvəllərindən başlayaraq özünü büruzə verdi. Belə ki, yerli büdcə üzrə maarif xərcləri 1940-cı ildə 1425,2 min manat, 1945-ci ildə 1585 min manat təşkil edirdisə, 1950-ci ildə bu rəqəm 2678,5 min manat, 1960-cı ildə 3844,7 min manata çatmışdı (2, s.84; 5, s.123). Sonrakı illərdə bu rəqəm daha da yüksək olmuşdu.

Muxtar respublikada məktəblərin sayı artırılmış, pedaqoji kadrlarla təmin olunmuşdu. 1946-1960-cı illərdə muxtar respublikanın məktəblərində oxuyan şagirdlərin sayı ilbəil artmışdı. Belə ki, 1950-51-ci dərs ilində muxtar respublikanın gündüz məktəblərində 25093 nəfər şagird oxuduğu halda, 1959-60-cı dərs ilində muxtar respublikanın gündüz məktəblərində 25180 nəfər şagird təhsil alırdı (5, s.111).

1950-60-cı illərdə muxtar respublikada avtomobil yollarının uzunluğu xeyli çoxalmış, əhaliyə ictimai nəqliyyat xidmətləri yaxşılaşmışdı. Muxtar respublikanın paytaxtı ilə rayon mərkəzləri, kənd və qəsəbələr arasında yeni avtobus marşrutları təşkil olunmuşdur. 1953-cü ildə yük dövriyyəsi 2339,4 min ton-kilometr, yük daşınması 96,1 min ton, sərnişin dövriyyəsi 3706,3 min sərnişin-kilometr, sərnişin daşınması 646,1 min nəfər olduğu halda, 1960-cı ildə yük dövriyyəsi 6261,5 min ton-kilometr, yük daşınması 386,4 min tona, sərnişin dövriyyəsi 15274 min sərnişin-kilometrə, sərnişin daşınması 1529 min nəfərə çatmışdı (5, s.83).

Əhalinin maddi rifahı halının yaxşılaşması ilə yanaşı muxtar respublikada əhalinin sayı da artmışdı. 1959-cu il yanvarın 15-də əhalinin siyahıya alınması məlumatına əsasən muxtar respublikada əhalinin sayı 141,4 min nəfər olmuşdur.

İkinci Dünya müharibəsindən sonrakı illərdə muxtar respublikada xalq təsərrüfatında işləyən fəhlə və qulluqçuların orta illik sayı da artmışdı. 1953-cü ildə xalq təsərrüfatında işləyən fəhlə və qulluqçuların sayı 12,6 min nəfər, 1960-cı ildə 16,4 min nəfər olmuşdu (2, s.85).

Ümumiyyətlə, 50-60-cı illərdə Naxçıvan MSSR-də xalq təsərrüfatının ayrı-ayrı sahələrində olan irəliləyişlər, onun iqtisadi potensialının artırılmasına imkan vermiş, bu da öz növbəsində muxtar respublikada əhalinin maddi rifahı halının yaxşılaşması üçün şərait yaratmışdır.

## ƏDƏBİYYAT:


1. «Azərbaycan» qəzeti, 1 fevral 1997-ci il
2. Naxçıvan tarixi. Üç cilddə, III c., Naxçıvan: «Əcəmi» nəşriyyatı, Poliqrafiya Birliyi, 2015, 560 s.
3. Hüseynov X.A. Naxçıvan Muxtar Respublikasında sənayenin inkişafı (1950-2004-cü illər), (Dərs vəsaiti), Bakı, 2010, 158 s.
4. Nadirov A.A., Nuriyev Ə.X., Muradov Ş.M. Naxçıvan iqtisadiyyatı XX əsrdə. Bakı, «Elm», 2000, 104 s.

5. Naxçıvan MSSR xalq iqtisadiyyatı. Statistik məcmuə. Bakı, BNM, 1964, 142 s.
6. 1970-ci ildə Naxçıvan MSSR xalq təsərrüfatı. Statistik məcmuə. Bakı, BNM, 1972, 137 s.

**ABSTRACT**

**A. Husseynov**

**Improvement of people's welfare in the Nakhchivan ASSR (1946-1960s)**

Developmental history of national economy of the Nakhchivan land, the integral part of Azerbaijan and which has rich history and culture, improvement of people's welfare, as well as the study of development of other fields, and its inclusion into scientific circulation is one of the necessary problems.

In the 1946-1960s socio-economic development affected greatly to the improvement of population's welfare in the Autonomous Republic.

In the years following World War II as a result of fulfillment of a 5 year plan on the development of national economy in the Autonomous Republic, real income of laborers, production goods and their sorts have increased, public and domestic services have improved, education and healthcare have developed, a wider range of educational and cultural institutions has been created and achievements in other fields have been gained.

Generally, in the 50-60 years development of economy in the Nakhchivan ASSR has created a favorable condition for improvement of people's welfare.

**РЕЗЮМЕ**

**А.Гусейнов**

**Улучшение материального благосостояния населения Нахчыванской АССР в 1946-1960 гг**

Важной проблемой является изучение истории развития народного хозяйства, улучшение материального благосостояния населения, включение в научный оборот обладающего богатой историей и культурной неотчемлемой части Азербайджана Нахчыванского края.

Социолно-экономическое развитие Автономной Республики в 1946-1960 гг оказало большое влияния на улучшение материального благосостояния населения Нахчыванской Автономной Республики.

В результате выяснения пятилетних планов развития, принятых после Второй мировой войны, увеличились реальные доходы населения, увеличились товары производства и их ассортимент, улучшились общественные и бытовые услуги, получили дальнейшее развития просвещение и здравохранение, были созданы культурно-просветительные учреждения, а также были доста гнуты успехи в других областях народного хозяйства.

Вообще, в 1950-1960 гг в Нахчыванской АССР развитие экономики создало хорошие условия для улучшения материального благосостояния населения.

NDU-nun Elmi Şurasının 30 mart 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 07).

Məqaləni çapa təqdim etdi: AMEA-nın müxbir üzvü Z.Şahverdiyev

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2017, № 2 (83)**

NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2017, № 2 (83)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2017, № 2 (83)**

**EMİN ŞIXƏLİYEV**
*AMEA Naxçıvan Bölməsi*
*emin.amea@yahoo.com*

**UOT: 327.2 ; 94 (479.242)**

# RUSİYANIN CƏNUBİ QAFQAZ SİYASƏTİNDƏ ERMƏNİ MƏSƏLƏSİNİN YERİ VƏ NAXÇIVANA TƏSİRİ (XIX – XX ƏSRİN ƏVVƏLLƏRİ)

***Açar sözlər:*** *Çar Rusiyası, ermənilər, Cənubi Qafqaz, Azərbaycan, Naxçıvan*
***Key words:*** *Tsarist Russia, the Armenians, South Caucasus, Azerbaijan, Nakhchivan*
***Ключевые слова:*** *Царская Россия, Армяне, Южный Кавказ, Азербайджан, Нахчыван*

Böyük güclərin geosiyasi maraqlarında Cənubi Qafqaz həmişə önəmli rol oynamış, bu maraqlarda etnik-milli amillərdən istifadə edilmişdir. Qeyd edək ki, bu maraqlarda erməni məsələsi tarixən özünəməxsusluğu ilə seçilmişdir. Heç təsadüfi deyildir ki, XIX əsrin əvvəllərində ermənilərin Cənubi Qafqaza, xüsusən də Azərbaycan torpaqlarına köçürülməsi, XIX əsrin sonlarında erməni məsələsinin qlobal əhəmiyyətli bir mövzuya çevrilməsi, bu tarixlərdən etibarən erməni terror təşkilatlarının formalaşması, XX əsrin əvvəllərində Azərbaycan türklərinə qarşı törədilən soyqırım cinayətləri məhz böyük güclərin geosiyasi maraqları kontekstində aktuallaşmış və ərsəyə gətirilmişdir. Erməni məsələsini Cənubi Qafqazda gündəmdə tutan dövlətlərin başında məhz Rusiya dayanır. Məhz bunun təsiridir ki, əsrlərdir ermənilər milli, siyasi metod olaraq Cənubi Qafqazda həmişə Rusiyanın geosiyasi maraqlarının icraçısı olmuş, günümüzdə də həmin rolu oynamaqdadır. Bu baxımdan Rusiyanın Cənubi Qafqaz siyasətində erməni amilinin yeri, problemin Naxçıvana təsiri kimi məsələlərin araşdırılması olduqca mühüm əhəmiyyət kəsb edir. Araşdırmalar göstərir ki, Qafqaz siyasəti eyni zamanda iqtisadi mənafeləri baxımından rus çarizminin geosiyasi niyyətlərinin mərkəzində olmuşdur.

Qeyd etmək lazımdır ki, çarizmin regionda öz imperiya siyasətini yeritməsini artıran faktorlardan biri məhz ermənilər idi. Heç təsadüfi deyildir ki, strateji baxımdan böyük əhəmiyyətə malik olan Azərbaycanın Qarabağ bölgəsində erməni əhalisinin xeyli dərəcədə çoxalması XIX əsrin əvvəllərində, xüsusilə Azərbaycan torpaqlarının parçalanması haqqında imzalanan 1828-ci il tarixli Türkmənçay müqaviləsindən sonra baş vermişdir. Çar Rusiyasının Cənubi Qafqazda, o cümlədən Azərbaycanda müstəmləkəçilik siyasətinin yeni mərhələsi məhz XIX əsrin 20-ci illərinin sonundan etibarən başlamışdır. Rus çarizmi Azərbaycanın Qarabağ bölgəsində xristianların sayını artırmaqla öz nüfuzunun bu regionda möhkəmlənməsi və müstəmləkəçilik siyasətinin həyata keçirilməsi üçün real zəmin yaradırdı. Şübhəsiz ki, Rusiyanın erməni kartına baş vurması onun "Böyük ideya"sına əsaslanır. Rusiyanın da öz növbəsində Şərqə açılması və isti dənizlərə çıxmasını hədəf alan "Böyük ideya"nın təməlləri onun Bizansın dini və siyasi varisi olmasına dayanır. XV əsrdə Rusiyanın paytaxtında Bizans idealları və ənənələri yerləşərkən "Üçüncü Roma nəzəriyyəsi" adıyla yeni bir nəzəriyyə ortaya çıxmışdı. Moskvadakı Bizans qaynaqlı rumlar İstanbulun türklər tərəfindən fəth edilməsindən sonra Rusiyanın himayəçisiz qalan pravoslavlığın ən yüksək hamisi olduğu nəzəriyyəsini ortaya atdılar (10, s. 219). Beləliklə, "Moskva – Üçüncü Roma nəzəriyyəsi" meydana gəldi. Bu nəzəriyyələrin formulu bu idi: əvvəlcə dünya hakimiyyətinin mərkəzi Roma idi. Sonra Yeni Roma, yəni İstanbul oldu. Hər iki Roma da yıxıldı. Amma "Üçüncü Roma" ayaqdadır ki, o da Moskvadır. Xristianlıqdakı "müqəddəs üçlülük" hökmünə görə "Dördüncü Roma" olmayacaqdır. Belə bir vəziyyətdə Moskva dünya hakimiyyətinin mərkəzidir. Bu nəzəriyyəyə görə, Moskva Bizansın xələfi və pravoslavlığın yüksək himayəçisidir (15, s. 16). Pravoslavlıq həqiqi din və məzhəb olmaqla, Moskva yer üzündəki doğruluq və hakimiyyətin mərkəzidir. "Moskva – Üçüncü Roma nəzəriyyəsi" Moskva çarları və onların xələfləri nəzdində "dövlət prinsipi" mahiyyətini aldı. Rusiyanın nail olması vacib olan və "tarix qarşısında etməsi lazım və əsas olan vəzifə əvvəlcədən təyin və təsbit edilmiş oldu. Moskva knyazlarının Bizans imperatorlarının xələfləri olduqları və günün birində İstanbulun ruslar tərəfindən ələ keçiriləcəyi iddia edilməyə başlandı (14, s. 140-141).

Osmanlı imperiyasının son dövrlərində daha da aktuallaşan Şərq məsələsi rusların Bizansa varislik iddiaları nəticəsində ortaya çıxmışdı. Boğazlar məsələsi də bu varislik iddiasıyla meydana gəldi (12, s. 23-24). Beləliklə, türklərin müsəlman olması və daha sonralar xəlifəliyi də əllərinə almasıyla İslam dünyasının mirasında oynadıqları rol nə idisə, rusların da xristianlığı qəbul etmək və Bizansın varisi olmaq iddiasıyla xristianlığın pravoslavlıq aləmində oynadıqları rol eyni olmuşdur. Özlərini pravoslavların və slavyanların xilaskarı olaraq görməyə başlayan ruslar Bizansı pravoslavlığın mərkəzi olan İstanbulun müsəlman türk hakimiyyəti altında idarə olunmasına heç bir şəkildə razı ola bilmirdi. İqtisadi, ticarət və strateji səbəblərdən isti dənizlərə enmək üçün əhəmiyyətli su yolları olan "Türk Boğazları"nın ələ keçirilməsi kimi məsələlər gündəmə gəldikcə, Rusiyanın Türkiyə siyasəti yuxarıda sadalanan hədəflər istiqamətində müəyyən olunmağa və özünü göstərməyə başladı (12, s. 24). Rusiyanın bu siyasəti I Pyotr dövründə də davam etdi. Onun məşhur

vəsiyyətnaməsi Rusiya imperiyasının strategiyasını açıqca ortaya qoyur. Buradakı bəzi məqamları diqqətə çatdırmağı məqsədəuyğun hesab edirik:

*"Rusiya dövləti, paytaxtı Asiya və Avropa xəzinələrinin açarı olan İstanbul olduğu təqdirdə dünya dövləti ola bilər. Sıx-sıx və yerli-yerində plan hazırlayıb İstanbulu ələ keçirən şah dünyada ilahi şah olacaq. Bu məqsədə nail olmaq üçün vaxt itirmədən Qafqazı işğal etmək lazımdır. Ondan sonra dünyanın anbarı olan Hindistana irəliləmək lazımdır. Hindistanın açarı Türkiyənin paytaxtıdır. Vaxt itirməyin, eyni zamanda da tələsməyin"* (bu barədə ətraflı bax: 5, s. 149-151; 13, s. 225-dən sonra EK-B, B-1; 17, s. 247-250).

Rusiyanın bu strategiyasında Qafqaz xüsusi rol oynamışdır. Rusiyanın geosiyasi maraqları üçün ermənilərdən istifadə oluna biləcəyini ilk dəfə anlayan çar I Pyotr olmuşdur. Məşhur rus tarixçisi S.N.Qlinka *"Azərbaycan ermənilərinin Rusiya torpaqlarına köçürülməsinin təsviri"* adlı əsərində yazır : *"...I Pyotr erməniləri əldən qaçırmaq istəmirdi. O, ermənilərdən Rusiya üçün istifadə etmək niyyətindəydi. Böyük islahatçı I Pyotr İran səfərində erməni xalqının qırılmaz sədaqətinin şahidi olmuş və sonradan sadiq erməniləri faydalı vətəndaşlar olaraq Rusiyaya dəvət etmişdi"* (20, s. 16-17).

Platon Zubov *"Подвиги русских воинов в странах Кавказских с 1800 по 1834 г. СПб: 1835, с. 19"* adlı əsərində ermənilərin ruslara sadiq olduqlarını xüsusilə ifadə edərək yazır: *"...Ermənilərə rus zabitləri daha çox inanırlar». Çünki onlar düşmənə arxadan zərbə vurmağı bir neçə dəfə isbat ediblər"* (22, s. 19).

Bu bir həqiqətdir ki, ermənilər ruslara "ən yaxşı işğalçı" gözü ilə baxmışlar. Erməni tarixçisi A.Arakelyan *"Присоединение Карабаха к царской России. Исторический журнал, № 10, 1939, с. 53"* adlı əsərində yazır: *"I Pyotr dövründən başlayaraq, ermənilər Dağlıq Qarabağ üzərində Rusiya protektoratlığını yaratmağa çalışmışlar. Onlar belə hesab edirdilər ki, ermənilərin düşmənləri Rusiyanın da düşmənləridir. Rusiya, Türkiyə və İran Qarabağa ələ keçirmək üçün öz aralarında müharibə aparırdılar. Rusiya Qarabağ üzərində sayca üstünlük təşkil edən Şərq işğalçılarının dağıdıcı hücumları ilə müqayisədə region üçün ən yaxşı işğalçı və müstəmləkəçi dövlət idi..."* (18, s. 53).

Ermənilərə böyük rəğbət bəsləyən digər rus tarixçisi P.İ.Kovalevski isə *"Завоевание Кавказа Россией. Исторический очерк, СПб., 1913, с. 80-81"* adlı əsərində yazırdı ki, Rusiya erməniləri müdafiə etməli idi. Hər şeydən əvvəl ona görə ki, ermənilər xristian idi, eyni zamanda onlar ağıllı, əməksevər, işbilən, regionun əkinçilik və sənayesini öz əllərində saxlayan adamlardır. Ermənilər Rusiyaya nə qədər meyl göstərirlərsə, Rusiya da erməniləri bir o qədər sevməlidir. Ermənilər əsasən İran və Türkiyə ərazisində yaşayırdılar. Zaqafqaziyanı tutduqdan sonra Rusiya onları öz yeni tutduğu torpaqlara köçürməyə imkan tapdı (23, s. 80-81).

Məhz Rusiyanın geosiyasi maraqlarının nəticəsidir ki, bütün XIX əsr boyunca İran və Türkiyədən Şimali Azərbaycana torpaqlarına kütləvi sürətdə ermənilər köçürüldü və bölgədə onların sayı ilbəil artmağa başladı. Mənbələrdə bu məskunlaşma siyasətinin Azərbaycan türklərinin evlərinə zorla sahib olaraq qeyri-qanuni yollarla gerçəkləşdiyi qeyd olunur (20, s. 114; 21, s. 135).

Evləri əllərindən alınan azərbaycanlıların böyük əksəriyyəti ya yox edildi ya da deportasiyaya məruz qaldı (bu barədə ətraflı bax: 24, s. 510-518). Müsəlman türk əhalisinin yox edilməsi və ya sürgünə məruz qalmaları Rusiyanın bu bölgələrə erməniləri yerləşdirmələrinə fürsət yaratdı. Bu köç hərəkətlərinin də qorxunc nəticəsi olaraq ermənilərin yerləşdirildiyi İrəvan və Naxçıvan xanlıqları 1828-ci ildə erməni vilayəti deyilən yeni inzibati-ərazi vahidinə çevrildi.

Osmanlılara və türk qacarlara qarşı tampon bölgə qurmağı hədəfləyən Rusiya "erməni vilayəti"ni yaratmaqla ermənilər üçün gələcəkdə qurulacaq Ermənistan dövlətinin təməlini atmış oldu. Radikal millətçi fikirləri ilə tanınan Zori Balayan "Oçaq" adlı kitabında məsələ ilə bağlı yazırdı ki: *"1828-ci ildə Türkmənçay anlaşması olmasaydı, rus əsgərləri olmasaydı, günümüzdə müasir kənd və şəhərlərə çevrilən yüzlərlə yeni yaradılan erməni yaşayış məskənləri olmayacaqdı"* (19, s. 120).

Nəticədə ermənilərin Azərbaycan ərazilərinə köçürülməsi Qarabağın dağlıq hissəsində demoqrafik vəziyyətə, regionda baş verən hadisələrə ciddi təsir göstərdi və onların gələcək ərazi iddialarının baş qaldırmasına səbəb oldu. Ermənilərin ərazi iddiaları, ümumilikdə erməni məsələsi günümüzdə olduğu kimi, keçmişdə də böyük dövlətlərin siyasi münasibətləri kontekstində aktuallaşmışdı. Düzdür, 1870-ci illərə qədər dövlətlərarası münasibətlərdə erməni məsələsi yox idi, lakin müstəmləkəçilik siyasəti genişləndikcə, geosiyasi maraqlar və mənafelər artdıqca ermənilər bu yolda dini, milli-siyasi metoda çevrildilər. Ermənilərin böyük dövlətlər nəzdində müdafiə edilməsi öz növbəsində erməni milli duyğularının oyanmasına səbəb oldu. Onlar öz məqsədlərini gerçəkləşdirmək üçün şiddət yoluna baş vurmağa, yəni silahlı mübarizəyə qərar verdilər (9, s. 569-570).

Terror və separatizm ideyalarından bəhrələnmək erməni millətçiliyinin tarixi inkişafının məntiqindən doğsa da, daha çox erməni mentalitetinin ayrılmaz hissəsinə çevrilmiş və günümüzdə də bu xalqın şovinist millətçilərinin şüurunu qidalandırmaqdadır. Erməni mentalitetinin ən naqis ünsürü olan separatizm elementlərini Daşnak partiyası formalaşdırmışdır. 1918-ci ildə yaradılan Ermənistan Respublikasının ilk Baş naziri Ovanes Kaçaznuni 1923-cü ildə yazdığı raportunda göstərirdi ki, daşnakların antitürk və antimüsəlman fəaliyyəti təsadüfi xarakter daşımırdı. Bu, 25 ildən artıqdır ki, erməni xalqının beyninə yeridilən millətçilik psixologiyasının nəticəsidir (11, s. 31).

Türklərə qarşı həmin bu psixologiyanın təsiridir ki, ermənilər istər Türkiyədə, istərsə də Azərbaycanda genişmiqyaslı terror aktlarına baş vurmuşlar. Əldə edilən məlumatlara əsasən "Böyük Ermənistan" yaratmaq xülyası ilə çıxış edən ermənilər Rusiyanın dəstəyini alaraq 1905-1907-ci illərdə azərbaycanlılara qarşı açıq şəkildə genişmiqyaslı qanlı aksiyalar həyata keçirmiş, Bakıda, Şuşada, Gəncədə, Naxçıvanda, Zəngəzurda və s. bölgələrdə dinc azərbaycanlılara qarşı qırğınlar törətmişlər (bu barədə bax: 1; 7; 8).

Ermənilər tərəfindən 1905-ci il fevral ayının ilk ongünlüyündə Bakıdan başlanan ilk milli qırğın tezliklə Azərbaycanın digər bölgələrinə, o cümlədən Naxçıvana da yayıldı və getdikcə şiddətləndi. Naxçıvandakı qırğın daşnakların və çar məmurlarının təhrikləri nəticəsində baş verdi. Arxiv sənədlərində də rus kazaklarının cinayətlərin törədilməsində rol oynadıqları göstərilməkdədir. 17 iyun 1905-ci ildə Naxçıvan qəzasının Zeynəddin kəndində ermənilərlə müsəlmanlar arasında baş vermiş münaqişə ilə əlaqədar Naxçıvanda yerləşən Qafqaz atıcı batalyonunun komandiri 18 iyunda Baş Ştaba göndərdiyi raportunda yazırdı ki, *"ermənilərlə müsəlmanlar arasında baş vermiş münaqişələrin aradan qaldırılmasında vətəndaş hakimiyyətinə kömək etmək məqsədilə mənə həvalə edilmiş Naxçıvan şəhərində yerləşən batalyon 17 iyun tarixdə axşam saat 8-də silah işlətməyə məcbur olub, nəticədə Zeynəddin kəndinin 20-dən çox müsəlman sakini öldürülmüşdür"* (2, s. 10; 16, s. 252).

Digər bir raportda isə həmin ilin iyul ayının 5-də Nurs kəndində ermənilərlə müsəlmanlar arasında olan münaqişədə rus kazaklarının kəndə göndərilməsi nəticəsində dağlarda gizlənib özlərini ermənilərdən müdafiə edən sakinlərdən 4 nəfərin öldürüldüyü, 11 nəfərin isə yaralandığı haqda məlumat verilirdi (2, s. 10; 16, s. 252).

Diqqəti çəkən ən önəmli məqam ondan ibarətdir ki, raportların heç birində bir nəfər də olsun erməninin öldürüldüyü qeyd olunmur. O dövrün yazılı mənbələri və arxiv materialları 1905-1907-ci illərdə Naxçıvan, Şərur-Dərələyəz və Ordubad bölgələrində ermənilərin Rusiyanın yardımı ilə soyqırımı gerçəkləşdirdiklərini isbat edir (6, vv. 78-84.).

Ermənilərin türkə olan nifrət psixologiyası və türkü öldürməkdən mənəvi zövq alma düşüncəsi 1918-ci ildə də davam etdi.

Birinci Dünya müharibəsi, eyni zamanda Rusiyada baş vermiş 1917-ci il fevral burjua və oktyabr bolşevik inqilablarından məharətlə istifadə edən ermənilər öz iddialarını bolşevik bayrağı altında reallaşdırmağa nail oldular. 1918-ci il martın 30-u, 31-i və aprelin 1-də bolşevik qiyafəsinə bürünən ermənilər Bakıda soyqırımı törədərək, təxminən 20 min nəfər azərbaycanlını qətlə yetirdilər. Həmin ilin aprel-may aylarında ermənilər Şamaxıda, Qubada, Ağsuda, Kürdəmirdə, Salyanda, Lənkəranda kütləvi qırğınlar törətmiş və 50 min nəfərdən çox dinc sakini ən vəhşi üsullarla qətlə yetirmişdilər (4, s. 716).

Qeyd edək ki, soyqırımı cinayətləri Naxçıvandan da yan keçməmişdir. Mənbələrdən əldə edilən məlumatlara görə, 1918-1921-ci illər arasında Naxçıvanda 73.727 nəfər ermənilər tərəfindən qətlə yetirilmişdir (2, s. 29; 3, s. 147).

Bu acı gerçəklər ermənilərdə türklərə qarşı nifrət psixologiyasının, türkü öldürməkdən mənəvi zövq alma düşüncəsinin bariz nümunəsi olduğu xüsusilə qeyd edilməlidir. Geosiyasi maraqların toqquşmasının nəticəsi olaraq erməni məsələsinin böyük güclərin alətinə çevrilməsi gündəmə gətirildiyi tarixlərdən etibarən Azərbaycan üzərində ağır dərin izlər buraxmışdır. Heç təsadüfi deyildir ki, Rusiyanın dəstəyini həmişə arxasında hiss edən Ermənistan hal-hazırda Azərbaycan torpaqlarının 20%-ni işğal altında tutmaqdadır.

**ƏDƏBİYYAT**


**Azərbaycan dilində:**

1. Arzumanlı Vaqif, Mustafa Nazim. Tarixin qara səhifələri, Deportasiya, Soyqırım, Qaçqınlıq, Bakı, Qartal, 1998, 280 s.
2. Cəfərov Fəxrəddin. Naxçıvan polisi: fəaliyyətinin əsas istiqamətləri və mərhələləri, Bakı, Nurlan, 2011, 388 s.
3. Hacıyev İsmayıl, Ermənilərin Azərbaycana qarşı ərazi iddiaları və qanlı cinayətləri, Naxçıvan, Əcəmi, 2012, 192 s.
4. Həsənov Əli. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti, Bakı, Azərnəşr, 2005, 752 s.
5. Mahmudov Yaqub, Kərimov Şükür. Azərbaycan, beynəlxalq münasibətlər və diplomatiya tarixi (1639-1828), Dövlətlərarası müqavilələr və digər xarici siyasət aktları, 4 cilddə, I c., Bakı, Regionların inkişafı ictimai birliyi, 2009, 512 s.
6. Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi (NMRDA), f. 26, s: 1, iş: 25.
7. Nəvvab Mir Möhsün, 1905-1906-cı illərdə erməni-müsəlman davası, Bakı, Azərnəşr, 1993, 128 s.
8. Ordubadi M.S. Qanlı illər, 1905-1907-ci illərdə Qafqazda baş verən erməni-müsəlman davasının tarixi, Bakı, Qarabağa Xalq Yardımı Komitəsi, 1991, 144 s.

**Türk dilində:**

9. Armaoğlu Fahir, XIX yüzyıl siyasi tarihi (1789-1914), Ankara, Türk Tarih Kurumu, 1997, 821 s.

10. Dugin Aleksandr, Rus jeopolitiği Avrasyacı yaklaşım. İstanbul, Küre yayınları, 2004, 391 s.
11. Kaçaznuni Ovanes, Taşnak Partisi'nin yapacağı bir şey yok (1923 Parti konferansına rapor), İstanbul, Kaynak yayınları, 2005, 119 s.
12. Kocabaş Süleyman. Kuzeyden gelen tehdit, tarihte türk-rus mücadelesi, İstanbul, Vatan yayınları, 1989, 422 s.
13. Kumkale Tahir Tamer, Tarihten günümüze türk-rus ilişkileri, İstanbul, İrfan yayınları, 1997, 225 s.
14. Kurat Akdes Nimet, Rusya tarihi, başlanğıcından 1917'ye kadar, Ankara, Türk Tarih Kurumu, 1999, 537 s.
15. Metin Öztürk Osman. Rusya Federasyonu askeri doktrini, Ankara, Avrasya Stratejik Araştırmalar Merkezi (ASAM) yayınları, 2001, 86 s.
16. Şıhaliyev Emin, XX yüzyıl başlarında Ermenilerin Nahçıvan'da yaptıkları katliamlar / Ermeni Ayaklanmaları (1894-1909) Sempozyumu, Bildiriler, Ankara, Türk Tarih Kurumu, 2015, s. 243-264.
17. Yanar Savaş, Türk-rus ilişkilerinde gizli güç, Kafkasya, İstanbul, İQ Kültür sanat yayıncılık, 2002, 256 s.

**Rus dilində:**

18. Аракелян А. Присоединение Карабаха к царской России // Исторический журнал, № 10, 1939, с. 52-61.
19. Балаян З.Г. Очаг, Ереван, Советакан грох, 1984, 424 с.
20. Глинка С.Н. Описание переселения армян азербайджанских в пределы России, с кратким предварительным изложением исторических времен Армении, Баку, Элм, 1990, 142 с.
21. Ениколопов И.К. Грибоедов и Восток, Ереван, Айпетрат, 1954, 196 с.
22. Зубов Платон. Подвиги русских воинов в странах Кавказских с 1800 по 1834 г, СПб: 1835.
23. Ковалевски П.И. Завоевание Кавказа Россией, Исторический очерк, СПб., 1914, 343 с.
24. Шопен И. Исторический памятник состояния Армянской области в эпоху ее присоединения к Российской империи, СПб., В типографии Императорской Академии Наук, 1852, 1231 с.

**ABSTRACT**

**Emin Shikhaliyev**

**Place of the Armenian question in the policy of Russia and its impact on Nakhchivan (XIX –Beginning of the XX century)**

In this article was researched the place of the Armenian Question in the policy of Russia and its impact on Nakhchivan. It well known that, Russia began Armenians' mass relocation from the Ottoman Empire and Iran to Northern Azerbaijan and its component part Nakhchivan. The major goal of the tsarist Russia in relocation of the Armenian population to the territory of Azerbaijan was to gain ethnic and religious support for itself in the occupied territories. With this step, Russia laid the foundation of the process of establishing an artificial Armenian state in the historical Azerbaijan territories. At the next stages was laid the foundation of the policy of genocide and deportation against the peaceful Turkic-Muslim population.

**РЕЗЮМЕ**

**Эмин Шихалиев**

**Место Армянского вопроса в южно-Кавказской политике России и его влияние на Нахчыван (XIX – начало XX века)**

В статье исследовано места «Армянского Вопроса» в Южно-Кавказской политике России и его влияние на Нахчыван в XIX – начало XX века. Как известно, Царская Россия осуществила массовое переселение армян с территорий Османской империи и Каджарского Ирана на территорию Северного Азербайджана, в частности в Нахчывана в начале двадцатого века. Основной целью Российской империи переселения армянского населения на территории Азербайджана создать для себя национальную и религиозную поддержку на оккупированных территориях. Россия подготовила почву с этим шагом для будущего искусственного формирования армянского государства на территории Азербайджана. На следующих этапах была заложена основа политики геноцида и депортации против мирного тюрко-мусульманского населения.

NDU-nun Elmi Şurasının 30 mart 2017-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 07).

Məqaləni çapa təqdim etdi: AMEA-nın həqiqi üzvü İ. Hacıyev

**YAŞAR RƏHİMOV**
*AMEA Naxçıvan Bölməsi*
*yaarrahimov@yahoo.com.tr*

**UOT: 94 (479.242)**

# NAXÇIVANDA KOLLEKTİVLƏŞMƏ TƏDBİRLƏRİNƏ QARŞI NARAZILIQLAR

***Açar sözlər:*** *ümummilli lider, Naxçıvan, 20-30-cu illər, kollektivləşdirmə, kəndli*
***Key words:*** *The national leader, Nakhchivan, the 20-30th years, collectivization, peasant*
***Ключевые слова:*** *обшенациональный лидер, Нахчыван, годы 20-30-ых, коллективизации, крестьян*

Xalqımızın tarixinin doğru-düzgün yazılmasında, tarixi hadisə və faktların obyektiv araşdırılmasında və tarixi həqiqətlərin üzə çıxarılmasında Azərbaycanın 20-30-cu illər tarixinin öyrənilməsinin mühüm elmi və siyasi əhəmiyyəti vardır. XX əsr Azərbaycan tarixinin tərkib hissəsi olan 20-30-cu illərə aid hər hansı bir elmi iş, tədqiqat əsəri, yazılmış monoqrafiya və kitab öz aktuallığı ilə tarixşünaslığımızda daim maraq doğurur.

20-30-cü illərin mürəkkəb tarixi proseslərinin obyektiv tədqiq edilməsi tariximizin ibrət dərslərindən nəticə çıxarmağı tələb edir (19, s.282). 70 il ərzində sovet xalqlarının beynəlmiləl qardaşlığından dəm vuran bolşevik ideologiyası insanların beyninə və şüuruna zəhərli təbliğat yeridərək ölkədə və respublikada zəngin cəmiyyətin qurulmasından ağızdolusu yazırdılar. Son nəticədə aydın oldu ki, Leninin vəd etdiyi, Stalinin möhkəmləndirdiyi kommunist cənnəti iflasa uğramışdır (4, s.11). Ümummilli lider Heydər Əliyev XIX-XX əsrlər tarixinin yenidən yazılmasını, o cümlədən ötən əsrin 20-30-cu illər tarixinin yeni konsepsiyada yazılmasını tarixçi alimlərin qarşısında duran ən mühüm vəzifələrdən biri hesab etmiş və bu məsələni öz nəzarətində saxlayacağını bildirmişdi. Azərbaycan tarixinin bütün dövrlərinin, o cümlədən 20-30-cu illər tarixinin yeni arxiv materialları ilə yazılmasına mühüm diqqət verən ulu öndər Heydər Əliyev deyirdi: "Bu sahədə tarixçilərimiz qarşısında çox böyük vəzifələr durur, onların üzərinə böyük məsuliyyət düşür… Biz tarixçilərimizdən Azərbaycan tarixini bu gün üçün, gələcək nəsillər üçün yaxşı əks etdirən əsərlər" (13, s.11) gözləyirik. Bu baxımdan həmin dövrə aid hər hansı bir tədqiqatın mövzuları aktual səslənir və problemi öyrənməyin, dövrün mürəkkəb məsələlərini süzgəcdən keçirməyin, tariximizin ibrət dərslərindən məntiqi nəticə çıxarmağın çox böyük əhəmiyyəti vardır. 20-30-cu illərdə nə qədər çətin və mürəkkəb olsa da, xalqımızın tarixi inkişafında böyük nailiyyətlər qazanılmış, dövlətimiz tərəqqi etmişdir. Həmin illərdən bəhs edərkən ümummilli lider Heydər Əliyev demişdir: "20-30-cu illərdə Azərbaycan xalqının qəhrəman əməyi ilə neft sənayesində böyük yüksəliş əldə edilmiş, sənayenin yeni sahələri əmələ gəlmiş…, kənd təsərrüfatı dirçəlmiş…, Azərbaycan elliklə savadlanmışdı…". (10, s.14-15).

Hökumətin 20-ci illərin axırları-1930-cu illərdə irəli sürdüyü yeni siyasi xətt-kütləvi kollektivləşdirmə, inzibati amirlik sisteminin formalaşması və ondan doğan kütləvi repressiyalar SSRİ-nin bütün regionlarında olduğu kimi Azərbaycanda da əhalinin geniş təbəqələrinin narazılığına səbəb olurdu (7, s.2). 1928-ci ilin sonlarından qolçomaqların məhdudlaşdırılması siyasətinin həyata keçirilməsi, ona yüksək vergilərin qoyulması, onların əmlakının müsadirə olunması, kəndlilərdən artıq taxılın zorla əlindən alınması və s. mövcud rejimə və kollektivləşməyə qarşı kütləvi müqavimət hərəkatına gətirib çıxardı. Kollektivləşməyə qarşı çıxanlar qaçaq dəstələrində birləşir və silahlı mübarizə aparırdılar. Üsyançılara və qaçaqlara qarşı amansız mövqe tutan totalitar rejim çox sərt cəza tədbirlərinə, hətta güllələnməyə əl atmaqdan belə çəkinmirdi. Zəyəm əməliyyatında 366 nəfər, Naxçıvan MSSR-in Keçili kəndindən isə 70 nəfər adam güllələnmişdi (17, s.143).

Əvvəlcə torpağı kəndlilərə paylayan bolşeviklər sonra onları müxtəlif vergi, ərzaq sapalağı və s. vasitələrlə istismar etməyə başladılar. 20-ci illərin sonu-30-cu illərin əvvəllərində kollektivləşmə və ortabab kəndlilərin qolçomaq adı ilə bir sinif kimi ləğv edilməsinə başlandı. Kəndlilərin mülklərinin əlindən alınması və həyasızcasına mənimsənilməsi kəndlilərin kütləvi çıxışlarına səbəb oldu (5, s.4). Hakim dairələr bu üsyanlarda iştirak edən kəndlilərə "bandit", "silahlı qolçomaq dəstələri", "quldur" və b. bu kimi adlar qoyub, üsyanlara müxtəlif nalayiq adlar verirdilər. Nəticədə siyasi orqanlar bu narazılıq və çıxışları silahla yatırmağa başladılar, özü də müasir silah və hərbi texnika tətbiq etməklə. Orqanların yaratdığı fövqəladə Üçlüklər Naxçıvan, Qarabağ, Şəki, Zaqatala, Quba, Lənkəran, Abşeron və b. yerlərin minlərlə sakinini güllələnməyə məhkum edir, sürgünə göndərirdilər; üçlüklər isə əsasən ermənilərdən ibarət idi (5, s.4).

Cənubi Qafqazda antisovet elementlərin fəallaşması ilə əlaqədar Baş Siyasi İdarənin məxfi siyasi şöbəsinin ÜK (b) P-yə hazırladığı 245 saylı 15 oktyabr 1930-cu il tarixli arayışda göstərilirdi: "1930-cu il ərzində Azərbaycanın Gəncə, Nuxa, Zaqatala və Naxçıvan MSSR-in Qarabağlar rayonunda kütləvi silahlı

üsyan baş vermişdir. Kollektivləşdirmə zamanı yol verilmiş nöqsanlar üsyanların başlanması üçün əsas səbəblərdən olmuşdur. Bu üsyanlarda yalnız kasıb və ortabablar deyil, həmçinin bəzi sovet işçiləri, partiyaçı və komsomolçular da iştirak etmişlər.

Sovet hakimiyyəti üçün əlverişli olmayan belə şəraitdə qolçomaqlar əhali arasında təxribatçı təbliğatlarını genişləndirirdilər. Onlar kəndlilərin əmlakının müsadirə ediləcəyi, qadınların ümumiləşdiriləcəyi, başlayacaq müharibədə sovet hərbi hissələrinin məğlub olacağı barədə şayiələr yaymaqda davam edirlər" (24, s.673-674). Kollektivləşdirmə siyasətinin həyata keçirilməsində yol verilmiş nöqsanları, səhvləri və onların yaratdığı narazılıqları siyasi şöbənin özü də etiraf etmək məcburiyyətində idi.

1930-cu il yanvarın 3-də ÜK (b) P Cənubi Qafqaz diyar komitəsi antisovet ünsürlərin aradan götürülməsi məqsədilə kütləvi əməliyyatların keçirilməsi barədə qərar qəbul etdi. Qərarın icrası ilə əlaqədar olaraq yerlərdə "üçlüklər" və "beşliklər" yaradıldı. Buna görə də 30-cu illərin əvvəllərindən başlayaraq bu təqib və repressiyalardan yaxa qurtarmağa çalışan "qolçomaqlar" imkan düşən kimi İrana və Türkiyəyə qaçmağa çalışırdılar. Qeyd edək ki, 30-cu illərin əvvəllərində İttifaqda həyata keçirilən zorakı kollektivləşmədə ən çox azərbaycanlılara qarşı daha kobud və sərt tədbirlərə əl atılırdı. Bütün əmlaklarından məhrum edilən və "qolçomaq" damğası vurulan layiqli şəxsləri müxtəlif ərazilərə-Qazaxıstana və Sibirə sürgün edirdilər. Xüsusilə İran və Türkiyə ilə sərhəddə yerləşən Azərbaycan kəndləri nəzarətdə saxlanılır, həmin kəndlərin sakinləri daha çox təqib və təzyiqlərə məruz qalırdılar. Buna görə Zəngibasarda, Vedibasarda, Naxçıvanda, Qəmərlidə yaşayan yerli sakinlərin üsyan və qiyamları baş verirdi. Həmin kəndli çıxışları haqqında ətraflı məlumatlar bülletenlərdə, jurnallarda, xaricdə çap olunan mühacir nəşrlərdə öz əksini tapırdı. Belə ki, 1930-cu ildə Türkiyədə çıxan "Odlu yurd" məcmuəsi (baş redaktoru M.Ə.Rəsulzadə) "Vedibasar və Naxçıvan üsyanları davam edir" başlıqlı məqaləsində yazırdı: "Üsyan bir tərəfdən İrana və Göyçə gölünə, digər tərəfdən Ordubad və Zəngəzura sirayət eyləmişdir. Böyük Vedibasar partizanlarının miqdarı 600 nəfərdir. Partizanlara heç bir yardım edilmir və Qızıl Ordudan saldırdıqları silah və köylülərin verdikləri ərzaqla keçinirlər. Zəngəzur, Ordubad, Naxçıvan, Vedibasar və Göyçə partizanları arasında rabitə mövcud olub, Qarabağ, Gəncə və Muğan partizanları ilə əlaqəyə girməyə səy edirlər. Minlərlə kəndlinin iştirak etdiyi partizan hərəkatı qüvvətli bir şəkil almışdır. Üsyançılar kollektivləşmə siyasətindən vaz keçilməsini, ərzağın hökumətin qoyduğu qiymətlərlə deyil, sərbəst sürətdə satılmasını və terrora son verilməsini tələb edən şüar altında hərəkət etməkdədirlər. Ən aktiv rolu orta hallı köylülər və əksəriyyətlə şəhər ünsürləri oynamaqdadırlar. Zəngibasar, Vedibasar və Naxçıvan tərəflərdə üsyan məntəqələrində olan köylərdə qara bayraq çəkilmiş olduğu hüdud boyunda olan müxbirlərimiz tərəfindən xəbər verilməkdədir. Abbasqulu ağanın qrupundan olan köylülərdən 80 nəfəri 17 tələfat vermək müqabilində Türkiyəyə keçməyə müvəffəq olmuşdur. Ruslar Araz boyunda hüdudu keçərkən öldürdükləri 17 köylünün meyitlərini günlərcə səhrada buraxmışdılar. Türkiyəyə keçməyə müvəffəq olan 63 köylünün söylədiklərinə görə Abbasqulu ağa daşnaklar tərəfindən qətl edilmişdir. Və bu hadisə daşnak olmayan erməni köylülərinin də nifrətinə səbəb olmuşdu" (21, s.193, 244).

Hökumət üçün Naxçıvandakı güclü üsyanın böyük təhlükə doğurduğunu qeyd edən Q.Musabəyov (o, Naxçıvan MSSR üzrə Fövqəladə Üçlüyün bütün iclaslarında iştirak etmişdi-Y.R.) xalqa rəsmi müraciət etdi. Bu hadisə və əks effekt doğura bilən müraciət Tbilisi və Moskvanı bərk narahat etmişdi. Q.Musabəyovun yazılı müraciəti yığışdırıldı (16, s.55-58). Göründüyü kimi, zorakı kollektivləşmə siyasətinə qarşı Naxçıvan üsyanının hökumət üçün ciddi siqnal olduğu aydın şəkildə özünü büruzə verirdi.

Qolçomaqların bir sinif kimi sıxışdırılmasından ləğv edilməsi siyasətinə keçid ÜİK (b) P-nin XV qurultayının (1927-ci il dekabr) qərarlarına uyğun olaraq Azərbaycanda 1929-30-cu təsərrüfat ilindən başlanıldı. Dinc və namuslu əməklə məşğul olan qolçomaqların normal yaşamasına mane olan hakimiyyət orqanlarına qarşı özlərini müdafiə edən kəndlilər və qolçomaqlar 20-30-cu illərdə Naxçıvan, Şəki-Zaqatala, Gəncə, Şəmkir, Quba, Lənkəran, Qarabağ və Azərbaycanın demək olar ki, hər yerində hakimiyyət orqanlarının törətdiyi özbaşınalıqlara və zorakılıqlara qarşı üsyan edirdilər. Bütün bunlar Azərbaycan xalqının haqlı tələblərindən doğan narazılıq hərəkətləri və müqavimət hərəkatı olub, mövcud siyasi rejimin qanlı vəhşiliklərinə qarşı haqqın və ədalətin hayqıran səsi və ədalətli mübarizəsi idi (18, s. 111). Sovet dövləti qolçomaqların artmasını məhdudlaşdırmağa çalışır, bunun üçün vergi təzyiqinə, hətta inzibati xarakterli tədbirlərə əl atırdı (1, s.117).

Kollektivləşməyə keçid dövrünün tənqidinə həsr olunmuş əsərlərdə "yuxarıdakı partiya təşkilatları günahkardır, yoxsa aşağıdakılarmı?" sualı qoyulur və çox zaman birqiymətli və birtərəfli cavablar əsaslandırılır. Lakin 20-ci illərin sonu və 30-cu illərin əvvəllərinə aid siyasi və ya təsərrüfat məsələləri üzrə direktivlərin təhlili bir tərəfdən Moskvanın siyasətindəki səhvləri, eniş-yoxuşları, digər tərəfdən isə yerlərdəki fərasətsiz və amansız özfəaliyyəti asanlıqla aşkara çıxarır. "Aşağılar" fərqlənmək istəyirdilər, başqa respublikalardakı göstəriciləri aşıb keçmək istəyirdilər. D.Bünyadzadə demişkən "yerlər mərkəzin

səhvlərini daha da inkişaf etdirirlər" (15). Göründüyü kimi, zorakı kollektiləşmənin yanlış və səhv həyata keçirilməsində mərkəzlə yanaşı, aşağıdakıların-yerlərin də günahları böyük idi.

1930-cu ilin fevralında ÜİK (b) P-nin "Kənddə partiyanın sinfi xəttinin düzəldilməsi və qolçomaqların bir sinif kimi ləğv edilməsi şüarının həyata keçirilməsi" haqqında olan qərarının yerinə yetirilməsi ilə əlaqədar olaraq bütün Azərbaycan, o cümlədən Naxçıvan kəndlərində qolçomaq adı ilə minlərcə adam ailələrilə birlikdə vətəndən çox uzaqlara sürgün edilmişdi. "Antisovet ünsürlərin aradan götürülməsi" adı ilə hakim dairələr və xüsusən bunların kənd mahallarında olan rəsmi nümayəndələri zəhmətkeş kəndlilərin başına elə oyun açdılar və elə divan tutdular ki, buna vəhşilikdən başqa heç bir ad vermək olmaz (5, s.21). Qolçomaqların sayca bir neçə dəfə azalması 1929-35 illərdə "qolçomaqları bir sinif kimi ləğv etməyin" "parlaq" nəticəsi idi.

Gəncə Dairə Partiya Komitəsi 1930-cu ilin əvvəllərində qeyd edirdi ki, hələ yerlərdə kimin qolçomaq, kimin ortabab olduğunu müəyyən etmək olmur, ona görə də biz qolçomaqları ləğv etməyi dairənin hər yerində eyni zamanda başlamaq fikrindəyik. Gəncə dairəsinin qolçomaqlarını Qarabağa, Qarabağ qolçomaqlarını Salyana, Salyan qolçomaqlarını Naxçıvana göndəririk (1, s.240). Göründüyü kimi, kənddə olan təbəqələrin belə dəqiqləşdirilməməsi və düzgün müəyyən edilməməsi yerlərdə partiya komitələrinin fəaliyyəti ilə yanaşı, kollektivləşdirmə siyasətinin səhv və yanlış şəkildə həyata keçirildiyini təsdiqləyir.

Araşdırmalardan aydın olur ki, kəndlilərin üzərinə qoyulan ağır vergilər, fövqəladə qanunların qəbul edilməsi, əldə edilən məhsulun özbaşına müsadirəsi adi hal almışdı. Yəni yaranmış böhrandan çıxış yolu düzgün müəyyən edilmirdi. Bütün bu özbaşınalıqlar isə kəndlilərin haqlı narazılığına səbəb olurdu. "Çox çəkmədi ki, qadasını aldığımız partiyamız var gücü ilə kəndlilərə elə toy tutdu ki, gəl görəsən! Buna görə də kəndlilər arasında narazılıq əmələ gəldi, çünki külli miqdarda özbaşına təyin olunan müsadirə və vergilər yalnız və yalnız müqavimətə çağırırdı. Və kəndlilər müqavimətə keçdilər. 1930-cu ilin əvvəllərində Azərbaycanın demək olar ki, bütün mahallarında hökumətin törətdiyi özbaşınalığın əleyhinə üsyanlar qalxdı. ..Həqiqətdə bunların əksəriyyəti kəndlilərin haqlı tələblərindən doğan narazılıq hərəkətləri idi" (5, s.21-22). İnzibati amirlik metodunun güclənməsi və fərasətsiz şəkildə həyata keçirilən siyasət kəndlilər arasında narazılığın artmasına və müqavimətin güclənməsinə təkan verirdi. Təbii ki, hökumət əleyhinə və kollektivləşməyə qarşı keçirilən bu üsyanlar Naxçıvandan da yan keçməmişdir.

Naxçıvanda kollektivləşmə əleyhinə narazılıqlardan bəhs edərkən "Keçili üsyanı", Milax, Ərəfsə kəndlərinin qaçaqlarından bəhs etməmək mümkün deyil. Kollektivləşməyə qarşı mübarizənin güclü dalğası 1929-30-cu illərdə başlamışdı. Şahbuzun Keçili kəndində baş verən üsyan qonşu Badamlı, Sələsüz, Tırkeş, Cəhri və b. kəndlərin əhalisini də ayağa qaldırmış, üsyançı dəstədə 500-dək adam birləşmişdi (12, s.24). Üsyanın hərəkətverici qüvvələri varlılar, ortabablar və yoxsullar idi. Yaranmış vəziyyəti nəzarət altına almaq məqsədilə AK (b) P MK-nın qərarı ilə Azərbaycan MİK sədri Q. Musabəyov Naxçıvana göndərilmişdi (22, s.80). Hökumət güc strukturlarından-ordunun sərhəd dəstələri və milis qüvvələrindən istifadə etsə də, üsyançıları məğlub edə bilmədi. Xüsusi səhra qoşun hissələrinin çağırılmasından sonra başlanan qeyri-bərabər döyüşlərdə 100 nəfər üsyançı şəhid oldu və 130 nəfər ələ keçirilib həbs edildi (14, s.286). Ələ keçirilən üsyançıları mühakimə etmək üçün Fövqəladə Üçlük yaradıldı ki, onun sədri İbrahim Tağıyev, üzvləri 41-ci Naxçıvan sərhəd dəstəsinin rəisi Nikişev və Azərbaycan Dövlət Siyasi İdarəsinin Naxçıvan Vilayət şöbəsinin rəisi Yaqubov təyin edildi (12, s.24). Üçlük 20 gün ərzində "mühakimə" etdikləri 88 nəfərin 52-sini güllələnməyə, 36 nəfərini isə həbs və ya sürgünə məhkum etmişdi (23, 36-65). Dağlara çəkilən üsyançıları məhv etmək üçün dağ döyüş maşınları gətirilmiş və silahlı dəstə 1932-ci ilin aprel ayında mühasirəyə alınaraq ələ keçirilmişdi.

"Keçili üsyanı" barədə mərhum akademikimiz Z.Bünyadovun (5), tarixi mövzulara həsr etdiyi romanları ilə tanınan filoloq alim H.Arzulunun əsərində (2), "Tarixin qan yaddaşı"nda (23), müxtəlif məqalələrdə (12), ümumiləşdirici əsərlərdə (20, s.384-392) ətraflı məlumatlar verildiyi və məqalənin həcmini nəzərə aldığımız üçün o qədər geniş bəhs etməyi məqsədəuyğun hesab etmirik. Təkcə onu qeyd etməklə kifayətlənirik ki, 1930-cu ilin yaz aylarında bir nəfər Orbelyanın fitnəsi ilə təkcə Keçili kəndinin 13 nəfərinə on il, 9 nəfərinə beş il, 6 nəfərinə isə üç il həbs cəzası verilmiş, 33 ailə isə bütövlükdə Qazaxıstana sürgün edilmişdir (2, s.11). Bu ancaq Naxçıvanın bir kəndində yaşayan sakinlər üçün tətbiq edilmiş cəzalardır. Təbii ki, bütövlükdə muxtar respublika üzrə kollektivləşdirməyə və hökumətə qarşı narazı olan kəndlilərə verilmiş cəzalar qat-qat çox və bundan xeyli artıqdır. Yuxarıda deyilənlər belə söyləməyə əsas verir ki, kolxoz quruculuğuna və zorakı kollektivləşdirməyə qarşı Naxçıvanda baş vermiş mübarizə güclü və mütəşəkkil olmaqla yanaşı, bölgədə ictimai-siyasi vəziyyəti gərginləşdirmişdir.

1927-1930-cu illərdə Naxçıvan-Dərələyəz bölgəsində İttifaq hökumətinə qarşı başlayan ümumxalq hərəkatına qoşulan və dağlara çəkilən igid həmyerlilərimizdən biri də Fətulla Hüseynov olmuşdur. Hələ 1918-1920-ci illərdə erməni işğalçıları ilə mübarizədə F.Hüseynov cəsur bir sərkərdə kimi tanınmışdı.

Vedibasarın, Yaycı kəndinin, Şərur və Naxçıvan mahallarının müdafiəsində erməni işğalçılarına qarşı mübarizədə o, misilsiz qəhrəmanlıqlar göstərmişdir. Cəlilkəndin bu əfsanəvi şəxsiyyətinin adı təkcə Şərur mahalında deyil, bütün el-obada sevilərək məşhurlaşmış, onun haqqında nəğmələr yaranmışdır. Kəndin yaşlı sakinləri öz yaddaşlarında onunla bağlı çox maraqlı xatirələr saxlamışlar və onları fəxrlə, böyük qürur hissi ilə paylaşmağa həmişə hazırdılar. Tarixçi alim Ə.Əliyevin "Əlincə yaddaşı" kitabında yazılır: "Şərurun Baş-Noraşen (indiki Cəlilkənd) kəndində anadan olan F.Hüseynov Naxçıvanda Sovet hakimiyyəti bərqərar olandan sonra sahibkar Nəso xanın torpaqlarını müqavilə yoluyla icarəyə götürür, rəncbərliklə məşğul olmağa başlayır. O, tabeliyində olan əkinçilərlə birlikdə ağır zəhmətə qatlaşır, maddi güzəranını yaxşılaşdırmaq üçün gecəni-gündüzə qatır. İlk əvvəl yeni hökuməti qəbul edən F.Hüseynov kolxoz quruluşuna qarşı çıxır, Naxçıvan-Dərələyəz bölgəsində olan ümumxalq hərəkatına qoşularaq dağlara çəkilir. 1927-1930-cu illərdə F.Hüseynovun əleyhinə ittihamlar qaldırılır... "(8, s.63-64). Bu igid, qorxmaz və əfsanəvi şəxsiyyət haqqında kitab yazmaq olsa da, yazının həcmini nəzərə aldığımızdan bu haqda o qədər də geniş şərh etmirik. Onu qeyd etməklə kifayətlənirik ki, Sovet hakimiyyətinin qələbəsindən sonra yeridilən siyasət, xüsusilə kəndli təsərrüfatlarının zorla kollektivləşdirilməsi siyasəti əhalini narazı salmışdı. Bir zaman A.Şadlinski ilə birlikdə döyüşən Sovet hökumətinin ordenini alanlardan bir çoxu hökumətə qarşı çıxmışdı. "Qırmızı tabor"da xidmətlərinə görə "Qırmızı bayraq" ordeni almış F.Hüseynovun (21 nəfər bu ordenlə təltif olunub) dəstəsi uzun illər Qafqazın hökumət orqanlarını narahat etmişdir. Ona görə də xalq arasında böyük nüfuz sahibləri müxtəlif vasitələrlə aradan götürülürdü (11, s.90). Bu igid, qəhrəman və mərd oğullarımızın xeyirxah əməlləri daim xalqımızın yaddaşında yaşayacaqdır.

Beləliklə, ötən əsrin 20-ci illərinin sonu-30-cu illərin əvvəllərində Naxçıvanda yeridilən siyasətə boyun əyməyən, məcburi kollektivləşdirməyə və kolxozlaşmaya qarşı mübarizə apararaq hökumətə müqavimət göstərən kəndlilər və qaçaq dəstələri çətin, lakin şərəfli mübarizə yolu keçmişlər. İttifaq hökuməti zamanı bu vətənpərvər igidlər haqqında bir kəlmə xoş söz demək yasaq sayılmış, onların xeyirxah və mərd əməlləri unudulmağa başlamışdı. Naxçıvanda hökumət əleyhinə başlamış bu narazılıq və üsyanlar kollektivləşdirmə siyasətinə, müstəmləkəçiliyə qarşı, həqiqi azadlıq və müstəqillik uğrunda aparılan mübarizə kimi qiymətləndirilməlidir. Bu baxımdan həmin illərin yeni müstəvidə geniş və hərtərəfli təhlili hələ də açılmayan, bir çox mürəkkəb məsələlərin həllini, qaranlıq qalan suallara cavab tapılmasını zəruriləşdirəcəkdir.

## ƏDƏBİYYAT


1. Azərbaycan tarixi, yeddi clddə, VI cild (aprel 1920-iyun 1941), Bakı, Elm, 2008, 568 s.
2. Arzulu H. Qaçaq Quşdan, Naxçıvan, Əcəmi, 2015, 312 s. (təkrar nəşr).
3. Arzumanlı V., Mustafa N. Tarixin qara səhifələri, Deportasiya, Soyqırımı, Qaçqınlıq, Bakı, Qartal, 1998, 218 s.
4. Baykara H. Azərbaycan istiqlal mübarizəsi tarixi, Bakı, Azərnəşr, 1972, 276 s.
5. Bünyadov Z. Qırmızı terror, Bakı, Azərnəşr, 1993, 331 s.
6. Cəfərov C. Azərbaycan kəndlilərinə qarşı 1920-30-cu illər repressiyası və onun acı nəticələri, Qarapapaqlar, №7(15), 2008, sentyabr, s.23-27.
7. Cəfərov C. Azərbaycan kəndində inzibati-amirlik sisteminin formalaşması // Jornal of Qafqaz Universty, Nuber 26, 2009, s.2-9.
8. Əliyev Ə. Əlincə yaddaşı, Naxçıvan 1914-1992, Bakı, Gənclik, 1997, 304 s.
9. Əliyev Ə. Papağı başından düşməyən dağlar, Folklor və etnoqrafiya // 2016, №1, s.70-79.
10. Əliyev H.Ə. Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında, Bakı, 2001, 55 s.
11. Əli Şamil Hüseynoğlu (Hüseynov), Dastanlaşmış ömürlər, Bakı, Səda, 2001, 96 s.
12. Hacıyev İ. Naxçıvanda kənd təsərrüfatının kollektivləşməsi, əyintilər, səhvlər, nəticələr // AMEA-nın "Xəbərlər"i, ictimai və humanitar elmlər seriyası. Naxçıvan: Tusi, c.7, №3, 2011, s.21-28.
13. Heydər Əliyev və Bakı Dövlət Universiteti, Bakı, BDU, 1997, 136 s.
14. XX əsr Azərbaycan tarixi, II cild, Bakı, Təhsil, 2009, 560 s.
15. İsaxanlı H. Mərkəzi Zaqafqaziyanın sovetləşməsi və kollekitləşmə dövründə ictimai-siyasi mənzərə və İsaxan üsyanı, "Xalq" qəzeti, 1996, №148-150.
16. İsaxanlı H. Qafqazda Sovet totalitarizmi (20-30-cu illər) / (6-7 noyabrda keçirilmiş elmi konfransın materialları)-Bakı, Xəzər Universiteti nəşriyyatı, 1988, s.55-58.
17. Qaffarov T., Məmmədov İ., Məmmədov X. və b. Azərbaycan tarixi, Bakı, Çaşıoğlu, 2003, 376 s.
18. Məmmədov N. Hakimiyyət orqanlarının qolçomaqlara qarşı "düşmən" siyasəti (XX əsrin 20-30-cu illəri) // Bakı Universitetinin Xəbərləri, humanitar elmlər seriyası, 2010, №3, s.107-113.
19. Məmmədov N. H. Əliyev və Azərbaycanın XX əsrin 20-30-cu illər tarixinin bəzi məsələləri // Tarix və onun problemləri, 2013, №2, s.279-287.

20. Naxçıvan tarixi, üç cilddə, II c., Naxçıvan, Əcəmi Nəşriyyat Poliqrafiya Birliyi, 2014, 528 s.
21. Odlu yurd ("odlu Yurt") məcmuəsi, 1930-cu il, №17(5), səh.193; 1930-cu il, №18(6), səh.244.
22. Sadiqov S. Naxçıvan Muxtar Respublikasının tarixindən, Bakı, İrşad mərkəzi, 1995, 144 s.
23. Sadiqov S. Tarixin qan yaddaşı, Bakı, 2001, 366 s.
24. ЦК RKP (б)-ВКР (в) и нац. вопрос. Кн.1, 1918-1933 гг, Москва, РОССИЭN, 2005, 674 стр.

## ABSTRACT

**Yashar Rahimov**

**The dissatisfactions against the measures of collectivization in Nakhchivan**

At the end of the 20th and in the begining of 30th years of the last century the peasants and and illegal gangs had passed hard and honorable fight way, they had not submit to followed a policy and had fought against forced collectivization and collective-farm movement, had shown resistance to the government in Nakhchivan. During the Union government it had been forbidden to say a pleasant word about these brave patriots, it had begun to be forgotten their well-wisher and brave deeds. It must valued as a struggle for real freedom and independence against colonialism and collective-farm policy, which had begun these discontents and revolts anti-government in Nakhchivan. In this respect, in new plane the wide and comprehensive analysis of the same years will necessitate to find dark remainder answers, which it yet not opened solution of the some complex problems.

## РЕЗЮМЕ

**Яшар Рагимов**

**НЕДОВОЛЬСТВИЕ ПРОТИВ МЕРЫ КОЛЛЕКТИВИЗАЦИИ В НАХЧЫВАН**

В конце 20-х годов и в начале 30-х годов прошлого столетия в Нахчыване начался мощный протест сельских жителей против начавшийся насильственной коллективизации. Недаволные насильственной коллективизацией сельские жители, а также созданные в результате этого недовольства формированные банды начали вести достойную борьбу за свои права. Во времена Союзного правительства было запрещено вспоминать тех, кто своей мужественной борьбой зашишал права и свободы сельских труженников. И поэтому эти патриоты своей родины, их доблестные поступки и дела были преданы забвению. Начатое в Нахчыване движение недовольных народных масс против политики коллективизации надо расценивать как борьбу за свободу и независимость всей родины, и поэтому в связи с этим появляется надобность в проведении широкого и всестороннего анализа событий тех лет и появляется необходимости поиске ответов на вопросы связанные с темной стороной этой трудной, но славной для азербайджанского народа эпохи.

(Akademik İ.M.Hacıyev tərəfindən təqdim edilmişdir)

NDU-nun Elmi Şurasının 30 mart 2017-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 07).

Məqaləni çapa təqdim etdi: AMEA-nın həqiqi üzvü İ. Hacıyev

**XƏZƏR HÜSEYNOV**
*Naxçıvan Dövlət Universiteti*
*xezerhuseynov@gmail.com*

**UOT: 94 (479.242)**

# NAXÇIVAN MUXTAR RESPUBLİKADA KƏND TƏSƏRRÜFATININ VƏZİYYƏTİ (1991-1995-Cİ İLLƏRDƏ)

***Açar sözlər:*** *Naxçıvan, kənd təsərrüfatı, maddi-texniki baza, torpaq örtüyü, iqlim şəraiti*
***Key words:*** *Nakhchivan, national economy, material-technical base, land cover, climate condition*
***Ключевые слова:*** *Нахчыван, селское хозяйство, материально-техническая база, почвенный покров, климатические условия*

Məlum olduğu kimi 1980-ci illərin sonlarında keçmiş SSRİ iqtisadiyyatında başlanan neqativ meyillər nəticəsində Sovet dövləti böhran vəziyyətinə düşmüş, müttəfiq respublikalarda istehsal sahələri dağılmış, torpaqların münbitliyinin qorunub saxlanılması, xəstəlik və zərərvericilərə qarşı mübarizə, baytarlıq, seleksiya və heyvandarlıqda cins tərkibinin yaxşılaşdırılması tədbirlərinin həyata keçirilməsi dayandırılmış, yeyinti sənaye məhsulları istehsalı ağır vəziyyətə düşmüşdür.

1990-cı ildən başlayaraq digər keçmiş ittifaq respublikalarında olduğu kimi, Azərbaycanın və Naxçıvanın da, iqtisadiyyatında böhran yaranmağa başlamışdı. O vaxtlar kənd təsərrüfatında əsas təsərrüfat formaları olan kolxoz və sovxozlar artıq lazımi səviyyədə fəaliyyət göstərə bilmir və təsərrüfatda iqtisadi böhran getdikcə dərinləşirdi. Bununla yanaşı, istehsal vastələri, maşın və avadanlıqlar fiziki və mənəvi cəhətdən köhnəlir, maliyyə gərginliyi ilə əlaqədar yenisini almaq mümkün olmurdu.

Məlum olduğu kimi ölkədə iqtisadiyyatın mühüm sahəsi olan qüdrətli sənaye ilə yanaşı, tərəqqi edən, hərtərəfli inkişaf etmiş və yüksək məhsul verən kənd təsərrüfatının yaradılması və inkişafı ən vacib və zəruri şərtdir.

Qeyd etmək olar ki, əhali üçün yüksək keyfiyyətli ərzaq məhsulları və sənaye üçün xammal bolluğu kənd təsərrüfatından çox asılıdır.

Bu mühüm vəzifələrin müvəffəqiyyətlə həyata keçirilməsi digər regionlar kimi Naxçıvan Muxtar Respublikasında da kənd təsərrüfatının gələcək sürətli inkişafı və əhalinin həyat səviyyəsinin daha da yüksəldilməsi üçün müstəsna əhəmiyyət kəsb edir.

Müstəqillik illərində Azərbaycanda, eləcədə Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatının inkişafı və kənd təsərrüfatı sahələrində islahatların başlanması və həyata keçirilməsi Azərbaycan xalqının ümummilli lideri, Müstəqil Azərbaycan Respublikasının memarı və qurucusu, görkəmli dövlət xadimi Heydər Əliyevin adı ilə bağlıdır.

Məlum olduğu kimi keçid dövrü çox çətin, ağır və təzadlı olur. Bu baxımdan keçid dövrü respublikamız üçün də çox təzadlı olmuş ölkəni acınacaqlı vəziyyətə salmışdır. Azərbaycanın müstəqillik qazanması və bazar iqtisadiyyatına keçidlə əlaqədar olaraq keçmiş ittifaq respublikaları ilə əlaqələr pozulmuş və xalq təsərrüfatının bütün sahələrində istehsalın aşağı düşməsi müşahidə olunmuşdur (2, s. 66-67).

Azərbaycanı bürüyən böhran öz dağıdıcı təsirini Naxçıvanda xüsusilə büruza verirdi. Qeyd etmək olar ki, Ermənistan Respublikasının silahlı qüvvələrinin təcavüzü nəticəsində Naxçıvan Muxtar Respublikası blokadaya alınmış, iqtisadiyyat ağır vəziyyətə düşmüş, kəskin sürətdə xammal çatışmamazlığı əmələ gəlmiş, mal göndərən və alıcı müəssisələrlə əlaqələr tam pozulmuş, sənaye müəssisələrinin fəaliyyəti dayanmış, kənd təsərrüfatı sahələri ağır vəziyyətə düşmüşdür.

Eyni zamanda Ermənistan Respublikasının ərazisindən keçən elektirik, qaz magistralları, digər kommunikasiya xətləri vəhşicəsinə dağıdılmış, Azərbaycanın digər bölgələri ilə əlaqələr kəsilmiş, bununla da muxtar respublikanın iqtisadi və sosial həyatında gərgin vəziyyət yaranmışdır (6, s. 3).

Məlum olduğu kimi o zamankı Azərbaycan rəhbərliyinin Naxçıvana göstərdiyi ögey münasibətlər təsərrüfatın bütün sahələrinə öz mənfi təsirini göstərmiş və böhran vəziyyətinə salmışdır. Bununla əlaqədar ümummilli liderimiz Heydər Əliyev Naxçıvan Muxtar Respublikasının 75 illiyinə həsr edilmiş təntənəli mərasimdəki çıxışında demişdir: "...Naxçıvana ögey münasibət Azərbaycanda sovet hakimiyyəti vaxtında, demək olar ki, həmişə olubdur. Hətta məlumdur ki, naxçıvanlılar burada çox hay - küy salanda Azərbaycanın bəzi rəhbərləri demişdilər ki, Naxçıvan bizim üçün bir apensiddir, onu kəsib atmaq lazımdır. Yəni çoxları hazır idilər gəlib Naxçıvanı işğal etsinlər ki, onların canı qurtarsın. Çünki Naxçıvan onlara çox böyük narahatlıqlar verirdi. Belə ögey münasibətlər çox olubdur" (3, s. 207-208).

Naxçıvanın Azərbaycandan təcrid olunmuş şəkildə olduğuna görə dövlət xadimi Heydər Əliyev Naxçıvanda kənd təsərrüfatının və onun iqtisadiyyatının inkişafına xüsusi diqqət yetirilməsini bir çox çıxışlarında qeyd etmişdir.

Ölkədə bazar münasibətlərinə keçidin müasir mərhələsində aqrar-sənaye kompleksinin qarşısında duran ən

vacib vəzifə kənd təsərrüfatı istehsalını sabitləşdirmək, əhalini ərzaq məhsulları, sənayeni isə xammalla etibarlı şəkildə təmin etməkdən ibarət idi. Bu problemlərin həllində aqrar islahatlar həyata keçirməklə müxtəlif təsərrüfatçılıq formalarının inkişafı, aqrar bölmədə istehsal və iqtisadi potensialdan istifadənin yaxşılaşdırılması və iqtisadi səmərəliliyinin yüksəldilməsi mühüm rol oynayırdı.

Ölkədə kənd təsərrüfatını böhran vəziyyətindən çıxarmaq üçün mövcud olan istehsal və iqtisadi potensialdan səmərəli istifadə etməli, kənd təsərrüfatının özünə məxsus xüsusiyyətlərini nəzərə almaqla iqtisadi mexanizm təkmilləşdirilməli idi. Göstərilənlərlə əlaqədar aqrar bölmənin bazar münasibətlərinə keçirilməsi əsas istiqamət götürülməklə köklü islahatların həyata keçirilməsi, müxtəlif təsərrüfat formalarının təşkili və mülkiyyət münasibətlərinin təkmilləşdirilməsi, çevik qiymət, vergi və kredit siyasəti yeridilməsi, əkinçilik və heyvandarlığın dünya təcrübəsinin nailiyyətləri və elmi əsaslarla inkişaf etdirilməsi, idarə etmədə iqtisadi amillərə üstünlük verilməsi üçün kamil proqrama və güclü, istedadlı şəxsiyyətə böyük ehtiyac duyulurdu. Respublikada yaranmış iqtisadi və siyasi böhranı böyük dahi, dövlət xadimi Heydər Əliyev aradan qaldıra bilərdi.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi 1991-ci il sentyabrın 3-də dəfələrlə namizədliyini geri götürməsinə baxmayaraq, Heydər Əliyevi xalqın təkidli tələbi ilə Ali Məclisin Sədri seçdi (1, s. 287).

Möhtərəm Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilməsi, bu görkəmli siyasi xadimin yeritdiyi uzaqgörən və ağıllı siyasət bölgəni və əhalini gözlənilən bəlalardan xilas etdi. Muxtar respublikada həyata keçirilən tədbirlər, demokratik dəyişikliklər, milli dövlətçiliklə bağlı qəbul edilən qərarlar Azərbaycanın müstəqilliyini möhkəmləndirmək yolunda məqsədyönlü fəaliyyət sahələri idi. Naxçıvanda gedən demokratik dəyişikliklərin sorağı Azərbaycandan uzaqlara yayılırdı. Azərbaycanın müstəqil dövlət kimi siyasi fəaliyyətinin konseptial istiqamətləri də məhz bu dövrdə işlənib hazırlanmışdı (4, s. 40-41).

Kənd təsərrüfatı sahələrində islahatlardan, bu sahədə həyata keçirilən istehsal-iqtisadi əlaqələrdən danışarkən bütün bunların ilk dəfə muxtar respublikada hazırlanaraq, icrasına məhz burada həyata keçirildiyini qeyd etmək yerinə düşərdi.

Blokadaya düşmüş Naxçıvan Muxtar respublikasının kənd təsərrüfatı 90-cı ilin əvvəllərində ağır vəziyyətdə idi. Belə bir zamanda Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Respublikası arasında 24 mart 1992-ci ildə bağlanmış iş birliyi protokoluna əsasən Türkiyə hökuməti Naxçıvanda kənd təsərrüfatını inkişaf etdirmək üçün yardım olaraq 1002 ton azot gübrəsi, 280 ton göy daş, 80 ton pres ipi, 20 ton elektrod, 840 ədəd müxtəlif akkumulyator, 10 ton karbit göndərmişdir. Bunlar muxtar respublikanın kənd təsərrüfat ehtiyaclarını ödəmək üçün kolxozlara, sovxozlara və digər kənd təsərrüfatı müəssisələrinə satıldı. Göstərilən materialların dövlət satış qiyməti ilə ümumi dəyəri 12,6 mln. manat təşkil etmişdir. Satışda əldə edilən 9,5 mln. manatlıq vəsait Naxçıvan Muxtar Respublikasının inkişaf və müdafiə fonduna köçürülmüşdür.

Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Respublikası arasında imzalanmış işbirliyi protokolunun 8-ci bəndinə uyğun olaraq 1992-ci ilin aprelində Türkiyə Kənd Təsərrüfatı Nazirliyinin bir qrup məsul işçisi Naxçıvana gəldi. Aprelin 27-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev türkiyəli qonaqları qəbul etmişdir. Səfərdə məqsəd Heydər Əliyevin Türkiyəyə rəsmi səfəri zamanı imzalanmış müqaviləni inkişaf etdirərək kənd təsərrüfatı sahəsində əməkdaşlığın konkret istiqamətlərini müəyyənləşdirmək idi (5, s. 684).

Heydər Əliyev muxtar respublikada şəkər çuğunduru istehsalının perspektivləri ilə maraqlanmışdır. Türkiyədən gələn qonaqlar qeyd etmişdilər ki, muxtar respublikanın, xüsusilə Şərur rayonunun torpağı çox münbitdir. Ona görə də burda şəkər çuğunduru əkinindən yaxşı məhsul götürmək olar. Şəkərçilik dərəcəsi 18-19 faiz olmaqla hər hektardan 500-600 sentner məhsul götürmək mümkündür (8, 30 aprel 1992-ci il).

Naxçıvanın Türkiyə ilə kənd təsərrüfatı sahəsində iqtisadi əməkdaşlığının ən uğurlu nəticələri regionda şəkər çuğundurunun inkişaf etdirilməsi olmuşdur. Muxtar respublikada bu qiymətli bitkinin istehsalına ilk dəfə 1992-ci ildə Heydər Əliyevin təşəbbüsü ilə başlanıb. Türkiyə ilə yaradılan müştərək təsərrüfatçılıq əlaqələri tezliklə şəkər çuğundurunun istehsalının artmasına gətirib çıxardı. Əgər ilk ildə cəmi 290 ton məhsul istehsal olunmuşdusa, sonrakı illərdə bu sahə həm intensiv, həm də ekstensiv amillər hesabına inkişaf etməyə başlamışdı.

Türkiyə dövləti ilə genişlənən iqtisadi əlaqələr Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatına müsbət təsir göstərmişdi. Muxtar respublika qonşu dövlətdən toxum, mineral gübrə, səpin aqreqatları, sudartan nasoslar, traktor və kombaynlar almışdı.

1992-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində işləyən ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə muxtar respublikanın Culfa rayonunda ilk dəfə olaraq ictimai təsərrüfatda islahata başlamış və yeni özəl təsərrüfat qurumları yaradılmışdır. Bu təcrübə sonralar 1993-cü ildə respublikada aqrar islahatların aparılmasına hazırlıq dövründə nümunə rolunu oynamış və müxtəlif bölgələrdə kəndlilərin birləşdiyi kəndli (fermer) təsərrüfatlarının yaradılması ilə nəticələnmişdi.

Kənd təsərrüfatı məhsulları istehsalının artırılması və əhalinin ərzaq məhsulları ilə təminatının yaxşılaşdırılması məqsədilə ümummilli liderimiz Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində işlərkən 1992-ci il aprel ayının 6-da "Naxçıvan Muxtar Respublikasında zərərlə işləyən kolxoz və sovxozların özəlləşdirilməsi haqqında" qanun qəbul etmişdi.

Bu qanun bir daha göstərir ki, Naxçıvan Muxtar Respublikası hələ 90-cı illərdə bütövlükdə Azərbaycanda həyata keçirilməyə başlayan iqtisadi islahatların beşiyidir. Onun ideya istiqamətlərinin müəyyən edilməsində aparıcı yer tutur.

1992-ci il 6 apreldə Naxçıvan Muxtar Respublikası Ali Məclisi "Rentabelli işləyən kolxoz və sovxozların ictimai mal-qarasının özəlləşdirilməsi barədə təkliflər haqqında" tarixi qərar qəbul etmişdi. Həmin qərarda qeyd edilmişdir ki, rentabelli işləyən kolxoz və sovxozların ictimai mal-qaralarının zəruri olan halda kolxoz üzvlərinə, sovxoz fəhlələrinə və ya kənd sakinlərinə satılması məqsədəuyğun hesab edilsin. Rayon xalq deputatları məclislərinə tapşırılsın ki, ictimai mal-qaranın satılması işinin lazımi səviyyədə təşkilinə nail olsun, kolxozların, sovxozların bu sahədəki fəaliyyətini ciddi nəzarətdə saxlasın və bu işin həyata keçirilməsində qanun-qaydalara tam riayət olunmasını təmin etsinlər (5, s. 302).

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 6 aprel 1992-ci il tarixi sessiyasında qəbul edilmiş, "Naxçıvan Muxtar Respublikasında zərərlə işləyən kolxoz və sovxozlar haqqında" və "Rentabelli işləyən kolxoz və sovxozların ictimai mal-qarasının özəlləşməsi barədə təkliflər haqqında" tarixi qərarlardan başlayan islahatlar yolu kənd təsərrüfatının dinamik inkişafının bünövrəsini qoymuşdur.

Müstəqilliyimizin ilk illərində kənd təsərrüfatına laqeyid yanaşmanın müharibə ilə əlaqələndirilməsinin əleyhinə olan ümummilli liderimiz Heydər Əliyev 1994-cü il martın 4-də respublikada kənd təsərrüfatı problemlərinin müzakirəsinə həsr olunmuş müşavirədə sahənin inkişafının həyati əhəmiyyətini göz önünə gətirərək demişdir: "Kənd təsərrüfatı Azərbaycan iqtisadiyyatının böyük bir hissəsidir, demək olar ki, yarısından çoxudur. Ona görə də kənd təsərrüfatı Azərbaycan iqtisadityyatında böyük yer tutur, digər tərəfdən isə iqtisadiyyatımıza həm mənfi, həm də müsbət təsir göstərə bilər. Sənayenin də böyük bir hissəsi kənd təsərrüfatı məhsulları stehsalı ilə bağlı olduğuna görə, kənd təsərrüfatının Azərbaycan iqtisadiyyatı üçün böyük əhəmiyyəti vardır".

Həyata keçirilən tədbirlər sayəsində 1995-ci ildə muxtar respublikada tənd təsərrüfatı məhsulları istehsalının həcmi 117 milyard manat olmuşdu. Həmin ildə muxtar respublikada 23,6 min ton taxıl, 1,2 min ton tərəvəz, 23,6 min ton bostan məhsulları, 2,1 min ton meyvə, 11 min ton üzüm, 7,9 min ton şəkər çuğunduru istehsal olunmuşdur. Bütün bunlar göstərir ki, artıq 1995-ci ildən başlayaraq muxtar respublikanın kənd təsərrüfatında olan geriliyə son qoyulmuşdu (7, s. 76).

Beləliklə, Naxçıvan Muxtar Respublikadasında aqrar islahatları həyata keçirən ümummilli liderimiz Heydər Əliyev muxtar respublikanın kənd təsərrüfatının bütün sahələrini inkişaf etdirməyə nail olmuşdu. 1995-ci ildən başlayaraq kənd təsərrüfatının mühüm sahələri - taxılçılıq, heyvandarlıq, quşçuluq, arıçılıq və s. inkişaf etmiş bütün bunların sayəsində xalqın maddi rifah halı yüksəlmişdir.

## ƏDƏBİYYAT


1. Azərbaycan tarixi, Yeddi cilddə. VII c. Bakı, Elm, 2008, 608 s.
2. Əhmədov N.H. Naxçıvan iqtisadiyyatı inkişaf yollarında, Bakı, Elm, 2005, 312 s.
3. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. 22-ci cild Bakı, Azərnəşr, 2007, 528 s.
4. Hacıyev İ.M. Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi həyatı, sosial-iqtisadi və mədəni inkişafı (1991-2011-ci illər), Naxçıvan, Əcəmi, 2011, 272 s.
5. Qayıdış (1990-1993), Təkmilləşmiş və yenidən işlənmiş ikinci nəşr, Məsləhətçi və buraxılışa məsul Vasif Talıbov, Bakı, Azərbaycan, 2008. 840 s.
6. 1997-ci ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı haqqında, Naxçıvan, Əcəmi, 1998, 32 s.
7. Şahverdiyev Z.Ə., Zeynalov İ.Ə. Naxçıvan Muxtar Respublikası 1991-2001. Bakı, Qismət, 2002, 168 s.
8. Şərq qapısı qəzeti



## ABSTRACT

**Khazar Huseynov**

**The stiuation of agriculture in the Nakhchivan Autonomous Respublic (1991-1995 s)**

Like this and other articles, the theme-position of agriculture in the Nakhchivan Autonomous Republic in 1970-1980s-also creates scientific interest. In the article the situation of agriculture in the Nakhchivan Autonomous Republic is investigated.

As at all times, in the 1991-1995 years the development of agriculture in the Nakhchivan Autonomous Republic is differed by its own characteristics. At the above mentioned years agriculture which playing an own role in the economic development of the country based on the laws of economic development.

Gradually developing of the country economy, avoiding discrepancies in this development, quickly development of the agriculture together with industry, increasing agricultural production, creating an abundance of food, increasing of legumes and livestock products day by day, the provision of the population with safe agricultural products were the most important issue.

In the investigated years, strengthening and mechanization of the material-technical base of agriculture, important works on in the field of land reclamation in the Nakhchivan Autonomous Republic specially thanks happened to Heydar Aliyev's care.

In the article situation of agriculture in 1991-1995s in the Nakhchivan Autonomous Republic and achievements in its development were included in using the scientific revolution due to archival materials, statistical yearbooks, printed or works of other authors, articles, periodicals.


**РЕЗЮМЕ**

**Хазар Гусейнов**

**СОСТОЯНИЕ СЕЛЬСКОГО ХОЗЯЙСТВА В НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКЕ (1991-1995 ГОДЫ)**

Как эти и другие статьи, так и тема состояние сельского хозяйства в Нахчыванской Автономной Республике тоже создает научный интерес. В статье исследуется состояние сельского хозяйства в Нахчыванской Автономной Республике.

Как во все времена, в 1991-1995 годы развитие сельского хозяйства в Нахчыванской Автономной Республике отличается по своим характеристикам. В упомянутой выше лет сельском хозяйстве, которое играет свою роль в экономическом развитии страны на основе законов экономического развития.

Постепенно развиваясь из экономики страны, избегая расхождений в этом развитии, быстро развитие сельского хозяйства вместе с промышленностью, увеличение сельскохозяйственного производства, создания изобилия продуктов питания, повышение бобовых и продуктов животноводства день ото дня, предоставление населению с безопасным сельскохозяйственной продукты были наиболее важный вопрос.

В исследованных лет, укрепление и механизация материально-технической базы сельского хозяйства, важных работ по в области мелиорации земель в Нахчыванской Автономной Республике, специально благодаря случилось ухода Гейдара Алиева.

Встатье введены в научный оборот состояние сельского хозяйства в 1991-1995 годах в Нахчыванской Автономной Республике и достижения в его развитии  исползуясь из архивных материалов, статистических сборников,этих и других напечатанных произведений авторов, статий, периодической прессы.



NDU-nun Elmi Şurasının 30 mart 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 07).

Məqaləni çapa təqdim etdi: AMEA-nın müxbir üzvü Z.Şahverdiyev

**ZEYNƏB QULİYEVA**
*AMEA Naxçıvan Bölməsi*
*zeyneb_guliyeva@yahoo.com*

**UOT: 94 (479.242)**

# NAXÇIVANIN ENEOLİT ABİDƏLƏRİNİN ÖYRƏNİLMƏ TARİXİ

***Açar sözlər:*** *Naxçıvan, Eneolit, Yeni yol, Ərəbyengicə, Ovçulartəpəsi, Uçan Ağıl*
***Ключевые слова:*** *Нахчыван, Энеолит, Ени йол, Арабенгиджа, Учан Агыл.*
***Key words:*** *Nakhchivan, Calcolithic, Yeni Yol, Arabengidja, Uchan Agıl.*

Azərbaycan ərazisində əkinçi-maldar tayfaların məskunlaşmasını əks etdirən faktlar əsasən Neolit-Eneolit abidələrində qeydə alınmışdır. Onların böyük bir qismi Naxçıvan Muxtar Respublikasının ərazisində yerləşir. Tədqiqatlar göstərir ki, qədim əkinçi-maldar tayfalar bu regionda daha geniş əraziyə yayılmaqla kompakt halda yaşamışlar. Bu özünü çoxsaylı Eneolit abidələrinin qeydə alınmasında, həmçinin onların mədəni təbəqələrinin zəngin materiallarında da biruzə verir. Əgər bir vaxtlar bu dövrə aid tapıntılar yalnız I Kültəpə, Ovçulartəpəsi kimi bir neçə abidənin arxeoloji materialları ilə təmsil olunurdusa, son illərdə aparılan tədqiqatlar nəticəsində artıq onların sayı iyirmini keçmişdir. Əvvəlki illərdə qeydə alınan abidələrdə Eneolit dövrünün orta mərhələsinin əks olunmaması bu dövrün sistemli şəkildə öyrənilməsinə şərait yaratmamışdır. 2008-ci ildən başlayaraq intensiv surətdə aparılan araşdırmalar nəticəsində aşkar edilən yeni yaşayış yerləri Eneolit dövrünün bütün mərhələlərini işıqlandıran maddi-mədəniyyət nümunələri aşkar olunmuşdur. Onların ortaya çıxarılması bu sahəyə göstərilən dövlət qayğısının, həmçinin ölkəmizdə arxeologiya elminin surətli irəliləməsinin bariz nümunəsidir. Bu inkişafın Naxçıvan Muxtar Respublikasındakı təzahürünü müstəqilliyə qədərki və müstəqillikdən sonrakı dövrlərdə Eneolit abidələrinin öyrənilmə tarixinin müqayisəli təhlili timsalında izləmək mümkündür. Təqdim olunan məqalədə məqsəd onların öyrənilmə tarixində gedən inkişaf dinamikasının və onların əhəmiyyətinin araşdırılmasıdır.

Naxçıvanda Eneolit abidələrinin öyrənilməsinə ötən əsrin birinci yarısında başlanmışdır.1934-cü ildə Ə.Ələkbərov tərəfindən Şərur rayonunun İbadulla kəndində qeydə alınan Şortəpə yaşayış yeri bu sahədə ilk abidə olmuşdur. 1500 $m^2$-lik sahəni əhatə edən yaşayış yerindən üzə çıxarılan 4 mədəni təbəqənin alt qatlarından Eneolit dövrünə aid materiallar aşkar edilmişdir [10, 55]. 1985-1987-ci illərdə burada yenidən qazıntılar aparılmış və aşkar edilən Eneoit, Tunc dövrlərinə aid saxsı məmulatı Şərur rayon Tarix Diyarşünaslıq muzeyinə təhvil verilmişdir.

1958-ci ildə O.Həbibullayev tərəfindən Sədərək yaşayış yerində eneolit keramikasının aşkar edilməsi Arpaçay vadisində Eneolit dövründə yaşayışın geniş sahəni əhatə etdiyini göstərmişdir [1, 5]. Abidə e.ə. VII-I minilliklərə aid edilmişdir. Sonrakı dövrlərdə V.Əliyev, 2010-cu ildə isə A.Seyidov və V.Baxşəliyev tərəfindən davam etdirilən qazıntılar zamanı Eneolit və Kür-Araz mədəniyyətini əks etdirən çəllək, küpə, kasa tipli qablar, onların müxtəlif hissələri və daş alətlər tapılmışdır [9,19-35].

XX əsrin 80-ci illərində Naxçıvanın Eneolit abidələrinin öyrənilməsinin genişləndirilməsi nəticəsində Arpaçay vadisində yeni abidələr qeydə alınmışdır. Onlardan biri Dizə kəndinin şimal-şərqində yerləşən Ovçulartəpəsi yaşayış yeridir. 10 ha sahəni əhatə edən yaşayış yeri 1980-ci ildə Arpaçayın sol sahilində qeydə alınmışdır. Abidədə ilk tədqiqatlar 2002-ci ildə S.Aşurov tərəfindən başlanmış, 2006-cı ildən isə Azərbaycan-Fransa birgə arxeoloji ekspedisiyası tərəfindən genişləndirilmişdir [11, 45]. Bu proses 2014-cü ilədək davam etdirilmişdir. V.Baxşəliyev, K.Morro və S.Aşurovun rəhbərliyi ilə 2300 $m^2$ sahədə aparılmış qazıntılar nəticəsində Eneolit dövrünə aid yarımqazma evlərin qalıqları, təsərrüfat çuxurları, xeyli miqdarda keramika, daş və sümükdən hazırlanmış alət və onların hissələri aşkar edilmişdir [5, 19]. E.ə. 4350-4000-ci illərə aid edilən yaşayış yerinin əsas xüsusiyyətləri yarımqazma və dairəvi tikintilər, yardımçı tikililər, dairəvi ocaqlar, həmçinin əsasən zoomorf xarakterli relyef ornamentasiya ilə təmsil olunmaqla Arpaçay vadisinin Eneolit mədəniyyətinin spesifik cəhətlərini əks etdirir. Buradan aşkar olunmuş küpələr üzərindəki ornamentlər əsasən keçi təsvirləri, yuvarlaq qabartmalar və qabların boğazını çevrələyən relyef qurşaqlarla təmsil olunmuşdur [6, 78]. AMEA Naxçıvan Bölməsinin Arxeologiya və Etnoqrafiya muzeyində saxlanılan bu tipli küpələrdən biri iri həcmli, miz oturacaqlı, qabarıq gövdəli olmaqla saman qarışıqlı gildən

hazırlanmış və üzəri çəhrayı rəngli anqobla örtülmüşdür. Qabın gövdəsində qabartma üsulla keçi təsvirləri çəkilmiş, boğazı relyef qurşaqla çevrələnmişdir (Şəkil 1).



Şəkil 1. Arpaçay vadisinin Eneolit küpəsi üzərindəki relyef ornamentlər (AMEA NB-nin Arxeologiya və Etnoqrafiya muzeyi №5).

1982-ci ildə Eneolit dövrünə aid daha bir abidə Arpaçayın sağ sahilində qeydə alınmışdır. V.Əliyev və A.Seyidov tərəfindən tədqiqata cəlb edilən Xələc yaşayış yeri eyni adlı kəndin cənubunda 0,5 ha ərazini əhatə edir. 1982-1983-cü illərdə buradan xeyli miqdarda keramika hissələri, əmək alətləri və naşəkilli ocaq qurğusunun hissəsi üzə çıxarılmışdır. Müxtəlif illərdə S.Aşurov, V.Baxşəliyev, K.Morro və digər arxeoloqlar tərəfindən Eneolit və Erkən Tunc dövrünə aid tapıntılar üzə çıxarılmışdır. İstər ilk mərhələdə, istərsə də 2009-cu ildə başlanan sonrakı mərhələdə aşkar olunan tapıntılar burada yaşayışın Eneolit dövründən Dəmir dövrünədək davam etdiyini göstərmişdir [8, 63-92].

1984-cü ildə Şərur rayonunun Ərəbyengicə kəndinin cənubunda, Araza yaxın hissədə daha bir abidə aşkar edilmişdir. Yer səthindən 1,5 metr yüksəklikdə olan Ərəbyengicə yaşayış yeri 0,8 ha sahəni əhatə edir [7, 37]. 2008-ci ildə V.Baxşəliyevin və A.Seyidovun burada apardığı qazıntılar zamanı X-XIII komplekslərdə Eneolit dövrünə aid maddi-mədəniyyət nümunələri aşkar qeydə alınmışdır. Çəhrayı rəngli, saman qarışıqlı saxsı nümunələri ilə təmsil olunan bu materiallar abidənin həm də Eneolit mədəniyyəti ilə bağlı olduğunu göstərmişdir . 2013-cü ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin dəstəyi ilə AMEA Naxçıvan Bölməsində yaradılmış ekspedisiya tərəfindən yenidən tədqiqata cəlb edilən yaşayış yerindən Eneolit dövrünə aid küpələr, divar, ocaq yerləri, sümük və daş alətlərin qalıqları aşkar edilmişdir [5, 21].

Eneolit dövrü abidələrinin böyük bir qismi Naxçıvançay vadisində aparılan tədqiqatlar zamanı aşkar edilmişdir. İlk dəfə bu dövrə aid tapıntılar 1951-1964-cü illərdə O.Həbibullayev tərəfindən I Kültəpə abidəsində aparılan arxeoloji qazıntılar zamanı aşkar edilmişdir [4, 23]. XX əsrin əvvəllərində abidənin ətrafında tədqiqatların davam etdirilməsi nəticəsində çoxsaylı Eneolit abidələri aşkar edilmişdir. Onlardan biri Yeni yol yaşayış yeridir. Abidə Babək rayonunun Məmmədrza kəndinin cənubunda qeydə alınmışdır. 2013-cü ildə abidədə aparlan araşdırmalar zamanı Eneolit dövrünə aid az miqdarda keramika məmulatı aşkar edilmişdir. 2014-cü ildə aparılan qazıntılar zamanı yaşayış yerində mədəni təbəqənin qalınlığının 1 metr olduğu müəyyənləşdirilmişdir. Buradakı tikinti qalıqları çiy kərpicdən hörülmüş və tikinti qatları qalın kül qatı ilə bir-birindən ayrılmışdır [3, 51]. Şorsu yaşayış yerində arxeoloji tədqiqatlar V.Baxşəliyevin rəhbərliyi ilə başlanmış, 2014-cü ildə S.Sarıaltun tərəfindən davam etdirilmişdir [2, 98]. 400 kv. m sahədə aparılan araşdırmalar nəticəsində Son Eneolit dövrünə aid dördkünc formalı tikililər, ocaq yerləri, təsərrüfat küpləri və və saxsı döşəmə qeydə alınmışdır (Şəkil 2).



Şəkil 2. Şorsu yaşayış yerində aşkar olunmuş saxsı döşəmə [2, şəkil 70].

2010-2013-cü illərdə Naxçıvançay vadisində aparılan tədqiqatlar zamanı qeydə alınmış Uçan Ağıl yaşayış yeri Araz çayı vadisini Sirab dağlarının ətəkləri ilə birləşdirən dərənin sonundakı burunda yerləşir. 2013-cü ildə burada kəşfiyyat qazıntısı aparılmışdır. 2014-2016-cı illərdə isə tədqiqat ərazisi genişləndirilmişdir. Qazıntılar zamanı abidədən Eneolit və Erkən Tunc dövrünə aid saxsı və daş alətlərin qalıqları, o cümlədən 166 qram ağırlığında olan böyük mis filizi, 2045-ci kompleksdəki Eneolit dövrü ocağın ətrafından isə Duzdağ alətlərinə bənzər sferik alətlər üzə çıxarılmışdır. Yaşayış yerinin 2019-cu kompleksdən keramika məmulatının təhlili və kömür qalıqlarının analizi e.ə.4690-4450-ci illəri göstərmişdir [2, 67]. Bu fakt Ovçular Təpəsinin aid olduğu dövrün daha əvvəlki mərhələsinin izlənilməsinə imkan verir. Uzunoba, Zirincli, Qələməbulaq və digər abidələrdə geniş qazıntılar aparılmasa da, onlardan toplanan yerüstü materiallar Eneolit dövrünü mərhələli şəkildə müqayisə etməyə imkan yaradır. Uzunobadan tapılan keramika məmulatı bu baxımdan maraqlıdır. Buradan aşkar olunmuş keramika fraqmentləri saman tərkibli boyalı və boyasız nümunələrlə təmsil olunmuşdur. Onların həm hazırlanma texnologiyası, həm də naxışlanma üsulu Uçan Ağıl və digər abidələrlə oxşar olub, Naxçıvançay vadisində mövcud olmuş Eneolit ənənələrinin özünəməxsus çalarlara malik olmasından xəbər verir. Belə ki, Naxçıvançay vadisinin Eneolit qablarında Arpaçay vadisinin həmdövr qablarından fərqli olaraq daraqlı ornamentə rastlanmamışdır. Onların bir qismi boyalı-naxışlıdır. Bu tipli saxsı fraqmentlərinin Uzunobadan tapılan yerüstü materiallarından biri qırmızı boya üzərindən paralel xətlərlə cilalanmış və cilalanmışdır (Şəkil 3, 1). Boyasız qablar isə boz rəngli, narın qum qarışıqlı gildən hazırlanaraq anqoblanmış və cilalanmış, üzəri cızma, relyef və batıq ornamentlə naxışlanmışdır. Uçan Ağıl yaşayış yerindən aşkar edilən nümunələrdən birinin xarici səthinə tor şəkilli cızma naxış çəkilmişdir (Şəkil 3,2). Bu dövrün boyasız qabları üzərində relyef qurşaqlara tez-tez rast gəlinir. Üzəri oval və dairəvi batıqlarla naxışlanmış bu tip ornamentlər qabların boğazını kəmər şəklində qabarıq formada çevrələmişdir (Şəkil 3, 3-4).




Şəkil 3. Naxçıvançay vadisinin boyalı-naxışlı (1-2) və relyef qurşaqlı (3-4) Eneolit keramikası.

Tədqiqatlar göstərir ki, Naxçıvanın Eneolit dövrü abidələrinin öyrənilməsi 90 ilə yaxın bir tarixə malikdir. Bu müddət ərzində 20-dən çox abidə qeydə alınmış və bir sıra mühüm elmi yeniliklər ortaya çıxarılmışdır. Naxçıvanın Eneolit abidələrinin öyrənilməsi regionda əkinçilik mədəniyyətinin inkişaf tempinin izlənilməsində mühüm əhəmiyyət kəsb edir. Naxçıvançay və Arpaçay vadisində qeydə alınmış onlarla Eneolit yaşayış yeri bəzi elmi çevrələrdə formalaşmış "cənubdan gəlmə mədəniyyət" nəzəriyyəsinə yenidən baxılmasına zərurət yaratmışdır. Belə ki, təkcə Naxçıvan ərazisində qeydə alınmış onlarla Eneolit abidələrinin sözü gedən dövrün erkən, orta və son mərhələsini əks etdirməsi deməyə əsas verir ki, Eneolit dövrü mədəniyyəti burada yerli zəmin əsasında formalaşmışdır. I Kültəpə yaşayış yerinin Neolitin son mərhələsinə aid materialları, G sahəsində az miqdarda qeydə alınmış Eneolit keramikası hər iki mədəniyyət arasında varisliyin izlənilməsində xüsusi əhəmiyyət kəsb edir. Digər tərəfdən Uçan Ağıl və Uzunoba kimi abidələrin materiallarının Eneolitin Erkən, ortamərhələsinə aid xüsusiyyətləri təkcə Azərbaycan üçün deyil, bütövlükdə Cənubi Qafqaz miqyasında Eneolit mədəniyyətinin yenidən tarixləndirilməsində Naxçıvan abidələrinin mühüm əhəmiyyətini göstərir.

## ƏDƏBİYYAT


1. Абибуллаев О.А. Энеолит и бронза на территории Нахичеванской АССР,Баку, Элм, 1982, 316 с.
2. Baxşəliyev V., Marro C., Berthon R. Quliyeva Z., Sarıaltun S. Kültəpədə arxeoloji qazıntılar (2013-2016) kitab Baki, Nurlan, 2017,164 s.
3. Baxşəliyev V., Quliyeva Z., Rzayeva R. Yeni Yol yaşayış yerində arxeoloji araşdırmalar / AMEA-nın Xəbərləri, İctimai elmlər seriyası, 2017, №1, s. 49-57.
4. Həbibullayev O.H. Kültəpədə arxeoloji qazıntılar, Bakı, Azərbaycan SSR Elmlər Akademiyası , 1959, 134 s.
5. Quliyeva Z. Arpaçay vadisinin Tunc dövrü arxeoloji abidələri, Bakı, Elm və təhsil, 2014, 192 s.
6. Quliyeva Z. Arpaçay vadisinin Eneolit küpələri üzərindəki relyef təsvirlərin arxeosemiotikası // AMEA-nın Naxçıvan Bölməsinin Xəbərləri , 2015, №3, 298 s.136-146/
7. Seyidov A.Q. Naxçıvan e.ə. VII-II minilliklərdə, Bakı, Elm, 2003, 339 s.
8. Seyidov A.Q., Baxşəliyev V.B.,Mahmudova V.Ə. Xələc, Bakı, Elm, 2010, 218 s.
9. Seyidov A.Q., Baxşəliyev V.B. Sədərək, Bakı, Elm, 2012, 466 s.
10. Seyidov A.Q., Baxşəliyev V.B. Şortəpə (İbadulla), Bakı, 2013, 200 s.
11. Rəhimova M., Azərbaycanın erkən əkinçilik dövrü abidələri(son tədqiqatlar), Bakı, 2011, 70 s.

## РЕЗЮМЕ

**Зейнеб Гулиева**

**История изучении энеолитических памятников Нахчывана**

В статье говориться, об истории изучений энеолитических памятников Нахчывана. Отмечается, что в Нахчыване памятники этого периода располагались при таких долины, как Арпачай и Нахчыванчай. В Арпачайской долине памятники период Энеолита были представлены с такими памятниками, как Овчулартепеси, Арабенгиджа, Халадж, поселения Садарак. Они были исследованы еще в XIX веке, видными археологами Азербайджана О.Абибуллаевым, В.Алиевым, А.Алекперовым, В.Бахшалиевым, А.Сейидовым, С.Ашуровым и др. А в Нахчыванчайской долине первые находки период Энеолита были обнаружены О.Абибуллаевым, в 1951-1964 гг.

В годы независимости масштаб археологических раскопок расширились. В результате были увеличены число археологических памятников, в том числе, и энеолитических памятников. В течение 2010-2016-х годов в Нахчыванчайской долине, число таких памятников достигло более двадцати. Они были представлены поселениями Шорсу, Ени йол, Учан Агыл, Узуноба, Зиринджли и десятками других памятников. Эти памятники отражают все этапы периода Энеолита. Нужно отметит, что на Южном Кавказе памятники относящими к раннему этапу Энеолита отсутствуют. Поэтому, энеолитические памятники Нахчывана дает возможность вновь определить новую датировку энеолитической культуры. Таким образом, изучения история энеолитической культуры Нахчывана имеет большое значение последовательно и систематическое исследований энеолитической куьтуры Южного Кавказа в том числе, и Азербайджана.



## ABSTRACT

**Zeyneb Guliyeva**

**History of the study of the Calcolithic monuments of Nakhchivan**

The article says about the history of studies of the Calcolithic monuments of Nakhchivan. It is noted that in Nakhchivan the monuments of this period were located at such valleys as Arpachay and Nakhchivanchay. In the Arpachay valley, the monuments of the Calcolithic period were represented with monuments such as Ovchulartepesi, Arabengidja, Khalaj, settlements of Sadarak. They were investigated in the XIX century, prominent archaeologists of Azerbaijan O. Abibullaev, V. Aliyev, A. Alekperov, V. Bakhshaliyev, A. Seyidov, S. Ashurov and others.

And in the Nakhchivanchay valley, the first finds of the Calcolithic period were discovered by O. Abibullaev, in 1951-1964. In the years of independence, the scale of archaeological excavations has expanded. As a result, the number of archaeological sites, including Calcolithic monuments, was increased. During 2010-2016-ies in the Nakhchivanchay Valley, the number of such monuments reached more than twenty. They were represented by the settlements of Shorsu, Yeni Yol, Uchan Agil, Uzunoba, Zirinjli and a dozen other monuments. These monuments reflect all the stages of the Calcolithic period. It should be noted that in the South Caucasus monuments related to the early stage of the Calcolithic are absent. Therefore, the calcolithic monuments of Nakhchivan have a special meaning consistently and systematically studying, as well as the definition of a new dating of the Calcolithic culture of Azerbaijan, including the South Caucasus.



Bu iş Azərbaycan Respublikasının Prezidenti Yanında Elmin İnkişafı Fondunun maaliyyə yardımı ilə yerinə yetirilir.Qrant №EİF-KETPL-2-2015-1(25)-55/47/5

NDU-nun Elmi Şurasının 30 mart 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 07).

Məqaləni çapa təqdim etdi: AMEA-nın həqiqi üzvü İ. Hacıyev

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2017, № 2 (83)**

NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2017, № 2 (83)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2017, № 2 (83)**

**RAHİM HƏSƏNOV**
*AMEA Şəki Bölməsi*
*raqimhist@mail.ru*

**UOT: 327.2**

# ÜMUMRUSİYA MÜSƏLMANLARININ MOSKVA QURULTAYINDA AZƏRBAYCAN SİYASİ XADİMLƏRİNİN ROLU

***Açar sözlər:*** *M. Ə. Rəsulzadə, Moskva qurultayı, muxtariyyat*
***Ключевые слова*** *М.Э. Расулзаде, Московский конгресс, автономии*
***Keywords.*** *Rasulzadeh, Moscow congress.autonomy*

1917-ci il Fevral inqilabından sonra Azərbaycan siyasi xadimlərinin ideoloji istiqamətləri əvvəlki dövrə nisbətən daha konkretləşməyə doğru irəliləyir. Milli mədəni tələblər-siyasi tələblərə çevrilir (1, s. 66). Ə.Topçubaşov, M.Rəsulzadə, F.Xoyski, M.Hacınski, N.Yusifbəyli kimi siyasi xadimlərin əvvəlki dövrlərdən topladıqları təcrübələr nəticəsində inqilabdan sonrakı istiqamətlərin ayırd edilməsi prosesləri sürətlənmə dövrünə qədəm qoymuş olur. İnqilabdan sonra Azərbaycan siyasi xadimlərinin ətrafında toplaşdıqları partiyalar və təşkilatların səyləri nəticəsində Qafqaz Müsəlmanlarının Qurultayının keçirilməsi və siyasi xadimlərin fikirlərində imperiyanın gələcək quruluşu haqqında konkretləşmənin formalaşmasına gətirib çıxardı. Qafqaz Müsəlmanlarının Qurultayı isə, Azərbaycan siyasi xadimlərində Ümumrusiya Müsəlmanlarının Qurultayı üçün əsas siyasi bazanı formalaşdırmış oldu. İmperiyanın başqa bölgələrində türk-müsəlman xalqlarının təşkil etdikləri qurultay və yığıncaqlardan fərqli olaraq, Qafqaz Müsəlmanlarının Qurultayında konkret fikirlər dəqiqləşdirildi. Məsələn, 1917-ci il 1-23 aprel tarixlərində Daşkənddə Türküstanlıların Qurultayı təşkil edilmiş və burada da federativ quruluş təklifi irəli sürülmüşdü. (3, s.9)Ancaq Qafqaz Müsəlmanlarının Qurultayında olduğu kimi konkret nəticə əldə edilməmişdi.(3, s.8) Bundan başqa, həm də Mərkəzi Asiya, Türküstan, Volqaboyu türk-müsəlman ziyalılarının təşkil etdikləri qurultayların əksəriyyəti dini xarakter daşıyırdı. 1917-ci il 14-17 aprel tarixlərində Ufada B.Axtemovun başçılığı ilə "Ufa ili konqresi" -ni buna misal göstərmək olar. (3, s.8). Yəni, 1917-ci il fevral inqilabından sonra Rusiyada yaşayan başqa müsəlman-türk ziyalılarından fərqli olaraq, Azərbaycanın aparıcı siyasi xadimlərində millilik dini mənafedən üstünlük təşkil edirdi. Bundan başqa Azərbaycan siyasi xadimlərinin siyasi partiya və təşkilatlarda birləşmələri, Mərkəzi Asiya Volqaboyu, Krım türklərindən daha intensiv xarakter daşıyırdı. Azərbaycan siyasi xadimlərinin imperiyadakı müsəlman xalqlarının gələcək taleyi ilə bağlı fəaliyyət istiqamətləri Moskvada keçirilən Ümumrusiya Müsəlmanlarının Qurultayında öz kuliminasiya nöqtəsinə çatdı. Bu haqda M. Ə.Rəsulzadə qeyd edirdi: "Rusiya imperiyasındakı müsəlman xalqların siyasi həyatında iki hadisə böyük rol oynamışdır: Bunlardan biri 1905-ci ildə Nijni-Novqorodda keçirilən qurultay və əsasən 1917-ci ildə təşkil edilmiş Moskva qurultayı" (8, s. 25). Nijni Novqorodda keçirilən qurultayda taktiki cəhətdən rus liberalları ilə əməkdaşlıq edildiyi halda Moskva qurultayı siyasi taktiki gedişlərdə və təkliflərdə qismən müstəqil fikirlərin irəli sürülməsi ilə müşahidə edilirdi. Bu qurultayda rus liberalizminin təsiri yox dərəcəsində idi. Həm də, Moskva qurultayı monarxiyanın ləğvindən sonra təşkil edilmişdi və əsas məqsəd demokratik cəmiyyətdə müsəlman-türk millətlərinin hansı mövqedə dayanacağını ayırd etmək idi. Bu qurultayda nisbətən rus inqilabi demokratiyası deyilən koalisiyanın ideyalarının tərəfdarları iştirak edirdilər. (8, s. 25) Ancaq bu o demək deyildi ki, müsəlman-türk nümayəndələri bu koalisiyanın siyasi ideyasının təsiri altında idilər. Azərbaycan siyasi xadimləri isə konkret olaraq müstəqil siyasi konsepsiya ilə çıxış edirdilər.

Qurultay 1917-ci il 1-7 may tarixlərində Şəmsi Əsədullayevin Moskvada müsəlmanlara hədiyyə etdiyi binada keçirildi. (1, s.301) Qurultaya 450-500 nümayəndə heyətinin gəlməsi gözlənildiyi halda 900 nəfər iştirak edirdi. Ən diqqət çəkən məsələlərindən biri iştirakçılardan 112-sinin qadın olması idi. (7, s. 259) Ə.M.Topçubaşov qeyd edirdi ki, qurultayın rəyasətində bütün siyasi axınlardan nümayəndələr yer almışdı. (12, s. 38) Qurultayın gündəliyində Müəssisələr məclisi, qadınlar, Rusiyanın gələcək idarə şəkli, məhkəmə fəaliyyəti, fəhlə, torpaq məsələləri əsas yer tuturdu. (3, s. 13) Konqresin gündəliyindəki məsələlərlə bağlı doqquz bölmə, dörd komissiya yaradılmışdı. (4, s. 303). Qurultayda Azərbaycan siyasi xadimləri Ə.M.Topçubaşov və M.Ə.Rəsulzadənin siyasi konseptual fikirlərinin realizm mövqeyi tam aşkara çıxmış oldu. Yəni, onların siyasi fikirlərində utopiyanın olmaması, siyasi romatizmin azlığı, vəziyyətə uyğun reallığı qiymətləndirmələrinə imkan verdi. Çünki Rusiya müsəlmanlarının hamısının siyasi fikirlərində eynilik mövcud deyildi. Əsasən də, ümumi istiqamət olan çar rejiminin süqutundan sonra bu xalqlarda siyasi quruluş məsələsindəki fikir ayrılıqları daha da dərinləşmişdi. Məsələn, Qafqaz, Başqırdıstan, Krım, Qırğızıstan

nümayəndələri özünüidarə hüququ istədiyi halda, tatar siyasi xadimlərinin böyük əksəriyyəti bunun əleyhinə çıxır, mədəni muxtariyyat məsələsinin üzərində dayanırdılar. (6, s. 56) M.Ə.Rəsulzadə qurultayda Qafqaz Müsəlmanlarının Qurultayında qərara alınan milli ərazi muxtariyyatı məsələsi ilə çıxış etdi. O, çıxışında "Rusiya xalq cümhuriyyəti üsulu ilə idarə edilməlidir. Mən ədəmi-mərkəziyyəti muxtariyyətlərdən təşəkkül edən bir federasiya şəklində təsəvvür edirəm" fikrini irəli sürdü (1, s. 302). M.Ə.Rəsulzadə müsəlmanların slavyanlardan sonra ikinci yerdə yeri tutduğu, onların 96 vilayət və qəzada yaşadıqları, Qafqazda, o cümlədən 10 vilayətdə yaşadıqlarını rəqəmlərlə göstərdi. (1, s. 302). Onun fikirlərinə müxalif olan qrup adından çıxış edən Əhməd Salikov isə milli mədəni parlament yaradılmalı və türk-müsəlman əhaliyə milli mədəni muxtariyyat verilməsi kimi unitarist ideyanı nümayiş etdirdi (1, s. 75). O, burada, əsasən aqrar məsələ və Ümumrusiya sosial qanunvericiliyindən müsəlman fəhlələrin bəhrələnə bilməyəcəyini əsas tuturdu. Ə.Salikovun siyasi düşüncəsində sosialist-mərkəzçiliyin olması, onu siyasi romantizmə sürükləyirdi. Yəni, o, mövcud siyasi, sosial-iqtisadi durumu qiymətləndirmirdi. Ə.Salikov imperiyadakı müsəlman-türk xalqlarının birliyinin baş tutacağına inanırdı. O, qeyd edirdi ki, Rusiyanın gələcək quruluşu məsələsində dar çərçivəli məhəlli nöqteyi- nəzərindən yanaşılmamalıdır (3, s. 131). Ancaq onu qeyd etmək lazımdır ki, Ə.Salikovun məhəlli nöqteyi-nəzəri kimi qiymətləndirdiyi ərazilər, hər hansı bir məhəllə deyil, onlardan bir çoxu əvvəllər dövlətçiliyə malik xalqların əraziləri idi. Ə. Salikovun irəli sürdüyü konsepsiyada həm də millət məsələsindən çox ümmə anlayışı qabardılırdı. Məsələn, o, öz çıxışında deyirdi: "Mənim fikrimcə müsəlmanlar bir millət olduqlarından, milli-mədəni muxtariyyat əldə etmək mümkündür" (3, s. 150). Ə.Salikovun fikrinə görə ərazi muxtariyyatı geniş müsəlman əhalinin maraqlarına uyğun deyil (3, s. 9). Yəni, sosialist mərkəzçi mövqeyində dayanan Ə.Salikov ümmə ilə milləti ayırd etmirdi. Bu isə dövlətin ərazisindəki xalqların milli şüur məsələsinin nəzərə alınmaması demək idi. Ə.Salikovun tərəfini saxlayan sosialistlər öz fikirlərini belə izah edirdilər ki, məhəlli muxtariyyat inqilabın nailiyyətlərini məhv edəcək, mədəni muxtariyyat olduqda isə müsəlmanların hüquqları rus hökuməti tərəfindən qorunacaq (11, s. 38). Rəsulzadə isə bu məsələni təkzib edərək qeyd edirdi ki, Kerenskinin vicdanına arxalanıb bütün taleyimizi Rus demokratiyasına bağlamalı deyilik, mütləq öz idarə qabiliyyətimizə inanmalıyıq və ümidini başqasına bağlayan millət, millət kimi yaşaya bilməz (3, s. 246). Ə.Salikov federalizasiya nəticəsində islam xalqlarını Avropa burjuaziyasının təyziqindən xilas etməyin çətin olacağını fakt kimi ortaya qoyurdu (11, s. 43). Onun belə bir fikri ortaya atması unitarizm ideyasından əlavə, onun sosialist ideologiyasının nümayəndəsi olmasından irəli gəlirdi. Ümumiyyətlə, XX əsrin əvvəllərindən Rusiya imperiyasında yaşayan türk-müsəlman ziyalılarının bir hissəsində (*əsasən də sosialist meyilli intellegensiyada R. H*) slavyan və müsəlmanların Avropa ekspansiyasına qarşı ayrı-ayrılıqda birləşmək fikirləri yayılmışdı. Bu ideyanın təbliği ümumdünya sosializm hərəkatında yer alan kapitalizmə qarşı konsepsiyalardan irəli gəlirdi.

M.Ə.Rəsulzadə federativ quruluş fikrindəki müddəalarında, əsasən real siyasi vəziyyət, türk-müsəlman əhalisinin ayrı-ayrılıqda ümumi siyasi fikrinin olmaması aspektindən yanaşırdı. Bunu onunla izah etmək olar ki, M.Ə.Rəsulzadə imperiya ərazisindəki türk-müsəlman əhalinin və onların öndərlərinin siyasi fikirlərindəki fərqlilikləri, coğrafi şəraiti düzgün qiymətləndirirdi. O, müsəlman-türk xalqlarının ümumi mədəniyyəti olması ilə bərabər, hər birinin ayrı-ayrılıqda öz psixologiyasının olmasını da dərk edirdi. M.Ə.Rəsulzadə ümumtürk birliyinə gəldikdə bunun yalnız mədəni məsələlərdə Milli şura yaratmaqla həll etmək olduğunu vurğulayırdı. (3,s,246). Qurultay nümayəndələrini dövlətin idarə forması məsələsində olduqca diqqətli olmağa səsləyirdi. Çıxışına başlayarkən "Millətdaşlar! Həll etmək istədiyimiz məsələ olduqca mühümdür. Şəkli idarə məsələsidir. Bu məsələyə həm insanlıq mədəniyyəti, həm də milli çıxarlar nöqteyi-nəzərindən baxılmalıdır" deməklə ərazi idarə ediməsi məsələsinin türk-müsəlman xalqları üçün ən prioritet problem olduğunu ortaya qoyurdu (3, s. 161). O, bu məsələyə yalnız milli məsələ kimi deyil, həm də xalqların fəlsəfi yönətimi və psixoloji durumu nöqteyi-nəzərindən baxırdı. M.Ə.Rəsulzadə çıxışında qeyd edirdi: "Bəzən deyirlər ki, İslam millətin təcəssümüdür, çünki türk-tatarda milləti soruşulduqda, o, "mən müsəlmanam" deyə cavab verir. Lakin bu səhv baxışdır. Xristian milləti yoxdur və elecə də İslam milləti mövcud deyildir. Bu böyük müsəlman evində türklər və ərəblər üçün ayrı-ayrı otaqlar olmalıdır" (1, s. 303). M.Ə.Rəsulzadənin irəli sürdüyü prinsip əslində onun formalaşdırdığı Azərbaycançılıq ideologiyasının tərkib hissəsi idi. Onun fikirlərində heç də dövlətin ərazisindəki türk-müsəlman xalqlarına biganəlik yox idi. O, türk dilini və türk millətinin üstünlüyünü təkzib etmirdi. Qurultayda Azərbaycan dilində çıxışa başladığı zaman bəzi nümayəndələr yerdən onun rus dilində danışmasını təkid etdikdə "Mən müsəlmanların, türklərin səadətini milli hökümət və milli mədəniyyət əsaslarına görə qurulan təşkilatlarda gördüyümdən mümkün qədər hər yerdə türk dilindən başqa bir dildə əsla qonuşmayacağam!" – demişdi (9, s. 24). Yəni, M.Ə.Rəsulzadə siyasi fəaliyyətinin bütün dövrlərində meyl etdiyi istər sosial-demokrat, istərsə də milli-liberal fikirlərini cəmləşdirmişdi. Onun ərazi muxtariyyatı məsələsini ortaya qoyduğu zaman türk xalqlarından ayrılmaq və ya onların qayğısı ilə məşğul olmamaq kimi fikirləri yox idi. Sadəcə olaraq M.Ə.Rəsulzadə və Ə.Topçubaşov dövrün real vəziyyətini qiymətləndirmiş ölkənin unitar halda qalaraq

müsəlman-türk əhaliyə yalnız mədəni-muxtariyyat verməklə bu xalqların problemlərinin həll ediləcəyinə inanmamışlar. Azərbaycan siyasi xadimləri tamamilə düzgün anlayırdılar ki, çar Rusiyası dağılsa da, istər rus liberalizmi, istərsə də rus mühafizəkar sinfində müsəlman-türk xalqlarına ikincidərəcəli xalqlar kimi baxmaq fikirləri aradan qaldırılmamışdır. Doğurdan da, həmin dövrün siyasi gedişatına diqqət yetirsək, müşahidə etmiş olarıq ki, qeyri-türk-müsəlman siyasi nümayəndələri istər siyasi istiqamətlərində, istərsə də, mətbuatdakı yazılarında müsəlman-türk xalqlarına qarşı aqressiv yanaşmışlar. Almaz İbrahimova öz əsərində doğru olaraq qeyd edir ki, Müvəqqəti Hökümət Azərbaycanda olan ikihakimiyyətlilikdən yerli burjuaziyanın hakimiyyət uğrunda mübarizəsinə qarşı istifadə edirdi (2, s. 46). Qurultayda unitaristlərin ciddi müqavimətinə baxmayaraq, imperiya tərkibindəki müsəlman-türk xalqların idarəetmə quruluşu məsələsində M.Ə.Rəsulzadənin irəli sürdüyü milli-ərazi muxtariyyatına daha çox səs verildi. (271nəfər əleyhinə, 446 nəfər lehinə) (1, s. 303). Burada bir şeyə diqqət yetimək lazımdır ki, səsvermənin nəticəsində böyük səs fərqinin olması, onu göstərirdi ki, Azərbaycan siyasi xadimlərinin irəli sürdüyü konsepsiya daha aktual və inandırıcı idi. Cəmil Həsənli haqlı olaraq qeyd edir ki, Moskva qurultayında M.Ə.Rəsulzadənin dövlət xadimi kimi talantı üzə çıxmış oldu (12, s. 38). O, lider kimi tanındı və Müəssislər məclisinə Azərbaycanla bərabər Türküstandan da nümayəndə seçildi (12, s. 55). Hətta türk federalistlərin Türküstanda açdıqları partiya təşkilatı Müsavat partiyasının proqramına tamamilə uyğunlaşdırılmışdı. (4, s. 59) Abdullah Taymas qeyd edirdi ki: “ I Ümumrusiya Müsəlman Qurultayında Rəsulzadənin çıxışı böyük əksəriyyətə təsir etdi. Rəsulzadə təkcə azərbaycanlıların deyil, Rusiyanın başqa türk xalqlarının da sevimlisinə çevrildi. (13, s. 153) Buradan məlum olur ki, Moskva qurultayından sonra Azərbaycan federalistlərinin fikirləri yalnız Qafqazda deyil, dövlətin böyük bir hissəsində özünə dəstək qazanmışdı. Ə.Salikov kimi unitaristlərin sərt müdaxiləsinə baxmayaraq, qeyd etmək lazımdır ki, Azərbaycan siyasi xadimlərinin milli-muxtariyyat məsələsi həmin dövr üçün tam aktual, romantizm və utopiyalardan daha uzaq idi. Düzdür, bəzi tarixçilər Azərbaycan liderlərinin siyasi gedişatlarını tənqid edir. Məsələn, türk tarixçisi Nadir Devlet bunu parçalanma hesab edərək, gələcəkdə Rusiya tərəfindən bu ərazilərin işğalına şərait yaradıldığını vurğulayır. (3, s. 24) Ancaq nəzərə almaq lazımdır ki, həmin dövrdə dövlətin unitar halında qalması, ərazisindəki türk-müsəlman xalqların azadlıq istəklərinə son qoymuş olacaqdı. Nadir Devlet azərbaycanlıları II Ümumrusiya Müsəlmanlarının Qurultayında iştirak etməməkdə günahlandırır. (3, s. 24) Lakin burada bir şeyi nəzərdən qaçırmaq lazım deyil ki, inqilab baş verdiyi dövrdən fərqli olaraq siyasi aura tamamilə dəyişmişdi. Bu qurultaylar və yaradılan Şuraları formal xarakterə çevrilmiş ölkədə Müvəqqəti Hökümətin siyasi xətti iflasa uğramağa başlamış bolşeviklərin siyasi fəaliyyəti isə yetərincə artmışdı. Belə bir vəziyyətdə Azərbaycan siyasi xadimlərinin atacaqları ən optimal siyasi xətti, öz ərazilərinin gələcək taleyini düşünmək təşkil edirdi. Moskva qurultayında vahid siyasi mərkəz rolunu oynamaq üçün yaradılan Ümumrusiya Müsəlman Şurasına Azərbaycan siyasi xadimlərinin daxil olmamasını bununla izah etmək olar. Yəni, Azərbaycan siyasi xadimləri anlayırdılar ki, yaradılan şura formal xarakter daşıyacaq. Bundan başqa Salikov və tərəfdarları sosialist fraksiyasından olduqları halda, qurultayda təmsil olunan Azərbaycan nümayəndə heyəti, ərazi cəhətdən mərkəzdənqaçma meyilli milli-liberal mövqedə dayanan siyasi xadimlərdən ibarət idi. Sosialistlərin ərazi-mərkəzçi mövqeyindən fərqli olaraq, M.Ə.Rəsulzadə və Ə.Topçubaşovun siyasi ideoloji mərkəzçiliyi milli dövlət mərkəzçiliyinə meyilliliyi ilə seçilirdi. Moskva qurultayından sonra 21-31 iyun tarixində Kazanda təşkil edilmiş qurultayda türk xalqlarının böyük bir hissəsi təmsil olunmadılar. Tatar burjuaziyasının nümayəndəsi Sədri Maqsudi Azərbaycan, Krım tatarları, Türküstanlıları, özlərinin tayfa maraqlarını ümumi müsəlmanların işindən üstün tutaraq qurultaya gəlməməkdə günahlandırdı. (11, s. 48) Ancaq məsələnin reallığına diqqət yetirsək, bir neçə fikirlə S.Maksudinin irəli sürdüyü ittihamları dəf etmək mümkündür. Birincisi, dövrün siyasi-ictimai vəziyyəti sosialistlərin irəli sürdüyü siyasi birlik məsələsini utopik həddən yuxarı çıxara bilməzdi. İkincisi, rus siyasətinə uyaraq demokratiyanın gözlənilməsi, yaranan şəraitdən istifadə edilməməyə gətirib çıxarırdı. Üçüncü və ən əsas məsələ siyasi mənsubiyyətindən asılı olmayaraq, qurultaydakı türk-müsəlman nümayəndələrinin böyük əksəriyyətində fərdiyyəçilik mövcud idi. Ancaq bu fərdiyyəçiliyi tayfa marağı kimi götürmək olmaz. S.Maqsudinin tayfa marağı kimi qələmə verdiyi qrup, uzun əsrlər boyu formalaşan və XX əsrin əvvəllərində yüksək milli konsepsiya ortaya qoyan Azərbaycan xalqı və onun siyasi xadimləri idi ki, 1918-ci ildə şərqdə ilk demokratik respublikanı yaratmağa müvəffəq olacaqdılar. Kazan qurultayında federalistlərin azlığından istifadə edən unitaristlər mədəni muxtariyyat məsələsinin qəbul edilməsinə nail oldular. (11, s. 48) Lakin unitaristlərin ideyalarının romantizmdən başqa bir şey olmadığı 1917-ci ilin yay aylarından ortaya çıxdı. Çünki unitaristlərin yaratdıqları Ümumrusiya Müsəlman Şurasının heç bir əhəmiyyətə malik olmadığı aşkar edildi. Şura yalnız kağız üzərində fəaliyyət göstərirdi. 1917-ci ilin yay aylarının sonunda bu, özünü tam aydın biruzə verdi. (11, s. 47) Bunun əsas səbəbi kimi türk-müsəlman xalqlarının eyni soykökə və eyni dinə məxsus olmalarına baxmayaraq onların, fərqli coğrafi mühitə, fərqli iqtisadi duruma, fərqli psixologiyaya malik olması və bunun unitaristlər tərəfindən yetərincə dəyərləndirilməməsi kimi göstərmək olar. Hətta sərt mövqedə duran,

federalistləri tənqid atəşinə tutan Ə.Salikov da bir neçə ay sonra unitarist mövqeyindən əl çəkdi. (11, s. 49) Azərbaycan liderlərinin tutduqları siyasi xətt isə reallığı əks etdirdiyi üçün müsəlman-türk xalqların böyük əksəriyyəti tərəfindən dəstəklənmiş oldu. Hətta 1917-ci il 12 avqustda Moskvada Kerenskinin rəhbərliyi ilə Müvəqqəti hökümətin təşkil etdiyi müşavirədə təmsil olunan müsəlman siyasi xadimlər Ə.M.Topçubaşovu çıxış üçün özlərinin nümayəndəsi seçdilər (5).

## ƏDƏBİYYAT


1. Azərbaycan tarixi, VII cilddə, V cild, Bakı, 2008, 696 s.
2. İbrahimova Almaz, Azərbaycanda ictimai-siyasi qüvvələrin mübarizəsi, Bakı, 2012, 311 s.
3. İhsan İlqar, Rusiyada birinci Müslüman konqresi, Ankara, 1990, 223 s.
4. İsxakov S.M. Rossiyiskiye musulmane i revolyutsiya (vesna 1917q- leto 1918 q), Moskva, 2004, 190 s.
5. Kaspi, 1917, 24 avqust
6. Məmmədzadə, M Milli Azərbaycan hərəkatı, Azerbaycan Kültür derneyi yayınları, 1991, 295 s.
7. Nadir Devlet, Rusiya Türklerinin Milli mücadile Tarihi, Ankara, Türk Tarih Kuumu Basımevi, 1999, 330 s.
8. Rəsulzadə. M. Ə. Azərbaycanda Milli hərəkat, Bakı, Elm, 2009, 202 s.
9. Yaqublu Nəsiman, Azərbaycan Milli İstiqlal Mübarizəsi və M.Ə.Rəsulzadə, Bakı, 1999, 200 s.
10. Балаев Айдын, Азербайджанское национальное движение в 1917-1918 гг. ЕЛМ, БАКУ – 1998, 311 s.
11. Балаев Айдын, Мамед Амин Расулзаде (1884-1955). Москва, изд. Флинта, 2009, 250 s.
12. Гасанлы Джамил, Русская революция и Азербайджан Трудный путь k независимости (1917–1920). Москва, Издательство Флинта, 2011, 303 s.
13. Турбанов Ш. Джамаладин Афгани и туркский мир, Баку, 1990, 235 s.


## ABSTRACT


**Rahim Hasanov**

**The role of the Azerbaijan political leaders in Russian congress of muslims in Moscow**

After the February Revolution of 1917 as a result of the overthrow of the monarchy the national liberation movement of the Russian Empire has risen up. There was an important change in the fighting form of the people and the democratic forces who had combat the reign of the Romanov in the country at one time. Now the Russian Empire and its people were forced to think about the new management form of government. Since the days of the monarchy the turkish-muslim people had been the most oppressed people and they made an effort to develop a democratic Russia. However,there were differences of opinion in the management of the Turkish-Muslim population.A number of leaders of the Muslim-Turkish population wanted to satisfy only cultural autonomy within Russia, some were in the position on decentralization. The azerbaijani politicians were also standing position on decentralization. All-Russian Congress of Muslims in Moscow was a special significance on the issue of Russia’s future management form. The position of the politicians, their political views, nominated essence of political concepts had been reflected in Moscow Congress.


## РЕЗЮМЕ


**Рагим Гасанов**

**Роль политических лидеров всероссийского съезда мусульман в Москве**

После февральской революции 1917 года в результате развала монархии в национальном свободном движении Российской империи произошел большой размах. В свое время в деятельности демократических сил против династий Романовых и у народов, проживающих, на территории страны в форме борьбы состоялось коренное изменение.

Народы находившиеся, в составе Российского империализма вынуждены были думать о новом управлении страны. Во время монархии тюрко-мусульманское население являющееся, самым подавленным стремилось к демократическому развитию. Но у турко – мусульманского населения устройстве-управлении существовало разница во мнениях. Некоторые передовики тюркского населения в составе России хотели ограничиваться культурной автономией, а некоторые изображали положение децентрализации. Азербайджанские политические деятели тоже стояли в положении децентрализации.

Московский съезд всероссийского мусульманства 1917-го года по вопросу о форме правления будущего России, имело большое значение. В статье отражается положение политических деятелей в Московском съезде их политические взгляды, суть выдвинутых политических концепций.



NDU-nun Elmi Şurasının 30 mart 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 07).

Məqaləni çapa təqdim etdi: AMEA-nın müxbir üzvü Z.Şahverdiyev

**ARZU ABDULLAYEV**
*Naxçıvan Dövlət Universiteti*
*a.ordubadi@yahoo.com*

**UOT: 327.2; 94(479.24)**

# AZƏRBAYCANIN RUSİYA İLƏ İRAN ARASINDA BÖLÜŞDÜRÜLMƏSİ, XARİCİ DÖVLƏTLƏRİN PLANLARI VƏ OSMANLI DÖVLƏTİNİN MÖVQEYİ

***Açar sözlər:*** *Cənubi Qafqaz, müqavilə, imperiya, sülh, plan, siyasət, münaqişə ocağı, Şərqi Gürcüstan, strategiya*
***Key words:*** *Empire, plan, politics, conflict, Eastern Georgia, the South Caucasus, peace, strategy*
***Ключевые слова:*** *Империя, мира, план, политики, очагом конфликтов, Восточной Грузии южному Кавказу, контракт, стратегию*

XVIII yüzilliyin sonunda iri dövlətlər Cənubi Qafqaza diqqəti bir müddət zəiflətdi. Bu həmin dövlətlərin diqqətinin digər problemlərə yönəlməsi ilə bağlı idi. Osmanlı imperiyası bu dövrdə özünü Napoleon Fransasının təcavüzündən qorumaq barədə düşünürdü və hətta yardım üçün köhnə düşməni Rusiyaya da müraciət etmişdi. Rusiyanın da başı Avropa müharibələrinə qarışmışdı. 1798-ci ildə fransız generalı Napoleon Bonapart Osmanlı imperiyasına daxil olan Misirə hərbi səfər etdiyi zaman Fransanın Yaxın Şərqdə möhkəmlənməsini istəməyən rus çarı Pavel Türkiyə ilə ittifaqa girdi. Osmanlı hökuməti isə Cənubi Qafqazda Rusiya hakimiyyətinin genişlənməsini təşvişlə izləyirdi və bölgədəki hər bir hadisə haqqında ətraflı məlumat istəyirdi. Mahmud Təyyar paşanın 1804-cü il 9 iyul tarixli təhrirində deyilirdi ki, Abbas Mirzə 40-50 min nəfərlik ordu ilə Tiflisi və İrəvanı tutmaq üçün İrəvan ətrafına gəlib qalanı mühasirə etdiyini bildirmiş və elatların Türkiyəyə keçməsinə imkan verilməməsi xahişi ilə Niftalı adlı elçisini Mahmud Təyyar paşanın yanına göndəribmiş. Qars mühafizi Mahmud paşa bildirib ki, Abbas Mirzə Osmanlı dövlətindən üz döndərmiş Şərif paşanı tabeliyində olan 10 min nəfərə qədər süvari ilə və bəzi başqa xanları Tiflis tərəfə göndəribmiş. Rus qoşunları gəlib Şuragöl mahalında iranlıların min nəfərə qədər süvarisini darmadağın edib. Bir osmanlı casusunun verdiyi məlumata görə, iranlılardan cəmi 500- 600 nəfəri salamat çıxıb, bütün top və hərbi sursatı itiriblər. Rus komandanlığı İrəvanlı Məhəmməd xana yardım etmək, həm də iranlıları qəti məğlubiyyətə uğratmaq üçün hərəkətə keçib, İrəvanı mühasirədə saxlayan Abbas Mirzənin özünü mühasirəyə alıbmış (2. s.13). Osmanlı hökuməti sərhəd paşalarına əmr etmişdi ki, elatları Abbas Mirzəyə qaytarsınlar və onları Osmanlı imperiyası torpaqlarına buraxmasınlar. Rus komandanı bir nəfəri Qars mühafizi Mahmud paşanın yanına göndərmiş, ruslar İrəvanı və İranı zəbt edincəyə qədər elatları bir tərəfə verməyib, Osmanlı imperiyası hüdudlarında saxlamağı təklif etmişdi. Mahmud Təyyar paşa hesab edirdi ki, iranlıların ruslara qarşı müqavimət göstərə bilməyəcəyi aydındır və buna görə də Rusiya ilə dost münasibətləri saxlamaq sərfəlidir. O, Rusiya komandanlığının yanına Əhməd Vasim Əfəndini göndərməyi təklif edirdi (3 s. 63). Mənbələrdən məlum olur ki, 1805-ci ilə kimi Osmanlı hökuməti hələ Fətəli xanı İran şahı kimi tanımırmış. Baş vəzir 1805-ci ildə Sultana yazdığı təhrirində Fətəli xanın İstanbula elçi göndərib onu şah kimi tanımağı xahiş etdiyini bildirirdi. Vəzir bunu məqsədəuyğun hesab etməyərək, İrana elçi göndərərkən məktubda Fətəli xanı şah adlandırmamağı təklif edirdi. 1811-12- ci illərdə Osmanlı hökuməti tərəfindən İrana göndərilən elçi Yasinzadənin şah hökuməti ilə danışıqlarında bir sıra uğurlar qazanıldığından İran tərəfi də Mirzə Məhəmməd xanı İstanbula elçi kimi göndərməyi qərara almışdı. Ayrı bir məlumatda isə Mirzə Məhəmməd xanın 1806-07-ci il tarixdə İstanbula göndərildiyi qeyd olunur. O dövrün Osmanlı mənbələrində Azərbaycan xalqının rus işğalına qarşı mübarizəsi haqqında məlumat var. Ərzurum valisi Osman paşanın 1808-ci il 27 apreldə sədarətə göndərdiyi məlumatda deyilirdi ki, farslardan qaçmış Şamaxılı Mustafa xan Hüd dağı deyilən yerdə gizlənirmiş. Xoylu Cəfərqulu xan yanındakı rus əsgərləri ilə onun üzərinə getmişdir. Lakin Xanbutay və bəzi başqa dağıstanlı hakimlərdən yardım alan Mustafa xan onu məğlub edib geriyə qaçmağa məcbur etmişdir. Tiflisdə olan rus generalı Qudoviç bundan xəbər tutub Cəfərqulu xanın yanına daha 2 min rus əsgəri göndərmişdir. Abbas Mirzə 1810-cü ildə Osmanlı hökumətinə Rusiyaya qarşı ittifaq bağlamağı təklif etmişdi. Osmanlı hökuməti təklifi qəbul etmiş və birgə hərəkətə başlamışdı. Ancaq Şərq sərəsgəri Emin paşaya qarşı sui-qəsd nəticəsində bu təşəbbüs uğursuzluqla nəticələnmişdi. Osmanlı dövləti nəinki İranla rəsmi ittifaq bağlamamış, həm də bölgədə olan sərkərdələri arasındakı anlaşılmazlıqlar üzündən böyük bir hərbi səfər də təşkil etməmişdir. Doğrudur mənbələrdən görünür ki, 1806-12-ci illər müharibəsi dövründə Osmanlı hökuməti Rusiya ilə müharibə üçün «Azərbaycan səhrası»na da əsgər toplayıbmış. Müharibə bitdiyindən həmin qoşunu tərxis etməkdən söhbət gedirdi (3 s. 63). Osmanlı hökuməti ona sadiq Qafqaz sakinlərinin rus qoşunlarına qarşı mübarizəsini dəstəkləyərək böyük torpaq itkisinə məruz qalmadan Buxarest (1812) sülhünü imzalamışdı. Bunun sayəsində ruslar bir yandan Napoleonun hücumu ərəfəsində osmanlılarla müharibəni dayandırmağa nail

olmuş, digər tərəfdən Şimali Azərbaycanı istila etmək üçün hərəkət sərbəstliyi imkanı qazanmışlar. Xanlıqlara açıq hərbi yardım göstərmək iqtidarında olmayan Osmanlı hökuməti onlara mənəvi dəstək göstərməklə, onlarla diplomatik əlaqə saxlamaqla kifayətlənirdi. 1813-cü il 13 yanvar tarixli xətti-hümayunda Dağıstanlı Surxay xana, Dərbənd (Quba) hakimi Şeyxəli xana, Şəki hakimi Səlim xana və sair xanlara Məkkə, Mədinə və Ciddənin xaricilərdən (vəhabilərdən) geri alınması haqqında müjdə verilirdi. 1813-cü il 13 mart tarixli xətti hümayunda Surxay xana, Şeyxəli xana və başqa xanlara yeni Sultanın taxta çıxması münasibətilə Türkiyədə şənlik mərasimləri keçirildiyi xəbər verilir, Dağıstan və Azərbaycanda da bu cür mərasimlərin keçirilməsinin gərəkliliyi qeyd edilirdi. 1813-cü il 13 yanvar tarixli digər bir xətti-hümayunda Surxay xan, Şeyxəli xan, Səlim xan və digər xanlara Sultanın oğlu şahzadə Əbdülhəmidin doğulması barədə xəbər verilirdi. 1813-cü il 29 iyun tarixli xətti-humayunda Məkkə, Mədinə, Ciddə və Taif şəhərlərinin Misir valisi Məhəmməd Əli paşa və oğlu Tosun Əhməd paşa tərəfindən azad oluması ilə əlaqədar Türkiyədə şənliklər keçirilməsi barədə xəbər verilir, Azərbaycan və Dağıstanda da bu cür şənliklərin keçirilməsi arzu odlunurdu. İrana qalib gələn Rusiya onu 1813-cü il oktyabrın 12-də (23) Gülüstan sülh müqaviləsini imzalamağa məcbur etdi. Naxçıvan və İrəvan xanlıqları istisna olmaqla, bütün Şimali Azərbaycan xanlıqları Rusiyaya ilhaq edildi. Rusiyanın əsarətini qəbul etməyən bəzi xanlar Türkiyəyə və İrana mühacirət etdilər. Şəkili Səlim xan da Türkiyəyə keçdi. Burada onun üçün lazımi şərait yaradılmış, Ərzurum kömrükxanasından ayda 5 kisə ağça məvacib təyin olunmuş və Ankarada yerləşdirilmişdi. Səlim xan 1822-ci ildə Sultana ərizə yazaraq bu məvacibin onun xərclərini ödəmədiyini, Ankaranın iqliminin ona yaxşı təsir etmədiyini bildirmiş, məvacibinin artırılmasını, yaxud həmin məvaciblə yanaşı, ona Bursada çiftlik ayrılmaqla oraya köçməsinə icazə verilməsini xahiş etmiş, lakin müsbət cavab almamışdı. XIX yüzilin 20-ci illərinin əvvəllərində Osmanlı hakimiyyət orqanları ilə İranda hakimiyyətini möhkəmləndirmiş Azərbaycan türkü olan Qacarlar sülaləsi arasında münasibətlər yenidən kəskinləşdi. Bunun başlıca səbəbi bəzi köçəri tayfaların gah bu dövlətin ərazisindən digərinin, gah da əks tərəfə keçməsi olmuşdu. 1820-21-ci illərdə Ərzurum hakimi Osman paşa xahiş edirdi ki, İrəvan və Xoy qoşunları Bəyazidə dörd-beş saatlıq məsafədə sərhəddi keçəcəkləri təqdirdə ona kömək göstərilsin. İrəvanlı Hüseyn xan 1820-21-ci ildə Haydaranlı aşirətinin başçısı Qasım ağaya yazırdı ki, onun Osmanlı ərazisinə keçib orada qalması iki dövlət arasında ixtilafa və aşirətin fəlakətinə səbəb olacaq. 1820-21-ci illərə aid bir mənbədə deyilirdi ki, Haydaranlı tayfası adətən Osmanlı imperiyası ərazisində yaşayıb və bəzən də İran ərazisinə keçib, indi həmin tayfanın İrana qaytarılması haqqında iddia yersizdir. Mənbədən aydın olur ki, Haydaranlı aşirəti əvvəllər Osmanlı hüdudlarında yaşamışdır, həm də sünni məzhəblidir. Bu dəfə qışlamaq üçün Türkiyəyə getdikləri zaman İrəvan hakimi Hüseyn xanın aşirət rəisi Qasım ağaya məktub göndərib İrəvana (yaxud İrana) qayıtmalarını tələb etməsi düzgün deyil. Həmin ilə aid digər bir sənəddə deyilirdi ki, Haydaranlı aşirətinin sərhəddi keçib Muş tərəfdə məskən salması qanunidir və İranın onları zorla tələb etməsi düzgün deyil. Baş vəzirdən soruşulurdu ki, şayəd İran əsgərləri sərhədi keçərlərsə, tayfa müdafiə olunsun, yoxsa yox. 1820-21-ci illlərdə Ərzurum hakimi Muş hakimi Səlim paşaya məktubunda xəbər verirdi ki, İrəvanlı Hüseyn xan qoşun toplayaraq Osmanlı ərazisinə hücuma hazırlaşır və Səlim paşanı aradan götürmək istəyir. Qeyd edək ki, Rusiya diplomatiyası da hər vəchlə Osmanlı imperiyası ilə İranı toqquşdurmağa çalışırdı. Osmanlı-İran sərhəd münaqişəsi dərinləşərək hərbi toqquşmaya çevrilmiş və yalnız 1823-cü ildə sülh bağlanması ilə nəticələnmişdi. Rusiya yalnız Şimali Azərbaycan torpaqlarının ilhaqı ilə kifayətlənmək istəmir, ölkənin cənub torpaqlarını da zəbt etməyə hazırlaşırdı. Eyni zamanda İran şah sarayı da Arazdan şimaldakı torpaqlara iddiasından əl çəkmirdi. İngiltərə və Fransa diplomatları da yardım vədləri verir, İranı Rusiyaya qarşı yeni müharibəyə təhrik edirdilər. Hadisələrin inkişafı 1826-cı ildə ikinci Rusiya-İran müharibəsinin başlanmasına gətirib çıxartdı. Rusiya qoşunları əsas zərbəni Naxçıvan və İrəvan xanlıqlarına yönəltdilər. İrəvanlı Məhəmməd xanın qardaşı mühafizi olduğu Abbasabad qalasını ruslara təslim etdi. İran Rusiya ilə müharibədə osmanlılardan yardım almağa çalışırdı. Lakin yenidən Rusiya ilə toqquşmaqdan qorxan Osmanlı sarayı İrana yardım göstərməyə ehtiyat edirdi. Axısqa mühafizi Həkki paşa Qalib paşaya yazırdı ki, İran şahı və şahzadələr böyük miqdarda qoşunla Xoy tərəfə gəlmişlər. Osmanlı nümayəndəsi Əndəruni Xəlil ağa İrəvanlı Hüseyn xanın yanına göndərilibmiş. O, şahzadə Abbas Mirzə ilə rastlaşıb. Şahzadə İrəvanlı Hacı Məhəmməd bəy adlı bir şəxsə məktub verərək onu Xəlil ağa ilə birlikdə Axısqa mühafizi İsmayıl Həkki paşanın yanına göndərib. Məktubda deyilirdi ki, İran ruslara qarşı müharibədə Osmanlıdan yardım istəyir, əvəz olaraq Kartli, Kaxeti, Qori və Zalkini aldıqdan sonra osmanlılara verməyi vəd edir. Həkki paşa İran elçisinə bildirmişdi: O təəccüblənir ki, İran hələ Üçkilsə, Abadan, Naxçıvan və Abbasabadı geri almamış bu yerlərədən yüz saatlıq məsafədə olan ərazilər haqqında danışır. Həkki paşa Ərzurum hakimi Qalib paşaya bildirirdi ki, İranın məqsədi bu yolla Osmanlı ilə Rusiya arasındakı sülhün pozulmasıdır. Axısqa mühafizi İsmayıl Həkkinin Sultana göndərdiyi 1827-ci il 7 dekabr tarixli qaiməsində bildirilirdi ki, İrəvan sərdarı və qardaşı Həsən xan Abadan qalasını mühasirə etmiş, oradakı ruslar müqavimət göstərə bilməyib Qarakilsə tərəfə çəkilmişlər. İranlılar burada da onların üzərinə hücuma keçərək onları qılıncdan keçirmiş, 700 tərəkəmə elini qaldırıb İrəvan tərəfə göndərmişlər. Sərdar Gümrü qəzasından 4 qəryəni İran tərəfə köçürmüş, 4 qəryənin sakinlərini isə özü aparıb

Qars ətrafındakı Maqazberd bəyi Şərif ağaya vermişdir. O aralarda Gümrüdən başqa heç yerdə adam qalmamışdır. Şahzadə külli əsgərlə Tiflis üzərinə getmək niyyətindədir. Baban və Xoy sancaqları hakimi Mahmud paşa Bağdad valisi Davud paşaya məktubunda bildirmişdi ki, Rusiya qoşunlarının Qafqazdakı baş komandanı gen. Paskeviç Abbas Mirzənin Xoyda topladığı əsgərləri tərxis etməsindən xəbər tutan kimi İrəvan üzərinə hərəkət etmiş və bu qalanın müdafiəsinə məsul olunmuş Marağalı Əhməd xanın oğlu Cəfərqulu xanla sövdələşib şəhəri almış, sonra qoşununu Təbriz üzərinə yeritmişdir. Bağdad valisi Davud paşanın 1827-ci il 8 dekabr tarixli təhrirində deyilirdi: Baban sancağı hakimi rus qoşunlarının Təbrizi zəbt etdiyi xəbərini vermişdir. Həmsərhəd Osmanlı paşaları rusların Süleymaniyyə, Kərkük və Ərdəbilə də təcavüz edəcəyindən narahat olmuşdular. Sovucbulaq hakimi Abdulla xan rusların Sovucbulağı zəbt edəcəyindən qorxaraq Osmanlı dövlətinə qaçmış və vilayətin Osmanlı ərazilərinə birləşdirilməsini xahiş etmişdi. Osmanlı hakimiyyət orqanları bu xahişin yerinə yetirilməsindən heç bir fayda olmayacağını, əksinə lazımsız söz-söhbətə səbəb olacağını güman edərək rədd cavabı vermişdi. Rusiya-İran hərbi əməliyyatlarının Osmanlı sərhədlərinə yaxınlaşması bu dövlətin vəzifəli şəxslərini çox narahat edirdi. Ərzurum valisi Qalib paşa 1827-ci il 12 dekabr tarixli qaiməsində İran və Azərbaycan əhalisinin Abbas Mirzənin və digər xanların zülmünə məruz qaldıqlarını xəbər verir, rusların qış aylarında Çıldıra hücum edə biləcəyi ehtimalına qarşı Ərdəhan, Ərzurum, Qars və Bəyazid qalalarına 6-7 min nəfər əsgər, hərbi sursat və top göndərildiyini xəbər verirdi. İkinci Rusiya-İran müharibəsində də İran məğlubiyyətə uğradı. 1828-ci il fevralın 11 (22)-də Təbrizin yaxınlığındakı Türkmənçay kəndində bağlanmış sülh müqaviləsinə əsasən Naxçıvan və İrəvan xanlıqları da Rusiyaya ilhaq edildi. Azərbaycan parçalandı, ölkənin şimalı Rusiya, cənubu isə İran əsarəti altına düşdü. Bir çox azərbaycanlılar nicat yolunu etnik cahətdən yaxın Osmanlı dövlətinə birləşməkdə görürdülər. Qarapapaq elindən olan Molla Mustafa adlı bir şəxs 1828-ci ilin mayın 15-də Axalkalaka gəlmiş, yerli Osmanlı hakimiyyət orqanlarına bildirmişdi ki, gen. Paskeviç Gürcüstan hüdudlarında yaşayan müsəlman feodallarını Tiflisə yığıb onlardan rus çarına sədaqət tələb etsə və bu sədaqəti təmin etmək üçün onların ailə üzvlərindən və qohumlarından girovlar götürsə də, müsəlmanların çoxusu Rusiyadan üz çevirmişdir. Yalnız osmanlılar hələlik Rusiya ilə hərbə başlamadığından onlar öz hisslərini açıq bildirmirlər. Osmanlı hökuməti Zalkı və Gümrü tərəfə yürüş təşkil edərsə, Gürcüstan ərazisində yaşayan müsəlmanlar Osmanlı qoşunlarına bu yerləri almağa kömək edəcəklərini, əgər bu mümkün olmazsa, Axısqa üzərinə hücum edəcəklərini bildirirdilər (9 s. 54). Osmanlı dövləti Qafqazda nə qədər ehtiyatla hərəkət edərək rus işğalına qarşı ölüm-dirim mübarizəsi aparan Azərbaycan türklərinə açıq hərbi yardımdan çəkinsə də Rusiya ilə yeni hərbdən qaça bilmədi. 1828-1829-cü illərdə yeni Rusiya-Osmanlı müharibəsi baş verdi. Ağır böhran vəziyyətində olan Osmanlı dövləti yenə məğlubiyyətə uğradı və 1829-cü ildə bağlanmış sülh müqaviləsinə görə, Cənubi Qafqazın şərq hissəsinin, o cümlədən Şimali Azərbaycanın Rusiya tərəfindən ilhaqını qəbul etdi. Beləliklə, 1792-ci ildən Osmanlı imperiyasının Qafqaz siyasətində yenidən, özü də əsaslı dəyişiklik baş verdi. Yeni müharibədə də qalib gələn Rusiya bağladığı sülh müqaviləsi ilə Osmanlı dövlətini Cənubi Qafqazda fəal siyasət yeritməkdən məhrum etdi. İndi bu regionda hökmranlıq uğrunda mübarizəyə yeni bir namizəd – Ağa Məhəmməd xan Qacar qoşulur. O, 1791-ci ildə Təbrizə doğru hərəkət edərək, Cənubi Azərbaycan xanlarını özündən asılı vəziyyətə salmış, sonra nəzərlərini Şimali Azərbaycana və Şərqi Gürcüstana yönəltmişdi. Yassı müqaviləsinə görə rəsmən bu ərazilərə iddialarından əl çəkməli olan Osmanlı hökuməti bu zaman bir növ düşməni başqasının əli ilə vurmaq siyasəti yeridərək, Ağa Məhəmməd xanın Cənubi Qafqazın şərq hissəsini tutmaq niyyətinə müsbət yanaşır, hətta ona müəyyən ölçüdə maddi yardım da göstərirdi. Eyni zamanda Şimali Azərbaycan xanları da Ağa Məhəmməd xana qarşı mübarizədə Osmanlı dövlətindən yardım xahiş edirdilər. Çətin seçim qarşısında qalan Osmanlı dövləti qəti mövqe tuta bilməyərək, nə xanların yardım istəklərinə müsbət cavab verdi, nə də Ağa Məhəmmədi ruslara qarşı müharibədə dəstəklədi. Lakin Osmanlı dövləti Azərbaycan əhalisinin Rusiya işğalçılarına qarşı mübarizəsinə tamamilə etinasız da qalmamışdı. Belə ki, Osmanlı hökumətindən alınan yardım hesabına müqavimət dəstələri təşkil olunmuş, və onlar 1796-cı ildə Qubada ruslara qarşı çıxmışdı. XVIII yüzilliyin sonlarında nə Rusiya, nə də İran Azərbaycanda möhkəmlənə bilmişdir. II Yekaterina öldükdən sonra taxta çıxan oğlu Pavel bir sıra səbəblərə görə rus qoşunlarını geri çağırmışdı. 1797-ci ildə Ağa Məhəmməd Şimali Azərbaycana ikinci yürüş təşkil edib Şuşanı alsa da, suiqəsd qurbanı olmuş və İran qoşunları pozulub Azərbaycandan qaçmışdı. Əsrin lap sonunda iri dövlətlərin başı daxili problemlərinə və daha vacib xarici məsələlərə qarışdığı üçün onların Azərbaycanla bağlı planlarına diqqətləri müvəqqəti olaraq zəifləmişdi. Ancaq tezliklə Azərbaycan yenə iri dövlətlərin, ilk növbədə Rusiyanın və İranın diqqət mərkəzinə düşmüş, 1801-ci ildə Şərqi Gürcüstanı ilhaq edən Rusiya qəti olaraq Şimali Azərbaycanı da işğal etmək işinə başlamışdı. Daxili böhran keçirən Osmanlı imperiyası nəinki Rusiyanın Azərbaycana həmləsinə müqavimət göstərmək iqtidarında olmamış, hətta bəzi hallarda sərhədyanı paşaların qiyamlarını yatırmaqda rus komandirlərindən yardım istəmişdi. İran daha fəal siyasət yürütməyə çalışmış və 1804-cü ildə Rusiya ilə müharibəyə başlamışdı. Eyni zamanda Osmanlı hökuməti də ciddi-cəhdlə göstərdiyi səylərinə baxmayaraq, Rusiya ilə müharibədən qaçına bilməmişdi. Eyni düşmənə qarşı mübarizə aparmaq şəraiti İran və Osmanlı dövlətlərinin yaxınlaşması üçün imkan yaratsa da,

hətta iki dövlətin birgə hərbi əməliyyatlarını təşkil etməyə cəhd göstərilsə də onlar arasında ümumi düşmənə qarşı birgə fəaliyyət əməli olaraq baş tutmamışdı. Nəticədə həm Osmanlı imperiyası, həm də İran Rusiyaya yenilmiş və hər ikisi Rusiyanın Naxçıvan və İrəvan xanlıqları istisna olmaqla, bütün Şimali Azərbaycan xanlıqlarını ilhaq etməsi ilə barışmalı olmuşdu. Osmanlı-İran yaxınlaşması uzun sürməmiş, bu zaman onların arasında İrandan asılı olan İrəvan xanlığındakı elatların gah bu, gah o biri dövlətin ərazisinə keçməsi ilə bağlı yaranmış ixtilaf dərinləşərək 1822-1823-cü illərdə Osmanlı-İran hərbi münaqişəsinə çevrilmişdi. 1826-1828-ci illər Rusiya-İran müharibəsi zamanı vəliəhd Abbas Mirzə Şərqi Gürcüstanı osmanlılara güzəştə getdiyini bildirib yardım xahiş etsə də, Rusiya ilə yeni müharibə başlamağa iqtidarı olmayan Osmanlı hökuməti bu xahişi cavabsız qoymuşdu. Lakin Osmanlı dövləti Rusiya ilə müharibəsiz keçinməyi mümkün edə bilməmiş, yenə də məğlubiyyətə uğrayaraq Cənubi Qafqaza təsir göstərməyə imkan verən hüquqlarından tamamilə əl çəkməyə məcbur olmuşdu.

**ƏDƏBİYYAT**


1. T. Mustafazadə. XVIII yüzillik – XIX yüzilliyin əvvəllərində Osmanlı –Azərbaycan münasibətləri. B. 2002
2. K.Şükürov. Türkmənçay, Tarixi xronika,
3. BOA, Hatt-ı Hümayun, nr.6702-B; Belgeler İ c., nr.63,.
4. Azərbaycan tarixi, VII cilddə, IV cild.. B. 2007
5. BOA, Name-i Hümayun Defteri, nr.10,s.150. Belgeler, 1 c., nr.68,


## ABSTRACT


**Arzu Abdullayev**

**The distribution of Azerbaijan between Russia and Iran, the plans of foreign countries and the position of the Ottoman state**

The end of the XVIII century major states weakened the attention to the Southern Caucasus. But Ottoman Empire in its turn watched Russia reign in Southern Caucasus and wanted to get information about every event in this region. Russia which won Iran made Caucasus sign Gulustan agreement. Except Nakhcivan and Iravan khanates, all Northen Azerbaijan khanates annex to Russia.The second War between Russia and Iran, Iran was defeated. As the peace agreement which was signed on 11$^{th}$ (22) of February in 1828 near Tabriz in Turkmanchay village Nakhcivan and Iravan annex to Russia.Azerbaijan spilited, Northern part bondaged Russia, but sorhern but bondaged İran.


## РЕЗЮМЕ


**Арзу Абдуллаев**

**Распределение Азербайджана между Россией и Ираном, планы зарубежных стран и позиция Османской империи**

В конце XVIII-го столетия на некоторое время влияние крупных держав на Северный Кавказ было ослаблено. А правительство Османлы с тревогой следило как Россия расширяет свою власть на Южном Кавказе и требовало информацию о любых событиях, происходящих в этом регионе. Россия, одержав победу над Ираном, принудила его в октябре 1813-го года подписать Гюлюстанский мирный договор. За исключением Нахчыванского и Ираванского ханства, ханства Северного Азербайджана были присоеденены к России. Во второй Российско-Иранской войне Иран снова потерпел поражение. 11-го февраля 1828-го года в селе Туркменчай вблизи Тебриза был заключён договор, в котором Нахчыван и Ираванское ханство было присоеденено к России. Азербайджан был расколот: север был передан России, а юг попал под влияние Ирана.



NDU-nun Elmi Şurasının 30 mart 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 07).

Məqaləni çapa təqdim etdi: AMEA-nın müxbir üzvü Z.Şahverdiyev

**YEGANƏ EYVAZOVA**
*Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti*
*eyvazova.yegane@mail.ru*

**UOT: 069**

# "TARİX ABİDƏSİ" FENOMENİNİN MUZEYŞÜNASLIQ ASPEKTLƏRİ

***Açar sözlər:***abidə, muzey, dəyər, muzeyşünaslıq,tarix, tarixi mənbə
***Ключевые слова:*** памятник, музей, ценность, музееведение, история, исторический источник
***Key words:***monument, museum, value, museology, history, historical source

XX əsrin 70-80-cı illərində abidələrin nəzəri aspektlərinin öyrənilməsi ilə əlaqədar fundamental da olmasa, bir-neçə tarixşünaslıq üzrə elmi məqalənin predmetini "tarix abidəsi" anlayışının formalaşma probleminin araşdırılması təşkil etmişdi. Bu problemin ilk tədqiqatçıları V.L.Yeqorov (10.) və L.İ.Zozulya (11.) məşğul olmuşlar. Xüsusilə, "tarix abidəsi" fenomeninin muzeyşünaslıq kontekstində təhlili bu fenomenə "tarixi mənbə" müstəvisindən yanaşmağı zəruri edir. Obyektin "tarix abidəsi" paradiqmasında dərki onun tarixi mənbə kimi hansı komponentlərdən təşkil olunduğunun araşdırılmasını aktual edir. Tipologiyasından asılı olmayaraq bütün abidələrin keçmiş fəaliyyətin məhsulu olması səbəbindən "tarixi" adlandırılmasının mümkünlüyü haqqında muzeyşünas, tarixşünas, abidəşünasların irəli sürdükləri tezis dəstəklənir. Tədqiqatçı V.L.Yeqorov problemin bu aspektini aşağıdakı mülahizəsi ilə ifadə etmişdi:" ...istənilən tarix abidəsi-tamhüquqlu tarixi mənbədir. O, təkcə konkret hadisə ilə bağlı deyil, həm də özündə həmin hadisənin tarixi qanunauyğunluğunu göstərən əsas səciyyələrdən birini daşıyır" (10, s.100). Buna misal olaraq müəllif Borodino çölünə təkcə döyüşlərin getdiyi tarixi abidə-məkan kimi deyil, həm də Kutuzovun taktiki və strateji fikirlərinin öyrənilməsinin mənbəyi kimi yanaşmaqla tarix abidəsinin mənbə kimi səciyyəsi məsələsinə aydınlıq gətirir. Bunun üçün "tarixi mənbə" fenomeninin tarixşünaslıq aspektlərinə diqqət yetirək. "Tarixi mənbə" dedikdə, tarixi informasiyanı özündə daşıyan obyekt nəzərdə tutulur. Tarixi mənbələrin nəzəriyyəsi, tarixi, həmçinin onların öyrənilməsi metodikasını işləyib hazırlayan mənbəşünaslıq elmi də "tarix abidəsi" fenomeninin araşdırılması baxımından əsaslı rola malikdir. Mənbəşünaslıq, təkcə tarixi mənbədə cəmlənmiş informasiyanı deyil, həm də bunu tarixi fakt kimi (zamanı, mühiti, yaradıcıları və s.) tədqiq edir. Bununla bağlı rus tədqiqatçısı S.O.Şmidt tarixçilərdən abidələrin yaddaş paradiqmasından təhlillərindən bizə məlum olan "əvvəlcədən düşünülmüş" şəkildə yaradılmış mənbədən əldə olunmuş məlum informasiyadan əlavə, digər "əvvəlcədən düşünülməmiş" mənbədən də tarixi-mədəni, sosial məzmunlu rəngarəng informasiyanın üzə çıxarılması bacarığını tələb edir(18,s.97). Tarix abidələrinin ilkin təsnifatının tərtibində bu prinsip əsas götürülmüşdür. S.O.Şmidtin bu mülahizəsi V.L.Yeqorovun yuxarıdakı arqumentləri ilə üst-üstə düşür. S.O.Şmidt mənşəyinə görə tarix abidələrinə "əvvəlcədən düşünülməmiş" prinsipindən çıxış edərək –abidə-müasirləri (abidə-əsillər) və "əvvəlcədən düşünülmüşlər" prinsipindən irəli gələrək tarixi hadisələrin əbədiləşdirilməsi məqsədilə yaradılmışları aid edir. Müəllif abidə-müasirləri tarixi hadisələrin "iştirakçısı" hesab etməklə, əzəldən, məhz abidə kimi deyil, tarixi hadisələrin gedişatında müəyyən xidməti funksiyaların yerinə yetirməsi məqsədilə təşəkkül tapdıqlarını və bu günədək həmin hadisələrin izlərini özündə saxladıqlarını qeyd edir. Tarix abidələrinin bu növünə müəllif aşağıdakıları aid edir:

a) Yazılı və çap sənədləri-salnamə, qanunvericilik sənədləri, müxtəlif fərman və aktlar, protokollar, məhkəmə-istintaq materialları;

b) hesabat və raportlar, statik göstəricilər, yazışmalar, mətbuat, vərəqələr, kargüzarlıq materialları, şəxsi sənədlər və s.;

c) əsl fotoqrafiyalar, sənədli kinokadrlar, səsyazmalar;

d) əşyavi predmetlər-əmək alətləri, peşə və sənaye məhsulları, məişət əşyaları, silah, geyim, bəzəklər, sikkələr, möhürlər, tətbiqi sənəd əşyaları, hadisə iştirakçılarının şəxsi əşyaları, döyüş nümunələri (orden, medal, şəxsi silah, bayraq), mülki və hərbi texniki əşyalar;

e) xalq kütlələrinin çıxış, mitinq, nümayişləri, hərbi hadisə, yaxud tarixi hadisələrin baş verdiyi xatirə yerləri, həmçinin dəfn əraziləri, konkret ərazi, məsələn, küçə, meydan, aşırım, düzənlik, meşə, göl, çay və s. ilə bağlı olan xatirə yerləri;

f) müxtəlif:hidrotexniki (bənd, şlüz, kanal); hərbi-mühəndis (kreml, bürc, istehkam, qala, qəsr, qüllə, qazma, müdafiə xətləri və s.); nəqliyyat (dəmiryol, avtomobil yolları, körpülər); ayrı-ayrı evlər və mənzillər.

Tarix abdələrinin bu kateqoriyası üçün tarixi informasiyanın ilkinliyi, həqiqiliyi, mötəbərliyi, əslıliyi başlıca meyardır.

Hazırkı təsnifatın digər əhəmiyyətli tərəfi müxtəlif növdən olan maddi daşıyıcılar üzərində qeydə alınmış qeyri-maddi obyektlərin tarix abidəsi statusunda tanınmasıdır. İkinci qrupu təmsil edən tarix abidələrinin fərqli səciyyəsi onları yaradanların qavrayışından "keçirilmiş" informasiyanın vasitəli şəkildə ifadə olunması xarakteri təşkil edir. Məhz bu cəhətinə görə, müəllif tarix abidələrinin həmin növünə memarlıq və monumental incəsənət abidələrini aid edir ki, bunlara da: memorial komplekslər, heykəllər, obelisklər, stellalar, xatirə lövhələri, nekropollar və bu qəbildən olan tikililər aid edilir. Döyüş şöhrəti, qəhrəmanların şərəfinə yaradılış memarlıq kompleksləri belələrindəndir. Lakin "əvvəlcədən düşünülmüş" prinsipi ilə yaradılmış bu tarix abidələrinin (abidə-simvollar) növünü incəsənətin yalnız bir növü ilə çərçivələnməsini obyektiv hesab etmək yanlış olardı. Tarixi hadisələri şifahi sözdə, musiqidə, ədəbi mətndə, rəsmdə, hətta texniki qurğuda əbədiləşdirilməsi faktlarını heç cür diqqətdən qaçırtmaq olmaz. Tarixi mənbədə cəmlənmiş informasiyaların küll halında tədqiqi mənbəşünaslığın predmetini təşkil edir. Lakin tarixi mənbənin öyrənilməsi prosesində mənbənin bir çox əlamətlərinin mənbəşünaslığa köməkçi fənlərin, məsələn, paleoqrafiya, heraldika, numizmatika, sfraqistika, diplomatika və s. öyrənilməsi mənbənin hərtərəfli şəkildə araşdırılmasına imkan yaradır ki, bu da həmin mənbənin muzeyşünaslıq kontekstində nə dərəcədə dəyərli olması ehtimalına aydınlıq gətirir. Tarixi mənbə, həm də muzeyşünaslığın tədqiqat predmetidir. Bəs elə isə, tarixi mənbələrin öyrənilməsi və tədqiqində tarixi mənbəşünaslıqla muzeyşünaslıq arasındakı oxşar və fərqli cəhətlər hansılardır? Tarixi mənbəşünaslıq tarixi mənbələri onların muzeallığından (muzey dəyəri) asılı olmadan öyrənir. Muzeyşünaslıq isə, yalnız muzeal olan obyektləri öz tədqiqat obyekti seçir. Muzeyşünaslıq konteksti üçün tarixi mənbənin elmi dərkindən başqa, emosional cəhətdən mənimsənilməsi də(attrakivliyi, assosiativliyi, ekspressivliyi) potensial xassə hesab edilir. Obyektlərin muzey dəyərinin üzə çıxarılmasında muzeyşünaslıq tarixi mənbəşünaslığın üsul və metodlarından istifadə edir: muzeyşünaslıq evristikası bu istiqamətə xidmət edir. Bu xüsusiyyət muzey mənbəşünaslığının tarixi mənbəşünaslığın struktur elementi kimi tanınmasını obyektiv zərurətə çevirir. Muzey mənbəşünaslığının tədqiqat obyektini tarixi və emosional informasiya mənbəyi olan muzey əşyası təşkil edir.

Abidələrin sosial fenomen kimi araşdıran İ.Q.Kravçenko da "tarixi mənbə" arqumentinə problemin həlli yollarından biri kimi yanaşır. Abidəyə tarixi mənbə prizmasından yanaşan tədqiqatçı ilk növbədə, tarixşünaslıqda "tarixi mənbə"ni "tarixi fakt" (B.Kroçe, L.Bekker, Ç.E.Berd, R.D.Kollinqvud, A.Y.Qureviç, L.S.Kleyn), "tarixi sənəd"(O.P.Korşunov, Ş.N.Stolyarov, A.İ.Mixaylov, A.İ.Çernıy, R.S.Qilyarevski), "tarixi yaddaş" (M.Blok, L.Fevr), "sosial-tarixi yaddaş" (A.M.Pançenko, V.A.Beylis, İ.S.Kloçkov, A.Y.Qureviç, P.N.Milyukov, L.N.Qumilyov) kontekstlərini araşdıran tədqiqatçıların arqumentlərinə istinad edir(13). "Tarix abidəsi" fenomeninin tərifini verməyi qarşılarına məqsəd qoymayan bu araşdırmaçıların tədqiqat predmeti kimi seçdikləri hər bir komponentin (tarixi fakt, tarixi sənəd, tarixi yaddaş, sosial-tarixi yaddaş)"tarix abidəsi" fenomeninin komponentləri olması haqqında İ.Q.Kravçenkonun çıxartdığı obyektiv mülahizə diqqəti cəlb edir. Bu komponentləri tarix elmi çərçivəsində istifadə etməklə həmin tədqiqatçılar bunların hər birinin keçmiş hadisələrin dərkində böyük idraki imkanlara malik olduğu fikrini qabardırlar. S.O.Şmidt: "Hər bir tarixi hadisəni...,tarixi inkişafı prosesində hadisənin öz xarakterində baş verən dəyişiklikləri (bunlar necə yaranıb, necə inkişaf edib, bunların inkişafının hansı tendensiyaları mövcuddur) və müasirlərin, növbəti nəslin ona münasibətini nəzərə almaqla nəzərdən keçirtmək lazımdır",-mühakiməsini söyləməklə "tarixi abidə" paradiqmasının dəyərləndirmə meyarlarına, muzeyşünaslıq mediasiyasına da aydınlıq gətirmiş olur(13,s.88).Bu tədqiqatçıların irəli sürdükləri arqumentlər "tarix abidəsi" fenomeninin elmi mahiyyətinin dəqiqləşdirilməsi baxımından metodoloji əhəmiyyət kəsb edir. Tarixi mənbənin strukturunda "tarixi fakt" anlayışı durur ki, bunu tarixşünaslıq aspektindən izah etmədən onun (və ya abidənin!) muzeyşünaslıq kontekstlərini üzə çıxartmaq mümkün deyildir. "Tarixi fakt"anlayışı yekcins hadisə deyil, o mürəkkəb və çoxcəhətli bir fenomendir. Tarixi gerçəklik fraqmenti kimi "tarixi fakt" fenomeni dünya tarixşünaslığında geniş təhlillərin obyektinə çevrilmişdir. Bu fenomeni tədqiq edənlər tarixi faktın qnoseoloji strukturunun aşağıdakı komponentlərdən ibarət olduğunu təsdiqləyirlər: "fakt-hadisə", "tarixi gerçəklik", "fraqment", "tarixi hadisə", "tarix faktı", "fakt-mənbə", "fakt-informasiya" və s.(14, s. 13). "Tarixi mənbə", "tarixi qaynaq" fenomeninin substratı olan "tarixi fakt" haqqında ümumi elmi təsəvvürlərə malikolma "tarix abidəsi" anlayışının dürüst tərifinin formalaşdırılmasının çıxış nöqtəsini təşkil edir. Yekcins hadisə deyil, mahiyyət və strukturuna görə bir neçə səviyyəyə malik olan tarixi faktın qnoseoloji əsaslarını tədqiq edən Q.M.İvanov tarixi faktı: ictimai-tarixi prosesin real hadisəsi; tarixi mənbələrdə əksini tapmış informasiya; dünya tarixi proseslərinin inkişafının mövcud səviyyələri çərçivəsində mənbə informasiyalarının elmi təhlil yolu ilə əldə olunmuş elmi təsəvvür kimi dəyərləndirir (12, s. 27)/ Tarixi faktın məzmun strukturuna daxil olan bu komponentlərin hamısı "tarix abidəsi" fenomeninin, həm də hüquqi statusunu şərtləndirən mühüm amillər kimi çıxış edir.

İtalyan filosof və tarixçisi Benedetto Kroçe (1866-1952) "Tarixşünaslığın nəzəriyyəsi və tarixi" (1912-13) adlı fundamental əsərində tarixi mənbə kimi fakta, müasirlik kimi isə, faktdan çıxış edən biliyə istinad

edir. Onun təqdim etdiyi postulat öz ifadəsini aşağıdakı sxemdəki kimi əks etdirir: fakt – hadisə - tarixi mənbə - fakt -bilik. Bu sxemin "tarix abidəsi" fenomenini müəyyən edən muzeyşünaslıq konteksti "tarixi bilik və faktların müasir dövrdə muzey əhəmiyyəti kəsb edən abidələr vasitəsilə ötürülməsi" (16,s.65) ilə izah olunur. Britaniya tarixçisi Robin Corc Kollinqvudun (1889-1943) keçmişin öyrənilməsi istiqamətində təqdim etdiyi yanaşmalar içərisində tarixin "ruhu"nu özündə gəzdirən əşyavilәşmiş, yaxud da qeyri-əşyavi şəkildə təcəssüm tapan faktlar haqqındakı arqumentləri xüsusi yer tutur. O, tarixi faktlar rolunda çıxış edən kitabları, keramikanı, dağılmış qüllələrin qalıqlarını və sairə bu kimi artefaktları "dövrlərin şahidləri" adlandırmaqla onları muzeyşünaslıqda qəbul edilmiş abidə statusunda görür (17, s. 127-136.).

Beləliklə, tarixi mənbə-tarix abidəsi fenomeni arasındakı nisbət və asılılığın tədqiqi ilə bağlı aparılan araşdırmalar sübut edir ki, ikincinin mövcudluğu üçün tarixi fakt, tarixi sənədlilik, tarixi yaddaş komponentləri aparıcı yer tutur. Lakin hər tarixi fakt və ya sənədin "tarix abidəsi" statusuna malik olması fərziyyəsini də irəli sürmək düzgün olmazdı. Əsas məsələ tarixi mənbənin müasir cəmiyyətdə nə dərəcədə əhəmiyyət və dəyər kəsb etməsindən ibarətdir. Tarixi mənbə, fakt biliyə çevrilərək aktuallaşdıqda "abidə" statusunu əldə edir.

Tədqiqatçı V.L.Yeqorov tarix abidəsi fenomeninin müəyyənləşməsinin yeganə meyarını "konkret obyekt, məkanın tarixi fakt, yaxud da görkəmli şəxsiyyətin həyat və fəaliyyəti ilə sinxronluğunda" görür (10, s.104). İlk baxışdan tədqiqatçının yalnız maddi olanların tarix abidəsi (ümumiyyətlə, abidə!) statusuna şamil etdiyi güman edilsə də, lakin sonrakı arqumentlərində bunun tamamilə əksi qabardılır. Bu mənada tədqiqatçının aşağıdakı mülahizəsi öz konkretliyi və obyektivliyi ilə diqqəti cəlb edir: "Tarixi hadisənin özü heç də həmişə maddi iz qoymur, lakin bizim təsəvvürlərimizdə o, adətən, müəyyən mühit, yaxud da konkret obyekt ilə bağlı olur. Bu cür obyekt hadisənin örtüyü olmaqla və onu müvafiq məkan çərçivələri ilə məhdudlaşdırmaqla tarix abidəsi ola bilər" (10, s.105).Bununla müəllif mədəni irsin bu növünün zahiri xassəsinə görə, maddiliyindən başqa, mənəvi substrata da malik olması arqumentinə işarə edərək, hətta tarixi hadisənin özünün, bu və ya digər şəxsiyyətin həyat və fəaliyyətindəki tarixi dəyərə malik məqamları, davranış nümunələrini, qəhrəmanlıqları və s. tarix abidəsinə çevrilməsi mümkünlüyünü isbat edir. Ukraynalı abidəşünas-alim A.Qriffen, tarix abidəsinin mahiyyətini, məhz bu meyarlarla ölçərək fenomenin strukturunu aşağıdakı sxemlə izah edir:




(8, s.49).

Beləliklə, buradan belə bir nəticə çıxartmaq olar ki, "tarix abidəsi" fenomeninin müəyyənləşməsinin başlıca əlaməti cəmiyyətin müxtəlif sahələri üzrə (ictimai-sosial, mədəni, siyasi, iqtisadi, təsərrüfat) ən mühüm və dəyərli tarixi hadisələr haqqında informasiya daşıyıcısına mənsub olma faktıdır. Bu informasiya isə, tarixi fakt, yaddaş qismində çıxış edir. Qeyd etmək vacibdir ki, eyni anlayış bir çox mənbəşünaslıq işlərində də istifadə olunur. Özü də bu zaman tarixi abidələr tarixi mənşədən olan mənbələr kimi eyniləşdirilir.

"Tarix abidəsi" fenomeninin mahiyyət xüsusiyyətlərinin bəlliliyi onun təsnifatı haqqında düşünməyə zəmin yaradır. Bu məsələnin problematikliyini nəzərə alan tədqiqatçı V.L.Yeqorov bunun həllini vacib sayaraq qeyd edirdi: "Tarix abidəsini təkcə tapıb əlamətlərini qeydə almaqla yanaşı, həm də onları düzgün müvafiq növ və tiplərə aid etməklə təsnifatını tərtib etmək lazımdır"(10,.s.100-101). Araşdırmalar sübut edir ki, universal təsnifat mövcud deyildir, olan da şərti xarakterə malikdir. Bu problemin həlli ilə məşğul olan tədqiqatçılardan L.Q. Beskrovnıy və M.A. Volkov tarix abidələrini obyektlər üzrə deyil, tarixi dərk etməyin sistemli metoduna uyğun olaraq baş vermiş hadisələrin məzmununa görə təqdim edirlər:1) istehsalat fəaliyyəti; 2) dövlətin inkişafı; 3) siniflərin mübarizəsi; 4)azadlıq uğrunda mübarizə; 5) xalqların görkəmli nümayəndələrinin həyat və fəaliyyəti ilə bağlı abidələr (6, s.11-33; 7, s.33-49). Kommunist ideologiyasının prinsiplərinə istinadən tərtib edilmiş bu təsnifatı müasirləşdirərək, həm muzeyşünaslıq, həm də abidəşünaslıq kontekstindən əliverişli hesab edilə biləcək aşağıdakı təsnifatı təqdim edirik:

1. Elm, istehsalat və texnologiya tarixi;
2. Xalq və millətlərin tarixi;
3. Dövlətlərin tarixi;
4. Müharibələr;
5. Tarixi şəxsiyyətlər;
6. Mədəniyyət və incəsənət tarixi;
7. İctimai-siyasi hadisələr;

Fərz edirik ki, bu təsnifat tarixi hadisəyə sistemli yanaşmaqla "tarix abidəsi" fenomeninin təyinat obyektivliyini təmin edəcəkdir. İstənilən təsnifat mənbələri sadəcə olaraq qruplar üzrə daha rahat mənimsəmək üçün sistemləşdirmir, bu, həmçinin idraki səciyyəyə malikdir. Lakin tarix abidələrinin təsnifatının tarixşünaslıq və mənbəşünaslıqda tarix mənbələrinin qəbul edilmiş sistemləşdirmə prinsipindən kənar aparılması da elmi cəhətdən əsassız hesab edilərdi. Ona görə də, tarixi mənbələrin sistemləşdirilməsi məsələsinə elmi istinad kimi yanaşılması mütləqdir. Mənbəşünaslıqda bu problemin həllində L.M.Puşkaryov, A.P.Pronşteyn, İ.D.Kovalçenko, S.O.Şmidtin xidmətlərinə müraciət etmək lazımdır. Birinci üç müəllifin təqdim etdiyi təsnifatda tarix mənbələri tipoloji prinsipə əsasən aşağıdakı şəkildə tərtib edilmişdir:

1. Yazılı mənbələr;
2. Əşyavi mənbələr;
3. Etnoqrafik mənbələr;
4. Şifahi mənbələr (folklor);
5. Linqvistik mənbələr;
6. Fonosənədlər;
7. Fotokino sənədlər; (9, s.17-18)

S.O.Şmidt bu müəlliflərin təqdim etdiyi təsnifatı tarixi yaddaş mənşəyi baxımından daha da təkmilləşdirərək öz təsnifatını təqdim edir. Göstərilən mənbələrin tip və yarımtiplərə bölünməsi tarixi faktlar haqqında daha rahat və dolğun məlumat əldə etməyə şərait yaradır. Həmin təsnifat aşağıdakı kimidir:

1. Bütün rəngarəngliklərini özündə əks etdirən əşyavi mənbələr (memarlıq tikililəri, arxeologiya əşyalarından tutmuş müasir maşın və məişət əşyalarınadək daşınar və daşınmaz maddi olanlar). Bu tip insan fəaliyyəti nəticəsində dünyanın bitki və heyvan örtüyünün (flora və fauna) dəyişdirilməsinin də nəzərə alınmasına imkan yaradır. Bundan çıxış edərək həmin tipə muzeydə və muzeydənkənarda nümayiş etdirilən heyvan, quş müqəvvalarından əlavə, canlıların-quş, bitkilərin, həmçinin süni mənşəli təbiət-coğrafiya tarixi mənbələrin özlərinin əslini də aid etmək olar.

2. Təsviri mənbələr:

a) bədii-təsvirli mənbələr (təsviri incəsənət, kino və fotoqrafiya əsərləri);
b) təsviri-qtafik mənbələr (qrafik təsvirlər yolu ilə informasiyanı ötürən mənbələr);
c) təsviri-natural mənbələr (fotoqrafiya, sənədli kino kadrlar);
d) Şifahi mənbələr:
e) Nitq ( o cümlədən onu qeydə almış fonosənədlər);
f) Şifahi yaradıcılıq mənbələri (folklor);
g) Bütün rəngarəng forma və növləri nəzərə alınmaqla yazılı mənbələr (o cümlədən epiqrafik);

3. Konvensional mənbələr ( latınca: "conventionalis"- şərti). Müasir dövrdə bu qəbildən olan tarixi mənbələrin çox böyük forma və növləri mövcuddur: not yazıları, riyazi işarələr və digər rəmzi işarələr, maşın daşıyıcılarında qeydə alınmış informasiyalar və s. Belə düşünmək olar ki, bu kifayətqədər öyrənilməmiş mənbə tiplərindəndir.

4. Davranış mənbələri. S.O.Şmidt buraya vizual şəkildə müşahidə edilən adət və mərasimləri (ritualları)-kollektiv və fərdi hərəkət tərzlərini (əmək, ailə-məişət, təntənə-bayram, idman və s.) aid edir. İlk baxışdan "etnoqarfik mənbələr" kimi görünən bu anlayışından istifadə etməməsinin səbəbini S.O.Şmidt, adətən etnoqrafların öz tədqiqatları zamanı, hətta çöl təcrübələrində etnoqrafik material kimi əşyavi mənbələrə və yazı qeydləri və s. istinadı ilə haqlı olaraq əsaslandırır.

5. Səsli və görüntülü (audial) mənbələr. Şmidt buraya geniş və dar musiqi mənasında başa düşülən səsləri ("səs", "zənglər", "səs-küyləri") heyvan, quş, təbiətin spesifik səs yazılarını nəzərdə tuturdu. Buraya, eyni zamanda insan sözlə deyil, səslə ifadə olunan emosiyalarını da aid etmək olar.

Bu təsnifatın üstünlüklərindən biri daşınar və daşınmaz kateqoriyalardan olan mənbələri əhatə etməsindədir. Tarix və mədəniyyət abidəsi fenomeni üçün bu amil çox zəruridir. Digər müəlliflər kimi S.O.Şmidt də təsnifatını şərtilik prinsipi əsasında tərtib etmişdi. Ayrıca götürülmüş növləri (məsələn, sikkələri) müəyyən edilmiş tiplərdən yalnız birinə aid etmək mümkün deyil. Hadisə və mahiyyət həmişə üst-üstə düşmür. Bütün mənbələrin tam şəkildə gerçəkliklərlə uyğunluğunu əks etdirən təsnifatın tərtibi təəccüb doğurardı. Real həyatda "xalis" tiplərin olması sadəcə olaraq mümkün deyil və istənilən təsnifat-əşya şərtidir. Belə ki, məsələn, kino-foto

materiallar şərhvermə materialları ilə (əşyavi-tematik kataloq, arxiv və studiya montaj vərəqələri) ilə qırılmaz sürətdə vəhdətdədir; ifadə predmeti eyni olsa da, bunları təsviri və yazılı mənbələrə aid etmək olar. Odur ki, təsnifat tərtibi üçün (hər halda, tarixi mənbələr üzrə, bundan sonra tarix abidələri üçün!) şərtilik başlıca prinsip sayılmasını nəzərə alaraq S.O.Şmidtin hazırkı təsnifatını tarix abidələrinin təsnifatı üçün baza kimi məqsədəuyğun hesab etmək olar. Bu təsnifatın başlıca dəyəri bir baxışla çoxsaylı rəngarəng tarixi mənbələrin geniş əhatəsini dərk olunmasına imkan yaratmasındadır. Bu vacib xüsusiyyət təsnifatın muzeyşünaslıq kontekstlərinə də tam şəkildə cavab verdiyindən, məhz, tarix abidələrinin təsnifatını buna istinadən tərtibinə üstünlük verdik. Qeyd etmək lazımdır ki, muzey mənbəşünaslığında muzey əşyalarının təsnifatı, məhz bu təsnifat modelinə uyğun şəkildə dəqiqləşdirilib. Tarix profilli muzey təcrübəsi əsasında Q.K.Lavıkina və V. Xerbstin redaktəsilə yazılmış "Muzeyşünaslıq" dərsliyində muzey əşyaları S.O.Şmidtin istinad etdiyi əsas prinsipə - mənbənin zahiri forma əşyavi, təsviri, yazılı, sənədli fono materiallar kimi növlərə təsnif olunmuş variantda təqdim olunur (15, s. 209-217).Eyni təsnifat, hətta digər profilli muzeylər üçün yazılmış muzeyşünaslıq dərslik, dərs vəsaitləri üçün qəbul ediləndir. Düzdür, muzeyşünaslıq dərsliklərində təqdim olunan muzey əşyalarının təsnifatı ilə S.O.Şmidtin yuxarıda tanış olduğumuz təsnifatı ilə tam şəkildə üst-üstə düşməsə də, muzeydə mövcud olan əşyalar haqqında ətraflı və dolğun təsəvvür yaradır. Bundan başqa, burada bəzi əşya tiplərinin ayrı-ayrı növlərdə deyil, yalnız bir növdə təmsil olunması tarixi hadisə və onun mahiyyətinə elə də ciddi narahatlıq yaratmır. Məsələn, tarixi mənbəşünaslıqda ayrıca bir tip kimi təsnif olunan konvensional mənbələrin muzey mənbəşünaslığında sənədli fonomateriallarda təmsil olunması məntiqi və elmi-xronoloji cəhətdən narahatlıq yaratmır. Lakin düşünürük ki, S.O.Şmidtin təsnifat modelində ayrıca bir tip kimi qərarlaşmış davranış mənbələrinin muzey əşyaları təsnifatında da öz yeri olmalıdır. Düzdür, mənəvi hadisə kimi qiymətləndirilən davranışın "əşya" kimi təqdiminin özü də şərti qəbul ediləndir. Bu tarixi mənbənin ayrıca bir tip kimi tanınması müasir dövrün aktuallığır. Dünyada etnoqrafik profilli muzeylərin yaranaraq cəmiyyətdə böyük maraq doğurduğu bir vaxtda adət, ənənə, mərasim, ritualların davranış səviyyəsində dərk olunaraq muzey əşyası statusuna (ən başlıcası isə, bunların bir çoxunun abidə kimi tanınması!) transformasiyasına böyük ehtiyac var. 1987-ci ildə müəllif V.N.Sukanov "muzey əşyası" və "tarixi mənbə" anlayışlarının nisbətinin təhlili zamanı özünün mənbəşünaslıq əhatəsinə görə muzey əşyasının kifayətqədər əhatəli olduğu fikrini xüsusi olaraq qabartmışdır(19,.s.11-26).O, muzeyləşdirilməyə təkcə artefakt tərkibli kolleksiyaların deyil, həm də tarixi-mədəni infrastrukturun hissolunmayan əhatəsinin cəlb olunmasını müasir dövrün qlobal bəşəri problemlərindən biri olduğunu vurğulamışdır. Bu prioritetlərdən irəli gələrək 1990-cı illərdə muzey obyektləri statusunu əldə etmiş qeyri-maddi obyektlərin formaları müəyyən edilməklə, onların təsnifatının aparılmasına imkan yaranmışdı. Bu prosesin qanuni vəziyyət almasında BMT-nın Ali Konfransı tərəfindən 2003-cü ildə qəbul edilmiş "Qeyri-maddi mədəni irsin mühafizəsi haqqında Beynəlxalq Konvensiya"da qeyri-maddi və hissedilməyən irsin təsnifatının rəsmən elan edilməsi böyük əhəmiyyət kəsb etdi. Problemin bu aspektinin daha geniş təhlilini bir qədər sonra aparacağıq. Bütün bu dəlillər tarix abidələrinin yuxarıdakı təsnifatının elmi cəhətdən əsaslandırılmış bir təsnifat olduğunu sübut edir. Bu mühüm məqama istinad edərək tarix abidələrinin təsnifatının hazırkı modelə uyğunlaşdırmağı, həm də muzey mənbəşünaslığı kontekstindən düzgün və obyektiv fərz edirik. Beləliklə, bəzi əlavələr etmək şərtilə tarix abidələrinin tipoloji təsnifatını aşağıdakı kimi təsəvvür etmək olar.

1.Əşyavi tarix abidələri;
2. Təsviri tarix abidələri;
3. Konvensional tarix abidələri;
4. Səsli və audial tarix abidələri:
5. Şifahi tarix abidələri;
6. Davranış tarix abidələri;

Əlbəttə, təqdim olunan bu təsnifatın hər bir növü təyinatı üzrə geniş şaxələrə bölünür. Hazırkı təsnifatın üstünlüyü onun universiallığı ilə izah edilir. Məhz bu xüsusiyyətinə görə, hazırkı təsnifatda tarix abidələri ilə əlaqədar ilkin təsəvvürlərə malik olmaq mümkündür. Bu cəhət nəzərə alınmaqla dövlətin strateji sənədlərinin hazırlanmasında bu təsnifatdan məqsədəuyğun şəkildə istifadə etmək olar. Lakin bu təsnifat universal sayılsa da, onu yeganə təsnifat da hesab etmək düzgün olmazdı. Belə ki, yuxarıda qeyd etdiyimiz kimi, istənilən tarixi mənbə keçmiş hadisələrin müxtəlif tərəflərini özündə təzahüretdirmə kontekstinə görə sistematik, tipoloji təsnifatların tərtibinə nail olmaq mümkündür ki, buda ayrıca bir tədqiqatın obyektidir.

**ƏDƏBİYYAT**

Azərbaycan dilində

1. Abidələr və tarixi yerlər üzrə Beynəlxalq Şura, İKOMOS, Bakı-2014, 61 s.
2. Azərbaycan Respublikasının "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" 13 iyun 1998-ci il tarixli Qanunu, "Azərbaycan" qəzeti, №38 (1947), 19 iyun 1998-ci il.
3. Bayramov R.M. Azərbaycan xalq memarlıq abidələrinin tipoloji təsnifatı (XI-XIII əsrlər, Memarlıq üzrə elmlər namizədi dis., Bakı, 1984. 183 s.

**4.** Eyvazova Y.M. Muzeydənkənar tarix və mədəniyyət abidələrinin mühafizəsi və istismarı, Bakı, Mars-Print, 2009.324 s.
**5.** Daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası, qorunması, tarix və mədəniyyət qoruqlarının fəaliyyətinin təkmilləşdirilməsi və inkişafına dair 2014-2020-ci illər üzrə Dövlət Proqramı, 15 s.
Rus dilində
**6.** Бескровный Л.Г. Памятники истории и культуры:// Методические рекомендации по подготовке свода памятников истории и культуры СССР, Москва, 1974, Вып.6. с.11-33.
7. Волков М.А. О методике выявление и изучение памятников истории. //Мет.рекомендации по подготовке Свода памятников истории и культуры, Вып.6.Москва, 1976.с.33-49.
**8.** Гриффен Л. А. Теоретические основания памятниковедения, Киев, Центр Центр пам'яткознавства НАН України і УТОПІК, 2012.145 с.
**9.** Грицквич В.П., Каун С.Б., ХодинС.Н. Теория и история источниковедения.учебное пособие для студентов заочных отделений гуманитарных факультетов вузов, Минск, 2000, 226 с
**10.** Егоров В.JI. Развитие и становление понятия «памятник истории» // История СССР. 1988. № 1. С. 100 – 106.
**11.** Зозуля Л.И. Понятие «исторический памятник» в России в XIX - начале XX века // Вопросы охраны и использования памятников истории и культуры / Труды НИИ Культуры. М., 1992. С. 160 -171.
**12.** Иванов Г.М. Гносеологические основы исторического источника.// Научные доклады высшей школы. Философские науки. 1973.№ 3. с.56-60.
**13.** Кравченко И.С.Памятник-как социальный феномен, Дис…канд. философ.наук. Волгоград, 2008. 121 с.
**14.** Лисовина А.П. Категория «исторический факт» в марксистской и буржуазной методологии истории. (под редакцией доктора философских наук А.И.Бабия). Кищинев. «Штиинца» 1981.
**15.** Музееведение. Музеи исторического профиля. Учебное пособие для вузов по спец. «История»/Под ед. К.Г.Левыкина, В.Хербста. Москва. Высшая школа.1988. 431 с.
**16.** Словарь актуальных музейных терминов. Авторы составители: М. Е. Каулен, А. А. Сундиева, И.В. Чувилова, О. Е. Черкаева и др. //Музей.2009.№5. Москва. с.47-68.
**17.** Шамшурин В.И. История идей и историческое сознание: Р.Дж. Коллингвуд и его последователи // Вопросы философии. Москва.1986. № 5.с. 127-136.
**18.** Шмидт С.О. О критериях оценки исторических памятников.//Вопросы научного атеизма.Вып.20. Москва.. Изд-во «Мысль».1976. с.88-103.
**19.** Шулепова Э. А. Историческая память в контексте культурного наследия / Э. А. Шулепова // Культура памяти , сб. науч, ст. / Российский институт культурологии, науч. ред. Э. А. Шулепова. Москва. 2003. с.11-26.

## ABSTARCT

**Yegana Eyvazova**

**Museological aspects of the phenomenon of "historical monument"**

Protection of valuable objects of cultural heritage with the status of "historical monument" has Museological aspects. To solve this problem, this article first conducted morphological analysis of the concept of "historical monument". Then, shows the role of the components in the formation of the phenomenon of "historical monument".Such as a historical phenomenon, a historical fact and museological value.The analyzes show that the value of the history of the monument museum determined the named components.

## РЕЗЮМЕ

**Егана Эйвазова**

**Музееведческие аспекты феномена «памятник истории»**

Охрана особо ценных объектов культурного наследия со статусом «памятник истории» имеет музееведческие аспекты. Для решения поставленной задачи, в данной статье сначала ведется морфологический анализ понятия «памятник истории». Затем выявляется роль компонентов в формировании феномена «памятник истории», таких как историческое явление, исторический факт и их музееведческая ценность. Анализы доказывают, что музейная ценность памятника истории определяется названными компонентами.

NDU-nun Elmi Şurasının 30 mart 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 07).
Məqaləni çapa təqdim etdi: AMEA-nın müxbir üzvü Z.Şahverdiyev

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2017, № 2 (83)**

NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2017, № 2 (83)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2017, № 2 (83)**

**ƏLƏKBƏR CABBARLI**
Naxçıvan Dövlət Universiteti

**UOT: 94(479.242)**

# AZƏRBAYCANIN MİLLİ MÜSTƏQİLLİK VƏ DÖVLƏTÇİLİK TARİXİNDƏ NAXÇIVANIN YERİ VƏ ROLU (1990-1993-CÜ İLLƏR)

***Açar sözlər:*** *Naxçıvan Muxtar Respublikası, Heydər Əliyev, müstəqillik, mübarizə, tarixi qərarlar, dövlətçilik ənənələri*

***Keywords:*** *Nakhchivan, Heydar Aliyev, independence, fight, historic decisions, traditions*

***Ключевые слова:*** *Нахичевань, Гейдар Алиев, независимость, борьба, исторические решения, традиции*

XX əsrin 80-ci illərinin sonu-90-cı illərin əvvəllərində, SSRİ-nin artıq tənəzzülü prosesinin sürətləndiyi bir vaxtda, Azərbaycanda milli azadlıq hərəkatı məhz torpaqlarımızın müdafiəsi zəminində formalaşdı. Öz tarixi torpaqlarını heç kəsə vermək istəməyən xalq kütlələrinin hərəkatı tezliklə azad, müstəqil yaşamaq uğrunda qəti mübarizəyə çevrildi. Bunun müqabilində Azərbaycan xalqının bu mübarizəsini boğmaq, getdikcə daha aşkar və qəti şəkildə səslənən müstəqillik haqqında çağırışları susdurmaq, respublikanı yenidən Moskvanın iradəsinə tabe etmək niyyəti özünü aydın göstərirdi. Bu məqsədlə, habelə Azərbaycanda Heydər Əliyevin güclü nüfuzuna zərbə vurmaq üçün 1988-ci il may ayının 21-də Ə.Vəzirov Azərbaycanda hakimiyyətə gətirildi. Respublikanın o zamankı durumundan və xalqın həyatından tamamilə bixəbər olan bu şəxs, eyni zamanda baş verən ictimai-siyasi proseslərin yedəyində gedir, yalnız rəsmi Moskvanın göstərişlərinin icrası ilə məşğul olur, nə dövrün real tələbatlarını, nə də xalq kütlələrinin mənafeyini qətiyyən nəzərə almırdı. Hətta 1990-ci il yanvarın 20-də Bakıda SSRİ rəhbərliyinin təşkilatçılığı ilə qanlı cinayət həyata keçiriləndə sovet ordusunun Bakını yenidən işğal etməsi üçün formal hüquqi əsaslar da bilavasitə Ə.Vəzirovun göstərişi ilə yaradılmışdı.

1990-cı il yanvarın 20-də Bakıda sovet ali rəhbərliyi səviyyəsində Azərbaycan xalqına qarşı dəhşətli cinayət aktı həyata keçirildi. Heydər Əliyev 1990-cı ilin 20 yanvarında Sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciə ilə əlaqədar ertəsi günü Azərbaycanın Moskvadakı nümayəndəliyində bəyanatla çıxış edərək Azərbaycan xalqına qarşı törədilmiş cinayətin təşkilatçıları və icraçılarının cəzalandırılmasını tələb etmişdi (1). Ə.Vəzirov bu cinayətin baş verməsində məsulliyyət daşıdığını dərk edərək Bakıdan Moskvaya qaçdı. 20 yanvar faciəsinin xalq arasında doğurduğu ağır siyasi-psixoloji vəziyyətdə, 1990-cı il yanvarın 24-də Azərbaycan rəhbərliyə gətirilən Ayaz Mütəllibovun fəaliyyəti də sələfindən ciddi şəkildə fərqlənmədi. Artıq xalqın mövcud siyasi quruluşa qarşı qəzəbinin və ictimai-siyasi hadisələrin sonrakı inkişafının qarşısını almaq mümkün olmadı.

Həmin günlərdə, eynilə 1918-1920-ci illərdə olduğu kimi, Azərbaycanın əsas hissəsi ilə əlaqələri kəsilmiş Naxçıvanda da vəziyyət olduqca gərgin idi. Bu gərginlik 19 yanvar 1990-cı ildə Naxçıvanda xalqın tələbi və təzyiqi ilə Naxçıvan MSSR Ali Sovetinin növbədənkənar sessiyası çağırılmasına və "Naxçıvan MSSR-də yaranmış ictimai-siyasi vəziyyət haqqında" Naxçıvan MSSR Ali Sovetinin qərarının qəbul edilməsinə səbəb oldu. Bu qərarla "muxtar respublikanın ərazi bütövlüyü və vətəndaşların həyatı təhlükə qarşısında" qaldığından Naxçıvan MSSR-in SSRİ-nin tərkibindən çıxaraq özünü müstəqil respublika elan etdi"yi bəyan edildi. Azərbaycan rəhbərliyi muxtar respublikanın bu qərarına mənfi münasibət bəsləyərək onun konstitusiyaya zidd olduğunu elan etsə də, müstəqillik uğrunda mübarizənin genişləndiyi bir dövrdə "Naxçıvanın SSRİ-nin tərkibindən çıxıb özünü müstəqil respublika elan etməsi qərarı böyük tarixi əhəmiyyətə malikdir" (2, s. 33).

20 yanvar faciəsi, habelə faciədən sonra Azərbaycanın ictimai-siyasi həyatında yaranan yeni situasiya Heydər Əliyevin Moskvadan vətənə qayıdışı prosesini sürətləndirdi. 1990-ci il iyulun 20-də o, Bakıya gəldi. Lakin Heydər Əliyevin Bakıda yaşamasına o zamankı respublika rəhbərliyi səviyyəsində ciddi maneələr və təhdidlər olduğundan iki gün sonra, iyulun 22-də Heydər Əliyev Bakıdan Naxçıvana gəldi.

1990-cı il sentyabrın 30-da Muxtar Respublika parlamenyinə seçkilər keçirildi. Bu zaman Azərbaycanda da parlament seçkiləri keçirildi. Seçkilərdə Heydər Əliyev 340 №-li Nehrəm seçki dairəsindən Azərbaycan SSR, Naxçıvan şəhəri üzrə 2 №-li M.F.Axundov seçkil dairəsindən isə Naxçıvan MSSR-in xalq deputatı seçildi.

Naxçıvan MSSR Ali Sovetinin yeni çağırışının 1990-cı il noyabrın 17-də keçirilən birinci sessiyasına sədrlik deputatlar tərəfindən Heydər Əliyevə həvalə edildi. Sessiyada Azərbaycan milli dövlətçiliyinin dirçəlişi prosesinin həyata keçirilməsi ilə bağlı məsələlər geniş müzakirə olundu. Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adından "Sovet Sosialist" sözləri çıxarıldı və Naxçıvan Muxtar Respublikası adlandırıldı. Naxçıvan MSSR Ali Sovetinin adı dəyişdirilərək Naxçıvan Muxtar Respublikasının Ali Məclisi adlandırılır (3, s. 20). Ali Məclisin birinci sessiyası Azərbaycan Xalq Cümhuriyyətinin dövlət

rəmzi olan üçrəngli, ay-ulduzlu bayrağın Naxçıvan Muxtar Respublikasının Dövlət bayrağı kimi qəbul edilməsi haqqında qərar qəbul etdi. Heydər Əliyev sessiyada Azərbaycan Ali Soveti qarşısında qanunvericilik təşəbbüsü qaydasında qəbul edilən qərarı da elan etdi: "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qərarı ilə Azərbaycan Demokratik Respublikasının üçrəngli milli bayrağını Naxçıvan Muxtar Respublikasının Dövlət bayrağı kimi qəbul edirik və Azərbaycanın ali hakimiyyət orqanına bunu çatdırırıq. Eyni zamanda Azərbaycanın ali hakimiyyət orqanı qarşısında məsələ qoyuruq ki, Azərbaycan Respublikasının dövlət rəmzləri haqqında qərar qəbul etsin" (4, s. 68).

Dörd gün sonra, noyabrın 21-də Ali Məclisin sessiyasının növbəti iclasında isə "1990-cı ilin yanvar ayında Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında" və "Bakı şəhərində fövqəladə vəziyyətə münasibət barəsində" qərarlar qəbul edildi. 20 Yanvar gününün muxtar respublikada hər il matəm günü kimi qeyd olunması qərara alındı və bu barədə Azərbaycan Ali Sovetinə təklif verildi.

İlk sessiyada Afiyəddin Cəlilov Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri seçildi.

Qeyd edək ki, Azərbaycan Respublikası Ali Sovetinin 5 fevral 1991-ci il tarixdə keçirilən XII çağırış birinci sessiyasında çıxış edən Heydər Əliyevin sayəsində Azərbaycanda baş verən siyasi hadisələrə düzgün qiymət verildi(5, s. 27). Azərbaycan Sovet Sosialist Respublikası Azərbaycan Respublikası adlandırıldı, üç rəngli, ay-ulduzlu bayraq Azərbaycanın Dövlət bayrağı elan edildi.

SSRİ-nin tərkibində olan müttəfiq respublikaların böyük əksəriyyətində istiqlal ideyalarının geniş yayıldığı, dünyanın ən böyük sosialist dövlətinin süqutu prosesinin getdiyi bir vaxtda M.Qorbaçov SSRİ-nin saxlanması üçün yeni ittifaq müqaviləsinin bağlanması məqsədi ilə ölkə üzrə referendum keçirilməsinə hazırlıqla bağlı barədə göstəriş vermişdi. Əslində mahiyyətcə SSRİ-nin yaradılması haqqında 30 dekabr 1922-ci il tarixli müqavilənin təkrarı olan bu müqavilə rəsmi Moskvanın mənafeyini müdafiə edən siyasi rəhbərliyin olduğu bəzi respublikalarda guya rəğbətlə qarşılanmışdı. Təəssüflər olsun ki, belə rəhbərliyin olduğu həmin respublikalar içərisində siyasi proseslərin məntiqi ardıcıllığından heç cür baş çıxara bilməyən o zamankı Azərbaycan rəhbərliyi də vardı.

İttifaqı qoruyub saxlamağa cəhd edənlərin əksinə, zəngin siyasi biliklərə və idarəetmə təcrübəsinə malik olan Heydər Əliyev respublika rəhbərliyinin bu mövqeyini Naxçıvan MR Ali Məclisinin 14 yanvar 1991-ci il tarixli sessiyasında kəskin tənqid etdi. O, məsələyə özünün son dərəcə ciddi və qəti münasibətini bildirərək göstərirdi ki, Azərbaycan üçün bu müqaviləyə girmək, ona müsbət rəy bildirmək xalqımızın qarşısında cinayət etmək deməkdir(4, s.104-105). Eyni zamanda, o, faktlara əsaslanaraq Azərbaycan Kommunist Partiyasının diktatura rejiminin mürtəce siyasəti nəticəsində Azərbaycanda vəziyyətin ağırlaşdığını da diqqətə çəkdi (5, s. 14-20).

Heydər Əliyev yeni ittifaq müqaviləsinə dair mövqeyini martın 7-də Azərbaycan Ali Sovetinin sessiyasındakı çıxışında bir daha təkrarladı: "Mən yeni ittifaqa daxil olmağın və bunun üçün referendum keçirməyin heç bir şərt qoymadan əleyhinəyəm. Azərbaycan Respublikası iqtisadi və siyasi müstəqillik yolu ilə getməli, tam istiqlaliyyət uğrunda mübarizə aparmalıdır… Müstəqillik yolu qədər çətin yol yoxdur" (6, 1991, 15 mart).

Təəssüflər olsun ki, Azərbaycan rəhbərliyini M.Qorbaçovun bu siyasi avantürasına qoşulmaq fikrindən daşındırmaq mümkün olmadı. Lakin Naxçıvan MR Ali Məclisinin 1991-ci il martın 14-də keçirilən sessiyasında SSRİ-nin saxlanılmasına dair 17 mart 1991-ci ildə keçiriləcək ümumittifaq referendumunda muxtar respublikanın iştirak etməməsi barədə qərar qəbul edildi. Hər halda, muxtar respublika istisna olmaqla, Azərbaycanda da keçirilən referendumda "mütəşəkkilliklə" iştirak edən respublika əhalisinin guya 95 faizinin ittifaqın saxlanmasına səs verdiyi bəyan edildi (7, s. 38).

Refrendumun nəticələrinin saxtalaşdırıldığını cəmi bir neçə ay sonra, 1991-ci il avqustun 30-da respublika parlamentinin Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası haqqında Bəyannamə ilə Azərbaycanın öz dövlət müstəqilliyinə qovuşması, oktyabrın 18-də qəbul edilən "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında" Konstitusiya Aktı və 1991-ci il dekabrın 29-da keçirilən referendumda əhalinin 95 faizinin dövlət müstəqilliyinə səs verməsi qəti şəkildə sübut etdi.

Heydər Əliyev avqustun 29-u və 30-da Azərbaycan Ali Sovetinin sessiyasında çıxış edərək kommunist partiyasının və respublika rəhbərliyinin fəaliyyətini kəskin tənqid etdi, Azərbaycan kommunist partiyasının və Ali Sovetin buraxılmasını tələb etdi. O, öz fikirlərini və mövqeyini bununla əsaslandırırdı ki, hələ mart ayında SSRİ-nin saxlanması barədə referendumda iştirak etməyə səs verən parlament indi müstəqilliyimizi məcburiyyət qarşısında qalaraq elan edir. Bu, Heydər Əliyevin hadisələrə düzgün və obyektiv yanaşmasının daha bir ifadəsi idi.

Naxçıvan MR Ali Məclisinin 1991-ci il sentyabrın 3-də keçirilən fövqəladə sessiyası müstəqilliyin bərpasına dair bəyanata əsaslanaraq belə hesab edirdi ki, Azərbaycan Respublikası özünün tam milli, dövlət müstəqilliyinə nail olmalı və mövcud SSRİ əsasında hər hansı bir formada yaradılacaq yeni dövlət ittifaqına daxil olmamalıdır (8, s. 190).

Həmin sessiyada qəbul edilən başqa bir qərar öz tarixi əhəmiyyətinə görə xüsusilə əlamətdar oldu. Həmin gün deputatların təkidli xahişi və parlament binası önündə mitinq keçirən xalq kütlələrinin tələbi ilə Heydər Əliyev Naxçıvan MR Ali Məclisinin Sədri seçilməyə razılıq verdi. Ali Məclisin sessiyasında bu

barədə qərar qəbul olundu: “Heydər Əlirza oğlu Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilsin” (9, iş 0-05, v. 8).

Heydər Əliyevin Ali Məclisə Sədr seçilməsindən dərhal sonra gərgin ictimai-siyasi şəraitdə bir sıra çevik və ciddi qərarlar qəbul olundu. Ali Məclisin 1991-ci il 4 sentyabr tarixli qərarı ilə sentyabrın 8-ə təyin olunmuş Azərbaycan Respublikası Prezidentinin seçkilərinin keçirilməsi Naxçıvan MR ərazisində dayandırıldı (4, 130). Yaranmış mürəkkəb dövrdə prezident seçkilərinin keçirilməsini səhv addım kimi qiymətləndirən Ali Məclisin sessiyası seçkilərin başqa vaxtda keçirilməsini respublika parlamentindən xahiş etdi. Hələ avqustun 29-30-da Azərbaycan Ali Sovetinin sessiyasında da bununla bağlı müvafiq təkliflər səsləndirilmişdi.

Azərbaycan rəhbərliyi Naxçıvan MR Ali Məclisinin qərarına tamamilə mənfi münasibət bəsləyərək Naxçıvana ciddi təzyiqlər göstərməyə başladı. Lakin öz mövqeyini qətiyyətlə müdafiə edən Heydər Əliyev yerli televiziya vasitəsi ilə bəyanat verdi və xəbərdarlıq etdi ki, Naxçıvana təzyiq üçün gələn qüvvələr muxtar respublikanı tərk etməlidirlər, əks təqdirdə əhali ayağa qalxacaqdır (10, s. 88). Sentyabrın 8-də Azərbaycanda keçirilən prezident seçkiləri Naxçıvan MR ərazisində baş tutmadı.

1992-ci il Naxçıvan MR üçün də çox mürəkkəb və məsuliyyətli il idi. Bu dövrdə Ali Məclisin Sədri Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvanın müdafiəsi, sosial-iqtisadi və ictimai-siyasi vəziyyətinin yaxşılaşdırılması sahəsində bir sıra mühüm addımlar atılmışdı. Belə ki, paytaxt Bakıdan fərqli olaraq Naxçıvanda xalqla rəhbərliyin vəhdəti düşmənə rəşadətlə sinə gərərək torpaqları qoruyub saxlamağa kömək etdi. Bu dövrdə məhz Heydər Əliyevin siyasi bacarığı, uğurlu diplomatik gedişləri və Türkiyə Cümhuriyyəti ilə yaratdığı əlaqələr Ermənistanın hərbi təcavüzünü dünya ictimaiyyətinin pisləməsinə, Naxçıvanın isə xilasına səbəb oldu.

## ƏDƏBİYYAT


1. az. wikipedik orq | WRI| Heydər Əliyev
2. Hacıyev İ.M. Naxçıvan Muxtar Respublikasında siyasi proseslər (1988-2007-ci illər) / Naxçıvan bu gün: islahatlar, perspektivlər (5-6 oktyabr 2007-ci ildə keçirilmiş beynəlxalq simpoziumun materialları), Bakı, Nurlan, 2008, s. 31-45
3. “Şərq qapısı” qəzeti, 2004, 8 dekabr.
4. Qayıdış (1990-1993), Sənədlər toplusu, B, Azərbaycan 1996, 780 s.
5. Heydər Əliyev. Şəxsi mövqe, Bakı, Azərbaycan, 1994, 244 s.
6. Azərbaycan Ali Sovetinin sessiyasında Heydər Əliyevin çıxışı, “Səs” qəzeti, 1991, 15 mart.
7. Qaffarov T. B. Azərbaycan tarixi (1920-1991-ci illər), Bakı, Qanun, 1998, 356 s.
8. Qayıdış (1990-1993), Sənədlər toplusu, Təkmilləşdirilmiş və yenidən işlənmiş ikinci nəşr, Bakı: Azərbaycan, 2008, 840 s.
9. Naxçıvan MR Ali Məclisinin Arxivi, f. 1, siy. 1, iş 0-05.
10. Azərbaycan Respublikası – 1991-2001. Bakı, XXI-Yeni, 2001, 360 s.



## ABSTRACT

**The role of the national independence and statehood history of Nakhchivan (1990-1993-years)**

Twentieth Century Azerbaijan, including Nakhchivan Autonomous Republic, socio-political, socio-economic and cultural development is a major milestone in the history. This phase, but also in terms of restoration and development of national statehood attract attention.

The article also restore the national statehood traditions of the Nakhchivan Autonomous Republic, touched upon the issues of the struggle for independence, national sovereignty and statehood in the history of the place and role of Nakhchivan shot lead, made historic decisions lit, was commenting on the activity of national leader Heydar Aliyev.

## РЕЗЮМЕ

**Место и роль Нахчывана и истории национальной независимости и государственности Азербайджаиа (1990-1993 лет)**

Двадцатый век Азербайджан, в том числе Нахчыванской Автономной Республики, социально-политического, социально-экономического и культурного развития является важной вехой в истории. Эта фаза, но и с точки зрения восстановления и развития национальной государственности, привлекают внимание.

В статье также восстановить национальные традиции государственности Нахчыванской Автономной Республики, были затронуты вопросами борьбы за независимость, национальный суверенитет и государственность в истории места и роли Нахчывана выстрелила свинец, сделала исторические решения освещенных, комментируя деятельность общенационального лидера Гейдара Алиева.



NDU-nun Elmi Şurasının 30 mart 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 07).

Məqaləni çapa təqdim etdi: AMEA-nın müxbir üzvü Z.Şahverdiyev

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2017, № 2 (83)**

NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2017, № 2 (83)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2017, № 2 (83)**

**İLHAMİ ƏLİYEV**
*AMEA Naxçıvan Bölməsi*
*ilhamialiyev@yahoo.com.tr*

**UOT: 94(479.242)**

# XVI-XVIII ƏSRİN ƏVVƏLLƏRİNDƏ TƏBRİZ ŞƏHƏRİ İLƏ NAXÇIVANIN MƏDƏNİ-İQTİSADİ ƏLAQƏLƏRİ

***Açar sözlər:*** *Təbriz şəhəri, Naxçıvan, Böyük İpək yolu, mədəni-iqtisadi əlaqələr, ticarət*
***Key words:*** *Tabriz city, Nakhchivan, the Great Silk Road, cultural and economic relations, trade*
***Ключевые слова:*** *город Табриз, Нахчыван, Великий Шелковый путь, культурно-экономические связи, торговля*

Hələ qədimdən Azərbaycanın inkişaf etmiş mədəni mərkəzlərindən biri olan Naxçıvan diyarı XVI-XVIII əsrin əvvəllərində, yəni Səfəvilər dövründə də bu üstünlüyünü qoruyub saxlamışdır. Bu dövrdə istər ictimai-siyasi, istərsə də mədəni baxımdan bir sıra Azərbaycan şəhərləri – Şamaxı, Gəncə, Bakı, İrəvan, Ərdəbil, Qəzvin və s. ilə yanaşı Təbriz şəhəri ilə də Naxçıvan şəhəri və eyni adlı inzibati vahid sıx əlaqələr qurmuşdu.

Təbriz XVI-XVIII əsrin əvvəllərində Səfəvilər dövlətinin sosial-iqtisadi və mədəni baxımdan inkişaf etmiş əsas şəhərlərindən biri olmaqla yanaşı, bu dövlətin yarandığı vaxtdan 1555-ci ilədək paytaxtı olmuşdur. Göstərilir ki, "Dar-ül-səltənə" ("paytaxt") adını Təbriz Qəzvin və İsfahanla yanaşı hətta XVII əsrdə də itirməmişdir (2, s. 290). Səfəvilər dövlətinin sonrakı paytaxt şəhərləri ilə adının eyni vaxtda çəkilməsi Təbriz şəhərinin müqayisədə onlardan geri qalmadığını göstərirdi. Hətta ingilis taciri Artur Edvards 1568-1569-cu illərdə Səfəvi şahının sarayında olarkən Təbrizi İngiltərənin London şəhəri ilə müqayisə etmişdir (13, s. 244). Bu qədim Azərbaycan şəhəri həm də Səfəvilər dövlətinin bölündüyü inzibati ərazi bölgüsünə görə onun 13 bəylərbəyiliyindən biri olan Azərbaycan (Təbriz) bəylərbəyiliyinin mərkəzi olmuşdur. İnkişaf etmiş şəhərlərdən biri kimi Təbriz bir çox ölkədaxili və xarici şəhərlərlə mədəni-itisadi əlaqələr qurmuş, müəyyən tərəqqi illərində, məsələn, XVI əsrin 50-80-ci, XVII əsrin 40-80-ci illərində və s. təkcə Azərbaycanda deyil, həm də qonşu ölkələr arasında, Yaxın və Orta Şərqdə böyük siyasi, iqtisadi və mədəni mərkəz hesab olunmuşdu (10, s. 140, 142). Təbrizin mədəni-itisadi əlaqələr qurduğu bölgələrdən biri də qədim Naxçıvan diyarı idi. Naxçıvan şəhəri bu dövrdə "ölkə" inzibati ərazi statusu daşıyan tarixi Naxçıvan bölgəsinin mərkəzi olmuş, XVII əsrin ikinci yarısınadək elə Təbriz bəylərbəyiliyinin tərkibində idarə olunmuşdur. Eyni inzibati vahidliyin tərkibində idarə olunmaları Təbriz şəhəri və Naxçıvan ölkəsinin mədəni-iqtisadi baxımdan sıx əlaqələr qurmasının səbəblərindən biri olmuşdur.

Orta əsrlərdə istər iqtisadi, istərsə də mədəni münasibətlərin inkişafında ticarət yollarının əhəmiyyəti danılmazdır. Bəhs edilən dövrdə Böyük İpək yolunun qollarından biri olan, bir çox Yaxın Şərq ölkələrini Avropa ilə birləşdirən Təbriz-Mərənd-Naxçıvan-İrəvan-Ərzurum-İstanbul istiqamətdə davam edən bu qədim yolun Naxçıvanla Təbriz şəhərləri arasında ticarət əlaqələrinin inkişafında mühüm rolu olmuşdur. Bu yol daha geniş şəkildə aşağıdakı istiqamətdə idi: Təbriz - Sofiyan - Mərənd - Əsədabad - Culfa – Ziyaül-Mülk körpüsü - Naxçıvan - Qarabağlar karvansarası - Arpaçay - İrəvan - Üçkilsə - Kaqışqan qalası - Qumaşur kəndi - Çoban körpüsü - Həsən qalası - Ərzurum. Bu yoldakı şəhərlər, o cümlədən Təbriz - Naxçıvan arasında 5, Naxçıvan - İrəvan arasında 5, İrəvan - Qars arasında 9, Trabzon - Ərzurum arasında 5, İstanbul – Bursa arasında 5 günlük məsafə var idi (9, s. 131). XVII əsr Fransız səyyahı J.B.Tavernye də İrəvandan Təbrizə 10 günlük yol olduğunu və Naxçıvanın bu yolun düz ortasında olduğunu göstərmişdir (12, s. 37). Naxçıvan ərazisindən keçən bu yol həm də Təbrizdən Qara dəniz sahili şəhərlərinə gedən ən qısa yol idi. Həmçinin Təbrizdən Qara dəniz vasitəsilə Avropaya gedən ən münasib və qısa yollardan biri də Naxçıvandan keçən bu yol sayılırdı (7, s. 109-110). Naxçıvan və Culfa tərəfdən Araz çayının üzərindən keçən körpülər bu yolu xeyli rahatlaşdırırdı (3, s. 33). Deməli, Təbrizin Avropa şəhərləri ilə ticarət əlaqələrində Naxçıvandan keçən yol mühüm əhəmiyyət kəsb edirdi.

Təbrizdən Naxçıvana gələn ticarət yolu Naxçıvan şəhəri ilə yanaşı həmin dövrdə Ordubad, Azad, Culfa, Əylis, Qarabağlar kimi Naxçıvan ölkəsinin şəhərləri ilə də iqtisadi əlaqələrin qurulmasına xidmət etmişdir. S.Onullahi Təbrizin ticarət əlaqələri saxladığı Gəncə, Şamaxı, Bakı, Mahmudabad, Mərənd, Marağa, Xoy, Ərdəbil, Sarab, Qəzvin, Sultaniyyə və s. Azərbaycan şəhərləri sırasında Naxçıvan ölkəsinin şəhərlərini də göstərmişdir (10, s. 137). Bunu 1649-1668-ci illər arasında Əylisli Zəkəriyyənin ticarət məqsədilə hər il bir neçə dəfə Təbrizə gələrək oradan mal alıb Əylis, İsfahan, Ərzurum, İstanbul və s. yerlərə aparmasının özü də təsdiq edir (15, s. 40-42, 48, 52). Şəhərlərarası ticarətin inkişafı sayəsində Təbriz

bazarlarında Ordubad meyvələri xüsusi şöhrət qazanmışdı. Saraylarda və bütün mötəbər ziyafətlərdə plov xuruşu üçün Ordubadın sarı “Mələs” alçası və “Əbutalib” əriyinin qurusundan istifadə edilirdi (1, s. 48).

Bu dövrdə Culfa yaxınlığında Ziyaül-Mülk körpüsündən keçən dəvə karvanları Naxçıvandan Təbrizə barama, xam ipək, pambıq, qoz ləpəsi, quru meyvə, Şəfeyi üzümü, növbənöv ləziz armudlar və s. aparır, Təbrizdən isə zərli ipək parçalar, şallar, qadın bəzək şeyləri, ayaqqabı, xalı-xalça, ədviyyat, cürbəcür büllur, çini, şüşə qablar, misgərlik məmulatı və s. gətirirdilər (1, s. 48).

Orta əsrlərdə üstüörtülü Qeysəriyyə bazarları Şərq ölkələrində mövcud olmuşdur. Bəhs edilən dövrdə Təbriz və Ordubad şəhərlərində də Qeysəriyyə bazarları fəaliyyət göstərirdi. XVII əsr Holland səyyahı Yan Streysin qeydlərindən məlum olur ki, belə ticarət obyektlərində mahud, ipək, qızıl və gümüş saplardan toxunmuş parçalar, bahalı daş-qaşlar, xalçalar və s. qiymətli malların satışı həyata keçirilmişdir (19, s. 287). Bu cür bazarların hər iki şəhərdə olması bazar münasibətlərində də bölgələr arasında bir yaxınlığın olduğunu göstərir.

Təbriz əsasən qızılı və gümüşü saplarla işlənmiş məxmər, atlas, nazik ipək parçalar, qumaş çalmalar, ipək və pambıq örtüklər, Naxçıvan isə rəsmli parçalar (qələmkar), süfrəlik parçalar və s. istehsalı sahəsində ixtisaslaşmışdı ki, bu sənətkarlıq məhsulları da Təbriz və Naxçıvan şəhərləri ilə yanaşı bu bölgələrin ticarətində qiymətli məhsullardan hesab edilirdi. Qeyd edək ki, bu dövrdə Naxçıvan və Ordubad şəhərləri də Təbrizlə yanaşı Azərbaycanın toxuculuq mərkəzlərindən sayılan şəhərləri sırasına daxil olmuşdur (14, s. 55).

İqtisadi sahədə, kənd təsərrüfatında da hər iki bölgə arasında müəyyən əlaqələr mövcud olmuşdur. E.Çələbi “Səyahətnamə”sində göstərir ki, Naxçıvan və Təbrizdə bəhs edilən dövrdə 7 növ pambıq əkilib-becərilirdi (11, s. 566, 579). 1670-ci ildə Təbrizin ətrafında meyvə bağları saldırmaq üçün şəhər valisinin maliyyə işləri üzrə müavini Mirzə İbrahimin Ordubadın Əylis kəndindən alma və armud tinglərinin gətirilməsinə göstəriş verməsi, həmçinin Təbrizdəki toxuculuq karxanalarında müxtəlif çeşidli ipək və yun parçaları boyamaq üçün Ordubadddan cürbəcür boyaq otlarının gətirilməsi (1, s. 48) də hər iki bölgənin kənd təsərrüfatı, ticarət və sənətkarlıq əlaqələrinin olduğundan xəbər verir. Həm də bu qarşılıqlı əlaqələr çox mühüm əhəmiyyət kəsb edirdi. Belə ki, məsələn, XVII əsrdə Təbriz Azərbaycanda yüksək keyfiyyətli ipək parça – atlas istehsal edirdi (14, s. 61). Ordubad isə əla növ boyaq maddələrinin hazırlanması sahəsində şöhrət qazanmışdı. Deməli, Təbrizin atlas parça istehsal edən mərkəzlərdən biri kimi tanınmasında Ordubadın da yeri var idi.

Bəhs edilən dövrdə hər iki şəhərdə - Naxçıvan və Təbrizdə iri gümüş Səfəvi sikkələri kəsilirdi. Ə.M.Rəcəbli Səfəvilər dövründə xüsusi iqtisadi və siyasi əhəmiyyət kəsb edən şəhərlərin əksəriyyətində sikkə kəsən zərbxanaların olduğunu qeyd etmişdir. Alman səyyahı E.Kempfer öz qeydlərində Naxçıvan, İrəvan və Təbriz hakimlərinin sikkə kəsmə hüququna malik olduqlarını göstərmişdir (20, s. 130). İri gümüş Səfəvi pulları Təbriz və Naxçıvanla yanaşı Ərdəbil, Şamaxı və s. Azərbaycan şəhərlərində də kəsilirdi (7, s. 108). Səfəvi hökmdarlarından I İsmayıl (1501-1524), I Təhmasib (1524-1576), Məhəmməd Xudabəndə (1578-1587), I Abbas (1587-1628), I Süleyman (1666-1694), I Sultan Hüseynin (1694-1722) hakimiyyəti dövründə Təbriz və Naxçıvan şəhərlərində zərbxanaların olması, müxtəlif nominallı sikkələrin zərb edilməsi (16, s. 117) yerli hakimiyyət orqanlarının bu şəhərlərin iqtisadi əlaqələrinin inkişaf etdirilməsində maraqlı olduqlarını göstərir.

Təbrizlə Naxçıvanın mədəni əlaqələrinin inkişafında bu şəhərlərin inzibati mərkəz olmalarının da böyük rolu olmuşdur. Qeyd etdiyimiz kimi, bu Təbrizin 1555-ci ilədək paytaxt olması, bundan sonra Səfəvilər dövlətinin süqutunadək bu dövlətin əsas inzibati vahidlərindən biri olan Azərbaycan bəylərbəyiliyinin mərkəzi olması, ən əsası isə Naxçıvanın XVII əsrin I yarısınadək Təbriz, yəni Azərbaycan bəylərbəyiliyinin tərkibində idarə olunması ilə bağlı olmuşdur. XVII əsrin ortalarında Təbrizdə 47 mədrəsənin fəaliyyəti haqqında məlumat verilmişdir. Həmin vaxt Naxçıvan bölgəsində də məktəblər və mədrəsələr fəaliyyət göstərirdi. Bu zaman bölgədə təhsil verən ən məşhur mədrəsələrdən biri də Ordubad şəhərində olan mədrəsə idi. Zəmanəsinin nüfuzlu təhsil ocaqlarından olan bu mədrəsə Naxçıvan bölgəsinin, ümumiyyətlə Azərbaycanın hüdudlarından kənarda belə məşhur olmuş, qonşu ölkələrdən də buraya təhsil almağa gəlmişlər. Onun yetirmələri Təbriz, Bağdad, Nəcəf və başqa bu kimi elm, təhsil və mədəniyyət mərkəzlərində öz təhsillərini davam etdirərək tanınmış şəxsiyyətlərə çevrilmiş, Azərbaycanda və müsəlman şərqinin bir sıra ölkələrində yaşayıb fəaliyyət göstərmişlər (9, s. 319). Məsələn, XVI əsrdə Xacə Ətiq Ordubadi, Ziyayi Ordubadi və s. görkəmli naxçıvanlı mütəfəkkirlər öz yaradıcılıqlarının müəyyən dövrlərini Təbriz şəhərində fəaliyyət göstərmişlər.

Hər iki şəhərin yaxın mədəni-iqtisadi əlaqələrinin olması onların memarlıq şəhərsalma xüsusiyyətlərinə görə plan quruluşunun oxşarlığı baxımından da diqqəti cəlb edir. Bəhs etdiyimiz dövrdə Naxçıvan şəhərinin əsas mərkəzi Atabəylər memarlıq kompleksinin yerləşdiyi meydanda olmuşdur (4, s. 117). Qeyd etmək yerinə düşər ki, əsası Naxçıvan memarlıq məktəbinin banisi Əcəmi Əbu Bəkr oğlu Naxçıvani tərəfindən qoyulan Atabəylər memarlıq kompleksi hələ XII əsrdən şəhərin mərkəzi olmuşdur. Şəhərin mərkəzi hissəsində olan tikililərdən məlum olur ki, həmin vaxt burada binalar əsasən inzibati, dini, ticarət məqsədli və yaşayış evlərindən ibarət olmuşdur. Maraqlı memarlıq kompozisiyasına malik bu əzəmətli ansamb lda ticarət, saray və dini komplekslər

üzvi şəkildə qovuşmuşdur. Qeyd etməliyik ki, üç müxtəlif təyinatlı kompleksin vahid ideyaya sadiq, harmonik bir şəkildə planlaşdırılması üsulu Azərbaycanın orta əsrlər şəhərsalma sənəti təcrübəsi tarixində istisna təşkil etmir. Bu üsul dövrün tələblərinə uğurla cavab vermiş Təbrizin inzibati-ictimai mərkəzinin planlaşmasında da izlənilir. Həmin üç qrup tikintilər şəhərin mərkəzində, onun nisbətən yüksək hissəsində yerləşərək qeyri-müəyyən formalı meydanın memarlıq təşkilində fəal iştirak etmişdir. O zaman bu meydandan Təbriz-Naxçıvan ticarət yolu keçirdi (8, s. 54). Plan quruluşunun oxşarlığı şəhərlərin memarlıq sahəsində də bir-birilə yaxın olduğunu göstərir. Qeyd edək ki, bəhs edilən dövrdə Naxçıvan memarlıq məktəbi öz inkişafını əvvəlki kimi olmasa da, müəyyən dərəcədə davam etdirirdi. Lakin Ə.V.Salamzadə göstərir ki, XVI-XVII əsrlərdə Naxçıvan memarlarının öz doğma şəhərlərinin hüdudlarından kənarda hər hansı bina inşa etmələri haqqında məlumat olmadığından hesab etmək olar ki, Naxçıvan XV əsrdən etibarən əsas memarlıq mərkəzi kimi öz yerini Təbrizə vermişdir (18, s. 109; 7, s. 156). Bu isə Təbrizlə Naxçıvanın qarşılıqlı mədəni əlaqələrinin – memarlıq ənənələrinin bir-birini tamamladığını göstərir.

Aparılan araşdlırmalardan aydın olur ki, XVI-XVIII əsrin əvvəllərində Azərbaycanın tarixi torpaqlarından biri olan Naxçıvan bölgəsinin Təbriz şəhəri ilə mədəni-iqtisadi baxımdan sıx əlaqələri olmuşdur. Belə bağlılığın əsas səbəblərinə gəldikdə isə bu daha çox onların eyni inzibati vahidliyin tərkibində olması və Böyük İpək yolunun bu istiqamətdə davam edən qollarından birinin üzərində yerləşməsi sayəsində olmuşdur.

## ƏDƏBİYYAT


1. Baxşıyev Ə. Ordubad Səfəvilər dövründə // Elm və həyat jurnalı, 1990, № 11-12, s. 48.
2. Əfəndiyev O.Ə. Azərbaycan Səfəvilər dövləti, Bakı, Azərnəşr, 1993, 301 s.
3. Əliyev F.M. XVIII əsrin birinci yarısında Azərbaycanda ticarət, Bakı, Azərbaycan SSR EA Nəşriyyatı, 1964, 124 s.
4. Əliyev İ.N. Naxçıvan bölgəsi Səfəvilər dövründə, Bakı, Elm və təhsil, 2014, 224 s.
5. İsayev E. Böyük İpək yolu və Naxçıvan, Bakı, Elm və təhsil, 2012, 214 s.
6. Məmmədova İ.G. Təbriz şəhərinin maddi mədəniyyəti (tarixi-etnoqrafik tədqiqat), Bakı, Çaşıoğlu, 2016, 500 s.
7. Məmmədov R.A. Naxçıvan şəhərinin tarixi oçerki (orta əsrlər dövrü), Bakı, Elm, 1977, 158 s.
8. Muradov V.H. Orta əsr Azərbaycan şəhərləri, Bakı, Maarif, 1983, 157 s.
9. Naxçıvan tarixi, 3 clddə, I c., Naxçıvan, Əcəmi, 2013, 452 s.
10. Onullahi S.M. XIII-XVII əsrlərdə Təbriz şəhəri (Sosial-iqtisadi tarixi), Bakı, Elm, 1982, 280 s.
11. Evliya Çelebi Seyahatnamesi. Sadeleştiren, tevsik temel kuran Necati Aktaş, baskıya hazırlayan Mumin Çevik, 10 ciltte, I-II c., İstanbul, Üçdal Neşriyat, 1985, 767 s.
12. Tavernier J.B. XVII asır ortalarında Türkiye üzerinden İran'a seyahat, Çeviren Ertuğrul Gültekin. İstanbul, Kervan kitabçılık, 1980, 112 s.
13. Английские путешественники в Московском государства в XVI веке, Перевод с англ.яз. Ю.В.Готье. Москва, Соцэкгиз, 1938, 315 с.
14. Гейдаров М.Х. Ремесленное производство в городах Азербайджана в XVII в. Баку, Изд-во Академии Наук Азербайджанской ССР, 1967, 200 с.
15. Дневник Закария Акулисского. Ереван, АРМФАН, 1939, 139 с.
16. Пахомов Е.А. Монеты "Нахчывана" // Известия АН Азерб.ССР, 1949, № 5. с.114-118.
17. Петрушевский И.П. Азербайджан в XVI-XVII веках / Сборник статей по истории Азербайджана. Баку: Изд-во АН Азербайджанской ССР, 1949, 225-298 с.
18. Саламзаде А.В. Архитектура Азербайджана XVI-XIX вв. Баку: АН Азерб. ССР, 1964, 254 с.
19. Стрейс Я.Я. Третье путешествие. http://www.vostlit.info/Texts/rus13/ Strejs/frametext34. htm s. 287
20. Tadhkirat al-Muluk. A manual of Safavid administration (circa 1137/1725), Persian text in facsimile (B.M. Or. 9496). Translated and explained by V.Minorsky. London: Luzac and Co., 46 Great Russelt street, 1943, 218 p.


## ABSTRACT


**lhami Aliyev**


**The cultural and economic relations of Nakhchivan with Tabriz city at the 16th and the beginning of 18th century**


In the article it is dealt with the cultural and economic relations of the Nakhchivan region with Tabriz city at 16th and the beginning of 18th century. It is noted that the Nakhchivan country, which had been one of the developed cultural centers of Azerbaijan since ancient times, had kept this superiority at the 16th and the beginning of 18th century, that is at the Safavids period. In this period Tabriz also had been one of

the main socio-economic and cultural developed cities of the Safavids state, in addition it had been the capital city of the Safavids state since its inception until 1555. According to the results of conducted investigations it is noted that according to the territory division of the Safavids State Tabriz had been one of its beglarbegies, and Nakhchivan had been managed in its structure till the first half of the 17th century. Obeying to the same administrative unity and the both region locating on one of the importand branches of the Great Silk Road had given wide opportunities being close with Tabriz and Nakhchivan from the cultural and economic relations view point and to establish close relations in some fields.


## РЕЗЮМЕ

**Ильхами Алиев**

**Культурно-экономические связи Нахчывана с городом Табриз в XVI- начале XVIII века**

В статье рассматривается проблема культурно-экономических связей Нахчывана с городом Табриз в XVI- начале XVIII века. Обосновывается мысль, что еще в древности Нахчыванский край, как одним из развитых культурных центров Азербайджана в XVI- начале XVIII века и в период правления Сефевидов сохранял свое преимущество в этой области. В этот период и Табриз, будучи одним из развитых в социально-культурном отношении городв Сефевидского государства, был его столицей с момента образования Сефевидского государства вплоть до 1555 года. На основе проведенных исследований отмечается, что по факту разделения административно-территориальных субъектов Сефевидского государства Табриз был одним из его бейлербеков, а Нахчыван управлялся в его составе до первой половины XVIII века. Подчинение к одной и той же административной единице и нахождение оба региона на одной из ветвь, имеющих важное значение Великого Шелкового пути способствовали сближению Табриза и Нахчывана в культурно-экономическом отношении, создавали возможность для их тесной связи в ряде сферах.



NDU-nun Elmi Şurasının 30 mart 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 07).

Məqaləni çapa təqdim etdi: AMEA-nın həqiqi üzvü İ. Hacıyev

**İBRAHİM KAZIMBƏYLİ**
*"Naxçıvan" Universiteti*
*e-mail: ibrahimkazimbeyli@gmail.com*

**UOT: 94(479)**

# XIX ƏSRİN İKİNCİ YARISI – XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ İRƏVAN BÖLGƏSİNİN İQTİSADİ HƏYATI

***Açar sözlər:*** *İrəvan xanlığı, İrəvan bölgəsi, İrəvan quberniyası, İqtisadi vəziyyət, İrəvan quberniyası iqtisadiyyatı*

***Key words:*** *Iravan khanate, Iravan province, Iravan governor, economical situation, the economy of Iravan governor.*

***Ключевые слова:*** *Эриванское ханство, Эриванский регион, Эриванская губерния, экономическая положение, экономика Эриванской губернии.*

Cənubi Qafqazın iqtisadi cəhətdən mənimsənilməsi, onun dünya ticarət dövriyyəsinə daxil edilməsi və rus fabrik mallarının satış bazarına çevrilməsi problemi islahatdan sonrakı Rusiyanın iqtisadi siyasətinin başlıca məsələlərindən birinə çevrilmişdi. Artıq XIX əsrin 70-ci illərində rəsmi mətbuat, ayrı-ayrı tədqiqatçılar və şərhçilər Cənubi Qafqazın iqtisadi cəhətdən mənimsənilməsinin zəruriliyi məsələsini qoyurdular [4, şöbə 2, s. 45]. İnkişaf etməkdə olan kapitalizmin mənafeyi müdafiə olunaraq göstərilirdi ki, Cənubi Qafqaz bazarını mənimsəmədən İran bazarının da mənimsənilməsini həyata keçirmək olmaz [4, şöbə 2, s. 50-51].

Lakin bununla yanaşı, Rusiya kapital nümayəndələrinin bütün cəhdlərinə baxmayaraq, Cənubi Qafqazı satış və xammal bazasına çevirmək cəhdləri yalnız XIX əsrin 80-ci illərinin sonunda reallaşmağa başladı.Cənubi Qafqazın iqtisadi cəhətdən mənimsənilməsi baxımından bölgənin tranzit əhəmiyyətinin artırılması, dəmir və şose yollarının cəkilməsi zəruri idi.

Artıq XIX əsrin 50-ci illərinin sonundan etibarən Rusiyadan Cənubi Qafqaza yolların çəkilməsi məsələsi Rusiya hakim dairələrinin müzakirə mövzusuna çevrilmişdi. Regionda dəmir yol şəbəkəsinin yaradılması layihəsi ilə çıxış edən V.Zaqorski və Çerevin öz mülahizələrini belə əsaslandırırdılar: "Dəmir yolu bu diyarda bütün sahələrdə, o cümlədən ticarət baxımından radikal dəyişikliklərə gətirib çıxaracaq. O, sənayeni inkişaf etdirəcək, yerlilərə yeni, hələ onlar tərəfindən sınaqdan keçirilməmiş pul dövriyyəsi üsulunu göstərəcəkdir" [3, s. 8].

Cənubi Qafqazda dəmir yollarının çəkilməsinin zəruriliyi hakim dairələrin iqtisadi, siyasi və hərbi-strateji maraqları ilə şərtlənirdi. Qafqaz canişini knyaz Baryatinskinin qeydlərindən məlum olur ki, dəmir yolu çəkilişi ilk növbədə, bir sıra məhsulların Cənubi Qafqazdan Rusiyaya gətirliməsi üçün çəkilən nəqliyyat xərclərin azalmasına, Cənubi Qafqazın Qərblə Şərq arasında körpüyə çevrilməsinə səbəb ola bilərdi [3, s. 10].

Beləliklə, göründüyü kimi, Cənubi Qafqazda dəmir yolu şəbəkəsinin yatradılması ilkin olaraq ticari-iqtisadi motivlərlə şərtlənirdi. Bu dövrdə çarizm öz qarşısına Cənubi Qafqazı dünya əmtəə dövriyyəsinə cəlb etmək, onun yerli xüsusiyyətlərini rus sənayesinin ehtiyaclarına uyğunlaşdırmaq və sonucu üçün burada daxili bazar yaratmaq məqsədi qoymuşdu.

1861-ci ildə çar II Aleksandrın Cənubi Qafqazda dəmir yollarının çəkilməsi planını təsdiq etməsi ilə regionda müvafiq işlərə başlanıldı. Qara dəniz sahilindən –Potidən Tiflisə qədər olan xəttin tikintisi 1872-ci ildə başa çatdırıldı. Bundan sonra Bakı-Tiflis istiqamətində başlayan işlər isə 1883-cü ildə başa çatdırıldı. Bu dövr ərzində Rion-Kutais, Bakı-Suraxanı-Sabunçu xətləri də çəkildi.

Tiflis-Poti və Tiflis-Bakı dəmir yollarının çəkilməsi ilə Cənubi Qafqazın dünya əmtəə dövriyyəsinə cəlb edilməsi, onun təbii sərvətlərinin istismarı üçün əsas qoyuldu, Qara və Xəzər dənizlərini birləşdirmək imkanı yarandı, Cənubi Rusiya ticarəti Qara dəniz vasitəsilə Cənubi Qafqazla əlaqələndi. Lakin bununla yanaşı, bu dəmir yol xətləri hələ də Cənubi Qafqazın şərq bölgələri ilə Rusiyanın əlaqəsi məsələsini həll etmədiyi kimi, İranın iqtisadi cəhətdən mənimsənilməsi məsləsini də açıq qoymuşdu.

Dəmir yollarının çəkilişi ilə eyni zamanda yeni şose yollarının çəkilməsi və köhnələrinin abadlaşdırılması məsələsinə də diqqət yetirilirdi.

Hələ 1868-ci ildə Qafqaz canişini Cənubi Qafqaz quberniyalarının qubernatorlarından diyarda mövcud və çəkilməsi zəruri olan yollar haqqında məlumat tələb etmişdi. Qubernatorlardan daxil olan məlumatları nəzərdən keçirən xüsusi komissiyanın 1871-ci ildə qəbul etdiyi qərara əsasən, bütün mövcud və tikiləcək yollar ilk növbədə malik olduğu hərbi əhəmiyyətinə görə dövlət və iqtisadi əhəmiyyətli yollara bölündü. Üçüncü kateqoriyaya daxil olan yollar quberniya əhəmiyyətli yollar idi [23, s. 148].

İrəvan bölgəsindən keçən yollardan Dilican-Gümrü qolu da daxil olmaqla Tiflis-İrəvan yolu dövlət əhəmiyyətli hesab edilirdi. Bu yola hərbi baxımdan xüsusi əhəmiyyət verən canişinlik onu tamamilə şose yoluna çevirməyi zəruri hesab edirdi.

Tiflis-Culfa tranzit yolu İrəvan vasitəsilə Tiflisi İranla əlaqələndirərək, onu bu ölkə ilə Cənubi Qafqaz arasında körpüyə çevirirdi. Bu yolun İrəvan üçün əhəmiyyəti olduqca böyük idi. Şosenin çəkilməsi ilə əlaqədar olaraq, Tiflis və İrəvan arasında yük daşımalarının 1 pud üçün olan qiyməti 45 qəpikdən 30 qəpiyə enmiş, eyni zamanda, daşımaların özünün ümumi həcmi nəzərəçarpacaq dərəcədə artmışdı.

İrəvan və Zəngəzurdan keçən Naxçıvan-Şuşa magistralı da böyük iqtisadi əhəmiyyətə malik idi. Kür və Araz vadilərini birləşdirən bu yol, Zəngəzuru bir tərəfdən İrəvanla, digər tərədən isə Bakı ilə birləşdirməklə, Bakı vasitəsilə İranın Rusiya ilə ticarət aparmasında mühüm faktor kimi çıxış edirdi. Lakin qeyd etmək lazımdır ki, bu yolun, xüsusilə onun Biçənək-Gorus sahəsinin tikintisi yarımçıq qaldığından gözlənilən əhəmiyyəti əldə edə bilmədi.

XIX əsrin 80-ci illərinin ortalarında Cənubi Qafqazda kifayət qədər yolların çəkilməsinə baxmayaraq, onlar diyarı Rusiya ilə birlədirmədiyindən, Cənubi Qafqaz Rusiya üçün hələ də potensial olaraq qalırdı. Rusiya ilə Cənubi Qafqaz arasında əlaqələrin zəruriliyini bir daha göstərən 1877-1878-ci illər Rusiya-Osmanlı müharibəsindən sonra bu məsələ yenidən gündəmə gəldi.

Bütün dəmir və şose yollarının tikintisi 1889-cu ildən xüsusi adamlardan tamamilə xəzinənin ixtiyarına keçdi. Həmin dövrdə tikintisi 1894-cü ildə başa çatan Petrovsk-Qroznı-Beslan dəmir yolunun inşasına başlandı. Bu yol tikintisi hələ 1875-ci ildə başa çatmış və ümumrusiya dəmiryol şəbəkəsi ilə birləşmiş Rostov-Vladiqafqaz xətti ilə birləşdi.1900-cü ildə Petrovsk-Qroznı-Beslan xətti ilə birləşən Petrovsk-Dərbənd-Biləcəri dəmir yolu xəttinin inşası başa çatdırıldı [18, s. 431-456]. Bu dəmir yollarının inşası ilə Cənubi Qafqaz dəmir yolları xətlərinin ümumrusiya dəmiryol şəbəkəsinə birləşməsi başa çatdı.

XIX əsrin sonlarında Cənubi Qafqazda inşa edilmiş dəmir yollarından yalnız biri İrəvan bölgəsindən keçirdi. Bu yolun Tiflis-Gümrü-İrəvan magistral xətti 1902-ci, İrəvan-Uluxanlı-Culfa sahəsi isə 1908-ci ildə açılmışdı.

İrəvan bölgəsində dəmir yollarının iqtisadi əhəmiyyəti bölgənin təsərrüfat həyatı yanaşı, onun həm beynəlxalq, həm də imperiyadaxili ticari əhəmiyyəti ilə şərtlənirdi.

Dəmir yolu tikintisinin həyata keçirilməsi və Cənubi Qafqazın üümumrusiya şəbəkəsinə qoşulması ilə diyarın iqtisadi cəhətdən mənimsənilməsi yolunda başlıca əngəllərdən biri aradan qalxmış oldu. Diyarın zəngin sərvətlərini istismar etmək imkanı qazanmış rus və xarici – ingilis, İsveç, alman, Belçika və fransız kapitalı buraya axışmağa başladı.

Lakin bununla yanaşı qeyd etmək lazımdır ki, rus, o cümlədən xarici kapital üçün Cənubi Qafqazın bütün hissələri eyni dərəcədə maraq kəsb etmirdi. Məsələn, Abşeron yarımadasının, o cümlədən mis, marqans və s. sənaye sahələrinin rus və xarici kapitalı cəlb etdiyi bu dövrdə İrəvan bölgəsinə maraq demək olar ki, yox dərəcəsində idi. Bölgədə mis sənayesi mövcud olsa da, o XIX əsrin sonuna qədər aşağı texniki və məhsuldarlıq göstəricisi şəraitində fəaliyyət göstərirdi. Uralda çoxdan möhkəmlənmiş rus kapitalını bölgə cəlb etmirdi.

Beləliklə, deyilənlərdən belə bir nəticəyə gəlmək olar ki, islahatdan sonrakı dövrdə kapitalizmin inkişafı İrəvan bölgəsində digər Cənubi Qafqaz quberniyalarına nisbətən olduqca zəif gedirdi. Statistik məlumatlar da irəli sürdüyümüz bu mülahizəni təsdiq etməkdədir. 1893-1894-cü ilin məlumatları göstərir ki, Tiflis quberniyasında sənayesində çalışan fəhlələrin xüsusi çəkisi 24,2%, ümumi məhsul istehsalı 7,4 %, Kutais quberniyasında 20% və 46,1%, Yelizavetpol quberniyasında 24,3% və 5%, Bakı quberniyasında 14,9% və 38,8% idisə, İrəvan quberniyasında bu göstəricilər müvafiq olaraq 16,6% və 2,7% idi [23, s. 158]. İrəvan bölgəsində mövcud olan sənaye müəssisələrinin sahəvi strukturuna və xarakterinə nəzər saldıqda məlum olur ki, mis sənayesi istisna olmaqla onlar yarımkustar xarakterli idilər: 2214 müəssisə dənüyütmə, 196 yağəritmə, 361 pambıqtəmizləmə, şərabçılıq və s.

İrəvan bölgəsində sənayenin zəif inkişaf etməsi şəhər əhalisinin artımında da özünü göstərirdi. Statistik məlumatlardan aydın olur ki, Bakı əhalisinin 1865-ci ildə 14.715 nəfərdən artaraq 1886-cı ildə 86.611 nəfərə, Yelizavetpol əhalisinin 15.051 nəfərdən 20.294 nəfərə, Tiflis əhalisinin 67.790 nəfərdən 76.445 nəfərə, Kutais əhalisinin 11.807 nəfərdən 22.643 nəfərə çatdığı halda, İrəvan şəhərində bu rəqəm müvafiq olaraq 14.070 və 17.738 olmuşdur [23, s. 160].

Cənubi Qafqazda islahatdan sonrakı dövrdə həyata keçirilən tədbirlər İrəvan bölgəsinin təsərrüfat həyatında bir sıra mühüm dəyişikliklərə gətirib çıxardı. Bu dəyişikliklər özünü həm kənd təsərrüfatında, həm də sənayedə kapitalist münasibətlərinin inkişafında göstərirdi.

Kənd təsərrüfatında meydana gələn dəyişikliklərin mahiyyətini bu sahədə əmtəə münasibətlərinin hakim təzahürə çevrilməsi ilə müşayiət olunurdu. XIX əsrin sonlarına doğru kənd təsərrüfatı tamamilə əmtəə xarakteri daşıyırdı.

Beləliklə, kapitalist münasibətlərinin inkişafının nəticəsi olaraq bölgədə kənd təsərrüfatı istehsalını tələb edən daxili bazar yaranmağa başladı. Digər tərəfdən, Cənubi Qafqazın kənd təsərrüfatı məhsullarına kəskin ehtiyac duyan rus sənayesinin tələbatı da kapitalist münasibətlərinin inkişafına rəvac verirdi. Bu tələbatı qarşılamaq üçün bölgədə kənd təsərrüfatının ixtisaslaşması tələb olunurdu ki, bu da ticarət əkinçiliyinin inkişafında özünü göstərdi. Məsələn, Ağrıdağ vadisində kənd təsərrüfatının ixtisaslaşması bir tərəfdən vadi daxilində, digər tərəfdən isə vadi ilə dağətəyi və dağlıq bölgələr arasında əmtəə dövriyyəsi üçün əlverişli şərait yaratdı. Bunun nəticəsində düzən rayonların pambıqçıları dənli bitkilər istehsal edən bölgələrin kəndliləri ilə ticarət əlaqələri qururdular. Bu sonuncu bölgələr isə öz növbəsində, ixtisaslaşmaya məruz qalırdılar. Beləliklə, bütün kənd təsərrüfatı kapitalist münasibətlərinə cəlb olunurdu.

İrəvan bölgəsində ticarət əkinçiliyinin meydana gəlməsində ilk ciddi stimul rolunu rus toxuculuq sənayesinin inkişafı və onun pambığa böyük tələbatı oynadı. Sonrakı dövrlərdə ticarət pambıqçılığı ilə paralel şəkildə inkişafı daxili bazarın genişlənməsi ilə bağlı olan şərabçılıq da inkişaf etməyə başladı.

Bazarın tələbatına tabe olan yeni yaranmış bu münasibətlər istehsalçının həm satıcıya, həm də alıcıya çevrilməsinə səbəb oldu. Şərab, pambıq və üzüm istehsalçısının çörəyə olan tələbatı ticarət əkinçiliyinin daha da genişlənməsinə gətirib çıxardı. Müəyyən bölgədə hər hansı bir bitki üzrə ticarət əkinçiliyinin inkişafı, digər bölgələrin də kənd təsərrüfatının bu və ya digər sahəsi üzrə ixtisaslaşmasına da təsir göstərirdi.

İrəvan bölgəsində ticarət əkinçiliyinin erkən inkişaf etdiyi sahələrdən biri pambıqçılıq olmuşdur.

İslahatdan sonrakı dövrdə rus toxuculuq sənayesi olduqca coşqun inkişaf dövrü keçirirdi. XIX əsrin 70-ci illərindən başlayaraq 80-ci illərin sonuna qədər Rusiyada pambığın digər kapitalist ölkələri ilə müqayisədə satış həcminin olduqca böyük olması toxuculuq sənayesinin yüksək inkişafının göstəricisi idi. Statistik məlumatlardan aydın olur ki, 1869-cu ildən 1883-cüilədək olan dövrdə İsveç 28 tay, Almaniya 437 tay, Hollandiya 30 tay, Belçika 65 tay, Fransa 104 tay, İspaniya 112 tay, İtaliya 105 tay, Avstriya 185 tay, Rusiya isə 417 tay pambıq sərf etmişdi [21, s. 636].

Qeyd etmək lazımdır ki, rus toxuculuq sənayesi həmin dövrdə xammal baxımından tamamilə idxaldan asılı idi. Statistik məlumatlar göstərir ki, Rusiya 1869-cu ilə 3.379 min pud, 1883-cü ildə isə 9.184 min pud pambıq və iplik idxal etmişdi [22, s. 253].

Xammal baxımından tamamilə xarici bazardan asılı olan Rusiya xüsusilə 1862-ci ildə onun əsas pambıq tədarükçüsü hesab olunan ABŞ-da vətəndaş müharibəsi baş verdiyi zaman xammal qıtlığı ilə üzləşdi. Bu hadisə Rusiyanı özünün xammal bazasını yaratmaq üçün konkret əməli addımlar atmağa sövq etdi.

XIX əsrin 60-cı illərində Rusiyada baş vermiş xammal böhranına qədər hakim dairələrin Cənubi Qafqazda pambıqçılığı inkişaf etdirmək üçün həyata keçirdiyi hər hansı tədbirə rast gəlinmir. Sonrakı dövrlərdə isə "Qafqaz Kənd Təsərrüfatı Cəmiyyəti" maraqlı tərəflərlə birlikdə əkin sahələrinin genişləndirilməsi və məhsuldarlığın artırılması istiqamətində addımlar atmağa başladı. Bu tədbirlərdən ən mühümləri yerli pambıq sortunun Amerika sortu ilə əvəz edilməsi, təcrübə stansiyasının açılması, pambıqçılıqla bağlı broşuraların nəşr edilməsi, amerikalıların təcrübəsini öyrənmək məqsədi ilə mütəxəssislərin Amerikaya ezam edilməsi və s. idi. İrəvanda keçmiş sərdar bağında nümunəvi təcrübə pambıqçılıq stansiyasının təsis edilməsi də bu dövrə aid idi.

Beləliklə, XIX əsrin 70-ci illərində İrəvan bölgəsinin düzən ərazilərinin kənd təsərrüfatının rus toxuculuq sənayesinin möhkəm xammal bazasının yaradılması məqsədilə pambıqçılıq istiqamətində ixtisaslaşması zərurətə çevrilmişdi. Bütün bunların nəticəsində İrəvan quberniyasında pambıq istehsalı yüksək templə inkişaf edərək, bir onillikdə (1861-1870) 9 dəfə artmışdı [17, s. 11].

İrəvan bölgəsində pambıqçılığın inkişafı ticarət firmalarının pambıq almaq və Rusiyaya göndərmək üçün buraya öz təmsilçilərini göndərməsi ilə müşayiət olunurdu.

1884-cü ildə S.Morozov və Nikolskinin firması İrəvana Amerika pambıq toxumu göndərdi. 1886-cı ildə isə Yoroslavldan A.Korzikin bölgənin müxtəlif yerlərində alış məntəqələri təşkil etdi. Onların ardınca bölgəyə Moskvadan Vladimirov-Alekseyevin, Lodzdan Poznan firması, Tiflisdən Çitaxovun, Moskvadan tacir Gevorkoyanların firmaları bölgədə təmsil olundular [17, s. 11-18]. Bölgədə təmsil olunan müxtəlif firmalar arasında mövcud olan rəqabətin pambıqçılığın daha da sürətlə inkişaf etməsinə rəvac verdiyini statistik məlumatlar da təsdiq edir. Məlumatlardan görünür ki, əgər bölgədə 1887-ci ildə 326.048 pud pambıq istehsal edildiyi halda, bu rəqəm 1889-cu ildə artıq 508.764 puda çatmışdı [17, s. 18]. Əkin sahələrinin və istehsal edilən məhsulun həcmi ilə yanaşı, məhsuldarlığın da artması müşayiət olunurdu. Məlumatlara görə, İrəvan quberniyasında hər desyatindən 15 pud pambıq götürülürdü [21, s. 636].

Qeyd etmək lazımdır ki, həmin dövrdə bütün Cənubi Qafqazda pambıq əkin sahələri genişlənirdi. Bu hal ABŞ-la ticarət müqaviləsinin dayandırılması nəticəsində pambığın qiymətinin artması ilə izah edilə bilər.

Pambıqçılıq kimi əməktutumlu sahə çoxsaylı işçi qüvvəsi tələb etdiyindən, burada muzdlu əməyin tətbiqi heç bir şübhə doğurmur. Muzdlu əmək əsasən məhsul yığımı zamanı tətbiq olunurdu. Pambıq yığımı mövsümündə dağlardan və şimal qəzalarından, başlıca olaraq Gümrüdən, Eçmiədzin qəzasının yuxarı

kəndlərindən və Yeni Bəyaziddən Ağrıdağ vadisinə qazanc üçün çox sayda qadın və kişi gəlirdi. Pambıq yığımı ağır zəhmət tələb edən iş olsa da, iş müqabilində verilən əməkhaqqı 20 qəpiyi aşmırdı [23, s. 211].

İrəvan bölgəsində istehsal olunan, onun hüdudlarından kənara ixrac edilən və tamamilə ticari xarakter daşıyan pambıq ticarət firmaları və alış məntəqələri tərəfindən çoxsaylı alverçilər vasitəsilə əldə olunurdu.

Öz məhsulunu alıcılara verməzdən əvvəl kəndli onu təmizləməli idi. Pambıqçıların hamısı şəxsi pambıqtəmizləmə müəssisələrinə malik olmadıqlarından, pambığın təmizlənməsi varlı təsərrüfatlara məxsus olan müəssisələr tərəfindən həyata keçirilirdi. Çox zaman həmin müəssisələrin sahibləri özləri pambığı kəndlidən alır, təmizləyərək ticarət firmalarına satırdılar. İrəvan quberniyasında belə kiçik və orta pambıqtəmizləmə zavodlarının sayı 360-a çatırdı [23, s. 213].

İrəvan bölgəsində üzümçülük islahatdan sonrakı dövrdə artıq kapitalist inkişaf yoluna qədəm qoymuşdu. Ticarət üzümçülüyü əsasən İrəvan və Eçmiəədzin qəzalarında geniş yayılmışdı.

İrəvan qəzasının 221 kəndindən torpaq-iqlim şərtlərindən asılı olaraq yalnız vadidə yerləşən 71 kənddə üzümçülüklə məşğul olmaq mümkün idi. Statistik məlumatların təhlili göstərir ki, 1886-cı ildə 5.428 təsərrüfatdan ibarət olan həmin 71 kəndin əhalisinin 29,9 %-i üzüm bağına malik deyildi, əhalinin 51%-i isə cəmi 0,5 desyatin bağ sahəsinə malik idi. Əhalinin 73%-ni təşkil edən birinci iki qrup cəmi 693 desyatin üzüm bağına, yaxud bütün qəzanın üzüm sahələrinin 30%-nə sahiblik edirdi [23, s. 214].

Buradan göründüyü kimi, qəzanın üzüm bağları bir qayda olaraq imkanlı qrupların əlində cəmlənmişdi. Məhz buna görə də varlı şəxslərin əlində cəmlənmiş üzümçülük ticari xarakter daşımalı idi. Bağçılığın göstərilən xarakteri qəzanın ixtisaslaşmış kəndlərinin simasında da özünü büruzə verirdi. Statistik məlumatlar göstərir ki, qəzada ixtisaslaşmış 11 belə kənd olmuşdur [20, s. 35]. Məlumatlardan aydın görünür ki, bu 11 kənddə qəzanın bütün üzüm sahələrinin 42,53%-i cəmlənmişdi.

İki və daha çox desyatin üzüm bağına sahib olan şəxslər kənd varlılarını təmsil edirdilər. Təsərrüfatların ümumi sayında onların xüsusi çəkisinin 9,6% təşkil etməsinə baxmayaraq, bu təsəsrrüfatlar öz əllərində 374 desyatin üzüm bağı, başqa sözlə bütün üzüm bağlarının 39,7%-ni cəmləşdirmişdilər.

İrəvan bölgəsində üzümçülüyün varlı şəxslərin əlində cəmlənməsi onun ticari xarakteri ilə yanaşı, həm də digər kənd təsərrüfatı sahələrindən fərqli olaraq, xeyli kapital qoyuluşu tələb etməsi ilə də şərtlənirdi. Hesablamalara görə, hər desyatin üzüm bağı becərilmənin ilk üç ilində 200 rubl məbləğində davamlı sərmayə tələb edirdi [23, s. 215]. Buna görə də üzümçülüklə daha çox varlı təsərrüfatlar məşğul ola bilirdilər.

İslahatdan sonrakı dövrdə İrəvan bölgəsində, xüsusilə XIX əsrin sonu – XX əsrin əvvəllərində üzümün texniki emalı geniş inkişaf etmişdi. Şərabçılığın əvvəlki dövrlərdə də bu və ya digər dərəcədə inkişaf etməsinə baxmayaraq, şəraba olan cüzi tələbat onun texniki emalına imkan yaratmırdı. Üzümün texniki emalının aşağı səviyyədə olması həm də erməni müəllifi O.Tumanyanın da etiraf etdiyi kimi, üzümçülük bölgələrində müsəlman əhalisinin xüsusi çəkiyə malik olması ilə şərtlənirdi [23, s. 222].

XIX əsrin ikinci yarısında bir tərəfdən kənd təsərrüfatının ixtisaslaşması, digər tərəfdən isə məhsulun həm daxili, həm də xarici bazarda realizə olunması imkanının meydana gəlməsi nəticəsində vəziyyət dəyişdi. Bununla əlaqədar olaraq üzümün realizə edilməsinin forma və şərtlərinin dəyişməsi müsəlman əhalinin də bu prosesə cəlb olunmasına rəvac verdi.

Əvvəlki dövrdə İrəvan bölgəsində üzümün emalı şərabçılıqla məhdudlaşırdı, sonrakı dövrlərdə isə araqçəkmə və konyak istehsalı inkişaf etdi.

Bölgədə şərabçılıqla primitiv şəkildə məşğul olan “müəssisələrlə” yanaşı, tədricən zavodlar meydana gəlməyə və təkmilləşməyə başladı. Məsələn, XIX əsrin ikinci yarısında İrəvanda 4 belə zavod fəaliyyət göstərirdi. Artıq XIX əsrin 90-cı illərində İrəvan bölgəsində şərab istehsalının iki dəfə artması müşayiət olunurdu. Əgər İrəvan quberniyasında 1895-ci ildə 588.000 vedrə şərab istehsal olunmuşdusa, bu rəqəm 1900-cü ildə 1.180.000 vedrəyə çatmışdı [20, s. 77].

Şərabçılığın yüksək inkişaf etməsinin səbəbi təzə üzümün realizəsindən fərqli olaraq onun müqayisə olunmayacaq şəkildə gəlirli olması ilə izah edilir.

Şərabçılıqdan fərqli olaraq daha asan satılması və başa gəlməsi səbəbindən araqçəkmə daha da geniş inkişaf etmişdi. İrəvan quberniyasında 1864-cü ildə 22 qeyri-təkmil araqçəkmə müəssisəsi var idisə, artıq 1888-ci ildə quberniyada bu müəssisələrin sayı 223 idi [20, s. 112].

Quberniya ərazisində fəaliyyət göstərən iri zavodların ümumi spirt istehsalında xüsusi çəkisi XIX əsrin 90-cı illərində cəmi 5-6% təşkil edirdi [20, s. 112]. Buradan açıq-aydın görünür ki, araq əsasən qeyri-təkmil müəssisələrdə istehsal olunurdu.

Bölgədə istehsal olunan spirtin böyük bir hissəsinin qeyri-təkmil müəssisələrin payına düşməsinin səbəbi ölkədə qüvvədə olan aksiz qanunvericiliyindən (1887-ci il 15 iyun) irəli gəlirdi. Həmin qanuna əsasən, araq zavodları iki qismə - sənaye və qeyri-təkmil müəssisələrə bölünmüşdü ki, sonuncular böyük imtiyazlara sahib idilər.

Beləliklə, göründüyü kimi, XIX əsrin ikinci yarısından etibarən İrəvan bölgəsində kənd təsərrüfatının inkişafı yeni şəkil almağa başladı. Daxili bazarın genişlənməsinin və Rusiyada kapitalizmin sürətli inkişafının təsiri altında düzən bölgələrdə kənd təsərrüfatının başlıca olaraq, pambıqçılıq və üzümçülük istiqamətində ixtisaslaşması prosesi getmişdir. Pambıqçılıq və üzümçülük məhsullarının böyük bir hissəsi daxili və xarici bazarda alqı-satqı predmetinə çevrilmişdi.

Ticarət əkinçiliyin inkişafı şəraitində bölgənin bir tərəfdən Cənubi Qafqazın digər hissələri, digər tərəfdən isə Rusiya ilə işgüzar ticarət əlaqələri yaranmış və inkişaf etmişdi. İrəvan bölgəsinin kənd təsərrüfatında məhz bu dövrdə ticarət kapitalı qismində əhəmiyyətli kənd təsərrüfatı məhsullarını xammal və yarımfabrikat şəklində alan rus kapitalı təmsil olunmağa başlamışdı.

İrəvan bölgəsində kənd təsərrüfatının ixtisaslaşması ayrı-ayrı bölgələr arasında ticarət əlaqələrinin və mal dövriyyəsinin yaranmasına və inkişaf etməsinə təsir göstərən başlıca amil kimi çıxış etmişdir. Ticarət əkinçiliyinin inkişaf etdiyi bölgələrdə kənd təsərrüfatı texnikası da dəyişikliyə məruz qalmışdı. Bu bölgələrdə ekstensiv kənd təsərrüfatından intensiv sistemə keçid baş vermişdi.

Kapitalizmin inkişafı islahatdan sonrakı dövrdə özünü sənayedə də göstərməyə başladı. XIX əsrin 80-ci illərinə qədər Rusiya ilə dəmir yolları şəbəkələri vasitəsilə əlaqələrinin olmaması və Rusiyanın maraqlandıran sənaye sahələri üçün bölgədə zəruri xammalın yoxluğu səbəbindən İrəvan bölgəsində iri sənaye mövcud deyildi. Bölgədə dağ-mədən sənayesinin inkişafı üçün münbit şərait olsa da, bu sahə göstərilən dövrdə rus kapitalı üçün xüsusi maraq kəsb etmirdi.

İrəvan bölgəsinin dəmir yolu şəbəkəsi vasitəsilə Rusiya ilə birləşməsi və Rusiyanın öz iqtisadi inkişaf tələbatından çıxış edərək xarici kapitalın köməyi ilə burada iri sənayenin inkişafı üçün imkan yaratması XIX əsrin sonlarından etibarən bu sahənin inkişafına gətirib çıxardı. Göstərilən dövrdə İrəvan bölgəsində mis, şərab, konyak sənayesi kifayət qədər sürətlə, pambıqtəmizləmə sənayesi isə nisbətən zəif inkişaf etmişdi.

Göstərilən dövrdə İrəvan bölgəsində mis sənayesi xeyli dərəcədə inkişaf etsə də, Qafqazda emal olunan misin böyük bir hissəsi Azərbaycanın digər bölgəsinin – Gədəbəyin payına düşürdü.
XIX əsrin sonlarında Rusiyanın misə ehtiyacının böyük olmasına baxmayaraq, İrəvan bölgəsində bu sənaye sahəsinin ləng inkişaf etməsini statistik göstəricilər də sübut edir. 1880-1890-cı illərdə bölgədə fəaliyyət göstərən mis zavodlarının istehsal etdiyi məhsullar aşağıdakı cədvəldə göstərilmişdir [5, şöbə 1, s. 192-195; 6, şöbə 1, s. 135; 7, şöbə 1, s. 96; 8, şöbə 4, s. 65; 9, şöbə 1, s. 225, şöbə 6, s. 30]:

| № | Zavodlar | Mis əridilməsi (pudla) | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | 1880 | 1885 | 1886 | 1888 | 1889 | 1890 |
| 1 | Alaverd | 1081 | 9053 | 2318 | 1840 | 1300 | - |
| 2 | Şamlıq | - | 179 | - | 76 | - | - |
| 3 | Dilican | 180 | - | - | 877 | 315 | 196 |
| 4 | Alidzor | 815 | 1800 | 583 | 3109 | 6570 | 3730 |
| 5 | Uğurçay | 1445 | 1751 | 3660 | 7943 | 5100 | 3357 |
| 6 | Qatar | 751 | 405 | 1987 | 8951 | 11183 | 14605 |
| 7 | Sisamadan | - | - | - | - | - | 505 |
| Yekun | | 4269 | 7228 | 8548 | 22801 | 23568 | 22493 |

Statistik məlumatlardan da göründüyü kimi, bölgədə mövcud olan misəritmə zavodlarının inkişafında qeyri-bərabərlik müşahidə olunurdu. Məsələn, Alaverd, Şamlıq və Dilican zavodlarının istehsalında cüzi yüksəliş olduğu və sonrakı dövrlərdə hətta tənəzzül baş verdiyi halda, Alidzor, Uğurçay və Qatar zavodları öz istehsal etdikləri məhsulun həcmini nəzərəçarpacaq dərəcədə artırmışdılar.

Statistik məlumatlardan görünür ki, İrəvan bölgəsində fəaliyyət göstərən zavodlar Gədəbəy mis zavodu ilə rəqabət aparmaq qabiliyyətində deyildilər. Gədəbəy mis zavodu 1880-ci ildə 30.517, 1885-ci ildə 73.817, 1886-cı ildə 85.000, 1888-ci ildə 66.800, 1889-cu ildə 63.000, 1890-cı ildə 112.500 pud mis istehsal etmişdi [5, şöbə 1, s. 192-195; 6, şöbə 1, s. 135; 7, şöbə 1, s. 96; 8, şöbə 4, s. 65; 9, şöbə 1, s. 225, şöbə 6, s. 30] ki, bu da İrəvan quberniyasında fəaliyyət göstərən bütün zavodların birgə istehsal etdiyi misdən bir neçə dəfə çoxdur.

XIX əsrin 90-cı illərində Rusiya, Qərbi Avropa və ABŞ-da sənayenin yeni yüksəlişi ilə mis sənayesinin vəziyyətində də mühüm dəyişikliklər baş verdi. Həmin dövrdən etibarən Rusiya dağ-mədən sənayesinə xarici kapitalın sürətli axını başladı. İrəvan bölgəsində fəaliyyət göstərən mis sənayesi fransız kapitalının diqqətini cəlb edirdi. Fransız kapitalistlərinin sərmayəsi əsasən Alaverd və Axta zavodlarına qoyduqları sərmayə nəticəsində burada mis emalının yeni texnologiyası tətbiq edilməyə başladı. Lakin Alaverd mis zavodunda yanacağa olan tələbat onun işinin genişləndirilməsinə imkan vermirdi. Buna görə də

fransız şirkəti 1899-cu ildə öz mövqeyini "Qafqaz Sənaye və Metallurgiya Şirkəti"nə güzəştə getməyə məcbur oldu. Məhz bu şirkətin fəaliyyəti dövründə Alaverd mis zavodu bütün fəaliyyəti dövründə heç bir zaman keçirmədiyi yüksəliş dövrünə qədəm qoydu. Təkcə onu qeyd etmək kifayətdir ki, 1852-1899-cu illərdə cəmi 188,6 min ton məhsul istehsal edən zavod yalnız 1909-cu ildə Şamlıq zavodu ilə birlikdə 183,1 min ton mis istehsal etmişdi [2, s. 4-5]. Bu cür yüksəlişə həm də "Qafqaz Sənaye və Metallurgiya Şirkəti"nin burada fəaliyyətə başladığı dövrün Tiflis-Gümrü dəmir yol xəttinin çəkilişin başa çatmasının üst-üstə düşməsi də səbəb olmuşdu.

Göstərilən dövrdə Zəngəzur mis sənayesində də mühüm irəliləyişlər baş vermişdi. Burada əvvəllər də zavoda sahib olan Məlik-Azaryans 1897-ci ildə yeni zavod inşa etdirmişdi. Məlik-Azaryansın zavodundan başqa burada Kundurovların və Məlik-Parsadanyanın da zavodları fəaliyyət göstərirdi.

İrəvan bölgəsində mis sənayesinin 1900-1906-cı illər ərzində inkişaf dinamikası aşağıdakı kimi olmuşdur [10, şöbə 3, s. 56; 11, şöbə 3, s. 51; 12, şöbə 3, s. 61; 13, şöbə 3, s. 52; 14, şöbə 3, s. 507]:

| № | Zavodlar | Mis əridilməsi (min pudla) | | | | |
|---|---|---|---|---|---|---|
| | | 1900 | 1901 | 1902 | 1903 | 1906 |
| 1 | Alaverd | 19,7 | 59,8 | 57,05 | 75,4 | 84,5 |
| 2 | Şamlıq | - | - | - | - | - |
| 3 | Alidzor | 3,3 | 4,6 | 3 | 5,8 | 1,23 |
| 4 | Uğurçay | 5 | 8,7 | 10,60 | 13,7 | 25,79 |
| 5 | Qatar | 1,06 | 1.00 | - | - | 1,55 |
| 6 | Sünik | 38,84 | 41,82 | 42,16 | 45,6 | 27,120 |
| Yekun | | 64,6 | 115,92 | 112,1 | 140,5 | 140,19 |

Cədvəldən göründüyü kimi cəmi 6 il ərzində bölgənin mis sənayesində ümumi istehsal 75,59 min ton artmışdı. Bu artımın əsas səbəblərində biri həmin dövrdən həm Rusiyada, həm də xaricdə elektrik sənayesinin inkişafı ilə bağlı misə olan tələbatın artması ilə şərtlənirdi. Əgər Rusiya sənayesinin misə olan tələbatı 1909-cu ildə 1.275 min pud olmuşdusa, bu rəqəm 1913-cü ildə artıq 1.118,8 pud təşkil edirdi [24, s. 64].

Statistik məlumatlardan görünür ki, artıq XX əsrin əvvəllərində "Simens qardaşları" şirkəti Qafqaz mis sənayesində əvvəlki mövqelərini yavaş-yavaş itirirdi. Bu 1908-1913-cü illərdə Qafqazda fəaliyyət göstərən sahibkarların istehsal etdikləri misin həcmini bildirən məlumatlardan da görünür [1, s. 32]:

| № | Zavod və şirkətlər | Mis əridilməsi (min pudla) | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | 1908 | 1909 | 1910 | 1911 | 1912 | 1913 |
| 1 | "Simens qardaşları" | 85,5 | 89,3 | 95,4 | 96,2 | 89 | 78,9 |
| 2 | "Qafqaz Sənaye və Metallurgiya Şirkəti" | 116,2 | 183 | 196 | 220,3 | 233,6 | 231,5 |
| 3 | "Qafqaz Mis Sənayesi Yoldaşlığı" | 25,6 | 48,7 | 103,1 | 236,7 | 289,5 | 203,1 |
| 4 | Məlik-Azaryans | 47,1 | 56,1 | 52,2 | 34,8 | 34,4 | 58,1 |
| 5 | Kundurov qardaşları | 17,3 | 24.6 | 22,5 | 16,3 | 33,8 | 44,5 |
| 6 | Digər zavodlar | 8,7 | 3 | 3 | - | 14,7 | 3,3 |
| Yekun | | 300,3 | 404,6 | 471,3 | 403,3 | 595 | 619,4 |

Əgər cədvəldə verilmiş məlumatlardan İrəvan bölgəsinə aid olan göstəriciləri ayırsaq onda məlum olur ki, həmin dövrdə Qafqazda istehsal edilən misin böyük bir hissəsi bu bölgənin payına düşürdü. Qafqazda istehsal olunan misin 1908-ci ildə 63,3%-i, 1913-cü ildə isə 53%-i İrəvan bölgəsinin payına düşürdü.

Bölgədə mis sənayesinin inkişafı elektrikləşmə, maşınlardan istifadə kimi yeni təzahürləri meydana gətirməklə iqtisadi inkişafın təmin edilməsində əhəmiyyətli rol oynayırdı.

XX əsrin əvvələrində bölgənin içki istehsalı sənayesində də mühüm dəyişikliklər baş verdi. Kiçik müəssisələrin aradan qalması hesabına bu sahədə təmərküzləşmə prosesi gedirdi. Əgər 1896-cı ildə bölgədə istehsal edilən spirtin yalnız 5,1%-i iri zavodların payına düşürdüsə, bu rəqəm müvafiq olaraq 1902-ci ildə 22,8%, 1903-cü ildə 20,2%, 1904-cü ildə 35%, 1905-ci ildə, 43,1%, 1906-cı ildə 35,1%, 1908-ci ildə 37%,

1909-cu ildə 39%, 1910-cu ildə 46%, 1911-ci ildə 47,4%, 1912-ci ildə isə 60,3% olmuşdur [20, s. 112; 15, s. 170-171; 16, s. 191-193].

Statistik məlumatlar nəticəsində belə bir qənaətə gəlmək mümkündür ki, 1909-1913-cü illərdə spirt və konyak istehsalına görə İrəvan bölgəsi Cənubi Qafqazda birinci yerdə dururdu. Bunu aşağıdakı cədvəldən də görmək mümkündür [15, s. 170-171; 16, s. 191-193]:

| № | İllər | Cənubi Qafqazda (dərəcə ilə) | | İrəvan bölgəsində (dərəcə ilə) | |
|---|---|---|---|---|---|
| | | Spirt istehsalı | Konyak istehsalı | Spirt istehsalı | Konyak istehsalı |
| 1 | 1909 | 35,063 | 5,718 | 12,525 | 4,776 |
| 2 | 1910 | 28,008 | 4,800 | 9,981 | 4,167 |
| 3 | 1911 | 35,751 | 8,518 | 15,184 | 6,799 |
| 4 | 1912 | 29,991 | 7,747 | 10,488 | 5,390 |
| 5 | 1913 | 43,586 | 9.986 | 16,606 | 7,248 |

Ticarət əkinçiliyinin inkişafı ilə əlaqədar olaraq, İrəvan bölgəsində pambıqtəmizləmə sənayesi də müəyyən inkişaf yoluna qədəm qoymuşdu. 1901-ci ildə bölgənin pambıqçılıq rayonlarında 335 pambıqtəmizləmə müəssisəsi fəaliyyət göstərirdi. Məlumatlara görə 108 zavod kerosin, 43 zavod buxar mühərriki,153 zavod su enerjisi, digərləri isə at qüvvəsi hesabına işləyirdi [19]. Bu zavodların yalnız 4%-i istehsal qüvvəsinə görə nisbətən iri sayıla bilərdilər; onlar bir gün ərzində 500 pud pambıq təmizləmək gücündə idilər, 16%-i 500 puda qədər pambıq təmizləyə bilərdi, digərləri isə kiçik olduqları üçün yalnız 200 pud pambıq təmizləmək iqtidarında idilər. İrəvan şəhərində fəaliyyət göstərən yeganə iri zavod gündə 1000 puddan çox pambıq təmizləmək kimi istehsal gücünə malik idi.

Bölgədə mövcud olan müəssisələrdən İrəvan şəhərində fəaliyyət göstərən iki dəri və bir mexaniki zavodu qeyd etmək olar. Ümumilikdə götürdükdə isə, XIX əsrin sonunda bölgədə iri sənaye istehsalını təmsil edən cəmi 15 müəssisə fəaliyyət göstərirdi. Bu müəssisələrdə kapital qoyuluşu 3 milyon rubl təşkil edirdi ki, orta hesabla onların hər birinə 200.000 rubl düşürdü. Kapitalın strukturu isə belə idi: 61,5% əsas, 38,5% dövriyyə kapitalı.

XIX əsrin sonu – XX əsrin əvvəllərində İrəvan bölgəsində sənayenin inkişaf prosesini təhlil edərək belə bir qənaətə gəlmək olar ki, bölgədə sənayenin zəif inkişafı XIX əsrin sonuna qədər burada sənayeyə nə xarici, nə də rus kapitalının geniş miqyasda cəlb edilməməsi ilə bağlı olmuşdur. Burada mövcud olan müəssisələri ölçülərinə, fəhlələrin sayına və sərmayəsinə görə kiçik müəssisələr hesab etmək olar.

Gətirilən faktların təhlili nəticəsində belə bir qənaətə gəlmək mümkündür ki, bölgənin əsas sənayesi XIX əsrin sonuna qədər iki başlıca sahə - mis emalı və şərab-konyak istehsalı ilə məhdudlaşırdı. Lakin hər iki sahədə də texnoloji yeniliklər olduqca ləng gedirdi.

Qeyd etmək lazımdır ki, bölgədə ictimai əmək bölgüsü kifayət qədər inkişaf etmədiyindən, mövcud sahələrin bazasında yeni istehsal sahələri də yarana bilmirdi. Sənaye istehsalının bu şəkildə geri qalmasının başlıca səbəblərindən biri də, şübhəsiz çarizmin ucqarların inkişafına mane olan müstəmləkəçilik siyasəti idi. Bütün bunların nəticəsi idi ki, mis emalı kimi mühüm sənaye sahəsində texnika XIX əsrin 90-cı illərinin sonuna qədər heç bir dəyişikliyə məruz qalmamaşdı. Bir çox sənaye sahələri isə adi manufaktura emalatxanalarından olduqca az fərqlənirdi.

İrəvan bölgəsinin sənayesində rus kapitalının rolu XIX əsrin sonuna qədər demək olar ki, sıfıra bərabər idi. Rus kapitalı yalnız XX əsrin əvvəllərindən etibarən şərab-konyak istehsalı sənayesinə nüfuz etməyə başladı.

Xarici kapitalın rus kapitalından əvvəl bölgə iqtisadiyyatına nüfuz etməsinə baxmayaraq, o burada yalnız mis sənayesində təmsil olunmaqla kifayətlənirdi. Rəqibi olmayan xarici kapitalistlər sənaye texnikasının inkişaf etdirilməsinin qayğısına qalmırdılar.

Yuxarıda göstərdiyimiz şərtlər daxilində İrəvan bölgəsinin sənayesi birləşmə və təmərküzləşmə yolu ilə deyil, ilkin müəssisələrin genişlənməsi hesabına inkişaf edirdi. Sənayenin eksterritorial xarakteri kapitalın təmərküzləşməsinə əngəl törədirdi. Sənayenin ümumi inkişafı hələ təmərküzləşmə və inhisarların yaranması səviyyəsinə çatmamışdı.

**İstifadə edilmiş ədəbiyyat:**


1. Брейтерман. Медная промышленность России и мировой рынок. Часть 3. Ленинград, 1930.
2. Горный инженер Ченгеры. Алавердское медное дело, Тифлис, 1901.
3. История сооружения и эксплуатации Закавказской железной дороги за двадцать лет ее существования. Тифлис, 1896.
4. Кавказский календарь на 1880 г.

5. Кавказский календарь на 1883 г.
6. Кавказский календарь на 1887 г.
7. Кавказский календарь на 1888 г.
8. Кавказский календарь на 1890 г.
9. Кавказский календарь на 1891 г.
10. Кавказский календарь на 1902 г.
11. Кавказский календарь на 1903 г.
12. Кавказский календарь на 1904 г.
13. Кавказский календарь на 1905 г.
14. Кавказский календарь на 1909 г.
15. Обзор отраслей промышленности в Закавказском крае. Тифлис, 1907.
16. Обзор отраслей промышленности в Закавказском крае. Тифлис, 1912.
17. Петрович П. Хлопководства в Закавказье. Тифлис, Изд. Императорского Кавказского Общества сельского хозяйство, 1912.
18. Размещение транспорта. Москва, 1939.
19. Статистика хлопководства в Закавказском крае за 1905 г. Тифлис, 1911.
20. Сборник сведений по виноградарству и виноделию на Кавказе. Вып. 6, Эриванская губерния. Издательство кавказского филоксерного комитета. Тифлис, 1896.
21. Таратинов Н.П. Очерк хлопководства в Закавказье // Труды Кавказского общества сельского хозяйство № 9-12. Тифлис, 1888.
22. Туган-Барановский. Русская фабрика. Москва, 1937.
23.Туманян О.В. Развития экономики Армении в XIX и в начале XX вв. Ереван, 1947.
24. Эвентов Л.Я. Иностранные капиталы в русской промышленности. Москва, 1931.

## ЭКОНОМИЧЕСКАЯ ЖИЗНЬ ЭРИВАНСКОГО РЕГИОНА ВО ВТОРОЙ ПОЛОВИНЕ XIX–В НАЧАЛЕ XX ВЕКОВ

**Ибрагим Казымбейли**

### РЕЗЮМЕ

В статье исследуется экономическая жизнь Эриванского региона во второй половине XIX–в начале XX веков. Экономический застой этого региона, который является исконно Азербайджанской территорией, произошел из-за захвата региона со стороны Россией, и применением реформ 1840-1847 и 1860-1870 в годов в этом регионе, а также освещены положение основных экономических отраслей Эриванского края.

В статье также выяснены причины позднего возникновения и медленнего развития кариталистических отношений Эриванского региона, экономическая жизнь этого края показаны на основе архивных документов и исторической литературы.

## THE ECONOMIC LIFE OF THE IRAVAN PORVINCE AT II HALF OF THE XIX CENTURY AND THE BEGINNING OF XX CENTURY

**Ibrahim Kazimbayli**

### ABSTRACT

In the article the economical life of Iravan province in the second half of XIX century –the beginning of XX centuries are investigated. After the occupation of et the economic life of the iravan porvince at ii half of the xix century and the beginning of xx century ernal Azerbaijani land Iravan khanate by Russians, the existed stagnation in economical life of the country, the economical misappropriation policy of Russia in this region, the implementation of reforms for the 1846-1847 and 1860-1870 years in Iravan province are on the attention, the main spheres of the Iravan province’s economy are enlighted. Also in Iravan province the late creation of the capitalist relationships and the reasons of its delayed improvement are studied and the economical life of the region are investigated on the basis of archive materials and the historical literature.

NDU-nun Elmi Şurasının 30 mart 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 07).

Məqaləni çapa təqdim etdi: AMEA-nın müxbir üzvü Z.Şahverdiyev

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2017, № 2 (83)**

NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2017, № 2 (83)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2017, № 2 (83)**

**TOĞRUL XƏLİLOV**
*AMEA Naxçıvan Bölməsi*
*x.toqrul@gmail.com*

**UOT: 94 (479, 242)**

# GƏMİQAYA ƏTRAFININ BƏZİ ORTA ƏSR ABİDƏLƏRİ HAQQINDA

**Açar sözlər:** Gilançay vadisi, Naxçıvan, arxeoloji abidələr, Gəmiqaya
**Ключевые слова:** Долина Гиланчай, Нахчиван, археологические памятники, Гемикайя.
**Key Words:** Gilancay valley, Nakhchivan, archaeological monuments, Gamigaya

Gəmiqaya özünün adı və ecazkar gözəlliyi ilə, min illər boyu haqqında söylənilən əfsanə və rəvayətlərlə geniş elmi ictimayyətin maraq obyektinə çevrilmişdir. Oradakı vulkanik mənşəlli daşlardakı qayaüstü təsvirlərdən ibarət yazılı daş salnamələrimizlə yanaşı, onun ətrafındakı zəngin tarixi abidələrimiz də Azərbaycan tarixində özünəməxsus yer tutur. Onların hər biri maddi və mənəvi mədəniyyətimizin hərtərəfli şəkildə öyrənilməsində mühüm elmi əhəmiyyət daşıyır. Gəmiqaya ətrafında, Tivi kəndinin ərazisində yeni qeydə alınmış Humay qayası, Sarı yal nekropolları, Pənahəli yalı, Çərəzdər yaşayış yerləri, Dəyirman yeri və s. Orta əsr abidələrini buna nümunə göstərmək olar.

Sarı yal nekropolu Tivi kəndinin qərb hissəsində təpə üzərində yerləşir. Oradakı qəbirlər şərq istiqamətindədirlər. Onların çoxunun yerüstü əlaməti dağılsa da nisbətən salamat qalmış qəbirlər də vardır. Nekropoldakı dağılımış qəbirlərdən birinin yerə düşmüş baş daşı üzərində sxematik xarakterli işarə var. Həmin işarə təbii aşınma nəticəsində çox dağıldığından onun haqqında dəqiq fikir demək çətindir. Qəbiristanlığın yaxınlığında eyni adlı pir də yerləşir. Bu pirə gələn insanları ağac inamı birləşdirir. İnsanlar pirdəki ağacın üzərinə öz nəzirlərini bağlayırlar, niyyət edirlər.

Dəyirman yeri (tab. I, 4) Gilançayın sol sahilində, Bist kəndinə gedən şose yolundan aşağıda, Böyük çay adlanan yerdə yerləşir. Oradakı tikili qalıqlarının bir çoxu dağılsa da, onların bir qismi salamat qalmışdır. Salamat qalmış tikili qalıqlarında divarların hündürlüyü 2-3m, eni 1,5m-dir. Divarlar yerin relyefinə uyğun olaraq tikilmişdir. Kənd sakinlərinin verdiyi məlumatdan belə məlum olur ki, abidə dəyirman olmuşdur. Dəyirman su ilə işləmişdir. Gilançaydan gələn su ilə dəyirmanı işlətmişdir. Dəyirman XIX əsrin ortalarına kimi işləmişdir.

Pətəkqoyulan yaşayış yeri (tab. I, 2, 3) Gilançayın sol sahilində, Tivi-Bist şose yolundan yuxarıda, Yetim İbrahimin bağının yaxınlığında qeydə alınmışdır. Abidədəki yaşayış binasının qalıqlarının çoxu dağıldığından onların yerində daş yığınları toplanıbdır. Bəzi yerlərdə nisbətən salamat qalmış daş və möhrə ilə tikilən dördkünc formalı bina qalıqları var. Yaşayış yerinin ətrafında qeydə alınmış divar qalıqları bir qədər fərqlidir. Onlar siklopik tikililər kimi heç bir bərkidici məhlul olmadan iri və xırda daşlarla tikilibdir. Oradan əldə olunmuş arxeoloji materiallar içərisində keramika məmulatları ilə yanaşı bir iri kirkirə daşının üz hissəsi də var . Onun iri düzəldilməsinə və ətrafda zəy yatağının (Zəy dərəsi) olmasına əsasən ehtimal etmək olar ki, bu daşdan zəy yağını almaq üçün istifadə etmişlər.

Pənahəli yalı (tab. I, 1) Ordubad rayonunun Tivi kəndi ərazisində Gilançayın sol sahilində kəndə gedən şose yoldan yuxarıda sıldırım qayalıq ərazidə yerləşir. Burada uzunluğu 25-30 m, eni 1,5m olan divar qalığı var. Divarlar yerin relyefinə uyğun olaraq tikilmiş, hər tərəfdən sıldırım qayalıqlara birləşdirilmişdir. Yaşayış yeri şərq və cənub-şərq tərəf istisna olunmaqla digər tərəflərdən təbii müdafiəyə malikdir. Onun şərq tərəfdən giriş qapısı olmuşdur. Toplanılan yerüstü arxeoloji materiallar içərisində Antik dövrə aid çəhrayı rəngli gil qabların qırıqları da var.

Güney yaşayış yeri Bist kəndinə gedən yoldan yuxarıda, Gilançayın sağ sahilində yerləşir. Son dövrlərdə kəndə şose yol çəkilərkən yaşayış yeri iki hissəyə bölünmüşdür. Yaşayış yerindəki tikili qalıqları dağılmışdır. Onların bəzilərinin yerində çalalar, daş yığınları qalır. Aparılan araşdırma zamanı abidədən Antik və Orta əsrlər dövrünə aid gil qab qırıqları, bir ədəd gil çıraq və bir ədəd daş fiqur aşkar edilmişdir (tab. I, 5, 6).

Güney yaşayış yeri kimi Pətəkqoyulan, Pənahəli yalı abidələrindən əldə olunmuş keramikalar gil qabların forma verən və forma verməyən hissələrindən ibarətdir. Onlar mətbəx və təsərrüfat qablarınına aiddir. Mətbəxtdə işlədilmiş qablar nazik divarlı, təsərrüfat qabları isə qalın düzəldilmişdir.

Humay qayası nekropolu. Nəsirvaz kəndinə gedən yoldan yuxarıda, Nəbi yurdu və Qara pirdən aşağıda, "Humay qayası" dağının ətəyində, təpə üzərində yerləşir. Abidə bir tərəfdən dərin dərə ilə, digər tərəflərdən düzənlik sahələrlə əhatə olunmuşdur. Sahəsi 1 ha yaxındır. Nekropoldakı qəbirlərin üzü şərq istiqamətindədir. Qəbirlərin çoxu təbii aşınma nəticəsində dağılmışdır. Nekropolda aparılan araşdırma zamanı yerli əhalidən toplanılan etnoqrafik materiallardan da istifadə edilmişdir. Yerli əhalinin verdiyi

məlumata görə vaxtı ilə nekropolun yaxınlığında "Kollu" adlı yerdə divar qalıqları olmuşdur. Orada müxtəlif dövrlərdə aparılmış təsərrüfat işləri nəticəsində divar qalıqları dağılmışdır. "Humay qayası" nekropolundakı qəbirlərin quruluşuna əsasən abidənin erkən orta əsrlər dövrünə aid olduğunu ehtimal etmək olar.

"Humay qayası"nda dəfn olunmuş insanların kimliyi, abidənin adı və digər məsələlərin araşdırılmasında iki mühüm faktı nəzərə almaq lazımdır. Həmin faktlardan birini abidədəki qəbirlərin üzünün şərq istiqamətində qibləyə doğru olması təşkil edir. Digər mühüm faktlardan biri nekropolun yerləşdiyi ərazinin adı ilə bağlı insanların yaddaşlarında qalan əfsanə və rəvayətlərdən ibarətdir. Həmin əfsanə və rəvayətlərdə Humay (Umay) ilahəsi ilə Humay quşu arasındakı mif yaxınlığı daha aydın şakildə görünür. Gəmiqaya ətrafındakı ərazilərdə olduğu kimi Azərbaycanın bir çox yerlərində o cümlədən Laçında, Qubadlıda, Kəlbəcərdə, Şamaxıda da Umay ilahəsi ilə bağlı müxtəlif əfsanə və rəvayətlər insanların yaddaşlarında qalmaqdadır.

Humay qayası ilə bağlı apardığımız araşdırma zamanı Gəmiqaya ətrafındakı Tivi, Nəsirvaz və Bist kəndlərinin sakinlərindən toplanılan etnoqrafik materiallardan məlum olur ki, həmin ərazinin Humay qayası adlanması ilə bağlı iki əfsanə insanların yaddaşında dövrümüzədək qalır. Əfsanələrdən birində deyilir ki, Humay adlı gözəl bir qız olmuşdur. Bu qızla kəndin (hansı kəndin çobanı olduğu dəqiq bilinmir) çobanı bir-birini sevirmişlər. Humayın gözəlliyinə aşiq olan varlı bir oğlan onu zorla almaq istəmişdir. Sevgilisindən ayrılmamağa söz verən Humay varlı oğlanla evlənməmək üçün kəntdən qaçmış özünü həmin yerdə qayadan atmışdır. Buna görə də oraya Humay qayası adı verilmişdir.

Abidə ilə bağlı toplanılmış digər maraqlı etnoqrafik materallardan birində qeyd olunur ki, bu qayanın adı çox müqəddəs olan Humay quşu ilə bağlı olmuşdur.

Humay qayası haqqında insanların yaddaşlarında günümüzədək öz varlığını qoruyub saxlayan əfsanə və rəvayətlər fərqli olsalar da onların mənşəyi qədim türk mədəniyyəti ilə bağlılıq təşkil edir. Fikrimizi əsaslandırmaq üçün mənbələrə nəzər salsaq görərik ki, quş motivi əfsanələrlə yanaşı qayaüstü təsvirlərdə, keramika, metal məmulatlarında geniş yayılmışdır. Onların hər birində insanların həyat tərzi, dini ideoloji görüşləri ilə bağlı maraqlı kompozisiyalar verilmişdir. Humay qayasının quşla bağlı əfsanəsində Humay quşunun daşla bağlılığı əks olunmuşdur. Türk xalqlarının mifologiyasında Humay quşunun, Umay ilahəsinin günəşlə, dünya ağacı ilə bağlılığı da öz əksini tapmışdır. Umay ilahəsinin ölüm mələyi, ölünün ruhunu yola salan mif keyfiyyətləri də olmuşdur.

Quşun daşla bağlılığının kökünü araşdırdıqda məlum olur ki, türk mifologiyasında onqon-quş motivi ən geniş yayılmış motivlərdən birini təşkil edir. İnsanların insansevərliyindən yaranmış zoomorf onqonlardan, ilahələrdən biri olan Umay ilahəsi bütün türk xalqlarının mifologiyasında daha çox ümumbəşəri, ümuminsani mövqe tutmuşdur. Humay adına ilk dəfə Gültəkin abidəsində, daha sonra isə Tonyuqukda rast gəlinmişdir. Bu abidələrdə Umay ilahəsinə inamdan bəhs olunmuşdur .

Tonyuquk abidəsində Humay haqqında belə yazılmışdır. "Geri dönelim. Ere (?) nefsini saklamak yektir dedi. Ben (ise) böyle derim! Ben Bilge Tonyukuk Altun ormanını aşarak geldik, İrtiş Irmağı'nı, geçerek geldik. (buraya) Gelenler (düşmanlar) cesur dedi (demişler); (bizim geldiğimizi ise) duymadılar. Tanrı, Umay kutsal yer, sular (bizim için onlara) gaflet verdi. Neye kaçarız. (Onlar) çok diye niye korkarız. Az[ız] diye niye basılalım. Taarruz edelim dedim. Taarruz ettik, perişan ettik. Ertesi günü çok geldiler (4, s. 113-114).

Tədqiqatçılardan bir qrupu hər bir oğuz soy və boyunun ayrıca quş onqonu olduğunu qeyd etmişlər (5, s. 54-60; 2, s. 70-72; 7, s. 76). B. Ögəl həmin onqonları boy və soylar üzrə qruplaşdırarkən Çəbni-Şunqar / Humay (Hümay) formasında göstərmişdir. Tədqiqatçı qeyd etmişdir ki, "əfsanəvi hüma / humay quşunun adı indi mövcud olan quşlara da verilmişdir. Məsələn, huma və ya hüma Krımda ən yaxşı cins qartallardan birinə verilən ad olmuşdur. Bu quşun adı qırğız ləhcəsində kumaykimi kimi işlənmişdir. Qırğızlar vulturide quş növünün ən böyük cinsinə kumay demişlər" (6, s. 365). H. Tantəkin qeyd olunan məsələyə öz münasibətini bildirərkən onqon kimi tanınan Humay quşunu "Hüma quşu" adlandıraraq qeyd etmişdir ki, ".... bu quş şahlıq quşu sürəti kimi nağıllara daxil olmuşdur. O kimin başına qonarsa, xalq həmin adamı hakimiyyətə gətirib özünə padşah etmişdir. Huma (Humay) quşu sinfi mənsubiyyətindən, cinsindən asılı olmayaraq hər kəsin başına qona bilmişdir" (8, s. 59). "Hazarandastan bülbül" və "Altun bülbül" ( 5, s. 167), Qaraquş (1, s. 102) və digər nağıllarda da onqon-quş motivləri verilmişdir.

Humay qayası abidəsi ilə bağlı apardığımız tədqiqatlar zamanı ortaya çıxan qədim türk mədəniyyətinə aid əlamətlərin Gəmiqaya ətrafındakı Qarapir və Bibqətəllə bağlı əfsanə və rəvayətlərdə də ortaya çıxması maraqlı faktlardandır.

Qara pirlə bağlı apardığımız araşdırma zamanı məlum olur ki, bu abidə sıldırım yamaclı və konsvari formalı müqəddəs dağdır. Onunla bağlı insanların yaddaşlarında qalan qədim əfsanə və rəvayyətlərdən birində piri ilanların qoruduğu söylənilir. Digər əfsanələrdən birində isə qeyd olunur ki, bu pir Gəmiqaya ətrafındakı digər abidə olan Bibqətəl piri ilə bacı-qardaşdırlar. Hər yeddi ildən bir görüşən bu pirlər həmin ərazini şər qüvvələrdən qoruyurlar. Qeyd olunan əfsanəyə diqqət yetirsək görürük ki, Humay qayasında olduğu kimi Bibqətəl və Qara pirlə bağlı əfsanələrin hər ikisində dağla bağlı inamdan bəhs olunur.

Mənbələrə nəzər salsaq görürük ki, Türk mifologiyasında dağa olan inam, dağ kultu da geniş yayılmışdır. Yalnız Altay-Sayan Türklərində deyil, Yakutların mifoloji inanclarında da dağ əhəmiyyətli yeri tutur. Yakutlar dağa hörmətlə dağ sahibi (yakyca tia iççite ) deyirlər. Yakut mifologiyasında dağların qohum və nəsilin qoruyucusu olması ilə bağlı xeyli məlumatlar vardır. Hakasların inancına görə dağlar canlı varlıqlar kimi böyüyərlər. Şorların inancına görə isə kiçik dağlar daha böyük dağlara tabedirlər, dağlar bir yerdən başqa yerə gedə bilər, bir-birləri ilə döyüşər və hətta evlənərlər (3, s. 51: 6, s. 25-27).

Gəmiqaya ətrafında Orta əsrlər dövrünə aid abidələrin varlığı insanların həmin dövrdə bu torpaqlarda yaşadığını sübut edir. Gəmiqayadakı qayaüstü təsvirlərdə olduğu kimi, onun ətrafındakı abidələrdə də qədim türk mədəniyyətinə aid əlamətlərin müşahidə edilməsi bu ərazilərdə türk etnoslarının yaşadığını, xalqımızın tarixi ilə bağlı saxta fikirlərin heç bir elmi əsasının olmadığını bir daha sübut edir.

**ƏDƏBİYYAT**


1. Azərbaycan nağılları. 5 cilddə, I cild (toplayıb tərt.ed. H. Zeynallı), Bakı, Şərq-Qərb, 2005, 360 s.
2. Əbülqazi Bahadır xan. Şəcəreyi-Tərakimə (Türkmənlərin soy kitabı), Bakı, Azərbaycan Milli Ensiklopediyası, 2002, 145 s.
3. Fuzuli Bayat Türk Mitolojisinde Dağ Kültü, Folklor / edebiyat dergisi, sayı, 2, İstanbul, 2006, s. 47-61.
4. Hüseyin N.O. Eski Türk Yazıtları, TDK Yayınları, Ankara, 1987, s. 113-114.
5. Naki Tezel. Türk masalları. İstanbul: Bilge kültür sanat, 2011, 208 s.
6. Ögel B. Türk mitolojisi (Kaynakları ve Açıklamaları ile Destanlar), 1 cilt, Ankara, Türk Tarih Kurumu Basımevi, 1989, 644 s.
7. Rəşidəddin F. Oğuznamə. Tərtibçi İ.M.Osmanlı. Bakı, Azərbaycan Milli Ensiklopediyası, 2003, 108 s.
8. Tantəkin H. Sehirli nağılların onqon və əsatiri surətləri, Bakı, Şirvannəşr, 2004, 138 s.




1



2



3



4




5



6

Tablo I. 1-Pənahəli yaşayış yeri; 2, 3-Pətəkqoyulan yaşayış yeri; 4-Dəyirman yeri; 5, 6-Güney yaşayış yerindən əldə olunmuş arxeoloji materiallardan nümunələr.

**ABSTRACT**

**Togrul Khalilov**

**ABOUT SOME MEDIEVAL MONUMENTS AROUND GAMIGAYA**

In this area Archaeological investigations have been conducted since 1968. Gamigaya around the monuments of the rich history of Azerbaijan has a special place. Each of them is an important scientific study of material and spiritual culture is important in a comprehensive way. The article studied the some of the new medieval monuments on the valley of Gilançay, around the Gamigaya. The archaeological monuments found there were systematized and studied comparatively. The age of the new monuments which were registered in the result of carried out research was defined. It was defined that the valley of Gilancay is one of the ancient dwelling places. Researchs give reason to note it that there are many our unresearched monuments in The Valley of Gilanchay. That is why conducting archaeological investigations is necessary in this branch. Gamigaya monuments around the medieval period, proves the existence of the people living in this country at that time. Gamigaya rock icons as well as surrounding monuments of the ancient Turkish culture traits observed in the Turkic ethnic groups living in these areas, false statements related to the history of our nation once again proves that there was no scientific basis.



**РЕЗЮМЕ**

**Тогрул Халилов**

**О НЕКОТОРЫХ СРЕДНЕВЕКОВЫЕ ПАМЯТНИКИ ВОКРУГ GEMIQAYA**

На этой территории, начиная с 1968 г. преводятся археологические исследование. Памятники вокруг Гемигая занимает особое место богатой истории Азербайджана. Каждый из них является важным научное исследование материальной и духовной культуры важно комплексно. В статье рассматриваются некоторые новых средневековых памятников района Гемикайя в окрестностях долине Гиланчае. Выявленные материалы были сгруппированы и сопоставлены. По итогам исследований было установлено, что окрестности Гиланчайя были заселены ещё в древности, а найденные материялы относятся к более поздней времени. Проведенные исследование дают осневаные предполагать наличии множества не изученных памятников. Важно археологические исследование в этом направлении. Памятники вокруг Гемигая средневекового периода, доказывает существование людей, живущих в этой стране в то время. Гемигая иконки рок, а также окружающие памятники древних турецких черт культуры наблюдается в тюркских этнических групп, проживающих в этих районах, ложные заявления, связанные с историей нашего народа еще раз доказывает, что не было никакой научной основы.



NDU-nun Elmi Şurasının 30 mart 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 07).

Məqaləni çapa təqdim etdi: AMEA-nın həqiqi üzvü İ. Hacıyev

**EMİN MƏMMƏDOV**
Naxçıvan Muxtar Respublikası Ali
Məclisinin Naxçıvanşünaslıq Mərkəzi
emammadov87@hotmail.com

**UOT: 94(479.242)**

# ENEOLİT DÖVRÜNÜN QƏDİM YAŞAYIŞ YERLƏRİ (ŞƏRUR ABİDƏLƏRİ TİMSALINDA)

**Açar sözlər:** Naxçıvan, Şərur, Eneolit dövrü, yaşayış yeri, arxeoloji tədqiqat.
**Key words:** Nakhchivan, Sharur, Calcholitic Age, settlement, archaelogical research.
**Ключевые слова:** Нахичеван, Шарур, Энеолитического период, поселения, археологическое исследование..

Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən biri olan Naxçıvan diyarı özünəməxsus təbii coğrafi şəraiti ilə tarixin bütün mərhələlərində insanların burada məskunlaşmasına şərait yaratmışdır. Diyarın zəngin abidələri Azərbaycanın milli maddi-mədəni irsinin ən parlaq nümunələri sırasındadır. Azərbaycanın qədim mədəniyyətlərinin, tarixi varisliyinin öyrənilməsində Naxçıvanın arxeoloji abidələrinin müstəsna əhəmiyyəti vardır.

Şimaldan Kiçik Qafqazın Dərələyəz və Zəngəzur dağ silsilələri, cənubdan Araz çayı ilə sərhədlənən Naxçıvan bölgəsi Araz çayının və onun qollarının vadilərindəki münbit torpaqları, yüksək dağlıq ərazilərindəki otlaqları ilə qədim əkinçilik və maldarlığın inkişaf etdirilməsi üçün əlverişli şəraitə malik olmuşdur. Məhz bu səbəbdən Naxçıvan ərazisində tarixin bütün mərhələlərini əks etdirən tarixi-arxeoloji abidələr mövcuddur.

Xalqımızın maddi-mədəni irsinin öyrənilməsinin zəruriliyini önə çəkən ulu öndər Heydər Əliyev Azərbaycanın qədim tarixinin öyrənilməsində Naxçıvan abidələrinin müstəsna əhəmiyyətini hər zaman diqqət mərkəzində tutmuş və ötən əsrin sonlarında, respublikanın hər yerində olduğu kimi, Naxçıvan Muxtar Respublikası ərazisində də qədim tariximizin, maddi-mədəni irsimizin öyrənilməsinə və qorunmasına böyük diqqət yetirilmişdir. Naxçıvanda bütün XX əsr ərzində ən irimiqyaslı arxeoloji qazıntı işləri, çoxsaylı abidələrin qeydə alınması, maddi mədəniyyət qalıqlarının toplanması və geniş ictimaiyyətə təbliğ edilməsi üçün tarix diyarşünaslıq muzeylərinin yaradılması da məhz Heydər Əliyevin bilavasitə diqqət və qayğısı sayəsində həyata keçirilmişdir.

Naxçıvan abidələrinin qeydiyyata alınması, onların pasportlaşdırılması işinin təkili isə birbaşa Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun adı ilə bağlıdır. Ali Məclis Sədrinin "Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında" 2005-ci il 6 dekabr tarixli sərəncamından sonra bu sahəyə diqqət daha da artırılmış və yeni abidələr aşkar edilmişdir. Qeyd etmək lazımdır ki, bu abidələr içərisində arxeoloji abidələr çoxluq təşkil etmişdir. Həmin abidələrin böyük bir qismi isə Şərur rayonunun ərazisində qeydə alınmışdır.

Dünya əhəmiyyətli abidələr sırasına daxil olan Şərur abidələrində son illər aparılan sistemli və ardıcıl arxeoloji tədqiqatlar bir daha sübut etdi ki, bu ərazi Yaxın Şərqdə meydana çıxan bir çox mədəniyyətlərin – Eneolit, Kür-Araz və Boyalı qablar mədəniyyətinin əsas mərkəzlərindən biridir. Bu bölgədə Eneolit dövrünün tədqiqi nəticəsində elmdə bir sıra qaranlıq məsələlərə aydınlıq gətirilmişdir. Bu dövrə aid tədqiqatlarda yaşayış yerlərinin öyrənilməsi xüsusi əhəmiyyət kəsb etmiş və Naxçıvanın qədim dövr tarixi ilə bağlı yeni elmi fikirlər ortaya qoyulmuşdur.

Arxeologiya elminə daş dövründən tunc dövrünə keçid mərhələsində, yəni e.ə VI-IV minillikləri əhatə edən Eneolit dövründə qədim insanların məskunlaşdığı və zaman-zaman öz unikal mədəniyyətlərini yaradıb formalaşdırdıqları çoxlu sayda yaşayış yerləri məlumdur. Yaşayış yeri dedikdə qədim və orta əsrlər dövründə mövcud olmuş yaşayış məskənlərinin xarabalıqları nəzərdə tutulur. Düşərgədən fərqli olaraq yaşayış yerləri uzun müddət mövcud olmuş, dayanıqlı yaşayış evləri və təsərrüfat tikililərinə malik yaşayış məskənlərinin bizə gəlib çatmış qalıqlarıdır.

Bu cür yaşayış yerləri özündə qədim tarix və zəngin mədəniyyətlər yaşatmaqla minillər əvvəlki dünyanı öyrənməyə, keçmişlə bağlı elmi fikirlər yürütməyə kömək edir. Buna görə də qədim Naxçıvan diyarında, xüsusilədə onun Şərur bölgəsində sözügedən dövrlə bağlı qədim yaşayış yerlərinin tədqiq olunmasının mühüm elmi əhəmiyyəti vardır.

2006-2010-cu illərdə Şərur rayonunda aparılan araşdırmalar zamanı Ovçulartəpəsi, Şortəpə, Ərəbyengicə, Xələc, Aşağı Daşarx abidələrindən Eneolit dövrünə aid keramika məmulatlarının aşkar

olunması bu yaşayış yerlərində məskunlaşmanın Eneolit dövründən başladığını göstərmişdir. Bu abidələrdə aparılan tədqiqatlar nəticəsində məlum olmuşdur ki, Eneolit dövrünün sonu və Kür-Araz mədəniyyətinin başlanğıcını əks etdirən abidələr Naxçıvanda başlıca olaraq Şərur rayonu ərazisində toplanmışdır ( 10, s. 46).

Eneolit dövrünün geniş şəkildə tədqiq edildiyi Ovçulartəpəsi yaşayış yerində aparılmış araşdırmalar son illərin ən uğurlu tədqiqatlarından hesab edilir. Ümumiyyətlə Ovçulartəpəsi yaşayış yeri Naxçıvanda Eneolit dövrünün daha dərindən öyrənildiyi abidələrdən biridir. Şərur rayonunun Dizə kəndinin şimal hissəsində, Arpaçayın sol sahilində uzunsov konsvari təpənin üzərində yerləşən bu qədim yaşayış yerində hələ 1980-ci ildən arxeoloji tədqiqatlara başlanılmışdır. Bu illərdə qazıntı işi 0.8 m dərinliyə qədər aparılmış, Eneolit və Erkən Tunc dövrlərinə aid tikinti qalıqları, gil qab hissələri, daş alətlər və s. aşkar edilmişdir ( 4, s. 4). 2001-ci ildə isə yaşayış yerində S.H.Aşurov tərəfindən 5.5 kv metr sahədə araşdırma aparmışdır.

Ovçulartəpəsi yaşayış yerində ən geniş və sistemli tədqiqat işləri 2006-2013-cü illərdə Azərbaycan-Fransa birgə arxeoloji ekspedisiyası tərəfindən aparılmışdır. V.B.Baxşəliyevin rəhbərliyi ilə aparılan arxeoloji qazıntı nəticəsində bölgənin qədim sakinlərin minillər əvvəl yaratmış olduqları zəngin mədəniyyətlər – Eneolit və Kür-Araz mədəniyyətləri daha geniş və dərindən öyrənilmişdir. Eyni zamanda Ovçulartəpəsi tədqiqatları Eneolit dövrünün bir sıra mühüm məsələləri ilə bağlı gələcək tədqiqatlara işıq salmışdır.

Ovçulartəpəsi yaşayış yerindən aşkar olunmuş maddi-mədəniyyət qalıqlarının tədqiqi yaşayış yerini e.ə V-III minilliklərə aid etməyə imkan vermişdir. Həmçinin arxeoloji tədqiqatlar zamanı burada bir-birindən tamamilə fərqlənən iki tikinti dövrü aşkar edilmişdir. (4, s. 40) Birinci dövr üçün yarımqazma tipli evlər, ikinci dövr üçün isə dördkünc formalı təkotaqlı və çoxotaqlı evlər xarakterikdir (Şəkil 1).



**Şəkil 1. Ovçulartəpəsi yaşayış yeri.**

Ovçulartəpəsində aparılan araşdırmalar e.ə. V-III minilliklərdə Naxçıvanda yaşayan tayfaların həyat tərzini öyrənməyə imkan vermiş, Proto Kür-Araz mədəniyyətinin varlığı ortaya çıxarmış, Kür-Araz mədəniyyətinin Son Eneolit mədəniyyətindən qaynaqlanaraq inkişaf etdiyi müəyyən olunmuşdur. Ovçulartəpəsində aşkar olunan arxeoloji materialların kompleksi onu "Ovçulartəpəsi mədəniyyəti" adlandırmağa imkan vermişdir. Ovçulartəpəsində aşkar olunan, üzərində qabarıq keçi və qoyun təsvirləri olan gil qablar Naxçıvanda professional təsviri sənətin səkkiz min il tarixi olduğunu təsdiq etmişdir. (6, s. 41)

Son illər Şərur rayonu ərazisində aparılan arxeoloji qazıntılar nəticəsində aşkara çıxarılan maddi mədəniyyət qalıqları Naxçıvanın qədim əhalisinin təsərrüfat həyatı, müxtəlif sənətkarlıq sahələri, dəfn adətləri, Yaxın Şərqin qədim sivilizasiya mərkəzləri ilə əlaqələri barədə dəyərli məlumatlar vermişdir. Bütün bu arxeoloji tədqiqatlar minilliklər ərzində Naxçıvanın qədim əhalisinin maddi və mənəvi mədəniyyəti, dəfn adətləri, digər ölkə və xalqlarla əlaqələri, dövlətçilik ənənələri tarixinin öyrənilməsinə böyük töhfələr vermişdir. Naxçıvan abidələrində aparılan arxeoloji tədqiqatlar burada həyatın minilliklər ərində fasiləsiz davam etdiyini və bu ərazinin özünəməxsus ənənələri ilə tarixən formalaşan bir bölgə olduğunu göstərmişdir.

**ƏDƏBİYYAT**


1. Baxşəliyev V.B. Azərbaycan arxeologiyası. Bakı: Elm, 2007, 238 s.
2. Baxşəliyev V.B. Naxçıvanın arxeoloji abidələri. Bakı: Elm, 2008, 302 s.
3. Baxşəliyev V.B., Seyidov A.Q. Aşağı Daşarx. Bakı, 2012, 186 s
4. Baxşəliyev V., Marro C., Aşurov S. Ovçulartəpəsi. Bakı: Elm, 2010, 154 s.

5. Kərimov V.İ. Azərbaycanın qədim məskənləri. Bakı: Şərq-Qərb, 2013, 292 s.
6. Naxçıvan tarixi. Üç cilddə, I cild. Naxçıvan: Əcəmi, 2013, 452 s.
7. Seyidov A.Q., Baxşəliyev V.B., Məmmədov S.M., Aşurov S.H. Qədim şərur. Bakı: Elm, 2012.
8. Seyidov A.Q., Baxşəliyev V.B. Ərəbyengicə, Bakı: Nurlan, 2009, 160 s.
9. Seyidov A.Q., Baxşəliyev V.B. Xələc. Bakı: Elm, 2010, 220 s.
10. Seyidov A.Q., Baxşəliyev V.B. Şortəpə (İbadulla). Bakı: Təhsil+Q.R, 2013, 200 s.

**RESUME**

**Emin Mammadov**

**ANCIENT SETTLEMENTS OF CHALCOLITHIC PERIOD**
**(Example of the monuments of Sharur)**

It was noted in the article that the ancient cultures, archaeological monuments in Nakhchivan is paramount importance in the study of the history of giving. The geograpical location of this ancient land belonging to people at all stages of history contributed to the settlement.

In recent years, the monuments of Nakhchivan, registration and certification organization of work as a result of new monuments have been found. A large part of these monuments have been registered in the territory of Sharur region. Olso revealed that the end of the Chalcolithic period, reflecting the biginning of the Kura –Araxes culture monuments collected in the territory of Sharur. As a result of a number of scientific research in this area in the dark  Chalcolithic issues were clarified.

Sharur monuments of recent years has showen that a more sistematic and coherent archaeological research in this area has ancient settlements of the Chalcholitic age. In the result of found of archaeological excuvations artefacts revealed about the economic life, different crafts, burrial traditions ofancient people of Nachchivan.

**РЕЗЮМЕ**

**Эмин Мамедов**

**ДРЕВНИЕ ПОСЕЛЕНИЯ ЭНЕОЛИТИЧЕСКОГО ПЕРИОДА.**
**(На примере Шарурских памятников)**

В статье отмечено, что при изучении древних культур и исторических наследий Азербайджана археологические памятники Нахичевани имеют особое значение. Естественный, своеобразный географический климат этого древнего края на всех этапах истории создавал необходимые условия для поселения людей.

В последние годы в Нахичевани выявлены новые памятники в результате регистрации и паспортизации памятников. Большинство этих памятников зарегистрированы на территории Шарурского района. Также стало известно, памятники, отражающие в конце Энеолитического периода и начала Куро-Аракской культуры в основном находятся на территории Шарурского района. Найдены ряд неизвестных науке вопросов в результате исследования Энеолитического периода в этом районе.

Систематические и последовательные археологические раскопки (исследования), проведенные в последние годы в Шарурском районе, еще раз доказали, что на этой территории существуют поселения, относящиеся к периоду Энеолит. Остатки материальных, культурных вещей, обнаруженных в результате археологических раскопок, дали ценную информацию о связях Ближнего Востока с центрами цивилизации, о древней хозяйственной жизни, о разных ремесленниках, традициях захоронения в Нахичевани.

---

NDU-nun Elmi Şurasının 30 mart 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 07).

Məqaləni çapa təqdim etdi: AMEA-nın müxbir üzvü Z.Şahverdiyev

**ERDAL SEZGİ**
*Naxçıvan Dövlət Universiteti*
*erdalsezgi76@gmail. com*

**UOT: 94 (479)**

# TÜRK DÖVLƏTLƏRİ İDARƏÇİLİYİNDƏ İRƏVAN

***Açar sözlər:*** *Oğuz, vətən, torpaq, Azərbaycan, türklər, İrəvan*
***Key words:*** *Oghuz, homeland, land, azerbajian, Turks, Irevan*
***Ключевые слова****: Огуз, родина, земля, Азербайджан, Тюрки, Иреван*

İrəvan torpaqları (Çuxursəd bölgəsi) Azərbaycanın ayrılmaz bir parçası olmuş və hər zaman türk dövlətlərinin idarəçiliyində olmuşdur. Bu torpaqlar avropalılar tərəfındən oğuzların vətəni olaraq bilinmiştir. Səlcuqlar Azərbaycan torpaqlarını fəth etdiktən sonra buradan Anadolunu daha asanlıqla ələ keçirmişdilər. Bu ərazilər Anadoluya yürüşdə bir qapı rolunu oynamışdır. İrəvan coğrafiyasına ermənilər XV yüzillikdə Qaraqoyunlu hökmdarlarının izniylə yerləşmişdilər. Bölgə geosiyasi önəmindən görə Osmanlı və Səfəvilər arasında uzun sürən müharibələrə səhnə olmuşdur. Bundan bu səbəbdən bölgə tez-tez əldən-ələ keçmişdir.

*Səlçuqlar dövründə İrəvan bölgəsi*

IX və XI yüzilliklər arasında Baqratilər xanədanlığının idarəçiliyində olmuş Çuxursəddi, Böyük Səlçuqlu dövlətinin qurulmasından sonra Toğrul bəy 1049-cu ildə bu əraziləri, xüsusilə də Rəvana (İrəvan) çox yaxın olan Arzniyi aldı. Alparslan 1064-cü ildə Bəyaziddən başlayaraq Aniyə qədər bütün bölgəyi ələ geçirmişdir. Səlcuqluların səfərləri Qərbi Azərbaycan tarixində böyük önəmə sahipdir. XI-XIV yüzilliklərdə bu bölgələrdə Səlçuqlu Oğuzlarının siyasi hakimiyəti quruldu. “Kitabi-Dədə Qorqud” dastanlarında bu torpaqlar “oğuz eli” kimi xatırlanmışdır. Oğuz eli XIII-XIV yüzilliklərdə monqolların hakimiyyəti altında qalmışdır. Rəvan (İrəvan) şəhərinin önəmi XIII yüzilliyin ortalarından sonra artmışdır. Səlçuqlar dövründə Qafqaz əraziləri istiqamətində əsl hərbi yürüşlər Alparslanın rəhbərliyi ilə başlanmışdır. Anadolunun şərqə çıxışı olaraq qəbul edilən bu bölgənin əsas oğuz köçləri və axınları tərəfindən ələ keçirilməsi sonrakı köçlər üçün stimul olmuşdur. Səlçuq oğuzlarının məqsədi Qafqaz bölgəsini ələ keçirdikdən sonra buradan, Anadolu ve Bizansa doğru ediləcək yürüşlər üçün bir rezidensiya kimi istifadə etmək idi. Oğuzların bu planları nəticədə uğurlu olmuşdur. Selcuqlu oğuzların Qafqazı ələ keçirmə siyasətlərini əhali hərəkəti kimi səciyyələndirən CL. Cahen bu cür dəyərləndirmişdir*:”XI yüzillikdə Cənubi Qafqaz və Qərbi Asiyadakı türk etnosu, Xəzər dənizinin güney ve kuzeyində hələ çox az məskunlaşmış və bu steplərə yönəlik geniş bir köç dalğası ilə nəticələnmişdir. Yəni bu köçlər daha öncəkilər kimi Orta Asiyadan başlayan köçlərlə əlaqəlidir. Türkmənlərin büyük bir qismi Həmədan ilə Azərbaycan arasında kütləvi olaraq məskunlaşmışdır. Yaqutinin də dediyi kimi, yeni etnik birliklər müəyyən məqsədlər üçün şərqdən gəlməkdə davam edirdilər. Bu kütlələrin ən başlıca qayəsi bu ərazidən qənimət toplamaqdı. Bölgədəki daxili problemlər çox öncədən türklərin yolunu açmış və türklərin bu bölgələrə yerləşməsində önəmli rol oynamışdır*. Sultan Alparslan 1064-cü ildə paytaxt Reydən hərəkət edərək Azərbaycan torpaqlarına girmiş, Naxçıvan bölgəsində Aras çayından keçmək üçün qayıqlardan körpülər qurdurmuş və Arazı keçmişdir. Səlçuqlu oğuzlarının Qərbi Azərbaycanda irəliləməsi və buraları hakimiyətləri altına almaları Azərbaycan tarixi baxımından son dərəcə önəmli olmuşdur. XI və XIII yüzilliklərdə bu bölgələrdə səlçuq türklərinin hakimiyyəti qurulmuşdur. Səlcuq türklərinin bu coğrafyaya hakim olmaları bölgədə meydana gələcək xiristian gücünün və əhali artımının da qarşısını almışdır. “Kitabi- Dədə Qorqud”da bu bölgələr “oğuz eli” olaraq ifadə edilməktədir. Səlçuqlar zamanında Cənibi Qafqaz və Anadoluya planlı bir köç dalğası istiqamətləndirilmişdir. Türklərin bu səylərinin nəticəsində bu ərazilər türk yurdlarına çevrilmişdir. Oğuz türkləri Kür çayı hövzəsindən qışlaq, Qars, Arpaçay və İrəvan (Rəvan) bölgəsini isə yaylaq kimi yararlanmışlar.

*Monqollar və Elxanilər dövründə İrəvan bölgəsi*

Səlçuqlardan sonra Eldənizlərin (1148-1225-ci illər) hakimiyəti altına keçən bu ərazilər, 1239-cu ildə monqolların hücumlarına məruz qaldı. Elxani hökmdarı Hülaku xan (1256-1264-cü illər)

zamanında bir çox oğuz-türkmən tayfaları Çuxursəd ərazisində məskunlaşmışdılar. Buraya yerləşən türkmən tayfaları bölgənin türkləşməsində və islamlaşmasında da çox təsirli rol oynamışlar. Monqol imperiyasının böyük xanı Çingiz xanın ordu komandanlarından olan Cəbə ve Sabutay xanın Şimali İran və Azərbaycan torpaqlarını fəth etməsi ilə Çuxursəd və Rəvan (İrəvan) türk-monqol dövlətinin hakimiyyəti altına girmişdir. Çingiz xanın komandanları Cəbə və Sabutay, onun izni ilə türk-monqol qoşunlarıyla Ermənistan, Gürcüstan və Azərbaycan torpaqlarını ələ keçirərək, bu bölgələri öz idarəçilikləri altına aldılar. 1239-cu ildə Ani və Qars bölgəsi ilə Sürməli bəlgələrində türk-monqol qüvvələrinin əlinə keçməsindən sonra, türkmənlər bu əraziləri Qars vilayətindən tutmuş Araz şayı və Ağrı dağı ətraflarına qədər köçəri şəklində yaylaq və qışlaq olaraq yararlandılar. 1384-cü ildə Teymur Çuxursəd-Rəvan və Azərbaycan topraklarını ələ keçirmişdir. Teymur Anadolu, Gürcistan və Suriya istiqamətindəki səfərlərində bu bölgəni əsas geosiyasi mövqe kimi seçmişdir. Araz çayı sahili, Naxçıvan, Sürməli, Çuxursəd və Gürcistan bölgəsi türk–monqol hərbi birlikləri tərəfından XIII -XIV yüzilliklərdə tutulmuş və bu dönəmdə İrəvan şəhərinin əhəmiyyəti artmağa başlamışdır.

*Qaraqoyunlu türkmənləri dövründə İrəvan bölgəsi*

Qaraqoyunlu oymaqları çevrəsində birləşən etnosların ən mühümü Sədlu oymağı idi. Bu türk oymağı daşıdığı bu adı XIV yüzillikdə tayfanı idarə edən Səd adlı bir boy bəyinin adından almışdır. Eynı zamanda bu boy bəyinin Qaraqoyunlu ailəsi ilə yaxın olduğu anlaşılmaqdadır. İran qaynaqları Sədin övladlarının Qaraqoyunlu hökmdarının əmiuşaqları olduğnu əks etdirirlər. Hafiz Əbrunun dediyi kimi, (Osmanlı müvərrixi, Sürməli Çuxuru) Naxçıvan və Sürməli bölgəsi bu oymağın köhnə vətəni idi. XV yüzillikdən etibarən qaynaqlarda sıx-sıx qeyd edilən safəvi türklərinin İrəvan və adı çəkilən yerlərdən meydana gələn bir hüdud idarəçilik yeri olan Çuxur-i Səd (Çuxr-i Sə'd) və ya Sə'd (Saat) Çuxuru bu qəbilənin adı və yurdu ilə bağlıdır. Səəd'lu oymağı Qaraqoyunlu tayfa birliyini təmsil edən iki güçlü qəbilədən biridir. Qaraqoyunluların önəmli qələbələrində Səədlu boyunun önəmli təsiri vardır. Səədlu oymağı, Qaraqoyunlular siyasi varlıqlarını itirib süqut etdikədn sonra Ağqoyunluların, sonra isə səfəvi türklərinin idarəçiliyinə girdi. Lakin zaman keçdikcə öncəki varlıqlarını davam etdirə bilmədilər. 1406-cı ildə Qaraqoyunlu oğuz türkləri hökmdarı Qara Yusif Naxçıvan yaxınlığında teymuri quvvələrinə qarşı döyüşü qazanınca Sürməli torpaqlarına girmişdi. Beləliklə də Qaraqoyunlu türkmənləri İğdır və Rəvanın (İrəvanın) kəndlərinə dağılaraq buralarda yerləşməyə başlamışlar. XV yüzillik Rəvanın (İrəvan) bölgədə yüksəlişə başladığı dönəm olaraq bilinməktədir. Qaraqoyunlu türkləri zamanında Sürməli Çuxurunda, Səəd Çuxurunda türkmənlər 63 ilə yaxın hakimiyyət sürmüşdülər. Bu coğrafiyada bəzi yer adlarının Qaraqoyunlu və Ağqoyunlu oğuz türkmənləri arasında mövcud olan oymaklardan qaldığı bilinməkdədir. Bunlar Ərəpgir (Arapgirli-Ərəpgirli), Bayat, Qaçar, (Gəcər), Qarahacılı, Qaraqoyunlu (hazırda İğdırın İlçəsi) Baharlu, (Baharlı məhəlləsi) XV yüzillikdə bölgəyə yerləşən Qraqoyunlu və Ağqoyunlu türkmənləri dönəmindən qalmıştır. Qaraqoyunluların ən önəmli vətənlərindən biri olan Sürməli Çuxuru Azərbaycan Qaraqoyunlu dövləti (1410-1468-ci illər) qurulduqdan sonra 1411-ci ildə Qərbi Azərbaycan dövlətinin hüdudları içərisinə daxil olmuşdur. Qaraqoyunlu türkləri zamanında Rəvan-İrəvan önəmli bir özəl mülkiyyət mərkəzi statusuna sahib idi. 1441-ci ildə erməni qriqoryan kilsəsinin mərkəzləri ermənilərin xüsusilə son dərəcə önəm verdikləri Rəvan-İrəvan şəhəri yanındakı Eçmiədzinə köçürülmüşdür. Xüsusilə bu dövrdən başlayaraq erməni din adamları Rəvan-İrəvan çevrəsində sürətli bir şəkildə torpaq almağa və bu bölgədə mülkiyyətlərini artırmağa başlamışlar. Bütün bunların işığında bir nüansı xüsusi qeyd etmək lazımdır ki, bu coğrafiyanın asayişinin pozulmasına səbəb olan proseslərin qaynağı təəssüf ki, Qaraqoyunlu türkmənləri dövründə atılan yanlış addımlar olmuşdur. Belə ki, Qaraqoyunlular zamanında Çuxursəd bölgəsinin gələcək yaşamında Azərbaycan üçün son dərəcə ağır problemlərin başlayacağı bir durumun əsası qoyulmuşdur. Qaraqoyunlu dövlətnin başında duran Cahan şah zamanında onun verdiyi fərmanla 1441-ci ildə erməni katolikoslarının fəaliyyət mərkəzləri Kilikiyanın (Adana bölgəsi) Sis şəhrindən Azərbaycan-İrəvan (Rəvan) yaxınlarındaki Üçkilsəyə (Üçmiədzin) monastırına köçürülmüşdür. Ermənilərin bu bölgəyə daşınmalarına izin verilmişdir. Ortaya çıxan bu proseslərdən sonra türklər tərəfindən Cənubi Qafqazda qriqoryan məzhəbini yaymağa çalışan erməni missiyonerlər üçün əlverişli bir zəmin yaradılmış oldu. Ermənilər bu bölgəyə gətirildikdən sonra da Qaraqoyunlu hökmdarları tərəfindən himayə edildilər. Sürətlə inkişaf edən hadisələr işığında Çuxursəd bölgəsindəki Üçkilsədə ermənilərin dini mərkəzləri formalaşdı. Bu mərkəz sonrakı dönəmdə Cənubi Qafqazda bir erməni dövlətnin ortaya çıxarılması üçün milli bir mərkəz rolunu oynayacaqdı.

*Ağqoyunlu türkmənləri dönəmində İrəvan bölgəsi*

Qərbi Azərbaycan torpaqları Ağqoyunlu türkmən dövlətinin (1468-1501-ci illər) ərazilərinə daxil idi. Azərbaycan Səfəvilər Dövləti 1501-ci ildə Ağqoyunlu dövlətinin hakimiyyətinə son qoymuşdur. 1502-ci ildə isə Qərbi Azərbaycanı ələ keçirən Səfəvi türklərinin idarəçilik anlayışlarına görə hakimiyyətləri altındaki bölgələrdə mülki idarəçilik sistemi olan bəylərbəyliklər yaradılmışdı. Yaradılan bu bəylərbəyliklərdən biri mərkəzi Rəvan-İrəvan şəhəri olan Çuxursəd bəylərbəyliyi idi. Çuxursəd bəylərbəyliyi Qərbi Azərbaycanın ilk ümumi coğrafi adı olaraq bilinməkdədir. Qərbi Azərbaycan torpaqlarının çox böyük bir qisminin bu bəyliyin çətiri altında toplanmış olmasının bölgənin tarixi baxımından önəmli təsirli olmuşdur. XV yüzillikdə Qaraqoyunlu rəhbəri Cahan şah Ağqoyunlu Uzun Həsəninin qüvvələri tərəfindən Sürməli Çuxurunda (İğdır düzündə) ani bir basqınla pusquya düşürülərək məğlub edildi və Cahan şah öldürüldü. Çuxursəd və İğdır düzü tamamilə Ağqoyunlu hakimiyyəti altına keçdi. Bu bölgə Ağqoyunlu hökmdarlarının qışlağı idi. 1469-cu ildə Sürməli çuxuru ilə Səəd Çuxuru (Ağrı dağı və Alagöz dağı arasında qalan bölgə) Uzun Həsənin hakimiyyəti dövründə ağqoyunlu türkmənləri tərəfindən tutulmuşdur. Qaraqoyunlular zamanında Çuxursəd bölgəsinə yerləşdirilən Üçkilsə erməniləri və erməni katolikosları, Qaraqoyunlular bölgədə süquta uğrayınca bir başqa türk dövləti olan Ağqoyunlu dövlətinə sığındılar. Ermənilər bu zaman Ağqoyunlu dövlətindən də istədikləri kimi himayə gördülər. Qaraqoyunlu və Ağqoyunlu türk dövlətlərinin öz yurdlarında ermənilərə izin vermələri və onlara dəstək vermələri nəticəsində bölgədə sürətlə erməni kilsələri artmışdır.

*Səfəvilər dövründə İrəvan*

1501-ci ildə paytaxtı Təbriz olan Səfəvi (Qızılbaş) dövləti quruldu. Səfəvi (Qızılbaş) dövlətinin qurulumasında əsas rol oynayan boylar bunlardır: Rumlu, Ustaclı, Təkəli, Şamlı, Zülqədər, Qacar, Əfşar, Türkmən, Varsaq və s.

Bunlardan *Rumlular* Anadolunun Sivas, Qoyulhisar, Qarahisar, Toqat-Amasiya bölgəsindən gələrək Çuxursəd, Şirvan və Gəncədə yerləşdilər.

*Ustaclılar* da Sivas, Amasiya və Toqat bölgəsindən gələrək, Kirman və Əcəm İrağına yerləşdilər. Ustaclıların aşağı boyları ise Çavuşlu, Şeyxlər, Kəngərli, Şərəfli, Kərəmpə, Qoçulu, Sofulu, Qarahisarlı, Qızıllı, Damlı və Gözüböyüklüdə yerləşdilər.

*Təkəlilər* Antalya, Isparta-Burdur və Muğla bölgəsindən gəlib İsfahan və Əcəm İraqında yerləşdilər.

*Şamlılar* Hələb- Ayıntab bölgəsində yaşayarkən Şah İsmayıla qatılıb İrəvan (Rəvan), Maku, Ərdəbil, Gəncə, Marağa çevrəsinə yerləşmiş, Xudabəndə, Ovçu, Balabanlı, Biçərli Ərəbi, Ərəbgirli və Qərəmətli boylarına ayrılmışdılar.

*Zülqədərlilər* Maraş ilə Yozqat bölgəsindən Fars bölgəsinə getmişdilər.

Bunların yanında Anadoludan gələrək Azərbaycan və İran torpaqlarına yerləşən digər Qızılbaş qrupları arasında Cəpnilər, Turqutlular, Bozcalılar, Acirlular, Xınıslılar, Çəmişgəzəklilər, Şərflilər və Türkmənlər də mövcud idi. Bunların yanında öncə kiçik olaraq söylənən, lakin sonralar böyüyən və Səfəvilər dövlətinin son dönəmlərində də güclü olan Əfşar və Qacar boyları da var idı. Qacarlar Anadoludakı Boz-ok yörəsində və Gəncə, Çuxursəd, Mazandaran bölgəsində yaşayırdılar. Əfşarlar Xuzistan və Kahguliyə bölgəsində yaşamaqdaydılar.

İranda qurulmuş olan Səfəvilər dövləti daha öncəki dövrlərində olduğu kimi inzibati-idarə bölgələrinə-bəylərbəyliklərə ayrılmışıdı. Azərbaycan torpaqlarında İrandaki inzibati-idarə sistemi aşağıdakı bəylərbəylikləri qurmuşdu.

1.Təbriz bəylərbəyliyi: Bu bəylərbəylik Talış, Xəzərin güney sahili, Qaradağ, Xoy, Sərab, Şamaxı, quzeydə Muğan, Culfa, Mərənd və Urmiyə gölünün cənub-qərbindəki torpaqları əhatə edirdi.

2.Çuxursəd-Naxçıvan bəylərbəyliyi: Bu bəylərbəyliyin ərazisində Arazın kuzeyindəki böyük ərazi-İrəvan-Naxçıvan, Naxçıvandan Güneydə Maku, Ağrının Güneydoğu əraziləri vardı.

3.Qarabağ bəylərbəyliyi: Bu bəyliklərin mərkəzi şəhri Gəncə şəhəri idi. Bəylərbəylik bugünkü dağlıq və Aran Qarabağı Ağstafaya, Ordubaddan şimal-şərqdə Bərgüşadı, Ordubad və Culfadan şərqdə olan Arazbasar, Cavanşiri əhatə edirdi. Bu bəylərbəylik də Gürcüstan və Ermənistan torpaqlarının bir qismində mövcud idi.

4.Şirvan bəylərbəyliyi: Mərkəzi Şamaxı şəhəri idi. Bu bəylərbəylik könə Şirvanşahlıqdan başqa Şəki və Ərəş torpaqlarını da əhatə etməkdəydi.

XVI yüzilliyin əvvəllərində Təbriz mərkəz olmaq üzrə çox geniş bir coğrafiyada Səfəvilər dövləti quruldu. Həmin dövrdə İran, Mesopotomiya, Atropatena, Gürcüsdan, Qərbi Azərbaycan torpaqları

Səfəvilər dövlətinin hakimiyyətində idi. Osmanlı dövləti ilə girdikləri siyasi mübarizədə məğlubiyyətləri getdikcə işlərin pis getməsinə səbəb oldu. XVIII yüzillikdə ölkə inzibati-idarəçilik yönündən türkmən tayfaları arasında bəylərbəylik adı on üç əyalətə ayrılmışdı. Mərkəzi İrəvan şəhəri olan bu əyalətlərdən biri də Çuxursəd bəylərbəyliyi idi. Bunlar mülki baxımdan bir neçə bölümə ayrılmışdır. Bu bəylərbəylikləri idarə edənlər xan və sultan rütbələrini daşımaqdaydılar. Çuxursəd olmaq üzrə bəylərbəyliklərin hamısında Səfəvilər dövlətinin ordusu var idi. Bu iki türk dövləti, Osmanlı və Səfəvi dövlətləri iki yüz ildən çox İrəvan torpaqlarına sahib olmaq üçün savaşmışdılar. 1514-cü ildə Çaldıran savaşından sonra iki dövlət arasındakı münasibətlər daim gərgin olmuşdur. 1520-ci ildə Yavuz Sultan Səlim ölüncə Şah İsmayıl yenidən İrəvan torpaqlarını ələ keçirmişdir. 1534-cü ildə Qanuni Sultan Süleyman İrəvan torpaqlarını yenidən geri aldı. 1541-ci ildə Qanuni Şah I Təhmasibi cəzalandırmaq üçün İrəvan və Naxçıvana yürüş etmiş və Qarsdan İrəvana qədər olan ərazilər dağıtmışdır. Bu yürüşdə iştirak etmiş tarixçi İbrahim Pəçəvi İrəvanda çox gözəl və zəngin bayandır əsərlər olduğunu, süslü saray, bağ və bağçalar olduğunu və xüsusilə də Sultan bağı deyilən gözəl bir cənnət bağının olduğunu qeyd etmişdir. Osmanlı əsgərləri İrəvana daxil olduqdan sonra bu gözəllikləri yandırıb-yaxmışlar. XVI və XVII yüzilliyin əvvəllərində Azərbaycan torpaqlarında Osmanlı və İran dövlətləri arasındaki hərbi mücadilələr bu torpaqların iqtisadi yaşamına çox ciddi zərbələr vurmuşdu. Kəndlərdəki iqtisadi fəaliyyətlər dayanmışdır. Mövcud məhsulların yox edilməsi, bununla yanaşı suvarma sistemlərinin dağıdılması və qoyulan ağır vergilər xalqı fəlakətli vəziyyətə salmışdı. Yüzilliyin sonunda Azərbaycanda əhalinin siyahıya alınması geçirilmiş və nəticədə 15 yaşından böyük kişilərin hamısının üzərinə vergi mükəlləfiyyətləri qoyulmuş və digər tərəfdən də yerli feodallar xalqı soymaqda davam etmişdir. Bu vəziyyət də bölgə xalqının öz torpaqlarını bıraxıb getməsinə səbəb olmuşdur. Dövlət məmurlarının məvaciblərini də xalq təmin etmək məcburiyyətində qalmışdı. Kəndlilər yerli fodalların ərazilərində biyara məcbur edilirdilər. Kəndlilər çoxlu mükəlləfiyyətlər yerinə yetirmək məcburiyyətində idilər.

*Osmanlılar dövründə İrəvan-(Rəvan)*

İran -Azərbaycan torpaqlarında qurulan Səfəvilər dövləti Osmanlı dövlətini təhdit edən bir siyasət yürütməyə başladı. Anadoluda baş qaldıran səfəvi tərəfdarı Şahqulu üsyanı kimi üsyanlar və Anadoluda bulunan türkmən tayfalarının İrana köç etmək istəmələri Səfəvilər ilə savaşı zəruri etmişdi. 1514-cü ildə Osmanlılar Çaldıran savaşında Səfəviləri məğlub etmiş və Təbrizə qədər olan yerləri ələ keçirmişdilər. Yavuz Sultan Səlim İstanbula geri dönərkən bir müddət Rəvanda (İrəvan) qalmalı oldu. (sentyabr-oktyabr 1514-cü il). Qazanılan Çaldıran zəfəri ilə Osmanlılar Qafqaz coğrafiyasına qədər uzanma imkanı əldə etmişdir. Yavuz Sultan Səlimin Təbriz yürüşünü ən gözəl şərh edən "Heydər Çələbi Səlimnaməsidir". 19 sentyabr (29 Rəcəb) 1514-cü ildə Araz çayını keçdiktən sonra Əlincə qalası yuxarısındakı kəsik kümbəzə çıxan Yavuzun ordusu ilə keçdikləri yerlər belə təsvir olunmuşdur: "20 sentyabrda (30 rəcəbdə) Naxçıvan, yəni (1 Şabanda) 21 sentyabrda Qaradağ xarabaları Əhməd bəy Zəviyəsi; Sədərək; Çuxursəd tərəfindən Hacı Lalalu, Kiçik Vedi, (Vedi şərqi Arpaçay boyunda) Böyük Vedi (köhnə ermənicədə Vayot-Vedi) arası Zəngi Çayı keçilib, Dəvəli Ömər kəndi və Kiçik Vəli yurdundan aşıldı. 26 sentyabr (6 Şaban) 1514-cü ildə İrəvan şəhəri yanında ordu məskən saldı. Cümə axşamı (7 Şabanda) Çuxursəd (İrəvan düzü) təvabindən Üçkilsə (indi Eçmiədzin) Valgarşabat keçərək Həşt mənzil qəsrində dayandı. 20 sentyabr 1514-cü ildə Araz çayı keçən Osmanlı qüvvələri Naxçıvan şəhərinə girərək Qızılbaş olduqlarına görə bu şəhəri yağmalamışlar. Bundan sonra 26 sentyabrda Zəngi çayı keçildikdən sonra Rəvan- İrəvan şəhəri Osmanlı qüvvələri tərəfındən yağmalanmıştır.

Çaldıran zəfərindən sonra Naxçıvan və İrəvan (Rəvan) bölgələri də Təbriz kimi Osmanlıların əlində qısa bir müddət qalmışdır. Qanuni Sultan Süleymanın 11 iyun 1534-cü ildə çıxmış olduğu səfərin məqsədi Şərqi Anadoluyu Osmanlı hakimiyəti altına almaq və İran torpaqlarını ələ keçirərək Osmanlı dövlətinin sərhədlərini Bəsrə körfəzinə qədər genişlətməkdi. Osmanlılar, İbrahim Paşa komandanlığında öncə Təbrizi, daha sonra Naxçıvan, Çuxursəd və Gümrü sancağını da tutdular. Lakin Osmanlı qüvvələrinin geri dönməsindən sonra İran qüvvələri I Təhmasib 1534-cü ilin noyabrında Təbrizi ələ keçirmiş, sonra da qışın gəlməsiylə birlikdə Naxçıvan, Çuxursəd və Gümrü bölgəsini təkrar geri almışdır. Bu dönəmdən sonra Rəvan (İrəvan) torpaqları Osmanlı dövləti ilə İrandakı türk dövləti arasında bir tampon bölgə halına gəlmiş və ya bu duruma salınmışdır. Rəvan torpaqları Osmanlı və İran dövlətinin hücumlarına məruz qalmışdır. Qanuni Sultan Süleyman, İranla yaşanan sərhəd gərginliklərindən sonra (1553-55-ci illər) Naxçıvan səfərinə çıxır. Osmanlı qüvvələrinin 18 iyulda İrana bağlı əyalət mərkəzi olan İrəvan şəhərini və Araz çayının şimal tərəfındə yerləşən Naxçıvan da ələ keçirildi. Qanuni Sultan Süleyman İran səfəri sırasında Naxçıvan, İrəvan-(Rəvan), Qarabağ ətraflarını

tutmuş, Şuragəl, Şərabxana və Nəbli Firaq qəsəbələrı dağıdıldı. Bundan başqa Rəvanda (İrəvanda) Şahın övladlarının sarayları dağıdıldı. Əsgərlər götürə bimədiklərini yandırmışdılar. İran Şahı Təhmasib III Muradın Osmanlı taxtına çıxmasını qutlamaq üçün Çuxursəd bəylərbəyi "Toxmaq" ləqəbiylə bilinən Məhəmməd Sultan ilə 1576-cı ildə İstanbula Osmanlı sarayına dəyərli hədiyyələr göndərmişdir. Osmanlı dövləti I Əhməd və II Osman dönəmlərində Rəvanı almaq üçün fəaliyyətə keçdi, lakin uğur qazana bimədi. Rəvan bəylərbəyi Dəli Xızır Paşa daha sonra Naxçıvan bölgəsini ələ keçirdikdən sonra İrəvan və Naxçıvan əyalətində III Murad və III Məhmməd adına gümüş pullar kəsdirmişdir. IV Murad dönəmində 10 mart 1635-ci ildə mühasirə etdiyi İrəvanı 8 avqust 1635-ci ildə ələ keçirmişdir. Beləliklə 10 avqustda Osmanlılar İrəvan əyalətini qurdular. Bir çox səfərdə olduğu kimi Osmanlıların geri çəkilməsi ilə səfəvi türkləri İrəvan və Təbrizi geri almışdılar. IV Murad 1638–ci ildə təkrar İrana yönəlik Bağdat səfərinə çıxır və bu yürüş sonunda bağlanan andlaşmaya görə Osmanlı dövləti (Rəvan) İrəvanı səfəvilərə buraxmışdır. Daha sonrakı dönəmlərdə İrəvan bölgəsi Osmanlı və İran dövlətləri arasında əldən-ələ keçmişdir. Nadir şahın 1747-ci ildə süiqəsd nəticəsində öldürülməsindən sonra bölgədə siyasi stabillik pozuldu. Bu hadisələr sonra siyasi birliyi olmayan Azərbaycan türkləri Şirvan, Şəki, Talış, Qarabağ, Quba, Gəncə, Rəvan-İrəvan və Bakı xanlıqlarını ayrı-ayrı kiçik müstəqil dövlətlər parçalandılar. Ortaya çıxan bu durum bölgədəki türklərin birliyini pozaraq siyasi gələcəyini və milli bütövlüyünü təhlükəyə atmışdır. Yuxarıdakı bilgilərə müvafiq olaraq sıralamaya qoyarsaq, İrəvan şəhəri III Murad dönəmində, yəni 1583-cü ildə ələ keçirilmiş, Osmanlı və Səfəvi türk dövlətləri arasında bağlanan 21 mart 1590-cı il İstanbul müqaviləsində bəzi səfəvi torpaqları kimi Rəvan da Osmanlı idarəçiliyinə keçmişdir. Daha sonrakı porseslər nəticəsində Səfəvilər 1604-cü ildə Rəvanı geri almışdılar. Daha sonra IV Murad dönəmində 8 avqust 1635-ci ildə İrəvanı Osmanlı dövləti geri almışdır. Bir il sonra, yəni 1636-cı ildə Səfəvi türkləri İrəvanı geri alırlar və 1639-cı ildə bağlanan müqaviləyə görə İrəvan səfəvi dövlətinə verilmişdir. Bölgədə cərəyan edən daha sonrakı siyasi hadisələr nəticəsində 7 sentyabr 1724-cü ildə Osmanlı türkləri İrəvanı təkrar ələ keçirdilər. İrəvan 1735 -ci ilə qədər Səfəvilərin tərkibində qalmış, bu tarixdən sonra yenidən dəyişdirilərək Osmanlı türklərinin əlinə keçmişdir. 4 sentyabr 1746-cı ildə bağlanan müqaviləyə görə İrəvanın Səfəvi dövlətinə aid olduğunu Osmanlı dövləti qəbul etmişdir. Bu tarixdən sonra bir daha İrəvan Osmanlı idarəsi altına girməmişdir. Çox geniş olmasına rəğmən biz bu mövzuya çox qısa bir şəkildə toxunmağa çalışdıq. Tarixi İrəvan torpaqları tarixin hər dönəmində türklərin vətəni olmuşdur. İmperialist dövlətlər bu torpaqlarda öz mənafelərinə xidmət etsinlər deyə, burada bir erməni dövləti yaratmışlar. İrəvan coğrafiyası tarixin hər dövründə Azərbaycan türklərinin olmuşdur.

## ƏDƏBİYYAT


1. Selçuk İlgaz. Osmanlı Hakimiyyətində Rəvan (Çuxur Sa'ad) XVI-XVIII əsrlər arasında Sosial-İqtisadi Tarix. Ərzurum-2010. s. 7
2. Şahin Doğan. Rus qaynaqlarına görə Rəvan xanlığının Rusiyaya Bağlanması və Erməni əyalətinin qurulması, Antalya, 2012, s. 5.
3. Yaşar Bedirhan. Səlcuqlu türklərinin Qafqaz və Qafqaz elləriylə münasibətləri, Ankara, 2014, s 171
4. Faruk Sümer. Tarixləri - Boy Təşkilatı Dastanları, Oğuzlar (Türkmənlər), Türk Dünyası Araşdırmaları Vəqfi, İstanbul-1999. s. 153.
5. Fuad Əliyev, Urfan Həsənov. İrəvan xanlığı, Bakı-2007, s. 10.
6. Nihat Çetinkaya. Iğdır Tarihi (Tarix, Yer Adları və Bəzi oymaqlar Üzərinə), Türk Dünyası Araşdırmaları Vəqfi İstanbul - 1996, s. 63-64
7. Faruk Sümer. Qaraqoyunlular, I. cild, Atatürk Mədəniyyət, Dil və Tarix Yüksək Qurumu Türk Tarih Kurumu Yayınları VII. 49b. Türk Tarix Təşkilatı Çap Evi, Ankara 1992, s. 20
8. Nizamettin Onk. Qafqazdan Anadoluya Iğdır Tarihi, Türk Dünyası Araşdırmaları Vəqfi, İstanbul-2006, s 62.
9. Həsən, Buyruq. Tarixi və Mədəni varlıqlarıyla Iğdır, Iğdır Bələdiyyəsi Yayınları no: 2, 2006, s. 57.
10. Yaqub Mahmudov, İrəvan xanlığı Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan topraqlarına köçürülməsi, Azərbaycan Milli Elmlər Akademiyası, A. A. Bakıxanov adına Tarix İnstitutu, Bakı 2010, s. 39.

11. İsmayıl Məmmədov, Türk Qafqazlarında siyasi və etnik quruluş, Ötükən Nəşriyyat, İstanbul , 2009, s. 375.
12. Mahmud İsmayılov, İlk çağlarda XX əsrin əvvəllərinə qədər Azərbaycan tarixi, Mədəniyyət İncəsənət Nəşriyyat. 2014, İstanbul, s. 231.
13. Sevil Abbasoğlu İrevanlı, Qafqazdakı Kıyım və Sürgünler, Qərb Azərbaycanda Rus və ErmenilerinYaptığı Soyqırım Türk Dünyası Araşdırma Vəqfi İstanbul, 2015, s. 85-86.
14. Baron Cozef Von Hammer Purgstall, Hammer, Böyük Osmanlı Tarihi 3 (Beşinci Dəri) İstanbul, 1993, s. 402.
15. Məhməd Saray, Azərbaycan Türkləri tarixi, İstanbul, Nəsil Matbaacılıq, 1993, s. 15

## ABSTRACT

**Erdal Sezgi**

**Iravan in the Turkish state administration**

After the Oghuz Turks conquered Azerbaijan lands, it became easier for them to have Anatolian lands. This land had a key role in passing to the Anatolian Region for them. The Armenians could only pass to the Irevan Regıon in the 15th century with the permission of Karakoyunlu Sultans and they coluld inhabit this region in this way. Because this region is located in a geopolitically important area there had been many long lasting wars between Ottoman and Safevi Empires. As a result, this region had always been under the rule of different countries.

## РЕЗЮМЕ

**Ердал Сезги**

**Иреван в период правления Тюрков**

В этой статье рассказывается об Огузских Тюрках, которые с давних времен считали некоторые Азербайджанские земли своей родиной.

Иреванские земли (регион Чукур Сид) став неотъеьмлемой частью Азербайджана все время были под руководством тюркских государств. Эти земли были представлены Европейцам как родина Огузов. Тюрки, после того как покорили Азербайджанские земли, отсюда еще легче захватывали Анадолинские земли. Эти места служили воротами для перехода в Анадолу.

В Иреванскую географию армяне смогли прийти и поселиться в XV столетии с разрешением правителей Каракоюнлы. Расположение региона в выгодной геополитической позиции стало сценой длительных войн между Османами и Сефевидами. В связи с этим регион продолжительно был под влиянием других.

NDU-nun Elmi Şurasının 30 mart 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 07).

Məqaləni çapa təqdim etdi: AMEA-nın müxbir üzvü Z.Şahverdiyev

# SOSİAL ELMLƏR VƏ HÜQUQ

**MƏMMƏD RZAYEV**
*Naxçıvan Dövlət Universiteti*
*m.rzayev@mail.ru*

**UOT: 008.39**

## İCTİMAİ HƏYATIN HUMANİSTLƏŞMƏSİ

***Açar sözlər:*** *Şəxsiyyət, humanist, cəmiyyət, , ictimai, milli*
***Ключевые слова:*** *Личность, гуманное, общество, социальная, национальная*
***Keywords:*** *Personality, humane, society, social, national*

Şəxsiyyətin humanist məqsədinin əldə olunması mürəkkəb proses olub, iqtisadi, sosial və mənəvi-mədəni amillərin bütöv kompleksini əhatə edir. Burada iqtisadi və sosial tərəflərin rolunu şişirtmək doğru olmazdı. Çünki mənəvi sferanı inkişaf etdirmədən, insanların şüurunu yüksəltmədən əsl tərəqqiyə nail olmaq qeyri-mümkündür. Müasir dövrdə şəxsiyyətin şüurunu inkişaf etdirmək lazımdır ki, o humanist məzmunlu yeni cəmiyyət quruculuğu prosesini şüurlu və məqsədyönlü tənzim edərək onu idarə edə bilsin. Həm də nəzərdə tutmaq lazımdır ki, cəmiyyətin inkişafının əvvəlki mərhələlərində icitimai şüur varlığın bilavasitə təsiri altında formalaşırdısa, sonrakı dövrlərdə bu təsir vasitələnmiş xarakter daşıyır, yəni dövlət, siyasi və hüquqi münasibətlərdən keçərək baş verir. Bunun əvəzində ictimai şüurun varlığa təsiri getdikcə daha çox bilavasitə xarakteri alır (1, 478).

Deyilənlərdən aydın olur ki, formalaşmaqda olan açıq cəmiyyətin tərəqqisi hər bir fərdin ictimai həyatın bütün sahələrindəki fəaliyyətinin cəmiyyətin ümumi humanist məcrasına yönəlməsindən çox asılıdır.

Cəmiyyətin humanistləşməsi yolu müasir elmi-texniki və sosial-siyasi nailiyyətlərin geniş miqyasda tətbiq olunması ilə bağlıdır. İndi bütün cəmiyyət qarşısında, eləcə də hər bir şəxsiyyət qarşısında humanist məqsədlər irəli sürülməsinə nail olmaq həmişəkindən daha vacibdir. Bu isə həmin subyektlərin malik olduğu bütün qüvvələrdən maksimum istifadə etməklə humanizm idealını qoruyub saxlamağı və inkişaf etdirməyi nəzərdə tutur (2, 164). Müasir şəxsiyyətin humanist məqsədi öz məzmunu etibarilə xeyli yüksəlmiş və zənginləşmiş şəkildə çıxış edir. Belə ki, əvvəllərdə şəxsiyyətin hərtərəfli inkişafı, onun maddi və mənəvi tələbatlarının ödənilməsi ali humanist məqsəd hesab olunurdu. İndi isə bu vəzifələr daha çox humanist xarakter daşıyan məqsədlərin yerinə yetirilməsində bir vasitəyə çevrilməkdədir. Bu onunla izah edilir ki, hazırda cəmiyyətdə epoxal miqyaslı dəyişikliklər baş verir, köhnə ənənəvi baxışlar dağılır, yeni demokratik və ümumbəşəri məzmunlu dəyərlər yaranır, prinsipcə yeni dünyagörüşü formalaşır. Həmin dünyagörüşü kompleks və sintetik təfəkkürə əsaslanır. O, insanda humanist keyfiyyətlərin tam dolğunluğu ilə üzə çıxarılmasına kömək edir, insanın daxilində antihumanist meyllərin baş qaldırmasına imkan vermir. Əksinə, burada özünü göstərən humanist tərəfləri inkişaf etdirir. Bunu da əlavə edək ki, əgər cəmiyyətdə təhsil və tərbiyə işi düzgün təşkil olunursa, onda insanın mahiyyətindəki humanist və antihumanist xassələrin fəaliyyəti, onun sintetik təfəkkürü vasitəsilə səmərəli tənzim olunur və birinci qəbildən olan cəhətlər, ikincilərin hesabına daha da tərəqqi edir (3, 241).

Hazırda cəmiyyətin siyasi və iqtisadi sferalarında əsaslı dəyişikliklər getdiyi bir şəraitdə, həmin yeniləşmələrin məzmununa humanist prinsiplərin tətbiqi xüsusilə zəruridir. Əks halda formalaşmaqda olan bazar münasibətlərinin təsiri altında iqtisadi, amillərin üstün yer tutması və mənəvi keyfiyyətlərin arxa plana keçməsi meyli sürətlənə bilər. Bu isə cəmiyyət və şəxsiyyət üçün təhlükəli nəticələr törədər. Odur ki, iqtisadiyyatın və siyasətin praktiki olaraq insanın həyat fəaliyyətinin bütün sahələrinə dərindən nüfuz etdiyi indiki şəraitdə onların humanist məzmununa qayğı göstərmək olduqca vacibdir.

Müasir dövrdə cəmiyyətin və təbii ki, şəxsiyyətin humanistləşməsi prosesində yetişməkdə olan nəslin təhsili və tərbiyəsi ilə bağlı məsələlər müstəsna dərəcədə böyük əhəmiyyət kəsb edir. Əlbəttə, cəmiyyət özünün bütün inkişaf mərhələlərində bu və ya digər dərəcədə təhsil ilə bağlı problemləri həll etməyə cəhd göstərir. Lakin ictimai inkişafın dönüş xarakterli məqamlarında, bu problemin rolu və əhəmiyyəti daha da artır. Buna görə də hazırda cəmiyyətimizin bütün pillələrindən olan təhsil sistemlərində əsaslı islahatlar aparılır, onları yeniləşməkdə olan cəmiyyətin tələblərinə, məqsəd və

vəzifələrinə uyğun səviyyəyə yüksəldilməsinə səylər göstərilir. Amma nəzərdə tutmaq lazımdır ki, insanların şüurunun dəyişilməsi çox mürəkkəb və uzunsürən prosesdir, ona nail olmaq üçün bəzən bütün bir nəslin yeniləşməsi müddəti tələb olunur. Bundan fərqli olaraq insanların tələbatı nisbətən yüksək sürətlə dəyişilir. Buna görə də açıq cəmiyyət quruculuğunun siyasi, sosial və iqtisadi sahələrdə qarşıda duran çətin və mürəkkəb vəzifələrinin uğurlu həllində yeni şüurun, dünyagörüşünün və mənəvi keyfiyyətlərin olması çox vacibdir. Bunun üçün isə təhsil sistemini səmərəli təşkil etmək, onun ümumbəşəri, milli və qabaqcıl mədəni ənənələrlə zənginləşməsinə nail olmaq tələb olunur. Həmin keyfiyyətlərin təhsil sistemində özünə möhkəm yer tutması, cəmiyyətin və ayrıca hər bir şəxsiyyətin humanistləşməsinə və tərəqqisinə böyük təsir göstərir (4, 231).

Müasir cəmiyyətin artmaqda olan demokratikləşməsi şəxsiyyətin humanistləşməsinə real şərait yaradır. Bu onunla izah edilir ki, öz mahiyyətinə görə demokratiya humanizm ilə sıx vəhdətdədir. Həqiqi demokratik prinsiplərin mövcudluğu və fəaliyyəti humanist keyfiyyətlərdən ayrılmazdır. Deyilənlərdən belə bir nəticəyə gəlmək olar ki, indi həyata keçirilməkdə olan cəmiyyətin ardıcıl və hərtərəfli demokratikləşdirilməsi xətti, həm də şəxsiyyətin getdikcə daha çox humanistləşməsinə sürətləndirici təsir göstərir.

Müasir demokratikləşmə ilə şəxsiyyətin formalaşması və inkişafı proseslərinin qarşılıqlı əlaqələrini və vəhdətini təhlil edərkən demokratiyanın müasir, yeni məzmun kəsb etməsi mütləq nəzərə alınmalıdır. Demokratiyanın keçmiş anlamı üçün səciyyəvi cəhət onun sinfi, proletar, sovet, milli və başqa meyarlara görə təsnif edilməsi olmuşdur. Qeyd edək ki, həmin bölgülər üçün ümumi cəhət ondan ibarət idi ki, onların hamısı bir tərəfdən şəxsiyyətin fərdi, özgür və unikal xassələrinə məhəl qoymur, onu ümumi kollektiv, kütlə içərisində əridirdi. Nəticədə sanki bütün şəxsiyyət tipləri bir-birinə qarışır və onları bir-birindən fərqləndirmək çox çətin və bəzən də qeyri-mümkün olurdu.

Lakin nəzərdə tutmaq lazımdır ki, sözün əsl mənasında götürülən humanist cəmiyyət öz fərdi simasını itirmiş və ümumi içərisində əriyən fərdlərdən deyil, öz individuallığını qoruyub saxlayan şəxsiyyətlərdən ibarət olmalıdır. Yalnız belə cəmiyyət şəxsiyyətin unikal və təkrarolunmaz xassələrini inkişaf etdirməyə, sosial reallığın bütün tərəflərində, birinci növbədə isə insanda humanist keyfiyyətlərin dərin qatlarını üzə çıxarıb daha da inkişaf etdirməyə qadirdir. Odur ki, demokratiyanın əvvəlki tarixi formaları özündə şəxsiyyətin hüquqları və əxlaqını qorumağın müəyyən ünsürlərini əhatə etsə də, bütövlükdə onun aktiv yaradıcı fəaliyyəti üçün hərtərəfli şəraiti təmin edə bilməmişdir.

Deyilənlərdən aydın olur ki, demokratiyanın müasir forması şəxsiyyətə münasibətdə həmin nöqsan və məhdudluğu aradan qaldırmalıdır. Bu yeni məzmunlu demokratiya fikrimizcə, cəmiyyətin sinfi, milli və partiyalar üzrə bölgüsünü deyil, sosial və ümumbəşəri prinsipləri (millinin müsbət cəhətlərini özündə əks etməklə) əsas götürməlidir. Onu şərti olaraq sosial-ümümbəşəri demokratiya kimi səciyyələndirmək olar.

Milli özünüdərk və insanların ümumbəşəri keyfiyyətlər əsasında birləşməsi demokratiyanı daha da humanistləşdirir. Belə ki, öz xalqının qorunub saxlanılması və inkişafı kimi ali humanist məqsəd ətrafında birləşən cəmiyyət, həm də başqa xalqların problemlərini dərindən hiss edir və onların mənafelərinə hörmətlə yanaşır.

Nəzərdə tutmaq lazımdır ki, müasir cəmiyyətdə bütövlükdə ictimai həyatın humanistləşməsi meyli baş verməkdədir. Açıq, vətəndaş cəmiyyətinin prinsipləri qərarlaşdıqca bu meyl daha da sürətlənir. Humanizmin əsasında duran həyatın qorunmasına qayğı göstərmək, onu daim təkmilləşdirmək, insan tərəfindən ətraf mühitin və öz mahiyyətinin dərk olunmasında yeni naliyyətlər qazanmaq, insanlara hörmət kimi başqa keyfiyyətlər şəxsiyyətin sosial fəallığının yüksəlməsinə, özünü daha dolğun və yaradıcı surətdə reallaşdırmasına güclü müsbət təsir göstərir.

Müasir dövrdə şəxsiyyətin hümanistləşməsi meyli həm də özünün hərtərəfliliyi ilə səciyyələnir. Bu onda ifadə olunur ki, humanist prinsiplər onun siyasi, sosial, iqtisadi və mədəni-intellektual fəaliyyətinin bütün sahələrində həyat normasına çevrilməkdədir. Cəmiyyət inkişaf etdikcə, ictimai həyatın bütün sferalarında humanizmin genişlənməsi üçün şərait yaranır. Əlbəttə, bütün bu proseslər asan və rəvan getmir, müəyyən çətinliklər və ziddiyyətlər ilə müşayiət olunur.

Siyasi sferada humanizm ən çox bunda ifadə olunur ki, siyasi fəaliyyətin bütün forma və tərəflərində siyasi mənafelərin reallaşdırılması ilə yanaşı insana hörmət və qayğı ön plana çəkilir. Ölkənin qəbul etdiyi qanunvericilik sənədlərində və normativ hüquq aktlarında şəxsiyyətin ləyaqətinin toxunulmazlığı elan edilir, onun geniş hüquqları və azadlıqları təsbit olunur. Xarici siyasət sahəsində və

beynəlxalq münasibətlərdə də mübahisəli məsələlərin dinc danışıqlar yolu ilə aparılması meyllərinin artması, dövlətlər arasında münasibətlərdə müharibələrə mümkün qədər yol verilməməsi, bu və ya digər səbəblərdən müharibə başlandıqda isə onun gedişində ümumi humanist normaların gözlənilməsi, bu barədə müvafiq beynəlxalq konvensiyalara əməl olunması bunu sübut edir.

Yuxarıda deyilənlərdən heç də belə nəticə çıxarmaq olmaz ki, guya müasir cəmiyyətdə real humanizmin tətbiqi üçün tam şərait yaradılmışdır. Buna hər şeydən əvvəl cəmiyyətdə qloballaşmanın doğurduğu neqativ cəhətlərdən irəli gələn səbəblər, habelə digər amillər (məsələn fəaliyyətin intensivliyinin artması, həyatın ritminin sürətlənməsi, əsəb gərginliyinin çoxalması, urbanizasiya nəticəsində şəxsiyyətin fəaliyyəti üzərində nəzarətin zəifləməsi və s.) mane olur.

Şəxsiyyətin humanizmi haqqında zəmanəmizin görkəmli filosoflarından olan E.Fromun baxışları daha çox maraq doğurur. Onun fikrincə, humanizm, insanın daxili təbiətindən irəli gələn sevməyə və yaşamağa olan cəhd kimi özünü göstərir. O, humanizmin məzmununu varlığın nəyə malik olmağı ilə müqayisədə üstünlüyü ideyası əsasında açır. Froma görə nəyəsə malik olmaq müəyyən bir prosesdə bitkin formaların üstün rol oynadığını göstərir və beləliklə də bu prosesdə şəxsiyyətin yaradıcılıq imkanlarını məhdudlaşdırır. Fromun fikrincə, nəyəsə malik olmaq cəhdi sevgi prinsipi ilə də bir araya sığmır. Bu yola düşən şəxsiyyət başqa insanların cəhdlərini pozur, əsarət altına alır və məhdudlaşdırır, başlıcası isə o öz şəxsi maraqlarını yerinə yetirmək naminə dünyadakı təbii əlaqələri dağıdır. Buna görə də insan dünyaya əsl dəyər kimi yanaşmalı, onu mənimsəmə yolu ilə dağıtmağa yox, bu dünyada özünü reallaşdırmağa cəhd göstərməlidir. Onun fikrincə insan nəyəsə sahib olmağa yönəldikdə, gələcəkdə əldə edəcəyi nəticəyə yekun nöqteyi-nəzərindən yanaşır. Beləliklə də, bu halda gələcək sanki keçmiş kimi çıxış edir. Bunun əksinə olaraq insan varlıq mövzusuna istiqamətləndikdə sevgi, sevinc və həqiqətə nail olmaq yaşantıları, gələcək zaman baxımından deyil, indi özünü göstərir. Sonuncu isə zamanın fövqündə durur və belə yönüm daha üstün rol oynayır. Onun üstünlükləri şəxsiyyətin bütün insan nəsli ilə vəhdətdə olduğunu hiss etməsinə kömək edir. (5, 132-135).

From belə hesab edir ki, müasir dünyada insanın özgələşməsinin əsas səbəbi insanın varlığı deyil, nəyəsə malik olmağa köklənməsidir. Buna görə də onun fikrincə, insanın şüurunu dəyişdirmək zəruridir. Əlbəttə, o, həyata aktiv fəaliyyət münasibətindən yanaşmağı da inkar etmir. Lakin filosof qərb insanı üçün səciyyəvi olan bu ustanovkanı Şərq təfəkkür tərzinə xas keyfiyyət olan dünyanı sakitcə seyr etməklə qavramağın üstünlükləri ilə əlaqələndirməyə çalışır (5, 366).

Müasir şəraitdə şəxsiyyətin humanistləşməsi meyli həm də bütün sağlam düşüncə sahibi olan insanlarda bəşəriyyətin gələcək taleyi ilə bağlı yaranmış qayğılar ilə bağlıdır. Akademik T.Oyzerman yazırdı: «Qlobal problemlərin yaranması, insanların dünyagörüşündə, siyasi, dini və əxlaqi əqidələrində müxtəlifliyə baxmayaraq, humanizmin indi mövcud olan bütün formalarının birləşməsi üçün real əsas kimi çıxış edir» (6, 65).

Müasir dünyada humanizmin inkişafı üçün ümumi əlverişli şərait yaradıldığını da qeyd etməmək olmaz. Belə ki, totalitar rejimlərin dağılması nəticəsində ölkələr artıq demokratik, azad cəmiyyət qurmaq yolu ilə sürətlə irəliləyirlər. İstilik-nüvə müharibəsi təhlükəsinə qarşı, müxtəlif problemlər kompleksini (ekoloji böhranın aradan qaldırılması, aclığın və yoxsulluğun azadılması, müxtəlif ölkələrin inkişaf səviyyəsi üzrə kəskin fərqlərin ləğvi, beynəlxalq terrorizmə və digər ümumi bəlalara qarşı birgə mübarizə aparmaq zərurəti və s.) həll etməyin zəruriliyi fikri ictimai rəydə getdikcə daha çox yer tutmaqdadır. Geniş planda yanaşdıqda bütün bu və digər nailiyyətlər müasir bəşəriyyətin əksər hissəsinin şüurunda yüksək əxlaqi keyfiyyətlərin daha da möhkəmləndirilməsi sayəsində əldə olunmuşdur.

Humanizmə imperativ planda yanaşdıqda, yəni humanizmi praktiki normativ tələb kimi səciyyələndirdikdə, onun mürəkkəb təbiətə malik olduğu aşkara çıxır. Belə ki, bu prinsip şəxsiyyətin və onun həyatının bütün digər dəyərlərdən üstün qiymətə malik olduğunu təsdiq edir. Həmin mövqe humanizmin məzmununu şəxsiyyətin xoşbəxtliyi ilə müəyyən münasibətdə və əlaqədə götürür. Sonuncu anlayış isə sırf fərdi xarakter daşıyır və cəmiyyətdəki başqa insanların xoşbəxtliyi ilə, ümumiyyətlə burada həyata keçirilən konkret tarixi vəzifələrlə sıx əlaqəlidir. Çünki şəxsiyyətin əsl xoşbəxtliyi, onda öz həyatının dolğunluğu hissi özünü reallaşdırma prosesində formalaşır. Həmin proses isə insanların məqsəd və dəyərləri ilə bu və ya digər şəkildə bağlı həyata keçirilir. Deməli, bu prosesdə şəxsiyyəti ictimai həyatın hərtərəfli və fəal subyekti kimi səciyyələndirən keyfiyyətlərin formalaşdırılması (hətta cəmiyyət tərəfindən müəyyən məcburetmə vasitəsilə həyata keçirilsə belə) humanist xarakter daşıyır.

Humanizm probleminin mürəkkəbliyi həm də bundadır ki, onunla bağlı bir çox məsələlər nəzəri və praktiki baxımdan hələ tam aydınlaşdırılmamışdır. Məsələn, şəxsiyyətə göstərilən təsirin

humanistlik meyarı, hansı təsirin humanist, hansının isə qeyri-humanist olması məsələsi barədə fikir müxtəlifliyi və mübahisələr bu gün də davam etməkdədir.

İnsanın mahiyyətinin sosial münasibətlərin inkişafı ilə əlaqəli dəyişdiyi haqda ümümsosioloji qanun sübut edir ki, insanların fəaliyyət məqsədləri hər bir konkret tarixi mərhələdə başqalarından fərqlənən, özünəməxsus məzmuna malik olur. Buna görə də humanizmin sadəcə şəxsiyyətin özinkişafına şərait yaradılmasına və yaxud başqa insanı öz məqsədini həyata keçirmək üçün vasitə kimi istifadə edilməsi tələbinə müncər edilməsi doğru olmazdı. Çünki hər bir konkret dövrdə hümanizmin məzmunu spesifik cəhətlər və çalarlar ilə zənginləşir ki, bunları da nəzərə almaq zəruridir. Deyilənlər sübut edir ki, şəxsiyyətin humanizmi kimi mürəkkəb məsələni formal və ümumi prinsiplərdən çıxış etməklə düzgün həll etmək qeyri-mümkündür. Nəzərdə tutmaq lazımdır ki, real və əsl humanizm müxtəlif prinsipləri bir-biri ilə əlaqəli şəkildə götürməyi və uzlaşdırmağı tələb edir. Eynilə də hər bir konkret cəmiyyətdə şəxsiyyətin özünü ifadə etməsi üçün mövcud olan azadlığın səviyyəsi ilə həmin dövrün sosiomədəni normalarının, onun fəaliyyət və davranışına verdiyi tələblər ilə nə dərəcədə uzlaşdığını konkret təhlil etmək zəruri və əhəmiyyətlidir.

## ƏDƏBİYYAT


1. Спиркин А.Г. Основі философии, М., 1988, 521 с.
2. Ayhan Aydın, Düşüncə tarixi və insan doğas,. İstanbul, Alfa, 2000, 296 s.
3. Ramazan Abacı, Yaşamın kalitelendirilmesi, İstanbul, 2005, 248 s.
4. Rzayev M. Rəhimov, N. Qloballaşma və şəxsiyyət, Bakı, ATU, 2010, 252s
5. Фром Э. Иметь или быть. М., Прогресс, 1990, 411 с.
6. Ойзерман Т.И. Материалистическое понимание истории, плюсы и минусы. // Вопросы философии, 2001, № 2, s.4-12


## РЕЗЮМЕ


**М.Рзаев**

**Гуманизации общественная жизнь**

В статье анализируются специфические стороны процесса гуманизации общественной жизни в современном этапе. Автор приходит к выводу, что тенденция гуманизации личности характеризуется своей многогранностью. Это особо выражается в том, что гуманистические принципы превращаются в нормы жизни во всех сферах политической, экономической и культурно-интеллектуальной деятельности.

Изменения в характере человека, связанного с развитием общественных отношений в общих социологических законов, которые доказали свою эффективность цели люди отличаются от каждого конкретного исторического периода, имеет свое собственное содержание. Принципы гуманизма и формального лицо, выступающее в качестве сложного вопроса не могут быть решены правильно.

В наше время, мы должны развивать чувство идентичности, это сознательный и преднамеренный процесс построения нового общества регулируется человеческой природы, чтобы быть в состоянии справиться с этим.


## ABSTRACT


**M. Rzayev**

**Humanization public life**

The paper deals with the consideration of spesific aspects of humanization of social life in modern time. The author has come to a conslusion that the desire of the person to humanize is distinct with being comprehensive. It shows itself especially in that the humanist principles become a life norm in all fields of political, economical and cultural and intellectual activity.

Changes in the nature of a person associated with the development of social relations in general sociological laws that have proven performance targets people differ from each specific historical period, has its own content. The principles of humanism and formal person acting as a complex issue can not be solved correctly.

In modern times, we need to develop a sense of identity, it is a conscious and deliberate process of building a new society governed by human nature to be able to handle it.


---


NDU-nun Elmi Şurasının 30 mart 2017-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 07).

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2017, № 2 (83)**

NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2017, № 2 (83)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2017, № 2 (83)**

**AYDIN MİRZƏZADƏ**

*Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası*

**UOT: 327.2; 94(479.24)**

# SSRİ-NİN MİLLİ SİYASƏTİ VƏ SOVET HAKİMİYYƏTİ DÖVRÜNDƏ "DAĞLIQ QARABAĞ" MƏSƏLƏSİ

***Açar sözlər:*** *Azərbaycan, Ermənistan, Dağlıq Qarabağ, SSRİ, separatçılıq, terror*

***Keywords:*** *Azerbaijan, Armenia, Nagorno-Karabakh USSR, separatism, terror*

***Ключевые слова:*** *Азербайджан, Армения, Нагорный Карабах, СССР,сепаратизм, террор*

Rusiyanın Qafqazdakı işğalçılıq siyasəti daima ermənilərlə sıx bağlı olmuşdur və siyasi ənənə sovet işğalı və hakimiyyəti dövründə də davam etmişdir. Rusiya Kommunist Partiyası Qafqaz Bürosunun Dağlıq Qarabağa muxtariyyat verilməsi haqqında 5 iyul 1921-ei il tarixli qərarı bölgədə etnik qarşıdurmanı və erməni terrorunu gücləndirmiş oldu.1948-1950-ci illərdə 150 min azərbaycanlı Ermənistan ərazisindən Azərbaycanın müxtəlif rayonlarına deportasiya edildi.1965-ci ildə Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi ilə bağlı 45 min nəfər erməninin imzaladığı petisiya Moskvaya göndərildi.

Rusiyanın Qafqazdakı işğalçılıq siyasəti daima ermənilərlə sıx bağlı olmuşdur və bu siyasi ənənə sovet işğalı və hakimiyyəti dövründə də davam etmişdir. Hələ Azərbaycan Xalq Cümhuriyyəti dövründə, 1920-ci ilin martında sovet rəhbərlərindən olan erməni əsilli Anastas Mikoyan Moskvada erməni nümayəndələrini qəbul edərkən onlara sovet qoşunlarının Bakıya daxil olacaqları təqdirdə öz dövlətlərini yaratmağın mümkün olacağını bildirmişdi (1, s.64), Təsadüfi deyil ki, AXC dövründə ermənilərin azərbaycanlılara qarşı törətdikləri ən qanlı qırğın da elə 1920-ci ilin martında, Novruz bayramı günlərində Qarabağda bolşeviklərin sifarişi ilə törədilmişdi (2, s.50).

1920-ci ilin aprel işğalından sonra Azərbaycanda ermənilərin yerli Azərbaycan xalqına qarşı terroru daha da gücləndi, çünki bu terrorun qarşısını ala biləcək milli hökumət artıq devrilmişdi. Bakıda hakimiyyəti ələ keçirən bolşeviklər Qarabağın işğalını sürətləndirdilər. Artıq 1920-ci il mayın 2-3-də bolşevik ordusu Yevlaxda qərarlaşdı, mayın 4-də isə Qarabağda hakimiyyət Qəza'İnqilab Komitəsinin əlinə keçdi, mayın 12-də isə işğalçı Qırmızı Ordu Şuşaya daxil oldu (3, s.; v,44; 4, v,96) və elə həmin gün Azərbaycanda qırmızı terroru həyata keçirən Fövqəladə Komissiya (FK) Fövqəladə Komissiyanın ilk sədri Moskvadan göndərilən Pankratov oldu (5, s. 140).

Qısa bir müddətdə Qarabağda hakimiyyət bütünlüklə İnqilab Komitəsinin əlinə keçdi Tezliklə İnqilab Komitəsi və FK bölgədəki azərbaycanlılara qarşı milli ayrıseçkilik və repressiya siyasəti yürütməyə başladı: bir neçə ayın içərisində Şuşada, Ağdərədə, Cəbrayılda, Tərtərdə, Karyagində yüzlərlə insan həhsedildi ya da güllələndi (1, s. 84). Bütün bu özbaşınalıqlar bölgədəki ermənilərin qarətləri və qətlləri ilə eyni vaxtda həyata keçirilirdi. Ona görə də Azərbaycanda sovet hakimiyyətinə qarşı başlamış olan mübarizə Qarabağda daha geniş vüsət aldı.

İstər arxiv materialları, istərsə də aparılan müasir araşdırmalar göstərir ki, 1920-ci ildə Qarabağda antisovet üsyanı bolşevik terrroru ilə yanaşı, ermənilərin həyata keçirdikləri soyqırımları səbəbindən baş vermişdi və heç də sinfi xarakter daşımırdı (1, s. 90). Həmin il mayın ortalarında Tərtərdə əhalinin bolşeviklərə qarşı silahlı müqavimət hərəkatı tezliklə Xankəndi, Ağdam və Bərdəyə yayıldı (1, s. 90). Lakin bolşeviklər iyun ayında Qarabağ üsyanını amansızlıqla yatırdılar (6, v.3). Üsyanın yatırılmasında erməni quldur dəstələrinin də bolşeviklərə böyük yardımı oldu, daha doğrusu, üsyanı yatırarkən kommunist ermənilər daşnak ermənilərlə birgə hərəkət etdilər. Pərakəndəlik, üsyanın lokal xarakterli olması, qüvvələrin qeyri-bərabərliyi Qarabağdakı milli hərəkatın tezliklə yatırılmasına səbəb oldu" (1, s. 91-92; 6, s. 37).

Bu üsyan həm də bölgədəki ermənilərin separatçılığının bariz nümunəsi oldu. Elə həmin il ermənilərin Qarabağa və digər Azərbaycan torpaqlarına olan iddialarının həlli məsələsi ortaya çıxdı. Ermənilər Azərbaycanın Göyçə, Naxçıvan bölgələrinə, Sürməli qəzasına, Qazax qəzasının dağlıq hissəsinə, Qarabağa və Zəngəzura iddialar irəli sürürdülər (7, s.47-58). Bu iddiaları müzakirə etmək üçün Azərbaycan Ararat Respublikası ilə 1920-ci ilin mayında danışıqlara başladı (8, vv. 18-20).

Sovet Rusiyası bu danışıqlarda vasitəçi olmağı öz üzərinə götürürdü, əslində isə ermənilərin iddiası olan torpaqları işğal etməyi, Ermənistanda isə sovet hakimiyyətini qurmağı qarşısına məqsəd qoymuşdu. Təxminən elə bu aylarda Ermənistandan Azərbaycana 20 min nəfər erməni köçürüldü (9, v.76) məqsəd isə Qarabağda etnodemoqratik durumu ermənilərin xeyrinə dəyişmək idi.

Lakin Sovet Rusiyası bölgədə azərbaycanlıların narazılığından ehtiyat edərək, bu məsələlərdə bir qədər ehtiyatlı siyasət aparmağa çalışırdı. Rusiyanın Ararat Respublikasındakı nümayəndəsi B.Leqran Sovet Rusiyası xarici işlər xalq komissarına V.Çiçerinin adına yazdığı teleqramda (14 iyul 1920-ci il) Azərbaycanın da bəzi

tələblərinin yerinə yetirilməsini, o cümlədən Qarabağın tamamilə Azərbaycana birləşdirilməsinin zəruri olduğunu qeyd edirdi (10, v.l). 1920-ci il iyulun 15-də AK(b)P MK-nın iclasında da "Qarabağın və Zəngəzurun Azərbaycana birləşdirilməsi" qərara alınmışdı (11, v.l3 (arxası). Bu qərarın ardınca, iyulun 20-də Qarabağ ermənilərinin qurultayında Qarabağın dağlıq hissəsinin Ermənistana birləşdirilməsi haqqında qərar çıxarıldı (1, s. 103). Bu hadisə bölgə ermənilərinin separatçılığının növbəti sübutu oldu.

1920-ci il avqustun 10-da RSFSR ilə Ararat Respublikası arasında hərbi əməliyyatların dayandırılması haqqında imzalanan saziş erməni dövlətinin müstəqilliyini tanıyırdı, sovet qoşunları "mübahisəli olan" Qarabağ, Zəngəzur və Naxçıvan torpaqlarını tutduğu üçün, həmin ərazilərin mənsubluq məsələsinə baxılması Azərbaycan və Ermənistanın səlahiyyətindən çıxarılırdı (8, vv. 18-19).

Dəhşətli məqam ondan ibarətdir ki, Sovet Rusiyası bu sazişi imzalamaqla, bölgədə sabitliyi bərqərar etmək məqsədi güddüyünü elan edirdi, halbuki sazişin imzalanmasından az sonra, avqustun 17-də Qarabağda ermənilər tərəfindən azərbaycanlılara qarşı qətllər həyata keçirilmişdi (1, s.104). 1920-ci il oktyabrın 28-də RSFSR ilə daşnak hökuməti arasında imzalanan yeni müqaviləyə görə isə, Ermənistan Qarabağa olan iddialarından əl çəkirdi, əvəzində Zəngəzuru və Naxçıvanı istəyirdi (12, s. 728). Əslində Sovet Rusiyasının Ararat Respublikasına bu qədər güzəştə getməsi bu ölkənin sovetləşdirilməsi istəyinə bağlı idi ki, noyabrın 29-da bu istək həyata keçdi: Ermənistanda sovet hökuməti quruldu. Növbəti gün, noyabrın 30-da AK(b)P MK Təşkilat Bürosu və Siyasi Büronun birgə iclasında Sovet Ermənistanına xüsusi Bəyənnamə (məşhur "Nərimanov Bəyannaməsi") ilə müraciət olunması haqqında qərar qəbul olundu. Qərarda sovet Azərbaycanı ilə sovet Ermənistanı arasında heç bir sərhəddin mövcud olmadığı, Qarabağın dağlıq hissəsinə isə öz müqəddəratını təyin etmə hüququ verildiyi qeyd olunurdu (11, s. v.51 (arxası)).

Bunun ardınca, 1920-ci il dekabrın 2-də RSFSR-in Ermənistandakı nümayəndəsi B.Leqranm daşnak hökuməti ilə bağladığı sazişə müvafiq olaraq, yeni yaradılan Sovet Ermənistanının ərazisi aşağıdakı kimi müəyyən edilirdi: İrəvan quberniyası, Qars vilayətinin bir hissəsi, Zəngəzur, Qazax qəzasının və Tiflis quberniyasının bir hissəsi (13, s.711). Naxçıvan əhalisinin böyük etirazları sayəsində Ermənistanın İnqilab Komitəsi Naxçıvan ərazisinə hər hansı bir iddiasının olmadığını bildirmişdi (28 dekabr 1920-ci il Bəyannaməsi) (14, s. 269- 301).

Amma Azərbaycanın Zəngəzur və Qarabağ torpaqlarına olan iddialarında Ermənistan daha qətiyyətli idi və Rusiyanın, bu məsələdə dəstəyi də güclü idi. Zəngəzur məsələsində Rusiyanın Ermənistana daha güclü dəstək verməsi strateji məqsədə bağlı idi: "Zəngəzur torpaqlarının Ermənistana verilməsi Azərbaycanın Türkiyə ilə əlaqələrini kəsmək məqsədi daşıyırdı. Qarabağa gəlincə, araşdırdığımız problemlə əlaqədar bu məsələnin üzərində daha ətraflı dayanmağa ehtiyac var.

Ermənistanda sovet hökumətinin qurulması ermənilərin Azərbaycan ərazilərinə, o cümlədən Qarabağa olan idialarına heç bir dəyişiklik gətirmədi, əksinə, Azərbaycanın da, Ermənistanın da faktiki olaraq Rusiyaya tabe edilməsi ermənilər üçün daha əlverişli şərait yaratmış oldu. 1921 -ci il iyunun 3-də Qafqaz Bürosunun qəbul etdiyi qərarda göstərilirdi ki, Ermənistan hökuməti öz bəyannaməsində Dağlıq Qarabağın Ermənistana məxsus olmasını göstərməlidir; bu qərardan çıxış edən Ermənistan Xalq Komissarları Soveti də iyunun 12-də Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi haqqında dekret verdi (1, s. 106; 2, s.53) və iyunun sonlarında A.Mravyanı Dağlıq Qarabağda fövqəladə nümayəndə təyin etdi (15, VI, c.188).

Ermənistanın bu iddialarına cavab olaraq Azərbaycan tərəfi bəzi qərarlar qəbul etmək məcburiyyətində qaldı. Belə ki, AK(b)P MK-nin Siyasi Bürosu və Təşkilat Bürosunun 1921-ci il 27 iyun tarixində keçirilən birgə iclasında qəbul edilən qərarda Ermənistanın Qarabağın dağlıq ərazilərinə olan-iddiaları rədd edildi (1, s.107), Azərbaycan tərəfinin bu qəti addımından sonra Qafqaz Bürosu Qarabağ məsələsinə yenidən baxmaq qərarına gəldi. İyulun 5-də qəbul olunan qərara görə, Dağlıq Qarabağ Azərbaycan SSR-nin tərkibində qalırdı, Şuşa şəhəri inzibati mərkəz olmaqla Dağlıq Qarabağa geniş vilayət muxtariyyatı verilirdi (16, s. 92). Azərbaycan tarixçisi İ.Niftəliyev hesab edir ki, "bu qərarın qəbul; olunmasında N.Nərimanovun möhkəm və prinsipial mövqeyi həlledici rol oynadı, əks halda Azərbaycan 1921-ci ildə Dağlıq Qarabağı itirəcəkdi" (-17, s. 102).

Lakin Qafqaz Bürosunun 5 iyul 1921-ci il tarixli qərarından sonra bölgədə vəziyyət gərginləşdi və Azərbaycan SSR ilə Ermənistan SSR arasından münasibətlərdə Qarabağ məsələsi əsas məsələyə çevrildi. Azərbaycan və Ermənistan tərəflərinin qərara münasibəti fərqli oldu. Belə ki, Qafqaz Bürosunun qərarından çıxış edərək Azərbaycan MİK-ın Rəyasət Heyəti iyulun 19-da N.'Nərimanovun Dağlıq Qarabağa daxili muxtariyyət verilməsi haqqında məruzəsini dinlədi (18, v.14), iyulun 20-də İsə muxtar vilayətin konstitusiyasının hazırlanması üçün komissiya yaradıldı.

Burada bir məsələnin aydınlaşdırılmasına ehtiyac var. Yuxarıda da qeyd etdiyimiz kimi, 5 iyul qərarı ilə Dağlıq Qarabağa muxtariyyət verilməsində AK(b)P MK-ya həlledici rol ayrılmışdı. Görünür, 1921-ci ilin iyulunda S.Kirovun MK rəhbərliyinə gətirilməsində də bu amil böyük rol oynamışdı. O zaman S.Kirov Qarabağın dağlıq hissəsinin Ermənistanın tərkibinə verilməsi tərəfdarı kimi çıxış etmişdi. Məhz S.Kirov Azərbaycan Kommunist

Partiyası rəhbərliyinə keçdikdən sonra Dağlıq Qarabağa muxtariyyət verilməsinə rəsmi münasibət dəyişdi və bu proses 2 il ləngidi (19, s. 26-27).

Maraqlıdır ki, Ermənistan K(b)P MK da öz növbəsində 1921-ci il iyulun 16- da Qafqaz Bürosunun məlum qərarına qarşı çıxdığını bildirdi (17, s.l03). Vəziyyət bu qərardan sonra guya Dağlıq Qarabağdakı ermənilərin təqibinin artması haqqında Ermənistan tərəfinin Mərkəzə müraciətlərindən sonra daha da gərginləşdi. Halbuki bu qərar bölgədə ermənilərə qarşı təqibləri deyil, ermənilərin özlərinin separatçılığını və azərbaycanlılara qarşı terror hərəkətlərini genişləndirmişdi.

Başqa sözlə desək, Qafqaz Bürosunun Dağlıq Qarabağa muxtariyyət verilməsi haqqında 5 iyul 1921-ci il tarixli qərarı nəinki həyata keçirilmədi, əksinə, bölgədə etnik qarşıdurmanı və erməni terrorunu gücləndirmiş oldu.

Rusiya Qafqazdakı vəziyyətə nəzarəti əldən verməmək üçün məsələnin həllini Zaqafqaziya Ölkə Komitəsinə həvalə etdi. 1922-ci il dekabrın 5-də RK(b)P Zaqafqaziya Ölkə Komitəsində Dağlıq Qarabağ məsələsi müzakirə edildi və bu məsələ üzrə qəbul olunmuş qərara müvafiq olaraq dekabrın
S-də S.M.Kirov başda olmaqla Azərbaycan SSR Xalq Komissarları Soveti yanında Dağlıq Qarabağ işləri üzrə Mərkəzi Komissiya və Mərkəzi Komitə yaradıldı. Dekabrın 22-də isə Zaqfederasiyanın İttifaq Soveti Dağlıq Qarabağa muxtariyyət verilməsini sürətləndirmək haqqında qərar qəbul etdi (2, s.59).

AK(b)P MK-nın Rəyasət Heyəti 1923-cü il iyunun 20-də Qarabağın inzibati vahid şəklində ayrılmasını zəruri elan edən qərar qəbul etdi, iyunun 30-da isə RK(b)P Zaqafqaziya Ölkə Komitəsinin plenumunda Dağlıq Qarabağ Muxtar Vilayətinin ayrılması haqqında qərar qəbul edildi (1, s.l 10). İyulun 1-də AK(b)P MK Rəyasət Heyətinin iclasında bu məsələ təsdiqini tapdı və həmin qərardan çıxış edərək iyulun 7-də Azərbaycan Sovetləri Mərkəzi İcraiyyə Komitəsi "Dağlıq Qarabağ Muxtar Vilayətinin (DQVM) yaradılması haqqında" dekret verdi (16, s.l52-153). Bununla da, Azərbaycanın əzəli tarixi torpağı olan Qarabağda ermənilərə muxtariyyət verildi və bu torpaqlar süni şəkildə iki inzibati yerə: dağlıq və aran Qarabağa ayrıldı.

1924-cü İl iyulun 3-də RK(b)P MK-nın Rəyasət Heyəti və Azərbaycan MİK- in Rəyasət Heyəti "DQVM haqqında Əsasnamə"ni bəyəndi və həmin Əsasnaməyə müvafiq olaraq Şuşa qəzasından Şuşa, Xankəndi və 115 kənd, Cavanşir qəzasından 52 kənd, Karyagin qəzasından 30 kənd, Qubadlı qəzasından-Qaladərəsi DQVM-yə verildi (1, s.113). Bu qərar əslində Rusiyanın müstəmləkəçi siyasətinin bariz nümunəsi idi, çünki DQVM-nin yaradılması ilə bağlı qəbul edilən bütün bu qərarlarda Qarabağdakı azərbaycanlı əhalinin maraqları açıq-aşkar pozulmuşdu.

DQVM yaradıldıqdan sonra onun ərazisindəki yaşayış məskənləri inzibati baxımdan aşağıdakı kimi bölünmüşdü: l.Dizaq rayonu. 2.Vərəndə rayonu, 3.Şuşa rayonu. 4.Xaçın rayonu. 5. Ceraberd rayonu. Sonrakı illərdə bu inzibati bölgü bir neçə dəfə dəyişikliyə məruz qaldı. Belə ki, 1930-cu ilin avqustunda və ilin avqustunda 1939-cu ilin avqustunda DQVM ərazisi yenidən 5 rayona bölündü və rayonların adları dəyişdirildi:l.Mardakert (keçmiş Ceraberd). 2.Martuni (keçmiş Vərəndə).3.Stepanakert (keçmiş Xaçın). 4.Hadrut (keçmiş Dizaq). 5.Şuşa (2, s.64).

Problemin ən faciəli tərəfi ondadır ki, sovet rəhbərliyi təkcə Dağlıq Qarabağın deyil, Qarabağın digər torpaqlarının da inzibati bölgüsündə ciddi dəyişiklər etmişdi. Qarabağın tarixi torpaqlarının bir hissəsinin Ermənistana verilməsi nəticəsində respublikanın ümumi ərazisi ixtisar olmuş, qonşu rayonların hesabına DQVM-nm ərazisi 4,4 min. kv.km-ə çatdırılmışdı (2, s.63, qeyd1). Qalan torpaqların ərazisində isə Zəngilan, Qubadlı, Laçın, Ağdam,Bərdə, Ağcabədi, Tərtər və Cəbrayıl rayonları yaradılmışdı (20).

Çox maraqlıdır ki, Ermənistan tərəfi də öz növbəsində bu qərarı ədalətsiz hesab etmişdi və Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi məsələsini 1920- 30-cü illərdə gündəmdə saxlamışdı. Hələ 1921-ci il iyulun 16-da Ermənistan K(b)P MK Qafqaz Bürosunun Dağlıq Qarabağın Azərbaycan SSR-nin tərkibində qalması və ona geniş vilayət muxtariyyəti verilməsi haqqında qərarına qarşı çıxmışdı (21, s.4-8). 1923-cü il iyunun 13-də isə Ermənistan tərəfi DQVM-nin Zaqafqaziya Ölkə Komitəsinə bağlanmasını təklif etmişdi ki, bu da son nəticədə ermənilərin əsl məqsədini göstərirdi (21, s.58).

RK(b)P MK-nın 1923-cü il aprelin 17-25-i tarixləri arasında keçirilən XII qurultayında K.Radekin erməni şovinizmindən bəhs etməsi həmin illərdə Ermənistanda və Dağlıq Qarabağda erməni separatçılığının və terrorunun güclənməsini açıq-aşkar sübut edirdi (2, s.60-61). Amma sovet rəhbərliyi heç cür Qarabağ məsələsi ətrafında yaranmış bu problemi etiraf etmək istəmirdilər. Hətta S.Kirov AK(b)P MK-nın 1924-cü ilin mayın 5-də keçirilən VI qurultayında Qarabağ məsələsini "nəhayət həll etdiklərini", "şübhəsiz, tamamilə düzgün həll etdiklərini" qeyd etmişdi və çox güman ki, özü də əslində dediklərinə inanmamışdı (16, s.241-242).

1930-cu illərin repressiyası qısa müddətə də olsa, Qarabağ məsələsində, dəqiq desək, ermənilərin Dağlıq Qarabağı Ermənistana birləşdirmək siyasətində durğunluq yaratdı. Daha sonrakı illərdə II Dünya müharibəsinin başlanması erməni şovinizminin daha çox ideoloji istiqamətində fəallığı saxladı. Amma ermənilər öz planlarından əl çəkməmişdilər. Təsadüfi deyil ki, 1940-cı illərdə "Qarabağ hərəkatı", "Qarabağ Komitəsi" kimi gizli təşkilatlar yaradılmışdı və bu təşkilatlara A.Mikoyanın özü şəxsən qəyyumluq edirdi (1,

s.115). Hətta İkinci Dünya müharibəsindən yararlanmağa çalışan ermənilər və onların xaricdəki havadarları 1943-cü il Tehran konfransında azərbaycanlıların Ermənistan ərazisindən köçürülməsi, bunun əvəzində isə İranda yaşayan ermənilərin SSRİ-yə köçürülməsi məsələsini gündəmə gətirmişdilər (1, s. l 16).

Müharibə bitdikdən sonra ermənilərin bu istiqamətdə fəallığı artmağa başladı. 1945-ci ilin noyabrında Ermənistan K(b)P MK katibi Q.Arutinov DQVM- nin Ermənistanın tərkibinə keçməsi haqqında İ.Stalinə müraciət göndərdi. Bu müraciətdə vilayətin iqtisadi baxımdan Ermənistana daha yaxın olması, Ermənistanın bölgə əhalisinə iqtisadi baxımdan yardım etmək imkanının daha çox olması haqqında uydurma “faktları” təqdim edir, azərbaycanlılar tərəfindən vilayətin erməni əhalisinin sıxışdırılması iddiasını irəli sürürdü (1, s.l 16-117).

Bu müraciət sovet rəhbərliyini o qədər “mütəəssir” etmişdi ki, onun mətni AK(b)P MK-rim birinci katibi M.Bağırova da göndərilmişdi. M.Bağırovun ÜİK(b)P MK-nın katibi G.Malenkova 1945-ci il 10 dekabr tarixli cavab məktubunda diqqəti çəkən bir neçə məqamın üzərində dayanmaq istərdik. Məktubda əsasən deyilirdi:

“1920-ci ildə Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra ilk dövrdə bütün Qarabağın təsərrüfat-siyasi həyatı vahid vilayət inqilab komitəsi tərəfindən həyata keçirilirdi.

1923-cü ildə Qarabağın, əsasən ermənilər yaşayan dağlıq hissəsinin Ermənistan SSR-ə birləşdirilməsi məsələsi qalxdı. Ancaq ərazinin Ermənistan SSR-lə ümumi sərhəddinin olmaması və onunla ancaq azərbaycanlılar yaşayan Qubadlı, Laçın, Kəlbəcər və Dəstəfur rayonları ilə ayrıldığı nəzərə alınaraq, partiya orqanlarının göstərişləri, Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin 7 iyul 1923-cü il dekreti ilə mərkəzi Xankəndi məskəni, indiki Stepanakert şəhəri olan Dağlıq Qarabağ Muxtar Vilayəti yaradıldı.

Beləliklə, Dağlıq Qarabağ Muxtar Vilayəti ərazicə Ermənistan SSR-ə heç zaman sərhəd olmayıb və indi də sərhəd deyildir” (22, v.7).

Dağlıq Qarabağdakı erməni əhalinin sosial problemlərinin olması məsələsinin heç bir real əsası olmadığını göstərmək üçün M.Bağırov məktubda yazırdı: “Azərbaycanda sovet hakimiyyəti dövründə, Dağlıq Qarabağda vilayətin təsərrüfat-siyasi və mədəni inkişafı üçün nəhəng işlər görüldü. Bunun parlaq nümunələrindən, biri DQMV-nin indiki mərkəzi - Stepanakert şəhəridir, geridə qalmış və dağıdılmış kənddən Azərbaycanın qəşəng, abad və mədəni şəhərlərindən birinə çevrilib.

Azərbaycan SSR bütün ali təhsil müəssisələrinin tələbələrinin 20,5 faizini ermənilər təşkil edir, onların isə əksəriyyəti Dağlıq Qarabağ Muxtar Vilayətindən çıxanlardır.

Dağlıq Qarabağdan olan yoldaşların çoxu, həmçinin respublika partiya, sovet, təsərrüfat kadrları içərisindədirlər, Azərbaycan K(b)P Mərkəzi Komitəsi və Bakı Komitəsi katiblərinin müavinləri, xalq komissarları, xalq komissarları müavinləri və sairləridir.

Bununla belə, biz Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan SSR-in tərkibinə verilməsinin əleyhinə deyilik və Dağlıq Qarabağ Muxtar Vilayətinin tərkibinə daxil olmayan və indinin özündə belə, əsasən azərbaycanlı əhalidən ibarət olan Şuşa rayonunun Ermənistan SSR-ə verilməsi ilə razı deyilik” (22, v.7).

Şuşa şəhərinin Azərbaycan üçün tarixi əhəmiyyətini göstərən M.Bağırov davam edir.Bu şəhərdə Azərbaycan xalqının zəngin musiqi mədəniyyəti formalaşıb və İbrahim xan, Vaqif, Natəvan və sairə böyük siyasət və mədəniyyət xadimlərinin adları onunla bağlıdır.

Eyni zamanda ÜİK(b)P MK-nın nəzərinə çatdırmağı özümüzə borc bilirik ki, DQMV-nin Ermənistanın tərkibinə daxil edilməsi məsələsi müzakirə edilərkən Ermənistan SSR-in Azərbaycan respublikasına sərhəd olan və əhalisi, əsasən azərbaycanlılardan ibarət olan Əzizbəyov, Vedi və Qarabağlar rayonlarının Azərbaycan SSR-in tərkibinə verilməsi məsələsinə də baxılmalıdır.

Bu rayonların ifrat dərəcədə mədəni və iqtisadi cəhətcə geri qalması nəzərə alınsa onların Azərbaycana verilməsi imkan verəcək ki, ora əhalisinin maddi- məişət səviyyəsi yə onlara mədəni-siyasi xidməti yüksəlsin.

Yuxarıda deyilənlərdən başqa ÜİK(b)P MK-dan xahiş edirik ki, aşağıdakı məsələni də nəzərdən keçirsin: Gürcüstandan olan yoldaşlar Azərbaycan SSR-nin Balakən, Zaqatala və Qax rayonlarının Gürcüstan SSR tərkibinə verilməsi məsələsini qaldırıblar. Baxmayaraq ki, adıçəkilən rayonlardakı 79 000 ümumi əhalinin 9000 nəfəri gürcü-ingiloylardır, biz bu məsələnin baxılmasının əleyhinə deyilik, ancaq eyni zamanda Azərbaycan SSR-nin tərkibinə Gürcüstan SSR-dəki əhalisi istisnasız azərbaycanlılardan ibarət olan və Azərbaycan SSR ilə sərhəd olan Borçalı rayonunun verilməsi məsələsinə baxılmasını istəyirik. Və sonda, Azərbaycan SSR-nin tərkibinə, vaxtilə Azərbaycanın bir hissəsi olan və Bakı quberniyasının tərkibinə daxil olan, Dağıstan SSR-in bizimlə sərhəd olan Dərbənd və Qasımkənd rayonlarının daxil edilməsi məslәsinə baxılmasını təklif edirik. Bu rayonların əhalisi, əsasən azərbaycanlılardan ibarətdir və həmçinin ilin çox vaxtını Azərbaycan ərazisində keçirirlər.

Bütün bu qaldırılan məsələlər üzrə təkliflərin hazırlanması üçün ÜİK(b)P MK-nın komissiyasının , yaradılması və ora marağı olan respublikalardan nümayəndələrin daxil edilməsini məqsədəuyğun hesab edirik” (23, V-;7).

Göründüyü, kimi, M.C.Bağırovun məktubunda Azərbaycan rəhbərliyi tərəfindən DQVM-nin erməni əhalisinin təqiblərinə məruz qalması və sıxışdırılması haqqında ermənilərin uydurmaları faktlarla təkzib olunur.

**ƏDƏBİYYAT**


1. Məmmədov N. Dağlıq Qarabağ gerçəklikləri: soyqırımı, terror, deportasiya, işğal (XX yüzillik) Bakı, Təhsil, 2009, 272 s.
2. Mahmudov Y.M., Şükürov K, Qarabağ, Real tarix, faktlar, sənədlər, Bakı, Təhsil, 2009,144 s.
3. AR Pİİ SSA, fond 410, siyahı 1, iş 170
4. AR Pİİ SSA, fond-27, siyahı 2, iş 54
5. Мамедова Ш.Р, Интерпретация тоталитаризма, Сталинизм в Азербайджане 1920-1930гг. Баку, Адилоглы 2004, 319 с.
6. Bayramova R.M, Azərbaycan rəhbərliyində ixtilaflar və daxili siyasi çəkişmələr 1920-1925-ci illər), Bakı, Elm, 2007, 196 s.
7. Щепотьев А. Доклад о спорных Кавказских территориях, на которые имеют права, самоопределившиеся азербайджанские тюрки // ИАН Азерб. ССР, СИФП, 1990, № 2, е.42- 61
8. AR Pİİ SSA, fond 276, siyahı 9. iş 48
9. AR DA, fond 28, siyahı 1
10. РГАСПИ, фонд 85, Орджоникидзе Г.К., оп. 13, дел 51
11. AR Pİİ SSA, fond-1, siyahı 1, iş 18
12. Документы виешней политики СССР: В 7-ми т. Т.П (1 января 1919 г. - 30 июня 1920 г.).М: Г осполитиздат, 1958,728 с
13. Документы внешней политики СССР. В 7 тт. Т. 2 (1 января 1919 г,- 30 июня 1920 г.). Москва: Госполиздат, 1958, 804 с.; Т.4 (19 марта 1921 г. - 31 декабря 1921 г.). Москва, Госполитиздат, 1960, 836 с.
14. Musayev İ. Azərbaycanın Naxçıvan və Zəngəzur bölgələrində siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921-ci illər) Bakı, Bakı Uni, 1996. 328 s.
15. Azərbaycan tarixi, 7cilddə, İV cild, Bakı, Elm, 2003, 676 з.
16. К истории образования Нагорно-Карабахской Автономной области Азербайджанской ССР. 1918-1925 гг, Документы и материалы, Баку, Азернешр, 1989, 334 с.
17. Нифталиев И. Азербайджанская ССР в зкспансионистских планах армия (20-у годы XX века). Баку, "Təhsil", 2009, 256 с.
18. ARDA, fond 28, siyahı 1, iş 201
19. Mirzəzadə A. Qarabağ düyünü, Bakı, "Azərbaycan" nəş-ı 2012, 608 s.
20. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa siyasi Mərkəzində görüş zamanı nitqi, "Azərbaycan" qəzeti 2.05.2009
21. AR Pİİ SSA, fond-1, siyahı 1, iş 18
22. AR Pİİ SSA, fond-1, siyahı 169 , iş 249


**ABSTRACT**


**Aydin Mirzazadeh**

**The national policy of the USSR and the question of "Nagorno Karabakh" duriııgSoviet regime**

The aggressive policy of Russia in the Caucasus has always been closely associated with Armenians, and this political tradition continued during the Soviet power, After the April aggression of 1920 the terror committed by the Armenians againşf Azerbaijani people has increased even more in Azerbaijan, because the national government, which was in force to prevent terror, has been overthrown. As archival matcriäls and conducted modern research shows that anti-Sovıet uprising in Karabakh in 1920 year, along with the Bolshevik terror happened because of the ğenocide carried out by Armenians, and were not of a class nature.


**РЕЗЮМЕ**


**Айдын Мирзазаде**

**Национальная политика СССР и вопрос «Нагорного Карабаха» во времена советской власти**

Агрессивная политика России на Кавказе всегда была тесно связана с армянами, и эта политическая традиция продолжалась во времена советской власти. После апрельской агрессии 1920 года в Азербайджане, террор со стороны армян против местного азербайджанского народа ещё больше усилился, так как национальное правительство, которое было в силах предотвратить террор, уже было свергнуто. Как архивные материалы, так и проводимые современные исследования показывают, что антисоветское восстание в Карабахе в 1920-м году наряду с большевистским террором, произошло по причине геноцида, осуществлённого армянами, и не носил классовый характер.



NDU-nun Elmi Şurasının 30 mart 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 07).

Məqaləni çapa təqdim etdi: Fəlsəfə üzrə elmlər doktoru, professor M.Rzayev

**QƏRİB ALLAHVERDİYEV**
*Naxçıvan Dövlət Universiteti*

**UOT:101**

# SOSİAL ZƏRURƏTİN ƏSAS İFADƏ FORMALARININ MƏZMUNU

***Açar sözlər:*** *sosial labüdlük, sosial tələb və faydaları, sosial problem, sosial məqsəd və vəzifə, sosial qəza, azadlıq*

***Keywords:*** *social inevitability, social requirement and benefits, social problem, social purpose and duty, social accident, freedom*

***Ключевые слова:*** *социальная неизбежность, социальная потребность и интересы, социальная проблема, социальная цель и обязанность, социальная случайность, свобода*

Sosial zərurətin təzahür formaları arasında sosial labüdlük, sosial tələbat və mənafelər, sosial problem, sosial məqsəd və vəzifə, sosial təsadüf xüsusi yer tutur. (4, s. 245) Bu formalar məzmunca bir-birinə çox yaxındır, lakin aralarında müəyyən fərqlər də vardır.

Sosial zərurətin labüdlük forması ən yüksək mərhələ olmaqla, müasir dövrdə gedən proseslərin qarşısıalınmazlığını əks etdirir. Bu öz ifadəsini postkommunist ölkələrində, o cümlədən də Azərbaycanda, demokratik cəmiyyətin yaradılması və milli dövlətçiliyin möhkəmləndirilməsində tapır. Beynəlxalq münasibətlər baxımından yanaşdıqda ölkəmiz üçün zərurətin labüdlük forması hazırkı güc mərkəzlərinə düzgün oriyentasiya etmək, müasir dünya nizamının qaydalarına əsaslanmaqla və milli maraqları əldə rəhbər tutmaqla, dünya ölkələri birliyinə qovuşmaqdır. Milli müstəqilliyimizin bu günü və gələcək taleyi baxımından yanaşdıqda, ölkəmiz üçün bu labüd zərurətin alternativi yoxdur.Bununla yanaşı, nəzərdə tutulmalıdır ki, hətta labüdlük səviyyəsində çıxış edən sosial zərurət də özbaşına həyata keçmir. Bunun üçün müvafiq şəraitin yaradılması,əhalinin ona inamının möhkəmləndirilməsi, cəmiyyətin mütəşəkkilliyinin təmin olunması, mövcud sosial qüvvələrin bu istiqamətdə səfərbər edilməsi tələb olunur. Zərurətin bu formasının reallaşdırılması aşağıdakı özünəməxsusluğa malikdir: sosial proseslər son dərəcə mürəkkəb və bir çox cəhətdən qeyri-müəyyən xarakter daşıdığı üçün, onları həyata keçirməyin dəqiq müddətini və sonunu irəlicədən söyləmək çətin olur. Buna baxmayaraq, zərurətin bu formasının dərki, hər bir insanda və bütövlükdə cəmiyyətdə ona münasibətdə dərin inam hissi yaradır və sosial subyektlər öz fəaliyyətlərini, daxili iradəsini azad sürətdə onun reallaşdırılmasına həsr edirlər. Burada azadlıq onda təzahür edir ki, insanın aktivliyi və sərbəstliyi dərəcəsi, onun labüd olanı həyata keçirmək əzmi və iradəsi, ümumi prosesin müddətinə əhəmiyyətli dərəcədə ləngidici və ya sürətləndirici təsir göstərə bilir.

Sosial tələbatla və mənafelər haqqında danışarkən göstərmək lazımdır ki, hər bir dövrdə olduğu kimi, müasir dövrdə də tələbatlar insanın müvcud şəraitdən müəyyən qədər asılı olduğunu ifadə edir. Buna baxmayaraq, onlar həm də subyekti müvafiq fəaliyyətə sövq edən güclü qüvvə kimi çıxış edir. Bu məqam onun azadlıq ilə yaxınlığını göstərir, yəni tələbat və maraqlar insanın müstəqilliyinin və azadlığının bir növ mənbəyi və hərəkətverici qüvvəsi rolunu oynayır. Tələbat və maraqların azadlığın inkişafına təsiri də şəxsiyyətin inkişafı səpgisində təzahür edir. Bu o deməkdir ki, tələbatlar və maraqlar inkişaf etdikcə, onların reallaşması gedişində və nəticəsində şəxsiyyət də yüksəlir, onun mənəvi dünyası zənginləşir. Sonuncu tərəf özündə çox mühüm tərkib hissə kimi, həm də azadlıq göstəricilərini əhatə edir.

Müasir dövrdə maddi və mənəvi tələbatların inkişafında baş verən kəmiyyət və keyfiyyət yenilikləri, onların azadlıq ilə əlaqələrini daha da möhkəmləndirir. Bu prosesdə aşağıda göstərilən mühüm yeniliyin rolu xüsusi qeyd olunmalıdır. Hazırda insanın fəaliyyətinin bütün tərəflərində kommunikasyon xarakter güclənir, başqa sözlə deyilsə, subyektin fəaliyyətinin kollektiv məzmunu çoxalır. Buna görə də birgə əməkdə davranış və hərəkətlərin əlaqələndirilməsi zərurəti özünü daha güclü göstərir. Fəaliyyətin müasir anlamı bunu əsas götürür ki, indi o, azad tərəfdaşlar kimi çıxış edən insanların kollektiv qarşılıqlı təsirinin artması ilə səciyyələnir (3, s.60).

Bununla yanaşı, hazırda cəmiyyətimizin üzvlərinin siyasi proseslərə və idarəçiliyə marağı və onlarda iştirak səviyyəsi durmadan artır. Genişlənməkdə olan demokratikləşmə bunun üçün əlverişli şərait yaradır. Həmin proseslərə qovuşduqca, şəxsiyyət özündə yüksək yaradıcılıq keyfiyyətləri formalaşdırır, onun öz-özünü tənzimləmə və özünənəzarət funksiyaları güclənir. Bütün bunlar onun idraki və fəaliyyət azadlığının miqyaslarının genişlənməsini stimullaşdırır. Bununla əlaqədar qeyd edək ki, hazırda cəmiyyətimizdə son dərəcə müxtəlif məzmunlu və yönümlü (sosial, sinfi, regional, milli və s.) mənafelər çoxluğu mövcuddur. Onların hər bir növünün də fərdi, qrup və ümumi səpgilərə malik olduğunu nəzərdə tutsaq, onda cəmiyyətin mənafelər baxımından nə dərəcədə zəngin və rəngarəng olduğu haqqında real təsəvvür yaranar. Buradan belə

bir nəticə hasil olur: çoxsaylı mənafelərin (maraqların) bir-birilə əlaqələndirilməsi və uzlaşdırılması, cəmiyyətin ümumi yüksəlişinin təmin olunması üçün çox vacibdir. Bu son dərəcə çətin olsa da, zəruridir. Buna görə də hazırda ölkəmizdə maraqların öyrənilməsi və idarəolunmasına xüsusi diqqət yetirilir. Həmin yolda əldə edilən uğurlar, çoxsaylı və müxtəlif maraqların malik olduğu qüdrətli yaradıcılıq potensialını, açıq cəmiyyət quruculuğunun mürəkkəb və genişmiqyaslı vəzifələrinin effektiv həllinə səfərbər etmək imkanı verir. Şəxsi, qrup və ictimai mənafelərin düzgün əlaqələndirilməsi və tənzim olunması, cəmiyyətin inkişafının çox güclü hərəkətverici mexanizmini təşkil edir, o həm də azad seçim və fəaliyyəti genişləndirməyin mühüm yoludur. Yuxarıda deyilənlər kontekstində müasir cəmiyyət üzvlərində sağlam tələbatların və adekvat mənafelərin formalaşdırılması istiqamətində göstərilən məqsədyönlü, şüurlu idarəçiliyin rolu daim artır.

Müasir dövrdə sosial zərurətin mühüm ifadə formalarından olan sosial problemlər (məsələlər) və onların həllinə yönələn fəaliyyət də azadlıq ilə ayrılmaz əlaqədədir. Sonuncular məzmun etibarilə son dərəcə müxtəlif və əhatəli xarakter daşıyır. Onları, yaranma səbəblərinə görə (keçmişdən miras qalmış, təbii inkişafdan doğan və idarəçilikdə buraxılan səhvlərdən yaranan), təzahür etmə sferalarına görə (iqtisadi, sosial, mənəvi, mədəni və s.), əhatə etmə miqyasına görə (ümumdövlət səviyyəli, regional və məhəlli, aradan qaldırılma müddətinə görə ( uzunmuddətli və təxirəsalınmaz) kimi təsnif etmək olar. Deyilənlərlə yanaşı, bu günkü cəmiyyətimizin ən ağrılı problemlərindən olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ problemi də qeyd olunmalıdır. Onun ağır nəticələri xalqımızın və ölkəmizin ümumi inkişafı yolunda çoxlu çətinliklər törədir, bu mənada azadlığa da öz neqativ təsirini göstərir. Buna görə də həmin problemin milli maraqlarımızın toxunulmazlığı əsasında həlli, indiki dövrdə ümumi sosial zərurətin çox ciddi istiqaməti kimi çıxış edir.

İndiki dövürdə həm də sosial sahədə bir sıra problemlər vardır. Onlar əhalinin əmək və məişət şəraitinin yaxşılaşdırılması, işsizliyin aradan qaldırılması, həyat şəraiti səviyyəsinə görə əhalinin qütbləşməsinin aradan qaldırılması, müxtəlif sosial təbəqələrin və qrupların, milli və etniki birliklərin maraqlarının bir-birilə üzvi əlaqəsinin təmin olunması və sairdir.

Siyasi sahədəki problemlər sırasında demokratikləşmənin ardıcıl davam etdirilməsini, əhalinin müxtəlif tabəqələrinin siyasi fəallığının və siyasi mədəniyyətinin yüksəldilməsini, iqtidar ilə müxalifət arasında dialoqun gücləndirilməsini və başqalarını qeyd etmək olar.

Mənəvi-ideoloji sahədə də müəyyən problemlər üzünü göstərir. Əhalinin müxtəlif təbəqələrini mədəni yaradıcılıq prosesinə geniş miqyasda qovuşdurmaq, insanların şüur və mədəni səviyyəsini yüksəltmək, elmdə, mənəvi və bədii yaradıcıqda inhisarçılıq qalıqlarına son qoymaq, mənəvi həyatda plürializmin pozulması hallarına qarşı fəal mübarizə aparmaq. Bu gün cəmiyyətimizin əsas sahələrində mövcud olan problemlərin idarəçilik orqanları və geniş xalq kütlələri tərəfindən vaxtında aşkara çıxarılması və adekvat anlaşılması, onların aradan qaldırılmasına yönələn çoxşaxəli fəaliyyətdə sərbəstliyin və azadlığın artmasına geniş imkanlar açır.

Müasir şəraitdə sosial zərurətin mühüm bir ifadə forması, qarşıya qoyulan məqsəd və vəzifələr ilə bağlıdır. Elmi əsaslandırılmış və mövcud reallığa arxalanan məqsəd, ictimai inkişafın qanunauyğunluqları ilə uyğun gəlir, onları ifadə edir. Bu mənada hazırda cəmiyyətimizin qarşısında duran açıq, demokratik cəmiyyət yaratmaq məqsədində ictimai inkişafın başlıca meyli ümumiləşmiş şəkildə əks olunur. Onunla yanaşı cəmiyyətimizin qarşısında duran başqa məqsədlər də vardır. Bunların sırasında bazar iqtisadiyyatını möhkəmləndirmək, işsizliyi və yoxsulluğu tam aradan qaldırmaq, hüquqi dövlət və vətəndaş cəmiyyəti qurmaq yolunda daha böyük nailiyyətləri əldə etmək, əhalinin maddi həyat şəraitini yaxşılaşdırmaq və yaşayış səviyyəsini yüksəltmək, şəxsiyyətin azad və hərtərəfli inkişafı üçün lazım olan şərait yaratmaq əsas yer tutur. Xarici siyasət sahəsində əsas məqsəd milli maraqları əldə rəhbər tutmaqla, dünya ölkələri ilə hərtərəfli və bərabər hüquqlu qarşılıqlı faydalı əməkdaşlıq yaratmaq, Azərbaycanın beynəlxalq əhəmiyyətli neft, qaz və digər layihələrdə iştirakını daha da genişləndirməklə və digər yollarda dövlətçiliyimizin möhkəmləndirilməsi üçün tələb olunan beynəlxalq şəraiti təmin etməkdir. Dərindən yanaşdıqda məlum olur ki,qeyd olunan məqsəd və vəzifələrin həyata keçirilməsi həm də şəxsiyyətin azadlıq idealının reallaşmasına xidmət edir. Hazırda bu ideal boş idarələri və yalançı xeyirxah niyyətlərə deyil, ictimai inkişafın meyillərinin obtektiv təhlilinə əsaslanır,buna görə də realdır. Sosial zərurətin ifadə forması kimi götürülən məqsəd və vəzifələr, problemlərlə müqayisədə praktiki həll edilməyə istiqamətlənməsi və real gerçəkliyə daha yaxın olması yaxın olması ilə səciyyələnir. Qarşıda duran məqsədlərin və vəzifələr kompleksinin düzgün müəyyənləşdirilməsi, son dərəcə zəruri, eyni zamanda çətin və mürəkkəb xarakter daşıyır. Azadlığa göstərdiyi təsir baxımından məqsəd və vəzifələrin adekvat seçilməsi, onların sistemləşdirilməsi və qarşılıqlı əlaqəliliyinin, mühümlük dərəcəsinin və həll etmə ardıcıllığının müəyyən edilməsi çox vacibdir.

Qeyd etmək lazımdır ki, sosial zərurəti ifadə edən məqsədin özü daxili məzmununa görə mürəkkəbdir. Burada strateji məqsəd ilə yanaşı, orta və qısa müddətli (cari) məqsədləri də seçib ayırmaq olar. Sonuncular daha çox vəzifə anlayışı ilə ifadə olunur. Vəzifə dedikdə bir qayda olaraq irəli sürülmüş

əsas məqsədin reallaşmasının konkret praktiki yönümü nəzərdə tutulur. Sosial zərurət forması kimi onun əhəmiyyəti də məhz buradan irəli gəlir. Məqsəd və vəzifələr öz miqyasına görə geniş olub, ictimai həyatın bütün sferalarını (iqtisadi, sosial, siyasi və mənəvi) əhatə edir. Nəzərə alınmalıdır ki, hər bir xalqın tarixində cari ictimai siyasi problemlərlə yanaşı, xalqın strateji inkişaf xəttini müəyyən edən, milli özünüdərkdən irəli gələn vəzifələr də vardır ( 1, s. 17.)

Müasir sosial zərurət prizmasında azadlığı təhlil edərkən, onun təsadüflə əlaqələrinə xüsusi diqqət yetirilməlidir. Məsələnin mahiyyəti bundadır ki, sosial həyatda xalis zərurət demək olar ki, yoxdur. O, bir qayda olaraq təsadüflər vasitəsilə özünə yol açır. Cəmiyyətdə insanların şüurlu fəaliyyəti əsas yer tutduğundan, zərurət təsadüflər vasitəsilə üzə çıxır. Marksist fəlsəfə sosial həyatda hər bir hadisənin sərt determinasiya prinsipinə malik olduğunu qeyd etməklə, təsadüflərin rolunu lazımi səviyyədə qiymətləndirmirdi. Müasir sosial idrak və real praktika bu mövqenin yanlış olduğunu sübut edir. İndi belə bir müddəa heç kimdə şübhə doğurmur ki, materiyanın ən yüksək və mürəkkəb təşkili forması olan sosial varlığa münasibətdə aşağı pillələrdə zərurət kimi çıxış edən amillər, bir növ təsadüflər rolunu oynayır. Deməli, cəmiyyətdə zərurət ilə təsadüfün qarşılıqlı münasibətləri dərin təkamülə uğrayır, ciddi dərəcədə yeniləşir.

Müasir dövrdə ictimai fəaliyyətin bütün növlərində baş verən əsaslı dəyişikliklər, insanların sosial və etniki birliklər daxilində əlaqələrinin möhkənlənməsi, sosial strukturda və siyasi sferada özünü göstərən mühüm irəliləyişlər, cəmiyyət həyatında ictimai şüur formalarının (elmin, siyasətin,incəsənətin və s.) və digər subyektiv keyfiyyətlərin rolunun artması, beynəlxalq əməkdaşlığın möhkəmlənməsi və qloballaşma ilə vəhdətdə çıxış edərək təsadüflərin rolunun daha da artmasını şərtləndirir. Bununla əlaqədar qeyd edək ki, son dövrdə geniş miqyas almaqda olan sosial proseslərə sinergetik yanaşma metodologiyası,cəmiyyətdə təsadüflərin rolunun artdığını elmi cəhətdən əsaslandırır. Məsələ burasındadır ki, hər bir subyektin konkret şəraitdə davranışı sözün müəyyən mənasında təsadüfi və qeyri-müəyyən xarakter daşıya bilir. Lakin cəmiyyətdə çoxsaylı belə təsadüflər qarşılıqlı sürətdə bir-birinin təsirini zəiflətmək və neytrallaşdırmaq qabiliyyətinə malikdir. Buna görə də insanların ümumi davranışı və hərəkətləri dinamik kimi deyil, daha çox sosial statistik qanunlar formasında çıxış edən zərurət kimi özünü göstərir. Bu, hər bir subyekt növünə daxil olan fərdin davranışında onun mənsub olduğu birliyin ümumi tələblərindən kənara çıxma hallarının konkret dərəcəsini müəyyən etməyə imkan verir. Çünki, ayrı-ayrı sosial hərəkətlər təsadüf olsa da, onların ümumi məcmusunda müəyyən orta hədd mövcuddur və bu ictimai həyatın qanunauyğun meylini ifadə edir. Deyilənlərdən aydın olur ki, sosial proseslər kütləvi və çoxsaylı olduğundan, burada determinizmin sərt, qəti forması deyil, ehtimal və təsadüflər ilə ifadə olunan növü geniş yer tutur. Elmi ədəbiyyatda haqlı oralaq göstərilir ki, müasir cəmiyyətə sinergetik baxımdan yanaşdıqda, onun inkişafında ehtimalı, təsadüfi amillərin rolunun artdığı müşahidə olunur. Bu öz təsirini həm də azadlığın bilavasitə əsasında duran seçimdə tapır. “Fərdin seçimi həmişə bifurkasyon prosesdir. Onun qarşısında bir neçə variantdan birini seçmək anı durur” (2, s.333).

Qeyd etmək lazımdır ki, sosial zərurətin ifadə mexanizmini əhatə edən yuxarıdakı formalar yalnız mücərrəd təhlil səviyyəsində bir-birindən ayrılıqda təsəvvür olunur. Həyatda onlar bir-biri ilə sıx qarşılıqlı təsirdə, çox vaxt isə çulqalaşmış formada çıxış edirlər. Belə ki, sosial həyatdakı məqsəd və vəzifələr, problemlərdən ayrılıqda mövcud olmayıb, onlardan irəli gəlir və onların aradan qaldırılmasına yönəlir. Yaxud sosial labüdlük öz konkret ifadəsini məhz məqsəd,problem və vəzifələrdə tapır. Onların hamısı isə fərdlərin və sosial birliklərin tələbat və mənafelərindən ayrılmaz olub, onların ödənilməsinə xidmət edir. Bu məqam onların azadlıq ilə əlaqələrinə nəinki mane olmur, əksinə, aralarındakı vəhdətin möhkəmlənməsinə stimullaşdırıcı təsir göstərir. Bu onunla izah edilir ki, özünün ayrı-ayrı formaları ilə müqayisədə bütöv bir tam kimi götürülən sosial zərurətin azadlığa təsiri bütövlük effektinə malik olması ilə seçilir və buna görə də daha güclü olur.

## ƏDƏBİYYAT


1. Xəlilov S. Şərq və Qərb, ümumbəşəri ideala doğru, Fəlsəfi etüdlər, Bakı, Azərbaycan Universiteti, 2004, 624 s.
2. Qurbanov F. Avtopoyezis və sinergetika: sosial təşəkkül metaforaları, Bakı, Adiloğlu, 2007, 484 s.
3. Лекторский В.А. Деятельностный подход: смерть или возрождение // Вопросы философии, 2001, №2, с.60-65.
4. Общественная практика и общественные отношения. / Под ред. Р.Г.Яновского. М.: Мысль, 1989, 383 с.


## ABSTRACT


**Qarib Allahverdiyev**


**Maintenance of expression forms of social need**


In the article there is analyzed the maintenance of the main forms of expression of social need. It is proved that reflection of social need, being the highest level of inevitability form, is insuperability of the processes going in modern society. It is accented that from the point of view of the international relations for our country a form of inevitability of need being the correct orientation to the present centers of force, acts as

an association basis with unity of the world countries, based on the rule of a modern world order and being guided by national interests; compliance of public changes which need has risen to inevitability level with requirements and interests of people is proved is very important condition.

In article the maintenance of social problems, social accident, goals and duties which are important forms of expression of social need during the modern period is investigated. The conclusion is drawn that the forms of expression of social need shown in article are represented separately only at the level of the abstract analysis, in life act in interference close with each other.


**РЕЗЮМЕ**

**Гариб Аллахвердиев**

**Содержание основных форм выражения социальной необходимости**

В статье анализируется содержание основных форм выражения социальной необходимости. Обосновывается, что отражение социальной необходимости, будучи наивысшем уровнем формы неизбежности, является непреодолимостью процессов идущих в современном обществе, акцентируется, что с точки зрения международных отношений для нашей страны форма неизбежности необходимости являясь правильной ориентацией на нынешние центры силы, выступает основой объединения с единством мировых стран, основываясь на правила современного мирового порядка и руководствуясь национальными интересами, обосновывается соответствие общественных изменений, необходимость которых поднялась до уровня неизбежности с потребностями и интересами людей является очень важным условием.

В статье исследуется содержание социальных проблем, социальной случайности, поставленных целей и обязанностей, являющихся важными формами выражения социальной необходимости в современный период. Делается вывод, что формы выражения социальной необходимости, показанные в статье, представляются раздельно только на уровне абстрактного анализа, в жизни же выступают в тесном друг с другом взаимовлиянии.


NDU-nun Elmi Şurasının 30 mart 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 07).

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2017, № 2 (83)**

NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2017, № 2 (83)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2017, № 2 (83)**

**SEVİNC ABBASOVA**

*Naxçıvan Dövlət Universiteti*

**UOT: 008.39**

# AZƏRBAYCAN RESPUBLİKASINDA QADIN SAHİBKARLIĞININ İNKİŞAFININ BƏZİ MƏSƏLƏLƏRİ

***Açar sözlər:*** *sosial-iqtisadi inkişaf, özəlləşdirmə, bazar islahatları, Azərbaycan Respublikasında qadın sahibkarlığı, iqtisadiyyatda gender bərabərliyi*

***Ключевые слова:*** *социально-экономическое развитие, приватизация, рыночные реформы, женское предпринимательство в Азербайджанской Республике, гендерное равенство в экономике*

***Key words:*** *socio-economic development, privatization, market reforms, women's entrepreneurship in the Republic of Azerbaijan, gender equality in the economy*

Bəlli olduğu kimi, əsası Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş Azərbaycan Respublikasının sosial-iqtisadi tərəqqi strategiyasının mühüm istiqamətlərindən biri kimi ölkəmizdə sahibkarlıq institutunun inkişafı çıxış edir. Müxtəlif mülkiyyət növlərinə əsaslanan iqtisadi sistemin əsaslarının qoyulması, azad sahibkarlığın inkişafına dövlət təminatının verilməsi, iqtisadiyyatın sağlam rəqabət prinsipləri əsasında inkişaf etdirilməsi, ölkədə kiçik özəlləşdirmənin gerçəkləşdirilməsi nəticəsində 1990-cı illərin sonu – 2000-ci illərin əvvəlində 28 minədək ticarət, ictimai iaşə və xidmət obyektləri xüsusi mülkiyyətə keçməsi [**1**, 81], eyni zamanda bir çox orta və iri müəssisələr özəlləşdirməyə açılması və səhmdar cəmiyyətlərinə çevrilməsi, xarici investorlara münasibətdə "açıq qapı" siyasətinin tətbiqi, eləcə də aqrar bölmədə torpağın özəl mülkiyyətə verilməsi – 35 minə yaxın müxtəlif formalı yeni təsərrüfatların yaradılması, 3,3 milyon vətəndaşın torpaq mülkiyyətçisinə çevrilməsi [**2**, 11] və s. məhz radikal islahatların real nəticələri idi.

Ölkədəki ictimai-siyasi qeyri-sabitlik və Ermənistanın birbaşa təcavüzü Azərbaycanda dövlət əmlakının özəlləşdirilməsinə digər MDB ölkələrindən gec başlanmasına səbəb oldu. Lakin onun həyata keçirilməsi üçün normativ-hüquqi baza yaradıldı, məqsədləri, istiqamətləri və prinsipləri "Azərbaycan Respublikasında 1995-98-ci illərdə dövlət mülkiyyətinin özəlləşdirilməsinin Dövlət Proqramı"nda öz əksini tapdı. Bu mühüm sənəddə müəyyən edilmiş məqsədlər bazar iqtisadiyyatının yaradılması, iqtisadiyyatın strukturunun milli maraqların tələblərinə uyğun şəkildə yenidən qurulması, iqtisadiyyata daxili və xarici investisiyaların cəlb edilməsindən ibarət idi.

"Azərbaycan Respublikasında dövlət əmlakının özəlləşdirilməsinin 2-ci Dövlət Proqramı"nda (2000, avqust) əsas məqsədlər artıq yüksəlişdə olan milli iqtisadiyyatın strukturunun təkmilləşdirilməsi və rəqabət mühitinin formalaşdırılması əsasında onun səmərəliliyini artırmaq, bazar münasibətlərinin daşıyıcıları olan özəl mülkiyyətçilər təbəqəsi dairəsini genişləndirmək və gücləndirmək, iqtisadiyyata həm daxili, həm də xarici investisiyalar cəlb etmək, əhalinin özəlləşdirmə prosesində geniş və fəal iştirakını təmin etmək olmuşdur [**3**, 390]. II özəlləşdirmə proqramı çərçivəsində rabitə, nəqliyyat, kimya, maşınqayırma, yanacaq-energetika kompleksinin və digər sahələrin özəlləşdirilməsinə başlanılmışdır.

Ölkədə bazar iqtisadiyyatına keçid istiqamətində islahatların həyata keçirilməsi özəl bölmənin pay çəkisinin sürətlə artmasına gətirib çıxarmışdı. 1995-ci ildə qeyri-dövlət müəssisə və təşkilatlar tərəfindən istehsal edilmiş məhsulun ÜDM-də payı 30,3 faiz təşkil edirdisə, 2000-ci ildə ölkədə ümumi əlavə dəyərin 70,8 faizi, 2002-ci ildə isə 73 faizi bu sektorun hesabına yaranmışdı [**4**, 112]. 1996-2003-cü illər ərzində ölkədə 24 min kiçik, 1500 orta və iri müəssisə səhmdar birliyinə çevrilmiş, 100 min vətəndaş səhm, 140 min vətəndaş isə mülkiyyət sahibi olmuşdu [**5**, 268].

Ölkəmizdə təməli Ulu Öndər tərəfindən qoyulmuş milli sahibkarlığa dəstək siyasəti onun layiqli varisi Prezidenti İlham Əliyev tərəfindən daha da inkişaf etdirildi. Ölkədə azad sahibkarlıq mühitinin təşəkkül tapması, yeni formalaşan təsərrüfat strukturlarının nəzərəçarpacaq dərəcədə artması, kiçik sahibkarlığın genişlənməsi və dinamik inkişafı qeyri-dövlət bölməsinin payının xeyli artmasına səbəb olmuşdur. Əgər müstəqilliyin ilk illərində sənaye məhsulunun ümumi həcmində qeyri-dövlət müəssisələrinin məhsulu 1,1 faizlik paya malik idisə, 2011-ci ildə bu göstərici 81,3 faizədək yüksəlmişdi [**6**, 7]. Ümumən götürüldükdə 2003-2012-ci illərdə sahibkarlıq subyektlərinin, müəssisə və təşkilatlarının sayı 2,3 dəfə artaraq, 510 mini keçmişdir. Hüquqi şəxs yaratmadan sahibkarlıqla məşğul olan fiziki şəxslərin 83 faizini kişilər, 17 faizini isə qadınlar təşkil etmiş, torpaq payı almış ailələrin sayı 850 mini ötmüşdür [**4**, 285].

Qeyd etdiyimiz kimi, 1990-cı illərin sonu – 2000-ci illərin əvvəllərində dövlət özəlləşdirmə proqramlarının həyata keçirilməsi on minlərlə ölkə vətəndaşının mülkiyyətçiyə çevrilməsi və özəl sahibkarlıq fəaliyyəti ilə məşğul olması ilə nəticələndi. Milli qanunvericiliyə görə, qadın və kişilərin mülkiyyət hüquqları

bərabərdir. Onlar həmçinin mülkiyyət bölüşdürülməsində, varislik məsələlərində, intellektual mülkiyyətdə də bərabərhüquqludurlar. Ölkədə aparılan özəlləşdirmə cinsi əlamətlərə görə heç bir qanunvericilik məhdudiyyətləri qoymur. Lakin qanunvericilikdə sözügedən sahədə gender bərabərliyi prinsipinin tam təsbit olunmasına baxmayaraq, bu proses heç də qadınlar üçün dolğun və ədalətli keçməmişdi. Əslində özəlləşdirmə prosesinin əsas iştirakçıları kişilər olmuşdular və onun gedişində mülkiyyətin təqribən 90%-i kişi cinsinə mənsub əhalinin əlinə keçmişdi. Başqa sözlə, özəlləşdirmə gender uyğunsuzluğunu gücləndirmişdi. Bu zaman qeydiyyatdan keçmiş özəl kiçik müəssisələrin cəmi 7%-nin rəhbərləri qadınlar idi. Məlum oldu ki, Azərbaycanda qadınların 86%-i xüsusi mülkiyyətə sahib olmaq arzusunda deyil və bunun səbəbi başlanğıc kapitalının olmaması, mülkiyyət obyektlərinin qeydə alınması və sənədləşməsi ilə bağlı çətinliklər, öz qüvvəsinə və imkanlarına inanmamaq, şəxsi biznesin idarə olunmasına dair biliklərin lazımınca olmaması idi [**7**, 328].

Aparılan tədqiqatlarda "sahibkar" anlayışının dəqiq tərifi verilməyib, halbuki sahibkarlığın gender strukturunun qiymətləndirilməsi bu tərifdən əhəmiyyətli dərəcədə asılıdır. "Sahibkar" dedikdə həm muzdlu əməkdən istifadə edən və böyük maliyyə imkanlarına malik olan iş adamı, həm də müstəqil işləyən və gəliri iş adamlarının yox, muzdlu işçilərin gəliri ilə müqayisə oluna biləcək iqtisadi fəal şəxs başa düşülə bilər [**8**, 31].

Artıq özəlləşdirmə gerçəkləşdirilən dönəmdə - 1990-cı illərin sonunda aparılan xüsusi sosioloji araşdırma göstərmişdir ki, qadınların 83%-i işlədikləri müəssisələrin özəlləşdirilməsindən razı qalmayıblar. Sorğuda iştirak edən 1000 nəfərin 74%-i özəlləşdirmə nəticəsində işlərini itirmişlər. Bu onunla izah etmək olar ki, dövlət özəlləşdirmə proqramına əsasən özəlləşdirmənin birinci mərhələsində məişət xidməti, yeyinti, ticarət müəssisələri özəlləşdirilir. Bu müəssisələrdə də məşğulluq strukturuna müvafiq olaraq əvvəllər 49%-ə yaxın qadın çalışırdı [**9**, 37-38].

Bəhs etdiyimiz dövrdə özəlləşdirmənin əsas üsullarından biri kimi vauçer özəlləşdirməsi çıxış edirdi. 2000-ci illərin əvvəllərində keçirilmiş sosioloji araşdırma zamanı sorğu iştirakçılarından 72,5% qadının və 67,5% kişinin öz özəlləşdirmə "paylarını" satdıqları, 2,7% qadının və 4,2% kişinin öz vauçerlərini səhm şəklində özəlləşdirilmiş mülkiyyətə qoyduqları, 22,2% qadının və 26,4% kişinin isə aldığı vauçerdən necə istifadə etməli olduğunu bilmədikləri məlum oldu. Hər şeydən əvvəl, bu, sahibkarlıq ənənələrinin olmaması ilə izah edilə bilər – sovet hakimiyyəti illərində bu ənənələr məhv edilmişdi. Lakin bütün ölkədə adətən eyni mənzərə müşahidə olunmuşdu: kişilərlə müqayisədə qadınlar vauçerlərdən daha az istifadə edə bilmişdilər. Bu hal müxtəlif özəlləşdirmə proseslərində və qiymətli kağızlar bazarında iştirak etmək imkanlarına sahib olan qadınlara ünvanlanmış kampaniyaların aşağı səviyyədə olduğunu göstərirdi. Çox güman ki, qadınların əksəriyyəti, sadəcə öz vauçerlərini və ondan istifadə hüququnu ailələrdəki kişilərə vermişdilər ki. onlar bundan öz bildikləri kimi yararlansınlar [**8**, 29].

2000-ci illərin ortalarına doğru kredit mənbələrinin əhəmiyyətli dərəcədə artmasına baxmayaraq, institusional və mədəni maneələr hələ də mövcud idi və onlar qadınlara kredit və xüsusilə də rəsmi bank sektorunda əmanət, pul köçürmələri kimi digər maliyyə xidmətlərindən istifadə etməyə əngəl törədirdi. Qadınlar əlavə tələblərin öhdəsindən gələ bilməmələrini və bank qaydaları və tələblərini şifahi şəkildə çözməkdə qarşılaşdıqları çətinlikləri, eləcə də kredit vermə sahəsində çalışan kişi məmurların çox da həvəslə razılığa gəlmək istəməmələrini Azərbaycanda qadınların öz işlərini yaratmalarına əngəl törədən faktorlar hesab edirdilər [**10**, 6].

Bəhs edilən dövrdə əmək qabiliyyətli qadınların 69,2%-i özəl sektorda, 30,8%-i isə dövlət sektorunda çalışırdı. Özəl sektorda çalışanların yalnız 3%-nin öz şəxsi biznesi var idi. İqtisadiyyatın və sosial sahələr üzrə idarəetmə strukturlarında çalışan qadınlar 33% təşkil edirdi. Bizneslə məşğul olan qadınlar əsasən mikro və kiçik müəssisələrdə fəaliyyət göstərirlər və qadınların çox az hissəsi orta və böyük müəssisələrdə çalışırdı [**11**, 12]. Yeri gəlmişkən, bəzi araşdırmalara görə, Azərbaycanda qeydiyyatdan keçmiş müəssisələrin yalnız 14%-i qadınlara məxsus idi; kredit alan qadınların sayı 32%, kişilərin isə 68% təşkil edirdi [**12**].

Azərbaycanda qadın sahibkarlığının inkişafına dair 2004-cü ildə Beynəlxalq Əmək Təşkilatının (BƏT) sponsorluğu ilə keçirilən araşdırmalara əsasən, orta səviyyəli qadın sahibkar 35 yaşlı (və 35-dən yuxarı), əvvəllər işləmiş, ali təhsilli (yəni universitet bitirmiş), evli və orta hesabla 2-4 uşağı olan adamdır. Cənub rayonlarında, Mingəçevirdə və onun ətraf bölgələrində qadınların təhsili aşağı səviyyədədir, lakin 55% qadın tam orta təhsil alıb və 33%-nin ali təhsili var (BƏT 2004). Daha çox və ətraflı araşdırmalara ehtiyac olsa da, bu o deməkdir ki, qadın sahibkarların əksəriyyəti savadlıdır, onların xeyli iş təcrübəsi və peşəkarlığı var. Qadınların çoxu qabaqcadan elan ediblər ki, onların kiçik və orta müəssisələr (KOM) açmaq istəmələrinin səbəbi ailənin büdcəsinə yardım etmək ehtiyacından irəli gəlmişdi. Yuxarıda adı çəkilmiş BƏT araşdırmalarında iştirak edənlərin heç biri banklardan, kredit təsisatlarından və ya beynəlxalq təşkilatlardan maliyyə yardımı almayıb; əksəriyyət bildirib ki, onlara ərləri və ya ailənin digər üzvləri kömək etmişdir.

Bir çox qadınlar kiçik və orta müəssisələrin yaradılması qarşısına çıxan ciddi "mədəni" və "sosial" maneələrin də mövcud olduğunu qeyd edirlər, çünki belə bir ümumi fikir var ki, "biznes" kişi işidir və qadınların

biznesdə iştirakı qəbul edilsə və bəzən bu iştirak çox əhəmiyyətli olsa da, cəmiyyətdə onları bir mülkiyyətçi və lider kimi görməyə çox da həvəs göstərilmir. Qadınlar qeyd edirlər ki, bu fikirlər əsasən kişilərin üstünlük təşkil etdiyi bank sektoruna da nüfuz edir və çox vaxt ya ərlərinin, ya da kişi qohumlarının köməyi olmadan məsləhət və ya borc almaq çox çətin olur. BƏT-nın araşdırmalarında qadınlar kiçik biznesin yaradılmasında rüşvətin və korrupsiyanın böyük maneə olduğu da qeyd olunur [**10**, 36-37]. O dövrdə bir tədqiqatçının dediyi kimi, "bizdə qadın sahibkarlar azdır. Olanlar da əsasən, kiçik və orta sahibkarlıqla məşğul olurlar. Bakıda onlar, əsasən məişət xidmətləri göstərirlər, kəndlərdə isə aqrobiznes və fermer təsərrüfatı ilə məşğul olurlar. Qadınlar bəzən güzəştli kredit ala bilərlər, bəzən də bələdiyyələr onlara kömək edir. Sahibkarlıqla ya bu sahədə yaxşı məlumatı olan, ya da kifayət qədər maddi və maliyyə imkanları olan qadınlar məşğul olurlar" [**8**, 31].

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi tərəfindən təqdim olunan "2005-ci ildə Ailə təsərrüfatı büdcəsi Müayinəsinin başlıca nəticələri" göstərdi ki, iqtisadiyyatın özəl sektorunda kişilər üstünlük təşkil edir. Kişilərin (ailə başçılarının) qazancında özəl sektorun çəkisi şəhərlərdə 5,9%, kənd yerlərində 1,6%-dir; qadınlar üçün isə bu rəqəmlər, müvafiq olaraq, 2,45 və 0,3%-dir. Sahibkarlıqdan əldə edilən gəlir şəhər kişiləri üçün 5,1%, şəhər qadınları üçün 1,1%, kənd kişiləri üçün 3,5%, kənd qadınları üçün isə 0,5%-dir. Kənd yerlərində ev təsərrüfatlarının başlıca gəliri fərdi əməkdən əldə edilir: kişilər üçün 18,3% və qadınlar üçün 30,6%. Kənd və şəhər yerlərində böyük fərqlər olsa da, gender nisbəti dəyişməz qalır [**8**, 27].

Mikromaliyyələşdirmə regionlarda sahibkarlığın inkişafında, yoxsulluğun azaldılmasında və əhalinin sosial ehtiyaclarının ödənilməsində xüsusi rol oynayır. 2005-2006-cı illərdə aparılmış tədqiqatlar gedişində fokus qruplardan əldə edilmiş məlumatlar kredit alımına təsir göstərən spesifik gender stereotiplərinin mövcud olduğundan xəbər verirdi. Bir qadın respondentin dediyinə görə, "kişilər üçün biznesə başlamaq daha asandır, çünki onlara daha çox inanırlar, kredit verirlər, qadınlara isə yox". Digər bir respondentə görə, "qadınların heç bir imkanı yoxdur. Öz biznesini qura bilənlər kişilərdir. Əgər hamı kredit ala bilsəydi, yaxşı olardı. Bu pula biz mal-qara ala bilərdik, onda işimiz də olardı, çünki kişilər maldarlıqla məşğul olsalar, bol südümüz olar, qatıq çalar, pendir tutar, kəsmik hazırlayar və ya yağ çalxalayarıq" [**8**, 31].

Ümumiyyətlə, qadın sahibkarlığı hökmən ikiqat maneə ilə qarşılaşır. Qadın öz təşəbbüslərini yüksək riskli şərtlər daxilində həyata keçirməyə məcburdur: bu risklər gender baxımdan zəif işlənmiş hüquqi baza və qanunların mükəmməl olmayan işləmə mexanizmidir. Bununla yanaşı, qadın patriarxal stereotipləri, kişilərin üstün olduğu biznes mühitində mövcud olan gender ayrı-seçkiliyini də aşmalıdır.

Qadınları özəl bizneslə məşğul olmaqdan çəkindirən səbəblər kimi bir qayda olaraq qadınların mülkiyyət sahibliyinin aşağı olması, ilkin kapitalın yoxluğu, müəssisənin qeydiyyatı üzrə kifayət qədər məlumatın olmaması, maliyyə bazarının tapılmasında çətinliklər, zəruri bilik və bacarıqların yetərsizliyi, öz biznesini başlamaq istəyənlər üçün təlim proqramlarının və treninqlərin çatışmazlığı göstərilir. Bu səbəblərlə yanaşı, sosial-iqtisadi maneələr də qadınların produktiv resurslardan (kredit və maliyyə), müvafiq bazar, biznes imkanlarını və yüksək texnologiyalardan istifadə etməsini çətinləşdirir. Qadınların ailədə ənənəvi rolu, uşaqların tərbiyəsi və qayğısı ilə bağlı məsuliyyətin qadının üzərinə qoyulması və özünəinamın aşağı olması kimi cəmiyyətdəki mövcud stereotiplər də qadınların biznesdə məşğul olma imkanlarını azaldır [**13**, 5-6].

Bütün əngəllərə baxmayaraq, qadın sahibkarların sayı artmaqda davam edir. 2008-ci ilin 1 yanvar tarixinə olan məlumata əsasən sahibkarlıqla məşğul olan qadınların sayı 15%-dək artmışdı. Fəqət qadınların arasında yüksək biznes mövqeləri tutanların sayı hələ də qənaətbəxş deyildir. 2009-cu il üzrə Biznes Mühiti və Müəssisələrin Effektivliyi Sorğusuna (BMMES) əsasən sorğu aparılmış 380 müəssisənin 10,8 %-də qadınlar sahibkarlıqda iştirak etmişdir ki, bu da Şərqi Avropa və Mərkəzi Asiya regionu (36%) üzrə müqayisədə aşağıdır. Müəssisələrin 4,7 %-də qadınlar top-menecer olmuşdur ki, bu da regional orta səviyyədən (18,9%) xeyli dərəcədə aşağıdır. Tam iş günü ilə daimi işləyən qadınlar isə 30,2% təşkil etmişdir [**14**, 62].

Yuxarıda göstərilən problemlərə rəğmən, ölkəmizdə iqtidarın ardıcıl və məqsədyönlü şəkildə yürütdüyü kurs artıq 1990-cı illərin sonu – 2000-ci illərin əvvəllərində öz bəhrəsini vermişdi. Azərbaycanda sayca o qədər də çox olmasa da, sahibkar qadınlar zümrəsi formalaşmışdı: qeyd edilən dövrdə kiçik və orta sahibkarların 7-8%-ini qadınlar təşkil edirdi [**11**, 11].

Heydər Əliyev kursunun layiqli davamçısı, Prezident İlham Əliyevin hakimiyyəti dövründə, artıq dəfələrlə qeyd etdiyimiz kimi, sahibkar qadınların fəaliyyəti üçün imkanlar daha da təkmilləşdirilmişdir. Qadınların iqtisadi sferada hüquqlarının təminatı ilə bağlı bir sıra əhəmiyyətli normativ aktlar məhz onun rəhbərliyi dövründə qəbul edilmişdir.

Qadın sahibkarlığının təşviqi ölkə rəhbərliyinin iqtisadi strategiyasının mühüm tərkib hissələrindən və prioritetlərindən biridir ki, bu, «2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramında» da xüsusi olaraq vurğulanmışdır. Qadın sahibkarlığının inkişaf etdirilməsi cəmiyyətdə mövcud olan gender bərabərsizliyinin aradan qaldırılması ilə yanaşı, yeni iş yerlərinin açılması ilə əhalinin qismən yoxsulluğunun aradan götürülməsinə və qadınların iqtisadi nüfuzunun artmasına kömək edir. "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Azərbaycan Respublikasının

Qanununun qəbul edilməsinin məntiqi nəticəsi 2006-cı ilin oktyabrın 13-də "Azərbaycanda qadın sahibkarlığının inkişafı, strategiya və perspektivlər" adlı ümumrespublika konfransı keçirildi. Ailə, Qadın və Uşaq Problemləri üzrə Azərbaycan Dövlət Komitəsi, İqtisadi İnkişaf Nazirliyi və Qadın Sahibkarlar Assosiasiyası tərəfindən təşkil olun bu tədbirin məqsədi qadın sahibkarlığının inkişaf etdirilməsi və bu sahədə maneələrin aradan qaldırılması üçün dövlət qurumlarına təkliflərin təqdim edilməsindən ibarət idi [**15**, 108].

Son illərdə qadın sahibkarlığının inkişafı üçün bir sıra mühüm tədbirlər görülmüş və müxtəlif mexanizmlər yaradılmışdır. 2007-ci ildən etibarən Sahibkarlığa Yardım Milli Fondu qadın sahibkarların maliyyələşməsi mənbələrini genişləndirmişdir. Bundan əlavə, yaradılmış mikrokredit mexanizmləri ilkin kapitalın təmin edilməsində mühüm rol oynayır. Ölkədə kiçik və orta müəssisələrin maliyyələşdirilməsi üzrə beynəlxalq və regional maliyyə təşkilatları ilə birgə təşkil edilmiş kredit xətləri mexanizmləri yeni sahibkarlıq fəaliyyətinə başlayanlar üçün daha geniş imkanlar yaratmışdır.

Qadın sahibkarlığının inkişafına digər bir əhəmiyyətli dövlət dəstəyi məsləhət, məlumatlandırma xidmətləri və s. də daxil olmaqla bir sıra xidmətlərin texniki təminat səviyyəsinin artırılması formasında olmuşdur. Qadın sahibkarların problemləri ilə daha fəal məşğul olmaq məqsədilə 2005-ci ildə Qadın Sahibkarların Assosiasiyası təsis edilmişdir [**16**, 41].

Qadınların biznes fəaliyyətlərinin stimullaşdırılması baxımından "Sahibkarlıq fəaliyyəti subyektlərinin fəaliyyətinin "bir pəncərə" prinsipi üzrə təşkilinin təmin edilməsi tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 25 oktyabr tarixli Sərəncamı təqdirəlayiqdir. 2008-ci ilin yanvar ayının 1-dən etibarən qüvvəyə minən yeni sistem sahibkarlıq fəaliyyəti subyektlərinin qeydiyyata alınması prosesini xeyli asanlaşdırdı. Bu, Azərbaycanda xüsusilə də kiçik və orta sahibkarlığın inkişafı üçün vacib bir amildir.

Son illərdə sahibkarlıq fəaliyyətinin inkişafı sahəsində dövlət tərəfindən həyata keçirilən tədbirlər daha sistemli xarakter almaqdadır. Dövlət və sahibkarlar arasında qarşılıqlı münasibətlərin inkişafı və dövlət normativ-hüquqi tənzimlənməsinin təkmilləşdirilməsi məqsədilə kompleks səciyyəli tədbirlər həyata keçirilməkdədir; bu zaman beynəlxalq təcrübə əsasında dövlət tərəfindən sahibkarlığa dəstək mexanizmləri təkmilləşdirilməkdədir. Bununla yanaşı, sahibkarlığa dövlət maliyyə dəstəyi mexanizmi yaradılmış və bu mənbə hazırda kiçik və orta sahibkarların maliyyə vəsaitlərinə olan tələbatının ödənilməsində mühüm rol oynayır.

Qadınların biznes sahələri yaratması üçün güzəştli kreditlərin verilməsi, evdar qadınların sahibkarlığa cəlb olunması, eləcə də respublikanın ucqar və dağlıq regionlarında, məcburi köçkünlərin sıx məskunlaşdığı ərazilərdə yaşayan qadınların özəl biznes və aqrar təsərrüfatlarını yaratması üçün tədbirlər həyata keçirilir. Bunun nəticəsidir ki, son illərdə qadın sahibkarların sayının artdığı müşahidə olunur.

İqtisadi İnkişaf Nazirliyinin nəzdində Sahibkarlığa Kömək Milli Fondunun dəstəyi ilə güzəştli şərtlərlə sahibkar fəaliyyətinin inkişafı layihələri maliyyələşdirilir. Sahibkarlığa Milli Kömək Fondu sahibkarlıq fəaliyyətinin, ilk növbədə kiçik biznesin inkişafına maliyyə dəstəyi göstərmək və əhalinin iqtisadi fəallığını yüksəltmək üçün yaradılmışdır. Fondun borcları üzrə illik faiz dərəcəsi 6 faizdədkdir. 2002-ci ildən başlayaraq təqribən 15 min layihənin realizasiyası üçün 110 milyondan artıq ABŞ dolları ayrılmışdır [**17**, 44, 46]. 2002-2013-cü illər ərzində 2070 sahibkar qadına 46,2 milyon manat dövlətin güzəştli kreditləri verilmişdir ki, bu da 3000-dək yeni iş yerinin açılmasına səbəb olmuşdur. Yalnız Sahibkarlığa Kömək Milli Fondunun vasitəsilə 2012-ci ildə 188 qadın sahibkara 3,6 milyon manat dövlətin güzəştli kreditləri verilmişdir. Verilmiş güzəştli kreditlər hesabına 433 yeni iş yerinin yaradılması imkanı yaranmışdır [**18**, 45]. 2013-cü ildə güzəştli kredit alan qadınların sayı artıq 430-a, verilmiş kreditin həcmi isə 9,3 milyon manata çatmışdır [**19**, 2].

2013-cü il ərzində 430 qadın sahibkara 9,3 milyon manat güzəştli kredit verilmişdir. Bu kreditlər hesabına 1064 yeni iş yerinin yaradılması təmin olunacaqdır. Bu zaman 2012-ci illə müqayisədə qadın sahibkarlara verilmiş güzəştli kreditlərin məbləği 2.6 dəfə artmışdır [**20**, 36-37].

Sahibkarlığa Kömək Milli Fondu regionlarda və Bakı şəhərinin qəsəbələrində "Sahibkarlığın inkişafına dövlət dəstəyi" mövzusunda təşkil etdiyi tədbirlər çərçivəsində qadınların sahibkarlıq fəaliyyətinə cəlb olunması və xüsusilə evdar qadınların məşğulluğunun təmin edilməsi məqsədi ilə xalçaçılıq, tikişçilik və digər daha çox qadın əməyinə ehtiyac duyulan sahələrdə nümunəvi investisiya layihələri hazırlayır və onlara təqdim edir. Bu istiqamətdə təşviqat işlərinin aparılması öz səmərəsini verməklə yanaşı, qadınların bizneslə məşğul olmaq sahəsində lazımi bilik və informasiyanı əldə etmələrinə geniş imkanlar açır.

Dövlət həmçinin sahibkar qadınların bilik və vərdişlərinin inkişafına dəstək göstərir. İqtisadi İnkişaf Nazirliyinin egidası altında sahibkarların bilik səviyyələrinin qaldırılması və məlumatlılıq dərəcəsinin yüksəldilməsi məqsədilə 2007-ci ilin avqustun 1-də Bakı Biznes Tədris Mərkəzi yaradılmışdır. Mərkəzin fəaliyyətinin təkmilləşdirilməsi və regionlarda genişləndirilməsi məqsədi ilə 6 rayonda (Gəncə, Qazax, Yevlax, Göyçay, Lənkəran, Şəki) mərkəzin nümayəndəlikləri yaradılmışdır. Sahibkarlığın biznes mərkəzlərinin yaradılmasında məqsəd ölkədə sahibkarlığın inkişafının informasiya, təlim və konsaltinq mərkəzləri sisteminin formalaşdırılması vasitəsilə sahibkarların bu sahələrdə tələbatlarının dolğun ödənilməsi, xüsusilə regionlarda işgüzar aktivliyin artırılmasından ibarətdir [**21**, 5-6].

2007-2012-ci illər ərzində Tədris Mərkəzi tərəfindən 520 treninq, konfrans, seminar, dəyirmi masa və xarici və milli ekspertlərin iştirakı ilə digər tədbirlər keçirilmişdir. Bu tədbirlərdə ümumən 15 mindən çox dinləyici iştirak etmişdi ki, onların da 30 faizini sahibkar və öz biznesinə başlamaq istəyən qadınlar təşkil edirdilər [**17**, 68].

2012-ci il ərzində Bakı Biznes Tədris Mərkəzi (BBTM) və onun nümayəndəlikləri tərəfindən Bakı şəhərində və regionlarda müraciət edən sahibkarlara, iş adamlarına və sahibkarlıq fəaliyyətinə yeni başlayanlara müxtəlif sahələr üzrə 832 məsləhət xidmətləri göstərilmişdir ki, onlardan 15-i Bakı şəhərində, 817-si isə BBTM-in nümayəndəliklərində göstərilmişdir. Müraciət edənlərin təxminən 20%-ə qədərini qadın sahibkarlar və sahibkarlıq fəaliyyətinə yeni başlayan qadınlar təşkil etmişdir [**22**, 9]. Həmçinin 2012-ci ildə BBTM tərəfindən müxtəlif mövzular üzrə 92 treninqlər, konfranslar, seminarlar, dəyirmi masalar və s. tədbirlər keçirilmişdir. Tədbirlərdə 1500-dən artıq dinləyici iştirak etmişdir ki, onlardan təxminən 25%-ə qədərini qadın sahibkarlar və sahibkarlıq fəaliyyətinə yeni başlayan qadınlar təşkil edirdilər [**22**, 4].

İqtisadi İnkişaf Nazirliyi və Almaniyanın Federal iqtisadiyyat və texnologiyalar nazirliyi 2009-cu ildən “Azərbaycan Respublikasında kommersiya fəaliyyətinin idarəçiliyi sahəsində kadrların ixtisaslaşmasının dərinləşdirilməsi üzrə Almaniya-Azərbaycan ikitərəfli proqramı” adlanan layihəni gerçəkləşdirməkdədir. Bu Proqram çərçivəsində azərbaycanlı sahibkarlar Almaniyada vərdişlərin inkişafı üzrə biraylıq təhsil kursu keçirlər. 2013-cü ilin sonlarınadək 173 sahibkar və müəssisə rəhbəri “İqtisadi kooperasiya” mövzusu üzrə tədris kursunda iştirak etmişlər ki, onlardan 30 nəfəri (17,4 faizi) qadınlardır [**20**, 59].

BMT Avropa İqtisadi Komissiyası və AQUPDK tərəfindən 2012-ci ilin noyabr atının 14-15-də Bakıda təşkil olunmuş Sahibkar qadınların Üçüncü Forumunda “Qadınlar və vergi”, “Qadınlar və iqtisadiyyat” kimi mövzulara baxılmış, sahibkar qadınların öz fəaliyyətlərini həyata keçirərkən üzləşdikləri problemlər (o cümlədən mülkiyyətə sahib olmaq hüququnun məhdudlaşdırılması, sahibkarlıqla məşğul olan qadınlara münasibətdə stereotiplər, qadının ailəsindən ənənəvi asılılığı və s.) üzə çıxarılmışdır. Bu problemlərin çözümü üzrə ekspertlərə və sahibkarlara müxtəlif təkliflər təqdim edildi. Qadınların sahibkarlıq fəaliyyətinin aktivləşməsi kontekstində əməkdaşlığın inkişafının xüsusi tolu vurğulanmışdır.

Gənc sahibkarlara dəstək məqsədilə 2010-cu ildə sahibkar qadınların Ruminiya və Türkiyədən gəlmiş sahibkarlarla görüşü təşkil edilmişdi. 2012-ci ildə İsveçdə fəaliyyət göstərən “Qadınlar və demokratiya” təşkilatının təmsilçilərinin Azərbaycana səfəri çərçivəsində “Sahibkar qadınlar” mövzusunda dəyirmi masa keçirilmişdi [**17**, 45-46].

Bakı Biznes Tədris Mərkəzi tərəfindən “Regionlarda qadın sahibkarlığının inkişaf meyllərinin araşdırılması və təkliflərin hazırlanması”, “Əlil gənclərin sahibkarlıq fəaliyyətinə cəlb edilməsi mexanizminin araşdırılması və təkliflər paketinin hazırlanması”, “Sərhədyanı regionlarda gənclərin məşğulluq problemlərinin araşdırılması və təkliflərin hazırlanması (Quba-Xaçmaz iqtisadi rayonu üzrə)”, “Qaçqın və məcburi köçkünlərin əsas məskunlaşdığı regionlarda işsizliyin aradan qaldırılması və onların sahibkarlıq fəaliyyətinə cəlb edilməsi məqsədi ilə distant təlim mexanizminin hazırlanması” mövzularında layihə təklifləri hazırlanaraq İqtisadi İnkişaf Nazirliyinə təqdim edilmişdir [**20**, 62].

10 iyun 2013-cü il tarixində Bakı Biznes Tədris Mərkəzinin əməkdaşlarının Asiya İnkişaf Bankının nümayəndələri ilə görüşü keçirilmişdir. AİB nümayəndə rəhbəri xanım Thao Nguyenə BBTM-in fəaliyyət istiqamətləri haqqında məlumat verilmişdir. Qadın sahibkarlığının inkişafı ilə maraqlanan xanım Thao Nguyenə Azərbaycanda qadın sahibkarlığının inkişafının müasir vəziyyəti və BBTM-in bu istiqamətdə gördüyü işlər haqqında məlumat verilmişdir [**23**, 10].

Hal-hazırda ümumi milli məhsulda özəl bölmənin payı 83% təşkil edir. Sahibkarların sayı artaraq, 500 minə çatmışdır. 2012-ci ilin sonlarına dair məlumata əsasən, ölkədə 40063 sahibkar qadın var idi ki, onlardan 22377 nəfəri aktiv fəaliyyətlə məşğul idi [**17**, 46]. Sahibkar qadınların 59,9 faizi regionlarda, 40,1 faizi isə Bakıda qeydiyyatdan keçmişdir. Azərbaycanda fəaliyyət göstərən sahibkar qadınlar başlıca olaraq yüngül sənayedə, toxuculuq sənayesində, xalçaçılıqda, tətbiqi sənətlərdə, sənətkar məmulatlarının hazırlanmasında, hüquqda, elm və təhsildə, yeyinti sənayesində, kənd təsərrüfatında, ticarət və xidmətlərdə fəaldırlar.

Cədvəl. İqtisadi rayonlar üzrə fiziki şəxslərin tərkibində qadın sahibkarların bölgüsü [**19**, 3].

| Regionlar | 2013-cü il | Faizlə |
|---|---|---|
| Cəmi | 81647 | 100 |
| Bakı | 32785 | 40,1 |
| Abşeron iqtisadi rayonu | 3983 | 4,9 |
| Gəncə-Qazax iqtisadi rayonu | 12188 | 14,9 |
| Şəki-Zaqatala iqtisadi rayonu | 5616 | 6,9 |
| Lənkəran iqtisadi rayonu | 4081 | 5,0 |
| Quba-Xaçmaz iqtisadi rayonu | 4795 | 5,9 |

| | | |
|---|---|---|
| Aran iqtisadi rayonu | 13324 | 16,3 |
| Yuxarı Qarabağ iqtisadi rayonu | 1551 | 1,9 |
| Kəlbəcər-Laçın iqtisadi rayonu | 291 | 0,4 |
| Dağlıq Şirvan iqtisadi rayonu | 1432 | 1,7 |
| Naxçıvan iqtisadi rayonu | 1597 | 2,0 |

Cədvəldən göründüyü kimi, fiziki şəxs kimi qadın sahibkarlar Bakı şəhəri xaric Aran və Gəncə-Qazax iqtisadi rayonlarında daha çoxdur. Kəlbəcər-Laçın, Dağlıq Şirvan, Yuxarı Qarabağ və Naxçıvan iqtisadi rayonlarında qadın sahibkarlığı nisbətən daha az inkişaf etmişdir. Bu sıralamada Naxçıvanın olması təəssüf doğurur, belə ki, özünün iqtisadi potensialına və insan resurslarına görə muxtar respublika qadın sahibkarlığının inkişafı üçün kifayət qədər münasib şərtləri ehtiva edir.

Son illərdə qadınların sahib olduğu müəssisələrin sayının artdığı müşahidə olunur. Sahibkarlığın və kiçik biznesin inkişafının yeni iş yerlərinin yaradılması, işsizliyin azaldılması və məşğulluğun artırılması, inkişaf baxımından qadın sahibkarların bu proseslərdən kənarda qalmadığı açıq aşkardır. Belə ki, qadın sahibkarlığın inkişafı yoxsulluğun azaldılmasına, qadınların iqtisadi və sosial nüfuzunun artmasına və bir çox hallarda, cəmiyyətdə gender bərabərsizliyinin aradan qaldırılmasına yardım edir. Qadın sahibkarlığın ehtiyaclarının, problem və xüsusiyyətlərinin təhlili qadın sahibkarlığın, ümumilikdə isə kiçik və orta sahibkarlığın inkişafına yardım edəcəkdir.

Ötən illər ərzində ölkədə qadın sahibkarlığının inkişafı istiqamətində silsilə tədbirlər həyata keçirilmiş, müxtəlif mexanizmlər yaradılmışdır. İstənilən işgüzar fəaliyyət kimi, qadın sahibkarlığının inkişafının da mühüm amili zəruri maliyyə vəsaitlərinin əldə edilməsi imkanları ilə bağlıdır. Məlum olduğu kimi, son illər Sahibkarlığa Kömək Milli Fondunun fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı qəbul edilmiş sənədlər sahibkarların maliyyələşdirilməsinin səmərəli mexanizmini formalaşdırmaqla, sahibkar qadınların da maliyyə vəsaiti ilə təminatı imkanlarını genişləndirmişdir [**19**, 5].

Lakin deyilənlərlə yanaşı, bir sıra həlli vacib problemlər hələ də qalmaqdadır. Bəzən kiçik və orta müəssisələr yalnız formal olaraq qadının adına qeydiyyatdan keçirilmişdir, əslində isə o, həyat yoldaşı və ya başqa qohumu tərəfindən idarə olunur. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynovanın 2011-ci ili sentyabrın 21-də "Qeyri-formal iqtisadiyyat sahəsində çalışan qadınların imkanlarının genişləndirilməsi: əhalinin həyat səviyyəsi və keyfiyyətin yüksəldilməsinin səmərəli vasitəsi kimi" mövzusunda keçirilmiş tədbirdə çıxışında etdiyi açıqlamalara əsasən, özəl sektorda çalışan qadınların yalnız 3 faizinin öz şəxsi biznesi var. "Bu çox kiçik rəqəmdir. Bizneslə məşğul olan qadınlar əsasən kiçik müəssisələrdə fəaliyyət göstərir və qadınların çox az hissəsi orta və böyük müəssisələrdə çalışır" [**24**].

Beləliklə, qadın sahibkarlığı haqqında mövzuya yekun vuraraq, qeyd edərdik ki, bu sahədə vəziyyəti dinamik aspektdə üç mərhələyə ayırmaq olar. Birinci mərhələ 1995-2002-ci illəri əhatə edirdi. Bu mərhələdə ölkəmizdə özəlləşdirmənin hüquqi-normativ bazası formalaşmış, bazar iqtisadiyyatı mexanizmlərinin və özəl sahibkarlıq fəaliyyətinin konseptual əsasları yaradılmış, mülkiyyət münasibətləri sahəsində hərtərəfli islahatlara başlanılmışdır. Lakin bəzi səbəblər, ilk növbədə də mövcud gender stereotipləri, müvafiq qurumlar tərəfindən prosesə gərəkli nəzarətin təmin olunmaması, qeydiyyatda süründürməçilik və bürokratik əngəllərlə əlaqədar qadınların sahibkarlıq təşəbbüsünün aşağı düşməsi və s. üzündən özəlləşdirmə "kişi" simalı olmuş, xüsusi mülkiyyətə verilən dövlət əmlakının nəhəng qismi kişi cinsindən olanların əlinə keçmişdir.

Təqribən 2003-2006-cı illəri əhatə edən ikinci mərhələdə ümumən özəl sektorun, o cümlədən qadın sahibkarlığının inkişafına dövlət qayğısı xeyli artmışdır. Bu dövrdə kredit mənbələri əhəmiyyətli dərəcədə çoxalmış, sahibkar qadınların sosial-iqtisadi və hüquqi səpkili problemlərinin həllinə başlanılmışdır. Lakin pozitiv irəliləyişlərə baxmayaraq, institusional və mədəni maneələr hələ də mövcud idi və onlar qadınlara kredit və xüsusilə də rəsmi bank sektorunda əmanət, pul köçürmələri kimi digər maliyyə xidmətlərindən istifadə etməyə əngəl törədirdi.

2007-ci ildən etibarən qadın sahibkarlığı öz inkişafının üçüncü mərhələsini yaşamaqdadır. Onun səciyyəvi xüsusiyyəti kimi dövlət tərəfindən institusional şəraitin yaxşılaşdırılması, hüquqi-normativ bazanın və sahibkarların kreditləşdirilməsi mexanizmlərinin daha da təkmilləşdirilməsi çıxış edir. Ölkəmizin iqtisadi qüdrətinin artması, əhalinin rifah halının yüksəlməsi, eləcə də hakimiyyət strukturlarının gender bərabərliyi prinsipinin öz praktiki fəaliyyətlərində getdikcə daha çox əldə rəhbər tutmaları sözügedən sahədə vəziyyətin müsbətə doğru xeyli dəyişməsinə gətirib çıxarmışdır. Bu, qadın sahibkarların həm mütləq, həm də nisbi saylarının yüksəlməsində, onların fəaliyyətinin maliyyələşdirilməsinin əhəmiyyətli dərəcədə artmasında, eləcədə də dövlət tərəfindən təşəbbüs edilən sahibkarlığa dəstək səciyyəli fərqli proqramlarda xüsusi diqqət obyektlərinə çevrilmələrində, onların beynəlxalq səciyyəli müxtəlif tərəfdaşlıq layihələrinə daha fəal cəlb olunmalarında özünü göstərir. Doğrudur, qadınların müəssisələrə rəhbərlik səviyyəsində təmsil olunmalarında vəziyyət hələ də qənaətbəxş deyil. Lakin son illərdə ölkənin sosial və iqtisadi institutlarının modernləşməsi istiqamətində əldə olunmuş müvəffəqiyyətlər qadın sahibkarlığının bundan sonra artan xətt

üzrə inkişaf edəcəyindən, mövcud olan, ələlxüsus gender stereotiplərindən qaynaqlanan problemlərin tədricən aradan qaldırılacağından xəbər verir.

**ƏDƏBİYYAT**


1. Azərbaycan Respublikası 1991-2001, Bakı, XXI – Yeni Nəşrlər Evi, 2001, 280 s.
2. Məmmədov Q.Ş. Azərbaycanda torpaq islahatı, hüquqi və elmi-ekoloji məsələləri. Bakı, Elm, 2002, 412 s.
3. İqtisadiyyatın ümumi xarakteristikası // Azərbaycan Milli Ensiklopediyası 25 cilddə. Azərbaycan cildi, Bakı, Azərbaycan Milli Ensiklopediyası Elmi Mərkəzi, 2007
4. Xalqa həsr olunan illər, Bakı, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, 2013, 525 s.
5. Mehdiyev R.Ə. Azərbaycan qloballaşma dövrünün tələbləri, Bakı, XXI – Yeni Nəşrlər Evi, 2005, 464 s.
6. Yeni tərəqqi illəri 2003-2011, Bakı, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, 2011, 254 s.
7. Süleymanova Q. M. Azərbaycan Respublikası əhalinin məşğulluğunun gender aspektləri, Bakı, Qərb Universiteti, Gender Araşdırmalar Mərkəzi, 2003, 176 s.
8. Azərbaycanda gender münasibətləri: meyllər və cəhdlər, Bakı, BMTİP, 2007, 104 s.
9. Azərbaycan Respublikasında qadınların vəziyyəti haqqında Hesabat, Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı, Bakı, Caspian Communicatins LTD, 1999, 80 s.
10. Azərbaycan. Ölkə üzrə gender qiymətləndirilməsi, Bakı, Asiya İnkişaf Bankı, 2005, 130 s.
11. Sahibkar qadınlar, Azərbaycanda qadın sahibkarlığın inkişafı üzrə Milli Hesabat və Respublikamızda fəaliyyət göstərən qadın sahibkarlar haqqında oçerklər, 53 s. // http://gender-az.org/doc/az/development/economic/woman-enterpreneers-az.pdf Qadınların biznesinə kim pul yatırar? // http://www. biznesinfo. az/observer/ womeninbusiness/ params/ ln/ az/article/50011
12. Gender Bərabərliyi və Qadın Təşəbbüsləri İctimai Birliyi, Rüblük Bülleten (1) № 2. Oktyabr, Noyabr, Dekabr 2009, 37 s.
13. Azərbaycan üzrə strategiya, Avropa Yenidənqurma və İnkişaf Bankının İdarə Heyəti tərəfindən 30 aprel 2014 tarixində təsdiq olunmuş sənədi, 62 s. // http://www.ebrd.com/downloads/ country/strategy/ azerbaijan-country-strategy-azeri.pdf
14. Azərbaycan qadını naminə, Bakı: Heydər Əliyev İrsini Araşdırma Mərkəzi, 2010, 372 s.
15. Azərbaycan Respublikasının BMT-nin Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında konvensiyası üzrə 4-cü dövri hesabatı (2008), 68 s. // http://scfwca.gov.az/up/news/article/2012/cedaw_az_ministries[1].pdf
16. Пятый периодический доклад, представленный Правительством Азербайджанской Республики в Комитет по ликвидации дискриминации в отношении женщин ООН, 11 марта 2013 г., 52 с. // http://docstore. ohchr. org/ SelfServices/ Files Handler. ashx? enc=6QkG1d%2f PPRiCAqhKb7y hsgcj dm0xgERNaIXh22nhTUnQC8ux%2f7aT5ixl5%2bhBezz4ovEdnP15gV6V4lJ2sVPbqnYiaVHgDIhjt%2b SMl4AHmoA191mmHrOHS4YnXbuVOUay
17. Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi. 2012-ci il üzrə fəaliyyət haqqında, Bakı, 2013, 177 s. // http://www. economy. gov. az/index. php?option=com_content&view=article&id=951: hesabat-2012&catid=53:reports
18. Azərbaycan Respublikasında qadın sahibkarlığın inkişafı, Bakı, Azərbaycan Respublikası İqtisadiyyat və Sənaye Nazirliyi, 2014, 5 s. // http://www.economy.gov.az/media/pdf/qadin-sahibkarligi.pdf
19. Azərbaycan Respublikası İqtisadiyyat və Sənaye Nazirliyi. 2013-cü il üzrə fəaliyyət haqqında. Bakı, 2014, 201 s. // http: //www. economy. gov. az/index. php? option= com_content & view= article &id= 2132: hesabat-isn-2013&catid=53:reports
20. Sahibkar qadınlara kiçik biznes fəaliyyəti üçün məlumat kitabı, Bakı,Lider qadınlar İctimai Birliyi, 2012, 107 s.
21. Bakı Biznes Tədris Mərkəzinin 2012-ci il üzrə Hesabatı, Bakı, Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi, 2012, 15 s. // http://bbtc.gov.az/front/az/files/81
22. Bakı Biznes Tədris Mərkəzinin 2013-cü il üzrə Hesabatı, Bakı, Azərbaycan Respublikası İqtisadiyyat və Sənaye Nazirliyi, 2013, 27 s. // http:// bbtc. gov. az/ front/ az/ files/ 82
23. Hüseynova H. Dövlət Komitəsi qadın sahibkarlığının inkişafını daim dəstəkləyir // http://old.525.az/view.php?lang=az&menu=10&id=33454&type=1
24.


**ABSTRACT**


**S. Abbasova**


**Some of the issues of women's entrepreneurship in the Republic of Azerbaijan**


The article describes the main milestones in the development of women's entrepreneurship in the Azerbaijan Republic. Analysis of the process allowed it to identify three stage. In the first phase (1995-2002 years) was formed legal framework of privatization in our country, created the conceptual basis of the

mechanisms of the market economy and private enterprise, launched comprehensive reforms in the field of property relations. However, due to certain reasons (existing gender stereotypes, bureaucratic red tape in business registration, etc.) privatization as a whole has acquired "a man's face.

The second phase (2003-2006 year) marked strengthening of the state protection to the private sector, including female entrepreneurship. During this period, significant growth of private sources of credit activities, and to address the challenges of women socio-economic and legal issues. However, despite the positive developments, still exist institutional and cultural obstacles.

The characteristic features of the third stage (since 2007) are the improvement of the institutional environment of market relations, the further improvement of the legal framework and mechanisms for lending business. The growth of economic power of the country, the welfare of the population, as well as the implementation of the principle of gender equality has led to significant positive changes in this area. They expressed in quantitative and qualitative growth of female entrepreneurship. Business women are more and more involved in the processes of economic modernization of the country.


## РЕЗЮМЕ

**С. Аббасова**

**Некоторые вопросы развития женского предпринимательства в Азербайджанской Республике**

В статье рассмотрены основные вехи развития женского предпринимательства в Азербайджанской Республике. Анализ процесса позволил в нем выделить три этапе. В первом этапе (1995-2002 гг.) была сформирована нормативно-правовая база приватизации в нашей стране, созданы концептуальные основы механизмов рыночной экономики и частнопредпринимательской деятельности, начаты комплексные реформы в области собственнических отношений. Однако по определенным причинам (существующие гендерные стереотипы, бюрократическая волокита в регистрации предприятий и прочее) приватизация в целом приобрела «мужское лицо.

Второй этап (2003-2006 гг.) отмечен усилением государственного покровительства частному сектору, в том числе и женскому предпринимательству. В указанный период наблюдается значительный рост источников кредитования частнопредпринимательской деятельности, а также приступили к решению проблем женщин социально-экономического и юридического характера. Однако, несмотря на позитивные подвижки, все еще продолжали существовать институциональные и культурные препятствия.

Характерными особенностями третьего этапа (с 2007 года) выступают улучшение институциональной среды рыночных отношений, дальнейшее усовершенствование нормативно-правовой базы и механизмов кредитования предпринимателей. Рост экономической мощи страны, повышение благосостояния населения, равно как и осуществление на практике принципа гендерного равенства привели к значительным позитивным изменениям в указанной области. Они выразились в количественном и качественном росте женского предпринимательства. Деловые женщины все больше и больше вовлекаются в процессы экономической модернизации страны.



NDU-nun Elmi Şurasının 30 mart 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 07).

Məqaləni çapa təqdim etdi: Fəlsəfə üzrə elmlər doktoru, professor M.Rzayev

**NOVRUZƏLİ RƏHİMOV**
*Naxçıvan Dövlət Universiteti*
*Novruzrehimov62@mail.ru*

**UOT: 008.39**

# QLOBALLAŞMA VƏ BƏŞƏRİYYƏTİN GƏLƏCƏYİ HAQQINDA

***Açar sözlər:*** *Qloballaşma, bəşəri dəyərlər. mənəvi dəyərlər, milli dəyərlər*
***Key words:*** *Globalization, human values, moral values, national values*
***Ключевые слова:*** *глобализация, общечеловеческие ценности, моральные ценности, национальные ценности*

Millətlərin bir- birinə yaxınlaşması tarixin müxtəlif dövrlərində bu və ya digər formada baş vermişdir. Sənayenin inkişafı, yeni nəqliyyat və rabitə vasitələrinin kəşfi, dünya iqtisadi bazarının formalaşması, beynəlxalq əlaqələrin və mübadilənin intensivləşməsi ölkələr və millətlər arasındakı əlaqələri daha da yaxınlaşdırmağa başlamışdır. Beynəlxalq iqtisadi əlaqələr çox sürətlə artır, dünya bütöv, vahid bir tam halını almağa başlayır.

Qloballaşma prosesi ilə əlaqədar ümummilli lider H. Əliyev demişdir ki, "Dünyanın inkişafının indiki mərhələsinin başlıca meyli qloballaşmadır. Bu mürəkkəb və heç də birmənalı olmayan prosesin perspektivləri bizim hamımızı düşündürür. Qloballaşma dövlətlərin sabit inkişafının, bütövlüyünün və idarəetmə sistemlərinin sabitliyinin təmin olunmasına, iqtisadi münasibətlərdə ayrı seçkiliyin aradan qaldırılmasına, xalqların rifah halının yüksəldilməsini kömək etməlidir ”(3.səh 76.)

Qloballaşma nəqliyyatın və rabitənin inkişafı nəticəsində bir- birindən təcrid edilmiş xalqların ünsiyyətə girməsindən başlamışdır. Hazırda qloballaşmanın təsiri ilə hər gün həyatımızda rastlaşırıq. Məişətimizdə istifadə etdiyimiz əşyaların və hətta qida məhsullarının çoxu xarici ölkələrin istehsalıdır. Başqa sözlə, hər gün biz dünyanın müxtəlif bölgələrində istehsal edilən məhsullara və tanımadığınız minlərlə insana arxalanaraq gündəlik həyatınızı qururuq. Belə qarşılıqlı asılılıq məhz beynəlxalq ticarətin və qloballaşmanın nəticələridir. Heç də həmişə hər hansı dövlət qurumu istəklərinizi nəzərə alıb bu istehlak məhsullarını istehsal edib bizim ehtiyacımızı ödəməyə çalışmır. Əksinə, istifadə etdiyimiz məhsulları istehsal edən insanların özləri də, öz əməklərinin nəticəsində bizim kimi digər istehlak məhsullarını istifadə edirlər. Məhz bütün bunları arqument gətirərək müasir liberal iqtisadçılar iddia edirlər ki, genişlənən beynəlxalq ticarət və qloballaşma bütün xalqların və insanların maraqlarına cavab verir, çünki bu prosesin nəticəsində hər kəs daha yaxşı imkanlar əldə etmiş olur. Bu əlaqələr həmin xalqların heç də həmişə iradəsinə və mənfəətlərinə uyğun olmur. Min illərlə müxtəlif ideyalar, incəsənət növləri və mədəniyyətlər müxtəlif xalqlar arasında dünyanın bir yerindən o birinə yayılmışdır. Qloballaşma prosesi bütün ölkələrin iqtisadiyyatlarına onların açıq və qapalı olmasından asılı olmayaraq öz təsirini göstərir. O, məhsulların və xidmətlərin istehsalına, əmək qüvvəsinin, investisiyaların, texnologiyaların bir ölkədən digərinə yayılmasına təsir göstərir. Bütün bunlar son nəticədə istehsalın effektivliyi, əməyin məhsuldarlığı və rəqabətə davamlılığında öz əksini tapır. Məhz qloballaşma beynəlxalq rəqabətin kəskinləşməsinə gətirib çıxarmışdır. Bir məqamı unutmaq lazım deyil ki, istehsalın effektivliyinin və əmək məhsuladarlığının artması heç də həmişə cəmiyyətdə ədaləti, bərabərliyi və insanların sosial rifahına təminat vermir.

Gördüyümüz kimi, indi qloballaşma prosesindən kənarda qalmaq mümkün deyil. Ona görə də qloballaşan dünya iqtisadiyyatına inteqrasiya edən Azərbaycanın qarşısında çox mühüm vəzifələr durur. Bu vəzifələrin əsas qayəsi isə ölkə vətəndaşlarının davamlı sosial- iqtisadi inkişafını və təhlükəsizliyini təmin edəcək rəqabətədavamlı qabaqcıl iqtisadiyyat qurmaqdır və milli- mənəvi dəyərlərini mühafizə edib yaşatmaqdır

Hər bir xalqın milli- mənəvi dəyərləri həmin xalqın, həmin millətin kimliyini müəyyən edir. Müasir dövrdə qloballaşma prosesində milli- mənəvi dəyərlərimizə hörmətlə yanaşmalı, qloballaşmanın mənfi və mübət cəhətlərinə diqqət yetirməliyik. "Bu gün milli mədəniyyətin və beynəlxalq mədəni əlaqələrin inkişaf konsepsiyası xalqımızın əsrlər boyu çətin, həm də təmkin və səbirlə əldə etdiyi mədəni- mənəvi sərvətlərin, habelə folklor inciləri, milli ənənələrin və mərasimlərin qorunması və təbliğini, millətlərarası mədəni əməkdaşlığın və xarici ölkələrlə qarşılıqlı yaradıcılıq əlaqələrini nəzərdə tutur” (2. s.4). Ona görə də qarşıda duran əsas vəzifə səmərəli fəaliyyət nəticəsində milli- mənəvi dəyərlərin aşınmalardan qorunmasıdır.

Biz qloballaşmanın göstərdiyi təsirlərə ölkəmizin milli mənafeyinə uyğun bir tərzdə cavab verməliyik. Qloballaşma prosesi zamanı biz milli təhlükəsizliyimizi və milli mənəviyyatımızı yad təsirlərdən mühafizə etməliyik.

Milli dövlətçiliyimiz də siyasi sahədə qloballaşma zamanı müəyyən problemlər ilə qarşılaşır. Milli özünüdərk, milli ləyaqət hissi siyasi qloballaşmada ön planda olmalıdır. İnteqrasiya prosesinin qaçılmaz olduğu

bir zamanda milli- mənəvi, əxlaqi və tərbiyəvi dəyərlərimizin qorunmasına qaygı və maraq daha da artmışdır.

Qloballaşmanın təsiri özünü bütün sahələrdə– ticarətdə, idmanda, siyasətdə, iqtisadiyyatda, incəsənətdə, hüquqda və s. sahələrdə göstərir.

R.Robertsonun fikrincə, qloballaşma və qlobal "sahə" arasında fərq vardır. Qlobal sahə müxtəlif növ qarşılqlı təsirlərin və dəyişikliklərin baş verdiyi sosial məkandır. Qloballaşma isə vahid qlobal sahənin yaranmasını şərtləndirir. R.Robertsona görə, qloballaşma yalnız strukturlar, institutlar və şəbəkələrlə bağlı deyil, həmçinin bizim sosial həyat və oradakı yerimiz haqqında düşüncə tərzlərimizlə bağlıdır

A.Giddens müasir dünyanın dinamizmini daha çox müasirliklə bağlayır. O, qloballaşmanın modernizasiya nəticəsində mümkün olduğunu hesab edir.(4. p. 55-78.) Modernizasiyanın 4 aspekti çox əhəmiyyətlidir: kapitalizm, industrializm, milli-dövlətlərin nəzarət imkanları və milli hərbi qüvvə. Bu tendensiyalar Qərbin yaxın tarixi ilə əlaqələndirilir və beləliklə, qlobalizasiya Qərb fenomeni kimi təqdim olunur. Qloballaşma milli mədəniyyət və ənənələrin təsir qüvvəsini məhdudlaşdıraraq milli mentalitetlər arsındakı aşılmaz səddləri aradan qaldırır.

Qloballaşma daha çox iqtisadi, siyasi, sosial və mədəni sahələri əhatə edir. Əslində, bu sahələrdə qloballaşma bir- birindən ayrı mövcud olmayaraq, sistemin ayrı-ayrı zəruri elementləri kimi çıxış edir. Çünki qloballaşma iqtisadi, siyasi və mədəni istiqamətləri əhatə etməklə vahid strateji məqsədə xidmət edir. Konkret faktorlar tərəfindən vahid mərkəzdən vahid qanunlar əsasında dünyanın idarə edilməsi və ya "qlobal dövlət"in formalaşdırılması. Qloballaşmaya iqtisadi proses kimi yanaşanlar və ya iqtisadi qloballaşmanı ön plana çəkən tədqiqatçılar bildirirlər ki, qloballaşma, əslində iqtisadi tələbatların ödənilməsi və ticari maraqların təmin olunması üçün dünyanı idarə edən güclər tərəfindən ortaya çıxarılmış ssenaridir. Bu ssenari kapital dövriyyəsinin və sərmayə imkanlarının vahid əldə cəmləşdirilməsi üçün böyük iqtisadi faktorlara geniş imkanlar verir.

İqtisadi qloballaşma kapitalın hərəkətini sürətləndirən, yeni ideyaların tətbiqini təmin edən vahid qlobal maliyyə və informasiya məkanının formalaşması və inkişafı prosesidir. İqtisadi qloballaşmanın əsasını təbii resurslar və bazarlar üzərində nəzarət uğrunda kəskin rəqabət təşkil edir. Onun əsas iştirakçıları transmilli şirkətlərdir. XX əsrin ikinci yarısından regional transmilli şirkətlərin qlobal şirkətlərə çevrilməsi prosesi başlandı. Buna xeyli dərəcədə planetin müxtəlif hissələrini vahid informasiya və iqtisadi məkanda birləşdirən elektron rabitə vasitələri sahəsindəki inkişaf şərait yaratdı. İqtisadi qloballaşma mərkəzləri çox böyük miqyasda fəaliyyət göstərirlər. Öz iqtisadi gücünə görə bir sıra transmilli şirkətlər ayrı- ayrı dövlətlərlə rəqabət aparmaq imkanına malikdirlər.

Transmilli şirkətlərin xaricdən əldə etdikləri gəlirin yarısı onların yerləşdiyi ölkəyə gətirilir. Transmilli şirkətlərin çoxunun məhz ABŞ ərazisində cəmlənməsi müasir dünyada ABŞ- ın mütləq ticarət üstünlüyünün əsas səbəblərindən biridir. Hal-hazırda qüvvələr nisbəti elə bir vəziyyətdədir ki, bunun da sayəsində heç bir ölkə müflis olmaqdan qorunmaq imkanına malik deyil. Amerikanın təklif etdiyi «qlobal sivilizasiya» qlobal idarəçiliyin xüsusi mexanizmini yaradır, həmin dünya bazarı qanunlarına dövlətlər və xalqlar tabe olur. Qərb sivilizasiyası öz liderliyini Avropa və Şimali Amerikanın mənafe ayrılmazlığı şərti ilə təmin etməkdədir.

Müstəqilliklərini qorumaq üçün dövlətlər bir sıra qrupların maraqlarını təmin etmək imkanlarına malik olmalıdırlar. Bu qruplara əmək təşkilatları, istehlakçılar, millətin mədəni bütövlüyündə maraqlı olanlar və s. aid ola bilər. Bu qruplar təkbaşına və ya ittifaqlarda dövlətə daha azad və daha təhlükəsiz ticarətin təmin etməsi, beynəlxalq müqavilə və konvensiyaları ratifikasiya və ya rədd etməsi, immiqrant axınını genişləndirməsi və ya məhdudlaşdırması üçün təzyiq edə bilərlər. Milli dövlətin nəzəri və siyasi əsasları millilik təşkil edir. Milli dövlətlər xalqların sosial- iqtisadi və mədəni inkişafına lazım olan mühüm faktorları təmin edir, ayrı- ayrı millətlərin dillərinin, adət- ənənələrinin qorunmasına şərait yaradır. Hər bir xalq anlamaladır ki, milli dövlət onların sərvətidir və onun qorunması üçün bütün resurslardan istifadə etməlidir. Çünki milli dövlətin mövcudluğu xalqın statusunun və suverenliyinin daim aktual olacağını təmin edir.

Qloballaşma, dövlətlər və iqtisadi institutlar arasında əmək bölgüsünün dərinləşməsi və formalaşmasının fonunda ortaya çıxan real prosesdir. Siyasi qloballaşma milli dövlətlər arasındakı sərhədlərin "aradan qaldırılmasına" xidmət edən tendensiyadır. Siyasi qloballaşma şəraitində milli maraq məfhumu və prinsipi ikinci plana atılır, bununla da transmilli strateji hədəflər və maraqlar ön plana çəkilir. Dövlətin milli maraqlarının təmin olunması qloballaşmanın aparıcı qüvvələrinin maraqlarının təmin olunmasına mane olur.

Qloballaşma prosesinin əhatə etdiyi sahələrdən biri də mədəniyyətlərin qloballaşmasıdır. Mədəniyyət sahəsində qloballaşma məsələsinə tədqiqatçılar müxtəlif şəkildə yanaşırlar. İ.Vallerstaynın fikrincə, mədəni qloballaşma dünyanı idarə edən aparıcı qüvvələr tərəfindən istifadə edilən ideoloji vasitədir. Mədəni qloballaşma tendensiyasının arxasında və əsasında dayanan güclər millətlərin mədəni dəyərlərini-milli xarakter və mədəniyyətlərini, adət- ənənələrini "sıradan çıxararaq" homogen mədəniyyət yaratmağa çalışırlar. Bundan sonra isə mədəni dəyərləri itirilmiş millət dünyanı idarə edən güclərin formalaşdırdığı qlobal idarəetmənin bir elementinə çevrilirlər. Adətən mədəni qloballaşma adı altında həyata keçirilən inteqrasiya prosesi bir çox hallarda kiçik millətlərin və etnik qrupların assimliyasiyası ilə nəticələnir. Qeyd

etmək lazımdır ki, qloballaşma prosesinin əsasında millətlərin qarşılıqlı- tarazlı inteqrasiyası, dəyərlərin uzlaşdırılması və paylaşılması, eləcə də yeni dəyərlərin yaradılması məsələsi dayanmalıdır. Ona görə də hər bir millətin öz dəyərlərini, adət-ənənələrini qoruyub saxlaması, həmçinin digər millətlərin eyni dəyərlərinə hörmət etməsi prinsipi xüsusi şəkildə nəzərə alınmalıdır

Getdikcə sürətlənən qloballaşma prosesi ayrı- ayrı dövlətlərin problemi kimi yox, ümumdünya siyasi, iqtisadi, sosial və mənəvi proseslərin harmoniyası kimi nəzərdən keçirilməlidir. Milli- mənəvi dəyərlərin və maraqların qorunmasını əsas tutmaqla qloballaşma prosesinə qoşulmaq assimliyasiya problemini aradan qaldırmaqla yanaşı, millətlər arasında qarşılıqlı əməkdaşlıq və inteqrasiya prosesinə də təkan vermiş olur. Mədəniyyətlərin qloballaşması prosesi iqtisadi və siyasi qloballaşmaya təkan verən tendensiya və proses kimi çıxış edir. Ona görə də qloballaşma prosesinin önündə dayanan qüvvələr əsas vasitə kimi mədəni qloballaşma prosesindən geniş şəkildə istifadə edirlər.

Qloballaşma təkcə cəmiyyətlər arasındakı fərqlərin və qarşıdurmaların sayının azalmasına xidmət etmir, həm də cəmiyyətlər arasında fərqlərin önə çıxmasına təkan verən bir prosesdir. Bu proses milli dövlətlərdə qlobal səviyyədəki dəyişikliklərə münasibətdə siyasi və mədəni dəyərlərin önə çıxması tendensiyasının genişlənməsinə səbəb olur.

Tədqiqatçıların fikrincə, qloballaşmanın meylini, inkişaf istiqamətini görərək düşünülmüş şəkildə bu prosesdə iştirak etmək lazımdır. “Planetimiz böyük kəndə, dövlətlər isə burada qonşulara çevrilir. Qloballaşma bağlı qapıları açır, millətlər, xalqlar, fərdlər, müxtəlif iqtisadiyyatlar və mədəniyyətlər arasında yeni şərait yaradır. Qloballaşma nəticəsində fəza daralır, zaman sürətlənir, bizim məkana bağlılığımız əlimizdən alınır”. ( 1. s. 246-247)

Əslində, qloballaşma prosesi zamanı dövlətlərarası münasibətlərdə maraqlar qarşılıqlı şəkildə nəzərə alınarsa, bu zaman elmi- texniki və mədəni nailiyyətlərin mübadiləsi nəticəsində bütün xalqların rifafı və ümumi inkişaf səviyyəsi yüksəlmiş olar. Dünyada hər bir insana baş verən mühüm hadisələri operativ şəkildə çatdırmaq imkanı verməklə, məkan və zamanı fəth etməklə, insanlararası əlaqələrin möhkəmlənməsinə, mənəvi istehlakın strukturunun dəyişməsinə, yeni sosial qaydaların yaranmasına, milli sərhədlərin yox olmasına səbəb olmaqla, qloballaşma, heç şübhəsiz ki, dünya birliyinə müsbət təsir də göstərə bilir. İnsanlar əsrlər boyu həmişə inteqrasiyaya, vahid siyasi, iqtisadi, yaxud sosiomədəni məkanın bir hissəsi olmağa can atmışdır. Lakin dünya tarixində bəşəriyyət hələ heç vaxt bütün dünya məkanının sabit və təhlükəsiz inkişafını təmin etməli olan ümumi siyasi və iqtisadi məkanın yaradılmasına nail olmamışdır. Hazırda geniş vüsət alan ümumdünya inteqrasiya prosesi indiki qədər əhatəli olmamışdır. Buna görə də qloballaşmanın mümkün nəticələrini, cəmiyyət və şəxsiyyətdə, xüsusilə də sosial və mənəvi dəyərlərdə doğurduğu dəyişiklikləri nəzəri cəhətdən dərindən araşdırmaq zərurəti meydana çıxır.

Lakin qloballaşmadan iqtisadi və siyasi cəhətdən güclü olan ABŞ başda olmaqla sənaye cəhətdən inkişaf etmiş Qərb dövlətləri öz iqtisadi maraqlarını təmin etmək üçün istifadə edirlər. Bu baxımdan qloballaşma Qərbin zəif inkişaf etmiş dövlətlər üzərində həyata keçirməyə çalışdığı yeni imperialist siyasət kimi qiymətləndirilir.

Qloballaşma nəticəsində baş verən dəyişikliklər böyük dövlətlərin xeyirinədir. İnkişaf etmiş dövlətlər iqtisadi və siyasi güclərindən istifadə edərək beynəlxalq münasibətlərə öz maraqlarına uyğun şəkildə istiqamət verməyə cəhd edirlər. Ona görə də qloballaşma yalnız inkişaf etmiş dövlətlər tərəfindən müəyyən edilən birtərəfli proses kimi ifadə olunur. Beynəlxalq əlaqələrdə inkişaf etmiş dövlətlərin zəif inkişaf etmiş dövlətlərlə müqayisədə daha güclü və təsir qabiliyyətinə malik olması həmin ölkələrin qloballaşma proseslərinə təsirinin olmaması kimi başa düşülməməlidir.

Müasir dövrdə qloballaşmanın sistemli öyrənilməsi prosesinə yanaşmalarda metodoloji müxtəliflik müşahidə edilməkdədir. Onlar bu prosesin mahiyyətinə müxtəlif fəlsəfi prizmadan yanaşır.

Qlobal iqtisadi artım dövrü yanaşmasına görə, qloballaşma iqtisadi inkişafın, çiçəklənmənin intensivləşməsi, yeni səviyyəsidir. Bu yanaşmanın tərəfdarları arasında R.Darendorfu, F.Nuşeleri, O.Lafonteni, B.Geytsi, B.Klintonu və başqalarını göstərmək olar. Onların fikirlərinə görə, qloballaşma bəşəriyyətin əvvəlki dövrlərdə həlli mümkünsüz hesab edilən problemləri aradan qaldırmağa imkan verir. Bu yanaşmada qloballaşma prosesləri birtərəfli qiymətləndirilir.

Qlobal multimədəni cəmiyyət dövrü yanaşmasında qloballaşma mədəniyyətlərarası və geosiyasi münasibətlərin xüsusi keyfiyyət halı kimi səciyyələndirilir. Qloballaşma əsrlərlə qurulan mədəni sərhədləri yox edir, identikliyi dağıdır. Bu yanaşmanın əsas nümayəndəsi S.Hantinqtondur. Onun fikrincə, qloballaşma dünyada münaqişələrin artmasına səbəb olur. Dünya nisbətən kiçik sistemlərin– etnik- mədəni sivilizasiyaların münaqişə arenasına çevrilir. Qloballaşma prosesində iqtisadi inkişaf geosiyasi mənzərəni dəyişdirir ki, bu da çoxlu sayda yeni münaqişələrə səbəb olur. Bu yanaşmada resursların məhdudluğu və onların bölgüsü problemlərinə xüsusi əhəmiyyət verilir.

Qloballaşmanı sosiumun sistemli transformasiyası hesab edən yanaşmaya görə, qloballaşma dövlət suverenliyi və milli- mədəni inteqrasiya prinsiplərinə söykənən ənənəvi siyasi qaydaların dağılması

deməkdir. Bu konsepsiyanın nümayəndələrini ənənəvi siyasi idarəetmə alətlərinin durmadan zəifləməsi və buradan əmələ gələn hakimiyyət vakuumu narahat edir.

Qloballaşmanı mədəniyyət və ənənələrin dağılması kimi qiymətləndirən yanaşmada neqativ aspekt üstünlük təşkil edir və elə antiqloballaşma hərəkatı da məhz bu mənbədən qidalanır. Göstərilən mövqe bu qüvvələrə xas olan ekstremist metodlar vasitəsilə əhaliyə çatdırılır. Qərbdə yaranan antiqlobalizm hərəkatı, tədricən başqa ölkələrdə özünə tərəftarlar tapmışdır. İqtisadi qloballaşma tərəfdarlarının demək olar ki, hər bir görüşü antiqlobalistlər tərəfindən ciddi etiraz aksiyaları ilə qarşılanır.

Antiqlobalist təşkilatlarının da adları rəngarəngliyi ilə fərqlənir: "Şans-2000", "Qara blok", "Qloballaşma üçün maneə", "Ədalət naminə səfərbərlik", "Sinfi müharibə", "İnsan və heyvanların birləşmiş cəbhəsi", "Planetin dostları" və s. Bəzi rəylərə görə, bu gün 120-yə yaxın belə təşkilat fəaliyyət göstərir.

"Antiqlobalistlər"in əksəriyyətinin əsas məqsədi ədaləti bərpa etməkdir. TMK-ların planetar səviyyədə mütləq hakimliyi onları qane etmir. Mövcud vəziyyəti onlar varlı ölkələrdə cəmləşmiş maddi vəsait və ehtiyatların yenidən bölüşdürülməsi hesabına dəyişdirməyi təklif edirlər.

Lakin əsas məsələ qloballaşmanın gətirdiyi texniki- iqtisadi faydalarla yanaşı onun neqativ tərəflərinin qarşısını almaq üçün bərabərhüquqluluğu, dövlətlərarası harmoniyanı, özünüdərki, özünün tarixini, özünün mədəniyyətini və digər dəyərləri qoruyub saxlamaqdır. Nəzərə almaq lazımdır ki, ən böyük imperiyaları belə onun tərkibində olan kiçik millətlərin, xalqların dəyərləri, özünüdərki parçalayıb məhv edə bilmişdi. Millətin əsas varlığını təmin edən onun milli dəyərləri, mədəniyyətidir. Mədəniyyət xalqın mövcudluq meyarıdır. Mədəniyyətin dünəni unutmadan, bu günlə zənginləşdirərək gələcək nəsillərə çatdırılması ali borcdur.

Müasir qloballaşma dövründə mədəniyyətimizə gələn bəzi neqativ təsirlərdən ailə dəyərlərimizin də aşınma və müsbət cəhətlərin unudulma təhlükəsi yaranıb.

Xalqımızın milli- mənəvi dəyərlər sistemində ailə həmişə ən yüksəkdə dayanıb. Bütün dövrlərdə "kiçik dövlət" modeli olan ailənin möhkəmliyinin təmin olunması, onun qorunub saxlanılması əsas vəzifələrdən sayılıb.

Qloballaşmanın müsbət tərəflərindən məsələn, əgər bu gün internet üzərindən dünyanın istənilən nöqtəsinə çıxış əldə edə biliriksə və istənilən elmi, texniki, tibbi və s. məlumatları çox asanlıqla əldə edə biliriksə bunu müsbət hal kimi dəyərləndirmək lazımdır. Biz evimizdə oturub peyk vasitəsilə dünyanın müxtəlif kanallarına baxırıq, hər hansı ölkədə olan yaxınlarımızla internet vasitəsilə video söhbət ediriksə, bunu sərhədləri aşan təqdirəlayiq hal kimi qiymətləndirməliyik. Lakin millilik baxımından yanaşanda görürük ki, burada müəyyən mənada milli- mənəvi dəyərlərimizə zərər vura bilən kənar təsirlər də mövcuddur. Ona görə də bu cür təsirlərdən yaxa qurtarmaq üçün ailədə, məktəbdə uşaqlarımıza düzgün tərbiyə verməliyik. Yəni, biz dünyanı nə qədər tanısaq da, dünya mədəniyyətinə, iqtisadiyyatına sahib olsaq da, azərbaycanlı olmağımızı, müsəlman olmağımızı yaddan çıxarmamalıyıq. Öz uşaqlarımızı da yalnız bu ruhda tərbiyə etməliyik. Əgər valideyn öz uşağını milli ruhda tərbiyə edirsə, o istənilən ölkədə gedib təhsil ala, müxtəlif mədəniyyətlərlə, insanlarla ünsiyyətə girə bilər və heç zaman milliliyini unutmaz. Əgər qloballaşma dövründə milli adət-ənənələrimizi qoruyub saxlamaq istəyiriksə, bu işə ilk növbədə ailədən başlamalı, təhsil müəssisələrində də həmin prosesi davam etdirməliyik.

İndiki dövrdə Azərbaycanda qadın hüquqlarını, ailə məsələlərini ortaya çəkən çoxlu sayda layihələr həyata keçirilir. Bildiyimiz kimi, hər bir millət özünün uzun əsrlərdən bəri formalaşdırdığı ailə dəyərləri, ailə modeli ilə yaşayır. Bu dəyərləri az bir zaman içərisində eyniləşdirməyə göstərilən cəhdlər ailələrdə müəyyən anlaşılmazlıqlara və təzadlara gətirib çıxara, ailələrimizin möhkəmliyini sarsıda bilir. Qərbdəki fərdiyyətçilik hissləri bizlərə də hakim ola bilər. Bu zaman atanın oğuldan, qızdan, yaxud əksinə övladların valideyndən xəbəri olmaz. Biz həmişə ailəyə bağlı olmuşuq. Nəzərə almaq lazımdır ki, qərbdən fərqli olaraq bizdə tamam başqa adət-ənənə var. Xristian adət- ənənəsində qadının spirtli içki içməsinə pis baxmırlar. Amma bizdə nəinki qadının, heç kişinin də spirtli içki içməsi normal qarşılanmır. Çünki spirtli içkinin insan sağlamlığına, mənəvi-əxlaqi dəyərlərinə və s. vurduğu ziyanı və törətdiyi fəsadları nəzərə alsaq, onun nə dərəcədə zərərli olduğunu görə bilərik. Xüsusən də gələcəyin anası olan qızlara spirtli içkinin mənfi təsirini nəzərə almaq çox vacibdir. Bu bizim xalqın müsbət cəhətidir. Bunları qərb bizdən götürməlidir. Qadın ailəsinə, uşağına bağlıdır, həyat yoldaşına böyük hörməti var və tək heç bir yerə getmək istəmirsə buna müsbət yanaşmaq lazımdır. Bu bizim, əsrlərin süzgəcindən keçib bu günə kimi gəlib çatan adət- ənənəmizdir. Ona görə də biz ailə- nikah münasibətlərinə də öz adət- ənənələrimizdən yanaşmalıyıq.

Tarix boyu Azərbaycanı qoruyan və bu günümüzə qədər gətirib çıxaran ailə institutunun dəyərlərinin qorunması hər birimizin vətəndaşlıq borcu olmalıdır: Azərbaycanın ailə institutunda həmişə valideynlərin sözünə hörmət qoyulub. Valideynlər isə, xüsusən də ata ailənin bütün ağırlığını və məsuliyyətini öz üzərinə götürmüşdür. Ancaq qərb ailəsində münasibətlər belə olmadığından orada bu, inzibati qaydalarla təmin olunur. Nəzərə almaq lazımdır ki, əgər insanın davranışını yalnız qanun və hüquq tənzimləyirsə, davranış nəzarətçisi insanın çölündə olur, insanın davranışını mənəvi dəyərlər tənzimləyirsə, nəzarətçi onun daxilində olur. Hər hansı situasiyada biz,

qanun qorxusundan yox, içimizdəki nəzarətçinin diktə elədiyi şəkildə hərəkət edirik. Son dövrlər Azərbaycan cəmiyyətinə teleməkan vasitəsi ilə ötürülən zərərli stereotiplər bizim daxilimizdəki mənəvi nəzarətçini demək olar ki, təsirsizləşdirməkdədir. Bunun nəticəsində istənilən şəraitdə Azərbaycan mentaliteti, əxlaqi, mənəviyyatı və etik dəyərləriylə heç cür uzlaşmayan hərəkətlərin və davranışların şahidi oluruq.

İndiyə qədər haradasa, kimsə milli əxlaqa zidd bir hərəkətə yol vermişsə, belə hadisəni el ağsaqqalları həll etmişlər və xoşagəlməz halların qarşısını almışlar. Bu, heç də keçmişə qayıdış kimi başa düşülməməlidir. Əsas məsələ ondadır ki, cəmiyyətdə insanlararası münasibətlərdəki çatışmazlıqlar aradan qaldırılmış olsun.

Qüsurlu davranışı olan bir ailə teleməkana çıxarılmaqla o ictimailəşir və cəmiyyət üçün bir səhv davranış modelinə çevrilir. Təbii ki, biz bu arzuolunmaz olayları ictimailəşdirməkdənsə, milli- mənəvi dəyərlərimizi təbliğ etməliyik. O zaman gənc nəsil də öz adət- ənənəsindən uzaqlaşmayacaq, qurduğu ailənin dəyərini anlayacaq.

Mobil telefon və internetdən düzgün istifadə olunmaması müxtəlif təhsili olmayan, eyni zamanda müəyyən psixoloji yüklü adamlara çox pis təsir edir və onlar öz həyatlarını "fərqli" qurmağa çalışırlar. Bununla da min illərlə formalaşmış ailə dəyərləri sistemimiz tədricən zədələnir. Bunun qarşısını almaq üçün ilk növbədə gənclər arasında maarifləndirmə işləri gücləndirilməli və cəmiyyətdə nümunəvi ailələrin ömür yolu ictimailəşdirilməlidir.

## ƏDƏBİYYAT


1. Əsgorov Ş, Təhsilimiz, dünən, bu gün, sabah, Bakı, Azərbaycan , 2003. 280 s,
2. Hüseynov İ., Əfəndiyeva N. Xarici ölkələrdə mədəni fəaliyyətin təşkili, Bakı, 2008.
3. Şükürov A. Qloballaşma, mahiyyəti və perspektivləri, Bakı,Adiloğlu -2001, 171 səh
4. Giddens A. The consequences of modernity. – Cambridge: Polity Press, 1990.


## ABSTARCT


**Novruzali Rahimov**

**Globalization and about the future of mankind**

The process of globalization is a new formed stage on the basis of the laws of historical development of mankind. In the process of globalization joining to common economic and financial, social and political and cultural relations system of the majority of mankind occuvs. Globaliztion accelevates the beginings of dialogue and interaction among civilizations.

Globalization is attain a single worldwide system of national economies,the increase in cultualties, the formations of the attitude of global interdependence. Globalization is new brand changes in the areas of life, policy, economy, culture, science, technology and so on in the modern world.

Globalization must not be observed with the re-transformation of the world to the empire, being subject to a single force, it must be observed with equal cooperation,mutual aid, exchange of technology,cultural value. In the process of globalization relation must be based on humanism and the norms of international low.

There are different appraches to globalization. Becouse powerful states try to use globalization which is natural-historical process for their interests. As a result, national economies, national cultures may be damaged. That is why protection of national interests is one of the important issnes.


## РЕЗЮМЕ


**Новрузали Рагимов**

**Глобализация и будущее человечества**

Процесс глобализации - это новый этап сформированный на основе законов исторического развития человечества. В процессе глобализации происходит присоединение к единой экономической, финансовой, социальной, политической и культурной системе отношений большинства человечества. Глобализация активизирует начало диалога и взаимодействия между цивилизациями.

Глобализация достигает единой всемирной системы национальных экономик, увеличивает отношение между разных культурь, формируют отношения глобальной взаимозависимости. Глобализация - это новые качественные изменения в сферах социальной жизни, политики, экономики, культуры, науки, техники и т. д. в современном мире.

Глобализация не должна наблюдаться при реконверсии мира в империю, подчиненной единой силе, оно должно соблюдаться с равным сотрудничеством, взаимной помощью, обменом технологиями, культурной ценностью. В процессе глобализации отношение должно основываться на гуманизме и нормах международного права.

Существуют различные оценки глобализации. Потому что, сильные государства пытаются использовать для своих интересов глобализацию, которая является естественно-историческим процессом. В результате могут пострадать национальные экономики, национальные культуры. Вот почему защита национальных интересов - одна из важных проблем.



NDU-nun Elmi Şurasının 30 mart 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 07).

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2017, № 2 (83)**

NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2017, № 2 (83)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2017, № 2 (83)**

**İLQAR KƏNGƏRLİ**
**ABDULLA MUSTAFAYEV**
*Naxçıvan Dövlət Universiteti*

**UOT: 008.39**

# AZƏRBAYCAN MULTİKULTURALİZMİNİN GEOSİYASİ, TARİXİ-MƏNƏVİ ƏSASLARI

***Açar sözlər:*** *Multikulturalizm, Azərbaycan nümunəsi, geosiyasi şərtlər, tarixi-mənəvi təcrübə.*
***Key words:*** *multiculturalism, the case of Azerbaijan, geopolitical conditions, historical and spiritual experience*
***Ключевые слова:*** *мультикультурализм, пример Азербайджана, геополитические условия, историко-духовный опыт*

Azərbaycan tarixən müxtəlif mədəniyyətlərin və sivilizasiyaların qovuşduğu, etnik, dini, mədəni rəngarənglik mühitinin mövcud olduğu, ayrı-ayrı millətlərin və konfessiyaların sülhə və qarşılıqlı anlaşma şəraitində yaşadığı unikal ölkə kimi tanınmışdır. Bu unikallıq tarixən multikulturalizm və tolerantlıq ənənələrinin azərbaycanlıların həyat tərzinə çevrilməsində, müasir Azərbaycan dövlətinin milli-dini siyasətinin həyata keçirilməsində əsas rol oynamış və oynamaqdadır. Multikulturalizm ayrıca götürülmüş ölkədə və bütövlükdə dünyada müxtəlif millətlər və dinlərə məxsus insanların mədəni müxtəlifliklərinin qorunmasına, inkişafına və harmonizasiyasına, azsaylı xalqların dövlətinə vahid mədəniyyətinə inteqrasiyasına yönəldilmiş siyasi konsepsiyadır. Ölkə daxilində multikulturalizm modeli müxtəlif etnomədəni subyektlərin dinc yanaşı yaşaması və öz mədəni xüsusiyyətlərini, həyat tərzini rəsmən ifadə etmək və qoruyub saxlamaq hüququna malik olmasını nəzərdə tutur. Multikulturalizm mədəniyyətlərin və sivilizasiyaların dialoqunun zəruri alətidir.

Azərbaycan dövlətinin multikulturalizm siyasətinin əsaslarını ölkəmizin özünəməxsus geosiyasi şəraiti və tarixi-mədəni ənənələri təşkil edir.

Azərbaycan lap qədimlərdən Şərq və Qərb sivilizasiyalarını özündə yaşadan, öz milli dəyərlərini qoruyub saxlamaqla yanaşı bəşəri dəyərlərə sadiqliyini də nümayiş etdirən, öz ərazisində yaşayan xalqlara, etnik qruplara, onların mənəvi dəyərlərinə, dilinə, dininə, məişətin tolerant münasibətin mövcud olduğu məkan olmuşdur. Geosiyasi şəraitinə görə Azərbaycan müxtəlif dünyagörüşləri, mədəniyyətləri qovuşduran, türk, ərəb, islam, Avropa, rus, İran, Qafqaz etno-mədəni dəyərlərini özündə təcəssüm etdirən qeyri adi mənəvi-mədəni arealdır. Minilliklər ərzində Azərbaycan ərazisində müxtəlif xalqların, dinlərin qarşılıqlı əlaqəsi, dialoqu baş vermişdir.

Bu gün dünyanın müxtəlif regionlarında siyasi və etnik-dini qarşıdurmalara səbəb olmuş bu dialoq və ünsiyyət Azərbaycanda hər hansı sarsıntılara və qarşıdurmalara səbəb olmamış, əksinə başqalarına örnək ola biləcək bənzərsiz bir mühit formalaşdırmışdır.

Azərbaycan tarixən mədəniyyətlərin qarşılıqlı təsir arenası olmuş, ölkənin milli mədəniyyətinin inkişafı Yaxın və Orta Şərqin qonşu ölkələrinin mədəniyyəti ilə sıx əlaqədə inkişaf etmişdir. Məlumdur ki, Azərbaycanın tarixi ərazisi müasir Azərbaycan Respublikasının sərhədləri ilə məhdudlaşmayıb, daha geniş ərazini əhatə edir. Ona görə də Azərbaycan mədəniyyətini, xüsusən, ədəbiyyatını yalnız Azərbaycan dövlətinin ərazisi ilə məhdudlaşdırmaq düzgün olmazdı, onlar müxtəlif mənəvi-ideoloji, kulturoloji regionlarda, mühitlərdə inkişaf etsələr də, genotipin və etnik məzmununa görə vahid və bütöv hadisədir.

Yalnız XIX əsrin əvvəllərində Azərbaycan Rusiya və İran arasında bölüşdürüldükdən sonra Cənubi (Güney) Azərbaycan və Şimal (Quzey) Azərbaycan kimi coğrafi-siyasi məfhumlar meydana gəlmişdir.

Əlbəttə, Azərbaycanın mədəniyyəti mahiyyətcə türk-islam mədəniyyətinin tərkib hissidir, ancaq eyni zamanda o, ən qədim dövrlərdən digər mədəniyyətlərin təsirlərinə də məruz qalaraq daha da zənginləşmiş və bəşər mədəniyyətinin inkişafına misilsiz töhfələr vermişdir. Azərbaycanın dünya mədəniyyətinin inkişafındakı bu unikal yerini Azərbaycan xalqının milli lideri dəqiq ifadə etmişdir. Heydər Əliyevin Yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibətilə Azərəbaycan xalqına müraciətində qeyd olunur ki, Azərbaycanın taleyi elə gətirmişdir ki, coğrafi-siyasi mövqeyinə görə o həmişə sivilizasiyaların qovuşuğunda olmuş və istər Qərbin, istərsə də Şərqin çox güclü təsirini öz üzərində hiss etmişdir.

Məlumdur ki, Azərbaycan insanın, bəşəriyyətin beşiyi olan nadir ölkələrdən biridir. Arxeoloji mənbələr də sübut edir ki, hətta Miladdan öncəki minilliklərdə də Azərbaycanda inkişaf etmiş mədəniyyət mövcud olmuşdur.

Azərbaycanın tarixi ərazilərində təşəkkül tapmış dövlət qurumları və dövlətlərin qazandıqları bir çox tarixi, mədəni, mənəvi, maddi nailiyyətlər Şərq mədəniyyətlərinin qarşılıqlı təsirinin nəticəsi hesab edilməlidir.

Bu qarşılıqlı təsir həyatın ən müxtəlif sahələrində-dini, estetik şüurda, məişətdə, bədii mədəniyyətdə, siyasətdə, iqtisadiyyatda özünü göstərirdi. Müasir Avropa siyasi-mədəni sivilizasiyasının əsasını təşkil edən xristianlıq bizə yaxın coğrafiyada təşəkkül taparaq, sonralar Qərbdə hakim ideologiyaya çevrilmişdir. Zərdüştliyin müqəddəs kitabı "Avesta"nın mifoloji təsəvvürləri müasir Avropa mədəniyyətinin taleyində öz dərin izini qoymuşdur.

Azərbaycan ərazisində mövcud olmuş dövlətlərin yüksək inkişaf etmiş əkinçilik və şəhər mədəniyyətinə malik olmaları, onların əlverişli coğrafi vəziyyəti, ticarət yollarının üstündə yerləşməsi, inkişaf etmiş sənətkarlıq və incəsənət mərkəzlərinin mövcudluğu Azərbaycanın Yaxın Şərq və Antik dünya ilə mədəni əlaqələrinin inkişafına münbit şərait yaratmışdır. İslamın qəbulundan sonra Azərbaycan möhtəşəm islam sivilizasiyasının tərkib hissəsinə çevrilmiş, özünün qabaqcıl mədəniyyətini həm Şərqə, həm də Qərbə yayaraq bütöv Avrasiya məkanında mədəniləşdirici rol oynamağa başlamışdı.

Beləliklə, təqribən iki min il ərzində Azərbaycan müxtəlif mədəniyyətlərin və dinlərin təsirinə məruz qalmış, bunun nəticəsində tarixən ölkəmizdə müxtəlif dinlərə münasibətdə yüksək tolerantlıq, dözümlülük mühiti yaranmışdı. Zəngin mədəniyyətimizin formalaşmasına müxtəlif mərhələlərdə həm zərdüştlük, yəhudi, xristian, həm də islam mədəniyyətlərinin təsiri olmuşdur. İlk orta əsrlərdən başlayaraq Azərbaycan mədəniyyətinin, ədəbiyyatının beynəlmiləl mahiyyəti, onların digər milli mədəniyyətlərlə əlaqələri daha qabarıq şəkildə özünü göstərməyə başladı. Digər mədəniyyətlərdə olan ən qiymətli dəyərləri əks edən Azərbaycan ədəbiyyatı eyni zamanda Yaxın Şərq və Qərbi Avropa ölkələrinin bədii ictimai-siyasi fikrini yeni ideyalarla, etik, sosial konsepsiyalarla zənginləşdirmişdi. Ərəb xilafətinin süqutundan sonra başlanan Azərbaycan intibahı öz humanist ideyaları ilə klassik Avropa İntibahını qabaqlamışdır. Əsasını keçmiş, antik dövrün dəyərlərinə qayıdış təşkil edən Avropa Renessansından fərqli olaraq Şərq, o cümlədən Azərbaycan Renessansının mahiyyətində məhz humanizm, bəşərilik dururdu.

Azərbaycan mütəfəkkirlərinin yaradıcılığında müxtəlif xalqların sosial, mənəvi həyatı geniş ifadə olunmuşdur. Öz əsərlərində digər xalqların, o cümlədən qədim yunanların fəlsəfi fikrinə istinad edən Nizami Aristotel, Sokrat, Platon, İsgəndər kimi antik filosofların canlı obrazını yaratmış, xalqların və insanların bərabərliyi ideyasını tərənnüm etmişdir. Orta əsr Azərbaycan bədii-ictimai fikrinin görkəmli nümayəndələri Nəsimi və Füzulinin fəlsəfi poeziyası bütün Şərqdə yeni oyanışa və dirçəlişə səbəb olmuşdu. Onların yaradıcılığında bir çox xalqlara xas olan fəlsəfi ideyalar öz əksini tapmışdır. Sonrakı dövrlərdə də Azərbaycan mədəniyyətində, ədəbiyyatında beynəlmiləlçilik, humanist ənənələri daha da inkişaf edir, xəlqilik, realizm, dünyəvilik kimi yeni mənəvi-etik keyfiyyətlər geniş vüsət alırdı.

XIX əsrin əvvəllərində Azərbaycan torpaqlarının Rusiya ilə İran arasında bölüşdürülməsi xalqımızın siyasi və mənəvi birliyinin pozulması ilə nəticələnsədə, xüsusən Şimalda mədəniyyətdə, ictimai fikirdə mütərəqqi dəyişikliklərə də səbəb oldu, milli kimliyimizin müəyyənləşməsinə imkan yaratdı. M.Ə.Rəsulzadə qeyd edirdi ki, rus istilasının xeyri bu oldu ki, azərbaycanlılar özlərini ictimai bir vücud, xüsusi mədəniyyət toxumlarını daşıyan bir cəmiyyət, yəni ruslardan ayrı bir millət olduqlarını hiss etməyə başladılar.

XIX əsrin ortalarından başlayaraq Azərbaycan mədəniyyəti və ictimai fikri Avropa və Rusiyanın mütərəqqi demokratik mədəniyyəti, ictimai fikri, ədəbiyyatı ilə intensiv əlaqələrə girərək məzmunca daha da zənginləşməyə başladı. M.F.Axundovla başlayan milli oyanış və yeniləşmə hərəkatı H.B.Zərdabi tərəfindən yeni şəraitə uyğun inkişaf etdirilirdi.

Azərbaycanın (bütövlükdə, Şərq xalqlarının) sosial-iqtisadi, mədəni geriliyinin əsas səbəbini elm və mədəniyyətin, dünyəvi təhsilin ləng inkişafında, despotizm və dini fanatizmdə görən Zərdabi ictimai fikir tarixində ilk dəfə olaraq "Məhrib-zəmin" dediyi Avropa ilə "Məşriq-zəmin" dediyi Şərqin ictimai inkişafa, insan azadlığına münasibətdə fərqliliklərini ictimai müzakirəyə çıxardı. Bu müzakirələr fərdin azadlığının cəmiyyətin azadlığı ilə tamamlanması, milli hüquqların ümmət coğrafiyasından çıxıb milli hüdudlarla tamamlanması ideyasını ortaya qoydu. Şərq mənəviyyatına, əxlaqına Qərb ağlını, Qərb elmini calaq edib müasir insan yetişdirməyi təklif edən, fəaliyyəti ilə Şərqlə Qərbin sintezinə can atan bu böyük mütəfəkkirin sayəsində Azərbaycanda islam ümmətçiliyindən islam millətçiliyinə, daha sonra isə türk millətçiliyinə keçid baş verdi. Axundov və Zərdabinin ardınca bir sıra görkəmli maarifçilər (M.Şahtaxtinski, S.Mehmandarov, Ə.Ağayev, T.Bayraməlibəyov) müsəlman xalqlarının geriliyini cahillikdə, mövhumatda, savadsızlıqda görür, mütərəqqi Avropa maarif və mədəniyyətinə qovuşmağı təbliğ edirdilər. Bütün bunların nəticəsində Azərbaycanda elmi və fəlsəfi fikir xeyli inkişaf etmiş və qonşu ölkələrin mənəvi mədəniyyətinin yüksəlişinə böyük təsir göstərmişdir. Müsəlman sxolastikasından azad olaraq, əslində yeni Avropa elminə qovuşmuş, maarifçi inkişaf yolunu seçmiş Şimali Azərbaycanın ictimai-mədəni fikrinin təsiri altında Cənubi Azərbaycanda əsas ideyası cahilliklə, geriliklə mübarizə, Qərb mədəniyyətinin, maarifinin öyrənilməsi, şəxsi və ictimai bərabərlik olan maarifçilik, milli hərəkat cücərməyə başlamışdı. Sonralar Ə.B.Hüseynzadə, Ə.Ağaoğlu, Ə.M.Topçubaşov, M.Ə.Rəsulzadə və başqa mütəfəkkirlərimizin zəngin ideyaları ilə yetkinləşmiş bu proses Azərbaycan Cümhuriyyətinin təşəkkül tapması ilə nəticələndi.

Maarifçilik ideologiyasının, Qərbi Avropa, rus maarifçi-demokratik, ədəbi, ictimai-siyasi, estetik fikrinin təsiri altında Azərbaycanda bədii nəsr sahəsində də əsaslı dönüş yaranmış, yeni tipli bədii nəsr

janrları-povest, roman, hekayələr meydana çıxırdı. Bu ənənələr XX əsrin əvvəllərində də inkişaf etdirilmiş, Azərbaycan mədəniyyətinin başqa xalqların mədəniyyətləri ilə qarşılıqlı faydalı əlaqələrinin yeni formaları meydana çıxmışdı.

Azərbaycan mədəniyyətinin beynəlmiləl xarakter alması, dünya mədəni proseslərinə qovuşması sayəsində milli mədəniyyətin və mənəvi həyatın yeni formaları-mətbuat, teatr, professional musiqi və rəsm sənəti təşəkkül tapdı. Ənənəvi mədəniyyət sahələrində–ədəbiyyatda, memarlıqda, təsviri incəsənətdə yeni bədii inkişaf konsepsiyaları və janr müxtəlifliyi yaranır, milli bədii mərkəzlər, mədəni müəssisələr, təşəkkül tapır, yaradıcı ziyalı kadrları yetişirdi. Milli mədəniyyətin bütün sahələrində realist prinsiplərin bərqərar olması mədəni inkişafda ən mühüm göstəricilərdən biri hesab edilməlidir. Bu dövrdə Azərbaycan mədəniyyətində təzahür edən proseslər sonrakı dövrlərdə daha da inkişaf edərək xalqın ümumi inkişafına öz təsirini göstərmişdi. Qısa zaman kəsiyində yaradılmış yüksək mədəni dəyərlər və sərvətlər nəinki Azərbaycanın, bütövlükdə dünyanın qızıl fonduna daxil olmuş, mədəniyyətin əksər sahələrində azərbaycanlılar Şərqin müsəlman xalqlarını bir neçə illiyə qabaqlamışdılar.

Milli özünüdərkin, milli şüurun müəyyənləşməsi Azərbaycanda modernləşmə, müasirləşmə prosesi ilə müşayiət olunurdu ki, bu da müəyyən mənada Qərb sivilizasiyasının mənimsənilməsi, o dövrün dili ilə desək, “avropalaşma” kimi başa düşülürdü. Şərqin və Qərbin qovşağında yerləşən Azərbaycan rasional və mənəvi dəyərlərin nisbəti baxımından da bu iki müxtəlif dəyərlər sisteminin birgə mənimsənilməsi sahəsində aparıcı mövqe tutmuşdu.

Rusiya vasitəsilə qabaqcıl Avropa ictimai-siyasi fikrinin elmi-mədəni nailiyyətlərinin, maarifçilik ideyalarının Azərbaycana keçməsi bu prosesin inkişafı üçün münbit şərait yaratmışdı. Modernləşmə və avropalaşma prosesinin ən məntiqi yekunu isə Azərbaycan Xalq Cümhuriyyətinin yaranması oldu. O vaxta qədər bütün Şərqdə mövcud olmuş despotik dövlətlərdən fərqli olaraq, AXC çağdaş Avropa siyasi, mədəni dəyərlərinə tam cavab verən, öz demokratik prinsiplərinə görə hətta bir çox Avropa dövlətlərini qabaqlayan mütərəqqi siyasi sistemə malik idi.

Mürəkkəb hadisələrlə dolu olan sovet dövründə Azərbaycan iqtisadiyyat və mədəniyyətin yeni yüksəliş mərhələsinə qədəm qoymuşdu. Xüsusən 1970-85-ci illər Azərbaycanın quruculuq salnaməsinə ən parlaq səhifələr kimi daxil olmuşdu.

Bu gün tam əminliklə demək olar ki, Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi, sistemli şəkildə artan xarici iqtisadi əlaqələri, dünya iqtisadiyyatına get-gedə daha dərindən inteqrasiya olunması hələ 1970-1985-ci illərdə təməli qoyulmuş xalq təsərrüfatı potensialına əsaslanır. Bu illərdə Azərbaycanda çox zəngin iqtisadi və intellektual potensial yaradılmışdı.

Azərbaycanda sənətin balet, heykəltaraşlıq, kinematoqrafiya kimi yeni növləri yaradılmışdı. Xalqımız dünya mədəniyyətinə, elminə, ədəbiyyatına bir çox dühalar bəxş etmişdir.

Azərbaycan xalqının mənəvi irsinin qısa təhlili göstərir ki, onun milli mədəniyyəti təcrid olunmuş şəkildə inkişaf etməmişdir. O, təkcə xalq yaradıcılığının zəngin təcrübəsindən, milli ənənələrdən deyil, dünya mədəniyyətinin ən yaxşı incilərindən mənəvi qida alaraq zənginləşmiş və buna görə də dünya mədəniyyət xəzinəsinə layiqli töhfələr vermişdir. Başqa xalqların mədəniyyəti ilə qarşılıqlı əlaqələr milli mədəni mədəniyyətimizin beynəlmiləl mahiyyətinin daha da artmasına təkan vermişdir.

Ulu Öndər Heydər Əliyev xalqımızın keçdiyi yola nəzər salaraq qeyd edirdi ki, biz nadir bir irsin varisləriyik. Hər bir Azərbaycan vətəndaşı bu irsə layiq olmağa çalışaraq böyük bir tarixi keçmişi, zəngin mədəniyyəti, yüksək mənəviyyatı olan ölkəmizin həm dünəninə, həm bu gününə, həm də gələcəyinə dərin bir məsuliyyət hissi ilə yanaşmalıdır.

Heydər Əliyev mədəniyyətlərin dialoqunda Azərbaycanın tutduğu yerin unikallığına diqqəti cəlb edərək, ölkəmizin çoxmillətliliyini onun zənginliyinin və özünəməxsusluğunun xüsusi əlaməti hesab edirdi. O hər yerdə Azərbaycanda tarixən təşəkkül tapmış milli, mədəni və dini tolerantlığı dünya birliyi üçün mühüm nümunə kimi göstərir və iftixarla qeyd edirdi ki, Azərbaycan çoxmillətli dövlətdir. Onun bütün vətəndaşları milli mənsubiyyətindən, dini etiqadından və siyasi əqidəsindən asılı olmayaraq bərabər hüquqlara malikdirlər.

Heydər Əliyev Azərbaycanda mövcud olan milli-mədəni tolerantlıq ənənəsinin eyni zamanda bəşəriyyətin inkişafı üçün örnək ola biləcəyinə daxili inamını belə ifadə edirdi: “Dövlət, ölkə nə qədər çox xalqı birləşdirirsə, bir o qədər zəngin olur, çünki onların hər biri ümumdünya mədəniyyətinə və sivilizasiyasına öz töhfəsini verir”.

Multikulturalizm harmonik inkişafın əsas şərtidir. Təbii ki, bu zaman əsas tələblərdən biri milli-mədəni identikliyi itirmədən dünyanın vahid mədəniyyət normalarına (universal dəyərlərə) uyuşmaq olmalıdır.

Çoxmillətliliyi ölkəmizin sərvəti və milli dəyəri kimi qiymətləndirən Heydər Əliyev bütün dünyanı Azərbaycanın bu özəlliyinə diqqət yetirməsinə çağırırdı: “Azərbaycan həmişə çoxmillətli bir ölkə olubdur,

bu gün də çoxmillətli ölkədir. Biz bunu ölkəmizin üstünlüyü hesab edirik. Biz Azərbaycanı heç vaxt təkmillətli bir dövlətə çevirmək fikrində olmamışıq".

Azərbaycanı bu ölkədə yaşayan bütün millətlərin doğma vətəni hesab edən dahi rəhbər Azərbaycan xalqı deyəndə həm də Azərbaycanda yaşayan bütün millətlərin birliyinin dərk edilməsini qeyd edirdi. Ona görə də Azərbaycanın bu xüsusiyyətini–çoxmillətli, çoxdilli ölkə kimi xüsusiyyətini qoruyub saxlamağı hamının borcu və vəzifəsi hesab edirdi.

Azərbaycanın mədəni dünyaya inteqrasiyasından danışarkən Heydər Əliyev ölkəmizin özünə məxsus geosiyasi şəraitinə diqqət yetirərək, siyasi və mədəni münasibətlərdə bu amilin yüksək önəm daşıdığına işarə edirdi.

Azərbaycanı Avropanın Şərqində yerləşən, Avropa ilə Asiyanın qovuşduğu ölkə kimi səciyyələndirən H.Əliyev ölkəmizin özündə həm Avropanın, həm də Şərqin dəyərlərini topladığını, Avropa dəyərlərindən bəhrələnərək böyük inkişaf yolu keçdiyini, böyük elmə, mədəniyyətə, təhsilə malik olduğunu söyləyirdi.

Müxtəlif dövrlərdə, xüsusən Xalq Cümhuriyyəti dövründə Azərbaycan ərazisində yaşayan digər etnik xalqlar və dini qrupların nümayəndələrinin təmsilçiliyini özündə cəmləyən birgə yaşayış təcrübəsi XX əsrin sonlarında Ümummilli lider Heydər Əliyev tərəfindən "Azərbaycançılıq" ideologiyası şəklində formulə edilmiş, tolerantlıq və multikulturalizm ənənələri bərpa edilmişdir. Azərbaycan multikulturalizminin siyasi əsasları Azərbaycan Respublikasının Konstitusiyasının bəndlərində, qanunvericilik aktlarında, fərman və sərən-camlarında öz əksini tapmışdır. Azərbaycan Respublikasında bu gün həmin mədəni, linqvistik, etnik rəngarəngliyin qorunmasına yönəldilən və uğurla həyata keçirilən dövlət siyasəti multikulturalizm sahəsində əsrlərdən bəri toplanmış böyük tarixi təcrübənin zənginləşdirilməsini, cəmiyyətdə bu istiqamətdə qazanılmış unikal nailiyyətlərin beynəlxalq aləmdə təbliğinin gücləndirilməsini zəruri edir.

Heydər Əliyevin rəhbərliyi dövründə Azərbaycan xalqının multikultural ənənələrinin qorunması sahəsində həyata keçirilən siyasi xətt hazırda Prezident İlham Əliyev tərəfindən inamla davam və inkişaf etdirilir.

Azərbaycançılıq məfkurəsinə uyğun olaraq tolerantlığın və mədəni, dini, linqvistik müxtəlifliyin qorunmasını təmin etmək, habelə Azərbaycanı dünyada multikulturalizm mərkəzi kimi tanıtmaq və mövcud multikultural modelləri tədqiq və təşviq etmək məqsədilə Azərbaycan Respublikasının Prezidentinin 28 fevral 2014-cü il tarixli sərəncamı ilə Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşavirliyi təsis edilmiş, 15 may 2014-cü il tarixli sərəncamı ilə isə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi yaradılmışdır. Azərbaycan Respublikası Prezidentinin 11 yanvar 2016-cı il tarixli Sərəncamı ilə 2016-cı il "Multikulturalizm ili" elan edilmişdir.

Sərəncamda da Azərbaycanda tarixən multikultural dəyərlərin mövcud olmasına, ölkəmizin geosiyasi özəlliklərinə diqqət cəlb edilir və göstərilir ki, Tarixi İpək yolunda yerləşən Azərbaycan müxtəlif sivilizasiyaların qovuşduğu məkan olaraq, əsrlər boyu milli-mədəni rəngarənglik mühitinin formalaşdığı, ayrı-ayrı millətlərin və konfessiyaların nümayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma və dialoq şəraitində yaşadığı diyar kimi tanınmışdır. Ölkəmizdə multikulturalizm artıq alternativi olmayan həyat tərzinə çevrilmişdir.

Daha sonra, 2016-cı il mart ayının 11-də Azərbaycan Respublikası Prezidentinin növbəti sərəncamı ilə "Multikulturalizm ili elan edilməsinə dair Tədbirlər Planı" təsdiqlənmişdir. Bu mühüm dövlət sənədi Azərbaycan hökumətinin sözügedən sahədə prioritet vəzifələrini müəyyənləşdirir.

Əslində multikultural sferada "Tədbirlər Planı" kimi təfərrüatlı bir proqramın qəbulu, ölkəmizdə bu məsələyə verilən önəmi vurğulamaqla yanaşı, dövlətin humanitar siyasətinin institusional cəhətdən təkmilləşməsini göstərir və bu siyasəti keyfiyyətcə yeni mərhələyə çıxarır.

Azərbaycanda tolerantlıq mühiti hər zaman ən yüksək səviyyədə olduğu üçün burada multikulturalizm, millətlər və dinlər arasında olan münasibətlərə, dialoqa həsr edilmiş beynəlxalq səviyyəli bir çox tədbirlər, elmi konfranslar keçirilir. 2011-ci ildən başlayaraq, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şəxsi təşəbbüsü ilə hər iki ildən bir Bakıda Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu keçirilir. Azərbaycanın dünyaya təqdim etdiyi multikultu-ralizm modeli mütərəqqi bəşəriyyət tərəfindən rəğbətlə qarşılanır və nümunə kimi tətbiq edilməkdədir. Bu model tarixi köklərə bağlı olduğu üçün daha dayanıqlıdır.

Bu gün multikulturalizmin alternativi yoxdur və mənəvi dəyərlər baxımından ölkəmizin bu sahədə liderə çevrilməsi və dünya xalqları üçün əvəzsiz nümunə kimi qəbul olunması qürurvericidir.

Multikulturalizmi Azərbaycan Respublikasının dövlət siyasəti, xalqımızın həyat tərzi kimi dəyərləndirən Prezident İlham Əliyev bu siyasətin həyata keçirilməsində BMT, ATƏT, Avropa Şurası, Avropa İttifaqı, İslam Əməkdaşlıq Təşkilatı və digər nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlığa xüsusi önəm verir.

O, daima ölkəmizin bu təşkilatlar tərəfindən qəbul edilən milli azlıqların hüquq və azadlıqlarının müdafiəsi ilə bağlı konvensiyalara qoşulmasının vacibliyini qeyd edir. Məhz bu siyasi xəttin nəticəsi kimi Azərbaycan Prezidentinin göstərişi ilə ölkəmizin 26 noyabr 2009-cu il tarixli qanunla "Mədəni özünüifadə formalarının müxtəlifliyinin qorunması və təşviqinə dair" UNESCO Konvensiyasına qoşulmasını göstərmək olar.

Prezident İlham Əliyev multikulturalizm sahəsində dövlət siyasətini həm məzmun, həm də keyfiyyət etibarı ilə yeni səviyyəyə çıxarmışdır. Əminliklə söyləmək mümkündür ki, İlham Əliyev sadəcə Heydər Əliyevin strateji prinsiplərinin varisliyini təmin etməmiş, eyni zamanda bu prinsiplərə yaradıcı şəkildə, novatorcasına yanaşaraq, onlara yeni, siyasi zamanın ölkəmiz qarşısında qoyduğu məqsəd və vəzifələrə uyğun olaraq yeni məzmun vermişdir.

Dövlətimizin həyat fəaliyyətinin bütün sahələrində olduğu kimi, mədəniyyətlərarası münasibətlər və etnokonfessional sferada siyasət də misilsiz uğurlara imza atmışdır.

Dünyada yetərincə mürəkkəb siyasi proseslərin cərəyan etdiyi, iqtisadi böhran və depressiyaların geniş miqyas kəsb etdiyi, hərbi qarşıdurmaların, sosial və geosiyasi münaqişələrin təhlükəli həddə çatdığı bir zamanda Azərbaycan nəinki qlobal təhdidlərə müvəffəqiyyətlə sinə gərmiş, həmçinin bir çox inkişaf etmiş ölkələr üçün belə örnək sayıla biləcək öz unikal modelini əməli müstəviyə çıxarmışdır. 04 oktyabr 2012-ci ildə İkinci Bakı Beynəlxalq Humanitar Forumun açılış mərasimindəki nitqində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qeyd etmişdir ki, nisbətən yeni anlayış olmasına baxmayaraq, multikulturalizm əsrlər boyu xalqımıza xas olan bir anlayışdır. Əsrlər boyu müxtəlif dinlərin, millətlərin nümayəndələri Azərbaycanda bir ailə kimi yaşamışlar. Azərbaycanda heç vaxt dini, yaxud da ki, milli zəmində qarşıdurma, anlaşılmazlıq olmamışdır və əminəm ki, olmayacaqdır.

Multikulturalizmlə bağlı son illər ərzində dünyada müxtəlif fikirlər vardır. Bəziləri hesab edir ki, multikulturalizm iflasa uğrayıbdır, onun gələcəyi yoxdur. Biz isə hesab edirik ki, onun bu günü və gələcəyi vardır. Hamımız çalışmalıyıq ki, multikulturalizm meyllərini gücləndirmək üçün öz səylərimizi ortaya qoyaq.

Dövlətimizin başçısının 2014-cü ilin oktyabrın 2-də IV Bakı Beynəlxalq Humanitar Forumunda dediyi kimi "multikulturalizmin müasir dünyada alternativi yoxdur. Çünki dünya ölkələrinin mütləq əksəriyyəti çoxmillətli ölkələrdir. Əgər multikulturalizm iflasa uğrayıbsa, onda bunun alternativi nə ola bilər? Bu da çox aydındır. Bu, ayrıseçkilikdir, irqçilikdir, ksenofobiyadır, islamofobiyadır, antisemitizmdir".

Prezident İlham Əliyevin multikulturalizmə, tolerantlığa verdiyi siyasi dəyərin dünya miqyasında real elmi, mədəni, sosial müstəvilərə köçürülməsi işində Heydər Əliyev Fondunun böyük xidmətləri danılmazdır.

Bu gün Azərbaycanda multikultural ənənələrinin qorunub saxlanması, təbliği ilə bağlı Heydər Əliyev Fondu olduqca əhəmiyyətli, möhtəşəm layihələr həyata keçirir. Bu layihələr Azərbaycan multikulturalizminin bir ölkə çərçivəsində qapalı inkişafını deyil, dünya çərçivəsində dinlərin və mədəniyyətlərin müxtəliflikləri rejimində fəaliyyət göstərməsini reallaşdırır. Fondun düşünülmüş, sistemli fəaliyyətində multikulturalizmin mühüm aspektlərindən biri olan mədəniyyətlərarası əlaqələrin möhkəmlənməsi istiqaməti xüsusi yer tutur. Fondun prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın təşəbbüsü ilə keçirilən "Mədəniyyətlərarası dialoqda qadınların rolunun genişləndirilməsi", "Qloballaşma şəraitində mədəniyyətlərin rolu", "Çoxmədəniyyətli dünyada sülh şəraitində birgə yaşama", "Azərbaycan-tolerantlıq məkanı" layihələrini xüsusi qeyd etmək olar.

Faktiki olaraq İlham Əliyevin rəhbərliyi dövründə Azərbaycan daxilində formalaşmış multikultural model artıq qlobal səviyyəyə çıxarılmaqla, geniş beynəlxalq tanınma və etirafa nail olmuşdur. Son illərdə Azərbaycanın mədəniyyətlərarası və dinlərarası dialoq mövzusuna həsr olunmuş müxtəlif mötəbər beynəlxalq forumlara ev sahibliyi etməsi bunun bariz nümunəsidir.

**ƏDƏBİYYAT**


1. Əliyev H. Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında, Yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciət, Azərbaycan qəz., 2000-ci il, 30 dekabr.
2. Əliyev H. Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında, Yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciət Azərbaycan qəz., 2000-ci il, 30 dekabr.
3. Əliyev H. Müstəqillik yolu, Baki,: Azərbaycan Universiteti, 1997, s.15.
4. Əliyev H. Müstəqilliyimiz əbədidir, çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar. XI kitab, Bakı, Azərnəşr, 2003, s.69.
5. Əliyev H. Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında,Yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciət, Azərbaycan qəz., 2000-ci il, 30 dekabr.
6. İham Əliyev. IV Bakı Beynəlxalq Humanitar Forumunun açılış mərasimində çıxışı, 2 oktyabr 2014-cü il, Azərbaycan qəzeti, 2 3 oktyabr 2014-cü il.
7. Cəfərov N. Azərbaycanlılar, etnokulturoloji birliyin siyasi-ideoloji üfüqləri, B.: XXI–Yeni nəşrlər evi, 2001, s.85.

8. Rəsulzadə M.Ə. Əsrimizin Siyavuşu, Bakı, Azərnəşr, 1991, s. 34.
9. 2016-cı ilin Azərbaycan Respublikasında Multikulturalizm ili elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 11 yanvar 2016-cı il.
10. Kamal Abdullayev, Ulu öndər Azərbaycanda multikulturalizmin siyasi banisidir/, Azərbaycan qəzeti, 23 iyul 2014-cü il.

**ABSTRACT**

**Ilgar Kengerli**
**Abdulla Mustafayev**

**Geopolitical, historical and spiritual foundations of multiculturalism in Azerbaijan**

The article examines the geopolitical, historical, cultural and spiritual foundations of multiculturalism in Azerbaijan. It illuminates the historical experience of interaction peoples, religions and cultures on the territory of Azerbaijan. In this context, we considered the policy of multiculturalism, which is carried out in Azerbaijan in modern period. It is noted that multiculturalism in our country stable and consistent political course of Azerbaijan state, based on the national and spiritual, universal, humanistic values.

From time immemorial, in Azerbaijan, located at the crossroads of East and West, different civilizations, formed the historical traditions of multiculturalism and tolerance. In different periods of the history of our country has become home to the representatives of different nations, cultures and religions.

Peaceful coexistence of people belonging to different religions, multi-confessional, ethnic and cultural diversity are priority features of the Azerbaijani model of multiculturalism. Our country for centuries is at the crossroads of many different civilizations and cultures, it plays the role of a bridge between Asia and Europe, which contributed to the emergence of the diversity of cultures here. Historically living here together peoples, communities feel freely and safely, as always faced with a tolerant attitude to yourself, live, live without any constraint and maintain their culture. Representatives of other nations in our country speak their native language, their religious cults, preserve national customs and traditions, without interfering with any discrimination, are operating in various fields and contribute to the overall development process.

This clearly demonstrates that Azerbaijan is one of the main spaces of multiculturalism.

**РЕЗЮМЕ**

**Ильгар Кенгерли**
**Абдулла Мустафаев**

**Геополитические, историко-духовные основы мультикультурализма в Азербайджане**

В статье рассматриваются геополитические, исторические, культурно-духовные основы мультикультурализма в Азербайджане. Освещается исторический опыт взаимодействия и взаимообщения народов, религий и культур на территории Азербайджана. В этом контексте рассматривается политика мультикультурализма, которая осуществляется в Азербайджане в современный период. Отмечается, что мультикультурализм в нашей стране устойчивый и последовательный политический курс Азербайджанского государства, опирающийся на национально-духовные, общечеловеческие, гуманистические ценности. Испокон веков в Азербайджане, находящемся на стыке Запада и Востока, различных цивилизаций, формировались исторические традиции мультикультурализма и толерантности. В различные периоды истории наша страна становилась родиной для представителей разных народов, культур и конфессий.

Мирное сосуществование людей, принадлежащих к различным религиям, многоконфессиональность, этническое и культурное разнообразие являются приоритетными особенностями азербайджанской модели мультикультурализма. Наша страна на протяжении веков находится на стыке множества различных цивилизаций и культур, играет роль моста между Азией и Европой, что способствовало появлению здесь разнообразия культур. Исторически совместно проживавшие здесь народы, общины чувствовали себя свободно и благополучно, так как всегда сталкивались с толерантным отношением к себе, жили, живут без всякой стесненности и сохраняют свои культуры.

Сегодня представители других народов в нашей стране говорят на родных языках, отправляют свои религиозные культы, сохраняют национальные обычаи и традиции, не сталкиваясь ни с какой дискриминацией, осуществляют деятельность в различных сферах и вносят вклад в общий процесс развития. Это наглядно свидетельствует о том, что Азербайджан является одним из основных пространств мультикультурализма.

NDU-nun Elmi Şurasının 30 mart 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 07).

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2017, № 2 (83)**

NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2017, № 2 (83)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2017, № 2 (83)**

**QƏHRƏMAN BEHBUDOV**
Naxçıvan Dövlət Universiteti

**UOT:141**

# İMADƏDDİN NƏSİMİ AZAD İNSAN HAQQINDA

***Açar sözlər:*** *Hürufilik İ.Nəsimi , kamil insan, insan azadlığı, bərabərhüquqlu, qadın azadlığı, siyasi- hüquqi, xoşbəxtliyi uğrunda, mübarizə, mütəfəkkir, ideyasına görə*

***Key words:*** *Hurufism, I.Nasimi , perfect man, freedom of human, equal in rights, freedom of woman, political-legal, for its happiness, struggle, thinker, for its idea*

***Ключевые слова:*** *Хуруфизм, И.Насими, совершенный человек, свобода человека, равноправие, свобода женщин, политический и правовой, борьба за счастье, мыслитель, по идее*

İ. Nəsimi XIV əsrin sonu XV əsrin əvvəllərində Azərbaycanda siyasi, fəlsəfi fikrin formalaşması və inkişafında mühüm rol oynamışdır. O, ilk təhsilini Şamaxıda almış, ərəb və fars dillərini öyrənmiş, gəncliyində riyaziyyat, astronomiya, məntiq, fəlsəfə, coğrafiya elmlərinidə mənimsəmişdir. Bir sözlə ensiklopedik biliyə malik olmuşdur. (1;80)

Mütəfəkkirlərin yaradıcılığının erkən dövrü sufilik təriqəti ilə bağlı olmuşdur. Bu heç də təsadüfi xarakter daşımamışdır. Əgər sufilik əsasən məhəbbətə üstünlük verirdisə, hürufilikdə insan ağlı və zəkası ön planda dururdu. Ona görə də sufi- hürufi cütlüyü Nəsimi yaradıcılığında məslək və əqidə biliyi, dünya görüşü və müştərək baxışlar kimi formalaşmışdır. Bu məslək və əqidə birliyi hələ Nəsimidən əvvəlki dövrdə sufiliyin yayıldığı yerlərdə feodal ideologiyasına qarşı mübariz bir cərəyana çevirilmişdir. Fəzlullah Nəiminin təsiri altında hürufiliyi qəbul etmiş Nəsiminin dünya görüşündə daha irəliləyişlər baş vermiş, onun əsərləri siyasi – fəlsəfi və qismən də hüquqi məzmun kəsb etməyə başlamışdır. Beləliklə, mütəfəkkin əsərlərinin ruhuna sosial ədalət, humanizm, azadlıq və bərabərlik kimi ideyalar hakim kəsilmişdir. (2; 13)

Nəsiminin yaradıcılığa başladığı dövrdə hürufilik artıq geniş yayılmış bir idelogiya idi. O, demek olar ki, Yaxın və Orta Şərqin əksər ölkələrini bürümüşdü və elə bir zirvədə idi ki, öz ardıcıllarının sosial – siyasi görüşlərinin mərkəz xəttini təşkil edirdi. Hürufilik Nəsimi yaradıcılığında həyat fəlsəfəsi və həqiqətləri, insanın kamilləşməsi və dünyanı dərketmə uğrunda ideoloji üsullar qismində çıxış edirdi. Nəsiminin ideyasına görə, insan istədiyi və layiq olduğu zirvəyə öz idrakı, möhkəm iradəsi, əqli və zəkası ilə qala bilər. Bu baxımdan onun “Sığmazam” əsəri, klassik şerimizin ən nadir incilərindən biri kimi, insan qüdrətini, onun hər şeyin mənbəyi olduğunu tərənnüm edən böyük abidədir:

Məndə sığar iki cahan, mən bu cahana siğmazam,
Gövhəri – laməkan mənəm, kövnü məkama siğmazam. (3;13)

Feodal dövlət qurucusunu və şah üsul idarəsini tənqid edən mütəfəkkirin fikirincə bütün hökmdar cahildirlər, onların ehtirası şəriət, zinət və şöhrət dalınca qaçmala təmin olunur.

O xalqın vəziyyətinin yüngülləşdirilməsinə, ədalətin və qayda qanunun yaradılmasına, ictimai zülmün aradan qaldırılmasına nail olmaq üçün, hərdən ümidlərini müdrik və ədalətli hökmdara bağlayırdı. Lakin Nəsimidə özündən əvvəlki bir sıra mütəfəkkirlər kimi hərdən ümüdlərini üzür, bədbinliyə və ümüdsüzlüyə qapılırdı. Çünki real həyatda görünüb əmin olurdu ki, şahlara müraciət etmək faydasızdır. Yaşadığı sosial mühitin çərçivəsinə sığa bilməyən, xalqın dözülməz vəziyyətinə layiq ola bilməyən və qeyri bərabərliyə qarşı barışmaz mövqelərdə dayanan mütəfəkkirlərin bütün əsərlərinə nikbin bir ruh hakimdir. O, dərindən əmin idi ki, insanın yaradıcı qüdrəti hər şeyi kökündən dəyişdirəcək və kamillik cahilliyə qalib gələcəkdir. Lakin buna asanlıqla nail olmaq qeyri – mümkündür. Ona görə də mütəfəkkir müasirlərdən dünyanın gerçəkliyinə açıq nəzərlərlə baxmağı, sərvət və şöhrət ardınca qaçmağı tövsiyə edirdi:

Bilsəniz, ah, nə qədər zülm edəcək bu dövran,
Axaçaq gözlərinizdən gecə - gündüz yerə qan.
Ayılıb bircə açıq gözlə baxın dünyayə,
Ömr əldən kedir, əmma sizi bənd etmiş cahan.
Dünyanı tutmaq ilə imkanı məhv eylədiniz,
Mənfəət axtararaq tapdınız axirdə ziyan. (3; 419)

Lakin buna baxmayaraq, Nəsimi dövlət quruluşunu zorakılıqla devirməyə, yaxud feodal ictimai münasibətlərini dəyişdirməyə çalışmırdı. Həmin məsələnin həllində o, öz müəllimi Fəzullah Nəimi ilə müqayisədə bir addım geriyə çəkilir. (5;74)

Nəsimi xalqın ağır vəziyyətini yüngülləşdirməyə, xalqı əzab - əziyyətlərdən xilas etməyə, sosial ədalətin və humanist qanunların təntənəsinə nail olmağa çalışırdı. Məhz bu nöqteyi- nəzərdən belə nəticəyə gəlmək olar ki, Nəsiminin siyasi idealı maarifçi monarx olmuşdur. Mütəfəkkirin təsəvvür etdiyi hökmdar, hər şeydən əvvəl, öz biliyi, ağlı, kamilliyi, humanistliyi, ədaləti, idarə etmək bacarığı, yüksək əxlaqi, iradə mətinliyi və insanlara qayğısı ilə fərqlənməlidir.

Olmaya, ey nəfsi -zalim, dünyaya aldanansan,
Şol səbəbdən düşəsən əndər cəhənnəm yanasan.
Qan töküb zülm eyləməkdir işlərin, ey nəfsi- şum,
Tanrıdan bir qorx axı, neçün bu qanə qanəsən. (3; 148)

Mütəfəkkirin bu səpkili şerlərində də mərkəzi yeri insan problemi tutur. O, insanı ən gözəl varlıq və ali sərvət hesab etməklə yanaşı, onu siyasi cəhətdən sərbəst görmək istəyini də gizlətmir. Məhz bu baxımdan Nəsimi insanı iradə zəyifliyinə, ümumiyyətlə, passivliyə sürükləyən dindarları, qatı mövhumatçıları pisləyirdi. Başlıca işləri riya və yalan, saxtakarlıq və ikiüzlülük, müəyyən dərəcədə isə həyat həqiqətləri qarşısında qorxaqlıq nümayiş etdirmək olan cəhalətpərəstləri, habelə islam dinini əlində bayraq edib günahsız insanların qanını axıdan, ölkə və şəhərləri viran qoyan, insan əli ilə yaradılanları məhv edən hökmdarları cəsarətlə ifşa etməkdən çəkinmirdi. Nəsimi dini-fanatizmin əsiri olanlara ürəkdən acıyır, ümidsizliyə qapılmış insanları hər şeydən əlini üzüb yalnız göylərdən nicat gözləməsinə ikrah hisslə baxırdı. Onun ideyasına görə, ən kamil şəxsiyyət öz məsləki uğrunda mübarizə meydanına atılan insandır.

Nəsimi həqiqətlərinin, habelə onun fikir və düşüncələrinin inkarı zəmanənin özünün, onun mənəviyyatının və qanunlarının faciəsi idi.Nəsimi həqiqətin böyük carçısı.sosial ədalətin canlı timsalı kimi öz ictimai mühitinin div pəncəli qara qüvvəliləri ilə üz-üzə dayanmışdı. Mütəfəkkirlərin həlakı da təlatümlü və məşəqqətli həyatı kimi bəşəri idealların yaşamasına xidmət etmişdir:

Həq mənə söylə dedi, əmr etdi, mən də söylədim,
Sözümü dastan edib aləmdə təkrar etdilər.
Ey Nəsimi, vasil oldun xaliqin rəhmətinə,
Cənnəti-əlayi buldun,yerəm gülzar etdilər. (3;231)

Həyatı dərk etdiyi gündən ömrünün sonunadək insanların azadlığı, bərabərliyi və xoşbəxtliyi uğrunda mübarizə aparmış Nəsimi zəmanəsinin hökmdarlarından insanı qorumağı tələb edirdi. Mütəfəkkirlərin ideyasına görə, insanın azadlıqlarını boğmaq, sərbəstliyini məhdudlaşdırmaq və ona zülm etmək dünyəvi qanunlardan kənara çıxmaq deməkdir. İnsanın səadətə qovuşmağa, rahat və təhlükəsiz yaşamağa haqqı vardır. Nəsimi insana əzab- əziyyət verilməsini ən böyük günah hesab edirdi.

Heç imiş zöhdü və və zərnü zahidin əfsanəsi,
Şol fəqihdən məniyi – Quran umarsan. Nə əcəb

Umma hər qəlbi zəcəldən aşiqin əsrarını.
Kafirin könlündə sən iman umarsan, nə əcəb! (3;149)

Hürufiliyin mütərəqqi ideyalarının feodal cəmiyyətində mövcud olan ictimai münasibətlərə və əxlaqa təsiri nəticəsində baş verən dəyişikliklər Nəsiminin sosial – siyasi görüşlərində yeni istiqamətlərdə təzahür etmişdir.İctimai həyatda insanlar arasındakı qarşılıqlı münasibətlərə yeni məzmun gətirən hürufilik ideologiyasına köhnəliklərin və patriaxal quruluşun qalıqlarının inkarı ilə çıxış edirdi. Köhnə adət- ənənələri ömrünü başa vurmuş mərasimləri müasiri olduğu dövrün həyat tərzi üçün məqbul hesab etməyən Nəsimi, keçmişin qalıqlarını cəmiyyətin tərəqqisinə mane olan hallar kimi qiymətləndirirdi. Keriliyin aradan qaldırılması, cəhalət pərdəsinin atılması və elmin inkişafı üçün bütün vasitələrdən istifadə edilməsini tövsiyə edirdi. (5;76)

Gerçəkliyini və cəhalətin aradan qaldırılması baxımından Nəsiminin orta əsrin Azərbaycan qadınına münasibəti də diqqəti cəlb etməyə bilməz. Axı, Nəsimi adı gələndə gözlərimiz qarşısında ilk növbədə gözəllik və məhəbbət şairi canlanır. Təbiətin bütün gözəlliyini, incəliyi və zəifliyi,paklığı, yüksək əxlaqi keyfiyyətləri, qeyrəti və kişi dəyanətini özündə birləşdirən Azərbaycan qadını Nəsimi qəzəllərinin baş qəhramanıdır. Qadını insan həyatının və bütövlükdə cəmiyyətin ən vacib varlığı hesab edən mütəfəkkir, onu ictimai həyatın azad, sərbəst və xöşbəxt fərdi kimi görmək istəmişdir.Həyatın gözəlliklərini və dəyərini qadınlarsız təsəvvür etməyən Nəsiminin orta əsr Azərbaycan qadınlarının kölə vəziyyəti və acınacaqlı həyatı dərindən düşündürmüş və narahat etmişdir. Həyatın gözəlliklərindən zövq almaqdan məhrum edilmiş feodalizm dövrünün Azərbaycan qadınları firavan və qayğısız həyata həsrət idilər. Onların öz qapalı həyatının dar pəncərəsindən dünyanın gözəlliklərinə gizli və qorxulu nəzərlərlə baxırdılar. Zəmanənin və cəmiyyətin qanunları istisnasız olaraq onların əleyhinə idi. Müsəlman Şərqində qadınların ictimai işlərdə dövlət işlərində çalışmasından nəinki söhbət gedə bilməz, hətta, düşünməyə belə dəyməzdi. Müsəlman mühitinin özü qadını ev dustağı edərək, onun əl- ayağını sanki zəncirləmişdir. Bu, orta əsr şəraitində, demək

olar ki, həyatı qanun şəklini almışdı. Qadının sosial dəyəri əsasən uşaqlarının yaxşı tərbiyəçi olması və ev işlərini görməyi bacarması ilə ölçülürdü. Hətta, savadsızlıq, qapalı həyat tərzi və ən adi hüquqlardan istifadədən təcrid olunma əxlaqının qiymətləndirilməsi kriteriyaları kimi çıxış edirdi. Lakin əksinə, Nəsimi yaradıcılığında qadın ictimai həyata və cəmiyyətə gözəllik verən qiymətli sərvət və qeyrət rəmzi kimi təsvir edilir. Qadın hüquqsuzluğu mütəfəkkirin əsərlərində birbaşa vurğulanmasa də, şeirlərin məzmununda aydın sürətdə görünür ki, o, Azərbaycan qadınlarını azad, xoşbəxt və cəmiyyətin tam hüquqlu üzvləri kimi görmək istəmişdir. Qadının sosial cəhətdən ağır vəziyyətdə olmasını mövhumatın ona qarşı sərt tələbləri ilə əlaqələndirən Nəsimi, qadında özəlliklə və zəifliklə yanaşı, mərdlik və mətanət, sərbəst iradə ifadəsi uğrunda cəsarət ruh tərbiyyə etməyə səy göstərmişdir. Mütəfəkkirlərin nəzərində qadın əsil yaradıcı , ülvi ideyalların daşıyıcı təsiri bağışlayır.(6;89)

Ümumiyyətlə, demək olar ki, insan və xüsusən kamil insan Nəsiminin fikrincə varlığı tam əks etdirir. Nəsimi insan haqqında danışarkən o, insan fərdini yox, insaniyyəti nəzərdə tutur. Bu iddiada insanın cinsiyyəti nə məfhum və mahiyyət daşımır. O, gözəl və harmanik sifətlərə və xislətlərə malik olan insandır.O real və insan bərabərliyi və ədalətliliyi ruhən mənimsəmişdir. O öz etiqadi mahiyyətinə zidd sayılan mövcud güc və hakimiyyət mərkəzinə qarşı hürufı – mədəni yürüş edir və onu süquta uğradıblar. Əslində kamil insan və hakimiyyət bir- birinə tanınmayan bir fenomendir. Onlar bir – birini mahiyyətcə qəbul etmir. Çünki güc və hakimiyyət insanlardan ayrı və süni yaradılmış və özünəməxsus bir hakimiyyət adında dəyərsiz bir varlıqdır. Həyatda mövcud olan eybərcərliklərin, üstünlüklərin, təhqir etmələrin, qadınların, zülmün və qeyri- insani rəftarların mənşəyi elə bu hakimiyyətlər növündən törənən bir hadisədir.

Kamil insan, gücün və hakimiyyətin tətbiqini yox, əksinə mütərəqqi üsul – idarə və insan hüquq və azadlıqlarına önəm verən bir təşkilatı olmalıdır. Kamil insan silah və silahlı mübarizə formasına meyilsizdir. O, inanıb ki , silah qeyri – kamil insan üçündür. Kamil insan silahsız bir silahdır. O, möhtəşəmdir, elçidir, zəfərli və sədaqətin özüdür. O, odsuz bir oddur. Ədalətdir, barışmazdır, möhtərəmdir. O, silah əlinə almaz, çünki bütün varlıq o özüdür. Deməli o, Kamildir. (7;183)

Kamil insan bütün sosial – siyasi problemlərin mənşəyini, insanın özündə və həmçinin bu problemlərin həlli yolunda elə insanın vücudunda arayır. İnsan özündə həm problem yaradandır və həmdə onu həll edəndir. Bununla təzyiq represiya və amansız iqtibdad yaratmaq, həlledici yol deyil. Bəlkə təfəkkür və düşüncənin, əməl meydanına və ictimai quruluşlara gəlməsi, məntiqi və ağıla sığandır. Cəmiyyətdə fikir və düşüncə sahiblərinin maddi-mənəvi qırğınlarından, həbslərdən, kütləvi qırğınlardan tarix boyunca heç nə nəticə hasil olmamışdır.

Nəsimi poeziyasında kamil insan ideyası, bəşəriyyət həyatında bir tarixi zərurət kimidir. Əlbəttə insanın həqqaniyyətin, bütün başqa dinlər və inanclarda da təsdiq olunur. Amma güc sahibləri tarix boyu öz yalançı istilası üçün minlərlə zəif və zəhmətkeş insanın qanı bahasına öz hakimiyyəti altında saxlamışlar. Onlar insanın haqqını və hüququnu öz hakimiyyəti altinda saxlamışlar. Onlar insanın haqqını və hüququnu öz istəkləri istiqamətində şərh etmiş və vahid insani təbəqələrə, siniflərə, qruplara bölmüşlər. Bütün insani hüquqlarını inkar etmiş və öz zəfərsiz zəfərlərinin xidmətində yönəlmişlər. Əlbəttə, kamil insan təfəkkürünün nailiyyəti üçün tarix bətnində çoxlu inqilablar və qanlı hərəkatlar yaranmış, minlərlə insan şəhid olmuş və qurbanlar verilmişdir ki, insanın və insaniyyəti haqqı və hüquqları sübuta yetirilsin və qəbul olunsun.

Ey könül, həqq səndədir, həqq səndədir
Söylə həqqi kim, ənəl həqq səndədir
Həqqi mütləq, zati mütləq səndədir
Müshefin hərfi mühəqqəq səndədir. (3;419)

Nəsimi hürufi şairidir və bir hürufi sənətkarı olaraq insana münasibəti və ümumiyyətlə insan konsepsiyası onun poetik – fəlsəfi aləmində başlıca məsələdir. İnsan obrazı Nəsimi yaradıcılığında, əgər belə demek mümkündürsə özünəməxsus statusa, xarakterə və səciyyəyə malikdir. O həm bəşəri, həm də ilahi keyfiyyətlərə malikdir. Ümumiyyətlə, bu Azərbaycan şairinin poetik dünyasında İnsanın obrazıları bütün orta əsrlər Qərb və Şərq ədəbiyyatındakı insan obrazlarından daha əzəmətli, ülvi, möhtəşəm və uca göstərilən bir vücuddur.

## ƏDƏBİYYAT


1. Eyvazov İ., Siyasi hüquqi təlimlər tarixi,Bakı, 2011, 351 s.
2. Quliyev A., Hürfiliyin siyasi- hüquqi ideologiyası, Bakı, 1998, 20 s.
3. Nəsimi İ., Seçilmiş əsərləri, Bakı, 1985, 582 s.
4. Məmmədov Ş., Dövlət və hüqiqi təlimlər, Naxçıvan 2013, 288 s.

5. Məlikova M., Bayramov E., Azərbaycanın siyasi –hüquqinəzəriyyələr tarixi, (oçerklər) Bakı 1984, 186 s.
6. Kuli-zade З. Хyrifizmi его представители в Азервайджане. Ваку, 1970.с 320.
7. История Азервайджанский философии II том «Елм» Вакы, 2008, 640 с


## ABSTARCT

**Q. Behbudov**

**Nasimi's activity**

The ideas of prominent member of Hurufism movement which appeared fourteenth century in Azerbaijan Imadaddin Nasimi about human rights reflected in the research work.

Ideas which were about human rights of I.Nasimi not only in Azerbaijan, also in the most states of Near and Middle East, the form and the development of history of philosophical, legal, social- political idea of Muslim nations played great role.

Thinker found the freedom of human for the moral maturation of society as an important factor, calls social environment which he lived as nest of any kind of persecution and disgrace.

The poet has fought for the freedom, equality, and happiness of people since understanding life till the end of his life, demanded the rulers of our time to protect people. I. Nasimi found people as the most beautiful creature and the bitter wealth, wanted to see it politically independent.

For the idea of the thinker, to drown the freedom of human, limit its independence and gripe it were a departure from the secular laws. For its idea, the most perfect man was people thrown to the battleground for its creed, found sufferings to the human as the biggest guilt.

In the poet's creativity the freedom of woman is showed, it seems from the direct highlight of the lawlessnes s of woman in the thinker's work, the content of the poems that he wanted to see the women of Azerbaijan free, happy and as a full-fledged member of society.

The most humanist ideas of Nasimi about perfect man didn't lose its relevance and vitality today.



## РЕЗЮМЕ

**Г. Бехбудов**

**Проблема свободного человека в творчестве Насими**

В научно-исследовательской работе отражаются мысли видного представителя движения Хуруфизм Имадеддина Насими о правах человека сформированные в Азербайджане в XIV веке.

Идеи И. Насими о правах человека сыграли важную роль в формировании и развитии истории философских, социально-политических и правовых учений мусульманских народов не только Азербайджана, но и многих стран Ближнего и Среднего Востока.

Мыслитель считает человеческую свободу важным фактором нравственного созревания общества, называет социальную среду где он живет гнездом позора и всех видов угнетений.

Поет, со дня осознания себя до конца жизни, боролся за свободу, равноправие и счастье людей, требовал от правителей своего времени защищать людей.

По идее мыслителя, подавление свободы человека, ограничение самостоятельности и угнетение человека это отход от светских законов. По его идее совершенная личность это тот кто борется за свои убеждения. Он считает мучение человека самым большим грехом.

В творчестве поэта уделяется место и женской свободе, бесправие женщин особенно акцентируется в его произведениях. Из содержания его стихов видно, что он хочет видеть Азербайджанских женщин свободными, счастливыми и равноправными членами общества.

Многие гуманистические идеи Насими о совершенном человеке не утратили свою актуальность и жизненность по сей день.


NDU-nun Elmi Şurasının 30 mart 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 07).

Məqaləni çapa təqdim etdi: Fəlsəfə üzrə elmlər doktoru, professor M.Rzayev

**RƏŞADƏT YAQUBLU**
*Naxçıvan Dövlət Universiteti*

**UOT:339**

# QLOBALLAŞMANIN SOSİAL-FƏLSƏFİ MAHİYYƏTİ

***Açar sözlər:*** *qloballaşma, antiqlobalizm, beynəlmiləlləşmə, millət-dövlət, trans-milli şirkətlər.*
***Ключевые слова:*** *глобализация, антиглобализм, нация-государства, транснациональны корпорации, международное*
***Key words:*** *globalization, antiglobalizm, internationalisation, the nation-state, trans-national companies*

Müasir dövr sosio-humanitar sahədə aparılan tədqiqatların mərkəzi mövzularından biri də qloballaşma prosesidir. Bu sahədə çoxsaylı tədqiqatlar aparılmasına rəğmən, qloballaşmanın mahiyyəti, genezisi, formaları, zaman çərçivələri haqqında hamı tərəfindən qəbul olunan konsepsiya hələki mövcud deyil. Belə vəziyyətin yaranması qloballaşma prosesinin ziddiyyətli xarakteri ilə əlaqələndirilə bilər.

Ümumiyyətlə, qloballaşma prosesinin qavranılması öz rəngarəngliyi ilə diqqəti çəkir və faktiki olaraq tədqiqatçıların müxtəlif "cəbhələrdə" yer tutmasını şərtləndirir: qloballaşmanın apologetləri və bu prosesi qəbul etməyənlər; onun bəşəriyyət üçün faydalı olduğunu iddia edənlər və bu prosesi bütövlükdə bəşəriyyət üçün təhlükə sayanlar; qloballaşmanın obyektiv-tarixi səciyyə daşıdığını söyləyənlər və subyektivistlər, yəni dünyanın müəyyən güc mərkəzləri tərəfindən qloballaşdırıldığını iddia edənlər; qloballaşmanın qədim tarixə malik olduğuna tərəfdar çıxanlar və bu prosesin XIX-XX əsrdən başladığı fikrini dəstəkləyənlər.

Qloballaşma prosesinə baxışlarda ifrat fikir müxtəlifliyi heç şübhəsiz ki, təkcə bu prosesin daxili, ona immanent xas olan ziddiyyəti ilə izah oluna bilməz. Burada tədqiqatçının dünyagörüşü, onun siyasi baxışları və maraqları da əhəmiyyətli rol oynayır. Burada ingilis filosofu F.Bekonun insanın ətraf gerçəklik haqqında obyektiv bilik əldə etməsinə mane olan "kabuslarını" xatırlatmaq məqsədəmüvafiqdir. Belə ki, yeni dövr emprizminin banisi olan ingilis filosofu F.Bekon obyektiv biliyin əldə edilməsinə dörd "kabusun"- nəsil, mağara, bazar və teatr-mane olması fikrini söyləyirdi.(1, s.24-28) Qloballaşma prosesinin qavranılmasındakı çətinlikləri məhz mağara kabusu ilə izah etmək olar. Bu kabusa görə gerçəkliyin dərk olunmasında meydana gələn səhvlər insanların təlim və tərbiyə prosesində qazandıqları müəyyən subyektiv simpatiya və maraqlardır. Deməli, bu sahədə aparılan tədqiqatlarda obyektiv dəyərləndirmələrin edilməsi tədqiqatçıdan öz şəxsi istək və ambisiyalarından maksimum dərəcədə kənarlaşmanı tələb edir.

Fikrimizcə qloballaşmanın sosial-fəlsəfi mahiyyətinin aydınlaşdırılması üçün aşağıda qoyulmuş suallar cavablandırılmalıdır: qloballaşma prosesinin obyektiv, yoxsa subyektiv səciyyə daşıması; bu prosesin genezisi və onun zaman çərçivələri;onun verdiyi imkanlar və törətdiyi çətinliklər.

İlk növbədə "qloballaşma" anlayışının genezisi və onun elmi dövriyyəyə kim tərəfindən gətirilməsinə diqqət yetirək. "Qloballaşma" anlayışı ingilis dilində "qlobe"- "yer kürəsi" sözündən götürülüb, onun sistemyaradıcı əlamətini və planetar səciyyəsini ehtiva edir. Bəzi tədqiqatçılar bu anlayışı ilk dəfə 1983-cü ildə amerikalı tədqiqatçı T.Levitin yazdığı "Bazarların qloballaşması" məqaləsində işlətdiyini iddia edirlər (2, s.13). Rus alimiV.L.İnozemtsevin fikrincə isə bu anlayış elmi dövriyyəyə amerikalı sosioloq C.Maklin tərəfindən daxil edilib (3, s.80). Tədqiqatçıların böyük əksəriyyəti isə bu anlayışın yaranmasını ingilis alimi R.Robertsonun adı ilə bağlayırlar: məhz o, 1983-cü ildə yazdığı "Qloballığı müzakirə edərkən" adlı məqaləsində bu termindən istifadə etmişdir.

"Qloballaşma" anlayışına verilmiş çoxsaylı, biri-digərindən fərqli təriflər mövcuddur. İlk növbədə bu problemə yanaşmada ifrat fikir pluralizminin səbəblərini araşdırmaq məqsədəmüvafiqdir. Formal məntiqi cəhətdən anlayışa tərif verilməsi o zaman çətin olur ki, həmin anlayış əlamət baxımından çox kasad olur. Yəni, belə anlayışlar son dərəcə ümumiləşdirilmiş anlayışlardır. Burada isə, yəni konkret "qloballaşma"anlayışına tərif verilməsində yaranan çətinlik onun çoxsaylı (çoxaspektli) əlamətlərə malik olmasıdır. İctimai həyatın bütün sahələrini əhatə edən qloballaşma prosesi hər sahədə özünəməxsus əlamətlərə malik olur.

Qloballaşmada verilmiş bir neçə tərifi nəzərdən keçirək. Rus tədqiqatçısı V.A.Derqaçova görə: "Qloballaşma- müasir beynəlxalq münasibətlərdə obyektiv proses olub, beynəlmiləlləşmənin ali mərhələsi, yaxud dünya bazarında milli təsərrüfatların qarşılıqlı təsiridir (4, s.9). Tərifdə iki cəhətə diqqət yetirək. Birincisi odur ki, burada "beynəlmiləlləşmə" termininin özünün tərifə ehtiyacı var. Düzdür, müəllif istinad göstərilmiş mənbədə ayrı yerdə bu anlayışı aydınlaşdırıb, lakin ümumilikdə götürüldükdə burada anlayışa

tərif verilməsinin üçüncü qaydası-"tərif aydın olmalıdır"prinsipi pozulmuşdur. İkinci cəhət isə tərifdə əsas vurğunun iqtisadi sfera üzərində qoyulmasıdır. Bu isə, qloballaşma prosesinin əhatə dairəsini daraldır.

Rus alimi A.İ.Utkin isə qloballaşmaya belə tərif verir: "Qloballaşma-milli iqtisadiyyatların kapitalın sürətli yerdəyişməsinə, dünyanın yeni informasion açıqlığına, texnoloji inqilaba, inkişaf etmiş industrial ölkələrin əmtəə və kapitalın hərəkətinin liberallaşmasına tərəfdar olmasına, elmi inqilaba əsaslanan vahid, ümümdünyəvi sistemə qovuşmasıdır."5, s.181)Burada da iqtisadi aspektə meyl edilməsi aşkar görünür.

Deyilənləri ümumiləşdirərək qloballaşmaya belə tərif vermək olar: qloballaşma –bəşəriyyətin vahid tamainteqrasiyasının obyektiv-tarixi və təbii prosesidir. İlk növbədə qloballaşmanın tarixi proses olduğunu, yəni onun nə iqtisadi, nə də texnoloji proseslərlə bilavasitə əlaqəli olmayıb, yalnız XX əsrdən başlamadığını göstərmək olar.

İctimai strukturların birləşməsi, universallaşması kimi çıxış edən qloballaşma prosesinin dərin tarixi kökləri mövcuddur. Qloballaşma prosesinin tarixi kökləri haqqında tanınmış rus tədqiqatçısı prof.A.N.Çumakovun cəlbedicidir. O, özünün "Qloballaşma: bütöv dünyanın çərçivələri" adlı monoqrafiyasında bu problemi geniş və dərindən təhlil etmişdir. "Qloballaşmanın ilk simptomları" adlı yarımfəsildə A.N.Çumakov yazır: "Bəşəriyyət tarixində qloballaşmanın ilk simptomlarını-əgər onu retrospektiv və müəyyən şərtiliklə nəzərdən keçirsək-hələlik yalnız rüşeym formasında fars müharibələri, Makedoniyalı İsgəndərin işğalçı yürüşləri və Roma imperiyasının qərarlaşması dövründə də tapmaq olar. Bu elə bir dövrdür ki, yalnız bir neçə yüz il ərzində ictimai həyatın bütün sferalarında miqyasına görə nəhəng və mahiyyətinə görə fundamental dəyişikliklər baş verir və bu tarixi hadisələrin gedişinə, ictimai münasibətlər sisteminə, insanların dünyagörüşü, təsəvvürləri və şüuruna köklü təsir göstərir. Baş vermiş dəyişikliklərin obyektiv xarakteri şübhə doğurmur, bunu onların planetin müxtəlif regionlarında praktiki olaraq eyni zamanda baş verməsi, bir-birindən asılı olmadan inkişaf etməsinə baxmayaraq törətdikləri proses və nəticələrin heyrətedici dərəcədə üst-üstə düşməsi də sübut edir".(6, s.182)

Qloballaşmanın obyektiv-tarixi mahiyyətini inkar edənlər, bu prosesin müəyyən qüvvələr tərəfindən idarə olunduğunu iddia edənlər antiqlobalist hərəkatını təşkil edirlər. "Qlobalistika" ensiklopedi-yaşında rus alimi O.B.Rusakovun "Antiqlobalist hərəkat" adlı məqaləsində göstərilir ki: "Antiqlobalist hərəkat qloballaşma siyasətinə, trans-milli korporasiya(TMK) və birləşmiş aparıcı dünya dövlətləri tərəfindən gerçəkləşdirilən yeni dünya nizamının bərqərar olmasına qarşı ən yeni radikal etiraz formasıdır".(7, s.34) Antiqlobalistlər üçün qloballaşma siyasətinin əsas ilhamverici qüvvələri: Beynəlxalq Valyuta Fondu, Dünya Bankı, Ümumdünya Ticarət Təşkilatı, eyni zamanda McDonalds və Microsoft kimi nəhəng şirkətlərdir. Onlar özlərinin ideya-siyasi rəqibi kimi ən ümumi marketikləşdirmə konsepsiyaları ilə birlikdə götürülmüş neoliberalizmi qeyd edirlər. Bu ideya daşıyıcılarının fikrincə neoliberal siyasət bir sıra milli istehsal sahələrinin tənəzzülünə, ənənəvi xalq peşələrinin və milli kənd təsərrüfatı mədəniyyətinin məhvinə səbəb olur, ayrı-ayrı ölkələrin ərzaq suverenliyinə təhlükə yaradır.

Qloballaşma əleyhdarları içərisində rus tədqiqatçısı İ.A.Qobozovu xüsusi qeyd etmək istərdik. O, yazdığı "Dövlət və milli identiklik: Qloballaşma yaxud beynəlmiləlləşmə?" adlı əsərində qloballaşma prosesinə "Qloballaşma-subyektivproses" adlı ayrıca fəsil həsr etmişdir. Adından da göründüyü kimi rus tədqiqatçısı qloballaşmanı obyektiv-tarixi proses kimi qəbul etmir. Qloballaşmanın 1991-ci ildə SSRİ-nin dağılması ilə başladığını iddia edən müəllif yazır: "SSRİ-nin dağılmasına qədər sosial dünya üç hissəyə bölünürdü: sosializm dünyasına, kapitalizm dünyasına və inkişaf etməkdə olan ölkələr dünyasına. Bütün dövlətlər öz aralarında əməkdaşlıq etsələr də, ilk növbədə ictimai həyatın bütün sahələrində milli maraqlarını müdafiə edirdilər".(8, s.133) Lakin müəllifin əsas kimi qəbul etdiyi bu fikirlər heç bir tənqidə dözmür. Əvvəla sosial dünyanın üç hissəyə bölünməsi məsələsində məntiqi qaydalar pozulub, daha doğrusu bölgü əsası düzgün seçilməyib. Belə ki, həmin bölgüdə məsələn, Əfqanıstanı həm sosialist düşərgəsinə, həm də inkişaf etməkdə olan ölkələrə aid etmək olar. İkinci və ən vacib məsələ isə odur ki, hər düşərgəyə aid edilən dövlətlər ilk növbədə öz milli maraqlarını müdafiə etmişlər. Tarixi faktlar bunu birmənalı şəkildə inkar edir. Məsələn, SSRİ-nin ötən əsrin 50-60-cı illərdə elə sosialist düşərgəsinin nümayəndələri olan Macarıstan və Çexoslavakiyaya hərbi müdaxiləsini, Əfqanıstanda aparılan uğursuz müharibəni, həmin ölkələrin milli maraqlarına cavab verdiyini söyləmək yanlışlıq olardı. Eyni misalları kapitalist dünyasından da göstərmək olar. Deməli, rus tədqiqatçısının "qloballaşma SSRİ-nin dağılması ilə başlayır" tezisi özünü doğrultmur. Əslində ondan əvvəl baş verən qloballaşma prosesinin (təbii ki, XX əsri nəzərdə tuturuq) özünəməxsus səciyyəsi olub. Bu səciyyə ondan ibarətdir ki, qloballaşma bəlli sərhədlərdə,İngiltərənin tanınmış ictimai xadimi U.Çörçillin təbirincə desək "dəmir pərdə" arxasında gerçəkləşmişdir. SSRİ-nin dağılması isə, sadəcə bu prosesin miqyasını genişləndirmişdir.

Rus tədqiqatçısı N.R.Malikova "Qloballaşmanın sosial ölçüləri" adlı əsərində antiqlobalist hərəkəti ətraflı təhlil edərək yazır: "Antiqlobalizmin əsas postulatı belə səslənir ki, inteqrasiyaya məruz qalmış dünya özünü dünya oliqarxiyasının diktaturasının nəzarəti altına düşmək təhlükəsinə məruz qoyur. Qloballaşmanın

millət dövlətlərin rolunun zəifləməsinə səbəb olduğundan, aydın olur ki, çoxsaylı antiqlobalizm cərəyanlarının pafosu transmilli maliyyə-iqtisadi strukturların millət-dövlətlərin inkişafına və milli suverenliyin qeyri-siyasi vasitələrlə məhdudlaşıracağına təsir göstərməsi məsələsinin həllinə əsaslanır". (9, s.246) Bununla belə müəllif əsaslı dəlillər göstərməklə qloballaşmanın obyektiv səciyyəsini xüsusi vurğulayır.

Maraqlı odur ki, antiqlobalist hərəkatın coğrafiyası təkcə inkişaf etməkdə olan ölkələrlə məhdudlaşmır. Amerika və Qərbi Avropa ölkələrində də bu hərəkatın tərəfdarları var. Onların ilk kütləvi çıxısı 1998-ci ilin noyabr-dekabr aylarına təsadüf edir. Bu çıxış Ümumdünya Ticarət Təşkilatına üzv olan dövlətlərin Sietldə (ABŞ) keçirilən sammiti ilə əlaqədar olmuşdur. Baş tutmuş nümayiş "Biz təhlükəsiz ticarəti seçirik" şuarı altında keçirilmişdir. 2000-ci ilin yanvarında Davosda (İsveçrə) keçirilən Ümumdünya iqtisadi forumu, həmin ilin aprelində Vaşinqtonda (ABŞ) BVF və DB-nın növbəti konfransı, 2001-ci ilin iyununda Avropa İttifaqının sammiti ərəfəsində də antiqlobalistlərin kütləvi tədbirləri keçirilmişdir. Ən kütləvi tədbir isə 2001-ci ildə Genuyada (İtaliya) "Böyük yeddilər"in sammiti ərəfəsində baş tutmuşdur.

Lakin antiqlobalistlərin əsas ideyalarını inkar edən və daha ciddi arqumentlərlə qloballaşmanın obyektiv-tarixi mahiyyətini təsdiqləyən nüfuzlu tədqiqatçılar da mövcuddur. Belə tədqiqatçılardan biri də Hind əsilli amerikalı alim, 2000-2001-ci illərdə BMT Baş katibinin qloballaşma ilə bağlı problemlər üzrə məsləhətçisi, Kolumbiya Universitetinin professoru Çaqdiş Bhaqvatidir. O, 2005-ci ildə yazdığı "Qloballaşmanın müdafiəsinə" adlı kitabında elmi cəhətdən əsaslandırılmış şəkildə göstərir ki, qloballaşma dünya inkişafının obyektiv-tarixi, o cümlədən daha çox pozitiv bir prosesidir. Ç.Bhaqvati antiqlobalistlərin bütün iddialarını əsaslı və qərarlı hesab edərək, onları ardıcıl olmamaqda qınayır. Antiqlobalistlərin qeyri-ardıcıllığı özünü "rifah dövrlərində antiqlobalist əhval-ruhiyyələrin enişi, böhranlar zamanı isə-dirçəlişində"(10, s.15) də büruzə verir. Amerikalı professor hesab edir ki, burada əsas məsələ nə qloballaşmanın tənqidində, nə də onun inkar olunmasında yox, prosesin düzgün idarə edilməsindədir.

Digər tədqiqatçı Ç.Soros da antiqlobalistlərin fikirləri ilə qətiyyən razılaşmır. Belə ki, o özünün "Qloballaşma haqqında" əsərində qloballaşma haqqında neqativ fikirlərlə cavab verərək yazmışdır: "Qloballaşma bizim bütün cari problem və çəkişmələrimizə görə cavabdehlik daşımır. Bu gün dünyadakı bədbəxtlik və yoxsulluğun ən ciddi səbəbləri hərbi münaqişələr, repressiv və korrupsiyalaşmış rejimlər, səriştəsiz məmurlardır, qloballaşmanı hakimiyyətlərin səriştəsiz olmasında günahlandırmaq mümkünsüzdür".(11, s.32)Doğrudan da, qloballaşmanı tənqid edənlərin siyasi mövqelərinə diqqət yetirsək, deyilənlər aydın olar. Lakin, burada bir məqama da xüsusi diqqət çəkmək lazımdır. Belə ki, yuxarıda haqqında danışıldığı kimi, antiqlobalist hərəkatlar təkcə üçüncü dünya ölkələrində (və yaxud inkişaf etməkdə olan ölkələrdə) yox, daha çox inkişaf etmiş Qərb ölkələrində geniş yayılır. Bu isə onunla izah edilə bilər ki, son zamanlar "Şimali-Cənub" problemi özünü daha kəskin şəkildə büruzə verməkdədir. "Şimal-Cənub" problemi deyildikdə yüksək inkişaf etmiş ölkələrlə inkişaf etməkdə olan ölkələr arasında kəskin fərq başa düşülür. "Şimal-Cənub" problemi özünü bu iki ölkələr qrupunda həyat səviyyəsi və uzunömürlülük arasındakı kəskin fərqdə, dünya iqtisadi sisteminin periferiyasında yerləşən inkişaf etməkdə olan ölkələrin nəhəng borçları və iqtisadiyyatlarının rəqabətə davamsız olmasında göstərir. Onların güclü tərəfdaşlarından asılılığı artır, bunun nəticəsində də daxili qeyri-sabitlik artır, hərbi münaqişə və lokal müharibə ehtimalı güclənir".(12, s.463-464) Məhz bu problem digər bir problemin- miqrant axını probleminin əsas təkanverici amillərindən biri kimi çıxış edir. Heç şübhəsiz ki, güclü miqrant axını inkişaf etmiş ölkələrdə bərqərar olmuş, həm iqtisadi, həm sosial, həm də mədəni həyatın tarazlığına ciddi təsir göstərir. Bir sıra ölkələr bu problemi multikulturalizm siyasəti aparmaqla həll etməyə çalışsa da, son dövrlər Yaxın və Orta Şəhər ölkələrində baş vermiş hadisələr ("Ərəb baharı", lokal müharibələr və s.) onun əhəmiyyətini kifayət qədər azaltmışdır. Bu amilin özü Qərbdə antiqlobalist hərəkatın güclənmə səbəblərindən biri olmuşdur.

Tarixi təcrübə göstərir ki. müxtəlif xalqların yaxınlaşması və sıx münasibətlərin qurulması onların maraqlarının üst-üstə düşməsindən asılıdır. Bu maraqlar nə dərəcədə dərk olunması inteqrasiya prosesinin nəticələrinə bilavasitə təsir göstərir. Yalnız bu əsasda müxtəlif çətinliklər aradan qaldırılır, ticarət inkişaf edir, iqtisadi, siyasi və mədəni əlaqələr möhkəmlənir.

Yuxarıda deyilənləri nəzərə olaraq aşağıdakı ümumiləşdirmələri aparmaq olar:

Qloballaşma obyektiv-tarixi prosesdir. Təbii olaraq bu prosesdən daha çox yararlananlar və fayda götürənlər olduğu kimi, ondan "əziyyət" çəkənlər də mövcuddur. Məhz sonuncu fakt hər bir millət-dövlətin öz daxili və xarici iqtisadi-siyasətini qurarkən qloballaşma prosesinin diqqətdə saxlamasını, bu prosesin gətirə biləcəyi təhlükələrdən maksimum yayınmasını zəruri edir. Xüsusilə mədəni qloballaşmanın təsiri ilə milli-mənəvi dəyərlər daha çox təhlükəyə, aşınmaya məruz qalır. Belə halların qarşısının alınması ilə hər bir millət-dövlətin milli-mənəvi dəyərlərin qorunması istiqamətində lazımi tədbirlərin görülməsini, əsas qloballaşdırıcı amillərdən biri kimi çıxış edən informasiya-kommunikasiya texnologiyalarının verdiyi imkanlardan istifadə etməklə bu dəyərlərin dünya səviyyəsində təbliğini zərurətə çevirir.

## ƏDƏBİYYAT


1. Бэкон Ф. Сочинения в двух томах. Т.2. М., Мысль, 1972, 582 с. (с.24-28)
2. Кузнецов В. Что такое глобализация? // Мировая экономика и международные отношения. 1998. № 2. С. 13.
3. Иноземцев В. Л. Глобализация, иллюзии и реальность, // Свободная мысль-XXI, 2000, № 1. С.80
4. Дергачев В.А. Глобалистика, — М., ЮНИТИ-ДАНА, 2005, 303 с. (с.9).
5. Уткин А.И. Глобализация, /Глобалистика, Энциклопедия. М., Радуга, 2003, ст. 181-183 (с.181).
6. Чумаков А.Н. Глобализация. Контуры целостного мира, монография, М., Проспект, 2014, 432с. (с.182)
7. Русаков О.Ф. Антиглобалистскоедвижение, /Глобалистика, Энциклопедия, М., Радуга, 2003,ст 34-35 (ст.34)
8. Гобозов И.А. Государство и националъная идентичность, глобализация или интернационализация? М., ЛИБРОКОМ, 2014, 200 ст. (ст. 133)
9. Маликова Н. Р. Социальное измерение глобализации, М., РГГУ, 2012, 294 ст. (ст. 246)
10. Бхагвати Дж. В защиту глобализации, М., Ладомир, 2005, 448 с. (с.15)
11. Сорос Дж. О глобализации. М., Эксмо, 2004, 224 с. (с.32)
12. Волкогонова О.Д., Сидрова Н.М. Основы философии, учебник, М., ИД «Форум», ИНФРА-М, 2013, 480 ст. (ст. 463-464)


## РЕЗЮМЕ


**Рашадат Ягублу**

**СОЦИАЛЬНО-ФИЛОСОФСКАЯ СУЩНОСТЬ ГЛОБАЛИЗАЦИИ**

В статье проводится философский анализ процесса глобализации. Сравнительно анализируются определения и причины возникновения плюрализма мнений. Противники глобализма - антиглобалисты привносят понятие в сущность антиглобалистического течения и, несмотря на односторонний характер, в то же время, опираются на объективно-исторические процессы глобализации.

Русские исследователи-антиглобалисты – И.Гобозови Н.Маликова проявляют определенный научный интерес к комментированию положений. В статье отмечается усиление движения антиглобалистов на Западе, а также представлены соответствующие причины появления конфликтов, террористических движений и наплыва мигрантов в Европу из Ближнего и Среднего Востока.


## ABSTRACT


**Rashadat Yaqublu**

Social and philosophical essence of the sustainable development concept is studied in the article. First of all, social and historical factors making formation of sustainable development necessary is explained. Definitions given to the sustainable development is analyzed, dialectics of the development category is mentioned to reveal its social and philosophical essence. Simultaneously, complex character of the sustainable development, being new model of the outlook is emphasized here.

Explanation of theses by I.Gobozov and N.Malikov, Russian investigators from anti-globalists arouse a special interest. The strengthening reasons of anti-globalist movement in the West is put forward in the article, conflicts, acts of terrorism occurring in the Near and Middle East countries, migrant flows from these countries are mentioned as the reasons which prevents development.



NDU-nun Elmi Şurasının 30 mart 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 07).

Məqaləni çapa təqdim etdi: Fəlsəfə üzrə elmlər doktoru, professor M.Rzayev

**ABBAS ƏHMƏDOV**
*Naxçıvan Dövlət Universiteti*
*abbas-ahmadov@mail.ru*

**UOT: 101**

# DƏYƏRLƏR HAQQINDA BAXIŞLARIN TARİXİ-FƏLSƏFİ TƏKAMÜLÜ

***Açar sözlər:*** *aksiologiya,dəyər,idrak, şəxsiyyət,sosiologiya*
***Key words:*** *Axiology, value, cognition , personality, sociology*
***Ключевые слова:*** *аксиология, значение, познание, личность, социология*

Aksioloji baxımdan götürülən fəlsəfi biliklər sisteminin başlıca məqsədi dünyanı humanist baxımdan mənalandırmaq, yəni varlığı təkcə təbiət qanunlarının fəaliyyət sahəsi kimi götürməklə məhdudlaşmayaraq, onu insaniləşmiş dünya, başqa sözlə, insanın sərvətlər (dəyərlər) dünyası kimi dərk etməkdir.

Son dövrlərin fəlsəfi-sosioloji ədəbiyyatında dəyərlər probleminin tədqiqinə diqqətin artması müşahidə olunur. Nəticədə bu anlayışın məzmununun geniş mənada götürülməsi özünü göstərir. Belə ki, indi dəyərin məzmununa təkcə olmalı olanlar, əxlaqi və estetik ideallar daxil edilmir. Burada ayrıca bir subyekt və yaxud bütövlükdə cəmiyyət üçün az-çox dünyagörüşü və normativ əhəmiyyət kəsb edən bütün şüur fenomenləri və obyektlər də əhatə olunur. Bu meyl müəyyən mənada alqışlanmağa layiqdir, çünki sosial hadisələrin öyrənilməsində aksioloji problematikanın genişləndiyini sübut edir, dəyərlərin aksioloji məzmununda çoxtərəfliliyi göstərir. Bunu yəqin etmək üçün fəlsəfi ədəbiyyatda xeyli yayılmış olan belə bir mülahizəyə diqqət yetirmək məqsədəuyğundur ki, dəyərlər aşağıdakı üç keyfiyyəti ilə səciyyələnir:

1. Onlar subyektdə obyektə qarşı dəyər şüurunun (əxlaqi, fəlsəfi, dini və s.) və bütövlükdə sosial-mədəni amillərin təsiri altında formalaşan emosional bəzək vurulmuş mənafeləri, prioritetləri, ifadə edən münasibəti bildirir;
2. İdrakın öz daxilindəki dəyər oriyentasiyalarıdır, yəni elə sırf məntiqi-metodoloji, o cümlədən də dünyagörüşü donu geymiş parametrlərdir ki, onlara əsaslanmaqla qiymətlər verilir, təsviretmənin, izahetmənin, sübutetmənin, biliyi təşkil etmənin forma və üsulları seçilir.
3. Dəyərlər idrakda obyektiv həqiqi predmet biliyi (fakt, qanun, hipotez, nəzəriyyə və s.) və səmərəli operasional bilik (elmi metodlar, tənzimləyici prinsiplər) deməkdir. Məhz sonuncular öz həqiqiliyi, doğruluğu və informativ baxımdan zənginliyi sayəsində cəmiyyət üçün əhəmiyyət və dəyərlilik kəsb edir (7,s.11).

Dəyərlər haqqında baxışların tarixi-fəlsəfi təkamülündən danışarkən keçmiş mütəfəkkirlərin elmi cəhətdən maraq doğuran müddəalarını qeyd etməklə yanaşı, göstərilməlidir ki, məhz XX əsrin ikinci yarısından etibarən onlar bitkin təlimlər kimi ifadə olunmağa başlamışdır.

Bu dövrdə aksiologiya müstəqil fəlsəfi bilik sahəsi kimi formalaşdı və dəyərlərin izahına dair konsepsiyalar meydana gəldi. Onların sırasında naturalist psixologizm, aksioloji transendentalizm, personalist ontoloqizm və dəyərlərin sosioloji konsepsiyaları xüsusilə mühümdür. Buna görə də onların hər birinin qısa səciyyəsini vermək məqsədə uyğundur.

Naturalist psixologizm konsepsiyası dəyərlərə empirik müşahidə oluna bilən obyektiv reallıq amilləri kimi yanaşaraq göstərir ki, onların mənbəyi insanın bioloji və psixoloji tələbatları ilə bağlıdır. Həmin təlimə görə, insanların hər hansı tələbatını ödəyən predmet dəyər hesab olunmalıdır.

Aksioloji transendentalizm - neokantçılıq konsepsiyasıdır. Onun nümayəndələri (V.Vindelband, H.Rikkert və b.) dəyərləri obyektiv reallıq deyil, ideal varlıq hesab edirdilər. Bu təlimə görə, dəyərlər insanların arzularından asılı olmayaraq müstəqil mövcüddur. Onların sırasına öz-özü üçün kifayət dərəcədə əhəmiyyət kəsb edən dəyərlər (xeyirxahlıq, həqiqət, gözəllik və s.) aid edilir. Yenikantçılar göstərirdilər ki, bu dəyərlər özü-özü üçün məqsəddir və onlardan heç vaxt başqa məqsədlərə nail olmaq üçün vasitə kimi istifadə oluna bilməz (6,s.11). Beləliklə, bu konsepsiyaya görə, dəyərlər reallıq deyildir, onlar ümumiyyətlə şüurun, transendental (əlçatmaz) subyektin daşıyıcısı olduğu ideal varlıqdır. Bundan əlavə, həmin təlimdə dəyərlər insandan asılı olmayan normalar kimi götürülür və göstərilirdi ki, bu normalar konkret dəyərlərin və mədəniyyətin ümumi əsasını yaradır.

Personalist ontologizm tərəfdarları (M.Şeler və başqaları) dəyərlərin obyektiv xarakterini qəbul edir və göstərirlər ki, onlar şəxsiyyətin ontoloji əsasını yaradır. Bu təlimə görə, predmetlərdəki dəyərləri onların empirik təbiəti ilə eyniləşdirmək doğru deyildir. Onun nümayəndələrinin fikrincə, rəng onun məxsus olduğu predmetdən asılı olmadığı kimi, dəyərləri də aid olduqları predmetlərdən kənarda seyr etmək mümkündür.

Çünki dəyərlərin dərk olunması və müşahidə edilməsi nəticə etibarilə sevgi və ya nifrət hissinə əsaslanır. Ən yüksək dəyərlər uzunömürlü və insanları daha çox razı salan dəyərlərdir. Onlara nümunə kimi gözəllik və idraki dəyərlər göstərilir. Bu təlimə görə, ən ali dəyər isə müqəddəslik dəyəri, Allah ideyasıdır. Buna görə də Allaha sevgisi sevginin ən yüksək formasıdır. Odur ki, bütün dəyərlərin əsasında ilahi şəxsiyyət dəyəri durur.

İnsan ruhu simvolik formaların vəhdətini generasiya edən simvolik funksiyaları yaradır. Mədəniyyətin bütün sferaları insan ruhunun ifadəsidir, bu sferaların hər birində özünəməxsus yaradıcı prinsip, simvol mövcud olur. İnsan simvollar vasitəsilə düşünür, öz mənəvi yaranışından standartlar,simvollar çıxararaq onların köməyi ilə özünü və ətraf aləmi dəyərləndirir.

Yeni kantçılığın Baden məktəbi üçün ümumi olan aksioloji (dəyər) yanaşmadır. Bu yanaşmaya görə, insan mədəniyyətinin əsasında ideal dəyərlər dayanır. V.Vindelband fəlsəfəni dəyərlər haqqında təlim kimi müəyyən edir, onun üçün əsas elmin iki növünün fərqləndirilməsidir:

− idioqrafık elmlər (yun. “idios” - xüsusi, özünəməxsus, qeyri-adi və “grapho” − yazıram) təkcə humanitar elmləri tədqiq edir, mədəniyyətin bütün hadisələrini qiymətli və unikal hal kimi nəzərdən keçirir;

− nomotetik elmlər (yun. “nomo”-“teteo” - nəşr etmək, qanunları bərqərar etmək), ümumi qanunları tədqiq edən təbiət elmləri.

Vindelband elmlərə uyğun olaraq iki idrak metodunu fərqləndirir: a) idioqrafik fərdiləşdirici metod, onun məqsədi obyekti vahid unikal tam kimi təsvir etməkdir; b) nomotetik, ümumiləşdirici metod, onun məqsədi qanun formasına malik ümumini müəyyənləşdirməkdir.

Vindelbanda görə dəyərlər insan fəaliyyətinin müstəqil mövcud olmayan, lakin təkcə faktlara məna verən, normalar kimi dərk olunan, zamandan və tarixdən xaric prinsiplərdir. Vindelband dəyərlərin dörd növünü fərqləndirir (mədəniyyət növlərinə uyğun olaraq), həmçinin bu növlərin dəyərlər iyerarxiyasının zirvəsi olan dörd ali formasını göstərir: 1) məntiqi dəyərlər (həqiqət); 2) etik dəyərlər (xeyir); 3) estetik dəyərlər (gözəllik); 4) dini dəyərlər (müqəddəslik) (4,s.123).

H.Rikkert varlığı subyektin ən ümumi və şəxssiz şüuruna çevirirdi. Rikkertə görə gerçəklik təbiət və mədəniyyəti konstruksiya edən şüurun fəaliyyətinin nəticəsidir. Beləliklə, iki dünya mövcuddur və onların qarşıdurma və vəhdəti məsələsi fəlsəfə və mədəniyyətin əsas problemidir. Təbiət (ümumi qanunlarla müəyyənləşdirilən şeylərin varlığı) ümumiləşdirici abstraksiya metodundan (ən ümumi anlayış və qanunlar sisteminin formalaşdırılması) istifadə edən elmlər sferasıdır. Mədəniyyət (ümuməhəmiyyətli dəyərlərlə bağlı obyektlər məcmusu) abstraksiya metodundan (ayrı-ayn hadisələrin dəyərlərlə əlaqələrinin yaradılması) istifadə edən ruh haqqında elmlər (humanitar, tarixi) sferasıdır.

Rikkert altı növ mədəniyyət və onlara uyğun olan altı dəyərlər tipini ayırır: məntiq (həqiqət), estetika (gözəllik), mistika (fövqəlşəxsi müqəddəslik), etika (əxlaq), erotika (xoşbəxtlik), din (şəxsi müqəddəslik).

Dəyərlərin sosioloji konsepsiyasını M.Veber yaratmışdır. Dəyər anlayışını da sosiologiyaya ilk dəfə o daxil etmişdir. M.Veberə görə, dəyər sosial subyekt üçün müəyyən əhəmiyyət kəsb edən norma deməkdir. Bu mövqedən çıxış edərək o, cəmiyyət həyatında etik və dini dəyərlərin xüsusi rol oynadığını göstərməyə çalışmışdır (2,s.34).

Sonrakı dövrdə aksiologiyanın inkişafı fəlsəfi antropologiya cərəyanının nümayəndələrinin (R.Lotse, M. Şeler, N.Hartman və b.) adı ilə bağlıdır.

1960-cı ildən sonra dəyərləri altı qrup halında yığmaq ənənə halını almışdır: estetik, nəzəri (və ya elmi), iqtisadi, siyasi, ictimai və dini dəyərlər. Dəyərlər müəyyən mənada bizim həyatımızın məqsədləridir; hətta yalnız öz həyatımızın deyil, məsələn, biri başqalarının həyatı üçün də elm və ya sənətlə məşğul olmağı qarşıya məqsəd qoyar; digəri başqa insanları da öz bəyəndiyi yola çəkməyi müqəddəs bir vəzifə sayar; başqa biri bütün dinclik və səadətin iqtisadi qüdrətlə mümkün olacağına inanar və s. Cəmiyyət səviyyəsində də müxtəlif dəyər oriyentasiyalarından bəhs etmək mümkündür.

Şəxsiyyətin sosiallaşması prosesinə göstərdiyi təsirin dərəcəsi baxımından da bəzi dəyərlər digərlərindən yüksəkdə durur. Məsələn, azadlıq dəyərini götürək. O, insanın məsləkində o dərəcədə yüksək yer tutur ki, ona nail olmaq üçün insanlar öz həyatlarını qurban verməkdən çəkinmirlər. Məşhur amerikalı psixoloq A.Maslou bu mənəvi dəyərlərin şəxsiyyətin sosiallaşmasında və özünü aktuallaşdırılmasında müstəsna rol oynadığını göstərmişdir. O, qeyd edirdi ki, insanlar hansı sahədə fəaliyyət göstərmələrindən asılı olmayaraq bu dəyərlərə daim sadiq qalmağa çalışır və onları son dərəcədə əziz bir şey kimi qiymətləndirirlər. “İnsanların hamısı öz həyatını bu və ya digər şəkildə mənim “varlıq dəyərləri” adlandırdığım dəyərlərin axtarışına sərf edir” (1,s.110).

Dəyər şüuru insan mənəviyyatının elementi olmaq etibarilə normanı yerinə yetirməli olan psixi tərəfi ifadə edir. Digər tərəfdən,dəyər şüurunun ayrılmaz tərkib hissəsini və şərtini şəxsiyyət azadlığının mövcud olması təşkil edir. Milli azadlıq əldə olunduqdan sonra, ölkəmizdə həyata keçirilən əsaslı dəyişiklər,azadlığın genişləndirilməsi ilə yanaşı, onun mənəvi dəyərlər ilə yaxınlığını daha da möhkəmləndirir. İnsanlar öz azad

seçimi və fəaliyyətlərində yüksək mənəvi dəyərlərə daha çox arxalanırlar. Bu prosesdə həm azadlıq yeni məzmun kəsb edir, həm də mənəvi dəyərlər təkmilləşir. Azadlığın ən yüksək dəyər kimi səciyyələndirilməsi onun digər mənəvi dəyərlər ilə münasibətlərində ifadə olunur. Subyektin dəyərlər oriyentariyası və dəyərlər seçimi azad fəaliyyətin mühüm tənzimləyicisi rolunu oynayır. Mövcud cəmiyyətin mənəvi dəyərləri insanın hərəkətlərini yalnız ümumi cəhətdən nizama saldığından, azadlıq üçün daha geniş imkanlar açır. Azadlığın inkişafı baxımından milli-mənəvi dəyərlər, milli dövlətçilik ruhu ilə xüsusilə vacibdir (3,s.242).

Milli-mənəvi dəyərlərin bir qismi ictimai ideal və mədəni-tarixi inkişafın hamı tərəfindən qəbul olunmuş məqsədi kimi çıxış edir. Bunlara misal olaraq azadlığı, sosial bərabərliyi, ədaləti, humanizmi, demokratiyanı, habelə ümumbəşəri xarakter daşıyan digər idealları göstərmək olar. Onlar ümumi mədəniyyət sistemində mərkəzi yer tutur, bütövlükdə cəmiyyətin və ayrılıqda hər bir şəxsiyyətin mənəvi zənginliyinin nüvəsini təşkil edir. Şəxsiyyətin formalaşmasında mənəvi dəyərlər çox müxtəlif formalarda çıxış edir. Onların tərkibinə elmi həqiqəti ifadə edən nəzəri müddəalardan tutmuş əxlaqi normalar, estetik dəyərlər, bədii zövq, dini inam, ictimai rəyin müəyyən ünsürləri və s. daxildir.

Əvvəllər Azərbaycan cəmiyyətində mədəni-mənəvi mühitin sıxlıq dərəcəsinin az olması hər bir fərdə özünün mühitini yaratmaq imkanı verirdi. İndi bu sıxlıq yüksək həddə çatmışdır və cəmiyyətin yüksək dərəcədə təşkilatlanmış olduğu bir şəraitdə hər bir fərdin həyatı özündən daha çox, kənar amillərdən asılı olur. İnsan hələ dünyaya gəlməmiş onun yaşamalı olduğu sosial-iqtisadi, milli-mənəvi dəyərlər və mədəni mühit formalaşmış olur və bu mühit fərdlə müqayisədə qat-qat böyük miqyaslı proseslərlə bağlı olduğundan xeyli dərəcədə ətalətli və konservativ olur.

Elmin əldə etdiyi bilik və həqiqətlərdən fərqli olaraq sərvət (dəyər) insanların subyektiv arzuları ilə şərtlənir.Əgər biliyimizin həqiqət olduğunu söyləmək üçün onun dərk etdiyimiz gerçəkliyə uyğunluğu əsas götürülürsə,sərvətdə (dəyərdə) hadisə və predmentlərin,onların xassələrinin insanın həyat fəaliyyəti üçün dəyərləndirilməsi əsasdır (5,s.307).

Beləliklə, aksiologiyanın sistemyaradıcı funksiyaları insan idrakının bütün sfera və tərəflərində çox mühüm əhəmiyyət kəsb edir. İnsan-dünya münasibətlərinin ən ümumi nəzəri səpkisini öyrənən fəlsəfə elmində isə o, xüsusilə böyük rol oynayır. Fəlsəfi biliklər sistemində aksiologiyanın yeri hər şeydən əvvəl bununla müəyyən olunur ki, o, insan varlığının dəyərli istiqamətlənmiş səpkisini ifadə edir. Bu aspekt çox mühüm olub, insanın sosial praktikasının yaratdığı problemlərin adekvat şəkildə irəli sürülməsinə və həllinə çox kömək edir.

## ƏDƏBİYYAT


1. Abraham Maslou, İnsan, Dinler, Değerler, İstanbul, Kuraldışı Yayınları, 1996
2. Alfred Weber, Felsefe Tarixi, (çevr.Vehbi Eralp), İstanbul, 1998, 454 s.
3. Allahverdiyev Q., Azadlıq, Bakı, Adiloğlu, 2009, 320 s.
4. Gökberk M.Felsefe Tarihi, İstanbul, Remzi kitabevi, 1999, 431s
5. İmanov H., Fəlsəfənin əsasları, Bakı, Turan evi, 2007, 440 s.
6. Rzayev M., Şəxsiyyət və dəyərlər. Bakı, ADPU, 2005, 78 s.
7. Rzayev M.H., Fəlsəfədə dəyər kateqoriyası, Bakı, AzTU – nun mətbəəsi, 2009,60 s.


## ABSTRACT


**Abbas Ahmadov**


### THE EVOLUTION OF THE HISTORICAL-PHILOSOPHICAL VIEWS ABOUT VALUES


A human forms his character by means of moral responsibilities, identity, will and internal disciplinary which are important moral values. A human must not only evaluate his actions by analyzed with a full of sense of responsibility, as well as must begin to work in this direction. Moral responsibility is not spectator character but bears the nature of the specific action. Responsibility is extremely complex for its meaning being the main quality expressed social essence of human. The sense of freedom and the necessity standing on its basis organize the foundation of responsibilities. Freedom is inseparable from responsibility because it is turning behavior and motion capabilities being in the certain conditions into reality by a person. Freedom is impossible without responsibility. In addition to being the product of social progress, moral responsibility is also indicator of this progress. Moral freedom arranges the basis of moral responsibility and self –awareness arranges the basis of moral freedom. As there is not moral responsibility in the place without moral freedom, there is not moral freedom in the place without self-awareness.

National and moral values of society is closed with personal and moral qualities of people being in this society considerably. In addition to spiritual perfection a human must have high volitional qualities to go beyond the work, not go in molds, and demonstrate creativity.

## РЕЗЮМЕ

**Аббас Ахмедов**

**ЭВОЛЮЦИЯ ИСТОРИКО-ФИЛОСОФСКИХ ВЗГЛЯДОВ О ЦЕННОСТЯХ**

Человек формирует свой характер посредством моральных обязанностей, личности, воли и внутренних дисциплинарных функций, которые являются важными моральными ценностями. Человек должен не только оценивать свои действия, анализируя их с полным чувством ответственности, но и начинать работать в этом направлении. Моральная ответственность не является зрительским характером, но носит характер конкретного действия. Ответственность чрезвычайно сложна, поскольку ее значение является основным качеством, выраженным социальной сущностью человека. Чувство свободы и необходимость, стоящая на ее основе, организуют фундамент ответственности. Свобода неотделима от ответственности, потому что она превращает поведение и движения в определенных условиях в реальность человеком. Свобода невозможна без ответственности. Моральная ответственность - это не только результат социального прогресса, но и показатель этого прогресса. Нравственная свобода создает основу моральной ответственности, а самосознание создает основу нравственной свободы. Поскольку в этом месте нет моральной ответственности без моральной свободы, в этом месте нет моральной свободы без самосознания.

Национальные и моральные ценности общества закрыты с личными и моральными качествами людей, находящихся в этом обществе значительно. В дополнение к духовному совершенству человек должен обладать высокими волевыми качествами, чтобы выйти за пределы своей работы, не впадать в плесень и демонстрировать креативность.



NDU-nun Elmi Şurasının 30 mart 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 07).

Məqaləni çapa təqdim etdi: Fəlsəfə üzrə elmlər doktoru, professor M.Rzayev

**MƏDİNƏ ALLAHVERDİYEVA**
*Naxçıvan Dövlət Universiteti*
*q_fil@hotmail.com*

**UOT: 303,02**

# NAXÇIVAN MR-DA SOSİAL SFERANIN MÖVCUD DURUMU

***Açar sözlər:*** *Sosial sfea, təhsil, səhiyyə, məşğulluq, turizm, sosial müdafiə, pensiya, müavinət, Dövlət Proqramı*

***Keywords:*** *Social sphere, education, medicine, employment, tourism, social defense, pension, state program*

***Ключевые слова:*** *Социальная сфера, образование, медицина, занятость, туризм, социальная защита, пенсия, пособие, Государственная Программа*

Sosial məqsədlər insanın rifahına yönəldilən və onun ictimai tələbat sisteminə uyğun şəraitlərin, tədbirlərin və mexanizmlərin məcmu ilə formalaşır. Müasir şəraitdə iqtisadi və sosial inkişafın əsas istiqamətləri yaşayış üçün zəruri olan maddi və mənəvi nemətlərin çoxluğunu yaratmaq və onun daha ədalətli bölgüsünü təşkil etməkdir. Sosial sahələr mahiyyət etibarı ilə mənəvi dəyərlər yaradır.

Sosial sahələr həmçinin insan amili ilə bağlı olduğuna görə onun iqtisadi tərəfi insanın tələbatını ödəyən bölgü sistemi ilə də bağlıdır. Belə ki, insanların əməkhaqqı, gəlirləri, ayrı-ayrı sahələrdə əməkhaqqının diferensiyası və s.

Müasir dövrdə sosial siyasət anlayışı təkcə bu sahə ilə məşğul olan şəxslərin , amillərin deyil, həm də cəmiyyətin bütün sosial təbəqələri və qruplarının gündəlik həyatına möhkəm daxil olmuşdur.

Sosial sahənin əsas məqsədi əhalinin həyat səviyyəsinin yüksəldilməsinə şərait yaradan maddi və xidmət sahəsini inkişaf etdirmək, əhalinin təlabatına uyğun istehsal, istehlak, bölgü, mübadilə proseslərini yaratmaqdan ibarətdir. Sosial sfera insanla bölgü, istehsal və istehlak münasibətlərini formalaşdırır.

Bazar iqtisadiyyatının aparıcı ölkələri təhsil, mədəniyyət, səhiyyə, turizm və istirahət yaşayış –kommunal təsərrüfatı və ekologiya kimi sahələrin funksiyalarının effektiv yerinə yetirilməsinə diqqət artır. Bu sahələr birgə sosial sfera adlanır. Bazar iqtisadiyyatı inkişaf etdikcə öz növbəsində sosial sferada inkişaf edir. (1,20 s)

Sosial sfera-bu milli təsərüffatın sahələrinin bazasıdır. Bu əhalinin həyat keyfiyyətinə və rifahının səviyəsinə birbaşa təsir edir. Bazar iqtisadiyyatı ölkələrində sosial sferaya hər gün böyük investisiyalar yatırılır. Həmin artımların tərkibinə maddi, əmək və maliyyə resursları aiddir.

Naxçıvan Muxtar Respublikasında iqtisadi inkişafla yanaşı sosial sahələrin inkişafı da diqqət mərkəzində saxlanılır. Sosial sferanın əsas sahələrindən birini təhsil tutur. Bu gün muxtar respublikada təhsil səviyyəsinin yüksəldilməsi istiqamətində kompleks tədbirlər həyata keçirilir. Belə ki, 2016-cı ildə Şərur rayonunun Oğlanqala kəndində 576, Babək rayonunun Yarımca kəndində 342, Məzrə kəndində 270, Xəlilli kəndində 144, Ordubad rayonunun Baş Dizə kəndində 156, Culfa rayonunun Saltaq kəndində 306, Xanəgah kəndində 198, Kəngərli rayonunun Şaxtaxtı kəndində 594, Şahbuz rayonunun Daylaqlı kəndində 168 şagird yerlik olmaqla, ümumilikdə 3414, 12 məktəb binası istifadəyə verilmişdir.

Muxtar respublikada sağlamlıq imkanları məhdud olan uşaqların təhsilinin təmin edilməsi sahəsində də müvafiq tədbirlər görülür. 2016-cı il yanvarın 11-də təsdiq olunmuş “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət\Proqramı” onların cəmiyyətə inteqrasiyasında böyük əhəmiyyətə malikdir.

Təhsilə göstərilən qayğı, yaradılan şərait bəhrəsiz qalmır. Belə ki, 2016-cı ildə qəbul imtahanlarda iştirak edən məzunlardan 1737-si ali məktəblərin, 567-si isə orta ixtisas məktəblərinin tələbəsi adını qazanmışlar.(2,13 s)

Əhalinin sağlamlığının qorunması, tibbi xidmətin keyfiyyətinin daha da yaxşılaşdırılması həyata keçirilən sosial siyasətin başlıca istiqamətlərindən biridir. Səhiyyə sahəsində aparılan islahatlar nəticəsində tibb müəssisələrinin madi-texniki bazası xeyli yaxşılaşdırılmış, yeni səhiyyə ocaqları tikilərək istifadəyə verilmişdir. 2016-cı ildə Şərur rayonunun Oğlanqala, Babək rayonunun Yarımca, Culfa rayonunun Saltaq və Xanəgah kəndlərində həkin ambulatoriyaları, Naxçıvan şəhərinin Bulqan, Babək rayonunun Məzrə, Xəlilli, Yarıca, Culfa rayonunun Gülüstan, Şahbuz rayonunun Daylaqlı, Kəngərli rayonunun Yurdçu kəndlərində feldşer-mama məntəqələri əhalinin istifadəsinə verilmişdir.(2,15 s)

Ötən dövrdə muxtar respublika əhalisinin rifah halının yüksəldilməsinə, sosial müdafiəyə ehtiyacı olan insanlar hərtərəfli dövlət qayğısı ilə əhatə olunmuşdur Muxtar respublika üzrə 26 minə yaxın sosial qayğıya ehtiyacı olan vətəndaşa müxtəlif növ xidmətlər göstərilir. Sosial qayğıya ehtiyacı olan 319 nəfərə

xidməti avtomobil, 188 sağlamlığını itirmiş vətəndaşımıza mənzil və fərdi yaşayış evləri verilmiş, 127 nəfər müalicə üçün xarici ölkələrə göndərilmişdir.

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin məlumatına əsasən 2016-cı ildə sosial müavinət təyin olunan şəxslərin sayı 12733 nəfər, bir nəfərə düşən orta aylıq məbləğ isə 49,8 manat təşkil edir. Birdəfəlik müavinətlər də isə sosial müavinət təyin olunan şəxslərin sayı 840 nəfər, bir nəfərə düşən orta aylıq məbləğ 173,1 manat olmuşdur.

Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində görülən işlərin tərkib hissəsi kimi məşğulluq probleminin həlli mühüm əhəmiyyət kəsb edir. Son illər Naxçıvan Muxtar Respublikasında iqtisadi islahatların əhatə dairəsinin genişlənməsi, istehsal və xidmət sahələrinin fəaliyyətə başlaması yeni iş yerlərinin açılmasına və əhalinin işlə təminatına əsaslı zəmin yaratmışdır. (3)

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 18 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın və "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrası muxtar respublikada işaxtaranların səmərəli məşğulluğu üçün əlverişli şərait yaratmış, əmək bazarının tələbinə uyğun peşə hazırlığının təşkilinə, işaxtaran və işsiz vətəndaşların sosial müdafiəsinin gücləndirilməsinə geniş imkanlar açmışdır. 330 nəfər məşğulluq xidməti orqanlarında qeydiyyatda olan vakant iş yerlərinə göndərilmiş, 8 nəfər kəndlərdə xidmət mərkəzlərində müvafiq işlə təmin olunmuş, 65 nəfər peşə və 29 nəfər ixtisasartırma kurslarına, 47 nəfər haqqıödənilən ictimai işlərə cəlb edilmişdir. Bu dövrdə məhdud fiziki imkanlı 23 sakin tərəfindən toxunmuş 1816 cüt yun corab və 236 ədəd yun şərf hərbi hissələrə təhvil verilmişdir. (4, 39 s)

Naxçıvan Regional Peşə Tədris Mərkəzində əmək bazarının tələbləri nəzərə alınaraq müxtəlif peşə sahələri üzrə kurslar təşkil olunmuşdur. "Qazanxana maşinisti", "Qaz avadanlıqlarının istismarı və təmiri üzrə çilingər" və "Dayə" peşələri üzrə kursları 81 nəfər bitirmişdir. Sağlamlıq imkanları məhdud uşaqların cəmiyyətə və təhsilə inteqrasiyası diqqət mərkəzində saxlanılmış, aztəminatlı sağlamlıq imkanları məhdud 273 şagirdə qış geyimi verilmişdir. Noyabr ayı tənha yaşayan və başqasının yardımına ehtiyacı olan 422 ahıl və fiziki imkanları məhdud şəxslərə evlərində, həmçinin 16 nəfərə Ahıllar evində stasionar sosial xidmət göstərilmişdir. Naxçıvan Əlillərin Bərpa Mərkəzində sağlamlıq imkanları məhdud 26 şəxsin, Naxçıvan Uşaq Bərpa Mərkəzində sağlamlıq imkanları məhdud 28 uşağın müalicəsi təşkil edilmiş, eyni zamanda 12 nəfərə sanatoriya və pansionatlara göndəriş verilmiş, 13 nəfər sosial məişət şəraitinin yaxşılaşmasına köməklik göstərilmişdir.

Əhalinin sosial rifahının yaxşılaşmasında turizm sahəsinin inkişafının da öz payı var. Belə ki, ötən ilin yekunlarına baxdıqda il ərzində Naxçıvan Muxtar Respublikasına səyahət etmiş turistlərin sayının 403 min nəfər olduğunu görməkdəyik ki, bu da 2015-ci ilin yekunları (390 min nəfər) ilə müqayisədə 3,3 faiz çox deməkdir. Bu rəqəmi 2014-cü illə (378 min nəfər) müqayisə etdikdə isə 6,6 faiz artım olduğunu müşahidə edirik. Göründüyü kimi, muxtar respublikamıza gələn turist sayının artım dinamikası sabit saxlanılıb. Turistlərin Naxçıvana rahat səyahətləri üçün lazımi şəraitin yaradılması, təklif olunan xidmətlərin keyfiyyətinin və qiymətinin turist tələbini ödəməsi, milli və peşəkar qonaqpərvərlikdə formalaşmış müsbət imic səyahət zamanı Naxçıvanı seçən turistlərin sayının artımına müsbət təsir edib.(5, 1s)

Sosial siyasət dövlətin daxili siyasətinin əsas istiqamətlərindən biri olmaqla, ictimai həyatın sosial sahəsi və ayrılmaz hissəsidir.Bu sahəyə həm xalq təsərrüfatının qeyri istehsal sahələri: təhsil, elm, səhiyyə, mədəniyyət və sosial müdafiə, həm də istehsal sahələrin bir çox aspektləri daxildir.

Sosial siyasətin məqsədi cəmiyyət üzvlərinin tələbatlarının tam təmin olunması, onların həyat səviyyəsinin yaxşılaşdırılmasıdır. Sosial siyasətin əsas vəzifələrinin uğurlu həlli bilavasitə dövlətin iqtisadi siyasətindən, ölkənin bazar təsərrüfatının inkişafından asılıdır. Son illərdə muxtar respublikada aparılan iqtisadi və sosial islahatlar o cümlədən pensiya islahatları əhalinin həyat səviyyəsinin yüksəldilməsinə, orta əmək haqqının və pensiyaların orta səviyyəsinin artmasına şərait yaratmışdır.

**ƏDƏBİYYAT**


1. Ə.Q.Əlirzayev Sosial sferanın iqtisadiyyatı və idarə edilməsi, Bakı, 2010, 326 səh.
2. 2016-cı il Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının xülasəsi, Əcəmi, 2017, 63 səh.
3. Naxçıvan Dövlət Statistika Komitəsi
4. Naxçıan Muxtar Respublikası müstəqillik illərində, Əcəmi, 2016, 166 səh.
5. Şərq Qapısı, 15.12.2016


**ABSTRACT**


**Madina Allahverdiyeva**


**The current situation of social sphere in Nakhchivan Autonomous Republic**


Social goals are formed with gathered combinations of events, mechanisms, circumstances which have been directed to welfare of humans and are relevant to its public demand system. The main purpose of social fields is to develop tangible and service sphere which create circumstances in order to increase living

level of people and to create production, exchange, division, usage processes which are relevant to demand of people. Social sphere is forming division, production and usage processes with people. In modern time the main directions of social and economic development are to create lots of tangible and moral staff of life which is crucial for living and to provide fairer division of it. Social spheres create spiritual values in a sense of essence.

Market economy model which is aimed at sociability is a kind of model that realizes more influential defense of people. It means that it helps people solve social problems such as providing people with free services by government, providing every compatriot with education, medical service rights, solution of unemployment, to decrease level of unemployment, solution of poverty.


**РЕЗЮМЕ**

**Мадина Аллахвердиева**

**Существующая ситуация в социальной сфере Нахчыванской АР**

Социальные цели формируются совокупностью условий, мероприятий и механизмов, направленных на благосостояние человека и соответствующих системе общественных требований. Основной целью социальных отраслей является развитие материальной и обслуживающей сферы, создающей условия для повышения жизненного уровня населения, создание процессов производства, потребления, распределения, обмена в соответствии с требованиями населения. Социальная сфера формирует распределительные, производственные, потребительские отношения с людьми. В современных условиях основными направлениями экономического и социального развития является создание обилия материальных и духовных ценностей, необходимых для проживания, и организация наиболее справедливого его распределения. Социальные отрасли в сущности создают духовные ценности.

Социально направленная модель рыночной экономики является моделью проводящей в жизнь более надёжную социальную защиту населения. Так, она даёт гарантию в решении таких социальных проблем, как оказание бесплатных услуг населению со стороны государства, обеспечение прав каждого гражданина на медицинские услуги и на образование, решение проблемы занятости, снижение уровня безработицы, ликвидация нищеты.



NDU-nun Elmi Şurasının 30 mart 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 07).

Məqaləni çapa təqdim etdi: Fəlsəfə üzrə elmlər doktoru, professor M.Rzayev

**SEVDA AXUNDOVA**
Bakı Slavyan Universiteti
*axundova449@mail.ru*

**UOT: 369.032**

## DÖVLƏT İDARƏÇİLİYİNİN TƏŞKİLİ VƏ ƏSAS PRİNSİPLƏRİ

***Açar sözlər:*** *F. Teylor,L. Urvik, dövlət, idarəetmə, hakimiyyət*
***Key words:*** *F.Taylor, L. Urvik, state, manacment,goverment*
***Ключевые слова:*** *Ф.Тейлор, Л.Урвик, государство,управление, правительство*

Dövlətçilik ölkənin əsas fundamental dəyəridir. Dövlət idarəçiliyi elə bir məfhum, elə bir reallıqdır ki, dövlət hakimiyyət mexanizmi onsuz işləyə bilməz. Dövlət idarəçiliyi dövlət hakimiyyətinin praktikada reallaşdırılmasını təmin edir. Dövlət idarəçiliyinin cəmiyyətin həyatında oynadığı rolu azaltmaq qeyri-mümkündür. Onun müxtəlif tarixi dövrlərdə müxtəlif ölkələrin sosial-iqtisadi inkişafına güclü təsirinin olması mütəxəssislər tərəfindən dəfələrlə qeyd olunmuşdur. Dövlət idarəetməsi əhəmiyyətli dərəcədə ölkənin müasir sosial-iqtisadi vəziyyətini və onun gələcəyinin keyfiyyətini müəyyən edir. Əgər tarixi dəyişikliklərin miqyası genişlənirsə, onda dövlət kimi ictimai orqanizmin dəqiq, fasiləsiz və nizamlı fəaliyyətinin təmin edilməsində idarəetmənin də rolu artmış olur. Hazırkı şəraitdə isə dəyişikliklər cəmiyyətin bütün vacib sferalarını – siyasət, iqtisadiyyat, mənəvi həyat, müxtəlif ceşidli və mürəkkəb ictimai münasibətlər kompleksini əhatə edir, dövlət idarəetməsini rolu əhəmiyyətli dərəcədə artır və ölkədəki vəziyyət əhəmiyyətli dərəcədə idarəetmənin səmərəliliyindən və keyfiyyətindən asılı olur.

Güclü və iş qabiliyyətli hakimiyyət uğurlu dəyişikliklərin birinci şərtidir və stabil, güclü dövlətin yaranmasında bütün vətəndaşlar maraqlıdırlar. Belə hakimiyyət olmazsa, iqtisadi artım üçün şərait yaratmaq, inkişaf etmiş bazar, həqiqi demokratiya, mədəniyyət və mənəviyyat formalaşdırmaq, ölkənin bütövlüyünü qoruyub saxlamaq olmaz.

Dövlət idarəetməsi bazar mexanizmlərinin səmərəsiz və məqsədəuyğun olmadığı hallarda sosial, iqtisadi, ekoloji və digər sahələrin tənzimlənməsini, dövlətçiliyin möhkəmləndirilməsi və ölkənin beynəlxalq aləmdə mövqelərinin güclənməsini təmin etməlidir. Dövlət idarəçiliyini ümumi idarəetmənin digər formalarından fərqləndirən başlıca xüsusiyyətlər aşağıdakılardır:

- Onun hakimiyyətin gücünə əsaslanması
- Bütün cəmiyyətə şamil edilməsi
- Sistemli xarakter daşıması

Bu sistemə milyonlarla insanlar, dövlətin müxtəlif orqanlarında və digər strukturlarında çalışan çoxsaylı vəzifəli şəxslər, eyni ilə icraçılar, yəni bu funksiyanı daşıyan dövlət qulluqçuları da daxildir. Dövlət idarəçiliyində maddi, maliyyə, intellektual, geniş informasiya və s. ehtiyatlardan istifadə olunur. Dövlət idarəçiliyi üçün sistemlilik xüsusiyyəti prinsipial əhəmiyyət kəsb edir. Yalnız sistemliliyin mövcudluğu dövlət idarəçiliyində qarşılıqlı razılaşma, əlaqələndirmə, subordinasiya, müəyyən məqsədyönlülük, rasionallıq və yüksək səmərəliliyin əldə edilməsi üçün zəmin yaradır.

Lakin yeni iqtisadi və siyasi sistemin formalaşmasına maneçilik törədən bir sıra səbəblər də var ki, bunlardan ən başlıcası dövlət idarəçiliyinin səmərəliliyinin aşağı olmasından ibarətdir. Dövlət idarəetməsinin səmərəliliyinin artırılması Azərbaycan dövlətinin gələcəyini müəyyən edən başlıca amil olduğu üçün çox mühüm strateji məsələdir. Buna görə də dövlət idarəetməsinin köklü təkmilləşdirilməsi, iqtisadiyyatda dövlətin iştirakına yenidən baxılması, dövlətin təsərrüfat subyektləri üçün qanunilik, nizam-intizam, davranış normaları baxımından zəmanətçiyə çevrilməsi tələb olunur.

XX əsrə qədər təşkilatların sistemli idarə edilməsi haqqında elmi nəzəriyyələr və fikirlər mövcud olmamışdır. Dövlətdə rəhbər vəzifələrdə çalışanların əsas məqsədi dövlətdən istifadə edərək, daha böyük siyasi hakimiyyətə malik olmaq idi. İdarəetməyə bundan əvvəl görünməyən xüsusi maraq Frederik Vinslou Teylorun 1911-ci ildə "Elmi idarəetmə prinsipləri" kitabının nəşr olunması ilə artdı. Məhz bununla idarəetmə elminin əsası qoyuldu və qəbul olundu ki, idarəetmə də ayrıca elm kimi tədqiq olunmalıdır. İdarəetmə elminin təkamül tarixində idarəetmə məktəbləri və idarəetməyə yanaşmalar meydana gəldi. İdarəetmə məktəbləri və yanaşmaları fəaliyyət sahəsindən asılı olmayaraq, bütün təşkilatlara, o cümlədən dövlətə də təsir göstərdi və dövlət idarəetməsində həmin nəzəriyyələrin ayrı-ayrı elementlərində istifadə edilməyə başlandı. Teylorizm məktəbinin müasir davamçıları idarəetmənin aşağıdakı dörd prinsipini fərqləndirirlər:

1. Elmi tədqiqat və işin təhlili, onun elementləri, standartları və qiymətləndirilməsi;
2. Elmi seçim, treninq və birinci dərəcəli işçilərin hazırlanması;

3. Antiyunionizm – elmi iş prinsipləri naminə dostcasına, ürəkdən birləşmə;
4. Məsuliyyətin yalnız işçilər arasında deyil, həm də funksional sahələrə görə menecerlər arasında bərabər bölgüsü.

Teylorun prinsiplərini dövlət qulluğu ilə aşağıdakı kimi əlaqələndirə bilərik:

1. Dövlət qulluğunun idarə olunması zamanı bütün sistem elementləri təhlil olunmalı, qiymətləndirmələr həyata keçirilməli və elementlərin fəaliyyət standartları müəyyən edilməlidir;
2. Dövlət qulluqçuların seçimi, planlaşdırılması, kadrların hazırlanması və s. elmi metodlar əsasında həyata keçirilməlidir;
3. Dövlət qulluğu sistemində kadrların kollektiv işləmə qabiliyyətinin olması çox əhəmiyyətlidir;
4. Dövlət idarəçilik sistemini səmərəli idarə etmək üçün ayrı-ayrı sahələrin idarə edilməsi üzrə ixtisaslaşmış orqanlar olmalıdır (məsələn, Təhsil Nazirliyi, Səhiyyə Nazirliyi, Maliyyə Nazirliyi və s.)

Telorizmdən sonra inkişaf etmiş məktəb "İnzibati idarəetmə" və ya "Klassik idarəetmə" məktəbidir. Bu məktəb 1920-1950-ci illərdə inkişaf etmişdir. Müasir dövrdə bu idarəetmə məktəbini əvəz edən yeni məktəblər olsa belə, idarəetmənin, xüsusilə inzibati idarəetmənin əsasları məhz bu məktəblə qoyulmuş, idarəetmə funksiyaları, prinsipləri yaranmış, idarəetməyə sistemli yanaşma meydana gəlmiş və bu gün də bunlardan idarəetmədə səmərəli istifadə olunur. İnzibati idarəetmə məktəbinin banisi olan Anri Fayolu (1841-1925) bəzən idarəetmə elminin atası da adlandırırlar. O, Fransada böyük kömür emalı şirkətinin rəhbəri olmuşdur. Fayoldan başqa bu məktəbin nümayəndələri Lindall Urvik (İngiltərədə idarəetmə üzrə məsləhətçi idi), Ceyms D. Muni və başqaları olmuşlar. Lindall Urvik Fayolun inzibati idarəetməyə aid ilkin ideyalarını birləşdirərək hərtərəfli inzibati idarəetmə nəzəriyyəsi yaratmışdır.

İnzibati idarəetmə məktəbinin nümayəndələri təşkilatların ümumi xarakteristikalarını və qanunauyğunluqlarını müəyyən etməyə cəhd göstərərək, səmərəli idarəetmə yollarını müəyyən etməyə çalışırdılar. Əsas məqsəd idarəetmənin universal prinsiplərini yaratmaq idi. Əlbəttə, əgər bu prinsiplərə riayət olunarsa, səmərəli idarəetməyə nail olmaq olar. Ədəbiyyatlarda "Anri Fayolun on dörd prinsipi" adı ilə məşhur olan və müasir dövrdə də öz əhəmiyyətini itirməyən prinsiplər aşağıdakılardır:

1. Əmək bölgüsü – İxtisaslaşma təbii haldır. Əmək bölgüsünün məqsədi eyni qüvvə sərf etməklə həcminə görə daha böyük, keyfiyyətinə görə isə daha yüksək işləri həyata keçirməkdir. Buna diqqətin və qüvvənin sərf olunduğu məqsədlərin ixtisar olunması yolu ilə nail olmaq olur; Dövlət qulluqçuları dövlət qulluğuna qəbul olunduğu gündən müəyyən vəzifə səlahiyyətlərini həyata keçirməyə başlayır. Bütün dövlət qulluqçularının vəzifə və səlahiyyətləri eyni deyildir. Dövlət qulluqçuları arasında əmək bölgüsü aparılmışdır bu da dövlət qulluqçularının müəyyən sahə üzrə iztisaslaşmasına və fəaliyyətini daha səmərəli həyata keçirilməsinə təsir edir.
2. Səlahiyyət və məsuliyyət – Səlahiyyət əmr vermək hüququdur, məsuliyyət isə onun əksidir. Səlahiyyət verilən yerdə məsuliyyət əmələ gəlir; "Dövlət qulluğu haqqında" qanunun maddələrində də dövlət qulluqçularına verilən hüquqlar və onların məsuliyyətləri haqqında bəndlər vardır. Dövlət qulluğu prinsiplərində də göstərilir ki, yuxarı dövlət orqanlarının və vəzifəli şəxslərin öz səlahiyyətləri hüdudlarında qəbul etdikləri qərarların aşağı dövlət orqanları və vəzifəli şəxslər tərəfindən yerinə yetirilməsi mütləqdir. Dövlət qulluqçusu qulluq borcunun yerinə yetirilməsi üçün cavabdehdir, eləcə də dövlət orqanı dövlət qulluqçusunun hərəkətlərinə görə cavabdehlik daşıyır.
3. Qayda-qanun – Qayda-qanun təkilat və onun işçiləri arasında bağlanmış sazişə əməletmə və hörmət deməkdir. Qayda-qanun prinsipi həm də ədalətlə tətbiq olunmuş sanksiyaları özündə nəzərdə tutur; Dövlət qulluqçuları ilk növbədə bütün fəaliyyətlərini normativ-hüquqi aktlara uyğun həyata keçirilməlidir. Digər tərəfdən hər bir dövlət qulluqçusu özündən yuxarıda duran dövlət orqanının və dövlət qulluqçularının qanuni göstərişlərini yerinə yetirməlidir.
4. Vahid rəhbərlik – İşçi əmrləri yalnız yeganə birbaşa rəhbərdən almalıdır; Dövlət qulluğu sistemi iyerarxik quruluşa malikdir. Dövlət qulluğu sistemində vahid rəhbərliyin olmasının vacibliyi ondan ibarətdir ki, iyerarxiyanın aşağı pilləsində duran dövlət qulluqçularına bütün göstərişlər yuxarıda duran yeganə rəhbər tərəfindən verilərsə, bu zaman göstərişlərdə ziddiyyətlərin olması ehtimalı azalacaq və dövlət qulluqçusu vahid rəhbər qarşısında cavabdehlik daşıdığı üçün onun fəaliyyəti daha səmərəli qurulacaq.
5. İstiqamətin vahidliyi – bir məqsəd üzrə fəaliyyət göstərən hər bir qrupu ümumi plan birləşdirməlidir və həmin qrupun vahid rəhbəri olmalıdır; Müəyyən qrup dövlət qulluqçularını birləşdirən hər hansı fəaliyyət olursa, həmin işin planı hazırlanır və bu dövlət qulluqçuları arasında işin yerinə yetirilməsi üçün əmək bölgüsü aparılır.
6. Şəxsi maraqların ümumi maraqlara tabeliyi – tək işçinin və ya bir qrup işçilərin maraqları ümumi təşkilatın maraqlarından üstün olmamalıdır; Dövlət qulluqçuların məsuliyyəti çox böyükdür, ona görə də dövlət qulluqçularının şəxsi maraqlara uyğun fəaliyyət göstərməsi dövlət idarəçilik sisteminin

effektivliyinə ziyan vura biləcək amillərdən biridir. Dövlət qulluqçularının fəaliyyətini tənzimləyən normativ-hüquqi aktlarda bu prinsip gözlənilir.

7. Əməkdaşların mükafatlandırılması – işçilərin etibarını və dəstəyini təmin etmək üçün onları işlərinə görə ədalətli mükafatlandırmalıdırlar; Dövlət qulluqçuları xidmətlərinə görə dövlət məvacibi almaqla yanaşı mükafatlandırılırlar. Azərbaycanda da bu prinsip "Dövlət qulluğu haqqında" qanunda öz əksini tapmışdır.
8. Mərkəzləşdirmə - əmək bölgüsü kimi, mərkəzləşdirmə də təbiidir. Lakin mərkəzləşdirmənin səviyyəsi konkret şəraitə uyğun müxtəlif olur. Ona görə də mərkəzləşdirmə və əks-mərkəzləşdirmənin düzgün proporsiyası ilə bağlı sual meydana çıxır; Dövlət idarəçiliyində mərkəzləşmə əsas amillərdən biridir. Azərbaycanda hakimiyyətin üç qolu vardır və hər bir dövlət orqanı sisteminin alt sistemləri və elementləri mövcuddur. Dövlət qulluqçuları da dövlət orqanlarına tabedirlər.
9. Skalyar zəncir – skalyar zəncir – ən yüksək vəzifəli rəhbərdən başlarayaq, ən aşağı səviyyəli rəhbərin daxil olduğu şəxslərdən ibarət zəncirdir. Qeyd olunur ki, müəyyən ehtiyac olmazsa, iyerarxik sistemdən imtina etmək lazım deyil. Digər tərəfdən, əgər mövcud iyerarxik sistem təşkilatın maraqlarına ziyan gətirərsə, həmin iyerarxik sistemi də istifadə etmək düzgün deyil; halda iyerarxik quruluşun stabilliyi dövlət qulluqçularının da fəaliyyətinin səmərəli qurulması üçün olmalıdır. İyerarxik quruluş dövlət orqanının fəaliyyətinə yalnız ziyan gətirdiyi halda ondan imtina etmək lazımdır.
10. İntizam – hər şey üçün yer və hər şey öz yerində olmalıdır; Dövlət qulluqçuları xidmət etdiklərin dövlət orqanlarının daxili nizam-intizam qaydalarına riayət etməlidirlər, digər tərəfdən isə ümumiyyətlə, dövlət orqanlarında hər bir şey müəyyən elmi əsaslarla dövlət idarəçiliyinin effektivliyinə nail olmaq üçün həyata keçirilməlidir.
11. Ədalət – mərhəmət və düzgün mühakimənin olması; Dövlət qulluqçuları vətəndaşlar və özündən yuxarıda duran dövlət qulluqçuları qarşısında məsuliyyət daşıyırlar. Vətəndaşlar və yuxarı pillədə duran dövlət qulluqçuları da aşağı pillələrdə duran dövlət qulluqçularının fəaliyyətini ədalətlə mühakimə etməlidirlər.
12. İşçilərin iş yerinin stabilliyi – təşkilarda kadr axıcılığının yüksək olması təşkilatın effektivliyini azaldır; Bu prinsipin bir çox dövlətlərdə dövlət qulluğu sahəsində qanunlarda öz əksini tapmışdır. Azərbaycanda da dövlət qulluqçuların stabilliyi dövlət idarəçiliyi üçün müsbət nəticə verə bilər.
13. Təşəbbüs – təşəbbüs planın işlənib hazırlanması və onun reallaşdırılması deməkdir. Bu təşkilata qüvvə və enerji verir; Müəyyən dövlət qərarları, planlar, proqramlarının hazırlanması dövlət qulluqçularına tapşırılan və ya dövlət qulluqçularının öz təşəbbüsü əsasında səlahiyyətlərinə aid olan işlərin həyata keçirilməsi dövlət idarəçiliyində müsbət nəticənin əldə olunmasına təsir edə bilər.
14. Korporativ ruh – Birlik – bu güc deməkdir. Bu işçilərin hormoniyasının nəticəsidir.

Dövlət qulluğu fəaliyyətini həyata keçirərkən dövlət qulluqçularının işinin birgə təşkili və onların işinin əlaqələndirilməsi dövlət qulluğunda səmərəli nəticələrə gətirib çıxarar.

Bu prinsiplər iki aspektə toxunurlar:

Təşkilatın idarə edilməsinin rasional sisteminin işlənib hazırlanması ilə bağlı prinsiplər.

Fayol idarəetmə elminə verdiyi əsas töhfəsi idarəetməyə universal proses kimi baxılmasıdır. Onun fikrincə, idarəetmə prosesi bir-biri ilə əlaqəli olan bir neçə funksiyadan ibarətdir:

1. Proqnozlaşdırma və planlaşdırma – gələcəyi öyrənmək və hərəkət planlarını müəyyən etmək;
2. Təşkil etmək – planı icra etmək üçün təşkilati struktur, resurslar və işçilərlə bağlı işləri həyata keçirmək;
3. Əmr etmək – işçilər arasında fəaliyyəti bölüşdürmək;
4. Koorsinasiya – birləşdirmək, fəaliyyəti və cəhdləri birləşdirmək və harmonik etmək;
5. Nəzarət – fəaliyyətin müəyyən olunmuş təcrübə və siyasətə uyğun həyata keçirilməsinə fikir vermək.

- Təşkilatın strukturunun qurulması və işçilərin idarə edilməsi ilə bağlı prinsiplər.

Avropada dövlət idarəetmə sisteminin təşkili və idarə edilməsində tətbiq olunan, inzibati sistem və vətəndaşlar arasındakı münasibətləri tənzimləyən qaydaları və prinsipləri aşağıdakı kimi qruplaşdırmaq olar:

- Etibarlılıq və öncədən görülə bilmək imkanının olması (hüquqi əminlik);
- Açıqlıq və şəffaflıq;
- Hesabatlılıq;
- Səmərəlilik və nəticəlilik.

Bu prinsiplər Avropa ölkələrinin normativ-hüquqi sənədlərində öz əksini tapır, bu ölkələrin, o cümlədən daim inkişaf edən Avropa İttifaqının dövlət idarəetmə sistemi möhkəmlənərək müasir şəraitə uyğunlaşır. Avropa İttifaqında dövlət idarəetmə sistemini tənzimləyəcək, prosedur və təşkilati məsələlərə cavabdehlik daşıyan heç bir formal rəsmi orqan və rəsmi imzalanmış "acquis communautaire" yoxdur. Lakin Avropa İttifaqı üzrə dövlətləri bu prinsipləri "acquis" kimi qəbul edir və ona əməl edir. Həmin prinsiplərə daha geniş nəzər yetirək:

**Etibarlılıq və öncədəngörüləbilənlik**. Dövlət idarəetməsinin etibarlılığını təmin etməyin çoxcəhətli mexanizmi hüququn aliliyi prinsipindən ibarətdir. Qanunun aliliyinin mahiyyəti ondan ibarətdir ki, dövlət idarəetmə orqanları öz funksiya və öhdəliklərini qanuna uyğun olaraq yerinə yetirməlidirlər. Hüququn aliliyi prinsipinin tətbiqi səlahiyyət anlayışı ilə sıx bağlıdır. Dövlət hakimiyyət orqanları yalnız onların səlahiyyətlərinə aid edilmiş məsələlər üzrə qərar qəbul edə bilərlər. Bu həm də onların cavabdehliyini müəyyənləşdirir.

Dövlət idarəetməsinin vaxtında həyata keçirilməsi etibarlılıq və öncədən görülə bilənlik prinsipinə yardım edir. Qərar qəbulunda və zəruri tədbirlərin görülməsində gecikmələrin olması narazılıqların yaranmasına səbəb olar, ictimai və şəxsi maraqlara ziyan vura bilər. Belə gecikmələr çox vaxt dövlət qulluqçularının səriştəsizliyi və səmərəsiz fəaliyyəti ilə bağlı olur. Buna görə də dövlət qulluğunun peşəkarlığı dövlət idarəetməsinin etibarlılığına kömək edir. Dövlət qulluğunun peşəkarlığı qərəzsiz və peşə müstəqilliyinə əsaslanır. Dövlət qulluqçularına özlərinin maraqlı olduğu və istənilən tərəfin maraqlarını təmsil etdikləri işlərlə bağlı qərar qəbulunda iştirakını qadağan edən hüquqi normalar qərəzsizliyi gücləndirməyə kömək edir. Dövlət qulluğunda vəzifələrə təyinetmə və qulluqda irəliləmənin siyasi patronaja və ya proteksionizmə əsaslanan sistemlərindən imtina edilməsi və peşəkarlıq keyfiyyətləri və nailiyyətlərə əsaslanan sistemlərə keçilməsi dövlət qulluqçularının hüquq və vəzifələrini daha dəqiq müəyyənləşdirir, sistemin açıqlığını və ədalətliliyini təmin edir, etibarlı inzibati tədbirlər sistemi müəyyən etməklə dövlət qulluqçularını korrupsiyadan, məcburetmədən azad edir və onların peşəkarlığına müsbət təsir göstərir. Eyni zamanda qeyd etmək lazımdır ki, dövlət qulluğunun müstəqilliyi heç də tam müstəqil fəaliyyət və fikir azadlığı kimi başa düşülməməlidir. Peşəkarlıq standartları və hüquqi normalar mövcuddur ki, bunlara əməl etmək və onlar əsasında fəaliyyət göstərmək lazımdır.

**Açıqlıq və şəffaflıq**. Açıqlıq idarəetmənin kənar yoxlama üçün açıq olduğunu, şəffaflıq isə onun yoxlama və nəzarət məqsədi ilə “kənar baxış” üçün tam şəffaf olduğunu nəzərdə tutur. Açıqlıq və şəffaflıq bir tərəfdən inzibati tədbirlərlə qarşılaşan hər bir şəxsə bu tədbirlərin nəyə əsasən tətbiq olunduğunu öyrənməyə imkan verir, digər tərəfdən isə nəzarət orqanlarına yoxlamalar aparmağı asanlaşdırır. Açıqlıq və şəffaflıq eyni zamanda qanunun aliliyinin, qanun qarşısında bərabərliyin və hesabatlılığın təmin olunmasının zəruri alətidir.

Ümumiyyətlə, dövlət idarəetməsinin həyata keçirilməsi açıq və şəffaf olmalıdır. Yalnız müstəsna məsələlər, məsələn milli təhlükəsizliklə bağlı suallar gizli və məxfi qalmalıdır. Şəxsi məlumatlar da üçüncü şəxsə verilməməlidir. Əslində isə dövlət orqanları lazım olduğundan daha çox məsələləri məxfi elan etməyə çalışırlar. Qeyd edək ki, XVIII əsrin sonlarından başlayaraq, İsveç istisna olmaqla demək olar ki, bütün dövlətlərdə məxfilik və ehtiyatlılıq dövlət idarəetməsinin ənənəvi norması olmuşdur. XX əsrin 60-cı illərindən başlayaraq digər demokratik ölkələrdə də hökumətin açıqlığına diqqət yetirməyə başladılar ki, bu da hazırda dövlət idarəetməsinin, xüsusilə qiymətli və vacib norması hesab edilir. Əvvəllər demokratik qərb ölkələrinin əksəriyyətində açıqlıq prinsipi aşağıdakı qaydada həyata keçirilirdi: əvvəla, normativ hüquqi aktlar yalnız rəsmi mətbuatda dərc olunduğu gündən qüvvəyə minirdi, inzibati qərarların icrasına isə yalnız bu qərarların aid olduğu şəxslərə məlumat verildikdən və rəsmi sübut olunduqdan sonra icazə verilirdi.

Açıqlıq və şəffaflıq iki vacib funksiyanı yerinə yetirir. Bir tərəfdən onlar yanlış idarəetmə və korrupsiyanı azaltmaqla cəmiyyətin maraqlarını müdafiə edir, digər tərəfdən isə şəxsi hüquqların müdafiəsinin mühüm aləti olub inzibati qərarlar haqqında izahat verilməsini tələb edir və bununla da maraqlı tərəflərə qərarlardan şikayət etmək və ona yenidən baxılmasını tələb etmək imkanı verir.

Bu prinsiplər bir sıra üsullarla tətbiq edilir. İnzibati tədbirlər əsaslandırılmış olmalı və səlahiyyətli orqanlara tapşırılmalıdır. İctimaiyyət dövlət registrlərinə açıq çıxış imkanlarına malik olmalıdır. Hakimiyyət nümayəndələri ictimaiyyətlə ünsiyyətə başlamazdan əvvəl özlərini təqdim etməlidirlər. Dövlət qulluqçuları sahibkarlıq fəaliyyətindən gəlirlərin müəyyən dərəcədə məhdudlaşdırılması ilə razılaşmalı, onlar haqqında qabaqcadan xəbər verməli və yerinə yetirilməsinə icazə almalıdırlar. Açıqlıq prinsipinin tətbiqinin ən mühüm xüsusiyyəti ondan ibarətdir ki, dövlət idarəetmə orqanları həmişə öz qərarlarını əsaslandırmağa borcludurlar. Normativ akt və ya qərar həmişə səbəblərin qəbulu zamanı əldə rəhbər tutduğu daxili qanunauyğunluğu başa düşməyə və normativ sənəd çərçivəsində mövcud faktlar və onların məzmunu arasındakı əlaqəni müəyyənləşdirməyə kömək edir. Göstərilən səbəblər üçün faktlar və sübutlar gətirilməli, təklif olunan tədbirlər isə əsaslandırılmalıdır ki, bu da maraqlı tərəfə inzibati qərardan şikayətin hazırlanması və verilməsinə imkan yaradır. Bütün bunlar yalnız açıqlıq, şəffaflıq və hesabatlılıq şəraitində mümkündür.

**Hesabatlılıq**. Ümumiyyətlə hesabatlılıq dedikdə, şəxsin və ya orqanın tələb edən şəxs (fiziki və ya hüquqi) qarşısında öz hərəkətlərini izah etməli və əsaslandırılmalı olduğu nəzərdə tutulur. Hər bir orqan öz hərəkətlərinə görə digər inzibati, qanunverici və məhkəmə orqanları qarşısında məsuliyyət daşımalıdır. Hesabatlılıq prinsipinə görə, heç bir orqan digər orqanlar tərəfindən nəzarət və yoxlamadan azad edilə bilməz. Bunun üçün çoxsaylı mexanizmlər mövcuddur: məhkəmə araşdırmaları, yuxarı inzibati orqana şikayət və müraciət, insan haqları üzrə müvəkkilin (ombusmanın) araşdırmaları, xüsusi komissiya və ya şura tərəfindən yoxlamalar, parlament komissiyasının yoxlamaları və s. Hesabatlılıq qanunun aliliyi, açıqlıq və şəffaflıq, qərəzsizlik və qanun qarşısında bərabərlik prinsiplərinə layiqincə əməl olunduğuna əmin olmağa kömək edən alət hesab olunur.

Hesabatlılıq çox vacibdir, çünki bu dövlət idarəçiliyində səmərəlilik, məshuldarlıq, etibarlılıq və öncədən görülə bilmə kimi dəyərlərə (prinsiplərə) əməl olunacağına zəmanət verir.

Dövlət idarəetmə sisteminin hesabatlılığını, dövlət hakimiyyət orqanlarının öz səlahiyyətlərindən qanuna və mövcud qaydalara uyğun istifadəsini təmin etmək üçün nəzarət tələb olunur. Nəzarət institutlarının və mexanizmlərinin köməyi ilə vəzifəli şəxslərin fəaliyyətinin monitorinqi və yoxlanılması həyata keçirilir. Yoxlamanın məqsədi dövlət hakimiyyət orqanlarının nəticəli işlədiyinə, öz funksiyalarını səmərəli, vaxtında yerinə yetirdiyinə, xüsusi və ümumi normativ hüquqi aktlarla müəyyən edilmiş prinsip və proseduralara əməl olunduğuna əmin olmaqdan ibarətdir. Başqa sözlə desək, nəzarət "qanun üzrə idarəetmə" prinsipini təmin etmək məqsədi ilə həyata keçirilir ki, bu da həm ictimai maraqların, həm də insan hüquqlarının müdafiəsinin mühüm alətidir.

Nəzarət təşkilatları və mexanizmləri çox müxtəlif formada və adda ola bilər: məhkəmələr, prokurorluq, ombudsman, daxili və xarici təftiş komissiyaları, müfəttişliklər, standartların təyin olunmasına cavabdeh orqanlar, parlament komissiyaları, kütləvi informasiya vasitələri və s. Bütün bunlar dövlət idarəetməsi və dövlət qulluğunun hüququn aliliyi, şəffaflıq, hesabatlılıq, səmərəlilik və nəticəlilik kimi prinsiplərin gücləndirilməsinə yönəlmişdir. Başqa sözlə desək, onlar ayrı-ayrı insanların hüquqlarının, həmçinin ictimai maraqların müdafiəsinə, qərar qəbulu prosesinin keyfiyyətinin yüksəldilməsinə və nəhayət dövlət idarəetməsinin etibarlılığının, təhlükəsizliyinin və qanunçuluğun gücləndirilməsinə yönəldilmişdir. Heç bir sosial sistemdə dövlət idarəçiliyində olduğu qədər müxtəlif nəzarət və yoxlama formaları mövcud deyildir. Bu, dövlət idarəetməsi və dövlət qulluğunun müasir demokratik cəmiyyətlərində xüsusi rol oynadığını göstərir.

**Səmərəlilik və nəticəlilik**. Hesabatlılığın özünəməxsus ölçmələrindən biri idarəetmə fəaliyyətinin səmərəliliyindən ibarətdir. Dövlət idarəetməsi və dövlət qulluğu üçün səmərəliliyin vacib və dəyərli olduğu nisbətən son dövrlərdə etiraf olunmağa başlanılmışdır. Məhsuldarlığa gəldikdə isə dövlət idarəetməsində bu anlayışdan dövlət xidmətlərinin istehsalı və göstərilməsinə müntəzəm olaraq başlandığı vaxtdan istifadə olunur. Bu gün bir çox ölkələrdə idarəetmə fəaliyyətinin səmərəliliyi və nəticəliliyinin öyrənilməsinə getdikcə daha çox diqqət yetirilir. Səmərəliliyin mahiyyətini istifadə olunan resurslarla alınan nəticələrin ən yaxşı nisbətini təmin edən idarəetmə bacarığı kimi ifadə etmək olar. Nəticəlilik isə ictimai problemlərin uğurlu həllini, qanunvericilik və hökumət tərəfindən dövlət idarəetmə sistemi qarşısında qoyulan məqsədlərə nail olmanı təmin etmək kimi başa düşülür. Nəticəlilik mövcud dövlət siyasətinin, həmçinin bu siyasətin dövlət idarəetmə sistemi və dövlət qulluğu tərəfindən necə yerin yetirildiyinin təhlili və qiymətləndirilməsini nəzərdə tutur. Son dövrlərdə dövlət idarəetməsinin səmərəliliyi və nəticəliliyi prinsipi qərbi avropanın bir sıra ölkələrinin konstitusiyasında (məsələn, 1978-ci ildə İspaniyada) öz əksini tapmışdır.

İdarəetmə fəaliyyətinin xüsusiyyəti kimi səmərəlilik qanunun aliliyi prinsipi, həmçinin cəmiyyətin siyasi, demokratik dəyərlərini əks etdirən prosedur və qaydalara əməl olunması ilə sanki zidiyyət təşkil edir. Dövlət sektorunun menecerləri çox vaxt normativ-prosedur qaydalarını səmərəliliyə maneələr kimi hesab edirlər. Təsdiq olunmuş proseduralara əməl olunması resurslardan qənaətlə istifadəyə uyğun gəlməyə bilər və xərclərlə idarəetmə tədbirlərinin nəticələri arasındakı nisbətə mənfi təsir göstərə bilər. Bu ziddiyyət böyük problemlərə səbəb olur. Lakin bu münaqişənin müəyyən institusional və hüquqi yolları mövcuddur. Institusional tədbirlər içərisində xidmətlərin istehsalı və göstərilməsinin müqavilə yolu ilə özəl sektora verilməsini qeyd etmək olar ki, bu zaman dövlət idarəetməsi siyasətin hazırlanması və müqavilə şərtlərinə əməl olunmasına nəzarəti öz əlində saxlayır.

## ƏDƏBİYYAT


1. Taylor F.W Shop management. New York,USA,1903
2. Kanigel.R. The One Best Way: Frederick Winslow Taylor and the Enigma of Efficiency, New York, USA ,1997


## ABSTRACT


Scientific management is a theory of management that analyzes and synthesizes workflows. Its main objective is improving economic efficiency, especially labor productivity. It was one of the earliest attempts to apply science to the engineering of processes and to management. One early approach to scientific management is known as Taylorism after its founder.[1]

Its development began in the United States with Frederick Winslow Taylor in the 1880s and '90s within the manufacturing industries. Its peak of influence came in the 1910s; by the 1920s, it was still influential but had entered into competition and syncretism with opposing or complementary ideas.Although scientific management as a distinct theory or school of thought was obsolete by the 1930s, most of its themes are still important parts of industrial engineering and management today. These include analysis; synthesis; logic; rationality; empiricism; work ethic; efficiency and elimination of waste; standardization of best practices; disdain for tradition preserved merely for its own sake or to protect the social status of particular workers with particular skill sets; the transformation of craft production into mass production; and knowledge transfer between workers and from workers into tools, processes, and documentation.



NDU-nun Elmi Şurasının 30 mart 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 07).

Məqaləni çapa təqdim etdi: Fəlsəfə üzrə elmlər doktoru, professor M.Rzayev

**FLORA KƏRİMOVA**
*Naxçıvan Dövlət Universiteti*
*flora.kerimova.80.@mail.ru*

**UOT: 37.035.4**

# VƏTƏNDAŞ CƏMİYYƏTİNİN FORMALAŞMASINDA AİLƏLƏRİN YERİ VƏ ROLU

***Açar sözlər:*** *cəmiyyət,dövlət, ailə,əxlaq, nigah,*
***Key words:*** *society,state,family, morality,marriage*
***Ключевые слова:*** *общество, государство, семья, мороль, бракосочетание*

Müstəqil Azərbaycan cəmiyyətində bütün sahələrində olduğu kimi Azərbaycan ailələrinə göstərilən diqqət və qayğı, onlara yaradılan hərtərəfli şərait dövlət siyasətinin prioritet istiqamət -lərindən biridir.Vaxtilə Ulu öndər Heydər Əliyev bütün sahələrdə olduğu kimi bu sahəyədə xüsusi diqqət ayırmış, ailələrin uşaq və yeniyetmələrin sağlam, bilikli və hərtərəfli böyümələri yönündə dövlət bir sıra tədbirlər həyata keçirmiş, fərman və sərəncamlar imzalamışdır.

Bu gün qloballaşma və modernləşmə şəraitində ailələr texnoloji və iqtisadi inkişafın gətirdiyi müxtəlif problemlərlə qarşılaşır. Qərb cəmiyyətində müşahidə olunan mənfi dəyişikliklər bir sıra ənənəvi dəyərlərin itirilmsinə səbəb olur. Dünya millətlərinin bəziləri artıq ailə institunu bir dəyər kimi deyil, investisiya vasitəsi kimi qəbul etməyə başlamışlar. Qlobal səviyyədə ailə həyatı innovasiyaların təhdidi altındadır, mənəvi dəyərlərin zəifləməsi ailənin sosial statusuna fundamental təsir göstərir. Bir sıra ölkələrdə demoqrafik problemin kəskinləşməsi danılmaz faktdır.

Artıq ailə institutunun cəmiyyətdəki mövqeyinin möhkəmləndirilməsi, cəmiyyətin saflığının və əxlaqi dəyərlərin qorunması, gələcək nəsillərə ötürülməsi dünyada aktual problemdir. Ailənin mahiyyəti görkəmli şəxsiyyətlərin, elm və dövlət xadimlərinin fikirlərində də əks olunmuşdur. Ümummilli lider Heydər Əliyev ailənin cəmiyyətdəki rolunun xüsusi olaraq qeyd edirdi: “Ailə dəyərləri, ailə ənənələri, milli-mənəvi dəyərlərimizə sədaqət, uşaqların müasir səviyyədə tərbiyəsi mühüm əhəmiyyət kəsb edir”.(1, s 7)

Azərbaycan ailəsi həmişə uzun ömürlülüyü və möhkəmliliyi ilə seçilib. Bu, əsasən milli-mənəvi dəyərlərin, adət-ənənələrin qorunub saxlanılmasından, müasir dövrə uyğunlaşdırılmasından irəli gəlir. Məhz buna görə də Azərbaycan ailəsi dünyada ən yaxşı ailə modellərindən biri hesab olunur. Tarixən ailələr cəmiyyətin milli mentalitetində mühüm yer tutmuş, sosial strukturun ayrılmaz elementini, vətəndaş cəmiyyətinin özəyini təşkil etmişdir. Milli-mənəvi dəyərlər məhz ailədə qorunub saxlanaraq nəsildən-nəsilə ötürülmüşdür. Müxtəlif mərhələlərdə ailə institutu tarixi dəyişikliyə məruz qalsa da, bu sahədə mövcud olan fundamental dəyərlər dəyişməz qalmış və müasir dövrə qədər gəlib çatmışdır. Buna görə də Avropaya inteqrasiya etsək də klassik ailə modeli deformasiyaya məruz qalmır. Bir çox Avropa və MDB ölkələrinin vətəndaşları xalqımızın möhkəm ailə ənənələrinə çox böyük rəğbətlə yanaşır. Bəzi ölkələrdə ailə ənənələrinin zəif olması bir sıra sosial-psixoloji fəsadların yaranmasına yol açır ki, bu da, öz növbəsində, cəmiyyətdə deqradasiyanı sürətləndirir. Bütün bu spesifik xüsusiyyətlərin qabarıq şəkildə özünü büruzə verməsi, təbii ki, xalqımızı digərlərindən yaxşı mənada fəqləndirir. Bu əxlaq normaları,İslam və ümumbəşəri dəyərlər məişətimizdə, adət-ənənələrimizdə, həmçinin, folklorumuzun hər bir janrında mühafizə edilir və gələcək nəsillərə ötürülür.

Bu gün dövlət ailə siyasəti Azərbaycan Hökumətinin diqqətində olan mühüm məsələlərdir Ölkə başçısı cənab İlham Əliyev qeyd edir ki, “Güclü ailə-güclü dövlətdir”. Məhz güclü və sağlam ailələr dövlətin əsasını təşkil edir. Ailə nə qədər güclüdürsə, cəmiyyət də bir o qədər möhkəm və toxunulmazdır.

İnsanlar bir-birindən təcrid olunmuş halda yaşaya bilməzlər. Çünki istehsal və istehlak prosesində insanlar öz şüur və iradələrindən asılı olmayaraq bir-biri ilə ictimai əlaqəyə girirlər və bu əlaqələrin yaranması şəraitində cəmiyyət mövcud olur. Bu əlaqələr cəmiyyətin ən mühüm tələbatlarını ödəyir, beləliklədə şəxsiyyətin hərtərəfli inkişafı üçün şərait yaranır. Bu isə insanların ailə həyatına təsir göstərir. Cəmiyyətdə demokratik proseslər inkişaf etdikcə ailə də psixoloji iqlim, həyata baxış ətrafda baş verənlərə münasibət dəyişir və inkişaf edir.

Cəmiyyətdə ailə aparıcı qüvvədir. Bu iki məfhumu bir-birindən ayrı təsəvvür etmək mümkün- süzdür. Cəmiyyətin formalaşmasında insanın tərbiyəsində, ailə ilə yanaşı, sosial mühit də böyük təsirə malikdir. Cəmiyyətdə baş verən dəyişikliklərin, islahat və uğurların ailələrə şamil olma prosesi bütün zamanlarda mövcud olub.

Qloballaşma şəraitində dünyada ailə və cəmiyyətin qarşılıqlı əlaqəsi bir sıra mənfi və müsbət halların yaranmasına gətirib çıxarır. Adətən cəmiyyətdə yaşanan neqativliklər ailənin bəzi üzvləri tərəfindən ailələrə inteqrasiya edilir. Bunun da acı nəticələr verdiyi bəllidir. Xoşagələn hallarla yanaşı, xoşagəlməz hallarda ailələrə daxil olur.

Azərbaycan cəmiyyəti, ailəsi dözümlülük, humanistlik, bir qədər də milli adət- ənənəvilik üzərində dayandığına görə onu elə də böyük təhlükə gözləmir. Ancaq buna baxmayaraq, bu məsələdə ciddi problemlər də çoxdur. Bir çox Azərbaycan ailələri ənənəvi ailə modelini saxlamağa cəhd edir. Zənnimizcə, qloballaşan dünyada ənənəvilik öz yerini möhkəm tutmalıdır ki, yad təsirlər ailəni içindən dağıtmasın.

Bildiyimiz kimi, ailə nigah və qan qohumluğuna əsaslanan qrupdur.Ailə üzvləri bir-birinə məişət birliyi, mənəvi cavabdehlik və qarşılıqlı hörmətlə və s. bağlıdır. Ailə hər bir cəmiyyətin sosial strukturununun mühüm komponenti olub, müəyyən sosial funksiyalar yerinə yetirməklə həmin cəmiyyətin inkişafında əhəmiyyətli rol oynayır. (2, s.117)

İlk baxışdan sadə görünən ailə sözü çox mürəkkəb və dərin məna kəsb edən anlayışdır.Bu anlayış özündə bir çox fikirləri əks etdirir.Ailə cəmiyyətin özəyi hesab olunur və onun əsasını təşkil edir. Ailə kiçik dövlətdir və buna görə də möhkəm təməl üzərində qurulmalıdır.Ailədə qarşılıqlı hörmət və məhəbbət, məsuliyyət, ailənin hər bir üzvünün öz vəzifələrinə əməl etməsi və s. cəhətlər çox əhəmiyyətlidir. Ailədə əxlaqi dəyərlər, hüquqi düşüncə, estetik baxışlar inkişaf etdikcə özünü dərk, mənlik şüuru da dəyişir.Ailə bağlarının möhkəm olması üçün qadının rolu çox böyükdür.Qadın haqlı olaraq ailə ocağının qoruyucusudur, möhkəm ailə isə cəmiyyətin çox mühüm dayaqlarından biridir.Yüksək savad, mədəniyyət,həssaslıq ,ana müdrikliyi, işdə və ev işlərində mənəvi iqlimə çox mühüm təsir göstərir, həyatımızı zinətləndirir və onu qorumağa kömək edir.

Azərbaycan ailələrində gender bərabərliyinin olması, ailə həyatına qayğı, mehribanlıq, məhəbbət, səmimilik, qarşılıqlı anlaşma kimi müsbət amillərin yaranmasında mühüm rol oynayır.Uşaqların demokratik ruhda inkişafı, onların şəxsiyyət kimi formalaşmasının əsasları da ailədə formalaşır.Çox təssüf hissi ilə qeyd etmək olar ki, dünyada təsadüfi tanışlıq nəticəsində dünyaya gələn usaqların sayı xeyli dərəcədə artmışdır.Bu qəbildən olan uşaqların ailə tərbiyəsindən müəyyən çətinliklərin olması, cəmiyyətdə də müəyyən problemlərin yaranmasına səbəb olur. Dövlətin ailə institutları bu məsuliyyəti humanistlik edib öz üzərinə götürür, bu uşaqları dövlət müəssisələrində tərbiyə edib onları cəmiyyətə qovuşdururlar.

Ailə siyasətinə xüsusi diqqət və qayğı ilə yanaşan cənab Prezident İlham Əliyevin Fərmanı ilə yaradılan Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və onun nəzdində fəaliyyət göstərən xeyli sayda Regional Mərkəz alternativ qayğı modeli olaraq ailə, qadın və uşaqlara göstərilən dəstəyi özündə birləşdirir, vətəndaşların müraciəti əsasında onları müxtəlif xidmətlərə yönəldir. Əhali arasında müxtəlif maarifləndirmə işləri aparılır. Mərkəzlər tərəfindən ailələrə psixoloji, hüquqi, tibbi yardım göstərilməsinə köməklik edilir.Əlbəttə ki, Komitənin fəaliyyətinin əsas istiqaməti ailələrə sadəcə yardım göstərmək deyil, eyni zamanda onları ictimai həyata cəlb etməkdir. Bununla əlaqədar ailələrə, xüsusilə qaçqın və məcburi köçkün ailələrinə xarici dil, kompyuter və peşə kurslarında təlimlər keçirilmişdir. Təlimlər nəticəsində ailələrin məşğulluğu artırılır və onların cəmiyyətə inteqrasiyasına yardım edilir, eyni zamanda həyata keçirilən tədbirlərin nəticəsi olaraq qadınlar arasında erkən nikah və məişət zorakılığı halları gündən-günə azalır.

Bunu da qeyd etmək yerinə düşər ki, ailə qurmaq üçün hər iki tərəf buna hazır olmalıdır. Əvvəlcə qarşılıqlı münasibətlər düzgün qurulmalı, ata-ana adını daşıyan, böyük məsuliyyəti öz çiyinlərinə götürən cütlüklər bir-birini anlamalıdırlar. Bəzi hallarda bir-birini tamamlamayan cütlük- lər bir araya gəlir və çox keçmədən müəyyən mənfi nəticələr ilə üzləşirlər.

Uşaqların formalaşmasında onların gələcək həyatlarının qurulmasında ailənin rolu misilsizdir. Ailədə uşaq böyüdükcə sosial münasibətlərə daxil olur,cəmiyyətdə baş verən proseslər haqqında təsəvvürlərə yiyələnir. Həmyaşıdlarına, böyüklərə hörmət və kömək etməyi, öz nöqsanlarını görməyi öyrənir.

Ailələrdə ailə daxili müəyyən problemlərin olması, ailənin özəyini təşkil edən: ər-arvad, ata-oğul, ata-qız, bibi-əmi, dayı-xala, nənə-baba münasibətlərini pozur.Bu uşaqların psixologiyasına vurulan ən böyük zərbədir. Buna görə də boşanma hallarının qarşısını almaq, həyatın bu sınağından uğurla çıxmaq, ailənin tamlığını qoruyub saxlamaq üçün dözümlü, səbrli, təmkinli iradəli olmaq lazımdır.

Fikrimizcə, uğurlu ailənin çətinlikləri heç də uğursuz ailələrdə olduğundan az deyildir. Çətinlikləri aradan qaldırmağı bacaran birgə ömür sürən ailələr uğurlu, həyat imtahanlarından çıxmayan çətinliklərlə mübarizədə təslim olanları isə uğursuz ailələrdir. Ailə problemlərini öyrənən mütəxəssislər sosioloq, psixoloqlar, pedoqoqlar, hüquqşünaslar bu cəhəti yekdilliklə qeyd edirlər. Fikir ayrılığı, məişət problemləri, erkən nigah, müasir dövrdə qloballaşan dünyada sosial şəbəkələrdən aşırı istifadə və s. amillər problemlərin yaranmasına səbəb olur.

Ailə qurarkən yaş həddi də önəmli məsələlərdəndir. Erkən evlilik bir çox problemlər yaradır. Erkən yaşlarda insana evliliyin yükü ağır gəlir və çətin həyat yolunda addımlamaqdan tez yorulur. Bunun üçün də hər iki tərəf həyatda öz yerini, mövqeyini bilməli, üzərinə düşən məsuliyyəti dərk etməli və özünü idarə etməyi bacarmalıdır. Məsuliyyətli, ciddi və bir o qədər çətin olan evliliyə tam hazır olduqdan sonra qərarlarını verməlidirlər. Evlənməzdən öncə hər hansı bir peşəyə yiyələnməli iş həyatına qatılmaq önəmlidir. Bu, insana olduqca gözəl təsir bağışlayır və onu təkmilləşdirir.

Cəmiyyətdə sosial, iqtisadi və bioloji problemlərin olmasıda sonda, gənc ailələrin dağılmasına səbəb olur. Bu zamanı ən çox zərər çəkən tərəf məhz uşaqlar hesab olunur. Bu səbəbdən də bütün dünyada boşanma zamanı ən problemli məsələlərdən biri uşağın hansı valideyninin himayəsində qalmasıdır. Ailələrimizdə çox vaxt valideynlər nikah pozularkən uşaqlardan vasitə kimi istifadə edirlər. Bu isə uşaqların psixologiyasına ciddi zərbə vurur.

Ailədə hər kəsin öz yeri, öz hüququ var. Ailədə münasibətləri əxlaqi normalarla tənzimləməklə yanaşlı, hüquq normaları ilə tənzimlənir (3,s.55). Ailə hüquq sisteminin əsas institutları nigah, ailə, ər-arvadın hüquq və vəzifələri, valideynlərin və uşaqların hüquq və vəzifələri və s. kimi məsələləri tənzimləyir (3,s.29). Ailə üzvləri arasında söz azadlığı, qarşılıqlı anlaşma olmalıdır. Uşaqlara şəxsiyyət kimi baxmalı, onların mənəviyyatını alçaltmamalı, təzyiq göstərməməli və fikirləri dinlənilməlidir. Uşaqlar həmişə valideynlərinin zəhmətini qiymətləndirməli, onların əldə etdiklərinin göydən düşmə olmadığını, valideynlərinin zəhmətinin bəhrəsi olduğunu dərk etməlidirlər. Uşaqlar valideynlərinin nəsihətlərinə qulaq asmalı, ailənin qayda və qanunlarına əməl etməlidirlər. Hər bir valideyinin mükafatı onun övladlarının cəmiyyət üçün örnək şəxsiyyət olmasıdır. Cəmiyyətimizin qəbul edə bilmədiyi və barışmadığı hal nigahdan kənar dünyaya gələn uşaqların atılmasıdır. Bunun əsas səbəbi cahillik, ailədə yararan boşluqlar və s. amillərdir. Bəzi qadınlar imtina etdikləri körpələrini daha çox televiziyaların, doğum evinin və ya hansısa binanın girişinə qoymağa üstünlük verir. Özü də yenicə ana olduqları gündən. Belə halların yaranmasının səbəblərindən biri də bəzi gənclərin ailələr ilə bağlı düşüncə tərzlərinin aşağı səviyyədə olmasından irəli gələn amillərdir.

Yuxarıda deyilənləri nəzərə alaraq Dövlət Statistika Komitəsinin rəsmi nigah və boşanmalarla bağlı məlumatlarına nəzər salaq:

- 2008-ci ildə 79964 nigah və 7933 boşanma
- 2009-cu ildə 78072 nigah və 7784 boşanma
- 2010-cu ildə 79172 nigah və 9061 boşanma
- 2011-ci ildə 79172 nigah və 10,6000 boşanma
- 2012-ci ildə 78480 nigah və 11182 boşanma
- 2013-cü ildə 86852 nigah 11 30 boşanma
- 2014-cü ildə 84 912 nigah, 12 088 boşanma
- 2015-ci ildə 68773 nigah, 12764 boşanma
- 2016-cı ildə 11 ayı ərzində 60800 nigah , 12000 boşanma faktı qeydə alınıb.

Mütəxəsislərin araşdırdıqları faktlar onu göstərir ki, bu gün ailələrdə kifayət qədər düşündürücü hallarda mövcuddur. Fikrimizcə, ailənin təməli, gələcək taleyi, bu həyatın uğurlu olması qadın və kişinin mövqeyidən asılıdır. Hər iki tərəf ailənin bütövlüyünü qorunmalıdır.

Cəmiyyətdə qloballaşma prosesləri formalaşıb inkişaf etdikcə müasir tipli ailə modeli dəyişir, inkişaf edir. Müasir ailə modelinin təməlində bir çox prinsiplər dayanır. Bu prinsiplərdən ən başlıcası dünya ailə modellərinin yaranmasıdır. Qeyd etmək yerinə düşər ki, bəzi Azərbaycan ailələri də qloballaşma şəraitində bu modellərdən kənarda qalmır.

Hər bir insan dərk etməlidir ki, müasir cəmiyyətdə hansı ailə modelləri olursa olsun burada ailə mədəniyyəti qarşılıqlı münasibət, bir-birinə hörmət, fikirləri bölüşmək, ağılla yaşamaq, milli adət-ənənələrə hörmət və həmin dövlətin qanunları əsasında rəsmiləşdirilir. Buna görə də hər bir ailə üzvü ailəinin bütövlüyünü saxlamaqla yanaşı, dövlət qarşısında məsuliyyət daşıdıqlarını da dərk etməlidirlər.

Müasir dövrdə cəmiyyətdə əldə edilmiş maddi və mənəvi nailiyyətləri, cəmiyyətin inkişafı ilə bağlı uğurları zamanın tələblərinə cavab verəcək bir səviyyəyə çatmasında kişilərlə bərabər qadınların da böyük rolu olmuşdur. Sivil ölkələrdə olduğu kimi Azərbaycanda da qadın və kişilərin bərabər hüquq və imkanları ölkə Konstitusiyasında təsbit olunub. 2000-ci ildə "Gender bərabərliyinə nail olmaq və qadınların səlahiyyətlərini genişləndirmək Minilliyin inkişaf məqsədlərindən biri olaraq müəyyən edilmişdir.(4,s.272)

Cəmiyyət həyatının elə bir sahəsi yoxdur ki, qadınların fəaliyyəti olmadan orada uğur əldə edilsin. Tarixə nəzər salsaq görərik ki, ayrı-ayrı mərhələlərdə qadına münasibətdən asılı olaraq cəmiyyətdə zərif cinsin rolu da müxtəlif olmuşdur. Filosofların qeyd etdiyi kimi demoqratik mədəni cəmiyyətin qurulmasında qadınların rolu çox böyükdür.

Son illər Azərbaycan cəmiyyətində də gender bərabərliyi ilə bağlı uğurlar əldə olunub. Belə ki, ölkəmizdə qadınların liderlik fəallığı xeyli yüksəlib, dövlət idarəetmə və qərar qəbul etmədə zərif cinsin nümayəndələrinin iştirakı artıb.Qadınlarda kişilərlə yanaşı sosial həyatda ictimai fəallığa can atır dövlət işlərində və seçkili orqanlarda təmsil olunurlar. Ekspertlərin fikrincə, qadınların sosial fəallığı cəmiyyətdə sosial münasibətlərin inkişafına müsbət təsir edir.

## ƏDƏBİYYAT


1. Müstəqillik dövründə Ailə siyasətinin formalaşması,ənənələr, perspektivlər, Elmi-praktik konfrans materialları, 7 səh.
2. A.F.Vahidov Sosiologiya Bakı, 2008, 117 səh.
3. R.Hüseynzadə L.Allahverdiyeva Ailə pedoqogikası, Bakı, 2016, səh 29, 55
4. BMT-nin inkişaf proqramı. İnsan ikişafı tədris vəsaiti, Bakı, 2014, 272 səh.
5. http://azertag.az/xeber/Nikah ve bosanmalar statistika


## ABSTRACT


**Flora Karimova**

**The role and place of families in the formation of civl society**

In the article the most pressing problem for the modern period, in the globalized world families having a leading force, development of civil society, increasing the role of families day by day in the implementation of reforms, representation of families in the public and private sectors
up to the mark are the main factors acceleration of democracy in Azerbaijan society.

As statedin the article, one of the main issues in the center of social policy in Azerbaijan is the role of familes in formation of legal democratic state,its social women s activity in society and govermance of the state.

Today as in all areas of society in modern Azerbaijan the attention and carve shoved to the Azerbaijan families, comprehensive situation created for them are one of the directions of the priority of the state policy.Because family is a social group of close relatives living together.But it is not true family is considered as an ordinary group.İt is a small social group and primary basis of the community .İn this respect family is counted one of the society s singnificant establishments.

In the article, the role and place of families in the formation of civil society in a legal state are analyzed scientifically valuable recommendations which are of the theoretical and practical importance for the modern period are nominated.


## РЕЗЮМЕ


**Флора Керимова**

**Место и роль семьи в формировании гражданского общества**

В статье рассматривается самая актуальная проблема современности-проблема семьи, являющейся ведущей силой общества глобального мира, оказывающей сильное влияние на развитие гражданского общества, в проведении реформ и представлении семьи на должном уровне в государственном и частном секторах, что обуславливает ускорение демократизации азербайджанского общества, как основной фактор отнощения семьи и государства.

Как отмечено в статье, одним из основных вопросов, стоящих в центре социальной политики в Азербайджане, является роль семей в формировании правового демократического государства, их социальные благополучия, обеспечение гендерного равноправия, повышение активносчти женщин в обществе и государственном управлении, как важные показатели.

Сегодня как и в других сферах современного Азербайджана семьям также оказывается внимание и забота они всестороние охвачены социальными условияши составляющими приоритетные направления социальной политики Азербайджана. Так как роль и место семей очень велика в построении и развитии гражданского общества. Так как семья является социальной группой совместной жизни близких родственников, но рассматривать ее как обычная группа нельзя, она малая социальная группа и и составляет первичное звено общество. В этом отношении семья считается важной структурой общества.

Автор подробно анализирует место и рольсемей в формировании и развитии правового гражданского общества в государстве, выдвивает ценные рекомендации и меющие для современного мира теоретическое и практическое значение.



NDU-nun Elmi Şurasının 30 mart 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 07).

Məqaləni çapa təqdim etdi: Fəlsəfə üzrə elmlər doktoru, professor M.Rzayev

**SEVİL BƏHRƏMOVA**
*AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutu*
*sevil_behremova@mail.ru*

**UOT: 327.8**

# ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN İSLAM DÜNYASININ BİRLİYİ UĞRUNDA MÜBARİZƏSİ

***Açar sözlər:*** *din, islam dünyası, xarici siyasət, dini münaqişə, İslam Konfransı Təşkilatı*
***Ключевые слова:*** *религия, исламский мир, внешняя политика, религиозный конфликт, Организация Исламской Конференции*
***Key words:*** *religion, Islamic world, foreign policy, religious conflict, Organization of Islamic Conference*

Hazırda müsəlman ölkələrini birləşdirən ən nüfuzlu beynəlxalq təşkilat İslam Konfransı Təşkilatıdır (İKT). Beynəlxalq aləmdə bəzən "müsəlman BMT-si" adlandırılan İKT öz üzvlərinin sayına və mütəşəkkilliyinə görə dünya siyasətində xüsusi yeri olan qurumlardan biridir. Dini birlik əsasında yaradılan bu təşkilatın əsas məqsədləri onun Nizamnaməsində qeyd edildiyi kimi, üzv dövlətlər arasında İslami həmrəyliyi möhkəmləndirmək; elm, mədəniyyət, sosial-iqtisadi və başqa vacib sahələrdə əməkdaşlığı dəstəkləmək; irqi ayrı-seçkiliyin və müstəmləkəçiliyin bütün formalarının ləğv olunmasına səy göstərmək; işğal edilmiş müqəddəs yerlərin azad edilməsi və toxunulmazlığının təmin edilməsinə nail olmaq; bütün İslam xalqlarının istiqlaliyyət uğrundakı mübarizəsinə yardım göstərmək; üzv dövlətlərin digər ölkələrlə əməkdaşlığı üçün şərait yaratmaq və s. ibarətdir. Hal-hazırda təşkilat öz sıralarında 58 ölkəni birləşdirir. Bəzi ölkələrin müsəlman icmaları, bir sıra regional və beynəlxalq təşkilatlar İKT nəzdində müşahidəçi statusuna malikdirlər. Məlum olduğu kimi, keçmiş SSRİ-nin müsəlman respublikaları arasında Azərbaycan birinci olaraq İKT-yə üzv olmaq üçün müraciət etmiş və 1991-ci ilin dekabrında təşkilata qəbul edilmişdir. 1994-cü ildə Heydər Əliyev bununla bağlı qeyd edirdi ki, Azərbaycan bu təşkilata üç il bundan əvvəl daxil olsa da, ölkəmizin problemləri orada indiyədək geniş işıqlandırılmayıb, yəni tam aydın olmayıb. (4, s.32). Ötən üç ildə Azərbaycan İKT ilə müəyyən əməkdaşlıq etsə də, bu, çox da səmərəli olmayıb... əgər bu müddət ərzində intensiv işlər görülsəydi, ölkəmizin beynəlxalq aləmdə mövqeyi daha möhkəm olardı, öz müstəqil siyasətini yeritmək üçün o, daha böyük imkanlara malik olardı. Bildiyiniz kimi, bunların hamısı yalnız son vaxtlarda həyata keçirilir. Amma güman edirəm ki, biz gələcəkdə də bu istiqamətdə işləyəcək və nə qədər çətinliklər olsa da, onların qarşısını alacağıq (4, s.38-39).

1994-cü ilin dekabrında Prezident Heydər Əliyev İKT-yə üzv ölkələrin Dövlət və Hökumət başçılarının VII konfransında iştirak etdi. Bu Azərbaycanın dövlət başçısının İKT-nin ali məclisində ilk iştirakı idi. Zirvə toplantısı dekabrın 13-dən 15- dək Kasablanka şəhərində (Mərakeş) keçirilirdi. Heydər Əliyevin Zirvə toplantısındakı dərin məzmunlu nitqi iştirakçılar arasında böyük rezonans doğurdu, toplantı tərəfindən Ermənistanın təcavüzünü pisləyən qətnamələrin qəbul olunmasında həlledici rol oynadı. Zirvə toplantısında çıxışında Heydər Əliyev göstərdi ki, biz haqlı olaraq fəxr edə bilərik ki, İslam dünyası ümumbəşəri sivilizasiyaya öz layiqli töhfəsini vermişdir və neçə əsrdir ki, onun mənəvi inkişafına və təkmilləşdirilməsinə kömək edir. Bu gün dünyada mürəkkəb, ziddiyyətli proseslər getməkdədir: viranedici qlobal müharibənin qarşısının alınması, dünyanın təhlükəsizliyinin yeni təməlinin qoyulması kimi müsbət meyllər regional münaqişələrin artması ilə, yırtıcı millətçiliklə və dövrün başqa bəlaları ilə qarşılaşır. Bizim ölkələrimiz bu proseslərin qaynağındadırlar və biz beynəlxalq təhlükəsizliyin möhkəmlənməsinə, sülh və tərəqqi qüvvələrinin qələbəsinə layiqli yardım etməliyik, öz səylərimizi göstərməliyik. Bunun naminə biz müsəlman ölkələrinin inkişafına mane olan əngəlləri aradan qaldırmalı, bir-birimizə yardım əli uzatmalıyıq, parçalanmanın və təklənmənin qarşısını almalıyıq, dara düşmüş qardaşlarımıza birlikdə kömək etməliyik, qanlı müharibələrin və silahlı münaqişələrin alovunu söndürməliyik. Biz fəxr edə bilərik ki, İslam Konfransı Təşkilatı da məhz bu nəcib məqsədlərə xidmət edir (5, s.19-20).

Bütün dünyada sülhün, təhlükəsizliyin təmin olunmasında İKT üzvü olan dövlətlərin rolunun artırılmasına tərəfdar olduğunu bildirən Azərbaycan dövlətinin başçısı Ermənistanın Azərbaycana təcavüzünü əslində müsəlman dünyasına edilən təcavüz kimi qiymətləndirirdi. Səfər zamanı Azərbaycan Prezidenti bir sıra ölkələrin (Türkiyə, Misir, Küveyt, Birləşmiş Ərəb Əmirlikləri, İordaniya, Pakistan, İran, Səudiyyə Ərəbistanı, Malayziya, Bruney, Fələstin, Maldiv Adaları və s.) dövlət və hökumət başçıları, xarici işlər nazirləri ilə ikitərəfli görüşlər keçirdi. Bu görüşlər Azərbaycanla müxtəlif müsəlman ölkələri arasındakı əlaqələrin inkişafına və genişlənməsinə təkan verdi. Zirvə konfransı bilavasitə Azərbaycanla bağlı iki qətnamə qəbul etdi. Birinci qətnamədə Ermənistanın Azərbaycana təcavüzü 52 müsəlman dövləti tərəfindən pislənilir, Ermənistan silahlı qüvvələrinin, Şuşa və Laçın da daxil olmaqla, işğal edilmiş bütün Azərbaycan torpaqlarından qeyd-şərtsiz çıxarılması tələb olunurdu. Konfransın qəbul etdiyi ikinci qətnamə İKT-yə üzv ölkələri, İslam

təsisatlarını və beynəlxalq təşkilatları təcavüzə məruz qalmış, bir milyondan artıq qaçqını və məcburi köçkünü olan Azərbaycana iqtisadi və humanitar yardım göstərməyə çağırırdı. Əlbəttə, İKT kimi nüfuzlu beynəlxalq təşkilatda Azərbaycanın xeyrinə iki qətnamənin qəbul olunması heç də asan olmamışdı. Ermənistan rəsmi və qeyri rəsmi kanallardan istifadə edərək İslam dövlətlərinin sammitində onun əleyhinə sənədin qəbul edilməsinə səy göstərsə də buna nail olmamışdı.

Azərbaycan Prezidentinin səfərindən sonra İKT ölkəmizlə bağlı məsələləri daha ətraflı müzakirə etməyə, Ermənistan-Azərbaycan münaqişəsi ilə əlaqədar daha təsirli qərarlar qəbul etməyə başladı. Təşkilata üzv ölkələrin xarici işlər nazirlərinin 1995-ci ildə Konakridə, 1996-cı ildə Cakartada keçirilmiş konfransları İKT Baş katibinin Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı məruzələrini müzakirə edərək, Ermənistanın təcavüzünü kəskin şəkildə pislədi. Hər iki konfransın qəbul etdiyi sənədlərdə Ermənistan silahlı qüvvələrinin işğal edilmiş Azərbaycan torpaqlarından təcili sürətdə çıxarılması, Azərbaycan Respublikasının suverenliyinə və ərazi bütövlüyünə hörmət edilməsi tələbi qoyulmuşdu. Qeyd etmək lazımdır ki, Cakartada keçirilmiş XXIV konfransda, ilk dəfə olaraq, İKT-nin 1993-cü ildən etibarən Ermənistan-Azərbaycan münaqişəsinə dair qəbul etdiyi qətnamələrin adı dəyişdirilmiş, “Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında münaqişə haqqında qətnamə” əvəzinə, “Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü haqqında qətnamə” adlandırılmışdı. Cakarta konfransı həmçinin ATƏT-in Dövlət və Hökumət başçılarının Lissabon Zirvə toplantısında ATƏT-in fəaliyyətdə olan sədrinin Dağlıq Qarabağ probleminin həllinə dair bəyanatını dəstəklədiyini bildirmişdi.

İKT və onun qurumları ilə aparılan ardıcıl, məqsədyönlü işlərin nəticəsi olaraq, İslam İnkişaf Bankı 1996-cı ildə Bakıda Beynəlxalq İnvestisiya Konfransı keçirməyi qərara aldı. Konfrans 1996-cı il sentyabrın 21-də keçirildi. Tədbirdə Bankın prezidenti və Direktorlar Şurasının üzvləri ilə yanaşı, 17 ölkədən gəlmiş 180-dək iş adamı da iştirak edirdi (1, s.441). Konfransda çıxış edən Azərbaycan Prezidenti Heydər Əliyev ümidvar olduğunu bildirmişdi ki, İİB-in Azərbaycanda ilk dəfə keçirdiyi yüksək səviyyəli, geniş tərkibli konfrans bankın bütün müsəlman ölkələrindəki, o cümlədən Azərbaycandakı fəaliyyətinə güclü təkan verəcəkdir. O demişdi: “Azərbaycan tarixi köklərinə, adət- ənənələrinə, dini mənsubiyyətinə görə İslam ölkəsidir və İslam ölkələri ilə həm coğrafi nöqteyi-nəzərdən yaxın olduğuna görə, həm də adət-ənənələrimiz bir-birinə bənzədiyinə görə daha da səmərəli əməkdaşlıq etmək imkanına malikdir. İslam ölkələri dünyanın elə məntəqələrində yerləşiblər ki, onların iqlimi də, torpaqları da, təbiəti də, insanları da, insanların xasiyyəti, adət-ənənələri də bir-birinə bənzərdir, bir-biri ilə bağlıdır. Bunlar hamısı ölkələrimiz arasında daha sıx əlaqələr saxlanmasını tələb edir və bunun üçün şərait yaradır… Mən İslam ölkələrinin iş adamlarının, özəl sektorunun Azərbaycana gəlməsini arzulayıram və sizi ölkəmizə dəvət edirəm. İslam İnkişaf Bankının burada daha geniş fəaliyyət göstərməsini arzu edir, ümidvar olduğumu bildirmək istəyirəm ki, bundan sonra da belə olacaqdır” (3, s.362-363).

1997-ci ildə İKT-nin tarixində ilk dəfə olaraq, bir il ərzində Dövlət və Hökumət başçılarının həm növbədənkənar, həm də növbəti konfransları keçirildi. 1997-ci il martın 23-də Pakistanın paytaxtı İslamabadda keçirilmiş növbədənkənar konfransında qəbul edilmiş bəyannamədə Azərbaycan tərəfinin təklifləri də öz əksini tapmışdı. Sənədin 10-cu bəndində Ermənistanın Azərbaycana qarşı təcavüzü ciddi şəkildə pislənmiş, işğal olunmuş ərazilərin azad edilməsinə dair tələb qoyulmuşdu.

İKT-nin VIII Zirvə toplantısı 1997-ci il dekabrın 9-11-də İranın paytaxtı Tehranda çağırılmışdı. Toplantıda 53 ölkənin nümayəndələri iştirak edirdi. Azərbaycan nümayəndə heyətinə dövlət başçısı Heydər Əliyevin özü rəhbərlik edirdi. Toplantı müddətində Heydər Əliyev İslam ölkələrinin dövlət və hökumət başçıları, nümayəndələri, beynəlxalq təşkilatların rəhbərləri ilə 25-dən çox görüş keçirmiş, Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətləri onların diqqətinə çatdıraraq, onları münaqişənin aradan qaldırılması üçün Ermənistana təsir göstərməyə çağırmışdı. Görüşlərdə həmçinin ikitərəfli əlaqələrin genişləndirilməsi məsələləri də müzakirə edilmişdi. Sammitdəki çıxışında Heydər Əliyev dövlət və hökumət başçılarını daha fəal əməkdaşlıq etməyə dəvət etmiş, Ermənistanla münaqişənin ölkəmizə vurduğu ziyandan ətraflı bəhs edərək, İKT rəhbərliyini və üzv dövlətləri Azərbaycanın haqq işinə dəstək verməyə çağırmışdı. İşğalçı Ermənistanın Amerika, Avropa və Rusiyadan mənəvi, siyasi, iqtisadi və hərbi yardım aldığını, 1993-1996-cı illərdə Rusiyanın Ermənistana təmənnasız olaraq 1 mlrd. dollar dəyərində silah, sursat və hərbi texnika göndərdiyini bildirən Azərbaycan Prezidenti vurğulamışdı ki, müsəlman dövlətlərinin həmrəyliyinə, mənəvi və maddi köməyinə Azərbaycan xalqının böyük ehtiyacı var. Dövlət başçısı öz nitqində Ermənistanın təcavüzü nəticəsində yerlərindən didərgin düşmüş, çadırlarda ağır vəziyyətdə yaşayan bir milyondan artıq qaçqına və məcburi köçkünə göstərilən humanitar yardıma görə Türkiyəyə, İrana, Səudiyyə Ərəbistanına, Pakistana, Misirə, Küveytə və Birləşmiş Ərəb Əmirliklərinə dərin minnətdarlığını bildirmiş, İKT-yə üzv olan digər dövlətlərin başçılarından xahiş etmişdi ki, bu sahədə köməklərini artırsınlar (2, s.338-342).Tehran Zirvə konfransı bilavasitə Azərbaycana aidiyyəti olan iki qətnamə qəbul etdi. Heydər Əliyevin təkidli səyləri nəticəsində adı dəyişdirilərək “Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü haqqında” qətnamədə qeyd edilirdi ki, İKT-nin üzvü olan dövlətlər

Ermənistana silah və hərbi sursat verməkdən qəti imtina etməli, onların ərazisindən bu cür yüklərin tranziti üçün istifadə olunmasına yol verməməlidirlər. Sənəddə həmçinin, BMT Təhlükəsizlik Şurasının Ermənistanın təcavüzü ilə bağlı qəbul etdiyi 822, 853, 874 və 884 nömrəli qətnamələrin yerinə yetirilməsi üçün daha təsirli addımlar atması tövsiyə olunurdu. Nəticədə, VII Kasablanka İslam sammitində (1994) qəbul edilmiş qətnamə ilə müqayisədə VIII Tehran İslam sammitinin (1997) qətnaməsi daha geniş və təsirli olmuşdu. Zirvə toplantısının qəbul etdiyi digər qətnamə üzv dövlətləri və İslamtəsisatlarını Azərbaycan hökumətinə və xalqına lazımi iqtisadi və humanitar yardım göstərməyə çağırırdı. Beləliklə, Tehran Zirvə görüşü Azərbaycan diplomatiyasının yeni uğurları ilə əlamətdar oldu. Lakin konfransın gedişi zamanı jurnalistlərə müsahibə verən Azərbaycan Prezidenti iş görmək üçün İKT-nin daha çox imkanlara malik olduğunu söyləyərək təəssüflə qeyd etmişdi ki, bu təşkilat ancaq qətnamələr qəbul edir: "Üç il bundan öncə Mərakeşdə bir qətnamə qəbul edildi, Ermənistan təcavüzkar kimi pislənildi, məhkum olundu və bu, dünyaya elan edildi. Əlbəttə, beynəlxalq aləmdə ictimai rəy üçün bunun əhəmiyyəti var. Ancaq hesab edirəm ki, bu təşkilat səsini daha da gur çıxara bilər, tələb edə bilər ki, Ermənistan silahlı qüvvələri Azərbaycan torpaqlarından dərhal çıxsınlar. Müsəlmanlara qarşı belə təcavüz etməsinlər. İslam ölkələri bir olsalar, bunu edə bilərlər" (2, s.345-346).

Tehran Zirvə konfransından sonra Azərbaycanın müvafiq dövlət orqanları ölkə haqqında həqiqətlərin dünya ictimaiyyətinə və beynəlxalq təşkilatlara çatdırılması üçün İKT-nin imkanlarından daha səmərəli istifadə etməyə başladılar. 1999-cu il iyunun 28-dən iyulun 1-dək Burkina-Fasonun paytaxtı Uaqaduquda İKT xarici işlər nazirlərinin XXVI konfransı ilk dəfə olaraq, iki ənənəvi qətnamə ilə yanaşı, "Ermənistan Respublikasının Azərbaycan Respublikasına təcavüzü nəticəsində Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində İslam tarixi və mədəniyyəti abidələrinin məhv edilməsi və dağıdılması haqqında" qətnamə də qəbul etdi. Bu sənəddə Ermənistan tərəfindən aparılan etnik təmizləmə siyasəti nəticəsində İslam mədəniyyətinə aid misilsiz abidələrin, məscidlərin, məzarlıqların, muzeylərin, kitabxanaların, rəsm qalereyalarının, teatrların, musiqi məktəblərinin tam və ya qismən dağıdılması, talan edilməsi kimi vandalizm aktları qəti sürətdə pislənmiş, üzv dövlətlərin mövqeyi barədə BMT, ATƏT və digər beynəlxalq təşkilatlara məlumat verilməsi İKT Baş katibliyinə tövsiyə edilmişdi. İKT Dövlət və Hökumət başçılarının 2000-ci il noyabrın 11-13-də Qatarın paytaxtı Dohada keçirilmiş IX Zirvə toplantısı da ölkəmizlə bağlı adları yuxarıda sadalanan üç qətnamə qəbul etdi. İKT Baş katibinin məruzəsində, İran Prezidenti M. Xatəminin, Səudiyyə Ərəbistanı, Türkiyə və Banqladeş nümayəndə heyətləri başçılarının çıxışlarında Ermənistanın təcavüzü məsələsinə geniş yer verildi, Azərbaycan Respublikasının mövqeyinin dəstəkləndiyi bəyan edildi. İKT Dövlət və Hökumət başçılarının X Zirvə toplantısı 2003-cü ilin oktyabrında Malayziyanın Putracaya şəhərində keçirildi. Toplantıda Azərbaycan nümayəndə heyəti tərəfindən təqdim edilən üç qətnamə layihəsinin mübahisəsiz, heç bir düzəliş edilmədən qəbul olunması İslam aləminin ölkəmizin problemləri ilə yaxından tanış olduğunu, Azərbaycan xalqının haqq işinə dəstək verdiyini bir daha təsdiq etdi. Yeri gəlmişkən, İKT Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məsələləri daim diqqətdə saxlayan yeganə beynəlxalq təşkilatdır. Bu günə qədər Azərbaycan-Ermənistan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı İKT tərəfindən 20-yə yaxın qətnamə qəbul edilib ki, onların hamısında Azərbaycanın ədalətli mövqeyinə dəstək ifadə olunur. Bu da, öz növbəsində, Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş xarici siyasət kursunun, müsəlman dövlətləri ilə aparılan ardıcıl, məqsədyönlü işin, yaradılan səmərəli əməkdaşlıq əlaqələrinin nəticəsidir (1, s 444).

**Problemin aktuallığı.** Azərbaycanda müstəqilliyin əldə edilməsi ilə dinə marağının, dini icmaların və təşkilatların sayının və fəallığının artmasının nəticəsi olaraq dinin ictimai proseslərə təsiri də artmış oldu. Bütün bunlar Azərbaycanın tarixən formalaşmış xüsusiyyətlərini və yeni dövrün tələblərini nəzərə alınmaqla dövlət-din münasibətlərinin uyğun modelinin formalaşdırılmasını tələb edirdi. Mövzunun aktullığını şərtləndirən mühüm amil bu gün İslam dünyasında baş verən proseslərdir.

**Problemin elmi yeniliyi:** Araşdırılan problem Heydər Əliyevin islam dünyasının birliyi uğrunda apardığı siyasəti sistemli şəkildə araşdırılmışdır.

**Problemin praktik əhəmiyyəti.** Azərbaycan tarixinə dair dərslik, dərs vəsaiti və digər ümumiləşdirilmiş əsərlərin hazırlanmasında, ali və orta ixtisas məktəblərinin müvafiq fakültələrində mühazirələrin oxunmasında, seminarların keçirilməsində və buraxılış işlərinin yazılmasında istifadə edilə bilər.

**Ədəbiyyat**


1. Həsənov Ə.M. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti, Bakı, Azərbaycan, 2005, 752 s.
2. Əliyev H. Müstəqilliyimiz əbədidir, Çıxışlar, Nitqlər, Bəyanatlar, Müsahibələr, Məruzələr, Məktublar, Müraciətlər, XIII kitab, Bakı, Oktyabr, 1997 dekabr, 1997 / Burax. məs. Ramiz Mehdiyev, Bakı, Azərnəşr, 2004, 520 s.
3. Əliyev H., Müstəqilliyimiz əbədidir, Çıxışlar, Nitqlər, Bəyanatlar, Məktublar, Müsahibələr, VII kitab, Bakı, İyun, 1996 noyabr, 1996 / Burax. məs, Ramiz Mehdiyev, Bakı, Azərnəşr, 1998, 520 s.

4. Əliyev H., Müstəqilliyimiz əbədidir, Çıxışlar, Nitqlər, Bəyanatlar, Məktublar, Müsahibələr, III kitab, Bakı, Dekabr, 1994 iyun, 1995/ Burax. məs. Ramiz Mehdiyev, Hidayət Orucov, Bakı, Azərnəşr, 1997, 488 s.
5. Əliyev H. Dinimiz xalqımızın milli-mənəvi sərvətidir, Bakı, Əbilov, Zeynalov və oğulları, 1999, 165 s.

## ABSTRACT

**Sevil Bahramova**

**HEYDAR ALIYEV FIGHTING FOR THE UNION OF ISLAMIC WORLD**

This article is dedicated to the role of the policy of Heydar Aliyev in Azerbaijan's entrance into one of the most influential international organizations of the Islamic World - Organization of Islamic Conference (OIC), close work with the Organization. The article also refers to the ongoing diplomatic negotiations on the return of occupied by Armenia lands of Azerbaijan, located on the Great Silk Road and linking the East with the West.

## РЕЗЮМЕ

**Севиль Бахрамова**

**ГЕЙДАР АЛИЕВ БОРЬБА ЗА СОЮЗ ИСЛАМСКОГО МИРА**

В данной статье говорится о роли политики Гейдара Алиева во вступлении Азербайджана в одну из влиятельнейших международных организаций Исламского мира Организацию Исламской Конференции (ОИК), тесном сотрудничестве с этой организацией. В статье также говорится о проводимых дипломатических переговорах по возвращению оккупированных армянами земель Азербайджанской Республики, расположенной на Великом Шелковом Пути и соединяющей восток с западом.

NDU-nun Elmi Şurasının 30 mart 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 07).

Məqaləni çapa təqdim etdi: Fəlsəfə üzrə elmlər doktoru, professor M.Rzayev

**HAFİZ HÜSEYNOV**

*Naxçıvan Dövlət Universiteti*

**UOT: 339**

# QLOBALLAŞMA DÖVRÜNDƏ AZƏRBAYCANDA YERLİ ÖZÜNÜİDARƏETMƏ İNSTİTUTLARİ

***Açar sözlər:*** *dövlət, cəmiyyət, xalq, bazar, azadlıq, qloballaşma*

***Key words:*** *state, society, nation, market, freedom, globalization.*

***Ключевые слова:*** *государство, общество, народ, рынок, свобода, глобализация*

Müstəqil dövlətimizin memarı Ümummilli liderimiz Heydər Əliyevin gərgin əməyi və misilsiz liderlik keyfiyyətləri sayəsində, eyni zamanda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin uğurlu fəaliyyətinin nəticəsi olaraq bugün qloballaşan dünyada respublikamızda böyük quruculuq və islahatlar proqramı həyata keçirilir.

Məlumdur ki, ölkəmizdə yerli özünüidarəetmə institutlarının yaranması, formalaşması və hüquqi bazası məhz Ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Heydər Əliyevin fəaliyyəti dövründə, 12 noyabr 1995-ci ildə qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyasında ilk dəfə olaraq bələdiyyələrin hüquqi statusu qanun çərçivəsində müəyyənləşdirilib. Dövlətçilik tarixinə mühüm hadisə kimi daxil olan bu tarixi gündən sonra, 1999-cu ilin dekabrında ilk bələdiyyə seçkilərinin keçirilməsi ilə hakimiyyətin əks mərkəzləşməsi prosesinə start verildi. Ümummilli liderimizin səyi ilə dövlət quruculuğu sahəsində aparılan islahatlar nəticəsində və Avropa Şurasının təklifləri nəzərə alınmaqla ölkəmizdə bələdiyyə institutu yaradıldı. Ümummilli lider Heydər Əliyev öz çıxışlarında bələdiyyə institutunun yaranmasına, bu sistemin fəaliyyətinə belə bir münasibət bildirmişdi ki, bələdiyyə seçkiləri Azərbaycanda ilk dəfə keçirilir. Bələdiyyələrin yaranması və onlara seçkilərin keçirilməsi haqqında 1995-ci ildə müstəqil Azərbaycanın qəbul etdiyi ilk Konstitusiyada müvafiq müddəalar öz əksini tapıbdır. Buna görə də bələdiyyələrin təşkil olunması və onun üçün seçkilərin keçirilməsi öncə Azərbaycan Konstitusiyasının əsasındadır və Konstitusiyanın müddəalarının həyata keçirilməsini göstərir. Digər bir çıxışında milli lider belə bir məqama da toxunub ki, biz Azərbaycanda tam müstəqil yerli özünüidarəetmə orqanları yaradırıq. Bu, həm demokratiyanın inkişafı deməkdir, eyni zamanda ölkəni idarə etməkdə vətəndaşlarımıza imkanlar yaranmasının göstəricisidir. Yerli idarəetmə orqanları isə yerlərdə onların səlahiyyətləri çərçivəsində çox işlər görülə bilər. Bələdiyyələr dövlətin də gördüyü işlərin böyük bir hissəsini öz üzərilərində götürəcək, dövlətin də yükünü müəyyən qədər yüngülləşdirəcəklər. Ona görə bələdiyyələrin seçilməsi, onların təşkil edilməsi, gələcək fəaliyyəti bizim cəmiyyətimiz üçün, dövlətimiz üçün və hər bir vətəndaş üçün çox vacibdir.

Göründüyü kimi, ümummilli liderimiz tərəfindən yerli özünüidarəetmə orqanlarını yaradılmasının həm də əhalinin sosial, mədəni və məişət problemlərinin kompleks şəkildə həllinin vaxtında və keyfiyyətlə yerinə yetirilməsi baxımından zəruriliyi gündəmə gətirilib. Vətəndaş cəmiyyətinin əsas atributlarından sayılan yerli özünüidarə orqanlarını elə təşkil etmək tələb olunurdu ki, insanlar öz fəaliyyətində yerli özünüidarəetmə orqanlarının varlığını və zəruriliyini hiss etsin.

Məhz milli liderin tövsiyyəsi və xeyir-duası ilə formalaşan və fəaliyyətə başlayan bələdiyyələr artıq 18 ildir ki, yerli özünüiadrəetmə qurumu kimi özünü təsdiq etməkdədir. Ötən illərin təcrübəsi onların təşəkkül taparaq əhali arasında yüksək nüfuz qazanmasını şərtəndirib. Həmin müddət ərzində bələdiyyələri təmsil edən qurumlar ictimaiyyətdə yerli özünüidarəetmə orqanları barədə müəyyən təəssürat yarada biliblər. Onların bir çoxu isə istər dünya, istərsə də yerli təcrübədən yararlanaraq işini günün tələbləri səviyyəsində qurmağı bacarıb.

Müasir şəraitdə biz ictimai həyatın müxtəlif sahələrində əsaslı dəyişikliklərin şahidi oluruq. Bu proses dünya ölkələrini geniş miqyasda əhatə edərək, onların sosial-iqtisadi yüksəlişində qlobal meyllərlə səciyyələnir. Müasir dünyanın inkişafı, bu mənada, vahid bir üzvi prosesi xatırladır və burada ayrı-ayrı ölkələrin inkişafını bir-birindən təcrid olunmuş halda təsəvvür etmək qeyri-mümkündür.

Keçid dövründə baş verən proseslərin təhlili, ictimai həyatın özünəməxsus bir parametri olaraq, tarixi inkişafın obyektiv gedişində müəyyən rol oynayır. Bu dövr yeni sosial, iqtisadi, siyasi, mənəvi və ekoloji ziddiyətlərin, cəmiyyət və təbiət problemlərinin kəskinləşməsi ilə, digər bir tərəfdən isə onların təsiri altında yeni sosial münasibətlərin yaranması, yeni cəmiyyətin, sosial həyat şəraitinin və tiplərinin formalaşması ilə səciyyələnir.

Son illərdə həm dünya, həm də Azərbaycan elmi ədəbiyyatında belə bir ifadədən tez-tez istifadə olunur: "postsovet sistemli transformasiya". Bu ifadə bəzi ölkələrin, o cümlədən, Azərbaycanın yaşadığı keçid dövrünü daha düzgün səciyyələndirir. Eyni zamanda bu ifadədən məlum olur ki, cəmiyyətdə yeniləşmə prosesi onun bütün sahələrini (iqtisadi, siyasi, sosial, mənəvi) əhatə edir. Dərin təhlil bizə onu deməyə əsas verir ki, Azərbaycanda transformasion proses özündə bir sıra istiqamətləri ehtiva edən çoxşaxəli mürəkkəb prosesdir. Məsələn, iqtisadi həyat sahəsini nəzərdən keçirsək, görərik ki, cəmiyyətimizdə uzun illər ərzində mövcud olmuş iqtisadi prinsiplərdən fərqlənən prinsiplər əsasında yeni iqtisadi sistem formalaşmaqdadır və artıq öz bəhrələrini verməkdədir. Azərbaycan, bir sıra başqa ölkələr kimi, inzibati-amirlik iqtisadi sistemindən sərbəst rəqabətə, mülkiyyət müxtəlifliyinə əsaslanan bazar iqtisadiyyatı şəraitində keçid dövrünü yaşayır. Yeni iqtisadi sistemin qərarlaşması köhnə sterotiplərin ətaləti, yenilərinin isə hələ tam formalaşmaması ilə səciyyələnir. İqtisadi sahədə geniş miqyaslı özəlləşdirmə, kapital yığımı, daxili qiymətlərin liberallaşdırılması, daxili bazarların formalaşması və s. bazar iqtisadiyyatına keçidin özünəməxsus xüsusiyyətlərini təşkil edir.

Qloballaşan müasir dünyada Azərbaycan xalqının maraqlarının daha səmərəli müdafiəsi naminə ölkə iqtisadiyyatının inkişafı üçün müxtəlif layihələrə xarici sərmayələrin cəlb edilməsi də respublikamız üçün müstəsna əhəmiyyət daşımışdır. Bu gün ölkəmiz özünün sülhpərəst siyasəti ilə bütün dövlətlərlə müxtəlif sahələrdə həm ikitərəfli, həm də çoxtərəfli əsasda bərabər və qarşılıqlı faydalı münasibətlərin qurulub inkişaf etdirilməsini həyata keçirir.

Alimlər təsdiq edirlər ki, məhz XX əsrdə qitələrin və regionların arasındakı sərhədləri dağılmışdır. İqtisadi, siyasi, mədəni və elmi-texniki əlaqələr bütün dünyanı əhatə etmişdir. Müxtəlif ölkələrdə yaşayan insanlar müasir nəqliyyat və rabitə vasitələrinin, telefonun, radionun, televiziyanın, kosmik rabitə peyklərinin və yeni yaranmış qlobal kompyuter informasiya şəbəkəsi-intellektin sayəsində bir-biri ilə daha asan ünsiyyət yarada bilirlər.

Qloballaşma – maliyyə bazarlarının genişləməsi, beynəlxalq inteqrasiya olunmuş istehsalın formalaşmasını, texnologiyanın, informasiyanın və elmi-texniki biliklərin milli sərhədlərdən kənarda yayılmasını, ümumi istehlak bazarının və ümumdünya keyfiyyət standartlarının qurulmasını, dünya ticarətinin liberallaşmasını, milli dövlətlər tərəfindən muxtar siyasət yürüdülməsi imkanlarının məhdudlaşdırılmasını özündə birləşdirən çox pilləli və çoxtərəfli prosesdir. İstər-istəməz qloballaşma dünyadakı ən iri sənaye müəssisələri, bank və ölkələrin davranış istiqamətini müəyyən edir.

Müasir dünyamızda baş verən siyasi və iqtisadi hadisələrin bir-birilə qırılmaz tellərlə bağlı olduğu göz özündədir. Bu baxımdan, qloballaşma amillərinin də həm siyasi, həm də iqtisadi faktorlarla bağlı olduğu aşkar və danılmazdır. Avropa dövlətlərinin birlik səyləri və bu istiqamətdə həyata keçirdikləri tədbirlər dünyanın digər bütün dövlətləri üçün örnək ola bilər.

Beləliklə, qlobal iqtisadi problemlərin təsnifləşdirilməsi planetdə insanların nəzarətsiz yayılıb məskunlaşması, cəmiyyətin qeyri-bərabər və yekcins olması, sosial ədalətsizlik, aclıq, yoxsulluğun geniş şəkildə yayılması, enerji böhranı, təbii ehtiyatların potensial çatışmamazlığı, beynəlxalq ticarət və maaliyyə sisteminin süqutu, savadsızlıq və köhnəlmiş təhsil sistemi, gənclər arasında qiyamlar, özgələşmə, şəhərlərin tənəzzülü, cinayətkarlıq, azon boşluğu, terror, siyasi korrupsiya, bürokratizm, qanun və qaydalara tabe olmamaq, ətraf mühitin pisləşməsi, əxlaqi sərvətlərin tənəzzülü, inamın itməsi və s. problemləri də əhatə edir.

Deməli, qlobal iqtisadi problemlərin tədqiqi bir daha inandırıcı şəkildə sübut edir ki, cəmiyyətin işçi qüvvəsi ilə istehsal münasibətləri arasında ziddiyyətlər mövcuddur, bu ziddiyyətləri vaxtında aşkar etmək və həll etməklə bəşəriyyəti bu problemlərin doğurduğu bəlalardan xilas etmək mümkündür.

Qloballaşan dünyada bir çox ölkələrdə yerli məsələlərin həlli ümumi, bərabər, birbaşa seçki hüququ əsasında sərbəst, şəxsi və gizli səsvermə yolu ilə formalaşan yerli özünüidarəetmə orqanları tərəfindən həyata keçirilir. Yerli özünüidaəetmə cəmiyyətin idarə olunmasında vətəndaşların iştirakının formalarından biri, xalq hakimiyyətinin əsasıdır.

Müxtəlif dövlətlərdə yerli özünüidarəetmə orqanları fərqli adlanır. Bu orqanlar Fransada və İtalyada Kommuna, Polşada İcmalar, Danimarkada bələdiyyələr, Portuqaliyada məhəllələr, munisipilər, inzibati vilayətlər adlanır.

Yerli özünüidarəetmə orqanları müstəqildirlər və dövlət hakimiyyət orqanları sisteminə daxil deyillər. Bələdiyyələr öz fəaliyyətini nizamnaməyə uyğun həyata keçirirlər. Bələdiyyələrin nizamnaməsi bələdiyyə iclasları və ya vətəndaşların yığıncaqlarında qəbul edilir. Nizamnamədə bələdiyyənin ərazisi, orqanları, strukturu, səlahiyyətləri, bələdiyyə üzvlərinin səlahiyyət müddəti, iqtisadi və maliyyə əsasları. Bələdiyyə mülkiyyətinə sahibliyin, ondan istifadənin və ona sərəncam verilməsinin qaydaları və s. müəyyən olunur. Bələdiyyələr sosial müdafiə və sosial inkişaf, iqtisadi inkişaf, ekologiya üzrə yerli əhəmiyyətli proqramlar həyata keçirir.

Bələdiyyələr qanunla müəyyən edilmiş ərazi hüdudları daxilində yerli özünü idarəetmə formasıdır. Bələdiyyələrin öz mülkiyyəti, yerli büdcəsi və seçkili bələdiyyə orqanları olur.

Bələdiyyə orqanları dövlət orqanları sisteminə daxil deyil. Bələdiyyə hüququ yerli özünüidarəetmə ilə bağlı məsələləri tənzimləyən hüquqi normalar sistemidir. Bələdiyyə mülkiyyəti hüququ əsasında şəhər və kənd ərazilərinə, həmçinin digər bələdiyyə qurumlarına mənsub olan əmlakdır.

Yerli özünüidarə haqda ilk beynəlxalq sənəd 1985-ci il oktyabrın 15 Avropa yerli və regional hakimiyyət orqanlarının daimi konfransı tərəfindən Strasburqda qəbul edilmiş "yerli özünüidarə haqqında Avropa Xartiyası" dır. Xartiyanın əsas məqsədi yerli özünü idarə orqanlarının hüquqlarının təmin olunması və müdafiəsidir. Xartiyanın əsas istiqaməti yerli özünüidarə orqanlarının muxtariyyət dərəcəsinin demokratiyanın əsas meyarı olmasını göstərməkdir. Azərbaycan Avropa Xartiyasına 2001-ci il dekabrın 12 – də qoşulmuşdur.

Azərbaycanda yerli özünüidarə orqanları bələdiyyələrdir. Bələdiyyələr çoxmandatlı seçki hüquq əsasında sərbəst, şəxsi və gizli səsvermə yolu ilə seçilir. Azərbaycanda ilk bələdiyyə seçkiləri 1999-cu il dekabrın 12-i keçirilmişdir. Bələdiyyələrin səlahiyyət müddəti 5 ildir. Bələdiyyə işinin təşkili "bələdiyyələrin statusu haqqında" Azərbaycan Respublikası qanunu ilə müəyyən edilir. Konstitusiyanın 143 maddəsi Bələdiyyələrin işinin təşkilinə həsr olunmuşdur.

## ƏDƏBİYYAT


1. Əliyev H., Müstəqilliyimiz əbədidir, Bakı, 2013
2. K.A.Şahbazov, Dövlət və bələdiyyə idarəçiliyi, Bakı, 2003
3. Bələdiyyə statusu haqqında, Bakı, 1999
4. Surxayzadə R., Dövlət və bələdiyyə idarəetməsi, Bakı, 2013


## ABSTRACT


**Hafiz Huseynov**


**Local self-managment institutions in Azerbaijan in the period of**


In the article formation of local self-management institutions in Azerbaijan in the process of globalization, problems, appeared difficulties and development of municipalities are analysed scientifically. It is stated that, in globalizing condition economic competition get over national limits and the solution of socialpolitical issues with its character overturn to transnational issue. Suchphenomenon requires fundamental changes in existing rules of state government and policy, thus it results with strengthening the role of local self-management. For learning to solve not only local but also international kina of issues in active and effective form by local leaders, for the purpose of giving autonomy to local self –managements to make several changes in government structures and rules are needed. Nin the article this or that issues are analysed scientifically in modern economic system condition, several recommendations having theortical and practical importance are put forward.


## РЕЗЮМЕ


**Хафиз Гусейнов**


**Местные самоуправленческие институты Азербайджана в период глобализации**


В статье рассматриваются вопросы создания местных самоуправленческих институтов, их проблемы, встречаемые в их формировании и развитии муниципотитета в Азербайджане в процессе глобализации. Обосновывается мысль, что в условиях глобализации экономическая конкуретность перешагивает национальные пределы и решение социально-политических вопросов становится транснациональным вопросом по своей природе.

Такая феноменальная государственная власть требует основательных изменений в существующих порядках и политике, что приводит к усилению роли местных самоуправленческих структур. С целью обучения местных руководителей решения вопросов не только местного характера, но и международного в самой активной и эффективной форме приходится сделать ряд изменений в государственных структурах и существующих порядках.

Те или иные вопросы в статье находят своего научного решения в условиях новой экономической системы, выдвигается ряд рекомендаций, имеющих теоретическое и практическое значение.



NDU-nun Elmi Şurasının 30 mart 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 07).

Məqaləni çapa təqdim etdi: Fəlsəfə üzrə elmlər doktoru, professor M.Rzayev

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2017, № 2 (83)**

NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2017, № 2 (83)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2017, № 2 (83)**

**SADİQ HÜSEYNOV**
*Naxçıvan Dövlət Universiteti*

**UOT: 008.39**

# MULTUKULTURALİZM CƏMİYYƏT AZAD İNSANİ MÜNASİBƏTLƏRİN STİMULU KİMİ

Müasir bəşəriyyət baş verən mədəni universallaşma və unifikasiya proseslərinə əks olaraq mədəni müxtəliflik göstəricisi olan fenomenlərin əsasən də (dil, irq, din, adət-ənənə və s.) qorunması və qayğısını dünya mədəniyyətində balanslaşdırmanın özülü kimi qəbul edirlər. Bu baxımdan laqeydlik, biganəlik, getdikcə yerli-lokal, immiqrant mədəniyyətlərinə münasibətdə beynəlxalq miqyasda diqqət yönəlməsinə səbəb olub. Dövlətçilik ənənələri olan ölkələrdə, məsələn Avropa ölkələrində, ABŞ-da və s. "milli" anlayışı bəzən məhz ikinci mənada işlənir və "ümumxalq", "ümumdövlət" anlayışlarını özündə əks etdirir.

Qərbdə mədəniyyət texniki, yəni texnoloji istiqamətdə inkişaf edərək dünyaya yayılıb texnosivilizasiyalaşma kimi təşəkkül tapır, klassik mədəniyyətin "məhvi", "sonu", "qürubu", "süqutu" tək müəyyən konsepsiyaların yaranmasına şərait yaradır. M. Linq də "multikulturalizm"i ideologiya kimi xarakterizə edərək yazır ki, "Amerika millətlərin milləti, milli mədəniyyətlərin və federasiyaların ümumi hakimiyyətidir". Belə ki, vahid dövlətin geosiyasi məkanında mövcud olan multikulturalizm siyasəti kimi müasir "vətəndaş milləti" ("civic nation") konsepsiyasında onun formalaşmasının tarixi modelindən törəyir. Fərdlərin mədəni-müxtəlifliyinin vahid siyasi-mədəni icmaya məxsusluğunun ümumi ortaq məxrəci və ya "qızıl ortası" kimi onların əsil mədəniyyəti, həm də vətəndaşlığı vətəndaş millətinin müəyyənləşdirici meyar göstəricisidir. Bu tip modeldə "millət", "mədəni müxtəlifləşmə" ilk əsasda etnik mənşə, etnik mədəniyyət yox, vətəndaşlıq və bu vətəndaşlığın mədəni göstəriciləri deməkdir. Qərbdə ABŞ, Fransa, İsveçrə, Böyük Britaniya, Belçika həmin mədəni müxtəlifliyi əks etdirən vətəndaş milləti konsepsiyasını əks etdirən gerçəklikdir. Burada vurğulayaq ki, müasir gənc müstəqillik qazanan dövlətlərin əksəri həm "vətəndaş milləti" , həm "vətəndaşlıq", həm də "etnik mədəni müxtəlif millət" elementlərini özündə birləşdirən subyektdir. Bu elementlərin qarşılıqlı nisbəti həm dövlətdən dövlətə, həm də tarixi zaman kontekstində belə fərqləndiricidir.

Bu baxımdan İ. Məmmədzadə mənşə etibarilə Amerikan mədəniyyətinin elə bu günkü qlobal mədəniyyət olduğunu qeyd edərək yazır: "Amerikanizmin qlobal mədəniyyət kimi meydana gəlməsinin səbəblərindən biri kimi ABŞ-ın öz mədəniyyətlərini multikultural mədəniyyət kimi qəbul etdiklərini göstərir". Multikulturalizm siyasəti ideyasında hər bir müasir millət həm etnik, həm də siyasi-hüquqi vətəndaş icması rolunda çıxış edir. Bu konsepsiya, yəni vətəndaş (vətəndaş-ərazi) milləti konsepsiyasının müxtəlif cəhətləri E.Smit, Q.Kon, R.Brubaker, K.Briant, V.Kimlicka kimi Qərb nəzəriyyəçilərinin konsepsiyalarında izah edilmişdir. Bu yanaşmadan J.Linz və F.Stepan öz araşdırmalarında göstərir ki, "Vətəndaş millətinin formalaşması, ictimai inteqrasiyanın dərinləşməsi demokratikləşmə prosesi ilə çox bağlıdır." Siyasət elmində belə bir fikir çoxdan təsdiqini tapıb ki, eyni mənşəli-etnik homogen cəmiyyətlərdə demokratik konsentrasiyası-təmərküzləşməsinin uğur qazanmaq ehtimalı daha çox olur. Əksinə, əhalinin tərkibi etnik, mədəni, dil, dini aspektdən nə qədər müxtəlif olursa, fundamental demokratik dəyərlər baxımından həmrəyliyin əldə edilməsi və dövlətin siyasi icmasının formalaşdırılması siyasəti bir o qədər də mürəkkəb olur. Nəzərə yetirək ki, belə mədəni-müxtəliflik demokratikləşmənin uğurlu inkişafı qarşısında keçilməz sədd və ya mane deyildir. Belə ki, nəinki Avropa və Amerika reallığında, bu həm də Azərbaycan geosiyasi ərazisində də mövcuddur. Azərbaycan məkanında müxtəlif etno-mədəni və dini icmaların əsrlər boyu yanaşı yaşaması, bir-birinə dözümlülüyü həm də siyasi sferada da aşkar tolerantlıq ənənələrinin sübutudur.

Nəzərə yetirək ki, demokratiya tranziti "zamanı multimədənilik özü də mürəkkəb vəziyyətlər törədə bilər". Multikulturalizmlə bağlı siyasət və bu və ya digər nəzəri modelin seçilməsini nəzərdə tutmalıdır ki, yalnız bu zaman mədəni müxtəlifliklə əlaqəli vətəndaş cəmiyyətindən bəhs etmək olar. Belə ki qloballaşma dövründə milli mədəniyyət, mədəni müxtəliflik,çox mədəniyyətlilik özü vətəndaş cəmiyyəti bu problemə həssas yanaşmalıdır. Çünki qloballaşmanı qəbul etməyən kulturlar üçün qloballaşma daha dağıdıcı, mədəni rəngarəngliyin şərti ola bilər. Multikulturalizm müxtəlif elmlər qovşağında və yaxud konkret bir elm kontekstində araşdırıla bilər. Şübhəsiz ki, fenomen ideologiya və siyasətdir. Burada ümummilli dəyərlər irqi və etnik kulturlara qarşı dövlət siyasətində müqavimətlə yox, əksinə mülayimlik və ya dözümlülük göstərməyi tələb edir. Multikulturalizm demək siyasət elminin də obyektidir. Bu politoloji yanaşmada dövlət-hakimiyyət siyasətində vətəndaş cəmiyyətinin tərəfdaş kimi problemin çözülməsində yaxın iştirakını da məqbul edir. İctimai iştirakçılıqla

siyasi proseslərin tənzimlənməsi də rəngarəng mədəniyyətlərin siyasiləşməməsi, yalnız mədəni konturlarla nizamlanmasına da kömək etməlidir. Demək bu fenomen sosiumun vacib elementi kimi qorunmalıdır ki, siyasiləşib müxtəlif fəsadlar törətməsin. Bu da bəllidir ki, mədəni birlik və mədəni qurumlar mədəniyyətin sosial həyatının bütün tərəflərini əhatə etməklə bahəm, bəzən siyasi proseslərə də təsir göstərir. Mədəniyyətin etnik, milli və bəşəri tərəflərinin formalaşmasında mədəni xüsusiyyət və amillərin eyniyyəti mühüm rol oynayır. Prezident İlham Əliyevin dediyi kimi: “Multikulturalizm başqa xalqın nümayəndəsinə hörmət, başqa dinə hörmətdir. Öz dininə hörmət başqa dinə hörmətdən başlayır. Multikulturalizm ayrı-seçkiliyə yol vermir, əksinə bütün xalqları birləşdirir. Eyni zamanda hər bir ölkənin öz qaydaları, öz ənənələri vardır. Hər bir insan- həm ölkənin vətəndaşı, həm ölkəyə gələn qonaq, əlbəttə ki, o qaydalara , o ənənələrə hörmətlə yanaşmalıdır.” Bu baxımdan, görən belə olduqda cəmiyyət çox böyük, müxtəlif mədəniyyətli insanlar toplusunu əhatə etdikcə, onun inkişaf amili yüksəlir, yoxsa enir? Yaxud artır və ya azalır? Hər hansı mədəni qrupun öz müəyyən bacarıq və imkanları olur.

Mədəniyyətin differensiyasında dil, irq, din, sənət, siyasi-mədəni qurumlar və s. kimi oxşar nümunələrindən biri, sistem quran səbəb kimi, konkret etnik birliyi digərinə münasibətdə təşkilatlandıran güc olaraq meydana çıxır. Məsələn, N.Vısotskaya görə “multikulturalizm və ya mədəni müxtəliflik” çoxsaylı mədəni qrupların, fərqli milli mənsubiyyətlərin, dinlərin və s. göstərən cəmiyyətin təyinidir”. Məhz bu nöqteyi nəzərdənsə paralellik aparsaq, digər tədqiqatçı S. Xəlilovun münasibəti də diqqət çəkir. Belə ki, S.Xəlilova görə “Biz Avropadan elmi-texniki inkişaf səviyyəsini, rasional düşüncə üslubunu, siyasi təfəkkür mədəniyyətini, fəlsəfi təfəkkürün hüquq müstəvisinə köçürülməsinimi götürmək istəyirik? Yoxsa onların özünün xilas olmağa çalışdığı və məmnuniyyətlə xaricə ixrac etdiyi “kütləvi mədəniyyətimi” nəzərdə tuturuq?” Hər bir insan istənilən hər hansı bir mühitdə müəyyən milli-mənəvi dəyərlər sistemi çərçivəsində formalaşır. Lakin başqa bir şəraitə düşəndə, həmin şərait-mühitlə bu insan arasında ziddiyyətlər meydana çıxır. Məhz belə insanın digər ona yad olan mədəni-mənəvi mühitə uyğunlaşması onun ənənəvi, milli-mənəvi kökündən uzaqlaşması ilə formalaşır.

Burada müəyyən faktorun rolu və əhəmiyyəti əsasən nisbi xarakterlidir. Müxtəliflik və fərqliliyin əsas göstəricisi etnik mədəniyyətin hansı bir xüsusiyyətinin digər mədəniyyətdə olmamasıdır. Tarixdə bu fərqli xüsusiyyət mədəniyyətlərin təbii mahiyyət əlaməti kimi deyil, onları ayıran konflikt, qarşıdurma, özgəlik, yad və s. kimi qəbul edilir.

Azərbaycan reallığına nəzər yetirəndə müsbət tendensiyalar diqqət çəkir. Qeyd edək ki, vətəndaş cəmiyyətinin formalaşması ötən XX əsrdə elmi-texniki inqilabla yanaşı, həm də ondan sonra ikinci, yəni sosial inqilab kimi zarakterizə olunur. Müstəqilliyin ikinci dəfə bərpasından sonra Azərbaycanda vətəndaş cəmiyyətinin təşəkkülü və formalaşması kimi ictimai hadisənin baş verməsi, dövlətçiliyin demokratik institutsional əsaslarını şərtləndirən struktur dəyişiklikləri, cəmiyyəti təşkil edən müxtəlif sosial tip və stereotiplərin bir-birini əvəzləməsi gedişatı kimi çətin bir proses başladı. Belə dönəmlərdə siyasəti və siyasətçiləri, onların məqam və missiyalarını insanlara çatdırmaq üçün bu kimi ideyalarının trayektoriyasını davam etdirmək, geniş kütlələrə düzgün təhlil, maarifləndirmə və məlumatlandırmanı ötürmək missiyasını vətəndaş cəmiyyəti institutları həyata keçirməyə cəhd edir. Təbii ki, burada vətəndaş cəmiyyəti nümayəndələri xalq, geniş əhali üçün anlaşıqlı və düzgün məlumat “paketi” ilə xalq-dövlət arasında olan problemlərin çözülməsi üçün körpü, vasitəçi, bəlkə də qarşılıqlı əlaqələndirici kimi çıxış edir. Müstəqil Azərbaycan mədəniyyətinə nəzər yetirəndə, aydın olur ki, problemin siyasi-mədəni təhlili iki paralellikdə aparılmalıdır. Nəzərə çatdıraq ki, Azərbaycanda çoxçalarlı mədəniyyətlər və onun da müxtəlif tipləri mövcuddur. Dünya müasir mədəniyyətləri kimi, Azərbaycan mədəniyyəti də vətəndaş cəmiyyətinin təşəkkülü prosesində multikultural xarakter kəsb edir. Milli mədəniyyətlə paralel multikulturalizm də buraya daxil olaraq, keçmişə, mədəni, mənəvi irsə, tarixə yeni kontekstdən nəzər salınmasını şərtləndirir. Kütləvi baxışda özünəməxsusluq hələ də ənənəviliklə, müasirlik isə qərbləşmə (amerikalaşma) ilə əlaqələndirilir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakıda “XXI əsr: ümidlər və çağırışlar” devizi ilə keçirilən Beynəlxalq Humanitar Forumda söyləmişdir ki, “Nəinki Azərbaycanda, bir çox ölkələrdə və qonşu ölkələrdə multikulturalizmin böyük ənənələri vardır. Ona görə də, bu gün multikulturalizmi şübhə altında qoymaq, yaxud onun iflası haqqında danışmaq hesab edirəm ki, həm yersizdir, həm zərərlidir. Çünki multikulturalizmin alternativi yoxdur”. Qloballaşma, modernləşmə və demokratik proseslər multikulturalizmin ümumi xarakter daşımasına səbəb olur. Təhlillərdən aydın olur ki, Avropada multikulturalizm ünsürləri nisbətən gec təşəkkül tapdı. ABŞ-da artıq multikulturalizmin inkişafında əhəmiyyəti qəbul edildi.

Belə ki, millətlərin və milli etniklərin bərabər hüquq əldə etdiyi multikulturalizmin inkişaf etdiyi Azərbaycanda bu mədəniyyətlər arasında qarşılıqlı Dialoq azadlığı vardır. Azərbaycanda müxtəlif milli-mənəvi və konfessional birliklər öz xüsusiyyətlərini hərtərəfli şəkildə inkişaf etdirmək imkanına malik olaraq həm də, başqa mədəniyyətdən də yararlanaraq, istifadə etmək imkanına malikdir. Ölkədə multikulturalizmin yaranması və inkişafında modernləşmə və Azərbaycançılıq ideologiyası da əsas amildir. Bu ideologiyanın

əsasını millilik, dünyəvilik, sosial ədalət, demokratiya, milli tərəqqi insan hüquq və azadlığına riayət təşkil edir. Bu ideologiya Azərbaycanı özünə vətən qəbul etmiş, ölkədə yaşayan bütün millətlərin və etnik qrupların vəhdət şəklində, dostluq, hətta qohumluq, qonşuluq, əmin-amanlıq şəraitində yaşadığı mədəniyyətlərinin inkişaf etdiyi ümumi talelərini əks etdirən, multikulturalizm göstəricisi olan mənəvi fenomendir. Digər bir aspekt isə ondan ibarətdir ki, Azərbaycançılıq ideologiyası yalnız ölkə ərazisində yaşayan müxtəlif etnik və dini mənsubiyyətli insanların göstəricisi yox, o həm də geosiyasi sərhədə və məkanların ayırdığı, dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızı da bir ideya-fəlsəfi, mədəni məkanda tamlaşdıran, bütövləşdirən gücdür. Azərbaycançılıq - cəmiyyətin sosial-mədəni, siyasi və hüquqi nizamlanmasının, insanları mənən səfərbər edən və vəhdətinin əsas faktorudur. Azərbaycanın vətəndaş cəmiyyətinin yekcins olmamasına diqqət yetirildikdə etnik və dini dəyərlər ideoloji sxemdə tolerantlıqla qarşılanır. Eyni zamanda birləşdirici faktor kimi milli dövlət, ümumxalq ideyası olaraq azərbaycançılıq universallaşır. Təbii ki, burada məcburiyyət yoxdur. Amma elə məqsəd, elə prioritetlər var ki, onlar milli ideya olaraq müəyyənləşir. Belə məqamdasa vətəndaşların dini, etnik, və sosial mənsubiyyətindən (həmçinin siyasi əqidəsini də buraya aid etmək olar) asılı olmadan , bu kimi ideyalar geniş dəstək qazanır. Bu ideologiya məhz azərbaycançılıqdır. Bu isə Azərbaycan vətənpərvərliyi, dövlət müstəqilliyi, milli təhlükəsizliyin qorunması, demokratik və iqtisadi islahatlarla ölkənin modernləşdirilməsidir. Burada "qızıl ortada" xətt kimi ən əsas isə Qarabağ probleminin həllidir.

Hər bir inkişaf edən sosiumda ideologiya olmadan cəmiyyət "ideya boşluğuna" yuvarlana, nəticədə, tənəzzülə uğraya bilər. İdeologiya isə elə ümumi, ruhi-mənəvi bir təməldir ki, onsuz mədəniyyət və sivilizasiyanın formalaşması qeyri real görünür. Azərbaycançılıq ideologiyasının qayəsi və dəyəri onun ətrafında ölkədə yaşayan bütün xalqlar, milli-etnik qrup və azlıqların birləşməsi, ümumilikdə özlərini "azərbaycanlı" adlanmasıdır. Azərbaycan ta qədimdən ən müxtəlif xalqlar və mədəniyyətlərin mövcud olduğu diyarı kimi tanınır. Azərbaycanda multikulturalizmin inkişaf dinamikası xalqın özünün tolerantlığı, demokratikliyi, açıqlığı ilə bağlı amildir. Belə ki xalqın tarixi kökləri bütün dünyaya yayılan ümumtürk etnosuna gedib çatır. Bununla bahəm, coğrafi və geosiyasi müstəvidən həmişə bütün dünyaya ölkəmiz açıq olmuş, çoxlu müxtəlif mədəniyyətlər arasında isə sintez-qovşaq missiyasını ifa etmişdir.

Qeyd olunan bu aspektlər Azərbaycanı çoxmillətli, çoxdilli, multikultural, demokratik vətəndaş cəmiyyəti quruculuqlu ölkə kimi tanıtmışdır. Azərbaycanın multikultural stereotipləri qlobal tədbirlərdə də təsdiq olunur. Bu yanaşmadan 2011-ci il Bakı Forumunda iştirak edən Y.Jdanovun multikulturalizmin inkişafı barədə söylədikləri ümumi təsəvvürləri göstərir: "Planetdə başqa elə bir bölgə yoxdur ki, buradakı kimi onlarla xalq çox uzun müddətə və birlikdə yaşamış olsun. Bu füsunkar çoxçalarlılıq bütün bəşəriyyətin dəyərli xəzinəsi hesab oluna bilər. Yəqin buna görədir ki, bu ölkənin ictimai-elmi fikri millətlərarası münasibətlər, əməkdaşlıq və qarşılıqlı anlaşma probleminə dünyanın diqqətini bu qədər cəmləşdirməyə çalışır. Azərbaycanın tarixi təcrübəsi bu baxımdan dəyərli və intəhasızdır". Məhz bu kimi baxışlar ölkədə multikulturalizmin inkişafını göstərən reallıqdır. Bu reallıqda bir dəlil multikulturalizmə həsr edilmiş "Bakı Beynəlxalq Humanitar Forumu", orada iştirak edən müxtəlif ölkələrin ölkəmizin multikultural siyasətini təqdir etməsidir. İkincisi isə demokratik, tolerant, multikultural dövlət kimi Azərbaycanın BMT-nin Təhlükəsizlik Şurasına qeyri-daimi üzvü seçilməsi faktıdır.

Azərbaycanda yaşayan müxtəlif xalqların mənəvi yaddaşı tarixi inkişaf mərhələsində zərdüştlükdən üzübəri dünyanın bütün əsas dinlərinin ən ülvi, bəşəri dəyərləri ilə zənginləşərək, mədəniyyət və mənəviyyatın çoxsaylı cəhətlərini özündə miras saxlamışdır. Azərbaycanda multikulturalizm göstəricisi özünün rəngarəng tərkibi ilə fərqlənən və bu müxtəlifliyin etnik-milli mənbələrini qorumuş, burada yaşayan etnik-dini birliklərin qarşılıqlı münasibəti və mədəniyyəti, folklor, dialekt, adət, məişət tərzi, inam sistemi və s. müxtəlifliyin vəhdətini müəyyən edən obyektivlikdir. Azərbaycan tarixən də polietnik və müxtəlif dinli ölkə olmuşdur. Əhalisinin əksəriyyəti azərbaycanlı olan respublikada ta qədimdən İran, Qafqaz (gürcü, erməni, osetin və s.) etnosları, eləcə də yəhudi, rus, ukrayna, tatar, belorus və s. də yaşamışdır. Mövcud etnik, dini,dil qeyri-cinsliyi deyil, dövlətin məhz bugünkü anlamda desək "multikulturalizm" siyasətinin mədəni müxtəlifliyi də ideoloji modellərinin sivil yaşam tərzidir. Multikulturalizm siyasətində vətəndaş cəmiyyətinin formalaşdırılması əhalinin azərbaycanlı kimi özünü adekvat olaraq identikləşdirməsi, yəni eyniləşdirməsidir. Bu isə həm də ölkə vətəndaşının etnik mənşəyindən asılı olmadan, özünü "azərbaycanlı" adlandırmalı, belə saymalıdır. Bu əhalisinin əksəriyyəti azərbaycanlı olanların türksoylu olmasına qarşı deyil, əksinə ölkədəki etnik fərqlərin bir vahiddə ifadəsi, belə desək "multikulturalizm siyasəti" və vətəndaş cəmiyyəti millətinin formalaşmasıdır. Hər insanın etnik kökünün onun vətəndaşlığına aidiyyəti yoxdur. Azərbaycanda anadan olan, valideynlərindən biri Azərbaycan vətəndaşı olan hər bir kəs Qanuna əsasən azərbaycanlıdır. Multikulturalizm siyasətində vətəndaş millətinin formalaşması prosesində Dövlət dili də mühüm əhəmiyyət daşıyır. Belə ki bütün Azərbaycan vətəndaşlarının Dövlət dilini-azərbaycan dilini

mənimsəməsi də əsas şərtlərdən biridir. Burada qeyd edək ki, Azərbaycan dilinin mənimsənilməsi etnik azlıq və yaxud qrupların dilinin də qorunması ilə birgə tətbiq olunmalıdır.

Günümüzdə daha tez-tez müşayiət edilən mədəni münaqişələrin fonunda cəmiyyətdə sabit inkişaf mühitini təmin etmək üçün multikulturalizm dialoq və mədəni zənginlik nümunəsidir. Bu mənada, bir çoxları hesab edir ki, multikulturalizm ideyalarının reallaşması, guya, daha çox mədəni cəhətdən yüksək inkişaf etmiş cəmiyyətlərdə mümkün olur. Multikulturalizmin tənqidçiləri hesab edirlər ki, nəticədə, çoxəsirlik mədəni dəyərlərin əsasları sarsılacaqdır, çünki belə təmayüllər həmişə hər şeyin orta vəziyyətə düşməsinə səbəb olur. Onların fikrinə görə, əgər miqrantların aşağı mədəni səviyyəsi yüksəlirsə, multikulturalizm ölkəsinin yüksək mədəni səviyyəsi mütəmadi olaraq aşağı düşür. Ona görə də bəzi avropa ölkələrinin A. Merkel, D.Kemeron, N.Sarkozi kimi sağ təmayüllü liderləri 2010-cu ildə bəyan etdilər ki, multikulturalizm siyasəti bu ölkələrdə iflasa uğrayıbdır.Multikulturalizm, bir tərəfdən, cəmiyyətdə milli, mədəni və konfessional müxtəlifliyin bənzərsiz ifadəsi, digər bir tərəfdən isə dövlətin bu rəngarəngliyi qoruyub saxlamaq, onun hüquqi bazasını təmin etmək siyasəti, onun fəlsəfi və nəzəri əsaslanmasıdır.Multikulturalizm hər bir ölkənin, xalqın, mədəni birliyin təcrübəsini nəzərə alır, müxtəlif yanaşmalar təklif edir, sosial-iqtisadi inkişafı isə hər bir cəmiyyətin öz xüsusiyyətləri üzərində formalaşdırmağa cəhdlər edir. Bu siyasət imkanlar çoxluğu prinsipinə əsaslanır və heç bir xalqdan kimlik dəyişikliyi tələb etmir. Bu mənada, multikulturalizm təkcə qloballaşmanın tələbi deyil, həm də postmüasir inkişafın aparıcı meyillərindən biridir. Bu gün əksər ölkələr üçün müxtəliflik həyatın bir normasına çevrilmişdir. Bu turizmin, ticarətin, elm və mədəniyyətin dialoqu, mütəxəssislərin mobilliyi və miqrasiyanın intensivləşməsi ilə əlaqədardır. Demək olar ki, bütün ölkələrdə mədəni və dini "azlıq" kimi ifadə etdilən qruplar mövcuddur. Bir çox ölkələr ona görə multikultural adlanır ki, hər bir kəs üçün buraya gəlmək, işləməsi, yaşaması üçün gərəkli mühit olan açıq cəmiyyətlər mövcuddur.

Qeyd etmək lazımdır ki, uzun illər dünya cəmiyyəti Qərb inkişaf nümunəsini təkcə mükəmməlliyin deyil, həm də gələcəyin yeganə inkişaf modeli olaraq qəbul edirdi. Digər mədəniyyətlərlə münasibətlərini konkret modelləşmə üzrə əsaslandıran Qərbin iqtisadi uğuru mədəni inkişafın əsas elementi, onu müdafiə edən təfəkkür isə dəyişikliklərin hərəkətverici qüvvəsi sayılırdı. Tanınmış alman tətqiqatçısı U.Bek qeyd edir ki, inkişafın universal modeli hesab edilən Qərb modeli bütün ölkələri özünə doğru istiqamətləndirdi.

Lakin son onilliklərdə dünyanın yeni inkişaf meyilləri, insan fəaliyyətinin çoxşaxəliliyi və dinamikliyi onu əhatə edən sosial-mədəni atmosferi köklü şəkildə dəyişdirdi. Qərbin homogenliyi, mədəni müxtəlifliyin heterogen tendensiyalarının təsiri altında yeni institutlaşma, çoxukladlı demokratiya, yeni iqtisadi və siyasi təşkilatlanma (çoxlu mərkəz) formalaşdırmışdır. Ənənə ilə mübarizə, sekulyar siyasət, fərdiyyəçiliyin ali prinsiplərə aid edilməsi insanlarda kimlik məsələlərini yenidən önə çıxarmış, sosial miqrasiya isə bu problemi mədəni münaqişənin obyektinə çevirmişdir. Bu mənada, dünyanın yeni nizamını formalaşdıran qloballaşma Qərbin müstəsnalıq iddialarının yeni reallıqlarla bir araya gəlmədiyini göstərdi. İnformasiyanın yaratdığı yeni mədəni meyillər isə inkişafın alternativlərini ortaya qoydu,eyni zamanda ənənə ilə müasirliyin birgə mövcudluğunu da göstərdi.Bu gün qloballaşma bəşəriyyətin inkişafı üçün yeni imkanlar yaradır. İnteqrasiya və informasiya kommunikasiya texnologiyaları insanlar arasında münasibətlərin ənənəvi səddlərini aradan götürür, elm və biliyin, texnologiyaların sərbəst mübadiləsinə, şəxsiyyətin özünütərbiyəsinə daha asan imkanlar yaradır, müxtəlif mədəniyyətlər arasında dialoqu genişləndirir. Miqrasiyanın genişlənməsi isə mədəniyyətlərarası təması daha da yaxınlaşdırır. Dünyanın mədəni mənzərəsi daha rəngarəng görünür.

Multikulturalizm anlayışı son zamanların termini kimi qloballaşma proseslərinin intensivləşməsi və "azadlıq", "demokratiya", "bərabərlik" kimi liberal dəyərlərin möhkəmlənməsi ilə ortaya çıxmışdır. Ona görə də sosioloqlar düşünürlər ki, bu cür cəmiyyətin formalaşmasında ayrı-ayrı fərdlərin müstəsna hüquqlarını təmin edən demokratik cəmiyyətin qurulması vacib məsələdir. Lakin liberal-demokratiyadan fərqli olaraq, multikulturalizm fərdlərin deyil, müəyyən sosial qrupların, birliklərin, ümumilikdə, cəmiyyətin maraqlarını güdür.

Bu anlayışı ortaya çıxaranlardan biri olan amerikalı sosioloq H.Kallen amerika cəmiyyətinin müxtəlif mədəni fərdlərdən ibarət olduğunu nəzərə alaraq, "mədəni plüralizm" adlı nəzəriyyəni işləyib hazırlamışdır. Onun fikrincə, insanları bir-birinə yaxınlaşdıran mədəniyyət deyil, sosial mənsubiyyətdir. Belə ki, H.Kallenin ardıcılları bildirirdilər ki, cəmiyyətin mövcud dominant dəyərlər paradiqmasına adaptasiya və assimilyasiya meyillərinə baxmayaraq, müasir sivilizasiya heç də fərqli mədəniyyətləri vahid mədəni orqanizmdə həll edə bilmir: hər bir mədəniyyət sintez edilmədən tarixi- mədəni özəlliklərini saxlamaqla mövcudluqlarını təmin edə bilir. Etnik və konfessional qrupların daxilindəki ənənələr o qədər möhkəmdir ki, onlar çox asanlıqla xalqların mədəni irsinin özünəməxsus elementlərinə çevrilə bilirlər.Multikulturalizm tərəfdarları iddia edirlər ki, çoxlu mədəniyyətin bərabər şəkildə inkişafı dövlətin sabit inkişafını təmin edə bilər. Bu gün mutikulturalizm dini, irqi, etnik xüsusiyyətləri müdafiə edən bir hərəkatdır.

Bir çoxları belə düşünür ki, onun əsası Amerika Birləşmiş Ştatlarında Afrika mənşəli amerikalıların öz hüquqları uğrunda mübarizəsi hərəkatı ilə bərabər formalaşmağa başlamışdır. Uzun illər ABŞ "miqrantlar ölkəsi" kimi milli siyasətini dini-etnik seqreqasiya ətrafında aparılan mübarizə əsasında yaratmağa çalışmışdır. Nəticədə, bu ölkədə nə dinin, nə də milli mənsubiyyətin formal şəkildə əhəmiyyət daşımadığı sosial-siyasi sistem formalaşa bilmişdir. ABŞ vətəndaşının siyasi statusu da ölkə ərazisində doğulması ilə müəyyənləşirdirir. Lakin bu hələ multikultural sosial-mədəni mühitin yaradılması demək deyildi.

Bu cür siyasət gözlənilən nəticələrin əldə olunmasına, yəni azlıqların siyasi həyata inteqrasiyasına gətirib çıxara bilmədi. Belə ki, xalqların, xüsusən də zəncilərin vahid "millətdə" assimilyasiyası quldarlığın və irqi ayrıseçkiliyin "acınacaqlı" tarixini onların yaddaşlarından silə bilməmişdi. Buna görə də amerika cəmiyyətində bir müddət multikulturalizm anlayışı hakimiyyətin qaradərili vətəndaşlarına qarşı "yumşaq diskriminasiyası" kimi qəbul edilirdi.

Azlıqlar bu cür yanaşmanı əmək bazarında və təhsildə müəyyən üstünlüklərin əldə olunması kimi qəbul etsələr də bu təcrübənin davam etdirilməsinə qarşı çıxırdılar. Nəticədə, məişət səviyyəsində başlanan seqmentləşmə cəmiyyətin irqi-etnik əlamətlərə görə seqreqasiyasını daha da dərinləşdirdi, sosial gərginliyi artırırdı.Ona görə də bu cür yanaşma bir çox hallarda multikulturalizmə qarşı neqativ münasibətlərin formalaşmasına da gətirib çıxarırdı. Bununla belə, dünya Amerikanın timsalında millətlərin, xalqların, dinlərin bir-biri ilə yanaşı yaşamanın fərqli tərzini görə bilmişdir. Daha çox gəlmələrdən ibarət olan bu cəmiyyət, müxtəlifliyi ifadə edən yeni identikliyin formalaşmasında aparıcı rolu olacaq gənc amerikalıların tərbiyəsində dinc yaşamanın özəyi kimi dünyəvi təhsil sisteminini əsas götürmüşdülər. Təhsil amerikalıları böyük multimədəni sosiumun tərkib hissəsinə çevirə bilmişdir.

Amerika Birləşmiş Ştatlarından fərqli olaraq Avropada vəziyyət başqa cür idi. XX əsr boyunca və əsrin sonlarında baş verən hadisələr, xüsusən də SSRİ-nin dağılması, iqtisadi və sosial problemlər, Yaxın Şərqdə baş verən dini münaqişələr kütləvi sürətdə əhalinin yerdəyişməsinə səbəb oldu. Onların əksəriyyəti sosial rifahın yüksəldilməsi məqsədilə Avropaya gedirdi. Bu mənada, Qərbi Avropa ölkələrində multikulturalizmə dair müzakirələr başqa istiqamətdə inkişaf edirdi. Belə ki, Avropanın azlıqlara qarşı repressiv tarixi Amerikada zəncilərə və hindulara qarşı münasibətlərlə müqayisədə çox az idi. Mədəni müxtəliflik haqqında fikirlər burada uzun müddət səslənmirdi: miqrantların qarşısında dayanan başlıca vəzifə yerləşdikləri ölkənin sosial, siyasi və mədəni mühitinə inteqrasiya etməli idilər.

Bu zaman Avropaya axın edənlərin əksəriyyəti sosial baxımdan cəmiyyətin orta səviyyəsini təmsil edirdi. XX əsrin sonlarına doğru isə daha çox keçmiş müstəmləkələrdən axın edən miqrantların sosial tərkibində məskunlaşmanın xarakteri və məqsədləri dəyişir. Bu zaman həm elmi, həm də siyasi çevrələrdə belə düşünürdülər ki, qaçqın qismində gələnlər gec-tez geri qayıtmalı olacaqlar. Ona görə də onların assimilyasiyası vacib deyildir. Beləliklə də miqrantların inteqrasiyası siyasi orqanizmə daxil olmadan, başqa sözlə assimilyasiyadan kənar həyata keçməli idi.

Assimilyasiya modelinin iflası Fransa və Almaniya kimi ölkələrdə özünü daha qabarıq göstərirdi. Azlıqlar ölkə vətəndaşı olmaqla hüquqi baxımdan yerli əhali ilə bərabər hüquqlara malik idilər. Lakin təcrübədə formal şəkildə ifadə olunan hüquqlar əslində, tam həyata keçirilmirdi, siyasi və mədəni həyatdan uzaq olmaqla bərabər marginal şəkildə öz kimliklərini qorumağa çalışırdılar. Məsələn, Fransada yoxsulluq, az təminatlı iş yerləri, dözülməz yaşayış yerləri keçmiş müstəmləkələrindən axın etmiş miqrantların vəziyyətini daha da pisləşdirirdi. Almaniyada isə ümumiyyətlə axının qarşısını almağa çağıran şüarlar daha kəskin səslənməyə başlayırdı.

Təcrübə göstərir ki, müasir Avropada multikulturalizmin daha çox miqrasiya ilə bağlı formalaşması məsələyə düzgün yanaşılmamasından xəbər verir. Bu istiqamətdə aparılan işlərin səmərəsizliyi Fransa, Almaniya, Hollandiya, Belçika kimi ölkələrin identiklik problemlərini ölüm-dirim mübarizəsinə çevirməkdədir. Belə ki, Qərb nöqteyi nəzərində mövcud olan multikulturalizm yüzilliklərlə formalaşan Avropa dəyərlərinin və mədəniyyətinin itməsinə, marginal qrupların aktivləşməsinə gətirib çıxarmışdır.

Multikulturalizm siyasəti Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən də uğurla inkişaf etdirilir. Ölkəmizdəki tolerantlıq mühitinin əsasında duran mühüm amillərdən danışarkən, ilk növbədə siyasi sabitliyi, sosial və iqtisadi inkişafı qeyd etmək vacibdir. Ölkə başçısı müxtəlif tədbirlərdə, irimiqyaslı beynəlxalq toplantılarda çıxışı zamanı mütləq multikulturalizm məsələsinə yer ayırır və bunun vacibliyini vurğulayır. Təsadüfi deyil ki, dövlət başçısının qərarı ilə 15 may 2014-cü ildə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi yaradıldı. Heydər Əliyev Fondu da multikulturalizm və tolerantlıq ənənələrimizin beynəlxalq miqyasda təbliğinə böyük töhfələr bəxş edir. Parisdə keçirilən "Dini tolerantlıq: Azərbaycanda birgə yaşamaq mədəniyyəti" mövzusunda çıxış edən Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyeva rəhbərlik etdiyi Heydər Əliyev Fondunun digər dinlərə də xüsusi diqqət göstərdiyini bildirib. Mehriban xanım Əliyeva Luvr muzeyində İslam mədəniyyəti bölməsinin təşkilində, Romada katakombaların

bərpasında, yəhudi uşaqlar üçün təhsil imkanlarının yaradılmasında, Strasburq və Fransanın digər regionlarındakı kilsələrin təmirində Fondun yaxından iştirak etdiyini vurğulayıb.

Millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri, akademik Kamal Abdullanın fikrincə, mədəni müxtəlifliyin qorunmasında vacib şərtlərdən biri bu işdə dövlətlə yanaşı vətəndaş cəmiyyəti və onun fəaliyyətini dəstəkləyən qurumların da fəal məşğul olmasıdır. Multikultural prinsiplər Azərbaycan kimi kiçik, amma dərin kökə və tarixə malik ölkələr üçün digər təhlükəsizlik prinsipləri qədər vacib və zəruridir.

Bu gün Multikulturalizm fənn kimi bir sıra universitetlərdə - Litva, Gürcüstan, Rusiya, İtaliya, Bolqarıstan, Belarus, Çexiya universitetlərində, eləcə də ölkəmizin bir çox ali məktəblərində tədris olunur. Azərbaycan Multikulturalizmi fənninin böyük siyasi, ideoloji, mənəvi əhəmiyyəti vardır.

## ƏDƏBİYYAT


1. Bakı islam mədəniyyətinin paytaxtıdır, 2009, beynəlxalq konfransın tezisləri 9-10 noyabr /Milli Azərb, Tarixi Muzeyi, bədii tərtibat, Hüseynov S., Bakı, Elm və Təhsil, 2009, 168 s.
2. Dinlərarası dialoq, Qarşılıqlı anlaşmadan birgə əməkdaşlığa doğru, Bakı, 2010, 200 s.
3. Əliyev İ., XXI əsrin Humanitar Çağırışları /İ.H.Əliyev, D.Medvedyev, ümumi red, R.Mehdiyev, S.Narışkinin, Bakı, Moskva, Теppa, Итар, Tacc, 2011, 247 s.
4. Müasir dövrdə Azərbaycanda sosial-iqtisadi və mənəvi inkişafın harmoniyası, I virtual dəyirmi masa, 2014, IV Bakı Beynəlxalq Humanitar Forumu ərəfəsində /Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, [red. K.Abdullayev [və b.]], Bakı, [Mütərcim], 2015, 74, [2] s.
5. Xəlilov S., Sivilizasiyalararası dialoq /Səlahəddin Xəlilov, 2-ci nəşr, Bakı, Adiloğlu, 2009, 255 s.
6. Əhədova S., Müasir dünyada mədəniyyətlərarası münasibətlər: [monoqrafiya] /S.A.Əhədova, elmi məsl, A.Mustafayeva, elmi red, İ.Hüseynova (ön söz), Bakı, Elm, 2014, 347, [1] s.
7. Heydər Əliyev siyasəti, Tolerantlıq, çıxışlar, nitqlər, görüşlər, təbriklər /[Azərb. Resp. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi], ön söz M.Qurbanlı, burax. məsul S.Salahlı (Aran), Bakı, Elm və təhsil, 2015, 502, [2] s. 18
8. Hüseynov Y., Azərbaycanda dini tolerantlıq mədəniyyəti, tarix və müasirlik /S.Y.Hüseynov, elmi red. A.Əlizadə, Bakı, Təknur, 2012, 175, [1] s.

Niftiyev A., Azərbaycanda birgəyaşayış və multikulturalizm /N.M.Niftiyev, ön söz E.Nəsirov, elmi red. İ.Abbasov, [Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi], Bakı, [s.n.], 2015, 407s



## ABSTRACT

**Sadiq Huseynov**

**Multukulturalizm stimulus for freedom of human relations.**

The world faces global problems set in each period, was to find ways of solving them. Globalization age, goals and objectives in order to save mankind requires a completely different approach, and it seems that it is not an easy task to achieve them. Migration crisis in the culmination of a period exceeds the limit ethnic carry out the policy of multiculturalism and cultural diversity aimed at complicated issue. What is Multiculturalism? This is primarily determined by the influence of cultural interaction in a country where "quality" of the strategy aimed at achieving a democratic state. President Ilham Aliyev said that there is no alternative to multiculturalism. Multiculturalism is the most viable option for future development because alternative to the self-isolation. center (BBMM) was created. State Councilor and Chairman of the Board of Trustees of BBMM Kamal Abdullayev, the "great ideological, scientific, cultural, educational leap" called, the history, literature, culture, national ideology, the tolerance can get together and systematize the most important task is to demonstrate to the world, "he said. a policy that recognizes and promotes the development of cultural pluralism. It is a country's population, regardless of ethnic, racial and religious differences, all of them related to respect for human rights and fundamental freedoms. multicultural society, every citizen, their culture, language, tradition, ethnic and develop religious values, the main language school open areas have equal rights to publish newspapers and magazines. Who reject assimilation policy of multiculturalism leads to integration. Therefore, it is possible to achieve a multicultural society, not only to inate social injustice, racism and injustice here is absolutely not allowed. But there is one important difference between liberalism with multiculturalism. Unlike liberalism, multiculturalism, not of individuals, groups, rights to the forefront. Multiculturalism its own merits as a policy is closely related to the tolerance. He who lives in parallel from different cultures is one of the main features of a tolerant society. A tolerant, multicultural society and mutual enrichment of cultures, peoples, cultures connecting leads to the formation of the cultural unity of the people in the other culture, a culture which is manifested in the integration process

of the multi-cultural diversity in the community is one of related multiculturalism. In addition, we are related to multiculturalism izolyasionizm (isolation), as well as other manifestations of assimilation and apartheid, we can celebrate.


**РЕЗЮМЕ**

**Садик Гусейнов**

**Multukulturalizm стимул к свободе человеческих отношений**

Набор глобальных проблем, с которыми сталкивается мир в каждом периоде, было найти пути их решения. Глобализация возраст, цели и задачи для того, чтобы спасти человечество, требует совершенно иного подхода, и кажется, что это не простая задача для них достижения. Миграция кризис превышает предел, кульминацией периода этнического проводить политику мультикультурализма и культурного разнообразия, направленных на урегулирование этого вопроса осложняется. Что такое мультикультурализм? В первую очередь это определяется влиянием культурного взаимодействия в стране, где «качество» стратегии, направленной на достижение демократического государства. Президент Ильхам Алиев сказал, что нет никакой альтернативы мультикультурализма. Мультикультурализм является наиболее жизнеспособным вариантом для будущего развития, потому что альтернативы самоизоляции. центр (ВВММ) был создан. Государственный советник и председатель попечительского совета ВВММ Кямал Абдуллаев, "великой идеологической, научной, культурной, образовательной скачка» называется, истории, литературы, культуры, национальной идеологии, толерантность могут собраться вместе и систематизировать наиболее важной задачей является чтобы продемонстрировать всему миру, "сказал он. политику, которая признает и поощряет развитие культурного плюрализма. это население страны, независимо от этнических, расовых и религиозных различий, все они связаны с соблюдением прав человека и основных свобод. мультикультурное общество, каждый гражданин, их культура, язык, традиции, этнические и развивать религиозные ценности, основным языком школы открытые участки имеют равные права издавать газеты и журналы. Кто интеграции отказаться от ассимиляции политики мультикультурализма приводит. Таким образом, можно достижения мультикультурном обществе, а не только по ликвидации социальной несправедливости, расизма и несправедливостью абсолютно гостей здесь не разрешены. Но есть одно важное различие между либерализмом с мультикультурализма. В отличие от либерализма, мультикультурализм, а не отдельных лиц, групп, права на Forefront свои достоинства, как политика тесно связана с толерантностью. Он живет параллельно из разных культур, который является одним из главных особенностей толерантного общества. Толерантного общества мультикультурного и взаимообогащение культур, народов, культур, связывающих приводит к формированию культурного единства народа в другой культуре, которая проявляется в процессе интеграции является мультикультурное разнообразие в обществе. Кроме того, мы связаны с мультикультурализма (изоляции), а также других проявлений ассимиляции и апартеида, мы отмечаем жизнь.


---


NDU-nun Elmi Şurasının 30 mart 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 07).

Məqaləni çapa təqdim etdi: Fəlsəfə üzrə elmlər doktoru, professor M.Rzayev

**KÖNÜL SALMANOVA**
**VİDADİ SALMANOV**
*Naxçıvan Dövlət Universiteti*

**UOT: 008.39**

# DƏYƏRLƏR VƏ DƏYƏR ORİYENTASİYASI DÜNYAGÖRÜŞÜN MÜHÜM TƏRKİB HİSSƏSİ KİMİ

***Açar sözlər:*** *dəyərlər, dünyagörüşü, şəxsiyyət*
***Keys words:*** *Values, important, persona*
***Ключевые слова:*** *ценности, мировоззрение, личность*

Müasir şəxsiyyətin fəaliyyətinin müxtəlif növlərində dəyərlər sisteminin və dəyərlər seçiminin elmi-nəzəri və praktiki təhlili metodologiyasının əsas prinsiplərindən birini onun dünyagörüşü və cəmiyyətimizin konkret-tarixi şəraiti ilə ayrılmaz vəhdətdə götürülməsi təşkil edir.

Azərbaycan xalqı milli müstəqillik əldə edənə qədər totalitar sovet rejiminin hökmran olduğu yetmiş il ərzində şəxsiyyət beynəlxalq aləmdən, təhsil sistemindən təcrid olunmuşdu, onun aksioloji təşkilinə fikir verilmirdi, bütün hallarda necə hərəkət etmək haqqında standart hüquq, partiya normalarına qeyd-şərtsiz tabe olan "yeni insan" formalaşdırmaq başlıca, strateji vəzifə olmuşdur. Totalitar sovet cəmiyyətində şəxsiyyətin iradə azadlığı, dünyagörüşü tipi və sərbəst dəyərlər seçimi edə bilməsini təmin edən demokratik şərait və vətəndaş cəmiyyəti də mövcud deyildi. Əslində isə hər bir cəmiyyətin, şəxsiyyətin və sosial birliklərin həyat fəaliyyəti və müvəffəqiyyətləri burada hökm sürən elmi-fəlsəfi dünyagörüşündən, həmçinin onun üzvi tərkib hissəsi olan dəyərlər sistemi və dəyərlər oriyentasiyasından xeyli dərəcədə asılıdır.

Müasir Azərbaycan cəmiyyətində qərarlaşmış bazar iqtisadiyyatı, demokratikləşmə prosesləri, açıq cəmiyyətin əsaslarının yaradılması, sosial-siyasi, iqtisadi, mədəni həyat formalarının keyfiyyətcə dəyişməsi şəraitində şəxsiyyətin düşüncə, təfəkkür tərzi, dəyər şüuru və dünyagörüşü də dəyişir, onun informasiya cəmiyyətinin tələblərinə müvafiq olaraq dəyər oriyentasiyası, qiymətverici qabiliyyəti və həyat mövqeyi formalaşır. Şəxsiyyətin yeni ictimai münasibətlərə sosial adaptasiyası baş verir. Bu o deməkdir ki,şəxsiyyət demokratik ictimai quruluşun yeni prinsiplərinə uyğunlaşır, köhnə dəyərlərdən imtina edərək yeni dəyərləri mənimsəyir, öz davranışının stereotiplərini sözügedən prinsiplərə müvafiq olaraq dəyişmək imkanı əldə edir, öz şəxsi mənafeyini ictimai mənafe ilə əlaqələndirmək qabiliyyətinə yiyələnir (1, s.147). Şəxsiyyət həyatın mənasını, dəyişən dünyanın yeni mənzərəsini və insan qarşısında qoyduğu tələbləri düzgün müəyyən etdikdə onun yeni ictimai münasibətlərə sosial adaptasiyası uğurlu olur. Məhz buna görə də şəxsiyyətin sosial inkişafı və qlobal plüralist dünyagörüşünün formalaşması hər bir cəmiyyətin başlıca oriyentirlərindən biri olmalıdır.

Prof. Y.Rüstəmov düzgün yazır ki, aksiologiya mənanı müəyyənləşdirən elə prinsipləri öyrənir ki, onların vasitəsilə idrak sahəsindəki həqiqət ilə yalanı, siyasət sahəsində ədalət və ədalətsizliyi, etika sahəsində xeyir və şəri, estetika sahəsində gözəlliklə eybəcərliyi fərqləndirmək mümkün olur (2, s. 26).

Şəxsiyyətin yerinə yetirdiyi aksioloji funksiyalar əslində onun dünyagörüşü və fəaliyyətinin əsasını təşkil edir. Çünki insan həyata gəldiyi və fəaliyyətə başladığı gündən müəyyən dəyərlər sistemi, sosial normalar, adət-ənənələr ilə qarşılaşır. Şəxsiyyətin dünyagörüşündə oynadığı rola görə əsas yeri məqsəd dəyərlər tutur. Mütləq dəyərlər (həqiqət, humanizm, xeyirxahlıq, gözəllik, ədalət,vicdan və s.) öz mahiyyətinə görə insan-dünya əlaqələri sisteminin prof. M.Rzayevin təbirincə desək, fundamental moduslarıdır. Şəxsiyyət həyat fəaliyyəti prosesində müəyyən baza dəyərlər sistemi əldə edir. Həmin sistemin əsas ünsürləri həyat, ölüm, sevgi, azadlıq, mənəvi borc, xoşbəxtlik, həyatın mənası kimi aksioloji funksiyalarda ifadə olunur. Şəxsiyyətin strukturunun yuxarıda göstərilən bütün elementləri fiksasiya olunmuş ustanovkalar və aksioloji funksiyalar kimi çıxış etməklə, onun ictimai həyatının istehsalı və təkrar istehsalını təşkil edir. Müasir dövrdə şəxsiyyətin ictimai fəaliyyətində çox mühüm dünyagörüşü və tərbiyəvi əhəmiyyəti bundadır ki, onlar insanların yaradıcı potensialını, fəallığını artırmağın, tam dolğunluğu ilə hərəkətə gətirməyin və davranışını tənzimləməyin həlledici amillərindəndir (3, s.35; 39).

Ulu öndərimiz, ümummilli liderimiz H.Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışına qədər ölkədə qanunlar, dəyərlər, dövlət idarəçiliyi iflic vəziyyətinə düşdüyünə, sosial-iqtisadi, siyasi, mənəvi böhran tüğyan etdiyinə görə soyğunçuluqla məşğul olan müxtəlif rekert qrupları, şəxsi məhkəmələr meydana çıxmışdı, küçə razborkaları aparılırdı, anarxiya, özbaşınalılıq, hərcmərclik baş alıb gedirdi.Varlığın siyasi-iqtisadi, mənəvi əsaslarının sarsıdılması, sosial qeyri-bərabərliyin dərinləşməsi, əhalinin yoxsullaşması, hüquqi-siyasi mədəniyyət səviyyəsinin aşağı olması, sosialist tipli dəyərlərin devalvasiyası insanlar arasında təlaş, frustrasiya yaradırdı. Yuxarıda deyilənlər şəxsiyyətin dünyagörüşünü həmin dövrdə böhran keçirməsi

haqqında danışmağa əsas verir. Dahi siyasətçi uzaqgörən müdrik rəhbərimiz H.Əliyevin düzgün daxili və xarici siyasət nəticəsində sözügedən neqativ hallara son qoyuldu və Azərbaycan dünya sisteminə inteqrasiya olundu.

Totalitar rejimin, ideologiyanın ehkamlarının, rəsmi stereotiplərinin tamamilə aradan qaldırılması bütün ziddiyyətlərin və hər cür konfliktlərin dayandırılması demək deyildir.

Müasir sivilizasiya dərin inqilabi xarakter daşıdığına görə bütün köhnə dəyər ustanovkalarına qarşı çıxır, sonuncuların yeniləşməsini təkidlə tələb edir; əvvəlki təfəkkür tərzi, dünyagörüşü, dəyərlər sistemi və ideologiya artıq müasir dünyanın reallıqlarına tam cavab vermir. Dinamik dəyişən dünya yeni dəyərlərin və texnologiyaların, yeni geosiyasi münasibətlərin və kommunikasiya üsullarının prinsipləri, normaları, dəyərləri əsasında inkişaf edir. Yeni dəyər ustanovkalarının formalaşması prosesi mürəkkəb və ziddiyyəti, zaman etibarilə uzun sürən prosesdir. Bu proses bir çox cəhətdən nəsillərin dəyişməsindən, hər bir nəsil üçün səciyyəvi olan dünyagörüşü stereotiplərinin yeniləşməsindən asılıdır. Belə ki, cəmiyyətin yaşlı üzvləri arasında əvvəlki kimi ənənəvi dəyərlər çox vaxt öz gücünü saxlayır; fəal gənc nəsil yaşa dolduqca və yaşlı nəsli tədricən əvəz etdikcə onun dünyagörüşündə transformasiya baş verir, demokratik, humanist, ümumbəşəri dəyərlərə meyl güclənir. Şəxsiyyət indi plüralist dünyagörüşü ideyaları tələb edən dövrdə yaşayır və fəaliyyət göstərir. Müasir mədəniyyətin hansı qatlarında rüşeym şəklində olsa da cücərən yeni dəyərləri, yeni dünyagörüşü oriyentirləri araşdırıb üzə çıxarmalıyıq. Fərdi dəyər komponenti gizli şəkildə ictimai münasibətlərdə mövcud olur; ictimai münasibətlərin dəyişməsi digər amillərlə yanaşı dəyər şüurunun dəyişməsi nəticəsində baş verir. Dəyər şüuru və ictimai münasibətlərin bir-birini şərtləndirməsi bununla bağlıdır. İctimai varlığın dəyişməsi dəyər şüurunun fərdi dəyər şüurunun keçməsinə səbəb olur. Fərdi dəyər şüurunun ictimai dəyər şüuruna əks təsirində onun subyektiv elementini təşkil edən şəxsiyyət mənalı qiymətverici qabiliyyəti böyük rol oynayır. Bu proses real mövcud olan ilə olmalı olan, daxili və xarici , zərurət və təsadüf arasındakı ziddiyyətlər ilə əlaqədardır.

Şəxsiyyətin dəyər şüurunun inkişafı və zənginləşməsi sayəsində yeni dəyərlərin təşəkkülü və eksteriorizasiya prosesi baş verir. Eksteriorizasiya fərdi dəyər şüurunun ictimai dəyər şüuruna əks təsiri prosesidir, yəni şəxsiyyətin daxili təcrübəsinin xarici təcrübədə təcəssümüdür. Fəlsəfi-aksioloji təhlil xarici aləmlə insanın daxili aləmi arasındakı təsəvvürləri yaxınlaşdırmağa və qovuşdurmağa cəhd göstərir.

Müstəqillik və keçid dövründə fəaliyyət göstərən cəmiyyətimizin ictimai həyatının bütün sahələrində baş verən radikal transformasiya prosesləri müasir şəxsiyyətin dəyərlər seçimi və dəyər oriyentasiyasında ciddi və dərin dəyişiklik yaradır. Sonuncuların təhlil edilib ümumiləşdirilməsi və mənalandırılması fəlsəfi-aksioloji fikrin ən aktual, nəzəri-praktiki problemlərindən biridir. Azərbaycan xalqı müstəqillik əldə edənə qədər, totalitar sovet rejiminin hökmran olduğu yetmiş il ərzində problemin bu vacib tərəfinə fikir verilməmiş, bütün hallarda necə hərəkət etmək haqqında rəsmi standart, partiya normalarına tabe olan insan formalaşdırmaq başlıca strateji vəzifə olmuşdur.

Artıq 26-cı ildir ki, Azərbaycan xalqı dövlət müstəqilliyi və milli istiqlaliyyət şəraitində yaşayır və dünya sistemində layiqli yer tutur. Azərbaycan cəmiyyətində şəxsiyyətin qlobal plüralist dünyagörüşünün və dəyərlər sisteminin formalaşdırılması qeyri-adi şəraitdə, yeni sosial sistemin transformasiyası şəraitində baş verir. Ölkəmizdə ictimai həyatın bütün sahələrində baş verən transformasiya proseslərinin qarşılıqlı təsiri altında köhnə ideologiya, ictimai münasibətlər, sosial strukturlar və institutlar dağıdıldı, cəmiyyətin tipi, mənəvi oriyentirləri dəyişdi və onların əvəzinə tədricən yeniləri yaranmağa başladı. Azərbaycanda dəyərlər sisteminin formalaşması qeyri-adi şəraitdə, sosial sistemin köklü surətdə dəyişməsi şəraitində baş verir. Hər şeydən əvvəl onun sosial strukturunda ciddi dəyişikliklər olur: ilk dəfə olaraq orta sinif yaranır və transformasiya prosesində getdikcə çox mühüm rol oynayır; orta təbəqə (orta və xırda mülkiyyətçilər), iri sahibkarlar sosial-iqtisadi və mədəni sferalarda cəmiyyətimizin dəyərlərini, milli adət-ənənələrin əsas daşıyıcıları kimi çıxış edir.

Sosial-iqtisadi islahatlar bazar iqtisadiyyatının formalaşmasına, yeni sosial qruplarını, təbəqələrin yaranmasına kömək edir. Digər tərəfdən sosial strukturun transformasiyası bəzi ziddiyyətlər ilə müşayiət olunur: təbəqələşmə və qütbləşmə prosesi güclənir, yeni sosio-mədəni qurumlar (vətəndaş cəmiyyəti, çoxpartiyalılıq və s.) meydana çıxır, dəyərlərin ikiləşməsi (köhnə və yeni dəyərlərin mübarizəsi) prosesi baş verir.

Vətəndaş cəmiyyəti üzvlərinin mümkün alternativlərindən birini seçməsini təmin edən dəyərlər sistemi formalaşır. Bu sistemə dəyərlərdən başqa vətəndaş mədəniyyəti formalaşdıran elmi biliklər, əqidə və s. də daxildir. Bütün bunlar iqtisadiyyatın idarə olunmasının inzibati-amirlik sisteminin ləğv olunması, bazar iqtisadiyyatından istifadə edilməsi, xüsusi sahibkarlığa əsaslanan mülkiyyət formalarının yaranması, köhnə normativ sistemin tədricən yeni normativ sistem ilə əvəz olunması sayəsində əldə edildi. Bundan əlavə, ölkə iqtisadiyyatında dövlət mülkiyyət formasına alternativ kooperativ, səhmdar və xüsusi mülkiyyət formaları yaradıldı ( 4, s.10; 18). Keçid dövründə şəxsiyyətin qlobal plüralist dünyagörüşünün və dəyərlər sisteminin formalaşmasına güclü təkan verən amillərdən biri də təhsil sistemidir. Təhsil-böyük şəxsi və ictimai dəyərdir.

Dünyagörüşün formalaşaması adətən elmi, professional biliklərə yiyələnməkdən başlayır. Ümumilli liderimiz H.Əliyevin təbirincə düsək təhsil-millətin gələcəyidir. Şəxsiyyətin təhsil səviyyəsi nə qədər yüksək, dünya standartlarına uyğun olarsa, onun dünyagörüşü də bir o qədər geniş və zəngin olar, dünyanın bugünkü gedişini və gələcəyini aydın surətdə dərk edə bilər. Bu gün təhsil ictimai həyatın ən prioritet sferasıdır. XX əsrin sonu və XXI əsrin əvvəllərində təhsilin və dünyagörüşün statusu dəyişir. Təhsil sayəsində Azərbaycan milli ideologiyasının keçmiş sovet təhsil ideologiyasından prinsipial fərqi ondan ibarətdir ki, müasir təhsil yalnız professional biliklər, diplom verməklə kifayətlənmir. Bununla bərabər, təhsil şəxsiyyətin işçi qüvvəsi bazarına hazırlığı, milli dəyərləri mənimsəməsi, dövrün imperativlərinə adaptasiya olunması vasitəsidir. Təhsil şəxsiyyətin qlobal plüralist dünyagörüşünün formalaşmasına və demokratik, humanist, ümumbəşəri dəyərləri mənimsəməsinə hərtərəfli şərait yaradır.

Azərbaycan dövləti gənc nəslin, xüsusən orta məktəb şagirdlərinin elmi və tənqidi təfəkkürünün formalaşmasına xüsusi qayğı göstərir. Tənqidi təfəkkür əqli və dəyər prosesinin yeni metodu kimi XX əsrin 80-ci illərində Amerikada, 90-cı illərində isə Avropa ölkələrində formalaşmağa başlamışdır. Şagirdlərin tənqidi təfəkkürünü formalaşdırmaq üçün Azərbaycanda ümumi təhsilin konsepsiyası (milli kurikulum adlanan) işlənib hazırlanmışdır. Milli kurikulum təhsil proqramı müəllimlə şagird arasında partnyor münasibətlərinin yaranmasını nəzərdə tutur. Tənqidi təfəkkürün prinsipləri aşağıdakılardır:

1. Təhsilin məqsədi biliklərin həcmi və məlumatların sayı ilə deyil, şagirdin bu informasiyanı necə idarə etməsini formalaşdırmaqla ölçülür. Şagird biliklərdə və məlumatlarda olan qiymətli, dəyərli mənanı tutmalı və bundan həyati məqsədləri üçün istifadə etməyi bacarmalıdır;
2. hazır bilikləri mənimsəmək kifayət deyil, şagird təlim prosesi zamanı özünün düşünüb hasil etdiyindən yararlanmalıdır;
3. şagirdlərə tam düşüncə azadlığı verilir. O, öz düşüncələrində vicdanlı və ədalətli olmalıdır.
4. hər bir kəs müqayisə aparmaqla yaxşını pisdən, düzü əyridən, xeyri-şərdən, ədaləti-ədalətsizlikdən seçməklə ictimai varlığı obyektiv dərk etməyə səy göstərməlidir;
5. hadisələrə qərəzli yanaşmaqdan qaçmaq lazımdır. Fərqli düşüncələrə təmkinlə yanaşmaq və hörmət etmək vacibdir;

Milli kurikulum adlanan təhsil konsepsiyası gənc nəslin dünyagörüşünün genişlənməsinin (hər bir kəs müqayisə aparmaqla ictimai varlığı obyektiv dərk etməlidir), mənimsədiyi biliklərə və informasiyaya yaradıcı surətdə yanaşmağın (biliklərdə və informasiyada olan mənanı tutmağı və bundan həyati məqsədləri üçün istifadə etməyi, özünün düşünüb hasil etdiyindən yaranlanmağı bacarmalıdır), demokratik, ümumbəşəri, humanist və milli dəyərləri mənimsəməyin və tənqidi süzgəcdən keçirməyin (yaxşını pisdən, düzü əyridən, xeyri şərdən, ədaləti-ədalətsizlikdən seçməyi, düşüncə, seçim azadlığı, xeyirxahlıq, tolerantlıq, sevgi, vicdan, məsuliyyətlilik və bu kimi sair dəyərləri mənimsəməyi bacarmalıdır) üsullarını, metodlarını, yollarını aydın şəkildə göstərir.

Beləliklə, tənqidi təfəkkürün funksiyası şəxsiyyətin rastlaşdığı həyati hadisələri, situasiyaları və mənimsədiyi mövcud bilikləri şübhə altına almaq, onların gizli, yeni xüsusiyyətlərini axtarıb tapmaq, ziddiyyətlərini aşkar etmək, həyati mövqeyini müəyyənləşdirməkdən ibarətdir. Tənqidi təfəkkürün başlıca vəzifələrindən biri də şəxsiyyətin idrakı qabiliyyətini inkişaf etdirmək, dünyagörüşünü zənginləşdirmək, ehkamçılığa yol verməmək, bilikləri modernləşdirməkdir. Şəxsiyyətin fəaliyyət yönümü həyata, bilik və dəyərlərə münasibət üzərində yüksəlir. Hiss və əql, inam və şübhə, nəzəriyyə və təcrübə, keçmişi dərk etmək və gələcəyi görə bilmək, əqidə, istək, arzu, ideal, maraq, fiziki sağlamlıq, yaş həddi, sosial vəziyyət, etnik, milli mənsubiyyət şəxsiyyətin dünyagörüşünün formalaşmasının başlıca amilləridir. Dünyagörüşü eyni zamanda həm də tarixi dövrün, xalqın ruhu, mədəniyyəti, adət-ənənələri, ölkənin sosial-iqtisadi, siyasi quruluşu öz ifadəsini tapır; o, öz dövlətinin təfəkkür üslubunu təmsil edir. Cəmiyyətdə baş verən radikal transformasiya prosesləri dövründə fəlsəfənin xüsusi rolu onun tənqidi funksiyasının artmasında özünü göstərir. O, hər şeyi daim tarixi inkişafda və təkmilləşməkdə götürür, dəyər sisteminə yeni tərzdə yanaşır. Lakin tənqidi fəlsəfi tədqiqat həmişə təkcə bu və ya digər köhnəlmiiş stereotiplərdən azad olmaq vəzifəsini həll etməklə kifayətlənmir, həm də yeni, dəyişən reallıqlara müvafiq gələn sosial ideალların, humanist, demokratik dəyərlərin formalaşmasına və insanların şüurunda, fəaliyyətində reallaşmasına yol açır. Nəticədə biliklər paradiqması yeniləşir, dəyərlər sistemi yenidən mənalandırılır və şəxsiyyətin əqidəsi formalaşır.

Təhsil Nazirliyi və İslahat Komissiyasının həyata keçirdiyi ümumi təhsil konsepsiyası öz müsbət nəticələrini verməkdədir. Bunu təhsilimizin beynəlxalq standartlara və milli dəyərlərə uyğun şəkildə təşkil edilməsi, onun dünya təhsil sisteminə inteqrasiya olunması, siyasi-iqtisadi və hüquqi bazanın yaradılması təsdiq edir.

Müasir şəxsiyyət tipinin, onun daxilən motivləşmiş düzgün davranış xəttinin formalaşmasında dəyər şüuru də dünyagörüşü dialektik vəhdətdə çıxış edirlər. Şəxsiyyətin görüş dairəsi genişləndikcə, burada yeni biliklər paradiqması yarandıqca, həyat təcrübəsi artdıqca onun yeni təşəkkül tapan dəyərlərə yiyələnməsi və

bunlara obyektiv qiymətverici qabiliyyəti daha da inkişaf edir. Dünyagörüşü inkişaf edib təkmilləşdikcə, buna müvafiq olaraq şəxsiyyətin dəyərlər sistemi və dəyərlər seçimi də yeniləşir. Hazırki dövrdə dinamik dəyişən ictimai varlığın mənasını düzgün anlamaq və humanistləşməyə meyl etmək xüsusi əhəmiyyətə malikdir. Dünyagörüşün şəxsiyyətin dəyərlər seçiminə və dəyər oriyentasiyasına güclü təsiri hər şeydən əvvəl öz əksini bunda tapır. Çünki dəyərlər və dəyər oriyentasiyası dünyagörüşün mühüm tərkib hissəsidir, onun başlıca komponentlərindəndir. Bunu ictimai-tarixi təcrübə də təsdiq edir; ictimai-tarixi təcrübədə dünyagörüşü və dəyərlər sistemi həmişə dialektik vəhdətdə və təsirdə olmuşdur. Dünyagörüşü şəxsiyyətin həyatın mənasını düzgün dərk etməsində, düzgün həyat mövqeyi seçməsində, əqidəsinin formalaşmasında, fəaliyyət proqramının işlənib hazırlanmasında və reallaşdırılmasında həmişə yaxından iştirak etmişdir.

Dünyagörüşün çox mühüm başlıca funksiyalarından biri də ən ümumi dəyərlər sistemi və dəyər ustanovkaları formalaşdırmaq, insanların ayrı-ayrı konkret məqsədlərini, fəaliyyət proqramlarını və dəyərlərini inteqrasiya edən, N.S.Rozovun təbirincə desək, yeni tarixi dövrün qlobal etikasını yaratmaqdır (5, s.264).

Dəyər şüuru da öz növbəsində şəxsiyyətin dünyagörüşünə əhəmiyyətli təsir göstərir. Dəyərlərin insan həyatında çox mühüm dünyagörüşü və tərbiyəvi əhəmiyyəti hər şeydən əvvəl bunda ifadə olunur ki, onlar şəxsiyyətin yaradıcı fəallığını tam dolğunluğu ilə hərəkətə gətirir və eyni zamanda artırır.

Müasir dünya ictimai inkişafın perspektivlərinin artmaqda olan dinanizmi və eyni zamanda ziddiyyətliliyi konfliktliyi ilə müşayiət olunur. Bu proses bir sıra amillərlə şərtlənir: siyasi sistemlərin dəyişməsi, sosial qeyri-bərabərlik, cəmiyyətin həyat fəaliyyətini təşkil edən institutların dağılması, sosial strukturların transformasiyası, informasiya texnologiyaları axınının ictimai həyatın bütün sferalarına yayılması, qlobal problemlərin həllində vahid strategiyanın olmaması və s. amillər insanlarını müəyyən hissəsində həyatın mənasının itirilməsi hissinin baş qaldırılmasına və "ekzistensial vakuum" adlanan boşluğun yaranmasına səbəb olur. Bundan əlavə, bazar münasibətləri, bir tərəfdən, müsbət irəliləyişlər gətirir, digər tərəfdən şəxsiyyətin dəyər şüurunda neqativ nəticələr törədir, dəyər oriyentasiyasında mənfi istiqamətlər yaradır. Bunun nəticəsində bəzi insanlar mövcud dəyərlər içərisində həyatın mənasını və digər ali mənəvi dəyərləri düzgün seçə bilmir, onlarda müəyyən çaşqınlıq və yuxarıda qeyd etdiyimiz kimi "ekzistensial vakuum" adlanan boşluq yaradır, köhnə dəyərlərin yenilikləri ilə əvəz olunması prosesini ləngidir. Keçid dövrünün xarakterindən irəli gələn çətinliklər totalitar rejimdən miras qalmış və hələ həllini tapmamış bəzi problemlər ilə vəhdətdə çıxış edərək insanların müəyyən hissəsində ali, yüksək sosial-mənəvi dəyərlərə münasibətdə biganəlik, laqeydlik yaradır.

"Ekzistetsial vakuum" problemini hərtərəfli araşdıran məşhur filosof V.Frankl çox düzgün yazır ki, bu vəziyyətə düşən insan həyatda nə istədiyini bilmir. O, ya başqalarının istədiyini arzu edir (konformizm) və yaxud da başqasının ondan görmək istədiyi hərəkəti, yəni totalitar cəmiyyətdə yaşayan insana xas olan hərəkəti edir (6, s.25).

Marksist fəlsəfənin yeganə elmi dünyagörüşü olması ideyasının hökmran olduğu dövrdə bütün dünyada proletar inqilabı etməklə kapitalizmi devirmək, proletar beynəlmiləlçiliyi, sosializm cəmiyyətinin ən ədalətli, humanist cəmiyyət elan edilməsi, bu cəmiyyətə sədaqət, ictimai mülkiyyətin (əslində partiya-dövlət mülkiyyətinin) ideallaşdırılması, xüsusi mülkiyyətin yalnız istismar məqsədi güdməsi, sosialist demokratiyanın yeganə ali forması sayılması, sosialist incəsənətinin ən qabaqcıl incəsənət kimi qələmə verilməsi və bunlara müvafiq digər dəyərlər şəxsiyyətin dünyagörüşünün əsası hesab olunurdu. Bu cür dəyərlərin elmi əsasları olmadığına və zamanın sınağından çıxa bilmədiyinə görə iflasa uğradı və tarixin arxivinə çevrildi.

Milli müstəqillik əldə edən və dünya birliyində layiqli yer tutan ölkəmizdə açıq cəmiyyətin əsaslarının yaradılması, ictimai həyatın bütün sahələrinin humanist, demokratik, ümumbəşəri prinsiplər əsasında təşkil edilməsi, hüquqi dövlət və vətəndaş cəmiyyətinin təşəkkül tapması, şəxsiyyətin tələbatlarının, maraqlarının ödənilməsi, dəyər ustanovkalarının transformasiyası şəraitində onun qlobal plüralist dünyagörüşü formalaşır. Buna müvafiq olaraq dünyagörüşün şəxsiyyətin dəyərlər sisteminə və dəyərlər seçiminə təsiri də xeyli yeniləşir və özündə humanizm, demokratiya, azadlıq, ədalət, xeyirxahlıq, kommunikasiya ünsiyyəti, informasiya seçimi, milli mənlik şüuru kimi dəyərləri ehtiva edir. Məhz buna görə də cəmiyyətimizin gələcək inkişaf perspektivləri baxımından fasiləsiz, daim dəyişən dünyada yaşamağı və fəaliyyət göstərməyi bacaran güclü şəxsiyyətin müasir tipinin qlobal plüralist dünyagörüşünün formalaşması strategiyasının işlənib hazırlanması və həyata keçirilməsi ən aktual problemdir.

## ƏDƏBİYYAT


1. Мурадов Ш.М., Гезалова А.К., Эфендиев Р.Дж. Глобализация демографическое развитие и трудовая активность населения в Азербайджане. Баку, Элм, 2007 – 264 с.
2. Rüstəmov Y. Fəlsəfənin əsasları. Bakı, 2004 – 499 s.
3. Rzayev M.H. Şəxsiyyət və dəyərlər. Bakı, 2005 – 77 s.
4. Гасанов Р.М. Формирование гражданского общества в условиях трансформации. Баку, 2003 – 271 с.
5. Розов Н.С. Ценности в проблемном мире: философские основания и социальные приложения конструктивной аксиологии. Новосибирск, 1998 – 197 с.
6. Франкл В. Человек в поисках смысла. М., 1990 – 454 с.



## ABSTARCT

**Vidadi Salmanov**
**Konul Salmanov**

**VALUES AND VALUE ORIENTATION ARE IMPORTANT PARTS OF OUTLOOK**

According to the scientific article,axiological functionsaccomplished by a person are in fact, the basics of his outlook and his activity. Because a man faces with certain value system, social norms, customs and traditions since he was born and began to his activity. Values keep an important place in the outlook of a person according to his role.

It is also noted in the article that, his global pluralistic outlook is formed in the countrywhich achieved national independence and holds a worthy place in the world community, in terms of creation of an open society fundamentals, organization of all spheres of public life on the basis of humanistic, democratic and universal principles, formation of legal state and civil society, meeting a person’s needs and interests, transformation of value installations.

It’s indicated in the article that, as outlook of a person expands; paradigm of new knowledge creates, life experience increases, possession of his newly formed values and ability of objective assessment develop more. As outlook develops more, according to it, value system and value choice of a person renew more.



## РЕЗЮМЕ

**Видади Салманов**
**Конуль Салманова**

**ЦЕННОСТИ И ОРИЕНТАЦИЯ ЦЕННОСТЕЙ – ВАЖНЕЙШАЯ СОСТАВЛЯЮЩАЯ ЧАСТЬ МИРОВОЗЗРЕНИЯ**

В научной статье говорится, что аксиологические функции, выполняемые личностью, на самом деле, составляют ее мировоззрение и основу деятельности. Так как, со дня рождения и начала деятельности человек сталкивается с системой определенных ценностей, социальных норм, традиций и обычаев. За роль, которую играет в мировоззрении личности, основное место занимает ценности.

В статье также отмечается, что в нашей стране, завоевавшей национальную независимость и занимающей достойное место в мировом сообществе, в условиях создания основ открытого общества, организации всех сфер общественной жизни на основе гуманистических, демократических, человеческих принципах, становление юридического государства и гражданского общества, удовлетворение потребностей, интересов личности, трансформации ценностных установок формируется ее глобальное плюралистическое мировоззрение.

В статье указывается, что по мере расширения круга встреч личности, формирования здесь новых парадигм знаний, повышения опыта жизни, усвоения ценностей и способность объективной оценки еще больше развивается. По мере развития мировоззрения, также соответственно обновляется система ценностей и подбор ценностей.



NDU-nun Elmi Şurasının 30 mart 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 07).

Məqaləni çapa təqdim etdi: Fəlsəfə üzrə elmlər doktoru, professor M.Rzayev

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2017, № 2 (83)**

NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2017, № 2 (83)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2017, № 2 (83)**

**BAĞIR BABAYEV**
*Naxçıvan Dövlət Universiteti*
*baqirbabayev59@mail.ru*

**UOT: 141**

# XX ƏSR AZƏRBAYCAN DEMOKRATİK FİKRİ ELMİ ARAŞDIRMALARDA

***Açar sözlər:*** *demokratik fikir, imperiya siyasəti, elmi araşdırmalar, görkəmli xadimlər, rəngarənglik*
***Key words:*** *democratic opinion, empire policy, scientific researches, prominent figures, colorful*
***Ключевые слова:*** *демократическая мысль, имперская политика, научные исследовании, выдающие деятели, разнообразность*

Rusiya işğalının ilk günlərindən başlayaraq Azərbaycanın sosial-siyasi həyat səhnəsində imperiya siyasəti yeridildi. Yəni imperiyanın digər xalqlarından, millətlərindən daha fərqli şəkildə müsəlman türkünə qarşı çox qərəzli, şovinist siyasətin yeridilməsi açıq-aşkar özünü büruzə verməyə başlayırdı. Zorakı xristianlaşdırma və assimilyasiya siyasəti yeridən Rusiya imperiyasının başlıca gizli siyasi məqsədi əsarətdə saxladığı çoxmilyonlu türk-müsəlman xalqlarının birliyinə istənilən vasitələrlə və yollarla maneələr törətmək idi. İmperiya onların birliyini qəti şəkildə sarsıtmaq, mütləq bir-birindən təcrid vəziyyətində saxlamaq istəyirdi. Sonradan isə imperiyapərəstlər nəsillərimizin varislik əlaqələrini qırmaqla onların dünyagörüşündən, mənəvi dünyasından irsi varisliyi tamamilə silib atmaq məqsədlərini güdürdülər.

Qorxunc olduğu qədər də əzəmətli görünən qüdrətli, nəhəng imperiya istənilən vasitələrlə və yollarla Azərbaycanın türk-müsəlman xalqlarına-millətimizə qarşı iyrənc siyasətini həyata keçirirdi. Arazdan şimaldakı türk- müsəlman torpaqlarımızın işğalının həyata keçirilməsi ilə belə bir qorxunc siyasət və ideologiya bir arada dönmədən, ardıcıl surətdə yerinə yetirilməyə başladı. Dövlət öz siyasətinin, ideologiyasının həyata keçirilməsi yolunda heç nədən qorxmurdu. Çünki slavyan xalqlarından sonra xristian olmayan, işğal altında saxladığı ikinci sırada dayanan digər yad, xüsusilə də türk-müsəlmanların torpaqlarını özününküləşdirmək üçün mütləq əsarətdə saxladığı xalqın beynini, düşüncəsini sıradan çıxarmalı idi. Bu mənada onun millətimizin mənəvi aləminə nüfuz etməsi üçün bütün qüvvələrini səfərbər edəcəyini tarix göstərəcəkdi. İmperiyanın diqqət mərkəzində saxladığı əsas məsələ isə millətin milli birliyinin sarsıdılmasına, mənəvi aləminin puçluğuna yönələn tədbirlərində onun qaranlıq mühitdən ayrıla biləcəyinə törətdiyi maneələr idi.

Bu, imperiyanın düşünülmüş və əsrlərin sınaqlarından keçmiş çox hiyləgər bir siyasəti idi; onu qaranlıq mühitdə, cəhalətdə, mövhumatda saxlamaq və ondan qopub ayrılmağa yönələ biləcək hər şeyə mane olmaq. Bununla millətin ruhu iflic, onun yaralanmış qəlbi parça-parça, dəlik-deşik edilirdi ki, onlar imperiya üçün udulması çox rahat olan iştah açan bir tikəyə çevrilsin. Dövlət millətə kimliyini unutdurmağa səy etməklə düşünülmüş şəkildə onu imperiyaya dilsiz- ağızsız bir yem etmək istəyirdi. Bunun üçün özünün qərəzkar, fitnəkar, ixtilaflar yaratmaqda ustalıq nümayiş etdirən bürokratik təşkilatını bu işə yönləndirirdi və bunu heç cür nəzərdən qaçırmaq fikrində deyildi. Onun bu xalqa-millətə ehtiramı yox həddində idi, qərəzli siyasəti aşkar şəkildə görünür və hətta bir çox hallarda açıqca nümayiş etdirilirdi. "Çarizm dövründə Azərbaycan milli azadlıqdan məhrum edilməklə yanaşı, mənəvi məhkumiyyətə də məruz qalmışdır. Çarizmin Qafqazda, o cümlədən Azərbaycanda apardığı ruslaşdırma və erməniləşdirmə siyasəti, bir tərəfdən, yerli əhalinin adət-ənənələrinə, dini, milli xüsusiyyətlərinə böyük zərbə vurmuş, başqa tərəfdən isə gələcəkdə daha böyük bir bəlanın yaranmasına...rəvac vermişdir"(8,19).

Amansız rus işğalının fədakar xalqımız üçün istəməyərəkdən gətirdiyi əsl "xoşbəxtlik" isə elə onda idi ki, xalqımız ondan ayrı olduğunu həyat təcrübəsində anlaya bildi. İmperiya siyasəti onun milli özünüdərkinə, milli şüurunun məhvinə yönəldiyi halda, xalq dərk edə bilmişdi ki, yadelli təcavüzə uğramışdır. "Tarixçilərin müxtəlif dövrlərin ruhuna münasib şəkildə işlətdikləri terminoloji anlayışlardan ("könüllü daxil olma", "birləşmə", "birləşdirilmə", "ilhaq edilmə" və s.) asılı olmayaraq, Rusiya imperiyasının XIX əsrin başlanğıcında Azərbaycana ekspansiv münasibəti və torpaqlarımızı işğal etməsi fakt idi. Lakin o da faktdır ki, regionun hətta silah gücünə də olsa, Rusiya imperiyasına daxil edilməsi istər məhsuldar qüvvələrin, istərsə də mədəni həyatın, maarifin və ictimai fikrin inkişafına ilkin mərhələdə müəyyən müsbət təsir göstərmişdir" (12,5). Macal tapdıqca, tarixi şərait yetişdikcə, o, buna daha möhkəmliklə əmin olmağa başlayırdı ki, məruz qaldığı bu yadelli təcavüzkar siyasətdən canını qurtara bilmək üçün hər cür çarpışmalara hazır dayanmalıdır. Çünki imperiya əsarəti, üstəlik də, görünməmiş dərəcədə getdikcə daha da gücləndirilən xristianlaşdırma-ruslaşdırma siyasəti onu tamamilə bu rejimdən iyrəndirmişdi. Odur ki, xalq qürurunun tapdlandığının, murdar, yad pəncələlər altında qalaraq kirləndiyinin hər zaman şahidinə çevrilmişdi. Bunlar da ona qurtuluş yollarını

tapa bilməkdə güclü səy göstərməsinə meydan açmışdı.

Xalqımız saxlanıldığı cəhalət və mövhumatın ən dərin qatlarında belə, onu əzən, buradan çıxmağa qoymayan yadelli, yad dilli, yad əqidəli bir dövlətdən tam fərqli olduğunu görə bildi. Onu açıqca dərk etməyə, anlamağa və qəti şəkildə buna əmin olmağa başladı. Bu xalqa yüzillik ağalığı dövründə bütün məhrumiyyətlərin acısını yaşatmış bir imperiya elə məhz bu səbəblərdən də dəridən-qabıqdan çıxsa belə, dili, dini, adət-ənənəsi, mənəvi-daxili aləmi tamamilə ona yad olan xalqı-Azərbaycan türkünü və onun türklüyünü, hər kimin əlilə olursa-olsun belə, nə ram edib özünə tabe edə bilmədi, nə də içərisində əridib yox edə bilmədi.

Bunun əsas başlıca səbəbi isə riyakar, hiyləgər imperiya siyasətinin zəifliyi, acizliyi deyildi. Əksinə, xalqına sadiq olan vətənsevər millət fədailərinin canlarını fəda etməkdən qorxmayaraq, mənfur imperiya siyasətinə mətanətlə sinə gərərək dayanması, eləcə də xalqına, millətinə onun milli özünüdərkini, milli şüurunu aşılamasından və onu oyatmasından irəli gəlirdi. ”XIX əsrin sonu, XX əsrin əvvəllərində quzey Azərbaycanda mövcud olan sosial-siyasi və ideoloji mühitin formalaşmasına nəzər yetirərkən məlum olur ki, bu dövrdə çar Rusiyasının işğalı altında olan Azərbaycan xalqı, Azərbaycan türkləri azadlıq uğrunda mübarizə aparmış və azad, müstəqil olmağa çalışmışlar”(8,17). “Çar Rusiyasında türkçülük ideyasının yayılmasına təkan verən əsas amillərdən biri isə türklərə qarşı ruslaşdırma və xristianlaşdırma siyasəti idi. Rusiya imperiyası tərkibində türkçülük bir neçə istiqamətdə özünü büruzə verirdi. Belə ki, başlanğıcda türklərə də sadəcə xaçpərəst xalqlarla bərabər hüquq verilməsi məsələsi qaldırılırdısa, getdikcə bu proses türk xalqlarının Rusiya tərkibində muxtariyyət hüququ uğrunda mübarizəsinə çevrildi və sonda türk xalqları milli istiqlal davasına başladılar”(11,53-54) ”ucqarlarda yaşayan xalqların hüquqlarının hər cür tapdalanması milli məsələnin tezliklə həllində maraqlı olan bütün ictimai təbəqələri bu məsələ ətrafında birləşməyə sövq edirdi. Bu dövrdə ictimai-siyasi həyat səhnəsinə Avropa və Rusiyanın ali təhsil müəssisələrində kamil peşə hazırlığına yiyələnmiş yüksək təhsilli parlaq şəxsiyyətlər nəsli gəlirdi. Onlar millətin taleyi ilə bağlı məsələlərə görə güclü həyəcan hissi keçirir, hüquqi məhdudiyyətlərin ləğvi məsələsini getdikcə daha inadla ortaya qoyur, islahatların keçirilməsini ehtirasla tələb edirdilər”(1,112).

Nəticə etibarı ilə XX əsrin yenilikçilik ruhu-zamanın qəti hökmü çarizmin mənfur siyasi- ideoloji siyasəti ilə uyğun gələ bilməzdi. Ucqarlardan biri kimi, Azərbaycanda da onun türk millətinin qarşısında dayanan əsas prioritet istiqamət mütləq şəkildə onun oyanışından, milli özünüdərkindən başlamalı idi. Buna şərait yaradan ən mühüm amil isə əsrin özü ilə gətirdiyi yenilikçilik əhval-ruhiyyəsinin tələblərindən doğurdu. Millətimizin, xalqımızın qarşısında duran vaxtı çatmış və daha öz həllini gözləyə bilməyən mühüm amil onun oyanışına, sabaha doğru irəliləməsinə və tərəqqi tapmasına doğru getməkdə idi. Bu, XX əsrin-yeni zamanın millətin qarşısına qoyduğu ən mühüm ehtiyaclarından birincisi idi. Zaman bu ehtiyacı çox nisbi sakit bir tərzlə, ehtiyatla millətin düşüncəsinin gündəmində saxlamışdı və milləti də əsrin zamanın tərəqqisinə uyğun bir yönə-tərəfə çəkib çıxarmağa başlamaqda qərarlı görünməkdə idi. Hər şey və hamı isə zamanın hökmünə tabe olmaq məcburiyyətində qalmışdı. Zaman artıq milləti istəsə də, istəməsə də ayılmaq, oyanmaq yoluna sövq etməli olacaqdı.

XX əsrin əvvəllərindəki cəmiyyət həyatında daha kəskin, barışmaz ideya- siyasi mübarizələrin başladığı bir dövr idi. Bu zaman həyat meydanında yenicə ilk addımlarını atan Azərbaycan demokratik fikri bu həyatın amansız mübarizə meydanında daha möhkəm dayanmaq məqsədilə, eləcə də baş verən ictimai-siyasi hadisələr prosesində milli birlik ideologiyasına sədaqətini ortaya qoyurdu. Onlar bu birlik vasitəsilə müvəffəqiyyət qazanılacağına inanırdılar və bildirirdilər ki, bu birlik milli istiqlal üçün olduqca çox vacibdir və əhəmiyyətlidir. Xalqına, millətinə, milli birlik ideyasına sədaqət nümayiş etdirən Azərbaycan demokratik fikri çar Rusiyasının müstəmləkəsinə çevrilmiş Vətəninin və onun ” Əlahəzrət imperatoru”nun sadiq təbəəsi sayılan məzlum millətinin sabahı- “ istiqbalı və istiqlalı üçün” cəsarət simvoluna çevrilmiş oldu, cəmiyyətin gələcək inkişafında tamamilə fərqli yöndən daima onun yanında dayandı. O, ümummilli mənafelərə sədaqətli olduğunu ideya istiqaməti seçdi, milli birliyin müasirliklə səsləndiyini təsdiqlədi, baş verən sosial-siyasi proseslərə obyektiv yanaşmaqla, millətin milli birliyinin onun milli oyanışı, milli özünüdərki yolunda çox mühüm bir addım olacağına diqqəti yönləndirdi, cəmiyyətin diqqətini ona doğru çəkdi və bununla da, millətin milli birlik və milli istiqlal mübarizəsinə çox mühüm bir hədiyyə vermiş oldu. Demokratik fikir əminliklə gödtərirdi ki, milli birlik-millətin milli-dini vəhdəti onun azadlığa və istiqlaliyyətə gedən şanlı mübarizə yolundakı ilkin əsas başlanğıcdır ki, istiqlal qazanan cəmiyyətin də möhkəmlənməsi, inkişafı və tərəqqisi yenə məhz bununla bağlıdır.

Dərin məzmunlu, zəngin fikirlər irəli sürən XX əsr Azərbaycan demokratik fikri canlı, təsirli bir dillə diqqəti ittifaqa, ittihada çəkirdi və milləti də buna səsləyirdi. Çünki qocaman Rusiya imperiyasının işğalı altında inləyən bütün müsəlman-türk xalqlarının imperiyanın bütün mənfur siyasətinə qarşı uğurla, müvəffəqiyyətlə dayanması və ayağa qalxıb ondan qopub ayrılmaq məqsədini ideya istiqaməti kimi qəbul edən demokratik fikir bu millətlərin, xalqların hamısını vahid bir ideya, birlik ətrafında birləşdirməyin və

birləşməyin zəruri olduğunu xüsusilə vurğulayırdı. Bu da demokratik fikrin milli və dini birlik ideyasının mayasını təşkil edirdi. Sələflərinin sağlam əqidə- ideya baxışlarını davam etdirən XX əsr Azərbaycan demokratik fikri atəşli qəlblərində gəzdirdikləri şanslarını ortaya qoymaqla hər halda xalqın acılarını birdəfəlik söküb atmağı və onun azadlığına yardım göstərməyi özlərinin əqidə-ideya vəzifələrinə, amallarına çevirmişdilər. Onlar millətini bütöv görmək məqsədini arzulayır və bu yolda bütün qüvvələriini səfərbər edirdilər. Eyni zamanda da milli ideologiyanın daşıyıcıları kimi, onlar belə qənaətdə idilər ki, sosial-siyasi həyatın dəyişilməsi və dəyişdirilməsi yönündə millət milli birlik yolunu seçməyi özünə başlıca vəzifə kimi min dəfəlik ölçüb-biçmiş olmalıydı. Millətimizin mücahidləri olmağın yolunu seçən XX əsr Azərbaycan demokratik fikri milli birlik ideyasının xalqın milli istiqlal-milli mücadilə uğrunda savaşının ana xəttini təşkil etdiyinə milləti inandırmağa çalışırdı. Milli birlik, ittihad və ittifaq ideyası isə xalqın düşmənlərini çaşdırıb, çaş-baş salır və haqlı olaraq onları çox qorxudurdu.

İşğal dövrünün bütün yasaq və məhrumiyyətlərinə, imperiyanın qərəzli siyasətinə baxmayaraq, Azərbaycan xalqı kiçik də olsa bir cığır açaraq tədricən mədəni dünyanın ümumi tərəqqi yoluna çıxa bildi. Belə bir tərəqqi yoluna çıxmaqda çarizm siyasətinin yuxarıda sadalanan mənfi təzahürləri ilə yanaşı, xalqın milli oyanışına təsir göstərən bir sıra müsbət amillər də olmuşdur"(7,15). İmperiyanın xalqımızın alçaldılmasına, milli ruhunun sındırılmasına və boğulmasına yönəlmiş siyasəti xalqın ağrılarını get-gedə artırsa da, onun milli düşüncəsini silkələyib ayıltdı, ona milli mübarizənin mənasını yavaş-yavaş anlada bildi. Doğrudur, imperiya hakimiyyəti buna heç vaxt inana bilməzdi ki, şovinist mustəmləkəçi siyasət yürüdən dövlətin, hakim millətin onunla dil, din, mənəviyyat aləminə yad olan millətlərə, xalqlara basqısı onları da öz fəaliyyət proqramlarını düşünəcəyinə və ortaya çıxaracağına səbəb olacaqdır. Bu fəaliyyət proqramını hazırlayan, onun milli düşüncəsini uca tutan və onu milli ideologiya səviyyəsinə yüksəldə biləcək mübariz ruhlu demokratik fikir xadimləri idilər. Onlar xalqın milli ruhunun yaranması yolunda səy göstərdilər, onda bu ruhu milli ideologiya şəklində sistemləşdirib, onu milli azadlıq uğrunda mübarizədə arxasınca apara bildilər. "Rusiya imperiyasının qərəzli mövqeyinə, milli özünüdərketmə prosesini əngəlləmək üçün yaratdığı bütün çətinliklərə baxmayaraq, yeniləşmə dövrünün mütərəqqi irsindən faydalanan ziyalılar artıq XX əsrin əvvəllərində milli şüurun inkişafına təkan verən hər bir fəaliyyətə rəvac verirdilər"(11,57).

XX yüzilliyin millətimizin qarşısına qoyduğu tələblərdən ən vacibi onun milli kimliyinə sahib çıxması olmuşdu. Zaman XIX əsrin rus istilasından başlanmış XX əsrin əvvəllərindək olan tarixi dövr ərzində unudulmaqda olan, unutdurulmağa çalışılan türklük düşüncəsini yenidən tarixi zərurət kimi cəmiyyət həyatının diqqət mərkəzinə çəkib gətirdi. Çünki məhkum xalqlardan biri kimi, bizim Azərbaycan türklərimiz tarixi zərurət üzündən milli özünəməxsusluğunu yenidən axtarıb tapmağa səy etdi. O, obyektiv olaraq əsarətdən qurtuluş naminə, tərəqqi və inkişaf yoluna çıxmaq istədiyindən milli mənlik şüurunun oyanmasına, mahiyyətcə milli oyanışa nail olmağa çalışırdı. Hakim xalq müstəmləkə altında olan xalqı dilindən, dinindən, tarixindən çəkindirmək məqsədi güdürsə, milli azadlıq yoluna çıxan xalq məhz bu prinsipləri öz fəaliyyət proqramına daxil edir"(6,162). Bununla da o, imperiya əsarətindəki eyni dildən, kökdən olan türk xalqları ilə yaradılmış əlaqələrə görə bu prosesdə fəal iştirakçıya çevrildi və milli birlik axtarışına çıxdı. Məlumdur ki, milli şüurun yetişmədiyi, milli özünündərkin olmadığı bir zamanda milli vəhdət haqqında düşünməkdən söhbət gedə bilməz. Ona görə də millətin milli özünündərkinin, millli mənlik şüurunun inkişafı onun milli kimliyinə-milli varlığına sahiblənə bilməsi yolunda nə qədər çətinliklər olsa da, ona çatmağın mümkünlüyünü göstərirdi.

Bu, millətimizin milli şüurunu, milli özünüdərkiniləngidən, ona mane olmaqdan bezməyən imperiyanın hər zamankı kimi, ən yaxın hədəfi olmuşdu. İstər bütövlükdə XIX əsr boyunca, istərsə də XX əsrin başlanğıcında millətimizə münasibətində Rusiya imperiyasının dəyişməyən siyasəti, dönməz hədəfi məhz belə idi və heç bir prinsipial fərq də yox idi. Bu isə millətimiz üçün heç də ürəkaçan mənzərə sayıla bilməzdi. Müşahidələr onu göstərirdi ki, millətimizin aşağı təbəqələrinin hədsiz yoxsulluğu deyil, onun yalnız milli şüurunun yoxsulluğu, yetərsizliyi hesabına heç bir sosial təbəqə bu asılılıqdan xilas edilə bilməyəcək, zorakılıq göstərilərək, imperiya tələblərinə uyğun hərəkət etməyə məcbur ediləcəkdi. Beləliklə, hakim xalqın milli ideologiyasına zidd olaraq müstəmləkə altında zülm çəkən xalqda millətçilik ruhu yaranır, o öz növbəsində milli ideologiya şəklində sistemləşir və milli azadlıq hərəkatının aparıcı qüvvəsi olur"(6,162).

Lakin XX əsrin gəlişi ilə zaman da öz tələbini cəmiyyətə diqtə etməkdə idi. O, bütün keçmiş əsrlərdən fərqli olaraq, millətlərin oyanmasını və oyadılmasını vahid bir halda cəmiyyətin həyatında tələb kimi irəli sürdü, milllətin bu tələbdən kənar qala bilməsinə zəmin yarada biləcək hər şeyi isə bir dəfəlik süpürüb apardı. Odur ki, millət də öz-özlüyündə milli kimliyinə sahib çıxıb onu qorumaq və milli varlığını təsdiqləmək üçün zamanın diqtəsinə, tələbinə tabe olmalı idi. XX əsrin gəlişi xalqın. millətin fitri istedadının, qalibiyyətli gücünün ortaya qoyulmasına zəmin hazırladı. O, bütün müstəmləkə əsarətinin əzablarını yaşayan

digər xalqlar kimi, xalqımızın da həyatına yenilikçi havasını gətirib doldurdu və arzuladığını, istədiyini ona gətirdi. Xalqın bunu anlaması üçün onun özünün oyanışı və ətrafındakı qaranlıqlar aləmindən qopub işıqlı, nurlu aləmlərə gedə biləcəyi yolu dərk edə bilməsi lazım idi. Bunun da yolu ayılmaqdan, oyanmaqdan, dərk etməkdən keçirdi. "Azərbaycanın ictimai-siyasi və mədəni hadisələrlə çox zəngin olan bu dövrü–XX əsrin əvvəlləri artıq sinfi mübarizənin kəskinləşməsi, milli azadlıq hərəkatının coşması və tədricən yeni mərhələyə qədəm qoyması ilə müşayiət olunurdu. Azərbaycan milli burjuaziyası ilə millətçi ziyalıların həmrəyliyi bu dövrün səciyyəvi xüsusiyyətlərindəndir"(11,50).

Dünyanın gerçək üzünü ortaya qoyan XX əsrin gəlişi ilə ədalətli tarix irəliyə doğru axan zamanın gedişini tənzimləməklə, ilkin mərhələdə əsrin sürətindən geri qalan xalqlara cingiltili qulaqbatıran zənglərini səsləndirdi. Onları uca, ülvi ideallar ətrafında birləşmək yoluna səsləyib çıxardı. Bu mərhələdə xalqımız da belə yenilikçi ideyalarla tanış edildikcə, möhtəşəm idealları özünə əldə bayraq etməklə inkişafın məhz oyanışdan, birləşməkdən keçdiyini anlamaq halına gəldi, onun dərkinə çətin olsa da belə nail ola bildi. O, özünü anlayıb, vəzifələrini və borclarını dərk etdikcə əsarətdən qurtuluşa doğru yenilməz qüdrətini və gücünü ortaya qoymağı bacardı. Bu zaman sadəcə lazım olacaqdı ki, xalqımızın, türk millətimizin düşüncə tərzini əsas olaraq "dildə, fikirdə, əməldə birlik" düsturunun üzərində kökləmək, türkləşmək, islamlaşmaq və müasirləşməklə çağdaş mübarizələr meydanında təklənməkdən xilas olmaq, qurtulmaq yolu tapıla bilsin.

Azərbaycan demokratik fikri sinfi ideologiyaları bir kənarda saxlamaqla, milli və dini təəssübkeşliyə sadiq qalmaqla milli mənafeyə xəyanətdən uzaq dayandı. Gizli və ya aşkar şəkildə millətin siyasi dünyagörüşünü yad təsirlərdən qorumağa çalışırdı. Çünki əsas məqsəd müsəlman- türk xalqının mənəviyyatını pozucu, yad, beynəlmiləlçi təsirlərdən qoruyub saxlamağa çalışmaq və onun milli şüurunun oyanması yolunda maariflənməsinin, intibahının qayğısına qalmaq idi. Bütün bu həmrəylik əlaqələrinin hamısı son nəticədə millətin maddi və mənəvi durumunda öz ifadəsini büruzə verəcəkdi. Yəni, ziyalıların həmrəyliyi özünü millətin milli oyanışında, milli mənlik şüuruna sahib çıxmaqda, ayılıb haqqı uğrunda çarpışmalarda gücünü tapmaqda göstərəcək, milli burjuaziya isə maddi, maliyyə imkanları ilə millətin oyanışı, birliyi və inkişafına xidmət göstərməli olacaqdı. "Təbii ki, milli düşüncə və ya millətçilik ehtiyacını doğuran səbəblər içərisində istismar, işğal və müstəmləkə zülmündən xilas olma istəkləri dururdu"(11,60). Bu fəaliyyət proqramını hazırlayan, onun milli düşüncəsini uca tutan və onu milli ideologiya səviyyəsinə yüksəldə biləcək mübariz ruhlu demokratik fikir xadimləri idilər. Onlar xalqın milli ruhunun yaranması yolunda səy göstərdilər, onda bu milli ruhun milli ideologiya şəklində sistemləşdirib xalqı milli- azadlıq uğrunda mübarizədə arxasınca apara bildi. "XX əsrdə iqtisadi qüdrətə, siyasi fəallığa, mədəni intibaha nail olmuş Azərbaycan cəmiyyətində görkəmli şəxsiyyətlərin yetişməsi üçün münbit mühit yaranmışdı. Bu şəxsiyyətlərin–milli ruhlu zənginlərin və demokratik ziyalıların həmrəyliyi nəticəsində xalq öz etibarlı və təminatlı gələcəyi üçün istiqlalın zərurətini dərk etməyə başlamışdı(11,51- 52).

XX əsrin əvvəllərində demokratik fikrin cəmiyyət həyatındakı sosial-siyasi baxışlarının təhlilinin əsl mənası isə ondadır ki, onlar millət qarşısındakı **vətəndaşlıq missiyasını** dahiyanəliklə bilmiş, onu əməli fəaliyyətlərinə çevirmişdilər. Millətimizin həyatının hərtərəfli analitik təhlili onu göstərir ki, onlar çətin, mürəkkəb sosial- siyasi hadisələrlə zəngin bir zamanda imperiya əsarətində olan bir məmləkətdə, heç nədən çəkinmədən həllinin vacibliyi gözlənilən hər bir məsələyə düzgün, hər bir vətəndaşın taleyinə həssas yanaşmış, millətinə sevgisini izhar etməkdən sonsuz qürur duymaqla onun milli düşüncəsinə təsir göstərmək istənişdir. O, gələcək şanlı, işıqlı həyat üçün milli düşüncəni elə istiqamətləndirmək istəyirdi ki, bütün eybəcərlikləri bir tərəfə atmaqla, heç nədən çəkinmədən, millətin vətəndaşlıq şərəf və ləyaqətinə güzgü tutmaqla onun milli şüurunun inkişafına yardımçı olsun, digər tərəfdən isə millətə nə etmək və nədən başlamaq lazım oduğunu anlatsın, onun milli mənafeyini uca tutmaqla əsil həqiqi- işıqlı gələcəyin yolunu tapmağa çalışsın. XIX əsrin sonu, XX əsrin əvvəllərində təkcə azərbaycanlıların deyil, ümumiyyətlə türk xalqlarının ictimai-siyasi fikir tarixi üçün əlamətdar hesab edilən yeniləşmə prosesinin müsbət nəticələri çox keçmədən özünü göstərdi. Xüsusilə də, Ə.Hüseynzadə ittihada doğru tərəqqi məramı ilə mədəniyyət tariximizdə yeni bir səhifə açdı. Ofeliya Bayramlının təbirincə desək, deməli, "Ə.Hüseynzadə 1904-cü ildə "Məktubi-Məxsusi" məqaləsində "nə surətlə çalışmaq" dedikdə "maarif", "nəyə çalışmaq" dedikdə "ittihad", "nəyi öyrənmək" dedikdə "hürriyyət" məqamlarına işarə etmişdir" (9, s.IX).

İmperiya dövlətinin siyasətinə və ideologiyasına boyun əyməyən demokratik fikir millətinin əsarətdəki həyatında bir qığılcım oldu, coşqun bir parıltı ilə onun gələcək azadlıq yolunu işıqlandırmağı bacardı. Millətini sevən, vətəndaş olan bu görkəmli xadimlər xalqın, millətin beyninin, qəlbinin çürük fikir və xəyallarla doldurulub daşmasına seyrçi mövqelərdən baxmadı. Onlar tarixin, zamanın onların qarşısına qoyduğu vəzifələri aydın dərk etdiklərinə görədir ki, belə əlverişli tarixi şəraitdən istifadə edərək, millətin qəsdən ətalət, cəhalət, mövhumat girdabında saxlanılmasına qarşı özlərində möhkəm gücə sahiblənə bildiklərinə əmin oldular. Millət övladları olan bu görkəmli demokratik xadimlər onun mənəvi- əxlaqi aləminin, milli düşüncə tərzinin necə zəhərləndiyini görmüş, ona daha böyük sevgi ilə yanaşmışdılar. "Əsrlər boyu yürüdülən

farslaşdırma və ruslaşdırma siyasətinin mənfi təzahürlərinə baxmayaraq, artıq XX əsrin əvvəllərində milli özünüdərk, özünəqayıdış prosesi sürətlənmiş, milli mədəniyyətin qorunması və inkişafı yolunda mübarizədə xalqın müqavimət gücü artmış və nəticədə Azərbaycan xalqı bəşər mədəniyyəti tarixindəki mövqeyini mühafizə etməyə müvəffəq olmuşdur"(11,51-52).

XX əsrin əvvəlləri Azərbaycan demokratik fikrinin görkəmli xadimlərinin görüşlərinin "öyrənilmsi yalnız öz- özlüyündə deyil, eyni zamanda, ümumiyyətlə həmin dövrün ədəbi- mədəni, ictimai- siyasi xarakterini açmaq, onun tam obyektiv elmi panoramını yaratmaq üçün də çox əhəmiyyətli və aktual bir problemdir (4,23). Lakin onların çoxcəhətli, rəngarəng sosial- siyasi, ədəbi- bədii və ictimai fəaliyyətlərinə münasibətdə tədqiqatçıların araşdırmaları hər zaman heç də tamamilə obyektiv olmamış, subyektiv, yanlış təqdimatlardan, şişirdilmiş və ya qərəzli, birtərəf mülahizələrdən uzaq qalmamışdır. Yəni tamamilə "obyektiv yanaşma metodu"na sadiq olan tədqiqatçının da iradları, mülahizələri başqalarının tərəfindən qəbul edilməyə bilir və bunların hamısını tamamilə təbii hesab edənlər də az deyildirlər. Lakin mütləq mənada burada məlum bir həqiqət gizlənməkdədir. İstərsə XX əsrin əvvəllərində demokratik fikrin nümayəndələrinin müasirlərinin dövründə, istərsə də ondan sonrakı keçən yüzillik bir dövrdə XX əsr Azərbaycan fəlsəfi və ictimai fikir tarixinə müraciət edən tədqiqatçı istənilən hallarda bu məsələlərdə şişirtmələrdən, mübaliğələrdən, yanlış iradlardan, tövsiyələrdən, mülahizələrdən uzaq dayanmaqla hadisələrə tarixilik, məntiqilik və obyektivlik baxımından yanaşmalıdır. Çünki tədqiqat zamanı elə mühüm, lakin incə psixoloji məqamlar ortaya çıxır ki, onsuz da onları yalnız güclü ağılla yanaşı, mütləq tarixiliyə, məntiqiliyə, obyektivliyə söykənmədən doğru qərar vermək mümkün sayıla bilməz.

Azərbaycan ictimai və fəlsəfi fikir tarixində ən ziddiyyətli, mürəkkəb problemlərin üst-üstə qalandığı bir dövr sayılan XX əsrin əvvəlləri son illərə qədər yetərli olmayacaq qədər obyektiv tədqiqatdan uzaqda qalmaqda idi. Bu sahədə qərəzli, ixtilaflı, birtərəfli qeyri-obyektiv o qədər iradlar, iddalar ortaya qoyulmuşdur. Burada elmi obyektivliyə cəhd edilmişdirsə də, əksər hallarda buna nail olmağa göstərilən maneələr aşılıb-keçilməz olmuşdur. Çünki araşdırmaların "təqdim və təbliğinin siyasi-ideoloji əsasında imperiyanın öz sələfindən alaraq davam etdirdiyi "parçala vəhökm sür" siyasəti dayanırdı"(13,25). Belə tədqiqatlarda əsas platforma və yanaşma prinsipləri əsasən çox vaxt ideoloji stereotiplərin uyğunluğuna tuş gəlməli olmuş, beynəlmiləlçi sosialist prinsiplər əldə rəhbər tutulmuşdur. Bununla da sovet dövrü tədqiqatlarının hamısında XX əsrin əvvəllərindəki dövrün bütün ictimai və fəlsəfi fikir tarixi ən yaxşı halda birtərəfli qaydada öyrənilməyə başlanılmışdır. Çünki xalqın bu vaxtadək çox böyük ehtiyac duyduğu bütün zəruri olan hər nə vardısa, onların hamısı açıq- aşkar şəkildə XX əsrin əvvələrində ortaya çıxmağa və görünməyə başlamışdı.Yalnız son illərdə, nəhayət ki, onlara dəqiq, dürüst obyektiv yanaşmaya nail oluna bilinmişdir.

Məhz xalqı bütün ehtiyaclarından xəbərdar edən XX əsrin demokratik fikrinin görkəmli nümayəndələrinin görüşlərinin tədqiqi zamanı tarixi şəraitə uyğun olaraq, vicdanlarına ağırlıq gətirməli olan, vicdanları ilə baş-başa qoyulan tədqiqatçılar bu xadimləri dövrün ideoloji silahı ilə "güllələmək" istəməsələr də, onları süni şəkildə müxtəlif dözülməz adlarla damğalamışdılar. Çünki bu xadimlər millətin ictimai şüurunu oyadan, ona müstəmləkəçiliyi çəkilməz acılarını dadızdıranlar olduqları üçün imperiya-istər rus, istərsə də Sovet-hər hansı yolla olursa- olsun, onların xalqa göstərdikləri xidmətlərin üzərindən qara xətt çəkmək üçün onları müxəlif adlarla xalq işi uğrunda mübarizə aparmayanlarin cərgəsində hesab etməli idi. "Halbuki Sovet dönəmində belə, bütün araşdırmaçılar- "dərin tədqiqatçılar" guya humanist- demokratik və ədalətli cəmiyyətin düşüncə tərzini ifadə edirdilər. Əslində sırf humanizmə və ədalətə sığmayan şovinist, qərəzli, əksər hallarda isə saxtalıqlarla dolub-daşan fikirlər irəli sürür, əqidə, ideya formalaşdırmaq istəyirdilər," bu məsələdə çox şişirtməyə, mübaliğəyə yol verilir"di (7,127). Bu cür "siyasi rejimə görə, bu "Çin səddi"nin olması vacib idi"(13,25).

Bu görkəmli xadimlər xalqı ətalədən, gerilikdən silkələyib oyatmaq, oradan xilas etmək yolunda bütün qüvvələrini səfərbər etdiklərinə görə, xalqımızı dünya xalqları sırasında görməyi arzuladıqlarına görə imperiya hököməti tərəfindən sevilə bilməzdi. Xalqa, millətə, vətənə xidməti ən yüksək ideal seçən bu xadimlər ali ideallara müxtəlif yol və vasitələrlə çatmağa çalışdıqlarından, aralarında fikir ayrılıqları da olmamış deyildi. Lakin ümummilli mənafelərdə eyni mövqeni müdafiə edən bu görkəmli xadimlər müxtəlif mövqelərdən araşdırılırdı, onlar müxtəlif cəbhələrə bölünür, bir cəbhədən o biri cəbhəyə qarşı yolverilməz ittihamlar irəli sürülürdü, birtərəfli yanaşma hesabına onlar xalqın gözünə düşmən obrazında təqdim olunurdular. "Azərbaycan siyasi müstəqilliyini bərpa edənə qədər ədəbiyyatşünaslıq və nəzəri-estetik fikir XX əsrin əvvəllərindən başlayaraq 19-20-ci illərə cən mövcud olmuş zəngin ədəbiyyatımızı, mədəni prosesləri çox vaxt birtərəfli öyrənmiş, yalnız ideoloji prinsipləri, partiyalı münasibəti əldə rəhbər tutaraq "Füyuzat" jurnalının və onun ətrafında birləşən mütərəqqi ziyalıların fəaliyyətini obyektiv qiymətləndirə bilməmişdir. XX əsrin əvvəllərində və Azərbaycan Xalq Cümhuriyyəti vaxtında cərəyan edən ədəbi-mədəni hərəkat məzmun və tərkibcə çox mürəkkəb olduğundan bu dövrün Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu, Y.V.Çəmənzəminli, M.Ə.Rəsulzadə. M.B.Məhəmmədzadə, Əhməd Cəfəroğlu, Əli abbas Müznib, Səməd Mənsur və bu kimi görkəmli şəxsiyyətlərin yaradıcılığı ya siyasi direktivlər və sosializm realizmi

“metodu” nöqteyi-nəzərindən tənqid və inkar edilmiş və ya lazımi elmi obyektivliklə araşdırılmamışdır” (4 ,14).

Onlar iynə ucu qədər əldə etdiklərini əllərində bayraq edərək, hər cür qarayaxmalar yarışına çıxırdılar. Odur ki, bütün “tədqiqatlar” başdan-başa istənilən formada qərəzli, dolaşıq, saxta, uydurulmuş məlumatlar mənbəyinə çevrilmiş oldu. Adətən bunlar o zamanın, dövrün ideologiyasına xidmətin parlaq göstəricisi idi. Əslində isə kimliyindən, daşıdığı əqidəsindən asılı olmayaraq, orta əsrlərin şah-sultan saraylarından çağdaş günümüzə qədər olan dövrün tədqiqatçı yalnız ədalətli tarixi həqiqətlərdən başqa heç nəyə söykənə bilməz və söykənməməlidir. Ona görə də istənilən tədqiqatçı bugünümüzdə obyektiv bir fikrə istinad etmək istədikdə onların əsərlərinə arxa çevirməkdə çox haqlı sayılır. Çünki qocaman tarixin sübutudur ki, həqiqətə söykənməyən bütün iddialar sonralardan bütün qaranlıq künclərin bəzəyinə çevrilirlər.

Yalnız son illərdə, nəhayət ki, onlara dəqiq, dürüst obyektiv yanaşmaya nail oluna bilinmişdir. Çünki öz istiqlalına qovuşmuş millətimiz özünün azad, müstəqil inkişafını təmin edə biləcək və onun işıqlı sabahlarından xəbər verəcək möhtəşəm ideyalarını irəli sürmüşdür Eləcə də o ideyaların gerçəkləşməsi üçün yorulmadan, böyük əzmlə səy və bacarığını ortaya qoyaraq, dünyaya sübut etmək qüdrətinə başqalarını da şahid etməyi bacarmışdır. “XX əsrin əvvəllərinin çox mürəkkəb ədəbi-mədəni proseslərinin hər hansı istiqamətinə birtərəfli, birmənalı yanaşmaq, onu mürəkkəb ziddiyyətlər kontekstindən qoparıb dərk etməyə, qiymətləndirməyə çalışmağın uğursuzluqları son illər elmi fikirdə dəfələrlə təsdiqləndiyindən, paralel şəkildə başqa humanitar elm sahələrində olduğu kimi, ədəbiyyatşünaslıqda da həmin dövrün ədəbi-mədəni həyatının obyektiv elmi mənzərəsini yaratmaq yönündə bir sıra uğurlu addımlar atılmışdır. Bu elmi araşdırmaların müəllifləri arasında əvvəlki onilliklərdə ideoloji diktata tabe olmaq məcburiyyətində qaldıqlarından XX əsrin əvvəllərindəki ədəbi-bədii fikri obyektivliklə işıqlandıra bilməyərək, ona yenidən qayıdan nüfuzlu tədqiqatçılar ilə yanaşı, çox təbii ki, ədəbiyyatşünaslığa son vaxtlar gəlmiş, vulqar sosiologizmdən azad yeni nəslin nümayəndələri də vardır”(4 ,11).

Lakin belə çətin, mürəkkəb ziddiyyətlərlə qaynayıb coşan XX əsrin əvvəllərində olan dövrün son iyirmi-iyirmi beş illik obyektiv tədqiqi demokratik fikir xadimlərinə qarşı olan bütün qərəzli, birtərəfli, qeyri-elmi, qeyri-obyektiv iddiaları birdəfəlik bir kənara atdı, bu vaxta qədər olan iki cəbhəlilikdən tək cəbhəyə keçidə şərait yaratdı. Bütün mürəkkəb görünən qondarma ziddiyyətlərə yer saxlanılmadı, əsl uğurlu obyektiv elmi mənzərə yarandı. Artıq elmi araşdırmalar ideologiyanın diktaturasından xilas ola bildi, dövlətin və siyasətin məcburiyyətindən uzaq dayana bildi, elmi obyektivlik işığında fəxrlə anılacaq nəslin nümayəndələrinə yenidən dönə- dönə qiymət verildi. Onlar düşmənçiliklə üzərlərinə atılan bütün qərəzli, qondarma ittihamçı adlardan xilas ola bildilər. Çünki gerçək həyat həqiqətləri, dövrün, zamanın real obyektiv tərəfləri bunları zərurətə çevirmişdi. Onların “tədqiq edilib öyrənilməsi bu gün də öz aktuallığını saxlamaqdadır. Hər şeydən əvvəl ona görə ki, Azərbaycan xalqının müasir dünya mədəniyyətinə inteqrasiya olunmasında…tarixən böyük rol oynamışdır. Digər tərəfdən tariximizin bu öyrənilməmiş səhifələrinə yenidən müraciıt etməklə biz Azərbaycanşünaslığın daha dolğun elmi- nəzəri müddəalarla zənginləşməsinə imkan yaradırıq” (4,14-15).

## ƏDƏBİYYAT


1. Azərbaycan tarixi. Yeddi clddə. V cild (1900-1920-ci illər). Bakı, Elm, 2008, 696 səh.
2. Ağaoğlu Əhməd bəy. Seçilmiş əsərləri. Ön sözün, izah və şərhlərin müəllifi Vilayət Quliyev. Bakı, Şərq- Qərb, 2007, 392 səh.
3. Balayev Aydın. Məmməd Əmin Rəsulzadə (1884-1955). Bakı., Adiloğlu, 2011, 288 səh.
4. Abdullayeva Təranə. Azərbaycan ədəbi fikrində qərbçilik meylləri. (XX əsrin əvvəlləri). Bakı, Avropa, 2014, 152 səh.
5. Çəmənzəminli Y.V. Xarici siyasətimiz. Bakı, Azərnəşr, 1993, 52 s.
6. Əzizoğlu H. Türklüyümüz. Bakı, AzAtaM, 2007, 224 s.
7. Ələkbərov Faiq**.** Milli ideologiya probleminə tarixi-fəlsəfi baxış (II hissə). Bakı, Elm və Təhsil, 2014, 500 səh**.**
8. Faiq Ələkbərov. Məhəmməd Əmin Rəsulzadənin dünyagörüşü. Bakı, Elm, 2007, 270 səh.
9. Füyuzat (1906- 1907). Transliterasiya edəni, çapa hazırlayanı və ön sözün müəllifi O.Bayramlı. Bakı, Çaşıoğlu, 2006, 672 s.
10. Hüseynzadə Əli bəy. Seçilmiş əsərləri. Transliterasiya və tərtib edəni Ofelya Bayramlı. Bakı, ”Şərq-Qərb”, 2007. 480 səh.
11. Mübariz Süleymanlı. Azərbaycan kulturoloji fikir tarixindən (XX əsrin əvvəlləri). Bakı, Nafta- Press, 2011, 208 səh.
12. Quliyev V. Azərbaycan filoloji fikri və rus ədəbi-ictimai mühiti (XIX əsrin birinci yarısı) Bakı, Ozan, 2000.,

13. Təyyar Salamoglu. Azərbaycan ədəbiyyatının müasir problemləri (Elmi-nəzəri və ədəbi-tənqidi məqalələr).“E.L.” NPŞ MMC, Bakı, 2014, 512 səh.

**ABSTARCT**

**Bagir Babayev**

**XX century democratic idea of Azerbaijan in scientific researches**

The begining of XX century is considered the period of the most controversial, complex issues in the history of social and philosophical thought. The social and political, forever-fiction and public activities of prominent figures of this period of Azerbaijan democratic ideas was colorful. But vesearches in relatıon to them didn’t stay completely so far from subjective, wrong presentation, exaggerated or independent judgements. Most of the time tendentions, arguable, one-sided, biased remarns, claims have been revealed. In Such researches the principles of approach basically most of the time came across to the adequacy of the ideological stereotypes, internationalist socialist principles was guided. So in all researches of the Soviet period, the history of all social and philosophical ideas of the beginning of XX century began to study in the best case unilaterally. Scientific objectivity has been tried, but in most cases showed obstacles was impossible. But in absolute terms here be unknown truth is hiding. The understanding of appeared subtle psychological nuances is not possible with only a strong sense. Without relying to absolute historicity, logicality, objectivity, can not be right decision. Only in recent years, finally exact, correct, objective approach has been achieved.

First and foremost they are first Eastern, Turkish-Muslims, Azerbaijanis as they accept it themselves. Therefore they were partners to their people, nation, weights difficulties, pain in the eastern way of life. Full sense they were searching nays off solving its problems that, could save it from disasters which it fell. On the other side they didn’t reconcile oneself with totally forgotten East which was the cradle of culture and spirituality maintaining status behind.

**РЕЗЮМЕ**

**Багир Бабаев**

**Азербайджанский демократический мысль XX века в научном исследованиях**

Начало XX века считается периодом самых противоречивых, сложных вопросов в истории социальной и философской мысли Азербайджана. Социально- политическая, художественная и общественная деятельность выдающихся деятелей демократических мысли Азербайджана этого периода было разнообразно. Но в исследованиях отношении к ним не полностью далекими объективным, настолько остались от субъективного, неправильного представления, преувеличенных или независимых суждений. В большинстве случаев были выявлены тенденции, спорные, односторонние, предвзятые ремарны, претензии. В таких исследованиях принципы подхода в основном в большинстве случаев сталкивались с идеологических стереотипов, руководствовались интернационалистические, социалистические принципы. Так что, во всех исследованиях советского периода история всех общественно- философских идей начала XX века стала изучаться в лучшем случае односторонне. Научная объективность была опробована, но в большинстве случаев выявленные препятствия были невозможны. Но в абсолютном выражении здесь скрывается неизвестная истина. Понимание возникших тонких психологических нюансов невозможно только с сильным чувством. Не полагаясь на абсолютную историчность, логичность, объективность, не может быть правильным решением. Только в последние годы, наконец, был достигнут точный, правильный, объективный подход.

Прежде всего, это первые восточные, турки- мусульмане, азербайджанцы, которые сами принимают его. Поэтому они были идеологами для своего народа, нации, тяжести трудностей, боли в восточном образе жизни. В полном смысле этого слова они искали пути решения своих проблем, которые могли бы спасти его от бедствий, которые он падал. С другой стороны, они не примирились с полностью забытым Востоком, который был колыбелью культуры и духовности, сохраняющей статус позади.

NDU-nun Elmi Şurasının 30 mart 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 07).

Məqaləni çapa təqdim etdi: Fəlsəfə üzrə elmlər doktoru, professor M.Rzayev

**MƏHƏMMƏD ƏKBƏROV**
*Xəzər Universiteti*
*mamedaskerov@mail.ru*

**UOT: 340.1**

# QƏDİM YUNANISTAN VƏ ROMADA QANUN YARADICILIĞI

**Açar sözlər:** Qədim Yunanıstanda qanun, Qədim Romada qanun, Bizan, Qədim Şərqdə qanunlar
**Key words**: Law in Ancient Greece, law in Ancient Rome, Byzantium, laws in Ancient East
**Ключевые слова**: Законы в Древней Греции, законы в Древнем Риме, Византия, законы в Древнем Востоке

Qədim Yunanıstanda qanun yaradıcılığı Homerin həyat qanunlarına əsaslanan "Themis" və "Themistes"-in (qədim yunanlarda qayda-qanun, ədalət allahı hesab edilirdi) adı ilə bağlıdır. Bu ad daha sonralar yunan panteonlarında (allahlara həsr edilmiş məbədlərdə) Ədalət Allahı hesab edilmişdir. Onun adı Homerin "İliada"sında Zevsin hüquq işlərinin qiymətləndiricisi kimi yer almışdır. Aydın göründüyü kimi, bu sahədə həqiqəti araşdırıcılar belə qənaətə gəlmişlər ki, bəşəriyyətin ibtidai şəraitində insanlar qanunların təcəssümü kimi həmişə davamlı olaraq və təkrarlana bilən insan agentləri faktorundan isifadə etmişlər. Yəni küləyin əsməsini elə həm də elə külək adlanan ilahi şəxsin adı ilə bağlamışlar. Bunu günəşin doğmasına..., torpağın məhsulunun bolluğuna...da aid etmək olardı.

Temis Zevsin ikinci arvadı hesab edilirdi. O öz təkliflərində aşağıdakı qanun konsepsiyasını irəli sürürdü:

1. Allaha sədaqətli olmaq və ona sitayiş etmək;
2. Valideynlərə sadiqlik nümayiş etdirmək və ədalətli olmaq;
3. Qonaqpərvərlik qaydalarına riayət etmək;
4. Yaxşı idarəçilik;
5. Yığıncaq qaydaları[1].

Qədim Yunanıstanda məclislər yunan cəmiyyəti üçün ümumi xüsusiyyətləri ilə seçilirdi, lakin təqdim olunan ödüllər (mükafatlar) də bir-birinə çox oxşayırdı; məhz bu baxımdan ibtidai adətlərin ilk rüşeymləri yaranırdı, "Themis" aposteriori formasında ilkin hakim mühakimələri kimi möhkəmlənirdi. Odur ki, apriori olaraq adət özündən əvvəl hakimin mühakiməsinin olmasını da ehtiva etmişdi, çünki bu mühakimə ya adəti təsdiq etməli, ya da onun pozulmasına görə cəza təyin etməli idi; yəni tarixi həqiqət ilk qanunların təşəkkülünü ehtiva edən şəraiti belə formalaşdırdı. Həmin dövrdə dövlətdə və onun keçirdiyi yarışlarda supertəbii rəhbərlik imici formalaşmışdı. Müxtəlif bayramların kişilər tərəfindən ümumi qaydalara müvafiq olaraq keçirilməsi, ümumi qurbanların verilməsi, bu ritualların daha da cilalanması, mövcud qaydalara ixtiyari və qeyri-ixtiyari olaraq hörmətsizlik göstərilməsinə görə cəza tədbirlərinin görülməsi imperativ addımlar hesab edilirdi. Henri Şumer Maynenin (1822-1888, İngiltərə) fikrincə, yunan klassik ədəbiyyatında daha tez-tez rast gəlinən "sacra jenitilicia", yəni xüsusi tayfaların ilk yunan qanunlarının və vəsiyyətlərinin yaranmasında önəm daşıması ümümilikdə cəmiyyət tərəfindən qəbul edilmişdi. Onun zənnincə, qanunların təsbit olduğu yerlərdə onlara itaətsizlik göstərilməsinin cəzalandırılması, təntənəli nigahların qeyd edilməsi, ölülərin dəfn mərasimi və digər bu kimi qaydaların formalaşması yurisprudensiyadan əvvəl mövcud olmuş *dini və adəti özəlliklərin* xüsusi şəxslər tərəfindən "çərçivəyə salınması"dır. Beləliklə, mühüm qanunların hamı üçün eyni olan halları onların müxtəlif şəraitlərdə tətbiqinin dissektivliyinə, yəni ayrı-ayrı özəlliklərə malik olmasına əvvəlcədən yol açırdı. Lakin Şumer Mayne sübut etmək istəyir ki, bəşəriyyətin uşaqlıq çağlarında heç bir qanunvericilik mövcud olmamış, qanun müəllifləri yaranmamış və heç bir qanunlar üzərində düşüncəli sürətdə baş sındırmamışlar. Biz hesab edirik ki, adətlərin qanun şəklini alması o qədər də asan olmamışdır (bəlkə də, bu daha çox vərdişlərə oxşayır), çünki yazılı təsbit olunmamış, hüquqi kökləri sadəcə "havadan asılı olan", əmr və komanda şəklində mövcud olan qanunların hansı halda doğru və yanlış olmasını sübut etmək çox çətindir. Henriy Şumer Mayne özünün Londonda nəşr olunan "Antik Qanun, onun cəmiyyətin erkən tarixi və müasir ideyalarla əlaqəsi"[1] adlı əsərində antik yunan və Roma qanunlarının tarixinin, yaranma və inkişaf tendensiyasının daha çox din və adətlərlə əlaqələndirməsi bir çox alimlərin, o cümlədən alman tarixçiləri və hüquqşünasları Fredrik Karl von Saviqninin (1779-1861) və Uilyam Halloveyin (1829-1893) etirazına səbəb olmuşdur[2]. Sonuncuların fikrincə, Şumer Mayne qədim Yunanıstan və Romada "qanunların yaranmasında xarici elementlərin müdaxiləsi'ni nəzərə almamışdır. Bundan əlavə, onlar qeyd etmişlər ki, "qanunların bir sinfin və ya hadisənin adı ilə adlandırılması hələ ona yaşam hüququnun (jus singulare) verilməsi demək deyildir." [2].

Zənnimizcə, qarşılıqlı qonşuluq, ticari və digər qəbilə tayfa əlaqələri bu qanunlara adəti və ya dini xarakter versə də, onları xarici əks təsirlərdən qoruya bilməzdi; odur ki, qədim Yunanıstan və Romada qanunların ilkin yaranışınız yalnız bir şəxslə əlaqələndirmək düzgün hesab edilmir. Çünki ölkədaxili qanunların formalaşması kənar və təsirsiz ictimai-siyasi fenomenlər kimi görünsə də, bütövlükdə həyatın qarşılıqlı əlaqə və vəhdətindən kənarda da qala bilməz. Qədim Yunanıstanda vəziyyət belə idi: monarxın müqəddəsliyi tədricən fiaskoya uğrayır və kral hakimiyyəti çürüməyə doğru gedirdi. Digər tərəfdən, təbii inqilablar bu hakimiyyətin uzurpasiyasını daha da yaxınlaşdırdı və onun yerini isə "şura rəhbərliyi" əvəz etməyə başlayırdı. Müqəddəslik "buzu" əridikcə, kralların kvazi-müqəddəsliyi də daha çox nəzərə çarpırdı. Aristokratiya hərbi və dini oliqarxiyadan ayrı salınmış olsa belə, tədricən təşəkkül dövrünü yaşayırdı. Qanunlar Şərqdə daha çox dini, Qərbdə isə daha çox vətəndaş və siyasi mahiyyət kəsb etməyə başlamış, adi hüququn (vətəndaş hüquqlarının) və yurisprudensiyanın prerekvizitləri hazırlanırdı. Göründüyü kimi, qədim Yunanistanda və Romada qanun yaradıcılığı bu dövlətlərin təşəkkül və inkişaf proseslərini də nəzərdən keçirməyi zəruri edir. Bu həmin dövlətlərin yaranışında olan ümümi bağlılıqlar, ərazi, dövlətin təşəkkülü, ümumi iqtisadi və siyasi faktorlarla bağlı idi.

Qədim Yunanıstanın ərazisində ilk dövlətin yaranması e.ə.II minilliyə təsadüf etmişdir. Bundan əvvəlki sinfi cəmiyyət və dövlət Krit adlanırdı və Yunanıstanın Cənubi Balkan hissəsində mövcud olmuşdu. Təqribən, e.ə. XII əsrdə ibtidai icma şəklində mövcud olmuş bir sıra etnik tayfalar buraya nüfuz etdiyindən, qədim Yunanıstanın inkişafı xeyli ləngimiş və tezliklə tayfa və qəbilələrin parçalanması klassik tipli quldarlığa yol açmalı olmuşdur.

Qədim Yunanıstanda hüquqi münasibətlərin inkişafına əsaslanan 3 dövr mövcud olmuşdur:

1. Homer dövrü (e.ə. XI -VI əsrlər) - qohumluq və tayfa münasibətlərinin inkişafi və sonradan tənəzzülü ilə səciyyələnən dövr;
2. Arxaik dövr (e.ə. VIII -VI əsrlər) - sinifli cəmiyyətin və dövlətin yaranması dövrü;
3. Klassik dövr (e.ə. V-IV əsrlər) – qədim yunan quldarlıq cəmiyyətinin çiçəkləndiyi dövr. Beləliklə, e.ə. IV əsrdə ellinizm dövlətinin yaranması qədim Yunanıstanda hüququn inkişafı

üçün mühüm dövr hesab edilir [3,s.45-46].

Amerikalı hüquqşünas alim Con Maksi Zeyn (26 Mart, 1863 - 6 Dekabr, 1937) yazır: "Qanunlar Yunanıstana çatanda biz yurisprudensiyanı artıq öyrənməyə başlamışdıq; müəyyən mənada, Yunan qanunlarının xarici təsirlərlə formalaşıb müasir görkəmə gəlməyinin başlanğıcı e.ə. 500-ci ilə təsadüf edir." [4]. Əsərdə Romalı vəkilin Yunanıstana yola düşən gənc Pliniyə verdiyi tövsiyələrdən də görünür ki, Yunanıstan qanun sahəsində öz ənənələrini qoruyub saxlamışdır: "Yadda saxla ki, siz həqiqi və doğru bir ölkəyə-Yunanıstana gedirsiniz; elə bir yerə ki, nəzakət və bilik yüksək durumdadır...Unutmayın ki, *onlar bizə qanunları bəxş etmişlər."* [4].

Homer dövrü (bu qədim yunan şairi haqqında məlumat azdır və ehtimala görə o, e.ə. XII-VII əsrlərdə yaşamışdır) müəllif tərəfindən yazılmış "İliada" və "Odisseya" əsərlərinin məşhurlaşdığı bir zamana təsadüf edir. Bir-birindən və qonşulardan təcrid olunmuş kiçik kənd icmaları tədricən şəhərtipli məhəllələrlə əvəz olunurdu. İcmaların əsas məşğuliyyətini əkinçilik, heyvandarlıq və az da olsa, sənətkarlıq və ticarət təşkil edirdi. Homer dövründə hələ dövlət mövcud deyildi və onu hərbi demokratiya əvəz edirdi. Tanınmış tayfalardan seçilmiş və daimi fəaliyyətdə olan Ağsaqqallar Şurasında isə demokratiyanın ilkin rüşeymləri hələ də qalmaqda idi. Qəbilə rəhbəri işləri idarə edirdi və elə özü də ali hakim və kahin hesab edilirdi. Demokratik atributlardan biri vəzifələrin seçkili olması idi, lakin bu, ölmüş qəbilə rəhbərlərinin övladlarına verilən üstün imkanları istisna etmirdi. Odur ki, mərkəzi urban şəhərindən danışmaq hələ tez idi çünki bu vaxt qədim Yunanıstan xeyli sayda kiçik vilayətlərdən ibarət idi.

E.ə. IX-VIII əsrlərdə şəhər polisləri yaranmağa başladı və qəbilə quruluşunu quldarlıq əvəzlədi. Demokratiyanın beşiyi kimi Afina və siyasi oliqarxiyanın nümunəsi kimi Sparta kimi iri şəhərlər inkişaf etməyə başladı. Quldarlıq Afinasında xüsusi qruplar - rəhbərlikdə evpatridlər, əkinçilikdə geomorlar, sənətkarlıq peşələrində demiurqlar fəaliyyət göstərirdi. Əhalinin xeyli hissəsini təşkil edən və digər icmalardan buraya qoşulanlar - meteklər də mövcud idilər. Hər bir stratanın özünün xüsusi səlahiyyətləri və hüquqları var idi və seçkili vəzifə ranqları ierarxik idarəetməyə söykənirdi. Arxont və fesmofetlər xüsusi məhkəmə səlahiyyətinə malik idilər və onlardan bəziləri səlahiyyət müddətləri bitdikdən sonra ali dövlət şurasına qoşulurdular. Tezliklə flotiliyada və yeddi ərazidə müdirliklər meydana gəldi; bu isə özlüyündə gəbilə - tayfa idarəçiliyindən daha da uzaqlaşmaq demək idi.

E.ə. 624-cü ildə *ən qədim yazılı qanunlardan hesab edilən Drakonto qanunları* meydana gəldi. Bu kənardan alınmış qanunların deyil, ölkə ərazisində istifadədə olan qanunların toplusu idi. Qanuna görə, hərbi qulluqçular və torpaq sahibləri borclardan azad edilirdilər və onların seçib - seçilmək hüquqları var idi. Afinada (Attikada) 30 yaşdan yuxarı şəxslərin səsverməsi ilə bir il müddətinə seçilən 401 deputatın bir araya gəldiyi ilk idarəedici Məclis yarandı. Qanunlar sadəcə olaraq ***"Ex parte*** "-lərdən (latınca, məclis) gəlirdi və heç də tərəflərin mövcud olmasını vacib hesab etmirdi; onlar deklarativ xarakter daşısa da, həyati qanun kimi

yerinə yetirilməli idi. Bu vaxt, ilk dəfə olaraq qanunların tətbiqinə nəzarət edən Ali Məhkəmənin bünövrəsi qoyuldu. Oğurluq, qəsdən yanğın, qətl və daha bir neçə digər cinayətləri törətmək üçün olüm cəzası nəzərdə tutulurdu. Drakontonun qanunları öz sərtliyinə görə seçilirdi, odur ki, Attikada bunların həyata keçirilməsində xeyli əngəllər də yaranırdı.

E.ə. 594-cü ildə siyasi arenaya arxontlar tərəfindən seçilmiş Afinalı şair və onun arxontu, siyası xadim və mütəfəkkir Solon (e.ə. 638 – e.ə. 558-ci illərdə? ) adlı şəxs daxil oldu. O, bir sıra dövlət reformalarını həyata keçirməyə başladı və bunula da qədim yunan dövlətçiliyi tarixində dövlətin demokratik üsulla idarə edilməsinin ilk nümunəsini yaratmış oldu. Buraya əhalinin müxtəlif qurumlara olan borclarının silinməsi, iri oliqarxiyaların nəzarətdə saxlanılması, məhkəmə dinləmələrinin tətbiqi və orada sadə xalqın nümayəndəsinin iştirakının təmin edilməsi kimi islahatlar daxil idi. Solon öz dövründə Afina cəmiyyətinin müxtəlif tayfalara bölgüsünü ləğv etməmişdi, lakin gelieylərin- yəni məhkəmələrin və eləcə də, vacib dövlət işlərini müzakirə edərək mühüm qanunlar qəbul edən Xalq Yığıncaqlarının əhəmiyyəti hələ də saxlanılırdı. Solona qarşı bəzi çıxışlar olsa belə, o yunan tarixində ilk qanun islahatçısı kimi qaldı.

"Pisistratın (Hippokratın oğlu, Afinalı müstəbid, e.ə.602 - e.ə.527-ci illərdə yaşamışdır) tiran hakimiyyətindən sonra aristokratlar cəhd etdilər ki, Afinada özlərinə məxsus oliqarxiya (azlığın hakimiyyəti) quruluşunu yaratsınlar. İslahatçı aristokrat Klisfen (ingilis dilli ədəbiyyatda Klisten) həmin plana qarşı çıxdı və Afina xalqına arxalanaraq, e.ə. 508-ci ildə polisdə (şəhər dövlətdə) baş vəzifəni tutmaqla, dövlət quruluşunu islahata uğratdı. Klisfenin islahatları bu vaxt Afina demokratiyası üçün bünövrə yaratdı. Afinanın hər bir azad vətəndaşı, onun kəndli, sənətkar, tacir və aristokrat olmasından asılı olmayaraq, bərabər hüquqlar aldı.” [5]. E.ə. 509-cu ildə tiraniyaya son qoymaq məqsədilə Klisfen bir sıra qanun reformaları həyata keçirdi və onların içərisində sürgün etmək həbs cəzası-ostrakizm (qədim yunan “ὀστρακισμός, τὸὄστρακον” sözündən, yəni “kirəmit və ya saxsı parçası ilə səs verərək ölkədən çıxarmaq mənasını verir) də yer almışdı. O, müxtəlif müdirliklərə hamı üçün təhlükəli görünən şəxslərin adlarının müəyyənləşdirilməsi tapşırığını vermişdi və belə şəxsləri günahları sübut olunduğu təqdirdə şəhərdən çıxarmaqla 10 il müddətinə sürgün etdirirdi. Lakin mülkiyyətin müsadirə edilməsi istisna edilirdi. Klisfen mülkiyyətdən asılı olmayaraq hamının eyni siyasi hüquqa malik olmasını da istisna edirdi. E.ə.V-IV əsrlərdə bütövlükdə Afina demokratiyası özünün yaxşı düşünülmüş siyasi sitemi, vətəndaş cəmiyyəti və dövlət sistemi ilə fərqlənirdi. Afinada olan quldarlıq cəmiyyəti isə daha inkişaf etmiş bir formada – demokratik respublika formasında inkişafını davam etdirdi. “B.e.ə. 500-cü ilin ətrafından Makedoniya çarı II Filippin Yunanıstanı işğal etdiyi 338-ci ilə qədər olan dövr yunan tarixinə klassik Yunanıstan adı ilə daxil olmuşdur. Həmin əsr yarımdan çox olan illər parlaq hakimiyyət dövrü idi. Onun əsas hissəsi isə Afina demokratiyasının Periklin başçılığı altında çiçəklənməsi zamanı kimi tanınır. Yunanların sonrakı töhfələrinin çoxu bu dövr ərzində baş vermişdir. Bu era yunan dövlətləri ilə nəhəng Persiya imperiyasının ciddi qarşıdurması ilə başlamışdı.” [5].

E.ə. IX əsrdə axi və dori tayfalarının yaşadığı Lakoniyanın (və yaxud Lakedemoniya, spartalılar isə lakoniyalılar adlanırdı) işğalından sonra mütərəqqi bir dövlət, Sparta yaranmağa başladı. Ən mühüm ictimai vəziyyət onunla bağlı idi ki, geniş xalq kütləsinə sahib çıxacaq və onların hüquqlarını qoruya biləcək bir sinif hələ mövcud deyildi, odur ki, əhali arasında narazılıq yüksək idi. Spartanın Afina və digər yunan şəhərləri ilə çox ciddi sosial-siyasi və mədəni-iqtisadi fərqləri mövcud idi, lakin Sparta hərbiyə əsaslanan bir rejimlə idarə olunduğundan, bu cür fərqləri müharibələr vasitəsi ilə həll etməyə çalışırdılar. Məhz bu səbəbdən, nəinki ölkədaxili, hətta yaxın İtaliya ilə olan çəkişmələr də Yunanıstanda dövlət quruluşunun mütərəqqi inkişafına mane olurdu. Tarixi dönəmlərdən birində Afinanın İtaliyaya məxsus Kornif körfəzini ələ keçirmək planı (e.ə. 431-ci və e.ə. 404-cü ilə qədər davam edən müharibə) ölkə iqtisadiyyatını darmadağın etdi, əhalinin böyük bir hissəsini köləyə çevirdi və ağır şərtlər altında Afinanı Spartanın idarəçiliyinə verdi.

E.ə. 390 və e.ə. 330-cu illər arasında Afina məktəbində Platon və Aristotel kimi dahi filosoflar yetişdi. Həmin vaxt Sparta dövlətində Likurq qədim Sparta qanunvericiliyinin banisi kimi tanınırdı. Maraqlıdır ki, onun həyatı və fəaliyyəti hələ də tam öyrənilməmiş olaraq qalır. Qədim yunan tarixində Spartalı Likurq, Aritolidin oğlu Likurq və afinalı Likurq adı altında şəxsiyyətlər mövcud olmuşdur, lakin müəyyən mənbələrdə Spartalı Likurqun fəaliyyəti e.ə. 884-cü ilə aid edilir. Sparta dövrünün müharibə çəkişmələri Heredotun (e.ə. 484-425 -ci illər) “Tarix” kitabında belə təsvir edilir. “...Bütün ellinlər içərisində əvvəllər, demək olar ki, hətta ən sarsaq qanunlar lakeremonlularda olmuşdur; belə ki, onlar nə bir-biri ilə, nə də yad ölkələrlə əlaqə saxlayırdılar. Onlar özlərinin indiki gözəl dövlət quruculuğunu bax bu cür qazanmışlar: tanınmış spartalı Likurq rəmmala sorğu vermək üçün Delfə (qədim yunan şəhəri) gəlir. O, ibadətgaha daxil olan kimi Pifiya (qədim yunan kahini-M.Ə.) ona dərhal bunu bəyan edir:

Mənim zəngin tapınağıma gələn Likurq
Zevsin və Olimpdə oturan bütün tanrılar sevgilisi,
Sənə insanmı, yoxsa tanrısal varlıqmı deyim, bilməyirəm,
Ümidim qüvvətli Likurq, sən tanrılığını isbat edəcəksən.

Bəzilərinin dediyinə görə, Pifiya Likurqa bu bəyandan başqa, hətta Spartada mövcud olan bütün dövlət quruculuğunu da bəyan edibmiş. Amma, lakedemonluların özlərinin təsdiq etdiklərinə görə Likurq bu yeniliyi (dövlət quruluşuna dair) Spartaya Kritdən gətirmişdir. O, özünün qardaşı oğlu, Sparta hökmdarı Leobotun qəyyumu olmuşdur. Likurq hökmdarın qəyyumu olan kimi bütün qanunları dəyişir və ciddi şəkildə gözləyir ki, onları pozmasınlar. Sonra o, ordunun enomotilərə (klassik yunan ordusunda taktiki yarımbölmələr-M.Ə.) bölünməsi haqqında fərmanlar verir. Likurq bundan başqa eforlar vəzifəsi təsis edir və ağsaqqallar şurası (gerontlar) yaradır. Lakedemonlular özlərinin sarsaq qanunlarını yaxşı qanunlarla beləcə dəyişirlər, Likurqun vəfatından sonra ona mə-bəd tikirlər və indi də onu dərin hörmətlə yad edirlər.” [6.s.15-16].

Spartada siyasi hüquqlardan yalnız spartalılar istifadə edə bilirdilər. Likurq qanunlarına görə, spartalılar daş-qaşa qarşı çıxırdılar; onalar ticarətlə məşğul ola bilməzdilər ki, bu sərvətləri də əldə etsinlər. Periekilər şəxsən azad hesab edilirdilər, lakin onlar siyasi hüquqlardan yararlana bilməzdilər. Odur ki, hökumət onların üstündə daimi nəzarətə malik idi. İlotlar isə, məğlub tayfa nümayəndələri kimi qul hesab edilirdilər. Lakin onların özlərinə məxsus pay torpaqları və əkinçilik üçün avadanlıqları vardı və onlar müəyyən şərtlərlə dövlətin sərəncamına da buraxıla bilərdilər.

Xalq Yığıncağında müharibə və sülh, digər dövlətlərlə sazişlərin imzalanması kimi mühüm qərarlar qəbul edilirdi. Dövlətin başında iki çar dayanırdı. Baş kahin və cəmi beş nəfərdən ibarət kahinlər qrupu isə ildə bir dəfə seçki yolu ilə seçilirdilər. Onlar hökumətdə nizam-intizama nəzarət edir, bütün vəzifəli şəxslərin fəaliyyətini izləyirdilər. Onlar yalnız onları əvəzləyənlər qarşısında hesabat verirdilər. Onların hakimiyyətdə heç kimə hesabat verməməsi çoxlu neqativ hallara yol açırdı.

Gerusiya - ağsaqqallar şurası hesab edilirdi və buraya Spartanın ən tanınmış 28 nümayəndəsi daxil idi. Gerusiya üzvləri gerontlar adlanırdı və bu vəzifəyə onlar əbədi olaraq seçilirdilər və heç kimin qarşısında məsuliyyət daşımırdılar. Onlar məhdudiyyətsiz olaraq bütün maaliyyə, hərbi və məhkəmə işləri ilə məşğul olurdular. Lakin eforların hakimiyyəti gücləndikcə, gerontlar tədricən sıxışdırılırdı.

Nəhayət, qədim Yunanıstanda qanunların və hüququn inkişafı tarixində aşağıdakı mühüm xüsusiyyətləri qeyd etmək olar:

1. Qədim Yunanıstanda qanunlar və onlara dair reformalar çox təzadlı xarakter daşıyırdı;
2. Ölkənin daxilindəki ictimai təbəqələrin müxtəlifliyi, qanuni təsəvvürlərin ziddiyətlərlə inkişaf etməsinə şərait yaradırdı;
3. Mülkiyyət hüququ haqda yazılı qanunvericililiklər olsa da, hələ də vətəndaşların daha geniş hüquqları haqda danışmaq olmazdı;
4. Ailə və varislik hüququ mütləq xarakter daşıyırdı, lakin qadınlar ailədə asılı şəxs olaraq qalırdılar və bərabər hüquqdan söz gedə bilməzdi;
5. Cinayət hüququ xeyli təkmil hesab edilirdi və ölüm hökmü də daxil olmaqla bir sıra cəza tədbirləri mövcud idi, lakin bunlar cinayətin qarşısının alınmasına deyil, daha çox cinayətkara əzab verilməsi üzərində qurulmuşdu;
6. Məhkəmə sistemində appelyasiya hüququ saxlanılsa da, bütün vətəndaşlar bərabərhüquqlu hesab edilmirdilər.

Ənənəvi olaraq Qədim Romanın tarixi e.ə. VIII əsrdən, 754-753-cü illərdən başlayır. Roma əhalisi genslərə, tayfalar birliyi olan kurilərə və üç qəbiləyə-ramnolara, titsilərə və lütserlərə bölünürdü. Şəhərin başında dayanan rəhbər-reks və ya çar adlanırdı. İlk çar Romuldan başlamaqla yeddi çar mövcud olmuşdur. Tibr çayının sahilində əkinçiliklə məşğul olan insan birliklərinin yaranışı ilə tarixə daxil olan Roma əhalisi sonralar gil və palıd ağacından salınmış evlərini e.ə. VI əsrdə daş bünövrədən salınmış evlərlə əvəz etdilər.

Öz ictimai quruluşuna görə qədim Roma yekcins olmayan hərbi demokratiyadan ibarət idi. Sosial strukturunda daha çox məşhur adamlar, hərbçilər və məhkəmə sahəsində çalışan zümrə təmsil olunmuşdu. Romalı vətəndaşın ayrıca pay torpağı əldə etmək və mirasa sahib çıxmaq hüquqları var idi. Bundan başqa hər bir romalı öz icmasında yardım almaq, lazım gəldikdə müdafiə edilmək , ümumi və dini bayram və mərasimlərdə iştirak etmək hüquqları var idi. Onların hüquqları öz məsuliyyət və təəhhüdlərini yerinə yetirmək ilə harmoniya təşkil edirdi. Ağsaqqallar Şurası və ya senat tayfanı idarə edirdi. Çarın yanında da senatlar mövcud idi və onlar xalq yığıncaqlarında iştirak edirdilər. Klientlər və plebeylər isə qədim Romanın ərazisində vətəndaş olmayan şəxslər idilər. Onlar əsasən ticarət və müxtəlif sənətkarlıq peşələri ilə məşğul idilər və bu say get-gedə artmaqda idi. Özgələr isə digər bir qrupu təşkil edirdilər və onlar öz hüquqları uğrunda yerli əhali ilə daim mübarizə aparırdılar.

Qədim Roma tarixində ən qədim dövlət reforması altıncı çar Serviy Tullinin (e.ə.578-534-cü illər) adı ilə bağlıdır.Yerli və özgələrdən ibarət əhali varlı, kasıb, daha varlı və s təbəqədən ibarət 193 sentruiyə bolünmüşdü və onların hər biri müəyyən fərqli səslərə, borc və vergi ödənişinə və mülkiyyət imkanlarına malik idilər. Beləliklə sosial statusundan asılı olaraq, insanlara hüquqi yanaşma müxtəlif idi və insanlara bu

cür fərqli yanaşma siyasi hüquq baxımından heç bir müsbət nəticə verə bilməzdi; bu səbəbdən, vəziyyət tezliklə plebeyləri fərqli hüquqlar uğrunda mübarizəyə səslədi və onlar da mülkiyyət, ailə, siyasi hüquq əldə etmək və eləcə də, vəzifə tutmaq və s. sahələrdə xeyli güzəştlər əldə etdilər. Bu, ölkədə çarlıq hakimiyyətindən resbublika rejiminə keçidi daha da tezləşdirdi. E.ə. 287-ci ildə plebeylərin yığıncağında əhali təbəqələri arasında mövcud olan fərqlərin götürülməsinə dair ciddi qərar qəbul edildi, qəbilə-tayfa münasibətlərindən daha geniş və əhatəli olan hüquqi cəmiyyətə keçidin də əsası qoyulmuş oldu. Romanın cənubunda olan Yunan şəhərlərinin və Kiçik Asiyanın Roma ictimai-siyasi həyat tərzinə və onun formalaşmasına təsiri labüd idi. Bu təsir qarşılıqlı idi və Roma da öz növbəsində ellinist mədəniyyətinə öz təsirini göstərməkdə idi. Odur ki, yunan-roma mədəniyyətinin sintezi bu cür formalaşmaqda idi[7].

Roma tarixində ən yaxşı nümunə sadə və üstünlüyü olan adamların ilk yazılı qanunları olan "On iki Stol" Qanun Məcəlləsi oldu. On iki taxta lövhə üzərində cədvəl şəklində işlənən bu qanun məcəlləsi Romanın baş meydanında, ümumxalq meydanı hesab edilən Forumda sərgilənmişdi. Onun əsas cəhətlərindən biri, bu formal münasibətləri nizamlaması idi. E.ə. 455-ci ildə 10 nəfərdən ibarət olan bu komissiya hər iki tərəfi - həm sadə, həm də üstünlüyə malik olan vətəndaşları razı salacaq və iki təyin olunmuş hakim tərəfindən qərəzsiz həyata keçirilən bu məcəlləni işləyib hazırladı. Qanunlar ailə-nigah və mülkiyyət münasibətlərini, varislik hüququ normalarını, borc, dövlət və cinayət hüququna dair məcəllələri özündə əks etdirirdi. Sonralar, bu məcəllələr toplusu e.ə. IV-III əsrlərdə alqı-satqı, borc-kredit və digər hüquqi münasibətlərdə yaranan yeniliklərlə əlaqədar olaraq yeni hüquqi mənbələr əsasında pretor ediktlər (qədim Romada ali məhkəmə sitemində olan məmur və konsullar-M.Ə.) tərəfindən yenə dəyişdirildi. Bu, özəl hüquqların qorunması sahəsində yeni bir addım kimi qəbul edildi. Lakin bu sadə camaatı qane etmədiyindən, e.ə. 450-ci ildə daha 10 nəfərdən ibarət olan ikinci komissiya yaradıldı və bu məcəlləyə də əlavə iki bənd artırıldı. İlkin olaraq yazılı qanunların təsbit olunması baxımında bu məcəllə Romanın ictimai-mədəni və hüquqi-siyasi həyatında mühüm rol oynamışdır.

E.ə. 367-ci ildə torpaq və digər əmlak bölgülərində ədaləti və şəxsi mülkiyyəti qoruyub saxlamağa çalışan Litsini-Sekstinin qanunları məcəllələr şəklində təsbit olunmağa başladı. Borcu vaxtında ödəyə bilmədikdə qul halına düşmək kimi ağır şərtlər e.ə. 326-cı ildə Peteliya qanunları və reformaları vasitəsilə ləğv olundu. Bütövlükdə, "On iki Stol" Qanun Məcəlləsi patriarxal cəmiyyət və ailə tendensiyası üzərində qurulmuşdu, belə ki, "Roma hüququnda iki növ qohumluq nəzərdə tutulurdu: aqnat – bu və ya digər yüksələn xətt üzrə ümumi ataya bağlı qohumluq və koqnat – sırf hüquqi xarakteri ilə fərqlənən qohumluq. Koqnat – açıq qohumluq idi ki, bu da övladlığa götürmək və nigaha daxil olmaq (qadınlar üçün) yolu ilə genişləndirilə bilərdi. Hüquq və bunlara uyğun qanunlar sistemi tez-tez dəyişirdi və maraqlı cəhət ondan ibarət idi ki, bu vaxt roma hüququnda iki növ nigah – "kum-manu" və ya "ərin əli altında" və "sine-manu" və ya "ərin əli olmadan" mövcud idi."[8]. Bu ikinci qanuna görə, qadın ərindən boşandıqdan sonra xeyli azadlıqlarını saxlayır, mülkiyyət payına sahib olmaq imkanı əldə edirdi. Lakin bununla belə qadınlar yalnız "sine-manu" və ya "ərin əli olmadan" şərtləri ilə boşana bilərdilər; bu isə kişilərə aid deyildi, onlar hər iki halda sərbəst idilər.

E.ə. IV əsrdə Senat və onun tərkibində olan magistrlər qanunvericiliyə dair fikir söyləməkdə xüsusi səlahiyyətlərə malik idilər. E.ə. II-I minilliklərdə vətəndaş müharibələrinin başlanması ilə (Marian, Sulla Feliks və Yuli Sezarın dönəmində) imperatorların güclənməsi ilə Senatın rolu öz əhəmiyyətini itirdi. Lakin, hətta tam mükəmməl olmasa belə, icraedici orqanlardan xali olmayan Senatlıq dövrü demokratiya ilə aristokratiya arasında bir balans yaratmağa xidmət edirdi; o sanki bir çəkindirici mexanizm kimi çıxış edirdi. E.ə. II minillikdə Mərkəzi Amerikada olan Karfagen üzərində qələbədən sonra Roma bütün Aralıq dənizi boyu yerləşən ərazilərin şəriksiz hökmranına çevrildi. Qraççi qardaşları (Tiberiy və Qay Qraççilər) aqrar və bərabərhüquqluluq reformaları keçirdi. Lakin, xalq tribunalı rolunda çıxış edən Tiberiy e.ə. 133-cü ildə qətlə yetirildi və bu reformaların icrası da dayandırıldı. Ümumiyyətlə, Roma monarxiyasını iki dövrə bölmək olar: birinci dövr - Yuliy Sezarın hakimiyyəti müddətində yaradılan və sonradan hakimiyyətə gələn Oktavian Avqust (e.ə. 27- e.ə.12 -ci illərdə) tərəfindən inkişaf etdirilən quldarlıq monarxiyası (Romada imperatoru, "printseps" və ya birinci senat adlandırırdılar) ilə səciyyələnirdi; ikinci dövr isə – dominantlıq dövrü olmuşdur. Onlar arasındakı sərhəd bizim eramızın III əsrinə təsadüf edir.

324-cü ildə isə Konstantin Roma İmperiyasının şəriksiz hökmdarı oldu. Roma aristokratik respublika oldu, Konstantin isə bir müddət indiki Qərbi Almaniyanın hüdudlarında yerləşən Treverorumda, sonralar isə İtaliyada, bugünkü Milan şəhərinin yerində olan Mediolanumda məskən saldı. İmperator Konstantin Mərkəzi və Cənub Şərqi Avropadan axan Dunay və hazırkı Türkiyə, Suriya və İraqdan axan Fərat çayları boyunca yerləşən sərhədlərindən daim təhlükə gözləyirdi və məhz buna görə də o, Roma İmperiyası üçün dayanıqlı və daimi bir paytaxtın seçilməsini zəruri hesab edirdi. O, bu məqsədlə 11 may 330-cu ildə Bizansda Konstantinopolu bir paytaxt kimi müəyyənləşdirdi və Senat yaratdı.

Roma imperiyasının süquta uğramasının səbəbləri ilə bağlı saysız-hesabsız arqumentlər mövcuddur. Ümumiyyətlə, Bizans (Vizantiya) Roma İmperiyasının antik və son ellinizm tarixini əhatə edir. Paytaxtı Konstantinopol olan Bizans imperiyasını Roma imperatorlarının varisləri idarə edirdilər. Sonralar, 395-ci ildə I İmperator Fedosiya İmperiyanı Qərbi və Şərqi olaraq iki hissəyə bölmüşdü və 476-cı ildən Qərbi Roma İmperiyası süquta uğramışdı[9]. "Ümumiyyətlə, ilk yunan filosofları Kiçik Asiya yarımadasının polislərində (müstəqil şəhərlərində) yaşamışdırlar. Bu polislər isə Yaxın Şərq ölkələri ilə fəal iqtisadi, ticari, mədəni əlaqələr qurmuşlar və onların həyatının bütün sahələri ilə yaxından tanış olmuşlar. Fales, Pifaqor, Platon və başqa yunan filosofları Yaxın Şərqə səyahətlər edərək, buranın elmi ilə tanış olurdular. Bundan sonra onlar Yunan polislərində elmi və fəlsəfi məktəblər açmağa müvəffəq oldular. Daha sonra isə yunan elmi gələcəkdə inkişaf edən müsəlman və müasir Avropa elminin inkişafına təkan verdi."[13].

Bizanslılar özlərini romalılar kimi təqdim edirdilər və onlar ellinizm dövründə Şərqi Aralıq dənizi ərazisi üçün dominant dil hesab edilən yunan dilində danışırdılar. Öz məxsusi mədəniyyəti və sosial-iqtisadi həyat tərzi olan Bizans- antik irsin varisi idi və bu, Latın dilinin yayılmasına təkan vermişdir; sonralar isə I Yustinianın hakimiyyəti dövründə (e.ə. 1792 – 1750- ci illər) - VI əsrdə Bizans qərb hissəsini yenidən bərba etmişdir. Çox keşməkeşli tarixə malik olan I Yustinianın dövrü bir sıra əraziləri - Avar və Fars Sasani ərazilərini, müsəlman Ərəbistanını və digər yerləri də özünə ilhaq edərək güclü hakimiyyət bərqərar etmişdi. Beləliklə, Makedoniya dinastiyası dövründə (876-1056) Bizans daha da güclənmiş və o XI əsrdə Şərqi Avropa və Orta Şərq məkanında ən güclü dövlətə çevrilmişdir. Doğrudur, sonralar Səlcuq dövləti ilə olan konfliktlər onları xeyli zəifltəmişdir və bunun nəticəsində onlar Kiçik Asiyanı itirməli olmuşlar. Nəhayət, 1261-ci ildə, dördüncü Xaç Yürüşü zamanı, daha sonralar isə Otoman İmperiyası dövründə, daha dəqiq desək 1453-cü ildə, Konstantinopol tamamilə süqut etmişdir. Ümumilikdə, Konstantinopol Romanın siyasi ideyalarının və Yunan mədəniyyətinin təcəssümü kimi min illər boyu bəşər tarixində ən vacib sivilizasiyalardan biri kimi görkəmli iz qoymuşdur.

Roma İmperiyasının ("İmperium Romanorum") davamçısı olan imperiya kimi Bizans sözü tarixdə ilk dəfə Alman tarixçisi Heronima Volf tərəfindən onun latın dilində nəşr olunan "Corpus (Scriptorum) Historiae Byzantinae" - Tarix Yazıçılarının Külliyyatı) əsərində işlədilmişdir. Konstantinopol, sonralar Bosfor üzərində yerləşən bu Yunan əyalətinin, yəni Şərqi Bizans İmperiysının paytaxtı oldu. Əfsanələrə görə, bu əyalətlərin bünövrəsini Yunan kolonistləri sayılan "Visa"lar və ya "Vizas"lar qoymuşlar və həmin yeri isə yunanca "Byzantium" kimi adlandırmışlar. Əlverişli coğrafi məkanda yerləşdiyindən, bu imperiya tezliklə antik dövrdə mühüm rol oynayan bir əyalətə çevrilmişdi.

476-cı ildə Qərbi Roma İmperiyası iki yerə bölünmüş olan Roma İmperiyasının tərkibindən tamamilə yoxa çıxdı və yekun olaraq Şərqi Roma Yunan və Ellinizm mədəniyyətinin yeganə varisinə çevrildi. Beləliklə, 1453-cü illərə kimi Bizans İmperiyası həm də Roma İmperiyası kimi tanınmağa başladı və bu yerlər də "Borromeo İmperiyası" və ya "Romania" kimi adlandırıldı. Hətta bu günlərdə də Yunanıstanın bir hissəsini "yerli adam" mənasını verən "Romao" kimi çağırırlar. Tarixdə, sonrakı XI-XII əsrlərdə Türk istilahatları zamanı "Rum-Səlcuqlar" kimi yeni toponimlər də meydana gəlmişdir. Makedoniya dinastiyası dövründə Bizans mədəniyyəti çiçəklənmə dövrünü yaşamışdır və Konstantinopol Universiteti hüquq və fəlsəfənin, eləcə də poeziya və incəsənətin inkişafına xeyli kömək göstərmiş və qanunların yaranmasında mühüm rol oynamışdır. Qədim Romada qanunların yaranması və inkişafı tarixi bir sıra prinsiplərə və səciyyəvi xüsusiyyətlərə malik olmuşdur:

1. Bu qanunların formulası niyyətli yaranış, inkişaf və mühakimə sistemləri üzərində qurulmuşdur;
2. Şəxsi və ictimai hüquq qanunların yaranışında iki mühüm bölgü kimi çıxış etmişdir;
3. Qədim Romanın ilk yazılı qanunları xalq yığıncaqlarının qərarlarını, senatın qərarları, romalı hakimlərin vətəndaş hüququna dair məsləhətlərini və Roma icması hüququnu özündə birləşdirən "On iki Stol" Qanun Məcəlləsi olmuşdur bu qanun aristokratlarla plebeyler, yəni aşağı zümrə adamları arasında uzun sürən mübarizənin nəticəsində meydana gəlmişdir);
4. Roma qanunları tarixi inkişaf mərhələlərində ierarxik olaraq romalıların hüquq tarixinə çevrilmişdir;
5. İlkin mərhələdə Roma qanunlarında öz əksini tapan mülkiyyət hüququ müxtəlif hüquqi təəhhüdlərlə və müqavilə növləri ilə zəngin olmuşdur;
6. Roma qanunlarında məsuliyyətin təmin olunması və varislik hüququna dair məsələlər xüsusi yer tutur; qanunlarda bu cür təsbit olunma isə monarxiya rejiminin daim qorunub saxlanılmasına xidmət etmişdir;
7. Roma qanunları təşəkkül prosesində digər qonşu ölkə qanunlarından bəhrələnmiş və öz növbəsində onları zənginləşdirmişdir.

Beləliklə, Qədim Şərqdə qanunların və onlar haqda təsəvvürlərin formalaşmasını yekunlaşdırarkən aşağıdakı mühüm və ümumiləşdirici tezisləri nəzərə almalıyıq:

1. Qanunların yaranması – tarixən icmalarda mövcud olan dinlərlə, adət-ənənələrlə, yazının və dövlətin yaranması və eləcə də, sinifli cəmiyyətə keçid ilə əlaqədardır;
2. İctimai münasibətlər silsiləsində dinin aparıcı rolunun zəifləməsi qanunların təbiətinə və onların təşəkkülü prosesinə güclü təsir etmişdir;
3. Qanunlar özlərinin ilkin təşəkkülündə sinfi, dini, qəbilə və tayfa üstünlüklərini qurmağa xidmət etmişdir (məsələn, quldarlıq aristokratiya-sında olduğu kimi);
4. Ölkələrarası və ölkədaxili çəkişmələr və müharibələr qanunların yaranmasına və şəraitə uyğun olaraq müəyyən dəyişikliklərə uğramasına təsir edən faktorlar hesab edilir;
5. Qanunlar etik münasibətlər, elm və siyasətin tarixi, kontrakt (saziş) münasibətlərinin formalaşması ilə sıx əlaqədardır; Qanunların yaranışında "ilahilik" anlayışı, qanunlar üçün həm də prerekvizit rolunu oynamışdır;
6. Tarixi, sosial, etnososial, təbii-bioloji, mifoloji antropomorfik və behevi-orist fakorlar qanunların yaranmasında mühüm amillər hesab edilsə də, heç bir faktor ayrılıqda həlledici hesab edilmir.

Qədim Şərq tarixində qanunların yaranması və onların xarakterinin sübut olunması xeyli miqdarda yazılı qanunlarla əlaqədar olmuşdur və bu e.ə. IV minilliyin sonuna doğru Yaxın Şərqdə ilk qanun yaradıcılığına dair ilkin təsəvvürlərin araşdırılması ilə bəlli olmuşdur. Bir neçə yüz illər sonra isə, ilk yazılı qanunların özləri meydana gəlmişdir və şübhə yoxdur ki, bu qanunlara dair ilkin qeydlər qədim sivilizasiyalara, məsələn Hindistan və Çinə gedib çıxır. Bunların təsiri sivilizasiyaların dağılmasından sonra İvrit Bibliyasının Qərb qanunvericiliyi mənbələrindən faydalanmasına dair dərin qanunvericilik izlərində də özünü göstərir. Daha çox ehtimal olunur ki, bu əlaqələr birbaşa deyil, daha çox yəhudi, yunan və Roma qanunlarının klassik sistemi vasitəsilə mümkün olmuşdur. Bu sistemlər arasında olan varislik iki müasir qanunvericilik arasında olan əlaqələri əks etdirir; antik mədəniyyətlərin müasir qanunların xarakterini şərh etməkdə mühüm açar olması bu günlərdə daha çox inandırıcı görünür. Yəni, qədim Şərqin qanun bazasının yaranması yalnız bir sistemin deyil, digər dillərin və mədəniyyətlərin daşıyıcısı olan cəmiyyətlərin də qarşılıqlı təsirinin məhsuludur. Bu qanunlar bu yolla inkişaf və tənəzzül dövrünü yaşamış və min illər boyu bir-birini əvəz etməklə bu günümüzə gəlib çatmışdır. Qanunların yaranışına dair mənbələrin davamlılığı və bölgüsü bəzi hallarda tarixin keşməkeşlərində qırıldığı üçün, xronoloji ardıcıllıq müəyyən dövrlərdə tarixçilərin araşdırıb ortaya qoyduğu mədəniyyətə, siyasətə dair arxiv mənbələrinə istinad edir. Bu, həm də qanunların bir "tarixi hadisə" kimi meydana gəlməsinin dəqiq vaxtını deməyin çətin olması deməkdir. Odur ki, qanunların təşəkkülü tarixinə iki mənbədən yanaşmanın zəruri olduğunu göstərməyə çalışmışıq. Birinci mənbə- tarixi nöqteyi nəzərdən və ikinci mənbə isə - hüquq qaydaları və institutlarının yaranması faktları ilə sıx sürətdə bağlıdır. İkinci faktor normaların, yazılı və qeyri-yazılı qanunların formalaşması, məhkəmə sistemi və onun səlahiyyətləri ilə əlaqədar olduğu halda, tarixi faktor yurisprudensiya sahəsində aparılmış tədqiqatların doğruluğuna dair məlumatlar və onların avtoritar təsir imkanları dairəsi ilə bağlıdır.

**ƏDƏBİYYAT**


1. Henry Sumner Maine, Ancient Law, its connection with the early history of society and its relation to modern ideas, New York: Henry Holt and Co., pp. 6-8,1906. - P.389
2. "The System of Modern Roman Law", Translated from the Germany by Friedrich Carl von Savigny.By William Holloway,in2Volumes,vol.1,Madras,J.Higginbotham Publisher,1867.P.350
3. Черниловский З.:Всеобщая история государства и права, Под ред. К. И. Батыра.Раздел 1 стр.,45-46.- С. 357
4. John Maxy Zane,The Story of the Law (1927), Second edition, Introduction by James Beck, Indapolis: Liberty Fund, 1998, Chapter 6 , Law Among The Greeks, p.79. - P. 166
5. Telman Orucov Demokratiya və layiq olanların hakimiyyəti, 525-ci qəzet, 25 may, 2013 (18) /www.anl.az/down/meqale/525/2013/may/311816.htm
6. Herodot: Tarix (Doqquz kitabda), Birinci Hissə, Tərcümə edəni: filologiya elmləri doktoru, professor Pənah Xəlilov. Bakı , 1998, səh. 15-16. - S.119. Bax: http://www.kitabxana.net/files/books/file/1331842212.pdf
7. Древние цивилизации.Под общ.ред. Г.М.Бонгард-Левина. М.Мысль",1989,стр.386.-С. 479
8. Ənənə və Hüquqda Gender: Genderin Hüquqi Genezisi. http://education.gender-az.org/Files/4.8.4az.pdf
9. Hans Julius Wolff: Roman Law: The Historical and Constitutional Background of Roman Law, A Historical Introduction (1951);
10. Alan Watson, Roman Law and Comparative Law 1-26 (1991); Peter M. Tiersma: Rites of Passage: Legal Ritual in Roman Law and Anthropological Analogues, 9, Journal of Legal History 3 (1988);
11. Barry Nicholas: An Introduction to Roman Law 38-45 (1962) [on Justinian's codification];

12. M. Carr Ferguson: A Day in Court in Justinian's Rome: Some Problems of Evidence, Proof and Justice in Roman Law, 46 Iowa Law Review 732 (1961)
13. Aydın Əlizadə:Qədim Babil: tarix, mədəniyyət, elm və astrologiya (http://alizadeh.narod.ru/meqaleler/10.html)

## ABSTRACT

**Mahammad Akbarov**

**Law creation in ancient Greece and Rome**

In the article the formation history of laws in Ancient East specially in Ancient Greece and Ancient Rome was searched. Formation history and principles of laws in these countries were looked through as law creation bases of Ancient East.

In Ancient Greece law creation is connected with the nomes of "Themis" and "Themistes" (was considerent God of order, justice in ancient Greeks) that is based upon life laws of Homer. Later on this name was considered God of Justice in greek panteons. In this field researchers came to such a conclusion that, in primitive condition of mankind people always used continuously factor of human agents being repeated as an embodiment of laws. For this purpose in ancient Greece and Rome law creation formation and development processes of these states were looked through, significant peculiarities in the development history of laws and right were ststede. In Ancient East history formation of laws and prove of their character were connected with considerable written laws and this was solved with the search of primary notions concerning to the first law creation in Near East towards the end of IV millennium B.C.

But after some hundred years, the first written laws themselves appeared and an doubt that, initial notes concerning to these laws dates back to ancient civilizations, example to Idia and China. Formation of Ancient East law base is a product of not only a system, but also mutual influence of societies being carrier of other languages and cultures as well. These laws in this way lived their development and decay period and reached till nowadays substituting each other for thousand years.

## РЕЗЮМЕ

**Магомед Акперов**

**Законотворчество в Древней Греции и Древнем Риме**

В статье исследуется история зарождения и формирования законов на Древнем Востоке, в чатности, в Древней Греции и Древнем Риме. В ней рассматриваются предистория и принципы формирования законов в этих странах как составляющие законотворчества Древнего Востока. Отмечается, что начало законотворчества в Древней Греции заложено «Themis» и «Themistes» (в Древней Греции имя Бога справедливости), основанными, в свою очередь, на законах жизни Гомера. Исследователи этой области античного права пришли к заключению о том, что на раннем этапе человечества люди использовали постоянно продолжающиеся и повторяющиеся факторы человеческих агентов как проявление законов. В этих целях специалисты рассматривали законотворчество в Древней Греции и Древнем Риме, процессы формирования и развития этих государств, выявляли важные особенности в истории развития законов и права вообще. Исследование становления законов и их особенностей в истории Древнего Востока во многом связано с появлением письменных законов, что дало возможность сделать заключение о возникновении здесь первых законотворческих представлений приблизительно к концу IV тысячилетий до н.э. Спустя лишь несколько столетий появлялись первые письменные законы, которые распространялись на древние цивилизации и доходили до древних Индии и Китая. Формирование базы законов на Древнем Востоке является продуктом не одной единственной системы, а взаимодействия разных по языку и культуры человеческих сообществ. Эти законы прошли долгий и зигзагообразный путь развития, передаваясь от общества к обществу, дошли до нашего времени.

NDU-nun Elmi Şurasının 30 mart 2017-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 07).

Məqaləni çapa təqdim etdi: AMEA-nın müxbir üzvü Z.Şahverdiyev

**СЕВДА МАМЕДОВА**
*Азербайджанский Государственный Экономический Университет*
*dr.smks@mail.ru*

**УДК 368.4**

# ПЕРСПЕКТИВЫ ОБЕСПЕЧЕНИЯ ПРАВОВОЙ ЗАЩИТЫ ПАЦИЕНТОВ В АЗЕРБАЙДЖАНЕ В СИСТЕМЕ ОБЯЗАТЕЛЬНОГО МЕДИЦИНСКОГО СТРАХОВАНИЯ

***Açar sözlər:*** *pasiyentlərin hüquqlarının qorunması, pasiyentlərin müdafiəsi cəmiyyəti; pasiyentlərin hüquqlarının pozulması; həkimlər birliyi*

***Keywords****: protection of the rights of patients, society of protection of patients; violations of the right of patients; medical associations*

***Ключевые слова:*** *защита прав пациентов, общество защиты пациентов; нарушения права пациентов; врачебные ассоциации*

В преддверии внедрения в нашей стране обязательного медицинского страхования, необходимо обеспечить реализацию правовых интересов пациентов, включенных в эту систему. Правовая поддержка и ликбез пациента в этом плане уменьшают информационную ассиметрию, делают рынок более конкурентным, повышают качество медицинских услуг, снижают расходы на медицинские услуги, в том числе и за счет уменьшения процессов дублирования, создает стимулы для более адекватного ожидания от системы.

Вместе с тем исследования показывают, что большинство пациентов не могут конкретизировать свои права в этой сфере. Некоторые возлагают на медработников слишком большие обязательства. Поэтому пропаганда информированности пациентов о своих правах должна производиться как на государственном уровне, так и на уровне отдельных субъектов – медицинских организаций, страховых организаций.

В системе обязательного медицинского страхования правовая защита пациентов осуществляется , в первую очередь, страховыми организациями. Они представляют собой агентов, которые закупают медицинские услуги медицинских работников и организуют быструю, преемственную подачу медицинских услуг пациенту. Страховые организации заинтересованы в работе с наиболее квалифицированными медицинскими работниками и наиболее оснащенными и рационально работающими медицинскими учреждениями. Такой подход к делу способствует снижению расходов по лечению пациентов. По большому счету принцип работы страховых организаций – « лечить быстро, качественно и дешево».

Вместе с тем, страховая компания нуждается в довольном пациенте, так как обычно пациент имеет право выбора страховщика. Таким образом, потерянный пациент – это потерянные деньги.

Однако деятельность как страховых организаций, так и медицинских учреждений регулируется государством и контролируется им. Пациент, знающий свои права, должен быть уверен в своей защищенности и наказуемости недобросовестных медицинских работников.

Необходимость особой правовой охраны интересов пациента зафиксирована в целом ряде деклараций и конвенций, принятых международными медицинскими ассоциациями. Среди них — документы Всемирной организации здравоохранения (Декларация о политике в области обеспечения прав пациента в Европе 1994 г., Копенгагенская декларация 1994 г. и др.), документы Всемирной медицинской ассоциации (Токийская декларация 1975 г., Лиссабонская декларация о правах пациента 1981 г., Декларация об эвтаназии 1987 г., Декларация о трансплантации человеческих органов 1987 г., Хельсинкская декларация 1989 г. и др.).

Так, Лиссабонская декларация о правах пациента предусматривает право пациента на свободный выбор врача, получение медицинской помощи, право на информированное добровольное согласие на медицинское вмешательство или отказ от такого вмешательства, право на конфиденциальность медицинской и личной информации, доверенной врачу, право пользоваться духовной и моральной поддержкой.

Принятая ВОЗ в марте 1994 г. в г. Амстердаме (Нидерланды) Декларация «О политике в области обеспечения прав пациентов в Европе» в основах концепции прав пациента в Европе формулирует стратегические принципы политики в области охраны здоровья, которые предусматривают равную доступность медицинской помощи для всех жителей страны или

географического региона, устранение финансовых, географических, культурных, социальных, психологических и иных барьеров(10, с.4).

Ненадлежащим образом использованные обязательства врачей влекут как его собственную ответственность (вплоть до уголовной), так и ответственность медицинского учреждения, в котором он работает. По данным Reid W.K., в 53 % случаев судебного обращения со стороны пациентов во время экспертизы оказанная медицинская помощь оценивается как ненадлежащая. В других источниках цифра еще более высокая- 59 %(9, с. 64-65).

Проблемы , возникающие при получении медицинских услуг

Проблемы, возникающие при обращении пациентов в медицинские учреждения в нашей стране, так же, как и во всех странах мира, можно сгруппировать следующим образом:

- Доступность медицинских услуг, что особенно касается социально уязвимых слоев населения, но также может быть связано с недостаточно развитой или нерационально распределенной инфраструктурой, «листами ожидания», когда существуют очереди к врачам и т.д.
- Квалификация врача.
- Качество предоставленной медицинской услуги, которое может быть неудовлетворительным, даже если ее предоставляет квалифицированный и компетентный специалист.
- Халатность и ошибки медицинского персонала.
- Проблемы, возникающие в результате введения некачественных лекарственных препаратов.
- Формирование негативных человеческих отношений между пациентами и персоналом.
- Отказ в оказании медицинской помощи.
- В некоторых случаях отсутствие обязательного информированного добровольного согласия на медицинское вмешательство

Виды нарушения прав пациентов

Согласно определению, права пациента - специфические права, производные от общих гражданских прав, реализуемые при получении медицинской помощи или в связи с любым медицинским вмешательством, осуществляемым в отношении пациента. Исходя из этого, можно выделить следующие виды нарушений прав:

- Отказ в приеме пациента;
- Оказание некачественной помощи предоставление ее в необходимом объеме;
- Низкое качество и неполный объем медпомощи, не повлекшие за собой причинения вреда здоровью больного;
- Низкое качество и неполный объем медицинской помощи, повлекшие к легким, средним и тяжелым для здоровья пациента последствиям или летальному исходу;
- Использование опасных методов и препаратов при наличии более щадящих средств;
- Требование оплаты услуг, входящих согласно законодательству в перечень бесплатных услуг;
- Злоупотребление служебным положением со стороны медперсонала;
- Нарушение режима и условий предписанного курса лечения;
- Нарушение врачебной тайны;
- Утаивание от пациента каких-либо сведений о его диагнозе и прогнозах;
- Нарушения в оформлении документации.
- Халатность и ошибки персонала

Инстанции обращении пациентов при ущемлении их прав

Куда же обращаются пациенты при ущемлении их прав?

На практике в разных странах пострадавшие могут обратиться и обращаются:

- к руководству лечебно- профилактического учреждения
- в Минздрав или его отделения
- соответствующий орган исполнительной власти
- в суд
- в свою страховую компанию;
- в прокуратуру;
- в полицию;
- Общество защиты( или лига) пациентов.
- различные общественные объединения;
- этические комиссии или комитеты;
- медицинские и фармацевтические ассоциации и т.д.

Особо хотелось бы отметить деятельность общество защиты пациентов, которые помогают пациентам в решении следующих вопросов:

- консультирование по медицинскому праву;
- правовая защита пациентов при оказании медицинской помощи в государственных, частных и ведомственных учреждениях здравоохранения;
- правовая защита потребителей при конфликтных ситуациях с частными медицинскими фирмами и народными целителями;
- составление претензии к медицинскому учреждению в связи с нарушением прав пациента;
- организация практической помощи по вопросам взыскания материального ущерба и морального вреда, вызванного ненадлежащим оказанием медицинской помощи /услуги/ – досудебный и судебный порядок взыскания вреда здоровью;
- правовая защита льготных категорий населения на получение бесплатной лекарственной помощи;
- помощь в возврате благотворительного взноса, внесённого в медицинское учреждение;
- оспаривание заключения медико-социальной экспертизы в случае несогласия гражданина с установленной группой инвалидности;
- помощь в вопросах установления профзаболеваний, компенсация морального ущерба;
- организация независимой медицинской экспертизы;
- анализ медицинской документации пациента на предмет оценки перспективности выигрыша гражданского иска, предъявленного медицинскому учреждению;
- составление искового заявления в суд;
- представление интересов пациента в судебном процессе (ведение медицинских дел);
- помощь в вопросах правильного документирования производственных травм.

**Модели взаимоотношения между врачом и пациентом**

По сути обследование и лечение пациента при обращении в медицинские учреждения проводится именно врачом, поэтому жалобы в отношении медперсонала обычно фокусируются именно на врачах. Поэтому хотелось бы остановиться на разных моделях взаимоотношения между врачом и пациентом, которые дают возможность морально- правовой оценки ситуации.

Патерналистская модель, которая строится на беспрепятственном подчинении пациента предписанному лечению врача. Понятно, что успешного лечения здесь требуется уверенность врача в своей квалификации и компетентности, а также полное доверие пациента к врачу. Но так как решение принимает врач и только этот врач без консультаций и советов коллег, то и вся ответственность будет лежать на нем.

Либерационная модель, которая основывается на выборе пациентом конкретного метода лечения из всех предложенных врачом. Понятно, что каким бы грамотным ни был пациент, соответственных знаний о необходимом лечении он не имеет и с этой точки зрения этот вариант менее приемлем, но вместе с тем, он смягчает вину врача и делит ее с пациентом.

Технологическая модель, наиболее новая, основана на переходе отношений пациент – врач на более высокий уровень, когда диагностика происходит на основе показателей диагностической технологии, и, возможно, даже без личного их контакта. Эта модель ставит врача в выгодное положения и исключает ошибки, недоверия и ответственность на этапе диагностики, а нередко и на протяжении всего лечения.

Интерпретационная модель схожа с либерационной за той разницей, что врач обсуждает с больным суть болезни, существующие методы ее излечения, прогнозы, и все это строится на индивидуальном подходе к пациенту, но при этом решающее слово не за пациентом. Пациент не решает, а соглашается врачу, но без подчинения, как в первой модели.

**Виды юридической ответственности врача перед пациентом**

В зависимости от характера нарушения прав пациента, выделяют такие типы юридической ответственности врача перед пациентом:

- Уголовная ответственность. Наступает, если действия персонала повлекли за собой тяжелые последствия для потерпевшего, например, неоказание помощи, причинение смерти
- Гражданско-правовая ответственность, которая обычно является следствием неурегулированного добровольного соглашения между виновной стороной и потерпевшим, вынудившего последнего обратиться в суд.
- Административная ответственность вследствие административных нарушений;
- Дисциплинарная ответственность. Наказание в качестве назначая выговора или увольнения в зависимости от тяжести поступка;
- Материальная ответственность .

Как видно, обеспечение прав пациентов регулируется на разных уровнях и поддерживается правовой базой страны. Вместе с тем, в развитых странах особое значение придается этической

стороне вопроса, когда неправомерное поведение медперсонала не только строго карается, но и причисляется к ряду практически невозможных, недопустимых. Например, врач, допустивший подобную ошибку, становится субъектом порицания не только общественности, но, прежде всего, среди своих коллег. Существующие врачебные ассоциации не только отстаивают позиции врачей по определенным вопросам, но и формируют моральный кодекс врачей. По мнению специалистов, именно осуждение своих коллег является тем механизмом, который поддерживает моральные устои врачей.

С другой стороны, они жестко контролируют проникновение новых поставщиков на рынок медицинских услуг. В США, например, под давлением профессиональных врачебных ассоциаций ограничивается прием студентов в медицинские учебные заведения, количество практикующих врачей путем ужесточения требований для получения лицензии. Мотивацией для этого служит стремление к выполнению высоких стандартов качества.

Защита прав пациентов в Азербайджане

Согласно статье 24 Закона Азербайджанской Республики «Об охране здоровья населения» пациент имеет право на:

- выбор врача (по согласию самого врача), а также лечащего врача и лечебно-профилактического учреждения, за исключением случаев оказания неотложной медицинской помощи;
- обследование и лечение в условиях, отвечающих санитарно-гигиеническим требованиям;
- требование проведения консультаций и консилиумов с участием специалистов медицинского учреждения, в котором находится на стационарном лечении;
- содержание в тайне от окружающих факта обращения за медицинской помощью, информации о лечении, состоянии здоровья, диагнозе, а также любых других сведений, полученных при обследовании и лечении;
- добровольную дачу письменного или устного согласия на медицинское вмешательство:
- отказ от медицинского вмешательства;
- получение информации о правах и обязанностях, состоянии здоровья, выбор, по своему усмотрению, лица, которому возможно передать эту информацию;
- предоставление отдельного места для исполнения религиозного обряда, не нарушая внутреннего распорядка больницы(2).

Согласно этой же статье граждане Азербайджана при нарушениях их прав как пациентов имеют «право на обращение к руководству лечебно- профилактического учреждения, в Минздрав или его отделения а также в соответствующий орган исполнительной власти или в порядке определенном законодательством в суд.

В Азербайджанской Республике, так же, как и в любом демократическом государстве, защита прав пациентов выступает одним из основополагающих факторов в развитии системы здравоохранения. Защита прав пациентов законодательно отражается в следующих документах:

- Конституция Азербайджанской Республики
- Закон Азербайджанской Республики об охране здоровья населения
- Закон АР о трансплантации органов и тканей
- Закон АР о медицинском страховании
- Закон о психиатрической помощи
- Закон Азербайджанской Республики о государственной заботе о лицах, больных Сахарным Диабетом
- Закон Азербайджанской Республики о лекарственных средствах
- Закон о донорстве крови и ее компонентов

Вместе с тем, в нашей стране до сих пор не принят закон "О защите прав пациента" в настоящее время работа над законопроектом все еще продолжается.

С другой стороны, к сожалению, существующая в нашей стране ассоциация врачей Азербайджана , не достаточно активно проявляет себя в формировании этического кодекса врачей.

Наряду с этим, с точки зрения формирования врачебной этики радует появление в Азербайджане института биоэтики, формирование и развитие которой связано с процессом трансформации традиционной этики вообще и медицинской этики в частности. Появление этого направления продиктовано возрастанием ценности человека как экономической категории. Соответственно права человека, а в области медицины – права пациента ставятся во главу угла.

Введение обязательного медицинского страхования станет еще одним инструментом по защите прав пациентов. Наряду с этим, страховые организации являются одной из инстанций

первого обращения в случаях, когда пациент считает себя ущемленным в правах в сфере здравоохранения.

## ЛИТЕРАТУРА


1. Конституция Азербайджанской Республики от 12 ноября 1995 года
2. Закон Азербайджанской Республики об охране здоровья населения от 26 июня 1997 года №360-IQ
3. Закон АР о трансплантации органов и тканей от 28 октября 1999 года №726-IQ
4. Закон АР о медицинском страховании от 28 октября 1999 года №725-IQ
5. Закон о психиатрической помощи от 12 июня 2001 года №142-IIГ
6. Закон Азербайджанской Республики о государственной заботе о лицах, больных Сахарным Диабетом от 23 декабря 2003 года №563-IIQ
7. Закон Азербайджанской Республики о лекарственных средствах от 01.10.2007 г. 416-IIIQD
8. Закон о донорстве крови и ее компонентов от 3 мая 2005 года № 904-IIQ
9. Мамедова С. К. Финансовые и экономические последствия врачебных ошибок // Финансовый вестник: финансы, налоги, страхование, бухгалтерский учет, 2013,№ 8
10. Колоколов Г.Р. Защита прав пациентов. М.: ГроссМедиа, РОСБУХ, 2009.
11. Рабец А.М. Обязательства по возмещению вреда, причиненного жизни и здоровью. М.: Федеральный фонд ОМС, 1998. 296 с.


## XÜLASƏ


**Sevda Məmmədova**

Əhaliyə göstərilən tibbi xidmətin keyfiyyətinin təmin edilməsi son onilliklərdə səhiyyənin əsas problemlərindən birinə çevrilmişdir . İnkişaf etməkdə olan ölkələrdə eyni zamanda digər mühüm problem müşaidə olunur - tibbi xidmətlərin mövcudluğu və əlçatanlığı. Digər tərəfdən, insan hüquqlarının, o cümlədən pasientlərin hüquqlarının əhəmiyyəti dünyada artır. Tibbi personalın, o cümlədən də həminin məsuliyyətini onun kvalifikasiyası, səlahiyyətləri, məqsədləri, imkanları və həkim və xəstə arasında mövcud olan əlaqə modelləri müəyyən edir.


## ABSTRACT


**Sevda Mammadova**

Maintenance of quality of the medical services provided to the population becomes one of the main problems of health care in the last decades. In developing countries an important problem is also availability of medical services. On the other hand, the importance of human rights including the rights of patients increases worldwide. The medical responsibility is determined by its qualification, competence, the purposes, opportunities, and also relation models between the doctor and the patient.



NDU-nun Elmi Şurasının 30 mart 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 07).

Məqaləni çapa təqdim etdi: Fəlsəfə üzrə elmlər doktoru, professor M.Rzayev

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2017, № 2 (83)**

NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2017, № 2 (83)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2017, № 2 (83)**

**ZÜMRÜD MƏLİKOVA**
*Bakı Slavyan Universiteti*
*zumrud 2777@rambler.ru*

**UOT: 327**

# «BÖYÜK OYUN» VƏ MƏRKƏZİ ASİYADA GEOSİYASİ RƏQABƏT

**Açar sözlər**: Böyük Britaniya, Rusiya imperiyası, Mərkəzi Asiya, ABŞ, «Yeni Böyük Oyun», geosiyasi maraqlar, rəqabət

**Key words**: Great Britain, the Russian Empire, Central Asia, USA, «The New Great Game», geopolitical interests, rivalry

**Ключевые слова:** Великобритания, Российская империя, Центральная Азия, США, «Новая Большая Игра», геополитические интересы, соперничество.

**Böyük Oyun** (ingiliscə - The Great Game, Oyunun digər adı - Kölgələrin müharibəsi (ing.-Shadows War) adlanır) XIX əsrdə və XX əsrin əvvəllərində Cənubi Asiya və Mərkəzi Asiyada üstünlük uğrunda Böyük Britaniya və Rusiya imperiyaları arasında geosiyasi rəqabət idi[2]. Böyük Oyun ifadəsini ilk dəfə Ost-Hind şirkətində xidmət edən, Böyük Britaniyanın gizli kəşfiyyat xidmətinin zabiti Artur Konolli 1840-cı ildə Böyük Britaniyanın Kabildəki siyasi nümayəndəsi Bombeyin qubernatoru Henri Roulinsona göndərdiyi məktubda işlətmişdir. Bu termin 1901-ci ildə ingilis yazıçısı Redyard Kiplinqin «Kim» romanından sonra geniş istifadə olunmağa başlanmışdır[5]. Romanda qeyd olunan «Böyük Oyun hər kəs ölüncə bitəcək»-ifadəsi həqiqəti tam əks etdirir. Çünki Böyük Oyunun gedişi zamanı onun iştirakçıları sıradan çıxsa da, yeni iştirakçılar meydana çıxdı və bu məkanda mübarizəyə qoşuldu.

Böyük Oyunun tarixi ilə bağlı fikirlər fərqlidir. Əksər tədqiqatçılar Böyük Oyunun 1813-1907-ci illərdə Mərkəzi Asiyada yuxarıda adı çəkilmiş imperiyalar arasında rəqabət dövrü kimi səciyyələndirir, digərləri isə Böyük Oyunun Rusiya çarı I Pavelin 1801-ci ildəki uğursuz Hindistan yürüşü ilə başlandığını qeyd edir. Lakin Böyük Oyunun vaxt çərçivəsi və məkan təsəvvürü daha genişdir. Müxtəlif zamanlarda Böyük Oyun Yaxın Şərqi, Qafqazı və İranı, Monqolustan və Çini, hətta Həbəşistanı əhatə etmişdir[5]. Böyük Oyun 1907-ci ildə Rusiya və Böyük Britaniya imperiyaları arasında təsir dairələrinin razılaşdırılması və ittifaq müqaviləsi bağlandıqdan sonra səngisə də, Rusiyada oktyabr inqilabından sonra yenidən başlanmış və bu gün daha geniş məkanda («Yeni Böyük Oyun») davam etməkdədir.

Böyük Oyunun məhz Mərkəzi Asiyada başlanmasının əsas səbəbi bu regionun özünəməxsus geosiyasi açar rolu oynaması ilə izah oluna bilər. Bölgə mühüm ticarət yollarının və hərbi –siyasi əhəmiyyət kəsb edən xətlərin üzərindədir. XIX əsrdə Böyük Britaniya Rusiyanın cənuba və şərqə doğru genişlənməsindən, Hindistana müdaxiləsindən ciddi narahatlıq duymuşdur. Bu məkan əsrlər öncə ticarət daşımalarının cəmləşdiyi bir region kimi böyük dövlətlər üçün xüsusi əhəmiyyət kəsb edirdi. Burada ən qədim sivilizasiyalar yaranmış, əsas ticarət arteriyaları cəmlənmişdir. Bölgə hal-hazırda zəngin neft-qaz ehtiyatlarına görə yalnız Yaxın Şərq və Sibirdən geri qalır.

Deməк olar ki, bütün bəşər tarixi boyunca resursların bölüşdürülməsi uğrunda açıq və ya gizli müharibə aparılan və Avrasiyanın körpüsü rolunu oynayan bu məkan vasitəsilə həyata keçirildi. Bu resurslarının - ipək, ədviyyat və narkotik olmasından asılı olmayaraq mübarizə davam etdi. Hal-hazırda Oyun - «Yeni Böyük Oyun» əsas enerji daşıyıcılarına nəzarət uğrunda aparılır və qazanc isə sərfəli müqavilələr, nəqliyyat marşrutlarıdır. Oyunun mahiyyəti dəyişməmişdir, belə ki, burda söhbət böyük pullardan və hakimiyyətdən gedir. Son 200 il ərzində əsas oyunçular - bir tərəfdə Britaniya və ABŞ, digər tərəfdə Rusiyadır (Rusiya imperiyası –SSRİ –Rusiya Federasiyası).

Rusiyalı politoloq Mixail Leontyev qeyd edir ki, bu Rusiya – Böyük Britaniya qarşıdurması idi. Lakin sonra Böyük Britaniya bu Oyunda iştirak etmək hüququnu ABŞ-a verdi və artıq 65 ildir ki, Rusiya - ABŞ oyunu gedir. Coğrafi və geosiyasi aspektdə bu region mühüm rol oynayır[5]. Enerji təhlükəsizliyi məsələsində Mərkəzi Asiya Qərb, Rusiya və Çin üçün prinsipial yer tutur.

## Böyük Oyun və Rusiya

Oyunçu kimi Rusiya I Pyotr dövründə çıxış etdi. Qeyd etmək lazımdır ki, ingilislər Rusiyanı İvan Qroznı dövründə tanıdılar. İngilislər o zaman Hindistana qısa yol axtarırdılar. O dövrdə Rusiyada ədviyyatlar Avropadan qat-qat ucuz idi. Hindistana sahiblənmək o dövrdə dünya ağalığının göstəricisi idi. XVI əsrin ortalarında İngiltərə Rusiyaya Hindistana quru yolunu açmaq üçün Uillobi Çenslerin ekspedisiyasını göndərdi[4]. Çünki ingilislər artıq Hindistana qısa yolun Rusiyadan keçdiyini bilirdilər. İngilislər Rusiyada Ost-

Hind şirkətinə oxşar bir qurumun yaradılmasına cəhd etdilər, lakin qısa zamanda bunun mümkün olmayacağını gördülər. 1722-1723-cü illərdə I Pyotrun Persiya yürüşündən sonra ingilislər «Britaniya tacının incisi» - Hindistan üçün təhlükənin yarandığını hiss etdilər. Elə bu zaman Rusiya bəzən «Kölgələrin müharibəsi» adlandırılan «Böyük Oyun»a daxil oldu. Oyunun mahiyyətini gizli kəşfiyyat və əkskəşfiyyat əməliyyatları təşkil edirdi. «Böyük Oyun» qiyafəsini dəyişmiş ingilis zabitləri və sərgüzəşt axtaran səyahətçilərin tarixidir.

XVIII-XIX əsrlərdə Rusiya öz sərhədlərini Hindistana qədər genişləndirməyin yollarını axtarır, Böyük Britaniya isə öz müstəmləkələrini qorumaq, sərhədlərində onların nəzarətində olan bir sıra bufer dövlətləri yaratmaq istəyirdilər. «Böyük Oyun» zamanı pusqular, sui-qəsdlər və çevrilişlər tez-tez baş verdi. Bununla eyni zamanda açıq hərbi əməliyyatlar da baş verdi. XIX əsrdə Rusiya Mərkəzi Asiyada təsir dairələrini genişləndirmək üçün fəallaşdı və real nəticələr əldə etdi. Böyük Britaniya isə üç dəfə Əfqanıstana qarşı müharibə apardı. Lakin əsas fəaliyyət pərdə arxasında, qaranlıq və dəyişkən olub xüsusi təhlükəsizlik xidmətləri arasında getdi. Bu dövrdə bir çox elmi ekspedisiyalara hərbi kəşfiyyatın zabitləri başçılıq edir, diplomatik missiyalar isə açıq müharibələrdən daha təhlükəli idi. Rusiya imperiyasının dağılması ilə rəqibi Böyük Britaniya öz qələbəsini qeyd etsə də, bolşeviklərin dövlət quruculuğu «Böyük Oyun»un davam etdiyini göstərdi. İngilislərin Əfqanıstana üçüncü müdaxiləsindən 1989-cu ildə sovet qoşunlarının Əfqanıstandan çıxarılmasına qədər Böyük Oyun yeni güclə davam etdi.

SSRİ-nin süqutundan sonra Qafqaz və Mərkəzi Asiya yenidən obyekt olaraq güc mərkəzlərinin maraq dairələrinə daxil oldu. Bölgənin strateji və geosiyasi əhəmiyyətini nəzərə alan ABŞ və regionda maraqları olan dövlətlər fəaliyyətlərini genişləndirdilər. Rusiya üçün Mərkəzi Asiya strateji əhəmiyyət daşıyır. Qafqaz və Mərkəzi Asiyada Rusiyaya rəqib mövqedə olan ABŞ «təkqütblü dünya» konsepsiyasını elan etdi. 2007-ci ildə Münhendə Rusiyanın prezidenti V.Putin çıxışı zamanı «təkqütblü dünya» konsepsiyasını rədd etdi. 2008-ci ilin avqustunda «Beşgünlük müharibə» zamanı Qafqazda öz mövqeyini qoruyub saxladı. 2014-cü ildə Krımın ilhaqı ilə öz imperiya ambisiyalarından imtina etmədiyini göstərdi. Suriyada öz maraqlarını istər diplomatik, istərsə də hərbi yolla müdafiə etməkdən çəkinmədi. ABŞ-ın başçılığı altında Qərb koalisiyasına qarşı Bəşər Əsəd rejimini müdafiə edən Rusiya «Yeni Böyük Oyun»da var gücü ilə maraqlarını qoruyur.

**«Yeni Böyük Oyun»**

«Yeni Böyük Oyun» (ingiliscə:The New Great Game) – bu termin hal-hazırda Mərkəzi Asiya, Yaxın Şərq və Qafqazda müasir geosiyasəti təsvir etmək üçün istifadə olunur. XIX əsrdə Mərkəzi Asiyada ağalıq uğrunda Böyük Britaniya və Rusiya imperiyaları arasında başlanmış rəqabətin - «Böyük Oyun»un davamıdır[3,198].

Bir çox müəlliflər və analitiklər hesab edirlər ki, yeni «Oyun» neftlə zəngin ərazilərə nəzarətə əsaslanır. Lakin indi ərazilərə real nəzarət əvəzinə mübarizə əsasən gəlirli və sərfəli müqavilələr, boru kəməri xətləri, tanker xətləri və s. uğrunda gedir.

11 sentyabr 2001-ci il ABŞ-a terror hücumlarından sonra «Yeni Böyük Oyun» yeni templə başlandı. Mərkəzi Asiyada nüfuz və xammal ehtiyatları uğrunda rəqabəti ört-basdır edən yeni qarşıdurmanın ideologiyası - terrorizmə qarşı mübarizə oldu. «Yeni Böyük Oyun»un fəal iştirakçıları ABŞ və Çin oldu[8,92]. 2001-ci ildə Rusiya və Çin qismən ŞƏT, 2009-cu ildə BRİCS çərçivəsində qüvvələrini birləşdirdilər. 2005-ci ildə Əndicanda qanlı hadisələrin baş verməsi bəzən ABŞ –ın Özbəkistana öz iradəsini qəbul etdirmək cəhdi kimi şərh olunur. Mərkəzi Asiyaya eyni zamanda islam qüvvələrinin qarşıdurma yaşadığı region kimi də baxılır: Şiə İranı ilə sünnü Səudiyyə Ərəbistanı və türkdilli ölkələrlə birliyə cəhd edən Türkiyə ilə qarşıdurması olan bir regiondur[9].

«Yeni Böyük Oyun»nun əsas komponenti Mərkəzi Asiya uğrunda rəqabət oldu. «Mərkəzi Asiya»(Central Asia) termini alman coğrafiyaşünası Aleksandr Humboldt tərəfindən 1843-cü ildə işlədilmişdir. Mərkəzi Asiya bu gün daha geniş ərazini əhatə edir. 1990-cı illərdə «Mərkəzi Asiya» terminini amerikalı politoloq Maykl Mandelbaum yenidən izah etdi. O sovet «Orta Asiya»sı ilə bu anlayış arasında fərqə işarə etdi. Mərkəzi Asiyaya Orta Asiyanın keçmiş sovet respublikaları, Qazaxıstan, Çinin qərb əraziləri (əsasən – Sinszyan-Uyğur muxtar vilayəti), Əfqanıstan, Pakistan, Hindistan və Pakistan arasında münaqişə zonası və Monqolustan aid edilirdi. Bu keçmiş sovet respublikaları ilə Rusiyanın prioritet əməkdaşlıq hüququnun tanınmaması demək idi. Uilyam Klinton administrasiyası M. Mandelbaumun tövsiyələrini 1996-cı ildə «ABŞ Milli Təhlükəsizlik Strategiyası» çərçivəsində qəbul etdi[7].

Müasir dövrdə «Yeni Böyük Oyun»un arenası Yaxın və Orta Şərq regionunu da əhatə edir. Geostrateq Z.Bzjezinskiyə görə, «Böyük Oyun» soyuq müharibədən sonra daha geniş ərazini əhatə edir, əsasən karbohidrogen ehtiyatlarla zəngin olan Xəzər dənizi və Mərkəzi Asiya, Yaxın Şərq regionunda təsir əldə etmək və qoruyub saxlamaq uğrunda başlanmışdır[10]. Bu məkan həmçinin Avropaya enerji daşıyıcılarının tranziti kimi kimi də mühüm əhəmiyyət daşıyır.

**ABŞ-ın enerji siyasəti**

Bu bölgəyə ABŞ-ın marağı 1979-cu ilin dekabrında sovet qoşunlarının Əfqanıstana müdaxiləsindən sonra yarandı. ABŞ prezidenti Ronald Reyqan administrasiyası Sovet İttifaqının Fars körfəzinin neft-qaz ehtiyatlarına atılmaq üçün plasdarm yaratmağa çalışmasından ehtiyatlanırdı.

Əfqanıstanın şimal ərazilərindən boru kəməri vasitəsilə SSRİ-yə, yəni Mərkəzi Asiya respublikalarına simvolik qiymətə qaz ötürülürdü. Sovet geoloqları Əfqanıstan ərazisində intensiv işləyərək, gələcəkdə öz iqtisadiyyatı üçün qonşu ölkənin təbii ehtiyatları hesabına strateji əhəmiyyətli bir sahəni inkişaf etdirməyə başladılar. Rəsmi Moskva hətta gələcəkdə Sovet İttifaqından siyasi və iqtisadi asılılıqda olacaq «Şimali Əfqanıstan»nı yaratmaq imkanı haqda düşünürdü. ABŞ SSRİ-nin Əfqanıstandakı planlarına maneəçilik törədir və Sovet hökumətinin mövqeyini zəiflətmək üçün əfqan mücahidlərini dəstəkləyirdi. Buna görə də, amerikalı ekspertlər 1980-ci illərdə regionda ABŞ-ın mövcudluğunun vacibliyini anlayaraq Pakistan və ÇXR ilə tərəfdaşlıq münasibətləri qurmağa səy göstərdilər. Mərkəzi Asiyanın dörd keçmiş sovet respublikasının (Qırğızıstan, Tacikistan, Türkmənistan, Özbəkistan) və Qazaxıstanın müstəqillik əldə etməsi «Böyük Oyun»un yenidən canlanmasına gətirib çıxardı[3,209].

1991-ci ilin dekabrında Sovet İttifaqının dağılmasından sonra ABŞ Mərkəzi Asiyaya geniş şəkildə nüfuz etmək kursu götürdü. 1993-cü ildə B. Klinton administrasiyası Rusiyadan yan keçməklə Mərkəzi Asiyadan bir sıra neft və qaz kəmərlərinin çəkilməsini nəzərdə tutan TRACECA layihəsinə başladı. 1997-ci ilin martında ABŞ prezidentinin milli təhlükəsizlik üzrə köməkçisi Samuel Berqer Mərkəzi Asiya və Cənubi Qafqazın ABŞ diplomatiyasının prioritet istiqaməti olduğunu bildirdi. 1997-ci ilin avqustunda isə ABŞ Xəzər dənizini onun həyati mənafelərinin zonası elan etdi. 3 avqust 1999-cu ildə ABŞ Konqresi Çin və Mərkəzi Asiya ölkələrinin sərhədlərindən Qara dənizə qədər uzanan məkanda nəqliyyat və enerji dəhlizlərinin yaradılmasını nəzərdə tutan «İpək Yolu Strategiyası Aktı» (Silk Road Strategy Act) haqqında Qanunu qəbul etdi [10].

1994-cü il iyulun 1-də Türkiyə Bosfor və Dardanel boğazlarından neft tankerlərinin keçid qaydalarını sərtləşdirdi. Bu boğazlardan kommersiya məqsədli gəmiçilik azadlığını təmin edən 1936-cı il Montrö Konvensiyasının qismən yenidən baxılması idi. Türkiyənin bu qərarı Rusiyanın Novorossiysk limanından neft ixracının dəyərinin artmasına gətirib çıxardı. ABŞ-ın «Unocal» konserni 1994-cü ilin avqustunda Xəzər neftinin nəqli üçün alternativ marşrutları tapmaq Azərbaycan, Qazaxıstan və Türkmənistan ilə danışıqlara başladı. 29 Oktyabr 1998-ci ildə Ankarada keçirilən sammitində ABŞ-ın energetika naziri Uilyam Riçardsonun iştirakı ilə Azərbaycan, Gürcüstan, Türkiyə və Özbəkistan prezidentləri bəyannamə imzaladılar. 1999-cu il 18-19 noyabrında ATƏT-in İstanbul sammitdə siyasi qərar qəbul edildi. 2006-cı il iyunun 4-də BTC boru kəməri istifadəyə verildi[6]. Onun fəaliyyəti üçün əsas problem neftin xroniki çatışmazlığı oldu. Sonrakı layihələr Xəzər dənizinin dibi ilə neft və qaz boru kəmərlərinin tikintisini nəzərdə tuturdu, lakin bu günə qədər Xəzər dənizinin təsir dairələrinə bölünməsi məsələsinin tam həllini tapmaması səbəbindən onlar dondurulmuş vəziyyətdədirlər.

**ABŞ-ın Mərkəzi Asiyada hərbi iştirakı**

Əfqanıstanda antiterror əməliyyatı başladıqdan sonra ABŞ Mərkəzi Asiyada hərbi fəaliyyətini genişləndirməyə başladı. 7 oktyabr 2001-ci ildə ABŞ və Özbəkistan «Karşi-Xanabad» hərbi bazasının istifadəsinə dair saziş imzaladılar. 1 dekabr 2001-ci ildə NATO ilə Qırğızıstan arasında «Manas» hərbi hava bazası yaratmaq haqda müqavilə imzaladılar. Qazaxıstan (Luqovoy hava limanı) və Tacikistan (Kulyab və Kurqan-Tübe hava limanları) koalisiya təyyarələrinin aralıq eniş etməsi üçün imkan yaratdılar[10].

2002-ci ilin əvvəllərində ABŞ Mərkəzi Asiyada iştirakını gücləndirdi. 13 mart 2002-ci ildə ABŞ və Özbəkistan strateji tərəfdaşlıq və əməkdaşlığın əsasları haqda Bəyannamə imzaladılar. 20 fevral 2002-ci ildə Tacikistan «Sülh naminə tərəfdaşlıq» proqramına qoşuldu. Antiterror koalisiya qüvvələri 20 aprel 2002-ci ildə ilk dəfə Əfqanıstanda F-16 qıqıcı təyyarələrindən («Manas» aviabazasından) istifadə etdi. 1 iyul 2002-ci ildə Mərkəzi Asiya xüsusi yaradılmış ABŞ silahlı qüvvələrinin Mərkəzi Komandanlığının məsuliyyət zonasında daxil edildi [9].

2002-ci ilin ortalarında ABŞ bölgədəki fəaliyyətini genişləndirmək üçün cəhdlər etdi. 27 iyun 2002-ci ildə Senatda keçirilən dinləmələrdə ABŞ dövlət katibinin köməkçiləri Linn Pasko və Lorn Kreyner Mərkəzi Asiya ölkələri ilə əməkdaşlığı genişləndirməyin lehinə çıxış etmişdilər. Bu dinləmələr ABŞ ilə Özbəkistan, Qazaxıstan və ola bilsin ki, Tacikistan ilə hərbi əməkdaşlıq haqqında saziş imzalanmasının mümkünlüyü barədə idi. 26 avqust 2002-ci ildə «Vaşinqton Post» qəzeti Corc U.Buş administrasiyasının iki iddialı layihəsini çap etdi: 1) ABŞ, Əfqanıstan, Pakistan, Özbəkistan, Qırğızıstan, ola bilsin ki,Tacikistanın iştirakı ilə «antiterror paktı» nın imzalanması; 2) transmilli terrorizmə qarşı mübarizə üçün nəzərdə tutulmuş Mərkəz Müqaviləsi Təşkilatının (CENTO) yenidən qurulması [3,211].

«ABŞ-ın Milli Təhlükəsizlik Strategiyası»nda (sentyabr 2002) Mərkəzi Asiyanın roluna yeni yanaşma qeyd olunmuşdu. Sənəddə Avrasiya və Yaxın Şərq ABŞ-ın milli maraqları baxımından prioritet bölgələr elan edilmişdi. Bu sıralamada Avropa üçüncü mövqeyə enmişdi. Sənəddə XXI əsrdə ABŞ üçün «çağırışlar və imkanlar»ın Mərkəzi Asiyada cəm olunduğu ifadə edilmişdi [3,214]. Birinci dərəcəli təhdidlərə - transmilli terrorizm, islamın radikallaşması və narkotik alveri daxil idisə, ikinci növ təhdidlərə bölgədə böyük karbohidrogen ehtiyatlarının olması və Çinin təsir dairəsinin məhdudlaşdırması imkanı aid idi.

**Mərkəzi Asiyada geosiyasi oyunçular**

Hal-hazırda Mərkəzi Asiyada Rusiya, Çin, ABŞ və Aİ arasında kəskin geosiyasi rəqabət müşahidə olunur. Regionun əhəmiyyətinin səbəbləri sırasında qlobal geosiyasətdə cərəyan edən

mürəkkəb prosesləri və enerji amilini göstərmək olar. Çinin həmin bölgəyə sürətlə nüfuz etməsi fonunda digər böyük güclər də addımlar atmaqdadırlar. Mövcud vəziyyətdə region dövlətləri arasında ixtilafların güclənməsi riskini də nəzərə almaq lazımdır. Bunlar Mərkəzi Asiyanın geosiyasi əhəmiyyətinin yeni səviyyəyə yüksəldiyini göstərir.

ABŞ-ın Əfqanıstanda hərbi əməliyyatları davam etdirmək qərarına gəlməsindən sonra Mərkəzi Asiya regionunun qlobal geosiyasət üçün aktuallığı yeni səviyyəyə yüksəldi. Qeyd olunduğu kim, bu bölgə daim dünyanın böyük dövlətlərinin nüfuz uğrunda mübarizə məkanı olmuşdur. Hazırda həmin regionla əlaqədar mürəkkəb vəziyyətin yaranması məsələyə xüsusi məzmun verir. Burada ABŞ-dan əlavə bir neçə başqa geosiyasi oyunçuları da nəzərə almaq lazım gəlir.

İlk olaraq Çinin regional rolunun gücləndiyini qeyd etmək lazımdır. Rəsmi Pekin başqa böyük dövlətlərdən fərqli olaraq, Mərkəzi Asiya ölkələrinə enerji, iqtisadiyyat, maliyyə və mədəniyyət vasitəsilə nüfuz etməyə üstünlük verdi. Qısa müddət ərzində Çin həmin bölgəyə milyardlarla ABŞ dolları həcmində sərmayə yatırdı. Çin dilini indi regionun bütün ölkələrində öyrənirlər[1]. Mütəxəssislərin rəyinə görə, burada Çinin nüfuzu Türkiyə və İran kimi müsəlman ölkələrinin ənənəvi nüfuzundan belə yüksəkdir. Pekin üçün enerji nəqli məsələsi prinsipial əhəmiyyət daşıyır. Hazırda Mərkəzi Asiyadan bu ölkəyə qaz boru xətləri işləyir. Yeni enerji nəqli marşrutlarının çəkilməsi istiqamətində addımlar atılır. Bunlardan başqa, Çin şirkətləri bölgə dövlətlərində yeni iş yerləri açırlar ki, burada da əsasən çinlilər çalışırlar. Son zamanlar bölgə dövlətləri daha çox yerli işçilərin işlə təmin edilməsi tələbini irəli sürməkdədirlər. Bununla belə, bu, Pekinin regionda açdığı müəssisələrdə çin dilinin statusunu aşağı salmır.

Avropa İttifaqı (Aİ) həmin regionda öz varlığını ABŞ qədər geniş və dərin miqyasda nümayiş etdirə bilmir. Lakin ittifaqın Mərkəzi Asiyaya ikinci dərəcəli məkan kimi yanaşmaq niyyətində olduğunu demək olmaz. Aİ bölgədə öz mövcudluğunu hələlik daha çox ABŞ-ın liderliyi ilə təmin etməyə çalışır. Aİ ölkərinin getdikcə enerji istehlakına olan ehtiyacının artması, yəni enerji amili ittifaqın fəallığını artırmağa məcbur edir. Xüsusilə Ukrayna böhranı fonunda neftin qiymətinin düşməsi, Yaxın Şərqdə terror dalğasının yenidən vüsət alması vəziyyətin dəyişdiyini ifadə edir. Yaxın perspektivdə Aİ Mərkəzi Asiyanın enerji ehtiyatlarından istifadəyə daha çox maraq göstərəcəkdir. Burada müəyyən radikal qrupların Avropaya sızma ehtimalını da unutmaq olmaz. Şübhə yoxdur ki, ABŞ və Aİ bu problemin həllinə çalışacaqlar[1].

Nəhayət, Mərkəzi Asiya amilinə postsovet məkanı uğrunda Rusiya ilə Qərb arasında artıq daha da kəskinləşmiş mübarizə müstəvisində nəzər salmağa ehtiyac vardır. Ukrayna məsələsi bu prosesə xüsusi gərginlik verdi. Hazırda Qərbin sanksiyaları Rusiya iqtisadiyyatına böyük zərbələr vurur. Belə vəziyyətdə ABŞ-ın Mərkəzi Asiyada mövqeyinin möhkəmlənməsi ehtimalının az olmadığını demək olar. Çünki Rusiya iqtisadiyyatının üzləşdiyi problemlər rəsmi Moskvanın postsovet məkanı ölkələrində nüfuzuna mənfi təsir edir. Avrasiya İttifaqına daxil olan ölkələr özlərini təhlükəsizlikdə hiss edə bilmədiklərindən daha güclünün yanında olmaq qərarına gələ bilərlər. Bu baxımdan Mərkəzi Asiya dövlətləri yeni tərəfdaşlar axtarmağa çalışarlar.

Nəticə etibarilə, Mərkəzi Asiya hazırda böyük geosiyasi güclərin kəskin mübarizə məkanına çevrilmişdir. Tədricən onun şiddətlənməsi mümkündür. Burada böyük dövlətlərin bir-birinə güzəştə getmək istəməməsi yaranmış vəziyyətə xüsusi məzmun verir. Onu da nəzərə almaq lazımdır ki, Asiya getdikcə daha böyük miqyasda qlobal geosiyasətin təsiri altına düşür. Bu məkanda dünyanın taleyini həll edə biləcək proseslər gedir. Çinin məhz həmin bölgədə yerləşməsi və onun ABŞ-ın əsas rəqibinə çevrilməsi Mərkəzi Asiyanın əhəmiyyətini daha da artırır.

Son olaraq, ingilis yazıçısı R.Kiplinqin «Kim» romanında deyilirdi: «Hamı öldüyü zaman, yalnız bundan sonra «Böyük Oyun» başa çatacaq». Nə qədər ki, böyük dövlətlər, onların geosiyasi maraqları var, «Böyük Oyun» da davam edəcək. Ola bilsin ki, fərqli iştirakçılarla, fərqli templə.

## ƏDƏBİYYAT


1. Mərkəzi Asiya: geosiyasi dinamika və risklər. http://newtimes.az/az/geopolitics/3285/
2. Большая игра продолжается. http://www.nvspb.ru/tops/bolshaya-igra-prodoljaetsya-52352
3. Введение в прикладной анализ международных ситуаций / Под ред. Т. А. Шаклеиной. М.: Аспкт-Пресс, 2014. С. 198—216.
4. Виноградов П. В. «Деяние XII»//Yam-publishing, 2013.
5. Левицкий Л. «Большая игра»: ставка — будущее. http://www.russia-today.ru/article.php?i=232
6. Baku-Tbilisi-Ceyhan Pipeline.

http://web.archive.org/web/20140207061512/http://www.bp.com:80/sectiongenericarticle.do?categoryId=9006669&contentId=7015093

7. Brysac Shareen & Meyer Karl. Tournament of Shadows: The Great Game and the Race for Empire in Asia, Washington, D.C.: Counterpoint, 1999
8. Edwards Matthew «The New Great Game and the new great gamers: disciples of Kipling and Mackinder», Central Asian Survey 22(1), March 2003, p. 83-103
9. Fels Enrico. Assessing Eurasia's Powerhouse. An Inquiry into the Nature of the Shanghai Cooperation Organisation. Winkler Verlag, Bochum (Germany), 2009
10. Kleveman Lutz. The New Great Game: Blood and Oil in Central Asia, Grove Press, 2004 Mullerson Rein. Central Asia: A Chessboard and Player in the New Great Game, Columbia University Press, 2007

## РЕЗЮМЕ

**Зумруд Меликова**

**«Большая Игра» и геополитическое соперничество в центральной Азии**

Статья называется ««Большая Игра» и геополитическое соперничество в Центральной Азии». В статье рассмотрена и проанализирована суть «Большой Игры» и соперничество между Великобританией и Российской империей в Центральной Азии в XIX веке. После холодной войны началась «Новая Большая Игра» с новыми участниками и в более обширном пространстве. В статье также была проанализирована значимость региона и геополитическое соперничество великих держав в Центральной Азии после распада Советского Союза. А также показаны геополитические интересы США, Европейского Союза, Китая и России в данном регионе.

## ABSTRACT

**Zumrud Melikova**

**«The Great Game» and the geopolitical rivalry in central Asia**

The article is called ««The Great Game» and the geopolitical rivalry in Central Asia». The article describes and analyzes the essence of «The Great Game» and the rivalry between Great Britain and the Russian Empire in Central Asia, XIX century. After the Cold War began «New Great Game», with new members and in the wider area. The significance of the region and geopolitical rivalry between the great powers in Central Asia after the collapse of the Soviet Union is also analyzed in the paper showing the geopolitical interests of the US, European Union, China and Russia in the region.

NDU-nun Elmi Şurasının 30 mart 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 07).

Məqaləni çapa təqdim etdi: Tarix üzrə fəlsəfə doktoru, dosent Ş.Məmmədov

**ЛЯМАН КАРАЕВА**
*Бакинский Славянский Университет*
*karayeva@yahoo.com*

**УДК: 327**

# УЧАСТИЕ АЗЕРБАЙДЖАНА В ООН

***Açar sözlər:*** *beynəlxalq təşkilat, əməkdaşlıq, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, BMT-nin qətnamələri, qaçqın və məcburi köçkün problemi, təhlükəsizlik, BMT-nin ixtisaslaşmış qürumları*

***Keywords:*** *international organization cooperation, the Armenian-Azerbaijani Nagorno-Karabakh conflict, the UN resolutions, the problem of refugees and internally displaced persons, security, United Nations specialized agencies.*

***Ключевые слова:*** *международная организация, сотрудничество, Армяно-Азербайджанский Нагорно-Карабахский конфликт, резолюции ООН, проблема беженцев и вынужденных переселенцев, безопасность, специализированные учреждения ООН.*

В международных отношениях второй половины XX — начала XXI в. существенное место занимает деятельность Организации Объединенных Наций. В настоящее время ООН является крупнейшей международной организацией, учрежденной на основе добровольного объединения усилий суверенных государств в целях поддержания и упрочения мира и безопасности, а также развития международного экономического сотрудничества[9. с.96]. За прошедшие годы ООН зарекомендовала себя как универсальная организация, работающая во имя благородной цели – обеспечения международного мира и безопасности, установления дружественных отношений между странами и активизации международного сотрудничества.

Во внешней политике Азербайджана, ООН, членом которой он является, рассматривается как универсальная международная организация, имеющая особое значение.

2 марта 1992 года на 46-ой сессии Генеральной Ассамблеи ООН, была принята резолюция о принятии Азербайджана в эту организацию. Затем перед штаб-квартирой ООН в Нью-Йорке был поднят флаг Азербайджана, а 6 мая того же года в ООН стало действовать представительство Азербайджана. Далее началось всестороннее сотрудничество Азербайджана, как с ООН, так и в рамках этой международной организации со специализированными учреждениями.

Членство в ООН открыло перед Азербайджанским государством возможность укреплять свою независимость, более эффективно воспользоваться международными законами в борьбе против армянской агрессии, а также тесной интеграции в мировое сообщество.

Начало деятельности 6 мая 1992 года постоянного представительства Азербайджана при ООН сыграло важную роль с точки зрения доведения до мира правого дела нашей республики и формирования объективного международного общественного мнения, а также развития взаимоотношений с государствами мира[6. с.141-142].

Необходимость использования потенциала ключевой международной организации, являющейся несущим элементом современной мировой политики в мирном урегулировании Карабахского конфликта, возникла перед Азербайджаном с момента обретения страной своей независимости.

Азербайджанская Республика подняла перед этой организацией вопрос о недопустимости агрессии против независимой Азербайджанской Республики со стороны вооруженных формирований Армении и силового захвата последними территории другой страны. То обстоятельство, что Армения, оккупировавшая Нагорный Карабах, являющийся исконной азербайджанской территорией, захватила еще и близлежащие районы вызвало реакцию Совета безопасности ООН-были приняты 4 резолюции.

К сожалению резолюции ООН не всегда находят свое применение на практике. История принятия этих документов Советом Безопасности такова. Резолюция №822 принята 30 апреля 1993 года в связи с вторжением армянских сил в Келбеджарский район. Подтверждая уважение суверинитета и территориальной целостности всех государств региона, нерушимость международных границ и недопустимость применения силы для захвата территорий, Совет Безопасности потребовал «немедленного прекращения всех военных действий и враждебных актов в целях установления прочного прекращения огня, а также немедленного вывода всех оккупирующих сил из Кельбеджарского района и других недавно оккупированных районов Азербайджана»[23].

23 июля 1993 г. армяне оккупировали Агдамский район. Надо отдать должное оперативности Совета Безопасности ООН-29 июля он принял резолюцию №853, где подтвердил свое же решение от 30 апреля.

Вторая резолюция СБ ООН фактически повторила судьбу первой, а Азербайджан в августе 1993 г. потерял еще и Физули, Джабраил, Губадлы.

14 октября 1993 г. СБ принял очередную резолюцию №874, на которой на этот раз уже отсутствовало слово «требует» и на подтверждались факты оккупации Физули, Джабраил, Губадлы. Вместо этого имелось расплывчатое и безликое предложение о «серьезной обеспокоенности» в связи с перемещением большого числа гражданских лиц в Азербайджане[23].

Наступил ноябрь 1993 года. Жители еще одного района-Зангилана-встретили его в изгнании. 30 октября район был оккупирован вооруженными силами Армении.

Наконец 12 ноября СБ принял очередную, уже четвертую по счету резолюцию за №884, где подтверждались предыдущие резолюции, говорилось о полной поддержке мирного процесса, осуществляемого в рамках СБСЕ, серьезной обеспокоенности сохранением напряженности в отношениях между Арменией и Азербайджаном. С тревогой была отмечена эскалация «военных действий вследствии нарушений прекращения огня в ответ на эти нарушения в частности на оккупацию Зангеланского района и города Горадиза в Азербайджане[23].

Помимо того, в указанный период Генеральный секретарь ООН выступил с семью заявлениями, поддерживающими территориальную целостность и суверенные права Азербайджана. Но приходится с сожалением констатировать, что Совет Безопасности ООН, добившийся преодоления кризиса во время иракской оккупации Кувейта, событий в бывшей Югославии и Афганистане, до сих пор не проявляет жесткой реакции на невыполнение Арменией указанных резолюций.

Хотя все упомянутые резолюции остались лишь на бумаге, так и не были выполнены, азербайджанская сторона считает, что с принятием каждой из них мировым сообществом вырабатывался соответствующий график неотложных мер по Нагорно-Карабахскому урегулированию. Поэтому все они имеют определенное политическое и международно-правовое значение[16. с.262]

Конфликт между Азербайджаном и Арменией из-за Нагорного Карабаха, возникший на закате последних лет существования СССР и сыгравший заметную роль в активизации националистических и сепаратистских сил в Советском Союзе, не только продолжает омрачать межгосударственные отношения между Азербайджанской Республикой и Республикой Армения, но и представляет серьезную угрозу всему Кавказскому региону. К весне 1994 г. после широкомасштабных боевых действий армянским вооруженным формированиям удалось установить контроль не только над Нагорным Карабахом, но и прилегающими 7 азербайджанскими районами. Так называемые Бишкекские соглашения способствовали только прекращению активных боевых действий на линии фронта, но не привели к заключению полноценного мирного соглашения[4]. Именно с этого момента главной целью внешней и в значительной степени внутренней политики Азербайджана становится возвращение контроля над оккупированными территориями.

Азербайджан стремится использовать платформу ООН для того, чтобы привлечь внимание мировой общественности к проблеме Нагорного Карабаха. И хотя принятие четырех резолюций ООН не способствовало урегулированию конфликта, они все же создали необходимые политические условия для того, чтобы на международной арене армянская позиция в конфликте уже не выглядела столь «безупречной», как в момент начальной стадии противостояния.

Генеральный Секретарь ООН Б.Б. Гали по этому поводу выразил свое недовольство: «Если каждая этническая, религиозная или лингвистическая группа будет требовать государственности, то не будет конца дележу и будет очень трудно достичь мира безопасности и экономического благополучия»[22]. Впервые посетивший Баку Генеральный Секретарь ООН Б.Б. Гали в своем выступлении отметил, что резолюции ООН были приняты на основе четырех основных принципов: 1. Территориальная целостность Азербайджанской Республики. 2. Неприкосновенность границ Азербайджана. 3. Недопустимость применения силы для захвата территории. 4. На основе этих трех принципов немедленный вывод вооруженных формирований с захваченных территорий без каких либо условий[20.с.87]. А что касается участия миротворческих сил в Азербайджане Б.Б. Гали отметил, что имеется три варианта: 1. Прибытие в регион сил ООН. В этом случае миротворческие силы будут находиться под присмотром команды назначенной ООН. 2. Отправка в регион сил ООН. 3. Вариант примененный в Грузии- совместные усилия сил СНГ и наблюдателей ООН [21. с.604].

После заключения Бишкекского соглашения о прекращении огня в зоне Карабахского конфликта, азербайджанскому политическому руководству становится очевидно, что ООН не будет напрямую участвовать в разрешении конфликта, уступив первенство в этом вопросе Минской группе ОБСЕ. Возможно, тогда в Баку не ожидали, что деятельность последней затянется на долгие годы и фактически не будет способствовать урегулированию конфликта[4].

Как было отмечено выше в расширении сотрудничества между Азербайджаном и ООН значительную роль сыграл визит Генерального секретаря ООН Бутроса-Бутроса Гали в Баку в октябре 1994 года.

В последующем президент Азербайджана Гейдар Алиев принял участие на специальной торжественной сессии Генеральной Ассамблеи по случаю 50-летнего юбилея ООН, состоявшейся в октябре 1995 года. В своем выступлении на сессии он обнародовал позицию Азербайджана в Нагорно-Карабахском Армяно-Азербайджанском конфликте и призвал мировое сообщество принять действенные меры для прекращения агрессии со стороны Армении[2].

Территориальная целостность Азербайджана признана всем мировым сообществом, необходимость её восстановления подтверждена соответствующими резолюциями ООН и других международных организаций. В конце 2009 г. в Афинах на заседании ОБСЕ на уровне министров иностранных дел был принят документ по урегулированию данного конфликта[24] именно на основе территориальной целостности Азербайджана. В 1996 году Генеральная Ассамблея ООН в резолюции о сотрудничестве с ОБСЕ еще раз заявила о том, что поддерживает территориальную целостность Азербайджана. Годом позже, 28 июля 1997 года во время своего официального визита в США Гейдар Алиев встретился с новым Генеральным секретарем организации Кофи Аннаном. В беседе с президентом Азербайджана Кофи Аннан заявил, что ООН выступает за территориальную целостность страны, что Армяно-Азербайджанский Нагорно-Карабахский конфликт должен быть решен на основе принципов, выработанных на Лиссабонском саммите ОБСЕ.

На момент вступления в ООН страна находилась в состоянии открытого вооруженного конфликта. Сотрудничество с ООН заключалось преимущественно в оказании гуманитарной и финансовой поддержки Азербайджану, который столкнулся с наплывом беженцев и вынужденных переселенцев. Стране приходилось решать проблемы, связанные с обустройством не только собственных граждан, покинувших места своего постоянного проживания в результате оккупации азербайджанских районов, но и 186 тыс. этнических азербайджанцев, 18 тыс. курдов-мусульман и 4 тыс. русских, до начала конфликта компактно проживавших на территории Армении [17.с.15]. В целом, по данным Государственного комитета по работе с беженцами и вынужденными переселенцами Азербайджана, необходимо было заняться обустройством судьбы миллиона человек [18]. Поэтому неслучайно, что одним из первых подразделений ООН, с которым Азербайджан начал тесно сотрудничать, стал Верховный комиссариат по делам беженцев (UNHCR). Со своей стороны, в 1993 г. Генеральная ассамблея ООН, признавая тяжелую ситуацию, сложившуюся в Азербайджане с беженцами, на 85-ом пленарном заседании приняла резолюцию «Об оказании чрезвычайной международной помощи беженцам и вынужденным переселенцам в Азербайджане (A/RES/48/114)» [19]. Необходимость бесперебойного обеспечения беженцев продуктами питания подтолкнуло Азербайджан и к тесному взаимодействию с «Всемирной продовольственной программой ООН». В 1996 г. после обращения Г. Алиева в штаб-квартиру этой структуры «срок деятельности этой организации в Азербайджане в виде исключения был продлен до 2005 года», к 2008 г. она оказывала помощь 135 тыс. человек, но с началом мирового экономического кризиса и «нехваткой донорских средств… приостановила распределение помощи»[11].

Азербайджан также активно и полезно сотрудничает с другими специальными организациями и органами ООН. К их числу относятся: Программа Развития ООН (ПРООН), Детский Фонд ООН, Организация ООН по Образованию, Науке и Культуре, Организация по Развитию Промышленности, Всемирная Организация по Здравоохранению, Фонд Беженцев ООН, Международное Агентство по Атомной Энергии, Организация по Договору о Всестороннем запрете Ядерных Испытаний и др.

Одним из знаменательных событий в сотрудничестве Азербайджана с ООН является принятие Азербайджана в июле 2006 года в члены Совета ООН по правам человека[2].

Благодаря принципиальной позиции Генеральной Ассамблеи ООН 23-го ноября 2004 года в дневник 59-ой сессии был введен пункт под названием "Положение в оккупированных территориях Азербайджана" под номером 163[5. с.32]

На повестке дня 62-й сесси Генеральной Асамблеи ООН 39 голосами «за», при семи «против» и 100 воздержавшихся по инициативе делегации Азербайджана была принята резолюция «Положение на оккупированных территориях Азербайджана».

В резолюции отмечалось, что Генеральная Ассамблея призывает государства-члены уважать и поддерживать суверенитет и территориальную целостность Азербайджана в пределах его международно признанных границ. В нем подчеркивалась необходимость «немедленного, полного и безоговорочного вывода всех армянских сил со всех оккупированных территорий Азербайджанской Республики» » [7].

Резолюция подтверждала также «неотъемлемое право населения, изгнанного с оккупированных территорий Азербайджанской Республики, на возвращение в свои дома и подчеркивает необходимость создания надлежащих условий для этого возвращения, включая всеобъемлющую реабилитацию пострадавших от конфликта территорий» [7].

Соглашение о сотрудничестве с ЮНИСЕФ Президент Гейдар Алиев подписал в сентябре 1994 года, во время своего участия на сессии Генеральной Ассамблеи. Сотрудничество же между Азербайджаном и Детским Фондом ООН (UNICEF) было восстановлено с целью улучшения состояния детей и подростков вынужденных переселенцев и беженцев. В течение 1995-1997, 1998-2000 годов Азербайджан был членом исполнительного комитета UNICEF. Выступая на 65-й сессии Генеральной Ассамблеи ООН Президент Азербайджанской Республики Ильхам Алиев и отметил: «Азербайджан ценит основную роль, которую Организация Объединенных Наций играет в обеспечении международного мира и безопасности для народов мира, стимулировании устойчивого развития и продвижении фундаментальных свобод»[15].

В 1994 году по распоряжению Президента Азербайджанской Республики была учреждена Национальная Комиссия Азербайджана при ЮНЕСКО. Связи Азербайджана с ЮНЕСКО осуществляются с целью оказания содействия стране в развитии таких областей, как образование, наука и культура. Соответствующим распоряжением Президента Азербайджана в 1994 году создана национальная комиссия страны при ЮНЕСКО. В развитии связей Азербайджана с ЮНЕСКО, в их расширении и усилении незаменимую роль играет первая леди Азербайджана, президент Фонда Гейдара Алиева Мехрибан Алиева. В сентябре 2004 года за вклад в развитие традиционной музыки, литературы и поэзии, заслуги в области музыкального образования и обмена между культурами мира, проявленную преданность идеям ЮНЕСКО Мехрибан Алиева удостоена звания Посла доброй воли в области устных и музыкальных традиций.

В рамках модернизации экономики Азербайджан начинает сотрудничать с другими структурами ООН, в том числе и с Программой развития ООН, Международной организацией труда, Организацией ООН по промышленному развитию и др. [9.с.96–99]. Различные программы и проекты служат повышению жизненных стандартов, претворению в жизнь структурного регулирования экономики.

С целью открытия новых рабочих мест и развития экономики, ПРООН оказывает помощь правительству Азербайджана, чтобы обеспечить эффективное развитие и рост политических и других соответствующих мероприятий в частном секторе. По линии ПР ООН в Азербайджан в 1994-2001 годах поступило более 22 млн. долларов.

Как известно, МВФ следит за стабильностью мировой валютной системы страны, а Всеминый Банк готовит программы по обеспечению промышленного роста, экономического и социального прогресса развивающихся стран.

22 апреля 1992 года на совещании Исполнительного Совета в Вашингтоне Совет директоров рекомендовал принять Азербайджан в члены МВФ. 18 августа 1992 года президент Азербайджана А.Эльчибей подписал указ о вступлении Азербайджана в МВФ, МБРР и связанные с ним организации, а 19 августа был принят закон о проведении в жизнь конвенций и соглашений этих организаций в Азербайджане.

В конце 2001 года после принятия Милли Меджлисом бюджета на 2002 финансовый год МВФ подписал с правительством кредитную программу в 150 млн. долларов, выделяемую на льготных условиях под 0,5-1 процент годовых[20.с.2].

26 июня 2001 г. в Баку состоялось подписание двух кредитных соглашений о финансировании Всеминым Банком строительства магистрали Гянджа-Газах в объеме 40 млн. долларов и проекта реформирования здравохранения в объеме 5, 5 млн. долларов.

В настоящее время МВФ сотрудничает с Азербайджаном в новом формате. Теперь у фонда нет отдельного представителя по Азербайджану. А полномочия последнего Кобы Гвенетадзе истекли 9 октября 2009 года.

Азербайджан активно участвует в объявленной в сентябре 2000 года проекте ООН “Цели развития тысячелетия”. Так, выдвинутая государством в 2003-2005 годы Программа уменьшения бедности и экономического развития осуществлена с помощью Программы развития ООН.

Азербайджан, выдвигая своих кандидатов в соответствующие организации и органы, активно участвует в выборах в эти органы. Как было отмечено, Азербайджан был членом исполнительного комитета UNICEF в 1995-1997 годы, в 1998-2000 годы, Комиссии о Положении Женщин - в 2000-2002 годы и Комиссии по Продолжительному Развитию ООН - в 2002-2004 годы. Азербайджан был избран членом Экономического и Социального Совета ООН (ECOSOC) на 2003-2005 годы. Азербайджан также является основным спонсором принятой годовой Резолюции Комиссии "об освобождении женщин и детей, взятых в заложники в результате военных конфликтов".

Говоря о национальной концепции «Азербайджан 2020: Взгляд в будущее», заместитель министра экономики и промышленности Азербайджана Севиндж Гасанова выступая на конференции по утверждению правительством Азербайджана и ООН рамок партнерства на очередные 5 лет в сентябре 2014 года отметила, что основная политика в Азербайджане – развитие человеческого капитала. Резидент-координатор ООН Антониус Брук подчеркнул, что данный документ, охватывающий 2016-2020 годы, определит будущие стратегические приоритеты по трем сферам. «Первая сфера — укрепление экономического сотрудничества и увеличение рабочих мест в стране. Вторая — укрепление организаторского потенциала и предоставление эффективных общественных и социальных услуг, третья — управление в области окружающей среды и обеспечения устойчивости в противодействии стихийным и антропогенным бедствиям»[3].

Приоритеты, определенные в результате национальных консультаций по Рамкам развития Азербайджана после 2015 года, нашли свое отражение в Концепции развития «Азербайджан 2020: взгляд в будущее». Резидент-координатор ООН в Азербайджане Антониус Брук отметил, что нынешнее мероприятие внесет свой вклад в определение основных приоритетов очередного рамочного документа о сотрудничестве, а также его стратегических результатов. А.Брук призвал участников к активному участию в данном процессе[14].

Еще одним особым направлением взаимодействия Азербайджана с ООН, ориентированным на мирное урегулирование карабахского конфликта и доведение до мировой общественности информации о культурном наследии страны, которая часто воспринималась на Западе как армянская или иранская, становится активное участие в ЮНЕСКО. Именно в результате реализации этой политики летом 2004 г. как было уже отмечено, первая леди Азербайджана М. Алиева за «усилия в области сохранения и развития устной народной литературы и музыкального наследия Азербайджана была удостоена почетного звания Посла доброй воли ЮНЕСКО».

На наш взгляд, наряду с факторами, о которых говорилось выше и которые имеют право на существование, необходимо учитывать, что в Азербайджане прекрасно осознают, что даже в случае принятия той или иной резолюции ООН о ситуации на оккупированных территориях, добиться их выполнения будет невозможно. По этой причине для Азербайджана более предпочтительным является путь сосредоточения мирового общественного мнения на неурегулированности Карабахского конфликта, а с этой точки зрения, регулярное внесение на повестку дня ООН указанного выше документа создает прекрасную возможность обратить внимание членов организации на ситуацию в целом. Подтверждением сказанному является то, что в сентябре 2012 г. Азербайджан вновь заявил о том, что резолюция о «Соблюдении норм международного гуманитарного права и международных стандартов в сфере прав человека на оккупированных территориях Азербайджана» будет внесена на повестку дня 67-ой сессии Генеральной Ассамблеи ООН [10]. При этом примечательно, что благодаря использованию трибуны ООН, азербайджанская позиция практически в неискаженном виде начинает доходить и до части армянского общества[8], что вкупе с другими достижениями Азербайджана на мировой арене, в определенной мере, также может способствовать мирному урегулированию Карабахского конфликта.

Азербайджан поддерживает позицию ООН в вопросах борьбы с терроризмом, и принимает участие в структурах, созданных для координации усилий государств-членов в этой области.

После событий 11 сентября 2001 года Азербайджан присоединился к антитеррористическим мерам ООН. Азербайджанская Республика тесно сотрудничала с Комитетом ООН по борьбе с терроризмом и Санкционным комитетом по Афганистану. В октябре 2001 года Азербайджан принимал участие и в антитерростических операциях в Афганистане и направил свой воинский контингент для оказания помощи международным вооруженным силам по охране безопасности в Афганистане.

В октябре 2001 года Азербайджанская Республика присоединилась к Конвенции ООН по предотвращению финансирования терроризма. В мае 2002 года Президент Азербайджана Гейдар Алиев издал распоряжение о реализации резолюций Генеральной Ассамблеи ООН за № 1368, 1373, 1377, направленных на борьбу с терроризмом.

Наша Республика подписала 11 международно-правовых документов ООН в этой области. В мае 2006 года Азербайджан на три года стал членом Совета ООН по правам человека.

В сентябре достижения Азербайджана в реализации Целей развития тысячелетия, в частности, в сфере сельскохозяйственной и продовольственной безопасности, были отмечены наградой ООН «Юг-юг». Министр Иностранных Дел Э. Мамедъяров принял награду в Нью-Йорке в сентябре в рамках сессии Генеральной Ассамблеи.

В честь 70-летия ООН проведенного 24 октября 2015 года Баку также присоединился к акции «Окрась мир в голубой цвет». В этот день рождения ООН, 24 октября, наряду с другими выдающимися архитектурными строениями мира, Центр Гейдара Алиева в Баку после наступления темноты был подсвечен голубым цветом, который считается цветом ООН.

Одним из значимых достижений внешней политики страны является избрание Азербайджана в непостоянные члены Совета Безопасности ООН, что позволило еще больше сблизить позиции. В октябре 2011 года Азербайджан впервые в своей истории был избран непостоянным членом Совета Безопасности ООН.

Напомним, что Совбез ООН – это коллективный орган, в котором "делает погоду" пятерка постоянных членов. Само избрание Азербайджана в СБ является большим дипломатическим и политическим успехом страны.

Мы знаем, что из пятнадцати бывших советских республик, кроме России, унаследовавшей место постоянного члена Совбеза ООН от СССР, единственный, кто был прежде избран в состав СБ – Украина, которая, еще в советское время вместе с Белоруссией и СССР была "соучредителем" ООН. И это показатель растущего авторитета, а также, одновременно, того, что Азербайджан научился, увеличив свою экономическую мощь, трансформировать ее в достаточно прочные международные победы.

Азербайджан сыграл конструктивную роль в решении основных глобальных проблем, а также приложил усилия для выполнения принятых в свое время в ООН резолюций по Нагорно-Карабахскому конфликту. В период представительства Азербайджана в СБ на соответствующих заседаниях систематически поднимался вопрос о важности уважительного отношения к суверинитету, территориальной целостности и признанному на международном уровне принципу неприкосновенности границ государств[13].

В этом контексте организованные 30 мая 2012 года под постоянным представительством Азербайджанской Республики при Совете Безопасности ООН неформальные обсуждения на тему «Мирное разрешение споров и предотвращение конфликтов посредничество, судебное разрешение и справедливость( в рамках формулы «Arria») вызвали большой интерес. В мероприятии приняли участие страны-члены Совета, а также свыше 120 представителей других государств-членов ООН, Секретариата ООН, международных, межправительственных организаций, гражданского общества и научных кругов.

В течении двух лет Азербайджан дважды председательствовал в Совете Безопасности(в мае 2012 года и октябре 2013 года), организовав в этот период обсуждения по ряду важных тем и мероприятия высокого уровня.

Так 4 мая 2012 года под председательством президента Азербайджана Ильхама Алиева и при участии генерального секретаря ООН Пан Ги Муна состоялось заседание высокого уровня Совбеза ООН, на котором были проведены обсуждения на тему «Угрозы создаваемые террористическими актами международному миру и безопасности». В качестве итогового документа было принято заявление председателя Совета Безопасности. В заявлении были обсуждены все формы проявления терроризма и отмечена важность борьбы с терроризмом всеми средствами.

Второе председательство Азербайджана в СБ ООН также было плодотворным. 28 октября было проведено заседание на высоком уровне на тему «Укрепление партнерских связей между ООН и Организацией исламского сотрудничества(ОИС)». В этом заседании под председательством главы МИД Азербайджана Эльмара Мамедъярова, которое было проведено на эту тему впервые в истории Совета, приняли участие генсек ООН Пан Ги Мун и генсек ОИС Экмеледдин Ихсаноглу.

В заявлении председателя Совета Безопасности, принятом в качестве итогового документа заседания, было поприветствовано нынешнее состояние сотрудничества между ООН и ОИС, отмечена общая позиция двух организаций в вопросе укрепления этого сотрудничества, а также по вопросу урегулирования конфликтов на основе Устава ООН и решений Совета Безопасности [13].

Следует отметить успехи в вопросах, связанных с ситуацией на Африканском континенте, организацию консультаций с Африканским союзом и визит членов СБ ООН в Западную Африку (Либерия, Кот-де-Ивуар и Сьерра-Леоне и в регион великих африканских озер (Демократическая Республика Конго, Руанда и Уганда) [12].

Наряду с вопросами соблюдения принципов и норм международного права, верховенства закона, предотвращения и урегулирования конфликтов, защиты гражданского населения во время

конфликтных ситуаций, большое внимание страной уделялось в этот период также темам мирного процесса на Ближнем Востоке, в Афганистане.

В период председательства Азербайджана в Совете Безопасности было проведено 59 открытых и закрытых заседаний организации, приняты семь резолюций, три заявления председателя совета и 13 заявлений для прессы. Это позволило найти новых партнеров в таких регионах, как Африка и Латинская Америка, что открыло путь к новому сотрудничеству в экономической, политической , культурной, социальной и гуманитарных сферах [13].

Азербайджан стремится развивать свои связи с ООН, для внесения своего эффективного вклада в его деятельность, активно участвует в обсуждении выдвигаемых предложений. Азербайджан выступает за расширение состава Совета Безопасности, за то, чтобы СБ стал более ответственным и демократичным, был в состоянии оперативно реагировать на новые угрозы, риски и опасности XXI века, выработал действенный механизм для осуществления принятых резолюций.

Таким образом, взаимные связи, образовавшиеся со вступлением Азербайджанской Республики в ООН, пройдя путь интенсивного развития, превратились в многостороннее сотрудничество и сыграли важную роль в развитии Азербайджана как независимого государства, в том, чтобы он занял свое достойное место на международной арене. Одновременно, Азербайджан тоже внес свой вклад в эффективное функционирование данной структуры, защиту международного мира и безопасности.

## ЛИТЕРАТУРЫ


1. Азербайджан в рядах ООН www. lib.aliyev-haritage.orq
2. Азербайджан в рядах ООН 02.03.2015 www.1905.az/ru
3. Азербайджан и ООН утвердили рамки партнерства на очередные 5 лет 26.09.2014 http://ru.apa.az/finansy_azerbaydjana/azerbajdzhan
4. Аллахвердиев Р. Основные направления деятельности Азербайджана в ООН, связанные с мирным урегулированием Карабахского конфликта. Теория и практика общественного развития/Политические науки/ М. 2012 г. №12
5. Внешняя политика Азербайджана. Управление делами Президента Азербайджанской Республики. Президентская библиотека. 2010 г. http://www.programma.x-pdf.ru/16politologiya/393139-1
6. Гасанов А. Современные международные отношения и внешняя политика Азербайджана. Б. “Zərdabi LTD” MMC.2007.c. 504
7. Генеральная Ассамблея приняла резолюцию о положении на оккупированных территориях Азербайджана Центр новостей ООН 14.03.2008 http://www.un.org/russian/news/story.asp?newsID=9302#.V6R8PLiLTIU
8. Генеральная Ассамблея ООН и Армения. URL: http://www.lragir.am/russrc/politics26443.html (дата 15.10.2012)
9. Дамирли Ф. Сотрудничество Азербайджана со структурами ООН социально-экономического профиля Журнал международного права и международных отношений №2. 2008. с.96
10. Джафаров И. На 67-ой сессии ГА ООН обсудят ситуацию на оккупированных территориях Азербайджана URL:http//www.aze/az/news_na_67ya_sessii_82258 html(date 27.10.2011)
11. История Комитета http//www.azerbaijan.az/_StatePower/_CommitteeConcern_08_r (дата обращения 30.04.2010).
12. Кунина И.А. Генезис участия Азербайджана в ООН:основные направления. Международная научно-практическая конференция «Актуальные вопросы общественных наук: социология, политология, философия, история» (Россия, г. Новосибирск, 28 апреля 2014 г.)
13. Оруджев Р. Азербайджан отчитался за председательство в ООН/ «Зеркало» 7 января, 2014// URL:www.zerkalo.az/2014/azerbaydzhan-otchitalsya-za-predsedatelstvo-v-oon/
14. Разработанный на 2016-2020 годы новый документ о партнерстве будет документом стратегического партнерства между Азербайджаном и структурами ООН/www.azertag.az/ru/xeber 12.06.2014
15. Речь Президента Азербайджанской Республики Ильхама Гейдар оглу Алиева на 65-ой сессии Генеральной Ассамблеи ООН 23 сентября 2010 / www.president.az.
16. Чернявский С.И. Новый путь Азербайджана.М. 2002. с.262
17. Юнусов А. Азербайджан в начале XXI века: конфликты и потенциальные угрозы. Институт мира и демократии. Баку. 2007. С.245
18. Sosial problәmler. URL: www.refugees-idps-committee.gov.az/az/pages/18.html (дата обращения: 30.04.2010)

19. BMT və Azərbaycan http://www.azerbaijan/az/_WorldCommunity/_InterOrg/interOrq _01_a/html (дата обращения:22.03.2011)
20. Azərbaycan BMT ailəsində. Bakı: Azərnəşr, 2000. 345 s.
21. Əliyev H. Müstəqilliyimiz əbədidir. Çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. 28 kitabdan ibarətdir. II kitab, may, Bakı: Azərnəşr, 1997 604 s.
22. Dadaşova R.B. Atəşkəsdən sonrakı dövrdə BMT ilə əməkdaşlıq. Bakı Universitetinin Xəbərləri №3 Humanitar elmlər seriyası 2010
23. Azerbaidjan in the family of the United Nations. Baku 2000. p.328
24. Declaration adopted at OSCE Ministerial Council in Athens charts way ahead for dialogue on European security // The Organization for Security and Co-operation in Europe : 2009. December 2. URL: http://www.osce.org/item/41874

## XÜLASƏ

**Ləman Qarayeva**

**Azərbaycanın BMT-də iştirakı**

Azərbaycan Respublikası həm regional, həm də qlobal səviyyədə əməkdaşlığı genişləndirərək bir sıra beynəlxalq təşkilatlara, o cümlədən BMT-yə üzv olmuşdur. Azərbaycanın beynəlxalq aləmdə artan rolunu nəzərə alaraq məqalədə Azərbaycanın BMT-dəki fəaliyyətinin prinsipləri, təşkilata daxil olan andan mərhələ-mərhələ açıqlanır. Məqalədə həmçinin Azərbaycan ərazilərinin erməni silahlı qüvvələri tərəfindən işğalına dair BMT qətnamələri, qaçqın və məcburi köçkün problemləri də öz əksini tapmışdır.

Burada qeyd olunur ki, BMT-də üzvlük Azərbaycana erməni təcavüzkarlığı ilə beynəlxalq qayda və qanunlar əsasında mübarizə aparmağa, həmçinin dünya birliyinə inteqrasiya olunması üçün geniş imkanlar yaratdı.

BMT-nin ixtisaslaşmış qurumları ilə əməkdaşlıq iqtisadiyyat, mədəniyyət və bir sıra digər sahələrin inkişafına öz töhfəsini verdi.

Azərbaycan BMT-nin İnkişaf Proqramı, Beynəlxalq Əmək Təşkilatı, BMT-nin Sənaye inkişafına dair təşkilat və digər qürumları ilə əməkdaşlıq edir. Qaçqın və məcburi köçkün uşaqlarının və yeniyetmələrinin vəziyyətinin yaxşılaşdırılması istiqamətində Azərbaycan BMT-in Uşaq Fondu ilə əməkdaşlıq qurdu (UNİCEF).

Azərbaycanın YUNESKO ilə əlaqələri təhsil, elm və mədəniyyət sahələrinin inkişafına dəstək göstərir. Azərbaycanın BMT-nin Təhlükəsizlik Şürasında qeyri-daimi üzvlüyünə məqalədə xüsusi yer verilmişdir. Bu fəaliyyətin nəticələri obyektiv nöqteyi nəzərdən qiymətləndirilmişdir.

Universal beynəlxalq təşkilatdakı təcrübə və gələcək perspektivlər həm elmi, həm də siyasi cəhətdən qiymətləndirilmişdir.

## ABSTRACT

**Leman Garayeva**

**Azerbaijan's participation in the UN**

The Republic of Azerbaijan expanding cooperation at both the regional and global level has become a member of several international organizations including the UN. It is gradually revealed in the article the principles of Azerbaijan's participation in the United Nations since joining this organization taking into consideration the increasing role of the country in the international arena. The article also reflected issues such as the adoption of UN Security Council resolutions in connection with the occupation of Azerbaijani territories by Armenian armed forces, the problem of refugees and internally displaced persons. It is noted that with membership in the UN Azerbaijan opened up opportunities to combat the Armenian aggression with the help of international laws and rules, as well as the prospects for closer integration into the world community.

Cooperation with the UN specialized agencies has made a special contribution to the development of economy and culture, as well as a number of other sectors of the Republic of Azerbaijan. As part of the modernization of the economy Azerbaijan has been cooperating with such structures as the UN Development Program, the International Labor Organization, the United Nations Industrial Development Organization and others.

In order to improve the situation of children and adolescents of internally displaced persons and refugees the cooperation between Azerbaijan and the United Nations Children's Fund (UNICEF) was established. Azerbaijan carried out relations with UNESCO to promote the development of areas such as education, science and culture. An important place in the article is paid to the activities of the Republic of Azerbaijan as a non-permanent UN Security Council member. Experience and future prospects of participation of Azerbaijan in universal international organizations are analyzed from both the scientific and the political point of view.

NDU-nun Elmi Şurasının 30 mart 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 07).

Məqaləni çapa təqdim etdi: Tarix üzrə fəlsəfə doktoru, dosent Ş.Məmmədov

**MÜSLÜM NƏZƏROV**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
**NİZAMİ QULİYEV**
*Naxçıvan Dövlət Universiteti*

**UOT: 371**

# TƏHSİL FENOMENİ METODOLOJİ PLÜRALİZM MÜSTƏVİSİNDƏ

***Açar sözlər*:** təhsil, hermenevtika, semiotika, sistem, mədəniyyət, dəyərlər.
***Keywords:*** education, hermeneutics, semiotics, system, culture, values.
***Ключевые слова:*** образование, герменевтика, семиотика, система, культура, ценности.

Müasir dünyaya və onun dərki üsullarına tamamilə yeni yanaşmaya əsaslanan elmi paradiqmanın qərarlaşması dünya (təbiət) haqqında elmlərlə ruh haqqında elmlərin qar-şı-qarşıya qoyulması ənənəsindən imtina etməyə, idrakın subyekti ilə obyektinin qarşı-lıqlı münasibətlərinə tamamilə yeni müstəvidə yanaşmağa imkan verdi. Təhsilşünaslıq üçün bu, təhsili sosial subyektlərdən kənarda mövcud olmayan fenomen kimi, insanla-rın davranışında reallaşan intersubyektiv hadisə kimi nəzərdən keçirməyə əsas verdi.

Bu baxımdan təhsil sisteminin dəyişkən sosiomədəni mühitə adaptasiya etmək qa-biliyyətini aşkarlamağa imkan verən sistemli yanaşma bu gün də öz əhəmiyyətini sax-lamaqdadır. Təhsil sistemi üçün sistem nəzəriyyəsində alman sosioloqu N.Luman tərə-findən təklif olunmuş yeni paradiqmanın müstəsna əhəmiyyəti var. Özünün "Cəmiyyət sosial sistem kimi" adlı əsərində o, müasir cəmiyyətin sosial sistemini kompleks kom-munikasiya sistemi kimi nəzərdən keçirirdi. Onun yanaşmasında sistemin fəaliyyət me-xanizmində başlıca yeri "autopoyezis" anlayışı tutur [2]. Xatırladaq ki, bu anlayış elmi dövriyyəyə canlı orqanizmləri sistem kimi öyrənən Çili neyrobioloqları U.R.Maturana və F.H.Varela tərəfindən daxil etdirilmişdir. Autopoyetik sistemlər elə sistemlərdir ki, onlar öz elementlərinin şəbəkəsində təkcə öz strukturlarını deyil, həm də onların təşkil olunduğu elementlərin özünü də meydana gətirir. Elementlər sistemdən kənar mövcud deyil. Onlar bir-biri ilə qarşılıqlı bağlı olmaqla vahid bir tam təşkil edirlər. Bu element-lərin yaradılmasının yeganə üsulu onların sistemin özü tərəfindən meydana gətirilməsi-dir. Sistem elementlərinin təkrar istehsal prosesinin özü kommunikasiyadır. Məhz kom-munikasiya vasitəsilə özünü təkrar istehsal etmə sistemi ətraf mühitdən kənarda nəzər-dən keçirməyə imkan verir.

N.Lumanın paradiqmasının inqilabiliyi onda idi ki, klassik elm sistemlə ətraf mühitin qarşlıqlı əlaqələr mexanizmini izah edərkən sistemin kənardan təsir altında dəyişdiyini iddia edirdisə, yeni konsepsiya sistemin daxili məntiqi ilə müəyyən olunduğunu iddia edir. Ətraf mühitin təsir amillərini sistem öz canına çəkir və özünütəşkil sayəsində onu emal edir. Autopoyetik sistem sistemin fasiləsizlik və özünüyaratma kimi ən azı iki fundamental xassəsinin olmasını nəzərdə tutur. Belə autopoyetik sistemin əsas funksiyası həyat-qabiliyyətli modelləri yaratmaqdır. Realizmin plüralizm xüsusiyyətlərini aldığı şəraitdə təhsilin də əsas funksiyası sosiumun sağ qalmasını təmin edən həyata qabil modellərinin formalaşdırılması fəaliyyətidir.Təhsil canlı orqanizm olaraq varlığın dəyişdirilməsi,nəsildən nəsilə ötürülən sosisomədəni proqramların mənimsənilməsi əsasında ictimai münasibətlərin stabilləşdirilməsi amilidir. Bu səviyyədə təhsilin dəyişməkdə olan şəraitə uyğunlaşması, onun özünü təkrar istehsal etməsi mexanizmləri, onun nizamlılığın səbəb ləri üzə çıxarılır.

Sistem olan təhsil sosial quruluş konsepsiyası ilə bağlıdır və təhsilin fəaliyyət me-xanizmləri həmin bu konsepsiyadan asılıdır. Müxtəlif tarixi dövrlərdən və şəraitdən asılı olaraq təhsil sistemlərinin tipləri də fərqlənir. Fasiləsiz özünüyaratma prosesində artıq mövcud olan modellərdən istifadə etmək üçün təhsil yalnız öz tarixindən – özünüiden-tifikasiyadan yararlana bilər. İyerarxik olan ənənəvi təhsil sistemlərindən fərqli olaraq, informasiya cəmiyyətində təhsil sistemi "heterarxikdir", çünki burada sərt müəyyən olunmuş qaydalar yoxdur. Onun nüvəsini təhsil kommunikasiyaları təşkil edir [6,s.598]. Hər hansı qərar yalnız bu hal üçün (*ad hoc*) qəbul ediləcək və unikallığı qədər də unikal və təkrarolunmaz olacaq. Deməli, təhsil özinkişaf yoluna çıxacaq. Zənnimizcə, təhsilin özünüyaratma, özinkişaf yoluna qayıtması zəruri olaraq bu fenomenin əzəli məzmunu-nun bərpa edilməsinə gətirib çıxaracaq. Bu məzmun da sosiomədəni reallığın xüsusiy-yətləri ilə şərtlənmiş olacaqdır. Deyilənlər təhsilin plüralist xarakter aldığını iddia edə alimlərin [5,s.121-123] fikirlərini təsdiqləyir. Onun sərt unifikasiya edilməsi, pedaqoji konsepsiya və fəaliyyətin sərt standartlaşdrılması, monostrateji idarəetmə, inzibatçılıq və s. kimi hallar keçmişdə qaldı. Bir-biri ilə kommunikasiyada olan pedaqoji konsepsi-yaların sayı artır, təhsil müəssisələrinin, innovasiya praktikalarının, təlim proqramları-nın, metodikaların yeni formaları meydana gəlmişdir. Bu gün təhsil sistemi çoxlu sayda təhsil müəssisələrinin, konsepsiya və strategiyalarının kommunikasiya etdiyi və dəyiş-

kən sosiomədəni reallığa adaptasiya etmək üçün kommunikativ münasibətlərdə öz po-tensialını daima artıran açıq məkandır.

Bu cür başa düşülən təhsil artıq yalnız şərti olaraq sistem adlandırıla bilməklə auto-poyetik (autopoietic) sistemə aid edilə bilər. Təhsil sisteminə autopoyetik sistemlərin aşağıdakı xassələri səciyyəvidir:

• təhsil sisteminin komponent və altstrukturları koherent şəkildə bir-birinə qarş-lıqlı təsirlər göstərir;

• təhsil sisteminin sərhədləri var onun üçün mühit kəsb edən hədləri fərqləndirmək mümkündür;

• mərkəzi orqanın tam nəzarəti altında deyil və onun bəzi funksiyaları yerlərə verilmişdir;

• genetik mexanizmə analoji olaraq, özünün təkrar istehsal prosesində, inkişafında, daxilində dinamik proseslərin dəstəklənməsində, daxili nəzarətdə fəal iştirak edir;

• onun dinamikası İ.Priqojinin məşhur "flktuasiyadan strukturlara doğru" prisipinə uyğundur;

• özünənəzarət, özrefleksiya ideyasını nümayiş etdirir ki, bu da onun staqnasiya-sının və çökməsinin qarşını alır;

• öz daxilində altsistemlərə differensiasiyanı həyata keçirir;

• öz daxilində mürəkkəbliyin yaranması prosesində muxtarlığını nümayiş etdirir [1].

Müasir şəraitdə təhsildə sərt normativ göstərişlərin sayı azalır, nüfuzlu təşkilatların işlədiyi tövsiyələrin, standartların rolu artır. Təhsilin avtopoyetik sistem kimi nəzərdən keçirə biləcəyimiz tövsiyələrə misal olaraq Avropa Parlamenti və Avropa Birliyinin təh-sil və hazırlıq məqsədləri üçün Birlik çərçivəsində transmilli mobillik haqqında tövsiyə-lərini göstərmək olar. Nüfuzlu təşkilatların işlədiyi tövsiyələrin tətbiq praktikası göstərir ki, onlar təhsil iştirakçıları tərəfindən könüllü istifadə üçün nəzərdə tutulan bir davranış qaydası kimi yaradılmışdır. Bu sənədlər dövlət tərəfindən bəyənilməni tələb etmir və müəyyən müqavilə üzrə tətbiq olunması üçün nəzərdə tutulmuşdur,bir şərtlə ki, onun iş-tirakçıları öz münasibətlərini bu cür sənədlərə könüllü olaraq tabe etdirməyə razılaşmış olsunlar. Lakin təhsil iştirakçıları tərəfindən həmin bu tövsiyələrə könüllü əməl edilməsi təhsilin məzmununun təhsil iştirakçısının təhsilin ideyaları haqqında təsəvvürlərinə uyğun gəlməsini nəzərdə tutur. Deməli, təhsil dəyərləri arasında ziddiyyət də yalnız təhsilin, təhsil dəyərlərinin plürallığının hamılıqla tanınması şərtilə aradan qaldırıla bilər. Bizim fikrimizcə, təhsilin mütərəqqi inkişafı, dinamilkiyi təhsil sisteminin daxili rəngarəngliyinin artması ilə birbaşa əlaqəlidir. Bu, müxtəlif sistemlərin təkcə kənardan enerji, informasiya, maddə axınlarının daxil olması hesabına deyil, həm də öz daxili imkanların-dan istifadə hesabına inkişafa qabil olmasını iddia edən konseptual-metodoloji özünütəşkil ideyası ilə səsləşir. Lakin həm fərdi, həm də mədəni özünəməxsusluğun qorunub saxlanması hamının bunun üçün bərabər hüquqlarının olub-olmayacağından, hamının başqasının hüquqlarına, rəngarəng həyat formalarına hörmətlə yanaşıb-yanaşmayacağından asılı olacaqdır.

Təhsilin özü mahiyyətcə həmişə kommunikasiyaya - şagird və müəllim, tələbə və müəllim arasında kommunikasiyaya əsaslanır. Təhsil fenomeninin kommunikasiya ter-minləri ilə təhlili təhsili insanların qarşılıqlı təsirlər vasitəsi kimi nəzərdən keçirməyə imkan verir. Bu konsept geniş plüralist analizi mümkün edir, çünki kommunikasiya müxtəlif səviyyələrdə və müxtəlif formalarda baş verir. Təhsil sistemində təsbit edilmiş normalar deyil, kommunikasiya prosesləri önə çəkilir. "Kommunikasiya" anlayışı müxtəlif nöqteyi-nəzərləri diqqətə almağa və fikir mübadiləsinə çağırır. Belə yanaşma bizi birtərəfli təhlil və qənaətlərdən çəkindirməlidir.

Kommunikasiya problemi semiotika və hermenevtika ilə sıx bağlı olduğundan, təh-sil bu bilik sahələrinin prizmasında da araşdırırla bilər. Belə ki, təhsilə semiotik yanaş-maya görə, təhsil təhsil prosesində qarşılıqlı təsirlərdə olan subyektlərin mədəniyyət səviyyəsindən asılı olan müəyyən şərti məna daşıyan işarə, rəmzi sistemdir. Müasir dün-yada informasiya texnologiyalarının sürətli inkişafı elə bir cəmiyyətin yaranmasına gəti-rib çıxarmışdır ki, burada insanın həyatı konkret maddi obyekt və hadisələrdən çox, onların işarəvi-rəmzi inikasları ilə qarşılıqlı təsirlər üzərində qurulur[3]. Təhsil sfera-sında semiotika ideyalarından istifadə edən K.R. Piotrovskaya haqlı olaraq qeyd edir ki, təlim prosesi müəllimdən təlim alana işarə informasiyanın ötürülməsi prosesi olmaqla kommunikasiya-semiotika prosesinin xüsusi bir növüdür [4,s.242]. İstənilən sosial ha-disə kimi, təhsil də yalnız işarəvi forma aldıqdan sonra sosial mənada mövcudluq edir. Təhsil proqramları zəngin rəmzi sistemlər arsenalıdır. Təhsildə semiotik sistemlər insa-nın fəaliyyətə hazırlığı, sosiallaşdırma, təlim və tərbiyə vasitələri kimi çıxış edir. Təhsil gerçəkliyi insanlar tərəfindən şərh edilən və onların hakim mədəniyyətlə şərtlənən hərə-kətlərində təkrar istehsal edilən açıq sistemdir. Rəmzi sistem olan təhsil burada qarşılıq-lı təsirlərdə olan subyektlərin dəyərlərindən,təhsil mədəniyyətindən asılı olan şərti məna daşıyır. Bu sistemin şifrəsini açmaq vərdişlərinə mədəniyyəti mənimsəmək vasitəsilə yiyələnmək mümkündür, bu vərdişlərin inkişaf dərəcəsi isə təhsil işarələri, rəmzləri ilə əməliyyat aparan insanların mədəni səriştəliliyini xarakterizə edir. Mentallıqla şərtlənən təkrar istehsal prosesində təhsil gerçəkliyi daimi dəyişikliklərə məruz qalır. Qiymətlən-dirmə müşahidəçinin mövqeyindən və uzaq gələcəyi görmək imkanının məhdudluğun-dan asılıdır.Təhsilin relyativliyinin təzahürlərindən biri onun psixoloji aspektidir, çünki

mədəniyyət mikrosəviyyədə sosial-psixoloji hadisə və proseslərdə öz ifadəsini tapır. Semiotikanın inkişaf etdirdiyi bu ideyadan çıxış etməklə, qeyd etmək olar ki, təhsilin relyativliyi onun işarəvi təbiətə malik başqa sosial hadisələrə - siyasətə, iqtisadiyyata və s. (yəni başqa işarələrə) münasibətdə nisbiliyi deməkdir.

Təhsilin zahiri ifadəsi onun formasıdır, yəni yazılmış normativ aktlardır. Lakin mətndə təcəssüm etməkdən başqa, təhsil real həyatda, insanların şüurunda da əks olunur, ictimai həyatın bir çox sferalarına təsir göstərir. Təhsil gerçəkliyin çoxsəviyyəli işarə sistemidir. Onun elementləri arasında əlaqələr müxtəlif qanunauyğunluqlarla xarakterizə olunsa da, onların bir məntiqi var.

Təhsildə hermenevtika ideyaları aşağıdakı iki aspektdə istifadə etmək imkanı var: 1) tədris-pedaqoji fəaliyyətdə tələbə və müəllimlərin nitq və davranışının fəlsəfi dərki metodu kimi; 2) təhsilin humanitarlaşdırılmasına xidmət göstərən və milli və ümumbə-şəri mədəniyyət çərçivəsində şəxsiyyətin sosiallaşmasını həyata keçirən humanitar fən-lərin tədrisi prosesində mətnlərin şərhi metodu kimi. Şərhlərin münaqişəsi zamanı öz fi-krini müdafiə edən şəxsiyyət analitik və yaradıcı təfəkkür kimi zəruri keyfiyyət və vər-dişlərə, arqumentləşdirmək bacarığına, özünün haqsız olduğunu etiraf etmək bacarığına, çevikliyə, kommunikativ vərdişlərə yiyələnir. Bir sözlə, mükəmməl şərh münaqişəsi müstəqil sağlam şəxsiyyətin formalaşması üçün səmərəli şəraitdir. Əvvəlcədən bəlli olan düzgün şərh olduqda isə alternativ mövqedə olan tələbələr apriori yanlış mövqeədə olmuş olurlar.Nəticədə şəxsiyyətin inkişafına neqativ təsir göstərən "səhvə yol vermək" qorxusu yaranır.

Təhsildə hermenevtika metodunun tətbiqinin evristik potensialı ondadır ki, bu za-man təhsilin məzmunu keyfiyyətcə yeni məna almış olur. O, əzəldən verilməyib təhsil prosesinin subyektləri tərəfindən mətnin məna məzmununun axtarılması və açılması za-manı qarşılıqlı subekt-subyekt təsirlərinin gedişində yaradılır. Müəllimlə tədris fənni ar-tıq tələbə ilə qarşı-qarşıya deyil: onlar vahid tamda birləşmişdir. Bu zaman prioritet obyektiv biliyə deyil, subyektiv mənaya məxsusdur.

Ümumiyyətlə şərhetmə məsələləri və onlarla bağlı olan mətni anlama prosesi komp-leks metodoloji problemdir və onu təhsil fəlsəfəsi, təhsil sosiologiyası, məntiq, psixo-logiya və s. elmlər araşdırmalıdır. Bu mənada öz təbiəti üzündən məhz fəlsəfə təhsilin dərkində yeni imkanları tapmağa qadirdir.Təhsil haqqında danışan filosof istər-istəməz şərhçi rolunda çıxış etmiş olur, çünki təhsili şərh edib onun mədəniyyət sistemində ye-rini müəyyən edir.

Beləliklə,fənn mətnlərinin hermenevtik şərhi təhsil mədəniyyətinin əsaslı hissəsini təşkil etməklə təhsilin predmet sahəsini xeyli genişləndirməklə diqqəti anlama prosesinin öyrənilməsi üzərində, deməli,təhsil ənənələrinin formalaşdırılması üzərində cəmləşdirir.

Son illər işlənən zəruri müxtəliflik prinsipi də təhsilin öyrənilməsində böyük rol oynayır. Bu prinsipə görə,tarixi prosesin müxtəlifliyinin mütləqləşdirilməsi (O. Şpenq-ler, N.Danilevski, F.Toynbi) yolverilməzdir. Biz nəzəri-fəlsəfi əsaslarının H. Hegel, K. Marks, K.Yaspers və b. tərəfindən qoyulan vəhdət və müxtəliflik ideyasını dəstəkləyi-rik. Bu ideyaya əsaslanaraq qeyd etmək olar ki, daxili rəngarəngliklə səciyyələnən müx-təlif təhsil sistemləri bir-biriləri ilə qarşılıqlı təsirlərdə olmaqla təhsilin zənginləşməsinə səbəb olurlar. Başqa sözlə, təhsilin inkişafı birbaşa təhsil sisteminin müxtəlif xalqların və millətlərin mədəni inkişaf xüsusiyyətlərindən irəli gələn və tipik davranışlarda, təfəkkürdə s. özünü büruzə verən daxili rəngarəngliyinin artması ilə bağlıdır.

Deyilənləri ümumiləşdirərək, qeyd etmək olar ki, XX əsrin metodoloji örnəyi on-dan ibarətdir ki, təhsilin vahid şərhini, yeganə tərifini vermək elə də asan məsələ deyil. İnformasiya dövründə təhsil problemlərini hansısa bir metod çərçivəsində dərk edib şərh etmək mümkün olmadığından, onları araşdırarkən metodoloji plüralizmi rəhbər tutmaq lazımdır. Cəmiyyətin və şəxsiyyətin maraqlarına yönəlmiş təhsil kimi çoxaspektli bir hadisəni araşdırmağa yalnız rəngarəng metodların metodoloji sintezi imkan verə bilər. Təhsilin zənginliyi məhz kompleks yanaşmanın tətbiqi sayəsində açılır.

## ƏDƏBİYYAT


1. Веряев А. А. Семиотический подход к образованию в информационном обществе: диссертация ... доктора педагогических наук. – Барнаул, 2000. - 367 с.
2. Луман Н. Общество как социальная система. ЛОГОС. Москва 2004.
3. Мезенцева И. А. Семиотический подход к формированию информационно-аналитической компетенции будущего педагога[Электронный ресурс]//Социосфера: научно издательскийцентр:http://www.sociosphera. com/ publication/ conference /2012/138/semiotichesij_podhod_k_formirovaniyu_informacionnoanaliticheskoj_kompetencii_buduwego_pedagoga/.
4. Пиотровская К.Р.Базовые принципы построения методической теории обучения студентов-филологов математике и информатике//Известия Российского государственного педагогического университета им.А.И.Герцена.2005.№12.С.236-251.

5. Подгорецкий Ю.,Домбровска А. Социальная коммуникация: подходы к выявлению педагогического смысла понятия//Журнал Мир науки, культуры, образования. Выпуск № 5 / 2011. с. 121-123.
6. Шутенко А.И. Концепция самореализации студентов в условиях информатизации вузовского обучения//Современные исследования социальных проблем. Выпуск № 11 (55) / 2015. с. 595-604.

## ABSTRACT

**Muslim Nazarov**
**Nizami Guliyev**

**The phenomenon of education in the plane of the methodological pluralism**

The author believes that a single definition of education is impossible.Guided by metho- dological pluralism, the author emphasizes the need to study education with the use of a systemic method,methods,hermeneutics, semiotics, etc.,identifying the heuristic potential of these methods in the analysis of education. Approaching the education as a system and found that it has properties autopoietical system in which communicate a variety of institutions, concepts and strategies of education. Education in this sense is an open system, constantly improve their potential in a communicative relationship to adapt to the changing socio-cultural reality. Since education is an open system, is interpreted by the people, and reproducible in their actions due to culture, the author substantiates the necessity of use in the learning and achievements of semiotics. Application of the method of hermeneutics detects that the content of education is created in the course of interaction of subjects of education in the search and disclosure of the semantic content of the text.

## РЕЗЮМЕ

**Муслим Назаров**
**Низами Кулиев**

**Феномен образования в плоскости методологического плюрализма**

В статье автор исходит из того, что дать единственное определение образо-ванию невозможно. Руководствуясь методологическом плюрализмом, автор подчеркивает необходимость изучения образования с применением системного метода, методов герменевтики, семиотики и т.д., выявляя эвристический потен-циал этих методов в анализе образования. При подходе к образованию как к сис-теме, обнаруживается, что оно обладает свойствами аутопойетической системы, в которой коммуницируют множество учреждений, концепций и стратегий образо-вания. Образование в этом смысле представляет открытую систему, постоянно повышающую свой потенциал в коммуникативных отношениях для адаптации к меняющейся социокультурной реальности. Так как образование есть открытая система, интерпретируемая людьми и воспроизводящаяся в их действиях, обус-ловленных культурой, автор обосновывает необходимость использования в его изучении и достижений семиотики. Применение метода герменевтики обнаружи-вает, что содержание образования создается в ходе взаимодействия субъектов образования при поиске и раскрытии смыслового содержания текста.

NDU-nun Elmi Şurasının 30 mart 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 07).
Məqaləni çapa təqdim etdi: Fəlsəfə üzrə elmlər doktoru, professor M.Rzayev

**QƏDİR XƏLİLOV**
*Bakı Dövlət Universiteti*
*gadirkhalilov@yahoo.com*

**UOT 342.553:352**

# YERLİ ÖZÜNÜİDARƏ SAHƏSİNDƏ FƏALİYYƏT GÖSTƏRƏN BEYNƏLXALQ HÜQUQ NORMALARI

**Açar sözlər:** *beynəlxalq hüquq normaları, daxili qanunvericilik, beynəlxalq müqavilə öhdəlikləri, beynəlxalq hüquq normalarının prioriteti, konstitusiya, yerli özünüidarəetmə, Avropa Şurası*

**Keywords**: *international legal norms, domestic law, international treaty obligations, priorities for international legal norms, constitution, local self-government, Council of Europe*

**Ключевые слова:** *международно правовые нормы, внутренние законодательство, международно-договорные обязательства, приоритет норм международного права, конституция, местное самоуправление,* Совет Европы

Yerli özünüidarəetmə sferasında yaranan münasibətlərin sisteminə diqqət yetirərkən hüquq münasibətlərinin ağırlığı ön plana gəlir ki, bu da istənilən hakimiyyət üçün xarakterik olan məsələdir. Buradakı hüquq münasibətlərinin dinamikası o qədər yüksəkdir ki, ayrı-ayrı qanunvericilik sferalarının da əhatə edən hüquq sahəsi də bərqərar olmuşdur. Dövlət hakimiyyət münasibətlərinin həlledici tənzimetmə sahəsi olan konstitusiya hüququ eyni zamanda bələdiyyə hüququnun da formalaşmasına əhəmiyyətli bir əsasda təsir etmişdir. Konstitusiya yaradıcılığında ayrıca bir bloku formalaşdıran həm birbaşa, həm də dolayısı ilə bələdiyyə normaları qanunvericiliyin bütün sahələri ilə qarşılıqlı əlaqəyə malikdir. Sırf bələdiyyəçilik (onların təşkili və fəaliyyəti) problemin mahiyyəti yalnız həmin normalarla anlaşıla bilməz.

Dövlət hakimiyyətində olduğu kimi yerli özünüidarəetmə də şəxslərlə bağlı yarandığı üçün, onların özünüidarəetmə qurumu olaraq bir çox hüquq sahələri ilə, o cümlədən insan hüquqları, inzibati hüquqla, mülki hüquqla, cinayət hüququ ilə, beynəlxalq hüquqla və s. ilə hüquqi tənzimetmə kompleksinə daxil olur. Yerli özünüidarəetmə yerlərdə əhalinin həm yerli kütləvi (publik) hakimiyyətini (kollektivin hüququnu) qoruyursa, həm də orada yerli əhaliyə aid şəxslərin, o cümlədən vətəndaşların, vətəndaşlığı olmayan şəxslərin, həmin ərazidə fəaliyyətdə olan, yaşayan əcnəbi vətəndaşların hüquq və azadlıqlarını qorumaq funksiyasına malikdir. Dövlət hakimiyyətində olduğu kimi həm fərdi, həm də kollektiv hüquqların subyektlərinin maraqlarının təminatçısına çevrilir.

Yerli özünüidarəetmə orqanları bir tərəfdən, dövlət hakimiyyət qurumları ilə, digər tərəfdən isə müvafiq ərazinin əhalisi ilə sosial, iqtisadi, mədəni və s. hüquq münasibətlərinin iştirakçılarına çevrilirlər.

Dövlət kimi yerli özünüidarəetmə qurumları da əmlak, vergi, ekoloji təhlükəsizlik sferasında hüquqi tənzimetmənin subyektinə çevrilirlər. Beləliklə, yerli özünüidarəetmə ilə bağlı yaranan hüquq münasibətləri üçün ilkin xarakterik xüsusiyyət onların hakimiyyət münasibətləri sferasında birinci mərhələni formalaşdırmasıdır. Bu hüquq münasibətləri yerli əhali ilə onun özünüidarəetmə qurumları arasında yaranan ictimai (publik) münasibətin ilkin formasıdır.

Yerli özünüidarəetmə ilə bağlı hüquq münasibətlərini müxtəlif meyarlarla təsnifatlandırmaq olar. Şübhəsiz ki, bu münasibətlər üçün ilkin əlamət onların hakimiyyət xarakterli olmasıdır. Lakin bu hakimiyyət münasibətləri yerli ərazi başlanğıcına malikdir və yerli tarixi və d. adət-ənənəni ehtiva etmək məcburiyyətindədir. Yerli özünüidarəetmə üzrə hüquq münasibətləri üçün daha bir əlamət şaquli hakimiyyət münasibətinin olmamasıdır. Yerli özünüidarəetmə (dövlət hakimiyyəti üçün də xarakterik olan "ictimai müqavilə" nəzəriyyəsinə uyğun olaraq) yerli əhalinin kollektiv razılaşmasının məhsulu olduğundan tabeçilik institutu təzahür etmir. Tabeçilik münasibətinin olmamasını mütləq anlamda qəbul etmək olmaz. Yerli özünüidarəetmə yerli hakimiyyət olduğundan onun özünün hakimiyyət funksiyasını həyata keçirmək məqsədilə vəzifəli şəxslərinə, bələdiyyə qulluqçularına zərurət yaranır. Qanunvericilik qaydasında bu şəxslər üçün subordinasiya hüquq münasibətləri müəyyən edilib. Bələdiyyə orqanlarının qərarlarını yerinə yetirməmək və ya zəruri səviyyədə yerinə yetirməmək qanunvericiliyə uyğun olaraq məsuliyyət yaranmasına səbəb olur.

Digər hüquq sahələrində olduğu kimi yerli özünüidarəetmə hüququ ictimai münasibətlərin tənzimlənməsini müxtəlif üsul və vasitələrlə təmin edir. Ifadə etdiyimiz subordinasiya (imperativ) tənzimetmə metodu ilə bərabər, dispozitiv üsul da bu sahə üçün xarakterikdir. Bir sıra xüsusi (mülki) hüquq münasibətləri dispozitiv hüquq münasibətlərini də şərtləndirir. Yerli özünüidarəetmə orqanları hakimiyyət

funksiyası ilə bərabər təsərrüfat-əmlak münasibətlərinin də subyekti kimi çıxış edir. Bələdiyyə əmlakına sərəncam, istifadə və sahiblik üzrə əlaqələr koordinasiya metoduna əsaslanmaqla təmin edilir.

Yerli özünüidarəetmə hüquq normalarının təminat üsullarından biri də qadağan etmək (yolverilməzlik) metodudur. Bu metod vasitəsilə yerli özünüidarəetmənin hüquqlarının məhdudlaşdırılması, bələdiyyə orqanlarının, onların vəzifəli şəxslərinin digər dövlət hakimiyyət və başqa bələdiyyə qurumlarına tabe etdirilməsi qadağan edilir.

Yerli özünüidarəetmə hakimiyyətinin formalaşdırılması və fəaliyyəti müəyyən bir hüquq qaydasına əsaslanır. Bu hüquq qaydasında isə hüquqi tənzimetmənin çərçivəsini müəyyən edən prinsiplər, başlanğıc normalar fərqləndirilməli, bütün digər normativ mexanizm və institutlar onlara uyğunlaşdırılmalıdır. Hüquqi tənzimetmədə prinsiplərin rolu haqqında məsələ çox geniş formada müzakirə predmeti olmuş, onların əhəmiyyəti qeyd edilmişdir. Lakin yerli özünüidarəetmə ilə bağlı hüquqi tənzimetmənin prinsiplərinə xüsusi tədqiqat obyekti kimi çox az hallarda rast gəlinməkdədir. Xüsusən də, postsovet məkanında bu məsələnin araşdırılması həm nəzəri, həm də praktik baxımdan əhəmiyyət kəsb edir.

Yerli özünüidarəetmə hakimiyyətinin təşkilati və fəaliyyət prinsipləri müvafiq hakimiyyət institutunun ümumi hakimiyyət sistemində yerinin müəyyən edilməsinə, birbaşa demokratiyanın bərqərar olması səviyyəsinə təsir edir [1]. Yerli özünüidarəetmənin özünütəyinetmə vasitəsi kimi formalaşması onun fəaliyyətinin hüquqi əsaslarını formalaşdıran prinsiplərdən də müəyyən etmək olar.

Yerli özünüidarəetmənin prinsipləri dövlətin hansı ərazisində yaşamasından asılı olmayaraq vətəndaşların yerli özünüidarəetməyə bərabər hüququnun təminatı olan yerli özünüidarəetmənin demokratik konsepsiyasının örtüyü olaraq qiymətləndirilir [2].

Yerli özünüidarəetmənin prinsipləri qanunvericilik qaydasında müəyyən edilsə də bu prinsiplərin konkret bir sistemini izləmək mümkün deyil. Prinsiplərin sisteminin qanunvericilik qaydasında müəyyən edilməsi mümkün olmasa da onların hüquqi xarakterini müəyyən etmək problem yaratmamaqdadır. Bu prinsiplər yerli özünüidarəetmənin beynəlxalq və dövlətdaxili hüquqi təminatlarının özünəməxsus sistemini, onun struktur quruculuğunun nəzəri əsaslarını müəyyən edir [3].

Yerli özünüidarəetmənin prinsipləri həm beynəlxalq hüquq, həm də dövlətdaxili qanunvericilik qaydasında ifadə edilib. Avropa Şurası üzv dövlətləri yerli özünüidarəetmə sahəsində əsas sənədlərdən biri kimi 1985-ci il Yerli özünüidarəetmə haqqında Avropa Xartiyasında müvafiq prinsiplər nəzərdə tutulub [4].

Bu sahədə dövlətlərin beynəlxalq hüquq üzrə götürdüyü öhdəliklər məhz müvafiq prinsiplərin milli hüquqi implementasiyası bağlıdır. Dövlətlər bir sıra öhdəlikləri tədricən həyata keçirmək üzrə razılığa gəlmiş, bir sıra öhdəliklər isə ratifikasiya prosesi ilə ardıcıl olaraq yerinə yetirilmişdir. Yerli özünüidarəetmənin prinsiplərindən:

– yerli özünüidarəetmənin əsaslarının qanunvericilik (konstitusiya) əsasında tənzimlənməsi;
– yerli özünüidarəetmə üzrə beynəlxalq hüquq normalarının daxili qanunvericiliyə nisbətdə prioritetinin tanınması;
– insan hüquqları və əsas azadlıqların təmin edilməsi;
– yerli özünüidarəetmənin müstəqilliyi;
– yerli özünüidarəetmə hakimiyyətinin məhkəmə təminatı;
– yerli özünüidarəetmənin dövlət təminatı;
– qanunvericiliyə uyqun olaraq yerli özünüidarəetmə hakimiyyətinə nəzarətin təmin edilməsi;
– yerli özünüidarəetmə aktlarının məcburi hüquqi qüvvəsinin tanınması;
– yerli özünüidarəetmənin fəaliyyətinə qanundankənar müdaxilənin yolverilməzliyi;
– yerli özünüidarəetmənin fəaliyyətinin açıqlığı və onun yerli əhali qarşısında məsuliyyətli olması;
– yerli özünüidarəetmənin nümayəndəli hakimiyyət forması kimi tanınması;
– yerli özünüidarəetmənin maddi və maliyyə təminatı;
– yerli özünüidarəetmənin fəaliyyətində kollegial idarəetmənin təmin edilməsi və s. prinsipləri qeyd edilə bilər. Bu prinsiplər özləri də müxtəlif əlavə (subsidiar) prinsiplərə əsaslanmaqdadır və onların hər biri yerli özünüidarəetmə fəaliyyətində yaranan qanunvericilik problemlərinin həll edilməsində mühüm rol oynamaqdadırlar.

**ƏDƏBİYYAT**


1. Выдрин И.В. Муниципальное право России. М.2006, с.150
2. Шеремет К.Ф. Становление правовой базы местного самоуправления в Российской Федерации. Местного самоуправление: современный российской опыт законодательного регулирования. Учеб. пособие. Под. ред. К.Ф.Шеремета, И.И.Овчиникова. М. 1998, с.48

3. Пылин В.В. Основы и принципы местного самоуправления / Журнал российского права. 1999, №7/8 с.30-31
4. Куяенкова Щ.Ю. Европейские принципы государственного управления, перев. с англ., Киев, 2000, с.17 (98с.)

## ABSTRACT

**Gadir Khalılov**

**Norms of international acts in the field of local self-government**

The article notes the importance of regulation methods and principles of local self-government on the basis of international law and domestic legislation, emphasizes the necessity to research the right to local self-government in accordance with their systems. While the principles of local self-government established in accordance with the legislation it is not possible to observe systems specific to these principles. Systems of these principles changes depending on level of democratic development of the states, national customs and traditions and depending of other factors. Despite the fact that it is not possible to determine the order of the system of principles in legislation, it is not creates problems in determining their legal character. These principles define the theoretical basis of the structural construction of the local government, as a kind of systems of international and domestic legal provision.

## РЕЗЮМЕ

**Гадир Халилов**

**Нормы международных актов, действующие в сфере местного самоуправления**

В статье отмечается значении регулирования методов и принципов местного самоуправления на основе норм международного права и внутреннего законодательства, подчеркивается необходимость исследования право местного самоуправления в соответствии с их системами. Хотя принципы местного самоуправления установлены в законодательством порядке, не представляется возможным наблюдения конкретную систему этих принципов. Системы этих принципов изменяются в зависимости от уровня демократического развития государств, национальных обычай и традиций и в зависимости от других факторов. Несмотря на то, что не представляется возможным определить порядок систему принципов в законодательном порядке, не создаются проблемы при определения их правового характера. Эти принципы определяют теоретические основы структурного построения местного самоуправления, также своеобразную систему международного и внутреннего правового обеспечения.

NDU-nun Elmi Şurasının 30 mart 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 07).

Məqaləni çapa təqdim etdi: Fəlsəfə üzrə elmlər doktoru, professor M.Rzayev

**САБИНА ТАРВЕРДИЕВА**
*Бакинский Славянский Университет*

**UOT: 396.2**

## ТРАКТОВКА ЖЕНСКОГО ВОПРОСА В ЕВРОПЕ И НА ВОСТОКЕ

**Açar sözlər:** Şərq, Qərb, qadin, hüquq, gender.
**Key words:** East, West, female, right, gender.
**Ключевые слова:** Восток, Запад, женщина, право, гендер.

Женский вопрос занимал умы на протяжении веков, но так и остался без однозначного решения. Множества факторов, влияющих решению данного вопроса, делает его сложным. Трактовка женского вопроса меняется в зависимости от религиозных, социальных, финансовых, нравственно-психологических, общественно-политических составляющих. История гендерных взаимодействий, очень часто показывает картину, когда в зависимости от изменений ситуации, аспекты парадоксальным образом расходятся. Это зависит от географических, социальных, нравственных, религиозных аспектов постановки проблемы вообще. Отношение к женщинам формируется согласно физиологическим и идеологическим представлениям о роли женщины в обществе и в истории. Например: роль женщины-матери и женщины – как субъекта, имеющий социальный статус, понятия разные. Но биологический фактор рассматривается, как предназначение этой роли. Как отмечает Ненси Чодороу в своей работе «Воспроизводство материнства»: «Они считают аксиомой, что материнство женщины в его расширенном понимании социально, психологически и биологически естественно и функционально» (4. стр.21). Это касается вопроса места и значения женщины в доме, в семье и в обществе. Например, в Афинах на надгробиях умелых домохозяек изображали три символа: уздечку, намордник и петуха. Эти образы выражают больше, чем слова: покойная умела «держать в узде» служанок, «молчать в мужском обществе и вставать с первыми петухами» (1. стр. 215). Но ведь эти же качества высоко ценятся и на Востоке, где жена должна быть хорошей хозяйкой, матерью в первую очередь.

Религиозная составляющая определения роли женщины в обществе самая древняя, нередко вызывающая споры, особенно в мусульманских странах, и самая сильная, с точки зрения восприятия и соблюдения. Ибо экономические, географические, социальные факторы динамичные, т.е. меняющиеся, в то время, как религиозные базовые и статичные. Но следует отметить, что данная сторона вопроса требует определенных разъяснений, так как в современном мире много стереотипов, которые мешают правдивому толкованию многих важнейших моментов. Так, например, права и обязанности женщины в Исламе обсуждается очень бурно и в большинстве случаев субъективно. Если анализировать и сравнивать постановку женского вопроса в религии и в Исламе, и в Христианстве, то и здесь особых различий не увидим. «Целомудрие, смирение, скромность, умеренность, молчание, трудолюбие, милосердие, опека: эти слова звенели в женских умах в течении многих столетий: произнесённые проповедником в церкви, повторенные в семье, прочитанные в книге, написанные для женщин» (2. стр. 108). Смирение, кротость и поведение – вот что требовалось от женщины от имени Бога и от имени мужей, отцов и сынов. Все те же самые качества перечисляются в Коране, когда говорится о положительных женских качествах. Современный мир показывает весь спектр развития мусульманских женщин на разных стадиях. Например, Азербайджанская женщина имеет право голоса, образования с 1920-х годов XX века. В то время как некоторые мусульманские страны не торопятся признать и принять права женщины. Поэтому однозначно судить о положении мусульманских женщин в мире не представляется возможным.

Одним из воздействующих факторов, который также играет немаловажную роль, это географические и социальные факторы. Так, например, род деятельности городской жительницы или деревенской женщины были разной. Однако, неизменным оставалась ситуация с отношением к женскому труду, к восприятию женской трудовой деятельности и вообще, поля действия Женщины в ее глобальном значении. Первоочередным полем действий для женщины оставался «Дом», в его генеральном значении. Эта сфера деятельности было основным

приемлемым видом деятельности. Это было обязанностью женщины в семье. Но если горожанка была заключена именно в эти рамки, то деревенская женщина могла, а во многих случаях и должна была выходить за рамки границ, проведенных для женщин. Самое интересное в этой ситуации то, что данное отношение типично и для Европы, и для Востока. То есть и для европейской женщины, и для восточной были определены рамки тех границ, которые «назначались» мужчинами. Этот аспект не меняется и по сей день. Например, если рассмотреть быт Азербайджанской женщины XV-XVIII веков, то увидим картину по своей сути очень похожую на быт и уклад среднестатисческой женщины в Европе того же периода. Она была подключена ко всем процессам внутри дома. Это было ее прямой обязанностью и этому готовили ее с самого рождения.

Еще одним основополагающим фактором, которые имели воздействие к изменениям границ поля действий женщин, была экономическая составляющая. В зависимости от экономического состояния, положение женщин менялась. Так, например, крестьянка не только могла, но и должна была работать вне дома. В то время как женщина из богатой семьи могла управлять только лишь внутри. Причем и в Европе, и на Востоке, а в частности и в Азербайджане, женская территория в доме находилась во внутренней части «Дома», ограждалась от «внешнего мира». Выход за рамки этих границ был возможен лишь в экстренных случаях. Н.Д.Крючкова отмечает: «Работа вне дома указывала на неспособность мужа или отца прокормить семью. Естественной «карьерой» и предназначением женщины, безоговорочно признаваемыми обществом, было замужество. И если признания многих юридических прав женщины добились уже во второй половине XIX в., то победить стереотипы было сложнее» (3,стр.319). В постановке вопроса ситуация менялось согласно тому, какое семейное положение у женщины: при живом муже, опекуне или вдова. И каждый раз во всех ситуациях ссылались на мужскую опеку. Именно, учитывая этот фактор, можно предполагать, что незамужние или же без опекунства вдовы находились в более выгодных условиях, чем замужние. Но самым парадоксальным является тот фактор, что вдовы имели относительную свободу по сравнению с другими женщинами. Они могли самостоятельно вести дела, руководить хозяйством. Со смертью мужа влиятельные дамы обретали также юридическое право ведения дел. Но при этом они не имели право на набор рабочих, а без найма продолжить дело было очень трудно. Олуэн Хафтон в своей работе «Женщины, труд и семья» отмечает, что например, в Англии и Голландии женщины могли после смерти мужа сохранить типографию, только с тем условием, что за печатным станком будет стоять мужчина. Этого требовали закон. Или в Женеве вдова часовщика могла продолжить работу с тем условием, что могла изготавливать только детали и гравировку корпуса. На остальное она не имела права. «В целом необходимость компенсировать труд мужа за счёт найма заменяющего его работника, вероятно лишало около 90% вдов ремесленников возможности продолжать семейный бизнес в полном объеме» (2,стр.57). Если с одной стороны вдовы имели возможность вести самостоятельные дела без опекунства, с другой стороны не было той моральной защиты, которая было бы у женщины в качестве мужа. Общественное обсуждение было даже сильнее, чем юридические ограничения. Соблюдение этих границ тоже было обязанностью женщины, в то время как определение границ сложилось веками мужчинами.

Если рассмотреть современную историю эмансипации женщин, то увидим, что даже на сегодняшний день попытки ограничения деятельности женщин сохранили свою актуальность. В развитых странах это происходит на глубоком нравственно-психологическом уровне, в то время как в странах третьего мира данный аспект является основополагающей. Если провести параллели и сравнивать положение женщин в Европе и на Востоке, можем прийти к такому неутешительному выводу, что основной причиной неравенства женщин нужно искать не в видимых географических, экономических аспектах, которых можно исправить или поменять, а на более глубоком историко-психологическом и нравственном пласте. Вне зависимости от географических, социальных аспектов, Женщина с ее «непонятным» Миром, с ее историческим «грузом» обязанностей и борьбой за права, остается «другой»в системе идентификации общества.

## ЛИТЕРАТУРА

1. Е. Вардиман «Женщина в древнем мире». Москва. «Наука». Главная редакция восточной литературы. 1990. 335 стр.
2. История женщин, II том «Молчание Средних веков». Под редакцией Кристиан Кланиш-Зубер Санкт-Петербург. Алатейя .2009.
3. Н.Д.Крючкова "Светское общение как средство самореализации аристократок в средневикторианской Англии" Гендер и общество в истории Алатейя-2007.стр.319
4. Ненси Чодороу "Воспроизводство материнства" Москва, РОССПЭН, 2006,.
5. Мартина Сонне., Забота об образовании девочек // «История женщины на западе: Парадоксы Возрождения и Просвещения». Санкт- Петербург: Алатейя, 2008, т.3, глава IV.

## XÜLASƏ

**Tarverdiyeva Səbinə**

**Avropa və Şərqdə qadin hüququnun traktokası**

Məqalədə Şərq və Qərb kontekstində qadın hüququ məsələləri təhlil olunmuşdur. Tarixi faktorların fonunda paralellər aparılmış, qadin fəaliyyətinin sərhədlərinin müəyyənləşməsində sosial-ictimai, mənəvi, psixoloji, fəlsəfi amillər əksini tapmışdır. Göstərilmişdir ki, həm Şərqdə, həm də Qərbdə və Avropada cəmiyyət müəyyən inkişaf mərhələsindən keçməsinə baxmayaraq, qadın hüququ məsələlərində böyük uğurlardan danışmaq hələ tezdir.

## ABSTRACT

**Tarverdiyeva Sabina**

**Interpretation of woman`s right in Europe and East**

Issues of woman`s right in the context of East and West were analyzed in the article. Parallels have been carried out against the backdrop of historical factors, social-public, spiritual, psychological, philosophical factors reflected determination of the boundaries of the woman. Are shown that but in the East, also in the West and Europe although passage society from a certain stage of development, speak about big lucks is too early in issues of woman`s right.

---

NDU-nun Elmi Şurasının 30 mart 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 07).

Məqaləni çapa təqdim etdi: Fəlsəfə üzrə elmlər doktoru, professor M.Rzayev

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2017, № 2 (83)**

NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2017, № 2 (83)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2017, № 2 (83)**

# İQTİSADİYYAT

**AĞARZA RÜSTƏMOV**
**BƏHRAM HƏSƏNOV**

**UOT: 330.1**

## AZƏRBAYCANIN REGİONAL İNKİŞAF SİYASƏTİ VƏ REGİONAL İNKİŞAFIN TƏNZİMLƏNMƏSİ ZƏRURİLİYİ

***Açar sözlər***: *Region, dövlət tənzimlənməsi, sahə siyasəti, regionlararası infrastruktur, Dövlət proqramları, ərazi bərabərləşdirilməsi*
***Key words:*** *region, state regulation, area policy, regional infrastructure, state programs, territorial equalization*
***Ключевые слова:*** *регион, государственное регулирование, отраслевая политика, межрегиональная инфраструктура, Государственное программы, территориальное уравновешивание*

Bazar iqtisadiyyatı şəraitində sosial-iqtisadi inkişaf problemlərinin həlli iqtisadiyyatın regionlar üzrə təşkilinin həyata keçirilməsi zərurətini doğurur. Bu baxımdan respublikamızda da həyata keçirilən iqtisadi islahatların demək olar ki, hamısı regional iqtisadiyyatla bağlıdır. Son illərdə Azərbaycanda əsaslandırılmış regional siyasət aparılması, regional iqtisadiyyatın dovlət tənzimlənməsi və idarə olunması məsələləri həm nəzəri-metodoloji, həm də praktiki baxımdan xususi aktuallıq kəsb etməyə başlamışdır. Bunun əsas səbəbi ölkəmizdə demokratik cəmiyyət quruculuğunun inkişafı və dünya iqtisadi sisteminə inteqrasiyanın güclənməsi ilə əlaqədar olmuşdur.

Demokratik cəmiyyətin tələblərinə uyğun olaraq regional siyasət, regional inkişafın tənzimlənməsi və idarəetmə sisteminin təkmilləşməsi hazırda ölkəmizin qarşısında duran muhum vəzifələrdən biridir. Bu vəzifə, bir tərəfdən Azərbaycanda demokratik dövlət quruculuğu, dövlət ərazi idarəetmə sisteminin inkişafı ilə, digər tərəfdən isə regionların inkişafında olan fərqlərlə bağlıdır.

Regional iqtisadiyyatın dövlət tənzimlənməsi və idarə olunması ilə əlaqədar nəzəri-metodoloji məsələlərin respublikamızın şəraitinə uyğun tədqiq edilməsi və öyrənilməsi xüsusilə vacibdir. Bu, birinci növbədə ondan irəli gəlir ki, ölkə ərazisi özünün təbii-iqtisadi zənginliyi ilə fərqlənir. İkincisi, ərazinin ayrı-ayrı inzibati və iqtisadi rayonları təbii imkanlarına, istehsalın ixtisaslaşmasına, nəqliyyat-coğrafi şəraitinə, əhalinin istehsal təcrübəsinə görə fərqlənir. Üçüncüsü isə respublikada xalq təsərrüfatının nisbətən mürəkkəb ərazi strukturunun formalaşması olmuşdur. Bütün bunları nəzərə alaraq, səmərəli regional siyasətin, regional iqtisadiyyatın dövlət tənzimlənməsi və idarə olunması mexanizminin işlənib-hazırlanması və həyata keçirilməsi məqsədəuyğundur.

Regional inkişafı müxtəlif formalarda idarə etməyin, müxtəlif siyasət tədbirlərinin köməyi ilə stimullaşdırmağın mümkün olduğu qənaətinə gəlinmiş, regional siyasət anlayışının mahiyyəti açıqlanmış, onun məqsəd və vəzifələri, prinsipləri müəyyənləşdirilmişdir. Əsaslandırılır ki, regional inkişafın idarəolunması formaları dövlətin müxtəlif istiqamətlərdə fəaliyyəti ilə bağlıdır və bunları üç qrupa ayırmaq olar:

- ümumi transfertlər və subsidiyalar. Bu transfertlərin məqsədi regionların vergi bazaları arasında olan obyektiv fərqin müəyyən dərəcədə tarazlaşdırılmasıdır. Bu tip siyasət ölkədə büdcələrarası münasibətlər sisteminin bir hissəsini təşkil edir;
- sahə siyasəti (təhsil, səhiyyə, sosial xidmətlər, infrastruktur və s.). Bu sahədə proqramlar bütövlükdə ölkəni əhatə edir. Belə siyasət investisiya xərcləri ilə yanaşı (infrastruktur obyektlərinin yaradılması üçün), çox vaxt cari xərclərin də maliyyələşdirilməsini nəzərdə tutur;
- regional iqtisadi siyasət. Belə siyasət sahəcə kiçik və xüsusi müəyyənləşdirilmiş ərazilərlə məhdudlaşdırılmış olur və onların böhran vəziyyətində olduğunu göstərən meyarlar əsasında müəyyənləşdirilir. Belə siyasətdə başlıca məqsəd geri qalmış regionların iqtisadi bazasının inkişafına yardım etməkdən ibarətdir.

Müasir regional tədqiqatlarda ön planda regional siyasət məsələlərinin öyrənilməsi durur. Regional siyasətin prioritet vəzifələrini aşağıdakı kimi müəyyənləşdirmək olar:

İqtisadi islahatların inkişafına və dərinləşməsinə yardım etmək, regionda və ölkədə əmtəə, əmək və kapital bazarlarının, institusional və bazar infrastrukturunun formalaşması və inkişafına yardım etmək;

- regionların sosial-iqtisadi inkişafındakı dərin fərqlərin azaldılması, iqtisadi bazasının möhkəmləndirilməsi üçün şəraitin yaradılması, əhalinin rifah halının yüksəldilməsi, məskunlaşma sisteminin rasionallaşdırılması;

- regionların təsərrüfat strukturunun düzgün iqtisadi və sosial komplekslilik və rasionallıq səviyyəsinə nail olunması;
- regionlararası infrasitruktur (nəqliyyat, rabitə, informatika və s.) sistemlərinin inkişafı;
- ekoloji fəlakət rayonlarına, işsizlik, demoqrafiya və miqrasiya problemlərinin kəskin olduğu regionlara dövlət yardımının edilməsi;
- regionların xarici bazara çıxış imkanlarının genişlənməsi, ixrac fəaliyyətinin yeni səmərəli istiqamətdə formalaşması;
- keyfiyyətli və rəqabət qabiliyyətli məhsullar istehsalının genişləndirilməsi və bu yolla region əhalisinin tələbatının ödənilməsi səviyyəsinin yüksəldilməsi.

Regional inkişaf problemi iqtisadi ədəbiyyatlara daxil olan dövrdən bu günədək regionların kompleks inkişaf etdirilməsi və onun tənzimlənməsi ilə bağlı çoxlu fərqli fikirlər meydana gəlmişdir. Bu fərqlilik xüsusilə regional bərabərzisliklər, onların səbəbləri və aradan qaldırılması yolları ilə bağlı olmuşdur. Xüsusilə, bərabərsizliyə perespektiv yanaşmalarda aşağıdakı üç istiqamət fərqlənir:

- birinci istiqamətə görə regionlararası bərabərsizlik zaman keçdikcə azalacaqdır. Çünki sosial-iqtsadi inkişaf əvvəl-axır öz-özünə ölkənin bütün səthinə yayılacaq və geri qalmış regionlar da inkişaf edəcəkdir;
- ikinci istiqamət belə hesab edir ki, bu bərabərsizlik zəif inkişaf etmiş ölkələrdə getdikcə artacaq, inkişaf etmiş ölkələrdə isə azalacaqdır;
- sonunculara görə, regionlararası bərabərsizliklər dövlət müdaxiləsinin məhdud olduğu ölkələrdə getdikcə dərinləşəcək.

Lakin ortada bir fakt var ki, regionlararası kəskin bərabərsizlik zərərli daxili və xarici miqrasiya, süni şəhərləşmə, hədsiz infrastruktur yüklənməsi, ekoloji çirklilik, hətta regional separatçılıq kimi prosseslərlə nəticələnir ki, bu da bütövlükdə ölkəyə çox baha başa gələ bilər. Bununla yanaşı, ən mühüm məsələ ondan ibarətdir ki, müasir hüquq sistemləri ölkənin bütün vətəndaşlarının hüquq bərabərliyini təmin etməyə çalışdığı halda regional disproporsiyalar iki mühüm istiqamətdə bu prinsipi pozur:

- iqtisadi hüquqlar: Belə ki, müxtəlif ərazilərdə fərdlər istər işlə təmin olunma, istərsə də eyni işə görə eyni əmək haqqı almaq hüquqlarını bərabər səviyyədə reallaşdıra bilmirlər;
- sosial hüquqlar: Bu müxtəlif regionlarda yaşayanların səhiyyə, təhsil və mədəni xidmətlərdən eyni dərəcədə istifadə edə bilməmələri kimi başa düşülür.
- bütün göstərilənlər nəzərə alınmaqla II dünya müharibəsindən sonra regional inkişafın dövlət tərəfindən tənzimlənməsi zəruriliyi artıq bütün sənayeləşmiş ölkələrdə qəbul edilmişdir. Lakin həmin dövrdən bu vaxta qədər inkişaf edən regional siyasət nəzəriyyələri müxtəlif regional siyasət modelləri irəli sürmüşdür.

Bazar iqtisadiyyatına keçidin indiki mərhələsində iqtisadiyyatın dövlət tənzimlənməsi məsələlərini tədqiq edən alimlərin çox hissəsi qeyd edirlər ki, dövlətin regional və sahə siyasəti olmadan bu dövrdə yeniləşməyə nail olmaq mümkün deyildir. Keçmiş sosialist ölkələrindən olan iqtisadçıların əksəriyyətinin fikrincə bu mərhələdə dövlətin rolu daha da çoxdur, daha genişdir.

Azərbaycan Respublikası regionlarının inkişafı ölkədə uğurla həyata keçirilən davamlı sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsidir. Regionların inkişafı sahəsində qəbul edilmiş və uğurla həyata keçirilmiş dövlət proqramlarında, habelə regionların sosial-iqtisadi inkişafına dair əlavə tədbirlərlə bağlı sərəncamlarda nəzərdə tutulmuş vəzifələrin icrası ölkədə qeyri-neft sektorunun davamlı inkişafına, regionlarda kommunal xidmətlərin və sosial infrastruktur təminatının keyfiyyətinin yüksəldilməsinə, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına, investisiya qoyuluşunun artmasına, yeni müəssisələrin və iş yerlərinin açılmasına, nəticədə əhalinin məşğulluğunun artırılmasına və yoxsulluq səviyyəsinin azaldılmasına təkan vermişdir.

Dövlət proqramlarının icra olunduğu 12 il ərzində ümumi daxili məhsul 3,2 dəfə, o cümlədən qeyri-neft sektoru 2,6 dəfə, sənaye 2,7 dəfə, kənd təsərrüfatı 1,5 dəfə, investisiyalar 6,5 dəfə, əhalinin gəlirləri 6,5 dəfə, orta aylıq əməkhaqqı 5,5 dəfə artmışdır. Bu müddətdə həyata keçirilmiş məqsədyönlü tədbirlər nəticəsində ölkədə 900 mini daimi olmaqla 1,2 milyondan çox yeni iş yeri, 55,6 min müəssisə yaradılmış, işsizlik 5 faizə, yoxsulluq səviyyəsi isə 5,3 faizə enmişdir. Dövlət proqramları çərçivəsində görülmüş genişmiqyaslı işlər regionların qarşıdakı illərdə də inkişafı üçün möhkəm zəmin yaratmışdır.

Beynəlxalq təcrübə də sübut edir ki, dünyanın müasir inkişaf səviyyəsində bazar mexanizmlərinin formalaşması məhz dövlət tənzimlənməsinin köməyi ilə həyata keçirilir. Həm də dövlət tənzimləməsi iqtisadi inkisafın uzunmüddətli və daimi faktorudur. Buna görə də bazar münasibətlərinin təkmilləşdirilməsi və iqtisadiyyatın gələcək davamlı inkişafı baxımından dövlətin tənzimləyici rolu mühüm əhəmiyyətə malikdir. İnkisaf etmiş bazar iqtisadiyyatı ölkələrinin təcrübəsindən aydın olur ki, müasir dövrdə dövlət tənzimləməsinin əsas istiqamətlərindən biri də daxili bazarın xarici müdaxilələrdən qorunmasıdır. Qeyd

etmək lazımdır ki, öz milli iqtisadiyyatlarını möhkəmləndirmək istəyən əksər dövlətlər bu problemlə qarşılaşmışlar. Müxtəlif ölkələrdə dövlət tənzimlənməsinin məqsəd və hədəfləri fərqli olsa da, araşdırmaların nəticəsi olaraq, bazar iqtisadiyyatı şəraitində dövlət tənzimlənməsinin ümumi məqsədləri kimi aşağıdakıları qeyd etmək mümkündür:

- sabit iqtisadi artımın və davamlı iqtisadi inkişafın təmin edilməsi;
- əməkqabiliyyətli insanların məşğulluğunun tam və səmərəli həlli;
- məhsul bolluğunu təmin etməklə ədalətli rəqabət mühitinin formalaşdırılması və beləliklə də qiymət stabilliyinə nail olunması;
- ölkədə istehsal sahələrini inkişaf etdirməklə idxaldan asılılığı azaltmaq və ixracyönümlü sahələrin inkişafını stimullaşdırmaq;
- büdcə gəlirlərinin məqsədli, ədalətli və tarazlaşdırılmış bölgüsünü təmin etməklə zəif inkişaf etmiş sahə və regionların iqtisadi inkişafının sürətləndirilməsi.

Fikrimizcə belə qənaətə gəlmək olar ki, yalnız dövlətin birbaşa və ya ardıcıl tənzimləmə siyasəti ilə ərazi bərabərləşdirməsini səmərəli həyata keçirmək olar. Bunun üçün dövlətin birbaşa qoyuluşları vacib deyildir, lakin dəqiq təşkilati-hüquqi sistem kimi fəaliyyət göstərən və müvafiq prinsiplərə uyğun hərəkət edən tənzimləmə mütləq lazımdır.

Hazırki dövrdə İlham Əliyevin sosial-iqtisadi inkişaf strategitasının mühüm istiqamətlərindən biri neft strategiyasının reallaşdırılmasından əldə edilən gəlirlərin regionların iqtisadiyyatının dayanıqlı inkişaf potensialına transformasiyası əsasında regionların və qeyri-neft sektorunun inkişafı ilə bağlıdır. Mübaliğəsiz demək olar ki, bu gün ölkəmizin bütün regionlarında qeyri-neft sektorunun inkişafı üçün əlverişli şəraitin yaradılması əsasında onun yüksək inkişafının təmin edilməsi mühüm dövlət siyasətidir.

Regionlarda sosial-iqtisadi inkişafın digər zəruri cəhəti onunla səciyyələnir ki, region daxili mövcud təbii resurslar bilavasitə ixracata təsir etməklə, regiona gətirilən valyutanı artırır. Məhz təbii resurslardan, yeraltı sərvətlərin kəşfiyyatı, istehsalı, əməktutumlu və kapitaltutumlu sahə kimi investisiya gətirilməsinə imkan yaradır. Bu məqsədlə həmin təbii sərvətlərin bazarı artıq region çərçivəsindən çıxıb dünya ölkələri səviyyəsinə çıxmağa nail olur.

## ƏDƏBİYYAT


1. Regionların sosial-iqtisadi inkişafı Dövlət proqramları.
2. Allahverdiyev H.B., Qafarov K.S., Əhmədov Ə.M. Milli iqtisadiyyatın dövlət tənzimlənməsi. Bakı, 2012.
3. Kuşlin V.İ. “Bazar iqtisadiyyatının dövlət tənzimlənməsi” Bakı, 2008
4. Nuriyev Əli. Regional idarəetmənin əsasları. Bakı, Elm, 2007
5. Mahmudov M.M.,Mahmudova İ.M. Regionların sosial-iqtisadi inkişafının tənzimlənməsi Dərslik, Bakı, İqtisad Universiteti, 2011
6. Региональная экономика. Под общ. Ред. Проф. В.И.Видякина, проф. М.В.Степанова. Москва, ИНФРА, 2007


## РЕЗЮМЕ


**А. Рустамов.**
**Б. Гасанов**



В статье разяснены существующие в Азербайджане экономические отношения на фоне проводимых реформ и свободной рыночной экономики и основана необходимость регианального экономического развития, стратетические интересы государства и необходимость их регулирования. На основе проводимых в этой сфере анализов оценены тенденции регионального развития. В статье роль и значение Государственных програм в урегулировании социально-экономического развития регионов исследованы с различных аспектов.


## ABSTRACT


**A.Rustamov**
**B. Hasanov**



According to a outcome of a reforms in Azerbaijan of a free market economy based on the existing economic relations and regional economic development , the necessity of interpretation.The features of regional development in our country, the importance of the state´s stategic interest and their regulation have stressed in the article. Regional development trends in this area was assessed by analyzing the current situation .Regulation of social and economic development of the state programs examined various aspects of the role and importance.



NDU-nun Elmi Şurasının 30 mart 2017-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 07).

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2017, № 2 (83)**

NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2017, № 2 (83)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2017, № 2 (83)**

**NAZİM ƏHMƏDOV**
*Naxçıvan Dövlət Universiteti*

**UOT: 332.1**

# NAXÇIVAN SƏNAYESİNİN PRİORİTETLƏRİ: MODERNLƏŞMƏ, İNKİŞAF

***Açar sözlər:*** *modernləşmə, iqtisadiyyat, sənaye, sənaye parkı, milli gəlir*
***Key words:*** *modernization, economy, industry, industrial park, national income*
***Ключевые слова:*** *модернизация, экономика, промышленность, промышленные парки, национальный доход*

Azərbaycan Respublikası ikinci dəfə öz müstəqilliyini bərpa etmiş və inzibati amirlik sistemindən yeni bir sistemə - bazar iqtisadiyyatı sisteminə transformasiya olunmuşdur.

Dərin böhran içərisində yaşayan Azərbaycan iqtisadiyyatı 1991-1993-cü illərdə nəinki inkişaf etmir, hətta 90-cı il səviyyəsindən də aşağı düşmüşdü. Belə bir şəraitdə ölkəmizə elə bir lider lazım idi ki, iqtisadiyyatı böhrandan çıxarsın və inkişaf yoluna qədəm qoymasını təmin etsin.

Azərbaycan xalqı Naxçıvana üz tutdu və həmin dövrdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işləyən ümummilli liderimiz Heydər Əliyev xalqın təkidli tələbi ilə ikinci dəfə Azərbaycana rəhbərliyə gətirildi.

Ulu öndər hakimiyyətə qayıtdıqdan sonra ölkənin strateji iqtisadi inkişaf xəttini müəyyənləşdirdi. Nəticədə 1996-cı ildə ölkədə makroiqtisadi sabitlik əldə olundu və inkişaf başladı.

Çox qısa bir zaman kəsiyində görülən işlər Azərbaycanda sürətli inkişafın və modernləşdirmənin təməlini qoydu.

2003-2016-cı illəri əhatə edən 13 il ərzində Ulu öndər H.Əliyevin siyasi kursunu davam etdirən İlham Əliyev ölkənin sürətli və dinamik inkişafını təmin etmişdir. 2008-ci ildən bu günə kimi davam edən qlobal maliyyə böhranı dünyanın bir çox ölkələrinə ciddi təsir göstərməsinə baxmayaraq Azərbaycanın iqtisadi və sosial həyatında dinamik inkişaf prosesi davam etmişdir. Bir sıra istehsal sahələrində məhsul istehsalının artması, investisiya fəaliyyətinin daha da güclənməsi, sahibkarlığın stimullaşdırılması ölkə iqtisadiyyatının dayanıqlığını qoruyub saxlamışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 10-da Nazirlər Kabinetinin 2015-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasında dediyi fikirlər heç də təsadüfi deyildir. O demişdir: “2015-ci ildə dünyada iqtisadi böhran daha da dərinləşdi. Azərbaycan isə 2015-ci ildə uğurla inkişaf etmişdir. Qarşıda duran bütün vəzifələr icra edilmişdir. Ölkəmizin beynəlxalq nüfuzu daha da artmışdır. Ümumi daxili məhsul (ÜDM) 1 faizdən çox, sənaye istehsalı 2,4 faiz, qeyri-neft sənayesi isə 8,4 faiz artmışdır. Bu son illər ərzində qeyri-neft sektorunun inkişafı deməkdir, aparılan islahatların nəticəsidir” [1].

Müəssisələrin rəqabət qabiliyyətliyinin yüksəldilməsində ən vacib şərtlərdən biri müəssisələrdə mütəmadi olaraq istehsal texnologiyasının təkmilləşdirilməsidir. Bu isə müəssisədə aparılan innovasiya siyasətinin əsas tərkib hissəsidir. İstehsalın modernləşdirilməsində ən əsas yerlərdən birini yeni texnikanın və texnologiyanın tətbiqi tutur.

Ümumiyyətlə modernləşmə dedikdə ilk növbədə onun inkişaf tarixinə nəzər yetirmək lazımdır. Qeyd etmək lazımdır ki, bəşər cəmiyyəti yaranandan bu günə qədər olan dövrləri alimlərimiz iki böyük dövrə bölürlər:

I.demokratik cəmiyyətə qədər olan dövr (buna kənd təsərrüfatı və ya aqrar cəmiyyət dövrü deyirlər);

II.demokratik cəmiyyətin formalaşma və inkişaf dövrü.

Cəmiyyətin bu dövrü isə özlüyündə üç mərhələdən keçir:

1. demokratik cəmiyyətə keçid mərhələsi (bu mərhələni aqrar-sənaye cəmiyyəti mərhələsi adlandırırlar);
2. demokratik cəmiyyətin yüksək səviyyədə inkişafı və təkmilləşdirilməsi mərhələsi (bu mərhələni sənaye cəmiyyəti mərhələsi adlandırırlar);
3. Qlobal informasiya cəmiyyəti mərhələsi (buna postsənaye və ya informasiya-kommunikasıya texnologiyaları mərhələsi adlandırırlar).

Bu gün dünyada qlobal informasiya cəmiyyətinin formalaşması məsələlərinin tədqiqi ilə məşğul olan alimlər dəstəsi yetişir və onlar bu cəmiyyətin müasir problemlərinin həllinin başlıca vasitəsi kimi modernləşməni irəli sürürlər.

Cəmiyyətin modernləşdirilməsinin iqtisadi əsası və mühüm istiqaməti iqtisadiyyatın modernləşdirilməsi və rəqabət qabiliyyətinin artırılmasıdır. Modernləşmə iqtisadi cəhətdən sənaye

cəmiyyətindən postsənaye cəmiyyətinə keçiddir. Bu barədə xarici ölkələrin alimləri də maraqlı fikirlər söyləyirlər. Məsələn, Amerika iqtisadçıları D.Böll ("Gələcək postsənaye cəmiyyəti" Nyu-York, 1973), E.Toffler ("Üçüncü dalğa", M.,2010), S.Hantinqton bəşəriyyətin inkişafını sənaye cəmiyyətindən əvvəlki mərhələ, sənaye cəmiyyəti və postsənaye cəmiyyəti mərhələlərinə bölürlər. Onlar qeyd edirlər ki, sənayeləşmə dövründən fərqli olaraq postsənaye dövründə ümumi daxili məhsulda və xalq təsərrüfatında işləyənlərin sayında sənayenin payı azalır, digər sahələrin, xüsusilə xidmət sahələrinin payı isə artır.

Azərbaycan Respublikası dünya iqtisadiyyatına hərtərəfli inteqrasiya olunmaq, informasiya-kommunikasiya texnologiyalarını inkişaf etdirmək, son nəticədə səmərəli qlobal informasiya cəmiyyətini formalaşdırmaq yolunu seçmişdir. Təsadüfi deyil ki, 2013-cü il Azərbaycanda informasiya-kommunikasiya texnologiyaları ili elan olunmuşdur.

Bu sahənin prioritet istiqamət kimi nəzərdə tutulması "Azərbaycan 2020: gələcəyə baxış" konsepsiyasında da öz əksini tapıb. Verilən proqnozlardan məlum olur ki, gələcək illərdə ölkədə istehsal olunan ümumi daxili məhsulun 20 faizini məhz bu sahə verəcəkdir.

Modernləşdirmənin Azərbaycan reallıqlarını nəzərə alaraq Azərbaycan Respublikasının Prezident Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin son illərdə bu sahədə yorulmadan apardığı tədqiqatlar nəticəsində çoxlu əsərlər meydana gəlmişdir.

Akademik Ramiz Mehdiyevin əsərlərində modernləşməyə aid problemlərin praktiki həllindən çox, bu problemləri həll etmək üçün nəzəri-metodoloji istiqaməti müəyyən edir, problemin həlli yolları haqqında düşünmək üçün qiymətli materiallar verir. Akademik Ramiz Mehdiyev özünün bu məqsədini ifadə edərək yazır: "Bizim fəaliyyət xəttimiz təkcə bir siyasi iqtisadi strukturdan digərinə keçid istəyinin rəmzi olmayıb, həm də moderndən postmodernə, sənaye dünyasından postsənaye dünyasına transformasiya arzusunun təcəssümü idi" [2].

Modernləşməyə dair Azərbaycanın digər alimlərinin də fikirləri maraq doğurur.

İqtisad elmləri doktoru, professor S.V.Salahovun fikrincə: "Modernləşmə sözün geniş mənasında ənənəvi qapalı cəmiyyətdən "müasir açıq cəmiyyətə" aparan sənayeləşmə, urbanizasiya, müasir ümumtəhsil sisteminin, siyasi hakimiyyətin yaradılması, məkan və sosial mobilliyin artırılması və s. kimi başa düşülür. Ümumiləşdirilmiş anlamda modernləşmə ənənəvi cəmiyyətdən yüksək texnoloji istehsala və mütərəqqi qanunlara əsaslanan və ictimai həyatdan rasional idarə olunan cəmiyyətə keçilməsi prosesidir" [3].

Digər bir iqtisadçı alim, AMEA-nın müxbir üzbü, əməkdar elm xadimi, i.e.d., professor Ə.X.Nuriyev modernləşmənin bütün məsələlərinin dərk edilməsi üçün aşağıdakı üç məsələnin birinci növbədə nəzərə alınmasını vacib hesab edir:

1.Yeni, modern keyfiyyətlər mövcud olan keyfiyyətlərin ləğv edilməsi nəticəsi kimi deyil, həmin keyfiyyətlərin inkişafı, təkmilləşməsi və nəticə etibarilə yeni keyfiyyət halına keçməsi (modernləşməsi) məhsulu kimi meydana gəlir. Beləliklə, cəmiyyətin əvvəlki sənaye dövrünə xas olan modern keyfiyyətlər yeni postsənaye dövrünün tələblərinə uyğun modernləşir.

2. Sənaye cəmiyyətindən postsənaye cəmiyyətinə keçid – postmodernləşdirmə - çoxcəhətli, mürəkkəb bir proses olub cəmiyyət həyatının bütün sahələrində (iqtisadi, siyasi, sosial, mədəni-psixoloji), insanların fəaliyyətində, davranışda, düşüncə tərzində, təhsildə, idarəetmə sistemində əsaslı və mütərəqqi dəyişiklikləri (innovasiyaları) nəzərdə tutur. O, iqtisadiyyat, cəmiyyət, siyasət, mədəniyyət, ekologiya, şüur səviyyəsi, dünyagörüşü və sivil cəmiyyətin əxlaq kodeksinin müddəalarının fərd tərəfindən mənimsənilmə dərəcəsi və s. sahələrə aiddir. Modernləşmə bir dəfəlik proses deyil, böyük təşkilatçılıq işi və vaxt tələb edən mürəkkəb bir prosesdir.

3. Modernləşmə bir və ya bir neçə ölkə üçün deyil, bütün dünya üçün xarakterikdir, başqa sözlə informasiya cəmiyyətinin formalaşması və modernləşmə dünyəvi obyektiv prosesdir. Hər bir ölkənin ayrılıqda və eyni zamanda dünya ölkələrinin hamısının birlikdə səylərinin əlaqələndirilməsi yolu ilə bu proses həm dünya, həm də ayrı-ayrı ölkələr üçün müsbət nəticələr verə bilər [4].

Bizim nöqteyi-nəzərimizdən modernləşmə cəmiyyətin həyat və fəaliyyətinin bütün sahələrinə mütərəqqi informasiyaların tətbiqi yolu ilə onun əsaslı surətdə yeniləşməsi, əvvəlki dövrə xas olan və həmin dövrdə yeni yüksək hesab olunan keyfiyyətlərdən yeni dövrə xas olan yeni daha yüksək keyfiyyətlərə keçid prosesidir.

Ümumiyyətlə qeyd etmək lazımdır ki, Azərbaycan dövləti müstəqillik əldə etdikdən sonra sosial-iqtisadi sahədə innovativ dəyişikliklər aparılmış, cəmiyyətin yeni konturları müəyyən edilmiş, habelə ölkəmiz perspektivli dövlət siyasəti aparılması yolunu tutmuşdur. Keçən illər ərzində ardıcıl olaraq həyata keçirilən liberallaşma və vətəndaş cəmiyyətinin formalaşması xətti siyasi modernləşmənin təməl daşı olmaqla cəmiyyətin yenidən qurulmasının mühərriki olan iqtisadi modernləşməyə də zəmin yaradır.

Artıq deyə bilərik ki, Azərbaycan iqtisadiyyatında modernləşmənin daha da sürətləndirilməsi üçün əlverişli şərait yaranmışdır. Ölkədə makroiqtisadi sabitliyin yaranması dinamik inkişafı təmin etmişdir. Dinamik inkişaf isə iqtisadiyyatın əsas və həlledici sahəsi olan sənaye sahəsində də özünü biruzə vermişdir.

Statistik məlumatların təhlili göstərir ki, 2015-ci ildə ölkə sənayesində 2,4 faizlik artım qeydə alınmışdır. İstehsal olunmuş sənaye məhsulunun 76,4 faizi özəl bölmənin payına düşmüş, ümumi istehsalın 87, 1 faizi sənaye mallarının, 12,9 faizi isə sənaye xarakterli xidmətlərin istehsalı hesabına yaranmışdır.

Ölkədə sənayenin inkişaf etdirilməsi üçün rəqabət qabiliyyətli müasir istehsal sahələrinin yaradılması, sənayenin infrastruktur təminatının yaxşılaçdırılması sahəsində çoxsaylı layihələrin icrası davam etdirilmiş, bu istiqamətdə stimullaşdırıcı tədbirlər həyata keçirilmişdir. Bir sözlə, bu sahədə mühüm malların istehsalının davam etdirilməsi ölkə sənayesinin iqtisadiyyatda xüsusi çəkisini qoruyub saxlamışdır. Təkcə bir faktı demək kifayətdir ki, 2015-ci ildə ölkəmizdə sənaye müəssisələri, fərdi sahibkarlar və ev təsərrüfatları tərəfindən 26,2 milyard manatlıq sənaye məhsulu istehsal olunmuşdur. Bütövlükdə isə, son yeddi ildə Azərbaycanda sənaye istehsalının real həcmi təqribən üç dəfə artmışdır.

Azərbaycan Respublikasının son yeddi ildəki sosial-iqtisadi inkişafını təmin edən ən başlıca amillərdən biri də ölkə regionlarının davamlı və tarazlı inkişafına nail olmaqdan ibarətdir. Çünki, regionların iqtisadiyyatı inkişaf etmədən bütövlükdə ölkə iqtisadiyyatının inkişafından söhbət belə gedə bilməz. Məlum olduğu kimi regionların inkişafına dair üç Dövlət Proqramı qəbul edilmişdir. Bu Proqramlardan:

1. “Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)”;
2. “Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”;
3. “Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2014-2018-ci illər)”;

Qəbul olunmuş iki Dövlət Proqramı müvəffəqiyyətlə yerinə yetirilmişdir. Üçüncü Dövlət Proqramının iki ilinin müsbət nəticələri göstərir ki, bu Proqram da müvəffəqiyyətlə yerinə yetiriləcəkdir.

Regional Dövlət Proqramlarından söhbət düşmüşkən qeyd edilməlidir ki, bu gün Azərbaycanda 10 iqtisadi rayon formalaşmışdır ki, bu rayonlardan da ən sürətlə inkişaf edəni Naxçıvan iqtisadi rayonudur.

Naxçıvan Muxtar Respublikası iqtisadiyyatının əsas və həlledici sahəsi, lokomotivi sayılan sənaye 1996-cı ildən başlayaraq, ölkədə makroiqtisadi sabitlik əldə olunduqdan sonra, özünün əsl inkişaf mərhələsinə qədəm qoymuşdur.

XX əsrin 90-cı illərinin əvvəllərində keçmiş ittifaq respublikaları ilə iqtisadi əlaqələrin qırılması və məlum Qarabağ münaqişəsi ilə əlaqədar olaraq demək olar ki, muxtar respublikada bütün sənaye müəssisələri öz fəaliyyətini dayandırmışdır. Tam Blokada vəziyyətinə düşən Naxçıvan iqtisadiyyatını dərin böhrandan çıxarmaq, onun aparıcı sahəsi olan sənayeni bərpa etmək, yeni sənaye müəssisələri yaratmaq və modernləşdirmək missiyası 1995-ci ilin dekabr ayında Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sədri seçilən Vasif Talıbovun üzərinə düşmüşdür.

Aparılan təhlillər göstərir ki, keçən 20 il ərzində muxtar respublikada əsas makroiqtisadi göstərici olan ümumi daxili məhsul istehsalı 1995-ci illə müqayisədə 2015-ci ildə 56,4 dəfə artaraq təqribən 2 milyard 467 milyon manat təşkil etmişdir. Hər bir nəfərə düşən ümumi daxili məhsul istehsalı 2015-ci ildə 5581 manat təşkil etməklə son 20 il ərzində 42,3 dəfə artmışdır.

İqtisadiyyatın sahələri içərisində sənayenin həlledici sahə olduğu nəzərə alınaraq muxtar respublikada çox güclü sənaye siyasəti yeridilərək, yeni texnologiyalar əsasında yaradılan sənaye müəssisələrinin sayı xeyli artmışdır. Belə ki, Naxçıvan Muxtar Respublikası Ali Məclis Sədrinin qayğısı nəticəsində son 20 il ərzində sənaye müəssisələrinin sayı 8 dəfə artaraq 441-ə çatmışdır. Qeyd etmək lazımdır ki, 1995-ci ildə muxtar respublikada fəaliyyət göstərən sənaye müəssisələrinin sayı cəmi 56 vahid təşkil etmişdir.

Bir məsələni xüsusi olaraq qeyd etmək lazımdır ki, muxtar respublikada açılan yeni sənaye müəssisələri əsasən xarici investisiyaları cəlb etməklə və dünyanın ən yeni texnologiyaları əsasında yaradılan sənaye müəssisələri keyfiyyətli məhsul istehsal etsin. Burada əsas məqsəd rəqabətədavamlı məhsullar istehsal etmək, dünya bazarında başqa dövlətlərin buraxdığı məhsullarla rəqabətə girmək və qalib gəlmək məsələsi istehsalçıların qarşısında bir vəzifə kimi qoyulmuşdur.

Təbii ki, 2014-cü il Azərbaycanda  “Sənaye ili” elan edilməsi və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən təsdiq edilmiş  “Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı” bütövlükdə Azərbaycanda olduğu kimi onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da sənayenin sürətlə inkişafına təkan vermişdir. Nəticədə sənaye müəssisələrinin say tərkibinin artması eyni zamanda muxtar respublikada sənaye məhsulunun artmasına gətirib çıxarmışdır. Əgər 1995-ci ildə sənaye məhsulu istehsalı muxtar respublikada cəmi 9,1 milyon manat təşkil edirdisə bu rəqəm 2015-ci ildə 916,8 milyon manata çatdırılmışdır. Beləliklə, sənaye sahəsində görülən tədbirlər öz bəhrəsini vermiş və nəticədə son 20 il ərzində sənaye məhsulu istehsalı 100 dəfədən çox artmışdır.

Ümumiyyətlə rəqabət qabiliyyətli sənaye məhsulu istehsalının artması muxtar respublikanın ixrac potensialında öz yerini daha da möhkəmləndirmişdir. Təkcə bir faktı demək kifayətdir ki, 2015-ci ildə muxtar respublikada ixrac potensialı cəmi 414,4 milyon ABŞ dolları təşkil etmişdir ki, bunun da 316,8 milyon ABŞ dolları sənaye məhsulunun payına düşmüşdür.

Mən hesab edirəm ki, bütün bunlar Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin verdiyi tapşırıqların yerinə yetirilməsi və sənaye sahələrinin modernləşdirilməsi nəticəsində mümkün olmuşdur.

Sənaye parklarının yaradılması sənayenin daha sürətli inkişafında mühüm rol oynayır. Dünya təcrübəsi göstərir ki, sənaye parklarının yaradılması ən yüksək texnologiyaların ölkəyə gətirilməsi, investisiyaların cəlb edilməsi və bir çox məsələlərin həllində mühüm əhəmiyyətə malikdir.

Məlumdur ki, ittifaq dövründə Azərbaycan xammal respublikası kimi tanınırdı. Yəni istehsal olunan xammal hazır məhsul kondisiyasına çatmadan bitməmiş istehsal və yarımfabrikat şəklində başqa respublikalara satılırdı ki, buradan da respublikamız demək olar ki, heç nə qazanmırdı. O ölkə daha çox qazanırdı ki, xammalı hazır məhsula çevirirdi. Keçmiş SSRİ dövründə mexanizm elə qurulmuşdu ki, respublikalar bir-birindən asılı vəziyyətdə olsun və müstəqillik haqqında düşünməsinlər. Lakin bütün bunlara baxmayaraq keçən əsrin 90-cı illərində bütün ittifaq respublikalarında milli azadlıq hərəkatı başladı, SSRİ dağıldı, bütün respublikalar, o cümlədən Azərbaycan Recpublikası öz müstəqilliyini əldə etdi və müstəqil siyasət yeritməyə başladı. Əlbəttə ki, elə həmin dövrdən başlayaraq ölkədə yeni müəssisələr yaradıldı və bitməmiş istehsal və yarımfabrikatlar hazır məhsula çevrilərək xarici ölkələrə ixrac olunmağa başladı.

Bu baxımdan ölkəmizdə sənaye parklarının yaradılması günün tələblərinə uyğun olaraq zərurətdən yaranmışdır.

Qeyd edək ki, Azərbaycan Recpublikasında ilk dəfə sənaye parklarının yaradılması Ümummilli lider Heydər Əliyevin 2002-ci il 10 sentyabr tarixli Fərmanı ilə müəyyən edilmişdir. Bu kursu davam etdirən cənab İlham Əliyev özünün 24 aprel 2013-cü il tarixli Fərmanı ilə "Sənaye parkları haqqında Nümunəvi Əsasnamə"ni təsdiq etmişdir. Əsasnaməyə uyğun olaraq Sumqayıt Kimya Sənaye Parkı, Balaxanı Sənaye Parkı, və Pirallahı Yüksək Texnologiyalar Parkı artıq yaradılaraq istifadəyə verilmişdir. Ölkəmizin ən böyük şəhərlərindən olan Gəncə və Mingəçevir şəhərlərində də bu sahədə müəyyən tədbirlər həyata keçirilir.

Məlum olduğu kimi sənaye parklarının yaradılmasının hər bir region üçün əhəmiyyəti nəzərə alınaraq Naxçıvan iqtisadi rayonunda da çox gərgin iş gedir. Hələ 6 iyun 2013-cü il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Fərmanı ilə "Sənaye parkları haqqında Əsasnamə" təsdiq edilmişdir. Artıq sənaye parklarının yerləşəcəyi ərazilər müəyyənləşdirilmiş torpaq sahələri ayrılmışdır.

Heç şübhəsiz ki, bütün yuxarıda deyilənlərdən o nəticəyə gəlmək olar ki, yaxın illərdə ölkəmizdə və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında yeridilən modernləşdirmə siyasəti nəticəsində rəqabətə davamlı sənaye məhsulları istehsalı və ixrac potensialı getdikcə artacaq və xarici ölkələrdən idxal olunan malların xüsusi çəkisi isə minimuma endiriləcəkdir.

## ƏDƏBİYYAT


1. Xalq qəzeti. 2016-cı il, 10 fevral
2. Ramiz Mehdiyev: "XXI əsrdə Azərbaycan ideyası kreativ millət kontekstində", Dövlət İdarəçiliyi: nəzəriyyə və təcrübə jurnalı № 2 (38), 2012, s.114
3. Xalq qəzeti, 2011-ci il, 17, 18, 19 mart
4. Nuriyev Ə.X. Azərbaycanda iqtisadi inkişaf və modernləşmə siyasətinin konseptual əsasları. Bakı, Avropa, 2013, 422 s.
5. Böll D. Gələcək sənaye cəmiyyəti, Nyu-York, 1973
6. Toffler E. Üçüncü dalğa, Moskva, 2010


## РЕЗЮМЕ


**Н. Ахмедов**


**ПРИОРИТЕТЫ НАХЧЫВАНСКОЙ ПРОМЫШЛЕННОСТИ: МОДЕРНИЗАЦИЯ, РАЗВИТИЕ**


В статье вносится ясность в термин модернизация и приводятся высказывания учёных экономистов в этой области. Анализируются вопросы модернизации промышленности на примере Азербайджанской Республики и Нахчыванской Автономной Республики. Отмечается значение создания в будущем промышленных парков в модернизации экономики страны.


## ABSTRACT


***N.Ahmadov***


**PRIORITIES OF NAKHCHIVAN INDUSTRY: MODERNIZATION, DEVELOPMENT**


It is clarified to the modernization term in this article and ideas of economist scientists are given in this field. Problems such as the modernization of the industry are analyzed as an example of the Republic of Azerbaijan and Nakhchivan Autonomous Republic. In the coming years, the importance of the establishment of industrial parks in the modernization of the country`s economy is stressed.



NDU-nun Elmi Şurasının 30 mart 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 07).

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2017, № 2 (83)**

NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2017, № 2 (83)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2017, № 2 (83)**

**DİLSUZ QASIMOV**
*Naxçıvan Dövlət Universiteti*
*dilsuzqasimov1949@gmail.com*

**UOT: 338.2**

# TORPAQ DEQRADASİYASI İQTİSADİ VƏ AQRAR SAHƏNİN TƏXİRƏ SALINMAZ PROBLEMİDİR

***Açar sözlər:*** *kənd təsərrüfatı, aqrar iqtisadiyyatda ekolojiləşdirilmə, torpaq deqradasiyası prosesləri, ərzaq təhlükəsizliyi, iqtisadi-sosial çətinliklər*

İnsan cəmiyyətinin inkişafı təbiətlə qarşılıqlı təmasda olmadan mümkün deyil. İnsanların təlabatını ödəmək və onun hərtərəfli inkişafını təmin etmək üçün Yerin bərpa olunan və bərpa olunmayan sərvətlərindən intensiv şəkildə istifadə olunur. İnsan öz həyatı üçün vacib olan hər şeyi (enerji, qida və s.) təbiətdən alır. Təbiət insanın estetik təlabatının təminat mənbəyidir

İnsanın məqsədyönlü istehsalat və təsərrüfat fəaliyyəti o səviyyəyə gəlib çıxmışdır ki, təbiətin dinamik tarazlığı artıq pozulmaq üzrədir. Bu prosesin planetimizin hansı regionunda necə baş verib-verməsindən asılı olmayaraq onun nəticələri məhəlli deyil bəşəri əhəmiyyət kəsb edir və ümumiyyətlə bütün canlı aləmin mövcudluğu və təkamülü üçün böyük qorxu yaradır.

Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonar ölkə əhalisinin kənd təsərrüfatı məhsulları ilə davamlı və təhlükəsiz təminatı dövlətimiz və xalqımız qarşısında duran prioritet bir məsələdir. Lakin bu və digər səbəblərdən ölkənin bütün regionlarda kütləvi şəkildə torpaqların münbitliyinin sürətlə azalması, əkin qatının deqradasiyası, şoranlaşma, eroziya və nəhayət aran ərazilərdə geniş miqyaslı səhralaşma prosesləri güclənmişdir.

Dünyanın inkişaf etmiş ölkələrində torpaq münbitliyinə nəzarət strateji əhəmiyyət kəsb edən bir məsələdir. Bu ölkələrdə də torpaq münbitliyinin idarəolunması ilə məşğul olan qurumlar ölkə ərazisində torpaqların keyfiyyətini nəzarətdə saxlamaq üçün mütəmadi olaraq vahid elmi-texniki siyasət həyata keçirirlər. Uzun illər ölkədə aqrar sənaye komleksinin ekstensiv inkşafı, əkinçilik mədəniyyətinin aşağı səviyyədə olması və il ərzində bir neçə öhdəlikləri özünə yük edən dövlət planlı təsərrüfatları torpaqlarımızda şoranlaşma, eroziya, kimyəvi çirklənmə, əkinaltı qatın kipləşməsi kimi mənfi proseslərin təsiri altında böyük ərazilərdə torpaq deqradasiyasına (torpağın bioloji və iqtisadi məhsuldarlığının itməsi) səbəb olmuşdur.

Qlobal ekosistem olan biosferdə baş verən, dönməz dəyişikliklər ekoloji inqilabla nəticələnərək təbiət-cəmiyyət münasibətlərinin yeni inkişaf mərhələsinə – idarə olunan təkamül nəticəsinə keçidlə nəticələnmişdir. Yeni mərhələdə təbiət-cəmiyyət münasibətlərinin konsepsiyası aqrar sahədə ekolojiləşdirilmənin əsas amillərini təşkil edir ki, bunun da əsas məqsədi:

- ✓ təbii sərvətlərdən istifadənin səmərəliliyinin yüksəldilməsi;
- ✓ təbii mühit amillərinin keyfiyyət parametrlərinin və ekosistemin dayanaqlığının saxlanılmasının mütləq təmin olunmasıdır.

Müasir bazar iqtisadi sistemində torpaq-relyef xüsusiyyətlərini nəzərə almadan torpaq istifadəçiliyinin düzgün təşkil edilməməsi ilə, yay otlaqlarında və kənd ətrafı otlaq sahələrdə isə mal-qaranın nizamsız otarılması ərazilərdə, dağ yamaclarında meşələrin sistemsiz qırılması və ərazidə nəzərdə tutulan meşə-meliorativ tədbirlərin həyata keçirilməməsi eroziya təhlükəsini daha çox gücləndirməklə vəziyyəti daha da gərginləşdirmişdir. Belə ki, Azərbaycanın ümumi ərazisinin 3.685 min hektarı və ya 42,5 faizi eroziyaya uğramış torpaqlardır. Azərbaycanda torpaqların şorlaşması prosesi də kənd təsərrüfatına böyük ziyan vuran ən təhlükəli prosesdir. Hal-hazırda kənd təsərrüfatına yararlı torpaq sahələrinin 1.62 mln. ha-ı şorlaşmaya məruz qalmışdır və bunun da 627 min ha-ı suvarılan ərazilərin payına düşür. Torpağın şorlaşması suvarmanın düzgün normallaşdırılmaması, sistemsiz təşkili, ərazidə torpaqmeliorativ xüsusiyyətləri nəzərə alınmadan su hövzələrinin və su anbarlarının inşası nəticəsində qrunt sularının səviyyəsinin qalxması səbəbindən baş verir. Digər tərəfdən suvarma kanallarında və kollektor-drenaj sistemlərində olan nasazlıqlar şorlaşmanın əsas səbəblərindən sayıla bilər.

Son 30-40 il Azərbaycanda suvarma şəbəkəsində mövcud olan bərbad vəziyyət, o cümlədən bərpa işlərinin aparılmaması və bu sahədə hökm sürən nəzarətsizlik torpaqlarımızın təkrar şorlaşmasına səbəb olmaqla yanaşı ölkədə ərzaq təhlükəsizliyi proqramının yerinə yetirilməsinə böyük mane yaradaraq

iqtisadiyyatımıza milyon manatlarla ziyan vurmuşdur. Əgər belə bir faktı nəzərə alsaq ki, 1 ha şorlaşmış torpaq sahəsini özünün əvvəlki münbit vəziyyətinə qaytarmaq üçün 1 milyon dollar vəsait tələb olunur, onda ölkəmizdə şoran torpaqların meliorasiyası üçün milyard manatlarla vəsaitin tələb olunduğunu görərik.

Buna baxmayaraq bu gün də vəziyyət gərgin olmaqla davam edir. Ölkədə mövcud olan təsərrüfatlararası və təsərrüfatlardaxili kanalların yalnız 4.1%-i örtüklənmişdir, yəni mövcud kanalların 95%-dən çoxu səth örtüyü olmadığından bu kanallarda hər il 2.5-3.5 mlrd. $m^3$ su itkisi baş verir. Əgər bu itkini 50% azaltmaq olarsa bu da suvarılan sahələrin həcmini 150-200 min ha artırmağa yetərli olan bir faktdır.

Uzun illər ölkəmizin təsərrüfatlarında (keçmiş kolxoz və sovxozlarda) kənd təsərrüfatı bitkilərinin zərərvericilərinə və xəstəliklərinə qarşı mübarizə üçün milyon tonlarla kimyəvi preparatlardan və gübrələrdən (pestisidlər və herbisidlər və s.) istifadə olunmuşdur. Bu illərdə həmin məqsədlə tətbiq olunan kimyəvi maddələrin miqdarı tələb olunan normadan 10-15 dəfə, bəzən isə daha çox olmuşdur. Bu səbəbdən ölkə ərazisinin 13-15%-i bu maddələrlə çirkləndirilmişdir. Hələ indi də respublikanın pambıqçılıq və üzümçülük rayonlarında 1 ha torpaq sahəsində mövcud olan qalıq toksiki maddələrin miqdarı 30-180 kg arasında dəyişməklə beynəlxalq normativlərlə icazə verilən həddən 50-60 dəfə yüksəkdir.
Son 30-40 il ərzində dağ-mədən işlərinin tullantıları, neft məhsulları tikinti-inşaat tullantıları vasitəsilə ölkədə 30 min hadan çox torpaq sahəsi çirklənmişdir.

Azərbaycan üçün xarakterik olan və çox qorxulu proseslərdən biri də səhralaşma prosesidir. Bu gün bu proses Azərbaycanda çox intensiv və özünə məxsus xüsusiyyətlərlə baş verir. Bunun əsas səbəblərindən birisi ölkə ərazisinin 60%-ə qədərini arid iqlim şəraitinə mənsub olmasıdır. Ərazimizin 40%-də quraqlıq əmsalı səhralarla analoji xarakter daşıyır. Quraqlığın il boyu üstünlük təşkil etməsi əhalimizin təxminən 4.5 mln. nəfəri yaşayan arid zonada torpaqların deqradasiyasına və nəhayət səhralaşmaya səbəb olur.

Arid ərazinin yüksək dağ silsilələri ilə sərhədlənməsi yarımsəhra, quraqlıq-çöl və kserofit-kol formalarının yaranmasına şərait yaradır. Digər tərəfdən insanın intensiv təsərrüfat fəaliyyəti, landşafta düşən “yükün ağırlığı” arid və semiarid zonalarda təbii komplekslərinin təbii strukturunun pozulmasına səbəb olaraq antropogen landşaftın formalaşmasını sürətləndirmişdir.

Nəticədə ekzogen geoloji proseslər güclənmiş, geokomplekslərin biopotensialı zəifləmiş və bu səbəbdən də səhralanma prosesi sürətlənmişdir.

Yüksəkliyi 200 m-ə qədər olan ərazi), dağətəyi (200 m-dən 500 m-ə qədər yüksəkliyi olan), dağlıq(500 m-dən 2000 m-ə qədər yüksəkliyi olan) və yüksək dağlıq (yüksəkliyi 2000 m-dən çox olan ərazi) zonalara bölünür. Düzənliyin ümumi sahəsi 3690 min ha olmaqla ərazinin 42.7% -ni təşkil edir. Dağətəyi zonanın ərazisi 2099.9 min ha olub ərazinin 24.3%-ni, dağlıq və yüksək dağlıq ərazinin sahəsi isə 2851.8 min ha olub ərazinin 32.5%-ni təşkil edir. Ərazinin 46.8%-nin mailliyi 1°-dən aşağı olmaqla bura Kür-Araz düzənliyinin əsas hissəsi daxildir. Ərazimizin 14.6%- nin mailliyi 1-3°, 9.3%-nin mailliyi isə 3-5°təşkil edir. Yüksək dağlıq hissə əsasən çox dik yamaclara malik olmaqla, ərazinin 4.3%-nin mailliyi 20°-dən çoxdur. Elə bu səbəbdən sıldırımlı dağ yamaclarında egzogen geoloji proseslər, o cümlədən Yerin üst qatının və torpağın deqradasiyası çox intensiv baş verir.

Azərbaycanın coğrafi yerləşməsi və çox mürəkkəb relief şəraiti atmosfer prosesləri ilə qarşılıqlı əlaqədə ərazidə öz xüsusiyyətləri ilə fərqlənən müxtəlif relyef tiplərinin formalaşmasına səbəb olmuşdur. Atmosfer çöküntülərinin miqdarı da müxtəlif rayonlarda müxtəlifdir.

Son 100-150 illik iqlim göstəricilərinin təhlili göstərir ki, axırıncı 30-40 ildə soyuq iqlim zonalarında istiləşmə baş verməklə illik orta temperatur 0.8-1.0° yüksəlmiş və yağıntıların miqdarı 10-20 mm azalmışdır. Bunun nəticəsi olaraq quraqlıq güclənmiş, torpaqların deqradasiyası isə sürətlənmişdir.

Mikroiqlim dəyişiklikləri ərazidə səhralaşmanın inkşafına şərait yaradır. Eyni zamanda meşələrin nizamsız qırılması, kolluqların məhv edilməsi və yerin səth örtüyünün dəyişməsinə səbəb olan digər amillər ərazinin radiasiya balansının, istilik rejiminin, nisbi rütubətliyinin dəyişilməsinə təsir edərək deflyasiya və eroziya proseslərini gücləndirmiş və torpaq-qrunt kompleksinin deqradasiyası sürətlənmişdir. Azərbaycanda 30-40 ildə küləklərin də xarakteri xeyli mürəkkəbləşmiş və dəyişmişdir.

Azərbaycanda torpağın deqradasiyasını yaradan səbəblərdən biri də ölkənin su ehtiyatlarının məhdudluğudur. Cənubi Qafqazın ümumi su ehtiyyatlarının (310 mld. $m^3$) yalnız 10%-i Azərbaycanın payına düşür. Ərazimizdən axan çay sularının yalnız 30 %-i ölkə daxili mənbələrdən formalaşır (5.4 mld. $m^3$). Adam başına düşən suyun həcminə görə ölkəmiz öz qonşuları arasında axırıncı yerdədir.

Azərbaycanda torpaq deqradasiyasını gücləndirən amillərdən biri də mövcud meşələrin amansızcasına qırılmasıdır. Təkcə islahatlar dövründə özbaşınalıq ucbatından 300 min ha meşəlik məhv edilmişdir. Bu da ölkədə eroziya prosesinin sürətlənməsinə böyük təkan vermişdir. Bu gün eroziyaya məruz qalmış ərazinin sahəsi 3.685 min ha və yaxud bütün ərazinin 42.5%-i qədərdir. Bundan 13-15% şiddətli, 11- 12% orta, 15-16% isə zəif eroziyaya məruz qalan sahələrin payına düşür.

Son 30-40 ildə ölkə ərazisində sürüşmə və sellərin həcmi də xeyli artmışdır. Son 15-20 ildə sürüşmə baş verən sahələrin həcmi 3.5-4.0 min $m^2$, sellərin zəbt etdiyi ərazi isə 1.5-1.6 min $m^2$ təşkil edir.

Torpaqların deqradasiyası təkcə ekoloji fəlakət deyil, bu həm də aqrar sektorda məhsuldarlığın azalması səbəbindən kənd yerlərində yaşayan əhalinin gələcəkdə işsizliyinə gətirib çıxara biləcək həm də sosial problem deməkdir. Bir-biri ilə zəncirvari bağlı olan qeyd etdiyimiz faktorlar isə bilavasitə ölkənin ərzaq təhlükəsizliyinə ciddi zərbədir. Bir çox hallarda əkin sahələrindən qeyri-təyinatlı istifadə halları müşahidə edilir ki, bu da torpağın üst qatının zədələnməsi və nəticədə səhralaşmaya gətirib çıxaran hallarla nəticələnir. Torpaqların qeyri-təyinatlı istifadəsi məsələsinə qarşı sərt tədbirlərin tətbiqi qanunvericilikdə əksini tapmalıdır.

Əmək qabiliyyətli əhalisinin təxminən 50 faizi kənd və kənd rayonlarında yaşayan Azərbaycan Respublikası aqrar ölkə sayılır və kəndlərdə yaşayan əhalinin əmək qabiliyyətli hissəsinin böyük əksəriyyəti kənd təsərrüfatı ilə məşğuldur. Yəni bu insanlar birbaşa torpaqla əlləşən, torpağa baglı olan, çörəyi torpaqdan çıxan insanlardır. Ona görə də vaxtında tədbirlər görülmədiyi təqdirdə deqradasiya səbəbindən torpaqlar dövriyyədən çıxdığı halda, bu həm də böyük iqtisadi fəlakət deməkdir, işsizlik deməkdir və ölkə üçün ciddi problem deməkdir. Bütün yuxarıda qeyd olunanlar belə bir nəticəyə gəlməyə əsas verir ki, yaranmış vəziyyətdən çıxış yolu dövlətin bu məsələlərə ciddi münasibətindən asılıdır. Şoranlaşma, səhralaşma, eroziya və torpaq münbitliyinin sürətlə azalması təkcə ekoloji problem kimi qəbul edilməməli,bunun həm iqtisadi, həm də aqrar sahənin problemi olduğunu nəzərə alaraq təcili həlli istiqamətində təxirəsalınmaz tədbirlər həyata keçirilməlidir.

## ƏDƏBİYYAT


1. Rüstəmov A.A., Qasımov D.Q. Aqrar sferanın iqtisadiyyatı və idarə edilməsi. (Dərs vəsaiti).Bakı, 2013.406 səh
2. Məmmədov Q. Ş. Azərbaycan torpaqlarının ekoloji qiymətləndirilməsi. Baki, elm 1998. 281 s.
3. Rüstəmov A.A., Quliyev Ə.G., Qasımov D.Q. Aqrar sahənin inkişafının regional problemləri.(Dərs vəsaiti). Bakı, 2013, 173 səh
4. Salahov S.V. Aqrar sahənin dövlət tənzimlənməsi problemləri. Bakı, Nurlan , 2004. – 504 səh.
5. Azərbaycan Milli Elmlər akademiyası İqtisadiyyat İnstitutu Aqrar sahə modernləşmə dönəmində: (problemlər və onun həlli yolları) (kollektiv monoqrafiya), Bakı, 2009, 505 səh.
6. “Torpaq islahatı haqqında” Azərbaycan Respublikasının Qanunu. Bakı, 1996.


## ABSTRACT


**Dilsuz Gassimov**

**Soil degradation is the urgent matter of economy and agricultural branch**

In this article were studied the reduction of soil fertile after the natural and anthropogenic impacts and the worldwide wilderness and soil degradation processes, the degradation of arable lands, salinization, erosions, the decreasing of productivity capacity in the lowland areas after the expansion of salinization and implementation of measures on the lifting of socio-economic problrms within food safety creations of population


## РЕЗЮМЕ


**Дилсуз Гасымов**

**Деградация земли неотложные проблемы экономической и аграрной отрасли**

В статье исследованы вопросы опустошения и деградации земли во всех регионах страны, происходящие в последние периоды во всем мире, быстрого понижения плодородности земель под влиянием естественных и антропогенных влияний, деградации посадочного слоя земли, засоления, эррозии и, наконец, вопросы понижения производительности в результате усиления широкомасштабного процесса опустошения территорий низменности и проведения в жизнь мероприятий для устранения социально-экономических трудностей, созданных при выполнении требований населения в продовольственных запасах.



NDU-nun Elmi Şurasının 30 mart 2017-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 07).

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2017, № 2 (83)**

NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2017, № 2 (83)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2017, № 2 (83)**

**ZAHİD MƏMMƏDOV**
*Azərbaycan Dövlət İqtisad Universiteti*
*prof.zahid.mamed@mail.ru*

**UOT: 332.146**

# AZƏRBAYCAN MİLLİ İQTİSADİYYAT PERSPEKTİVİNİN ƏSAS XÜSUSİYYƏTLƏRİ: MÜASIR ÇAĞIRIŞLAR VƏ İNSTİTUSİONAL İSLAHATLAR

***Açar sözlər:*** *iqtisadi islahat, İqtisadiyyatın əsas sektorları, strateji yol xəritələri, iqtisadi inkişaf, maliyyə xidmətləri bazarı*

***Ключевые слова:*** *экономические реформы, основными отрасли экономики, стратегические дорожные карты, экономическое развитие, рынок финансовых услуг*

***Keywords:*** *economic reform, the main sectors of the economy, strategic roadmaps, economic development, financial services market*

Son 10 ildə dünyada iqtisadi artım tempinə görə Azərbaycan ön sıralarda yer almışdır. Uğurla həyata keçirilən neft strategiyası əsasında əldə olunmuş gəlirlər hesabına infrastruktur modernləşdirilmiş, qeyri–neft iqtisadiyyatı inkişaf etdirilmiş, sosial rifah yaxşılaşdırılmış, dövlətin balansında olan aktivlər artmış və ÜDM-in həcmini aşan səviyyədə strateji valyuta ehtiyatları yaradılmışdır.

2014-cü ildən başlayaraq neft qiymətlərinin kəskin azalması və ticarət tərəfdaşı ölkələrində iqtisadi böhran nəticəsində ölkədə iqtisadi artım sürətinin yavaşıması, institusional və struktur çağırışlar, tədiyə balansı və qeyri–neft büdcə kəsiri, maliyyə–bank sektorunda baş verən proseslər fonunda Azərbaycanda yeni iqtisadi inkişaf yanaşmasına keçid zərurəti yaranmışdır.

Yeni islahatların bir istiqamətini də neqativ hallara qarşı mübarizənin gücləndirilməsi təşkil edir. Yaranmış situasiya iqtisadiyyatda gələcək neqativ ssenarilərə qarşı mütləq qoruyucu və qabaqlayıcı mexanizmlərin həyata keçirilməsini və gücləndirilməsini zəruri edirdi.

“Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında” Prezident fərmanının imzalanması Azərbaycanda davamlı iqtisadi inkişaf əsasında iqtisadiyyatın rəqabətqabiliyyətliliyini, inklüzivliyini və sosial rifahın daha da artırılmasını təmin edəcək.

**İqtisadi islahatlara dəstək verəcək qanunvericilik bazası**

2014-cü ildən etibarən enerji bazarlarında neft məhsullarının qiymətlərində kəskin enmə, dünya iqtisadiyyatında cərəyan edən təlatümlər, qlobal maliyyə bazarlarındakı qeyri-sabitlik eyni zamanda dünya iqtisadiyyatına inteqrasiya edən Azərbaycan iqtisadiyyatına da öz təsirini göstərmişdir.

Neftin qiymətinin kəskin aşağı düşməsi xarici valyuta gəlirlərinin əhəmiyyətli azalmasına gətirib çıxarmışdır. Uzun illər iri həcmli profisitə malik tədiyə balansının cari hesabında 2015-ci ildə kəsir əmələ gəlmişdir. Xarici ticarət balansının profisiti 5 dəfədən çox azalmışdır. İqtisadi tərəfdaş ölkələrində yaranmış vəziyyət digər mənbələrdən də valyuta daxilolmalarının azalmasına səbəb olmuşdur. Uzunmüddətli xarakter daşıyan xarici şokların güclənməsi şəraitində milli iqtisadiyyatın dayanıqlığının möhkəmləndirilməsi çağırışları daha da aktuallaşmış, bu çağırışlara adekvat iqtisadi siyasət manevrləri həyata keçirilmişdir.

Yaranmış situasiya iqtisadiyyatda gələcək neqativ ssenarilərə qarşı mütləq qoruyucu və qabaqlayıcı mexanizmlərin həyata keçirilməsini və gücləndirilməsini zəruri edirdi. Beləliklə, Ali dövlət səviyyəsində qeyri-neft sektorunda genişmiqyaslı və sürətli islahatlara başlanılmasıbna start verildi. Yaranmış şərait valyuta bazarının və manatın məzənnəsinin yeni neft qiymətlərinə uyğunlaşmasını zəruri etmişdir. Bunu nəzərə alaraq 2015-ci ilin dekabrında “üzən məzənnə” rejiminə keçilməsi barədə qərar qəbul edilmişdir. Bu keçid taktiki olaraq makroiqtisadi manevr xarakteri daşımış, strateji olaraq isə milli iqtisadiyyatın şaxələndirilməsi strategiyasının dəstəklənməsinə yönəlmişdir.

İslahatlar təcrübəsi göstərir ki, iqtisadi islahatlar strategiyasının ayrı-ayrı müddəaları, konturları, əvvəlcədən öz məntiqi ifadəsini hazırlanan qanunlarda tapır.

Təbii ki, bu istiqamətdə vacib məsələlərdən biri də mövcud qanunvericilik bazasının islahatlardan irəli gələrək təkmilləşdirilməsi, yeni hüquqi bazanın yaradılması idi.

Bu sırada atılan addımlardan biri dövlət başçısının yanvar 2016 – il tarixində imzaladığı “Qeyri-neft məhsullarının ixracının stimullaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında” sərəncamdır. Bu sərəncama əsasən, rəqabətqabiliyyətli qeyri-neft məhsullarının istehsalı və ixracının, ənənəvi və yeni bazarlara çıxış imkanlarının artırılması, bu sahədə əlverişli şəraitin daha da yaxşılaşdırılması məqsədilə bir sıra vacib tədbirlərin həyata keçirilməsi qarşıya vəzifə qoyulub.

“Qeyri-neft məhsullarının ixracının təşviqi ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Prezidentinin 1 mart 2016-cı il tarixli fərmanına əsasən isə 2016-2020-ci illərdə Azərbaycanda istehsal olunan və istehsal

prosesində istifadə edilən yerli komponentlərin və respublikanın ərazisində yaradılan qeyri-neft məhsullarının dəyərinin xüsusi çəkisindən, habelə ixrac olunan həmin məhsulların növündən asılı olaraq, ölkəmizdə qeyri-neft məhsullarının ixracı ilə məşğul olan şəxslərə dövlət büdcəsinin vəsaiti hesabına ixrac təşviqi ödəniləcək.

Prezidentin 3 fevral 2016-cı il tarixli fərmanı ilə Azərbaycan Respublikasının Prezidenti yanında Apelyasiya Şurasının yaradıldı və onun yaradılmasında məqsəd sahibkarlıq fəaliyyəti göstərən fiziki və hüquqi şəxslərin müraciətlərinə baxılması sahəsində çoxpilləliyin təmin edilməsi, mərkəzi və yerli icra hakimiyyəti orqanlarının qərarlarından, hərəkət və ya hərəkətsizliyindən yuxarı orqana şikayətlərin verilməsi mexanizminin təkmilləşdirilməsidir. Bundan başqa, Prezidentin fərmanı ilə mərkəzi və yerli icra hakimiyyəti orqanlarında da apelyasiya şuraları yaradılıb.

Azərbaycan Respublikası Prezidentinin 3 fevral 2016-cı il tarixli, 760 nömrəli Fərmanına uyğun olaraq, qiymətli kağızlar bazarı, investisiya fondları, sığorta, kredit təşkilatları (bank, bank olmayan kredit təşkilatları və poçt rabitəsinin operatoru) və ödəniş sistemləri fəaliyyətinin lisenziyalaşdırılması, tənzimlənməsi və nəzarəti, habelə cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması, terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınması sahəsində nəzarət sisteminin təkmilləşdirilməsini, həmçinin bu sahələr üzrə nəzarət sisteminin şəffaflığını və çevikliyini təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası publik hüquqi şəxs yaradılmışdır. Maliyyə Bazarlarına Nəzarət Palatası maliyyə bazarlarının fəaliyyətinin səmərəli şəkildə təmin olunması, eləcə də kreditorların, investorların və sığorta olunanların hüquqlarının qorunması imkanı verən ilk publik hüquqi şəxs statuslu qurumdur. Dünya iqtisadiyyatının tərkib hissəsi olan ölkəmizin qlobal iqtisadi arenada baş verən proseslərə çevik reaksiya verməsi Azərbaycan iqtisadiyyatı qarşısında maliyyə sektorunun dayanıqlığını təmin etmək və bu sahədə nəzarət tədbirlərini gücləndirmək kimi tapşırıqlar qoymuşdur.

Ölkənin qiymətli kağızlar bazarının, investisiya fondu, bank və sığorta fəaliyyəti sahələrinin, habelə ödəniş sistemlərinin çevikliyinin və şəffaflığının təmin olunması, eyni zamanda bu sahələrdə tənzimləmə və nəzarət sisteminin təkmilləşdirilməsi həmin tapşırıqların tərkib hissəsidir (http://www.fimsa.az/pages/10r.).

Ölkədə həyata keçirilən iqtisadi siyasətin və islahatların davamlılığını təmin etmək üçün iqtisadiyyatın mövcud vəziyyətinin dərindən təhlili və yeni iqtisadi inkişaf strategiyasının hazırlanması məqsədilə Azərbaycan Prezidentinin 2016-cı il 16 mart tarixli sərəncamı ilə "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri" təsdiq edilib.

İyunun 1-dən qüvvəyə minən "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanunu respublikamızda sahibkarlıq fəaliyyətinin (maliyyə bazarları sahəsində istisna olmaqla) həyata keçirilməsi ilə bağlı lisenziya və icazə sisteminin tənzimlənməsinin hüquqi, iqtisadi və təşkilati əsaslarını müəyyən edir.

"Antidempinq, kompensasiya və mühafizə tədbirləri haqqında" Azərbaycan Respublikasının Qanunu da iqtisadi məsələləlləri əhatə edir. Belə ki, bu qanun Azərbaycanda iqtisadi maraqların müdafiəsi məqsədilə yerli istehsal sahəsinə zərər vuran və ya zərər vurma təhlükəsi yaradan dempinqli, subsidiyalaşdırılmış və ya artmış idxala qarşı antidempinq, kompensasiya və mühafizə tədbirlərinin tətbiqi qaydalarını tənzimləyir.

Yeni qanunlardan biri də "Kredit büroları haqqında" Azərbaycan Respublikasının Qanunudur. Bu, ölkədə kredit bürolarının yaradılmasının və fəaliyyətinin hüquqi əsaslarını, kredit büroları tərəfindən kredit tarixçələrinin formalaşdırılması və məlumatdan istifadə prinsiplərini müəyyən edir, kredit bürolarının, kredit tarixçəsi subyektlərinin, məlumat təchizatçılarının və istifadəçilərinin hüquq və vəzifələrini, eləcə də kredit büroları üzərində nəzarət məsələlərini tənzimləyir. Qanunun məqsədi fiziki və hüquqi şəxslərə öz maliyyə öhdəliklərinin icrası barədə uzunmüddətli məlumat bazasının formalaşdırılması yolu ilə maliyyə xidmətlərinə çıxış imkanlarının yaxşılaşdırılması, borc münasibətlərində maliyyə intizamının möhkəmləndirilməsi və ölkədə maliyyə sisteminin sabitliyinin təmin edilməsinə dəstək verilməsidir.

13 iyul 2016-cı il tarixli "Azərbaycan Respublikasında biznes mühitinin əlverişliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" Prezident sərəncamı da iqtisadi islahatlara və iqtisadiyyatın diversifikasiyası siyasətinə xidmət edir. Sərəncama əsasən ölkənin biznes və investisiya mühitinin əlverişliyini, yerli və xarici investorlar üçün cəlbediciliyini daha da artırmaq, sahibkarlıq sahəsində son illərdə nail olunmuş sürətli inkişafın davamlılığını təmin etmək və rəqabət qabiliyyətini möhkəmləndirmək, beynəlxalq reytinqlərdə Azərbaycanın mövqeyini daha da yaxşılaşdırmaq məqsədilə komissiya yaradılıb.

5 Oktyabr 2016-cı il tarixli "Xarici ölkələrə ixrac missiyalarının təşkilinə, xarici bazarların araşdırılması və marketinq fəaliyyətinə, "Made in Azerbaijan" brendinin xarici bazarlarda təşviqinə, yerli şirkətlərin ixracla bağlı xarici ölkələrdə sertifikat və patentlər almasına, ixracla əlaqəli tədqiqat-inkişaf proqram və layihələrinə çəkilən xərclərin dövlət büdcəsi hesabına ödənilən hissəsinin müəyyənləşdirilməsi və ödənilmə mexanizminin tənzimlənməsi Qaydası"nın təsdiq edilməsi haqqında prezident fərman imzaladı.Fərmanla yerli məhsulların xarici bazarlara çıxarılması işinin təşkili, bazarların araşdırılması, "Made in Azerbaijan" brendinin xarici bazarlarda təşviqinə çəkilən xərclərin dövlət hesabına ödənilən hissəsinin müəyyənləşdirilməsi və ödənilmə mexanizminin tənzimlənməsi qaydası, həmçinin Azərbaycan

mənşəli qeyri-neft məhsullarının ixracının stimullaşdırılması ilə bağlı görülmüş işlər barədə hesabat forması təsdiq edilib. Bundan başqa, yerli şirkətlərin xarici ölkələrdə ixracla bağlı sertifikat və patentlər almasına, ixracla əlaqəli tədqiqat-inkişaf proqram və layihələrinə çəkilən xərclərin də müəyyən hissəsinin dövlət hesabına maliyyələşdirilməsi və ödənilmə mexanizminin tənzimlənməsi qaydası öz əksini tapıb. Sənəddə "Made in Azerbaijan" brendinin xarici bazarlarda təşviqi və marketinq fəaliyyətinin dəstəklənməsi daha geniş yer alıb. Bu məqsədlə sahibkarların beynəlxalq sərgi və yarmarkalarda vahid ölkə stendi ilə və ya fərdi qaydada iştirak etməsini təmin etmək, "Made in Azerbaijan" brendinin təşviqi üzrə isə dövlət mülkiyyətində olan hüquqi şəxslər vasitəsilə xarici ölkələrdə fəaliyyət göstərən mağazalarda, o cümlədən rüsumsuz ticarət ("duty free") mağazalarında rəflərin təşkili və xarici ölkələrin ictimai yerlərində, kütləvi informasiya vasitələrində təbliği üçün tədbirlər həyata keçiriləcək. Bu zaman ödənilən dəstək məbləğinə "Made in Azerbaijan" brendinin təşviqi üzrə reklam kampaniyasının həyata keçirilməsi xərcləri daxildir.

İl ərzində Vergi Məcəlləsinə, Mülki Məcəlləyə, İnzibati Xətalar Məcəlləsinə, "Publik hüquqi şəxslər haqqında", "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında", "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında", "Banklar haqqında", "Bank olmayan kredit təşkilatları haqqında", "Kredit ittifaqları haqqında", "Antiinhisar fəaliyyəti haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında", "Poçt haqqında", "Sığorta fəaliyyəti haqqında", "Qiymətli kağızlar bazarı haqqında", "Əmanətlərin sığortalanması haqqında", "Lotereyalar haqqında", "Valyuta tənzimi haqqında", "İnvestisiya fondları haqqında", "Lisenziyalar və icazələr haqqında", "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" , "Qiymətli metallar və qiymətli daşlar haqqında", "Dövlət rüsumu haqqında" qanunlara da ölkəmizdə həyata keçirilən iqtisadi islahatlarla əlaqədar müxtəlif dəyişikliklər edilib.

Bildirdi ki, "Əmanətlərin sığortalanması haqqında" qanuna təklif edilən dəyişikliyə əsasən, Əmanətlərin Sığortalanması Fondu borc vəsaitinin alınması üçün Mərkəzi Banka müraciət etdikdə Mərkəzi Bank fonda dövlətin zəmanəti ilə təmin olunmuş kredit verə bilər. Fond tərəfindən hər bir iştirakçı bankda sığortalanmış əmanət üzrə əmanətin 100 faizi həcmində, lakin 30 (otuz) min manatdan çox olmamaq şərtilə kompensasiya ödənilir. Sığorta hadisəsi baş verdiyi günə əmanətçinin iştirakçı bank qarşısında vaxtı çatmış öhdəliyi olduqda əmanət üzrə kompensasiya hesablanmış faizlər də daxil olmaqla, əmanətçinin bank qarşısında icra edilməyən öhdəliyinin hissəsi qorunan əmanətinin məbləğindən çıxılmaqla qalıq hissəsi üzrə ödənilir. "Əmanətlərin tam sığortalanması haqqında" qanunun məqsədi qlobal iqtisadiyyatda baş verən proseslər fonunda ölkədə maliyyə sabitliyinin qorunması, bank sisteminin dayanıqlığının təmin edilməsi və əmanətçilərin banklara etibarını gücləndirməkdir. Bu qanun qüvvəyə mindiyi gündən etibarən faizləri Əmanətlərin Sığortalanması Fondunun Himayəçilik Şurası tərəfindən əmanətlər üzrə müəyyən edilmiş illik faiz dərəcəsi həddində olan bütün qorunan əmanətlər məbləğindən asılı olmayaraq bank fəaliyyətinin həyata keçirilməsi üçün xüsusi razılığa (lisenziyaya) malik olan fondun iştirakçı bankları tərəfindən 3 il müddətində tam sığortalanır.

Azərbaycanda daha dayanıqlı, əhatəli və şaxələndirilmiş iqtisadiyyatın inkişaf etdirilməsi, sosial sahələrin tarazlı inkişafının təmin edilməsi üçün səmərəli milli icra mexanizminin formalaşdırılması xüsusi əhəmiyyət kəsb edir. "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik"dən irəli gələn öhdəliklərlə bağlı dövlət orqanlarının üzərinə düşən vəzifələrin icrasının əlaqələndirilməsi məqsədilə Prezident İlham Əliyevin 6 oktyabr 2016-cı il tarixli fərmanı ilə Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası yaradılıb.

Maliyyə-iqtisadi böhran respublikamızda idxal mallarının qiymətinə də müəyyən qədər öz təsirini göstərib. Buna görə də hazırda yerli məhsul istehsalı bolluğu yaratmaq üçün məqsədyönlü tədbirlər və ardıcıl iqtisadi islahatlar aparılır. Bu baxımdan Vergi Məcəlləsində və "Gömrük tarifi haqqında" Qanunda investisiyanın təşviqi sənədini almış şəxslər və fərdi sahibkarlar tərəfindən ölkəyə idxal olunan texnika, texnoloji avadanlıqlar və qurğular əlavə dəyər vergisi və gömrük rüsumlarından azad olunub.

Dekabrın 6-da isə Prezident İlham Əliyev "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında" fərman imzalayıb. Strateji xəritələrin hazırlanması zərurəti ölkəmizin yeni inkişaf mərhələsinə qədəm qoyması ilə bağlıdır. Bundan sonra hazırlanacaq dövlət proqramları, inkişaf konsepsiyaları, strategiyalar, tədbirlər planları strateji yol xəritələrinə uyğun olacaq. İqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri Azərbaycanda davamlı iqtisadi inkişaf əsasında iqtisadiyyatın rəqabətqabiliyyətliliyini, inklüzivliyini və sosial rifahın daha da artırılmasını təmin edəcək.

23.12. 2016 tarixində "Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul olunub. Bu Qanunun məqsədi Azərbaycan Respublikası ərazisində mülki dövriyyənin iştirakçıları arasında aparılan əməliyyatların və hesablaşmaların şəffaflığını, istehlakçıların hüquqlarının müdafiəsini təmin etmək, nağd pul hesablaşmalarının nağdsız hesablaşmalarla əvəzlənməsini stimullaşdırmaq, bank sisteminin inkişafını sürətləndirməkdir.

**Postdövran dönəmində Azərbaycan iqtisadiyyatı qarşısında mühüm çağırışlar və institusional islahatlar**

2014-cü ildən başlayaraq neft qiymətlərinin kəskin azalması və ticarət tərəfdaşı ölkələrində iqtisadi böhran nəticəsində ölkədə iqtisadi artım sürətinin yavaşıması, institusional və struktur çağırışlar, tədiyə balansı və qeyri–neft büdcə kəsiri, maliyyə–bank sektorunda baş verən proseslər fonunda Azərbaycanda yeni iqtisadi inkişaf yanaşmasına keçid zərurəti yaranmışdır.

Yeni iqtisadi reallıqların milli iqtisadiyyata mənfi təsirlərini minimuma endirmək, xarici və daxili balansı korreksiya etməklə makroiqtisadi sabitliyi qorumaq Azərbaycan dövlətinin əsas prioritetlərindən biri olmuşdur.

Ucuz neft qiymətləri dövrünün başlanması Azərbaycan iqtisadiyyatı qarşısında əhəmiyyətli çağırışlar formalaşdırmış oldu. Belə ki, yeni şəraitin milli iqtisadiyyata əsas təsir kanalları tədiyə balansı, dövlət maliyyəsi, o cümlədən strateji valyuta ehtiyatları; özəl investisiya tələbi olmuşdur. Yeni dövrün reallıqlarına uyğun olaraq, Azərbaycan hökuməti dövlət maliyyəsinin bütövlüyünü təmin etmək məqsədilə fiskal konsolidasiya tədbirlərinə qərar vermişdir.

İnstitusional islahatların aparılması üçün aşağıdakı işlərə start veriləcəkdir:

- Məhkəmə-hüquq islahatlarının davam etdiriləcəkdir.Bu istiqamətdə islahatların sürətləndirilməsi hazırkı və potensial investorlarda investisiyalarının qorunmasına, sərmayə müqabilində gəlir götürəcəklərinə olan inamı və güvəni yüksəldəcəkdir.
- Qanunun aliliyinin gücləndirilməsi.Qanunvericiliyin təkmilləşdirilməsi, qanunların icrası mexanizmlərinin gücləndirilməsi və şəffaflaşdırılması, onların proqnozlaşdırılması imkanlarının artırılması və eyni zamanda, qanunvericilik təşəbbüslərinin dəstəklənməsi mexanizmlərinin genişləndirilməsi xüsusi aktuallıq kəsb edir.
- Biznes mühitinin yaxşılaşdırılması. Biznesin dövlət tənzimləmə mexanizmlərinin effektivliyinin artırılması, vergi–gömrük idarəetməsinin keyfiyyətinin daha da yüksəldilməsi, bazara daxilolma məhdudiyyətlərinin minimuma endirilməsi, eyni zamanda, azad rəqabət mühitinin təmin edilməsi biznes mühitinin yaxşılaşdırılmasına imkan verəcəkdir. Bununla yanaşı, dövlət sektorunun kommersiya fəaliyyətini (sənaye, nəqliyyat, rabitə, maliyyə xidmətləri və s.) məhdudlaşdırmaqla özəl təşəbbüskarlıq üçün imkanları genişləndirmək mühüm əhəmiyyət kəsb edir. Yeni artım yanaşmasının maliyyələşmə mənbələrinin genişləndirilməsi islahatların gündəliyində duran mühüm məsələlərdəndir. İlk növbədə, dövlət və özəl maliyyələşmə mənbələrinin imkanlarının dəqiqləşdirilməsinə, xarici investisiya qoyuluşlarının ciddi şəkildə təşviq edilməsinə ehtiyac vardır;
- Dövlət maliyyələşdirməsi. İlk növbədə prioritet inkişaf sektorlarının müəyyənləşdirilməsi labüddür. Bundan sonra, həmin sahələrə Sahibkarlığa Kömək Milli Fondu və digər maliyyə mənbələrinin vəsaitləri hesabına sahəvi kreditləşməni reallaşdırmaq mümkündür.
- Özəl yığımların investisiyaya yönəldilməsi. Biznes mühitinin yaxşılaşdırılması biznes və ev təsərrüfatlarının yığımlarının investisiya şəklində iqtisadiyyatın inkişafına yönəldilməsinə imkan verə bilər;
- Xarici maliyyələşmə mənbələrinin genişləndirilməsi.Ölkədə məhkəmə-hüquq islahatlarının sürətləndirilməsi, qanunun aliliyinin təmin edilməsi xarici investorların biznes təşəbbüslərinin genişlənməsinə təkan verə bilər. Bu islahatların aparılması ilə yanaşı, xaricdə intensiv şəkildə investisiya yarmarkalarının keçirilməsi, prioritet sektorlara investisiya qoyuluşlarında müəyyən imtiyazların verilməsi (daxili investorlarla eyni şərtlərlə) yeni artım yanaşmasının xarici mənbələr hesabına maliyyələşdirilməsini asanlaşdıra bilər[4].

**Nəticə**

Yeni artım yanaşmasının effektivliyinin təmin edilməsi üçün iqtisadi siyasətin və iqtisadi siyasət quruculuğu prosesinin və icrası mexanizmlərinin daha da təkmilləşdirilməsinə və müasirləşdirilməsinə ehtiyac vardır. Bunun üçün aşağıdakı islahatlar tələb olunur:

- Büdcə -vergi siyasətin səmərəliliyinin yüksəldilməsi.
- Monetar siyasətinin səmərəliliyinin yüksəldilməsi.
- İqtisadi siyasətin iqtisadi agentlər tərəfindən proqnozlaşdırıla bilməsi adekvat gözləntilərin formalaşmasına və bu əsasda rasional qərarların qəbul edilməsinə imkan verən iqtisadi siyasət modeli;
- Yüksəksəviyyəli koordinasiyanın təmin edilməsi. Makroiqtisadi, struktur siyasətinin formalaşdırılması və icrası zamanı qurumlar arasında koordinasiya institutunun möhkəmləndirilməsinə, effektivliyin daha da yüksəldilməsini təmin edən Azərbaycan Respublikası Prezidentinin 15 iyul 2016-cı il tarixli Fərmanı ilə Maliyyə Sabitliyi Şurasının fəaliyyətinin daha da genişləndirilməsi iqtisadi siyasətin səmərəliliyinin yüksəldilməsinə imkan verəcəkdir.

Bazel standartlarına keçid çərçivəsində sistem əhəmiyyətli banklar üçün diferensial tənzimləmə mexanizminin tətbiqi ilə bağlı prudensial tələblərə dəyişikliklər nəzərdən keçiriləcəkdir.

Dünya təcrübəsinə əsaslanaraq, maliyyə sabitliyi siyasəti işləyib həyata keçirərkən aşağıdakı prinsipləri rəhbər tutmağı məqsədəuyğun hesab edik:

1. Sistemli riskin diaqnostikası nəzarət nəticəsində əldə olunan məlumatlara, bazar göstəricilərinə və sistemli riskin aqreqasiya edilmiş indikatorlarına əsaslanmalıdır. Buna görə də milli tənzimləyici ən azı

maliyyə vasitəçiliyinin üstünlük təşkil edən tipini, milli maliyyə sisteminin inkişaf səviyyəsini və milli maliyyə bazarının dərinliyini, habelə müxtəlif kredit məhsullarının tələb və təklif dinamikasının tendensiyalarını nəzərə almaqla milli maliyyə sistemi üçün ən əhəmiyyətli olan göstəriciləri seçməlidir.

2. Pul siyasəti hazırlanar ikən, milli maliyyə bazarının bütün seqmentləri ilə maliyyə təsisatları arasındakı qarşılıqlı əlaqələrin dinamikasının monitorinqini aparmalı, həm də milli maliyyə vasitəçilərinin transsərhəd əlaqələrini dərk etməlidir. Stress situasiyalarının təcrübəsi göstərir ki, maliyyə təsisatları arasında qarşılıqlı asılılıqlar tez bir zamanda güclənə bilir ki, bu da öz növbəsində gözlənilməz neqativ şok zamanı maliyyə xidmətlərinin təklifində pozuntulara və/ və ya bu təkliflərin dayandırılmasına gətirib çıxarır. İqtisadi məzmununa görə ekvivalent xidmətlərin təklif edilməsi üzrə maliyyə aktivliyi maliyyə bazarının bir seqmentindən başqa seqmentlərə yerini dəyişə bilir. Maliyyə vasitəçiliyinin bu xüsusiyyəti ya müxtəlif maliyyə sahələrinin milli tənzimləyiciləri arasında mütəmadi informasiya mübadiləsini, ya da tənzimləyici səlahiyyətlərin bir orqanın əlində cəmləşdirilməsini tələb edir.

3. Monetar orqan pul siyasəti alətlərindən istifadə edərək hal-hazırda daxili bazarda maliyyə stabilliyini daha çox təhdid edən sistemli riskin və maliyyə disbalansının konkret amillərinin məhdudlaşdırılmasına yönələn infrastruktur siyasəti aparmalıdır. Onun istifadə etdiyi alətlər ənənəvi, lakin maliyyə vasitəçiləri tərəfindən həddindən artıq (sistemli stabillik nöqteyi-nəzərindən) riskləri götürməsini məhdudlaşdıran prudensial tələblərə söykənməlidir.

4. Monetar orqanın cəmiyyətlə kommunikasiyalarının xarakteri, forma və tezliyi: milli maliyyə bazarında maliyyə stabilliyinin vəziyyətinin cari qiymətləndirilməsinə uyğun gəlməli; tətbiq olunan pul siyasəti tədbirlərini izah etməli; cəmiyyətin gözləmələrini idarə etmək imkanını verməlidir[5].

## ƏDƏBİYYAT


1. Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 06 dekabr 2016// http://www.president.az/articles/21953
2. Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi//Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.
3. http://www.cbar.az/assets/4177/Illik_Hesabat_2015_son.pdf
4. Z.F. Məmmədov. Ucuz neft qiymətləri mərhələsində Azərbaycan iqtisadiyyatında köklü islahatlar: məqsəd və vəzifələr // AMEA Qafqazşünaslıq İnstitutu. 17-18 aprel 2017. Beynəlxalq konfrans
5. З.Ф.Мамедов. Архитектура финансового регулирования и надзора: мировой опыт и актуальные тенденции // «Архитектура финансов: антикризисные финансовые стратегии в условиях глобальных перемен». VIIМеждународной научно-практической конференции СПбГЭУ. 22 апреля 2016 года


## РЕЗЮМЕ

**Захид Мамедов**

**Основная характеристика перпспективы национальной экономики Азербайджана : современные вызовы и институальные реформы**

В статье анализируются цели и задачи коренных изменений в экономике Азербайджана на этапе низких цен на нефть. В исследовании особо отмечаются цели и задачи законов, обеспечивающих поддержку экономическим реформам в стране. Научно-теоретические положения, практические результаты, выдвинутые в исследовательской работе могут быть использованы в процессе разработки приоритетных направлений экономической политики. С целью определения и осуществления направлений перспективного развития страны даются научно обоснованные предложения, исходящие из «Главных направлений стратегической дорожной карты относительно национальной экономики и основных секторов экономики».

## ABSTRACT

**Zahid Mammadov**

**The main characteristic of the perspective of Azerbaijan's national economy: modern challenges and institutional reforms**

The goals and tasks of the radical reforms are analyzed and evaluated in the article at the period of cheap oil prices in Azerbaijan Economy. The purpose and objectives of the laws supporting the economic reforms are particularly mentioned in the research work. Scientific-theoretical issues and practical results of the work can be used in the process of preparation in the priorities direction of the economic policy. For the determination of prospects development orientation and targets, to ensure implementation purpose some scientific proposals are grounded for the analyses of “the main sectors of the national economy and economy on the basis of strategic road map main direction.

NDU-nun Elmi Şurasının 30 mart 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 07).

Məqaləni çapa təqdim etdi: İqtisad üzrə elmlər doktoru, professor A.Rüstəmov

**ƏLİ HƏSƏNOV**
**ÜLVİYYƏ İSGƏNDƏROVA**
*Naxçıvan Dövlət Universiteti*

**UOT:330.1**

# NAXÇIVAN MR-İN DAŞ DUZ EHTİYATLARI VƏ İQTİSADİ QİYMƏTLƏNDİRİLMƏSİ

***Açar sözlər:*** *Naxçıvan MR, daş duz ehtiyatlar, iqtisadi qiymətləndirmə*
***Key words:*** *Nakhchivan AR, rock-salt reserve, economic value*
***Ключевые слова:*** *Нахчыванской АР, запасы каменной соли, экономическая оценка*

Kiçik əraziyə malik olmasına baxmayaraq MR ərazisi filiz və qeyri-filiz faydalı qazıntıları ilə zəngindir.

Qeyri-filiz faydalı qazıntıları içərisində daş duz və tikinti materialları yataqları daha əhəmiyyətlidir. Daş duz ehtiyyatları Babək rayonunda Duzdağ, Nehrəm kəndi, Kəngərli rayonun Süst-Təzəkənd, Şərur rayonunun Püsyan kəndi ətrafında və s. yayılıbdır. Duzdağ və Süst yataqlarının ehtiyyatı 97 mln ton, Nehrəm yatağının ehtiyatı isə 1,5 - 2 mld. tondan çoxdur (1 səh.146-147).

Ərazinin geoloji quruluşu və aparılmış ilkin tədqiqat işləri göstərir ki, ərazidə dünya əhəmiyyətli, böyük potensiala malik duz ehtiyyatları var. Bu ehtiyyatlarınsa çox cuzi bir hissəsindən istifadə edilir. Ərazidə duz ehtiyyatlarının aşkar edilməsi üçün tədqiqat işləri aparılıbdır. Digər istiqamətdə aparılan tədqiqat işləri duz ehtiyyatlarının müəyyən edilməsinə köməklik etmişdir.

1950-1955-ci illərdə Naxçıvan MR-in Böyükdüz sahəsində, Şəkərabad sahəsində neft və qaz axtarışı işləri üzrə qazma işləri aparılmışdır.

Mulda haqqında məlumatın genişləndirilməsi üçün 1953-cü ildə Püsyan kəndindən rayon mərkəzinədək 15-25 km-lik profil üzrə 10 quyu qazılmışdır. Quyularda 150-200 metr dərinlikdə daş duz açılmışdır. Kəsilişin üst hissəsi ayrı-ayrı laylardan, aşağı hissəsi isə 40-50 metrə qədər qalınlığı olan bütöv qatdan ibarətdir. Daş duzun qalınlığı 60-80 metrdən 200-210 metrə qədər dəyişir (4 səh.206).

Müəyyən olunmuşdur ki, Püsyan kəndi sonrasında duz layları daha geniş yayılıb. Əlavə tədqiqat işləri aparılsa burda ehtiyyatı bir neçə milyard tonlarla hesablanan duz yatağı aşkarlana bilər.

Duzdağ daş duz yatağından istifadənin tarixi daha qədimdir. İnsanlara məlum olan bu yataq ilk dəfə Q.Voskaboynikov tərəfindən qeyd alınmış və 1830-cu ildə cap edilmiş "Naxçıvan daşduz yatağı haqqında qeydlər" məqaləsində yataq haqqında məlumat verilmişdir. Sonrakı illərdə yataq haqqında Q. Abix (1857), Q. Q. Çulukudze (1869), K. N. Pattenqols (1930) və b. tədqiqatçılar məlumat vermişlər.

1940-cı illərdən sonra Naxçıvan MR ərazisində geniş tədqiqat işləri aparılmış və Duzdağ yatağı haqqında geniş məlumatlar edilmişdir. 1945-ci ildə Ş.Ə.Əzizbəyov ərazinin geoloji quruluşunun öyrənilməsinin kompleks tədqiqinə başlamışdır. 1949-1951-ci illərdə Naxçıvan çökəyinin xəritəsi alındı. Müəyyən edilmişdir ki, yataq Üst Miosen və IV dövr süxurlarından təşkil olunmuşdur. Üst Miosen çöküntüləri iki əsas qatdan birinci qat alt və orta sarmat, ikinci qat isə üst sarmat çöküntülərindən ibarətdir.

Alt və orta sarmat qatları Böyükdüz, Pilovtəpə və mədən zonsında qırmızımtıl-qonur, qonur-qəhvəyi, qəhvəyi-boz, boz, yaşıl-boz və sarı-boz gillərdən və qum daşlarından, gil və əhəng qarışıqlı çöküntü və mergellerdən və əhəng daşlarından və alevrolitlərdən və vulkanik qumlardan ibarətdir(4 səh.105).

Alt və orta sarmat çöküntüləri Pilovtəpədə 735 metr, mədən zonasında 595 metr, Böyükdüzdə isə 620 metr qalınlığındadır. Üst sarmat çöküntüləri isə sarımtıl-boz, boz-qəhvəyi rəngli əhəngli gillərdən, nazik gips qatından və gipslənmiş qumlardan və alt qatda daş duzlarından ibrətdi. Böyükduz strukturunun mərkəzi hissəsində üst sarmat çöküntülərin qalınlığı 196 metr qalınlığındadır. Alt IV dövr çöküntülərinin qalınlığı 40-50 metr olub zəif sementləşmiş konqlomeratlarından və çaqıl daşlarından ibarətdir. Ş. Ə. Əzizbəyov əsas tədqiqatları Duzdağ sinklinalında və böyük düz antsinklinalında aparılmışdır.

Duzdağ sinklinali Baş-başı stansiyasındakı 90-80 şimal-şərq istiqamətində Duz dağ platosunun cənub-şərq boyu yamacı boyunca uzanır.

Şərq qutaracağının axırıncı qırışıqlığının qurtaracağından bu ox şimal-qərb istiqamətdə dönərək Gülşərabad kəndinə qədər uzanır. Cənub-şərq və şərq yamacları boyunca Cəhri kəndinə qədər uzanır (2 səh.465).

Duzdağ sinklinalı şimal-qərbdə Böyükdüz antisinklinalına yaxınlaşır. Demək olar ki cənub-qərbdən şimal-şərqə paralel uzanır. Antisinklinal Duzdağ platosunun şimal qurtaracağında aydın nəzərə çarpır, sonra isə

pliosendən sonrakı süxurlarla üzəri örtülür və o, platonun qərb yamacının altına keçərək Böyükdüzə qədər uzanır və Böyükdüz hissəsində onun üzəri IV dövr çöküntüləri ilə örtülür.

Qırışıqlıq Tazıuçan yüksəkliyinin ətəyinə qədər davam edir. Qırışıqlıq Böyükdüz hissəsində həm şimal-şərq həm də cənub şərq istiqamət alır və braxiantiklinal quruluşu alır və nüvədə və qanadlarda orta miosonun duzlu alt və orta sarmafil çöküntüləri ilə örtülüdür. Cənub-şərq istiqamətdə bu qırışıqlıq 5-8-ə cənuba sonra isə 25-30-a şimala dönür.

Böyüdüz antisinklinalının cənub qərb qanadı dəyişikliyə uğrayaraq mürəkkəbləşir. Cənub-qərbdən o $80^0$-ə şimal-şərqə dönür. Duzdağ platosunun cənub qərb ətəyində o şimala qatlanır, istiqamətini 20-$25^0$ şimal-şərqə dönür, ümumi ox istiqamətində platonun qərb yamacınadək uzanır. Duz yatağında duzun qalınlığı 6,7 metr olub bir-birinə yaxın 11 təbəqədən ibarətdir. Bu təbəqələr bir-birindən gilli, qumlu, mergilli qatlarla ayrılır. Bu qatların ümumi qalınlığı 1,5 metrə çatır. Yatağın mergelli, gilli, qumlu qatlarla ümumi qalınlığı 8,2 metrə çatır. Duz orta keyfiyyətli olub, tərkibində gil, gips var, rəngi şəffaf deyil; açıq boz, yaşılımtıl rəngli olub xırd dənəvərlidi (3 səh. 113).

Çəkiclə zərbə vurduqda zəif bitium iyi gəlir. Çatlarda qalitə rast gəlinir. İstismar edilməsi üçün duzun kimyəvi tərkibi aşağıdakı kimidir.

NaCl 81,5-84,7%, $CaCl_2$ 0,45-0,70%, $MgCl_2$ 0,42-0,64%, $CaSO_4$ 1,1-1,2%, $H_2O$ 0,17-0,22% və həll olmayan qalıq 13,15-15,59%-dir (2 səh.465).

Duz ehtiyatı kateqoriyalar üzrə aşağıdakı kimidir: $A_2$ -5,048 m; $C_1$ – 11,939 min t 1970-ci ilin məlumatına görə ehtiyat balansı belədir (min t-la); A-15,973; B-17,955; $C_1$ -60,984; A+B+$C_1$=94,919; $C_2$-37,810-dur. Təxmini ehtiyat isə 1,13 milyard tondur(4 səh.132)

Nehrəm daşduz yatağı-Nehrəm kəndinin ətrafında, Qızılvəng stansiyasından 4 km şimal, şimal-şərqdə yerləşir.Yataq 1948-1950-ci illərdə B. P. Juze tərəfindən tədqiq edilmişdir. B.P.Juze saldığı kəsimdə aşağıdkı qatları müəyyən etmişdir. Qatlrın əsası zəif əhəngləşmiş və qalınlığı 5,5 metr olan qara gil qatı 20-25 sm qalınlığında şəffaf mavi rəngli anhidrit qatı, qalınlığı 3-10 sm olan qırmız-boz qum qatı (4 səh. 132-133).

Bu gillər boz-yaşıl rəngli gilli qumlarla yanaşı nazik qıvrılmış ağ-mavi rəngli anhidritə və təşahüdlü 2-3 sm-ə qədər ölçülü daşduza da rast gəlinilir. Boz-yaşıl gilin qalınlığı 12,7 metrdir.

Kəsimdə daşduz yatağı yerləşir ki, onun qalınlığı cənub-şərqdən şimal-qərbə 46,4 metrlə 84,8 metr arasında dəyişir. Bu yataqda duzun qalınlığı Naxçıvan Duz mədəninin qalınlığından 7,2 dəfə çoxdur. Duz üstdən gips qatı ilə örtülüdür. Bu qatın qalınlığı duz qatının qalınlığı ilə əlaqədar olaraq dəyişilir (2 səh. 465).

Gipsli qat gipsin, anhidritin, gilli və gilli qumların çox olması ilə yaranır. Üst hissədə Karaqan dövrünün boz qırmızı rəngli zəif əhəngləşmiş qatı yerləşir. Bu qatdan başqa kəsimdə 4 ağ rəngli qat və boz-yaşıl rəngli 3-15 metr qalınlığında vulkanik küllərinə rast gəlinir. Bu vulkan külləri çox güman ki, Salvartı vulkanın külləridir. Deməli sönmüş vulkan olan Salvartı vulkanı Karaqan mərhələsində püskürmüşdür.

Qonur-qırmızı gil qatının qalınlığı cənub-şərqdən şimal-qərbə 41,5 metrdən 158,4 metrə qədər artır. Ərazinin üzəri qalınlığı 2-10 metr olan IV dövrün qumları, gilləri və qumlucaları ilə örtülübdür.

Tədqiqatlar nəticəsində müəyyən olunubdur ki, enlim istiqamətində antiklinalın qanadları (5-$10^0$-ə) az meilli düşür. Nehrəm kəndi zonasında qırışıqlıq IV dövr çöküntüləri ilə ortülübdür. Nehrəm qırışıqlığı Qızılqaya qırışıqlığının davamı olub, Nehrəm kəndindən şərqdə üst Oliqasen-alt Miosen və alt-orta Oliqasen çöküntüləri ilə örtülübdür. Əsas yataq Nehrəm kəndindən şərqə və qərbə tərəf uzanır. Yatağın sahəsi 0,64 $km^2$ olub 1,6 km məsafədə düşməsi qeyd olunur. Yatağın qalınlığı 46,4 metrdən 84,8 metrə qədər dəyişilir (2 səh.465).

Yatağın tərkibində duzdan başqa digər qarışıqlar boz-yaşıl rəngli gil, qıllı qumlar, anhidrit, gips həmçinin terrigen materiallar var. Qatların sayı və qalınlığı cənub-şərq istiqamətdə artır. Bu isə sahildən məsafə ilə əlaqəlidir (2 səh. 466).

| Quyuların nömrəsi | 6 | 1 | 2 | 3 | 4 |
|---|---|---|---|---|---|
| Duz yatağının qalınlığı (m-lə) | 46,4 | 63,3 | 84,6 | 60,5 | 84,8 |

Nehrəm duzu özünün şəffaf ağ rəngdən boz və tünd-boz rəngi və kristal formada olması ilə seçilir. Duzun rəngi onun tərkibində olan gil hissəciklərindən və gətirmə materiallarından aslıdır. Yatağın düşən hissəsində terrigen materiallar, gilli və qumlu materiallar azalır.

Nehrəm duzunun kimyəvi tərkibini B.O.Zuze tədqiq etmiş, analiz üçün 183 nümnə götürmüş və müyyən etmişdir ki onun tərkibində olan Natrium xlorun miqdarı yeyinti sahəsi üçün tələblərə cavab vermir. (2 səh.466)

| Növün adı | Quru maddənin nəticəsi (%-lə) (ne menec) | Suda həll olmayan quru qalığı (%-lə) (ne balec) | Rütubət (%-lə) (ne balic) | Quru maddələrin kimyəvi tərkibi (ne balec) | | |
|---|---|---|---|---|---|---|
| | | | | Ca | Mg | $Fe_2O_3$ |
| ekstra | 99,2 | 0,05 | 0,05 | - | 0,03 | 0,0 |
| əla | 98,0 | 0,2 | 0,8 | 0,6 | 0,1 | - |
| birinci | 97,5 | 0,5 | 0,8 | 0,6 | 0,1 | - |
| ikinci | 96,5 | 1,0 | 0,8 | 0,8 | 0,25 | - |

Quyular üzrə natrium xlorun nəticələri(2 səh.467)

| Quyuların nömrəsi | 5 | 2 | 4 | 1 | 3 | 6 |
|---|---|---|---|---|---|---|
| Natrium xlorun miqdarı | 95,81 | 92,53 | 91,00 | 92,73 | 93,24 | 92,61 |

Nümunələrdə maqnezium duzları normadan artıq olmamışdır. Bu cəhətdən bu yataq Duzdağ mədəninə oxşardır

Kalsiumun miqdarı dəyişkəndir. İkinci növün normasına uyğundur. Şimal-qərb istiqamətdə miqdarı azalır.

Maqneziumun və kalsiumun miqdarı quyular üzrə aşağıdakı kimidir (2 səh.468).

| Quyuların nömrəsi | 5 | 2 | 4 | 1 | 3 | 6 |
|---|---|---|---|---|---|---|
| Mg % | 0,04 | 0,04 | 0,04 | 0,03 | 0,03 | 0,06 |
| Ca % | 0,52 | 0,65 | 0,81 | 0,89 | 0,72 | 0,74 |

Nehrəm duzunun tərkibində natriumlu kükürd turşusu və kalium xlorid var (2 səh.468).

Nehrəm duz yatağı ehtiyyatına görə Cənubi Qafqazda ən böyük olub sənaye əhəmiyyətlidir.Yatağın geoloji-kəşfiyyat aparılmış hissəsində duzun ümumi ehtiyatı kateqoriyalar üzrə belədir(min tonla); A-313,700; B-313,624; $C_1$ -365,176; A+B+C-814,500. Yatağın ehtiyatı isə 2-2,5 milyard ton güman edilir. Nehrəm daşduz yatağının tükənməz ehtiyatı əsasında xörək duzu və kalsitləşmiş soda almaq üçün burada uyğun kombinatın tikilməsi zəruridir( 4 səh.133)

Muxtar Respublika ərazisinin daşduz ehtiyatları mütəxəssislər tərəfindən kateqoriyalar üzrə qiymətləndirilmiş və onların dəqiq ehtiyatları və həmçinin kimyəvi tərkibləri verilmişdir.Ancaq adambaşına düşən həcminə və istehsal həcminə görə çataçağı illər üzrə qiymətləndirmə aparılmamışdır.Təkcə duzdaq yatağının ehtiyatı 96 milyon ton hesablanmışdır. Azərbaycan üzrə bu yataqdan adambaşına 10,6 ton, Naxcıvan MR üzrə isə 234 150 tondan çox daşduz düşür.İstehsal həcminə görə iqtisadi qiymətləndirmə apararkən qeyd etmək lazımdır ki. Mütəxəssislərin hesablamalarına görə Azərbaycan Respublikasının kimya, yeyinti, məişət və s. sahələrinin tələbinin ödənilməsi üçün ildə respublikamıza 700 000 ton daşduz tələb olunur. Bu baxımdan tək Duzdaq daşduz ehtiyatından istifadə edilərsə bu yatağın ehtiyatı 150 ilə çatar. Hər hansı bir istehsal müəssisəsinə qoyulan investisiya xırcləri müəssisə işə düşdükdən 2 il sonra bütün xərclər ödənilir.Daşduz ehtiyatından istifadə edilməsi üçün ərazidə istehsal müəssisələrinin kimya kombinatlarının tikintisinə böyük ehtiyac vardır.

## ƏDƏBİYYAT


1. Babayev S.Y. Naxçıvan Muxtar Respublikasının fiziki coğrafiyası. Bakı, 1999, 226 s.
2. Азизбеков Ш.А. Геология Нахичеванской АССР. Москва, 1961, 502 стр.
3. Həsənov Ə. Naxçıvan Muxtar Respublikasının təbii sərvətləri və onlardan istifadə yolları. Bakı, 2001, 246 s.
4. Naxçıvan Muxtar Sovet Sosialist Respublikası 75. Bakı, 1975 , 358 s.
5. Минс А.А. Экономическая оценка минеральных ресурсов. Москва, 1972, 257 s
6. Русанов Д.К. Экономическая оценка минеральных ресурсов. Москва, 1987 , 196 s.
7. Naxçıvan MR Dövlət Statistika Komitəsi. Sosial, iqtisadi inkişaf. Naxcıvan, 2012, 120 s.

## ABSTRACT

**Ali Hasanov**
**Ulviya İskenderova**

**The rock-salt reserves of Nakhchivan Autonomic Republic and their economic value**

In the article the history of the creation and studying of salt reserves is dealt with in the territory of Nakhchivan Autonomik Republic.

Salt reserves have been spread in Duzdagh field, Nehram, Sust of Babek region, as well as around Pusyan village of Sharur region. The reserve of Duzdagh and Sust fields is 97 mln tones, the reserve of Nehram field is 1,5-2 billion tones. A chain of Duzdagh field lies across south-west of Jahri village, south-east of Gulshanabad village. At one times people in Payız village used to dig out salt and clay with primitive method.

Salt layer in Sharur region is in 150-200 m deepth,40-80 m thickness. Usage of Duzdagh rock-salt field dates back very ancient times. For the first time the scientific researches about the field have been found in Voskaboynikov' s article (1830); G.Abikh (1857); G.G.Chulikidze (1869); K.N.Paffassgols (1930) and other explorers have given much information about the field.

The salt comprises of amount admixtures, as well as valum according to categories have been mentioned in the article.

The salt reserves of Nakchivan is evaluated per captia and due to the demand for rock-salt of Azerbaijan Republic. It's been determined that per captia needs 10,6 tones salt in Azerbaijan. If any plant is constructed for only using of Duzdagh mine its operation will be 150 years and will meet all demands of Azerbaijan.



## РЕЗЮМЕ

**Али Гасанов**
**Ulviya İskenderova**

**Запасы каменной соли Нахчыванской Автономной Республике и их экономическая оценка**

В статье говорится об истории создания и изучения запасов каменной соли на территории Нахчыванской АР. Соляные запасы распространены в селе Неграм Бабекского райоиа, в соляных залежах Суста, Дуздага, одновременно в окрестностях село Пусян Шарурского района.

Запасы залежей Дуздага и Суста составляют 96 млн. тонн, а запасы Неграмской залежи более 1,5-2 миллиардов тонн. Одно крыло Дуздагской залежи тянется на юго-запад села Джагри до юго-восток села Гюльшанабад. Когда-то в селе Паиз добывали соль и глину примитивным способом. Толщина соляного слоя Шарурской залежи на глубине 150-200 метров равна 40-80 метрам. История использования соляной залежью каменной солью Дуздага очень древняя. Сведения о залежах соли впервые в научной форме встречаются в статье Г. Воскабойникова(1830). Г. Абих(1857), Джуликидзе (1869), К.Н.Паффенголс и др. исследователи дали обширное сведение о залежах.

В статье были указана количество примесей в составе соли, объём по категориям. Запасы Нахчыванской соли оценены на душу населения и по потребностям азербайджанской республики. Определено, что на душу населения Азербацджана приходится 10,6 тонн соли. Если создадутся учреждение полностью обеспечивающие нужду Азербайджана,то они будут действовать более 150 лет.


---


NDU-nun Elmi Şurasının 30 mart 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 07).

Məqaləni çapa təqdim etdi: İqtisad üzrə elmlər doktoru, professor A.Rüstəmov

**CEYHUN MAHMUDOV**
Naxçıvan Dövlət Universiteti
*ceyhun.ilhamoglu@gmail.com*

**UOT: 658**

# MODERN İPƏK YOLU LAYİHƏSİ VƏ NAXÇIVAN

***Açar sözlər:*** *Böyük İpək Yolu, TASİS, TRACECA, Bakı-Tbilisi-Qars dəmiryolu xətti, iqtisadi inteqrasiya, iqtisadiyyatın diversifikasiyası*
***Key words:*** *the Great Silk Road, TACIS, TRACECA, the Baku-Tbilisi-Kars railway, economic integration, economic diversification*
***Ключевые слова:*** *Великий Шелковый Путь, ТАСИС, ТРАСЕКА, железная дорога Баку-Тбилиси-Карс, экономическая интеграция, диверсификация экономики*

Azərbaycanı uzaq ölkələrlə birləşdirən, inkişafın, tərəqqinin simvolu rolunu oynayan tarixi İpək Yolu termini ilk dəfə 1877-ci ildə alman coğrafiyaşünası Ferdinand fon Rixthofen tərəfindən işlədilmişdir. Ferdinand fon Rixthofenin Böyük İpək Yolu adlandırdığı marşrut eramızın I minilliyindən başlayaraq II minilliyin ortalarına qədər Avropa və Asiyadan çarpaz şəkildə keçən marşrutlar şəbəkəsini əks etdirirdi. Qitələrarası mədəni mübadiləyə imkan yaradan minlərcə kilometr uzunluğundakı karvan yolu – Böyük İpək Yolu Asiyanı Avropaya bağlayan ticarət yolu olmaqla bərabər iki min ildən artıq bölgədə yaşayan mədəniyyətlərin, dinlərin və irqlərin izlərini özündə əks etdirməkdədir. Qeyd edək ki, İpək Yolu sadəcə ticarət yolu olmamış, eyni zamanda, şərqdən qərbə və qərbdən şərqə elmi-texnoloji innovasiyaların, dinlərin və mədəniyyətlərin axını yolu olmuşdur. Belə ki, barıt, maqnit kompası, çap dəzgahı, musiqi alətləri, ipək, keramika və boyalı məmulatlar kimi yeniliklər bu məmulatların yaranması haqqında təsəvvürü olmayan Qərbə Şərqdən ötürülmüşdür.

Azərbaycanın sosial-iqtisadi inkişafında mühüm rol oynayan Böyük İpək Yolunun *birinci qolu* Kopetdağın şimal ətəyi ilə Xəzərin cənub hissəsindən keçib Azərbaycan vasitəsilə, *ikinci qolu* Təklə-məkan səhrasının şimalından ötüb Dərbənd, Şamaxı-Gəncə, Batumi-İstanbula uzanaraq Balkan yarımadası vasitəsilə Avropanın mərkəzinə istiqamətlənirdi. Çin diplomatı və səyyahı Çyan Syanın məlumatlarına görə eramızdan 4-5 əsr əvvəl fəaliyyətə başlayan Böyük İpək Yolu başlanğıcını Koreyadan götürüb Çin, Monqolustan, Mərkəzi Asiya, Azərbaycandan keçərək Aralıq və Qara dəniz sahilləri boyunca Avropaya gedib çıxırdı. Karvan yolu adını yuxarıda qeyd etdiyimiz istiqamətlərdə daşınan çin ipəyindən götürməsinə baxmayaraq artıq X – XI əsrlərdə Azərbaycan ipəyi onu bazardan sıxışdırıb çıxarmağa müvəffəq olmuşdu. Ticarət əlaqələrinə imkan yaradan Böyük İpək Yolunun ilk şaxəsi Cənubi Azərbaycan ərazisindən keçdiyindən bu ərazi ilə geniş əlaqəsi olan Dərbənddə, Şirvanda, Şəkidə, Gəncədə, Naxçıvanda, Beyləqanda,Qəbələdə, Təbrizdə ipəkçiliyin inkişafına güclü təkan yaranmış, onların hər birinin ipəkçilik ticarət mərkəzinə çevrilməsinə səbəb olmuşdur. Bu marşrutla Şərqdən Mərkəzi Avropa ölkələrinə əvvəlcə ipək daha sonra ədviyyat, qızıl, gümüş, mirvari və s. daşınmışdır. Avropadan Şərq ölkələrinə isə tacirlər qalay, sink, civə, mahud parça və s. aparmışlar. Bu baxımdan Azərbaycanın Bakı, Naxçıvan, Dərbənd, Şamaxı, Şirvan bölgələrində tacirlərin rahatlığını təmin etmək məqsədilə karvansaralar salınmışdır.

Qeyd edək ki, XV əsrin sonunda (1492-ci ildə Amerika qitəsinin kəşfindən sonra) Amerikaya və Hindistana dəniz yolunun kəşfi ilə öz əhəmiyyətini itirməyə başlayan Böyük İpək Yolu XVI əsrdə tamamilə süquta uğramışdır.

İki min il ərzində Qərblə Şərqi birləşdirən Böyük İpək Yolu öz tarixi əhəmiyyətini yenidən bərpa etməklə min il bundan əvvəl olduğu kimi müxtəlif mədəniyyətlər və sivilizasiyalar arasında körpü yaratmaq imkanındadır. Hələ o vaxtlar Böyük İpək Yolunun əsas ticarət və nəqliyyat qovşaqlarından biri olan Azərbaycan bu günə qədər öz coğrafi və geostrateji mövqeyini itirməmişdir. Böyük İpək Yolunun Azərbaycan ərazisindən keçən hissəsi ən qısa yol olmaqla yanaşı, əlverişli iqlim şəraiti bu yolun ilboyu fəaliyyət göstərməsinə zəmin yaradır. Böyük İpək Yolunun Azərbaycan ərazisindən keçən hissəsi digər dəhlizlərdən 2000 km qısa olmaqla bərabər, həm də yüklərin təhlükəsiz daşınması cəhətdən çox sərfəlidir. Bu baxımdan Böyük İpək Yolunun bərpası Avropa, Qara dəniz, Qafqaz, Xəzər dənizi və Asiya regionlarında təbii ehtiyatlardan istifadəyə, ticarətin inkişafına və qarşılıqlı faydalı əməkdaşlığa kömək edəcəkdir.

**Böyük İpək Yolundan TRACECA-ya doğru**

1991-ci ildə Sovetlər Birliyinin dağılması Azərbaycan üçün yeni bir qızıl dövrün başlanğıcı kimi dəyərləndirilmişdir. Xüsusilə Azərbaycanın sahib olduğu zəngin təbii ehtiyatlar müstəqilliyin və inkişafın açarı olaraq görülürdü. XX əsrin sonunda müstəqillik əldə edən Azərbaycan sovet siyasi rejiminin mirası olan

iqtisadi çətinliklərin aradan qaldırılmasının, heç bir dövlətdən asılı olmadan müstəqil xarici iqtisadi siyasətin həyata keçirilməsinin və dünya iqtisadiyyatına inteqrasiya olunmanın və s. kimi problemlərin həll yollarını axtararkən inkişaf etmiş ölkələr artan enerji ehtiyaclarını təmin etmək üçün Xəzər dənizinin karbohidrogen ehtiyatlarından ən çox payı necə əldə edə bilərik rəqabətinə düşmüşdülər. Başda ABŞ olmaqla Rusiya, Çin, Avropa Birliyi, Türkiyə və s. kimi bölgəmizdə strateji məqsədləri olan ölkələr arasında Xəzər dənizinin karbohidrogen ehtiyatlarından istifadə edə bilmək uğrunda bir yarış başladı. Belə bir halda təbii olaraq ittifaqlar və həyata keçiriləsi ortaq layihələr meydana gəldi. Belə layihələrdən biri Avropa Birliyinin 1991-ci ildə yeni müstəqil dövlətlər üçün TASİS proqramı çərçivəsində tərtib etdiyi Böyük İpək Yolunun bərpası məqsədinə xidmət edən TRACECA – Transport Corridor Europe Caucasus Asia layihəsidir.

İpək Yolunun yenidən bərpa edilməsinə dair ilk addımlar 1991-ci ildə atılmışdır. Belə ki, həmin ildə Avropa Şurası tərəfindən TASİS yardım proqramı qəbul edilmiş və bu proqramda yeni müstəqil dövlətlərdə demokratik islahatların keçirilməsini sürətləndirmək, bu dövlətlərdə bazar iqtisadiyyatı sistemini formalaşdırmaq, xüsusilə iqtisadi əlaqələrin genişlənməsinə xidmət edən yeni nəqliyyat dəhlizi layihələrinin yaradılması və həyata keçirilməsinə kömək göstərmək nəzərdə tutulmuşdur.

Böyük İpək Yolunun bərpa edilməsinə xidmət edən və "İpək Yolu" layihəsinin onurğa sütunu hesab olunan TRACECA proqramı 1993-cü ilin may ayında Brüsseldə 8 dövlətin (5 Mərkəzi Asiya, 3 Qafqaz respublikaları) nümayəndələrinin iştirakı ilə keçirilmiş konfransda təsis edilmişdir. TRACECA – Avropa Birliyi tərəfindən hazırlanmış zəngin resurslara sahib Orta Asiya respublikalarını Qafqaz üzərindən Avropa ilə birləşdirmək məqsədini hədəfləyən əsasən dəmiryolu olmaqla bütün nəqliyyat sistemlərini əhatə edən bir Şərq-Qərb koridorudur. Avropa Birliyinin müstəqil dövlətlərə istiqamətlənmiş siyasətinin təməl daşlarından biri olan TRACECA proqramı "XXI əsrin İpək Yolu" layihəsi adlandırılır.

TRACECA proqramı Avropadan Qərb-Şərq istiqaməti ilə Qara dəniz, Cənubi Qafqaz və Xəzər dənizi üzərindən Orta Asiyaya keçən nəqliyyat dəhlizinin inkişaf etdirilməsi məqsədinə xidmət edir. TRACECA-nın məqsədləri Avropa, Qara dəniz bölgəsi, Qafqaz, Xəzər dənizi bölgəsi və Asiyada iqtisadi əlaqələrin, ticarətin və nəqliyyat sisteminin inkişafına kömək etmək, beynəlxalq avtomobil yolu, dəmiryolu və dənizçilik bazarına girişi təmin etmək, yük və sərnişin daşımalarının təhlükəsizliyinə və ekoloji təmizliyə nail olmaq, nəqliyyat sahəsində həyata keçirilən siyasəti və qanuni bazanı uyğunlaşdırmaq, nəqliyyat əməliyyatları arasında bərabər rəqabət mühiti yaratmaq şəklində müəyyənləşdirilmişdir. Layihənin başlıca məqsədlərini konkret olaraq aşağıdakı kimi təsnifatlandırmaq olar:

- ❖ Orta Asiya və Qafqaz ölkələrinin Avropa və dünya bazarlarına alternativ nəqliyyat marşrutları vasitəsilə çıxmaq qabiliyyətlərini artırmaqla, onların siyasi-iqtisadi müstəqilliyini dəstəkləmək;
- ❖ TASİS və TRACECA proqramlarından Beynəlxalq Maliyyə Təşkilatlarının və özəl investorların cəlb edilməsi üçün katalizator kimi istifadə etmək;
- ❖ TRACECA marşrutunu Avropa şəbəkələri ilə əlaqələndirmək.

Bu proqramda yuxarıda qeyd edilən yol Mərkəzi Asiyadan bütün dünya bazarları ilə əlaqələri olan limanlar arasında ən qısa, başlıcası isə ən sürətli və ucuz yol kimi qəbul edilir. Avropa Birliyi komissiyasının təklifi ilə Azərbaycan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkmənistan, Özbəkistan və Ermənistan nümayəndələrinin Brüsseldə görüşü olmuş, bu görüşdə regionun nəqliyyat infrastrukturunun inkişafı ilə bağlı məsələlər müzakirə edilmiş, "Brüssel Bəyannaməsi" adlı sənəd qəbul edilmişdir. "Brüssel Bəyannaməsi" Avropa – Qafqaz – Asiya nəqliyyat dəhlizinin əhəmiyyətini, onun inkişaf etdirilməsi sahəsində əməkdaşlığın konkret istiqamətləri, forma və mexanizmlərini müəyyənləşdirmiş ilk beynəlxalq sənəd olmuşdur. Layihənin əsas cəhəti mövcud şimal yolunun nəzarətindən uzaqlaşmaqla ticarət və nəqliyyat yollarının yenidən qurulması və qərbə yeni yolların açılmasıdır. "Brüssel Bəyannaməsi" qəbul olunandan sonra region dövlətləri arasında iqtisadi əməkdaşlıq çərçivəsində əlaqələr dinamik xarakter almışdır. Məhz bu əlaqələrin nəticəsidir ki, TRACECA nəqliyyat dəhlizinin Asiya-Avropa əlaqəsini təmin edəcək qolu olan Bakı-Tbilisi-Qars dəmiryolu layihəsi Azərbaycan, Türkiyə və Gürcüstan prezidentləri tərəfindən 2007-ci ilin fevralında Tbilisidə imzalandı.

**Bakı-Tbilisi-Qars dəmiryolu xətti: tarixi aspekt və iqtisadi səmərəlilik nöqteyi-nəzərindən**

Özünün geosiyasi mövqeyinə görə Azərbaycan şimal-cənub, şərq-qərb nəqliyyat marşrutlarının kəsişdiyi məkanda yerləşir. Əlverişli coğrafi vəziyyəti ona həm özünün sahib olduğu zəngin karbohidrogen resurslarının, həm də qonşu Asiya ölkələri neftini, neft-qaz məhsullarını Avropa bazarlarına daşınmasında çox vektorlu logistik imkanlar yaradır. Bu bir daha ondan irəli gəlir ki, Azərbaycandan keçən Şərq-Qərb dəhlizi – TRACECA Avropa ilə Asiyanı birləşdirən ən qısa marşrut hesab edilir. Özünün tranzit imkanlarından irəli gələrək Azərbaycan mühüm regional nəqliyyat infrastruktur layihələrinin təşəbbüsçüsü kimi bu istiqamətdəki fəaliyyətini genişləndirir. Bunlar içərisində Azərbaycanın müəllifi olduğu qlobal mahiyyətli, müasir dünyanın 100 layihəsi siyahısına daxil olan "Bakı-Tbilisi-Qars dəmiryolu xətti" layihəsidir.

Bakı-Tbilisi-Qars dəmiryolu xətti Avropa ilə Asiya arasında daşınmalarda yekun bənd kimi çıxış edir. Bu layihənin tarixi İpək Yolu üzərində qurulması region ölkələri üçün onun cəlbediciliyini artırır və bu coğrafiyada yerləşən türkdilli ölkələrin inteqrasiyasında mühüm rol oynayır. Azərbaycanla Türkiyəni birləşdirmək məqsədi daşıyan "Bakı-Tbilisi-Qars dəmiryolu xətti" layihəsi, eyni zamanda, Türkiyə ilə Orta Asiya Türk Respublikaları arasında əlaqə yaratmağa imkan verəcəkdir. Bu layihənin əhəmiyyətini 2013-cü ildə Qəbələ şəhərində Heydər Əliyev Konqres Mərkəzində keçirilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının III Zirvə toplnatısında Türkiyə prezidenti Abdullah Gül çıxışında bir daha toplantı iştirakçılarının nəzər diqqətinə çatdırmışdır: "Türkiyə Şərq və Qərb arasındakı mövcud xətlərə alternativ və təhlükəsiz dəmiryolları marşrutları məsələsi üzərində çalışmaqdadır. Modern İpək Yolu və ya Orta Dəhliz adlandırılan bu layihənin ən mühüm hissəsi Azərbaycan ilə birgə həyata keçirdiyimiz "Bakı-Tbilisi-Qars dəmiryolu xətti" layihəsidir. Tarixə nəzər saldıqda türk dövlətlərinin güclü və təsirli olduğu dövrlərdə Böyük İpək Yolunun dünya ticarətinin ana xətti olduğu müşahidə olunur. Bu mənada İpək Yolu türk dünyasının iqtisadi rifahının və siyasi təsirinin açarıdır. Ona görə də İpək Yolunu yenidən bərpa etmək strateji bir prioritet olmalıdır ".

"Bakı-Tbilisi-Qars dəmiryolu xətti" layihəsi Türkiyə ilə Gürcüstan arasında birbaşa dəmiryolu əlaqəsi qurmaq və mövcud dəmiryolu xətti ilə Gürcüstan üzərindən Türkiyə ilə Azərbaycan, Orta Asiya, Çin və Monqolustan arasında dəmiryolu əlaqəsi yaratmaq məqsədini daşıyır. Orta Asiya və Xəzər dənizindəki karbohidrogen ehtiyatlarının dünya bazarına çatdırılması məsələsində Rusiyadan asılılığı azaltmaq üçün alternativ enerji xətti layihələrini dəstəkləyən ABŞ "Bakı-Tbilisi-Qars dəmiryolu xətti" layihəsinə ilk əvvəllər dəstək verdiyi halda sonradan erməni diasporasının təsiri ilə maliyyə dəstəyi verməyəcəyini bildirmiş, hətta erməni lobbisinin bu istiqamətdə apardığı fəaliyyət nəticəsində 2006-cı ildə ABŞ "Bakı-Tbilisi-Qars dəmiryolu xətti" layihəsinə dəstək verilməməsi barədə qanun da qəbul etmişdir. Bütün bu maneələrə baxmayaraq Azərbaycan, Türkiyə və Gürcüstan "Bakı-Tbilisi-Qars dəmiryolu xətti" layihəsini öz imkanları ilə həyata keçirməyə qərar verdilər. Region daşımaçılığının bu xətt vasitəsilə Azərbaycan üzərindən Avropa və Asiyaya açılacaq olması "Bakı-Tbilisi-Qars dəmiryolu xətti" layihəsini sadəcə iqtisadi baxımdan deyil, siyasi baxımdan da əhəmiyyətli edir.

Asiyada yüklərin əsas yaranış ölkəsi Çinin də "Bakı-Tbilisi-Qars dəmiryolu xətti" layihəsinin gerçəkləşməsinə maragı yüksəkdir. Buna sübut Çinin İpək Yolunun canlandırılması üçün 40 milyard dollar ayıracağı öhdəliyini öz üzərinə götürməsidir. Beynəlxalq Strateji Araşdırmalar Təşkilatının sədr köməkçisi professor-doktor Selçuk Çolakoğlunun şərhinə əsasən Çin iqtisadiyyatının struktur bir dəyişim içərisində olduğunu ifadə edərək Avropaya doğru quru və dəniz xətlərinin inkişaf etdirilməsi və bu yolla ticarətin daha da sürətləndirilməsi Çin üçün çox əhəmiyyətlidir. Çinin dövlət başçısı Şi Cinpinqin İpək Yolunun yenidən canlandırılmasına dair "İpək Yolu iqtisadi qurşağı" və "XXI əsr dəniz üzərində İpək Yolu" layihələri Şərqi Asiya ilə Avropa iqtisadiyyatını bir-birinə bağlayır. Belə ki, layihə xəttin 65 ölkədən keçməsini əhatə edir və ölkələrin ümumi ticarət dövriyyəsi 21 trilyon dollara çatır. Çinin burada başlıca məqsədlərindən biri Çin mallarının Avropa bazarlarına daha uyğun şərtlərlə daşıya bilməsidir. Məhz bu baxımdan Türkiyə ilə Çin arasındakı dəmiryolu marşrutlarına nəzər yetirdikdə, bu sırada reallaşmaqda olan Bakı-Tbilisi-Qars dəmiryolu xəttinin səmərəliliyi daha aydın görünür. Bu marşrut üzrə Çin sərhəddindəki Dostluq dəmiryolu stansiyasına Bakıdan keçid Qazaxıstanın Aktau və Türkmənistanın Türkmənbaşı limanları vasitəsi ilə mümkündür.

Bu məkanda Əfqanıstanın da imkanları unudulmamalıdır. Yaxın illərdə NATO Əfqanıstandan 200 minə qədər TEU-konteyner və nəqliyyat vasitələrini çıxarmağı planlaşdırır ki, bu istiqamətdə də TRACECA nəqliyyat dəhlizinin əlverişlilik nöqteyi-nəzərindən alternativi yoxdur. Eyni zamanda Amerika geoloqlarının Əfqanıstanda ehtimal olunan faydalı qazıntılar barədə fikirlərinə də diqqət yetirilməlidir. Belə ki, bir neçə il öncə onlar tərəfindən bu ölkədə nəhəng həcmdə, ümumi dəyəri bir trilyon dollara bərabər dəmir, qızıl, mis, kobalt və molibden ehtiyatları aşkarlanmışdır. Bu amili belə istisna etdikdə, dəhlizin Bakı-Tbilisi-Qars dəmiryolu xəttinin inşası ilə bağlı səmərəliliyi yenə də qiymətli qalır. Statistika göstərir ki, hazırda dəmiryolu ilə daşınan yüklər ümumilikdə TRACECA dəhlizi ilə daşınan yüklərin 55%-ni təşkil edir. Proqnozlara görə, Bakı-Tbilisi-Qars dəmiryolu xətti işə düşəndən sonra ilk ildə bu yol vasitəsi ilə daşınan yüklər 3 milyon ton, sonrakı 5 ildə isə 10 milyon tona çatacaqdır.

"Bakı-Tbilisi-Qars dəmiryolu xətti" layihəsi Naxçıvan Muxtar Respublikasını blokadadan çıxararaq onun nəqliyyat müstəqilliyinin təmin edilməsində də vacib amillərdəndir. Belə ki, Ermənistanın Azərbaycana məlum təcavüzü nəticəsində paytaxt Bakını Naxçıvanla birləşdirən quru nəqliyyat kommunikasiyaları bağlanmışdır. Sərnişin daşınmaları əsasən hava nəqliyyatının, yük daşınmaları İran və Türkiyədən keçməklə avtomobil nəqliyyatının üzərinə düşmüş, tarixi dəmiryolu xətti isə regional və tranzit daşınmalardan kənarda qalmışdır. Muxtar respublikanın dəmiryolu problemi Qarabağ probleminin çözülməsinin spekulyasiya predmetinə çevrilmişdir. Belə hal hələ də uzunmüddətli danışıqların mövzusu olacaqdır. Ona görə də "Bakı-Tbilisi-Qars dəmiryolu xətti" layihəsi ilə bağlı növbəti plan Qarsdan Naxçıvana ayrıca bir dəmiryolu qolunun çəkilməsini də aktual bir məsələyə çevirir.

Bununla da Naxçıvan Muxtar Respublikasının nəqliyyat müstəqilliyi problemi tam təmin ediləcək və oradan da İrana keçid olan dəmiryolu xətti ilə bütün Yaxın Şərq regionuna çıxış əldə olunacaqdır.

Türkiyə "Bakı-Tbilisi-Qars dəmiryolu xətti" layihəsinin əsas tərəfdaşı kimi özünün dəmiryolu xətlərini genişləndirir və bu sahədə əsaslı infrastruktur yenidənqurması həyata keçirir. Türkiyənin dəmiryolları ilə bağlı ən möhtəşəm layihələri sırasında İstanbul şəhərində Bosfor boğazında dəmiryol keçidinin inşası ilə bağlıdır. Bosfordakı keçid-tunel ("Marmaray" layihəsi) Avropa ilə Asiyanı birləşdirərək həm də bu istiqamətə əsas bağlantı olacaq Bakı-Tbilisi-Qars dəmiryolu xəttinin möhtəşəmliyini daha da artıracaqdır. Bununla da yük və sərnişinlərin birbaşa olaraq Azərbaycan, Gürcüstan və Türkiyə ərazilərindən keçməklə Avropa və Asiyaya çıxarılması etibarlı təmin olunaraq region ölkələrinin də Avropaya inteqrasiyasının genişlənməsinə təkan verəcəkdir. Heç şübhə yoxdur ki, Avropa və Asiyanı birləşdirməklə alternativlərinə nisbətdə ən azı 60 km qısa olacaq bu layihə digər ölkələrin də maraqlarına səbəb olacaqdır.

"Bakı-Tbilisi-Qars dəmiryolu xətti" layihəsinin imkanlarından qonşu Rusiyanın da istifadə etməsi reallığa yaxın ehtimal ediləndir. Bu ilk növbədə Rusiya ilə Türkiyə arasında son zamanlar kəskin artan xarici ticarət dövriyyəsi ilə əlaqədardır. Məlumdur ki, hazırda Rusiya ilə Türkiyə arasında dəmiryolu bağlantısı yoxdur. Bu layihə isə həmin bağlantıları gerçəkləşdirə bilər.

Bakı-Tbilisi-Qars dəmiryolu xəttinin inşası Azərbaycan-Türkiyə iqtisadi və humanitar əlaqələrinin inkişafına da çox dəyərli əlavə stimullar verəcəkdir. Bu layihənin həyata keçirilməsi iqtisadi səmərəlilik, sürət və vaxt tezliyi, təhlükəsizlik və etibarlılıq baxımından böyük əhəmiyyət kəsb edir. Gələcəkdə Avropa və Asiya ölkələrinə məxsus yüklərin bu dəmiryoluna cəlb edilməsi hər iki istiqamətdə intermodal və konteyner daşımalarının həcmini artıracaqdır. Eyni zamanda dəmiryolu xətti ilə yalnız yük qatarlarının deyil, sərnişin qatarlarının da hərəkəti təmin olunacaqdır. Bütün bunlar öz növbəsində Bakı-Tbilisi-Qars dəmiryolu xəttinin çəkilişinin və onun Azərbaycan üçün nə qədər əhəmiyyətli olduğunun bariz nümunəsidir.

**"Bakı-Tbilisi-Qars dəmiryolu xətti" layihəsinin iqtisadi və geosiyasi əhəmiyyəti**

Bakı-Tbilisi-Qars dəmiryolu xətti Trans-Avropa və Trans-Asiya dəmiryolu şəbəkələrinin birləşməsində çatışmayan bağlantı olaraq 102,3 km-i əhatə edir. Bu xəttin 26,3 km Gürcüstanın, 76 km Türkiyənin payına düşür. Bununla belə layihənin reallaşması üçün Gürcüstan ərazisində Marabda-Axalkalaki stansiyaları arası 154 km yolda reabilitasiya, tikinti-rekonstruksiya işləri aparılmalıdır. Bu layihəyə, həmçinin Gürcüstanın Axalkalaki stansiyasında vağzal və təkər arabacıqlarının dəyişdirilməsi kompleksinin tikintisi də daxildir. "Bakı-Tbilisi-Qars dəmiryolu xətti" layihəsi çərçivəsində 4 stansiyanın, 16 körpünün və 5 yol ötürücüsünün, Türkiyə-Gürcüstan sərhədində 4350 metr uzunluğunda tunelin tikilməsi də nəzərdə tutulub. Qeyd edək ki, yeni dəmiryolu xəttinin Qars-Axalkalaki hissəsinin inşası və Axalkalaki-Marabda hissəsinin reabilitasiya-rekonstruksiyası Beynəlxalq Dəmiryolu İttifaqının (UİC) standartlarına uyğun həyata keçiriləcəkdir. Layihənin maliyyə tutumu 1,1 trilyon dollardan artıqdır. Onun 775 milyon dolları Azərbaycan tərəfinin sərmayələri ilə Gürcüstanın, 345 milyon dolları isə Türkiyənin payına düşür.

Bakı-Tbilisi-Qars dəmiryolu xətti marşrutunun ümumi uzunluğu 825 km təşkil edir. Burada 503 km Azərbaycanın, 244,5 km Gürcüstanın və 77,5 km Türkiyənin payına düşür. Dəmiryolu xətti tam istismara verildikdən sonra burada maksimal sürətin 120km/s olacağı gözlənilir. Dəmiryolu ilə bir günə Qarsa və iki gün yarıma İstanbula getmək mümkün olacaqdır. Bakı-Tbilisi-Qars dəmiryolu xətti istismara veriləndən sonra ilkin dövrdə bu xətt vasitəsilə 1 milyon sərnişin və 6,5 milyon ton yük, 2034-cü ildə isə 3 milyon sərnişin və 17 milyon ton yük daşınacağı ehtimal olunur. Yük daşımaları həcmi 3-cü istismar ilində 3-5 milyon ton, 5-ci istismar ilində 6-8 milyon ton, 10-cu istismar ilində isə 10 milyon ton və daha çox proqnozlaşdırılır. Hesablamalara görə Azərbaycanın ilk illərdə tranzitdən minimal illik gəliri 40-50 milyon dollar, 5-ci istismar ilində 80-100 milyon dollar, 10-cu istismar ilində isə 100-150 milyon dollar təşkil edəcəkdir. Bu da Azərbaycanın bütün dəmiryolu sisteminin təkmilləşdirilməsinə imkan verəcəkdir. Qeyd edək ki, Bakının Ələt qəsəbəsində "Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı kompleksi"nin inşası başa çatdırılacaq və eləcə də Bosfor boğazında dəmiryolu tunelinin inşası tamamlanacaq, TRACECA beynəlxalq nəqliyyat dəhlizinin rəqabət qabiliyyətliliyinin artırılması üçün mühüm tədbirlər görüləcəkdir.

**"Bakı-Tbilisi-Qars dəmiryolu xətti" layihəsi və Naxçıvan Muxtar Respublikası: dünya iqtisadiyyatına inteqrasiya və dəmiryolu marşrutunun diversifikasiyası**

Tədqiqat predmetindən irəli gələrək Ermənistanın Azərbaycana təcavüzü nəticəsində blokadada qalan Naxçıvan Muxtar Respublikası ilə bağlı dəmiryolu layihələrinə daha çox diqqət yetirilməlidir. Qeyd edək ki, Naxçıvan-Culfa-Bakı dəmiryolu marşrutunun bir hissəsi Ermənistan tərəfindən işğal olunduğu üçün hazırda işlək deyildir. Ona görə də bu problemin həlli bir tərəfdən Naxçıvan Muxtar Respublikasının mövcud blokadadan çıxmasına, digər tərəfdən muxtar respublika iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiyasına imkan verəcəkdir. Naxçıvan Muxtar Respublikasının mövcud blokadadan çıxarılması iki yolla – Azərbaycanın Astara şəhərindən İranın Rəşt şəhərinə, Türkiyənin Qars şəhərindən Naxçıvan Muxtar Respublikasına dəmiryolu xətti çəkilişi ilə mümkündür. Burada hər iki variantın üstün cəhətləri yetərincədir və Azərbaycan üçün bu marşrutlar mühüm əhə-

miyyət daşıyır. Əlbəttə hər iki marşrutun eyni zamanda mövcudluğu daha səmərəlidir. Lakin bu variantlardan bu gün həyata keçirilməsi daha real olanı Qarsdan Naxçıvana çəkilməsi planlaşdırılan dəmiryolu xəttidir. İlkin əsaslandırmalara görə Qarsdan Naxçıvana dəmiryolu xətti Türkiyə-Azərbaycan sərhədinə kimi təxminən 230 km-dir. Layihənin bu hissədəki dəyəri 1 milyard dollar hesablanır. Bu marşrut Azərbaycan üçün xüsusi önəm daşıdığı üçün Azərbaycan Türkiyəyə bu istiqamətdə münasib kredit xətti aça bilər. Naxçıvan hissəsində isə buradakı Sədərək məntəqəsindən Türkiyə-Azərbaycan sərhədinə kimi 10 km yolun inşası nəzərdə tutulur. Bütün bunlarla yanaşı, Naxçıvan ərazisindəki mövcud dəmiryolunda təxmini 230 km xəttin rekonstruksiyasına və lokomotiv-vaqon parkının təzələnməsinə ehtiyac vardır ki, bu da təqribi hesablamalara görə ümumilikdə 700 milyon dollar vəsait tələb edir.

Bu layihə ilə yanaşı, Türkiyə-İran razılaşmasına görə Qarsdan İranın Culfa şəhərinə kimi dəmiryolu xəttinin çəkiliş planı da vardır. Bu xəttin tranzit potensialı illik 3-4 milyon ton yük həcmində hesablanır. Burada daha iki faydalılıq nəzərə çarpır. Birincisi, Qars-Sədərək xətti ilə Qars-Culfa (İran Culfası) xəttinin hər ikisinin Türkiyənin İqdır şəhərindən keçməsidir. Bu isə layihələrin bu məntəqədə birləşməsi ilə Türkiyəyə hər iki istiqamətdə çəkilişin eyni xətt üzərində qurulmasına imkan yaradır. İkincisi, Azərbaycanın Culfa şəhəri ilə İranın Culfa şəhəri arasındakı mövcud dəmiryolu xəttindən istifadə Türkiyə ilə Azərbaycanın dəmiryolu xətlərinin birləşməsi üçün digər bir alternativdir. Hər iki layihənin reallaşmasına "Bakı-Tbilisi-Qars dəmiryolu xətti" layihəsi çərçivəsində yanaşdıqda, Avro-Asiya dəmiryolu marşrutundakı diversifikasiyanın daha bir neçə bənd genişlənəcəyi aydın görünür.

"Bakı-Tbilisi-Qars dəmiryolu xətti" layihəsinin məntiqi nəticəsi olaraq Qars-Naxçıvan dəmiryolu xəttinin reallaşması Naxçıvan Muxtar Respublikasına dəmiryolu vasitəsilə beynəlxalq nəqliyyat dəhlizlərinə birbaşa çıxış əldə edərək tranzit daşımaların mühüm mərkəzinə çevrilməsinə səbəb olacaqdır. Layihənin həyata keçirilməsi ilə Naxçıvan Muxtar Respublikası Londondan Şanxayadək açılmış olan Şərq-Qərb koridorunun bir nöqtəsinə çevriləcəkdir. Bu da muxtar respublikanın ixrac potensialının yüksəlməsinə, yeni yaradılan sənaye sahələri mallarının, kənd təsərrüfatı məhsullarının dünya bazarlarına çıxarılmasına imkan yaradır. "Bakı-Tbilisi-Qars dəmiryolu xətti" layihəsinin həyata keçirilməsi və məntiqi nəticəsi olaraq Qars-Naxçıvan dəmiryolu xəttinin çəkilməsi muxtar respublikada tənəzzülə uğramış dəmiryolu nəqliyyatının canlanması, yeni iş yerlərinin açılması, işsizlik probleminin həll olunması, əhalinin alıcılıq qabiliyyətinin yüksəlməsi, nəticə etibarilə maddi rifah səviyyəsinin yaxşılaşması ilə yanaşı, "Yoxsulluğun aradan qaldırılması" haqqında Dövlət Proqramına da öz bəhrəsini verəcəkdir.

**Nəticə**

Araşdırmamızın məntiqi nəticəsi olaraq qeyd edək ki, iki min il ərzində Qərblə Şərqi birləşdirən Böyük İpək Yolu öz tarixi əhəmiyyətini yenidən bərpa etməklə min il bundan əvvəl olduğu kimi müxtəlif mədəniyyətlər və sivilizasiyalar arasında körpü yaratmaq imkanındadır. Böyük İpək Yolunun əsas ticarət və nəqliyyat qovşaqlarından biri olan Azərbaycan bu günə qədər öz coğrafi və geostrateji mövqeyini itirməmişdir. Əlverişli coğrafi vəziyyəti ona həm özünün sahib olduğu zəngin karbohidrogen resurslarının, həm də qonşu Asiya ölkələri neft-qaz məhsullarının Avropa bazarlarına daşınmasında çox vektorlu logistik imkanlar yaradır. Bu istiqamətdə səmərəliliyi artırmaq, tranzit potensialından daha dolğun bəhrələnmək və başlıcası Azərbaycanın dünya okeanına birbaşa çıxış məhdudluğu amilini mülayimləşdirmək üçün bütün dəmiryolu infrastrukturunda sistem dəyişiklikləri yaradan layihələrin həyata keçirilməsi zərurəti yaranmışdır. Müasir məqamda belə strateji hədəflərin önündə "Bakı-Tbilisi-Qars dəmiryolu xətti" layihəsi dayanır. Bu layihənin reallaşmasında Azərbaycanın mənfəətləri olduqca əvəzsizdir. Burada, ilk növbədə, Sovetlər İttifaqının dağılması və Ermənistanın təcavüzü nəticəsində itirilən və sərtləşən nəqliyyat kommunikasiyalarına alternativlərin təmin edilməsi, qardaş Türkiyə ilə genişlənən iqtisadi əlaqələrin möhkəmləndirilməsi, çox strateji əhəmiyyət kəsb edən Azərbaycandan ərazicə ayrı düşmüş Naxçıvan Muxtar Respublikası ilə yeni və əlverişli bağlantıya nail olunması strategiyası dayanır.

"Bakı-Tbilisi-Qars dəmiryolu xətti" layihəsinin əhəmiyyətinə yaxın zamanlarda Bosfor boğazı altı ilə keçəcək dəmiryolu tuneli – "Mərməray" layihəsi daha bir effektivlik qatacaqdır. Bununla da Asiyanın ən ucqar şərqindən dəmir relslər üzərindən Avropanın bütün nöqtələrinə yetişəcək tarixi bir nəqliyyat marşrutu gerçəkliyə çevriləcəkdir.

Bütün bu qeyd olunanları nəzərə alaraq belə nəticəyə gəlmək olar ki, Böyük İpək Yolunun bərpası, TRACECA nəqliyyat dəhlizi təkcə iqtisadi yox, həm də mədəni əlaqələrin intensivləşməsinə şərait yaradacaqdır. O, Qafqazda münaqişə ocaqlarının söndürülməsində əvəzsiz rol oynayacaq, ölkəmizin mövcud kommunikasiyalarının müasir tələblərə uyğun qurulmasına kömək edəcək, sosial-iqtisadi problemlərin, o cümlədən işsizliyin azaldılmasında irəliləyişlər əldə etməsinə səbəb olacaq, Azərbaycanın dünya miqyasında nüfuzunu və gücünü artıracaqdır.

"Bakı-Tbilisi-Qars dəmiryolu xətti" layihəsinin həyata keçirilməsi Azərbaycanın milli lideri Heydər Əliyevin "bir millət iki dövlət" prinsipindən irəli gələn bitməyən inteqrasiyanı daha da möhkəmləndirəcək,

Azərbaycanla Türkiyə arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında müqavilənin reallaşmasının əyani bir təzahürü olacaqdır.

## ƏDƏBİYYAT


1. İsakov H.V. Azərbaycan Respublikasının "Böyük İpək yolu"nun bərpasında iştirakı: 1991-2005-ci illər. Bakı, Şərq-Qərb, 2011
2. Hacızadə E.M. Sosiallaşan iqtisadiyyat. Bakı, Elm, 2006
3. E.İsayev. V-XV əsrlərdə beynəlxalq ticarət və Azərbaycan. Naxçıvan, 2012
4. Dr. Gökçe Mustafa. Sovyet sonrası dönemde Nazar çevresinde yaşanan rekabet. Uluslararası Sosyal Araştırmalar Dergisi. Cilt 1/3, Bahar, 2008.
5. http: // www. ulasim 2023. org
6. http:// www.kugm.gov.tr
7. Бжезинский З. Выбор: мировое господство или глобальное лидерство. Москва, Международные отношения, 2004.


## ABSTRACT


**Ceyhun Mahmudov**


**Modern silk way project and Nakhchivan**


It is in opportunity of to create bridge between different cultures and civilizations thousand the east years ago as with restoring the historical importance of "Great Silk Way" connecting during two thousand years anew by west. One of joints of basic trade and transport lose Azerbaijan being geographical and geostrategic position of the "Great Silk Way" up to this day. Of rich carbo-hidrogen resources it's possessed to it and neighbor creates very vector logistic opportunities in being carried to European market of the harvests of oil and gas of Asia countries. Companion projects which should be implemented in such circumstance occur. One of such projects is the project of TRACECA serving to the purpose of restoration of the "Great Silk Way". The transport corridor of TRACECA Asia-Europe connection of it will secure basic way is railway of Baku-Tbilisi-Kars. Author of Azerbaijan takes part project of "Baku-Tbilisi-Kars railway" modern world was as entered list total 100 projects of the global essential, item be carried in the between Asia and Europe. The project which building on historical "Great Silk way" plays the important role of Azerbaijan his composition part of Nakhchivan Autonomous Republic integration to the world.


## РЕЗЮМЕ


**Джейхун Махмудов**


**Современный проект шёлкого пути и Нахчыван**


Соединяющий два тысячелетия Запад с Востоком Великий Шёлковый Путь, восстанавливая своё былое историческое значение, как и тысяча лет назад имеет возможность создания моста между различными цивилизациями и культурами. Азербайджан, являющийся основным торговым и транспортным узлом Великого Шёлкового Пути, до сегодняшнего дня сохранил своё географическую и стратегическую позицию. Благоприятное географическое положение создаёт многовекторные логистические возможности для транспортирования и принадлежащих ему богатых углеводородных ресурсов, и нефтегазовой продукции соседних Азиатских стран на Европейский рынок. В таком случае появляются претворяемые в жизнь совместные проекты. Одним из этих проектов является проект TRACECA, служащая цели восстановления Великого Шёлкового Пути. Основной ветвью, обеспечивающей связь транспортного коридора TRACECA Азия-Европа, является железнодорожная линия Баку-Тбилиси-Карс. Имеющий глобальное значение, входящий в список 100 современных мировых проектов, проект «Железнодорожная линия Баку-Тбилиси-Карс», автором которого является Азербайджан, выступает заключительным пунктом в транспортировании между Европой и Азией. Построение этого проекта по историческому Шёлковому Пути играет большую роль в интеграции Азербайджана и её составной части Нахчыванской Автономной Республики в мировую экономику.



NDU-nun Elmi Şurasının 30 mart 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 07).

Məqaləni çapa təqdim etdi: İqtisad üzrə elmlər doktoru, professor A.Rüstəmov

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2017, № 2 (83)**

NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2017, № 2 (83)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2017, № 2 (83)**

**TEYMUR ABBASOV**
*Naxçıvan Dövlət Universiteti*
*teymurabbasov56@mail.ru*

**UOT:658.155**

# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ AQRAR BÖLMƏSİNDƏ SAHİBKARLIQ FƏALİYYƏTİNİN İDARƏ OLUNMASI

***Açar sözlər:*** *idarəetmə, aqrar sektor, sosial sfera, kompleks inkişaf, idaraetmənin məqsədi, sahibkarlıq fəaliyyəti, idarəetmə funksiyası, bazar iqtisadiyyatı*

***Key words:*** *management, agrarian sector, social sphere, complex development, am of management, entrepreneurship activity, the management function, market economy*

***Ключевые слова:*** *управление, аграрный сектор, социальная сфера, комплексное развитие, цель управления, предпринимательская деятельность, функции управления, рыночная экономика*

Regionlarda idarəetmə problemləri sosial sferanın və həyat səviyyəsinin sosial qrupları üzrə əmək haqqının stimullaşdırıcı təsirini və gəlirlərin bölgüsündə ədalətli prinsiplərin tətbiqi ilə mümkündür. Sosial təminat üçün kənd regionlarında investisiyanın axını üçün inzibati və iqtisadi maneələri aradan götürülməlidir.[1, s.25]

Enerji, su təminatı və emal müəssisələrinin daha çox kənd təsərrüfatı rayonlarında yerləşməsi həmin ərazidə yeni iş yerlərinin açılması və iqtisadi cəhətdən səmərəli təşkilati qurluşun yaradılmasına gətirib çıxarır. Ölkə prezidenti İ.Əliyevin 24 noyabr 2003-cü il iqtisadi və sosial inkişafın surətlənməsi fərmanı, məhz region potensialının daha intensiv istifadə edilməsi, ayrı-ayrı icra orqanlarının idarə etmə funksiyalarının və səlahiyyətlə vəzifələrinin arasında uyğun qərarlar qəbul edilməsini qarşıya qoyur.

Sürətlənmə fərmanı region prioritetlərini ön plana çəkir. Regionlarda kompleks inkişaf üçün təsərrüfat subyektləri mülkiyyətçilər və sifarişçilər habelə əhalinin investisiya subyekti kimi təsərrüfat əlaqələrinin formalaşmasına inkişafına dair mexanizmlər verilir.

Ərazilərin inkişafında bələdiyyə idarəçiliyi aqrar-sənaye və aqrar bazarın inkişafı üçün bazar iqtisadiyyatının regionda təşəkkülünün yeni formasını təşkil edir. Regionda olan bələdiyyə mülkiyyətinin səmərəli istifadəsi, yerli orqanlarının sosial-iqtisadi inkişafda rolunun artırılması və bələdiyyə maliyyəsinin ərazi inkişafı üçün daha səmərəli təşkili idarəetmənin özünüidarə və özünü maliyyələşdirmə prinsiplərinə uyğunlaşdırır.

Regionun sosial-iqtisadi inkişafının makrosəviyyəli idarə edilməsi, regionun büdcəsinə verilən dotasiya, subsidiya və müəyyən layihələr üzrə ünvanla kreditlərin, xarici investorların cəlb edilməsi və onların fəaliyyəti üçün əlverişli şəraitin yaradılması təşkil edir. Bu gün artıq beynəlxalq iqtisadi təşkilatlar qeyri-dövlət sektoruna meyl etməklə demokratik prinsiplər əsasında regionların inkişaf dinamikasına və onların sərbəst təsərrüfat fəaliyyətinə stimul yaradırlar.

Ancaq qeyd etmək lazımdır ki, nə qədər sərbəst region siyasəti olsa da, mərkəzləşdirilmiş prinsiplər əsasında uzlaşma və ümumi meyarlar baxımından idarəetmə metodologiyası öz aktuallığını və ahəngdarlığını saxlayır[2, s.32].

Regionlarda sosial tarazlıq dövlətin pensiya islahatları, müavinətlər, enerji resursları, meliorasiya, təbii fəlakətlər və ekoloji mühit həmçinin təhlükəsizlik tədbirləri ilə reallaşır. Son illərdə bu sahədə beynəlxalq tələblərlə yanaşı yerli kompleks məqsədli proqramların tərtibi və reallaşması vacib istiqamət olaraq əhəmiyyətlidir. Lokal idarəetmə prinsipləri arasında adekvat qərar qəbulu bu proqramların təminatı ilə ölçülür və tənzimlənir.

Sahibkarlığın idarə edilməsinin sosial məqsədləri və funksiyaları istehsalın idarə edilməsinin ümumi məqsədi və resursları ilə müəyyənləşir. Xüsusi halda aqrar sənaye kompleksinin ayrı-ayrı mərhələləri, onun inkişafının ayrı-ayrı problemləri üzrə konkretləşdirilir. İdarəetmə prosesində ümumi məqsədi əsas götürərək idarəetmə amillərinin hər birinin təsirini hər bir konkret hal üçün onun ali məqsədə təsir gücünü müəyyən etmək çox mühümdür. Tənzimləmə prosesində məqsədin rolu böyükdür. Məqsəd qoyulması onun ilk daha məsuliyyətli idarəetmə prosesinin gedişini təyin edən amillərin seçilməsi və optimal texnoloji idarəetmə strukturunun seçilməsi ilə mümkündür. [3, s.38]

İdarəetmə məqsədinə bir çox hallarda qərarın ilkin ümumi variantı kimi baxırlar. Ancaq onları eyniləşdirmək olmaz. Bununla belə düzgün müəyyən edilən məqsəd qərarın mümkün variantlarının, onların ümumi məzmununu ifadə edir. Məqsəd idarəetmə qərarının işlənib hazırlanması

metodologiyasının bir çox cəhətini müəyyənləşdirməklə, qərara sistemli yanaşılmasının ən mühüm amili kimi çıxış edir və idarəetmə qəraranın səmərəliliyini təmin edir.

Məqsəd məlumatı həcminin, təsnifatının, tərkibini, istifadə formalarını və s. məhdudlaşdırmaqla onun toplanmasının səmərəli variantını müəyyən edir. İdarəetmə məqsədi qəbul olunmuş qərarın həyata keçirilməsi üzrə əməli fəaliyyətdə böyük əhəmiyyət kəsb edir. Düzgün dərk edilmiş məqsəd kollektivin məsuliyyətini artırır, onu intizamlı edir və həvəsləndirir. Kollektivin müəyyən məqsədə yönəldilməsi əmək məhsuldarlığının yüksəldilməsi-nin mühüm amilidir.

İdarəetmə məqsədi – idarəedilən sistemin istənilən mümkün olan və zəruri vəziyyətidir. İdarəetmə prosesi bu vəziyyətə nail olmasına yönəldilmişdir. Sahibkarlığın idarəetmə məqsədinin mahiyyətini əsas götürərək onun qarşısında qoyulan aşağıdakı tələbləri qısa ifadə etmək olar:

1) Sahibkarlığın məqsədi əsaslandırılmış olmalı və inkişafın obyektiv qanunlarının və qanunauyğunluqlarının tələblərini kompleks ifadə etməlidir. Məqsəd müəyyən aydın əsaslandırılmış olmaqla, həyata keçirilməsi real olmalıdır.

2) İdarəetmə məqsədi - elmi-texniki tərəqqinin inkişaf səviyyəsinə uyğun kompleks yüksək mərhələli tamlığa malik olmalıdır. Məsələn, sahibkarlığın idarəetmə məqsədi iqtisadiyyatın müvafiq sahəsinin inkişafının ümumi inkişaf meyllərinə və cəmiyyətin ali məqsədinə uyğun olmalıdır.

Kənd təsərrüfatında və aqrar-sənaye kompleksində istehsalın idarə edilməsinin əsas məqsədi istehsalın daimi artımını və sabitliyini təmin etməkdən, əhalinin yeyinti məhsullarına və sənayenin xammala olan tələbatını daha dolğun ödəmək üçün əkinçilik və heyvandarlığın effektivliyini hər vasitə ilə yüksəltməkdən, kənd təsərrüfatı istehsalında lazımi ehtiyatlardan ibarətdir.

İdarəetmənin məqsədləri müxtəlif əlamətlər üzrə təsnifləşdirilə bilər: məzmun üzrə (iqtisadi, sosial, ideoloji, elmi texniki); vaxt üzrə (qısamüddətli, uzunmüddətli); strateji və taktiki əlamətlər üzrə.

İdarəetmənin iqtisadi məqsədi hər şeydən əvvəl keyfiyyətli və ucuz kənd təsərrüfatı məhsullarının daimi artırılması ilə əlaqədardır. Bu istehsalın inkişafının iqtisadi əsasının yaradılması təsərrüfatların, onların bölmələrinin və ayrı-ayrı işçilərin istehsalın artırılmasında marağını təmin edən iqtisadi münasibətlərin təkmilləşdirilməsi deməkdir. Bu isə öz növbəsində təsərrüfatlararası kooperasiya və aqrar-sənaye kompleksinin inteqrasiyası, kənd təsərrüfatının maddi-texniki bazasının hər vasitə ilə möhkəmləndirilməsi, istehsal proseslərinin kompleks mexanikləşdirilməsi və avtomatlaşdırılması, torpaqların geniş meliorasiyası, kənd təsərrüfatı əməyinin effektivliyinin yüksəldilməsi əsasında istehsalın ardıcıl intensivləşdirilməsi, ixtisaslaşdırılması və təmərküzləşməsi hesabına əldə edilir.

İdarəetmənin sosial məqsədləri kənd sakinlərinin mənəvi və maddi tələbatını ödəməlidir. Bu hər şeydən əvvə, mədəniyyətin, maarifin, səhiyyənin, məişət xidmətinin, yol inşaatının inkişafı, rabitə vasitələri buraxılışı və tətbiqinin artırılması ilə əlaqədardır. İdarəetmə strukturunun prinsipləri müxtəlif formalarda təsnifləşdirilir. Ümumi halda bu prinsiplər aşağıdakı kimi verilir: [6, s.50]

A) idarəetmə strukturunun idarəetmə mexanizminə – məqsəd, prinsiplər, metodlar, funksiyalar uyğunluğu prinsipi;

b) idarəetmə strukturunun idarəetmə obyektinin xarakteri və xüsusiyyətlərinə uyğunluğu prinsipi.

Bundan başqa idarəetmə və tənzimləmənin struktur prinsipləri sistem daxili strukturun formalaşması və dinamikası baxımından daha da konkretləşdirilir. Təsnifatlaşdırma əlamətlərini nəzərə alaraq aşağıdakı konkret prinsiplər tətbiq etmək olar:

a) mövcud olan dinamikanı və qanunauyğunluğu proqram məqsədli prinsipə uyğunlaşdırılmalı və əks əlaqə ilə mövcud vəziyyətin fəal surətdə tənzimlənməsi;

b) struktur bölmələri alt məqsədlərini məhdud resurs və variantları nəzərə almağa idarəetmə sistemlərinin son məqsədi ilə uzlaşmasını və əlaqəsinin təmin edilməsi;

v) mərkəzləşdirilmiş, qeyri-mərkəzləşdirilmiş idarəetmə parametrlərini və son tələbat göstəricilərini bu sistemlər üzrə optimal halda bölüşdürülməsi.

Aqrar sənaye və bazar strukturunda sahibkarlığın idarə edilməsinin təşkilati strukturu həmin sistemin ünsürlərinin inteqrasiyasıdır və müəyyən məqsədlərlə bağlıdır. Ona görə də aqrar sənaye kompleksinin idarə edilməsinin təşkilat strukturu təhlil edilərkən aşağıdakılar ilə şəhər və kənddə işçilərin həyat səviyyələrini yaxşılaşdırılmasına yönəldilən bütün sosial tədbirlərin həyata keçirilməsi ilə bağlıdır.

İqtisadi, sosial, texnoloji və başqa məqsədlər öz həllində siyasi məqsədlərlə tamamlanır və konkretləşir. [8, s.46]

İqtisadi, sosial, texnoloji və digər məqsədlərin göstəriciləri bir-biri ilə sıx bağlıdır. Belə ki, iqtisadi, texniki və texnoloji göstəricilər seçilib müəyyənləşdirilənə qədər sosial məqsədlər müəyyən edilir. Ümumi vəzifələr və perspektiv, ilkin və operativ qərarlarda ümumi məqsədlər (məzmun, səviyyə və vaxt üzrə) isə bir neçə konkret tapşırıqlarla reallaşır.

Elmi-texniki məqsədləri də ayırmaq olar. Bu məqsədlər əsasən kənd təsərrüfatı istehsalının texniki cəhətdən təmin edilməsinin sürətləndirilməsi, əmək məhsuldarlığının yüksəldilməsi istehsalın

səmərəliliyinin və fond veriminin artırılması, material ehtiyatlarına qənaət edilməsi, əmək şəraitinin yaxşalışdırılması, ətraf mühitin mühafizəsi, təbii ehtiyatlardan və şəraitdən səmərəli istifadə olunmasını təmin edən mütərəqqi texnika və texnologiyanın geniş tətbiq olunması üçün vahid elmi texniki siyasət yürüdülür.

Məqsədlər ierarxiyası (məqsədli icra) məqsədlərin tabeliyini və daxili qarşılıqlı əlaqələrini ifadə edən məntiqi ardıcıllıq və ötürücü mexanizm sxemi əmələ gəlir. Elmi əsaslarla tərtib olunmuş və reallığı mümkün məqsədlərin üzvü birləşdirilməsi və onlara nail olmağaşərait yaradılması, kənd təsərrüfatı qarşısında qoyulan kompleks yanaşma yolu ilə həll etməyə imkan verir.

Sahibkarlıq məqsədə uyğun olaraq cəmiyyət tərəfindən müəyyən edilmiş zəruri istehlak dəyərlərini yaradır, iqtisadiyyatın başqa müəssisə və sahələri ilə birgə geniş təkrar istehsal prosesinin həyata keçirir. Bununla sahibkar cəmiyyətin başlıca məqsədinin həyata keçirilməsində bilavasitə iştirak edir, onun əsas qanununu yerinə yetirir və məhsuldar qüvvələrin istehsal münasibətləri ilə uyğunluğu, onun gələcək dayanıqlı və sosialyönlü inkişafı təmin edir. Sahibkar bu başlıca məqsədə nail olmaq üçün bir sıra konkret təchizat, satış və idarəetmə vəzifələri yerinə yetirir.

Sahibkarlığın idarə edilməsi nəzəriyyəsində, idarəetmə funksiyası mərkəzi məsələlərdən biridir, çünki o idarəetmə fəaliyyətimnin mahiyyətinə və məzmununa toxunur. İdarəetmə funksiyalarının təhlili, onların əsaslandırılmış təsnifatı idarə aparatının elmi əsaslarla qurulmasını, onun tabeçilik sisteminin, quruluş bölmələrinin (ərazi, sahə, funksional) hər bir işçinin hüquq, vəzifə və məsuliyyətinin müəyyən edilməsini nəzərdə tutur.

Əmək bölgüsünün dərinləşməsi idarəetmə fəaliyyətini vahid funksiya kimi fərqləndirir. Onun xüsusi növlərə bölünməsinə səbəb olur.

Xüsusi idarəetmə funksiyaları, ümumi funksyaların tərkib hissəsi olmaqla idarəetmə obyektinin, istehsalının inkişafının qanunauyğunluqlarının gedişini əks etdirir. İstehsalın məzmunu həmişə müəyyəndir. O müxtəlif elementlərdən (texniki, texnoloji, iqtisadi, nəqliyyat və s.) və proseslərdən ibarətdir ki, bunlar da hər bir idarəetmə obyektində öx xüsusiyyətlərinə malikdir və bir-birinə müxtəlif qarşılıqlı təsir göstərir.

Sahibkarın, assosiasiyanın, birliyin idareətmə funksiyası istehsal prosesinin məzmunundan irəli gəlir, öz obyekti (elementi) və həll etdiyi məsələlərin tərkibi ilə müəyyən edilir.

İdarəetmənin konkret vəzifələrinin hər biri istehsalatın bu və ya digər obyektinə (elementinə) məqsədyönlü təsiri təmin etmək üçün yaradılır. Müxtəlif vəzifələr xüsusiləşir, məsələn, texnoloji prosesləri, istehsalın texniki təminatını, kadrları, maliyyəni, idarəetmə və s. İdarə edilən obyektin xüsusiyyəti bu vəzifələrin məzmununu müəyyənləşdirir. Hər bir funksiya, obyektin, məqsədin və nəticələrin ümumiliyi ilə xarakterizə olunan idarəetmənin növlərini birləşdirir.

İdarəetmə funksiyası məqsədə nail olmaq üçün idarəetmə obyektinə yönəldilən planlaşdırma, əlaqələndirmə və nəzarət üzrə idarəetmə subyektinin fəaliyyətidir.

Obyektiv ümumi idarəetmə funksiyalarını yerinə yetirmək üçün idarəetmə apparatı, bu və ya digər ixtisaslaşmış vəzifələri yerinə yetirmək üçün isə ayrı-ayrı quruluş bölmələri (xidmətlər, şöbələr, sahələr) yaradılır. Funksiyaların yalnız birgə təsiri idarə edilən obyektin normal fəaliyyətini və inkişafını təmin edir.

İdarəetmə apparatı məqsədə nail olmaq üçün müvafiq səlahiyyətlərə, fəaliyyətin bütün cəhətlərinin səmərəli idarə edilməsi üçün maddi-texniki bazaya, qarşılıqlı əlaqə və təsirə malik pillələrdən (xidmət və istehsal vahidləri) və işçilərdən ibarət bir sistemdir.

Aqrar sektorun əhatə dairəsi miqyasının dəyişməsi idarəetmə funksiyasının məzmununu dəyişdirmir, ancaq onların yerinə yetirilməsinə dair işlərin həcmi və sistemin qurluşunu dəyişir. Məsələn, təsərrüfatların ölçüsündən asılı olmayaraq hər birində planlaşdırma, kadrların seçilməsi və yerləşdirilməsi funksiyası yerinə yetirilir. Lakin iri şirkət və komplekslərdə bu funksiyanın yerinə yetirilməsi üçün monitoinq və seçmə vəzifələri üçün kadrların seçilməsi və işin əsas istiqamətləri müəyyən edilə bilər.

Kompleks və məqsədli idarəetmə funksiyası öz növbəsində əməliyyatlara və alt sistemlərə, elementlərə bölünür ki, bunlar da vəzifənin özü kimi obyektiv surətdə zəruridir, ancaq müstəqil deyil. Funksiyanın düzgün bölüşdürülməsi idarəetmənin eyni pilləsində yaxın və oxşar fəaliyyəti birləşdirməyə imkan verir. Bununla da ayrı-ayrı sahibkar və funkisonal birliyinin idarəetmə aparatının funksional bölgüsü əməliyyatların təşkili üçün həlledici əhəmiyyət kəsb edir, çünki o idarəetmə apparatı fəaliyyətinin məqsədinin vəzifələrini və istiqamətlərini müəyyənləşdirir. Bununla əlaqədar idarəetmə vəzifələrinin düzgün təsnifatı böyük əhəmiyyətə malikdir.

İdarəetmə funksiyaları təzahür və mahiyyət etibarilə müxtəlif olur, bu da onların bir çox əlamətlər üzrə təsnifləşdirilməsini tələb edir. Tədqiqatın vəzifələrindən asılı olaraq idarəetmə funksiyaları aşağıdakı əlamətlər üzrə təsnifləşdirilə bilər: idarəetmə prosesinin məzmununa görə; istehsalat-təsərrüfat fəaliyyətinə;

mənsubiyyətinə görə; idarəetmə əməyinin mahiyyətcə müxtəlifliyinə görə (iqtisadi, istehsalat, texniki, təşkilat və s.); idarəetmə funksiyası daxilində görülən iş və əməliyyatların məzmununa görə (ümumi rəhbərlik, ixtisaslaşdırılmış texniki xidmət).

İdarəetmə funksiyası məzmununa görə planlaşdırma (perspektiv, cari, operativ), təşkil nizama salma (əlaqələndirmə, sərəncam vermə), nəzarət (uçot və təhlil) kimi əsas funksiyalara bölünür.

Ümumi funksiyalar hər bir idarəetmə sisteminə xas olmaqla idarəetmə fəaliyyətinin hər ümumi, həm də ixtisaslaşmış növlərinə aiddir. İstehsalı idarəetmə prosesi məqsəd qoyuluşu (planlaşdırma) ilə başlanır və məqsədin yerinə yetirilməsinin uçotu və təhlili ilə başa çatır. Ancaq bu funksiyaların qarşılıqlı əlaqəsi və fəaliyyəti ilə məqsəd həyata keçirilir, məqsədə nail olmaq üçün idarəetmə sistemi yaradılır və o idarəetmə obyektinin normal fəaliyyətini təmin edir. Ümumi vəzifələr ciddi surətdə bir-biri ilə bağlıdır. Məsələn, planlaşdırma təşkil edilir, nəzarət altına alınır, əlaqələndirilir, təhlil edilir. Yaxşı təhlil olunmuş nəzarət, sərəncamvermə fəaliyyəti olmadan öz mənasını itirir, elmi sürətdə işlənib hazırlanmış plan, iş düzgün təşkil edilmədikdə nəzərdə tutulan nəticəni vermir və s. Buna görə də hər bir idarəetmə işçisinin fəaliyyəti o vaxt yüksək səmərə verir ki, bütün əsas vəzifələrə lazımi diqqət yetirilsin və bu vəzifələrin hər biri öz mövqeyi və məzmununa uyğun olaraq həyata keçirilsin.

Müasir bazar iqtisadiyyatı şəraitində idarəetmə funksiyasının mürəkkəbləşdiyi bir dövrdə idarəetmə prosesinin dəqiq strateji planlaşdırmaq vacibdir. Müvafiq yardımçı sistemlərin və bütövlükdə idarə edən sistemi tərtib etmək. Perspektiv və cari problemlərin həlli və üsullarını işləyib hazırlamaq, kənd təsərrüfatı işlərinin mövsum üzrə, aylıq, həftəlik, gündəlik iş vaxtı, texnika və işçi qüvvəsi balanslarını tərtib etmək zəruridir. Bunlara lazımi diqqət yetirilmədiyindən idareətmə aparıtının fəaliyyəti bir çox hallarda ahəngdar olmur.

Təşkil etmə funksiyası vasitəsilə və əmək fəaliyyəti elementləri arasında proporsiyalar və onların qarlışıqlı təsir qaydası nizamlanır, idarə olunan və idarə edən sistemlər təşkil edilir, sistemlərdə hər bir fəaliyyət növünün işçinin yeri və rolu müəyyənləşdirilir, onlar bölmələr və sahələr üzrə bölüşdürülür, aralarında dəqiq qarşılıqlı əlaqələr yaradılır, istehsal və istehlak prosesinin müəyyən edilmiş çeşidini və funksiyalarının proqrama uyğun yerinə yetirilməsini təmin etmək məqsədi ilə idarə aparatının, ayrı-ayrı xidmət sahələrinin və işçilərin fəaliyyətini nizama salan sənədlər işlənib hazırlanır. İdarə edilməsinin təşkil etmə funksiyası aşağıdakı prinsiplər əsasında həyata keçirilir: ixtisaslaşma, proporsionallıq, paralellik, dəqiqlik, arasıkəsilməzlik və ahəngdarlıq.

Əlaqələndirmə (nizama salma) funksiyası daha səmərəli daxil və xarici əlaqələr yaratmaq yolu ilə idarəetmə sisteminin müxtəlif hissələri arasında uyğunluq yaradılmasını təmin etməyə yönəldilir. İxtisaslaşmanın dərinləşməsi, istehsalın təmərküzləşməsinin artması, təsərrüfatlararası kooperasiya və aqrar sənaye kompleksində inteqrasiyanın həyata keçirilməsi ilə əlaqədar olaraq təşkilati, texniki əlaqələrin sayı, həm də onların müxtəlifliyi (uyğunlaşdırma) artır. Bütün bünlar əlaqələndirmə funksiyasının etibarlılıq, dəqiqlik, əməlilik prinsipləri əsasında həyata keçirilməsini mühüm şərt kimi qarşıya qoyur.

Nəzarət funksiyası idarəetmə obyektinin real vəziyyətini müşahidə, təhlil, qiymətləndirmə, proqram və plan üzrə müəyyənləşdirilmiş vəziyyətlə müqayisə əsasında məqsədə nail olmaq üçün yerinə yetiriləcək işləri aşkar edir. Qarşıya qoyulan vəzifələrdən, istehsal prosesinin xarakterindən asılı olaraq nəzarətin formaları və üsulları müxtəlif olur. Yalnız fəaliyyəti etibarlı və arasıkəsilməz nəzarət edilə bilən sistemi səmərəli ifadə etmək mümkündür. Nəzarət təsirlilik (səmərəlilik), arasıkəsilməzlik, əhatəlik, aşkarlıq, zəhmətkeşlərin geniş iştirakı prinsipləri əsasında həyata keçirilir. Uçot və təhlil funksiyası nəzarət və üzvü surətdə bağlıdır. Bu nəzarətin bütün növ və formalarını qeydə almaqla onların nəticələri əsasında təhlil aparmağa imkan verir. Uçot planının yerinə yetirilməsini səciyyələndirməklə, təhlil və yeri planın işlənib hazırlanması üçün əsasdır. Beləliklə, idarəetmənin ümumi funksiyaları hər bir idarəetmə sisteminə xasdır. Vəhdət halında idarəetmə prosesinin bütövlüyünü təmin edir.

## ƏDƏBİYYAT


1. Abasov İ. D. Azərbaycanın kənd təsərrüfatı. Bakı, Elm və təhsil, 2010, 592s.
2. Abbasov T. A. Kənd təsərrüfatının resurs potensialı və ondan səmərəli istifadənin regional problemləri. Bakı, Elm, s.185
3. Abbasov T.A. Naxçıvan MR-da aqrar bazar : konseptual əsaslar və inkişaf istiqamətləri.
4. Abdullayev A. İqtisadiyyat və iqtisadi siyasət. Bakı: «Asiya» nəşriyyatı, 2003, 205 s.
5. Əlirzayev Ə. Q. Sahibkarlığın sosial-iqtisadi inkişaf problemləri. Bakı, 2000, s.114.
6. Əlirzayev Ə. Q. İqtisadiyyat: düşüncələr, baxışlar. Bakı: Elm, 2002, 465 s.
7. Əlirzayev Ə. Q., Əliyev K.Q. Sahibkarlığın inkişafının təminatı. /İqtisadiyyat və audit, 2002, №2, 33-34 s.

8. Əliyev K. Q. Bazar iqtisadiyyatı şəraitində sahibkarlığın inkişaf problemləri./ İqtisadiyyat və aydit jurnalı 2003, №10, 24-25 s.
9. Verdiyev Ə. Ç., Qarayev İ.Ş. Aqrar bazarın formalaşmasının iqtisadi problemləri. Bakı, Şirvannəşr, 2000, 256 s.
10. Cəbiyev R. M. Azərbaycanda bazar infrastrukturunun formalaşması və inkişafı. Bakı, «Adiloğlu» 2002, 231 s.

**РЕЗЮМЕ**

**Теймур Аббасов**

**Управление предпринимательской деятельностью в аграрном секторе Нахчыванской Автономной Республики**

В статье исследованы управление предпринимательской деятельности в аграрном секторе автономной республики, его социальные цели, функции. Рассмотрены значение целей управления, стоящие перед ним требования. Отмечено, что основная цель управления предпринимательской деятельностью в сельском хозяйстве состоит в обеспечении постоянного увеличения и стабильности производства, в удовлетворении потребностей населения в продовольственной продукции, а промышленности в сырье.

В статье основным объектом исследования выбраны социальные цели и функции управления со стороны предпринимательства, выявление общих целей и ресурсов управления производством, различные стадии деятельности аграрно-промышленного комплекса. В то же время согласно теории управления предпринимательства рассмотрены управленческие функции, проведен их анализ, на этой основе научно обоснована структура управленческого аппарата, деятельность каждого звена обоснована с точки зрения прав, должностей и обязанностей.

В статье с отделением широкого места функциям управления проведено исследование с точки зрения планирования (перспективного, повседневного и оперативного), организациии, регулирования (взаимосвязного, приказного и т. д.), контрольного (учета и анализа) и других принципов. В общем плане, теория управления предпринимательства рассмотрена как центральная тема исследования.

**ABSTRACT**

**Teymur Abbasov**

**The managment of the entrepreneurship activity in agrarian sector of the Nakhehivan Autonomous Republic**

The management of the entrepreneurship activity in agrarian sector of the autonomous republic, its social goals functions are investigated in the article. It is noted that the main the entrepreneurship management is to provede permenant increasing and stability of production and to met the demand for food products of people and for raw materids of industry.

The article entrepreneurship, social objectives and functions of management, production management and resources to the general purpose of determining the agro-industrial complex has been extensively studied in separate stages.

At the same time, the management functions of business management theory analysis, their classification was carried out.

According to the article, as well as the content management functions of planning (prospective, current, operative), frame-up (coordination, orders), control (accounting and analysis) functions were such.

One of the central issues in general, as a management function of business management theory investigated.

NDU-nun Elmi Şurasının 30 mart 2017-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 07).

**ƏŞRƏF ƏLƏKBƏROV**
*Naxçıvan Dövlət Universiteti*
*a.ashraf@mail.ru*

**UOT:336.2**

# SOSİAL – İQTİSADİ İNKİŞAFIN TƏMİN OLUNMASINDA DÖVLƏTİN VERGİ SİYASƏTİ VƏ ONUN ROLU

***Açar sözlər:*** *sosial-iqtisadi inkişaf, sosial müdafiə, vergi sistemi, vergi siyasəti, vergi mexanizmi*
***Key words****: social-economic development, social security, tax system, tax policy, tax mechanism*
***Ключевые слова****: социально-экономическое развитие, социальная защита, налоговая система, налоговая политика, налоговый механизм*

Bildiyimiz kimi SSRİ-nin dağılması bütün 15 ittifaq dövlətləri kimi Azərbaycan Respublikasının da iqtisadi həyatının demək olar ki, məhvinə səbəb olmuşdur. SSRİ dönəmində əsas istehsal sahələrinin müttəfiq dövlətlər arasında əlaqəli qurulması və bu əlaqənin də kəsilməsi nəticəsində respublikamızda fəaliyyət göstərən müəssisələrin öz işlərini dayandırmasına, ya da qismən fəaliyyət göstərməsinə səbəb olmuşdur. Belə bir şəraitdə əhalinin işsiz qalması, maddi rifah halının pisləşməsi qaçınılmaz olmuşdur. Digər bir tərəfdən erməni qəsbkarlarının torpaqlarımızı işğal etməsi, öz doğma el-obalarından didərgin düşmüş soydaşlarımızın respublikamızın digər bölgələrində məskunlaşması vəziyyəti daha da acınacaqlı etmişdi. Həmin vaxt hakimiyyətdə olan səriştəsiz insanların fəaliyyətsizliyi nəticəsində bu xaos bütün ölkəni bürümüş, əhalinin gündəlik tələbatlarını belə ödəməsi demək olar ki, mümkünsüz bir hala çevrilmişdi.

Məhz belə bir dönəmdə xalqın yeganə çıxış yolu ümummilli lider Heydər Əliyevin rəhbərliyi qayıtması olmuşdu. Azərbaycan xalqının təkidli çağırışından sonra ikinci dəfə siyasi hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında ölkədə insan potensialının keyfiyyətinin yüksəldilməsi, dövlət idarəetmə sisteminin təkmilləşdirilməsi, sosial-iqtisadi inkişafın təmin edilməsi, əhalinin sosial-rifah halının yaxşılaşdırılması, məşğulluğun təmin edilməsi, işsizliyin minimuma endirilməsi, bölgələrin iqtisadi inkişafına nail olunması istiqamətində geniş miqyaslı islahatlar aparılmışdır. Bu islahatlar içərisində vergi sisteminin inkişafı ilə bağlı görülən işlər diqqəti daha çox cəlb edir. Çünki SSRİ dövründə tamamilə başqa bir sistem fəaliyyət göstərirdi və vergi işi ilə bağlı demək olar islahatlar aparılmırdı. Lakin, müstəqillik illərində vergi siyasəti və səmərəli vergi sisteminin formalaşdırılması, onun qanunvericilik bazasının təkmilləşdirilməsi, vergi orqanları əməkdaşlarının peşəkarlıq səviyyəsinin artırılması, ölkədə əlverişli vergi mühitinin və vergi mədəniyyətinin yaradılması sahəsində əhəmiyyətli işlər görülmüşdür.

İqtisadi dirçəlişin təmin edilməsi həyata keçirilən vergi siyasətindən əhəmiyyətli dərəcədə asılı olur. Hazırda vergi sistemi və vergi siyasəti dövlətin maliyyə bazasının, başqa formada ifadə etsək dövlətin iqtisadi dayaqlarının möhkəmləndirilməsinə xidmət edən dövlət idarəetməsinin mürəkkəb sahələrindən biridir. Bu baxımdan iqtisadiyyatın vergi siyasəti vasitəsilə tənzimləməsi olduqca mürəkkəb, həssas və xüsusi yanaşma tələb edən problemlərdəndir.

Təsadüfi deyil ki, iqtisadiyyatın vergi yolu ilə tənzimlənməsi inkişaf səviyyəsi oxşar olan dövlətlərdə də müxtəlif yanaşma, metod və üsullarla həyata keçirilir. Hətta bir çox ölkələrdə vergiqoyma mexanizmi regional və sahə xüsusiyyətlərinə görə fərqli formada tətbiq edilir. Bu müxtəliflik dövlətin idarəetmə quruluşundan, milli adət-ənənələrindən, inkişaf səviyyəsindən asılı olur və hər bir dövlət buna əsaslanaraq özünün vergi siyasətini həyata keçirir. Hansı forma və metodla həyata keçirilməsindən asılı olmayaraq burada son məqsəd dövlətin iqtisadi dayaqlarının möhkəmləndirilməsi, əhalinin sosial müdafiəsinin gücləndirilməsidir. Vergi sisteminin bu xarakterik xüsusiyyəti bir qədər əvvəl qeyd etdiyimiz kimi onu digər dövlət idarəetmə sistemlərindən (dövlət strukturlarından) fərqləndirir.

Məlum olduğu kimi, hal-hazırda dünyada mövcud olan vergi sistemi özünün tarixi inkişaf mərhələsində müxtəlif formalarda fəaliyyət göstərmişdir. Əlbəttə ki, bu gün tətbiq edilən vergi sisteminin bugünkü inkişaf səviyyəsinə gəlib çatmasında alimlərin, vergi sahəsində çalışan mütəxəssislərin böyük rolu olmuşdur. Uzun tarixi inkişaf yolu keçən vergi sistemi, son yüzillikdə dövlətlə cəmiyyət (fərdlər, şirkətlər) arasındakı münasibətləri formalaşdıran əsas alətə çevrilmişdir.

Hazırda dünyada həyata keçirilən vergi siyasəti bu sahədə aparılan çoxsaylı tədqiqat işləri nəticəsində yaranan nəzəri və praktiki biliklərə əsaslanaraq formalaşdırılır. Qeyd edək ki, bu günə qədər vergi ilə bağlı bir sıra nəzəriyyələr yaranmışdır. Bunlara “mübadilə nəzəriyyəsi”, “atomist nəzəriyyə”, “sığorta mükafatı nəzəriyyəsi”, “klassik nəzəriyyə”, “ianə nəzəriyyəsi”, “kollektiv tələbatlar nəzəriyyəsi”, “Keynsçi nəzəriyyə”, “monetarist nəzəriyyə”, “təklif iqtisadiyyatı nəzəriyyəsi”, “zövq nəzəriyyəsi” (4, 75) və s. daxildir. Bu nəzəri biliklər çox da uzaq olmayan tarixi dövr ərzində formalaşmışdır.

Vergi siyasəti dövlətin maliyyə siyasətinin tərkib hissəsi olmaqla yanaşı eyni zamanda əmək motivasiyasının yeni mexanizminin bazar münasibətlərinə uyğun formalaşmasının mühüm şərti kimi çıxış edir. Bu nöqteyi-nəzərdən vergi siyasəti xarici stimul kimi, fərdin maraqlarına təsir edir, onu ictimai istehsala kapital qoyuluşunu artırmağa və ya əksinə məcbur edir (5). Belə ki, bəzən maksimal vergi siyasəti həyata keçirməklə dövlət vergi güzəştlərini azaldır və vergi növlərinin sayını artırır, kifayət qədər yüksək vergi tarifləri müəyyən edir. Bununla da böyük məbləğdə maliyyə resursları ölkə vətəndaşlarının əlindən alınır. Nəticədə həyata keçirilən siyasət ümumilikdə cəmiyyətin iqtisadi inkişafına mane olur. İlk dəfə F.Kene vergi siyasəti ilə təkrar istehsal amilləri arasında asılılığı təsdiq etmiş, onların üzvi vəhdətdə olması zərurətini əsaslandırmışdır (6, 132). Bu asılılıq vergi siyasətinin ölkənin sosial-iqtisadi inkişafında əhəmiyyətli rol oynadığını göstərir. Əgər vergi siyasətinin məqsədlərini nəzərdən keçirsək bunu daha aydın görmüş olarıq.

Belə ki, müasir elmi ədəbiyyat və sənədlərdə vergi siyasətinin ən əsas məqsədinə aşağıdakılar daxil edilir:

- dövlətçiliyin qorunub saxlanması;
- ictimai, iqtisadi və sosial inkişafın təmin edilməsi;
- dövlət idarəetmə aparatının saxlanmasına tələb olunan vəsaitlərin ödənilməsi;
- ölkə daxili istehsalın genişləndirilməsi;
- rəqabət qabiliyyətli iqtisadiyyatın formalaşması;
- dövlət xərclərinin maliyyə təminatının tənzimlənməsi;
- iqtisadiyyata investisiyaların cəlb edilməsi;
- gəlirlərin yenidən bölüşdürülməsi;
- əhalinin sosial müdafiəsinin həyata keçirilməsi və s. (7; 8; 9)

Qeyd olunan məqsədlər bir daha vergi siyasətinin iqtisadi tənzimləmənin iqtisadi və sosial münasibətlərin formalaşması və inkişafının mərkəzində durduğunu göstərir. Bu fikir, artıq siyasi liderlər, iqtisadçı alimlər və sahibkarlar tərəfindən də birmənalı şəkildə qəbul olunmuşdur. Bütün bunlar vergi siyasətinin dövlətin sosial-iqtisadi inkişafda mühüm yer tutduğunu göstərir. Onu da qeyd edək ki, dövlət maliyyəsinin əsas elementlərindən biri olan pul münasibətləri verginin meydana gəlməsinə əsas yaratmışdır. Vergi daxilolmalarının büdcə gəlirlərinin əsas hissəsini təşkil etməsi onun sosial əhəmiyyətinin yüksək olduğunu deməyə əsas verir. Göstərmək lazımdır ki, inkişaf etmiş ölkələrin vergi siyasəti bir qayda olaraq xüsusi kapitalı cəlb etməyə yönəlmişdir. Belə ki, dövlət iqtisadi fəaliyyət subyektlərinə müxtəlif metod və üsullarla vergi güzəştləri tətbiq edir. Bu isə öz növbəsində sahibkarlıq fəaliyyətinin dolayı subsidiyalaşmasına və inkişafına xidmət edir. Bütün bunlar, vergi sisteminin bir sıra fərqli əlamətlərə və funksiyalara malik olduğunu göstərir. Bunlara:

- fiskal funksiya;
- sosial funksiya;
- təkrar bölgü funksiyası
- tənzimləyici funksiya;
- stimullaşdırıcı funksiya;
- əks-stimullaşdırıcı funksiya;
- nəzarət funksiyası daxildir.

Verginin həyata keçirdiyi funksiyalar demək olar ki, iqtisadi inkişafın əsasını təşkil edir. Burada fiskal funksiya verginin təyinatını əks etdirir. Məhz fiskal funksiyanın vasitəsi ilə vergilərin başlıca ictimai təyinatına – büdcə fondunun formalaşmasına nail olunur.

Verginin yuxarıda göstərilən funksiyalarını ümumiləşdirərək onu əsas və alt funksiyalara bölmək olar. Fiskal və sosial funksiyaları əsas funksiyalar, nəzarət, tənzimləyici və stimullaşdırıcı funksiyaları isə alt funksiyalara daxil etmək olar. Çünki fiskal funksiya özlüyündə nəzarət və tənzimləyici funksiyaları yerinə yetirir. Sosial funksiya isə nəzarət, tənzimləyici və stimullaşdırıcı funksiyaları özündə birləşdirir. Bunu sxematik olaraq aşağıdakı kimi vermək olar.

Sxem1. Verginin funksiyaları



Sxemdən də göründüyü kimi, fiskal funksiya bütün səviyyələrdə pul vəsaitlərinin büdcə fondlarında cəmləşdirilməsinə (mobilizasiyasına) istiqamətlənən siyasətdir. Burada nəzarət və tənzimləyici funksiyalar əsas yer tutur. Verginin digər funksiyası olan sosial funksiya isə əhalinin sosial müdafiəsinin gücləndirilməsi ilə yanaşı, nəzarət, tənzimləyici və stimullaşdırıcı funksiyaları özündə birləşdirir. Burada əsas məqsəd milli gəlir yenidən bölgüsü və təkrar istehsalı stimullaşdırılmasıdır.

Qeyd etdiyimiz kimi, müstəqilliyimizin ilk illərində bütün sahələrdə olduğu kimi, vergi sahəsində də Azərbaycanda köklü islahatlar həyata keçirilmişdir. Həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində beynəlxalq tələblərə cavab verən sistem formalaşmışdır. Bu istiqamətdə aparılan islahatlar ölkə iqtisadiyyatına makro səviyyədə öz təsirini göstərməklə bərabər, sahibkarlıq fəaliyyətinin inkişafına, istehsal münasibətlərinin yeniləşməsinə əhəmiyyətli təsir göstərmişdir. Azərbaycan Respublikasında müasir tələblərə cavab verən vergi sisteminin formalaşması heç də asan başa gəlməmişdir. Müstəqilliyin ilk illərində əsasən fiziki şəxsləri əhatə edən vergi münasibətlərinin zəif inkişafı, təsərrüfat subyektlərinin özəlləşdirilməsi, yeni sahibkarların vergilərə müsbət olmayan münasibəti, yeni sistemdə ciddi uçot və nəzarət sisteminin, qanunvericilik bazasının olmaması, vergitutma sahəsində ölkədə elmi məktəb, təcrübə və ixtisaslı kadrların olmaması və ya onların sayının çox az olması və s. müasir vergi sisteminin formalaşmasını çətinləşdirən amillər olmuşdur. Lakin zaman keçdikcə bu çətinliklər tədricən aradan qaldırılmış, ölkənin vergi sisteminin təkmilləşdirilməsi, onun inkişaf etmiş ölkələrin vergi sisteminə uyğunlaşdırılması istiqamətində əhəmiyyətli işlər görülmüşdür.

Vergi sistemində islahatlar respublikanın müstəqillik qazandığı dövrdən bu günədək davam etməkdədir. Azərbaycan Respublikasının vergi sistemində aparılan islahatların əsas mahiyyəti vergi sisteminin səmərəli fəaliyyətini tənzimləyən qanun və digər qanunvericilik aktlarının qəbulu, ayrı-ayrı vergi növləri, onların yığılması, dərəcələrinin müəyyən edilməsi, stimullaşdırıcı xarakterinin gözlənilməsi, ölkə iqtisadiyyatının inkişafına təsir mexanizminin icra edilməsindən ibarətdir.

Hazırda Azərbaycan Respublikasının vergi sistemi ölkənin təsərrüfat subyektlərinin fəaliyyətini tənzimləyir. Vergi yığımı vasitəsilə toplanan vəsait dövlətin təxirəsalınmaz ehtiyaclarını maliyyələşdirməyə imkan verir, büdcə kəsirinin böyüməsinin qarşısını alır. Məlum olduğu kimi, Azərbaycanda vergi sisteminin əsas mərkəzi orqanları Azərbaycan Respublikası Vergilər Nazirliyidir. Bununla yanaşı Dövlət Gömrük Komitəsi, Dövlət Sosial müdafiə fondu də bəzi vergi və rüsumların yığılmasına cavabdehlik daşıyır. Bu orqanların fəaliyyəti vergi və gömrük qanunvericiliyinə söykənir və bunun əsasında da onların fəaliyyət prinsipləri müəyyən edilir. Vergi orqanlarının fəaliyyət prinsiplərinə: sistemin vahidliyi, stabilliyi, müstəqilliyi, operativliyi (çevikliyi), qanunun aliliyi, fəaliyyətdə məqsədyönlülük və s. daxildir. Sözsüz ki, bütün bunlar insan əməyi, insanın bilik və bacarığı, öz peşəsinə və onun nəticələrinə cavabdehliyi ilə formalaşır və inkişaf edir.

Müasir şəraitdə bazar iqtisadiyyatının tələblərinə əsaslanan vergi sisteminin yaradılması üçün gəlirlərin büdcəyə tam və vaxtında səfərbər edilməsinin təmin olunması mühüm əhəmiyyət kəsb edir. Çünki vergi sisteminin düzgün qurulmaması dövlətin sosial-iqtisadi siyasətinin həyata keçirilməsi işini çətinləşir. Bu isə cəmiyyətdə sosial gərginliyin yaranmasına səbəb olur. Bunu vergi sisteminin əhalinin müxtəlif təbəqələrinin gəlirlərinin yenidən bölüşdürülməsi və formalaşması xüsusiyyətlərini nəzərə almaqla istehsal və istehlakın həm xalq təsərrüfatı, həm də onun ayrı-ayrı sahələri üzrə tənzimlənməsi funksiyası ilə əlaqələndirmək olar.

Ölkənin vergi sistemində fəaliyyətdə olan qanunvericilik bazası iqtisadi cəhətdən əlverişli olmalı, heç bir şəxs əldə etdiyi mənfəətdən (gəlirdən) eyni növ vergini bir dəfədən artıq ödəməyə məcbur edilməməlidir. Bundan başqa vergilər vergi ödəyiciləri arasında mövcud olan digər xüsusiyyətlər əsas götürülməklə müəyyən edilməməli və diskriminasiya xarakteri daşımamalıdır. Hazırda Azərbaycan Respublikasında tətbiq olunan dövlət vergiləri Vergi Məcəlləsi ilə müəyyən edilən və Azərbaycan Respublikasının bütün ərazisində ödənilməli olan vergilərdir. Bunlara fiziki şəxslərin gəlir vergisi, hüquqi şəxslərin mənfəət vergisi, əlavə dəyər vergisi, aksiz vergisi, hüquqi şəxslərin əmlak vergisi, hüquqi şəxslərin torpaq vergisi, yol vergisi, mədən vergisi, sadələşdirilmiş vergi daxildir.

Respublikamızda aparılan vergi siyasəti vergi dərəcələrinin aşağı salınması və vergi güzəştlərinin azaldılması hesabına vergitutma bazasının genişləndirilməsinə, iqtisadiyyata investisiya qoyuluşunun stimullaşdırılmasına, hüquqi şəxslərlə fərdi sahibkarlar arasında, rezident və qeyri-rezident vergi ödəyiciləri arasında vergi yükünün bərabərləşdirilməsinə, kiçik və orta sahibkarlıq, biznes fəaliyyəti üçün əlverişli şəraitin yaradılmasına və son nəticədə mövcud iqtisadi potensialın artırılmasına və əhalinin maddi rifahının yüksəldilməsinə yönəldilmişdir. Qeyd etmək lazımdır ki, vergi siyasəti büdcə siyasətinin tərkib hissəsi olub, büdcənin gəlir hissəsinin formalaşmasına xidmət edir və büdcənin xərc hissəsi nəzərə alınmadan həyata keçirilə bilməz.

Azərbaycan dövlətinin bugünkü büdcə siyasəti əsasən sosial müdafiə siyasəti, istehsal sferasının inkişaf siyasəti, maksimal vergi siyasətlərini əhatə edir. Respublikamızda həyata keçirilən vergi siyasəti aşağıdakı prinsiplərə əsaslanır:

- vergi sisteminin sadə və vergi ödəyicisi tərəfindən başa düşülən normativ-hüquqi bazasının

yaradılması və cəmiyyətdə vergi mədəniyyətinin formalaşdırılması;

- vergi yükünü optimal səviyyədə saxlamaqla vergi ödəyicilərinin fəaliyyəti üçün əlverişli şəraitin yaradılması və onların hüquqlarının maksimum qorunması;
- vergi orqanlarının fəaliyyətinin digər dövlət orqanları ilə əlaqələndirilməsi;
- sahibkarlıq və investisiya fəallığını stimullaşdıran, vergi sisteminin yaradılması.

Müasir Azərbaycan Respublikasının qarşısında duran əsas vəzifə ölkənin gələcək iqtisadi və sosial inkişafını təmin etməkdir. Bunun üçün isə dövlət ölkənin əmək və təbii resurslarını nəzərə almaqla özünün maliyyə və onun tərkib hissəsi olan vergi strategiyasını işləyib hazırlamışdır. Bu strategiyanın həyata keçirərkən respublikamızın vergi sisteminin təkmilləşməsi üçün vergilərin sayının azaldılması, vergitutma bazasının genişləndirilməsi hesabına vergi dərəcələrinin aşağı salınması və vergi güzəştlərinin geniş tətbiqinin təmin edilməsi nəzərə alınmalıdır. Qeyd olunduğu kimi, dövlətin vergi siyasətinin əsas istiqamətlərindən biri də iqtisadiyyatın normal fəaliyyət göstərməsi üçün əlverişli vergi şəraitinin yaradılmasıdır. Respublikamızda bu sahədə məqsədyönlü işlər görülmüşdür. Belə ki, mənfəət vergisinin dərəcəsi 45 faizdən 22 faizə, əlavə dəyər vergisinin dərəcəsi 28 faizdən 18 faizə, fiziki şəxslərin gəlir vergisinin maksimal dərəcəsi 55 faizdən 35 faizə endirilmişdir. 2010-cu ildən isə mənfəət vergisinin dərəcəsi 22 faizdən 20 faizə, fiziki şəxslərdən gəlir vergisinin dərəcəsinin maksimal həddi isə 35 faizdən 30 faizə endirilmişdir. Görülən işlər vergi daxilolmalarının ahəngdarlığına müsbət təsir göstərmişdir.

Ölkəmizdə bütün sahələrdə olduğu kimi, Vergi xidmətində də aparılan dəyişikliklər mahiyyət etibarilə vergi sisteminin sadələşməsinə, vergi ödəyicilərinin üzərində birbaşa nəzarətin azaldılmasına xidmət etsə də, vergi inzibatçılığının yaxşılaşdırılması və daha müasir üsulların tətbiqi vasitəsilə, əslində vergi nəzarətinin bir qədər də təkmilləşməsinə səbəb olmuşdur.

Azərbaycanın vergi sistemində aparılan islahatlar vergilərin məcburi alınmasından vergilərin könüllü ödənilməsinə keçidi təmin etməkdir. Bu məqsədə nail olmaq üçün vergi xidməti müasir vergi nəzarəti üsullarını tətbiq etməli, vergi nəzarəti işi yaxşılaşdırılmalı və təkmilləşdirilməlidir.

Müasir şəraitdə vergi orqanlarının qarşısında duran vəzifələrdən biri də vergi xidmətinin peşəkar kadrlarla təmin edilməsidir. Ölkə Prezidentinin 15 aprel 2005-ci il tarixli fərmanı ilə təsdiq edilmiş "Dövlət vergi orqanlarına işə qəbul olunmaq üçün namizədlərin müsabiqəsinin keçirilməsi haqqında əsasnamə"yə əsasən hər il vergi xidmətinə əməkdaşların cəlb olunması test üsulu ilə keçirilən müsabiqə vasitəsilə həyata keçirilir.

Bununla yanaşı, ölkəmizin Avropa ilə Qonşuluq Siyasəti çərçivəsində qəbul olunan fəaliyyət planına uyğun olaraq bu gün vergi orqanları da vergi qanunvericiliyinin və inzibatçılığının təkmilləşdirilməsi sahəsində yeni hədəfləri müəyyən edir, vergi xidmətinin daha da təkmilləşdirilməsi sahəsində tətbiqi imkanlarını araşdırırlar. Ümumiyyətlə, bu gün dünyada aparılan vergi siyasətinin əsas strateji hədəfi vergilərin könüllü ödənilməsi səviyyəsinin artırılmasından ibarətdir. Bu hədəf vergi orqanlarının vergidən yayınma hallarının qarşısının almasında və vergi ödəyicilərinə göstərilən xidmətlərin səviyyəsinin yüksəldilməsində mühüm faktor hesab edilir. Bu Azərbaycanın vergi sisteminin inkişafında və eyni zamanda milli iqtisadiyyatın rəqabətliliyinin təmin edilməsində, sosial-iqtisadi inkişafın təmin edilməsində, əhalinin həyat səviyyəsinin yüksəlməsində, maddi rifah halının yaxşılaşdırılmasında əhəmiyyətli rol oynaya bilər.

## ƏDƏBİYYAT


1. Rzayev Z.H., Xəlilov Ş.İ. İqtisadi tərəqqi və vergi siyasəti. Bakı: Çaşıoğlu, 2008, 272 s
2. Məmmədov İ.Ə., Musayev A.F., və b. Vergitutmanın nəzəri və metodoloji əsasları. Bakı: Ozan, 2001, s. 416.
3. Musayev A. F., Məmmədov H. İ. Yerli özünüidarəetmə (bələdiyyə) orqanlarının vergi sistemi: Dərs vəsaiti. Bakı: CBS Polygraphic Production, 2008, 398 s.
4. Маматов З.Т., Мирзаев Т.К., Чен И.А. Налоговый менеджмент. Ташкент: 2008, 184 с.
5. Шаховская Л.С Мотивация труда в переходной экономике. http://www.smartcat.ru/catalog/con_62_4.shtml
6. Дернберг Р. Международное налогообложение. М.; Будапешт: ЮНИТИ; COLPI, 1997, 342 с.
7. http://www.jourclub.ru/15/1112/
8. http://4study.kz/finansy/174-osnovnye-napravleniya-nalogovoy-politiki-na-sovremennom-etape/
9. http://финансовая-биржа.рф/nalogi-nalolgooblajenie-rf/suschnost-tseli-zadachi-nalogovoy.html


## ABSTRACT


**Ashraf Alakbarov**


**The state's tax policy and its role in the social - economic development.**


The article socio-economic development, social protection, improving the welfare of her standing in front of each state, regardless of qurulusandan emphasized that the foremost duty. This is the fulfillment of the obligations undertaken by the state's tax policy has an important place.

Experience shows that the management of economic processes, the formation of economic relations, in particular the state of the economy is the leader in the regulation of the tax system. Existence of the state tax system, ensuring its security, is the basis of social protection and state revenues. Because of market conditions regulate the economy, the state budget revenues, ensuring the development of entrepreneurial activity is carried out through the tax system. This means that the formation of the tax system of government revenues, and this is the basis of the merits of the state's socio-economic obligations. The successful development of the existing tax system, improve the efficiency of the tax authorities on the one hand, on the other hand the importance of tax payment and who understand the role of the socio-economic development, civic responsibility depends on the formation of the different categories of tax professionals and payers.

As we know, the creation of tax services that meet the requirements of market relations in the early 90s of the last century has begun. Thus, compliance with tax laws and price discipline in order to ensure state control in July 1990 as part of the Tax Inspection of the Ministry of Finance was established. After working for a time as a body of the Ministry of Finance in October 1991, its independent operation and control of the service in order to ensure the objectivity of the Ministry of Finance of the Republic of Azerbaijan, which is an independent body established in the State Tax Inspectorate, then exercising control in this area The Ministry of Taxes of central authority was created.

The fulfillment of the tasks facing the article states, the provision of socio-economic development of the state's tax policy, tax mechanism, widely analyzed and assessed various aspects.

**РЕЗЮМЕ**

**Ашраф Алекперов**

**Государственная налоговая политика и её роль в обеспечении социально-экономического развития**

В статье подчёркнуто, что задачей, стоящей на переднем плане перед каждым государством, вне зависимости от его структуры, является социально-экономическое развитие, социальная защита населения, улучшение его благосостояния. При выполнении этих задач важное место занимает проводимая государством в жизнь налоговая политика.

Практика показывает, что в управлении экономическими процессами, в формировании экономических отношений, в особенности в регулировании экономики, государством налоговая система занимает ведущее положение. Налоговая система является основой существования государства, обеспечения его безопасности, социальной защиты населения и формирования государственных доходов. Потому что в условиях рыночных отношений регулирование экономики, обеспечение доходов государственного бюджета, развитие предпринимательской деятельности проводится в жизнь именно посредством налоговой системы. Стало быть налоговая система образует формирование доходов государственного бюджета и на этой основе составляет основу социально-экономических обязательств государства. Успешное развитие имеющейся налоговой системы зависит с одной стороны от повышения эффективности работы налоговых органов, с другой стороны от формирования категории различных налоговых работников и налогоплательщиков с гражданско-правовой ответственностью, осознающих роль и значение уплаты налогов в социально-экономическом развитии страны.

Как вам известно, процесс создания налоговой службы, отвечающей требованиям рыночных отношений, начался в начале 90-х годов прошлого столетия. Так, с целью обеспечения государственного контроля над соблюдением налогового законодательства и ценовой дисциплины, в июле месяце 1990-го года в составе Министерства Финансов Республики была создана Налоговая Инспекция. После деятельности некоторое время в качестве органа Министерства Финансов, в октябре 1991-го года, в целях обеспечения независимости и объективности контрольной деятельности, эта служба была выведена из состава Министерства Финансов и образован самостоятельный орган – Государственная Налоговая Инспекция Азербайджанской Республики, а затем было создано Министерство Налогов - центральный орган исполнительной власти, осуществляющий государственный надзор в этой области.

В статье широко проанализирована и с различных аспектов оценена налоговая политика, проводимая в жизнь государством в выполнении задач, стоящих перед ней и в обеспечении социально-экономического развития.

NDU-nun Elmi Şurasının 30 mart 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 07).

Məqaləni çapa təqdim etdi: İqtisad üzrə elmlər doktoru, professor A.Rüstəmov

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2017, № 2 (83)**

NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2017, № 2 (83)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2017, № 2 (83)**

**HƏVVA ADIGÖZƏLOVA**
*Naxçıvan Dövlət Universiteti*
*eva.alieva.2012@mail.ru*

**UOT: 332.1**

# İNNOVASİYALARIN MÜƏSSİSƏLƏRİN FƏALİYYƏTİNİN TƏŞKİLİNDƏ ROLU

***Açar sözlər:*** *innovasiya, innovasiya fəaliyyəti, elmtutumlu sahələr, elmi-texniki tərəqqi, yeni əmək məhsulları*
***Keywords:*** *innovation, knowledge-intensive areas of scientific and technological progress, new labor products*
***Ключевые слова:*** *инновация, инновационная деятельность, наукоемкие сферы, научно-технический прогресс, новые трудовые товары*

XX əsrin son onilliklərindən bu günədək insan cəmiyyətində çox sürətli dəyişikliklər getmişdir. Bütün bu dəyişikliklərin əsası innovasiya ilə əlaqədardır. İnnovasiya fəaliyyəti dedikdə, bütünlükdə yeniliklərə fərdi tələbi, eləcə də cəmiyyətin tələbatını ödəmək üçün yeni və yaxşılaşdırılmış məhsulların (xidmətlərin) və onların istehsalının yeni üsullarının alınması məqsədilə elmi, elmi-texniki və intellektual potensial tədbirləri sistemi başa düşülür. İnnovasiyaya olan baxışlar müxtəlifdir. İnnovasiyaya müxtəlif təriflər verilmiş və o müxtəlif formada izah edilmişdir. Bunlardan bəzilərini qeyd edək:

T.Ə.Quliyev göstərir ki, innovasiya yenilikdir, yeni fikrin məhsuludur (2, səh.438) A.Abbasova görə innovasiya idarəetmə obyektinin dəyişdirilməsi və iqtisadi, sosial, ekoloji, elmi-texniki və digər növ effekin alınması məqsədilə yeniliklərin tətbiqinin son nəticəsidir (3, səh.88). M.C.Atakişiyev, Q.S.Süleymanovun fikrincə, innovasiya bazar iqtisadiyyatına uyğun elm və texnikanın nəaliyyətləri əsasında istehlakçıların tələbatını ödəmək məqsədilə yeni əmək məhsullarını təklif etmək üzrə tədbirlər olub, investisiyanın keyfiyyət tərəfini xarakterizə edir (11, səh.8).

İnnovasiya – yeni texnoloji ideyaların, təkliflərin elmi-texniki qərarların praktiki tətbiq edilməsi və həyata keçirilməsidir. İnnovasiya yeni texnologiya şəklində yeniliklərin, məhsul və xidmət növlərinin, istehsal, maliyyə, kommersiya və inzibati xarakterli təşkilati-texniki və sosial-iqtisadi qərarların mənfəətlə istifadə edilməsidir. İnnovasiya – aparılmış elmi-tədqiqatların və xidməti kəşflərin istehsala tətbiq edilən (əvvəlki analoqlardan fərqli) obyektlərdir.

Beləliklə, innovasiya müxtəlif sahələrdə yeniliklərin, yeni ideyaların, dəyişikliklərin və qaydaların yaradılması və təcrübədə istifadə edilməsi prosesidir. Y.Şumpeter bu cür dəyişikliklərin beş tipini fərqləndirirdi:

1) yeni texnika, yeni texnoloji proseslərdən və ya istehsalın yeni bazar təminatından istifadə edilməsini;
2) yeni xassələrə malik məhsulun tətbiqini;
3) yeni xammaldan istifadə edilməsini;
4) istehsalın təşkilində və onun material-texniki təminatında dəyişikliklər edilməsini;
5) yeni satış bazarının meydana çıxmasını.

O sübut etdi ki, iqtisadiyyatda mərkəzi fiqur novator-sahibkar olacaqdır. J. Sumpeterə görə, innovasiya-yeni növ istehlak mallarının, yeni istehsal və nəqliyyat vasitələrinin, bazarların və sənayedə təkilati formaların tətbiqi və istifadəsi məqsədilə bas verən dəyisiklikdir.

Mütərəqqi yeniliklərin əksəriyyəti öz real təcəssümünü elmtutumlu və rəqabətqabiliyyətli məhsulların yaradılmasında tapır. Yeniliklərin yayılma diapazonu praktika əsasında genişlənir. Onların dəyəri insanla və onun tələbatı ilə kontaktda üzə çıxır. Dəyər münasibətləri bazar iqtisadiyyatında tənzimləmə amillərinin ayrıca bir qrupunu təşkil edir. Bu halda elm və texnika inkişaf etdikcə əmtəələrin dəyərində fiziki əməkdən daha çox intellektual əmək sərfinə əhəmiyyət verilir.

İnnovasiya prosesi müxtəlif resursların istehsal fəaliyyətinə cəlb edilməsilə bağlıdır. Əsas resurslar yeni məhsul istehsalının geniş miqyasda mənimsənilməsi ilə əlaqədar olan tədqiqatlar və araşdırmalar aparılmasına, layihə - texnoloji və başqa işlərin yerinə yetirilməsi üçün investisiyalar və vaxt sərf olunur. Bütövlükdə innovasiya fəaliyyəti sisteminə elm, texnologiya, innovasiya və təhsil kimi tərkib hissələri daxildir. Bu komponentlərdən hər hansı birinin olmaması innovasiya fəaliyyəti sisteminin bütövlüyünün pozulmasına gətirib çıxarır.

Eyni qayda ilə, bütöv sistemin komponentlərindən birinin inkişafına lazımınca diqqət yetirilməməsi nəticəsində məhsulun rəqabətlilik qabiliyyəti aşağı düşəcəkdir, çünki bu halda məhsulun elmtutumluluğu azalır, yaxud təhsil sahəsinə lazımınca diqqət yetirilməməsi təkcə yeni məhsullar yaradan təşkilatlarda və elmi müəssisələrdə deyil, eyni zamanda iqtisadiyyatın müxtəlif sahələrində də kadr problemlərinin kəskinləşməsinə

gətirib çıxarır. Bütövlükdə innovasiya fəaliyyəti sistemində yuxarıda nəzərdən keçirilən komponentlərin içərisində ən əsas ünsür insandır. Elm insanın tələbatına birbaşa və ya texnologiya, iqtisadiyyat və məişət vasitəsilə dolayı şəkildə təsir göstərir. Məqsədlərin, ideyalların və maraqların dəyişməsi ictimai istehsalda hökmranlıq edən texnoloji quruluşa adekvat olan yeni dəyərlərin inkişafına şərait yaradır. Buna görə də elmin inkişafının bir mərhələsinə xas olan dəyərlər başqa, daha mütərəqqi mərhələdə öz əhəmiyyətini itirə bilər.

Bazar iqtisadiyyatı inkişaf etmiş ölkələrdə elmi-texniki tərəqinin inkişafı innovasiya sahibkarlığı ilə bağlıdır. Ümumiyyətlə, sahibkarlığın 2 formasını fərqləndirmək olar: onlardan biri yeniliklərin tapılması və reallaşdırılmasıdır ki, buna da innovasiya sahibkarlığı deyilir. Digəri isə xalis bazar sahibkarlığıdır. Buna da marketing deyilir. Elmi-texniki nəaliyyətlərin istehsala tətbiqi innovasiyanı şərtləndirir. İnnovasiya prosesi hər şeydən əvvəl aşağıdakıların yerinə yetirilməsindən ibarətdir:

- Yeni məhsuların mənimsənilməsi, buraxılan məhsulun modernləşdirilməsi;
- Yeni istehsal vasitələrini istehsal prosesinə cəlb edilməsi;
- Yeni texnologiya və məhsulun istehsalı üsularından istifadə edilməsi;
- İstehsalın təşkili və idarə olunmasının daha mütərəqqi formaları;
- İnnovasiyanın nəticələri isə aşağıdakılardan ibarətdir;
- Məhsulun çeşidi təzələnir, rəqabət qabiliyyəti yüksəlir, əhalini tələbatının ödənilməsinə kömək edir;
- İstehsalın səmərəliyi yüksəlir,məhdud resurslardan qənaətlə istifadə olunur,istehsal xərcləri azalmaqla mənfəət artır;
- Yeniliklər sosial nəticələrlə səciyyələnir.

Lakin qeyd etdiyimiz kimi, innovasiya sahibkarlığını təşkil etmək o qədər də asan deyil, bunun üçün çoxlu miqdarda maliyyə vəsaiti tələb olunur. Bu çətinliyi aradan qaldırmaq yollarından biri də lizinq müqavilələrinın bağlanmasıdır. Bu müqaviləyə uyğun olaraq, lizinq şirkəti sifariş olunan maşın, avadanlıq və s. malı istehlakçıdan alır və sifarişçiyə icarəyə verir. Müqaviləyə əsasən icarə haqqı amartizasiya ayırmaları və lizinq şirkətinin mənfəətindən ibarət olur.

Xarici iqtisadçılar isə innovasiya sahibkarlığı ilə iri müəssisələrin məşğul olmasını məqsədəuyğun sayırlar. Buna səbəb bilavasitə, yuxarıda qeyd etdiyimiz kimi innovasiyanın mənimsənilməsinin yüksək xərc tələb etməsidir. Bu xərc isə əsasən qiymətli ixtiralar və yeni sınaq nümunələrinin hazırlanması işinin çoxsaylı əmək kollektivinin səyini və çox güclü maddi texniki baza tələb etməsindən irəli gəlir. Odur ki, yalniz yüksək maliyyə vəsaitinə malik olan iri firmalar innovasiya layihələrini başa çatdıra bilərlər. İri firmaların digər üstünlüyü orada çoxməqsədi tədqiqatların hazırlanmasıdır. Həm də bu firmalarda sınaq, layihə və elmi tədqiqat işlərinin aparılması zamanı müxtəlif yanaşmalardan istifadə edilməsi də onların digər üstünlüyünü müəyyən edir.

Sənaye cəhətdən inkişaf etmiş ölkələrdə ixtiraçılıq fəaliyyətinə elmi-texniki tərəqqinin əsas amili kimi baxıldığından bu ölkələrdə ixtiranı müdafiə etmək üçün patent sistemi tətbiq edilir. Bu sistemə əsasən panent sahibinə həmin ixtiranin xüsusi mülkiyyətçisi hüququ verilir və ixtiraya intellektual əmək məhsulu kimi baxılır.

Təəsüflə qeyd etmək lazımdır ki, hal-hazırda respublikamızda innovasiya sahibkarlığından zəif istifadə edilir. Halbuki, müəssisələrin modernləşdirilməsi, müasir və mütərəqqi texnologiyanin tətbiqi, bazarda amansız rəqabətə davam gətirə bilən məhsulların istehsalı innovasiya sahibkarlığından çox asılıdır. İqtisadiyyatın, sənayenin gələcək inkişafı innovasiya sahibkarlığına əsaslanmalıdır. Çünki, iqtisadi artımın əsası kimi struktur dəyişikliklər texnoloji proseslərsiz mümkün deyil. Burada hərəkətverici qüvvə innovator, ətraf mühit və müəssisədir. Bu üç sistem bir-biri ilə qarşılıqlı əlaqədədir. Yeniliklər bazarının normal fəaliyyəti intellektual mülkiyyətdən düzgün istifadəni tələb edir. İntellektual mülkiyyət əsasən 4 növə ayrılır: Patent,ticarət markası, müəlliflik hüququ və sənaye sirləri. Bunların hərəsinin öz funksiyası var. Belə ki, patent- ixtiraçılar arasında müqavilə, ticarət markası-firmanın, müəssisənin rəmzi, müəlliflik hüququ isə orginal müəlliflik deməkdir.

`İnnovasiya sahibkarlığının müvəffəqiyyətinin əsas şərtlərindən biri innovasiya fəaliyyətinin qiymətləndirilməsidir. Bu asan deyil, lakin zəruridir, çünki innovasiya prosesinin stimullaşdırılması həyata keçirilməlidir. Ölkədə innovasiyanın rolunu daha dərindən dərk etmək üçün tanınmış alim P.Drukerin dediyi bir kəlamı yada salmaq kifayətdir: "Gələcəkdə dünyada varlı yaxud kasıb ölkələr anlayışı olmayacaqdır. İnnovasiyaya üstünlük verən ölkələr və ona diqqət yetirməyən "inamsız" ölkələr olacaqdır".

## ƏDƏBİYYAT


1. K.A.Şahbazov, M.H.Məmmədov, H.S.Həsənov Menecment, Bakı, 2005
2. T.Ə.Quliyev. Menecmentin (idarəetmənin) əsasları, Bakı,2001
3. M.Atakişiyev, Q.Süleymanov. İnnovasiya menecmenti, Bakı, 2004
4. «İqtisadiyyat və həyat» jurnalı (9-10*2006)
5. «İqtisadiyat və həyat» jurnalı, (3-4*2004)

**ABSTRACT**

**Havva Adigezalova**

**The role of innovations in the organization of the business**

The article started essence of innovation and its application in production as a result of changes in production are described. It was noted that innovation - new technological ideas, proposals and implementation of practical application of scientific and technological decisions. Innovation in the form of new technology innovations, product and service categories, manufacturing, financial, commercial and administrative, organizational, technical and socio-economic decision-profit use. Acceleration of the process of production, the introduction of innovations, earnings growth is reflected in the reduction of physical inputs. In addition, the article also examined the impact of innovation in the economy.

**РЕЗЮМЕ**

**Хавва Адыгезалова**

**Роль инноваций в организации деятельности предприятий**

В статье раскрывается сущность инноваций и изменения, происходящие в результате их внедрения в производство. Также замечено, что инновация – это практическое применение и внедрение новых технологических идей и предложений. Инновация – это прибыльное использование информаций, товаров и услуг, производства, финансов и коммерции в решении социально-экономических, организационно-технических целей. Внедрение инноваций в производство выражается в ускорении производственных процессов, в повышении прибыли и в сокращении расхода физического труда. Кроме этого в статье рассматривается влияние инноваций на экономику страны в целом.

NDU-nun Elmi Şurasının 30 mart 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 07).

Məqaləni çapa təqdim etdi: İqtisad üzrə elmlər doktoru, professor A.Rüstəmov

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2017, № 2 (83)**

NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2017, № 2 (83)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2017, № 2 (83)**

**MEHRİBAN İMANOVA**
*Naxçıvan Dövlət Universiteti*
*Marketinq05@mail.ru*

**UOT: 330.1**

# SƏNAYE MÜƏSSİSƏLƏRİNDƏ İDARƏETMƏ STRATEGİYASININ SƏMƏRƏLİLİYİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

***Açar sözlər:*** *sənaye müəssisəsi, idarəetmə strategiyası, investisiya resursu, istehsalın təşkili, müəssisənin restruktizasiyası*

***Key worlds:*** *industrial enterprises, management strategy, investment resources, organization of production, enterprise restructuring*

***Ключевые слова:*** *промышленные предприятия, стратегия управления, инвестиционные ресурсы, организация производства, реструктуризация предприятий*

Bazar iqtissadiyyatı sisteminə keçidlə əlaqədar ölkəmizin sənaye müəssisələrində tətbiqi mümkün olan mütərəqqi təşkilati-iqtisadi istiqamətlərdən biri də sistem göstəricilərin balanslaşdırılması əsasında idarəetmə starategiyasının səmərəliliyinin qiymətləndirilməsidir. Məlumdur ki, əksər müəssisələr öz strateji inkişafını müəyyən edərkən, əsasən maliyyə göstəricilərinə üstünlük verirlər. Bu isə böhran şəraitində və yaxud zəif maliyyə təminatı zamanı öz əhəmiyyətini itirmiş olur. Lakin balanslaşdırılmış sistem göstəriciləri təsərrüfat fəaliyyətinin maliyyə və qeyri-maliyyə göstəricilərinin interasiyasına təminat yaratmaqla, müəssisə rəhbərinə müvafiq starategiyanın hazırlanmasında qarşılıqlı əlaqədə olan indeqatorlardan istifadə etməyə şərait yaradır. Balanslaşdırılmış sistem göstəricilərindən istifadə biznes strategiyasını düzgün formalaşdırmağa və müəssisənin hər bir üzvünə çatdırmağa, müvafiq monitorinq aparmağa, struktur bölmələrinin tərkibində təşkilati xarakterli təşəbbüslərdən istifadə etməyə imkan verir. Həmin sistemdən istifadə aşağıdakı strateji məsələlərin həlli və qərarların qəbul edilməsinə və həyata keçirilməsinə kömək edir:

- Müəssisədə strateji xarakterli təşəbbüslərin və inkişaf istiqamətlərinin qiymətləndirilməsinə;
- sənayenin yeni inkişaf istiqamətinin seçilməsinə ;
- işlənmiş strategiyanın hər bir iş yerinə çatdırılmasına, bölmələrin, hər işçinin məqsəd və vəzifələrini startegiyaya uyğun müəyyən edilməsinə;
- strateji və taktiki məsələlərin uyğunlaşmasına;
- əldə edilmiş strateji nəticələr üzrə nəzarətin təşkilinə;
- informasiyaların alınması üçün əks əlaqənin yaradılmasına (5;82).

Müsair şəraitdə sənaye kompleksinin fəaliyyətinin səmərəliliyini yüksəltmək üçün aşağıdakı bir sıra amilərin təsiri nəticəsində formalaşan elmi texniki tərəqqinin sürətləndirilməsi və təşkilati idarəetmənin yolu ilə mümkündür:

- texniki və təşkilati innovasiyalar;
- investisiya təminatı ;
- istehsal potensialından səmərəli istifadə ;
- məhsulun və müəssisənin rəqabət qabilliyinin yüksəldilməsi;
- buraxılan məhsulun çeşidinin artırılması ;
- müəssisənin restruktizasiyası.

Qeyd edilən amillər içərisində respublikamızın sənaye müəssisələrində restruktizasiya amili mühüm əhəmiyyət kəsb edir. Restruktizasiya proqramını və konsepsiyasını həyata keçirmək üçün sənaye müəssisələrinin təşkilati-texniki və iqtisadi xarakteristikası nəzərə alınmaqla aşağıdakı ardıcıllıqla işləyib həyata keçirmək mümkündür (3; 354). (şəkil 1)

Şəkildən göründüyü kimi, sənaye müəssisələrinin iqtisadi xüsusiyyəti onun təşkilati-texniki xarakteristikası ilə müəyyən edilir. Yüksək resurs həcmli məhsulların mövcudluğu və avadanlıqların mənəvi aşınması sənaye müəssisələrinin maliyyə vəziyyətini resursların sərfiyyat səviyyəsindən, qiymətlərindən və tariflərindən kəskin asılı qoyur.

İdarəetmə strategiyasının formalaşması və səmərəliliyinin qiymətəndirilməsi dörd səviyyədə -maliyyə təminatı ; müştərilərlə aparılan təşkilati iş daxii biznes-prosesin təşkili və personaldan səmərəli istifadə ilə səciyələnir. Ayrı-ayrı tədqiqatçılar bu tipli əlaqələri “strateji xəritə” kimi təqdim edirlər (2; 35). Əslində bu fikirlə razılaşmaq olar, lakin bütün hallarda istər iri sənaye müəssisəsinin, istərsədə onun tərkibində yaradılacaq korporasiyada (struktur bölmədə) maliyyə-təsərrüfat fəaliyyətinə qiymət verərkən sistem göstəricilərdən istifadə

etmək mövcud iqtisadi potensiallardan səmərəli istifadə olunması istiqamətində daha təsirli tədbirlər işləyib hazırlamağa imkan verir.

| **Sənaye müəssisələrinin təşkilati-texniki xüsusiyyətləri** | **Sənaye müəssisələrinin iqtisadi xüsusiyyətləri** |
|---|---|
| iri tonnajlı, fiziki və mənəvi cəhətdən aşınmış istehsalatlar<br>çoxmərhələli, fasiləsiz texnoloji proseslər<br>yüksək resurs həcmli məhsullar<br>məhsulun ixrac yönümlü satışa meyilliliyi | məhsul vahidində xammal və enerji xərclərinin xüsusi səviyyəsi<br>alınan xammal üçün bazar qiymətinin səviyyəsi<br>infilyasiya səviyyəsi ilə indeksləşən təbii qazın, elektrik və istilik enerjisinə şamil edilən tarif dərəcəsi<br>avadanlıqların təmir müddəti və müasirliyi<br>elektrik təchizatının sabitliyi<br>ətraf mühitin qorunması və çirklənməyə görə tarif ödənişi üzrə dövlət normativləri. |

Şəkil 1. Sənaye müəssisələrinin təşkilati-texniki və iqtisadi xarakteristikası

Şəkil 2-dən göründüyü kimi, sənayesi müəssisələrinin strateji inkişafının I yuxarı hissəsində balanslaşan sistem göstəricilərin əsasını təşkil edən maliyyə təminatı yerləşmişdir. Bu səviyyə strateji artım və nəticələri əhatə etməklə müəssisənin əldə edəcəyi mənfəətlik səviyyəsini özündə cəmləşdirir. Bu baxımdan, stabil mənfəət əldə etmək üçün ilk növbədə satışın həcmi artırılmalı, yeni sənaye məhsulunun satışına daha çox səy göstərilməli və bütün bunların xərclərin quruluşunun optimallaşması şəraitində mümkün olması məsələsi ön plana çəkilir. Əlbəttə, yüksək mənfəət əldə etmək üçün istehlakçıların bu prosesə cəlb edilməsi olduqca vacibdir.Əsas məsələ məhsul satışı prosesinə yeni müştərilərin cəlb edilməsi və köhnələrin qorunub saxlanılmasıdır. Bu məqsədlə diller satış məntəqələrinin yaradılması və bu işə bacarıqlı, işgüzar marketoloqların cəlb edilməsi vacibdir(1;321). Göstərilən sxemin III səviyyəsini xarakterizə edən balanslaşan sistem göstəricilər biznes-prosesdə cəmləşir. Bu səviyyənin göstəriciləri müştərilərin cəlbedicilik səviyyəsi ilə sıx surətdə bağlıdır. Belə ki, qarşıya qoyulan məqsədə çatmaq üçün müəssisə öz rəqabətçilərini qabaqlaya bilən tədbirlər həyata keçirilməlidir ki, bazarda öz mövqeyini qoruyub-saxlaya bilsin. Bu məqsədlə ilk növbədə sənaye məhsulunun keyfiyyəti sistemin və istehsal prosesinin səmərəli təşkili şəraitində təmin edilməlidir. Harada keyfiyyətli məhsul varsa orada biznes-prosesin uğurundan danışmaq olar.




Şəkil 2.Balanslaşan sistem göstəriciləri əsasında idarəetmə strategiyasının nəticələrinin qiymətləndirilməsi metodikasının prinsipial sxemi

Mülkiyyət formasından asılı olmayaraq, hər hansı müəssisədə əldə edilən nailiyyətin əsası kadr işinin təşkilindən asılıdır. Bu səviyyə korperativ mədəniyyətin, texnologiya və yeniliklərin əsas elementi kimi çıxış etməklə müəssisədaxili prosesin təşkilinə təminat yaratmaqla qarşıya qoyulan məqsəd optimal variantlar çərçivəsində nail olmağa inkan yaradır. Odur ki, IV səviyyə üzrə strategiya özündə aşağıdakıları əks etdirir ( 4;98).

- İşçilərə müvafiq sosial və maddi təminatın yaradılması;
- Kadrların inkişafı üzrə məqsədli proqramın işlənib hazırlanması və həyata keçirilməsi;
- Müəassisəni idarə edən sisteminə yüksək ixtisaslı, sahibkarlıq və marketinq işinin təşkili üzrə səriştəli mütəxəssislərin cəlb edilməsi;

- Müəssisənin işini kompleks və diaqnostik təhlil etmək üçün müvafiq sistemin (işçi qrupunun) yaradılması. Zəruri hallarda bu işə sahə elmi-tədqiqat institutlarının və ali məktəb işçilərinin cəlb edilməsi də məqsədə uyğun olardı;
- Müəssisədə texnoloji proseslərin yenisi ilə əvəz edildiyi, texnoloji, informasiya, innovasiya və maliyyə menecmentinin mütərəqqi metodlarının tətbiqi zamanı idarə edən orqanın, struktur bölmələrinin işçilərinin ixtisaslarının qabaqcıl müəssisələrdə artırılması. Bu məqsədlə qənaət edilən vəsait nəticə etibarı ilə maliyyə təsərrüfat fəaliyyətinin son nəticəsinə öz mənfi təsirini göstərir.

Balanslaşan sistem göstəriciləri əsasında formalaşan idarəetmə strategiyasının bir xüsusiyyəti də ondan ibarətdir ki, o, şəraitdən asılı olaraq dəyişə bilir, elastikdir və dinamik alət kimi çıxış edir. Mütəxəssislər qeyd edirlər ki, balaslaşan sistem göstəricilərin heç vaxt son həddi olmur. Onlar heç vaxt itmir və müəssisədə təkmilləşdirmə aparılarkən onlar yeni mövqedə çıxış edirlər. Müvəffəqiyyət amili göstəricisinə malik olan menecer həmişə cari effektliyi ideal səviyyə ilə müqayisə edə bilər. Odur ki, sənaye müəssisələrinin fəaliyyətinin qiymətləndirilməsi zamanı texniki, texnoloji, təşkilatı, sosial-iqtisadi göstəricilərin məcmunundan istifadə edilməlidir.

## ƏDƏBİYYAT


1. Həsənov R.T. Azərbaycan iqtisadiyyatının inkişaf strategiyasının perspektivləri// AR İİN İİM-nin Elmi əsərləri, 2001, №2, s.15-23001, 452 s.
2. Əjdərov.T.N. Bazar iqtisadiyyatı şəraitində Azərbaycan sənayesinin inkişaf istiqamətləri. Bakı, BDU, 2000, 764 s.
3. Hüseynov T. Sənayenin iqtisadiyyatı. Bakı: Şərq-Qərb, 2000, 667 s.
4. Егоров В.В, Парсаланов Г.А. Прогнозирования национальной экономики. М: Инфра-М, 2001, 184 с.
5. Настенко А.Д. Васина Т.В. Прогнозирования отраслевого и регионально развития. М: Гелиос, 2002, 144 с.
6. Жданов В.Г. Инвестиционные механизмы регионального развития. Калининград: БИЗФ, 2001, 355 с


## ABSTRACT


**Mehriban İmanova**

**The evaluating of management strategy efficiency in the industrial enterprises**

This scientific article was dedicated to the evaluating of management strategy efficiency in the base of balancing of system indicators. The using of balanced system indicators give the possibilities to forming business strategy, solving some strategic issues, decision and implementation processes.

In this scientific article were studied the features of industrial enterprises and theirs economic and technical-organizational performance and was defined the four stage of efficiency evaluating. Noted that, the financial support, organizational activities within consumers, organizing internal business operations and the efficient use of personnel are important factors in the improving strategic development of industrial enterprises.


## РЕЗЮМЕ


**Мехрибан Иманова**

**Оценка эффективности стратегии управления на промышленных предприятиях**

Научная статья посвящена оценке эффективности стратегии управления на основе сбалансированности показателей систем. Использование сбалансированных показателей систем создаёт возможность правильному формированию стратегии бизнеса, решению ряда стратегических задач, принятию и претворению в жизнь решений.

В научной статье исследованы особенности, экономическая и организационно-техническая характеристика промышленных предприятий, определены четыре уровня оценки формирования и эффективности стратегии управления. Отмечено, что финансовое обеспечение, организационная работа проводимая с клиентами, организация внутреннего бизнес-процесса и эффективное использование персонала считаются факторами, играющими важную роль в стратегическом развитии промышленных предприятий.



NDU-nun Elmi Şurasının 30 mart 2017-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 07).

Məqaləni çapa təqdim etdi: İqtisad üzrə elmlər doktoru, professor A.Rüstəmov

**AİDƏ HƏSƏNLİ**

*AMEA Naxçıvan Bölməsi*

**UOT: 338.48**

# TURİZM İQTİSADİYYATININ NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA TƏKMİLLƏŞDİRİLMƏSİ İMKANLARI

***Açar sözlər:*** *turizm potensialı, müalicəvi turizm, tarixi abidələr, turizmin iqtisadi imkanları*

***Keywords****: potency of tourism, healing tourism, historical monuments, economical possibilities of tourism*

***Ключевые слова:*** *туристический потенциал, лечебный туризм, исторические памятники, экономические возможности туризма*

Turizm (fransız sözü olub gəzinti, səfər) cəmiyyətin inkişafı ilə formalaşıb, istirahət tələbatını ödəmək və əmtəə, xidmət tələbatını ödəməklə genişlənən tələbat növünə daxildir. Səyahət etmək turizmin meydana gəlməsinə və onun iqtisadi əsasını yaradır. Turizm mənəvi dəyər olmaqla, zövq əyləncə əhəmiyyəti kəsb edir. İnsanın fizioloji tələbatı və bu tələbatın ödənilmə forması olaraq turizm səyahətləri meydana gəlir. Turizm tələbatı maddi tələbatın ödənilməsindən sonra meydana çıxır. Ona görə də turizm tarixi və iqtisadi şəraitlə formalaşır. İnsanın turizm tələbatı daha çox ona istirahət, səyahət və dünyagörüşü ehtiyaclarını ödəyir. Qısacası turizm ölkənin iqtsadi inkişafına da təsirsiz ötüşmür. Turizm sahəsində dövlətin nəzarət funksiyaları da mövcuddur. Nəzarət funksiyası turizmdə məqsədyönlü inkişafın təimin edilməsi baxımından vacibdir. Turizm idarəçiliyinin tənzimlənməsi, idarəetmə prinsipləri və turizm subyektlərinin maraqlarının və hüquqi münasibətlərinin uzlaşması baxımından turizmin idarəetmə subyekti kimi Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, yerli hökümət orqanları və turizm idarələri səlahiyyətverici rol oynayırlar. Adlarını sadaladığımız orqanlar turizm sahəsinə münasibətdə aşağıdakı funksiyaları yerinə yetirirlər :

- Dövlətin turizm sahəsində siyasətini formalaşdırır;
- Qanunlar sistemi və hüquqi normativləri yaradır.

Turizmin əsas təməllərinin prinsip olduğu ölkələr bu istiqamətdən milyonlar əldə edirlər. Turizm iqtisadiyyatı turistçiliyin tərkib hissəsidir. Ona görə də turizm iqtisadiyyatı aşağıdakı şəkil 1-də göründüyü kimi tənzimlənməlidir .




*Şəkil 1: Turizm fəaliyyətinin prinsipal sxemi*

Milli turizmin mövcud vəziyyəti və onun perspektivi üçün tədbirlər və proqramlar hazırlayır [1,səh.65].

Muxtar respublikamızda turizm sahəsində təklif tələbatdan aşağıdır.Ona görə də bu sahənin təkmilləşdirilməsinə ehtiyac var. Çünki turizm sahəsi üçün potensial ehtiyatlar var və onlardan turizm məqsədli istifadə üçün tələbat yüksəkdir.

Dövlətin turizm siyasəti, məcmunu tədbirlər çoxluğu olmaqla, muxtar respublikada bu sahənin iqtisadi – sosial rolunu və iqtisadi sistemdə vəzifələrini idarə etməkdir.

Sadalanan meyarlar turizmin inkişafına dəlalət edən imkanlar və təbliğ vasitələridir. Turizm əmtəə olaraq xidmət formasında reallaşır. Buna müasir iqtisadiyyatda turizm xidməti istehlak edən əmtəə xidməti deyilir. Bunlar da bir növ fəaliyyət istiqaməti turizmlə məhdudlaşan və turizm xidməti göstərən fiziki və

hüquqi şəxslərə təzahür edir. Turizm xidməti istehlak dəyəri kimi əmtəə və canlı əməyin nəticəsi olaraq səyahət, qida və xidmət olaraq ifadə olunur. Yəni əmtəə istehlak dəyəri kimi bu keyfiyyətləri daşıyır. Turizm sahəsində əmtəə xidməti bir sözlə, turizm əmtəə xidmətlərinə göndərişlərin verilməsi, müxtəlif kateqoriyalı (yəni istirahət və turizm inkanlarını maddi təminat baxımından əlverişili edən) hotellərlə təmin olunma, otellərdə qida və mədəni xidmət və s. daxildir. Turizmin müxtəlif maddi, xidmət və təşkilati elementləri kompleks əlaqədə turizm iqtisadiyyatı fəaliyyətini əmələ gətirir. Müasir şəraitdə turizm əmtəə xidməti göstərən fiziki və hüquqi şəxlər xidmətlərini daha çox bazar qiymətinə, rentabellik səviyyəsinə və davamlı inkişafı üçün mənfəət normaları ilə ölçülməlidir.

Digər bir tərəfdən isə turistlərin hər il davamlı olaraq gəlməsini təmin etmək üçünyerli sənətkarlıq işlərinəmaraq yaradılmalıdır. Bu sənətkarlıq müxtəlifliyi ola bilər. Məsələn, qonşu Türkiyə Respublikasında turistlər öz ölkələrinə qayıdanda özləri ilə xatirə olaraq “ebru” sənət əsəri alıb aparırlar. Bu da ebru sənətinin dünyada yalnız Türkiyə sənətkarına məxsusluğunu tanıdan sənətkarlıq vasitəsidir. Muxtar respublikamızda isə bu sənət imkanları da var. Bu da turizmin təbliğ elementlərindən biridir. Müasir turizm ölkəsi olan Türkiyə Respublikasının milli gəliri turizm hesabına formalaşır.

Muxtar respublikamızın relyefi və regional potensialı, çoxəsirlik tarixi turizm üçün geniş imkanlar yaradır. Turizm regional inkişaf üçün əlavə gəlir mənbəyini və yerli əhalinin öz məhsullarını satmaq imkanlarını genişləndirir. Təcrübə göstərir ki, turizmi inkişaf edən regionlarda əhali daha çox fəal həyat tərzi sürür və gəlir gətirmək vərdişlərinə malikdirlər. Turizm eyni zamanda fiziki və hüquqi şəxlərin sahibkarlıq və sahibkarlıq yaratmadan mənfəət əldə etmək imkanlarını da səciyyələndirir.

Naxçıvan Muxtar Respublikasında turizm sənayesi daha çox tarixi və sağlamlıq, müalicə turizmi əhəmiyyəti daşıyır. Çünki turizm imkanları baxımından bu sahələr cəlbedici və inkişaflıdır. Muxtar respublikanın turizm potensialını yalnız tarixi və sağlamlıq resurları hesabına geniş şəkildə ödəmək olar. İndiki şəraitdə dünya azərbaycanlıları, respublikadan kənarda yaşayan digər millətlər və diaspora, respublikamızda turizmin həm subyekti həm də təşkilatcısı kimi rol oynaya bilərlər.

Gələcəkdə muxtar respublikamızın tarixi turizminin inkişafında görəcəyimiz və görmək istədiyimiz mənzərəyə nəzər salaraq aşağıdakıları müşaidə etmək olar. Əlincə qalası, bu qala Orta Asiya və Şərq tarixində tarixi istehkam qalası kimi yadda qalıb. Dünyanın yarısını istila eləmiş Teymurilər İmperatorluğu bu qalanı tuta bilməmiş 14 il mühasirədə saxlamışdılar. İndi bu qala haqda qonşu Şərq ölkələrində yaşayan insanların məlumatı kifayət gədər deyil. Bu abidəyə turist axınını cəlb eləmək daha məqsədə uyğun olardı. Bu qalaya rahat getmək üçün əlverişli istiqmətdən kanat çəkmək olardı. Muxtar respubkanın göz oxşayan rəmzi olan Haça dağın əlverişli görünən istiqamətindən Əlincə qala istiqamətinə qədər. Bütün bunlar müasir imkanlar hesabına yarana bilər. İndiki halda buraya nəqliyyat marşrutların köməyi ilə turistləri cəlb etmək mümkündür. Buna görə yerli turizm xidmətləri bu istiqamətdə səy göstərməli və xidmət proqramlarına salmalıdırlar. Bu halda daxili turizmi inkişaf etdirmək lazım gəlir ki, bunu da turizm xidməti göstərən müəssisələr təşəbbüs göstərməlidirlər. İlk növbədə daxili turizm tarixi əhəmiyyətli abidələri tanıtmaq baxımından turlar təşkil etməlidirlər. Bu da bir növ daxili investisiya baxımından əhəmiyyət kəsb edir. Turizm ehtiyatlarının qiymətləndirilməsi baxımından muxtar respublika tarixi turizm xidməti sahəsində əhəmiyyətli rol oynaya bilər. [3,səh. 80].

Bu baxımdan muxtar respublika sosial və iqtisadi amillərə görə aktiv turizm inkişaf mənbəyinə çevrilə bilər. Sosial və iqtsadi amillərə görə turizm böyük rol oynayır, burada sosial amillərə əhalinin gəlirləri, həyat şəraiti, əhaliyə yaradılan sosial nemətlər və devalvasiya daxildir. İqtisadi amillərə isə dünya iqtisadiyyatına uyğun olaraq ölkə iqtisadiyyatında baş verən meyllər, istehsal xidmət sferasının müxtəlifliyi və tələbata uyğun inkişaf dinamikası, ekoloji mühit və s. daxildir. Ekoloji hava mühiti demişkən muxtar respublikanın dağlıq relyefinə görə saf hava kütləsini aid etmək olar.

Bundan əlavə muxtar respublikanın sağlamlıq turizmi sahəsində Duzdağ müalicə müəssiəsi əsas rol oynayır. Buraya turizm fəaliyyəti istirahət, müalicə və sağlamlıq məqsədilə təşkil olunur. Bu sahə turizmin iqtisadi amili kimi aktiv rol oynayır. Yəni digər ölkələrin maliyyə resurlarının muxtar respublikaya axınını təşkil edir. Təcrübə göstərir ki, sağlamlıq turizmi sahəsi maliyyə resurlarının axımında ölkənin iqtisadi inkişafında böyük rol oynayır. Muxtar respublikanın bu sahə üzrə turizm təbliğatına ehtiyac daha da artırılımalıdır. Ən əsası təbliğat və tanıtım daha çox qonşu ölkələrin dövlət və özəl xəstəxanalarında aparılmalıdır. Sağlamlıq turizmi təşkilinə görə sərbəst və daimi olan turizm obyektləri və müəssisələri formalaşdırılmalıdır. Yəni xidmət müddətinə görə turizm - mövsümi, daimi, və qısamüddətli turizm növünə bölünür. Yəni müalicənin zəruriliyi baxımından mövsüm də rol oynadığından mövsüm turizmi xidməti də mövcuddur. Qeyd edək ki, Duzdağ müalicə müəssisəsi bütün mövsüm fəaliyyət göstərdiyindən, daimi turizm əhəmiyyəti daşıyır. Statistikaya nəzər yetirdikdə görünür ki, xaricdən bura gələnlərin sayı artırılmalıdır və bunun üçün yuxarıda qeyd edildiyi kimi təbliğata ehtiyac duyulur.

Naxçıvan Muxtar Respublikanın turizm potensialı daha çox tarixi əhəmiyyət kəsb edən abidələr və ekoloji çəhətdən yaşıllıqlardır. Misal üçün, yaşıllıq turizminə Batabat yaylağı aiddir. Digər potensial isə tarixi abidələrdir. Qeyd edək ki, muxtar respublikamızda tarixi abidələrin çox əsrlik fundamenti var ki, bu da tarixi turizmin resurslarıdır. Bu aspektlər turizmin iqtisadi və sosial məna kəsb edən nəticələridir. Bu potensialdan istifadə olunmasına böyük tələbat var. Turizm sferasında turistlər əyləncə və istirahətdən çox tarixi mədəni sərvətlərə daha çox meyllidirlər. Baxmayaraq ki, tarixi resurlar muxtar respublikamızda mövcuddur və bunun təbliği üçün müyyən işlər görülür. Bu sahədə istiqamətlənmiş turizm təşkilatları yaradılır, turizm sənayesi xidmətləri göstərilir. Buna muxtar respublikamızda inkişafına zamanla və dövlətin regional turiziminin inkişafına vacib sərmayələr qoymaqla nail olunur.

Turizmin iqtisadi imkanları aşağıdakılarla xarakterizə olunur:

- Turizmin iqtisadi marşrutunu tənzimləyən aşağıbüdcəli imkanlar müəyyənləşdirilməli;
- Turizm müvəqqəti səyahət olub, müəyyən müddət daxilində marşrut cədvəli rəngarəng olmalı;
- Hotel şəraiti və əlverişi istirahət imkanları müasir standarlara cavab verməli;
- Turizm səyahət olub (tarixi səyahətlər) müəyyən mənfəət gətirmək fəaliyyətini əks etdirməli;
- Və turizm resurları daha çox ölkə xaricində geniş miqyasda reklam olunmalı.

Muxtar respublikanın qədim tarixi və zəngin təbii ehtiyatları, unikal müalicə məkanları, mövcud turizm infrastrukturu turistlərin sayının ildən-ilə artmasına səbəb olub. Əvvəlki illə müqayisədə 2016-cı ildə muxtar respublikaya gələn turistlərin sayı artaraq 403 mini keçmişdir ki, bu da müsbət göstəricidir [4,səh. 15].

Beləliklə, Naxçıvan Muxtar Respublikasında turizmə geniş qapılar açılmış, bu istiqamətdə hüquqi və iqtisadi tədbirlər görülmüş və görülməkdədir. Turizm iqtisadiyyatının inkişafı imkanları turizm təsərrüfatının yaranması üçün mühüm iqtisadi mexanizmlərdir. Ona görə də turizm təsərrüfatının inkişafı dövlətin iqtisadi siyasətinin tərkib hissəsinə çevrilməlidir.

## ƏDƏBİYYAT


1. Əlirzayev Ə.Q., Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Dövlət İqtisad Universiteti "Turizmin iqtisadiyyatı və idarə edilməsi" Bakı, 2010, s.529.
2. Cabbarov Ə., Turizmin inkişafının reqional problemləri. Avtoreferat, Naxçıvan, 2008, s. 67.
3. Budaqov B.Ə. Azərbaycanın təbiət abidələri. Bakı, 1990, s.268.
4. 2016-cı ildə Naxçıvan Muxtar Respublikasının Sosial-İqtisadi İnkişafının Xülasəsi, Naxçıvan, 2017, s.64.
5. Алирзаев Асланова А.Г., С.И.Проблемы туризма в Азербайджане и основные направление его развития //ж. Consulting & Business, Баку, 2003, №9 с.65-68
6. Руфат Касумов. Рынок международного туризма: теория и практика. Баку, «Нурлар», 2000, с.203.


## ABSTRACT


**Aida Hasanli**


**Possibilities of advancing tourism economy in Nakhchivan Autonomous Republic**


This article gives brief information about tourism mechanisms form tourism economy and describes tourism resources of Nakhchivan Autonomous Republic. Regulations on state tourism policy, ancient history of autonomous republic, rich natural resources and, advices for healing destinations have been mentioned, as well.


## РЕЗЮМЕ


**Аида Гасанли**


**Возможности совершенствования экономики туризма в Нахчыванской Автономной Республики**


В статье даны первоначальные сведения о туризме, механизмы формирования экономики туризма, в то же время данны представления о туристических ресурсах Нахчыванской Автономной Республики. Анализируются методы регулирования государственной политики в сфере туризма, а так же даются рекомендации по эффективному использованию древнего исторического наследия и уникальных лечебниц Нахчыванской Автономной Республики.



NDU-nun Elmi Şurasının 30 mart 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 07).

Məqaləni çapa təqdim etdi: İqtisad üzrə elmlər doktoru, professor A.Rüstəmov

**NURİYYƏ İBRAHİMOVA**
*nuriyyeibrahimova@mail.ru*
**BƏHRİYYƏ ABBASOVA**
*Naxçıvan Dövlət Universiteti*

**UOT: 330.1**

# NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA HƏYATA KEÇİRİLƏN DÖVLƏT PROQRAMLARININ AQRAR SEKTORUN İNKİŞAFINDA ROLU

***Açar sözlər:*** *xarici, iqtisadi kompleks, bazar, siyasət, tənzimləmə*
***Key words****: foreign, economy complex, market, policy, regulation*
***Ключевые слова****: Внешний, экономический, комплекс, рынок, политика, регулирование*

Məlum olduğu kimi kənd təsərrüfatı məhsullarına olan təlabatın ödənilməsi əhalinin həyat səviyyəsini xarakterizə edən mühüm arqument olmaqla cəmiyyət üzvlərinin yaşayış imkanlarını nə dərəcədə reallaşdırmasını şərtləndirir. Bu proses əslində fasiləsiz, davamlı xarakter daşıyır, ən azı ona görə ki, bəşəriyyət heç zaman istehlakı dayandıra bilməz.Belə ki, istehlakın dayandırılması hər bir fərdin fiziki mövcudluğunun sonu deməkdir. Odur ki, qida məhsullarının istehsalı davamlı olaraq artırılmalıdır. Məhz bu baxımdan bəşəriyyətin tarixi inkişaf mərhələsində ərzaq təminatının yaxşılaşdırılması beynəlxalq miqyas almaqla ölkələrin milli təhlükəsizliyində öz aktuallığını saxlamışdır.

Müasir Azərbaycanın qurucusu, iqtisadi inkişafın Azərbaycan modelinin müəllifi Ümummilli lider Heydər Əliyev strategiyasının həyata keçirilməsi nəticəsində ölkədə siyasi və makroiqtisadi sabitliyə nail olunmuş, iqtisadiyyatın bütün sahələrində köklü islahatlar aparılmış, dinamik sosial-iqtisadi inkişafın möhkəm təməli yaradılmışdır.

"Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2004-2008-ci illər) uğurlu icrası bütün regionların inkişafında yeni bir mərhələnin yaranmasına səbəb olmuş, formalaşmış əlverişli iqtisadi mühüt ölkənin sosial-iqtisadi inkişafı sahəsində başlanmış tədbirlərin davam etdirilməsi zərurətini yaratmışdır. Ölkədə qeyri-neft sektorunun inkişafının sürətləndirilməsinə, iqtisadiyyatın diversifikasiyasına, tarazlı regional və davamlı sosial-iqtisadi inkişafa, əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına nail olunması məqsədilə 2004-cü ildən başlanmış tədbirlərin davam etdirilməsi üçün Azərbaycan Respublikasının Prezidentinin 2009-cu il 14 aprel tarixli 80 nömrəli Fərmanı ilə " Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial iqtisadi inkişafı Dövlət Proqramı" təsdiq edilmişdir. Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial iqtisadi inkişafı Dövlət Proqramı"nın uğurlu icrası nəticəsində ölkədə makroiqtisadi göstəricilərin səviyyəsində yüksək artım əldə edilmiş, sosial-iqtisadi inkişaf sahəsində nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi əhalinin həyat səviyyəsinin daha da yüksəlməsində mühüm rol oynamışdır.

Ümumilikdə, ötən dövr ərzində regionların sosial-iqtisadi inkişafı istiqamətində həyata keçirilən siyasət ölkənin makroiqtisadi göstəricilərinin sürətlə yaxşılaşmasına səbəb olmuş, Ümumi Daxili Məhsul (ÜDM) 3,2 dəfə, adambaşına ÜDM-in həcmi 2,8 dəfə, qeyri-neft sektoru 2,6 dəfə artmış və ölkəmizdə orta illik iqtisadi artım 12,9% təşkil etmişdir. Son 10 ildə strateji valyuta ehtiyatları 31 dəfə, xarici ticarət dövriyyəsi 6,6 dəfə, ixrac 9,3 dəfə, idxal 4,1 dəfə, qeyri-neft ixracı 4,7 dəfə artmışdır.

Həyata keçirilmiş məqsədyönlü tədbirlər nəticəsində ölkədə 1,2 milyondan çox yeni, o cümlədən 900 min daimi iş yeri açılmış, 55,6 min yeni müəssisə yaradılmışdır.Yeni açılmış iş yerlərinin 80 faizə yaxını regionların payına düşmüşdür. Kənd təsərrüfatı sahəsində ərzaq təhlükəsizliyinin təmin olunması üçün bitkiçilik və heyvandarlıq sahələri inkişaf etdirilmiş, ərzaq məhsulları ilə özünü təminetmə səviyyəsi daha da yaxşılaşdırılmışdır. Regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarında nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi, kənd təsərrüfatı məhsulları istehsalçılarının istifadə etdikləri yanacağın, motor yağlarının və mineral gübrələrin dəyərinin orta hesabla 50 faizinin dövlət tərəfindən ödənilməsi, eləcə də dövlət büdcəsinin vəsaiti hesabına buğda istehsalının stimullaşdırılması məqsədilə yardım verilməsi, toxumçuluq və damazlıq işləri üzrə müəyyən addımların atılması, aqroservis xidmətlərindən güzəştli qiymətlərlə istifadə, Azərbaycan Respublikasının Sahibkarlığa Kömək Milli Fondu və Kənd Təsərrüfatı Kreditləri üzrə Dövlət Agentliyi tərəfindən kənd təsərrüfatı məhsulları istehsalçılarına verilmiş güzəştli kreditlər kənd təsərrüfatı istehsalı sahəsində ilbəil dinamik inkişafın əldə edilməsini təmin edən amillərdən olmuşdur. Görülən tədbirlər nəticəsində kənd təsərrüfatının ümumi məhsulu son 10 ildə 1,5 dəfə, taxıl istehsalı 43,9 faiz, kartof istehsalı 29,1 faiz, tərvəz 17,8 faiz, bostan məhsulları 20,5 faiz, meyvə və giləmeyvə 49,1faiz, üzüm istehsalı isə 2,4 dəfə artmışdır.

Naxçıvan Muxtar Respublikasının inkişafın yeni keyfiyyət mərhələsinə yüksəlməsində son on ildə regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilmiş dövlət proqramlarının uğurlu icrası böyük əhəmiyyət kəsb edir. Regionların hərtərəfli tərəqqisi sahəsində 2004-cü ildən başlanmış məqsədyönlü siyasətə uyğun olaraq, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2005-ci il 9 iyun tarixli Sərəncamı ilə "Naxçıvan Muxtar Respublikasının Regional İnkişaf Proqramı (2005-2008-ci illər)" və 2009-cu il 28 may tarixli Fərmanı ilə " Naxçıvan Muxtar Respublikasının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" təsdiq edilmişdir. Hər iki dövlət proqramının uğurlu icrası nəticəsində muxtar respublikada real sektorun inkişafının sürətləndirilməsinə, iqtisadiyyatın diversifikasaiyasına, tarazlı və davamlı inkişafa, kommunal xidmət və sosial infrastruktur təminatının yaxşılaşdırılmasına, məşğulluğun artırılmasına və həyat səviyyəsinin yüksəldilməsinə nail olunmuşdur.

Ötən 10 il ərzində sosial-iqtisadi inkişaf sahəsində həyata keçirilən tədbirlər muxtar respublikanın makroqitisadi göstəricilərinin yaxşılaşmasına səbəb olmuş, Ümumi Daxili Məhsulun həcmi 13,9 dəfə, hər bir nəfərə düşən Ümumi Daxili Məhsul 12 dəfə, o, cümlədən kənd təsərrüfatı məhsulları istehsalı 4,7 dəfə artmışdır. Muxtar respublikanın hərtərəfli inkişafı istiqamətində həyata keçirilən tədbirlərin davamı olaraq, "Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" nın icrası muxtar respublika iqtisadiyyatının inkişafında mühüm əhəmiyyət kəsb etməklə, sahibkarlıq fəaliyyətinin genişlənməsində, yeni müəssisələrin və iş yerlərinin yaradılmasında, irimiqyaslı infastruktur layihələrinin həyata keçirilməsində, kommunal-məişət xidmətlərin səviyyəsinin yüksəldilməsində, nəticədə, əhalinin rifah halının daha da yaxşılaşdırılmasında müstəsna rol oynayacaqdır.

İqtisadi təhlil göstərir ki, "Naxçıvan Muxtar Respublikasının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" nın əhatə etdiyi ötən beş ildə Ümumi Daxili Məhsulun (ÜDM) real həcmi 2,9 dəfə artaraq 2 milyard 338 milyon 928 min manat çatmış, hər bir nəfərə düşən nominal həcmi 2,7 dəfə artaraq 5 min 423 manat təşkil etmişdir. Muxtar respublikanın kənd təsərrüfatında 2,2 dəfə artıma nail olunmuşdur.

İqtisadi və sosial sahələrdə əldə olunan nailiyyətlər əhalinin rifah səviyyəsinin davamlı yüksəlişinə, məşğulluq imkanlarının genişlənməsinə, habelə bir işçiyə hesablanmış orta aylıq əmək haqqının 1,6 dəfə artaraq 376,6 manata çatması əhalinin gəlirlərinin yüksəlməsi ilə nəticələnmiş və2013-cü ildə 1 milyard 737 milyon manatdan çox olmuşdur. Muxtar respublika iqtisadiyyatının inkişafına bütün maliyyə mənbələri hesabına qoyulmuş investisiyanın illik həcmi son beş ildə 3,4 dəfə artaraq 1 milyard 37 milyon 748 min 400 manat təşkil etmişdir. Həyata keçirilmiş məqsədyönlü tədbirlər nəticəsində həmin müddətdə muxtar respublikada 22,296 yeni, o cümlədən 19.215 daimi iş yeri açılmışdır. İqtisadiyyatın dinamik inkişafının nəticəsi olaraq, 2013-cü ildə muxtar respublikada 346 növ, 988 çeşiddə məhsul istehsal edilmişdir ki, bunun da 115 növ, 459 çeşidi ərzaq məhsullarının payına düşür. Özəl sektorun inkişaf göstəricilərinin dinamikası göstərir ki, həyata keçirilən iqtisadi islahatların uğurlu nəticəsində son illər ərzində muxtar respublikanın Ümumi Daxili Məhsulunda özəl bölmənin xüsusi çəkisi artmış və 87 faiz təşkil etmişdir.

Kənd təsərrüfatı sahəsində ərzaq təhlükəsizliyinin təmin olunması üçün bitkiçilik və heyvandarlıq sahələri inkişaf etdirilmiş, ərzaq məhsulları ilə özünü təminetmə səviyyəsi daha da yaxşılaşdırılmışdır.Belə ki, kənd təsərrüfatının ümumi məhsulu son beş ildə 2,2 dəfə, kartof istehsalı 1,2 dəfə, tərəvəz istehsalı 1,1 dəfə, meyvə istehsalı 1,2 dəfə, üzüm istehsalı 1,1 dəfə artmışdır. Bu müddət ərzində diri çəkidə ət istehsalı 17,2 faiz, süd istehsalı 9,1 faiz yumurta istehsalı 30,4 faiz, yun istehsalı 9,8 faiz artmış, ərzaq məhsulları ilə özünü təminetmə səviyyəsi daha da yaxşılaşdırılmışdır. Bütün bunlar növbəti illərdə də muxtar respublika iqtisadiyyatının davamlı inkişafının təmin edilməsi üçün möhkəm baza yaratmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 1 sentyabr tarixli Fərmanı ilə təsdiq edilmiş " Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" nın əsas məqsədi real sektorun inkişafı, iqtisadiyyatın diversifikasiyası, sürətli inkişaf istiqamətində tədbirlərin davam etdirilməsi, xüsusilə kəndlərin inkişafı ilə bağlı infrastrukturun və sosial xidmətlərin daha da yaxşılaşdırılmasından ibarətdir.

Muxtar Respublikda iqtisadi və sosial sahələrin inkişafı üzrə həyata keçirilən tədbirlər cari ilin ilk altı ayı ərzində də davam etdirilmiş, dinamik inkişaf qorunub saxlanılmışdır.

2016-cı ilin yanvar-iyun aylarında ümumi inkişafın əsas göstəricisi olan ümumi daxili məhsul istehsalının həcmi 1 milyard 144 milyon 207 min manatdan artıq olmuşdur ki, bu da ötən ilin müvafiq göstəricisindən 2 faiz çoxdur. Hər bir nəfərə düşən ümumi daxili məhsulun həcmi ötən ilin müvafiq dövrünə nisbətən 4,2 faiz artaraq 2568 manatı ötmüşdür. Ümumi daxili məhsulun tərkibində ilk yeri 31,8 faizlik payla sənaye sahəsi tutmuş və maddi istehsalın payı 59,5 faiz təşkil etmişdir.

2015-ci ilin müvafiq dövrü ilə müqayisədə 2016-cı ilin yanvar-iyun aylarında sənaye məhsulun həcmi 3 faiz, əsas kapitala yönəldilən investisiyalar 0,3 faiz, kənd təsərrüfatının ümumi məhsulu 5,6 faiz, nəqliyyat sektorunda yük daşınması 2,2 faiz, informasiya və rabitə xidmətlərinin həcmi 3,6 faiz, o cümlədən mobil rabitə xidməti 1,7 faiz, pərakəndə əmtəə dövriyyəsi 2,6 faiz, əhaliyə göstərilən pullu xidmətlər 3,9 faiz, ixracın həcmi 2,1 faiz, əhalinin gəlirləri 2,1 faiz, hər bir nəfərə düşən gəlirlər 1 faiz artmışdır.

**Makroiqtisadi göstəricilər**

| Müqayisə predmeti | 2016-cı ilin yanvar-iyun ayları (min manat) | 2016-cı ilin yanvar-iyun ayları 2015-ci ilin yanvar-iyun aylarına nisbətən,faizlə |
|---|---|---|
| Ümumi daxili məhsul | 1144207,5 | 102,0* |
| Hər bir nəfərə düşən ümumi daxili məhsul, manat | 2568,4 | 104,2 |
| Sənaye məhsulunun ümumi həcmi | 511840,5 | 103,0* |
| Əsas kapitala yönəldilən investisiyalar | 529511,6 | 100,3 |
| Kənd təsərrüfatının ümumi məhsulu | 117544,9 | 105,6* |
| Nəqliyyat sektorunda yük daşınması,min ton | 7219,7 | 102,2 |
| İnformasiya və rabitə xidmətlərinin həcmi | 24660,4 | 103,6 |
| O cümlədən mobil rabitə üzrə | 20354,5 | 101,7 |
| Pərakəndə əmtəə dövriyyəsi | 577981,0 | 102,6* |
| Əhaliyə göstərilən pullu xidmətlər | 84096,9 | 103,9* |
| Xarici ticarət dövriyyəsi,min ABŞ dolları | 207098,0 | 99,4 |
| O cümlədən ixracın ümumi həcmi | 188250,6 | 102,1 |
| İdxalın ümumi həcmi | 18847,4 | 79,0 |
| Əhalinin gəlirləri | 811066,4 | 102,1 |
| Hər bir nəfərə düşən gəlirlər,manat | 1820,6 | 101,0 |
| Bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı,manat | 403,9** | 102,9 |

*) müqayisəli qiymətlər üzrə
**) yanvar-may ayları

Qeyd edək ki, Muxtar respublikada əhalinin ərzaq məhsullarına olan tələbatının yerli məhsullar hesabına ödənilməsi istiqamətində aparılan tədbirlər uğurlu olmuş, məhsul istehsalının həcmi artmış, daxili bazarda məhsul bolluğu yaradılmışdır.Əhalinin ərzaq məhsullarına olan tələbatının ödənilməsində kənd təsərrüfatının xüsusi rolu vardır. Məhz bu baxımından muxtar respublikada kənd təsərrüfatının inkişafı istiqamətində görülən işlər diqqətə layiqdir.

Belə ki, 2016-cı ilin kənd təsərrüfatı məhsulu üçün muxtar respublikada 61 min 526 hektar sahədə əkin aparılmışdır ki, bu da 2015-ci ilin kənd təsərrüfatı məhsulu üçün əkilmiş sahədən 112 hektar çoxdur.

Ötən dövr ərzində muxtar respublikada taxılçılıq üstün istiqamət kimi saxlanılmış və 2016-cı ilin məhsulu üçün 31579 hektar sahədə taxıl əkilmişdir ki, bunun da 30298 hektarı payızlıq, 1281 isə yazlıq taxıldır. Taxıl zəmilərinin 26795 hektarında buğda, 4784 hektarında isə arpa əkilmişdir.

Taxılla yanaşı, qarğıdalı əkini üzrə də maarifləndirici tədbirlər həyata keçirilmiş, məhsulun vaxtında toplanılması üçün müvafiq texnikalar alınaraq muxtar respublikaya gətirilmişdir. 2016-cı ilin məhsulu üçün muxtar respublikada 1758 hektar sahədə qarğıdalı əkini aparılmışdır ki, bu da bir il öncəki göstıricidən 676 hektar çoxdur. Qarğıdalı əkininin genişlənməsi muxtar respublikada dən ehtiyatlarının, həm də mal-qara üçün yaxşı yem bazasının yaradılmasına təkan verməkdədir.

Tələbata uyğun olaraq kartofçuluğun inkişafında da müsbət dinamika saxlanılmış və 2016-cı ildə 3053 hektar sahədə kartof əkini aparılmışdır ki, bu da 2015-ci ilfə əkilmiş sahədən 86 hektar çoxdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 8 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı" nın icrası da muxtar respublika əhalisinin meyvə və tərəvəz məhsullarına olan tələbatını yerıi istehsal hesabına təmin edilməsinə və tələbatdan artıq mövsümi məhsulların ixracına geniş imkanlar yaradır. Meyvəçiliyin inkişafını stimullaşdırmaq məqsədilə ilk dəfə 2016-cı ildə muxtar respublikasının paytaxtı Naxçıvan şəhərində Göycə festivalı keçirilmişdir. 2016-cı ilin yanvar-iyun aylarında meyvə istehsalının həcmi bir il öncəyə nisbətən 1 faiz, tərəvəz istehsalı isə 2,7 faiz artmışdır. Muxtar respublikada məhsuldar və keyfiyyətli toxum növləri istehsalının stimullaşdırılması məqsədilə toxumçuluq təsərrüfatlarının maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində işlər davam etdirilir. Naxçıvan şəhərində toxumçuluq təsərrüfatı üçün yeni kompleks inşa olunur. Muxtar respublikanın əsas toxumçuluq bazası olacaq bu kompleksdə taxılla yanaşı, digər bitki toxumlarının satışının da həyata keçirilməsi nəzərdə tutulmuşdur. Hazırda muxtar respublikada 5 toxumçuluq təsərrüfatı fəaliyyət göstərir.

Muxtar respublikada əhalinin təzə və keyfiyyətli ərzaq məhsulları ilə təmin etmək məqsədilə cari ilin ötən dövrü ərzində 1 istixana təsərrüfatı yaradılmış, 1 istixana təsərrüfatının genişləndirilməsi başa çatdırılmışdır. Tutumu 400 ton olan 2 soyuducu anbarın yaradılması və 1 istixana təsərrüfatının genişləndirilməsi hazırda davam etdirilir.

Məhsul istehsalçılarının kənd təsərrüfatı maşın və mexanizmləri ilə təchizatı davamlı olaraq yaxşılaşdırılmaqdadır. "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin xətti ilə 57 ədədi 2016-cı ilin yanvar-iyun aylarında olmaqla, cəmi 1742 ədəd müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası və avadanlıq muxtar respublikaya gətirilmişdir. 2016-cı ilin yanvar-iyun ayları ərzində 72 ədəd müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası və avadanlıq lizinq yolu ilə məhsul istehsalçılarına verilmiş, 11 ədədi isə nağd yolla satılmışdır. Bu dövr ərzində məhsul istehsalçılarına verilmiş, 11 ədədi isə nağd yolla satılmışdır. Bu dövr ərzində məhsul istehsalçıları 4905,3 ton gübrə ilə təmin olunmuşdur.

Cari ilin ötən dövrü ərzində kənd təsərrüfatının əsas sahələrindən biri olan heyvandarlığın inkişafı istiqamətində tədbirlər davam etdirilmiş, 6 heyvandarlıq təsərrüfatı yaradılmış, ümumilikdə, bank və kredit təşkilatları tərəfindən bu sahəyə 6 milyon 96 min 100 manat həcmində kreditlərin verilməsi təmin olunmuşdur.

Heyvandarlıq təsərrüfatlarında 4526 baş inək, düyə və camış süni yolla mayalandırılmış, inək, düyə və camışlardan 2031 baş sağlam bala alınmışdır.

1 iyul 2016-cı il tarixə muxtar respublikanın bütün təsərrüfat kateqoriyalarında qara malın sayı 118 min 152 baş, qoyun və keçilərin sayı 740 min 497 baş olmuşdur ki, bu da 1 iyul 2015-ci il tarixə olan göstəriciləri müvafiq olaraq 1,7 və 2,4 faiz üstələmişdir.

Muxtar respublikada diri çəkidə 11294,8 ton ət, 47097,5 ton süd istehsal olunmuşdur ki, bu da 2015-ci ilin yanvar-iyun ayları ilə müqayisədə müvafiq olaraq 1,6 və 1,7 faiz çoxdur.

Daxili bazarda tələbatın yerli istehsal hesabına ödənilməsi məqsədilə 3 quşçuluq təsərrüfatının yaradılması hazırda davam etdirilir.

2016-cı ilin yanvar-iyun aylarında bir il öncəyə nisbətən 5,6 faiz çox, yəni 117 milyon 544 min 900 manat həcmində kənd təsərrüfatı məhsulu istehsal olunmuşdur.

Etibarlı ərzaq təminatı sisteminin qurulması daxili bazarda tələbatın ödənilməsi ilə yanaşı, ixrac potensialını da gücləndirmiş, cari ilin ötən dövrü ərzində muxtar respublikadan kənara 39 milyon ABŞ dollarından artıq həcmdə kənd təsərrüfatı məhsulları, xüsusilə də meyvə və tərəvəz ixrac olunmuşdur.

Son olaraq qeyd edək ki, Naxçıvan Muxtar Respublikasında heyata keçirilən dövlət proqramları aqrar sektorun haliyədəki və perspektiv inkişafı üçün baza rolunu oynamaqdadır.

## ƏDƏBİYYAT


1. Abbasov T.A. Naxçıvan MR-də aqrar sahibkarlığın inkişafının əsas istiqamətləri. Bakı, ADPU-nun mətbəəsi, 2005, 66 s.
2. Abbasov T.A. Kənd təsərrüfatının respurs potensialı və ondan səmərəli istifadənin regional problemləri. Bakı, Elm, 2002, 186 s.
3. Abbasov T.A. Aqrar bazar və sahibkarlığın regional inkişaf istiqamətləri. Bakı, ADPU, 2006, 287 s.
4. Əhmədov N.H. Regional ərzaq bazarı və onun formalaşması istiqamətləri. Bakı, ADPU, 2005, 160 s.
5. Əlirzayev Ə.Q. Sahibkarlığın sosial-iqtisadi inkişaf problemləri. Bakı, Elm, 2000, 114 s.
6. Qəribov A.H. Azad iqtisadi zonalar: imkanlar və perspektivlər. Bakı, Təhsil, 2001, 136 s.
7. Nuriyev Ə.X. Regional inkişafın dövlət tənzimlənməsinin aktual məsələləri. Azərbaycan iqtisadiyyatı: problemlər və perspektivlər. Bakı, Elm, 2002, 428 s.
8. Şirəliyev A.İ., Rüstəmov A.A. Bazar və bazar mexanizmi. Naxçıvan, Qeyrət, 2002, 40 s.
9. Vəliyev T.S. İnfrastrukturlar: mahiyyəti,, təsnifatı və əhəmiyyəti. Bakı, Elm, 2000, 170 s.

10. İmanova M.T. Bazarın marketinq tətqiqinin regional problemləri: müasir vəziyyət və perspektivlər. Bakı, Nurlan, 2010, 207 s.
11. Abbasov T.A. Naxçıvan MR-də aqrar bazarın formalaşması və inkişafının xüsusiyyətləri. Bakı, 2005, ADPU-nun mətbəəsi, 301 s.
12. http://www.azstat.org/region/az/001.shtml<http://www.azstat.org/region/az/001.shtml> Azərbaycan Respublikası Statistika Komitəsinin sayti. Naxçıvan iqtisadi rayonu.

## РЕЗЮМЕ

**Нурия Ибрагимова**
**Бахрийа Аббасова**

**Роль проводимых в жизнь государственных программ в развитии аграрного сектора Нахчыванской АР**

В статье обширно изложены регулирование сельского хозяйства, торговли, в особенности внешней торговли, защита внутренного рынка, упрощение таможенных процедур, расширение внешних экономических связей, создание условий для увилечения торгового оборота, в том числе расширения внешней торговли, которые состовляют неотъемлемую часть проводимой в жизнь Государственной Программы и целеноравленной экономической политики государства, как в целом по стране, так и по Нахчыванской Автономной Республике, являющейся его составной частью.

Для обеспечения продовольственной безопасности в сельскохозяйственной отрасли уделено внимание развитию отраслей растениеводства и животноводства, улучшен уровень обеспечения самих себя продовольственной продукцией.

Продолжены проводимые в жизнь мероприятия по развитию экономических и социальных отраслей автономной республики и в первые шесть месяцев текущего года, сохранено также динамическое развитие.

В целях стимулирования производства производительных и качественных сортов семян продолжаются работы в направлении укрепления материально-технической базы семеноводческих хозяйств. В городе Нахчыване строится новый комплекс для семеноводческого хозяйства. В городе Нахчыване строится новый комплекс для семеноводческого хозяйства. В этом комплексе, являющемся основной семоноводческой базой, помимо зерна предусматривается осуществление продажи семян и других растений. В настоящее время в автономной республике действует 5 семеноводческих хозяйств.

## ABSTRACT

**Nuriya Ibrahimova**
**Bahriyya Abbasova**

**The role of the measure hold in state programs on the agrar section of the Nakhchivan Autonomous Respublic.**

In this article the main part of purposeful economic policy hold by state and state programs, the improving of agriculture, trade especial by foreign trade, the saving of domestic market, to widening of foreign economic connection at the same time in NAR to increasing the trade, to making the opportunity to the widening of the foreign trade are commented.

The grass-planting and cattle bruding are developed for improving the security of food on the braneh of agriculture and day by day the level of the import is widened.

The measures abait the development of economy and sociu side of NAR have lasted for 6 months and the dynamic developoment is sawed.

In NAR the widening of the material-tecnical base of seeding have been lasting. New complex will be repaired for the seeding. In this complex not only seed but also the saling of the other kinds of seed are considered 5 seeding economies are activated in NAR.

NDU-nun Elmi Şurasının 30 mart 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 07).

Məqaləni çapa təqdim etdi: İqtisad üzrə elmlər doktoru, professor A.Rüstəmov

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2017, № 2 (83)**

NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2017, № 2 (83)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2017, № 2 (83)**

**ELVİN HƏSƏNOV**
*Naxçıvan Dövlət Universiteti*

**UOT: 658.155**

# İSTEHSAL OLUNAN MƏHSULUN MAYA DƏYƏRİNİN HESABLANMASINDA FƏALİYYƏTƏ ƏSASLANAN MAYA DƏYƏRİ SİSTEMİNİN TƏTBİQİ

***Açar sözlər:*** *maya dəyəri, fəaliyyətə əsaslanan maya dəyəri, birbaşa xammal və material xərcləri, birbaşa əmək haqqı xərcləri, dolayı xərclər*

***Key words:*** *cost, activity-based costing, direct first material and material expenses, direct job, indirect costing*

***Ключевые слова:*** *себестоимость, себестоимость, основанная на деятельности, непосредственные сырьевые и материальные затраты, непосредственные заработные затраты,косвенные затраты*

Dünyada iqtisadi inteqrasiya prosesinin sürətlənməsi, beynəlxalq iqtisadi münasibətlərin dərinləşməsi və qloballaşma hadisəsinin geniş vüsət alması şirkətlərin milli və dünya bazarında rəqabət aparmasını çətinləşdirir. Bu müddətdə müəssisənin qarşılaşdığı başlıca problemlər xammalın tədarükü, texnologiyaya ayaq uydurmaq, nəqliyyat, qanuni tənzimləmələr və s. problemləri göstərmək olar. Bəllidir ki, müəssisələrin fəaliyyət göstərmələrini əsas məqsədi mənfəət əldə etməkdir. Mənfəət satış qiymətləri ilə maya dəyərləri arasında fərq olaraq meydana gəlir. Rəqabət şəraitində satış qiymətlərinə müdaxilə etmək çətin olduğu üçün müəssisələr mənfəət əldə etmək üçün məhsulun maya dəyərinə yönəlirlər. İstehsal olunan məhsulun maya dəyərini üç əsas ünsür birbaşa xammal və material**,**birbaşa əmək haqqı və dolayı xərclər təşkil edir. (sxem 1) [3,səh-30]

Birbaşa xammal və birbaşa əmək haqqı xərcləri məhsulun üzərinə müstəqim formada aid edilən xərclərdir. Lakin üçüncü ünsür olan dolayı xərclər ilə istehsal olunan məhsullar arasında birbaşa əlaqə olmadığı üçün biri birindən fərqli olan xərclər məhsullara aid edilmə prosesi həm çətin, həm də dəqiqliyi az olur.

Texnika və texnologiyanın məhsul istehsal prosesinə aktiv qoşulması dolayı xərclərin məhsul istehsal prosesində payını artırmışdır. XX əsrin ortalarına kimi istehsal olunan məhsulun maya dəyərinin böyük hissəsini (80%-ni) birbaşa xammal və birbaşa əmək haqqı xərcləri təşkil edirdi. Müasir dövrdə isə bu üstünlük dolayı xərclərin payına düşür. [1,səh-25]

Sxem1.

| **Birbaşa xərclər** | |
|---|---|
| **Birbaşa xammal və material xərcləri** | Aid edilmə birbaşa həyata keçirilir |
| **Birbaşa əmək haqqı xərcləri** | Aid edilmə birbaşa həyata keçirilir |
| **Dolayı xərclər** | |
| **Dolayı xammal və material xərcləri** | Aid edilmə dolayı və bölüşdürmə açarı ilə həyata keçirilir |
| **Dolayı əmək haqqı xərcləri** | Aid edilmə dolayı və bölüşdürmə açarı ilə həyata keçirilir |
| **Amortizasiya xərcləri** | Aid edilmə dolayı və bölüşdürmə açarı ilə həyata keçirilir |
| **Kənardan alınmış xidmətlər** | Aid edilmə dolayı və bölüşdürmə açarı ilə həyata keçirilir |

İstehsal olunan məhsulun maya dəyərini dəqiq müəyyən etmək üçün beynəlxalq arenada müxtəlif metodlardan istifadə edilir. Onlardan biri də "Fəaliyyətə Əsaslanan Maya Dəyəridir". (FƏMD) Bu metodun əsas məqsədi dolayı xərclərin məhsullara aid edilmə prosesində maksimal şəkildə dəqiq nəticəyə yaxınlaşmaq və istehsal prosesində fəaliyyətlərə nəzarəti gücləndirməkdən ibarətdir.

FƏMD sistemində məhsul istehsalına görə fəaliyyətlər həyata keçirilir və fəaliyyətlər müəssisənin resurlarını istehlak edir. Fəaliyyətlər ilə maya dəyəri arasında səbəb-nəticə əlaqəsi vardır. Buna görə fəaliyyətlər səbəb, maya dəyəri isə nəticədir. FƏMD sistemində səbəb-nəticə əlaqəsindən istifadə edilərək dolayı xərcləri istehsal olunan məhsullara aid edilməsi mümkün olur. [4,səh-50]

Dolayı xərclərin istehsal olunan məhsullara fəaliyyətlərə əsasən aid edilməsi, hər məhsula istehlak etdiyi resurs dərəcəsində pay verilməsini təmin edir. FƏMD bir mühasibatlıq sistemi olmaq ilə yanaşı idarəetmə strategiyası baxımından da əhəmiyyətli rola malikdir. O, fəaliyyətlər ilə əlaqədar məlumat mənbəyi yaradır və müəssisənin digər funksiyaları ilə əlaqədə sonrakı əhəmiyyətli məlumatları təqdim edir.

FƏMD sistemində istifadə edilən əsas anlayışlar, resurslar, fəaliyyətlər, fəaliyyət mərkəzləri(hovuzları), maya dəyəri hovuzu və maya dəyəri sürücüsüdür. (cost driver) [2,səh-280]

1. Resurslar- fəaliyyətlərin həyata keçirilməsi üçün lazım olan iqtisadi ünsürlərdir.
2. Fəaliyyət- mal, iş və xidmət istehsalı zamanı edilən müxtəlif hərəkətlərdir.
3. Fəaliyyət mərkəzləri (hovuzları)- Bir-birinə yaxın olan fəaliyyətləri iqtisadi və funksional olaraq qruplaşdırılmasıdır.
4. Maya dəyəri hovuzu- fəaliyyətlərin istehlak etdiyi resursların cəmi məbləğinin fəaliyyətə görə müəyyən edilməsidir.
5. Maya dəyəri sürücüsü(cost driver)- fəaliyyətləri həyata keçirmək üçün ehtiyac olan cəhd və ya iş yükünü göstərən amillərdir.

**FƏMD və Ənənəvi maya dəyəri sistemlərinin fərqləri.**

Ənənəvi maya dəyəri sistemində dolayı xərclərin məhsula yüklənməsi əsasən üç mərhələdən ibarət olur və son mərhələdə əsas məsrəf mərkəzlərində cəmlənmiş xərclərin məhsullara yüklənməsi üçün birbaşa iş saatları, maşın saatlar və ya istifadə edilən birbaşa xammalkimi istehsal həcminə dayanan iş həcmindən(cost driver) istifadə edilir. FƏMD sistemi ilə ənənəvi maya dəyəri sistemini biri-birindən fərqləndirən əsas məqam budur. Ənənəvi maya dəyəri sistemində istehsal xərclərinin istehsal olunan məhsullar üçün edildiyi təsdiqini tapır və bu xərclərlə istehsal olunan məhsullar arasında əlaqə qurulur. Birbaşa xammal və material ilə birba-şa əmək haqqı xərclərində bu əlaqə "birbaşa" olduğundan , bəhs olunan xərclər aid olduğu məhsula müstəqim aid edilir. Dolayı xərclərdə isə bu əlaqə dolayı olduğu üçün, bəhsi keçən xərclərin istehsal olunan məhsullara bir "iş həcmi"nin köməyi ilə aid edilir. [2,səh-284]

FƏMD sistemində xərclər istehsal edilən məhsul üçün deyil, fəaliyyətlərin həyata keçirilməsi üçün edilir. Məhsllar isə bu fəaliyyətlərdən bəhrələnir. Buna görə də xərclər əvvəlcə fəaliyyətlərə aid edilir və fəaliyyətin maya dəyəri hesablanır, sonra isə hər fəaliyyətin maya dəyərindən məhsullara o fəaliyyətdən istifadə dərəcələrinə uyğun aid edilir. Bu fərqi Sxem-2 də aydın başa düşə bilərik. [2,səh-291]

Sxem2




Bu fərqi daha aydın görmək üçün bir müəssisədə tətbiqi porsesini gözdən keçirək."Günəş" ASC Montaj şirkəti kimi fəaliyyət göstərir. Kənardan aldığı S, V və Q ehtiyat hissələrini birləşdirərək A məhsulunu : M, N və L ehtiyat hissələrini birləşdirərək B məhsulunu əldə edir. Mart ayında istehsal olunan malların vahidinə düşən maya dəyərini hesablayaq.

1. Ənənəvi maya dəyəri sisteminə görə məsələnin tətbiqi xüsusiyyətləri.Ənənəvi maya dəyəri metodunda ilk növbədə məsrəf mərkəzlərini müəyyən etməliyik. Müəssisədə istehsal ilə əlaqədar iki məsrəf mərkəzi vardır. "Montaj Bölməsi" (əsas istehsal məsrəf mərkəzi) "xammal (ehtiyat hissə) anbarı (köməkçi xidmət məsrəf mərkəzi)". Montaj bölməsində ehtiyat hissələrinin birləşdirilməsi üçün sa-dəcə əl əməyindən istifadə edildiyi üçün bu bölmənin əsas xərcləri birbaşa xammal və material(ehtiyat hissənin istehlakı) və birbaşa əmək haqqı(montaj etmək üçün əmək) xərcləridir. Birbaşa xərcləri istehsal olunan məhsul üzərində ölçmək mümkün olduğu üçün bölüşüdürülmə açarına ehtiyac olmadan məhsulun üzərinə yüklənir. Xammal anbarında isə dolayı əmək haqqı (anbarda işləyən işçilərin əmək haqqı), anbar icarə haqqı və amortizasiya (test avadanlıqları, əsas vəsaitlər və.s amortizasiya) xərcləri meydana gəlir. Montaj bölməsi tək istehsal məsrəf mərkəzi olduğu üçün ehtiyat hissə anbarında yaranan xərclər yükləmə açarlarına (cost driver) ehtiyac olmadan montaj bölümünə aid ediləcək və bu bölmənin birbaşa əmək haqqı xərcləri bölüşdürmə açarı kimi götürülərək A və B məhsullarına bölüşdürüləcəkdir.

Şirkətin mart ayı istehsalı 50 ədəd A məhsulu və 50 ədəd B məhsulundan ibarətdir.

Sxem3

| | Montaj bölməsi(Əsas istehsal) | | Xammal(ehtiyat hissə ) anbarı (köməkçi xidmət) | Cəmi |
|---|---|---|---|---|
| | A Məhsulu | B məhsulu | | |
| Birbaşaxammalvə material xərcləri | 6 000 | 6 000 | ----------- | 12 000 |
| Birbaşaəməkhaqqıxərcləri | 2 500 | 2 500 | ----------- | 5 000 |

| | | | | |
|---|---|---|---|---|
| Dolayıəməkhaqqıxərcləri | ------------ | ------------ | 3 000 | 3 000 |
| İcarəxərci | ------------ | ------------ | 5 000 | 5 000 |
| Amortizasiya | ------------ | ------------ | 2 000 | 2 000 |
| Cəmi: | 8 500 | 8 500 | 10 000 | 27 000 |

Montaj bölməsinin dolayı xərcləri ehtiyat hissə anbarından aid ediləcək 10 000 manat məbləğdən ibarətdir. Xərclərin aid edilmə açarı birbaşa əmək haqqı xərcinə görə müəyyən ediləcək.

Xərclərin aid edilmə dərəcəsi$=\frac{\text{Cəmi dolayı xərclər}}{\text{Birbaşa Əmək haqqı xərcləri}}=\frac{10\ 000}{5\ 000}=2$

Yəni hər bir məhsula həmin məhsulun birbaşa əmək xərcinin 2 qatı ya da 200% dolayı xərc aid ediləcək. Buna görə mart ayında istehsal olunan məhsulların vahidinin maya dəyəri aşağıdakı formada hesablanacaq.

Sxem 4

| | A məhsulu | B məhsulu | Cəmi |
|---|---|---|---|
| **Birbaşaxammalvə material xərcləri** | 6 000 | 6 000 | 12 000 |
| **Birbaşaəməkhaqqıxərcləri** | 2 500 | 2 500 | 5 000 |
| **Dolayıxərclər(BƏX*200%)** | 5 000 | 5 000 | 10 000 |
| **Cəmiistehsalxərcləri** | **13 500** | **13 500** | **27 000** |
| **İstehsalmiqdarı** | **50** | **50** | |
| **İstehsalolunanməhsulunvahidininmayadəyəri** | **270** | **270** | |

İstehsal olunan hər iki məhsulun maya dəyərinin eyni olduğuna diqqət edək. FƏMD sisteminin tətbiqinə baxdıqdan sonra müqayisə daha aydın olacaqdır.

2.FƏMD sisteminə görə məsələnin tətbiqi xüsusiyyətləri. İlk mərhələdə FƏMD sisteminin tətbiqi üçün bizə “Günəş” ASC montaj şirkətinin emal prosesində həyata keçirdiyi fəaliyyətləri müəyyən etmək lazımdır.Montaj prosesində əl əməyi istifadə edildiyi üçün burada meydana çıxan birbaşa xammal və material(ehtiyat hissənin istehlakı) və birbaşa əmək haqqı (montal etmək üçün əmək) xərcləri istehsal olunan məhsulların üzərinə birbaşa aid ediləcək. Dolayı xərclər yalnız xammal anbarında həyata keçirilən aşağıdakı fəaliyyətlərdə meydana gələcəkdir.

a) xammalın satın alma fəaliyyəti
b) xammalın sınaq və müayinə fəaliyyəti
c) xammalı saxlama fəaliyyəti

İkinci mərhələdə mart ayında yaranan dolayı xərcləri müəyyən etdiyimiz fəaliyyətlərə aid edirik. Dolayı xərcləri fəaliyyətlərə yükləməmişdən əvvəl aid etmək üçün lazım olan açarları(cost driver) müəyyən edirik.

Sxem6

| **Xərcinünsürü** | **Fəaliyyətəyükləməölçüsüvəyaaçarı** |
|---|---|
| Dolayıəməkhaqqıxərci | Birbaşa (hərbirfəaliyyətüçünayrılmışişçilərəhesablanmışcəmiəməkhaqqıməbləği) |
| Anbar İcarəsi | Hərbirfəaliyyətüçünayrılmışərazi $m^2$ |
| Amortizasiya | Birbaşa (hər bir fəaliyyət üçün təsis edilmiş avadanlıq, cihazlar və əsas vəsaitlərin amortizasiya məbləği) |

Yuxarıda göstərilən ölçü və açarlar şərtlərə bağlı olaraq dəyişəbilər. Məsələn, işçilərin maaş səviyyəsi biri-birinə yaxındırsa hər bir fəaliyyətin dolayı əmək haqqı xərcini birbaşa müəyyən etmək yerinə, cəmi dolayı əmək haqqını hər bir fəaliyyət üçün müəyyən edilmiş işçi saylarına görə fəaliyyətlərə bölüşdürüb aid etmək daha rahat olar.Yuxarıda göstərilən məsələdə dolayı xərclərin fəaliyyətlərə aid edilməsində əsas götürüləcək ölçü və açarların fəaliyyətlərə bölüşdürülməsi mart ayında aşağıdakı kimi olmuşdur.

Sxem 7

| Fəaliyyətə yükləmə ölçü və açarları | **Fəaliyyətlər** | | | |
|---|---|---|---|---|
| | Xammalın satın alma fəaliyyəti | Xammalın sınaq və müayinə fəaliyyəti | Xammalısaxlamafəaliyyəti | **Cəmi** |
| Dolayı əmək haqqı | 600 | 1 400 | 1 000 | **3 000** |
| Fəaliyyətə ayrılmış ərazi $m^2$ | 2 000 | 4 000 | 14 000 | **20 000** |
| Amortizasiya (manat) | 200 | 1 400 | 4 00 | **2 000** |

İndi isə yuxarıda olan cədvəlin köməyi ilə hər bir fəaliyyətin mart ayındakı xərcini hesablayaq. Dolayı əmək haqqı və amortizasiya xərclər fəaliyyətlərə birbaşa aid edildiyinə görə biz sadəcə anbar icarəsini fəaliyyətlərə bölüşdürürük.

Mart ayında anbar icarəsinin məbləği 5 000 manat olmuşdur. İcarə xərcinin fəaliyyətlərə $m^{2}$-a əsasən bölüşdürüləcəyini və fəaliyyətlərə ayrılmış cəmi ərazi 20 000 $m^2$ olduğunu nəzərə alaraq1 $m^2$ -yə 0.25(5 000/20 000) manat xərc payı düşür. Bu hesablamalara görə fəaliyyətlərə aşağıdakı sxemdə göstərilmiş pay düşə-cəkdir.

Sxem 8

| | |
|---|---|
| Xammalın satın alma fəaliyyəti | 0.25 x 2 000 $m^2$= 500 |
| Xammalın sınaq və müayinə fəaliyyəti | 0.25 x 4 000 $m^2$ =1 000 |
| Xammalı saxlama fəaliyyəti | 0.25 x 1 4000 $m^2$ =3 500 |
| Cəmi | 5 000 |

Bu mərhələdə isə hər bir fəaliyyətin maya dəyərini hesablamaq mümkündür.

Sxem9

| | Xammalın satın alma fəaliyyəti | Xammalın sınaq və müayinə fəaliyyəti | Xammalısaxlamafəaliyyəti | Cəmi |
|---|---|---|---|---|
| Dolayıəməkhaqqıxərci | 600 | 1 400 | 1 000 | 3 000 |
| Anbar İcarəsi | 500 | 1 000 | 3 500 | 5 000 |
| Amortizasiya | 200 | 1 400 | 400 | 2 000 |
| **Cəmi:** | 1 300 | 3 800 | 4 900 | 10 000 |

Fəaliyyətlərdə yığılan xərcləri (maya dəyərini) hesabladıqdan sonra sıra istehsal olunan məhsullara aid etmək prosesinə gəlir. Bu məqsədlə hər bir məhsulun həmin fəaliyyətdən istifadə (o fəaliyyətdən istehlak) dərəcəsinə uyğun bölüşdürülür. Məsələdə xammalın satın alma fəaliyyəti üçün sifariş edilən ehtiyat hissə sayı, Xammalın sınaq və müayinə fəaliyyəti üçün sınağa cəlb edilmiş ehtiyat hissə sayı, Xammalı saxlama fəaliyyəti üçün isə anbarda orta ehtiyat hissə sayı əsas götürüləcəkdir. Mart ayında bu yükləmə ölçü və ya açarlar sxem10 da verilmişdir.

Sxem10

| Məhsula yüklənmə dərəcəsi | A məhsulu (S,V,Q) | B məhsulu (M, L, N) | Cəmi |
|---|---|---|---|
| Sifarişedilənehtiyathissəsayı | 2 080 | 1 170 | 3 250 |
| Sınağa cəlb edilmiş ehtiyat hissə sayı | 168 | 212 | 380 |
| Anbardaortaehtiyathissəsayı | 280 | 420 | 700 |

Xammalın satınalma fəaliyyəti ae/d=$\frac{\text{Xammalı satın alm.xərci}}{\text{Sifariş edilən ehtiyat hissə sayı}} = \frac{1\ 300}{3\ 250} = 0.4$

Xammalın sın. mü. fəaliyyəti ae/d =$\frac{\text{Xammalı sın.və müay.xərci}}{\text{Sınağa cəlb ed.ehtiyat hissə sayı}} = \frac{3\ 800}{380} = 10$

Xammalın saxlama fəaliyyəti ae/d =$\frac{\text{Xammalı saxlama xərci}}{\text{Anbarda orta ehtiyat hissə sayı}} = \frac{4\ 900}{700} = 7$

Hər bir məhsula aid fəaliyyət sahəsinə edilən miqdarların aid edilmə dərəcəsinə (aed)-yə vurularaq məhsulların fəaliyyətdən aldıqları payları müəyyən edir. Bu hesablama sxem11-də göstərilib.

Sxem11

| | | |
|---|---|---|
| Xammalın satınalma fəaliyyəti | A məhsulu =0.40x2080= 832 | B məhsulu= 0.40x1170= 468 |
| Xammalın sınaq və müayinə fəaliyyəti | A məhsulu= 10x168= 1 680 | B məhsulu= 10x212= 2 120 |
| Xammalı saxlama fəaliyyəti | A məhsulu= 7x280= 1960 | B məhsulu= 7x420= 2 940 |

İndi isə məhsul vahidinə düşən maya dəyərini hesablayaq. Bu hesablama sxem-12-də göstərilmişdir.

Sxem12

| | A məhsulu | B məhsulu | Cəmi |
|---|---|---|---|
| Birbaşaxammalvə material xərcləri | 6 000 | 6 000 | 12 000 |
| Birbaşaəməkhaqqıxərcləri | 2 500 | 2 500 | 5 000 |
| Xammalın satın alma fəaliyyəti | 832 | 468 | 1 300 |
| Xammalın sınaq və müayinə fəaliyyəti | 1 680 | 2 120 | 3 800 |
| Xammalısaxlamafəaliyyəti | 1 960 | 2 940 | 4 900 |
| Cəmiistehsalxərcləri | 12972 | 14 028 | 27 000 |
| İstehsalmiqdarı | 50 | 50 | |
| İstehsalolunanməhsulunvahidininmayadəyəri | 259.44 | 280.56 | |

Ənənəvi maya dəyəri sistemində istehsal olunan məhsulun vahidinin maya dəyəri A və B məhsulları üçün eyni, yəni 250 manat təşkil etdi ki, bu da məhsulla-rın real maya dəyərini əks etdirmir. Lakin FƏMDsistemində A məhsulu- 259.44 manat, B məhsulu- 280.56 manat təşkil etdi ki, bu da məhsulların fəaliyyətlərdən düzgün resurs istehlak etmək və istehsal olunan məhsulun maya dəyərini ənənəvi sistemlərə görə daha dəqiq hesablamaq imkanı yaradır.

## ƏDƏBİYYAT


1 METM "İdarəetməuçotu" Fundamental səviyyə 3-ci fənn . Bakı, 2013
2 KamilBüyükmirze. "Maliyet ve Yönetim Muhasebesi". 19-cu baskı GaziKitapevi, Ankara, 2014
3 Bağırov M.S. "Müəssisə vəsaitləri mühasibat uçotunda"; Torpaq, tikili və avadanlıqlar. İdeya, 2013 129 s.
4 BağırovM.S. "Mühasibat(İdarəetmə) uçotu" Bakı, ADPU mətbəəsi, 2007, 512s.
5 Hüseyin Ali Kutlu. "Tekdüzen Genel Muhasebe". Nobel yayın dağıtım. Ankara, 2009,
6 K. D. Larson, P. B. Miller. Fundamental Accounting Principles. 15-th Edition. Boston, New York, McGRAW, Hill, 1999
7 www.principlesofaccounting.com


## ABSTRACT


**Elvin Hasanov**

**Application system "Activiy based costing,"in the calculation of cost of production"**

The process of globalization in the world of business in national and international markets competition has made difficult. In this process the major businesses of her own troubles and supply of raw materials, technology integration,transportation, skilled labor, regulatory and competitive conditions experienced severe financial crises can be listed as. All of these issues has been reached over to the buyer whether the businesses are required to maintain a certain profitability activities. Profitability of enterprises, which are the factors that determine costs and revenues on sales of mobility is very limited. These problems can be successfully managed businesses in reaching targeted profitability is emerging importance of knowledge. However, the timely and accurate information as is required to produce. Eliminating this requirement, conventional accounting information system provides better results could be added to the new system was inevitable. Activity-based costing accounting system as one of these systems in information systems has taken place. Most of management accountants prefer studying on activity based costing system because of its problem solving capacity caused by traditional cost accounting.


## РЕЗЮМЕ


**Ельвин Гасанов**

**Применение системы «Себестоимости, основанной на деятельности» при расчетах себестоимости производимой продукции**

Процесс глобализации, происходящий в мире намного усложнил условия конкурен-ции предприятий на национальных и международных рынках. В течение этого времени основными проблемами предприятий являются поставка сырья, адаптация к техно-логиям, транспорт, квалифицированный персонал, законные меры регулирования, жест-кие условия конкуренции и финансовые кризисы.

Когда решены все эти проблемы доходя до покупателя важно чтобы предприятия продолжали свою деятельность с определенной рентабельностью. Факторы, определя-ющие рентабельность предприятий, действия с расходами и доходами от продаж очень ограничены. При управлении этих проблем с успехом, возникает значение информации в достижении того уровня рентабельности которую предприятие поставила перед собой. Информация должна быть вовремя и реальной. Для удовлетворения этой потребности к традиционным информационным системам учета стало неизбежным добавление новых систем дающие более надежные результаты. Калькуляция на основе деятельности которая является также одной из этих систем заняла место в информационной системе учета. Причиной успехов в решении некоторых проблем, которые создала традиционная система учета себестоимости является то, что калькуляция на основе деятельности стала предметом над которым работали многие бухгалтеры в области управления. Тра-диционная система себестоимости и калькуляция на основе деятельности (КОД) по существу исследованы и сравнены с использованием практических вопросов.



NDU-nun Elmi Şurasının 30 mart 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 07).

Məqaləni çapa təqdim etdi: İqtisad üzrə elmlər doktoru, professor A.Rüstəmov

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2017, № 2 (83)**

NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2017, № 2 (83)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2017, № 2 (83)**

**HƏSƏN ABBASOV**
Naxçıvan Dövlət Universiteti

**UOT: 330.1**

# NAXÇIVAN MR-DƏ AQRAR SEKTORUN İQTİSADİ VASİTƏLƏRLƏ TƏNZİMLƏNMƏSİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ YOLLARI

***Açar sözlər:*** *Naxçıvan Muxtar Respublikası, aqrar sektor, sahəvi tənzimləmə, tənzimləmənin iqtisadi vasitələri, tənzimləmənin təkmilləşdirilməsi*

***Keywords:*** *Nakhchivan Autonomous Republic, the agrarian sector, sectoral Regulation? Ekonomical means of regulation, the improvement of the regulatory*

***Ключевые слова:*** *Нахчыванская Автономная Республика, аграрный сектор, отраслевое регулирование, экнлмические средства регулирования, усовершенствование регулирования*

Muxtar respublikanın kənd təsərrüfatı özünün spesifikliyi ilə seçilən sahələrdəndir. İli-ildən artan potensialı, istehsal olunan məhsul həcmi bu sahəyə daima xüsusi diqqətin ayrılmasından xəbər verir. Sahə üzrə aparılan işlərin öncül vəzifəsinin regionun ərzaq tələbatının daxili imkanlar hesabına maksimal mümkün həcmlərdə ödənilməsi bu sahəyə olan münasibətin aktuallığını, zəruriliyini təsdiqləyir.

Müstəqillik dövrünə keçid muxtar respublikanın aqrar sektorunda bir sıra tənzimləyici addımların atılması ilə yadda qalmışdır. Ümumi ölkə miqyasında olduğu kimi, muxtar respublikada da aqrar islahatlara start verilməsi kənd təsərrüfatı sektorunda ciddi quruluş və sosial-iqtisadi dəyişikliklərlə nəticələnmişdir. Torpaqların, kənd təsərrüfatı texnikasının, heyvanların dövlət müəssisələrinin tərkibindən alınaraq özəlləşdirilməsi bu sahədə mövcud olan problemlərin hüquqi tənzimləmə aspektində həlli nəticəsində mümkün olmuşdur. Bazar münasibətlərinə keçid muxtar respublikada müvafiq mexanizmlərin bərqərar olmasında, perspektiv dövrdə onların transformasiyası və daim təkmilləşdirilməsində təzahür etmək imkanlarını qazandı.

Aqrar sahədə özəl bölmənin formalaşması, sahibkarlıq hissinin yaranması, 90-ci illərin əvvəllərində mövcud olmuş geriləmənin qarşısının alınması, 1998-ci ildən etibarən ardıcıl, dinamik inkişafın mövcudluğu, ölkənin ərzaq tələbatında daxili istehsalın payının yüksəlməsi aparılan aqrar islahatların məntiqi nəticələri sırasında təzahür edir. Aparılan məqsədyönlü siyasət özünün nəticələrini haliyədə də ifadə etməkdədir. Naxçıvanda 2016-cı ildə nisbi ifadədə ən böyük artım templəri seçilən bu sektor istehsal olunan məhsul həcmini 429448,4 min manata çatdırmışdır. Bu dövrdə muxtar respublikanın öz vəsaitləri hesabına aktiv dövriyyəyə cəlb olunan əkin sahələrinin 112 hektar artırılmış (0,2%), bir çox məhsul növlərinin istehsalında irəliləyişlərə nail olunmuşdu. Nəzərdən keçirilən dövrdə həmçinin:

- ✓ ət istehsalında 1,9%-lik (25,8 min ton), süd istehsalında 1,4%-lik (81,4 min ton) müsbət dinamikanın qorunması;
- ✓ istehlakçıların ilboyu keyfiyyətli aqrar məhsullarla təminatı üçün 4 soyuducu anbarın (ümumi saxlama gücü artaraq 13280 tona çatdırılmış), 3 istixananın istismara verilməsi (onların ümumi sayını 21-ə, ümumi həcminin 127162 $m^2$-ə çatdırılması);
- ✓ 6 heyvandarlıq təsərrüfatının yaradılması;
- ✓ 3584 cins balanın alınması;
- ✓ heyvandarlığa verilən güzəştli kreditlərin 6,2% artırılaraq 8,27 milyon manata çatdırılması;
- ✓ əkinçilikdə həyata keçirilən subsidiyalaşma proseslərinin mütəmadiliyinin təmin edilməsi (hər hektar hesabına ödənilən məbləğlər, yanacaq və sürtkü materiallarının dəyərinin bir hissəsinin dövlət büdcəsi tərəfindən qarşılanması, suvarma sistemlərinin əldə olunması zamanı onların dəyərinin 40%-nin dövlət tərəfindən ödənilməsi və s.);
- ✓ aqrar sahə bazasında tamamilə regionun daxili tələbatını birbaşa və ya sənaye emalı vasitəsilə ödəyən, istehsal olunan ərzaq məhsullarının sayının 107-yə çatdırılması və digər bu kimi göstəricilər müvafiq sahədə aparılan sistemli işlərdən xəbər verir. [6; 38-41]

Eyni zamanda bir faktı qeyd etmək yerinə düşər, bu məkanın əhalisinin 70%-ə qədəri kəndlərdə məskunlaşmışdır. Onu da yaddan çıxarmaq lazım deyil ki, 2016-cı ilin statistik nəticələrinə görə, muxtar respublikanın ümumi daxili məhsul göstəricisində 16,6%-lik paya malik olan aqrar sahə yüzlərlə məhsul növünün istehsalı formasında əhalinin və emal sektorunun tələbatının ödənilməsində iştirak edir, digər sahələrin inkişafına istehlakçı formasında təsir göstərməkdədir. Bəhs olunanlar regionda aparılan və aparılması nəzərdə tutulan tənzimləmə proseslərinin aktuallığına diqqəti bir daha çəkir.

Müşahidələr göstərir ki, tənzimləmədə əlahiddə diqqət muxtar respublikada öndə olan aqrar sahə istiqamətlərinə verilməkdədir. Məsələn, köhnə proqramların müddətinin başa çatması ilə əlaqədar olaraq 2016-cı ilin 8 fevralında qəbul olunmuş “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı”, 2016-cı ilin 26 noyabrında qəbul olunmuş “2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı”, digər bu kimi davamlılığı ifadə edən və ya yeni proqramlar və müxtəlif səviyyəli hüquqi-normativ aktlar bu istiqamətlərin inkişafında əsaslı dönüş yaratmaq məqsədini güdür. Lakin bəhs olunan məsələlərin hüquqi sənədləşdirmə və əsaslandırma baxımından hazırlanması və icrası hal-hazırda bir çox səbəblərdən (maliyyə resurslarının məhdudluğu və s.) ləngiməkdədir.

Sadalanan müsbət meyllərlə yanaşı eyni zamanda aqrar sahədə aparılan monitorinqlər fəaliyyətin genişləndirilməsi üçün ehtiyat mənbələrinin mövcudluğundan xəbər verir və tənzimləmə sahəsində bir sıra işlərin aparılması zəruriliyini gözlər önünə sərir. Deyilənlərin sistemli şəkildə ifadə olunması mövcud olan problemlərin kökünü əsasən aşağıdakılarda axtarmaq lazımdır:

a) kənd təsərrüfatının təkamülünə xidmət edəcək istehsal, bazar və sosial infrastruktur komponentlərinin ləng inkişafı;
b) aqrar sahədə istehsal subyektlərinin istehsal-texniki vasitələrlə və maliyyə resursları ilə təminatının arzuolunan səviyyədə olmaması;
c) hasilatın əksər hallarda ekstensiv xarakter daşıması və intensiv amillərə meylliliyin az olması;
d) muxtar respublikada heyvandarlığın inkişafında ekstensiv yola üstünlük verilməsi və bu əsasda otlaqların sıradan çıxmasının sürətləndirilməsi;
e) ərzaq təyinatlı bitkiçilik məhsullarının hasilatında ekstensizliyin üstünlüyü;
f) müqayisəli üstünlüyə malik aqrar istehsal istiqamətlərinin zəif templərə malik olması;
g) emal sahələrinin templər baxımından inkişafının tələblərə uyğunsuzluğu;
h) aqrar sahənin ixrac potensialından istifadə səviyyəsinin aşağı olması;
i) əksər subyektlərdə aqrotexniki normalara riayət olunmaması;
j) aqrar sahədə məşğul olanların gəlir səviyyəsinin aşağı olması;
k) kənd təsərrüfatı məhsullarının satınalma və ya sərbəst reallaşdırma qiymətlərinin aşağı olması, bəzi hallarda onların maya dəyəri ilə uyğunsuzluq təşkil etməsi və s. [3; 54]

Verilmiş təsnifatda qeyd olunan məsələlər aqrar sahə üzrə görülməli olan işlərin konturlarına aydınlıq gətirmiş olur. Sahəvi tənzimləmənin Naxçıvan regionunda tətbiqinin məqsədi bir tərəfdən ümumi sahəvi xarakter daşıyacağı halda, digər tərəfdən konkret fəaliyyət istiqamətlərini əhatə etməkdən ibarət olmalıdır. Göstərilən maddələrdən də aydın olur ki, aqrar istehsalda ekstensivliyin üstün mövqeyinin aradan qaldırılması, daha mütərəqqi intensiv addımların atılması öz zəruriliyini qorumaqdadır.

Beynəlxalq praktikada qəbul olunmuş, dünyanın aparıcı ölkələrində tətbiqini tapan “mövcud ərazidə daha məhsuldar sortların əkini” yaxud “hər baş hesabı ilə dha çox məhsul (ət, süd və s.) almaq” prinsipinə köklənmək istər muxtar respublikanın daxili tələbatının ödənilməsi, istərsə də regionun ixrac potensialının artırılmasında yeni istehsal imkanlarının əldə olunmasının zəruri zəminidir. Bu sahədə çoxtərəfli fəaliyyətin təmin olması da ön plana çəkilməlidir. Belə ki, respublikanın aqrar sahədə ixtisaslaşan elmi-tədqiqat institutları ilə daimi əlaqələrin formalaşdırılması, eksperimental təsərrüfatların nəaliyyətlərindən istifadə bu sahədə öz nəticələrini vermiş olacaqdır. Digər tərəfdən “Aqrolizinq” xətti ilə gətirilən heyvanların, toxum və gübrələrin daha məhsuldar, inkişafa təsir edəcək sort və növlərinin muxtar respublikada tədarük olunması da bəhs olunan istiqamətdə vacib məsələlərdən hesab olunmalıdır. Bəllidir ki, Azərbaycan Respublikasında təşkil olunmuş “Aqrolizinq” MMC-nin mərkəzlərindən biri Naxçıvanda yerləşir və onun muxtar respublika daxilində artıq 3 inzibati rayonda törəmə müəssisələri mövcuddur. Bu müəssisənin əsas vəzifəsi regionda fəaliyyət göstərən kəndli sahibkarların texnikaya, müxtəlif texniki vasitələrə (qoşqular və s.), gübrələrə, cins, yüksək məhsuldarlığı ilə seçilən və muxtar respublikaya iqliminə uyğunlaşa bilən bitki növlərinə və heyvanlara olan ehtiyacının imtiyazlı maliyyə şərtləri ilə ödənilməsidir.

Həmçinin xüsusi təyinata malik proqramların və digər icra təyinatlı tənzimləyici aktların (tərkibinin idarəetmə, maliyyə, kredit, hesablaşmalar, infrastruktur, məsləhət və s. istiqamətləri əhatə edən) qəbulu, bu sahədə nəzərdə tutulan işlərin icrası kənd təsərrüfatına öz müsbət təsirlərini göstərməkdədir. Bu istiqamətdə görüləcək ilk işlərdən biri aqrar sahibkarlar arasında zəruri maarifləndirmə işlərinin aparılması yolu ilə həyata keçiriləcək tənzimləmə xarakterli işlərin mahiyyətinin açıqlanmasıdır. Düşünürük ki, ümumi və sahəvi tənzimləməyə aid hüquqi sənədlərin, Dövlət Proqramlarının və ya aidiyyatı qərarların qəbulu məsələnin bir tərəfidir. Lakin onların sahibkarlıq subyektləri tərəfindən qəbul olunması, mənimsənilməsi və tələblərə uyğun icrası bu işlərin sistemli şəkildə təşkil olunması zərurətindən xəbər verir.

Təsərrüfatların fəaliyyətinə təsir edən amillərdən biri kimi sahibkarlara ibtidai iqtisadi bilik və bacarıqların aşılanmasıdır. Bu məsələyə kompleks yanaşma aşağıdakı problemlərin həllinə şərait yarada bilər:

1. subyektlər müstəqil sürətdə öz fəaliyyətini iqtisadi cəhətdən qiymətləndirə bilər (maya dəyərinin hesablanması, gəlirlərin müəyyən edilməsi və s.);
2. maliyyə vəsaitlərinin istifadəsində optimallığı təmin edə bilər;
3. kredit ehtiyaclarını ödəmək üçün sənədləşmə fəaliyyətini həyata keçirmək imkanına malik ola bilər (biznes-palnların hazırlanması və s.);
4. satış proseslərində müxtəlif üsullardan istifadə edə bilər (elektron ticarətin imkanlarından istifadə, daimi müştərilərlə uzunmüddətli razılaşmaların əldə olunması, sifarişçilərlə fərdi qaydada "qapıda təslim" variantından istifadə olunması və s. )
5. kənar subyektlərlə hesablaşmaları qanunauyğun, maliyyə tələblərinə müvafiq şəkildə apara bilər;
6. zəruri istehsal və digər ehtiyacların müəyyən edilməsi, bu əsasda subyektin təchizat məsələlərinə (cinsi, maliyyə və digər yönlərdən) aydınlıq gətirilməsi;
7. zərurət yarandıqda aqrar sahə mütəxəssislərindən zəruri məsləhətlər ala bilər
(bunun üçün müraciət edəcəyi ünvanlar bəlli olmalıdır);
8. subyektdaxili kiçik həcmli istehsal və digər infrastruktur istiqamətlərini (saxlama anbarının, təsərrüfatdaxili kiçik emal sahələrinin yaradılması və s.) müstəqil qurmaq imkanına malik ola bilər və s. [2; 114]

Bəhs olunan məsələdə ikinci yol kimi təsərrüfatların müvafiq bilik və təcübəyə malik fərdi peşəkarların və ya aqrar sahə üzrə ixtisaslaşmış və kompleks xidmətləri göstərən subyektlərin xidmətlərindən istifadə etməsi (müddətli fərdi müqavilələrin bağlanması yolu ilə) göstərilə bilər.

Sahəvi tənzimləmə digər məsələlərlə yanaşı sahibkarların rayonlar üzrə əlaqələndirmə şuralarının və birliklərinin yaradılması özünün əhəmiyyətini qorumaqdadır. Belə quruluşun fomalaşdırılması sahibkarlara imkan verəcək ki:

- ✓ eyni məhsul istehsalı ilə məşğul olan digər sahibkarlarla birbaşa ünsiyyət qurulsun, informasiya mübadiləsi mümkün olsun;
- ✓ istehsalda mütərəqqi üsullardan, texnologiyadan istifadə təcrübəsi yayılsın;
- ✓ maliyyə və digər məsələlərin qiymətləndirilməsində daha səmərəli variantların tətbiqi mümkün olsun;
- ✓ infrastruktur imkanlarından istifadənin mümkün maksimallığına nail olunsun, bu sahədə olan bəzi məsələlərdə çatışmazlıqların aradan qaldırılmasında
sahibkarların iştirakı təmin olunsun;
- ✓ rayonların ümumi ərzaq ehtiyacları nəzərə alınmaqla istehsal həcmlərində optimallıq qorunsun;
- ✓ sahibkarların fərdi problem və ehtiyacları dinlənilməklə yaranmış vəziyyətdən çıxış yollarının axtarılması birgə təmin edilsin və s. [4; 48]

Bəhs olunan məsələdə həmin Şura və ya Birliklərin fəaliyyətinə aydınlıq gətirilməsi, onların fəaliyət öhdəlikləri və səlahiyyətlərinin müəyyən edilməsi tənzimləyici addımların atılması xüsusiyyətləri ilə müəyyən edilməlidir.

Baxılan məsələlər sırasında sosial sahələrdə aparılan işlər də yaddan çıxarılmamalıdır. Burada kənd əhalisinin sağlamlığının qorunmasını, kənddə fəaliyyət göstərənlərin ixtisas artırma kurslarına cəlbi, onlar üçün müxəlif mədəni-məişət təyinatlı tədbirlərin təşkili kimi işlər öz əhəmiyyətini qorumaqdadır. Qeyd etmək yerinə düşər ki, muxtar respublikanın kəndlərində ibtidai səhiyyə ocaqlarının yaradılması prosesi artıq səkkiz ildir ki davam etdirilməkdədir. Belə ki, regionun hər bir kəndində onun əhalisinin sayından asılı kənd mərkəzlərinin yaradılması çərçivəsində feldşer-mama məntəqələrinin və digər təyinatlı səhiyyə (stolotoloji və s.) bölmələrinin yaradılması mərhələli şəkildə həyata keçirilməkdədir.

Kəndli sahibkarların ixtisas artırma kurslarına cəlbi özünün kompleksliliyi ilə seçilməli və onların fəaliyyətini əhatə edən istiqamətləri əhatə etməlidir. Düşünürük ki, müvafiq fəaliyyət ya həmin rayonların icra hakimiyyətləri və ya kənd təsərrüfatı idarələri tərəfindən, yaxud da yuxarıda bəhs etdiyimiz Şuralar (Birliklər) tərəfindən təşkil oluna bilər. Aparılacaq işlərin əsas məqsədi kənddə formalaşan sahibkar sinfinin öz fəaliyyətində rastlaşdığı qeyri-müəyyənlik, məlumatsızlıq hallarının aradan qaldırılmasıdır.

Kənd zəhmətkeşlərinin mədəni səviyyəsini artırmaq, onların həyatını rəngarəng etmək məqsədilə kənddə müxtəlif mədəni tədbirlərin (səyyari kinofilmlərin və teatr baxışlarının, konsertlərin və digər əyləncəli tədbirlərin) təşkili öz əhəmiyyətini qorumaqdadır. Bu baxımdan ilk növbədə yerli mədəniyyət və incəsənət kollektivlərinin tədbirlər planlarında müvafiq məsələlər öz əksini tapmalı, kənd yerlərində öncədən aparılacaq məlumatlandırma işləri təşkil olunmalıdır.

Məişət işləri çərçivəsində muxtar respublikanın kənd yaşayış mərkəzlərində sənaye emalı və gündəlik tələbat mallarının satışının təşkil olunması bu inzibati vahidlərin əhalinin digər sahələrin zəruri məhsullarına görə müraciət etmələri zamanı yaranan çətinliklərin qarşısını almaq, onların yaşa tərzini asasnlaşdırmaq və bir qısm problemləri aradan qaldırmaq məqsədini güdür. Bununla belə bərqərar olan və perspektiv dövrdə yer ala biləcək ehtiyaclardan asılı olaraq bu sahədə əlavə işlərin görülməsi də mümkündür.

Muxtar respublikada subsidiyalaşma siyasətinin sistemləşdirilməsi mühüm əhəmiyyət kəsb edən məsələlərdəndir. Bu məqsədlə regionun aqrar sektorunun problemləri müəyyən edilməli və onların maliyyə tutumuna aydınlıq gətirilməlidir. Aparılacaq müşahidələr və təhlillər əsasında subsidiyaların yönəldiləcəyi prioritet istiqamətlər müəyyən edilməlidir. Subsidiyaların optimal ölçülərinə aydınlıq gətirildikdən sonra onlardan istifadə edəcək vahidlər dəqiqləşdirilməli və illik subsidiya həcmləri smetalaşdırılmalıdır.

Digər tərəfdən haliyədə verilən subsidiyaların səmərəliliyinin artırılması da öz aktuallığını qorumaqdadır. Məsələn, bitkiçilik sahələri üzrə hər hektar əkinə ödənilən məbləğlər (əsas etibarı ilə 50 manat) ölkə və muxtar respublika üzrə kifayət qədər böyük rəqəmləri təşkil edir. belə olduqda sahibkar ancaq bitkilərin əkilməsi həcmlərində maraqlı olur. Həmin subsidiyaların əkin sahələrinin həcminə deyil, hasil edilmiş məhsul həcminə görə verilməsi sahibkarların istehsalda “maraqlı” olduqları dövrün uzadılmasına, daha çox məhsul istehsalına, məhsuldarlıq göstəricisinin artımına və son nəticədə isə daxili bazarda həmin məhsulların daha dolğun ödənilməsinə və ixrac imkanlarının genişlənməsinə gətirib çıxaracaqdır.

Naxçıvan Muxtar Respublikası coğrafi baxımında bir neçə ölkə ilə həmsərhəddir. Onun ərazicə yerləşməsi reallıqlarından məharətlə istifadə etməklə aqrar sahə imkanlarının reallaşdırılması sahəsində çoxsaylı və rəngarəng işlərin icrası mümkündür. İstehsalın stimullaşdırılması baxımından atılan addımlardan biri kimi sərhədyanı ticarətin təşkili, aqrar məhsulların istehsalı və reallaşdırılması sahəsində bərqərar olmuş xarici təcrübədən qarşılıqlı istifadə hesab oluna bilər. Bu istiqamətdə gömrük qaydalarına dəyişikliklərin edilməsi, ikitərəfli və çoxtərəfli məhsul keçidlərinin sadələşdirilməsi, “yaşıl dəhlizlərin” həqiqətən işlək, maneələr yaratmayacaq vəziyyətə gətirilməsi mühüm əhəmiyyət kəsb edir.

Aqrar məhsulların reallaşdırılması istiqamətində regionda istirahət günləri çərçivəsində mütəmadi satış yarmarkalarının təşkili kənd təsərrüfatının inkişafı baxımından müsbət qiymətləndirilməlidir. Bununla belə iri məskunlaşma ərazilərində aqrar firma mağazalarının fəaliyyətinin təşkil edilməsi əhali istehlakının təzə, gündəlik yığılan məhsullarla ödənilməsində mühüm rol oynayacaqdır. Bu xidmət ya irihəcmli bir neçə təsərrüfatın, yaxud da hər hansı rayon istehsalçılarının eyni mağazanın imkanlarından birgə istifadəsi formasında təşkil oluna bilər.

Bütün dünyada öz aktuallığını qoruyan və ilk növbədə kənd təsərrüfatı sektoruna aidiyyatı ilə seçilən məsələlərdən biri də ekoloji təmiz məhsulların istehsalının sistemləşdirilməsi və nizamlanmasıdır. Bu baxımdan aparılan tənzimləmə siyasəti əsaslı elmi tədqiqatlara əsaslanmalı, özündə gübrə və digər vasitə və komponentlərdən istifadə həcmlərini dəqiq ifadə etməlidir. Torpağın keyfiyyətinin müəyyən edilməsi, onun məhsulverimi imkanlarının müxtəlif aqrar məhsullar üzrə dəqiqləşdirilməsi, normadan artıq istifadəsi istehlakçıların səhhətində müxtəlif xəstəliklərin yaranmasına yol açacaq komponentlərin tətbiqi şərtlərinin tənzimlənməsi son nəticədə istehlakın tərkibinin müəyyən edilməsi baxımından da zəruridir. Müşahidələr göstərir ki, xüsusilədə tərəvəzçilikdə belə hallarla (xüsusilə də pomidor, qarpız istehsalında) hələ də rastlaşılmaqdadır. Buna aqretexniki qaydaların digər istiqamətlərini əhatə edən digər nöqsanlar da əlavə olunmalıdır.

Muxtar respublikada iri aqrar subyektlərin yaradılması təcrübəsindən istifadə ləng templərlə həyata keçirilməkdədir. Bu sahədə atılacaq tənzimləyici addımlar sırasında istifadəyə yararlı olmayan torpaqların aktiv istehsal dövriyyəsinə cəlbi formasında yeni təsərrüfatların yaradılması, yaxud artıq mövcud olan kiçik təsərrüfatların (payı bəlli qaydada) birləşdirilməsi formasında aparılacaq işlər aid edilə bilər. Belə addımlar istehsal olunan məhsulların maya dəyərinin azalmasına, kompleks xərclərin səviyyəsinin aşağı düşməsinə, təsərrüfatların maliyyə və digər imkanlarının artırılmasına gətirib çıxaracaqdır.

Haqqında bəhs olunan məsələlər muxtar respublikada aqrar sahənin tənzimlənməsi baxımında çoxsaylı təkmilləşdirmə işlərinin görülməsinə, müvafiq təyinatlı addımların atılmasına ehtiyacın olduğunu göstərir. Bu baxımda işlənilməli olan tənzimləmə proqramlarının daxili şərait və imkanlara əsaslanması, ifadə etməyə çalışdığımız və fikrimizcə, təkmilləşdirməyə ehtiyacı olan istiqamətlərin ardıcıllıq, sistemlilik şəraitində nəzərdən keçirilməsi və onlar üzrə işlərin görülməsi zəruridir.

## ƏDƏBİYYAT


1. Abbasov İ.D. Ərzaq təhlükəsizliyi və kənd təsərrüfatının prioritet istiqamətləri. Bakı, Səda, 2011, 418s.
2. Abdullayev A.P. İqtisadiyyat və iqtisadi siyasət. Bakı, Asiya, 2003, 216 s.
3. Allahverdiyev H.A. Milli iqtisadiyyatın dövlət tənzimlənməsi, Bakı, ADİU-nun mətbəəsi, 2007, 792 s
4. Allahverdiyev H.A. Milli iqtisadiyyatın dövlət tənzimlənməsinin müasir problemləri, Bakı, ADİU-nun mətbəəsi, 2005, 526 s
5. Alıyev İ.H. Milli iqtisadiyyat və aqrar sahənin inkişaf problemləri. Bakı, Elm, 2006, 380s.
6. Sosial, iqtisadi inkişaf. Yanvar-dekabr 2016. Naxçıvan: Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsi, №12, 2016, 100s.

## РЕЗЮМЕ

**Гасан Аббасов**

**Пути усовершенствования регулирования экономическими средствами в аграрном секторе в Нахчыванской Автономной Республике**

В статье внесена понятность на контуры развитие аграрного сектора, имевшая место в Нахчыванской Автономной Республике в последние годы. Эта сфера отличается своей значимостью. Его посредством погашается большая часть потребности населения региона к продуктам, а обрабатывающих отраслей на сырье.

Статистика по автономной республике показывает, что не смотря на обладание более низкими стоимостными выражениями (первое место занимает промышленность - 28%) аграрная сфера отличается своим довольно широким, разветвленным составом.

Большая масса сельскохозяйственных работ основывается на деятельности негосу-дарственных субъектов. Это в свою очередь делает невозможным управление отраслью, основанное на дирративных, административных принципах. Именно этот фактор требует системное и комплексное регулирование работ в сельском хозяйстве.

Вопросы регулирования отраслей в Азербайджанской Республике стали претворяться в жизнь с преобретением страной независимости. В первую очередь в результате проведения реформ стало возможным разгосударствление и приватизация земель, а позднее была проведена раздача сельским предпринимателям сельскохозяйственной техники и животных, стоящих на балансах совхозов и колхозов.

Начиная с 1998-го года дал старт системному проведению соответсвующих процессов. Эта деятельность стала возможным с одной стороны с постадейным претворением в жизнь уже третьей Государственной Программы по социально-экономическому развитию регионов, с другой же с принятием програм и других аналогичных правово-нормативных документов по развитию и регулированию как по отрасли вцелом, так и по его различным направлениям.

## ABSTRACT

**Hasan Abbasov**

**Ways of ımprovement of regulatıon Economic instruments in agrıcultural sector In Nakhchivan Autonomous Republic**

The article clarifies the contours of the development of the agricultural sector, which took place in the Nakhchivan Autonomous Republic in recent years. This area is characterized by its significance. It is considered for a large part of the population of the region needs to products and manufacturing industries for raw materials.

Statistics on Autonomous Republic shows that in spite of having a lower value (first place is occupied by industry - 28%), agrarian sphere is notable for its relatively wide, diversified structure.

The large mass of agricultural work is based on the activity of Njegos-State actors. This in turn makes it impossible to control the industry, based on dirrektiwe, administrative principles. It is this factor, requiring a systematic and integrated work in agriculture.

Questions of regulation of industries in the Republic of Azerbaijan began to be put into practice with the obtaining of independence. Primarily as a result of CHECK, Denia reforms made possible denationalization and privatization of the land, and later was carried out distribution of rural entrepreneurs of agricultural machinery and animals standing on the balance sheets of state and collective farms.

Since 1998, the system has started to implement the appropriate processes-owls. This activity was made possible on the one hand with postadeynym implementation of the of the third State Program on socio-economic development of the regions, on the other hand with the adoption of the program and other similar legal-normative documents on development and regulation as the industry and to its various directions.

NDU-nun Elmi Şurasının 30 mart 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 07).

Məqaləni çapa təqdim etdi: İqtisad üzrə elmlər doktoru, professor A.Rüstəmov

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2017, № 2 (83)**

NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2017, № 2 (83)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2017, № 2 (83)**

**ARAZ ƏSGƏROV**
*Naxçıvan Dövlət Universiteti*

**UOT: 658**

# SƏNAYE PARKLARI – NAXÇIVAN MUXTAR RESPUBLİKASININ İQTİSADİ İNKİŞAFINDA YENİ ÇAĞIRIŞ KİMİ

***Açar sözlər:*** *sənaye parkları, sənaye potensialı, iqtisadiyyatın diversifikasiyası, sahibkarlıq fəaliyyəti, iqtisadi inkişaf*

***Key words****: industrial parks, industrial potential, diversification of the economy, entrepreneurial activity, economic development*

***Ключевые слова:*** *промышленные парки, промышленный потенциал, диверсификация экономики, предпринимательская деятельность, экономическое развитие*

Ölkə iqtisadiyyatında getdikcə daha çox diqqət cəlb etməyə başlayan məsələlərdən biri sənaye sferasında atılan addımlar və bu istiqamətdə regionların mövcud potensialından geniş şəkildə istifadə olunmasıdır. Müasir dövrdə iqtisadiyyatın sənaye sektorunun inkişafında sənaye parklarının yaradılmasının özünəməxsus yeri vardır. Belə layihələr müxtəlif sənaye istiqamətlərinin paralel, eyni zamanda, tarazlı inkişafını təmin edir, habelə istehsal sahələrinin və onların innovasiya istiqamətlərinin inkişafını nəzərdə tutan dövlət siyasətinin reallaşdırılmasına şərait yaradır.

Xarici ölkələrin təcrübəsi göstərir ki, sənaye parklarının yaradılması ölkə iqtisadiyyatında ixracın, idxalı əvəz edən məhsulların istehsalının, məhsulların rəqabət qabiliyyətinin artırılması, məşğulluğun təmin edilməsi, investisiyaların və müasir texnologiyaların cəlb edilməsi kimi prioritet vəzifələrin həyata keçirilməsində xüsusi əhəmiyyətə malikdir. Sənaye parkları sahibkarlığın dəstəklənməsinə, müasir texnologiyalara əsaslanan rəqabətqabiliyyətli sənaye müəssisələrinin yaradılmasına, sənaye potensialının artırılmasına və regionların inkişaf etdirilməsinə çox böyük təkan verir. Buna görə də müxtəlif sənaye sahələrini inkişaf etdirmək istəyən, ölkə iqtisadiyyatının tarazlı inkişafında maraqlı olan dövlətlər iqtisadi siyasətlərində sənaye parklarının yaradılmasına üstünlük verirlər. Türkiyə, Almaniya, Polşa, Latviya, Rusiya, Çin və Cənubi Koreya təcrübələri göstərir ki, sənaye parklarının yaradılması əhalinin tələbatlarının yerində ödənilməsində, milli brendlərin yaradılmasında, ixtisaslı kadrların hazırlanmasında və yeni iş yerlərinin açılmasında mühüm əhəmiyyət kəsb edir.

Məhz bu baxımdan respublikamızda ölkə iqtisadiyyatının neftdən asılılığını azaltmaq, qeyri-neft sektorunu inkişaf etdirmək, daxili tələbatı yerli istehsal hesabına ödəmək, idxal həcmini aşağı salmaq, ixracı artırmaq və iqtisadiyyatda canlanma əldə etmək məqsədi ilə dünya təcrübəsinə əsaslanan sənaye parklarının yaradılması siyasəti həyata keçirilməkdədir.

Qeyd edək ki, Azərbaycanda sənaye parklarının formalaşdırılması üçün geniş zəmin yaradılmışdır. Ölkəmizdə sənaye parkının yaradılması ilk dəfə 2002-ci ilin sentyabrında imzalanan "Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət himayəsi sahəsində əlavə tədbirlər haqqında" fərmanda müəyyənləşdirilmişdir. Sənaye parklarının yaradılması bununla yanaşı, bir sıra dövlət proqramlarında, o cümlədən "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)"nda, "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı"nda, "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı"nda və "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqram"ında nəzərdə tutulmuşdur. Bununla yanaşı, "2011-2013-cü illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı" çərçivəsində həyata keçiriləcək tədbirlər planında sənaye parkının yaradılması planlaşdırılmış və məhz adı qeyd edilən sonuncu dövlət proqramına uyğun olaraq Balaxanı Sənaye Parkı yaradılmışdır. Yuxarıda qeyd edilən mühüm sənədlərdə verilmiş tapşırıqların icrası ilə bağlı xarici ölkələrin bu sahədəki müsbət təcrübəsinin ölkəmizdə tətbiqi istiqamətində ardıcıl tədbirlər həyata keçirilmiş, həmçinin BMT-nin Sənaye İnkişafı Təşkilatının (UNİDO), Türkiyənin Türk Əməkdaşlıq və İnkişaf İdarəsinin (TİKA) ekspertlərinin tövsiyələri nəzərə alınmaqla bu sahədə müvafiq təkliflər hazırlanmış və 2013-cü ildə "Sənaye parkları haqqında Nümunəvi Əsasnamə" təsdiq edilmişdir.

2013-cü ildə qəbul edilmiş "Sənaye parkları haqqında Nümunəvi Əsasnamə"yə görə sənaye parkları sənaye sahələrini inkişaf etdirmək üçün ayrılan torpaq sahəsi kimi nəzərdə tutulur. Əsasnaməyə əsasən sənaye parklarının üç əsas sahibkarlıq modeli müəyyənləşdirilmişdir:

- ✓ dövlət sənaye parkı və onu idarə edən orqan;
- ✓ özəl sektorun mülkiyyətində və idarəsində olan sənaye parkı;

- ✓ dövlətlə özəl sektor arasında dövlət-özəl tərəfdaşlıqları və müştərək müəssisələr.

Sənaye parkları müxtəlif cür adlana bilər:

- ✓ sənaye torpaqları şəhərciyi;
- ✓ ixrac-emal zonaları;
- ✓ biznes parkları;
- ✓ texnologiya parkları;
- ✓ sənaye inkişaf zonaları;
- ✓ eko-sənaye parkları və s.

Sənaye parkları, adətən, rabitə və nəqliyyat infrastrukturuna malik, kommunikasiya xətləri ilə təmin edilmiş ərazilərdə yerləşir. Digər hallarda isə bu imkanlar əvvəlcədən yaradılır.

Sənaye parklarının yaradılması və orada güzəştlərin tətbiq olunması ölkə iqtisadiyyatının şaxələnməsinə, müxtəlif sənaye sahələrinin inkişafına xidmət edir. Sənaye parkları, əsasən, böyük ənənələri və potensialı olan sahələrdə yaradılmalıdır. Ona görə də sənaye parkları daha çox hər bir regionun xammal bazasına uyğun olaraq təşkil edilməlidir. Məsələn, üzümçülük regionlarında şərab, dağətəyi rayonlarda isə konserv zavodları yaratmaq, faydalı qazıntılar olan bölgələrdə metalurgiya və tikinti materialları sənayesini inkişaf etdirmək mümkündür. Bu cür bölgü həm iqtisadiyyatın balanslaşdırılmış inkişafını təmin edir, həm də regionlararası iqtisadi fərqlilik problemini aradan qaldırmış olur (2).

Sənaye parkında yerləşən biznes müəssisəsinin kənarda yerləşən müəssisələrdən bir sıra üstünlükləri var. Belə ki, sənaye parkında müəssisə yaratmaq prosesi torpaq əldə etmək, onu hazır vəziyyətə gətirmək, kommunal xidmətlərdən istifadəyə icazə almaq, əraziyə yol çəkdirmək və s. kimi vaxt aparan, əziyyət tələb edən işlərdən azad olmaq deməkdir. Sənaye parklarında biznes təşkilatları bu cür çətinliklər yaşamır. İlk növbədə, ona görə ki, sənaye parklarında biznesin təşkilində dövlət maraqlı olur. Həmçinin sənaye parklarında müxtəlif stimullaşdırıcı güzəştlər tətbiq edilir. Sənaye parkları ilə bağlı stimullaşdırıcı tədbirlərə vergi və gömrük sahəsində güzəştlər, sənaye parkının infrastrukturla təmin edilməsi, torpaq sahəsinin icarə haqqının aşağı həddə nəzərdə tutulması, güzəştli kreditlərin verilməsi, inzibati prosedurların sadələşdirilməsi daxildir. Bundan başqa, sənaye parklarında sahibkarlıq fəaliyyətinin səmərəli həyata keçirilməsi üçün xidmətlərin təşkili, istilik və elektrik enerjisinin, suyun və qazın satışına, tullantı sularının axıdılmasına və məişət tullantılarının yığılmasına görə güzəştli tariflərin tətbiqi də mümkündür (1).

Sənaye parklarının ölkə iqtisadiyyatına qazandırdığı müsbət cəhətlərdən biri də inflyasiyanın bir rəqəmli səviyyədə qorunub saxlanılmasına kömək etməsidir. Belə ki, ikirəqəmli inflyasiyaya malik iqtisadiyyatda sənaye parklarının fəaliyyəti çətinləşir və bir çox hallarda sənaye parkları zərərlə iqtisadi fəaliyyət göstərirlər. Göründüyü kimi, inflyasiya ilə sənaye parklarının fəaliyyəti zəncirvari əlaqədardır və dövlət inflyasiyanın birrəqəmli səviyyədə saxlanılmasına çalışmalıdır. Sənaye parkları da öz növbəsində daxili bazar üçün ucuz və keyfiyyətli məhsullar istehsal edərək inflyasiyanın birrəqəmli səviyyədə saxlanılmasına köməklik edəcəkdir.

Sənaye parkları ümumi iqtisadiyyatın dirçəldilməsi ilə yanaşı, daxili bazarların qorunub saxlanılmasında əvəzsiz rola malikdirlər. Sənaye parklarında istehsal olunan məhsullar yerli məhsullar kimi daxili bazarlara yönəldilərək xarici məhsulların bazarlardan sıxışdırılmasına və rəqabət mühitinin formalaşmasına şərait yaradır.

Ölkəmizdə əhalinin istər sənaye, istərsə də kənd təsərrüfatı məhsullarına olan tələbatı yerli is-tehsal hesabına tam ödənilmir. Qeyd edək ki, bu nöqteyi-nəzərdən, başqa sözlə desək, özünütəminetmə səviyyəsi baxımından sənaye parkları mühüm rola malikdir. Belə ki, sənaye parkları ölkədəki valyutanın xaricə axınını dayandıraraq, yerli istehsala yönəldilməsini təmin edir və bu səbəbdən büdcəyə əlavə vəsaitlərin daxil olmasına imkan yaradır. Sənaye parkları yerli istehsalçıları daha da həvəsləndirərək onları istehsal güclərini artırmağa sövq edir və ölkə iqtisadiyyatının xarici iqtisadi güclərdən asılı olmayaraq bir iqtisadi gücə çevrilməsinə zəmin yaradır.

Regionlarda torpaqlardan səmərəsiz istifadə və bir çox torpaqların becərilməməsi bu gün ciddi problem olaraq qalır. Torpaqdan səmərəsiz istifadə, becərilməyən torpaqların mövcudluğu büdcəni gəlirlərdən məhrum edir. Yeni yaradılan sənaye parkları bu problemlərin aradan qalxmasına səbəb olacaqdır. Torpaqların səmərəli istifadəsinin artmasında, istifadəsiz torpaqların aktiv istehsal dövriyyəsinə cəlb olunmasında, torpaqlardan bol məhsulun əldə edilməsində, yerli fermerlərin həvəsləndirilməsində sənaye parklarının rolu olduqca böyükdür. Regionlarda yaradılan sənaye parkları fermerlərə məhsullarını birbaşa sənaye parklarına təhvil verilməsində və gəlirlərinin əldə edilməsində əvəzsiz rol oynayacaqdır. Bu öz növbəsində iqtisadiyyatın böyük bir qolu olan və çoxlu işçi qüvvəsi tələb edən kənd təsərrüfatı kimi bir sahənin inkişafına təkan verəcək və pambıq, üzüm, kartof və s. kimi ənənəvi kənd təsərrüfatı sahələrinin dinamik inkişafına səbəb olacaqdır (5).

Hazırda ölkə bazarlarında ərzaq məhsulları sahəsində yerli firmalar xarici firmalarla rəqabətə birbaşa tab gətirə bilmir və ərzaq təhlükəsizliyinin təminində mövcud problemlər meydana gəlir. Sənaye parklarının

yaradılması ilə ölkədə ərzaq təhlükəsizliyi təmin olunacaq, gələcəkdə xarici bazarlara çıxış əldə ediləcəkdir. Burada sənaye parkları ilə aqroparklar arasındakı sıx əlaqəni xüsusilə vurğulamaq lazımdır. Bu əlaqə tək ərzaq təhlükəsizliyinin təmininə deyil, bütövlükdə kənd təsərrüfatının inkişafına öz töhfəsini verəcəkdir.

Sənaye parklarının üstün cəhətlərindən biri də "Made in Azerbaijan" brendinin təbliği və xarici bazarlarda məhsullarımızın rəqabət qabiliyyətinin artırılmasında oynadığı roldur. Sənaye parklarında istehsal olunacaq məhsulların üzərinə "Made in Azerbaijan" brendi vurularaq xarici bazarlarda Azərbaycan məhsulu kimi satılması ölkəmizin iqtisadi inkişafına, onun tanınmasına və dünya bazarında bir iqtisadi gücə çevrilməsinə səbəb olacaqdır.

Sənaye parklarının əhəmiyyətli cəhətlərini nəzərə alaraq, Naxçıvan Muxtar Respublikasında da sahibkarlığın dəstəklənməsinin bir yolu kimi sənaye parklarının yaradılmasına ehtiyac duyulur. Qeyd edək ki, bu sahədə artıq müvafiq qanunvericilik bazası yaradılmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2013-cü il 6 iyun tarixli fərmanı ilə təsdiq edilmiş "Sənaye parkları haqqında Əsasnamə" sənaye parklarının yaradılması, idarə edilməsi və onlarda sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə bağlı məsələləri tənzimləyən çox mühüm dövlət sənədidir.

Sahibkarların həvəsləndirilməsi üçün stimullaşdırıcı tədbirləri də nəzərdə tutan əsasnaməyə görə, iş adamları və özəl şirkətlər sənaye parkında onun operatoru ilə müqavilə bağlamaqla fəaliyyət göstərə bilərlər. Bunun üçün onlar parkda həyata keçirmək niyyətində olduqları investisiya layihəsi və başqa sənədlərlə idarəedici şirkətə müraciət etməlidirlər. Qeyd edilən mühüm sənəddə Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinə verilmiş tapşırıqların icrası ilə bağlı bir sıra tədbirlər həyata keçirilmişdir.

Sənaye parkının yaradılması uyğun hesab edilən, dövlət, xüsusi, həmçinin bələdiyyə mülkiyyətində olan torpaq sahələri haqqında təkliflərin hazırlanması istiqamətində işlər tamamlanmış və aşağıdakı layihələr hazırlanmışdır:

- ✓ sənaye parkının nizamnaməsinin layihəsi;
- ✓ sənaye parkı üzrə operatorun müsabiqə əsasında seçilməsi qaydasının layihəsi;
- ✓ sənaye parkının rezidentlərinin fəaliyyətləri haqqında hesabat-statistik məlumatların alınması və onların fəaliyyətinin monitorinqinin həyata keçirilməsi qaydalarının layihəsi;
- ✓ sənaye parkında həyata keçirilən fəaliyyət haqqında yarımillik hesabat, habelə öz fəaliyyəti üzrə kənar auditor hesabatının hazırlanması və təqdim edilməsi qaydalarının layihəsi;
- ✓ hüquqi və fiziki şəxslərlə operatorun niyyət razılaşmasının nümunəvi formasının layihəsi;
- ✓ hüquqi və fiziki şəxslərin qeydiyyatdan keçmələri üçün ərizə forması və ona əlavə edilən sənədlərin siyahısının layihəsi;
- ✓ təqdim olunan investisiya layihəsinin müəyyən edilmiş meyarlara uyğunluğunun qiymətləndirilməsi qaydalarının layihəsi;
- ✓ sənaye parkının rezidentlərinin reyestrinin aparılması qaydalarının və qeydiyyat şəhadətnaməsinin formasının layihəsi;
- ✓ sənaye parkının ərazisində dövlət mülkiyyətində olan torpaq sahələrinin icarə müqaviləsinin nümunəvi formasının layihəsi;
- ✓ birgə sənaye parkının fəaliyyətinin təşkili və idarə olunması qaydalarının layihəsi.

Naxçıvan-Sədərək magistral avtomobil yolunun 12-ci kilometrliyində 50 hektar ərazidə və Babək rayonunun Araz kəndindəki 20 hektar ərazidə dövlət mülkiyyətinə aid olan torpaq sahələri sənaye parklarının yaradılması üçün təklif olunmuşdur.

Sənaye parklarının bir əhəmiyyəti də ondadır ki, burada istehsal olunan məhsullar kiçik və orta sahibkarlığın inkişafına zəmin yaradacaq, onlarla yeni istehsal sahələrinin yaradılmasına və inkişafına təkan verəcəkdir. Elə bu məqsədlə muxtar respublikamızda istehsal sahələri və infrastruktur nəzərə alınmaqla izolyasiya materialları, qiymətli metallardan hazırlanmış zərgərlik məmulatları, kafel, metlax və seramik məmulatları, elektrik akkumulyatorları, elektrik naqilləri, fərdi mənzillər üçün istilik qurğuları, su, qaz və elektrik sayğacları, birdəfəlik tibbi şpris, qaynaq üçün elektrod, məişət avadanlıqları və elektronik cihazlar, məktəbli və ofis ləvazimatları, sumbata bezi (pas kağızı), divar kağızı (oboy), qələm istehsalı, istismar müddəti başa çatmış avtomobil şinlərinin utilizasiyası, şurup istehsalı, yivli metal qapaq, element, birdəfəlik plastik tara, dərman preparatları, kosmetik məqsədli yağ, ekstrat və preparatlar, balıq yemi, konservləşdirilmiş qarğıdalı, südlü uşaq yeməyi, meyvəli yoğurt, bitki yağı istehsalı sahələri və digər bu kimi 32 məhsul istehsalı üzrə layihələrin hazırlanması üçün təkliflər verilmişdir.

Xarici ölkələrin bu sahədəki müsbət təcrübəsinin öyrənilməsi istiqamətində də bir sıra tədbirlər həyata keçirilmişdir. Belə ki, muxtar respublikanın nümayəndə heyəti Araz Azad Ticarət Zonası ilə tanışlıq məqsədilə İran İslam Respublikasına səfər etmiş, bu sahədə həmin ölkənin təcrübəsi ilə yaxından tanış olmuşdur. Həmçinin Çin Xalq Respublikasında "Azərbaycanda sənaye parkının tikintisi" mövzusunda keçirilmiş seminarda Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin əməkdaşı iştirak etmişdir. Təlim proqramı çərçivəsində Çin Xalq Respublikasının Kommersiya Nazirliyi yanında Məmurlar üçün Beynəlxalq Biznes Akademiyası ekspertlərinin tövsiyə və təcrübələri öyrənilmişdir.

Fikrimizcə, qazanılmış təcrübələr sayəsində gələcəkdə Naxçıvan Muxtar Respublikasında sənaye parkları timsalında iri sərmayə qoyuluşundan ibarət yeni layihələrin reallaşdırılması muxtar respublikanın iqtisadi inkişafına öz töhfəsinin verəcəkdir.

## ƏDƏBİYYAT


1. Sənaye parkları sahibkarlığa dəstək sisteminin elementləri kimi. "İqtisadiyyat" qəzeti, №8 (951), 2017
2. Zeynel Dinler. Bölgesel iktisat. Bursa, 2012, 449 yaprak
3. Ayla Eraydın. Post-Fordizm ve değişen mekansal özellikler. Ankara, 2012
4. M.Özdemir. Türkiyede organize sanayi bölgeleri. Ankara, 2010
5. Nuriyev Ə.X. Regional siyasət və idarəetmənin əsasları. İkinci nəşr, Bakı, Elm, 2007, 427 səh.



## ABSTRACT

**Araz Asgarov**

**İndustrial Parks – as a new challenge in the economic development of Nakhchivan Autonomous Republic**

The article is about diversifying the economy and reduce dependence on non-oil sector, the involvement of the trade potential of domestic production demand met from domestic production, increase the competitiveness of the products produced, employment, investment and modern technologies to ensure balanced regional development eliminate the difference in economic development and the implementation of the priority tasks which are of particular importance to the establishment of industrial parks and the process of the formation

The article as a new round of industrial parks, economic development was also mentioned as a way to support business activities.

The article, which is an integral part of the Republic of Azerbaijan and Nakhchiban Autonomous Republic and the steps taken towards the establishment of industrial parks and discussed in the Legislature.And the same time, the establishment of industrial parks as well as the "State Program of socio-economic development of regions ( in 2004 – 2008 )", "The Republic of Azerbaijan in 2008-2015 state program on reliabe provision of population with food products", "The Republic of Azerbaijan in 2008—2015 the State Program on poverty reduction and sustainable development" and "The Republic of Azerbaijan in 2015-2020 State Program on development of the industry" and the measures to be implemented under the plan's programs, such as the stressed state.

The article also reviewed the prospects for the development of industrial parks in the Nakhchivan Autonomous Republic.



## РЕЗЮМЕ

**Араз Аскеров**

**Промышленные парки – новый позыв в экономическом развитии Нахчыванской Автономной Республики**

В статье повествуется о процессах разветвления экономики страны, об уменьшении зависимости нефтянного сектора, о привлечении существующего потенциала к производственному обороту, погашении внутренной потребности засчет местного производства, об повышении конкурентоспособности производымих товаров, об обеспечении занятости, о привлечении инвестиций и современных технологий, об обеспечении балансированного развития и об устранении проблем различий межрегионального характера, а также о создании и формировании при этом промышленных парков.

В статье промышленные парки рассматриваются как новая стадия обеспечения экономического развития, а также как один из путей помощи предпринимательский деятельности.

В работе также говорится о проделанных шагах и созданной нормативно-правовой базе по отношению к промышленным паркам как в Азербайджанской Республике вцелом , так и в ее неотьемлимой части – Нахчыванской Автономной Республике. В то же время рассмотрены планы по таким Государственным программам как «Государственная Программа социально-экономического развития регионов Азербайджанской Республики (2004-2008-ые годы)», «Государственная программа по полноценному обеспечению населения продовольственными товарами в 2008-2015-ом годах», «Государственная Программа по развитию промышленности в Азербайджанской Республике в 2015-2020-ом годах» и т.д.

В статье также рассмотрены перспективы развития промышленных парков в Нахчыванской Автономной Республике.



NDU-nun Elmi Şurasının 30 mart 2017-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 07).

Məqaləni çapa təqdim etdi: İqtisad üzrə elmlər doktoru, professor A.Rüstəmov

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2017, № 2 (83)**

NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2017, № 2 (83)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2017, № 2 (83)**

**ELVİN ƏLİMƏRDANOV**
*Naxçıvan Dövlət Universiteti*
*elvin.alimardanov@mail.ru*

**UOT: 658**

# SAHİBKARLIQ FƏALİYYƏTİNİN NAXÇIVAN MUXTAR RESPUBLİKASININ SOSİAL-İQTİSADİ İNKİŞAF STRATEGİYASINDA ROLU

***Açar sözlər:*** *sahibkarlıq fəaliyyəti, sahibkarlıq subyektləri, biznes mühiti, sosial-iqtisadi inkişaf, bazar iqtisadiyyatı, iqtisadi siyasət, iqtisadi aktivlik*

***Ключевые слова:*** *предпринимательская деятельность, субъекты собственности, сфера бизнеса, социалъно-экономическое развитие, рыночная экономика, экономическая политика, экономическая активость*

***Key words***: *ownership activity, ownership entities, bisiness environment, social-economical development, market economy, economical policy, economical activity*

Dünya təcrübəsi göstərir ki, azad bazar iqtisadiyyatı olmadan sahibkarlıq fəaliyyətinin zəifliyi şəraitində heç bir cəmiyyətin gələcəyə inkişafı ola bilməz. Ümummilli lider Heydər Əliyevin "Sahibkarlığın inkişaf etdirilməsi, sərbəst iqtisadiyyata yol verilməsi, bazar iqtisadiyyatının yaradılması bizim strateji yolumuzdur" fikrini rəhbər tutaraq, Azərbaycan dövləti sahibkarlıq fəaliyyətini qanunvericilik, inzibati-hüquq, büdcə, vergi və pul-kredit vasitəsi ilə tənzimləyir. Qloballaşan dünyaya inteqrasiya edən ölkəmiz bazar iqtisadiyyatı yolunda sürətlə inkişaf edir. Sahibkarlıq fəaliyyəti cəmiyyətimizin ən təşəbbüskar, çevik, elmi-texniki yeniliklərlə ayaqlaşan təbəqəsi kimi getdikcə ölkə iqtisadiyyatının aparıcı qüvvəsinə çevrilməkdədir. [4, s. 18]

Bu gün ölkəmizin davamlı iqtisadi inkişafının təmin olunmasında, müasir dünyanın tələb etdiyi bir iqtisadiyyatın qurulmasında əsas iqtisadi idarəetmə modeli olan sahibkarlıq fəaliyyətinin qurulması və stimullaşdırılması çox zəruri vəzifəyə çevrilmişdir. Sahibkarların təşkilatlanması, dövlət-istehsalçı münasibətlərinin stimullaşdırılması, istehsalın fazalar üzrə səmərəli hərəkət istiqamətlərinin təmin olunması məhz məqsədyönlü iqtisadi siyasətin, eləcə də uğurlu sahibkarlıq fəaliyyətinin təminatından ibarət idi. Müstəqil Azərbaycanın memarı olan ulu öndər Heydər Əliyev azad sahibkarlığın inkişafına daim diqqət göstərmiş və respublikamızın sosial-iqtisadi inkişafını bilavasitə sahibkarlıqla, onun tərəqqisi ilə əlaqələndirmişdir. Bu da onu deməyə əsas verir ki, həyata keçirilən iqtisadi siyasət sahibkarlığın inkişafının sürətləndirilməsinə, ölkənin sosial-iqtisadi problemlərinin həllində sahibkarlığın rolunun gücləndirilməsinə, bu istiqamətdə dövlət qayğısının artırılmasına və ən əsası mövcud potensialın reallaşdırılmasına yönəlmişdir. Bu məqsədlə qanunvericilik bazasının formalaşdırılması, maneələrin aradan qaldırılması, maliyyə dəstəyinin göstərilməsi və digər sahələrdə mühüm əhəmiyyətli addımlar atılmışdır. Belə ki, bazar iqtisadiyyatına uyğun qanunvericiliyin, büdcə, vergi, bank sistemlərinin formalaşdırılması, aqrar islahatların həyata keçirilməsi, dövlət əmlakının özəlləşdirilməsi, sahibkarlığın inkişafı üçün əlverişli biznes mühitinin yaradılması nəticəsində bazar iqtisadiyyatına keçidin əsası qoyuldu və sahibkarlıq sinfi formalaşdı. [5, s. 78]

Ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə ölkədə aparılan ardıcıl və sistemli iqtisadi islahatların ən mühüm istiqamətlərindən birini də dövlət mülkiyyətinin özəlləşdirilməsi və azad sahibkarlığın inkişafı üçün əlverişli şərait yaradılması təşkil edirdi. Özəlləşdirmə və torpaq islahatı, habelə özəl sektorun inkişafı üçün əlverişli şərait yaradılması nəticəsində ümumi daxili məhsulda qeyri-dövlət sektorunun payı daha sürətlə artmağa başladı. Bütün bunlar iqtisadi inkişafda yeni bir mərhələnin başlandığını göstərirdi. Yeni mərhələnin əsas hədəfi isə milli iqtisadiyyatın rəqabət qabiliyyətliliyinin yüksəldilməsinə və dünya təsərrüfat sisteminə səmərəli inteqrasiyasına nail olmaqla, uzunmüddətli perspektivdə ölkədə dinamik sosial-iqtisadi inkişafın davamlılığını təmin etməkdən ibarət idi. Şübhəsiz ki, bütün bunlar Heydər Əliyev dühası ilə reallaşırdı.

Sahibkarlığın inkişafının hüquqi əsaslarının formalaşdırılması istiqamətində qəbul edilmiş qanunlar və digər qanunvericilik aktları sahibkarlığın bir sistem halında hüquqi bazasını təşkil etdi. Bu, qısa zaman kəsiyində öz bəhrəsini verərək ölkənin iqtisadi potensilanın daha dolğun şəkildə reallaşması ilə xarakterizə olundu. Ümummilli liderin rəhbərliyi altında iqtisadi və dövlət idarəetmə sistemi sahəsində aparılan kompleks islahatlar sahibkarlığın inkişafına güclü təkan verdi. [4, s. 120]

Ulu öndərin siyasi kursunun ləyaqətli davamçısı hörmətli Prezident İlham Əliyevin hakimiyyəti dövründə sahibkarlığın inkişafında yeni dövr başlandı. Prezident İlham Əliyevin yürütdüyü sosial-iqtisadi strategiya nəticəsində cəmiyyətin ümumi potensialının milli məqsədlər naminə səfərbər olunması inkişaf prosesində yüksək dinanizmi və məqsədyönlülüyü təmin etmişdir. Paytaxtın və regionların davamlı inkişafı, sosial infrastrukturun yenidən qurulması, milli iqtisadiyyatın neft amilindən asılılığının qeyri-neft sektorunun

tərəqqisi hesabına aradan qaldırılması üçün görülən kompleks tədbirlər ölkəmizin bugünkü uğurlarını şərtləndirmişdir. Həyata keçirilmiş məqsədyönlü iqtisadi siyasət hesabına Azərbaycanda özəl sektor yeni inkişaf dönəminə qədəm qoymuşdur. [3, s. 104]

Ölkəmizdə həyata keçirilən məqsədyönlü və uzaq gələcəyə hesablanmış tədbirlərin qazandırdığı uğur və nailiyyətlər onun bütün regionlarında, xüsusən də Naxçıvan Muxtar Respublikasında özünün ən geniş əhatə dairəsini formalaşdırmışdır. Muxtar respublikada həyata keçirilən ardıcıl və sistemli iqtisadi islahatların başlıca istiqamətlərindən birini də dövlət əmlakının özəlləşdirilməsi, yeni mülkiyyət münasibətlərinin yaradılması və sahibkarlığın inkişafı təşkil edir. Qısa müddət ərzində iqtisadiyyatda aparılan islahatlar muxtar republikada bazar iqtisadiyyatı mexanizmlərinin bərqərar olunmasına, özəl investisiyaların cəlb edilməsinə, sahibkarların müasir texnologiya və idarəetmə təcrübələrinə yiyələnməsinə və rəqabətqabiliyyətli məhsul istehsal edən müəssisələrin qurulmasına şərait yaratmışdır.

Sahibkarlığın inkişafına əlverişli şəraitin yaradılması məqsədilə sahibkarlığın hüquqi bazası dünya təcrübəsinə uyğun olaraq təkmilləşdirilmişdir. İdarəetmənin və iqtisadiyyatın bütün sahələrində mühüm əhəmiyyətə malik qanunlar, proqramlar və fərmanlar qəbul edilmişdir. Sahibkarlıq infrastrukturunun zəruri mexanizmləri yaradılmışdır. Sahibkarlara maliyyə, informasiya və məsləhət xidmətləri göstərən strukturlar formalaşmışdır. Muxtar respublikada sürətlə formalaşan özəl sektorun inkişafı birinci növbədə kiçik və orta sahibkarlığın nailiyyətləri ilə müşayiət olunmuşdur. Sahibkarlığın inkişafı üçün zəruri baza formalaşdıran özəlləşdirmə prosesinin birinci mərhələsinin uğurla başa çatması və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2000-ci il 23 avqust tarixli Fərmanı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında dövlət əmlakının özəlləşdirilməsinin II Dövlət Proqramı" özəlləşdirmə prosesinin ikinci mərhələsinin başlamasına və sürətləndirilməsinə şərait yaratmışdır. Proqrama uyğun olaraq dövlət müəssisələri səhmdar cəmiyyətə çevrilmiş, səhmləri hərraca çıxarılaraq özəlləşdirilmiş və bu müəssisələrdə yenidənqurma işləri aparılaraq istehsal və xidmət sahələri yaradılmışdır. [2, s. 199]

Sahibkarlığın inkişafı istiqamətində aparılan məqsədyönlü siyasətin və həyata keçirilən tədbirlərin nəticəsi olaraq son illərdə muxtar respublikada iqtisadi və sosial sahələrdə baş verən dəyişiklikləri əks etdirən makroiqtisadi göstəricilər yüksələn dinamika ilə inkişaf etmiş, məhsul istehsalı və çeşidi artırılmış, xidmət sahələrinin əhatə dairəsi genişləndirilmişdir. Sahibkarlıq fəaliyyəti üçün yaradılmış münbit şəraitin nəticəsi olaraq muxtar respublikada ümumi daxili məhsulun 85 faizindən çoxu, kənd təsərrüfatı istehsalının 95 faizindən çoxu, sənayenin 92 faizi, informasiya və rabitə sahəsində göstərilən xidmətlərin 85 faizi özəl bölmənin payına düşür. Bu gün muxtar respublikada fəaliyyət göstərən 15 mindən çox sahibkarlıq subyektində 80 mindən artıq iş yeri mövcuddur. [1, s. 24]

Muxtar respublikada iş adamlarının maraqlarını müdafiə etmək və sahibkarlığın inkişafına dəstək vermək, səmərəli idarəolunmanı təşkil etmək, sahibkarlara göstərilən xidmətləri və informasiya təminatını yaxşılaşdırmaq, sahibkarlığın inkişafı istiqamətində tədbirlərdə yaxından iştirak etmək kimi vəzifələri yerinə yetirmək məqsədilə 18 yanvar 2006-cı ildə Naxçıvan Muxtar Respublikası Sahibkarlar Konfederasiyası yaradılmışdır.

Muxtar respublikada kiçik və orta sahibkarlıq fəaliyyətinin düzgün qurulması və sahibkarların bazar iqtisadiyyatı münasibətlərini mənimsəmələri istiqamətində maarifləndirmə işinin təşkili məqsədilə mütəmadi olaraq metodiki və texniki yardımlar göstərilmiş, onlarla mütəmadi görüşlər keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Sahibkarlığın inkişafına mane olan müdaxilələrin qarşısının alınması haqqında" 30 sentyabr 2002-ci il tarixli Fərmanı özəl bölmənin inkişafına təkan vermiş, sahibkarlıq fəaliyyətinə kənar müdaxilələrin qarşısının alınması üçün hüquqi zəmin yaratmaqla sahibkarlıq fəaliyyətinə dövlət dəstəyini daha da gücləndirmişdir. [1, s. 26]

Bütün bunlar bir daha əyani olaraq göstərir ki, muxtar respublika rəhbərliyinin ardıcıl və məqsədyönlü siyasəti nəticəsində sahibkarlıq fəaliyyəti Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına öz müsbət nəticələrini vermiş və bu sahədə bir sıra nailiyyətlər qazanılmışdır. Bunun nəticəsidir ki, Naxçıvan sahibkarlığın inkişafı üçün hər cür şəraitin mövcud olduğu regiona çevrilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin bu sahəyə göstərdiyi diqqət və qayğı, sahibkarlığın inkişafına göstərilən dövlət dəstəyinin davamlılığı sahibkarlara səmərəli fəaliyyət göstərmək imkanı verib. Məhz buna görə də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov əbəs yerə bu sözləri söyləməmişdi: "Dünyada o ölkələr inkişaf edir ki, orada sahibkarlığın orta təbəqəsi inkişaf etsin. Biz sahibkarlıq sinfinin yaranması üçün lazım olan şəraiti yaratmalıyıq". [1, s. 3]

## ƏDƏBİYYAT


1. Naxçıvan Muxtar Respublikasında Sahibkarlıq. Naxçıvan, 2012, Əcəmi, 248 səh.
2. Əhmədov N. H., "Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatı 90 ildə". Naxçıvan, 2015, Əcəmi, 272 səh.
3. Əhmədov N. H., "Heydər Əliyevin inkişaf modeli və Naxçıvanda dinamik inkişaf". Bakı, 2010, Elm və təhsil, 148 səh.

4. Aslanov S. X., “Sahibkarlıq hüququ”. Bakı, 2005, Digesta, 496 səh.
5. İmanov Ə. Ş., “Kiçik sahibkarlıq”. Bakı, 2009, Elm, 368 səh.
6. “Sahibkarlıq fəaliyyəti haqqında Azərbaycan Respublikasının Qanunu”. Bakı, 1996
7. www.nakhchivan.az
8. www.statistika.nmr.az

## РЕЗЮМЕ

**Елвин Алимарданов**

**Роль предпринимательской деятельности в стратегии социально – экономического развития Нахчыванской Автономной Республики**

В статъе повествуется о важности политики развития предпринимательства в продолжейтелном социалъно-экономическом развитии Нахчыванской Автономной Республики, а так же были проанализированы проблемы улучшения бизнесных условий с точки зрения экономического развития автономной республики, создания плодотворной среды для предпринимателей, стратегической важности принятия мер для обеспечения постоянного развития бизнес-сферы. Кроме этого была исследована важность создания выгодных экономических условий для повышения деятельности сельскохозяйственных субъектов, которые согласно росту веса частного сектора в экономической сфере помогут обеспечить социалъно-экономическое развитие Нахчыванской Автономной Республики после обретения Азербайджаном своей независимости.

## ABSTRACT

**Elvin Alimardanov**

**The role of ownership activity in the social-economical development strategy of Nakhchivan Autonomous Republic**

In the article the importance of ownership policy is dealt within the Nakhchivan Autonomous Republic's social-economical development, making better the business environment by the point of economic side autonomous republic, tablishing of good condition for owners, the strategical importance issues for the resistant development of ownership sphere. Also it has been researched that after forming its independence the increasing of private sectors in economic sphere, the supplying social-economic development of Nakhchivan Autonomous Republic and for obtaining the forming of optimum bisness sphere the importance of increasing fruitful economical condition for entices.

NDU-nun Elmi Şurasının 30 mart 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 07).

Məqaləni çapa təqdim etdi: İqtisad üzrə elmlər doktoru, professor A.Rüstəmov

**ZAUR ƏLİYEV**
*Naxçıvan Dövlət Universiteti*
*nb.zaur@gmail.com*

**UOT:658.155**

# ÖDƏNİŞLƏRİN HƏYATA KEÇİRİLMƏMƏSİ PROBLEMİNİN YARANMASININ AMİLLƏR ÜZRƏ MAKROİQTİSADİ TƏHLİLİ

***Açar sözlər:*** *Ödəmə qabiliyyətsizliyi, maliyyə vəziyyəti, məzənnə siyasəti, inflyasiya, revalvasiya, devalvasiya, pul axını, sərbəst dönərli valyuta*

***Keywords:*** *Insolvency, financial condition, exchange rate policy, inflation, revaluation, devaluation, cash flow, in freely convertible currency*

***Ключевые слова:*** *Неплатежеспособности, финансовое состояние, политика валютного курса, инфляция, ревальвация, девальвация, движение денежных средств, в свободно конвертируемой валюте*

Bazar iqtisadiyyatı şəraitində ödənişlərin icra edilməməsi problemini doğuran dörd əsas amil xüsusi ilə səciyyələndirilir. Birinci amil dövriyyə vəsaitlərinin sıradan çıxarılması ilə real sektorun pulsuzlaşdırılmasıdır. Burada məhsulun dəyərinin qiymətləndirilməsində material xərcləri maya dəyərinə alış qiyməti ilə daxil edilir, diskontlaşma nəzərə alınmır və belə olan halda artan inflyasiya qiyməti qısa bir müddətdə heçə endirir, dövriyyə vəsaitlərini sıradan çıxarır, nəticədə isə yeni məhsulun alınmasına vəsait qalmır [1, s.64]. Ödənişlərin həyata keçirilməməsi problemini yaradan ikinci amil isə daha dağıdıcı xassə daşıyır. Bu, əhali gəlirlərinin nağd pul vəsaitlərindən məhrum edilməsi ilə yaranmış vəziyyətdir. Üçüncü amil vergi ilə bağlıdır. Dördüncü amil isə iqtisadiyyatın dollarlaşdırılmasıdır. Dollarlaşma çox amilli proses olub, bir sıra səbəblərdən irəli gəlir. Dollarlaşma, ilk növbədə, milli valyutanın uzunmüddətli sabitliyinə inamın aşağı olması və bu səbəbdən cari ödəmələrin həyata keçirilməsi və eləcə də yığım vasitəsi kimi daha güclü xarici valyutaya tələbin yaranması ilə əlaqədardır.

Qeyd etmək lazımdır ki, milli valyutanın devalvasiyasının dollarlaşmanı gücləndirən amil olması revalvasiyanın dollarlaşmanı azaltmaq vasitəsi kimi istifadə etməyin məqsədəuyğunluğuna əsas yaratmır. Belə ki, milli valyutanın devalvasiyası dollara tələbi müəyyən templə artırırsa, onun revalvasiyası nəticəsində dollara tələb nisbətən yavaş templə aşağı düşür.

Dünya təcrübəsinə müraciət etsək görərik ki, inflyasiya və devalvasiyanın sürətlə baş verdiyi dövlətlərdə (Argentina, Peru və s.) xarici valyutada depozitlərə tələbat kəskin surətdə artır. Çünki milli valyuta depozitləri ilə müqayisədə xarici valyutada depozitlərin gəlirliyi yüksəlir. Bu halda milli valyutanın xarici valyuta ilə əvəzlənməsi baş verir. Yəni xarici valyuta ölkə daxilində pulun yığım funksiyasından başqa, bütün digər funksiyalarını da əhatə etmiş olur. Digər tərəfdən, son illər Çili, Misir, Yəmən kimi dövlətlərdə aşağı inflyasiya və məzənnənin sabitliyi şəraitində əvəzlənmə müşahidə olunmur. Lakin bu ölkələrdə də dollarlaşma hələ də mövcuddur ki, bu da xarici valyutanın yığım vasitəsi kimi mövqeyinin güclü olmasını göstərir [2, s. 235].

Maliyyə bazarlarının zəif inkişafı dollarlaşmanın səbəblərindəndir. Qiymətli kağızlar, xüsusən də səhm bazarının zəif inkişafı iqtisadi agentləri xarici valyutadakı depozitlərə meyil etməyə sövq edir. Bu depozitlər iqtisadi agentlər üçün daxili maliyyə bazarında məzənnə risklərindən azad və stabil faiz gətirən başlıca maliyyə aləti kimi çıxış edir.

Dollarlaşmaya şərait yaradan digər amil iqtisadiyyatın açıqlıq dərəcəsinin, xüsusən də idxalın yüksək səviyyədə olmasıdır. Banklar idxalatçıları dollarla kreditləşdirməyə üstünlük verir və balansda tarazlıq yaratmaq, açıq mövqeyə yol verməmək üçün dollar depozitlərinin cəlb edilməsində maraqlı olur. Dollarlaşma iqtisadi agentlər üçün valyuta məzənnəsinin dəyişməsi riskini azaltmaq nöqteyi-nəzərdən əlverişli olsa da makroiqtisadi siyasət və ölkənin iqtisadi təhlükəsizliyi baxımından, onun bir sıra mənfi cəhətləri də vardır. Belə ki, dollarlaşma Mərkəzi Bankın emissiya gəlirinin azalmasına gətirib çıxarır. Xarici valyutadan geniş miqyasda istifadə edilməsi ölkə vətəndaşları tərəfindən xarici ölkələrin iqtisadiyyatına qoyulan investisiyaların ən sərfəsiz və səmərəsiz forması kimi çıxış edir. Dollarlaşma nəticəsində pul bazarının Mərkəzi Bankın nəzarətində olmayan seqmenti yaranır və beləliklə də, pul-kredit siyasətinin transmissiya prosesinə xələl gəlir.

Dünya təcrübəsində dollarlaşmaya qarşı mübarizə tədbirləri olduqca müxtəlifdir. Bəzi dövlətlərdə bu mübarizə inzibati metodlar ilə, digərlərində isə iqtisadi metodlarla aparılır. Lakin bu tədbirlər müxtəlif iqtisadi situasiyalarda və ölkələrdə müxtəlif nəticələr vermişdir. Bir sıra Yaxın Şərq dövlətlərində dedollarizasiya tədbirlərindən biri kimi məcburi ehtiyat normalarının milli valyuta ilə depozitlərin xeyrinə valyutalar üzrə diferensiallaşdırılması praktikası tətbiq edilmişdir. Lakin bu ölkələrin təcrübəsi göstərir ki,

məcburi ehtiyat normalarının xarici valyuta ilə depozitlər üzrə artırılması dollarlaşmanı aradan qaldırmır və xaricə kapital axınını sürətləndirir. Ona görə də son illər dollarlaşma probleminin mövcud olduğu bir sıra ölkələrin mərkəzi bankları xarici valyuta ilə depozitlər üzrə məcburi ehtiyat normalarına toxunmamaqla milli valyutada olan depozitlərə görə məcburi ehtiyat normalarının azaldılmasına üstünlük verirlər. Bu tədbir milli valyutanın gəlirliyini artırmaqla dollarlaşmanın müəyyən qədər aşağı salınmasına imkan yaradır. Bir sıra xarici ölkələrdə dollarlaşmanın qarşısının alınması məqsədilə sərbəst dönərli valyutada depozitlərin milli bank sisteminə cəlb olunmasının inzibati qaydada məhdudlaşdırılması (Yaxın Şərq dövlətlərində), müəssisələr tərəfindən xarici valyutada depozitlərin artırılmasının qadağan edilməsi (1990-cı illərin əvvəlində Polşada), xarici valyutada depozitlərin saxlanılmasının müvəqqəti olaraq qadağan olunması (Boliviya, Meksika, Peru) kimi inzibati tədbirlərə əl atılmışdır.

Lakin təcrübə göstərdi ki, bu tədbirlər adətən makroiqtisadi sabitləşmə proqramlarının uğursuzluğa düçar olduğu ölkələrdə tətbiq olunmuşdur. Bu tədbirlərin görülməsində əsas məqsəd uğursuzluğu kompensasiya etmək və pul, fiskal və məzənnə siyasətinin səmərəsini artırmaqdan ibarət idi. Ancaq bu tədbirlər xarici valyutaya tələbatı azaltmamış, ölkədən kapital axınını sürətləndirmiş və dollarlaşmanın gizli miqyasının genişlənməsinə şərait yaratmışdır [4, s.116].

Bir sıra Yaxın Şərq dövlətlərində dedollarizasiya tədbirlərindən biri kimi milli valyutada olan depozitlərə görə cəlbedici faiz dərəcələrinin təklif olunmasının təşviqi də tətbiq edilmişdir. Lakin xarici valyutada depozitlərə nisbətən milli valyuta depozitlərinə yüksək faiz dərəcəsinin təklif olunması yalnız müvəqqəti olaraq dollarlaşmanı zəiflədə bilmişdir. Çünki fundamental problem olan inflyasiya problemi həll edilmədən dollara tələbat yüksək olaraq qalır. Bundan başqa, bu ölkələrdə iqtisadi subyektlərin faiz dərəcəsinin dəyişməsinə həssaslığı çox aşağıdır. Ona görə də mərkəzi banklar tərəfindən milli valyuta ilə depozitlər üzrə faiz dərəcəsinin artırılmasına yönəldilmiş siyasət dollarlaşma problemini köklü həll etməmişdir. Adı çəkilən dövlətlərdə dedollarizasiya tədbirlərindən biri kimi, həmçinin, yüksək inflyasiya və devalvasiya şəraitində əmanətlərin indeksasiya sisteminin tətbiqi praktikası da mövcud olmuşdur. Burada əsas məqsəd əhalinin əmanətlərinin dəyərsizləşməsini sığorta etməklə milli valyutada olan depozitlərin xarici valyuta depozitləri ilə əvəz olunmasının qarşısının alınmasından ibarət olmuşdur.

Dollarlaşma səviyyəsinin sıfıra endirilməsinə cəhd göstərilməməlidir. Çünki dollarlaşma Azərbaycanın da qoşulduğu və faydalandığı qloballaşma prosesinin nəticələrindən biridir və milli iqtisadiyyatın açıqlıq dərəcəsinin gündən-günə yüksəldiyi şəraitdə dollarlaşma səviyyəsini sıfıra endirmək, praktiki olaraq, qeyri-mümkündür və ümumiyyətlə, məqsədəuyğun deyildir. Dollarlaşmanın yalnız müəyyən həddə qədər azaldılması qarşıya məqsəd kimi qoyulmalıdır [5, s.218].

Dollarlaşmanın səviyyəsi əsasən iki göstərici ilə ölçülür:

1. Mərkəzi Bank sistemində xarici valyuta ilə depozitlərin məcmu depozitlərdə xüsusi çəkisi.
2. Xarici valyuta ilə depozitlərin geniş mənada pul kütləsində xüsusi çəkisi.

Dollarlaşma ödəməmələr vasitəsilə monetar siyasətin transmissiya effektini zəiflədir:

♣ dollar aktivləri üzrə faiz dərəcələrinə Mərkəzi Bank təsir edə bilmir;

♣ iqtisadiyyatda natural mübadilə geniş olduğundan Mərkəzi Bankın nəzarətində olan real pul axınlarının miqyası kiçilir.

Ödənişlərin həyata keçirilməməsinin yaranmasında hipotezlər müxtəlif olsa da, ümumilikləri də vardır. Bunu daha çox işsizliyə və məşğulluğa nisbətən hökumətin ayrı-ayrı sahələrdə apardığı siyasət, pul çatışmazlığı, zəif büdcə məsuliyyətləri ilə bağlayırlar.

Problemə iki ümumi institusional aspektdə yanaşma mövcuddur:

♣ dövlət büdcə təşkilatlarının kommunal xərclərini ödəməməklə özü ödəməmələri təhrik edir;

♣ kapital ixracı ilə əlaqədar enerji sektorunda ödəməmələr iqtisadiyyatın digər sahələrinə də sirayət edir.

Dünya təcrübəsində satışın həcminin və debitor borcların təhlilinin empirik və statistik proqnozlaşdırma üsullarından istifadə edilir :

♣ Birinci üsulda maliyyəçilərin, istehsalat rəhbərlərinin təcrübə və biliklərindən istifadə etməklə, həm sadə üsulla, həm də tez satışın və debitor borcların, habelə borclarla əlaqədar pul axınının həcminə dair göstəricilər proqnozlaşdırılır. Proqnoza və qəbul edilmiş maliyyə smetasına görə vəzifə məsuliyyətinin olmaması bu üsulun əsas qüsurlu cəhəti sayılır.

♣ İkinci üsulda satışın və debitor borcların həcminin dəyişmə cəhətləri satışın artım göstəricilərini təhlil etmək yolu ilə müəyyən edilir. Bu üsul satışın həcmini və bununla əlaqədar debitor borclarının həcmini daha etibarlı proqnazlaşdırmağa imkan yaradır. Lakin bu üsulla alınan proqnozlaşdırmanın nəticələri bazar iqtisadiyyatına məxsus gözlənilməyən, xüsusilə, sahibkarlar tərəfindən idarə olunmayan hadisələrin təsiri altında dəyişilən məlumatlardan istifadə etməklə aparıldığına görə dəqiq olmur.

Proqnozlaşdırma əvvəlki dövrlərdə debitor borcların ödənilməsi müddətlərinin təhlili, yəni debitor borcların dövriyyə sürətinin təhlili ilə başlanır. Dövriyyə sürətinin və pul axınının azalması həm də debitor borcu məbləğinin artması ilə nəticələnir [6, s.13].

Tanınmış macar iqtisadçısı Yanoş Kornai dövriyyəyə buraxdığı "sərt büdcə məh-dudlaşdırmaları" adlanan termini ilə keçid iqtisadiyyatında yeni bir maliyyə intizamı prinsipi işləmişdir.

"Sərt büdcə məhdudlaşdırmaları" prinsipinə görə, hər bir təşkilat öz hesablarını və vergilərini vaxtında ödəməlidir. Əgər bu baş vermirsə, podratçılar onunla əlaqəni kəsir, icra orqanları isə vergi vermədiklərinə görə onu məsuliyyətə cəlb edirlər. Bu isə o deməkdir ki, oyun qaydaları dəyişmiş və yeni qaydalar, zamandan asılı olmayaraq, hamıya tətbiq edilir. Bu baxımdan, müflisləşən müəssisələrin işi çox mühüm problem olaraq önə çəkilir [3, s.62].

Ödənişlərin həyata keçirilməməsi probleminin qoyuluşunda da mütəxəssislər arasında fərq vardır. Q.Qrisenko və V.Stupinin fikrincə, məsələnin mahiyyəti iqtisadiyyatda tələb və təklifin qeyri-bərabərliyindədir. Yəni bu gün ödəməmələr müəssisələrin istehsal etdiyi məhsulların qiymətlərini real tələb səviyyəsindən yüksək təyin etdiyindən törəyir və ödənilməyən hissə tələb və təklif arasında tarazlıq yaradır. Müəlliflərin fikrincə, istehsalçının qiymətin əmələgəlməsinə təsiri cüzidir. Belə ki, mal-material alqısına təsir minimaldır və bu, bir çox hallarda ödəməmələr alətinin təzyiqi ilə kifayətlənir. Əməkhaqqı təsdiqlənmiş tariflərlə məhdudlaşır. Amortizasiya normaları sərt müəyyənləşdirilmiş olur. Mənfəət isə vergi orqanlarının orta bazar qiymətləri əsasında vergi bazasının tapılması və bundan aşağı qiymətlərin vergidən yayınma kimi qəbul edilməsi ilə məhdudlaşır. Bunun nəticəsi kimi çıxış yolu ödəmələrdə tapılır.

Ödənişlərin həyata keçirilməməsi probleminin həlli kimi tədqiqatçılar hökumətin iqtisadi siyasətində 3 variant təklif edir:

- ♣ real əmək haqqı və digər məsrəflərin azaldılması üçün inflyasiyadan istifadə;
- ♣ müflisləşmə yolu ilə məşğulluğun azalması;
- ♣ əmək haqqı, amortizasiya ödəmələri səviyyəsini tənzimləyən normativlərin ləğvi;

Belə olduqda ödəməmələr getdikcə özü ləğv olacaq. Borcların diskontlaşdırılması mexanizmindən istifadə edərək maliyyə strukturları kapitalı artıq kapitallı sahələrdən çatışmayan sahələrə müstəqil bölgü vasitəsilə ötürəcək. Nəticədə yüksək debitor borcları olan müəssisələrin istehsal gücü, məşğulluq və istehsalı azalaraq tələb səviyyəsinə düşəcək və pula ödəniləcək, ödəmə qabiliyyəti olan sahələrdə isə istehsal gücü artaraq istehlakçıdan pulun alınmasında çətinlik çəkənlərə pulla ödəməni artırmağa kömək edəcək.

## ƏDƏBİYYAT


1. Axundov M.Ə. Müəssisənin iqtisadiyyatı. Bakı, Azərnəşr, 2002, 460 s.
2. Şəkərəliyev A.Ş. Bazar iqtisadiyyatına keçid: Dövlətin iqtisadi siyasəti. Bakı, İqtisad Universiteti nəşriyyatı, 2002, 440 s.
3. Mışkin S.F. Maliyyə stabilliyi və makroiqtisadiyyat. İslandiya, 2002, 255 s.
4. Sadıqov M.M. Maliyyə potensialının formalaşmasında dövlətin borc siyasətinin istiqamətlərinin müəyyən edilməsi problemləri. Bakı, Azərnəşr, 2003, 332 s.
5. Karapınar F.A. və başqaları , Finansal analiz ve finansman yönetimi. İstanbul, Gazi Kitabevi 2009, 236 s.
6. Yavuz S.T. Ekonomik analiz. İstanbul, Gizem 2006, 247 s.


## ABSTRACT


**ZAUR ALIYEV**


**Macroeconomic analysis on the implementation of problems of payment process**


Improving the financial situation and ensuring the financial stability of enterprises in a market economy, as well as increasing solvency are necessary conditions for increasing their economic potential. At the same time, accounting for non-payments and macroeconomic analysis play a decisive role in the effective management of enterprises, institutions and organizations operating in all sectors of the country's economy.

As experience of economically developed countries shows, the scale of mutual relations between business entities and state bodies and the financial market is expanding, which further increases the need to strengthen control over correct and accurate accounting for more complicated calculations, behind their course.

Since the increase in incomes and property of economic entities operating in Azerbaijan is the main source of growth in the volume of state budget revenues, the problem arising in connection with the analysis of non-payments by factors attracts attention by its relevance.

This, it is necessary to improve the accounting and analysis of non-payments in modern conditions in accordance with the requirements of a market economy, eliminate tensions in calculations, reduce mutual debts, improve the financial situation of economic entities and develop an action plan in this area.

The relevance of the research topic is conditioned precisely in the context of the above problems.

## РЕЗЮМЕ

**Заур Алиев**

**Макроэкономический анализ реализации проблем платежного процесса**

Улучшение финансового положения и обеспечение финансовой стабильности предприятий в условиях рыночной экономики, а также повышение платежеспособности являются необходимыми условиями для повышения их экономического потенциала. Вместе с тем, учет неплатежей и макроэкономический анализ играют решающую роль в эффективном управлении предприятиями, учреждениями и организациями, функционирующими во всех отраслях экономики страны.

Как показывает опыт экономически развитых стран, масштаб взаимных связей между самими субъектами хозяйствования и государственными органами и финансовым рынком расширяется, что еще больше повышает потребность в усилении контроля за правильным и точным учетом усложняющихся расчетов, за их ходом.

Поскольку увеличение доходов и имуществ субъектов хозяйствования, действующих в Азербайджане, является основным источником роста объема доходов государственного бюджета, проблема, возникающая в связи с анализом неплатежей по факторам, привлекает внимание своей актуальностью. Таким образом, необходимы усовершенствование учета и анализа неплатежей в современных условиях в соответствии с требованиями рыночной экономики, устранение напряженности по расчетам, сокращение взаимных долгов, улучшение финансового положения субъектов хозяйствования и разработка плана мероприятий в этой сфере.

Актуальность темы исследования обусловлена именно в контексте вышеуказанных проблем.

NDU-nun Elmi Şurasının 30 mart 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 07).

Məqaləni çapa təqdim etdi: İqtisad üzrə elmlər doktoru, professor A.Rüstəmov

**OKTAY QASIMLI**

*Naxçıvan Dövlət Universiteti*

**UOT: 330.1**

# AZƏRBAYCANDA İNNOVASİYA LAYİHƏLƏRİNİN İDARƏOLUNMASINDA TƏTBİQ OLUNAN METODLARIN İSTİFADƏ PERSPEKTİVLƏRİ

***Açar sözlər:*** *innovasiya layihələri, inzibati normativ sərəncam metodları, x, y, z nəzəriyyələri, əmək ehtiyatları*

***Key words****: innovation projects, administrative normative dispose methodologicals, x,y,z theories, labor resources*

***Ключевые слова:*** *инновационные проекты, методы административных стандартых распоряжение, теории x,y,z, трудовые ресурсы*

İdarəetmədə hakimiyyətçilik, səciyyəvi təsir etməklə, subyektin idarəetmə obyektinə birbaşa təsir göstərən inzibati normativ sərəncam metodları vasitəsilə həyata keçirilir. Rəhbər işçilər və mütəxəssislərin fəaliyyəti, həmçinin, sərəncam metodlarına əsasən yerinə yetirilir. Onlar tərəfindən bütün idarəetmə funksiyaları, həmçinin, idarəetmənin inzibatı metodu əsasında icra edilə bilər.

Bu metod hakimiyyətçilik səlahiyyətinə malik olduğuna görə normativ sərəncam xarakteri daşıyır və onun yerinə yetirilməsi məcburidir. Burada qərarların yerinə yetirilməsi, maddi və başqa formada məsuliyyətə cəlb olunma və ya idarəetmə intizamının pozulması kimi qiymətləndirilir. Bunun üçün müvafiq tədbirlər verilir.

Normativ-sərəncam metodlarından dövlətin, cəmiyyətin qanunları, habelə sahibkara verilən səlahiyyət, hüquqa, əmək qanunvericiliyinə, nəzarət və nəzakət qaydalarına və başqa aktlara, qaydalara əsasən istifadə edilməlidir. Öz növbəsində, bu qanunları, qaydaları və aktları pozan sahibkarlar və mütəxəssislər də müəyyən cəza almalıdırlar. Beləliklə, normativ-sərəncam metodunun başlıca xüsusiyyətləri aşağıdakılardan ibarətdir:

a) idarə olunan obyektə birbaşa, bilavasitə təsiretmə qaydası;
b) idarəçilik prosesində üstünlük verilən müvafiq qərar və sərəncamların normativ qaydada göndərilməsi;
c) bu və ya digər situasiyanın eyni qaydalı həlli;
d) qərar və sərəncamların operativ işlənməsi və həyata keçirilməsi;
e) bu, rəhbər işçi, menecer, sahibkarın tabeçiliyində olan işçi, icraçıların iradəsinə müstəqil təsiretmə və həmin sahibkar, menecerlərin müəyyən nüfuza malik olmasına əsaslanır.

İdarəedən sistem daxili əlaqə və münasibətlərə təsir göstərmə, idarəetmə funksiyalarının bölüşdürülməsi, rəhbər işçilər və mütəxəssislər arasındakı əlaqə yaratmaq məqsədi güdürsə, onda xidməti münasibətlərə təsiretmə metodunun obyekti idarəedən və idarəolunan sistemlərin qarşılıqlı əlaqə forması və onların tənzim edilməsidir.

Normativ-sərəncam metodları iki təsir metoduna ayrılır. Birincisi, təşkilati təsir metodu, ikincisi, sərancam və təsir metodudur.

Təşkilati təsir metodu inzibati aktların köməyi ilə istehsal sahələrinin təsiri sistemi, onların idarəetmə orqanları, əməyin təşkili formaları yaradılır və təkmilləşdirilir. Burada təsir vasitələri hüquqi cəhətlər və məsuliyyət formaları, təşkilati tədbir obyektlərinə çevrilir. Təşkilati-təsir idarəetmənin bütün sistemlərinin fəaliyyətini fəallaşdırır. Hər iki təsir sistemlərinin tətbiq edilməsi istehsalın idarə edilməsinə ahəngdarlığı təmin edir, bütün sistemlərin, bölmələrin qarşılıqlı təsir qaydalarını, onun məqsədini nizamlaşdırır, yoluna qoyur.

Metodiki təlimatlar-İdarəetmə proseslərinin və əmək metodlarının yerinə yetirilməsi barədə göstəriş, məsləhət və tövsiyyələrin hazırlanması, həmçinin tabelikdə olan işçilərə çatdırılmasıdır. Məsləhət, tövsiyyə və göstəriş xarakteri daşıyan bu təlimatlar yerinə yetirilən proses və metodların tənzimedicisi vasitəsi olur.

İş təlimatları istehsal və idarəetmə prosesində hərəkətlərin, yaxud işin ardıcıllığını təmin edir. İşdə ardıcıllıq ahəngdarlıq yaradır, görüləcək işlərin səhvə yol vermədən yerinə yetirilməsini lazım bilir. Vəzifə təlimatlarında istehsalın təşkilində işçinin iştirakı, onun vəzifəsi, həmin vəzifəyə təyin edilmə qaydası, inzibati tabeçiliyi, bir sözlə, işçinin fəaliyyət qaydaları əks olunur. Vəzifə təlimatları idarəetmə fəaliyyətini qaydaya salmaqla böyük vasitəçilik rolunu oynayır. Belə ki, burada idarəedicinin məsuliyyəti, iş və idarəetmə vəzifələri, inzibati hüquqları, o cümlədən cəza və ya maddi, hətta mənəvi həvəsləndirmə tədbirləri müəyyən edilir.

İdarəetmənin təşkilati metodunun təsir formalarından biri də tənzimləmə təsiridir. Tənzimləmə təsiri təşkilati cəhətdən fəaliyyətin yerinə yetirilməsini təmin edir. Bu xüsusi ilə yeni bölmə, yarımbölmə, istehsal sahələri yaradarkən daha faydalıdır. Eyni zamanda əmək və istehsal kollektivlərinin fəaliyyətini təşkilati cəhətdən tənzim etmək bu təsir vasitəsi ilə həyata keçirilir.

Təşkilati təsir intizam təsirinin bütün intizam formalarını saxlamaq üçün tətbiq edilir. İntizam təsiri texnoloji, əmək intizamını tənzim edən aktdır.

İdarəetmədə təşkilati təsir bir neçə istiqamətdə ola bilər. İdarəedilən sistemə təşkilati təsirin birinci istiqaməti istehsalın texnoloji üsullarının, ünsürlərinin layihələndirilməsi və ona olan tələblərdir.

Burada istehsalın gedişinin müəyyən edilməsi, onun proseslərə, əməliyyatlara bölünməsi və onların yerinə yetirilməsini təmin etmək üçün texnoloji tələblərə uyğun hazırlanmasıdır. Texnoloji tələblərin, texnologiyanın tətbiqi üçün xüsusi təlimatlar, normativlər və ən vacibi texnoloji xəritələr tərtib olunur. Texnoloji və əməyin təşkilinin təlimat-texnoloji xəritələrinin tərtibi bir sıra tələblərin yerinə yetirilməsini təmin edir, xüsusi ilə əmək məsrəflərinə qənaəti təmin etməklə yanaşı yerli şəraitin, texnoloji tələblərin ödənilməsini nəzərdə tutur.

Təşkilati təsirin üçüncü istiqaməti tətbiq olunan texniki vasitələrə, texnologiyaya və işçi qüvvəsinə münasib olaraq əməyin, onun elmi təşkilinin düzgün layihələndirilməsidir. Burada əmək təşkilinin təkmilləşdirilməsi, xüsusilə əmək bölgüsü və əmək kooperasiyası, insan amili, onların arasında baş verən istehsal və sosial psixoloji əlaqə, həmçinin münasibətlərin təşkilati cəhətdən daha düzgün qurulmasını təmin etmək xüsusilə zəruridir.

Müasir inkişaf mərhələsində cəmiyyətin, bütövlükdə xalq təsərrüfatı sahələrində idarəetmənin sosial-psixoloji metodlarına getdikcə daha çox əhəmiyyət verilir. İdarəçilik fəaliyyəti çox mürəkkəb ictimai hadisə prosesidir. Bu hərtərəfli və hərcəhətli münasibətləri, prosesləri əhatə etdiyinə görə müxtəlif istiqamətdə və müxtəlif elmlər tərəfindən öyrənilir, izah olunur. Belə ki, iqtisadi, təşkilati, inzibati və s. məsələlərlə yanaşı fəaliyyətin psixoloji-emosional və mənəvi-estetik, etik tərəflərini bilmək son dərəcə vacibdir. Lakin idarəçilik fəaliyyəti sosial-psixoloji cəhətdən hələ lazımi səviyyədə öyrənilməmişdir. Halbuki, idarəçilik əməyi, hər bir rəhbər işçinin fəaliyyəti, birinci növbədə, adamlarda aparılan işdən ibarətdir. Hələ vaxtı ilə F. Engels göstərmişdir ki, adamların, şəxslərin idarə olunması sosioloji idarəetmənin başlıca formasıdır.

Sosial-psixoloji metodların mahiyyəti işçilərin əməyə maraqları və yaradıcılıq təşəbbüslərinin artırılması, müəssisənin təşkilati mədəniyyətinin yüksəldilməsi, işçi heyətinin təsərrüfat fəaliyyətinə və onun təşkilinə təsiri və başqa bu kimi aspektləri özündə birləşdirir: sosial-psixoloji metodlarda habelə tərbiyəvi motivlərin də payı vardır.

İdarəetmə əməyi və idarəetmə mədəniyyəti adamlara qarşı nəzakətli və işdə səriştəli olmağı tələb edir. Təcrübə göstərir ki, mədəni halda verilən göstəriş kobud formada veriləndən çox yaxşı nəticə verir. Amerika idarəetmə sistemi baxımından idarəetmə işçisi hətta yumor qabiliyyətinə malik olmalıdır. Təsadüfi deyil ki, bir çox inkişaf etmiş kapitalist ölkələrində işin keyfiyyətinin yaxşılaşdırılması üçün sosioloji-psixoloji amillərin öyrənilməsinə böyük əhəmiyyət verilir. Bununla əlaqədar olara «insan münasibətləri» doktrinası irəli sürülür. Məsələn, ABŞ-da 400-dən çox iri sənaye müəssisələrində xüsusi «sosioloji şöbə» yaradılmışdır. Bir çox ali məktəblərdə «insan münasibətləri» müstəqil bir fənn kimi keçirilir.

İdarəetmə, rəhbərlik psixologiyası metodlarını təsnifatına və xarakterinə görə bir neçə təsir metodlarına ayırmaq olar:

a) ictimai-siyası metod; b) siyası–tərbiyə metodu; c) ideya-tərbiyə metodu; d) sosial-psixoloji metod.

Ümumilikdə bu metodlar işçilərin əmək və yaradıcılıq fəallığını inkişaf etdirir, onlarda yeni insani, əxlaqi keyfiyyətlər, münasibətlər yaratmaq, sosial fəallığın yüksəldilməsi, əmək kollektivinin möhkəm münasibətləri, bu münasibətlərdəki ziddiyyətli halları, hadisələri aradan qaldırmaq vasitələrini göstərir və onlardan düzgün, səlis istifadə edilməsini qarşıya qoyur. Eyni zamanda psixoloji vəziyyətlərin seçilməsi əməyin humanizmliliyi, fərdi keyfiyyətlilik, özünə tələbkarlıq kimi psixoloji metodların köməyinə əsasən yerinə yetirilir.

Kollektivə təsiretmə üsulları da öz müxtəlifliyi seçilir. Ümumi şəkildə onları iki qrupa ayırırlar. Onlardan biri məcbur etmək, digəri isə həvəsləndirməkdir. Müasir idarəetmə üsullarının mahiyyətini xarici ölkələrin təcrübəsi əsasında açıqlamaq olar. Bu üsullar, MakQreqora görə X və Y nəzəriyyəsi kimi, Uilyam Ouçiyə görə Z nəzəriyyəsi kimi tanınır.

Duqlas MakQreqor öz tətqiqatlarında belə qənaətə gəlmişdir ki, avtokrat rəhbər öz işçiləri haqda bir cür, demokrat rəhbər isə başqa cür düşünür. Avtokrat rəhbərin öz işçisi haqda düşüncələrini Duqlas MakQreqor X nəzəriyyəsi, demokrat rəhbərin düşüncələrini isə Y nəzəriyyəsi adlandırmışdır.

Y nəzəriyyəsinə görə:

- orta səviyyə əməkdaşı üçün işə bağlı olmamaq, işdən qaçmaq xarakterik bir xüsusiyyətdir;

- işə bağlı olmadıqlarına görə bir çox işçilərə nəzarəti gücləndirmək, onları işləməyə məcbur etmək, cəzalandırmaq lazımdır ki, təşkilatın qarşıya qoyduğu məqsədlərə nail olmaq mümkün olsun;
- orta səviyyə əməkdaşı ona edilən nəzarətin güclü olmasını istəyir, məsuliyyətdən qaçmaq istəyir, nisbətən məsuliyyətsizdir, daim öz təhlükəsizliyini qorumağa meyllidir.

Y nəzəriyyəsinə görə:

- işdə əqli və fiziki fəaliyyət oyun və istirahət qədər təbiidir. Adi adam işə meylli olmamağa məcbur deyil, şəraitdən asılı olaraq iş ona həzz alma mənbəyinə də, cəza alma mənbəyinə də çevrilə bilər;
- xarici idarəetmə nəzarəti – işçilərin işə cəlb olunmalarında yeganə mənbəsi deyil. İşçilər son məqsədə çatmaq məqsədi ilə özlərinə nəzarət və özünüİdarə yolu ilə səmərəliliyə nail ola bilərlər;
- təşəbbüskar işçi üçün ən yüksək mükafat öz potensialının tam şəkildə göstərilməsidir. Özünün bacarığını göstərməklə işçi həm də təşkilatın məqsədinə də nail olur;
- orta səviyyəli əməkdaş tələb olunan şəraitdə məsuliyyət daşımaq hissini də öyrənir;
- bir çox işçilər təşkilatda gördükləri işdən də artıq işgörmə qabiliyyətinə malikdirlər;
- hazırki vaxtda orta işçinin malik olduğu imkanlardan tam istifadə olunmur.

Mak Qreqor xəbərdarlıq edirdi ki, inzibati idarəetmə rəhbərləri ilə xətti idarəetmə işçiləri arasında X nəzəriyyəsinin tələbləri baxımından hər zaman münaqişə yarana bilər. Y nəzəriyyəsində isə inzibati rəhbərlik aşağı mərhələ İdarəetmə işçilərinə hər zaman ixtisaslaşmış kömək etməyə çalışırlar.

Duqlas Makqreqorun X və Y nəzəriyyəsinə uyğun olaraq Ouçi öz nəzəriyyəsini «Z» nəzəriyyəsi adlandırmış və onu qərbə uyğunlaşdırmışdır. «Z» nəzəriyyəsi Makqreqorun «Y» nəzəriyyəsindən kənara çıxır, çünki Ouçi nəzəriyyəsini Yapon firmaların təcrübəsi əsasında yaratmışdır. Yapon mənşəli amerika professoru ABŞ və Yaponiya şirkətlərində rəhbərlik üsullarını təhlil edərək hər iki ölkəyə xas olan xüsusiyyətləri müəyyənləşdirmişdir. Tədqiqat nəticəsində o, Yapon cəmiyyətinin ümumi xüsusiyyətlərindən əmələ gələn özünəməxsus Yapon təşkilatçılıq mədəniyyətinin olduğunu müəyyənləşdirmişdir. Məhz bu təşkilatçılıq mədəniyyəti qərb təşkilatçılıq mədəniyyətindən fərqli olaraq, həmişə əmək məhsuldarlığının artmasını təmin edir.

İqtisadçı tədqiqatının nəticəsində Yapon rəhbərlik modelinin Amerikan rəhbərlik modelindən çox fərqləndiyi qənaətinə gəlmişdir. «Z» nəzəriyyəsi ABŞ və Yaponiyadakı nəzəriyyənin bir ortalamasıdır. A tipli təşkilat Amerika təşkilatı, B tipli təşkilat Yapon təşkilatıdır, «Z» tipli təşkilat isə hər ikisinin ortaq variantıdır.

Amerikanın «Z» tipli təşkilatlarında əməkdaşlar ömürlük olmasa da, uzun müddətə muzdla işləyirlər, işçilərin təhsillərinə xeyli vəsait sərf edilir və bununla da öz firmaları üçün xüsusi bir qaydalar yaradırlar. Lakin, bütün bunların müqabilində xidməti vəzifə pilləkənlərində əməkdaşlar Yaponiya firmalarında oldcuğu kimi yavaş-yavaş vəzifədə irəliləməyə üstünlük verirlər. İnnovativ İdarəetmə metodlarının tətbiqi çox vaxt müsbət nəticə versə də, bəzən ilkin şəraitdə «psixoloji baryer» deyilən xüsusiyyətlərə də malik olur. Müəllifin fikrincə, Ouçinin nəzəriyyəsini azərbaycan müəssisələrindəki vəziyyəti təhlil etmək üçün qəbul etsək, onda milli mentalitet və Qərb-Şərq arasında formalaşan təşkilati strukturun yarandığının şahidi olarıq (Cədvəl 1).

**Cədvəl 1. Müəssisədə təşkilati formaların təhlili**

**Cədvəl 1.**

**Müəssisədə təşkilati formaların təhlili**

| Yapon təşkilatı | Amerika təşkilatı | Azərbaycan təşkilatı |
|---|---|---|
| Ömürlük muzd | Qısamüddətli muzd | Ortamüddətli muzd |
| Yavaş-yavaş qiymətləndirmə və qulluq mövqeyində yüksəlmə | Sürətlə qiymətləndirilmə və qulluq mövqeyində yüksəlmə | Korrupsiya yolu ilə sürətlə qiymətləndirilmə və qulluq mövqeyində yüksəlmə |
| İxtisaslaşdırılmamış mənsəb | İxtisaslaşdırılmış mənsəb | İxtisaslaşdırılmış mənsəb |
| Aşkarlanmayan nəzarət mexanizmi | Aşkarlanmış nəzarət mexanizmi | Aşkarlanmayan nəzarət mexanizmi |
| Qərarların kollektiv qəbulu | Qərarların fərdi qəbulu | Qərarların fərdi qəbulu |
| Kollektiv məsuliyyət | Fərdi məsuliyyət | Fərdi məsuliyyət |
| Ümumiləşmiş münasibətlər | Fərdi münasibətlər | Fərdi münasibətlər |

Müəssisələrdə İnnovativ metodları tətbiq edərkən yenilikçi təşəbbüslərə müşahidə olunan neqativ yanaşmalar müxtəlif aspektlərdə çıxış edə bilərlər. Məsələn, bir sıra müəssisələrdə əmək normalarının keyfiyyətsiz olması və süni tətbiqi müşahidə oluna bilər. Bu normaların hesablanmasında texnoloji inkişafın tətbiqi və normaları yerinə yetirən işçilərin ixtisas, bilik, əmək vərdişləri deyil, həmin normaların daha

məhsuldar işçilərə uyğun hesablanması, xüsusilə Avropa standartlarına deyil, işçi qüvvəsi ucuz olan «üçüncü dünya» standartlarına uyğun hesablanması adi hal kimi götürülür.

Sosial nəzarət psixoloji baryerin aradan qaldırılması, işçilər arasında «ailə münasibətləri»nin formalaşmasında mühüm rol oynayır. Təşkilatlarda tətbiq olunan sosial nəzarət işi yuxarıda göstərilən tələbləri təmin etməklə yanaşı prinsipiallıq, işgüzarlılıq, aşkarlıq şəraitində icra edilməlidir, hüquqi dövlətin hamı qarşısında qoyduğu qayda-qanun və prinsiplər əsasında idarəetmə və sosial nəzarələri yerinə yetirməlidir. Nöqsanlarla barışmaz mübarizə aparılmalı, burada ictimai rəy formalaşmalı; ictimai nümayəndələrinin iştirakı təmin edilməsi; nəzarətin təsirlik, konkretlilik, səmimilik, aşkarlıq, həqiqilik kimi vasitələrindən geniş istifadə edilməlidir. Bu tələblərə əməl olunması nəzarətin səmərəliliyini, habelə ona inamı artırar; ətrafdakıları, ictimaiyyəti fəallaşdırar, nöqsanların bir daha təkrar olunmasına yol verməz.

İşçilərin sosial və tərbiyə fəallığının yüksəldilməsində əsas metodlardan biri rəqabət və yarışın təşkilidir. Bu metod vasitəsilə cəmiyyətin ictimai sosial və tərbiyə işinə, həmçinin hər bir kollektivin mənəvi mühitinə, baxışına, sahibkarlıq təşəbbüsünə və yaradıcılığına əsaslı təsir göstərmək olar. Yarış kollektivin böyük tərbiyə məktəbidir, rəqabət zamanı işçilər özlərinin bütün keyfiyyətlərini göstərə bilirlər. Rəqabət cəmiyyətin İqtisadi-mənəvi quruculuq metodudur, adamların ictimai istehsalın idarəetməsinə cəlb etmək formasıdır. Lakin bir sıra təşkilatlarda əmək yarışının təşkili, qiymətləndirilməsi, qabaqcıl təcrübəsinin öyrənilmə və yayılma məsələləri lazımi səviyyədə qurulmur. Ona görə də yarışın təşkili prinsipləri, qəbul edilmiş öhdəliklər və planlar bəzən pozulur, daha doğrusu yerinə yetirilmir, yaxud qəbul edilmiş öhdəliklər və tapşırıqlar yarış iştirakçılarının adi istehsal vəzifələri olur, gərgin rəqabətin həyata keçirilmə metoduna çevrilir.

Rəqabət işçilər arasında yaradıcılığın inkişaf etdirmə vasitəsinə çevrilməsi zamanı işgüzarlıq, konkretlilik və tələbkarlığa geniş meydan açılmalıdır.

Əmək kollektivinin təşəkkül tapmasına təsir edən metodlara tənqid və özünütənqid, şəxsi nümunə, şəxsi nüfuz, təşviqat və təbliğat, idarəetmənin sosial və psixoloji təsir metodları aiddir ki, ümumilikdə onlar təşkilati mədəniyyəti yaradırlar.

Azərbaycan Respublikasının suveren dirçəlişi və bazar münasibətləri şəraitində ölkə iqtisadiyyatının qarşısında duran ən mühüm vəzifələrdən təxirə salınmazı mikroiqtisadi səviyyədə menecmentin nəzəri və metodoloji problemlərini işləyib hazırlamaq və həyata keçirməkdir. Buna nail olmaq üçün bazar iqtisadiyyatlı ölkələrin mövcud təcrübəsindən bəhrələnərək, menecmentin mütərəqqi forma və metodlarını istehsalata geniş tətbiq etməklə onun iqtisadi mexanizmini müxtəlif idarəetmə səviyyələrində təkmilləşdirmək lazımdır.

## ƏDƏBİYYAT


1. Axundov M.Ə. Müəssisə iqtisadı. Bakı, 2002
2. Abdullayev Z. İstehsala xidmət və onun İdarə edilməsi. Bakı, 2000
3. Əliyev Q. N. Biznesin İdarəedilməsinin əsasları. Bakı, 1994
4. Əliyev F.V. Investisiya layihələrinin təhlili və dəyərləndirilməsi. Bakı, 2000
5. Şahbazov K.A. və L. Müasir menecment. Bakı, 1994
6. Quluyev T.Ə. Menecmentin (İdarəetmənin) əsasları. Bakı, 2001


## ABSTRACT


**O.Gasilmli**


**Perspectives of using the applicable methods for administration of innovation projects in Azerbaijan**


Innovation bussiness is the discipline of managing processes in innovation. It can be used to develop both product and organizational innovation. Without proper processes, it is not possible for R&D to be efficient; innovation management includes a set of tools that allow managers and engineers to cooperate with a common understanding of goals and processes. The focus of innovation management is to allow the organization to respond to an external or internal opportunity, and use its creative efforts to introduce new ideas, processes or products. Importantly, innovation management is not relegated to R&D; it involves workers at every level in contributing creatively to a company's development, manufacturing, and marketing. By utilizing appropriate innovation management tools, management can trigger and deploy the creative juices of the whole work force towards the continuous development of a company. The process can be viewed as an evolutionary integration of organization, technology and market by iterating series of activities: search, select, implement and capture.

Innovation processes can either be pushed or pulled through development. A pushed process is based on existing or newly invented technology, that the organization has access to, and tries to find profitable applications to use this technology. A pulled process tries to find areas where customers needs are not met,

and then focus development efforts to find solutions to those needs. To succeed with either method, an understanding of both the market and the technical problems are needed.


## РЕЗЮМЕ

**О. Гасымлы**

**Перспективы использования применимых методов администрирования инновационных проектов в Азербайджане**

Повышенное внимание к инновациям и инновационному управлению продиктовано самой жизнью современного общества, ведь воплощение инновационных процессов в новых продуктах и новой технике являются основой его социально-экономического развития.

Инновационный бизнес представляет собой подготовку и осуществление инновационных изменений и состоит из взаимосвязанных фаз, образующих единое целое. В результате этого процесса появляется реализованное изменение –инновация.

Инновационный бизнес  чрезвычайно сложно. Для анализа закономерностей развития инновационных процессов, необходимы специалисты – инновационные менеджеры, которые занимаются различными организационно-экономическими аспектами нововведений. Их главная задача в управлении инновациями – продвижение инновационного процесса, прогнозирование возможных препятствий и определение путей их преодоления.

Инновационные менеджеры могут действовать в различных организационных структурах (академиях наук, вузах, научных обществах, исследовательских организациях, конструкторских бюро, инжиниринговых компаниях и др.), создавая творческие коллективы, занимаясь поиском и распространением новшенств, формированием портфеля заказов на научные исследования и разработки. Они управляют научными коллективами, координируют научные исследования.



NDU-nun Elmi Şurasının 30 mart 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 07).

Məqaləni çapa təqdim etdi: İqtisad üzrə elmlər doktoru, professor A.Rüstəmov

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2017, № 2 (83)**

NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2017, № 2 (83)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2017, № 2 (83)**

**İLKİN DÜNYAMALİYEV**
*Naxçıvan Dövlət Universiteti*
*i_dunyamali@mail.ru*

**UOT: 339.9**

# AZƏRBAYCANDA BEYNƏLXALQ YARMARKALARIN TƏŞKİLİ PROBLEMLƏRİ VƏ GƏLƏCƏK PERSPEKTİVLƏRİ

***Açar sözlər:*** *beynəlxalq yarmarkalar, beynəlxalq sərgilər, Azərbaycan beynəlxalq ticarət sərgisi, ticarət-sənaye palatası*

***Key words:*** *International fairs, international exhibitions, Azerbaijan International Trade Fair, Chamber of Commerce*

***Ключевые слова:*** *международные ярмарки, международные выставки,международные торговые выставки Азербайджана,торгово-промышленные палаты*

Keçmiş SSRİ iqtisadi məkanından Azərbaycana miras qalmış “ölü” iqtisadiyyatı dirçəltmək hazırda Azərbaycan dövlətinin ən öndə gedən məsələlərindəndir. Bu qısa vaxt intervalında həll oluna bilən məsələ olmayıb, çox çətin və uzun sürən bir prosesdir. Müasir şəraitdə – beynəlmiləlləşmiş iqtisadiyyatın bütün sahələrində “kök saldığı” bir vaxtda xarici iqtisadi əlaqələrsiz mövcud olmaq qeyri-mümkündür. Bildiyimiz kimi iqtisadi əməkdaşlığın müxtəlif formaları vardır. Bu əlaqələrin qurulması təməli kimi sərgi və yarmarkaların rolu çox böyükdür. Azərbaycan Respublikasında da 1990-cı ildən başlayaraq keçirilən Beynəlxalq və regional xarakterli sərgi və yarmarkalar iqtisadiyyatın dirçəlməsinə, müasirləşməsinə, investitisiyaların cəlb olunmasına güclü təsir göstərmişdir. Bu sərgi və yarmarkalara aşağıdakıları göstərə bilərik.

1990-cı ilin oktyabr ayında Bakıda keçirilmiş I Beynəlxalq Biznes konqresi respublikamızın xarici ölkələrlə qarşılıqlı surətdə faydalı iqtisadi əlaqələrini genişləndirmək, Azərbaycanın dünya iqtisadi birliyinə layiqincə qoşulmasını tə’min etmək məqsədləri daşıyırdı. Konqresdə 40-dan çox ölkənin 500-dən artıq firma və şirkətlərinin nümayəndələri iştirak edirlər. Konqres zamanı dünya biznesmenlərinin çoxsaylı görüşləri, danışıqları, sərgilər, auksionlar keçirilmiş əməkdaşlıq haqqında sənədlər imzalanmışdır.

Konqreslə əlaqədar bir sıra sərgilər, məsələn, respublikanın istehsal və elmi müəssələrinin nailiyyətlərinin sərgisi, kənd təsərrüfatı məhsullarının satış sərgisi, Azərbaycan rəssamlarının sərgi-auksionu keçirilmişdir.

Dünya ölkələri ilə və ilk növbədə qonşu dövlətlərlə möhkəm əlaqələr və qarşılıqlı surətdə faydalı uzunmüddətli əməkdaşlıq olmadan planetimizin xalqları ailəsində lazımi yer tutmaq mümkün deyildir. Cəmiyyətimizin bütün həyat sahələrinin yeniləşdirilməsi, demokratikləşdirilmə prosesinin dərinləşməsi Azərbaycan Respublikası ilə digər dövlətlər arsında əlaqələri inkişaf etdirməyə və möhkəmləndirməyə kömək göstərir.

Bakı Biznes konqresindən bir az sonra Bakıda İran İslam respublikasının Şərqi Azərbaycan vilayətlərində istehsal olunan malların sərgisi keçirilmişdir. Birbaşa əlaqələrin üstünlüyü 12-21 noyabr tarixində keçirilmiş sərginin səciyyəvi xarakteri idi. Sərginin təşkilatçıları üçün ilk növbədə işguzar əlaqələr yaratmaqməqsədilə potensial ortaqlarla görüşlər mühüm əhəmiyyət kəsb edirdi. İran sahibkarları isə Bakıya uzunmüddətli əlaqələr yaratmaq arzusu ilə gəlmişdilər. Sərgidə əsasən Təbriz firmalarında istehsal edilən və Azərbaycan üçün maraqlı ola bilən rəqabət qabiliyyətli mallar, o cümlədən yüngül və ağır sənaye, kimya və maşınqayırma sənayesi məhsulları, kənd təsərrüfatı texnikası, neft və elektrotexnika avadanlığı, ərzaq məhsulları və bir çox başqa məmulatlar nümayiş etdirilmişdir.

Ümumiyyətlə son illərdə Azərbaycanda müntəzəm sərgilərin təşkil olunması təbii hal almışdır. Belə sərgilərdən 1994-cü ilin 28-28 mayında respublika paytaxtında açılmış Xəzərdə neft-qaz hasilatına dair I Beynəlxalq sərgini göstərmək olar. Sərginin təşkilatçıları Böyük Britaniyanın «Spiahed Ekzibişnz LTD» şirkəti və Azərbaycan Ticarət sənaye palatası idi. Sərgidə neft hasilatı və neft-mədən avadanlığı istehsalı ilə məşğul olan 150-dək şirkət, o cümlədən, Azərbaycan şirkətləri iştirak edirdilər.

1995-ci il mayın 23-də Bakıda açılan «Xəzərneft-qaz 95» II Beynəlxalq sərgi-konfransda müxtəlif ölkələrin neft sənayesi sahəsində uğurları və nailiyyətləri təqdim olunmuşdur. Bir dəfə də sərginin təşkilatçıları Britaniyanın «Spiahed Ekzibişnz LTD» şirkəti və Azərbaycannın Ticarət-sənaye-palatası olmuşdur. Bakı idman sərgi kompleksində təşkil olunmuş bu sərgidə dünyanın 20 ölkəsinin, o cümlədən, Azərbaycanın neft və qaz hasilatı ilə, neft avadanlığı istehsalı və sərgi xidməti ilə məşğul olan 165 şirkət və firması iştirak etmişlər.

1995-ci il 20 sentyabrda Bakıda daha bir sərgi «hər şey insan üçün» mövzusunda I Azərbaycan beynəlxalq ticarət sərgisi açılmışdır. Sərginin təşkilatçıları Britaniyanın «İnterneyşnl Treyd ənd Ekzibişnz LTD» firması və Azərbaycan Ticarət-sənaye palatası idi.

Sərgidə 18 ölkənin 80 şirkəti və firması iştirak etmişdir. Bunlardan «Simens», «Samsunq», «Nestle», «Boş» və digər iri və bütün dünyada tanınmış şirkətlər sərgidə geniş çeşiddə məişət texnikası, istehlakmalları və s. nümayiş etdirmişlər.

«Bakmil», «Sənayecihaz», «Azərxalqa» müəssələrinin, «Xalq üçün mallar» konserninin məmulatları respublikanın kənd təsərrüfatı məhsulları da sərgidə geniş təmsil olunmuşdular.

3 sentyabr 1996-cı ildə keçirilmiş II Azərbaycan beynəlxalq ticarət sərgisində 25 ölkənin 100-dən çox şirkəti iştirak etmişdir.

1996-cı il 4 iyunda açılan «Xəzər neftqaz 96» III Beynəlxalq sərgisində 20 ölkənin 50-dən çox şirkəti iştirak etmişdir. Sərgidə neft və qaz istehsalı sahəsində nailliyyətlər nümayiş etdirilmişdir.

1997-ci il aprelin 29-da Bakının idman-sərgi kompleksində daha bir sərgi «Dubai-Ekspo-Bakı» sərgisi açılmışdır. Sərgi Dubay hökümətinin turizm və kommersiya marketinqi departamenti və Azərbaycan Ticarət-sənaye palatası tərəfindən təşkil olunmuşdur. Sərginin təşkilində əsas məqsəd Azərbaycan ilə Dubay arasında ikitərəfli əlaqələrin genişlənməsi ilə yanaşı birgə istehsalın təşkilində sərmayələr cəlb olunması idi. Sərgidə geniş çeşidli mallar: o cümlədən məişət texnikası, kompüterlər, telekommunikasiya avadanlığı, tibb preparatları, xalq istehlakı malları, kimyəvi maddələr avtomaşılar üçün ehtiyyat hissələri ofis avadanlığı nümayiş etdirilmişdir. Sərgidəki bir çox mallar bütün dünyada məşhur olan ticarət markalarını daşıyırdı. Çünki bu məmulatları nümayiş etdirən Dubay şirkətləri bir sıra məşhur beynəlxalq korporasiya və firmalar məsələn: «Ci-Bi-Si", «Şarp», «DEU», «Brezers», «Nina», «Hitaçi», «Akay» və başqalarının törəmə müəssələridir. Məhz buna görə də sərgi «Dünyada hər şeyin əlası» devizi ilə keçirilirdi. Sərgi aprelin 2-nə kimi fəaliyyət göstərmişdir.

Azərbaycanda neft istehsalı sahəsində sərgilərin təşkili geniş vüsət almışdır. 1997-ci il iyunun 3-dən 6-na kimi IV beynəlxalq «Xəzərneftqaz 97» sərgi və konfransı fəaliyyət göstərilmişdir. Sərginin təşkilatçıları Böyük Britaniyanın «Spiahed Ekzibişnz LTD» və Azərbaycan Ticarət-sənaye-palatası idi. Burada ölkələrin geniş təmsil olunması bu tədbirin dünya neft-qaz sahəsində mühüm hadisə olduğuna sübutdur. Sərgidə ABŞ-ın «Amoko», «Eksson» Fransanın «Elf Akiten», «Total» İtaliyanın «Eni», Almaniyanın «Demineks»,«Simens» Rusiyanın «Luk-oyl» Böyük Britaniyanın «BP», «Statoyl» ABŞ-ın «Mobil», Norveçin «Pi-Ci-ES Tayqress» geofizika şirkəti Azərbaycandan «Azərbaycan Elektronikası» (AZEL) «Azneftkimyamaş» Dövlət şirkəti iştirak etmişdir.

Sentyabrın 3-dən 6-na kimi Bakıda idman və sərgi kompleksində III Azərbaycan Beynəlxalq Ticarət sərgisi fəaliyyət göstərmişdir. Sərginin təşkilatçıları Azərbaycan-Ticarət-sənaye palatası və Böyük Britaniyanın «İnterneyşnl Treyd Ekzibişnz» şirkəti, sponsorları Kanadanın «Komputeke», Amerikanın «Pepsi- kola» şirkətiləri və «Azərbaycan hava yolları» Dövlət konserni olmuşdur. Sərgidə ərzaq məhsulları, istehlak malları, kompüterlər, telekommunikasiya avadanlığı və tikinti materialları nümayiş etdirilir. Sərginin keçirilməsində məqsəd Azərbaycan respublikası ilə xarici ölkələr arsında ticarət iqtisadi əlaqələrin genişləndirmək, respublikamıza xarici sərmayələri və qabaqcıl texnologiyanı cəlb etmək və bunun əsasında ölkəmizdə yüksək keyfiyyətli malların istehsalına nail olmaqdır. Başlıca məqsəd isə Azərbaycanı yüksək inkişaf etmiş dünya iqtisadiyyatına tam bağlanmış bir ölkəyə çevirməkdir. Sərgidə 20 ölkənin 80-dən artıq şirkəti iştirak etmiş və onların arasında xarici şirkətlərlə rəqabət apara biləcək yerli istehsalçılar da olmuşdur.

Göstərilən sərgilərdən başqa Azərbaycanda 1997-ci ildə 14-18 may tarixində, «FUARçılıq» şirkəti və Ticarət-sənaye palatası təşkilatçısı ilə «Türkiyə istehlak malları sərgisi» 14-17 iyun tarixində Böyük Britaniyanın «Spiahed Ekzibişnz LTD» və Ticarət-sənaye palatasının təşkilatçısı ilə kənd təsərrüfatı sərgisi 25 iyun-10 iyul tarixində Dubay şirkətlərinin sərgisi 20-24 oktyabr tarixidə I Beynəlxalq «infrasturuktura» sərgiləri keçirilmişdir. Bu cür sərgilərin Azərbaycanda keçirilməsi respublikamızın nüfuzu şirkətlər tərəfindən «əlverişli iqtisadi məkan» kimi tanınmasına müsbət tə'sir göstərməklə xarici sərmayədarların cəlb olunmasına güclü təsir edir. Xarici ekspertlərin fikrincə bir neçə ildən sonra Bakı Beynəlxalq sərgisi hər il Şotlandiyada keçirilən dünyada ən böyük «Avropa sərgisi» səviyyəsinə çatacaqdır.

Hər il “Iteca Caspian” şirkəti tərəfindən Azərbaycanda təşkil olunan beynəlxalq sərgilər mövsümü bu ilin aprel ayında start götürəcək. 2017-ci ildə “Iteca Caspian” şirkəti 16 sərgi və 1 konfrans keçirməyi planlaşdırır.

Sərgilər dövlət sənaye strukturlarının dəstəyi ilə Bakı Ekspo Mərkəzində keçiriləcək. Hazırda 2017-ci il sərgilərinin potensial iştirakçıları ilə aktiv işlər aparılır. Sərgi mövsümü aprelin 6-da 16-cı Azərbaycan Beynəlxalq Turizm və Səyahətlər “AITF 2017” və 11-ci Qafqaz Beynəlxalq Mehmanxana, Restoran və Supermarketlər üçün Avadanlıq və Ləvazimatlar “Horex Caucasus 2017” sərgiləri ilə işinə başlayacaq. “AITF” sərgisi çoxlu sayda turizm istiqamətlərini, hava yollarını, otel şəbəkələrini və digər turizm xidmətlərini təqdim edəcək. İştirakçılar arasında Azərbaycan, İtaliya, İsveçrə və digər ölkələrdən şirkətlər var. Ənənəvi olaraq, sərgidə milli və regional stendlər də təmsil edilir. Belarus, Bolqarıstan, Çexiya, Dominikan, Gürcüstan, Mərakeş və Tailand sərgidə milli stendləri ilə iştirak edəcəklərini təsdiqləyib. Sloveniya və Stavropol regionu isə sərgidə regional stendlərlə çıxış edəcək. Hər il sərgiyə yeni iştirakçılar qoşulur və bu il ilk dəfə olaraq Kolumbiya və Kuba sərgidə öz turizm imkanlarını təqdim edəcək.

Bu il “Horex Caucasus 2017” sərgisində tekstil məmulatları, uniformalar, və mükəmməl gigiyena məhsulları ilə yanaşı, mehmanxana və restoranlar üçün mətbəx ləvazimatları da nümayiş etdiriləcək.

Aprelin 26-28-də Bakı Ekspo Mərkəzində 16-cı Xəzər Beynəlxalq Nəqliyyat, Tranzit və Logistika “Transcaspian/Translogistica”, 7-ci Xəzər Beynəlxalq Yol İnfrastrukturu və İctimai Nəqliyyat “Road & Traffic” və 4-cü Xəzər Beynəlxalq Kater və Yaxtalar “CIBS 2017” sərgiləri keçiriləcək.

Mayın 17-dən 19-a kimi keçiriləcək 23-cü Azərbaycan Beynəlxalq Qida Sənayesi “WorldFood Azerbaijan 2017” və Xəzər Beynəlxalq Qablaşdırma, Tara, Etiket və Poliqrafiya “Ipack CASPIAN” sərgilərinin iştirakçıları tərəfindən həm yerli, həm də xarici istehsalçı şirkətlərin çoxlu sayda məhsulları nümayiş etdiriləcək.

Ənənəvi olaraq, bu il sərgilərin yaz mövsümü regionun ən böyük sənaye sərgisi 24-cü Beynəlxalq Xəzər Neft və Qaz “Caspian Oil & Gas” (31 may - 3 iyun), “JW Marriott Absheron Baku” otelində keçiriləcək 24-cü Beynəlxalq Xəzər Neft və Qaz Konfransı “Caspian Oil & Gas Conference” (1-2 iyun) və 7-ci Xəzər Beynəlxalq Energetika və Alternativ Enerji “Caspian Power 2017” sərgiləri ilə yekunlaşacaq.

Qısa yay fasiləsindən sonra cari ilin sentyabr ayında payız mövsümü öz işinə başlayacaq və bura “BIHE”, “Stomatology Azerbaijan”, “Beauty Azerbaijan”, “WorldBuild Baku”, “Aquatherm Baku” “Securika Caspian”. Iki sərgi – Beynəlxalq İstilİk, Havalandırma və Kondisiyalaşdırma sistemləri, Su təchizatı, Sanitariya, Ətraf Mühitin Mühafizəsi Texnologiyaları, Üzgüçülük Hovuzu və Bərpa Olunan Enerji “Aquatherm Baku” və Xəzər Beynəlxalq Mühafizə, Təhlükəsizlik və Xilasetmə Vasitələri “Securika Caspian” sərgiləri daxildir.

## ƏDƏBİYYAT


1. Məhərrəmov A.M., "İqtisadi diplomatiya" Bakı, 2009, 252 s.
2. Bədəlov Ə.M., Ağayev A.M., "Dünya iqtisadiyyatı" Bakı, 2006, 350s.
3. Həsənov Əli "Azərbaycanın beynəlxalq münasibətlər sistemində yeri və rolu" Bakı, 2005, 300s.
4. Məhərrəmov A.M. «İqtisadi diplomatiya». Dərslik Bakı, 2014, 275s.
5. Kərimli İ.A.Beynəlxalq iqtisadi münasibətlərin müasir problemləri. Bakı:Çaşıoğlu, 2006, 400 s.
6. https://report.az/turizm-ve-sergiler/azerbaycanda-teskil-olunan-beynelxalq-sergiler


## ABSTRACT


**Ilkin Dunyamaliyev**

**Problems and future prospects in organizing of international fairs in Azerbaijan**

The article is on the topic of the international fairs, international exhibitions organized in Azerbaijan and their role in enhancing the prestige of the country, organizing the sale at the international level of the locally manifactured goods, and the country's economic growth prospects.

In Azerbaijan as in the World Countries, the parisipation of the international fairs and exhibitions is important to bring the locally produced goods and sell them in the international level. Also there especially indicated the fact that bringing the oil refined inside the country and manifactured oil products to the world market is mainly implemented by the efforts of the international exhibitions.

In addition, the article speaks about the expansion of economic relations of our country with foreign countries through the holding of the international conventions and joining adequately the world economic community. Besides, the nuances of conducting of the International exhibitions and the sale of world’s huge companies products within the country raises the profile of the country are diccussed.

Another highlight of conducting the international exhibitions in Azerbaijan with foreign countries and the expansion of bilateral economic relations in order to attract the investments for co-production was overviewed.


## РЕЗЮМЕ


**Илькин Дунямалиев**

**Проблемы и будущие перспективы организации международных ярмарокв Азербайджане**

В статье говорится о будущих перспективах повышения престижа страны организацией международных ярмарок, международных выставок, вынесения на продажу продукции производимой в стране на международном уровне, повышения экономики страны.

Как и во всех странах мира для претворения в жизнь продажи продукции страны на международном уровне большое значение имеют международные ярмарки и выставки. Отмечено, что в основном вывод на мировой рынок переработанной нефти и производимой в стране нефтяной продукции явилось результатом международных выставок.

Кроме того в статье говорится и о проведении международных конгрессов, расширении экономических связей республики с иностранными странами и присоединении достойным образом к мировому экономическому единству. Также обсуждаются вопросы о проводимых в республике международных выставках, о претворяемых в жизнь продажах продукции крупных фирм известных в мире, о повышении престижа страны.

Обращено внимание на то, что проведение международных выставок оказало влияние на расширение двусторонних экономических связей Азербайджана с иностранными государствами и привлечению инвестиций для совместной организации производства



NDU-nun Elmi Şurasının 30 mart 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 07).

Məqaləni çapa təqdim etdi: İqtisad üzrə elmlər doktoru, professor A.Rüstəmov

**ŞAHİN ƏLİYEV**
*Naxçıvan Dövlət Universiteti*

**UOT:330.1**

# DƏMİRYOL NƏQLİYYATININ TARİXİ İNKİŞAF PRİNSİPLƏRİ

*Hər bir dövlətin iqtisadi potensialı,gücü və qüdrəti həm də onun malik olduğu nəqliyyat sektorunun inkişaf səviyyəsi ilə ölçülür.*

**İLHAM ƏLİYEV**
*Azərbaycan Respublikasının Prezidenti*

***Açar sözlər:*** *nəqliyyat, dəmir yolu, sərnişin, iqtisadiyyat, inkişaf*
***Key words:*** *Transport, railway, passenger, economy, development*
***Ключевые слова:*** *транспорт, железные дороги, пассажир, экономика, развития*

Nəqliyyat sektoru dedikdə hər bir ölkə daxilində fəaliyyət göstərən nəqliyyat sahələrinin qarşılıqlı fəaliyyəti nəzərdə tutulur. Nəqliyyatın inkişaf etdirilməsi müasir şəraitdə dünya ölkələrinin qarşısında duran vacib problemlərdən biri hesab edilir. Nəqliyyat yük və sərnişin daşımalarında, təsərrüfatın idarə olunmasında, habelə insanların həyat fəaliyyətində mövcud şəraiti yaxşılaşdıran sahələrarası sistemdir. Nəqliyyatın davamlı inkişafı iqtisadi sahədə bütövlüyün, mal və xidmətlərin sərbəst mübadiləsinin, iqtisadi fəaliyyətdə sərbəstliyin, rəqabətin və əhalinin həyat şəraitinin yüksəlməsinin təminatıdır. Əlverişli nəqliyyat sahələrinin inkişafı ölkələrin iqtisadiyyatına müsbət təsir etməklə yanaşı, yeraltı və yerüstü təbii resursların istehsal dövriyyəsinə cəlb olunmasına geniş imkanlar açır. Azərbaycan Respubliklasının əlverişli nəqliyyat sisteminə malik olması və dünya iqtisadiyyatına inteqrasiya olunması üçün zəngin təbii resursların olması mühüm əhəmiyyət kəsb edir. Müasir dövrdə nəqliyyat Azərbaycanın iqtisadi infrastruktrunun əsas tərkib hissəsinə çevrilmişdir. Onu qeyd edək ki, Azərbaycanın nəqliyyat sektoruna tarixən neft sənayesinin inkişafı ilə əlaqəli olaraq dəmir yolu başqa nəqliyyat sahələrinə nisbətən daha tez daxil edilmişdir.

İlk əvvəllər əsas neftçıxarma rayonlarından (Sabunçu, Suraxanı, Balaxanı) neftin Bakı neftayırma zavodlarına və Xəzər dənizi vasitəsilə Rusiyanın mərkəzi rayonlarına daşınması olduqca primitiv üsulla, karvan üsulu ilə, ağac çənlərdə və tuluqlarda icra edilirdi ki,onların da sayı 10 minə çatırdı. Belə bir üsul olduqca baha başa gəlirdi və neft işinin gələcək inkişafına ciddi maneə, əngəl yaradırdı. Bakının neft sənayeçiləri daha çox gəlir götürmək üçün dəmir yolu xətlərinin və boru kəmərlərinin çəkilməsində olduqca maraqlı idilər. Beləliklə, mübaliğəsiz demək olar ki, Bakıda və Azərbaycanda dəmir yolunun çəkilməsinin əsl səbəbkarı Bakı nefti və onun sənaye emalı məsələsi olmuşdur. Belə ki, neft sahibkarlarının mədənlərlə neftayırma zavodları arasında dəmir yolunun çəkilməsi haqqında dəfələrlə Nazirlər Komitəsinə müraciətlər etmişdilər. Nəhayət ki, onların təkidli tələbləri öz bəhrəsini verir. Nazirlər Komitəsinin çar II Aleksandrın iştirakı ilə 1878-ci il iyunun 16-da keçirilən iclasında neft sahəsində dəmir yolunun tikintisi layihəsi təsdiq olunur. 25, 2 verst uzunluğunda olan dəmir yolunun çəkilməsi isə "Poti-Tiflis" dəmir yolu cəmiyyətinə həvalə edilir. Cəmiyyət bir il altı ay ərzində xətlərin inşa edilməsini üzərinə götürür. Tikintiyə rəhbərlik mühəndis Krubetsə tapşırılır. Az bir vaxtda Bakıya tikinti üçün lazım olan materiallar və avadanlıqlar göndərilir. 1878-ci ilin dekabr ayında Krubetsin şəhər rəhbərliyinə göndərdiyi məktubda bildirir ki, Qara şəhərdə avadanlıqların saxlanılması üçün əlavə anbarların tikinlməsinə böyük ehtiyac var (6).

Dəmir yolunun çəkilməsi üçün əsas vəzifələrdən biri tez bir zamanda Balaxanı, Suraxanı zolağına düşən ərazilərin özəlləşdirməsi prosesini həyata keçirmək idi. Şəhər rəhbərliyi bu torpaqların qiymətləndirilməsini xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin rəhbərlik etdiyi ictimai komissiyaya tapşırır. Komissiya araşdırma apararaq 21 desyatindən çox olan özgələşdirilən torpaq sahələrini 34 580 rubl miqdarında qiymətləndirir. Bütövlükdə neft sahəsində dəmir yolu xətlərinin tikinti xərcləri isə 784 min 872 rubl təşkil edirdi. Dəmir yolunun inşasına 1878-ci ildə başlanılır. Dekabrın 17-dən etibarən Balaxanı, Suraxanı, Sabunçu stansiyalarında daşınmaq üçün yüklər qəbul edilir. 20 yanvar 1880-ci ildə dəmir yolunun rəsmi açılışı olur. Dünyada ilk dəfə olaraq neft məhz bu yolla sisternalarla daşınmağa başlanır.

Azərbaycanın dəmir yolu Avropanın ilk dəmir yollarından biridir. Buxar dartqısı ilə neft daşımaları həyata keçirilən bu xətt Cənubi Qafqazda istismara verilən ilk dəmiryol xətti olmuşdur. Dünyada ilk dəfə olaraq neft məhz bu dəmir yolu ilə sisternlərdə daşınmağa başlanılmışdır.

1879-1883-cü illərdə isə Bakı – Tiflis – Batumi istiqamətində dəmiryol xətti çəkilib istifadəyə verilmişdir. Bakı (Biləcəri) – Dərbənd – Tixoresk dəmiryol xətti ilə qatarların hərəkətinə isə 1901-ci ildə başlanılmışdır. Naxçıvan Muxtar Respublikada bu işə ilk dəfə Culfa rayonundan başlamışdılar. Beləki, 1908-ci ildə Tiflis-Yerevan-Uluxanlı-Noraşen-Culfa dəmiryolu, 1941-ci ildə Ələt-Culfa xətti,sonralar digər yollar da çəkilmişdir. Artıq 1918-ci ildə Azərbaycanın dəmir yollarının uzunluğu 866 km idi. Bu isə müasir dəmiryol şəbəkəsinin təxminən 40%-ni təşkil edir. 1908-ci ildə Naxçıvanla Culfa arasında çəkilən dəmir yolu çar xəzinəsinə 14.1 milyon rubla başa gəlmişdir. Bu dəmir yolu Qafqaz canişinliyinin mərkəzini İran sərhədi ilə birləşdirmişdir. Onu da qeyd edim ki, dəmir yolunun istifadəyə verilməsi Naxçıvanın iqtisadi inkişafına səbəb olmuşdur (1, s.158).

1955-ci il oktyabrın 3-də Azərbaycan dəmir yolu SSRİ Nazirlər Sovetinin 1773 saylı qərarı ilə müstəqil dəmir yolu elan olunmuşdur. Azərbaycan SSR Nazirlər Sovetinin 13 oktyabr 1955-ci il 717 saylı qərarı ilə Azərbaycan dəmir yolu SSRİ Yollar Nazirliyinin tərkibində müstəqil dəmir yolu kimi fəaliyyətini davam etdirmişdir.

SSRİ Yollar Nazirinin 2 mart 1963-ci il tarixli 270 saylı əmri ilə yenidən Azərbaycan və Zaqafqaziya dəmir yollarının tərkibində struktur dəyişikliyi aparıldı və bu iki idarə Zaqafqaziya dəmir yolu adı altında birləşdirildi və dəmir yolunun Azərbaycan sahəsi Azərbaycan hissəsi adlandırıldı.

SSRİ Yollar Nazirnin 1 iyun 1967-ci il tarixli 15-859 saylı əmri ilə Azərbaycan dəmir yoluna yenidən sərbəstlik verildi və o vaxtdan bu günə kimi müstəqil dəmir yolu kimi fəaliyyət göstərir (6).

Böyük öndərin qayğısı ilə dəmir yolunda da yeniliklər artmağa başlamış, bu sahə sürətlə inkişaf dövrünə qədəm qoymuşdur. Xüsusi olaraq vurğulamaq lazımdır ki, Azərbaycan Dövlət Dəmir Yolunun inkişafının ən sürətli və parlaq dövrü ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi 1969-2003-cü illəri əhatə edir. 1969-cu ildə ilk dəfə respublika rəhbərliyinə gələn Heydər Əliyevin şəxsi fəaliyyəti sayəsində bütün respublika iqtisadiyyatında olduğu kimi dəmir yolu nəqliyyatında da əsaslı dəyişikliklərə və köklü inkişafa təkan verildi. Heydər Əliyev hakimiyyətə gələnə qədər dəmir yol satansiyasının sayı 129 idisə, 1969-cu ildən sonrakı dövrdə bu rəqəm 176-çatdı (1, s.162). 1969-2003-cü illəri Azərbaycan Dəmir Yolunun texniki tərəqqi və hərtərəfli inkişaf dövrü adlandırmaq olar. Məhz bu illərdə istehsalatda əsas fəaliyyətlə yanaşı 14300 texniki yeniləşmə metodları tətbiq edilmiş və bunlar dəmir yolunun bütün sahələrini əhatə etmişdir. 28 may 1980-ci ildə Azərbaycan dəmir yolu - Oktyar inqilabı ordeni ilə təltif edilmişdir.

Müstəqillik əldə ediləndən sonra bütün sahələrdə olduğu kimi bu sahələrdə də nisbətən durğunluq yaranmışdır. Müstəqilliyin ilk illəri istər dəmir yolu, istərsə də bütövlükdə respublika iqtisadiyyatı üçün ağır sınaq illəri ilə müşayiət olundu. Əvvəllər keçmiş İttifaqa daxil olan ölkələr arasında mövcud olan iqtisadi əlaqələrin kəsilməsi dəmir yolunun işinə də mənfi təsir göstərdi. Bu, daşıma həcminin kəskin surətdə azalması və yolun maliyyə-iqtisadi vəziyyətinin pisləşməsinə gətirib çıxardı. Azərbaycanın Dağlıq Qarabağ ətrafında iğtişaşa cəlb edilməsi vəziyyəti daha da ağırlaşdırdı.
Erməni hərbi birləşmələri tərəfindən Azərbaycan ərazilərinin 20%-nin işğal edilməsi və bir milyondan çox azərbaycanlının qaçqın düşməsinə gətirib çıxaran bu təcavüz nəticəsində Azərbaycan Dövlət Dəmir Yoluna da ciddi ziyan dəydi. Belə ki, 240 km-dən çox dəmir yolu xətti erməni təcavüzünə məruz qaldı (2, s.129). Mehri-Kərçivan sahəsində qatarların hərəkətinin dayandırılması nəticəsində Naxçıvan Muxtar Respublikası ölkədən təcrid edilərək blokadaya düşdü və 20 ildən çoxdur ki, onun ağırlıqlarını öz üzərində hiss edir. İşğala məruz qalan bütün dəmir yolu infrastrukturu və hərəkət tərkibləri məhv edilsə də, belə bir mürəkkəb vəziyyətdə dəmir yolu özünü saxlaya bilmiş və daşınmaya olan tələbatın ödənilməsinə nail olmuşdur.

Ulu Öndər hakimiyyətə gəldikdən sonra bu sahə də yeni inkişaf dövrünə qədəm qoydu. Azərbaycan Nazirlər Kabinetinin 8 avqust 1995-ci il tarixli 171 saylı əmri ilə Oktyabr İnqilabı ordenli Azərbaycan Dəmir Yoluna - Azərbaycan Dövlət Dəmir Yolu adı verilmişdir. Azərbaycan Respublikasının Prezidenti Zati-Aliləri Cənab İlham Əliyev 7 oktyabr 2005-ci ildə "Dəmir yolu işçilərinin peşə bayramının təsis edilməsi haqqında" Sərəncam imzalamışdır. Həmin Sərəncama əsasən hər il oktyabrın 13-ü müstəqil Azərbaycan dəmir yolunun yarandığı gün-Azərbaycan dəmir yolu işçilərinin peşə bayramı günü kimi qeyd olunur.

Bu tarixi dövrdən başlayaraq Azərbaycan dəmir yolu yük və sərnişin daşımalarına olan tələbata uyğun olaraq inkişaf etmiş və təkmilləşmişdir. Hazırda baş yolların ümumi uzunluğu 2910,1 km,

istismar uzunluğu isə 2079,3 km-dir. Dəmir yollarının 802,3 km-i iki yolludur. Yolun ümumi istismar uzunluğunun 1241,4 km-i və ya 59,7%-i elektrikləşdirilmiş, 837,9 km-i, yəni 40,3%-i tepolovoz dartısı ilə işləyir, 1527,7 km-i avtomatlaşdırılmış işarəvermə sistemi ilə təchiz edilmişdir. Azərbaycan dəmir yolunda 176 stansiya fəaliyyət göstərir.

Daxili iqtisadi rayonlarımız dəmiryollarla necə təmin olub? İlk növbədə bu məsələyə də diqqət salaq. Respublikanın daxili iqtisadi rayonları üzrə dəmiryolu ilə təmin olunması səviyyəsini öyrənmək üçün dəmir yolunun ümumi uzunluğunu əraziyə bölüb minə vurmaqla hər 1000 kv.km əraziyə düşən dəmir yolu müəyyənləşdirilir.

Aparılan təhlilə əsasən Respublika üzrə ümumi dəmir yolunun 2000-ci ilin məlumatına görə 39,6%-i Kür-Araz, 7,8%-i Şəki-Zaqatala, 18%-i Abşeron, 10%-i Gəncə-Qazax, 8,4% Naxçıvan MR, 7,4% Quba-Xaçmaz, 8,4% Şamaxı-İsmayıllı, Lənkəran-Astara və Yuxarı Qarabağ rayonlarının payına düşür. Hər 1000 kv.km əraziyə düşən dəmir yolu Abşeron iqtisadi rayonunda 63,2 km, Naxçıvan MR-da 32,2 km, Şəki-Zaqatalada 27,9 km, Kür-Arazda 32,4 km, Quba-Xaçmazda 21,5 km, Gəncə-Qazaxda 17,4 km, Lənkəran-Astarada 19 km, Yuxarı Qarabağda 6,2 km, Şamaxı-İsmayıllıda 1,2 km təşkil edir. 2001-ci ildə isə aparılan tədqiqatlar göstərir ki, Respublika üzrə dəmir yolu ilə daşınan yüklərin 8,2%-i Naxçıvanın payına düşmüşdü (4, s.440).

Dəmir yolunun əhaliyə görə təminatına iqtisadi rayonlar üzrə bir o qədər kəskin fərq müşahidə olunmur. Respublika üzrə orta hesabla hər 1000 nəfərə 0,4 km dəmir yolu düşdüyü halda, Abşeron iqtisadi rayonunda həmin göstərici müvafiq olaraq 0,2 km, Naxçıvan MR üzrə 0,7 km, Kür-Arazda 0,6 km qalan iqtisadi rayonlar üzrə 0,2 km təşkil edir. Azərbaycanda 2000-ci ildə bütün nəqliyyat növləri ilə daşınan yükün 18,4%-i dəmir yolu nəqliyyatının payına düşür.

Naxçıvan MR –da keçən dəmir yolunun 63 km ( yaxud 31.8%-i) Babək rayonunun, 59 km-i (29,8%-i) Şərur, 40 km (20,2%-i) Ordubad, 34 km-i (18,2%-i) Culfa rayonunun payına düşür. Bölgə üzrə hər 100 kv km əraziyə 1.9 km, hər min nəfərə isə 0.8 km dəmir yolu düşür (3, s.215).

Onu da qeyd edək ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinin 27 mart, 2007ci il tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikası Nəqliyyat nazirliyi yaradılmışdır.

Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 20 iyul tarixli 383 nömrəli Sərəncamı ilə dəmir yolunun hərtərəfli inkişafının təmin olunması, iqtisadiyyatın və əhalinin daşımalara olan tələbatının daha dolğun ödənilməsi, idarəetmənin təkmilləşdirilməsi və görülən işlərin səmərəliliyinin daha da artırılması məqsədilə Azərbaycan Dövlət Dəmir Yolunun yenidən təşkili yolu ilə “Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyəti yaradılmışdır. “Azərbaycan Dəmir Yolları” Qapalı Səhmdar Cəmiyyətinin əsas məqsədi Azərbaycan Respublikası iqtisadiyyatının, fiziki və hüquqi şəxslərin dəmir yolu ilə daşımalara və dəmir yolu sahəsində digər xidmətlərə olan tələbatının təmin edilməsindən, dəmir yollarının, habelə ümumi istifadədə olan dəmir yolu nəqliyyatının infrastrukturunun inkişaf etdirilməsindən və təkmilləşdirilməsindən, dəmir yollarında hərəkətin idarə edilməsinin təmin olunmasından, dəmir yolu nəqliyyat vasitələri parkının, maddi-texniki bazasının müasirləşdirilməsindən və səmərəli istifadə olunmasından və bu sahədə kadr hazırlığının aparılmasından ibarətdir.

Müstəqillik əldə etdikdən sonra Azərbaycan nəqliyyat sahəsi beynalxalq təşkilatların Şuralarına da daxil olmuşdur. Beləki, MDB üzv dövlətlərinin Dəmir Yolu Nəqliyyatına dair Şurası 1992-ci il 14 fevral tarixində yaradılıb. Azərbaycan Respublikası 14 fevral 1992-ci ildən Şuranın üzvüdür. Şura dövlətlərarası səviyyədə dəmir yolu nəqliyyatının işini əlaqələndirir, onun fəaliyyətinin prinsiplərini hazırlayır, yük vaqonlarının və konteynerlərin birgə istismarını təşkil edir (5).

Respublikamızın Prezidenti İlham Əliyev 6 iyul 2010-cu ildə"Azərbaycan Respublikasında dəmir yolu nəqliyyat sisteminin 2010-2014-cü illərdə inkişafına dair Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında sərəncam imzalamışdır. Sərəncam bu sahənin inkişafını təmin edəcək ən mühüm sənəddir. Proqramda Azərbaycan dəmir yolu nəqliyyatının sürətli inkişafını təmin edən bütün məqamlar öz əksini tapıb. Vaqon və lokomotv parkının yeniləşdirilməsi, yol, elektrik təchizatı, işarəvermə və rabitə və s. təsərrüfatların əsaslı təmiri, sabit cərəyandan dəyişən cərəyana keçid, texniki vasitələrin modernləşdirilməsi və digər mühüm vəzifələr Dövlət Proqramının icrası üçün Tədbirlər Planında öz əksini tapmışdır.

Dövlət Proqramının əsas məqsədi əhalinin və iqtisadiyyatın dəmir yolu nəqliyyatı xidmətlərinə artan tələbatının və dövlətin müdafiə ehtiyaclarının təmin olunması, Azərbaycanın tranzit potensialının artırılması, dəmir yolu nəqliyyatında xidmətlərin səviyyəsinin yüksəldilməsi, sərnişin və yük daşımalarında nəqliyyat xərclərinin azaldılması yolu ilə nəqliyyat kompleksinin səmərəli fəaliyyətini və onun ölkənin sosial-iqtisadi tərəqqisində daha fəal iştirakını təmin etməkdir. (7). Qeyd edim ki, Dövlət

Proqramı öz hüquqi təsdiqini tapandan sonra proseslər daha da sürətlənib. Beynəlxalq maliyyə qurumları ilə son vaxtlar daha intensivləşən ikitərəfli və çoxtərəfli əlaqələr dəmir yolunda islahatların aparılmasına öz müsbət təsirini göstərəcəkdir. Çünki dəmir yolunun yenidən qurulmasını həyata keçirmək üçün beynəlxalq maliyyə qurumları ilə danışıqlar prosesi özünün yeni mərhələsinə qədəm qoyub.

"Azərbaycan Respublikasında dəmir yolu nəqliyyat sisteminin 2010-2014-cü illərdə inkişafına dair Dövlət Proqramı dəmir yolunun inkişafı üçün geniş imkanlar açır. Ulu öndər Heydər Əliyevin müəyyən etdiyi və möhtərəm Prezidentimiz cənab İlham Əliyevin uğurla davam etdirdiyi iinkişaf strategiyası nəticəsində «Azərbaycan Dəmir Yolları» Qapalı Səhmdar Cəmiyyəti dünyanın inkişaf etmiş ölkələrinin dəmir yolları arasında özünün layiqli yerini tutmuşdur.

Son olaraq qeyd edim ki, Azərbaycanda, o cümlədən onun ayrılmaz hissəsi olan Naxçıvanda dəmir yol nəqliyyatının tarixi XIX-əsrin sonu XX-əsrin əvvəllərində mövcud olmuş, günümüzə qədər davam etmişdir. Müasir dövrdə dəmir yol nəqliyyatı iqtisadiyyatın inkişafında aparıcı sahələrdən birinə çevrilmişdir.

## ƏDƏBİYYAT


1. Əhmədov N. Naxçıvan iqtisadiyyatının prioritetləri: iqtisadi artım, dinamik inkisaf. Bakı, "Sabah", 2008, 452 s
2. Hacızadə E. Regional nəqliyyat infrastrukturunun təkmilləşdirilməsində Baki-Tbilisi-Qars dəmir yolu xətti layihəsinin rolu //Azərbaycanın vergi jurnalı №3(117), 2014, s.123-160
3. Məmmədov Z. XX-əsr iqtisadi inkişafın nəqliyyat faktoru. Bakı, Azərnəşr, 2002, 386 s.
4. Məmmədov Z. Regionların iqtisadi inkişaf problemləri. Bakı, Elm, 2007, 465 s.
5. http://adyexpress.az/uploads/2016/02/DY-nəqliyyatı-uzrə-movcud-beynəlxalq-təşkilatlar.pdf
6. http://railway.gov.az/index/az/haqqımızda/tariximiz
7. http://mot.gov.az/az/content/443


## РЕЗЮМЕ


**Шахин Алиев**


**Принципы развития железнодорожного транспорта**


В статье речь идет о создании и истории развития железной дороги в Азербайджане. В результате исследования выявлено, что история железной дороги начинается в XIX веке , но ее история развития приходит в первый период прихода во власть Гейдара Алиева. В иследовании расмотрена также история развития железной дороги в Нахчыване.


## ABSTRACT


**Shahin Aliyev**


**The development principles in the history of Railway Transport**


The article deals with the establishment of railway transport and its development history. İnvestigations have been known that although the history of railway transport began in the XIX century, its development history coincides with the first period of Heydar Aliyev's coming to power. As a result of research it is touched upon development of railway transport in Nakhchivan.



NDU-nun Elmi Şurasının 30 mart 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 07).

Məqaləni çapa təqdim etdi: İqtisad üzrə elmlər doktoru, professor A.Rüstəmov

**CAVADXAN QASIMOV**
*AMEA Naxçıvan Bölməsi*
*Cavadxan.yusifoglu@mail.ru*

**UOT:330.1**

# YOL XƏRİTƏLƏRİNİN TƏSDİQ EDİLMƏSİNİN MÖVCUD İQTİSADİ İNKİŞAFA TƏSİRİ

***Açar sözlər:*** *milli iqtisadiyyat, kənd təsərrüfatı, kiçik və orta sahibkarlıq, turizm, iqtisadiyyatın sahə strukturu, istehsal münasibətləri və s.*

***Keywords:*** *national economy, agriculture, small and medium enterprises, tourism, industry*

***Ключевые слова:*** *национальная экономика, сельское хозяйство, малое и среднее предпринимательство, туризм, отраслевая структура экономики, производственные отношения и др. structure of the economy, industrial relations and others*

Artıq müasir dünyanın iqtisadi (maliyyə) böhranları, müharibə ocaqları, siyasi çalxalanmaları ilə qarşılaşmaqdayıq. Ancaq çox sevindiricidir ki, həm də yüksək müqavimət potensialı ilə, dayanıqlı sosial-iqtisadi inkişafla bu istənməz hallara qarşı mübarizə aparmaq əzmində gücündəyik. Ölkəmizdə iqtisadi proseslərin inkişaf istiqamətində təşəkkül tapması, sistemli və dayanıqlı sosial siyasətin bərqərar olunması, iqtisadiyyatın şaxələndirilməsi, inkişaf etməkdə olan iqtisadiyyatdan innovativ iqtisadiyyata keçid edilməsi, iqtisadi-hüquqi mexanizmlərin çevik və işlək vəziyyətə gətirilməsi ilə, dünyanın yeni çağırışları ilə səsləşə bilmək keyfiyyətlərinin təşəkkülü, bununla da makroiqtisadi nailiyyətlər fonunda region və dünya iqtisadiyyatına sürətli inteqrasiya olunması və s-dən ibarət pozitiv meyllər qarşıdakı dövrlər üzrə ardıcıl, davamlı və uzunmüddətli iqtisadi inkişaf strategiyalarının işlənməsinə zərurət yaratmaqdadır.

Böyük təcrübə əsasında ümummilli lider Heydər Əliyev tərəfindən 1995-ci ildən başladılan iqtisadi islahatlarla keçid edilən müasir bazar münasibətlərinin, tələb və qanunlarının əsaslarını qoyduğu müasir iqtisadi inkişaf strategiyası istər iqtisadiyyatın sahə strukturunun formalaşması və təkmilləşdirilməsi, istər fəaliyyət sferalarının münbitləşdirilməsi, istərsə də istehsal (iqtisadi) münasibətlərinin müasir intensiv formasına keçidinin təmin edilməsi iqtisadi hədəf və prioritetlərin müəyyənləşdirilməsində mükəmməl bazanı təşkil etməkdədir.

Qeyd olunanların davamı olaraq, ölkənin iqtisadi inkişafını həm təmin edən, həm də bu inkişafdan doğan gerçəkliklərə uyğunlaşdırılmaqla, onun davamlılığına istiqamətlənən qərarlar, fərman və sərəncamlar, tədbirlər planları, konsepsiyalar, layihələr, strategiyalar, Dövlət Proqramları, eləcə də strateji yol xəritələrinin təsdiqi, qəbulu və uğurlu icra mexanizminin təminatı nəzərdə tutulmuş məqsədlərin və qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsində etibarlı addımdır.

Tərəddüd etmədən deyə bilərik ki, xüsusən böyük Heydər Əliyevin başlatdığı, təməlini qoyduğu milli iqtisadi inkişaf siyasətinin sosial-iqtisadi, məqsədyönlü və məntiqi nəticəsi olaraq 2003-cü ildən etibarən ölkə prezidenti tərəfindən təsdiq edilərək real iqtisadi nəticələrə istiqamətlənən və regionların sosial iqtisadi inkişafına güclü təkan olan Dövlət Proqramları artıq özünün üçüncü uğurlu mərhələsindədir. Bununla yanaşı, Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: Gələcəyə Baxış" İnkişaf Konsepsiyası da özündə ölkənin milli iqtisadi maraqlarının qorunması və gələcək inkişaf potensialının təmin edilməsini əks etdirməkdədir.

Heç şübhəsiz, bunlar onu göstərir ki, ölkənin hərtərəfli inkişafına xidmət edən proseslər sağlam təməllər üzərindədir, güclü idarəetməyə əsaslanır, dinamikdir və uzaq gələcəyə istiqamətlənməyi ilə də davamlılığa, ardıcıllığa zərurət yaradır.

Fikrimizi bu istiqamətdə qurarkən qeyd edə bilərik ki, 6 dekabr 2016-cı il tarixdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən imzalanan Fərmanla "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin" təsdiq edilməsi ölkə iqtisadiyyatının inkişafının artıq yeni müstəvidə görüntüsünü təqdim etməkdədir. Bu yol xəritələrini indiyə qədər həyata keçirilən iqtisadi fəaliyyətlərin, qəbul edilən bütün hüquqi tənzimləmə vasitələrinin sistemləşdirilmiş, daha da çevikləşdirilmiş və işlək mexanizmlərlə silahlandırılmış məcmuusu kimi də ifadə etmək olar. Məlumdur ki, ölkə başçısı tərəfindən hələ cari ilin 16 mart tarixində 1897 nömrəli Sərəncamla "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri" təsdiq edilmiş və hazırkı mərhələ üçün sosial-iqtisadi və hüquqi əsaslar yaradılmışdır.

Ölkə başçısı tərəfindən təsdiq edilmiş yol xəritəsinin məzmunu ilə tanış olarkən aydın olur ki, burada:

1. müasir dövrün nailiyyətləri, gerçəklikləri və çağırışları əsas götürülməklə, cari, yaxın və uzaq gələcək üzrə prioritetlərin və hədəflərin müəyyənləşdirilməsinə;

2. Elmi Texniki nailiyyətlərin müasir inkişaf səviyyəsinin nəticələrindən səmərəli istifadə etməklə, cəmiyyətin aktual problemlərinin və bu sırada stimullaşdırıcı amillərin öyrənilməsi məsələləri üstün tutulmasına;
3. müxtəlif regionların, sektorların və bölmələrin müqavimət gücünün artırılmasından ibarət iqtisadiyyatın şaxələndirilməsinə yönəlmiş tədbirlərin nəzərdə tutulmasına;
4. iqtisadi artımın dayanıqlığını təmin edilməsinə;
5. gəlir səviyyəsinin və məşğulluq səviyyəsinin yüksəldilməsinə və s. ciddi yanaşma irəli sürülmüşdür.

Bunlarla yanaşı, həmin yol xəritələrində Azərbaycan Respublikasında makroiqtisadi proseslərin tənzimlənməsinin əsas meyarları üstün tutulmuş və milli iqtisadiyyat perspektivi üzrə, neft və qaz sənayesinin (kimya məhsulları daxil olmaqla) inkişafına, kənd təsərrüfatı məhsullarının istehsalına və emalına, kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına, ağır sənaye və maşınqayırmanın inkişafına, ixtisaslaşmış turizm sənayesinin inkişafına, logistika və ticarətin inkişafına, uyğun qiymətə mənzil təminatının inkişafına, peşə təhsili və təliminin inkişafına, maliyyə xidmətlərinin inkişafına, telekommunikasiya və informasiya texnologiyalarının inkişafına, kommunal xidmətlərin (elektrik və istilik enerjisi, su və qaz) inkişafına dair fundamental tədbirlər planlarının işlənib həyata keçirilməsi nəzərdə tutulmuşdur. Sadalanan hər bir müvafiq istiqamət üzrə yol xəritələri əlavə edilmişdir.

Təbiidir ki, milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi ilə eyni zamanda ölkənin 2016-2020-ci illər üçün iqtisadi inkişaf strategiyası və tədbirlər planı, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxışı və 2025-ci ildən sonrakı dövrə hədəf baxışı da müəyyən edilmişdir. Bu isə təbii ki, makroiqtisadi zəmində beş, on illik və daha böyük dövrlər üzrə inkişaf strategiyasının səmərəli icra mexanizminin mövcudluğundan xəbər verməkdədir.

Güclü təcrübə və böyük həssaslıqla hazırlanan, müasir iqtisadi inkişaf mərhələlərinin bütün parametrlərini özündə əhatəli şəkildə əks etdirən, tarixi-sosial və iqtisadi-hüquqi mahiyyəti yüksək olan sənəddə diqqəti çəkən ən mühüm məqamlardan biri burada ölkə başçısı tərəfindən 12 istiqamətdə təsdiq edilən strateji yol xəritələrinin hər birinin ölkənin hazırkı dövrdə iqtisadi sahədə prioritet seçdiyi məqsədlərinə bir başa xidmət etməsidir.

Aydındır ki, hər bir ölkənin özünün malik olduğu milli iqtisadiyyatı vardır. Milli iqtisadiyyat elə millətin iqtisadiyyatıdır, onun hər bir üzvünün iqtisadi davranışı, fəaliyyəti, iqtisadi təminatları, malik olduğu təbii sərvətlərinin miqyasından ibarətdir. Daha doğrusu, bir sıra sosial və iqtisadi ədəbiyyatlarda milli iqtisadiyyata tərif verilərkən, müəyyən xalqa, millətə məxsus olub, onun mənafelərini ifadə edən, hüdudları dövlət sərhədləri ilə məhdudlaşan, özünün maddi-texniki əsası, münasibətlər sistemi, təsərrüfat mexanizmi və idarəetmə strukturları olan sosial-iqtisadi orqanizm kimi ifadə olunduğunu görürük (2, s. 338). Göstərilən izaha diqqət edərkən onun hazırkı milli iqtisadi inkişafla qırılmaz bağlı olduğu və bir-birini tamamladığı qənaətinə gəlirik. Milli iqtisadiyyatın perspektivləri üzrə qarşıdakı illərdə həllivacib məsələlər içərisində heç şübhəsiz ki, ən zəruri olanı qeyri-neft sektorunun tərəqqisindən ibarət dinamik inkişaf potensialının daha da artırılması olacaqdır. Bu sırada iqtisadiyyatın əsas bölmələrinin-sənayenin, kənd təsərrüfatının, turizmin, nəqliyyat və tikinti sektorlarının, xarici ticarətin, xidmət sahələrinin sürətli və uzunmüddətli inkişaf strategiyalarının təmin edilməsini xüsusi qeyd etmək olar. Çox məmnunedici haldır ki, göstərilən bütün sahələr üzrə mükəmməl baza vardır. Qarşıda duran əsas vəzifə isə mövcud bazadan atılacaq addımların qətiyyətliliyini təmin etmək və inamla irəliyə doğru getməkdir. Ölkəmizin müəllifi olduğu makroiqtisadi inkişaf siyasətinin və əldə etdiyi nailiyyətlərin beynəlxalq təcrübəyə uyğun olması Dünya İqtisadi Forumunun hesabatlarında da təsdiqlənməkdədir. Belə ki, həmin qurumun 2013-2014-cü il üzrə "Dünya Rəqabətlilik Hesabatı"nda qlobal turizm rəqabət qabiliyyətlilik indeksinə görə Azərbaycan 7 pillə irəliləyib və 148 dövlət arasında 39-cu yerdə qərarlaşıb. Azərbaycan iqtisadiyyatının sürətli inkişaf mənzərəsi ilbəil öz qətiyyətli mövqeyinə görə fərqlənməkdədir. Əvvəlki hesabatlara da diqqət edərkən müvafiq göstəricinin keyfiyyət üzrə dəyişdiyini görürük. Fikrimizi ölkəmizin 2012-2013-cü il üzrə hesabatda 144 ölkə arasında 46-cı, 2011-2012 hesabatında isə 142 ölkə arasında 55-ci yeri tutması ilə də ifadə edə bilərik (3).

Təsdiqini tapmış həqiqətdir ki, Azərbaycan iqtisadiyyatında neft və qeyri-neft sektorlarının inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi ümummilli liderimizin adı və siyasi fəaliyyəti ilə bir başa bağlıdır. Hələ 1994-cü ilin sentyabr ayında "Əsrin Müqaviləsi"nin imzalanması ilə müasir müstəqillik şəraitində neft sektorunun əsasları qoyuldu (1, s. 120). Ölkəmizdə təbii ehtiyatların qiymətləndirilməsinin və səmərəli istifadəsinin ən bariz təsdiqi olan bu addım sonrakı dövrlərdə dünya neft bazarında Azərbaycanın payının və mövqeyinin güclü olmasına əlverişli zəmin yaratmış oldu. Bütün bunların nəticəsində 1997-ci ilin oktyabr ayının 25-də Azərbaycan neftinin Bakı-Novorossiysk marşurutu ilə nəqlini nəzərdə tutan eyni adlı xətt istismara verildi. İki il sonra-1999-cu il 17 aprel tarixdə neftin Qara dənizə çıxarılmasını nəzərdə tutan Bakı-Supsa neft kəməri və Gürcüstanın Qara dəniz sahilindəki supsa ixrac terminalı istismara verildi. 1997-ci ilin 12 noyabr tarixində "Çıraq-1" platforması da öz bəhrəsini verdi. Burada ilk neft quyusu istismara verildi və bununla da ölkəmiz yeni iqtisadi və siyasi şəraitdə

müstəqil dövlət kimi dünya bazarına özünün "Azəri Layt" adlı neftini çıxardı. Həmin neft Supsa terminalı vasitəsilə nəql olunmağa başlandı. Keçmiş İttifaqa bir çox sahələrlə yanaşı məhz neftlə də yetmiş illik dövrdə töhfə verən respublikamız müstəqilliyini yenicə qazanmaqla artıq Qərb ölkələri üçün də mühüm əhəmiyyət daşıyırdı. Belə ki, 2006-cı ilin iyul ayının 13-də Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan neft kəməri istifadəyə verildi. Qeyd edək ki, ölkəmizdə məhz neftdən əldə olunan gəlirlərin məqsədyönlü istifadəsini və tənzimlənməsini nəzərdə tutaraq 1999-cu il 29 dekabr tarixdə Dövlət Neft Fondu (DNF) yaradılmışdır.

Göstərilən ardıcıllığın davamı olaraq, 2006-cı ildən Bakı-Tbilisi-Ərzurum qaz boru xəttinin istismara verilməsi, TANAP və TAP layihələrinin uğurla gerçəkləşdirilməsi istiqamətindəki tədbirlər bir tərəfdən Asiyanı Avropa ilə bağlayırsa, digər tərəfdən Azərbaycanı mərkəzi və ya əlaqələndirici mövqeyə gətirməkdədir.

Ölkəmizdə neft sektorunun inkişafı ilə yanaşı iqtisadiyyatın sahə strukturunun yüksəlişi məqsədlərinə xidmət edən genişmiqyaslı strategiyaların təsdiq edilməsi qeyri-neft sənayesinin də perspektivlərini müəyyənləşdirmiş oldu. Məhz 1995-ci ildən iqtisadi islahatların başladılması qeyri-neft sektorunun inkişafı üçün baza təşkil etdi. Qeyd edək ki, bu islahatların əsas mahiyyəti onun ilkin mərhələdə əsaslı şəkildə kənd təsərrüfatından (aqrar sektor) başlaması idi. Həmin ildə digər nəhəng tədbir-Dövlət Mülkiyyətinin Özəlləşdirilməsini özündə əks etdirən eyni adlı Dövlət Proqramının da təsdiq edilərək icra olunmağa başlanması qarşıya qoyulmuş məqsədlərin gerçəkləşməsinə doğru növbəti bir addım oldu. Burada həyata keçirilən tədbirlər iqtisadiyyatın şaxələndirilməsinə xidmət etməklə islahatların kənd təsərrüfatında müasir iqtisadi idarəetmə mexanizmlərini stimullaşdıracaq yöndə aparılmasını təmin etdi və istehsal (iqtisadi) münasibətlərinin inkişafından ibarət məcmu fəaliyyətin xüsusi mülkiyyətin əhatə dairəsinə aid edilməsinə imkan yaratdı. Əsas istehsal vasitəsi olan səmərəli torpaq-kəndli münasibətlərinin, aqrar münasibətlərin formalaşması və inkişafını sürətləndirdi.

Qeyd olunan proseslərin səmərəliliyinin yüksəldilməsi məqsədilə beynəlxalq təcrübədən istifadə etməklə aqrar sektorun inkişafının sürətləndirilməsi təmin edildi. Bu məqsədlə, ümummilli liderin 1994-cü ildə Türkiyənin, Çinin, İsrailin, İranın, Rusiyanın və digər ölkələrin nümayəndə heyətlərinin iştirakı ilə "Aqrar islahat: problemlər və onların həlli yolları" mövzusunda keçirdiyi beynəlxalq konfransda bu məsələlər ətraflı müzakirə edilmişdir. Daha sonra 1998-ci ildə böyük Heydər Əliyevin Yaponiyaya səfəri zamanı əsası qoyulmuş Azərbaycan Yaponiya əməkdaşlığı özünün siyasi sahədə olduğu kimi etibarlı iqtisadi tərəfdaşlığın da səmərəli təminatına münbit zəmin yaratmışıdr. Məhz Yaponiya hökuməti ilə imzalanmış Notalar Mübadiləsinə əsasən 1998-2011-ci illər ərzində 2 KR layihəsi çərçivəsində Yaponiya hökumətinin qrantları hesabına 863 kənd təsərrüfatı texnikası, o cümlədən 297 ədəd taxılyığan kombayn, 212 ədəd traktor və digər maşın və aqraeqatlar alınmış və fermerlərin istifadəsinə verilmişdir. Bu istifadədən Tərəfdaşlıq Fonduna toplanmış vəsaitə uyğun olaraq, 753 ədəd texnika, o cümlədən 130 ədəd taxılyığan kombayn, 104 ədəd traktor alınıb istifadəyə verilmişdir. Qeyd edək ki, bu siyasətin davamı olaraq, 23 oktyabr 2004-cü ildə ölkə başçısı tərəfindən "Aqrar bölmədə lizinqin genişləndirilməsi sahəsində əlavə tədbirlər haqqında" Sərəncam imzalamışdır. Bununla da kənd təsərrüfatı məhsullarının istehsalçılarının aqroservis xidmətlərindən istifadə edilməsinin, xüsusən də kəndli-torpaq-məhsul-emal-istehlakçı həlqəsinin qırılmazlığı və dayanqılığı təmin edilmişdir.

Tərəqqiyönümlü iqtisadiyyatın bazar münasibətlərinə xas inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi, yeni iqtisadi sistemə aid qanunların əhatəsinin genişliyi, xüsusi mülkiyyətin inkişafı zəminində yeni təsərrüfat formalarının yaradılması, formalaşması və fəaliyyətinin tənzimlənməsi məsələləri yeni iqtisadi şəraitə keçidin ilk mərhələlərində öz aktuallığı ilə seçildi. Ulu öndərin davamlı diqqəti ilə əhatələnən bu proseslər ölkəmizdə həm də yeni istehsal münasibətlərinin və iqtisadi idarəetmənin əsas tənzimləyici qüvvəsinə çevriləcək Sahibkarlıq təbəqəsinin yaranmasına münbit zəminlər açdı. Bu sahədə hüquqi-iqtisadi mexanzimlərin səfərbər edilməsinə başlanıldı. Bu məqsədlə, böyük Heydər Əliyev tərəfindən 1997-ci ildə "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafı (1997-2000-ci illər) Dövlət Proqramı" təsdiq edildi, 1999-cu ildə "Kiçik sahibkarlığa dövlət köməyi haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edildi, 10 sentyabr 2002-ci ildə isə "Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət qayğısı haqqında" və 28 sentyabr 2002-ci ildə "Sahibkarlığın inkişafına mane olan müdaxilələrin qarşısının alınması haqqında" fərmanlar imzalandı. Bu sahədə davamlı dövlət tədbirlərinin həyata keçirilməsinin, güclü, dayanıqlı sahibkarlıq siyasətinin əsaslarının müəyyən edilməsi məqsədilə 27 avqust 2002-ci ildə, 779 nömrəli Fərmanla "Azərbaycan Respublikası Sahibkarlığa Kömək Milli Fondu haqqında Əsasnamə" və "Azərbaycan Respublikası Sahibkarlığa Kömək Milli Fondunun vəsaitinin istifadəsi Qaydaları" təsdiq olundu. Olduqca strateji əhəmiyyətə malik olan bu tədbirlərin davamı olaraq 25 oktyabr 2007-ci ildə "Sahibkarlıq fəaliyyəti subyektlərinin fəaliyyətinin "bir pəncərə" prinsipi üzrə təşkilinin təmin edilməsi tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı və s. kimi hüquqi-normativ aktlar qəbul olundu. Çox əlamətdar haldır ki, bütün bu tədbirlər ölkəmizdə xüsusən kiçik və orta

Sahibkarlığın (KOS) inkişafının stimullaşdırılmasını təmin edəcək. Təbii ki, bunlar həm də sağlam rəqabətin gücləndirilməsinə xidmət etməklə makroiqtisadi proseslərə yüksələn xətt üzrə təkan olacaq. Fikrimizi təsdiq etmək üçün Türkiyə Cümhuriyyətinin iqtisadi inkişafında məhz KOS-ların əhəmiyyətli təsirinə baxa bilərik. Belə ki, orada müəssisələrin 99,9%-i, məşğulluğun 76%-i, məcmu əmək haqqının 53%-i, ümumi əlavə dəyərin 53,3%-i və maddi məhsullara cəmi investisiyaların 53,7%-i məhz KOS-lar tərəfindən təmin olunmaqdadır.

Müasir iqtisadi şəraitdə Azərbaycan iqtisadiyyatının həm prioriteti, həm də təkanverici qüvvəsi kimi aktuallıq qazanan sahə turizmdir. Regional siyasətin güvənilirliyi, tərəddüd etmədən əsas hədəflərə doğru irəliləmək, iqtisadiyyatın müxtəlif sahələrində keyfiyyət dəyişikliyinin təmin edilməsi, gəlir, mənfəət qabiliyyətli sahələrin önə çəkilməsi və yaxud sahələr üzrə gəlirliyin və mənfəətliliyin artırılması yollarının araşdırılması, xarici iqtisadi əlaqələrin stimullaşdırılmasına yönələn fəaliyyətin həyata keçirilməsi və s. amillər ölkəmizin cəlbediciliyinin də yüksəlməsinə səbəb olmuşdur. Turizmin inkişafında beynəlxalq təcrübənin öyrənilməsi, xüsusən də turist axınının böyük olduğu ölkələrin, o cümlədən Avropa ölkələrindən Fransanın (80 milyona yaxın turist), İspaniyanın (58 milyon turist), İtaliyanın (42 milyondan artıq turist), Birləşmiş Krallıq və ya Böyük Britaniyanın (30 milyondan artıq turist), Ukraynanın (25 milyondan artıq turist), Türkiyənin (25 milyon turist), Almaniyanın (25 milyon turist), Asiya ölkələrindən Çinin (53 milyon turist), Şimali Amerika ölkələrindən isə Meksikanın (22.6 milyon turist) təcrübələrindən yararlanmaqla çox mühüm nəticələr əldə etmək olar (5).

Araşdırılan mənbələr göstərir ki, 2015-ci ildə ölkəmizə gələn turstlərin sayı 2 milyon nəfər təşkil edib. Bu göstərici 2014-cü illə müqayisədə az olsa da (2,5 milyon), 2016-cı ilin birinci yarısında sürətlə artmışdır. Belə ki, xüsusilə ərəb turistlərin çoxluq təşkil etməsi nəticəsində bəhs edilən dövrdə ölkəmizə gələn turistlərin sayı bir il əvvəlin müvafiq dövrü ilə müqayisədə 30 dəfə artmışdır (4).

Ölkəmizdə turizmin dayanqılı və davamlı inkişafı üçün zəruri olan infrastruktur yaradılmışdır. İqtisadiyyatın turizm sektorunun tənzimlənməsi, bu sahədə məqsədyönlü iqtisadi-hüquqi mexanizmlərin işləkliyinin təmin olunması məqsədilə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə birinci mərhələdə 2002-2005-ci illər üçün, ikinci mərhələdə isə 2010-2014-cü illər üçün nəzərdə tutulan Azərbaycan Respublikasında turizmin inkişafına dair Dövlət Proqramları təsdiq və icra olunmuşdur. İnşasına 2009-cu ilin sentyabr ayında başlanılmış Şahdağ Qış-Yay Turizm Kompleksinin əhəmiyyətinin artırılmasında və bu istiqamətdəki fəaliyyətin səmərəliliyinin yüksəldilməsində ölkə başçısının 10 sentyabr 2015-ci il tarixli Sərəncamı ilə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində "Şahdağ Turizm Mərkəzi" Qapalı Səhmdar Cəmiyyətinin yaradılmasını xüsusi qeyd etmək lazımdır. Bütün bunları qeyd edərkən ölkəmizdə kifayət qədər potensiala malik qış, yay, kənd (şəhər), tarixi, dini, müalicəvi və coğrafi ərazilər və s. sahələr üzrə turizm infrastrukturunun inkişafının stimullaşdırılması və sürətləndirilməsinin, bununla da ixtisaslaşdırılmış turizm sənayesinin inkişafını təmin etmək olar.

Beləliklə, "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin" təsdiq edilməsi ölkəmizdə inkişafın yeni mərhələsini təmin edəcək, güclü potensial yaradacaq, əhatəli təminat formalaşdıracaq. Eyni zamanda buna, iqtisadiyyatımızın çoxşaxəliliyinin, innovativ inkişafının, regional siyasətinin səmərəliliyinin, sosial dayanıqlığının, dünya iqtisadiyyatına inteqrasiyasının və müasir çağırışlarla səsləşməsinin təminatı istiqamətində indiyə qədər qəbul edilən bütün hüquqi-normativ aktların, Dövlət Proqramlarının məcmusu kimi də yanaşmaq olar. Bütün bu və ya digər məqamlar bir daha göstərir ölkə başçısı tərəfindən təsdiq edilən milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin çox mükəmməl bazası vardır və yol xəritələrinin hər biri gələcək üçün böyük iqtisadi nailiyyətləri vəd etməkdədir.

## ƏDƏBİYYAT


1. Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında. Ümummilli lider Heydər Əiyevin Azərbaycan xalqına təbriki və müraciəti. Naxçıvan, Əcəmi, 2001, s. 192
2. İbadov S. A. İqtisadi nəzəriyyə. Dərslik. Bakı, Şərq-Qərb, 2009, s. 414
3. http://apa.az/turizm_az/azerbaycana-gelen-turistlerin-sayi-2-milyona-catib.html
4. https://www.admiral.az/az/news/society/73605/azerbaycana-gezmeye-gelib-ev-alanlar-sehradan-bezenlerin-maragi-ne-qeder-turist-qebul-etmishik#.WFleDnQ2vIU
5. http://kayzen.az/blog/turizm/928/turizmdə-öndə-olan-ölkələr-və-şəhərlər.html


## ABSTRACT


**Javadkhan Gasimov**


**Affirming of the maps of way as push to existing economi development**


The article describes the way the last country in economic development. Here comes to the legal acts adopted by the national leader Haydar Aliyev, which were carried out on the basis of the flexible mechanisms in the field of the national economy. It is said about the oil and non-oil, agricultural potential,

development of small and medium-sized businesses, the tourist infrastructure. The main base for the above studies served as the head of the country's decree "National economy and main directions of the strategic road maps for the main sectors of the economy."

All these and other factors, which once again confirmed by the head of the main sectors of the national economy and the economy of the strategic road maps and road maps, each of which has a very strong base for the future is the promise of great economic achievements. The country is on a solid foundation of comprehensive development of the processes, based on strong management, dynamic and future trends in the resistance, which creates a need for consistency.


## РЕЗЮМЕ

**Джавадхан Гасымов**

**Утверждение дорожных карт стимул текущего экономического развития**

В статье говорится о пути прошедшем страной в экономическом развитии. Здесь заходит речь о правовых актах, принятых общенациональным лидером Гейдаром Алиевым, на основе которых осуществлялись гибкие механизмы в области организации национальной экономики. Говорится о нефтяном и ненефтяном, сельскохозяйственном потенциале, развитии малого и среднего бизнеса, туристической инфраструктуре. Основной базой для приведенных обоснований служил указ главы страны «Национальная экономика и основные направления стратегических дорожных карт по основным секторам экономики».

Все эти и другие факторы, которые в очередной раз подтвердил глава основных отраслей народного хозяйства и экономики стратегических дорожных карт и дорожных карт, каждая из которых имеет очень прочную основу для будущего обещание больших экономических достижений. Страна находится на прочной основе всестороннего развития процессов, основанный на эффективном управлении, динамичных и будущих тенденций в области сопротивления, что создает необходимость последовательности.



NDU-nun Elmi Şurasının 30 mart 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 07).

Məqaləni çapa təqdim etdi: İqtisad üzrə elmlər doktoru, professor A.Rüstəmov

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2017, № 2 (83)**

NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2017, № 2 (83)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2017, № 2 (83)**

**COŞQUN MƏMMƏDOV**
*Xəzər Universiteti*
*joshgun.mammadov@hotmail.com*

**UOT:621.039**

# NÜVƏ ENERJİSİ, ONUN MÜSBƏT VƏ MƏNFİ CƏHƏTLƏRİ

***Açar sözlər:*** *ənənəvi enerji mənbələri, alternativ və bərpa olunan enerji mənbələri, nüvə enerjisi, ekoloji problem*
***Key words:*** *traditional energy sources, alternative and renewable energy sources, nuclear energy, environmental problem*
***Ключевые слова:*** *традиционные источники энергии, альтернативные и возобновляемые источники энергии, атомная энергетика, экологическая проблема*

Dünyada müasir qloballaşma şəraitində enerji mənbələrinə tələbat əhəmiyyətli dərəcədə artmaqdadır. Belə ki, dünya əhalisinin artımı, sənayeləşmə prosesinin inkişafı, insanların sosial rifah səviyyəsinin yüksəlməsi və elmi-texniki tərəqqinin sürətli inkişafı paralel olaraq enerjiyə olan tələbatın da artımına səbəb olur. Məhz davamlı sosial-iqtisadi inkişafın təmin edilməsi və eyni zamanda cəmiyyətin enerjiyə olan tələbatının ödənilməsi baxımından enerji mənbələri olduqca önəmlidir.

Enerji mənbələri aşağıdakı kimi təsnif edilir:

1. Ənənəvi enerji mənbələri:

– Faydalı qazıntılar (neft, təbii qaz, daş kömür, yanar daşlar (slanslar) və s.).
– Nüvə və termonüvə enerjisi.

2. Qeyri-ənənəvi enerji mənbələri:

– Alternativ və bərpa olunan enerji mənbələri (günəş, külək, su, termal sular, bioenerji və s) [6].

**Nüvə enerjisi potensialı və ondan istifadə**

Ənənəvi enerji mənbələrinin bir növü kimi nüvə enerjisindən elektrikləşdirmə və istiləşdirmə məqsədi ilə istifadə olunur. Hal-hazırda dünyanın 30 ölkəsində 392 082 MW gücə malik 450 ədəd nüvə reaktoru fəaliyyət göstərir. Onlardan 186 ədədi (41%) Avropanın, 136 ədədi (30%) Asiyanın, 119 ədədi (26%) Şimali Amreikanın, 7 ədədi (2 %) Cənubi Amerikanın və 2 ədədi (1 %) isə Afrikanın payına düşür [9].

**Qrafik №1**

**Dünya üzrə nüvə reaktorları**




Bu sahə üzrə mövcud istehsal gücünə görə "Böyük beşlik"-də — ABŞ (100 350 MW), Fransa (63 130 MW), Yaponiya (40 290 MW), Çin (31 402 MW) və Rusiya (26 557 MW) dayanır [9].

Dünya üzrə Atom Elektrik Stansiyalarının ümumi istehsal gücü 2014-2015-ci illər arası 1,8%, 2015-2016(okt)–ci illər arası isə 2,4% artmışdır. Xalis artım isə Çinin (+29,1% (2014-2015) və +14,7% (2015-2016(okt)) payına düşür. Belə ki, Çin 2005-ci ilin göstəriciləri ilə müqayisədə nüvə reakrorlarının sayını 4 dəfə artırmışdır. Bu göstərcilərlə o, Cənubi Koreya və Rusiyanı önləyərək dünyanın dördüncü ən böyük nüvə enerjisi təchizatçısına çevrilmışdir. Lakin ölkədə enerjiyə olan tələbatın yüksək olması ilə əlaqədar nüvə enerjisindən əldə olunan enerji məqbul hesab edilə bilməz. Belə ki, bu enerji ölkədaxili ümumi enerjinin yalnız 3%-ni ödəyə bilir.

**Cədvəl №1**

*Dünya ölkələri üzrə nüvə enerji potensialı*

| Ölkələr | 2005 | | 2010 | | 2014 | | 2015 | | 2016 (okt) | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Reaktor | | Reaktor | | Reaktor | | Reaktor | | Reaktor | |
| | sayı | gücü (MW) | sayı | gücü (MW) | sayı | gücü (MW) | sayı | gücü (MW) | sayı | gücü (MW) |
| ABŞ | 103 | 98 145 | 104 | 101 211 | 99 | 98 723 | 99 | 99 185 | 100 | 100 350 |
| Fransa | 59 | 63 260 | 58 | 63 130 | 58 | 63 130 | 58 | 63 130 | 58 | 63 130 |
| Yaponiya | 55 | 47 593 | 54 | 46 821 | 48 | 42 388 | 43 | 40 290 | 43 | 40 290 |
| Çin | 9 | 6 587 | 13 | 10 065 | 23 | 19 007 | 31 | 26 774 | 36 | 31 402 |
| Rusiya | 31 | 21 743 | 32 | 22 693 | 34 | 24 654 | 35 | 25 443 | 36 | 26 557 |
| Cənubi Koreya | 20 | 16 810 | 21 | 18 698 | 23 | 20 753 | 24 | 21 733 | 25 | 23 133 |
| Kanada | 18 | 12 584 | 18 | 12 604 | 19 | 13 500 | 19 | 13 524 | 19 | 13 524 |
| Ukrayna | 15 | 13 107 | 15 | 13 107 | 15 | 13 107 | 15 | 13 107 | 15 | 13 107 |
| Almaniya | 17 | 20 339 | 17 | 20 490 | 9 | 12 074 | 8 | 10 799 | 8 | 10 799 |
| Digər ölkələr | 114 | 67 957 | 109 | 66 458 | 110 | 69 005 | 109 | 68 870 | 110 | 69 790 |
| **Cəmi:** | **441** | **368 125** | **441** | **375 277** | **438** | **376 341** | **441** | **382 855** | **450** | **392 082** |

** 10 000 MW-dan yuxarı olan göstəricilər qeyd edilmişdir.*

***Mənbə:** 1. **Nuclear Power Reactors in the World-2016 / IAEA-reference data series No [7].** 2. BMT-nin Atom Enerjisi üzrə Beynəlxalq Agentliyi [9].*

2012-2015-ci illər arası nüvə enerjisi istehsalından əldə olunan enerji dünya üzrə ümumi elektrik enerjisinin 10,9 %-ni təşkil etmişdir [10]. Ölkədaxili enerji tələbatının ödənilməsinə görə isə ən yüksək göstərici Fransaya məxsusdur. Belə ki, nüvə enerjisində əldə olunan enerji ölkədaxili ümumi enerjinin 76,3 %-ni ödəyə bilir [9].

**Cədvəl №2**

*Dünya ölkələri üzrə nüvə enerji istehsalı*

| Ölkələr | 2005 | | 2010 | | 2014 | | 2015 | |
|---|---|---|---|---|---|---|---|---|
| | TW/saat | Ölkə daxili enerji payı (%) | TW/saat | Ölkə daxili enerji payı (%) | TW/saat | Ölkə daxili enerji payı (%) | TW/saat | Ölkə daxili enerji payı (%) |
| ABŞ | 783,35 | 19,3 | 807,08 | 19,6 | 798,62 | 19,5 | 798,01 | 19,5 |
| Fransa | 431,18 | 78,5 | 410,09 | 74,1 | 418,00 | 76,9 | 419,02 | 76,3 |
| Çin | 50,33 | 2,0 | 70,96 | 1,8 | 123,81 | 2,4 | 161,20 | 3,0 |
| Rusiya | 137,64 | 15,8 | 159,41 | 17,1 | 169,06 | 18,6 | 182,81 | 18,6 |
| Cənubi Koreya | 137,59 | 44,7 | 141,89 | 32,2 | 149,20 | 30,4 | 157,20 | 31,7 |
| Kanada | 86,83 | 14,5 | 85,50 | 15,1 | 98,59 | 16,8 | 95,64 | 16,6 |
| Almaniya | 154,61 | 26,6 | 133,01 | 22,6 | 91,78 | 15,9 | 86,81 | 14,1 |
| Ukrayna | 83,40 | 48,5 | 83,95 | 48,1 | 83,12 | 49,4 | 82,41 | 56,5 |
| Böyük Britaniya | 75,34 | 20,0 | 56,85 | 15,5 | 57,92 | 17,2 | 63,89 | 18,9 |
| İspaniya | 54,99 | 19,6 | 59,26 | 20,1 | 54,86 | 20,4 | 54,76 | 20,3 |
| İsveç | 69,58 | 44,9 | 55,73 | 38,1 | 62,27 | 41,5 | 54,46 | 34,3 |
| Digər ölkələr | 561,50 | - | 566,09 | - | 303,14 | - | 285,12 | - |
| **Cəmi:** | **2 626,34** | | **2 629,82** | - | **2 410,37** | - | **2 441,33** | - |

** 50,00 TW-dan yuxarı olan göstəricilər qeyd edilmişdir.*

***Mənbə:** 1. **Nuclear Power Reactors in the World-2016 / IAEA-reference data series***

*No [7]._2. BMT-nin Atom Enerjisi üzrə Beynəlxalq Agentliyi [9].*

Dünya üzrə 2015-ci ildə ümumi nüvə enerji istehlakı 2 577,1 TW/saat olmuşdur. Nüvə enerji istehlakında ABŞ 839,1 TW/saat göstərici ilə liderlik edir. Əvvəlki illə müqayisədə ən böyük artım Çinin (+22,5%) payına düşür. Sonrakı yerləri isə Böyük Britaniya (+9,4%) və Rusiya (+7,4%) tutur. Ən böyük azalma isə əsasən İsveç (-12,7%) və Almaniyada (-5,8%) qeydə alınmışıdır. Ümulikdə isə 2014-ci il ilə müqayisədə nüvə enerji istehlakında -1,4% həcmində geriləmə müşahidə edilmişdir.

**Cədvəl №3**

***Dünya ölkələri üzrə nüvə enerji istehlakı – TW/saat***

| Ölkələr | 2005 | 2010 | 2014 | 2015 | Nisbət 2014/2015 % |
|---|---|---|---|---|---|
| ABŞ | 823,1 | 849,4 | 839,1 | 839,1 | - |
| Fransa | 451,5 | 428,3 | 436,5 | 437,4 | 1,3 |
| Rusiya | 147,6 | 170,4 | 180,8 | 195,2 | 7,4 |
| Çin | 53,1 | 73,9 | 132,5 | 170,8 | 22,5 |
| Cənubi Koreya | 146,9 | 148,6 | 156,4 | 164,8 | 5,1 |
| Kanada | 91,4 | 90,0 | 106,9 | 104,2 | -2,6 |
| Almaniya | 163,0 | 140,6 | 97,1 | 91,5 | -5,8 |
| Ukrayna | 88,8 | 89,2 | 88,4 | 87,6 | -1,0 |
| Böyük Britaniya | 81,6 | 62,1 | 63,7 | 70,3 | 9,4 |
| İsveç | 73,4 | 58,6 | 65,5 | 57,2 | -12,7 |
| İspaniya | 57,5 | 62,0 | 57,3 | 57,2 | -0,2 |
| Digər ölkələr | 590,6 | 594,6 | 319,0 | 301,8 | -5,4 |
| **Cəmi:** | **2 768,5** | **2 767,7** | **2 543,2** | **2 577,1** | **-1,4** |

** 50,00 TW/saatdan yuxarı olan göstəricilər qeyd edilmişdir.*

***Mənbə:** Statistical Review of World Energy-2016 / BP [5].*

Hazırda ölkəmizdə də nüvə enerjisindən istifadə məsələsi aktual səciyyə daşıyır. Belə ki, nüvə texnologiyaları və nüvə energetikası sahəsində kompleks tədbirlərin həyata keçirilməsi və respublikanın gələcək dayanıqlı inkişafının təmin olunması məqsədilə Azərbaycan Respublikası prezidentinin 8 may 2014-cü il tarixli 442 nömrəli sərəncamı ilə Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyi tabeliyində "Milli Nüvə Tədqiqatları Mərkəzi" QSC yaradılmışdır. Bu məqsədlə ölkəmizdə tədqiqat nüvə reaktorunun layihələndirilməsi və müvafiq elmi araşdırmalar da aparılmaqdadır. Lakin respublikamızda tədqiqat nüvə reaktorunun olmaması və mövcud maddi-texniki bazanın zəifliyi nüvə xammal ehtiyatları potensialının qiymətləndirilməsinə dair tədqiqlərin müasir tələblərə uyğunlaşdırılmasına imkan vermir [11, 8].

**Nüvə enerjisindən istifadənin üstünlükləri və zərərləri**

Nüvə enerjisi digər ənənəvi enerji mənbələri ilə müqayisədə ən böyük üstünlüyü isə onun daha ekoloji təmiz olmasıdır. Belə ki, faydalı qazıntılardan enerji hasil edilən zaman ətrafa külli miqdarda tam və bəzən də natamam yanma məhsulları atılır. Tam yanma məhsulları içərisində karbon qazı ($CO_2$) (ildə 2,5 mld ton) üstünlük təşkil edir ki, bunun da atmosferə atılması nəticəsində atmosferdə yaranan "istixana effekti" mümkün iqlim dəyişikliklərinə səbəb olur. İstixana effektinin yaranmasında da ən böyük yeri 61% göstərici ilə məhz karbon qazı ($CO_2$) tutur. Nüvə enerjisindən istifadə isə atmosferin kükürd və azot oksidləri ilə çirklənmə səviyyəsinin azalmasında, həmçinin karbon qazı emissiyasının azalmasında və beləliklə istixana effektinin qarşısının alınmasında mühüm rol oynayır. Digər tərəfdən isə bu yanacağın istifadəsi zamanı alınan enerjinin miqdarı digər eyni miqdarda götürülmüş yanacaqlarınkından yüz dəfələrlə çoxdur. Məsələn, 0,5 kq nüvə yanacağından alınan elektrik enerjisini daş kömür yandırılan istilik elektrik stansiyalarında istehsal etmək üçün təxminən 1000 ton yanacaq sərf edilməlidir. Buna görə də normal istismar edilən Atom Elektrik Stansiyalarının ətraf mühitə vurduqları ziyan digər İstilik Elektrik Stansiyalarındakından müqayisədə azdır [2, s.11-15].

Lakin onu da qeyd edək ki, nüvə enerjisindən istifadənin müsbət cəhətləri ilə yanaşı mənfi cəhətləri də vardır. Belə ki, bu enerji mənbəyindən istifadə ətraf mühit və bəşəriyyət üçün qəza halları riski baxımından real təhlükə mənbəyidir. Bunu bir sıra nümunələrlə də izah edə bilərik. Belə ki, nüvə enerji stansiyalarının yaxınlığında olan obyektlərin radiasiyaya məruz qalma ehtimalı çox yüksəkdir. Doğrudur inkişaf etmiş ölkələrdə bu məqsədlə hava, qida və su nümunələri götürülərək bu prosesə nəzarət edilir. Çünki nüvə enerjisi

alınarkən əmələ gələn radioaktiv tullantıları etibarlı, həm də iqtisadi cəhətdən sərfəli usulla ləğv etməyin böyük əhəmiyyəti var. Lakin bunu bütün ölkələrə şamil etmək düzgün deyil. Buna Ermənistanda istismar müddəti keçmiş və qəzalı vəziyyətdə hələ də fəaliyyət göstərən Metsamor AES-i misal göstərə bilərik.

Bundan başqa, atom enerjisi istehsalı üçün xammal rolunda olan uran və plutonium ehtiyatlarının təbiətdəki məhdudluğu bu enerji növünə olan ümidləri azaldır. Həmçinin, okeanlarda uran ehtiyatı çox olsa da, hələlik ondan istifadə etmək iqtisadi cəhətdən əlverişli deyildir. Belə ki, 1 qram okean suyunda cəmi 5 milliqram uran vardır.

Digər tərəfdən təbii fəlakətləri və texnogen qəzaları da nəzərə alsaq, görərik ki, baş verə biləcək hər hansı qəza zamanı ətraf mühitə radioaktiv maddələrin yayılması böyük fəlakətlərə səbəb ola bilər. Belə ki, dünya atom energetikasının inkişaf tarixi məhz atom elektrik stansiyalarında baş verən üç böyük miqyaslı qəza ilə "ləkələnmişdir". Bu qəzalardan birincisi 28 mart 1979-cu ildə ABŞ-ın Trimeyl Aylend AES-ində, ikincisi 26 aprel 1986-cı ildə Ukraynanın Çernobıl AES-ində, üçüncüsü isə 11 mart 2011-ci il tarixində Yaponiyanın "Fukuşima-1" AES-ində baş vermişdir [1, s.278]. Məhz bu kimi qəzalar onu göstərir ki, heç bir ölkə hətta inkişaf etmiş ölkələr belə bu cür bədbəxt hadisələrin təkrarlanmasından sığortalanmamışdır.

Atom elektrik stansiyalarında yaşanan bu kimi qəzalar nəticə etibarı ilə bu enerji mənbəyindən istifadəyə əsaslı surətdə mənfi təsir göstərməklə, onun heç də uğurlu alternativ mənbə olmadığını sübut etdi. Təkcə Yaponiyadakı Fukuşima faciəsindən sonra əhalinin kəskin etirazları ilə qarşılaşan Almaniya Federativ hökuməti əsaslı təmir və yenidənqurma işlərinin həyata keçirilməsi məqsədilə 31 May 2011-ci ildən 2022-ci ilədək ölkədəki nasaz 17 nüvə reaktorunun fəaliyyətini dayandırmaq qərarına gəldi. Avropa İttifaqı daxilində keçirilmiş ümumi sorğu isə göstərir ki, təkcə Avropa əhalisinin 70%-i nüvə enerjisindən istifadənin əleyhinədir və onun gətirdiyi risklərin üstünlüklərindən daha çox olduğunu düşünürlər [4, s.323].

Statistik məlumatlara əsasən gələcəkdə bu kimi faciələrin bir daha yaşanmaması məqsədilə bu günə qədər ümumilikdə 157 ədəd istismar müddətini başa vurmuş nüvə reaktorlarının fəaliyyəti dayandırılmışdır. Bu sırada ilk yerləri ABŞ (33), Böyük Britaniya (30), Almaniya (28), Yaponiya (16) və Fransa (12) tutur [9].

Lakin qəza halları riskinin olması ilə yanaşı nüvə enerjisinin əldə edilməsi məqsədilə işlənmiş yanacağın zərərsizləşdirilməsi məsələsi də indiyədək öz həllini tapmayan açıq məsələ olaraq qalmaqdadır. Çünki, reaktiv nüvə tullantıları təxminən 25 000 il aktiv qalır ki, belə tullantıların da təhlükəsizliyi və düzgün saxlanılması prosesinin təşkilinə nəzarət şübhə doğurur [3, s.5-6].

**NƏTİCƏ**

Sonda belə bir nəticəyə gələ bilərik ki, enerji tələbatının ödənilməsi məqsədilə nüvə enerjisindən istifadənin cəmiyyətin iqtisadi və sosial rifahının inkişafına göstərdiyi müsbət təsirləri ilə yanaşı ətraf mühitə vurduğu ciddi mənfi təsirləri də danılmazdır.

Mövcud ənənəvi enerji mənbələrinin bir növü kimi nüvə enerjisinin ətraf mühitə qarşı bu kimi zərərli təsirlərini və eyni zamanda atom enerjisi istehsalı üçün xammal rolunda olan uran və plutonium ehtiyatlarının məhdudluğunu nəzərə alsaq, bu enerji növünü heç də etibarlı enerji növü kimi hesab edə bilmərik. Lakin milli enerji təhlükəsizliyinin təminatı baxımından bu kimi ənənəvi enerji mənbələrindən asılılığın minimuma endirilməsi və hətta gələcəkdə bu asılılığın tamamilə aradan qaldırılması yalnız daha etibarlı və daha təmiz enerji növü olan alternativ və bərpa olunan enerji mənbələrindən geniş və səmərəli istifadə ilə mümkündür.

Onu da nəzərə almalıyıq ki, ölkəmiz ənənəvi enerji mənbələri ilə yanaşı zəngin qeyri-ənənəvi enerji mənbələri olan alternativ və bərpa olunan enerji ehtiyatlarına da malikdir. Məhz ölkəmizin yerləşdiyi əlverişli təbii coğrafi mövqe bizə imkan verir ki, müasir, yüksək texnologiyaların və genişmiqyaslı, uğurlu innovativ layihələrin tətbiqi ilə bu kimi təbii ehtiyatlardan dolğun və səmərəli şəkildə istifadə edə bilək.

## ƏDƏBİYYAT


1. Cəfərov E.S. Radiobiologiya (Magistrlar üçün dərs vəsaiti). Bakı, 2014
2. Cəlilov M.F. Alternativ Regenerativ Enerji Sistemləri (Dərslik). Bakı, 2009
3. Azərbaycanda Alternativ enerji siyasəti və onun həyata keçirilməsi. Randal Beyker CONTEXT (ABŞ təhsilli Azərbaycan məzunları ictimai birliyi). Rüblük jurnal 02.2010 www.aaa.org.az
4. İnsan inkişafı (tədris vəsaiti). Birləşmiş Millətlər Təşkilatının İnkişaf proqramı. Bakı, 2014
5. BP Statistical Review of World Energy June 2016 http://www.bp.com/content/dam/bp/pdf/energy-economics/statistical-review-2016/bp-statistical-review-of-world-energy-2016-full-report.pdf
6. BMT-nin Baş Assambleyasının 1978-ci il 33/148 nömrəli sərəncamı http://www.un.org/documents/ga/res/33/ares33r148.pdf

7. IAEA (Atom Enerjisi uzrə Beynəlxalq Agentliyi)-Nuclear Power Reactors in the World-2016 / Reference Data Series No. 2 / http://www-pub.iaea.org/MTCD/Publications/PDF/RDS_2-36_web.pdf
8. World Energy Resources Complete 2013 Survey. https://www.worldenergy.org/wp-content/uploads/2013/09/Complete_WER_2013_Survey.pdf
9. www.iaea.org - BMT-nin Atom Enerjisi uzrə Beynəlxalq Agentliyi
10. www.nei.org - Nüvə Enerjisi İnistitutu
11. www.president.az - Azərbaycan Respublikası Prezidentinin rəsmi internet ünvanı

**ABSTRACT**

**Mammadov J. I.**

**Nuclear energy, it's positive and negative aspects**

In the article traditional nuclear energy sources and their positive and negative aspects are widely studied. Extensive space is devoted to the analysis of the environmental problems arising during the acquisition of traditional energy sources. In order to eliminate dependence on traditional energy sources, a more efficient and extensive use of non-traditional, alternative and renewable energy sources has been offered.

**РЕЗЮМЕ**

**Мамедов Д. И.**

**Ядерная енергетика, её положительные и отрицательные стороны**

В статье изучены положительные и отрицательные стороны ядерной энергетики относящейся к традиционным источникам энергии. Место уделено анализу проблем возникающих в экологии во время приобретения ядерной энергии. В целях устранения зависимости от традиционных источников энергии предлагается более выгодное и широкое использование нетрадиционных, альтернативных и возобновляемых источников энергии.

Ixtisas şifri: 5311.01

NDU-nun Elmi Şurasının 30 mart 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 07).

Məqaləni çapa təqdim etdi: İqtisad üzrə elmlər doktoru, professor A.Rüstəmov

**SARA HACIYEVA**
AMEA Naxçıvan Bölməsi
hacyevasara@ yahoo.com

**UOT:658**

# XIII-XV ƏSRLƏRDƏ NAXÇIVANDA KƏND TƏSƏRRÜFATI

***Açar sözlər:*** *Naxçıvan, kənd təsərrüfatı, maldarlıq, taxılçılıq, bostançılıq*
***Key words:*** *Nakhchivan, farm, cattle-breeding, the job of a grain-grower, water-melon*
***Ключевые слова:*** *Нахчыван, сельское хозяйства, животноводство, бахчеводство*

Məlumdur ki, hələ qədim və orta əsrlər dövründən Azərbaycanda, həmçinin onun qədim mədəniyyət mərkəzlərindən olan Naxçıvanda əhalinin əsas məşğuliyyəti əkinçilik, maldarlıq, sənətkarlıq və ticarətlə bağlı olmuşdur. Naxçıvan ərazisi havasının təmizliyi, suyunun bolluğu, torpağının münbitliyinə görə seçilmişdir. Əlverişli təbii şərait Naxçıvanda təsərrüfatın əksər sahələrinin inkişafına imkan yaradırdı. Lakin tarixin bir çox zamanlarında olduğu kimi, XIII-XV əsrlərdə də bölgədə cərəyan edən hadisələr iqtisadi həyata, o cümlədən də kənd təsərrüfatının inkişafına ciddi əngəl törətmişdir. XIII əsrin əvvəllərində Azərbaycan Atabəylərinin hakimiyyəti dövründə ölkədə, o cümlədən də Naxçıvanda əhalidən bir çox adda vergilər yığılsa da, ümumi vəziyyət o qədər də acınacaqlı olmamışdır.

Z.Bünyadov o dövr Azərbaycan, həmçinin Naxçıvan bölgəsinin həyat şəraitini və dövlətin ölkədə apardığı siyasi, iqtisadi, mədəni prosesləri təhlil edərkən yazır ki, Azərbaycan Atabəylərinin hakimiyyəti dövründə ölkənin bir çox şəhərlərində müxtəlif səciyyəli binaların intensiv inşası aparılmışdı (1, s. 189). Bu isə təbii ki, ölkədə siyasi sabitliyin mövcud olması ilə bağlı idi. Azərbaycanda, o cümlədən də Naxçıvanda olan sabitlik həmin dövrdə kənd təsərrüfatının müəyyən sahələrinin inkişafına şərait yaratmışdı. Naxçıvan Azərbaycan Atabəyləri dövlətinin mərkəzi şəhərlərindən biri idi. Buna görə həmin dövrdə Naxçıvan çox böyük bir inkişaf yolu keçmişdir. Naxçıvanın kənd təsərrüfatı məhsulları və meyvələri o dövrlərdə çox məşhur olduğundan bölgədəki bazarlarda rəğbət qazanmışdı. Azərbaycan Atabəyləri dövründə, Naxçıvanda dünyada ən gözəl və ən faydalı üzüm, pambıq və dənli bitkilər (buğda, arpa) və s. yetişdirilirdi (4, s. 101-102).

Monqol yürüşlərinədək olan dövrdə Azərbaycan Ön Asiyanın inkişaf etmiş əkinçilik ölkələrindən biri olmuşdur. Kəndlilər ölkə əhalisinin əksəriyyətini təşkil edirdilər. Əkinçilik və maldarlıq kəndlilərin başlıca məşğuliyyəti idi. Qoyunçuluq və atçılıq maldarlığın əsas sahələrini təşkil edirdi. Muğan, Şirvan, Urmiya, Kür və Araz çayları arasındakı ərazilərdə maldarlıq üçün əlverişli otlaqlar var idi. Lakin Atabəylər dövründə Naxçıvan və ona yaxın bölgələr nə qədər böyük bir iqtisadi inkişaf yoluna qədəm qoysa da, XIII əsrin 20-ci illərindən başlayaraq monqol hücumları bölgənin iqtisadi çətinliyə düşməsinə səbəb olmuş və demək olar ki, əhali ən çətin illərini yaşamağa başlamışdır. Çox təəssüf ki, bu sabitlik həm Atabəylər dövlətinin zəifləməsi, həm də monqolların Azərbaycana, o cümlədən də Naxçıvana hücumu nəticəsində pozulmuş oldu. Monqolların işğal və istila etdikləri digər ərazilər kimi, Naxçıvan bölgəsində və bölgəyə yaxın yerlərdə də kənd təsərrüfatı talan edilmiş, əkin yerləri tapdalanmış, xırmanlar yandırılmışdı.

F.Rəşidəddinin yazdığı kimi, "əksər vilayətlərin rəiyyəti cəlayi-vətən olub, yad vilayətlərdə özləri üçün ev-eşik düzəltdilər. Şəhərlər və kəndlər boşaldı. Didərgin düşmüş əhalini öz sabiq yerlərinə qaytarmaq üçün onlara müxtəlif işgəncələr verildi. Dövrün məlumatına görə şəhərdə qalan adamların əksəriyyəti evlərin qapılarını daş ilə hörmüş və ya baca açmışdılar. Onlar vergi yığan məmurların qorxusundan evlərinin damlarından o tərəf bu tərəfə qaçırdılar. Kişiləri ələ keçirə bilmədikdə, onların qadınlarını tutub qoyun sürüsü kimi qabaqlarına qatıb məhəllə-məhəllə vergi toplayan məmurların yanına aparırdılar. Onları ayaqlarından asıb döyürdülər" (8, s. 168). N.Vəlixanlı əsli Bakıdan olan Əbdürrəşid əl-Bakuviyə istinadən (XIV əsr) monqollaraqədərki Naxçıvan haqqında yazır: "Naxçıvan Azərbaycanın yaraşıqlı şəhəridir. Oranın bağları, ağacları çoxdur, taxılı, meyvəsi boldur, havası təmizdir, suyu şirindir (10, s. 40)

XIII əsrin 20-ci illərindən başlayaraq Azərbaycanda maldarlıqla məşğul olan əhalinin sayı gəlmə türk-monqol tayfaları hesabına kəskin şəkildə artmışdı. Köçəri maldarlığın artması ölkənin müxtəlif vilayətlərində əkinçiliyin inkişafına maneçilik törədirdi. Becərilən torpaqlar otlaqlara çevrilmişdi. Köçəri maldarlar bu ölkənin oturaq əkinçi əhalisinə qarşı talançı yürüşlər edirdilər (2, s. 53). Bu isə yerli əhalinin həyat tərzinə və ilk növbədə kənd təsərrüfatının və əkinçiliyin inkişafına mənfi təsir göstərirdi. R.Məmmədov Naxçıvan şəhərinin monqolların hakimiyyəti dövründəki vəziyyətindən bəhs edərkən onu şərti olaraq iki mərhələyə ayırmışdır: 1. Şəhərin XIII əsrin sonlarına qədərki Elxan Qazan xanın islahatınadək vəziyyəti; 2. XIV əsrdəki vəziyyəti. Müəllif bu bölgünü onunla əsaslandırır ki, Azərbaycanın bir sıra

şəhərlərindən fərqli olaraq Naxçıvan XIII əsrin sonlarından etibarən yenidən yavaş-yavaş dirçəlməyə başlamışdı. Bunun əsas səbəbi isə Naxçıvanın əlverişli coğrafi mövqedə yerləşməsi, zəngin təbii sərvətləri və əsrlər boyu ölkənin həyatında oynadığı mühüm roldan ibarət olmuşdur (5, s. 85).

Tarixçi alim V.Piriyev dövrün görkəmli dövlət xadimi, vəzir, təbib, aqronom Fəzlullah Rəşiddədinin kənd təsərrüfatına həsr etdiyi “Asar və Əhya” (Təsir və dirçəliş) əsərinə istinadən XIII-XIV əsrlərin kənd təsərrüfatını xarakterizə edir və göstərir ki, bəhs olunan dövrün çətinliklərinə baxmayaraq torpağın şumlanması, arata qoyulması, dənli bitkilərin əkini, suvarma və suvarma sistemi, bağ, bostan bitkilərinin becərilməsi, kübrələnməsi, budama, calaq etmə, xəstəliklərə və ziyanvericilərə qarşı mübarizə kimi təsərrüfat həyatı ilə məşğulluq bu bölgədə davam etdirilirdi. Həmçinin, Naxçıvanın iqlim şəraitinə uyğun olaraq, dənli bitkilərdən buğda, arpa, çəltik, bostan bitkilərindən qarpız, texniki bitkilərdən pambığın becərildiyi haqda məlumatlar verilir və göstərilir ki, əhali maldarlıq, arıçılıqla məşğul olur burada yağ, bal və digər məhsullar istehsal olunurdu (9, s. 51). XIII əsrin ortalarında Hülaku dövlətinin yaradılması və tədricən mərkəzi hakimiyyətin qüvvətlənməsi də təsərrüfatda müəyyən canlanmaya səbəb olmuşdu. Vergi siyasəti nisbətən müəyyənləşmiş və mərkəzi idarə sistemi yaranmışdı.

Məlumdur ki, monqolların hakimiyyəti dövründən başlayaraq monqol feodalları Azərbaycanın zəngin torpaqlarının müəyyən hissəsini öz aralarında bölmüşdülər. Azərbaycan feodal dövlətlərində monqol hökmdarlığı dövründə formalaşmış torpaq mülkiyyəti növləri (divani, xassə, mülk, vəqf) mövcud idi. Hülakülər dövründə torpaqlar əsasən dörd kateqoriyadan ibarət idi: “Divan” (dövlətə məxsus olan torpaqlar), “İncu”, “Xass” və yaxud “Xass incu” (Xana və onun ailəsinə məxsus olan torpaqlar), “Mülk” (yerli feodallara aid torpaqlar), “Vəqf” (dini idarələrə, məscidlərə, mədrəsələrə aid torpaqlar). Naxçıvan ərazisi bu kateqoriyadan “mülk” torpaqları sırasında hesab olunurdu. Belə ki, Qazan xanın vəziri Fəzlullah Rəşidəddinin Azərbaycanda olan 8000-10000 hektar torpaq mülkündən təxminən 1000 hektarı Naxçıvanda idi (6, s. 88).

Monqollar əvvəlki vergiləri saxlamaqla yanaşı, yeni vergilər (qopçur, tamğa, kalan) təyin etmişdilər. Hələ 1254-cü ildə Azərbaycanda 10 yaşından 60 yaşınadək bütün kişi cinsindən olanlar siyahıya alınmışdı. Vergi və mükəlləfiyyətlərin sayı 40-dan artıq idi. XIII əsrin sonunda Keyxatu xan xəzinənin boşalmasının qarşısını almaq üçün çao adlanan kağız pulları dövriyyəyə buraxsa da, islahat özünü doğrultmadı. Dövlətin siyasi-iqtisadi qüdrətinin bərpa edilməsi zərurəti Elxani hökmdarı Qazan xanın (1295-1304) daxili siyasət istiqamətini əsaslı surətdə dəyişməyə, bir sıra mühüm islahatlar keçirməyə məcbur etmişdi. 1297-1304-cü illər ərzində həyata keçirilən islahatlar digər şəhərlərlə bərabər, Naxçıvan üçün də əhəmiyyətli olmuşdu (2, s. 64). XIV əsrdə də Elxanilər dövlətində əhalidən bir sıra vergi və mükəlləfiyyətlər toplanılırdı. Vergilərin miqdarında və yığılmasında özbaşınalıq hökm sürürdü. Həmin dövrdə Naxçıvanda əhali bir sıra digər vergilər, o cümlədən qopçur, xərac, tamğa, nüzl, bigar, cizyə, əvariz, təğar, ülufə, mərsumu və s. adda vergilər ödəmişlər. XIV əsrin 40-cı illərində Hülakülər tərəfindən Naxçıvan nahiyəsində yığılan vergilərin ümumi məbləği ildə 113 min dinar olmuşdur (6, s. 89).

Vəqf torpaq və mülkləri dini müəssisələrin-məscid, mədrəsə və xanəgahların ixtiyarına verilir, əldə edilən gəlirin bir hissəsi onlara sərf olunurdu. Bu torpaqlardan hökumət üçün vergi yığılmır, vəqf əmlakı toxunulmaz sayılırdı. Azərbaycanda iqta torpaq mülkiyyəti daha çox XIII-XIV, soyurqal isə XIV əsrin ikinci yarısından, Cəlairilərin hakimiyyəti dövründən tədricən meydana gəlmiş və XV əsrdən daha genişlənmişdir. Özündən əvvəlki iqta institunun inkişafı nəticəsində yaranan soyurqal institutu Azərbaycanda olan feodal mülkiyyətinin əsas növlərindən biri idi və xidmət müqabilində verilən torpaq mülkiyyəti formasıdır. Soyurqal Ağqoyunluların hakimiyyəti dövründə daha çox yayılmışdı. Mənbələr yazır ki, hələ bu günə qədər Ağqoyunlu hökmdarı Rüstəm Mirzə qədər soyurqal paylayan ikinci bir hökmdar olmamışdır. Soyurqal sahibləri hökmən padşahın hərbi və ya mülki xidmətində olmalı, onun mənafeyindən ötrü çalışmalıydı. Soyurqal sahibləri iqta sahiblərinə nisbətən öz torpaqlarında tam müstəqil idilər və dövlət məmurlarının həmin torpaqlardan vergi yığmalarına nəinki yol verilir, hətta məmurların o torpaqlara yaxın düşmələri belə qadağan edilirdi (7, s. 255). Təbii ki, bu vergi və mükəlləfiyyətlər də əhalinin həm kənd təsərrüfatının inkişafına olan marağını azaldır, həm də müflisləşməsinə daha çox təsir göstərirdi.

XIII-XIV əsrlərdə Azərbaycan, o cümlədəm də Naxçıvan bölgəsinin əhalisi vergi və mükəlləfiyyətlərin dəhşətli ağırlığı altında əziyyət çəkmişdlər. Vergilərin yığılması prosesində mövcud olan özbaşınalıqlar bu zülmü daha dözülməz edirdi. Həyat şəraitinin ağırlaşması zəhmətkeşlərin kütləvi şəkildə yaşayış yerlərini tərk etməsinə səbəb olurdu. Dözülməz zülm nəticəsində Naxçıvanda mövcud olan evlərin 5/6 hissəsi boşalmışdı Baş verən müxtəlif yoluxucu xəstəliklər, məhsulsuzluq əhalinin həyat şəraitini xeyli ağırlaşdırmışdı (11, s. 110). Bütün bunlar Azərbaycanın digər bölgələri kimi, Naxçıvana da mənfi təsir göstərən amillər idi və naxçıvanlıların həyat səviyyəsinin pisləşməsinə səbəb olurdu.

Qazan xanın vergi islahatı ilə vergilərin növləri, toplama üsulları və vaxtı dəqiqləşdirilmişdi. Həmin dövrdən qanunsuz vergilərin yığılması qadağan olunmuş, vergi toplanmasının iltizama (icarəyə) verilməsi

üzərinə nəzarət qoyulmuşdu. XIV əsrin 30- cu illərində ölkənin iqtisadi vəziyyəti yenidən pisləşməyə başladı. Mənbələrin verdiyi məlumata görə Çobani feodalları ölkədə mümkün qədər daha çox dağıntı törədir, əhalinin əmlakını müsadirə edir və talayırdılar. Camaat əmlakını, evlərini, kəndlərini tərk edib qaçırdılar. Onların əkinini, var-yoxunu vəhşi və zalım qaniçənlər yeyirdilər. Yerli oturaq təsərrüfatı aradan götürməyə cəhd göstərən Çobanilər öz ağalıqları dövründə rəiyyəti amansız istismar edirdilər (9, s. 93). Çobani feodallarının ağalığına son qoyulması və Azərbaycanda Cəlairilər dövlətinin yaranması təsərrüfatda müəyyən canlanmaya səbəb olmuşdu. Bu isə ən başlıca olaraq Cəlairi Şeyx Uveysin həyata keçirdiyi islahatların nəticəsi idi. Şeyx Üveysin dövründə ölkədə abadlıq işləri aparılmış, suvarma kanalları çəkilmiş, kənd təsərrüfatının və heyvandarlığın inkişafına diqqət artırılmışdı. Lakin Şeyx Üveysin islahatları iqtisadiyyatda müəyyən canlanma yaratsa da, XIV əsrin son onilliklərində Əmir Teymur və Toxtamışın Azərbaycana aramsız yürüşləri təsərrüfatın bütün sahələrinə mənfi təsir göstərdi (1, s. 346).

XIV əsrin müəyyən zamanlarında kənd təsərrüfatında baş vermiş nisbi yüksəlişə baxmayaraq, kənd təsərrüfatı istehsalının həcmi XIII əsrin əvvəllərindəki səviyyəyə çatmadı. Bir çox vilayət və bölgələrdə kənd təsərrüfatından əldə olunan gəlirlər təxminən 8-10 dəfə azalmışdı. Həmin dövrdə heyvandarlıq kənd təsərrüfatının yeganə sahəsi hesab olunurdu ki, monqol işğalları dövründə bu sahə geniş surətdə inkişaf etmişdi. Lakin heyvandarlığın inkişafı türk-monqol mənşəli köçəri tayfaların miqrasiyası ilə əlaqədar idi. Qoyunçuluq, atçılıq, iş heyvanlarının yetişdirilməsi heyvandarlığın mühüm sahələri idi (2, s. 50).

XIV əsrin sonu-XV əsrin əvvəllərində Naxçıvan bölgəsi Qaraqoyunluların Sədlu əmirləri tərəfindən idarə olunmuşdu. Onların dövlətin idarə edilməsindəki nüfuzlarını nəzərə alsaq, güman etmək olar ki, Naxçıvan tüməni də onların nəzarəti altında olmuşdu. Çünki XV əsrin 20-ci illərində divan torpaqları kimi Naxçıvanın Qara Yusifin oğlanları tərəfindən idarə olunduğu məlum olur. Bu dövrdə Naxçıvana xüsusi diqqət yetirilməsinin mühüm səbəblərindən biri də Qaraqoyunluların əsas xəzinələrindən birinin məhz Naxçıvan yaxınlığındakı Əlincə qalasında saxlanması idi. Qaraqoyunluların hakimiyyəti dövründə Qazi İmadəddin Əlincə qalasına yiyələndikdən sonra ətraf yerlərdə yaşayan türk və tərəkəmə tayfalarını qalaya yığmış, əhalidən toplanan ülufə və mərsumu (vergi) özü müəyyənləşdirmişdi (6, s. 252).

XIV əsrin 70-ci–XV əsrin 30-cu illərində Azərbaycanda digər sahələrdə olduğu kimi kənd təsərrüfatının inkişafında da çətinliklər yaranmışdı. Bu, ölkənin həyatında baş vermiş ictimai-iqtisadi, hərbi və siyasi hadisələrlə sıx bağlı idi. Lakin XV əsrin 30-80-ci illərində ölkədə vəziyyətin qismən sabitləşməsi tənəzzül prosesinin dayandırılmasına səbəb oldu. Cahanşahın, Uzun Həsənin və Sultan Yaqubun keçirdiyi islahat kənd təsərrüfatının da yüksəlişinə müəyyən qədər şərait yaratmışdı (2, s. 195).

Naxçıvanın əlverişli coğrafi mövqeyi, zəngin təbii sərvətləri və əsrlər boyu ölkənin həyatında oynadığı mühüm rol onun yenidən dirçəlməsi üçün xüsusi zəmin yaratmışdı. Uzun Həsənin islahatları şəhərlərin yüksəlişini təmin edən rəsmi tədbir idi. Ağqoyunluların hakimiyyətə gəlməsi ilə ölkənin iqtisadi vəziyyətində müəyyən dirçəliş baş verdi. Ağqoyunlu Uzun Həsən bütün Azərbaycan torpaqlarını birləşdirən güclü dövlətin yaranması siyasətini həyata keçirirdi. O, ölkə iqtisadiyyatının yüksəlməsi üçün əhalinin vəziyyətini yaxşılaşdırmaq, kənd təsərrüfatı sahələrini inkişaf etdirmək üçün səy göstərirdi. Uzun Həsən hakimiyyəti dövründə ölkədə yığılan vergilərin həcmini dəqiqləşdirmiş, əhali arasındakı mübahisə və şikayətlərə aid “Qanunnamə” tərtib etdirmişdi. Günahkarları sərt şəkildə cəzalandırmağı tələb edən Sultan “Qanunnamə”ni icra edilmək üçün dövlətin bütün vilayətlərinə, o cümlədən Naxçıvana da göndərmişdi (3, s. 108). Bəhs olunan dövrdə də kəndlilər və sənətkarlar 40-dan çox vergi və mükəlləfiyyət icra edirdilər. Malcəhət adlanan məhsul vergisi rəiyyəti var-yoxdan çıxarırdı. Malcəhət Uzun Həsənin “Qanunnaməsinə” əsasən məhsulun 1/5 hissəsini təşkil edirdi. Kəndlilər sudan istifadə müqabilində bəhrə adlı vergi ödəyirdi.

XV əsrdə də əhalinin təsərrüfat həyatı nisbətən inkişaf etmiş və təsərrüfatda əkinçilik və maldarlıq mühüm yer tutmuşdu. Hər zaman olduğu kimi, taxılçılıq əkinçiliyin əsas sahəsi idi. O dövrdə buğda və darı əkilmiş sahələr ölkənin bütün vilayətlərini əhatə edirdi. Texniki bitkilər arasında pambıqçılıq Naxçıvanda geniş yayılmış sahələrdən biri idi. Bağçılıq da kənd təsərrüfatının əsas sahələrindən biri hesab edilirdi. Bağlarda müxtəlif növ meyvələr - alma, armud, üzüm, ərik, şaftalı, heyva, tut, albalı, gilənar, badam, limon və s. becərilirdi. Naxçıvan, Ordubad, Azad, vilayətləri mühüm bağçılıq və üzümçülük bölgələri idi. Azad bölgəsində hazırlanmış şərablar geniş şöhrət qazanmışdı (2, s. 50).

Nəticə olaraq qeyd etmək olar ki, XIII-XV əsrlərdə Azərbaycanın digər bölgələri kimi Naxçıvanda da ictimai-siyasi vəziyyətlə əlaqədar olaraq təsərrüfat sahələrində müəyyən gerilələmələr olmuşdur. Lakin dövrün çətinliklərinə baxmayaraq əhali kənd təsərrüfatının inkişafına xüsusi əhəmiyyət vermişdir.

## ƏDƏBİYYAT


1. Azərbaycan tarixi (Akademik Z.Bunyadov və t.e.d. Y.Yusifovun redaktəsilə). Bakı, Azərnəşr, 1994, 688 s.
2. Azərbaycan tarixi: 7 cilddə, III c. Bakı, Elm, 1999, 584 s.
3. Fərzəliyev Ş. Azərbaycan XV-XVI əsrlərdə. Bakı: Elm, 1983, 152 s.

4. Kürkçüoğlu E. Nahçıvan tarihi (V-XV yüzyıllar). Erzurum: Guneş Vakfı Yayınları, 2007, 134 s.
5. Məmmədov R. Naxçıvan şəhərinin tarixi oçerki. Bakı, Elm, 1977, 158 s.
6. Naxçıvan tarixi: 3 cilddə, I c. Naxçıvan, Əcəmi, 2014, 528 s.
7. Onullahi S.M. XIII-XVII əsrlərdə Təbriz şəhərinin tarixi. Bakı, Elm, 1982, 280 s.
8. Piriyev V. Azərbaycan Hülakülər dövlətinin tənəzzülü dövründə. Bakı, Elm, 1978, 162 s.
9. Piriyev V. "Naxçıvan tarixindən səhifələr (XIII-XIV əsrlər). Bakı, Müəllim, 2004, 126 s.
10. Vəlixanlı N. Naxcıvan-ərəblərdən monqollaradək (VII-XII əsrlər). Bakı, Elm, 2005, 152 s.
11. Ализаде А.А. Социально-экономическая и политическая история Азербайджана XIII-XIV вв. Баку, 1956, 420 с.
12. Петрушевский П. Государства Азербайджана в XV веке // Сборник статей по истории Азербайджанской ССР, 1949, с. 153-214.

## ABSTRACT

**Sara Hajiyeva**

**The agriculture in Nakhchivan in 13$^{rd}$-15$^{th}$ centuries**

In the paper it is dealt with the social and economic situation of Nakhchivan, which had been in sphere of influence of Hulakuies, Chobanids, Jalairies, Garagoyunluies and Aghgoyunluies in 13$^{sd}$-15$^{th}$ centuries. It is noted that, as in all periods of history at that time Nakhchivan had been in the interest circle of the many states, in this territory, in which authorities had collided, the local population had suffered from conflicts mostly. The definite behind had been in the areas of farm connecting to the socio-political situation in Nakhchivan too, as other regions of Azerbaijan in 13$^{sd}$-15$^{th}$ centuries. The natural climatic conditions, coat of fertile soil, artificial and natural irrigation system of the Nakhchivan region had increased the interest of economic life of the population every time. But in 13$^{sd}$-15$^{th}$ centuries, in region the happened events had procreated serious obstacles to development of farm as in other areas committed. Despite all the difficulties of the period, the population had attached special importance to the development of agriculture. This was borning out by the fact that, as in all periods of history, in mentioned time the cropping, cattle-breeding and other sectors of the agriculture was been considered the only source of food supply of the population.

## РЕЗЮМЕ

**Сара Гаджиева**

**Сельское хозяйства в Нахчыване XIII-XV вв.**

В статье обсуждается общественно-экономическое положение Нахчыван попавший в сфере влияние Хулакидов, Джаларидов, Чобанидов, Каракоюнлу и Аккоюнлу в XIII-XV вв. Отмечается, что как и во все периоды истории и то время Нахчыван был в сфере интересах некоторых государств и многие люди в этой области пострадали от конфликта властей. Как другие регионы Азербайджана так и в Нахчыване связи с общественно-экономическое положение наблюдается снижение в хозяйственной сфере. Климатическое условия, плодородная почва, искуственные и естественные системы орошения всегда увеличилось интерес население к хозяйственной жизни в Нахчыванской регионе. Но проходивщие событий регионе в XIII-XV вв. совершили серьезные препятствия на пути развития как сельского хозяйства, как и других областях. Несмотря на все трудности периода население подавала как и все периоды истории и то время земледелие, животноводство и другие области сельского хозяйства являлось единственным источником продуктов питание население.

NDU-nun Elmi Şurasının 30 mart 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 07).

Məqaləni çapa təqdim etdi: İqtisad üzrə elmlər doktoru, professor A.Rüstəmov

**СЕВИНДЖ ДЖАББАРОВА**
*Нахчыванское Отделение НАНА*
*sjabbar@mail.ru*

**УДК: 331**

# ФОРМИРОВАНИЕ РЕГИОНАЛЬНОГО ТРУДОВОГО ПОТЕНЦИАЛА (НА ПРИМЕРЕ НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКИ)

***Açar sözlər:*** *əmək potensialı, əmək resursları, insan potensialın inkişaf indeksi (İPİİ), işçilərin peşakar-ixtisaslaşma strukturu,əmək bazarı, regional siyasət, məşğulluq strukturu*

***Keywords:*** *labur potential, labur resources, human development index (HDI), professional and qualification structure of personnel, labur market, regional policy, employment structure*

***Ключевые слова:*** *трудовой потенциал, трудовые ресурсы, индекс развития человеческого потенциала (ИРЧП), профессионально-квалификационная структура персонала, рынок труда, региональная политика, структура занятости*

Успешное развитие государства, региона не может быть осуществлено без наращивания человеческого потенциала. Мировой опыт показывает, что сам человек играет все более значимую роль в социально-экономическом развитии общества. В последние годы наблюдается повышенный интерес к проблемам повышения качества и эффективности использования человеческого потенциала и в научной среде, и в авторитетных всемирных организациях (Всемирный банк, ООН, ЮНЕСКО и др.). По данным Всемирного банка развития на долю средств производства и капитала приходилось в мировом валовом продукте приходилось 1/5 (21%), природных ресурсов – менее 1/7 (15%), на долю человеческих ресурсов – 2/3 (64%) (сто лет назад данное соотношение было прямо противоположным)[6, стр. 65].

Как показывает мировой опыт, наибольший эффект в темпах экономического роста наблюдается в тех странах, где многие годы реализуется политика, направленная на сбережение, целевое формирование и активное использование человеческого потенциала. И Азербайджану, стремящемуся быть в ряду динамично развивающихся и благополучных государств, необходимо иметь население, способное успешно решать экономические, социальные, технологические, управленческие и другие задачи.

Трудовой потенциал, являясь частью человеческого, характеризуется такими аспектами, как: психофизиологические возможности участия в общественно полезной деятельности, возможности нормальных социальных контактов, творческие способности, наличие знаний и навыков, необходимых для выполнения определенных обязанностей и видов работ, предложение на рынке труда. Приведенным аспектам соответствуют следующие составляющие трудового потенциала: здоровье, творческий потенциал, активность, образование, ресурсы рабочего времени и др. [1, стр 20].

Формирование трудового потенциала как на уровне страны, так и на уровне региона происходит под воздействием целого ряда факторов, влияющих на количество и качество трудового потенциала: демографических, профессионально-квалификационных и социально-экономических.

Так, исследования показывают, что согласно переписи населения в 2009 году в Нахчыванской Автономной Республике проживает 398323 человек, из них мужчин - 198267 чел., а женщин – 200056 чел. (см. табл.1). Сельское население в автономной республике составляет 282835 чел., а городское – 115488 чел., т.е. превалирует на 167347 чел.

В то же время следует отметить, что наибольшая плотность населения приходится на Шарурский район - 102282 чел., г. Нахичевань - 82552 чел., Бабекский район - 62886 чел., Ордубадский район - 45049 чел., Джульфинский район - 41195 чел., Кенгерлинский район - 27597 чел., Шахбузский район - 22746 чел. и Садаракский район - 14016 чел.

**Таблица 1.Численность населения в Нахчыванской Автономной Республике**

**(по данным переписи населения в 2009 году)**

| Территория | Всего | | Мужчин | | Женщин | |
|---|---|---|---|---|---|---|
| | человек | % | человек | % | человек | % |
| Нахчыванская АР | 398323 | 100,0 | 198267 | 100,0 | 200056 | 100,0 |
| Городское население | 115488 | 28,99 | 57515 | 29,01 | 57973 | 28,98 |
| Сельское население | 282835 | 71,01 | 140752 | 70,99 | 142083 | 71,02 |
| В том числе: г.Нахчыван | 82552 | 20,72 | 41083 | 20,72 | 41469 | 20,73 |
| Бабекский район | 62886 | 15,79 | 31266 | 15,77 | 31620 | 15,81 |
| Джульфинский район | 41195 | 10,34 | 20618 | 10,40 | 20577 | 10,29 |
| Кенгерлинский район | 27597 | 6,93 | 13583 | 6,85 | 14014 | 7,01 |
| Ордубадский район | 45049 | 11,31 | 22581 | 11,39 | 22468 | 11,23 |
| Садаракский район | 14016 | 3,52 | 7072 | 3,57 | 6944 | 3,47 |
| Шахбузский район | 22746 | 5,71 | 11478 | 5,79 | 11268 | 5,63 |
| Шарурский район | 102282 | 25,68 | 50586 | 25,51 | 51696 | 25,84 |

Примечание: таблица составлена на основе следующих источников: [8, стр.61].

Так, рассматривая численность населения автономной республики по возрастным группам, мы ясно видим, что в 2013 году наибольшую часть населения составляют дети в возрасте до 4-х лет - 46577 чел., из них мужчин - 24209 чел., а женщин - 22368 чел. Затем идёт молодёжь в возрасте от 20-24-х лет - 41913 чел., из них мужчин - 21056 чел., а женщин - 20857 чел.; в возрасте от 25-29 лет - 40401 чел., из них мужчин - 19782 чел., а женщин - 20619 чел.; в возрасте от 15-19 лет -39086 чел., из них мужчин - 20307 чел., а женщин - 18779 чел.; в возрасте от 30-34 лет - 33804 чел., из них мужчин -16712 чел., а женщин - 17092 чел.; в возрасте от 45-49 лет - 29246 чел., из них мужчин - 14164 чел., а женщин - 15082 чел.; в возрасте от 40-44-х лет - 28830 чел., из них мужчин - 14286 чел., а женщин - 14544 чел.; в возрасте от 35-39 лет - 28231 чел., из ни х мужчин - 14295 чел., а женщин - 13936 чел.; в возрасте от 50-54-х лет - 27567 чел., из них мужчин - 13288 чел., а женщин - 14279 чел.; в возрасте от 55-59 лет - 18659 чел., из них мужчин - 8757 чел., а женщин - 9902 чел. (см. табл. 2).

**Таблица 2.Численность населения по возрастным группам в Нахчыванской Автономной Республике (на начало 2013 года)**

| | Всего | | Мужчин | | Женщин | |
|---|---|---|---|---|---|---|
| | человек | % | человек | % | человек | % |
| Нахчываская АР | 427228 | 100,0 | 212532 | 100,0 | 214696 | 100,0 |
| в том числе: 0-4 | 46577 | 10,90 | 24209 | 11,39 | 22368 | 10,42 |
| 5-9 | 29789 | 6,97 | 15794 | 7,43 | 13995 | 6,52 |
| 10-14 | 29947 | 7,01 | 15848 | 7,46 | 14099 | 6,57 |
| 15-19 | 39086 | 9,15 | 20307 | 9,55 | 18779 | 8,75 |
| 20-24 | 41913 | 9,81 | 21056 | 9,91 | 20857 | 9,71 |
| 25-29 | 40401 | 9,46 | 19782 | 9,32 | 20619 | 9,60 |
| 30-34 | 33804 | 7,91 | 16712 | 7,86 | 17092 | 7,96 |
| 35-39 | 28231 | 6,61 | 14295 | 6,73 | 13936 | 6,49 |
| 40-44 | 28830 | 6,75 | 14286 | 6,73 | 14544 | 6,77 |
| 45-49 | 29246 | 6,85 | 14164 | 6,66 | 15082 | 7,02 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 50-54 | 27567 | 6,45 | 13288 | 6,25 | 14279 | 6,65 |
| 55-59 | 18659 | 4,36 | 8757 | 4,12 | 9902 | 4,61 |
| 60-64 | 11215 | 2,63 | 5102 | 2,40 | 6113 | 2,85 |
| 65-69 | 5116 | 1,20 | 2269 | 1,07 | 2847 | 1,33 |
| 70-74 | 6188 | 1,45 | 2624 | 1,23 | 3564 | 1,66 |
| 75-79 | 6118 | 1,43 | 2387 | 1,12 | 3731 | 1,74 |
| 80-84 | 3158 | 0,74 | 1203 | 0,57 | 1955 | 0,91 |
| 85-89 | 1025 | 0,24 | 347 | 0,16 | 678 | 0,32 |
| 90-94 | 258 | 0,06 | 88 | 0,04 | 170 | 0,08 |
| 95-99 | 52 | 0,01 | 7 | - | 45 | 0,02 |
| 100 и выше | 48 | 0,01 | 7 | - | 41 | 0,02 |

Примечание: таблица составлена на основе следующих источников: [8, стр.62].

Наименьшую часть населения составляют люди в возрасте от 60-64 лет- 2,63%; в возрасте от 65-69 лет -1,20%; в возрасте от 70-74 лет - 1,45%; в возрасте от 75-79 лет - 1,43%; в возрасте от 80-84 лет - 0,74%; в возрасте от 85-89 лет - 0,24%; в возрасте от 90-94 лет - 0,06%; в возрасте от 95-99 лет - 0,01%; свыше 100 лет – 0,01%. Всё это говорит о том, что в Нахчыванской Автономной Республике продолжительность жизни короткая и большую часть населения составляет молодёжь и средняя часть населения.

В целом с 1897 года по сей день, за прошедшие 120 лет население Нахчыванской Автономной Республики увеличилось от 177,3 тыс. человек до 447 тыс. человек, или в 2,7 раз.

Благодаря рынку труда трудовые ресурсы участвуют в производстве и превращаются из потенциального ресурса в ресурс реальный. Известно, что эффективность использования трудовых ресурсов характеризуется занятостью населения, а уровень индустриального развития, тип хозяйственного механизма и способность к инновационному обновлению производства – профессионально-квалификационной структурой рабочей силы.

В последние годы обострилась проблема несоответствия имеющейся профессионально-квалификационной структуры необходимой структуре, а также дисбаланс между спросом и предложением рабочей силы на рынке труда. Отмечается недостаточный спрос на рабочую силу при одновременном ее дефиците на локальных рынках труда по причине несоответствия качества профессионально-квалификационной структуры кадров текущим потребностям экономики.

Анализ состояния в области предложения и спроса на профессии разной квалификации и направленности показывает возрастающий спрос на рабочие профессии (83% среди рабочих специальностей составляют продавцы). Среди вакансий для ИТР и служащих преобладали бухгалтеры, медперсонал, врачи, преподаватели, секретари, воспитатели, агенты. Невостребованными рабочими остаются телеграфисты, радиооператоры, проводники, животноводы; не хватает рабочих мест для служащих – контролеров, библиотекарей, ветеринаров. Предложение юристов, экономистов и менеджеров разного уровня образования превышает спрос на них. Ценность профессионального образования в большей степени стала зависеть не от реальной потребности в определенных специалистах и содержания их труда, а от его престижности.

Общая экономическая ситуация в Нахчыванской Автономной Республике в последние годы характеризовалась ростом производства продукции и уменьшением проблем в социальной сфере: финансовое положение большинства предприятий области было удовлетворительным; наблюдалась средняя инвестиционная активность; основные фонды предприятий имели высокую степень обновления; произошла реконструкция сложившихся хозяйственных связей; ощущалось увеличение высококвалифицированных руководящих кадров, способных управлять в рыночных условиях; сельскохозяйственное производство развивалось благодаря государственной политике поддержки села.

Развитие экономики и социальной сферы в Нахчыванской Автономной Республике характеризуется тремя факторами:

– сдвиг структуры хозяйства в сторону промышленных отраслей. В настоящее время для Нахчыванской Автономной Республики характерны диверсификация экономики, высокие темпы модернизации производства, создание благоприятных условий для развития малого и среднего бизнеса, средняя инвестиционная привлекательность;

– повышение качества человеческих ресурсов в АР. В настоящее время индекс развития человеческого потенциала (ИРЧП) является единым обобщающим показателем, признанным мировым сообществом. Нахчыванская Автономная Республика относится к числу регионов со средним ИРЧП, который имеет основная доля регионов Азербайджана.

Эффективность региональных программ заключается в том, что они имеют прочную финансовой базу, жестко связаны со стратегиями развития Азербайджана, а также учитывают новые тенденции в развитии экономики АР, опираются на зарождающиеся новые отрасли. И как следствие, эти программы желательно подкрепить соответствующей профессионально-квалификационной структурой персонала.

Проведенное исследование формирования трудового потенциала Нахчыванской Автономной Республики позволяет сформулировать ряд положений и сделать следующие выводы.

1. За годы реформ в регионе неуклонно снижались количество и качество трудового потенциала. В социально-экономическом развитии больше уделялось внимание развитию экономики. По нашему мнению, такая точка зрения ошибочна. В настоящее время в России задача по преодолению проблем формирования трудового потенциала должна быть одной из ключевых. В условиях интенсификации экономического развития для повышения качества аналитической работы необходимы новые методы и мониторинги эффективности использования трудового потенциала в регионе, что позволит анализировать его составляющие компоненты и вскрывать проблемы формирования и использования трудового потенциала.

2. Для решения первоочередных задач развития территорий и выстраивания стратегии развития ее трудового потенциала, для проведения мониторингов на региональном уровне, ранжирования регионов и муниципальных образований, диагностики несбалансированности развития, выявления слабых мест и концентрации ресурсов, наряду с количественными показателями, необходимо и целесообразно использовать комплексные. Однако, несмотря на все преимущества ИРЧП, следует продолжать поиск более совершенных индексов для оценки трудового потенциала [6, стр. 78].

3. В переходный период в результате стихийной либерализации рынка труда, непоследовательной экономической политики и политики занятости населения ухудшилась качественная составляющая трудового потенциала (несоответствие существующей профессионально-квалификационной структуры требуемой, дисбаланс между спросом и предложением рабочей силы на рынке труда, несоответствие качества профессионально-квалификационной структуры кадровым потребностям экономики). Рыночная экономика предъявляет повышенные требования к образовательному, профессиональному и квалификационному уровню трудового потенциала. Инвестиции в сферу образования являются долгосрочными вложениями. В стратегии развития образования в области приоритетами должны выступать: создание новых моделей непрерывного профессионального обучения и изменение менталитета населения (мотивация к непрерывному обучению в течение всей жизни). Содержание непрерывного образования должно рассматриваться с позиций мониторинга регионального рынка труда, учета географического положения, перспектив развития региона. Система такого образования в Архангельской области должна стать основой перманентного процесса воспроизводства трудовых ресурсов в связи с требованиями перехода к рыночной экономике, с учетом особенностей физического и психологического состояния личности, способностей и подготовленности к получению новых знаний и возможностей.

4. Административная экономика (прямого продуктообмена) показала свои неоспоримые преимущества в концентрировании ресурсов в экстремальных ситуациях. В этих условиях из минимума ресурсов получали максимум продукции. Однако ее отрицательная сторона – производство ради производства и полное равнодушие к потребителю. Анализ процессов, связанных с изменением структуры занятости, позволяет говорить о том, что регион движется к постиндустриальному обществу в соответствии с общемировой тенденцией. В современных условиях формирования информационного общества для качественного роста региональной экономики и повышения ее конкурентоспособности на основе использования новых технологий принципиально необходима такая стратегия развития Нахчыванской Автономной Республики, основой которой выступает человек, его благосостояние, здоровье и образование.

## ЛИТЕРАТУРА


1. Генкин Б.П. Экономика и социология труда. – М.: Норма, 2005. – С253.
2. Голубев А.Н., Кудрявцева Т.И. и др. Экономико-демографическая обстановка в Архангельской области. – Архангельск, 1982.
3. Хозяйство Севера. – 1929. – № 2. – С46–47.
4. Концепция развития трудового потенциала Архангельской области. Распоряжение главы администрации Архангельской области от 31. 01. 2005 N 75 р.
5. Овчинников О. В. Папаренко Я. В., Сметанин А. В. Северо-Западный федеральный округ: рождение макрорегиона. Архангельск, 2005. С 243–244.

6. Червонная И. И. Индекс развития человеческого потенциала как индикатор социально-экономического развития региона// Экономические и социальные проблемы развития Европейского Севера. Архангельск: АГТУ, 2006. С182.
7. Численность и естественное движение населения Архангельской области за 1990–2006 годы. Статистический сборник. Архангельск, 2007.
8. Azərbaycan Respublikası əhalisinin siyahıya alınması–1999. Bakı, 2001.

## XÜLASƏ

**Sevinc Cabbarova**

**Regional əmək potensialın formalaşması (Naxçıvan Muxtar Respublikası materialları əsasında)**

Məqalə Naxçıvan Muxtar Respublikasının əmək potensialının planlı bölüşdürilmə iqtisadiyyatın sənayeləşmə cəmiyyətindən bazar iqtisadiyyatinin informasiya cəmiyyətinə keçıd donəmində formalaşmasına həsr edilib. Naxçıvan Muxtar Respublikasının əmək potensialının kəmiyyət və keyfiyyət göstəriçilərinin formalaşma prosesi tədqiq olunur. Bazar iqtisadiyyatına keçid dövründə meydana gələn regionun əmək potensialının yenidənistehsalına təsir edən amillərə xüsusi diqqət yetirilir. Əmək potensialının formalşmasına dair problemlər təhlil olunub və onların həll etmə yollarına dair təkliflər verilib.

## ABSTRACT

**Sevinj Jabbarova**

**Formation of regional labor potential (on the basic of Nakhchivan Autonomous Republic)**

The article is devoted to the formation of the labor potential of the Nakhchivan Autonomous Republic in the period of transition from an industrial society of the planned distribution economy to the information society of a market economy. The process of forming the quantitative and qualitative components of the labor potential of the Nakhchivan Autonomous Republic is being studied. Particular attention is paid to the factors affecting the reproduction of the labor potential of the region that arose during the transition to a market economy. The problems of formation of labor potential are analyzed and ways of their solution are offered.

NDU-nun Elmi Şurasının 30 mart 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 07).

Məqaləni çapa təqdim etdi: İqtisad üzrə elmlər doktoru, professor A.Rüstəmov

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2017, № 2 (83)**

NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2017, № 2 (83)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2017, № 2 (83)**

**BULQEYİS NOVRUZOVA**
*Naxçıvan Dövlət Universiteti*
*bulqeyis@yahoo.com*

**UOT:339.9**

# BEYNƏLXALQ HESABLAŞMALARIN ƏSAS FORMALARININ QISA XARAKTERİSTİKASI: BANK KÖÇÜRMƏSİ

***Açar sözlər:*** *beynəlxalq maliyyə, beynəlxalq hesablaşmalar, beynəlxalq ödəmələr, xarici-ticarət sövdələşmələri, valyuta münasibətləri, bank köçürməsi*

***Key words:*** *international finance, international settlements, international payments, boreign-trade transactions, cyrrency relations, bank transfer*

***Ключевые слова:*** *международные финансы, международные расчеты, международные платежи, внешнеторговые контракты, валютные отношения, банковский перевод*

Dövlətlər, müxtəlif ölkələrin ərazisində yerləşən fiziki və hüquqi şəxslər arasında iqtisadi, siyasi, mədəni münasibətlərin əsasında valyutada pul tələbləri və öhdəlikləri yaranır. Beynəlxalq hesablaşmalar yuxarıda göstərilən pul tələbləri və öhdəlikləri üzrə ödəmələrin təşkili və tənzimlənməsini əks etdirir.

Beynəlxalq hesablaşmalar aşağıdakı sahələr üzrə həyata keçirilir:

- xarici ticarət;
- ölkələr arasında kapitalın hərəkəti;
- inkişaf etməkdə olan ölkələrə yardım.

Beynəlxalq ticarət təcrübəsində göndərilən məhsula, yerinə yetirilən işə, yaxud göstərilən xidmətə görə hesablaşma forması böyük əhəmiyyət kəsb edir. Xarici-iqtisadi müqavilələrin iştirakçılarının qarşılıqlı maraqlarını nəzərə alaraq hesablaşmalar müxtəlif formalarda həyata keçirilir, məsələn, avans ödəmə, inkasso, vekselin akseptləşdirilməsi qaydasında, çeklərlə, akkreditivdən istifadə etməklə və s.

Beynəlxalq hesablaşmalar bankların gündəlik fəaliyyətidir. Onlar dünya ictimaiyyəti tərəfindən işlənmiş və əksər ölkələr tərəfindən qəbul edilmiş şərt, norma və qaydalar əsasında beynəlxalq hesablaşmaları həyata keçirir, xaricə ödəmələr edirlər. Beynəlxalq hesablaşmalar sferasında bankların fəaliyyəti dövlətlər və beynəlxalq iqtisadi təşkilatlar tərəfindən tənzimlənir.

Beynəlxalq hesablaşmaların vəziyyəti aşağıdakı amillərdən asılıdır:

- emitent ölkənin iqtisadi və valyuta siyasəti;
- ölkələr arasında iqtisadi və siyasi münasibətlər;
- valyuta qanunvericiliyi;
- beynəlxalq ticarət qaydaları və adətləri;
- bank praktikası;
- xarici ticarət kontraktları və kredit razılaşmalarının şərtləri.

Hesablaşma forması ödəmə sənədlərinin və əmtəə sərəncamçısı olan sənədlərin verilməsinin və ödənilməsinin beynəlxalq kommersiya və bank təcrübəsində tətbiq olunan rəsmiləşdirilməsi qaydalarını özündə əks etdirir. Beynəlxalq hesablaşmaların yuxarıda adları çəkilən formaları həm nağd ödəmələr, həm də kreditlə ödəmələr zamanı tətbiq olunur. Bununla yanaşı, bank köçürmələri həm sənədli akkreditivə və nağd pula satış üzrə hesablaşmalar zamanı, həmçinin kommersiya kreditindən istifadə etməklə hesablaşmalar zamanı tətbiq olunur.

Xarici ticarət müqaviləsi üzrə ödənişlərin həyata keçiriləcəyi hesablaşmanın konkret formasının seçilməsi xarici ticarət sövdələşməsi üzrə tərəfdaşların razılığına əsasən müəyyən olunur. İdxal və ixrac olunan mallara (xidmətlərə) görə hesablaşmaların aparılması qaydası ölkənin qanunvericiliyi ilə tənzimlənir, həmçinin ödəniş sənədlərinin ödənilməsinin və sənədli rəsmiləşdirilməsinin beynəlxalq qaydalarına uyğunlaşdırılır.

Beynəlxalq hesablaşmalar əsasən nağdsız qaydada və banklar vasitəsilə həyata keçirilir. Bu zaman müxtəlif ölkələrin kredit təşkilatları, bankları arasında müxbir münasibətləri qurulur. Bu məqsədlə banklar hesabların (**nostro** – bankın digər banklarda hesabları, **loro** – digər bankların bankda hesabları) açılması barədə qarşılıqlı müxbir sazişləri imzalayırlar.

Bu sazişlərdə hesablaşma qaydaları, komisyon mükafatlandırmanın həcmləri, həmçinin vəsaitlər xərcləndikcə müxbir hesabların yenidən vəsaitlə təmin edilməsi metodları öz əksini tapır. Banklar beynəlxalq hesablaşmaları özlərinin xarici filialları və bölmələri vasitəsilə də həyata keçirə bilərlər.

Xarici ticarət müqavilələrinin, milli və xarici valyutaların dönərlilik dərəcəsi və mövqelərindən asılı olaraq beynəlxalq hesablaşmaların müxtəlif formalarından istifadə olunur.

Dünya praktikasında **inkasso, akkreditiv, bank köçürməsi, avans hesablaşamaları, açıq hesab üzrə hesablaşamalar,** həmçinin **veksellər və çeklər** formasında hesablaşmalar kimi forma və metodlardan istifadə edilir. Daha sonralar yeni vasitə – kredit kartları (alış-veriş kartları) meydana gəlmişdir.

Beynəlxalq hesablaşmaların üsullarının və vasitələrinin fərqləndirmək məqsədəuyğun olardı, çünki beynəlxalq hesablaşma formaları anlayışı adətən özündə bu iki anlayışı birləşdirir. Avans ödəməsi, akkreditiv, inkasso, açıq hesablar üzrə ödəmələr, əmtəənin yüklənməsindən dərhal sonra həyata keçirilən ödəmə və s. ö**dəmə üsullarına aiddir**. Çek, veksel, bank trattası, köçürmə (poçt, teleqraf/teleks ödəmə tapşırığı, SWIFT sistemi üzrə ödəmə tapşırıqları, beynəlxalq ödəmə tapşırığı) və s. isə h**esablaşma vasitələrinə aiddir**:

Beynəlxalq hesablaşmaların tənzimlənməsi dünya praktikasında bərqərar olmuş qayda və ənənələrin köməyi ilə həyata keçirilir. Beynəlxalq hesablaşmaların ayrı-ayrı növlərindən istifadə edilməsi ilə həyata keçirilən hesablaşmalar unifikasiya edilmiş qayda və ənənələrdə kodlaşdırılmışdır. Bu sənədlərdə əks olunan qaydalar dəyişən şəraitə uyğun olaraq müntəzəm olaraq nəzərdən keçirilir. Qeyd edək ki, həmin sənədlərə dövlətlər deyil, banklar qoşulurlar. Qoşulma halında bu qayda və ənənələr banklar və onlar müştəriləri üçün məcburi olur.

Hesablaşma formasının seçilməsi bir sıra amillərlə müəyyən edilir. Əmtəə və xidmət ixracatçı və idxalatçılarının maraqları adətən üst-üstə düşmür: ixracatçı idxalatçıdan ödəməni ən qısa müddət ərzində almağa səy göstərir, idxalatçı isə ödəməni əmtəənin son realizə mərhələsinə qədər uzatmağa çalışır. Buna görə də hesablaşmanın seçilmiş forması kompromis variant olur və burada tərəflərin iqtisadi mövqeləri, bir-birlərinə inam dərəcəsi, iqtisadi konyunktura, siyasi vəziyyət və s. nəzərə alınır.

Bundan əlavə, əmtəənin görünüşü, əmtəəyə tələb və təklifin səviyyəsi də mühüm rola malikdir. Beynəlxalq hesablaşmalar kredit münasibətləri ilə sıx əlaqədə olduğundan bu cür münasibətlərin olub-olmaması (həm dövlətlərarası, həm də kontragentlər səviyyəsində) da hesablaşma formasının seçilməsinə öz təsirini göstərir.

İxracatçı və idxalatçı arasında kompromis əldə edilsə də, bir sıra formalar ixracatçılar üçün, digərləri isə idxalatçılar üçün daha əlverişlidir. Məsələn, ixracatçının nöqteyi-nəzərindən ən etibarlı ödəmə forması avans ödəməsi, ən az etibarlısı isə açıq hesab üzrə hesablaşmadır.

Beynəlxalq hesablaşmaların tətbiq olunan formaları onların həyata keçirilməsində kommersiya banklarının iştirakı payına görə fərqləndirilir. Bankların minimum iştirak payı bank köçürmələrinin həyata keçirilməsi zamanı, yəni müştərinin ödəmə tapşırığı yerinə yetirilərkən müəyyənləşdirilir.

İnkasso əməliyyatlarının aparılmasında bankların iştirak payı, yəni əmtəə sərəncamçısı olan sənədlərinin ötürülməsinə, göndərilməsinə və onların etibar edənin şərtlərinə müvafiq olaraq tədiyyəçiyə verilməsinə nəzarət, xüsusilə əhəmiyyətlidir.

Akkreditivlərlə hesablaşmalar zamanı bankların maksimum iştirak payı alıcıya (benefisiara) akkreditivdə əks olunan şərtlərə riayət olunmaqla reallaşdırılan ödəmə öhdəliklərinin təqdim olunmasında ifadə olunur. (Cədvəl 1.)

Hesablaşmaların bu və ya digər formasının seçilməsi əsasən tərəf müqabillərinin qarşılıqlı etibarlılıq səviyyəsindən və milli qanunvericiliklərin xüsusiyyətlərindən asılıdır.

Bank köçürməsi bankın öz müxbir-bankına köşürməni verənin xahişinə əsasən, onun hesabından müəyyən məbləğdə pulun ödənilmiş məbləğin əvəzində ödəyən banka qaytarılması qaydası göstərilməklə, xarici alıcıya (benefisiara) ödənilməsi haqqında sadə tapşırığını əks etdirir. Bank köçürməsi bir bankın digər banka ünvanladığı ödəmə tapşırığı olub, bank çekləri (xüsusi banklararası müqavilələr olduqda), yaxud da digər ödəmə sənədləri vasitəsilə həyata keşirilir. Hesablaşmanın bu formasında kommersiya və ya əmtəə sərəncamçısı olan sənədlər ixracatçıdan idxalatçıya birbaşa, yəni bank müdaxiləsi olmadan göndərilir. Bank köçürməsilə hesablaşmalar zamanı kommersiya bankları xarici bankların ödəmə tapşırığını yerinə yetirir və ya müxbir razılaşmaların şərtlərinə uyğun olaraq xarici idxalatçıların onlarda göstərilmiş pul öhdəlikləri üzrə bank çeklərini, həmçinin milli idxalatçıların pul öhdəlikləri üzrə xarici banklara bank çeklərini və ödəmə tapşırıqlarını ödəyir.

**Cədvəl 1.**

**Beynəlxalq hesablaşmaların əsas formalarının müqayisəli xarakteristikası**

| | Bank köçürməsi | Akkreditiv | İnkasso | Kredit (o cümlədən vekselin köməkliyilə) | Hesablaşmaların çek forması | Ticarətin qarşılıqlı formaları |
|---|---|---|---|---|---|---|
| İdxalatçının riski | Maksimum, avans halında | Minimum | Kiçik | Böyük | Orta | Ticarət formasının növündən və tərəf müqabilinin etibarlılığından asılıdır |
| İxracatçının riski | Minimum 100% avans halında | Maksimum | Orta | Böyük | Orta | Ticarət formasının növündən və tərəf müqabilinin etibarlılığından asılıdır |
| Bankların iştirak payı | Minimum | İştirakın maksimum dərəcəsi (bank zamin durur) | Orta | Minimum, yaxud yoxdur | Minimum (Bank çekverənin qarşısında məsuliyyət daşımır) | Ticarət formasının növündən bir qayda olaraq az asılıdır. |
| Digər xüsusiyyətlər | Nisbətən sadə forma Sadə və teztez həyata keçirilən | Çox mürəkkəb, lakin maksimum mümkün olan hesablaşma forması. Konkret müddətlərdə həyata keçirilir | Nisbətən tarazlaşdırılmış forma. Nə üçünsə bu formanı tərəflər qəbul etmirlər | Əsasən tərəf müqabilinin etibarlılığından asılıdır. Müəyyən zəmanətlər tələb edir | İstifadənin məhdud müddətləri | ------- |

Köçürmə əməliyyatı yerinə yetirilərkən köçürməni alanın bankı ödəmə tapşırığında əks olunan konkret göstərişləri rəhbər tutur. Məsələn, ödəmə tapşırığında müvafiq məbləğin benefisiara onun tərəfindən ödəmə tapşırığında göstərilmiş kommersiya və ya maliyyə sənədlərinin, yaxud da qəbzin təqdim edilməsi qarşılığında ödənilməsi haqqında şərt əks oluna bilər. Köçürmə əməliyyatı yerinə yetirilərkən, banklar hesablaşmalarda, yalnız ödəyicinin sazişin ödənilməsi üzrə ödəmə tapşırığını banka təqdim etdikdən sonra iştirak edir. Bu zaman banklar ödənişə görə məsuliyyət daşımırlar. Banklar malın göndərilməsinə və ya sənədlərin idxalatçıya verilməsinə, həmçinin saziş üzrə ödənişin yerinə yetirilməsinə nəzarət etmirlər. Bu hesablaşma formasında bankın vəzifəsinə ödəmə tapşırığının təqdim olunduğu anda köçürmə verənin hesabından köçürmə alanın hesabına ödənişin köçürülməsi daxildir.




*Şəkil 1. Bank köçürməsi ilə hesablaşmaların sxemi*

İdxalatçı ilə ixracatçı arasında saziş bağlandıqdan sonra (1), idxalatçı köçürmə üçün banka ərizə göndərir (2). Malın göndərilməsi ödənişi qabaqlaya da bilər, ödənişdən sonra da ola bilər. Bu, sazişin şərtləri, yaxud da ölkənin valyuta qanunvericiliyi ilə müəyyən olunur. İdxalatçının bankı idxalatçıdan ödəmə tapşırığını qəbul edərək onu (3) öz adından ixracatçının müvafiq bankına göndərir. Ödəmə tapşırığını alan bank onun düzgünlüyünü yoxlayır və pulun ixracatçının hesabına daxil edilməsi əməliyyatını başa çatdırır.

Beynəlxalq bank təcrübəsində bank köçürmələri saziş üzrə avansın ödənilməsi üçün (əgər saziş şərtlərində mal yüklənənə qədər sazişin dəyərinin bir hissəsinin (15-30%-nin) avansla köçürülməsi halı nəzərdə tutulmuşdursa) istifadə oluna bilər. Sazişin dəyərinin qalan hissəsi isə faktiki göndərilmiş mala görə ödənilir. Avans ödəmə faktiki olaraq ixracatçının gizli kreditləşdirilməsini ifadə edir və bu idxalatçıya sərfəli deyil. Bundan başqa avansın köçürülməsi ixracatçı tərəfindən sazişin şərtləri yerinə yetirilmədiyi və mal göndərilmədiyi halda idxalatçı üçün pul itirilməsi riski yaradır.

İxracatçının malı göndərmədiyi halda idxalatçının avansın qaytarılmaması riskindən müdafiə olunması məqsədilə beynəlxalq bank təcrübəsində bir neçə müdafiə qaydası mövcuddur:

1. avansın qaytarılmasına bank zəmanətinin alınması – bu halda avans ödənişin köçürülməsinə qədər birinci dərəcəli bankın zəmanəti rəsmiləşdirilir;
2. sənədli və ya şərti köçürmədən istifadə - bu halda ixracatçı tərəfindən müəyyən müddət ərzində nəqliyyat sənədlərinin təqdim olunması şərtilə ixracatçı bank faktiki avans ödənişini aparır.

Ödəmə tapşırığı ilə hesablaşmalar (bank köçürməsi) – mal dövriyyəsində daha tez-tez tətbiq olunan hesablaşma formasıdır. Bir sıra hüquqi münasibətlərdə belə hesablaşma formasından istifadə prioritet xarakter daşıyır. Məsələn, mal göndərilməsi üzrə münasibətlərdə alıcı göndərilmiş mala görə ödənişləri tədarük müqaviləsində nəzərdə tutulmuş qaydalara və hesablaşma formasına uyğun olaraq həyata keçirir. Əgər müqavilədə qaydalar və hesablaşma forması müəyyənləşdirilməmişdirsə, onda hesablaşmalar ödəmə tapşırığı ilə aparılır.

Bu hesablaşma formasından istifadə göstərir ki, bank tədiyyəçinin onun hesabında olan vəsait hesabına müəyyən pul məbləğini qanunda nəzərdə tutulan, yaxud onların özləri tərəfindən müəyyənləşdirlən müddətdə (əgər müqavilə ilə və ya bank təcrübəsində tətbiq olunan işgüzar dövriyyə qaydaları ilə daha qısa müddət göstərilməmişdirsə) bank tədiyyəçinin göstərdiyi şəxsin bu və ya digər göstərilən bankda olan hesabına köçürülməsi haqqında tapşırığı üzrə məsuliyyəti öz üzərinə götürür.

Ödəmə tapşırığı ilə hesablaşmaların həyata keçiriməsi qaydaları Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında Azərbaycan Respublikasının Qanunu və Banklar haqqında Azərbaycan Respublikasının Qanunu ilə, həmçinin bu qanunlara müvafiq olaraq hazırlanmış Azərbaycan Respublikasında Nağdsız hesablaşmalar və pul köçürmələri haqqında təlimatla tənzimlənir.

## ƏDƏBİYYAT


1. Seyidzadə İ.Beynəlxalq hesablaşmaların ümumi xüsusiyyətləri /*seyidzadeh.com/*
2. Kərimov Ə.İ.,Kərimov C.Ə. Beynəlxalq iqtisadi münasibətlər. Bakı. 2006
3. Мочалова Л.А., Касьянова А.В., Рау Э.И., Финансовый менеджмент / Учебное пособие, М.: КНОРУС, 2012. – 384 с. – (Для бакалавров)
4. Буторина О.В. Международные экономические отношения. Базовые параметры / О.В. Буторина, С.А. Галкин, В.Н. Ткачев ; под ред. О.В. Буториной - М. : Весь Мир, 2013-134 с.
5. Деньги, кредит, банки / [Г.С. Панова и др.] ; под ред. О.И. Лаврушина. - 11-е изд., исправл. и доп. - М.: КНОРУС, 2013. - 448 с.
6. Васильева И.П., Катасонов В.Ю., Кузнецов В.С., Туруев И.Б., Хмыз О.В Международные финансы: программа курса [Электронный ресурс] // МГИМО. - 2012 - Режим доступа: http://www.mgimo.ru/kurs/document228931.phtml
7. Зимовец А.В. Международные расчеты и финансирование. Учебная программа Таганрог. Издательство НОУ ВПО ТИУиЭ, 2009г.


## ABSTRACT


**Bulqeyis Novruzova**


**The brief description of the main forms of international payments : Bank transfer**


International payments, economical, political and cultural relations among states on the basis of various countries, individuals and legal entities located in the economic, political and cultural relations, cash requirments and obligations of the currency reflects the organization and regulation of the payment. Regulation of international settlments established rules and traditions in the world is carried out with the help of .

Foreign economic contracts, conditions and positions in national and foreign currencies, depending on the degree of wrapround are used in various forms of international payments. Based on these and other forms of transactions with counterparties reliability depens on the level and nature of national legislations.

One of the forms of international payments and bank transfer, the transferee bank´s correspondent bank at the request of the owner, his account paying a fixed amount of money to the bank in exchange for the return of the rule indication of the amount paid, the buyer on the payment reflects the simple task.

The article, in general, in the practice of international trade, the main forms of international payments and it is given a short description of one of the bank transfer forms and rules of international payments examined.

## РЕЗЮМЕ

**Булгейис Новрузова**

**Краткая характеристика основных форм международных расчетов: Банковский перевод**

Международные расчеты представляют собой регулирование и организацию оплат по денежному требованию и обязательству возникающих в связи с экономическими, политическими и культурными отношениями между государствами, физическими и юридическими лицами, расположенными на территории различных стран. Регулирование международных расчетов осуществляется с помощью установленных правил и традиций в мировой практике.

Используются разные формы международных расчетов, в зависимости от условий внешнеэкономических контрактов, от степени конвертируемости и позиции национальных и иностранных валют. Выбор той или другой формы расчетов в основном зависит от особенностей национальных законодательств и от уровня взаимного доверия контрагентов.

Банковский перевод, являющийся одним из форм международных расчетов, представляет собой простое поручение банка своему банку-корреспонденту выплатить определенную сумму денег по просьбе и за счет перевододателя иностранному получателю (бенефициару), с указанием способа возмещения банку-плательщику выплаченной суммы.

В статье комментируется краткая характеристика основных форм международных расчетов, используемых в практике международной торговли и расследуется порядок осуществления расчетов банковскими переводами, которые являются одним из форм международных расчетов.

NDU-nun Elmi Şurasının 30 mart 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 07).

Məqaləni çapa təqdim etdi: İqtisad üzrə elmlər doktoru, professor A.Rüstəmov

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ. **ELMİ ƏSƏRLƏR, 2017, № 2 (83)**

NAKHCHIVAN STATE UNIVERSITY. **SCIENTIFIC WORKS, 2017, № 2 (83)**

НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ. **НАУЧНЫЕ ТРУДЫ, 2017, № 2 (83)**

**MAHİR ABBASZADƏ**
*AMEA İqtisadiyyat İnstitutu*

**UOT:332.1**

# İQTİSADİ ARTIMIN TƏMİN OLUNMASINDA DÖVLƏT TƏNZİMLƏNMƏSİNİN YERİ VƏ ROLUNUN DƏYƏRLƏNDİRİLMƏSİ

**Açar sözlər:** *bazar münasibətləri, iqtisadi artım, dövlət tənzimlənməsi, iqtisadiyyatın sağlığı və solluğu*
**Key words**: market relations, economic increasing, state regulation , the lefts and rights of economy
**Ключевые слова:** рыночные отношения, экономический рост, государственное регулирование, «правосторонность, левосторонность» экономики

Məlumdur ki, iqtisadi inkişaf dinamikası müəyyən dövrlərdə dəyişən xarakter daşıyır və mövcud situasiyaya uyğun olaraq fəaliyyət göstərir. Bu baxımdan, yeni iqtisadi sistemə - bazar münasibətlərinə keçidlə bağlı baş verən müxtəlif xarakterli və çoxsaylı səbəblər mövcud inkişaf dinamikasına da öz təsirini göstərmişdir. Nəzərə almaq lazımdır ki, həmin dinamika - cəmiyyətin əsas məqsədlərinin muhum indikatoru kimi əmtəə və xidmətlərin təsbit olunmuş vaxt ərzində həcm yüksəlişini təmin edən, cəmiyyət üzvlərinin maddi imkanlarının yaxşılaşdırılmasına təkan verən və onların həyat səviyyəsinin yüksəldilməsinə şərait yaradan iqtisadi artımın xüsusiyyətlərindən asılıdır. İqtisadi artım və onun səmərəli təmin olunması problemləri – daim olaraq müvafiq elmi dairələr və mütəxəssislərin mərkəzi müzakirə obyektini təşkil edir. Çünki, bu nəzəriyyə - daim və müntəzəm şəkildə makroiqtisadi proseslərin tədqiqinin mərkəzi həlqələrindən biri hesab edilərək, dövlətin normal fəaliyyətinin əsas dayaqlarından birinə çevrilmişdir. İqtisadi artım nəticələrinin artması və sürətlənməsi - hər bir ölkə iqtisadiyyatının dayanıqlı inkişafına təsir göstərən mühüm amillərdən biri kimi qəbul edilir. İstənilən ölkə iqtisadiyyatının mövcud vəziyyəti və perspektiv inkişafı, bu sahədə əldə edlən müsbət meyllər və uğurlar, yaxud cəmiyyətdə baş verən müəyyən çatışmazlıqlar, məhz iqtisadi artım prosesinin nəticəsi kimi meydana çıxır.

Bununla yanaşı, sivil bazar münasibətlərinin düzgün inkişafı, iqtisadi artımın dayanıqlılığı, insan kapitalının səviyyəsi və digər anoloji proseslər həm də çağdaş proseslərə uyğun və özünəməxsus xüsusiyyətləri ilə seçilən səmərəli dövlət tənzimlənməsi əsasında baş verə bilər. Dövlət tənzimlənməsi– iqtisadiyyatda mövcud olan çoxsaylı təsərrüfat – iqtisadi subyektlərin fəaliyyət prosesinə müəyyən olunmuş istiqamətlərdə təsir göstərən müxtəlif metod, üsul və tədbirlərin məcmusu olub, qarşıya qoyulan məqsədə çatmaq istiqamətində onların maraq və hərəkətlərinin məcmusunu təşkil edir. Müşahidələr göstərir ki, bazar münasibətləri şəraitində iqtisadiyyatın dövlət tənzimlənməsinin metodoloji əsasını makroiqtisadiyyat təşkil edir. Bu zaman, yəni dövlətin tənzimləmə prosesində istifadə etdiyi metod və üsullar çoxsaylı olmaqla, həm də müxtəlifdir.

Sözsüz ki, sosial - iqtisadi baxımdan ölkəmizin mövcud potensial imkanları çox böyükdür. Lakin həmin imkanların mövcud situasiyaya uyğun şəkildə, dövlət tərəfindən səmərəli tənzimlənməsi və optimal nisbətlərə əsaslanan səmərəli makroiqtisadi mühitin təmin olunması - mövcud şəraitdə dayanıqlı inkişafa və iqtisadi artıma güclü təkan vermək imkanlarına malikdir.

Dövlətin həyata keçirdiyi tənzimləmə tədbirləri - iqtisadi artımın yüksək keyfiyyəti, dayanıqlı sosial-iqtisadi inkişaf və əhalinin yaşayış tərzinin yüksəlməsi ilə nəticələnməlidir. Hesab edirik ki, göstərilən şərtlərə uyğun iqtisadi artımın xüsusiyyətləri dəyər və natural göstəricilərin uyğunluğu ilə müəyyən olunmalıdır. Səmərəli dövlət tənzimlənməsinə mənfi təsir göstərən neqativ hallar aradan qaldırılmalı, iqtisadi artım meylləri iqtisadi səmərəliliyə əsaslanmalıdır.

## İQTİSADİ ARTIM VƏ ONUN TƏMİN EDİLMƏSİ XÜSUSİYYƏTLƏRİ

İqtisadi artım geniş məzmuna və mühüm əhəmiyyətə malik iqtisadi kateqoriya kimi, davamlı iqtisadi inkişafın təmin olunmasının ən zəruri və vacib elementlərindən birini təşkil edir. O, mövcud iqtisadi sistemin əsas funksiyalarından biri kimi – cəmiyyətin tələbatını ödəyən, yüksək faydalılığa malik olan məhsul və xidmətlərin əlverişli şərtlərlə əldə olunmasına şərait yaradaraq, həm də bu prosesdə kəmiyyət və keyfiyyət istiqamətlərini əhatə edir.

Bütövlükdə, makroiqtisadiyyat sistemində özünəməxsus, xüsusi yeri ilə seçilən iqtisadi artım nəzəriyyəsinin müntəzəm və geniş şəkildə araşdırılması mühüm əhəmiyyət kəsb edir. Həmin nəzəriyyəni spesifik və özünəməxsus formada, fəlsəfi – empirik baxımdan araşdırdıqda, mahiyyəti və məzmun elementlərini düzgün dərk etməklə yanaşı, həm də onun yeni keyfiyyət səciyyəsi və tiplərinin, amillərinin müəyyən olunması mühüm zərurət kəsb edir. Çünki, iqtisadi artım – ümumi müvazinətin formalaşmasından

əmələ gələn yüksək rifah səviyyəsini əks etdirir, həmçinin iqtisadi inkişafın perspektiv müddət üçün kriteriyalarına uyğun olaraq, real həcm göstəricilərinin dəyişmə meyllərini əks etdirir.

Qeyd etmək lazımdır ki, "iqtisadi artım...əhalinin adambaşına düşən ümumi milli məhsulunun artması ilə ölçülür. Bu, tam məşğulluqdan bir az aşağı səviyyədə başlaya bildiyinə görə, iqtisadi artım adətən elə istiqamətdə gedir ki, onda məhsul istehsalı adətən genişlənməkdə olur. Bu isə, tam məşğulluq əldə edilənə qədər davam edir. Hətta resurslardan tam şəkildə istifadə olunursa, milli məhsulun real hüdudlarda inkişafı təxminən ildə 3%-ə bərabər olur. Bu cür inkişafın əsas səbəbləri kapitalın artması (o, təhsil və işçi qüvvəsinin hazırlığını özündə birləşdirir) və eyni texniki vəsaitlərin istifadəsidir. Lakin bu, həm də fəal əhalinin artması, təbii resursların üzə çıxması və xarici ticarətlə məşğul olan ölkələr üçün ticarət şəraitinin yaxşılaşdırılmasıdır. Əgər illik artım normasının 3%-dən çox olması arzu edilirsə, investisiyanın yüksək səviyyəsi əsas götürülür. Buna çatmaq üçün isə məxarici azaltmaq lazımdır" (**1, s. 494)...**

İqtisadi artım – təkrar istehsal prosesinin son nəticəsi kimi, əsas kəmiyyət və keyfiyyət dinamikasını özündə əks etdirir. Dinamik yönlü iqtisadi inkişaf isə, əsasən məhdud həcmli iqtisadi resursların mövcud tələbata uyğun şəkildə istifadəsi imkanlarını özündə əks etdirir. Təkrar istehsal prosesində kəmiyyət yönlü meylləri həm istehsal olunan məhsulların həcmini, həm də mövcud resurslara çəkilən xərclər və əldə edilən nəticələrin nisbətini özündə əks etdirirsə, keyfiyyət yönü isə həyata keçirilən iqtisadi və istehsal proseslərinin tarazlılıq səviyyəsi və proporsionallığını, həmçinin istehsal amillərindən istifadə səviyyəsini özündə əks etdirir. Göründüyü kimi, iqtisadi artımın əsas məqsəd və məzmun elementləri – milli iqtisadiyyatın ən mühüm və başlıca məsələsinin (nə, necə və kimin üçün) optimal şəkildə həll olunmasıdır.

Burada mühüm bir məqamın nəzərə alınması zərurəti yaranır. Belə ki, "... iqtisadi artımın dövlət tənzimlənməsi prosesinə keçməzdən əvvəl, iki təxmini fikir söyləmək mümkündür:

Bunlardan birincisi ondan ibarətdir ki, iqtisadi artıma təsir göstərən üsullar köməkçi xarakter daşıyır. Həmin üsulların isə mahiyyəti ondan ibarətdir ki, investorların vəsait qoymaq üçün güclü motivi olmalıdır. Çünki, onun vəsaiti ya özünküdür, ya da ki, kredit almışdır. Buna görə də o, vəsaitini qoyanda riskə gedir. İnvestisiyanın maddi cəhəti elə təsəvvür yaradır ki, guya o, kadr arxasında qalır. Daha doğrusu, məsələ belə qoyulur: investisiya üçün hər şeydən əvvəl pul lazımdır, istehsalçılar isə özü meydana çıxacaqdır. Yəni istehsal təşkil olunandan sonra işləyənlər tapılacaqdır. Belə siyasi xətt ilk baxışda birtərəfli görünsə də, real iqtisadiyyatı düzgün əks etdirir.

İkinci mühüm az əhəmiyyətli olmayan cəhət ondan ibarətdir ki, bazar iqtisadiyyatı tənzimedici mexanizm kimi iqtisadi inkişfın artımına müəyyən təsir göstərir. Çünki, ardıcıl qaydada nəzarət olunan infilyasiya elə özü iqtisadi artımın
xeyrinə fəaliyyət göstərir"**(2, s.177)**

**DÖVLƏT TƏNZİMLƏNMƏSİNİN MAHİYYƏTİ VƏ ƏSAS MƏZMUN ELEMENTLƏRİ**

Məlum olduğu kimi, müxtəlif iqtisadi sistemlərin normal fəaliyyət göstərməsi və inkişafında dövlət mühüm rol oynayır. Məhz buna görə də, iqtisad elminin əsas məsələlərindən biri – dövlətlə iqtisadiyyatın qarşılıqlı əlaqəsinin, həmçinin dövlətin iqtisadiyyata müdaxiləsinin optimal nisbətlərinin müəyyən edilməsidir. Əməkdar iqtisadçı, i.e.d., professor Tofiq Hüseynov dövlətin iqtisadi münasibətlərdəki yeri və rolunu təhlil edərək göstərir ki, "...inkişafın yeni mərhələsində Azərbaycan şəraiti üçün söhbət heç də sözün əsl mənasında nə paternalizmdən, nə də liberalizmdən getməməlidir. Bazarın mükəmməllik dərəcəsi müxtəlif ölkələrdə bir – birindən əhəmiyyətli dərəcədə fərqləndiyinə görə, dövlətin iqtisadi funksiyalarının toplamı və tənzimləmə vasitələri də müxtəlif olur.

Dövrün tələbinə və iqtisadi durumdakı vəziyyətə uyğun olaraq, dövlətin iqtisadi fəaliyyətə təsir modeli seçilməlidir. Bu model liberalizmin və paternalizmin idarəetmə prinsiplərinin və mexanizmlərinin əlaqələndirilməsini nəzərdə tutmalıdır. Nəticədə, Azərbaycan dövlətinin iqtisadi tənzimləmədə rolu güclənməlidir. Burada ümumi şəkildə qeyd edilməlidir ki, tələb və təklifin tarazlığı dövlət tərəfindən müəyyənləşdirilməlidir ki, bazarda (əmtəə, əmək və kapital bazarlarında) tarazlıq təmin olunsun və taraz qiymətlər formalaşsın. Taraz qiymətlər isə öz növbəsində, istehsalçıların gəlirlə işləməsi amilinə çevrilsin və eyni zamanda inflyasiyanın artmasına mane olsun" **(3, s.372).**

Əvvəldə, giriş hissəsində qeyd edildiyi kimi, iqtisadi artımın dayanıqlılığı, insan kapitalının səviyyəsi və digər uyğun hallar, dövlətin iqtisadi proseslərə təsiri və onların səmərəli tənzimlənməsi nəticəsində baş verir. İ. e. d., professor Məhiş Əhmədov və i. f.d., dosent Afaq Hüseynin fikrincə, "...dövlət tənzimlənməsi prosesini ümumiləşdirilmiş formada aşağıdakı kimi təsvir etmək olar**(4, s.23):**

**SXEM**

| DÖVLƏTİN BAZAR MEXANİZMİNƏ TƏSİRİ (DÖVLƏTİN İQTİSADİ SİYASƏTİ) | |
|---|---|
| **DÖVLƏT** | **BAZAR İNSTİTUTU** |
| **Dövlət tənzimlənməsinin məqsədi** | -iqtisadi inkişaf və artım<br>-effektiv məşğulluq<br>-qiymətlərin stabilliyi və milli valyutanın sabitliyi<br>-xarici iqtisadi tarazlıq |
| **İqtisadi siyasətin reallaşması subyektləri** | -dövlət qurumları<br>-qeyri-hökumət təşkilatları |
| **Bazar mexanizminə təsir vasitələri** | - maliyyə (fiskal) siyasət<br>-monetar siyasət |
| **İqtisadi siyasətin istiqamətləndirilməsi** | -antiinflyasiya tədbirləri<br>-əmək bazarında siyasət<br>-konyuktura<br>-sosial struktur siyasətlər |

Sxem materiallarının təhlili göstərir ki, dövlətin bazar mexanizminə təsiri istiqamətində həyata keçirdiyi iqtisadi siyasət prosesində dövlət tənzimlənməsinin məqsədi - iqtisadi inkişaf və artım meyllərinin davamlı olaraq gücləndirilməsi, effektiv məşğulluğun təmin olunması, bazarın neqativ təsirlərindən qorunması məqsədilə qiymətlərin dayanıqlılığının, həmçinin milli valyutanın – manatın sabitliyinin qorunub saxlanılması, bunlarla yanaşı, mövcud xarici iqtisadi əlaqələrdə tarazlıq meyllərinin təmin edilməsindən ibarətdir. Bu reallaşması subyektləri isə dövlət qurumları və qeyri – hökumət təşkilatlarını əhatə edir.

Aparılan təhlillər onu göstərir ki, müxtəlif zaman kəsimlərində dövlətin iqtisadiyyata təsiri, yaxud müdaxiləsinin ölçüləri fərqli rakurslarda olmuşdur. Sözsüz ki, çağdaş dövrün bazar münasibətləri şəraitində də dövlətin tənzimləmə funksiyalarına olan münasibət heç də birmənalı deyildir. Ümumiliyyətlə, əsas məsələ - dövlətin iqtisadiyyata təsirinin hansı ölçüdə və miqyasda olması, yaxud iqtisadiyyatın sağlığı və solluğu səviyyəsinin müəyyən edilməsi ilə bağlıdır. Bu sahədə dəyərli tədqiqatlar aparmış i. e. d., professor Nazim İmanovun (Müzəffərlinin) fikrincə, "...hər ölkədə və hər konkret zaman kəsiyində dövlətin iqtisadiyyata mudaxiləsi bəlli bir səviyyədə olur. İqtisadiyyata dövlət müdaxiləsinin səviyyəsindən asılı olaraq, müxtəlif ölkələrin iqtisadi sistemləri (modelləri) əhəmiyyətli dərəcədə, bəzənsə köklü şəkildə fərqlənirlər. Həmin fərqlərin bir qism isiyasi rəqabət mövzusu olan müdaxilə formaları ilə şərtlənir. Bu halda, onlar iqtisadiyyata müəyyən səciyyəvi xususiyyətlər verir…Şərh edilmiş müddəaların məntiqinə görə, həmin xüsusiyyətlərin məcmusunu iqtisadiyyatın solluğu və sağlığı adlandırmaq olar. Nəzərdə tutulan odur ki, həmin meyarlar üzrə (həm ayrı-ayrılıqda, həm toplu şəkildə) dövlətin iqtisadiyyata müdaxiləsi nə qədər yüksəkdirsə (coxdursa), iqtisadiyyat bir o qədər daha soldadır və əksinə, nə qədər aşağıdırsa (azdırsa), bir o qədər daha sağdadır.

İqtisadiyyatın sağlığı-solluğu – onu şərtləndirən müdaxilə formaları ölçülə bildiyinə görə – ölçüyə gələndir. Doğrudur, iqtisad nəzəriyyəsi bunun üçün hələ ki hansısa vahid (inteqral) göstərici təklif etməmişdir, amma son illərdə, iqtisadiyyata dövlət müdaxiləsinin bir cox formalarının səviyyəsini ayrı-ayrılıqda qiymətləndirmək üçün kifayət qədər dəqiq üsullar işlənib hazırlanmışdır və bu sahədə getdikcə daha ciddi elmi irəliləyiş müşahidə olunmaqdadır" **(5, s.79).**

Qeyd olunduğu kimi, iqtisadiyyata dövlətin təsirinin ölçü və miqyasları ilə bağlı son zamanlar müəyyən araşdırmalar aparılaraq, müxtəlif ölkələr arası müqayisəli qiymətləndirmə üsulları həyata keçirilməkdədir. Məsələn, iqtisadçı alimlər M. G. Gülalıyev və F. Q. Musayeva hesab edirlər ki, "...iqtisadiyyatın solluğu (sağlığı) indeksinin (İS(S)İ) ən mühüm praktiki əhəmiyyəti ondan ibarətdir ki, onun müəyyən dövr üçün hesablanan dinamikasını təhlil etməklə və həmçinin digər iqtisadi əlaqəsini müəyyən etməklə, həmin dövr üçün qəbul edilən siyasi – iqtisadi qərarların iqtisadi səmərəli olduğunu müəyyən etmək mümkündür. Məsələn:

1) Əgər hər hansı "sol" (və ya "sağ") mahiyyətli siyasi–iqtisadi qərarlar qəbul edilirsə (yəni ölkənin İS(S)İ göstəricisi əvvəlki illərə nisbətən artırsa (və ya axalırsa)) və həmin dönrdə adambaşına ÜDM –nin həcmi azalırsa, deməli, qəbul edilən "sol" (və ya"sağ") mahiyyətli siyasi-iqtisadi qərar səmərə vermir və onun dəyişdirilməsinə ehtiyac var;

2) Əgər hər hansı bir ölkənin İS(S)İ indeksi hər hansı zaman kəsiyində, kiçik fluktuasiyalar istisna olmaqla, dəyişmirsə (yəni ciddi nəticələri olan “sol” və ya “sağ” mahiyyətli qərarlar qəbul edilmirsə) və bu zaman digər iqtisadi göstəricilərin davamlı artımı baş verirsə, deməli, ölkədə reallaşan siyasi – iqtisadi qərarlar səmərəli mahiyyət daşıyır;
3) Əgər hər hansı“sol” və ya “sağ” mahiyyətli qərarlar qəbul etdikdə(yəni ölkənin İS(S)İ göstəricisi əvvəlki illərə nisbətən artırsa (və ya axalırsa)) və həmin dövrdə əsas makroiqtisadi göstəricilər davamlı olaraq artırsa, deməli, qəbul edilən “sol”(və ya”sağ”) mahiyyətli siyasi – iqtisadi qərar səmərəlidir və onun davam etdirilməsi vacibdir” **(6, s.17).**

Dövlətin göstərilən istiqamətlərə uyğun strateji xəttinin həyata keçirilməsi üçün müəyyən iqtisadi siyasət aləti, həmçinin zəruri mexanizm və vasitələri, norma və qaydaları, bir sözlə sağlam təşəbbüskarlıq meyllərinə əsaslanan iqtisadi fəaliyyətin yeni oyun qaydaları müəyyənləşdirilmişdir. Söylənilənlər onu deməyə əsas verir ki, dövlətin səmərəli fəaliyyət göstərməsi və daha da möhkəmlənməsi üçün, məqsədyönlü və nəzərdə tutulmuş şərtlərə tam cavab verən modern iqtisadi sistemin yaradılması vacib şərtidir. Bununla yanaşı, dövlətin sistem yaradıcı fəaliyyəti - həm də sosial - iqtisadi infrastrukturun səmərəliliyi üçün əsas və həlledici amildir.

Beləliklə, iqtisadiyyatın dövlət tərəfindən düzgün, səmərəli şəkildə tənzimlənməsi və bazar iqtisadiyyatı, bazar münasibətləri prosesləri - bəzilərinin başa düşdükləri kimi, bir-birinə zidd məhfumlar deyil, əksinə bir-birini tamamlayan və bütövləşdirən amillərdir. Mövcud reallıqlardan göründüyü kimi, hər cür, istənilən dövlət müdaxiləsindən azad, heç bir məhdudiyyət qoyulmayan bazar iqtisadiyyatı yalnız nəzəriyyələrdə mövcud ola bilər və belə bir xalis model dünyanın heç bir yerində sınaqdan keçirilməmişdir. Hesab edirik ki, bazar sistemi özünəməxsus müəyyən tənzimləmə mexanizm və elementlərinə malik olsa da, çoxsaylı gözlənilməz situasiyalar və müxtəlif ciddi problemlər yaradır. Buna görə də, əgər onlar dövlət tərəfindən düşünülmüş şəkildə və məntiqəuyğun tənzimlənməsə, ölkədə mövcud olan sosial tarazlıq və nizamın əsaslarını sarsıda bilər. Çünki bazar öz-özünə dayanıqlı iqtisadi infrastruktur sistemini yarada və inkişaf etdirə bilməz.

Ölkə Prezidenti cənab İlham Əliyevin "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri"nin təsdiqi və bundan irəli gələn məsələlər haqqında” 16 mart 2016-cı il tarixli 1897 nömrəli Sərəncamına **(7)** müvafiq olaraq yüksək peşəkarlıq, dərin analıtik təhlil və həmçinin düzgün qiymətləndirmələr əsasında - milli iqtisadiyyat və onun 11 əsas sektoru üzrə bütövlükdə hazırlanmış 12 strateji yol xəritəsində də milli iqtisadiyyat və onun ayrı – ayrı sahələri üzrə perspektiv inkişafının əsas xüsusiyyətləri, həmçinin dövlətin həyata keçirdiyi iqtisadi siyasət və tənzimləmə tədbirləri konkret istiqamətlər üzrə əks olunmuşdur. Diqqəti cəlb edən məqam odur ki, həmin strateji yol xəritələri ölkə iqtisadiyyatını məhz iterasiya metodu ilə kompleks formada - həm bütövlükdə milli iqtisadiyyat (makro), həm də ayrı – ayrı sektorlar (mikro) səviyyədə əhatə edir. Yuxarıda göstərilən sənədlər qısa, orta və uzunmüddətli dövrləri əhatə etməklə, 2020-ci ilədək strateji baxış (iqtisadi inkişaf strategiyası və tədbirlər planı), 2025-ci ilədək uzunmüddətli baxış və 2025-ci ildən sonrakı dövr üçün hədəf baxışdan ibarətdir.

Beləliklə, “...strategiya ilə tanışlıq onu deməyə əsas verir ki, nəzərdə tutulan çoxsaylı tədbirlərin səmərəli icrası – məhz uzunmüddətli dövrdə Azərbaycan iqtisadiyyatının liberallaşmasını nəzərdə tutur. Dövlətin iqtisadiyyatı tənzimləmə funksiyasını saxlamaqla, müdaxilə səviyyəsinin azaldılmasına göstərdiyi cəhd bütün dünyada aparıcı strateji xətt kimi inkişaf etməkdədir. Bunlarla bağlı olaraq, AMEA İqtisadiyyat İnstitutunun son iki ildə apardığı tədqiqatların nəticəsi də sübut edir ki, iqtisadiyyatın liberallaşması tendensiyası dünya miqyasında genişlənməkdədir. Onu da qeyd edək ki, dövlətin iqtisadiyyata məqsədyönlü müdaxiləsi, onu tənzimləməsi və iqtisadiyyatın liberallaşması məsələləri artıq uzun illərdir ki, hər bir cəmiyyətdə geniş elmi müzakirələrin predmetinə çevrilmişdir. Lakin müdaxilə dərəcəsinin düzgün ölçülməsi və müdaxilənin (tənzimləmənin) optimal dərəcəsinin tapılması hələ də mühüm elmi problem olmaqla yanaşı, böyük praktik əhəmiyyət kəsb edir. Bu istiqamətdə AMEA İqtisadiyyat İnstitutunun yerinə yetirdiyi tədqiqatlar sübut edir ki, liberallaşma iqtisadi inkişafın sürətlənməsinə və ictimai rifahın yüksəlməsinə daha etibarlı təminat yaradır. Əlbəttə, liberal iqtisadi islahatlar həmin quruculuğun zəruri şərti olsa da, kafi şərti deyildir” **(8).**

## ƏDƏBİYYAT

1. Harvey J. Müasir ekonomiks (III nəşr), Bakı, Şirvannəşr, 2001, 513 s.
2. Qafarov K.S., Əhmədov Ə.M., Əsgərova Z.S. Makroiqtisadi təhlilin əsasları (dərs vəsaiti). Bakı, İqtisad Universiteti, 2012, 198 s.
3. Hüseynov T.H. Azərbaycanın milli iqtisadi inkişaf modeli: nəzəriyyə və praktika. Bakı, Elm, 2015
4. Əhmədov M.A., Hüseyn A.C. İqtisadiyyatın dövlət tənzimlənməsinin əsasları (metodiki vəsait). Bakı, İqtisad Universiteti, 2011, 120 s.

5. Müzəffərli (İmanov) N. M. İqtisadiyyatın sosial yönlüyü sağçı və solçu sistemlərdə. Bakı, Şərq – Qərb, 2014, 272 s.
6. AMEA İqtisadiyyat İnstitutu, Elmi Əsərlər, № 4 (iyul – avqust)/ 2015, 205 s.
7. "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri"nin təsdiqi və bundan irəli gələn məsələlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 16 mart 2016-cı il tarixli, 1897 nömrəli Sərəncamı
8. www. economics.com.az/index.php

## ABSTARCT

**M. Abbaszade**

**The place and role in ensuring the evaluation of government regulation in economic increasing**

In conditions of the market relations , state regulation has its own specific role in the ensuring of economic increasing which stimulates dynamical and steady development of each society. So , the role and important process of systematic analysis and evaluate the existing dynamic affecting various elements to identify the theoretical level is important as an element of a set of economic impact on the state .In the article, the main elements of state regulation is ensuring economic growth and its impact on the level of debate in detail ,the size and the scale of the state to economy ,describing the ongoing investigations of the lefts and rights of economy.

## РЕЗЮМЕ

**М.Аббасзаде**

**Оценивание места и роли государственного регулирования при обеспечении эконоческого роста**

В условиях рыночных отношуний при обеспечении экономического роста,оказывающего влияние на динамичный и продолжительный рост каждого общества, государственное регулирование играет специфичную роль так как , общность елементов влияния государства на экономику имеет болщое значение как при проведение системного анализа,так и при оценивании различных элэментов на эффективность динамики существующего развития.

В статье повествуется о проведении иследований в отношении экономического роста и особенностях его обеспечения, а также о сущности государственного регулирования иего основных элэментах,о масштабе и величинах влияния государства на экономику, об уровне « правостонности» и «левостронности» экономики.

NDU-nun Elmi Şurasının 30 mart 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 07).

Məqaləni çapa təqdim etdi: İqtisad üzrə elmlər doktoru, professor A.Rüstəmov

**İLHAM HÜSEYNOV**
*Naxçıvan Dövlət Universiteti*

**UOT: 658.155**

# AQRAR İSTEHSAL SUBYEKTLƏRİ MÜASİR İNKİŞAF MƏRHƏLƏSİNDƏ

***Açar sözlər:*** *aqrar sahə, kənd təsərrüfatı müəssisələri, fərdi sahibkarlıq subyektləri, aqrar inkişaf, müqayisəli təhlil*

***Ключевые слова:****аграрная сфера, сельскохозяйствунные предприятия,индивидуальные предпринимательские субъекты, аграрное развитие, сопоставительный анализ*

***Key words:*** *Agrarian area , agricultural enterprice , The subjects of the individual ownership, agrarian development , comperative analysis*

Müasir dövrdə ölkə iqtisadiyyatı ardıcıl və məqsədyönlü şəkildə öz inkişafını davam etdirməkdədir. Bəhs olunan məsələdə aqrar sahə də istisnalıq təşkil etmir. Özünün çoxşaxəliliyi ilə seçilən bu sfera eyni zamanda ölkə əhalisinin əsas ərzaq təminatçısı rolunda çıxış edir. Kənd təsərrüfatının makrosəviyyədə araşdırılması ilə yanaşı onun mikro situasiyalarına yanaşmanın təmin edilməsi sonrakı mərhələlərdə fəaliyyətin təşkili və idarə edilməsi baxımından müvafiq nəticələrin çıxarılmasını və təkliflərin hazırlanmasını şərtləndirir. Bu baxımdan tədqiqatın təşkili və həyata keçirilməsində sahə və subyektlər miqyasında istehsal-maliyyə vəziyyətinin öyrənilməsini vacib və məqsədəuyğun hesab edirik. Araşdırmanın həyata keçirilməsi zamanı aqrar sahədə fəaliyyət göstərən subyektlərin təsnifləşdirilməsi daha dəqiq məlumatların əldə olunmasına şərait yaradır. Bu baxımdan tədqiqatın hüquqi (kənd təsərrüfatı müəssisələri) və fiziki (fərdi sahibkarlar) şəxslər üzrə fərdi qaydada qurulması düzgün olardı.

İstehsal-maliyyə göstəriciləri maddi-istehsal sferasına aid istənilən sahənin subyektlərinin mü-hüm göstəriciləri qrupuna aiddir. Onların sırasında ilk növbədə aşağıdakılar öz əksini tapmalıdır: subyektlərin sayı və gəlirlilik dərəcəsi; satış fəaliyyətinin nəticələri, ayrı-ayrı istiqamətlər üzrə vəziyyət və rentabellik səviyyəsi; təsərrüfat subyektlərindəki işçi sayı, onların istehsalda iştirak dövrünün və aldıqları əmək ödənişlərinin həcmləri; fəaliyyət istiqamətləri, təsərrüfatçılıq kateqoriyaları üzrə əmək məhsuldarlığı ifadələri; ümumi və aqrotəyinatlı əsas fondları üzrə göstəricilərin səviyyəsi; subyektlərin malik olduğu torpaq sahələrinin həcm və tərkib ifadələri; istehsal olunan məhsullara çəkilən xərclərin strukturu, onun maya dəyəri; subyektlərin müxtəlif mənbəli və təyinatlı maliyyə resurslarından istifadə imkanları və s. Sadalanan və digər əlaqəli istehsal-maliyyə göstəricilərinin araşdırılmasına ilk növbədə aqrar təsərrüfatı müəssisələrinin timsalında nəzər yetirək. Bu baxımdan hüquqi subyektlərin əsas iqtisadi göstəricilərinin araşdırılması məlumatlarını nəzərdən keçirək. (cədvəl 1)

Cədvəl məlumatları əsasında qeyd edə bilərik ki, 2000-ci illə müqayisədə müəssisələrin sayın-da 499 vahid və ya 30%-lik geriləmə müşahidə olunmuş, gəlirlə işləyən subyektlərin sayı 504 vahid və ya 49,1% artmış, zərərlə işləyənlər isə 1132 vahiddən 129 vahidə enmişdir (fərq: 1004 vahid və ya 8,8 dəfə) ki, bu da fəaliyyətini düzgün təşkil etməyən subyektlərin tədricən sıradan çıxmasından xəbər verir. Mənzərənin təzahür forması, düşünürük ki, bir sıra təşkilati-idarəetmə, stimullaşdırıcı, quruluş və digər tənzimləyici tədbirlərin görülməli olması zərurətindən xəbər verir.

Cədvəldə ikinci blok kimi hüquqi subyektlərin əldə etdiyi yekun maliyyə nəticələri ifadə olunmuşdur. Onlar üzrə yekun ifadədə xalis mənfəətin əldə olunması müsbət hal kimi qiymət-ləndirilsə də (39,8 mln. manat), bununla belə zərərlilik həcmi də böyük olmuşdur (13,5 mln. manat) ki, bu da xalis mənfəət ilkin həcmini (53,3 mln. manat) aşağı salmışdır. Digər tərəfdən, 2000-ci ildə həm bitkiçilikdə, həm də heyvandarlıqda müşahidə olunan satış fəaliyyətindəki zərərlə yekunlaşma 2015-ci ildə fəaliyyətin düzgün təşkili, resurslardan məqsədyönlü istifadə və tənzimləyici addım-ların atılması nəticəsində gəlirlilik ifadəsilə özünü əvəzləmişdir. Bu həcmlərlə yanaşı müəssisələrin ümumi fəaliyyətindən 84990 min manatlıq gəlir əldə olunmuşdur ki, bu da 45153 min manatlıq fərqdən xəbər verir. Əsas fondların həcmlərinin artması, istehsalın mexanikləşmə səviyyəsinin yük-səlməsi, aqrar sferada orta əmək haqqının səviyyəsinin nisbətən aşağı olması hesabına bu sahədə məşğul olan əhalinin sayında 8,4 min nəfərlik azalma baş versə də, onların illik orta əmək haqqı səviyyəsi 2000-ci illə müqayisədə 2015-ci ildə 18 dəfə artaraq 2746 manat (orta aylıq səviyyə - 288,8 manat) təşkil etmişdir. Nəzərdən keçirilən dövrlər üzrə aqrar sahənin ümumi məhsulunda dəyər ifadəsində 17,4 dəfəlik irəliləmə müşahidə olunmuşdur.

Cədvəl 1. Kənd təsərrüfatı müəssisələrinin əsas iqtisadi göstəriciləri

| Göstəricilər | 2000 | 2005 | 2010 | 2015 |
|---|---|---|---|---|
| Müəssisələrin ümumi sayı, vahid | 2158 | 1782 | 2043 | 1659 |
| o cümlədən: | | | | |
| gəlirlə işləyənlər | 1026 | 1579 | 1869 | 1530 |

| | | | | |
|---|---|---|---|---|
| zərərlə işləyənlər | 1132 | 203 | 174 | 129 |
| Mənfəətin məbləği, min man. | 608 | 7098 | 32385 | 53275 |
| Zərərin məbləği, min man. | 3923 | 1207 | 4728 | 13512 |
| Xalis mənfəət, min man. | -3315 | 5892 | 27658 | 39763 |
| Satışdan əldə edilən gəlir, min man. | 14714 | 70882 | 188635 | 391801 |
| Satışdan əldə edilən gəlir və zərər, min man. | -2515 | 5872 | 22286 | 39840 |
| o cümlədən: | | | | |
| bitkiçilikdə | -616 | 2769 | 8855 | 20241 |
| heyvandarlıqda | -1753 | 3117 | 13021 | 19993 |
| Ümumi gəlir (faktiki qiymətlərlə), min man. | 1118 | 14757 | 71604 | 84990 |
| Təsərrüfatda çalışan işçilərin orta illik sayı, min nəfər | 23.7 | 16.6 | 17.0 | 15.3 |
| Onlara hesablanmış əmək haqqı fondu, min man. | 3605 | 7219 | 28076 | 37071 |
| Təsərrüfatda çalışan işçilərin əmək məsarifi (min adam-gün) | 6341 | 4264 | 3980 | 3686 |
| Bir nəfər əmək qabiliyyətli işçinin il ərzində işlədiyi adam-gün (sayı) | 267 | 257 | 238 | 241 |
| K/t-nın ümumi məhsulu, (müvafiq illərin faktiki qiymətləri ilə), min man. | 21558 | 79683 | 187694 | 374320 |
| Əmək məhsuldarlığı - bir işçiyə düşən ümumi məhsul, man. | 909 | 4804 | 11019 | 24477 |
| Əsas fondların mövcudluğu, min man. | 180105 | 191459 | 444242 | 489161 |
| ondan kənd təsərrüfatı təyinatlı əsas istehsal fondları | 158717 | 182314 | 415276 | 447028 |
| Kənd təsərrüfatı təyinatlı əsas fondların orta illik dəyəri,min man | 184156 | 172139 | 393995 | 425159 |
| Bir təsərrüfata düşən k/t təyinatlı əsas fondların orta illik dəyəri, min man. | 85.3 | 96.6 | 192.9 | 230.1 |
| Ümumi torpaq sahəsi, ha | 495647 | 296765 | 225998 | 237773 |
| ondan kənd təsərrüfatına yararlı torpaq sahəsi | 335410 | 197072 | 184632 | 208415 |
| o cümlədən əkin yeri | 160083 | 59603 | 98400 | 102594 |
| Orta hesabla bir k/t müəssisəsinə düşən k/t-na yararlı torpaq sahəsi, ha | 155.4 | 107.6 | 90.2 | 125.6 |

2000 və 2015-ci illərin müqayisəsi özündə əmək məhsuldarlığının səviyyəsinin dəyişilməsinə də şahidlik edir. Bu göstərici baxılan zaman ifadələrində (dəyər ifadəsində) müvafiq olaraq 909 və 24477 manat təşkil etmişdir (artım - 26,9 dəfə). Kənd təsərrüfatı müəssisələrinin malik olduğu ümu-mi, o cümlədən əsas istehsal fondlarının inkişaf templəri baxılann illər üzrə kifayət qədər yüksək olmuşdur. Bu qrupa aid subyektlərdə mövcud olan əsas fondların həcmində dəyər ifadəsində 2000-ci və 2015-ci illərin müqayisəsində aşağıdakı dəyişikliklər (artım) baş vermişdir: ümumilikdə mövcud olan əsas fondlar üzrə 2,7 dəfə; aqrotəyinatlı əsas istehsal fondları üzrə 2,8 dəfə; kənd təsərrüfatı təyinatlı əsas fondları orta illik dəyəri üzrə 2,3 dəfə; bir təsərrüfata düşən aqrar təyinatlı əsas fondların orta illik dəyəri üzrə 2,7 dəfə. Hesablanmış nisbi göstəricilərin məzmun təhlili aqrar müəssisələr tərəfindən əldə olunan əsas fondlar sırasında birbaşa istehsal təşinatlı fondların üstünlük təşkil etdiyinə dəlalət edir. Belə ki, əgər 2000-ci ildə əldə olunmuş əsas istehsal fondlarının həcmi 88,1%-ə bərabər idisə, 2015-ci ildə bu göstərici 91,3%-ə qalxmışdır ki, bu da aqrar istehsalda əl əməyinin azaldılmasına xidmət edir. Bəhs olunan müsbət məqamlarla yanaşı aqrar müəssisələrdə torpaq resurslarından istifadə həcmlərində əsaslı geriləmələr müşahidə olunmuşdur. Aşağıdakı torpaq kateqoriyaları özündə belə vəziyyəti konkret nisbi kəmiyyətlərlə göstərməkdədir: ümumi torpaq sahəsi üzrə - azalma 257874 ha və ya 52,0%; aqrar yararlı torpaq sahəsi üzrə - azalma 126995 ha və ya 37,9%; əkin yeri üzrə – azalma 57489 ha və ya 35,9%; orta hesabla bir aqromüəssisəyə düşən kənd təsərrüfatına yararlı torpaq sahəsi üzrə - azalma 29,8 ha və ya19,2%. 2000 və 2015-ci illərin müqayisəsi nəticəsində sərgilənən mənzərə istifadədən kənarda qalan torpaq sahələrinin ümumi ye-kunda 287232 hektarının (ümumi torpaq sahəsinin 58,0%-i) qeyri-istehsal sahələrinin hesabına baş verdiyini göstərir. Bu həcmlərin təkrarən aktiv hasilat dövriyyələrinə qaytarılması imkanlarının qiy-mətləndirilməsi istiqamətində aparılacaq işlər digər məsələlərlə yanaşı eyni zamanda istehsal həcmlərinin ekstensiv və intensiv genişləndirilməsində ehtiyat mənbəyi kimi hesab oluna bilər. Aqrar müəssisələrdə istehsal-maliyyə göstəriciləri sırasında məhsulların bir sentnerinin maya dəyəri və onun formalaşdıran əsas komponentlərin səviyyələrinin öyrənilməsi mühüm əhəmiyyət kəsb edir. (cədvəl 2)

Cədvəl 2. Kənd təsərrüfatı müəssissələrində məhsulların bir sentnerinin maya dəyəri, manat

| Göstəricilərin adı | 2000 | 2005 | 2010 | 2015 |
|---|---|---|---|---|
| Əsas bitkiçilik məhsulları istehsalı: | | | | |
| Dənlilər və dənli paxlalılar | 8.88 | 8.05 | 14.91 | 16.44 |

| | | | | |
|---|---|---|---|---|
| Kartof | 13.27 | 11.06 | 30.34 | 21.64 |
| Tərəvəz (açıq torpaqda) | 7.82 | 4.70 | 15.30 | 12.82 |
| Bostan məhsulları | 3.33 | 5.80 | 7.87 | 7.89 |
| Meyvə və giləmeyvə | 5.57 | 6.81 | 23.41 | 41.64 |
| Çəki artımı: | | | | |
| iribuynuzlu mal-qara | 155.27 | 112.84 | 213.81 | 283.72 |
| qoyun və keçi | 91.96 | 98.21 | 186.37 | 245.59 |
| donuz | 219.12 | 110.16 | 600.00 | 2363.46 |
| quş | 150.69 | 127.13 | 192.40 | 169.81 |
| Məhsul istehsalı: | | | | |
| Süd | 21.12 | 18.03 | 28.04 | 33.20 |
| Yun | 54.71 | 49.62 | 94.76 | 119.52 |
| Yumurta (min ədədlə) | 51.14 | 41.93 | 51.66 | 76.36 |

Cədvəl məlumatlarından aydın olur ki, dəyər ifadəsində göstərilmiş əsas aqrar məhsulların bir sentnerinin maya dəyərinin formalaşmasında artımlar müşahidə olunmuşdur. Müvafiq həcmə ayrı-ayrı amillərin təsirlərin qiymətləndirilməsi zamanı aydın olur ki, 2000-ci illə müqayisədə 2015-ci ilin nəticələrinin artması əsasən üç amilin – xaricdən idxal olunan xammal və istehsal kom-ponentlərin (orta hesabla 1,92 dəfə), əmək ödənişlərinin (orta hesabla 18 dəfə) və ölkə daxilində baş vermiş qiymət artımlarının (orta hesabla 28,4%) hesabına mümkün olmuşdur. Bu isə öz növbəsində ayrı-ayrı istiqamətlər üzrə məhsulların bir sentnerin maya dəyərində aşağıdakı artımlara yol açmışdır: dənli və dənli-paxlalılar üzrə - 85,1%; kartof üzrə - 63,1%; tərəvəz üzrə - 63,9%; bostan məhsulları üzrə - 2,4 dəfə; meyvə və giləmeyvə üzrə - 7,5 dəfə. Cədvəldəki ikinci blokda ifadə edilmiş və mü-qayisə olunan iki ilə aid çəki artımları üzrə bir sentnerin maya dəyərinin vəziyyətində baş verən dəyişikliklərə gəldikdə bu kənarlaşma iribuynuzlu mal-qara üzrə - 82,7%, qoyun və keçilər üzrə - 2,7 dəfə, donuzlar üzrə - 10,8 dəfə, quşlar üzrə - 12,7% təşkil etmişdir. Analoji artımlar əsas hey-vandarlıq məhsulları olan süd, yun və yumurtada da müşahidə olunmuşdur. Bu göstəricilər müvafiq olaraq 57,2%, 2,2 dəfə və 49,3% bərabər olmuşdur. Aqrar müəssisələrdə hasil edilən məhsulların maya dəyərindəki xüsusi çəki etibarı ilə əmək məsrəflərinin artımının böyük kütləyə malik olmasını nəzərə alaraq onların cinsi ifadədə həcmlərinin dəyişməsinə diqqət yetirmək zəruridir. (cədvəl 3)

Cədvəl 3.Aqrar müəssisələrdə əsas növ məhsulların bir sentnerinə əmək məsarifi, adam-saatla

| Göstəricilərin adı | 2000 | 2005 | 2010 | 2015 | 2000-ci illə müqayi-sədə 2015-ci ildə nis-bi kənarlaşma, %-lə |
|---|---|---|---|---|---|
| Dənlilər və dənli paxlalılar | 10.2 | 11.7 | 9.9 | 11.0 | +7,8 |
| Kartof | 28.9 | 29.2 | 26.7 | 26.0 | -10,1 |
| Tərəvəz (açıq torpaqda) | 25.2 | 23.7 | 22.9 | 23.0 | -8,7 |
| Bostan məhsulları | 11.6 | 11.9 | 12.1 | 12.2 | +5,2 |
| Meyvə və giləmeyvə | 24.3 | 23.5 | 23.4 | 22.9 | -5,8 |
| Çəki artımı: | | | | | |
| iribuynuzlu mal-qara | 289.1 | 276.1 | 259.1 | 259.9 | -10,1 |
| qoyun və keçi | 230.8 | 249.6 | 226.5 | 229.6 | -0,5 |
| donuz | 167.5 | 199.3 | 230.1 | 230.8 | +37,8 |
| quş | 124.4 | 129.2 | 130.5 | 130.0 | +4,5 |
| Məhsul istehsalı üzrə: | | | | | |
| Süd | 42.6 | 47.4 | 47.8 | 47.6 | +11,7 |
| Yun | 414.0 | 393.0 | 386.9 | 403.2 | -2,6 |
| Yumurta (min ədədlə) | 58.6 | 66.4 | 63.4 | 62.0 | +5,8 |

Cədvəl 3-ün məlumatlarından aydın olur ki, aqrar müəssisələrdə əsas növ məhsulların bir sen-tnerinə əmək məsrəflərinin cinsi ifadəsində nəzərə çarpacaq səviyyədə artması müşahidə olunma-mışdır. 2000 və 2015-ci illərin müqayisəsi nəticəsində orta hesabla dəyər ifadəsində müəyyənləşdi-rilmiş on səkkiz dəfəlik artım əsasən əmək ödənişlərinin artırılması hesabına baş vermişdir. Qeyd etmək yerinə düşər ki, əmək məsrəfləri Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən hazır-lanmış "Məhsulların (işlərin, xidmətləri) maya dəyərinə birbaşa daxil edilən məsrəflər haqqında" Əsasnamədə (16.08.1996) beş əsas qrupdan biri kimi nəzərdə tutulmuşdur. Həmin Əsasnamədə di-gər qruplar kimi material məsrəfləri, əsas fondlara hesablanmış köhnəlmə məsrəfləri (amortizasiya) və əmək ödənişləri əsasında hesablanmış sığorta məsrəfləri və kompleks xarakterə malik sair xərc-lər nəzərdə tutlmuşdur. Ayrı-ayrı xərc maddələrinin fərdi qaydada nəzərdən keçirilməsi ilə yanaşı aqrar müəssisələrdə məhsulların istehsalına çəkilən xərclərin xüsusi çəkilərinin müəyyən edilməsi də zəruridir. Onun

əsas məqsədi yuxarıda qeyd olunan “Məhsulların (işlərin, xidmətlərin) maya də-yərinə birbaşa daxi edilən xəclər haqqında” Əsasnaməyə müvafiq olaraq tərkib elementlərin xüsusi çəkilərinə aydınlıq gətirməkdir. Statistika göstəriciləri kənd təsərrüfatı müəssisələrində məhsulların istehsalına çəkilən xərclərin tərkibində 95,7%-lik həcmin 3 xərc maddəsinin payına düşdüyünü göstərir: əmək ödənişi xərclərinin (9,9%), material xərclərinin (44,8%) və sair xərclərin (41,0%). Nəzərə alınmalıdır ki, 2000-ci illə müqayisədə 2015-ci ildə əmək ödənişlərinin artım templəri 18 dəfəlik fərqə malik olmuş və cəmi xərclər strukturunda 9,9%-ə bərabər olmuşdur. Bu, isə digər 2 xərc maddəsinin artım temprlərinin daha yüksək olduğuna dəlalət edir.

Maya dəyərinin formalaşmasında mühüm tərkib elementlərdən biri kimi material məsrəfləri çıxış edir. Aqrar sahə istehsalının kifayət qədər geniş tərkibə malik olması bizi onda istifadə olunan xammal, material və digər komponentlərin fərdi qaydada ifadə olunması faktının kifayət qədər həcmli olması ilə qarşı-qarşıya qoyur. Bu baxımdan oxşar mənşəli məsrəflərin “material məsrəfləri” adı altında birləşdirilməsi nəticəsində cədvəldə verilmiş nümunəvi təsnifat ilə qarşılaşmaq mümkün-dür. Digər tərəfdən, istehsalın, fərdi zaman kəsiklərində ayrı-ayrı qruplar üzrə formalaşmış qiymət-lər və digər şərtlər nəzərə alınmaqla məhsulların istehsalına material məsrəflərinin quruluşu haqqın-da nisbi ifadədə təsəvvür yarada bilərik. Cədvəl məlumatlarından aydın olur ki, 2015-ci ildə material məsrəflərinin tərkibində toxum və əkmə materialların (21,8%) və kənar təşkilatlar tərəfin-dən yerinə yetirilmiş xidmətlərin (57,2%) payı 79,0% təşkil edir. Bu bölgüdə ikinci komponentin xüsusi çəkisinin yüksək olması müvafiq istiqamətdə aparılacaq işlərin olmasından, onun səviyyə-sinin aşağı salınmasından xəbər verir.

Əsasnamənin növbəti maddəsi kimi əsas fondlar və onlara görə hesablanan amortizasiya məb-ləğləri təşkil edir. Maddi-əşya tərkibi etibarı ilə onlar çoxsaylı qruplardan ibarətdir. İstənilən maddi istehsal sahəsi və ya müəssisəsində olduğu kimi, aqrar müəssisələrdə də xüsusi kütlə hesabı ilə bu tərkibdə binalar, tikililər, ötürücü qurğular, maşın və avadanlıqlar mühüm yer tutur. Əyani məlu-matlardan da göründüyü kimi, 2000, 2005, 2010 və 2015-ci illərdə “binalar, tikililər və qurğular” və “maşın və avadanlıqlar” maddələri üzrə pay həcmləri müvafiq olaraq 79,5%, 91,2%, 89,6% və 91,9% təşkil etmişdir. Bu fakt aqrar istehsalın fəaliyyətində əsas fondların aktiv və passiv hissələ-rinin kifayət qədər böyük paya malik olmasını təsdiqləyir, istehsal infrastrukturunun yaxşılaşdırıl-ması və mexanikləşmə səviyyəsinin yüksəldilməsi sahəsində görülən işlərdən xəbər verir. Sair xərc-lər maddəsi kompleks xarakterə malik olmaqla özündə çoxsaylı xərc istiqamətlərini birləşdirir, bu qrupa daxil edilən xərclərdən səmərəli istifadə subyektlərdən mövcud olan əsas qənaət mənbələrin-dən hesab olunur. Aqromüəssisələrdə formalaşan, maya dəyəri kontekstində nəzərdən keçirilən gös-təricilərlə yanaşı əsas maliyyə göstəriciləri kimi aqrar məhsulların satış qiyməti və rentabellik kəmiyyətlərinin araşdırılması mühüm əhəmiyyət kəsb edir. Statistik məlumatlardan aydın olur ki, məhsulların bir sentnerinin maya dəyərində olduğu kimi, onların satış qiymətlərində də artımlar özünü biruzə verməkdədir. Düzdür, tam maya dəyəri ilə satış qiymətləri arasındakı böyük fərqin yaranması kommersiya xərclərinin səviyyəsindəki 1,1 dəfəlik əlavə artım və qeyri-mövsümlərdə yaranan saxlama xərcləri (+28,4%) də təsir göstərməkdədir. Lakin daha səmərəli, “birbaşa istehsalçı – birbaşa istehlakçı” əlaqələrinin təmini nəticəsində yaranan qiymət səviyyələri cədvəl 2.12-də verilən qiymətlərlə müqayisədə səviyyə etibarı ilə orta hesabla 15-20%-lik üstələmənin olduğuna şahidlik edir. Məsələn, bir sentnerinin maya dəyərində 85,1%-lik artım olan dənli və dənli-paxlalılar üzrə eyni həcmin satış qiymətin 2,7 dəfəlik artımlar baş vermişdir. Halbuki, kompleks xəclərin əla-və olunması bu artımın 1,8 dəfəlik artıma gətirib çıxarır. Görünür ki, burada müəssisələrin istehsala cəlbediciliyinin artırılması və bazardakı tələb-təklif tarazlığı qiymətlərin belə artımına şərait yarat-mışdır. Oxşar vəziyyət bostan məhsullarında (2,4 və 3,9 dəfə), iribuynuzlu malqaranın çəki artımın-da (82,7% və 3,4 dəfə), qoyun və keçilər çəki artımında (2,7 dəfə və 4,5 dəfə), quş ətində (12,7% və 75,5%) və digər istiqamətlə də göstərməkdədir.

Satışın qiymətinin məhsullar üzrə müəyyən edilməsi özünün maliyyə ağırlığı ilə fərqlənsə də, məsələyə sistemli yanaşma bu proseslərin həyata keçirilməsi zamanı onların nə dərəcədə rentabelli olması haqqında fikir formalaşdırmalıdır. Ümumiyyətlə, rentabellik anlayı özünə müxtəlif aspekt-lərdən yanaşmanı təmin etməlidir. Belə ki, bir tərəfdən hər bir təsərrüfatçılıq forması üzrə fəaliyyə-tin gəlirlə yekunlaşması əsas vəzifə kimi qarşıya qoyulmuşdur. Digər tərəfdən, gəlirlilik dərəcəsinin məqbul ölçülər daxilində (inhisarçılıq, haqsız rəqabət və s.) nə qədər yüksək olması da mühüm əhə-miyyət kəsb edir. Rentabellik anlayışı ümumi formada məhsul istehsalına qoyulan məcmu xərclər qarşılığında əldə olunan gəlir həcmini nisbi ifadədə xarakterizə etməklə mükəlləfdir. Onun tətbiqi maddi-istehsal sahələrində və bir sıra xidmət sahələrində həyata keçirilməkdədir. Aqrar subyekt-lərdə məhsul satışının rentabelliyi ümumi qayadalar gözlənilməklə bərabər, spesifik məqamlarla xarakterizə olunur. 2015-ci ildə rentabellik səviyyəsinin öncəki dövrə nisbətən artdığını görsək də, 2010-cu ilin nəticələrində rentabellik səviyyəsi kartof və bostan məsulları üzrə daha yüksək ren-tabellik nəticələri ilə rastlaşırıq ki, bu da nəzərdən keçirilən zaman ifadələrində müvafiq göstərici üzrə müxtəlif səbəblərdən yaranan dalğalanmaların olduğuna şahidlik edir. Eyni vəziyyət mal əti (5,9-dan 2,4-ə), yun (40,6-dan 26,7-yə) və quş əti (10,8-dən 3,0-a) üzrə də müşayət olunmaqdadır.

Təqiqatda müqayisə obyektlərindən biri kimi də fərdi sahibkarlar qrupu götürülmüşdür. Bu subyektlər vahid hesabı ilə daha zəif maliyyə imkanlarına malikdirlər. Sayı 1534 olan bu subyektlərdə 2015-ci ildə: mənfəət həcmi 7,4 mln manat təşkil etmişdir: təsərrüfat başına 4,8 min manat (bu göstərici aqrar müəssisələrdə 32,1 min manatdır, yəni 6,7 dəfə çox); istehsal olunan kənd təsərrüfatı məhsulu 25,8 mln manat təşkil etmişdir: təsərrüfat başına – 16,8 min manat; müəssisələrlə müqayisədə 13,4 dəfə az; aqrotəyinatlı əsas istehsal fondları 14,8 mln.manat olub: təsərrüfat başına – 9,6 min manat, müəssisələrlə müqayisədə - 16,9 dəfə az; bir işçiyə düşən ümumi məhsul 4,3min manat, aqrar müəssisələrlə müqayisədə 5,7dəfə az; ümumi torpaq sahəsi 33363ha, təsərrüfat başına 21,7ha, müəssisələrlə müqayisədə 6,6dəfə az; aqrar yararlı torpaq sahəsi- 32530ha, təsərrüfat başına- 21,2 ha, müəssisələrlə müqayisədə- 5,9 dəfə az; əkin yeri- 23379ha, təsərrüfat başına- 15,3ha, aqrar müəssisələrlə müqayisədə - 4,0 dəfə və s.

Aparılmış hesablamalar fərdi sahibkarlar üzrə istehsal-maliyyə imkanlarının aqrar müəssisə-lərlə müqayisədə daha aşağı olduğu haqda fikir söyləməyə imkan verir. Miqyas və imkanların zəif-liyi özünü istehsal olunmuş məhsulu bir sentnerinin maya dəyərində də ifadə etməkdədir. Belə ki, 2015-ci ildə fərdi sahibkarların məhdud imkanları nəzərə alınmaqla: kartof istehsalı – 26,5%, tərə-vəz istehsalı – 19,3%, bostan məhsulları istehsalı – 1,9%,quş əti istehsalı 35,3%, yun istehsalı – 0,2%, yumurta istehsalı – 3,2% baha başa gəlmiş, donuz əti istehsalı isə tamamilə dayandırılmışdır. Düzdür, aqrar müəssisələrində dənli və dənli-paxlalıların, meyvə və giləmeyvənin, mal ətinin, qo-yun və keçi ətinin, südün bir sentnerinə çəkilən xərclər fərdi sahibkarlarla müqayisədə daha yüksək olsa da (müvafiq olaraq 27,8%, 56,7%, 26,9%, 8,6%, 13,5%), müşahidələr bu fərqin əsasən maliyyə tutumlu yeni texniki vasitələrin və tex-nologiyaların tətbiqi və onlardan hesablanan amortizasiya ayırmaları ilə əlaqədar olduğunu göstərir. Həmçinin qeyd etmək yerinə düşər ki, sahibkarlıq sub-yektlərində demək olar ki, bütün əsas məhsulların istehsalında əmək məsrəflərinin dərəcəsi yüksək olmuşdur (2,8%-dən 14,1%-dək). Əsas müqayisə obyekti kimi çıxış edən göstəricilər sırasında hər iki təsərrüfatçılıq kateqoriyası üzrə bir sentnerin satış qiyməti və rentabellik çıxış edir. (cədvəl4)

Cədvəl məlumatlarından aydın olur ki, əksər məhsulların satış qiymətinin nisbi ifadəsinin aqrar müəssisələrdə daha yüksək artım templərinə malik olmasına baxmayaraq, onların mütləq ifa-dələrinin fərdi sahibkarlıq subyektlərində olduğu müşahidə olunmaqdadır. Məsələn, meyvə və gilə-meyvə üzrə 7,4 dəfəlik qiymət artımına aqrar müəssisələr malik olduğu halda, onun sentner hesabı ilə qiymətində fərdi sahibkarlar 72,11 manatla öncüldürlər. Eyni vəziyyət qoyun və keçi ətində, yu-murtada müşahidə olunmaqdadır. Digər məhsullar üzrə hər sentner üzrə daha başagəlmə özünü da-ha yüksək qiymətin təyinində də göstərir.

Cədvəl 4.Fərdi sahibkar təsərrüfatlarında və kənd təsərrüfatı müəssisələrində aqrar məhsulların bir sentnerinin satış qiyməti və satışın rentabelliyinin müqayisəsi

| Göstəricilər | Fərdi sahibkar təsərrüfatları | | | Kənd təsərrüfatı müəssisələri | | |
|---|---|---|---|---|---|---|
| | 2000 | 2015 | 2000-ci illə müqayisədə 2015-ci ildə artım temp-ləri, (% və ya dəfə) | 2000 | 2015 | 2000-ci illə müqayisədə 2015-ci ildə artım templəri, (% və ya dəfə) |
| I. Kənd təsərrüfatı məhsulların bir sentnerinin satış qiyməti, manat | | | | | | |
| Dənli bitkilər | 10.59 | 20.40 | +92,6% | 9.04 | 23.96 | +2,7 dəfə |
| Kartof | 15.42 | 46.24 | +3,0 dəfə | 15.91 | 29.79 | +87,2% |
| Tərəvəz (açıq torpaqda) | 5.71 | 32.17 | +5,6 dəfə | 7.06 | 25.93 | +3,7 dəfə |
| Bostan məhsulları | 5.78 | 12.94 | +2,3 dəfə | 3.67 | 14.12 | +3,9 dəfə |
| Meyvə və giləmeyvə | 10.02 | 72.11 | +7,2 dəfə | 6.41 | 47.42 | +7,4 dəfə |
| Mal-qara və quş əti, cəmi | 97.02 | 335.02 | +3,5 dəfə | 92.58 | 212.35 | +2,3 dəfə |
| O cümlədən: | | | | | | |
| iribuynuzlu mal-qara | 84.56 | 322.00 | +3,8 dəfə | 89.57 | 303.40 | +3,4 dəfə |
| qoyun və keçi | 97.13 | 352.23 | +3,6 dəfə | 77.19 | 349.98 | +4,5 dəfə |
| donuz | 104.00 | - | - | 83.53 | 157.59 | +88,7% |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| quş | 102.39 | 274.84 | +2,7 dəfə | 117.77 | 206.63 | +75,5% |
| Heyvandarlıq məhsulları: | | | | | | |
| Süd | 19.72 | 51.09 | +2,6 dəfə | 20.41 | 49.66 | +2,4 dəfə |
| Yun | 26.44 | 156.69 | +5,9 dəfə | 40.50 | 145.81 | +3,6 dəfə |
| Yumurta (min ədədlə) | 57.55 | 145.82 | +2,5 dəfə | 34.78 | 89.90 | +2,6 dəfə |
| II. Kənd təsərrüfatı məhsullarının satışının rentabelliyi ,% | | | | | | |
| Dənli bitkilər | 54.8 | 46.6 | -14,9% | 7.9 | 47.3 | +6,0 dəfə |
| Kartof | 103.8 | 61.0 | -41,2% | -31.4 | 17.6 | +17,6 |
| Tərəvəz (açıq torpaqda) | 110.0 | 109.1 | -0,8% | -9.1 | 71.4 | +71,4 |
| Bostan məhsulları | 112.3 | 56.5 | -49,7% | 14.3 | 43.1 | +3,0 dəfə |
| Meyvə və giləmeyvə | 96.5 | 108.5 | +12,4% | 4.0 | 24.8 | +6,2 dəfə |
| Bitkiçilik məhsulları üzrə | 86.6 | 39.3 | -54,6% | -7.0 | 36.0 | +36,0% |
| Mal-qara və quş əti, cəmi | 48.1 | 39.1 | -18,7% | -24.8 | 3.4 | +3,4% |
| O cümlədən: | | | | | | |
| iribuynuzlu mal-qara | 50.4 | 33.9 | -32,7% | -33.9 | 2.4 | +2,4% |
| qoyun və keçi | 44.4 | 44.0 | -0,9% | -14.0 | 37.9 | +37,9% |
| donuz | 67.0 | - | - | -64.6 | - | - |
| quş | 23.0 | 42.6 | +85,2% | -13.7 | 3.0 | +3,0% |
| Heyvandarlıq məhsulları: | | | | | | |
| Süd və süd məhsulları | 62.5 | 52.3 | -16,3% | -12.4 | 23.9 | +23,9% |
| Yun | 33.9 | 43.2 | +27,4% | -28.4 | 26.7 | +26,7% |
| Yumurta (min ədədlə) | 73.3 | 71.9 | -1,9% | -24.3 | 9.9 | +9,9% |
| Heyvandarlıq məhsulları üzrə | 54.4 | 42.4 | -22,1% | -23.2 | 7.1 | +7,1% |

Fərdi sahibkarlıq təsərrüfatları ilə aqrar müəssisələrin satış qiyməti baxımından müqayisəsi eyni zamanda bu istqamətdə rentabelliyin hansı səviyədə olması ilə bağlı vəziyyətin nə yerdə olma-sı ilə bağlı fikirlərin dəqiqləşdirilməsini zəruriləşdirir. Cədvəl məlumatlarından aydın olur ki, aqro- subyektlərdən fərqli olaraq fərdi sahibkarlıq subyektlərində meyvə və giləmeyvə (12,4%), quş əti (85,2%) və yun (27,4%) üzrə satışın rentabelliyi istisna olmaqla digər səviyyələrdə geriləmələr müşahidə olunmuşdur.

Aqrar sahə üzrə vəziyyətin xarakterizə edilməsində infrastruktur-logistika imkanlarının müəyyən edilməsi mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan yol, enerji və su sistemlərinin, anbar və lizinq təsərrüfatının, texnika və gübrələrlə təminat, konsaltinq xidmətləri, məhsuldar heyvanlarla tə-sərrüfatların təmin olunması kimi məsələlər öz aktuallığını qorumaqdadır. Bu istiqamətdə ilk növbədə qeyd olunmalıdır ki, 2000-ci illə müqayisədə 2015-ci ildə çəkilən yolların həcmində 2,8 dəfəlik, su və enerji sistemlərinin formalaşmasında dəyər ifadəsində 8,29 dəfəlik artımlar müşahidə olunmuşdur. Digər tərəfdən həmin dövrdə kənd təsərüfatı məhsullarının saxlanması məqsədilə müxtəlif ölçülü 26 anbar istismara verilmişdir. 2006-cı ildən başlayaraq 2015-ci ilədək “Aqrolizinq” MMC xətti ilə 5,7 min vahiddən çox müxtəlif texnika və texniki vasitə aqrar istifadəçilərə istismara verilmişdir. Bunların əksər hissəsi 2010-2015-ci illərdə təhvil verilmişdir: 59,2 mln. manat dəyərində 3443 texnika vahidi.

Deyilənlərlə yanaşı texniki təminat məsələsində müəyyən gerilələmələrin olması statistik məlu-matlardan aydın olur. Belə ki, məsələn əgər 2010-cu ildə hər min ha əkinə 13,4 traktor düşürdüsə, bu göstərici 2015-ci ildə 7,5 traktor səviyyəsinə enmişdir. Analoji vəziyyət taxılyığan (2,1 və 0,7 vahid), qarğıdalıyığan (0,2 və 0,1), kartofyığan (0,3 və 0,1), çuğunduryığan (1,1 və 0,9) kom-baynların sayında, həmçinin hər 100 traktor hesabı ilə qurğuların sayında: kotan (16 və 5), kul-tivator (4 və 0,4), toxumsəpən (9 və 1,2), otbiçən (4 və 0,7) sayında da müşahidə olunmaqdadır. Aqrar sahənin gübrə təminatına gəldikdə təkcə 2010-2015-ci illərdə respublikaya 634000 ton azotlu (440600 ton), fosfatlı (38900 ton), kaliumlu (22600 ton) və sair mineral tərkibli (132800 ton) gübrələr idxal olunmuşdur ki, onlardan da 184,2 min tonu aqrar əkinlərə verilmişdir. Yaranmış vəziyyət idxalın faktiki istifadəni 3,4 dəfə üstələdiyini bildirir. Bu işin daha səmərəli təşkili xarici valyuta vəsaitlərinin xərclənməsində qənaətin mümkünlüyünə dəlalət edir. Aqrar sahənin bu iki tə-sərrüfatçılıq kateqoriyası əsasında təqdim olunmuş məlumat və təhlillər bu sahə üzrə real

vəziyyəti ifadə edilməsində mühüm rol oynayır. Eyni zamanda sadalananlar ümumi yanaşmada ardıcıl inkişaf templərini qorumaqda olan ölkənin kənd təsərrüfatı sistemində ehtiyat mənbələrinin axtarılması və müvafiq idarəetmə - tənzimləyici adımların atılmasında kifayət qədər önəm daşımaqdadır.

**ƏDƏBİYYAT**


1. Abdullayev A.P. İqtisadiyyat və iqtisadi siyasət. Bakı, Asiya, 2003, 216 s.
2. Allahverdiyev H.B. İqtisadiyyatın dövlət tənzimlənməsi. Bakı, Nasir, 2002, 448s.
3. Nuriyev Ə.X. Regional idarəetmənin əsasları. Bakı, Elm, 2007, 428s.
4. Alıyev İ.H., İbadov S.A. Azərbaycan iqtisadiyyatı. Bakı, Ağrıdağ, 1998, 395 s.
5. Bağırov M.S. Kənd təsərrüfatında istehsal və satış münasibətlərinin formalaşmasının müasir vəziyyəti və xüsusiyyətləri. Naxçıvan, Qeyrət, 2014, 107s.
6. Bağırov M.S. Aqrar sahədə resurs potensialı, onun istehsal və satış sisteminin formalaş-masında rolu. Naxçıvan: Qeyrət. 2013, 130 s.
7. Rüstəmov A.A., Qasımov D.Q. Aqrar sferanın iqtisadiyyatı və idarə edilməsi. Bakı, Avrora, 2013, 406s.
8. www.stat.gov.az.



**РЕЗЮМЕ**

**Ильхам Гусейнов**

**Аграрно-производственные субъекты на современной стадии развития**

В статье обеспечен системный подход на деятельность аграрно-производственных субъектов на современной стадии развития. Являющаяся одним из передовых ьфеукшфдьно-производственных отраслей страны сельское хозяйство наряду с обеспечением населения сельскохозяйственными продуктами, играет большую роль в обеспечении перерабатыва-ющей промышленности пищевого профиля сырьем.

В статье проведено уточнение общей производственной обстановки в сельском хозяй-стве, обобщена информация о различных ее сторонах и показателях на микроуровне. Потому как, в первую очередь продемонстрирована информация об основных аграрных продуктах по различным временным периодам и на этой основе проведены необходимые рассчеты.

На основе общего производственного положения внесена ясность на уровни и динами-ку развития в себестоимости таких основных элементов затрат, как сырье, материалы, ис-пользование основных фондов, заработная плата, что в перспективном периоде обращает внимание на возможности высказывания предположений и предложений по составу и сущ-ности предпринимаемых шагов в управленческой, организационной и других сферах.

В работе также повествуется о деятельности «Агролизига» ООО, созданного при Министерстве Сельского Хозяйства Азербайджанской Республики, как одном из компонен-тов, играющем специфичную роль в развитии сельского хозяйства, играющего большую роль в его техническом обеспечении, разъясняется его деятельность в сфере использования производственными мощностями соответствующей отрасли.



**RESUME**

**Ilham Huseynov**

**The subjects of the agricultural production in the modern development stage**

The article provides a systematic approach to the development of the activity of subjects of agricultural production stage . The leading sectors of the country´s economy from the agricultural population not only meet the demand for food products, but also food plays an important role in providing raw materials processing industry designation . Total agricultural production in view of the specification of the article, which includes informations about the demonstrators and different directions in micro-level. So , the main agricultural products , primarily reflecting different on the basis of the calculations carried out and it was stated that the information .

The cost of production of the product based on tho condition of raw material , the use of funds, such as labor costs costs and levels of key cost factors in the tynamics of development over the years has brought clarity and it will be long term management,organizational and other steps opinions aand recommendations on the structure and contents draws attention to the ability to be notified.

İn the development of the agricultural sector as well, playing an important role in his technique, "Agro-Leasing" which it was established by the Ministry of Agriculture of the Azerbaijan´s Republic, also mentioned about the activities of the Limited Liability Company (MMC), it has become apparent in the organization´s activities in the sphere of utilization of production capacities.



NDU-nun Elmi Şurasının 30 mart 2017-ci il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 07).

Məqaləni çapa təqdim etdi: İqtisad üzrə elmlər doktoru, professor A.Rüstəmov

**ELNARƏ İSMAYILOVA**
*Azərbaycan Turizm və Menecment Universiteti*
*allaqiyeva@yahoo.com*

**UOT:338.48**

# GƏNCƏ-QAZAX İQTİSADİ-COĞRAFİ RAYONUNDA KƏND TURİZMİNİN İNKİŞAFININ POTENSİAL İMKANLARI

**Açar sözlər:** *kənd turizmi, kənd turizm, aqroturizm, etnoqrafik turizm, gastronomi turizmi, Gəncə-Qazax bölgəsi, ekoturizm, şərab turizmi*

**Key words:** *village tourism, rural tourism, agrotourism, etnographic tourism, gastronomy tourism, Ganja-Gazakh region, ecotourism, wine tourism*

**Ключевые слова:** *Экономического-географическое район, сельский туризм, Агро туризм, гарантия занятости, сельское хозяйство, этнографический туризм*

Kənd turizmində turistlər kənd yerlərinə müvəqqəti səfər edərək, orada müxtəlif fəaliyyətə qoşulur və istirahət seçimlərini bu istiqamətdə edirlər. Turistlər kəndlərdə və ya kəndlərə yaxın yaşayış yerlərində məskunlaşaraq yerli vətəndaşların həyat tərzi, ərazinin coğrafiyası, təbiəti, iqlimi, kənd təsərrüfatı məhsulları becərilməsi, mədəniyyəti, tarixi-memarlıq abidələri ilə tanış olurlar. Müəyyən hallarda ətraf rayonların tədqiqi üçün kənd ərazilərindən baza kimi də istifadə edilir. Hər hansı bir tədbir zamanı (idman oyunları, festivallar, karnavallar, yarmarkalar və s.) kütləvi insan axını olması ilə əlaqədar, gələnlərin bir hissəsi paytaxta yaxın kəndlərdə yerləşdirilir. Bu da yaşayış probleminin həll olunması ilə yanaşı, şəhərli turistlər üçün kənd ekzotikası, yəni əlavə yerlərin öyrənilməsi və təbiətdən zövq almaq deməkdir. Kənd turizminin inkişafına aşağıdakı meyarlar səbəb olur:

- Ekoloji cəhətdən təmiz olması;
- Şəhərətrafı hissələrə mənəvi və psixi yorğunluğun atılması üçün insanların axın etməsi;
- Maddi vəsaitin az xərclənməsi və ucuzluq;
- Yalnız təbii məhsullardan istifadə olunması;
- Kənd həyatı ilə tanışlıq.

Kənd turizmi kənd təsərrüfatı ilə məşğul olmaq, yaylaqlara qalxmaq, təbiət qoynunda tətillərin keçirilməsi, ekoturizm, alış-veriş, qayıq, velosiped və atla gəzintilərin təşkili, macəra, raftinq, idman, termal turizm, ovçuluq və balıqçılıq, sənətkarlıq, tarix və etnik istiqamətləri özündə birləşdirən başqa turizm növlərinin xarakterlərini daşıyır [4, s. 40].

Müasir dövrümüzdə kənd turizmi Avropada geniş yayılmış turizm növüdür və XX əsrin 60-cı illərindən sonra inkişaf etməyə başlamışdır. 1970-ci ildən etibarən kənd turizminin inkişafı İspaniya, Fransa və İtaliya kimi ölkələrdən başqa, Şərqi Avropa ölkələrindən Xorvatiya, Polşa, Bolqarıstan kimi ölkələri də əhatə etdi. Bu turizm növü ümumilikdə turizm sənayesindən əldə olunan gəlirin 10-20%-ni təşkil edir. Türkiyə kimi ölkədə isə 1960-cı ildən sonra kənd turizmi ilə bağlı olan layihələrdən istifadə sırf yoxsulluğun aradan qaldırılması ilə əlaqədar idi. Statistik məlumatlara əsasən Avropa Birliyi ölkələrinin şəhər əhalisinin 35%-i öz məzuniyyətlərini kənd yerlərində keçirməyə üstünlük verirlər. Hollandiyada isə bu rəqəm 49%-dir.

2006-cı ildə İtaliyanın kənd fermalarında 12 milyon nəfər, həmin il Avropada kənd evlərində və kiçik kənd otellərində 40 milyon nəfərə yaxın adam istirahət etmişdir. Avropa ölkələrində yalnız kənd turizmindən 26 mlrd. avro gəlir əldə olunmuşdur. Aparılan araşdırmalar göstərir ki, son 16 ildə Avropada kənd turizmi 25%-ə qədər artmışdır.

Azərbaycan Respublikasının dövlət orqanları tərəfindən məqsədli kiçik kreditlərin verilməsi kənd yerlərində qonaq evlərinin təşkilinin stimullaşdırılmasına və eyni zamanda kəndlərin infrastrukturunun da yaxşılaşmasına müsbət təsir göstərə bilər. Ümumiyyətlə kənd turizmi sağlam həyat tərzinin təbliğatı, təbiətlə əlaqədə yaşamaq, heyvanat aləmi və bitkilərə qarşı olan sevginin tərbiyə edilməsi ilə yanaşı, ailə dəyərlərinin və işgüzarlığın aşılanması, kəndlərin bərpa olunması, kəndlərdə adət-ənənələrin və mədəniyyətin bərpası, şəhər və kənd əhalisi arasında möhkəm əlaqələrin yaradılmasında bir körpüdür. Kənd turizminin inkişafı nəticəsində yeni gəlir mənbələrinin əldə olunması, kiçik həcmli təsərrüfat fəaliyyətinin artması, kütləvi turizmin stimullaşdırılması, kənd ərazilərində infrastrukturun yaxşılaşdırılması kimi mühüm dəyişiklikləri əldə etmək mümkündür [3, s.166].

İtaliyada kənd turizmində istifadə olunan mədəni irs ehtiyatlarından şərab istehsalını, ənənəvi üsullarla müxtəlif tikmə sənəti, ağac üzərində oyma daha qabarıq verilir ki, bu da xarici turistlərin cəlb olunmasında mühüm vasitə sayılır. Ölkə turizminin inkişafında mədəni irs nümunələrinin təbliği və kənd

turizminin inkişaf etdiyi bölgələrdə satışının təşkili daha çox gəlir gətirir. Almaniya təcrübəsi göstərir ki, yerli icmalar səviyyəsində təşkil olunan kənd turizmi strategiyası 90 təbiət parkını, 13 milli parkı, 4000 yaşayış məntəqəsini əhatə edir ki, bunlardan da istifadə edən yerli vətəndaşların sayı il ərzində 39 mln. nəfər təşkil edir [5, s. 96].

Almaniyanın "Şprevald" (Spreewald) ərazisi kənd turizminin ən yüksək səviyyədə inkişaf etdiyi mərkəzlərdən biridir. 50 000-dən artıq yerli sakinin yaşadığı kiçik qəsəbədə bütün insanlar evlərinin ilkin formasını saxlamağı bacarmış və təbiətdən maksimum səviyyədə istifadə edirlər. Evlərini kirayə verən şəxslər yerli qidaları gələn turistlərə təklif etməklə yanaşı, onlara bələdçilik də edirlər. Milli ornamentlərlə zəngin olan geyimlərini hələ də geyinən bu yerli vətəndaşlar özlərinə məxsus olan dildən istifadə edirlər. Deməli, mədəniyyətlərini göstərməyi bacaran bu xalq mədəni turizmin, geyim və dillərinin fərqliliyi ilə etnoqrafik turizmin, təbiətdən istifadə ilə kənd turizminin eyni anda inkişafına səbəb olurlar.

Gəncə-Qazax iqtisadi-coğrafi rayonunda yerləşən Gədəbəy, Göygöl, Qazax, Tovuz, Samux, Ağstafa, Daşkəsən, Goranboy kimi rayonların coğrafi mövqeyi, iqlimi, təbiəti bu turizmin növünün inkişafına tam imkan yaradır. Beynəlxalq praktikaya diqqət yetirsək istənilən ölkədə bu turizm növünün inkişafı əvvəlcə gəlmə turizmlə deyil, yalnız daxili turizmlə mümkün olmuşdur. Daxili turistlərin regionlara axınının tənzimlənməsi, şəhərətrafı hissələrdə dincəlməyə meyillilik, şəhərin səs-küyündən uzaqlaşma və bahalı otellərin yerinə ucuz şəxsi evlərin uzun müddətə kirayələnməsi insanlarda bu turizm növünün inkişafına zəmin yaratmışdır.

14 iyun 2005-ci ildə "Ailə-kəndli təsərrüfatı haqqında" Azərbaycan Respublikası Qanunu təsdiq edilmişdir. Qanunun 10-cu maddəsinə əsasən "Ailə- kəndli təsərrüfatına dövlət orqanlarının və bələdiyyələrin himayəsi" mütləqdir. Həmin maddənin daxilində kənd turizmini və yerli vətəndaşlara dövlətin qayğı göstərməsi haqqında göstərişlər aşağıdakı bəndlərdə yer almışdır:

- 10.2.3. Ailə-kəndli təsərrüfatına güzəştli kreditlərin verilməsinin və lizinq xidməti göstərilməsinin dəstəklənməsi;
- 10.2.4. Ailə-kəndli təsərrüfatında məşğulluğun artırılmasını təmin edən xalq sənətkarlığının, yaşıl turizmin, ənənəvi və qeyri-kənd təsərrüfatı fəaliyyət sahələrinin inkişaf etdirilməsinin dəstəklənməsi;
- 10.2.5. Ailə-kəndli təsərrüfatı üzvlərinə elmi və informasiya-məsləhət xidməti göstərilməsinin, onların peşə hazırlığı və yenidən hazırlığının təşkili;
- 10.2.6. Nailiyyətlərin nümayişi, öyrənilməsi və tətbiqinin genişləndirilməsi məqsədilə müsabiqələrin, sərgilərin, seminarların və təcrübə mübadiləsinin təşkil edilməsi;
- 10.2.8. Ailə-kəndli təsərrüfatının kooperasiya əlaqələrinin təşviqi;
- 10.2.9. Daxili bazarın monitorinqinin aparılması və haqsız rəqabətin qarşısının alınması və digər istiqamətlərdə [1].

Gəncə-Qazax iqtisadi-coğrafi rayonunun əlverişli təbii şəraiti, saf iqlimi, mənzərəli dağ-meşə landşaftı, ekoloji cəhətdən təmiz qida ehtiyatı ərazidə kənd turizminin inkişafına imkan yaradır. 2006-2008-ci illərdə Azərbaycanın bir sıra rayonları kimi Göygöl ərazisində də sakinlər arasında kənd turizmi ilə bağlı sorğu keçirilmiş və əldə olunan nəticələr müsbət dəyərləndirilmişdir. Sorğunun nəticəsinə əsasən yerli sakinlərin hər biri öz evlərini müəyyən ödəniş qarşılığında istər yerli, istərsə də xarici turistlərə kirayə verməyə razıdırlar. Gəncə-Qazax iqtisadi-coğrafi rayonunda kənd turizmi ilə əlaqədar bir sıra tədbirlərin və maarifləndirilmə işlərinin reallaşdırılmasına ehtiyac vardır. Bu istiqamətin seçilməsinin əsas səbəbi işsizliyin aradan qaldırılması, kənd əhalisinin ümumi rifah səviyyəsinin yaxşılaşdırılması, təhsil və dil səviyyəsinin, dünyagörüşünün artırılması, kənd sakinlərinin şəhərlərə axınının tənzimlənməsidir.

Hazırda nəinki Gəncə-Qazax iqtisadi-coğrafi rayonunda, eyni zamanda bütün Azərbaycan daxilində olan kəndlərdə bu turizm növünün inkişafı olduqca ləng gedir. Kifayət qədər potensial imkanların olmasına baxmayaraq, onların dəyərləndirilmə mexanizmi aşağı səviyyədədir. Bunun əsas səbəbləri sırasında yerli idarəetmə orqanları bu işdə maraqlı deyil, təşviqedici kampaniyalar hazırlanmır və maarifləndirilmə işləri aparılmır. Gəncə-Qazax iqtisadi-coğrafi rayonunda kənd turizminin potensial imkanları mövcuddur və bu turizm növünün inkişafı nəticəsində turistlərə aşağıdakı xidmətləri təklif etmək olar:

- şəxsi evlərdə gecələmə;
- ekoloji təmiz məhsulla qidalanma;
- piyada yürüşlərin təşkili;
- atla yürüşlərin təşkili;
- adət-ənənələrlə və bölgənin tarixi ilə tanışlıq.

Biz Almaniya, Böyük Britaniya, İtaliya, Çexiya, Macarıstan, Ukrayna kimi ölkələrin kənd turizmi ilə əlaqədar həyata keçirdiyi strategiyalara diqqət yetirsək, anlayaraq ki, turistlər yalnız yerli vətəndaşların evində qalmaqla, onların qidalandığı milli mətbəx nümunələri ilə kifayətlənmir. Bu ödənişlərin həyata

keçirilməsi ilə yanaşı, onlar da yerli sakinlərə bələdçi kimi maddi vəsaitlər ödəyərək onları gəzdirməyi xahiş edir. Həmçinin, kənd camaatının işgüzar fəaliyyətində yaxından iştirak etmək, məhsulların əkilməsi, onların yığılması prosesinə qatılmaq üçün müəyyən ödənişlər edirlər. Bu da nəticədə həm yerli vətəndaşın işinin ən azı yarısının başqa şəxslər tərəfindən görülməsi ilə kömək almış olur, hətta bunun qarşılığında onlara müəyyən ödənişlər də edilir. Bu istiqamətdə Gəncə-Qazax iqtisadi coğrafi rayonunda yerləşən meyvə və tərəvəz bağları mühüm rola malikdir. Dünya ölkələrində bu turizm növü kənd təsərrüfatı məhsulları ilə əlaqədar olduğuna görə kənd turizmindən ayrılaraq, fərdi şəkildə aqroturizm də adlanır. Qeyd etmək lazımdır ki, kənd turizmi davamlı turizm sahəsi olmasına baxmayaraq, aqroturizm mövsümülük xarakteri daşıyır.

Gəncə-Qazax iqtisadi-coğrafi rayonunu qismən əhatə edən və Azərbaycan Mədəniyyət və Turizm Nazirliyi tərəfindən hazırlanan "Şərab yolu" turizm marşrutu da əhəmiyyətlidir. Qərb regionlarından Gəncə şəhəri, Göygöl, Tovuz və Şəmkir kimi rayonları əhatə etməsinə baxmayaraq dünya ölkələri ilə müqayisəli təhlil etsək ərazilərin tanıtımı olduqca zəifdir. Adətən belə marşrutlar təşkil olunarkən yerli sakinlərlə qarşılıqlı şəraitdə plantasiyaların gəzintisi nəzərdə tutulur. Bu gələn xarici turistlərə ətrafı tədqiq etməklə yanaşı, şərabçılığın inkişafı, müəyyən şərab zavodlarına səyahət və şərabın hazırlanma prosesi ilə tanış olmaq imkanı yaradır. Buna əyani misal kimi Göygöl, Gəncə və Şəmkir ərazilərində yerləşən şərab-konyak zavodlarını göstərmək mümkündür.

Gəncə-Qazax iqtsadi-coğrafi rayonunda üzüm bağları son illərdə yenidən genişləndirililsə də, hələ də onun sahəsi digər kənd təsərrüfatı bitkiləri ilə müqayisədə az olaraq qalır. Üzüm düzən rayonlarda isti iqlim, suvarma şəraitində becərildiyi üçün Göygöl, Şəmkir, Tovuz, Qazax və Ağstafa əsas üzümçülük rayonlarıdır. İqtisadi rayonda 2007-ci ildə 5165 tondan çox üzüm yığılmışdır. Burada həm texniki, həm də süfrə üzümü becərilir. Üzüm plantasiyalarına turistlərin aparılması nəticəsində onlar yığım prosesində iştirak edib, şərabın çəlləklərə yığılaraq saxlanılmasını müşahidə edə bilərlər. Dünya ölkələrində kənd turizmində iştirak edən şəxslər hətta müəyyən ödənişlər edərək, üzüm yığımı prosesində maraqla iştirak edirlər.

Müasir zamanımızda Avropa ölkələrindən İtaliya, Fransa, Portuqaliya kimi ölkələrdə bu turizm növü turlar şəkilinə salınaraq insanlara təklif olunur. Avstraliya, Yeni Zellandiya, ABŞ-ın müxtəlif ştatları, Afrikanın cənubunda yerləşən ölkələr, hətta qonşu ölkələrdən Gürcüstan və Türkiyədə də bu istiqamətdə olan turlara rast gəlinir. Bu ölkələrdə şərabçılığın inkişafı şərab turizmi (wine tourism) yaxud enoturizm də adlanır. Əvvəlcə təyin edilmiş bələdçilərlə birlikdə üzüm bağlarına velosipedlərlə, yaxud piyada şəkildə dərketmə məqsədilə turlar hazırlanır. Müxtəlif tanıtım braşurları yaxud bukletlər də təqdim edilərək ilkin informasiya verməklə yanaşı, içkilərin hazırlanma, çəlləklərdə saxlanılma qaydaları da göstərilir. Əksər ölkələrdə belə turların iştirakçıları yaxınlıqda yerləşən kənd evlərində gecələməyə üstünlük verir və turun sonunda bu şəxslərə kiçik hədiyyəlik şərab şüşələri verilir. Enoturizmin inkişafı ilə əlaqədar əraziyə daha çox turistin cəlb olunması üçün muzeylər və müxtəlif festivallar təşkil edilir [2, s. 32].

Deməli, Gəncə-Qazax iqtisadi-coğrafi rayonunda kənd turizminin inkişafı ilə birlikdə bir sıra turizm növlərini də təşviq etmək mümkündür. Aşağıdakı təsnifat buna əyani sübutdur:

- etnoqrafik turizm (adət ənənələrlə tanışlıq);
- aqroturizm (məhsul yığımı);
- ekoturizm (ekoloji turizm);
- idman turizmi (piyada, atlı, velosiped gəzintisi);
- qastronomik turlar (milli mətbəx təamları).

Gəncə-Qazax iqtisadi-coğrafi rayonunda kənd turizminin iştirakçısına çevrilmək istəyirsinizsə bu zaman yalnız bağçılıq və bostançılıqla deyil, yerli əhalinin daimi məşğuliyyəti olan heyvandarlıq və quşçuluqla da məşğul ola bilərsiniz. Dağ kəndlərində heyvanların otarılması, yaylaqlara gəzintilərin təşkili, çobanlarla görüşlərin hazırlanması, alaçıqlarda gecələmə istənilən turistə təklif oluna bilər. Həmçinin, xalçatoxuma, yerli sənətkarlar tərəfindən zinət əşyalarının hazırlanması, dulusçuluq nümunələri və daş üzərində yonma sənəti turistlər üçün cəlbedicidir. Bu da ərazinin mədəniyyətinin və yerli sənətkarlığının öyrənilməsi, onun tanıtımı ilə yanaşı, sakinlərin gəlir əldə etməsi ilə də nəticələnir. Ümumilikdə, kənd turizminin inkişafı nəticəsində Gəncə-Qazax iqtisadi-coğrafi rayonunda aşağıdakı nailiyyətlər əldə oluna bilər:

- Ərazidə iqtisadi, mədəni və sosial dirçəlişin əldə olunması;
- Əhalinin məşğulluğunun təminatı;
- Əhalinin həyat səviyyəsinin yaxşılaşması;
- Əhalinin maarifləndirilməsi nəticəsində təbiət nümunələrinə qarşı mühafizəkar davranış;
- Şəhərlərə miqrasiyanın qarşısının alınması;
- Təhsil səviyyəsi, dünyagörüşü və dil bacarıqlarının inkişafı;
- Müxtəlif ekskursiyaların təşkili nəticəsində mədəni və tarixi abidələrin tanıtımı.

## ƏDƏBİYYAT


1. "Ailə-kəndli təsərrüfatı haqqında" Azərbaycan Respublikasının Qanunu. 14 iyun 2005-ci il
2. Jack Carlsen and Stephen Charters. Global wine tourism: research, management and marketing. London 2006, CAB International, 278 p.
3. Q. Yusupov. Azərbaycanda kənd yaşıl turizminin reallığı və inkişaf yolları. Azərbaycanda Turizm və rekreasiya: problemlər və perspektivlər. Üçüncü Respublika Elmi-praktiki konfransının materialları. Bakı Mütərcim, 2010.
4. Oğuz Aydın. AB'de Kırsal Turizmde İlk 5 Ülke ve Türkiye'de Kırsal Turizm. KMÜ Sosyal ve Ekonomik Araştırmalar Dergisi 14 (23): 39-46, 2012
5. V.S. Dərgahov. Rekreasiya-turizm ehtiyatları. Bakı, MBM, 2008, 215 səh.


## ABSTRACT


**E. Ismailova**


**Potential opportunities of rural tourism in Ganja-Qazax economic and geographical district**


Rural tourism can be defined as the country experience which encompasses a wide range of attractions and activities that take place in agricultural or non-urban areas. Development of rural tourism in Ganja-Gazakh economical-geographical region does not threaten the above described natural, cultural and social resources, at the same time stimulating economical development and increasing the quality of living space of the local population. This tourism type is a part of sustainable tourism and impacts the development of the etnographic, ecotourism, gastronomy and agrotourism at the same time.


## РЕЗЮМЕ


**Е.Исмайлова**


**Потенциальные возможности сельского туризма в экономическом и географическом районе Гянджа-Казакса**


Сельский туризм сектор туристской индустрии, ориентированный на использование природных, культурно-исторических и других ресурсов сельской местности и её особенностей для создания комплексного туристского продукта. В нашей стране сельский туризм только начинает завоевывать популярность, поэтому конкуренция в этом сегменте на данный момент практически отсутствует. Большой потенциал для сельского туризма несут в себе практически все району Гянджа-Газахского экономического-географического региона. Благоприятные экологические и климатические условия, необходимая инфраструктура, уникальная этнографическая культура с традиционным гостеприимством – все это присутствует в Гянджа-Газахского экономического-географического региона и может быть использовано для сельский туризм.



NDU-nun Elmi Şurasının 30 mart 2017-cı il tarixli qərarı ilə çapa tövsiyyə olunmuşdur. (protokol № 07).

Məqaləni çapa təqdim etdi: İqtisad üzrə elmlər doktoru, professor A.Rüstəmov

# MÜNDƏRİCAT

## TARİX


1. **İsmayıl Hacıyev.** Naxçıvan Azərbaycanda dövlətin bərpası uğrunda mübarizə dövründə (1917, fevral-1918, may)........................................................................................ 3
2. **Zəhmət Şahverdiyev.** Naxçıvanda Heydər Əliyev xəttinin davam etdirilməsi......................7
3. **Şamxal Məmmədov.** Böyük pyotrun "Xəzər" yürüşündən Qraf Paskeviçin İrəvan səfərinə qədər Erməni xəyanətləri........................................................................................ 10
4. **Məmməd Əliyev.** Naxçıvan "Açıq səma altında muzeylər................................................ 16
5. **İsmayıl Zeynalov.** XXI əsrin birinci on illiyində Naxçıvanda təhsilin inkişafı....…………... 20
6. **Allahverdi Hüseynov.** Naxçıvan MSSR-də əhalinin maddi rifahıhalının yaxşılaşması (1946-1960-cı illər)…………………………................................................ 25
7. **Emin Şıxəliyev.** Rusiyanın Cənubi Qafqaz siyasətində Erməni məsələsinin yeri və Naxçıvana təsiri (XIX – XX əsrin əvvəlləri)................................................................... 28
8. **Yaşar Rəhimov.** Naxçıvanda kollektivləşmə tədbirlərinə qarşı narazılıqlar....................... 32
9. **Xəzər Hüseynov.** Naxçıvan Muxtar Respublikada kənd təsərrüfatinin vəziyyəti (1991-1995-ci illərdə)........................................................................................................ 37
10. **Zeynəb Quliyeva.**. Naxçıvan Eneolit abidələrinin öyrənilmə tarixi.............................................41
11. **Rahim Həsənov**. Ümumrusiya müsəlmanlarının Moskva qurultayında Azərbaycan siyasi xadimlərinin rolu........................................................................................................ 46
12. **Arzu Abdullayev.** Azərbaycanın Rusiya ilə İran arasında bölüşdürülməsi, xarici dövlətlərin planları və Osmanlı dövlətinin mövqeyi.......................................................................... 50
13. **Yeganə Eyvazova.** "Tarix Abidəsi" fenomeninin muzeyşünaslıq aspektləri.......................54
14. **Ələkbər Cabbarlı.** Azərbaycanın milli müstəqillik və dövlətçilik tarixində Naxçıvanın yeri və rolu (1990-1993-cü illər)............................................................................................ 60
15. **İlhami Əliyev.** XVI-XVIII əsrin əvvəllərində Təbriz şəhəri ilə Naxçıvanın mədəni-iqtisadi əlaqələri........................................................................................................ 63
16. **İbrahim Kazımbəyli**. XIX əsrin ikinci yarısı – XX əsrin əvvəllərində İrəvan bölgəsinin iqtisadi həyatı ..........................................................................................................67
17. **Toğrul Xəlilov.** Gəmiqaya Ətrafının bəzi orta əsr abidələri haqqında.............................. 75
18. **Emin Məmmədov**. Eneolit dövrünün qədim yaşayış yerləri (Şərur abidələri timsalında)................................................................................................................ 79
19. **Erdal Sezgi.** Türk dövlətləri idarəçiliyində İrəvan…………………………..………………82


## SOSİAL ELMLƏR VƏ HÜQUQ


20. **Məmməd Rzayev**. İctimai həyatın humanistləşməsi……………………………....................88
21. **Aydın Mirzəzadə.** SSRİ-nin milli siyasəti və sovet hakimiyyəti dövründə "Dağlıq Qarabağ" məsələsi........................................................................................................ 92
22. **Qərib Allahverdiyev.** Sosial zərurətin əsas ifadə formalarının məzmunu ..........................97
23. **Sevinc Abbasova.** Azərbaycan Respublikasında qadın sahibkarlığının inkişafının bəzi məsələləri........................................................................................................ 101
24. **Novruzəli Rəhimov.** Qloballaşma və bəşəriyyətin gələcəyi haqqında............................ 109
25. **İlqar Kəngərli, Abdulla Mustafayev.** Multikulturalizminin geosiyasi, tarixi-mənəvi əsasları........................................................................................................ 114
26. **Qəhrəman Behbudov.** İmadəddin Nəsimi azad insan haqqında.................................... 120
27. **Rəşadət Yaqublu.** Qloballaşmanın sosial-fəlsəfi mahiyyəti............................................ 124

28. **Abbas Əhmədov.** Dəyərlər haqqında baxışların tarixi-fəlsəfi təkamülü.......................... 128
29. **Mədinə Allahverdiyeva.** Naxçıvan MR-da sosial sferanın mövcud durumu.................. 132
30. **Sevda Axundova.** Dövlət idarəçiliyinin təşkili və əsas prinsipləri...................... .......... 135
31. **Flora Kərimova.** Vətəndaş cəmiyyətinin formalaşmasında ailələrin yeri və rolu............140
32. **Sevil Bəhrəmova.** Ulu Öndər Heydər Əliyevin İslam dünyasının birliyi uğrunda mübarizəsi....144
33. **Hafiz Hüseynov.** Qloballaşma dövründə Azərbaycanda yerli özünüidaetmə institutları........ 148
34. **Sadiq Hüseynov.** Multukulturalizm cəmiyyətdə azad insani münasibətlərin stimulu kimi.. 151
35. **Könül Salmanova, Vidadi Salmanov** Dəyərlər və dəyər oriyentasiyası dünyagörüşün mühüm tərkib hissəsidir........................................................................................ 158
36. **Bağır Babayev.** XX əsr Azərbaycan demokratik fikri elmi araşdırmalarda..................... 163
37. **Məhəmməd Əkbərov.** Qədim Yunanıstan və romada qanun yaradıcılığı....................... 171
38. **Севда Мамедова.** Перспективы обеспечения правовой защиты пациентов в Азербайджане в системе обязательного медицинского страхования......................... 178
39. **Zümrüd Məlikova.** "Böyük oyun" və Mərkəzi Asiyada geosiyasi rəqabət..................... 183
40. **Ляман Караева**. Участие Азербайджана в ООН..................................................... 188
41. **Müslüm Nəzərov, Nizami Quliyev.** Təhsil fenomeni metodoloji plüralizm müstəvisində....... 196
42. **Qədir Xəlilov.**Yerli özünüidarə sahəsində fəaliyyət göstərən beynəlxalq hüquq normaları.......................................................................................................................200
43. **Сабина Тарвердиева.** Трактовка женского вопроса в Европе и на Востоке.............203

# İQTİSADİYYAT

44. **Ağarza Rüstəmov, Bəhram Həsənov** Azərbaycanın regional inkişaf siyasəti və regional inkişafın tənzimlənməsi zəruriliyi......................................................................... 206
45. **Nazim Əhmədov.** Naxçıvan sənayesinin prioritetləri: modernləşmə, inkişaf............... 209
46. **Dilsuz Qasımov.** Torpaq deqradasiyasi iqtisadi və aqrar sahənin təxirə salınmaz problemidir.. 213
47. **Zahid Məmmədov.** Azərbaycan milli iqtisadiyyat perspektivinin əsas xüsusiyyətləri: müasir çağırışlar və institusional islahatlar.................................................................. 216
48. **Əli Həsənov, Ülviyyə İsgəndərova.** Naxçıvan MR-ın daş duz ehtiyatları və iqtisadi qiymətləndirilməsi..................................................................................................... 221
49. **Ceyhun Mahmudov.** Modern ipək yolu layihəsi və Naxçıvan.................................... 225
50. **Teymur Abbasov.** Naxçıvan MR-nın aqrar bölməsində sahibkarlıq fəaliyyətinin idarə olunması..................................................................................................................... 231
51. **Əşrəf Ələkbərov.** Sosial–iqtisadi inkişafın təmin olunmasında dövlətin vergi siyasəti və onun rolu..................................................................................................................... 236
52. **Həvva Adıgözəlova.** İnnovasiyaların müəssisələrin fəaliyyətinin təşkilində rolu............ 241
53. **Mehriban İmanova.** Sənaye müəssisələrində idarəetmə strategiyasının səmərəliliyinin qiymətləndirilməsi..................................................................................................... 244
54. **Aidə Həsənli.** Turizm iqtisadiyyatinin Naxçıvan Muxtar Respublikasında təkmilləşdirilməsi imkanları..................................................................................................................... 247
55. **Nuriyyə İbrahimova, Bəhriyyə Abbasova.** Naxçıvan Muxtar Respublikasında həyata keçirilən dövlət proqramlarının aqrar sektorun inkişafında rolu.......................................250
56. **Elvin Həsənov.** İstehsal olunan məhsulun maya dəyərinin hesablanmasında fəaliyyətə əsaslanan maya dəyəri sisteminin tətbiqi..................................................................... 255
57. **Həsən Abbasov.** Naxçıvan MR-da aqrar sektorun iqtisadi vasitələrlə tənzimlənməsinin təkmilləşdirilməsi yolları.......................................................................................... 260
58. **Araz Əsgərov.** Sənaye parkları – Naxçıvan Muxtar Respublikasının iqtisadi inkişafında yeni çağırış kimi......................................................................................................... 265
59. **Elvin Əlimərdanov.** Sahibkarlıq fəaliyyətinin Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişaf strategiyasında rolu.......................................................................... 269

60. **Zaur Əliyev.** Ödənişlərin həyata keçirilməməsi probleminin yaranmasının amillər üzrə makroiqtisadi təhlili.............................................................................................. 272
61. **Oktay Qasımlı.** Azərbaycanda innovasiya layihələrinin idarə olunmasında tətbiq olunan metodların istifadə perspektivləri...................................................................................... 276
62. **İlkin Dünyamalıyev.** Azərbaycanda beynəlxalq yarmarkaların təşkili problemləri və gələcək perspektivləri............................................................................................... 281
63. **Şahin Əliyev**. Dəmiryol nəqliyyatinin tarixi inkişaf prinsipləri...................................... 284
64. **Cavadxan Qasımov.** Yol xəritələrinin təsdiq edilməsinin mövcud iqtisadi inkişafa təsiri..... 288
65. **Coşqun Məmmədov.** Nüvə enerjisi, onun müsbət və mənfi cəhətləri............................. 293
66. **Sara Hacıyeva.** XIII-XV əsrlərdə Naxçıvanda kənd təsərrüfatı....................................... 298
67. **Севиндж Джаббарова.** Формирование регионального трудового потенциала (на примере Нахчыванской Автономной Республики)...................................................302
68. **Bulqeyis Novruzova.** Beynəlxalq hesablaşmaların əsas formalarının qısa xarakteristikası: bank köçürməsi............................................................................................................ 307
69. **Mahir Abbaszadə.** İqtisadi artımın təmin olunmasında dövlət tənzimlənməsinin yeri və rolunun dəyərləndirilməsi .......................................................................................... 312
70. **İlham Hüseynov.** Aqrar istehsal subyektləri müasir inkişaf mərhələsində....................... 317
71. **Elnarə İsmayılova.** Gəncə-Qazax iqtisadi-coğrafi rayonunda kənd turizminin inkişafının potensial imkanları............................................................................................... 324